AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

BAKI BİZNES UNİVERSİTETİ

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 95-ci İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ

"AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ VƏ MÜASİR AZƏRBAYCANIN İQTİSADİ İNKİŞAF İSTİQAMƏTLƏRİ" mövzusunda

Beynəlxalq elmi-praktiki konfransın materialları
Bakı, 3-4 may, 2018-ci il

***

İNTERNATİONAL SCİENTİFİC – PRACTİCAL CONFERENCE DEDİCATED TO THE 95th BİRTHDAY ANNİVERSARY OF NATİONWİDE LEADER HEYDAR ALİYEV

"AZERBAIJAN DEMOCRATIC REPUBLIC AND THE DIRECTIONS OF ECONOMIC DEVELOPMENT IN MODERN AZERBAIJAN"

Materials of international scientific-practical conference

Baku, May 3-4, 2018

***

НАУЧНО-ПРАКТИЧЕСКАЯ КОНФЕРЕНЦИЯ, ПОСВЯЩЕННАЯ 95-ти ЛЕТНЕМУ ЮБИЛЕЮ СО ДНЯ РОЖДЕНИЯ ОБЩЕНАЦИОНАЛЬНОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА

"АЗЕРБАЙДЖАНСКАЯ ДЕМОКРАТИЧЕСКАЯ РЕСПУБЛИКА И НАПРАВЛЕНИЯ ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ СОВРЕМЕННОГО АЗЕРБАЙДЖАНА"

Материалы международной научно-практической конференции

Баку, 3-4 мая, 2018

Redaktor: i.e.d., prof. İ.M.Abbasov

Tərtib edənlər: h.f.d., M.N.Abbasova
p.f.d., dosent S.A.Əmirxanov
t.f.d., dosent N.R.Axundova

Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş "Azərbaycan Xalq Cümhuriyyəti və müasir Azərbaycanın iqtisadi inkişaf istiqamətləri" mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları.- Bakı, 2018-ci il, 718 səh.

ISBN: 978-9952-37-131-4

©"Bakı Biznes Universiteti" nəşriyyatı, 2018

BEYNƏLXALQ ELMİ-PRAKTİKİ KONFRANSIN ELM KOMİTƏSİ

Elm komitəsinin sədri:

- **İbad Abbasov** - Bakı Biznes Universitetinin rektoru, iqtisad elmləri doktoru, professor.

Sədr müavini:

- **Akif Musayev** - Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, iqtisad elmləri doktoru, professor.

Elm komitəsinin üzvləri:

- **Ziyad Səmədzadə** - Azərbayan Respublikası Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, Azərbayan İqtisadçılar İttifaqının sədri, Beynəlxalq İqtisadçılar İttifaqının vitse-prezidenti, akademik (Azərbaycan)

- **Ə.X.Nuriyev**, iqtisad elmləri doktoru, professor, Əməkdar Elm Xadimi, AMEA-nın müxbir üzvü (Azərbaycan)

- **İ.H.İbrahimov**, iqtisad elmləri doktoru, professor, Əməkdar Kənd Təsərrüfatı işçisi, Azərbaycan Jurnalistlər Birliyinin və Azərbaycan Yazıçılar Birliyinin üzvü (Azərbaycan)

- **Mirko Kulic** - Biznes Akademiyası Universiteti, professor (Serbiya)

- **Lorenzo Venzi** - Tuşiya Universiteti, professor (İtaliya)

- **Alioana Siniciene** - Utena Tədbiqi Elmlər Universitetinin prorektoru, professor (Litva)

- **Alibekov Şahizin** - Ümumrusiya Dövlət Ədliyyə Universitetinin Şimali Qafqaz filialı, professor (Rusiya)

- **Olena Grishnova** - Taras Şevçenko adına Kiyev Milli Universiteti, iqtisad elmləri doktoru, professor (Ukrayna)

- **Larisa Korganaşvilli** - İ.Cavaxişvilli adına Tbilisi Dövlət Universiteti, iqtisad elmləri doktoru, professor (Gürcüstan)

KONFRANSDA TƏMSİL OLUNMUŞ TƏŞKİLATLAR VƏ UNİVERSİTETLƏR

Azərbaycan Respublikası
Azərbaycan Respublikası Təhsil Nazirliyi
Azərbaycan Respublikası Milli Elmlər Akademiyası
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası
Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzi
Əmək və Sosial Problemlər üzrə Elmi – Tədqiqat və Tədris Mərkəzi
Bakı Dövlət Universiteti
Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyası
Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi
Azərbaycan Dövlət Aqrar Universiteti
Azərbaycan Dövlət İqtisad Universiteti
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
Azərbaycan Texniki Universiteti
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Sumqayıt Dövlət Universiteti
Azərbaycan Universiteti
Lənkəran Dövlət Universiteti
Azərbaycan Kooperasiya Universiteti
Azərbaycan Dövlət Dillər Universiteti
Azərbaycan Turizm və Menecment Universiteti
Bakı Slavyan Universiteti
Azərbaycan Dövlət Dəniz Akademiyası
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
Gürcüstan Respublikası
Gürcüstan Texniki Universiteti
İ.Cavaxişvilli adına Tbilisi Dövlət Universiteti
Ukrayna Respublikası
Vadim Getman adına Kiyev Milli İqtisad Universiteti
Taras Şevçenko adına Kiyev Milli Universiteti
Mərkəzi Ukrayna Milli Texniki Universiteti
Litva Respublikası
Utena Tətbiqi Elmlər Universiteti
SMK Tətbiqi və Sosial Elmlər Universiteti
Rusiya Federasiyası
Ümumrusiya Dövlət Ədliyyə Universitetinin Şimali Qafqaz filialı
İtaliya Respublikası
Tuşiya Universiteti
Serbiya Respublikası
Biznes Akademiyası Universiteti

Abbasov İbad Musa oğlu,
iqtisad elmləri doktoru, professor
Bakı Biznes Universitetinin rektoru

GİRİŞ NİTQİ

Hörmətli konfrans iştirakçıları, əziz qonaqlar, xanımlar və cənablar!

İcazə verin Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş "Azərbaycan Xalq Cümhuriyyəti və müasir Azərbaycanın iqtisadi inkişaf istiqamətləri" mövzusunda beynəlxalq elmi-praktiki konfransı açıq elan edim. Konfransda Təhsil Nazirliyinin məsul işçiləri, 7 xarici ölkənin tanınmış Universitetlərinin nümayəndələri və məsul şəxsləri, alimlər və mütəxəssislər, 4 xarici dövlətin ölkəmizdə akkreditə olunmuş səfirliklərinin səlahiyyətli nümayəndələri, Azərbaycan Respublikasının millət vəkilləri, bir çox nazirliklərin nümayəndələri, kütləvi informasiya vasitələrinin işçiləri iştirak edirlər. Bakı Biznes Universitetinin professor-müəllim heyəti adından mən hamınızı salamlayıram və dəvətimizi qəbul edib belə mötəbər tədbirdə iştirak etdiyiniz üçün hamınıza öz təşəkkürümü bildirirəm.

Hörmətli konfrans iştirakçıları! İlk öncə onu qeyd etmək istəyirəm ki, bu bir xoş tarixi hadisədir ki, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi ilə Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü eyni aya – may ayına təsadüf edir. Azərbaycan Xalq Cümhuriyyətinin Şərqdə ilk demokratik dövlət olması Azərbaycanda müstəqil dövlət quruculuğu ideyasının keçən əsrin əvvəllərindən artıq əməli məzmun kəsb etməyə başlamasını təsdiq edir. Azərbaycanın siyasi xadimləri, ideoloqları və mütəfəkkirləri müsəlman Şərqində daha aktiv fəaliyyətləri ilə Demokratik Respublikanın ideya-siyasi, ideoloji modelini ərsəyə gətirdilər. Azərbaycanda qədim dövlətçilik ənənəsinin, fəlsəfi, siyasi və hüquqi konsepsiyaların mövcudluğu bu prosesdə başlıca rol oyna-mışdır. Eyni zamanda, konkret tarixi şərait də öz təsirini göstərmişdir. Bu da bir tarixi hadisədir ki, Azərbaycan bir əsrdə 2 dəfə öz dövlət müstəqilliyini bəyan etmişdir. Daha doğrusu, Azərbaycan öz dövlət müstəqilliyinə bir əsrdə 2 dəfə qovuşmuşdur – 1918 və 1991-ci illərdə. Babalarımız Azərbaycan Xalq Cümhuriyyətini 1918-ci ildə elan etsə də o, cəmi 23 ay yaşamışdır. Lakin 1991-ci ildə dövlət müstəqilliyinin bərpası Ulu Öndər Heydər Əliyevin qətiyyətli iradəsi, düşünülmüş siyasəti nəticəsində öz əbədiliyini təmin etmişdir.

Əziz dostlar, hörmətli qonaqlar! Diqqətinizi bu iki tarixi hadisənin çox vacib və maraqlı məqamlarına cəlb etmək istəyirəm. Tarixdə çox qəribə təsadüflər və oxşarlıqlar olur. Lakin, qəribəlik orasındadır ki, bu tarixi təsadüflər və

oxşarlıqlar Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsində özünü daha qabarıq büruzə verir. İndi isə bu iki dövrün müqayisəli siyasi-iqtisadi təhlilini Sizin diqqətinizə təqdim edirəm. Təsəvvür edin, biz müxtəlif dövrlərdə, müxtəlif zamanda dövlət müstəqilliyimizi bəyan etməyimizə baxmayaraq eyni hadisələrlə və bu hadisələrin bəzi oxşar və fərqli xüsusiyyətləri ilə üzləşmişik. Belə ki, ilk öncə etiraf etmək lazımdır ki, hər iki dövrdə Rus İmperiyasının dağılması Azərbaycanın öz müstəqilliyini elan etməsinə münbit şərait yaratmışdır. Biz bu münbit şəraitdən istifadə edərək 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti adı altında öz müstəqil dövlətimizi yaratmışıq və bütün cahana Şərqdə ilk demokr-atik dövlət kimi təqdim etmişik. 1991-ci ildə isə biz Rusiya İmperiyası tərəfindən 1920-ci ildə işğal olunmuş Azərbaycan dövlətinin müstəqilliyini bərpa etmişik. Lakin qəribəlik və maraqlı hal ondadır ki, bu iki dövr, bu iki tarixi hadisə eyni proseslərlə müşahidə olunmuşdur. Mən tarixçi olmasam da, hər iki dövrün oxşar xüsusiyyətlərinin siyasi şərhini verməyə çalışacağam. Belə ki, hər iki dövrdə, istər 1918-ci, istər 1991-ci ildə biz torpaqlarımızın itirilməsi təhlükəsi və işğal təcavüzü ilə qarşılaşmışıq. Hər iki dövrdə böyük sayda insan itkisi ilə üzləşmişik və qardaş-bacılarımızı itirmişik. Hər iki tarixi dövr qanlı hadisələrlə müşahidə olunmuşdur. Hər iki dövrdə, yəni istər 1918, istərsə də 1991-ci ildə Azərbaycan qonşu dövlətlərin torpaq iddiası ilə üz-üzə dayanmışdır. Hər iki dövrdə qonşularımız və böyük dövlətlər tərəfindən dövlət quruculuğuna mane olmaq üçün ciddi təxribatlar törədilmişdir. Hər iki dövrdə iqtisadi potensial dağıdılmış, iqtisadiyyat tənəzzülə uğramış və dərin iqtisadi böhran hökm sürmüşdür.

Mən istərdim diqqətinizi bir qədər də vacib məqamlara cəlb edim. Tarixi mənbələr göstərir ki, Xalq Cümhuriyyəti qurulan zaman Azərbaycan 1991-ci ildəki kimi güclü iqtisadi potensiala malik olub. Təkcə onu qeyd etmək kifayətdir ki, həmin dövrdə Azərbaycanda 93 ipək və 7 tütün fabriki, 110 mahlıc (pambıq təmizləmə), 113 müxtəlif tipli zavodlar, 21 neft zavodu, 18 boru, 9 mexaniki və çuquntökmə zavodları, 5 spirt, 4 konyak, 50 çiyid yağı emalı zavodları fəaliyyət göstərmişdir. Düzdür, bu zavod və fabriklər kiçik həcmli olsa da, böyük ixrac potensialına malik olublar. Belə ki, 1916-cı ildə yalnız konyak (brendi) istehsalı 521,5 min dekalitr olmuş və onun da 90%-ə qədəri xaricə ixraca yönəldilmişdir. Lakin bolşevik inqilabı nəticəsində bu zavodlar və fabriklər milliləşmə adı altında sahiblərindən alınmış, böyük əksəriyyəti bağlanmış, iqtisadi potensial dağıdılmış və dirçəlməkdə olan sənaye çökdürülmüşdür.

Həmçinin 1991-ci ildə müstəqilliyimizin bərpası zamanı ölkəmizdə güclü sənaye potensialına malik olsaq da, sərişdəsiz rəhbərlərin hesabına bu potensial demək olar ki, çökdürüldü. Təkcə onu qeyd etmək kifayətdir ki, ölkəmizdə 1990-cı ildə mövcud olan müxtəlif tipli 3839 sənaye müəssisələrindən 1991-ci

ildə yalnız 1811-i fəaliyyət göstərirdi. Ölkə üçün mühüm əhəmiyyət kəsb edən maşınqayırma zavodu, o vaxt üçün ittifaq əhəmiyyətli elektroterm, kondisioner, soyuducu və digər iri həcmli zavodlar öz fəaliyyətini qismən və ya tam dayandırmışlar. Ölkədə tənəzzül baş alıb gedirdi və belə şəraitdə iqtisadi böhran günbəgün dərinləşirdi. Yalnız Ulu Öndər Heydər Əliyevin 2-ci dəfə hakimiyyətə qayıdışı və onun ardıcıl, məqsədyönlü, siyasi və iqtisadi tədbirləri nəticəsində bu tənəzzülün 1994-1995-ci illərdə dayandırılmasına müvəffəq olundu.

Siyasi və iqtisadi təhlil göstərir ki, bu 2 dövrün həm də fərqli xüsusiyyətləri mövcud olmuşdur. Onlardan birini və birincisini dövlət müstəqilliyimizin bərpası dövründə biz dünyada tanınan, polad iradəli, dövlət xadiminin – Ulu Öndər Heydər Əliyevin yenidən hakimiyyətə gəlməsi ilə izah edirik. Çünki, Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanı bir dövlət kimi süqutdan, çökməkdən azad etdi, qardaş qırğınından, vətəndaş müharibəsindən qurtardı, Azərbaycanın müstəqil bir dövlət kimi formalaşmasına zəmin yaratdı.

Digər fərqli xüsusiyyət ondan ibarətdir ki, 1918-ci ildən Azərbaycan Xalq Cümhuriyyəti 23 ay ərzində baxmayaraq ki, çox işlər görmüşdür, lakin hüquqi və dünyəvi dövlət yarada bilməmişlər, hətta dövlətin ana qanunu- Konstitusiya aktı qəbul edilməmişdir.

Digər bir məsələyə də diqqət yetirmək vacibdir. Belə ki, Azərbaycan Xalq Cümhuriyyəti parlamentli respublika olmuşdur. Burada fəaliyyət göstərən müxtəlif siyasi partiyaların parlament fraksiyaları qəsdən həftələrlə parlament iclasına gəlmədiklərinə görə dövlət üçün vacib qərarların qəbul edilməsi mümkün olmamışdır. Həmin dövr üçün çevik qərarların qəbul edilməsinə zəmin yaradan prezidentli respublikanın olması vacib idi. Bu isə 1991-ci ildə baş vermişdir.

Müasir mühit eyni zamanda çağdaş Azərbaycanın ali məktəbləri ilə, yəni ziyalı ordusunun mövcudluğu ilə bağlıdır. 1918-ci ildə Xalq Cümhuriyyəti elan olunan zaman Azərbaycanda bir dənə də olsun ali məktəb fəaliyyət göstərməmişdir. Yalnız Demokratik Cümhuriyyət qurulduqdan sonra bir ali məktəb – Bakı Dövlət Universiteti yaradılmışdır. Lakin 1991-ci ildə Azərbaycan öz dövlət müstəqilliyini bərpa edən zaman onun 21 ali məktəbi, 77 orta ixtisas məktəbi və böyük ziyalı ordusu olmuşdur. Ona görə də Respublikamızda Ulu Öndərin rəhbərliyi ilə idarəetmə və maliyyə institutları qısa bir zamanda yeni iqtisadi münasibətlərə uyğun formalaşdı.

Göründüyü kimi, Azərbaycan öz dövlət müstəqilliyinin bərpasını möhkəm təməl üzərində qurmuşdur. Yəni, Ulu Öndərin dövlət quruculuğunun bütün istiqamətlərində – iqtisadiyyatda, beynəlxalq münasibətlərdə, ordu quruculuğunda, kadr siyasətində və digər sahələrdə yürütdüyü müdrik siyasətin nəticəsində Azərbaycan öz dövlət müstəqilliyinin əbədiliyini təmin etmişdir. Onun beynəl-

xalq əhəmiyyətli layihələri, xüsusilə neft strategiyası diqqəti cəlb edir. Belə ki, neft strategiyası hazırlanan zaman bir çox müxalif qüvvələr hər vasitə ilə bu planın bir xəyal olduğunu sübuta yetirməyə cəhd edirdilər. Əslində isə buna müəyyən zəmin də var idi. Çünki, cibimiz boş idi, iqtisadi böhran və müharibə şəraitində yaşayırdıq, ölkədə müharibə gedirdi və digər tərəfdən isə nüfuzlu qonşu dövlətlər bu planın baş tutmaması üçün böyük təxribatlar törədirdilər. Təbii ki, belə şəraitdə dünyanın neft maqnatları ölkəmizə sərmayə yatırmaqda tərəddüd edirdilər və sərmayə yatırmaqda ehtiyatlanırdılar.

Bu böyük bir həqiqətdir ki, yalnız Heydər Əliyev şəxsiyyəti, Heydər Əliyev siyasi iradəsi həmin maqnatları ölkəmizə sərmayə qoymağa cəlb etdi və nəticədə bu layihə baş tutdu. 1994-cü ildə "Əsrin müqaviləsi" imzalandı və 2003-cü ildə öz bəhrəsini verməyə başladı. Bakı-Tbilisi-Ceyhan Neft Boru Kəmərinin işə düşməsi xarici ölkə sərmayəçilərinin etimadını qazandı. Bundan sonra beynəlxalq aləmdə nəinki iqtisadi münasibətlərdə və eyni zamanda digər sahələrdə – siyasi, hərbi sahələrdə də etibarlı tərəfdaş kimi qəbul olunduq. Bakı-Tbilisi-Ceyhan Neft Boru Kəmərinin işə düşməsi eyni zamanda növbəti iri layihələrin – Bakı-Tbilisi-Ərzurum, Bakı-Supsa-Qərb İxrac Boru Kəməri, Bakı-Novorossiysk Neft Kəməri kimi layihələrin təməlini qoydu. Həmçinin Bakı-Tbilisi-Ceyhan Neft Boru Kəməri Cənubi Qafqazda sabitliyin təmin olunması, Azərbaycanın müstəqilliyinin əbədiləşməsinin qarantı rolunu oynadı. Qəbul etmək lazımdır ki, Azərbaycan dövlət müstəqilliyinin əbədiliyi naminə Ulu Öndərin strategiyasını olduğu kimi icra etmək üçün İlham Əliyevin hakimiyyətə gəlməsi çox vacib bir hal kimi qəbul edilməlidir. Çünki, o layihələrin incəliklərini, icra edilmə mexanizmlərini Möhtərəm Prezidentimiz İlham Əliyev bilirdi. Ona görə də bu gün Azərbaycan dövləti Yaxın Şərqdə nüfuzlu bir dövlət olmaqla regional dövlət rolunu oynayır. Yəni Rusiya, İran və Türkiyə arasında münasibətlərin tənzimlənməsi göz qabağındadır. Həmçinin Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri vasitəsilə Uzaq Şərqin yaxın və qısa vaxt ərzində Qərblə birləşdirilməsi mexanizmləri Azərbaycanın əlindədir. Məlumdur ki, Cənub Qaz Dəhlizinin icrası Azərbaycan - Avropa dövlətlərinin enerji təhlükəsizliyinin təmin edilməsində Azərbaycan dövlətinin müstəsna rolunun bariz nümunəsidir.

Mən konfransın işinə uğurlar diləyirəm və ümidvaram ki, mövzu ətrafında aktual və faydalı çıxışlar və məruzələr dinləniləcək.

Musayev A.F.,
iqtisad elmləri doktoru, professor
AMEA-nın müxbir üzvü
AMEA-nın İqtisadiyyat İnstitutu

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN İQTİSADİ PLATFORMASI

Əsrin əvvəllərində Çar Rusiyasının zəifləməsi, iqtisadi-siyasi gərginliyin artması nəticəsində imperiyanın dağılması sürətləndi və Zaqafqaziyada bir-birinin ardınca müstəqil dövlətlər yarandı.

Xalqımız çox böyük şansdan məharətlə istifadə edərək 1918-ci il may ayının 28 də Şərqdə ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətini (AXC) elan etdi. Yeni dövlətin xarici və daxili siyasətini, məqsəd və vəzifələrini əks etdirən İstiqlal Bəyannaməsini qəbul etdi. Mahiyyət etibarilə parlament dövləti olan AXC dövlətin strukturunu həyata keçirmək məqsədilə Müvəqqəti hökumət və Milli Şura yaratdı.

İlk gündən AXC–nin fəaliyyətinin üstün istiqamətlərindən birini iqtisadi siyasət təşkil etmişdir. Tarix baxımından çox az bir dövr yaşamış AXC-in fəaliyyətinin təhlili göstərir ki, tərkibində bir nəfər də peşəkar iqtisadçı olmayan, misal üçün, Əlimərdan bəy Topçubaşov –hüquqşünas, Fətəli xan Xoyski –hüquqşünas, Nəsib bəy Yusifbəyli – publisist, Həsən bəy Ağayev-jurnalist, həkim, müəllim, Məhəmməd Yusif Cəfərov-hüquqsünas, alim, Ağa Əminov - dağ-mədən mühəndisi, Əhməd Cövdət Pepinov – hüquqşünas və s. görkəmli dövlət xadimləri Müvəqqəti hökumətdə qısa müddətdə iqtisadi sahədə heyrətləndirici dərəcədə çox iş görmüşlər.

AXC-nin iqtisadi inkişafa nail olmaq üçün tutduğu strateji yolu xarakterizə edən əsas istiqamətlər aşağıdakılardır:

1. İqtisadi fəaliyyəti tənzimləyən normativ-hüquqi bazanın yaradılması.

Bu qısa müddətdə, yəni cəmisi 23 ay fəaliyyət göstərən parlament 270-dən yuxarı qanun qəbul etmişdir ki, onun da 70-i iqtisadiyyatın tənzimlənməsi ilə bağlı qanunlardır.

2. İdxal-ixrac prosesinin tənzimlənməsi.

Bu sahədə də hökumət özünün məqsədyönlülüyü və səmərəliliyi ilə fərqlənir. Xarici ticarətdə üstünlük neft və neft məhsullarına verilmiş və daxili bazarın qorunması, daxili iqtisadi aktivliyi artırmaq məqsədilə ixrac və idxal olunacaq məhsulların siyahısını təsdiq etmişdir.

3. Azərbaycanın həmin dövrdə aqrar bir ölkə və əhalinin çox hissəsinin kənd əhalisi olduğunun nəzərə alınması.

Qeyd etmək lazımdır ki, Rusiyada mövcud olan müvəqqəti hökumət Zaqafqaziya seymi yaradılması və torpaq islahatı ilə bağlı qanun qəbul etmişdir. Bu qanun o dövrdə azərbaycanlı mülkədarları ciddi narahat edirdi. Birinci addim olaraq həmin qanunun fəaliyyəti dayandırıldı. Parlamentdə Aqrar məsələlər Komissiyası yaradıldı. Əvvəlki dövrdə tutulmuş istər xüsusi mülkiyyətdə olan və istərsə də xəzinə torpaqları adlanan torpaqlar geri qaytarıldı.

Bu sahədəki fəaliyyəti tənzimləmək məqsədilə Torpaq Komitəsi yaradılmış və torpağın satinalma qiymətləri haqqında təkliflər hazırlanıb Milli Şuraya verilmişdir. Paralel olaraq parlament tərəfindən 29 maddədən ibarət qanun layihəsi hazırlanib "Azərbaycan" qəzeti vasitəsilə ümumxalq müzakirəsinə verilmişdir.

Həmin qanunda da torpağa mülkiyyət hüququ saxlanılmaqla dövlətin, torpağı pulla satın alıb torpaqsız kəndlilərə verilməsi, eləcə də kəndlilərə torpaq almaq üçün güzəştli kredit verilməsi nəzərdə tutulurdu. Bu məqsədlə Aqrar Bank və əyalətlərdə onun filialları yaradılmışdır.

Parlament tərəfindən birinci növbədə əkinçilərin və fəhlələrin vəziyyətinin lazımı qədər yüngülləşdirilməsi, xırda mülklərdə mülkiyyət hüququnun tanınması , sabiq padşaha və onun nəslinə mənsub, böyük mülkədarlara və xüsusi əmlak sahiblərinə mənsub torpaqları xəzinəyə götürüb əkinçilərə, onların ailə üzvlərinin sayına uyğun paylanması məsələlərinə baxılmışdır. Xəzinə torpaqları əvəzində onlara xəzinədən bədəl vermək məsələsi müzakirə olunması tövsiyə edilmişdir. Bu halda torpaqların sərvətdarların əlinə keçmə təhlükəsi nəzərə alınaraq əkinçilərə pay torpaqlarının satılmasının qadağan edilməsi məsələsi də gündəmə gətirilmişdir.

Eyni zamanda fəhlələr üçün 8 saatlıq iş günü, müdafiə və maarif məsələlərinin aqilanə həlli ilə bağlı qanun qəbul edilməsi, füqareyi-kasibə sinfini bir çox ödənişlərdən azad edib, onların vahid gəlir vergisi ilə əvəz edilməsi məsələsinə baxılmağın zəruri olduğu qeyd edilmişdir.

Dövlət qulluğunda çalışan rüşvətxor xain xidmətçilərinin vəzifələrindən kənar edilməsi və divanın ədalətə verilməli olduğu tələb edilmişdir. Hökumətin iqtisadi platforması mülkiyyət plüralizmini, dövlət, xüsusi, şəxsi, səhmdar və bələdiyyə mülkiyyətinin inkişafı üçün bərabər imkanlar yaradılmasını nəzərdə tuturdu. 1918- ci il oktyabrında neft sənayesi müəssisələrinin sahiblərinə qaytarılması haqqında qərar verilərək, gəmilərinin öz sahiblərinə qaytarılmağı nəzərdə tutan dekret dərc edilmişdir.

4. Bank, pul-kredit siyasəti.

Həmin dövrdə ölkədə bir çox pul vahidlərinin dövriyyədə olması bu sahədə ciddi çətinliklər yaratmışdi. Ona görə də hökumətin bu sahədəki fəaliyyəti birinci növbədə əhalinin həyat səviyyəsinin aşağı düşməsinin qarşısının alınmasına yönəldilmiş və dövriyyəyə müstəqil dövlətin pul vahidi buraxılmışdır. Beləliklə, aparılmış, tarazlaşdırılmış pul-kredit siyasəti nəticəsində Dövriyyədə olan pulun emissiyası məhdudlaşdırılmış və əhalinin müflisləşməsinin qarşısı alınmışdır. Bu dövrdə Milli Bankın yaradılması və dövriyyəyə pul vahidinin buraxılması çox əhəmiyyətli məsələ idi.

1918-ci il sentyabrın 6-da Azərbaycan, Gürcüstan və Ermənistan maliyyə-kredit əməliyyatları üçün 280 milyon rubl məbləğində Zaqafqaziya bonu buraxılması haqqında saziş imzaladılar.

1919-cu ilin sentyabrın 16-da Azərbaycan Dövlət Bankının açılması, Bank Şurası tərəfindən banklarda valyuta qəbuluna icazə verilməsi, neft sənayeçilərinə və kapital ixrac etmək istəyən sərmayəcilərə bir sıra güzəştlər edilməsi gömrük yığımlarından əldə edilən vəsaitin dövlət xəzinəsinə daxil olmasını sürətləndirdi. Həmin ilin noyabrın 15-də Azərbaycanla Gürcüstan arasında, əlavə olaraq 160 milyon rubl məbləğində Zaqafqaziya bonu bağlanması haqqında Tiflisdə müqavilə bağlandı.

Azərbaycan hökumətinin əsas vəzifələrindən biri maliyyə aparatının möhkəmləndirilməsi, xüsusilə dövlət gəlirlərinin artırılması, xərclərin mümkün qədər azaldılması və pul dövriyyəsinin tənzimlənməsi idi.

1920-ci il 1 may vəziyyətinə görə Dövlət Bankının ümumi dövriyyəsi 1 milyard 354 milyon manatı ötüb keçmişdi. Qeyd edilməlidir ki, AXC- nin bütün fəaliyyəti ərzində tədavülə 2 mlrd. 34 mlyn. manatdan (bon) çox pul buraxılmışdır.

AXC –də tədavüldə dörd valyutadan istifadə olunmuşdur:

- Çar hökuməti tərəfindən buraxılmış rubllar; bunlar "Nikolayevski" adlandırılırdı;
- Müvəqqəti hökumətin rublları; bunlara "kerenka" deyilirdi və 1917- ci ildə 20 və 40 rubl dəyərində buraxılmış rus kağız pulları idi;
- Tiflisdə buraxılmış Zaqafqaziya bonları;
- Bakıda buraxılmış Cümhuriyyət bonları; bu bonlar 1918-ci il sentyabrın 28-də buraxılmışdı və 40 manatı 1 türk lirəsinə bərabər idi; sonralar inflyasiya nəticəsində xeyli dəyərdən düşmüşdür.

5. Gömrük və vergi siyasəti.

Azərbaycan Xalq Cümhuriyyətinin müstəqil Gömrük xidmətinin yaradılmasına Azərbaycan hökumətinin 1918-ci il iyunun 22-də yəni Cümhuriyyət yarandıqdan 24 gün sonra "Poylu stansiyasında sərhəd postunun yaradılması haqqında" qərarı ilə başlanılmışdır. Az bir müddətdə idxal ixrac prosesini tənzimləmək məqsədilə gömrük sistemi yaradılmış, onun beynəlxalq normativlərə uyğunlaşdırılması həyata keçirilmiş və müvafiq gömrük rüsumlarının miqdarı və siyahısı təsdiq edilmişdir. 21 oktyabr 1918-ci ildə qüvvəyə minən "Müvəqqəti Tarif"-ə əsasən 57 ixrac mallarına gömrük rüsumu tətbiq edilmişdir. Kortəbii qaydada mövcud olan, heç bir iqtisadi əsası olmayan müxtəlif vergilər ləğv edilmiş, iqtisadi aktivliyi stimullaşdıran vergi sistemi yaradılmışdır. Burada da sosial-iqtisadi və maliyyə məsələləri ön plana çəkilmişdir. Müvəqqəti Hökumətin fəaliyyəti dövründə (aprel 1920-ci il) Bakı gömrükxanası üzrə xidmətə çıxan yoxlayıcılar, mövcud heyətin 90 nəfərdən ibarət olmasına baxmayaraq, tələb olduğundan 131 nəfərə çatırdı. 1919-cu ilin birinci yarısında AXC-nin gömrük müəssisələrindən yığılan vergi və rüsumlarla (12,8 mlyn manat) 1920 –ci ilin son aylarını nəzərdən keçirsək (96,9 mlyn manat) aparılmış məqsədyönlü siyasət nəticəsində gömrük rüsumları və vergi daxilolmalarında 6.6 dəfə artım olmuşdur.

İlk növbədə Azərbaycan Xalq Cümhuriyyətinə qədərki dövrdə olan gömrük ənənələri (təcrübəsi) təhlil edilərək mövcud infrastruktur və normativ hüquqi baza onların AXC –nin tələblərinə uyğun yenidən qurulması istiqamətləri müəyyən edilmişdir. Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, AXC hökuməti tərəfindən müstəqil xarici ticarət və gömrük siyasəti həyata keçirildi.

Maliyyə siyasətində mütərəqqi gəlir vergisinin tətbiq edilməsi əsas istiqamətlərdən birini təşkil edirdi. Vergi siyasəti həmin dövrdə dövlət büdcəsi aşağıdakı vergi növləri hesabına formalaşırdı:

- Müstəqim vergilər: torpaq vergisi, daşınmaz əmlak vergisi, dövlət gəlir vergisi, sənaye vergisi, kapital qoyuluşundan gəlir vergisi, hərbi mükəlləfiyyət vergisi, notarial vergi.
- Dolayı vergilər: tütün, papiros kağızları, şəkər, çay məhsullarından, benzin, ağ neft, sürtgü yağları və digər neft məhsullarından vergilər, gömrük rüsumları.
- Hökumət inhisarlarına aid vergilər: mədən gəliri, poçt gəliri, teleqraf gəliri, meşələrdən, balıq vətəgələrindən, pambıqçılıq təsərrüfatlarından gələn gəlirlər.
- Möhür haqqı: məhkəmə, kargüzarlıq və sənəd yazışmalarından gəlirlər.

Həmin dövrdəki ağır iqtisadi vəziyyəti Hacı Zeynalabdin Tağıyevin Nazirlər Şurasının sədri Nəsibbəy Usubbəyova 1919-cu ilin 29 iyununda yazdığı məktubdan da görmək mümkündür.

Hacı Zeynalabdin Tağıyevin məktubundan bəzi parçalar aşağıda verilmişdir:

"Zənnimcə elə bir şərait yaranib ki, bu şəraitdə mən sizin diqqətinizi hökumətin fəaliyyət mərkəzindən kənarda qalan bir sıra mühüm məsələlərə- maliyyə və iqtisadi siyasət məsələlərinə cəlb etmək istəyirəm...

Son aylar bizim pullarımızın məzənnəsi aşağı düşmüşdür. Manat Qərbi Avropa bazarında 2 qəpikdən az dəyərləndirilir; hətta dağılmış Rusiya imperiyasının və mövcud olmayan Kerenski hökumətinin pulları da Azərbaycanın paytaxtında 3,4 və 5 dəfə artiq qiymətə malikdir.

Mal ixracına qoyulmuş qadağalar milli valyutanın tamamilə qiymətdən düşməsinə gətirib çıxarmışdır. İdxal-ixrac əməliyyatları üzərində sərt nəzarət, mal mübadiləsinin məhdudlaşdırılması sərmayə sahiblərinə ciddi nəzarət gətirir".

6. Qanunsuzluğa qarşı mübarizə məsələsi.

AXC rüşvətxorluğa və xain xidmətçilərə qarşı da mübarizəyə başlamışdı.

Rüşvətxor və xain xidmətçilərin məqamlarından kənar edilməsinə və divanı ədalətə verilməsinə və ərzaq möhtəkirləri və müstəbidlərin əlindən xalqın xilas edilməsinə, taxıl, çit, ağ, qənd, çay, sabun kimi həyati məhsullarla xalqı sınağa çəkənlərə qarşı barışmaz mübarizəyə başlamışdılar.

7. Kadr hazırlığı məsələsi.

İlk gündən Milli Şurada kadr hazırlığı diqqət mərkəzində olmuşdur. Onun qərarında 100 nəfər tələbənin ölkədən xaricdə dövlət hesabına təhsil almağa göndərilməsi nəzərdə tutulurdu. Bunlardan 45 nəfəri Fransaya, 23 nəfəri İtalyaya, 10 nəfəri İngiltərəyə, 9 nəfəri Türkiyəyə, 13 nəfəri isə Rusiyaya göndərilirdi. Qeyd etmək lazımdır ki, Rusiyada təhsil alması nəzərdə tutulan 13 nəfərdən başqa qalanların hamısı həmin dövrdə göndərilmişdir. Bu isə o dövrdə Rusiyadakı ictimai-siyasi vəziyyətin mürəkkəbliyinə görə həyata keçirilməmişdir. Azərbaycanda elm və təhsilin inkişafı və milli kadr hazırlığı sahəsində aparılan məqsədyönlü ən bariz nümunəsi Bakı Dövlət Universitetinin yaradılması hesab olunmalıdır.

Nuriyev Ə. X.,
iqtisad elmləri doktoru, professor
Əməkdar Elm Xadimi
AMEA-nın müxbir üzvü

AZƏRBAYCAN REGİONLARININ İNKİŞAFINDA YENİ MƏRHƏLƏ: NAİLİYYƏTLƏR VƏ PERSPEKTİVLƏR

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra xalqımız Heydər Əliyevin və onun layiqli davamçısı prezident İlham Əliyevin siyasətini mərhələ-mərhələ həyata keçirərək öz həyatının bütün sahələrində və regionlarda inqilabi dəyişikliklərə nail olmuşdur. Müstəqillik illərində Azərbaycan iqtisadiyyatı bütövlükdə, və regionlar öz inkişafında iki böyük mərhələ keçmiş və hazırda üçüncü mərhələdədir.

Birinci mərhələ 1993-2000-ci illəri əhatə edir. Məlumdur ki, 80-cı illərin axırları və 90-cı illərin əvvəllərində Azərbaycan hərtərəfli böhrana düşmüş, Heydər Əliyevin rəhbərliyilə böyük zəhmət hesabına 70-80-cı illərdə yaradılmış iqtisadi potensial dağı-

dılmışdı. Sənaye müəssisələrinin təqribən 40%-i öz fəaliyyətini dayandırmışdı, 60 %-i istehsal gücünün 15-20%-i səviyyəsində işləyirdi. Sənaye müəssisələrinin qarşılıqlı borcları 11 mlrd dollara çatmışdı. İşsizlik, yoxsulluq kəskin surətdə artmış, siyasi sabitlik tamamilə pozulmuş, vətəndaş müharibəsi başlamış və respublikamız öz müstəqilliyini itirmək təhlükəsilə üzləşmişdi. Heydər Əliyevin çevik siyasəti sayəsində 1993-cü ildən başlayaraq görülən məqsədyönlü tədbirlər nəticəsində Azərbaycanın bütün regionlarında siyasi sabitliyə və vətəndaş həmrəyliyinə nail olundu, müstəqil dövlətçilik qorunub saxlandı və demokratik-hüquqi dövlət quruldu. Islahatlar aparmaq, dövlət mülkiyyətini, torpağı özəlləşdirmək proqramlarını reallaşdırmaq və digər tədbirlərlə bazar iqtisadiyyatına keçidin əsasları yarandı, əsrin neft müqaviləsini bağlamaq və neft strategiyasını həyata keçirmək, Beynəlxalq banklarla maliyyə-kredit müqavilələri bağlamaqla iqtisadiyyatın dünya iqtisadiyyatına inteqrasiyası təmin olundu. Bunların nəticəsində 1996/1997-ci illərdə bütün makro iqtisadiyyat sahələrində məhsul istehsalının azalmasının, işsizliyin və yoxsulluğun artmasının qarşısı alındı.

1997-2000-ci illərdə həyata keçirilən tədbirlər, proqramlar, islahatları davam etdirmək, xarici bankların kreditlərindən və neftdən daxil olan gəlirlərdən səmərəli istifadə etmək hesabına bazar iqtisadiyyatının əsasları möhkəmləndirildi.

Bakı şəhərində 1997-ci, Lənkəranda 1998-ci, Gəncədə və Şirvan şəhərlərində 1999-cu, Naxçıvan, Mingəçevir və Sumqayıt şəhərlərində 2000-ci ildə sənaye istehsal həcmi əvvəlki ilə nisbətən artdı. 1996-cı ildə Bakı- Novorossiysk Neft kəmərinin Azərbaycana aid hissəsi yenidən quruldu, 1999-cu ildə Bakı-Supsa Neft kəməri çəkildi, 1999-2000-ci illərdə Neft fondu və Sahibkarlığa Kömək Milli Fondunun yaradılması və istifadə qaydalarının müəyyənləşdirilməsi hesabına respublikanın daxili investisiya imkanları genişləndi. 2000-ci ildə iqtisadiyyatın bütün əsas sahələrində məhsul istehsalı və özəl sektorun xüsusi çəkisi surətlə artmağa başladı. Ölkədə 2000-ci ildə əvvəlki ilə nisbətən ÜDM-11%, sənaye- 6.9%, kənd təsərrüfatı -12.1% artmışdı. ÜDM-in 72%-i özəl sektorun payına düşürdü. Azərbaycan ÜDM-in, sənaye və kənd təsərrüfatı məhsulunun artım sürətinə görə MDB məkanında birinci yerə çıxdı.

Beləliklə, iqtisadiyyatın regionlarda və əsas sənaye şəhərlərində sabitləşməsi, Neft Fondu, Sahibkarlığa Kömək Milli Fondu timsalında investisiya imkanlarının xeyli genişlənməsi Regional siyasətdə və regionların inkişafında yeni mərhələnin tədricən başlanmasına əsas verirdi. 2001-2003-cü illər regionların inkişafına ümumi formada yanaşmadan hər bir regionun xüsusiyyətini nəzərə almaqla yanaşmağa keçid illəri kimi diqqəti cəlb edir. “2002-2005-ci illərdə turizmi inkişaf etdirmək və turizm ehtiyyatlarından səmərəli istifadə etmək proqramı”, 2002-2005-ci illərdə Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafı Dövlət proqram”ında, ilk dəfə olaraq regionlarda qeyri-neft sektorunun və sahibkarlığın inkişafına şərait yaratmaq və beləliklə regionları inkişaf etdirmək məsələsi ayrıca qeyd olunur. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 2003-cü ildə qəbul edilmiş “Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət proqram” ında (2003-2005-ci illər) regionlarda qeyri-neft sektorunun inkişafı məsələsi daha geniş miqyasda qoyuldu. Bu proqramın təqdimat mərasimində Heydər Əliyev Azərbaycan regionlarının inkişafında islahatlar aparılmasında yeni mərhələnin başlandığını bildirərək qeyd etdi ki, Neft Fondu bizim inkişafımızın təminatçısıdır, ancaq eyni zamanda qeyri-neft sektorunda böyük imkanlarımız var. Bu imkanlardan istifadə etməklə iqtisadiyyatın bütün sahələrini inkişaf

etdirmək, yoxsulluğu və işsizliyi azaltmaq bizim vəzifəmizdir. Lakin heç kimə güzəştə getməyən amansız ölüm Heydər Əliyevə bu vəzifələrin yerinə yetirilməsinə rəhbərlik etməyə imkan vermədi.

İlham Əliyev hakimiyyətə gələndən sonra Heydər Əliyevin regional siyasətini təkmilləşdirdi, onun reallaşmasının yeni üsul və vasitələrini müəyyən etdi. "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" fərmanında (24 noyabr 2003-cü il) ölkəmizin irəliyə doğru inkişafının uzun müddətli strategiyasını, sosial-iqtisadi inkişafın sürətləndirilməsi əsasında "Azərbaycanın hərtərəfli inkişafı, zəngin və iqtisadi cəhətdən qüdrətli dövlətə çevrilməsi" formasında müəyyənləşdirdi. Bu strateji məqsədin reallaşdırılmasında mühüm mərhələ olmaqla "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət proqramı" (2004-2008-ci illər) qəbul edildi. Proqramda müstəqillik illərində, xüsusilə də 1997-2003-cü illərdə Azərbaycan iqtisadiyyatının sürətlə inkişaf etdiyi, maliyyə imkanlarının genişləndiyi və qarşıya daha əsaslı vəzifələr qoymaq və sosial problemləri daha əzmlə həll etmək imkanlarının yarandığı qeyd olunur. Bu Proqramın əsas məqsədi əhaliyə və istehsala xidmət edən infrastruktur sahələrinin(energetika, yol çəkilişi və təmiri, su təchizat sisteminin yenidən qurulması, idman komplekslərinin, turist düşərgələrinin tikintisi, məktəb tikintisi və təmiri və i.a.) inkişaf etdirilməsi yolu ilə regionlarda işsizliyi və yoxsulluğu azaltmaq, regionların investisiya cəlb etmək qabiliyyətini artırmaqla gələcəkdə onların sürətli sosial, iqtisadi inkişafına şərait yaratmaq idi. Məlumdur ki, bu proqramın qarşıya qoyduğu vəzifələr artıqlaması ilə yerinə yetirilmişdir: ÜDM-2.6 dəfə artmış, 746.7 min iş yeri açılmış, güclü infrastruktur formalaşdırılmışdı. Bu da Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə ikinci Dövlət proqramının (2009-2013-cü illər) qəbuluna şərait yaratdı. Bu proqram birinci proqramın yerinə yetirilməsinin yaratdığı şəraitə uyğun olaraq qeyri-neft sektorunun inkişafının sürətlənməsi, davamlı sosial-iqtisadi inkişafın təmin edilməsi, tarazlı regional inkişaf və əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması vəzifələrini qarşıya qoydu. Düzgün siyasət və həyata keçirilən tədbirlərlə bu proqramın vəzifələri də müvəffəqiyyətlə icra olundu. 2013-cü ildə respublikamızda istehsal olunan ÜDM-in 58%-i qeyri-neft sektorunun payına düşürdü.

Bu proqramları yerinə yetirməklə Azərbaycan güclü infrastrukturu formalaşdırdı, işsizliyin, yoxsulluğun artmasının qarşısı alındı. Azərbaycan bütün dünyaya sübut etdi ki, o müstəqil yaşamaq və öz daxili problemlərini müstəqil və tamamilə həll etmək qabiliyyətinə malikdir. Bu proqramlarla keçid dövrü vəzifələri müvəffəqiyyətlə yerinə yetirildi və yeni dövrün vəzifələri müvəffəqiyyətlə yerinə yetirilməyə başlandı.

2014-2018-ci illəri əhatə edən regional inkişaf üzrə üçüncü Dövlət proqramı ilə Azərbaycan regionlarının inkişafında yeni mərhələ başlandı. Bu proqramın əsas məqsədi respublikamızda qeyri-neft sektorunun üstün sürətlə inkişafı əsasında iqtisadiyyatın diversifikasiyası, regionların tarazlı inkişafı, əhalinin həyat səviyyəsinin yüksəlməsi, kəndlərin inkişafı ilə bağlı güclü infrastrukturun yaradılmasıdır. Bütün çətinliklərə baxmayaraq bu proqramın vəzifələri də yerinə yetirilməkdədir. Bu proqramların icrası dövr-ündə Azərbaycanda sürətli sosial və iqtisadi inkişaf təmin olunmuşdur.

2004-2017-ci illərdə respublikamızda ÜDM 3.2 dəfə, qeyri-neft sektoru 2.8, sənaye məhsulu 2.6, kənd təsərrüfatı 1.7 dəfə artmışdır. Respublikamızın maliyyə im-

kanları genişlənir, 2004-2017-ci illərdə valyuta ehtiyatları 23 dəfə artıb. Müstəqillik illərində ölkəmizin iqtisadiyyatına qoyulan 231 mlrd dollar sərmayənin 93 %-i son 14 ilin payına düşür. Ölkəmizin həyatının digər sahələrində də yüksək nailiyyətlər qazanılmışdır.

Azərbaycan rəqabətqabiliyyətliliyinə görə dünya dövlətləri arasında 35-ci yeri , inkişaf səviyyəsinə görə inkişaf etməkdə olan ölkələr arasında 3-cü yeri tutur və tədricən dünyanın inkişaf etmiş dövlətləri sırasına daxil olmağa yaxınlaşır.

Sənayenin ərazi təşkilində yeni mütərəqqi formalar olmaqla hazırda Sumqayıt texnologiya və kimya sənaye parkı, Balaxanı texnologiya parkı müvəffəqiyyətlə fəaliyyət göstərir. Mingəçevirdə, Neftçalada, Masallıda, Hacıqabulda, Salyanda sənaye zonaları və ya məhəllələri tikilməkdədir. Gələcəkdə digər şəhər və rayonlarda da sənayenin ərazi təşkilinin belə formalarının yaradılması nəzərdə tutulur. 2016-2017-ci illərin iqtisadi nəticələri göstərir ki, respublikamızda keçmişdə inkişaf etmiş sahələri bərpa etmək, sənayenin ərazi təşkilinin yeni formalarını inkişaf etdirmək siyasəti özünün müsbət nəticələrini verir. Regionlarda qeyri-neft sənayesi və məhsul istehsalı sürətlə artır. Belə ki, 2013-cü ilə nisbətən 2016-cı ildə müqayisəli qiymətlərlə sənaye məhsulu Abşeron iqtisadi rayonunda 2.0 dəfə , Gəncə-Qazaxda 2.1 dəfə, Şəki-Zaqatalada 2.6, Lənkəranda 1.6 və Yuxarı Qarabağda 1.7 dəfə artmışdır. Digər iqtisadi rayonlarda da sənaye məhsulu əhəmiyyətli dərəcədə artmışdır. Sənaye məhsulu istehsalında Bakı şəhərinin xüsusi çəkisi 2013-cü ildəki 90.1%-dən 2016-cı ildə 84.9%-ə düşmüşdür, 2016-cı ildə ÜDM istehsalında regionların xüsusi çəkisi 31.2% olmuşdur. Əgər ərazimizin 20%-i işğal olunmasaydı bu xüsusi çəki təqribən 37-38% olardı.

Bütün nailiyyətləri layiqincə qiymətləndirilməklə yanaşı qeyd etmək lazımdır ki, Azərbaycanın hazırda istifadə edilən istehsal potensialı onun imkanlarına və inkişaf səviyyəsini əks etdirən başqa çoxsaylı göstəricilərə nisbətən aşağıdır. Heç də təsadüfi deyil ki, respublikamız ümumi inkişaf səviyyəsinə görə dünyanın inkişaf etməkdə olan ölkələri arasında 3-cü yeri tutduğu halda, istifadə edilən iqtisadi potensialına görə yalnız 26-cı yeri tutur. Beləliklə, Azərbaycanı hərtərəfli inkişaf etdirmək və iqtisadi cəhətdən qüdrətli dövlətə çevirmək üçün onun istifadə olunan iqtisadi potensialının: istehsal güclərinin, istehsal edilən rəqabətqabiliyyətli daxili ümumi məhsulun, dövlət büdcəsinin gəlir və xərclərinin hazırda olduğuna nisbətən daha sürətlə artımına ehtiyac yaranmışdır. Yeni inkişaf mərhələsində İqtisadi potensialı gücləndirmək və ixrac yönümlü məhsul istehsalını artırmaq üçün əsas vəzifə respublikanın istifadəsi mümkün olan bütün potensialını istifadə etməklə qeyri-neft sektorunu hərtərəfli, innovasiya yönümlü və yüksək səviyyədə inkişaf etdirmək, onun ixrac yönümlü məhsul istehsalını sürətlə artırmaq, neft sektorundan asılılığını aradan qaldırmaq və tamamilə özünümaliyyələşdirmə sisteminə keçməsini təmin etməkdir.

Yeni mərhələdə regionların iqtisadi inkişafında əsas vəzifə hər bir regionun özünəməxsus fərdi təbii-iqtisadi imkanlarından, əhalinin tarixən yaranıb inkişaf etmiş mütərəqqi əmək vərdişlərindən, istehsal təcrübəsindən yeni dövrün tələblərinə uyğun istifadə etməklə istehsalın yüksək səviyyədə inkişafına və səmərəli ərazi təmərküzləşməsinə nail olmaqdır.

Yaxın 10-12 ildə bu əsas vəzifələrin yerinə yetirilməsi istiqamətlərini özündə əks etdirən proqram xarakterli dövlət sənədləri də qəbul edilmişdir. Bunlar 2014-2023-cü illərdə Azərbaycanın sosial –iqtisadi inkişaf konsepsiyası, bu il icrası başa çatan 2014-2018-ci illərdə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı, Azərbaycanın milli iqtisadiyyatının və onun ayrı-ayrı əsas sahələrinin inkişafının yol xəritəsidir. Əsas vəzifə infrastruktur sahələrinin inkişafını davam etdirməklə yanaşı sənayenin və kənd təsərrüfatının güclü və rəqabət qabiliyyətli inkişafına nail olmaqdır. Kənd təsərrüfatının və sənayenin inkişafı qarşısına qoyulan tələblər fərqlənir. Aqrar sahədə inkişafına üstünlük verilən sahələr əvvəla, iqtisadi baxımdan səmərəli, rəqabətqabiliyyətli olmalı və regionun bütün potensialından istifadəyə şərait yaradılmasında mühüm rol oynamalıdır.

İkincisi, xalqımızın tarixən kənd təsərrüfatının inkişafı sahəsində toplanmış əmək, istehsal təcrübəsinin davam etdirilməsi kimi inkişaf etməli, xarici bazarlara çıxış imkanı nisbətən geniş olmalıdır.

Bu baxımdan aqrar sahədə regionlarda güclü istehsal potensialı yaratmaq üçün birinci növbədə xalqımızın tarixən inkişaf etdirdiyi, 70-80-ci illərdə ən yüksək inkişaf səviyyəsinə çatmış istehsal sahələrinin yeni dövrün tələblərinə uyğun bərpasına və inkişafına nail olmalıqdır. 2016-cı ildə prezident İlham Əliyev respublikamızda aparılan aqrar islahatların mahiyyətindən danışarkən demişdir ki, aqrar islahatlarda bizim əsas məqsədimiz baramaçılığın, çayçılığın, üzümçülüyün, tütünçülüyün, pambıqçılığın, zeytun, fındıq, meyvə-tərəvəz və digər 70-80-ci illərdə inkişaf etmiş kənd təsərrüfatı sahələrinin keçmiş şöhrətini özünə qaytarmaqdır. Məlumdur ki, 2016-2017- ci illərdə bu istiqamətdə çoxsaylı tədbirlər həyata keçirilmişdir. Bu sahələr həm səmərəli, rəqabətqabiliyyətlidirlər, həm də bu sahələrdə Azərbaycan xalqının zəngin tarixi təcrübəsi var, əlverişli bazarlar əldə etmək imkanı genişdir.

Respublikamızın xaricdən ərzaq asılılığını minimum səviyyəyədək azaltmaq üçün də regionlarda əsaslı tədbirlər həyata keçirilir.

Regionların sənaye potensialını artırmaq üçün seçilmiş başlıca istiqamət texnoparklar, sənaye parkları, sənaye zonaları və sənaye məhəllələrinin yaradılmasının davam etdirilməsidir.

Bunun üçün əvvəla, sənayenin ərazi təşkilinin müasir formalarının yaranması və inkişafı həmişə diqqət mərkəzində olmalıdır. Bununla yanaşı hələlik bu formalar olmayan rayon və şəhərlərdə müəssisələr tikintisinə də diqqəti artırmaq lazımdır. Elə rayon və şəhərlər var ki, son dörd ildə onlarda sənaye müəssisələrinin sayı bir vahid belə artmamışdır. Belə şəhər və rayonlara misal olaraq Şirvan, Naftalan şəhərlərini, Astara, Oğuz, Qobustan, Qazax, Tovuz rayonlarını göstərmək olar. Rayon və şəhərlərdə ayri-ayri müəssisələrin tikilməsi məlum əhəmiyyətlə yanaşı, burada gələcəkdə sənaye zonalarının yaradılmasını asanlaşdırır.

İkincisi, şübhəsiz ki, sənayenin ərazi təşkilinin bu mütərəqqi formalarının inkişafı hələ uzun müddət sənayenin ərazi təşkilinin başlıca istiqamətini təşkil edəcək . Eyni zamanda son illər rayon və şəhərlərdə nəqliyyatın və digər infrastruktur sahələrinin güclü inkişafı nəticəsində, demək olar ki, bütün rayon mərkəzləri və şəhərlərdə sənayenin bu mütərəqqi formalarının təşkili üçün imkan yaradılmışdır. Lakin bütün şəhər-

lərdə, rayon mərkəzlərində sənaye zonaları , sənaye parkları , sənaye məhəllələri yaratmaq çətindir. Bunların birinci növbədə, hansı rayon və şəhərlərdə yaradılması imkanı olması elmi cəhətdən əsaslandırılmalı və regional mədəni-iqtisadi mərkəz rolu oynayan şəhərlərin düzgün müəyyən edilməsilə əlaqələndirilməlidir.

Üçüncüsü, sənayenin ərazi təşkilinin yeni formalarının inkişafı bu prosesdə dövlətlə sahibkarların əməkdaşlığının gücləndirilməsini bir vəzifə kimi qarşıya qoyur. Azərbaycan Respublikasının prezidenti İlham Əliyev hakimiyyətə gəldiyi ilk vaxtdan bu məsələyə böyük diqqət yetirir. Məlumdur ki, bu formaların iqtisadi baxımdan səmərəli olmasının əsas səbəbi müəssisələrin əksəriyyəti və ya hamısı üçün vahid infrastruktur sahələrinin (energetika, nəqliyyat, anbar və alət təsərrüfatı, təmir təsərrüfatı və s.) yaradılmasıdır. Sovet dövründə bunların hamısı vahid dövlət mülkiyyətində olduğuna görə onların vahid mərkəzdən idarə olunması asan idi. Hazırda isə müxtəlif mülkiyyət formaları, müxtəlif mənafelər vardır. Ona görə də burada sahibkar-dövlət əməkdaşlığının, dövlətin təşkiledici və tənzimləyici rolunun güclənməsinə ehtiyac vardır.

Dördüncü, sənayenin ərazi təşkilinin yeni formaları inkişaf etdiyi şəraitdə şəhər və kənd əhalisinin məskunlaşmasının qarşılıqlı əlaqədə təkmilləşdirilməsi vacib məsələ kimi qarşıya çıxır. Şübhəsiz ki, kənddən şəhərə əhali axıcılığını azaltmaq üçün bütün kəndlər inkişaf etməlidir. Lakin bir yol üzərində yerləşən kəndlərdən əlverişli mövqedə olanı kəndlərarası mərkəz kimi daha sürətlə inkişaf etdirmək və burada həmin kəndlərin əhalisinə də xidmət edən istehsal və xidmət müəssisələrini yerləşdirmək olar.

Beşinci, respublikamızda aqrar sahə ilə yanaşı, onun xammalını ilkin emal edən sahələrin və xidmət sahələrinin bir rəhbərlikdə birləşdirilməsi də hər iki sahənin sıx əlaqədə inkişafına əlverişli şərait yaradar, vaxt və xammal itkisini azaldar. Təkcə kartof, tərəvəz, meyvə və giləmeyvə itkisi 2013-cü ildə 162, 2014–cü ildə 152 min ton olmuşdur. Bəlkə də Kənd Təsərrüfatı Nazırliyinin əvəzinə Aqrar Sənaye Nazirliyinin yaranması məqsədyönlü olardı.

Lorenzo V., professor
Aleksizde M., student
Viterbo, Italy

THE EU REFORM ON THE WINE INDUSTRY AND ITS SUSTAINABLE RESULTS IN ITALY

In the 60 years of age of the European Union (EU), through its articulated history and continuous efforts to improve its Common Agricultural Policy (CAP), learning by doing, subject to close scrutiny both, internally by its European Court of Accounts (ECA) and its Parliament, externally by National Governments and Parliaments, academia, stakeholders and the press, there always has been a strong urge to improve, make more effective, efficient and less costly all programs aiming at the fulfillment of basic societal goals relative to people living in the country-side, originally mainly farmers and later on all rural residents, at large.

It was, obviously, not an easy task at the very beginning to harmonize so many different approaches to agriculture, conflicting post-war food policies, consumers' traditions, trade arrangements, farming structures, agro-food processing industries,

national/regional bureaucracies, statistical backgrounds, and so forth, just to name only a few of the many features to be considered in this effort.

Of course, within agriculture there were, at different degrees, commodities more or less resilient to be "harmonized", or to be organized, at least at a basic common ground-level, due mostly to geographical differences, such as latitude / altitude, or social structures as land tenure, relevance of agriculture to GDP, traditional / professional expertise, openness to technology and innovation.

Over these 60 years, therefore, all commodities were increasingly under policy planning and control, at the beginning in a soft way, mostly aiming at easing the free exchange of goods within a Custom Union, to the full mobility also of inputs within a Common Market and eventually reaching the establishment of an Economic Community, further unified by common rules and possibly policies. This " full community building process" is still in progress in many, other than agriculture and fishery, domains aiming at determining a deeply comprehensive Statehood, (including foreign relations, military, fiscal, monetary, judicial, energy, cultural.

In agriculture and food trading, fruit and vegetables were a real problem to deal with, because of risky supply forecasts, perishable nature of products, difficulty in planning their processing, long transfer movements, inadequate storing facilities, and so on. The wine industry, at least, had one constrained feature in the stationary dimension of its vineyards, at least not changeable in the short run, although grapes production is always dependent on meteo vagaries and most of all the quality of consequent wine is even more dependent on them.

In order to harmonize the wine industry the first efforts were aimed at providing wine standards and safety rules which could allow full exchange between countries and, most of all, stabilize farmers' incomes. A set of rules was designed and slowly implemented by issuing Regulations named "Common Market Organization" (CMO), for wine, as well as for other commodities, which were renewed several times along the CAP development.

At the beginning, the main socio-economic goal of CAP, also for wine, was to ensure farmers' income support by a fast implementation track, that is price reward and stability. This policy approach led wine supply to be pushed to a gigantic unsold over-supply ("*the wine lake", average in 2000's it was 5.5 Mil. Hl and 65 Mil. €*) which had to be withdrawn from markets and stored, then later on distilled into alcohol, cheaply sold to manufacturing industries. All that determined an ever growing expenditure for the EU Commission to foot this bill, a task no longer affordable, considering many other commodities were in the same disarray. A change in policy was, therefore, badly needed.

Table 1.

Vineyard surface in top producing EU countries (k/ha)

Years / Countries	1969[1]	1979[1]	1989[1]	1999[1]	2009[1]	2010[2]	2013[2]	2016[2]
Italy	1615	1394	1084	885	817	486	705	690
France	1370	1255	1020	877	791	453	793	785
Spain	1646	1725	1520	1129	1113	361	973	975

Source: [1] Global wine markets, 1961 to 2009: a statistical compendium; [2] OIV, October 2017

Basically wine production in Europe was, and still is, a MediterraneanPortugal, Spain Italy and Greece) produce (Tab. 1), plus northern continental countries (France and Germany). Nowadays, there is a large interest in wine producing since also the United Kingdom is enlarging its small national vineyard and even in Norway some daring attempts to cultivate vines are reported as successful. The wine industry of the EU represents 10 % of the total value of agricultural production, has full primacy worldwide (60%) producing, as an average of recent years, almost (+20% / -20%) 18 Bil liters, exporting 2 Bil liters (worth 6 Bil €) and importing 1,5 Bil.

Italy is the second largest producer of European wine, recently alternating with France for primacy in quantity of grapes, but still lagging behind it in terms of value of production and exports of high quality wines. 60 years ago, Italian wines had little reputation and were considered, at the best, as table – ordinary wines, or just suitable for increasing sugar and "body" to weak northern wines. Of course, there was also full, longstanding appreciation for Piedmontese *Barolo*, or Tuscan *Chianti*, or Venetian *Valpollicella and Prosecco*, but recent implementations of policy rules to the wine industry have allowed the coming out of many other wines in southern regions, where they were well known, but not yet suitable for a full national appreciation and exporting.

Figure 1.

The European main wine-producing countries (Mil / l)



Source: FAO, FAS Europe Offices

Adət-ənənələr digər cəmiyyət qanunları ilə birlikdə sosial-mədəni quruluşu yaradırlar. Bu səbəbdən də adət-ənənələrin dəyişikliyə məruz qalması və ya ortadan qalxması nəticəsində cəmiyyətdə harmoniyanın pozulması özünü büruzə verir. Müəyyən bir zaman ərzində bu harmoniyanın yenidən tənzimlənməsi prosesi baş verir. Bəzi hallarda cəmiyyətdə həmin toplumun adət-ənənəsinə xarakterik olmayan xüsusiyyətlər geniş yayılsa da bu xüsusiyyətləri heç də həmin toplumun adət-ənənələri sırasına aid etmək düzgün deyil. Məsələn, hər hansısa bir toplumda içki içmək, zina və oğurluq etmək kimi mənfi hallar geniş bir şəkildə özünü büruzə verə bilər, lakin bu xüsusiyyətləri heç də həmin toplumun adət-ənənəsi kimi qeyd etmək düzgün deyil. Əsasən Şərq cəmiyyətlərində bu kimi mənfi xüsusiyyətlər heç də yaxşı qarşılanmır. Elə bu nöqteyi-nəzərdən də cəmiyyətin sosial-mədəni sistemini tənzimləmək məqsədilə adət-ənənələrə önəm verən şəxslər bu cür davranışlara qarşı mübarizə aparır.

Sivilzasiyalardan uzaq düşmüş bir çox toplumlarda köhnəlmiş və müasir dövrün tələbləri ilə ayaqlaşmayan adət-ənənələr də mövcuddur. İctimai dəyişmə prosesində adət və ənənələr dəyişməyə məruz qalırlar. Bu qəbildən olan adət-ənənələrin ortadan qalxması daha məsləhətli olardı. Sivilzasiyaların qovşağında yerləşən ölkəmizdə yaşayan xalqların adət-ənənələri humanizimliyi, tolerantlığı, multikultural dəyərlərə önəm verməsilə seçilir. "Azərbaycan tarixən müxtəlif xalqların yüz illər boyu qardaşlıq şəraitində yaşadığı multikultural mədəniyyətin mövcud olduğu nadir regionlardandır. Burada Qafqaz, türk, İran mənşəli xalqlar mehriban qonşuluq şəraitində yaşamaqdan əlavə, qaynayıb-qarışmış, zaman keçdikcə bütöv bir toplumu formalaşdırmışlar. Lakin öz tarixi inanc sistemlərini, toponimlərini, antroponimlərini, milli adət-ənənələrini də unutmamış, qorumuş, xeyri-şəri bir-biri ilə bölüşməklə hətta adət-ənənələrini qonşu

xalqlara da ötürmüşlər. Məhz bu tolerant mühitin nəticəsidir ki, XIX əsrdə Avropadan yəhudilər (aşkenazilər), Rusiyadan malakanlar, İran və Türkiyənin ərazisindən nankor ermənilər Azərbaycana pənah gətirmiş, burada yerli əhali ilə bərabər hüquqda məskən salıb, öz peşələri ilə məşğul olmuş, din, adət-ənənələrini qorumuş, kilsələr, sinaqoqlar inşa etmişlər."

Xalqımızın adət-ənənələrində özünü büruzə verən yüksək və ali ideyalarla yüklənmiş mənəvi sərvətlər milli-mənəvi dəyərlərimizdə də özünü açıq bir şəkildə təzahür etdirir. Xalqımıza məxsus olan adət-ənənələr cəmiyyətin nail olmaq istədiyi yüksək ideyaları təmsil edir. Bu ali və yüksək ideyalar içərisində vətən sevgisi, humanizm, bayraq sevgisi, millət sevgisi, azadlıq, bərabərlik, tolerantlıq, qardaşlıq, vəzifə məsuliyyəti, ailəyə bağlılıq, dosta sədaqət, kiçiklərə və böyüklərə hörmət cəmiyyətin milli şüurunu formalaşdırır.

Xalqımızın milli-mənəvi dəyərləri folklor yaradıcılığında geniş təfərrüatı ilə əks olunmuşdur. Şifahi xalq ədəbiyyatımızda mütəmadi olaraq təbliğ olunan dürüstlük, mərdlik, çalışqanlıq, başqasını düşünmə, qəhrəmanlıq, namus, əxlaq, igidlik, fədakarlıq, xeyirxahlıq, xoşgörüş, sevgi, qonaqpərvərlik, digər insanlara hörmət etmək, təvazökarlıq, insanpərvərlik kimi mühüm əxlaqi dəyərlər bizim mənəvi sərvətlərimizdir. Bu sərvətlər tarix boyu adət-ənənələrimizin aparıcı meyarına çevrilmişdir. Milli şüurumuzun tarixi inkişafı nəticəsində əldə edilən bu üstün dəyərlərin gündəlik həyatda yer tapması sevindirici haldır.

Cəmiyyətin uzunmüddətli təşəkkülü, tarixi inkişafı nəticəsində adət-ənənələrin yerini yazılı qanunlar almışdır və insanlar yazılı olmayan qaydalardan, yəni adət-ənənələrdən yazılı (formal) hüquq qaydalarına keçmişdir. Müasir dövrdə

adət-ənənə normaları ilə cəmiyyəti idarə etmək mümkün deyil, çünki bir sıra köhnəlmiş və çağdaş dövrün tələblərinə cavab verməyən adət-ənənələr də vardır. Buna baxmayaraq adət-ənənələrin mənəvi mədəniyyət nümunəsi kimi öz varlığını davam etdirməsi zəruridir. "Milli dəyərlərin, milli adət-ənənələrin zəruriliyi mərhum Heydər Əliyevin məruzə və çıxışlarında həmişə qürurla söylənilirdi. Heydər Əliyev göstərirdi ki, milli mənəvi dəyərlər xalqın mənəvi sərvəti, mənəvi xəzinəsidir, bu sərvətə, xəzinəyə biganə olmaq cinayətdir. Son illərdə xalqımızın milli adət-ənənələrinə biganəlik halları haqlı olaraq xalqın, xüsusilə ziyalıların etirazına səbəb olmuşdur. Bu etiraz və narazılıqlar haqqında mətbuatda çıxışlar milli-mənəvi dəyərləri qorumaq çağırışına çevrildiyi bir vaxtda mərhum prezident, ümummilli liderimiz Heydər Əliyev bir sıra məqamlara aydınlıq gətirmiş, görüləcək işlərin perspektivini müəyyənləşdirmişdi.

Adət-ənənələr coğrafi mövqe etibarilə bir etnosun yaşadığı bütün bölgələrdə və ya müəyyən bir sosial qrupa aid edilə bilər. Adət-ənənələrin rəsmi hüquq səviyyəsinə gələ bilməsi üçün üç şərtin reallaşması lazımdır. Bu şərtlər aşağıdakılardır:

1. Maddi faktor. Hər hansısa bir adət-ənənənin hüquqi cəhətdən nizamlanlaması üçün həmin adət-ənənənin uzun müddət cəmiyyətdə tətbiq etmiş olunması vacibdir.

2. Mənəvi və ruhi amil. Bu amil əsasən onunla xarakterizə olunur ki, müəyyən bir adət-ənənənin hüquqi müstəvidə fəaliyyət göstərməsi üçün bu adət-ənənənin toplumda tətbiq edilməsinin məcburi olduğuna həmin cəmiyyətin ayrı-ayrı fərdlərinin inanması lazımdır.

3. Hüquqi ünsür. Bu adət-ənənə hüquqi nöqteyi-nəzərdən tətbiq olunması üçün dövlətin sanksiya ilə dəstəkləməsi lazımdır.

Milli-mənəvi dəyərlərimizə sahib çıxmağımız nəticəsində milli birlik təşəkkül edir və milli birliyimizin bərqərar olması isə müasir ziddiyyətli və keşməkeşli bir dövrdə böyük əhəmiyyət kəsb edir. Ümumiyyətlə, bir mədəniyyətin strukturunda maddi faktorlar qədər milli-mənəvi dəyərlərin də yer alması olduqca vacibdir. Unutmayaq ki, mədəniyyətlərin yaradıcısı qismində çıxış edən insan isə həm maddi, həm mənəvi keyfiyyətləri olan bir varlıqdır. Nə maddi xüsusiyyətlərə önəm verib mənəviyyatı unutmaq, nə də ki, mənəvi dəyərlərə önəm verib maddiyatı unutmaq düzgün deyil. Mədəniyyətin uzun müddət yaşaması üçün hər iki faktor mühüm əhəmiyyət kəsb edir. Həm maddi mədəniyyətə, həm də mənəvi mədəniyyətə böyük önəm verən xalqımızın universal və bəşəri dəyərlərlə yüklənmiş adət-ənənləri bu gün də öz aktuallığını itirməmişdir. "Azərbaycan xalqı qədim xalqdır. Xalqın yaratdığı maddi-mənəvi irsi bu dərin köklərdən başlayır. Xalqımız bu qaranlıq, daşlı-kəsəkli yolların sınağından gücü, qüvvəti, müdrikliyi, ən əsası isə ağıl məşəli olan mədəniyyəti ilə çıxmışdır. Hər dövründə, əsrində xüsusi əsrarəngiz mədəni irs qoyub gedən xalqımızın başı bəlasız ötüşməyib. Milli adət-ənənələrə sadiq xalq maddi-mənəvi mədəniyyət yolunda öz cığırını, öz səmtini azmayıb."

Milli mənəvi dəyərlər öz növbəsində milli mədəniyyətdə ehtiva olunur. Milli məzmunlu mədəniyyətin meydana gəlməsində əvvəlki nəsillərin böyük rol oynaması faktı aşkardır, lakin bununla yanaşı indiki nəsillər də milli mədəniyyətə önəm verməlidirlər. Yalnız müsbət insani keyfiyyətlərin cəmləndiyi milli mədəniyyət nümunələri beynəlmiləl bir mahiyyət kəsb edə bilər. "Humanizm, xeyirxahlıq, xalqlar dostluğu, böyüklərə, qadınlara, uşaqlara hörmət və qayğı göstərmək, vətəni sevmək, ədalətlilik, sülhsevərlilik, əməkdaşlıq, qarşılıqlı yardım və s. kimi bəşəri mənəvi dəyərlərə söykənməklə həqiqi sivilzasiyalı milli mədəniyyət formalaşdırmaq olar. Belə bəşəri-mənəvi dəyərlərdən kənarda heç bir milli mədəniyyət nümunəsi ola və yaşaya bilməz. O milli mədəniyyət nümunələri beynəmiləlləşir, bütün millətlər tərəfindən qəbul edilir, sevilir ki, onlarda bəşəri ideallar, bəşəri mənəvi dəyərlər əks edilmiş olsun."

Məhz milli mədəniyyət sayəsində bir millət digər millətlərdən öz xüsusiyyətləri ilə ayrılır, adət-ənənələr də milli mədəniyyətin önəmli elementlərindən biridir. Tarix boyu müəyyən bir etnos tərəfindən yaradılan və sadəcə o millətə məxsus olan dəyərlər milli mədəniyyəti yaradır. Milli mədəniyyətimizin daxilində ehtiva olunan adət-ənənələr hələ uzun illər öz varlığını qoruyacaqdır. Qədim tarixə malik olan bu adət-ənənələr artıq bir növ vərdiş halına gəlmişdir. Unutmayaq ki, bu adət-ənənələr millətimizin təməlini təşkil edən ən əsas xüsusiyyətlərdən biridir. İnsanlar həm kədərli, həm də sevincli günlərdə adət-ənənlərə əsaslanır və bir qayda olaraq bu adət-ənənələr aid olduğu toplumun davranış kriteriyalarını müəyyən edir. Biz ümid edirik ki, qədim və zəngin tarixə malik olan xalqımızın adət-ənənələri gələcək nəsil tərəfindən də layiqli bir şəkildə davam etdiriləcəkdir. Varislik prinsipi ilə bizə əcdadlarımızın ötürdüyü bu milli-mənəvi dəyərləri biz də gələcək nəsillərə ötürməli, adət-ənənələrə əməl etməyin zəruriliyini onlara aşılamalıyıq. Müasir dövrdə bütün dünyanı bürüyən qloballaşma şəraitdə milli sərvətlərimizə sahib çıxmağı bacarmalıyıq.

Hacıyev F.Ş.,
iqtisad elmləri doktoru, professor
Azərbaycan Dövlət İqtisad Universiteti

AZƏRBAYCAN RESPUBLİKASINDA İXRAC POTENSİALININ TƏHLİLİ VƏ MÖVCUD İMKANLAR

XXI əsrdə ölkənin qarşısında duran əsas problemlərdən biri ixrac potensialının yaxşılaşdırılmasıdır. Məsələnin vacibliyini nəzərə alaraq, dövlət bu məsələni həmişə diqqət mərkəzində saxlayır və bu istiqamətdə xüsusi tədbirlər həyata keçirir. Belə ki, 2017-ci ilin yeddi ayı ərzində Azərbaycan dünyanın 180 ölkəsi ilə ticarət əməliyyatları həyata keçirmişdir. 96 ölkəyə məhsul ixrac edilmiş, 159 ölkədən idxal olunmuşdur. Qeyri-neft sektoru üzrə 855 milyon ABŞ dolları dəyərində mal ixrac edilmiş və ixrac əməliyyatlarında 1333 subyekt iştirak etmişdir. Bu isə əvvəlki illər ilə müqayisədə 36% çoxdur.

Bu işlərin daha da gücləndirilməsində ölkə başçısının həyata keçirdiyi iqtisadi strategiyanın əsası olan ixrac potensialının stimullaşdırılmasının böyük əhəmiyyəti vardır.

Onu da qeyd edək ki, hazırda ixrac potenisalının stimullaşdırılması Azərbaycan hökumətinin diqqət mərkəzindədir. Belə ki, dövlət başçısının 2016-cı il 28 yanvar tarixli "Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" sərəncamına əsasən qeyri-neft məhsullarının ixracı zamanı gömrük bəyannamələrində göstərilən dəyərin 3%-i dövlət vəsaiti hesabına sahibkara ödənilməsi nəzərdə tutulur. Eyni zamanda bu sərəncamla əlaqədar olaraq, ixrac potensialının stimullaşdırılması məqsədilə İqtisadiyyat Nazirliyində ixrac proseduralarının sadələşdirilməsi, beynəlxalq təcrübə əsasında ixracın təşviqi mexanizmləri, o cümlədən ixracın kreditləşdirilməsi, ixracat bazarında təşviqat brendləşmə, logistikanın yaxşılaşdırılması ilə bağlı təkliflər hazırlanmış və ixrac potensialının stimullaşdırılması məqsədilə sahibkarlıq subyektlərinə mənşə sertifikatarının bir gün ərzində verilməsi nəzərdə tutulmuşdur.

Göründüyü kimi, Azərbaycanda ixrac potensialını genişləndirmək və ixracın strukturunu optimal vəziyyətə gətirmək üçün kompleks tədbirlər görülür. Bununla əlaqədar olaraq, dünya ölkələrinin təcrübəsinə əsaslanmaqla ilk növbədə qeyri-neft sahələrinin ixracatını stimullaşdıran və elmi cəhətdən əsaslandırılmış uzunmüddətli strateji dövlət proqramı işlənib hazırlanmışdır. Bu proqramın reallaşdırılmasında ixracyönümlü sənaye müəssisələrini təşkilati və maliyyə cəhətdən dəstəkləyən xüsusi bir mexanizmin yaradılması lazım gəlir. Bu işdə ixracın dövlət tərəfindən stimullaşdırılması ön sıraya keçir.

Azərbaycan Respublikasının prezidenti İlham Əliyev 2016-cı il dekabrın 6-da ölkənin perspektiv inkişaf hədəflərini və istiqamətlərini müəyyənləşdirərək onların reallaşdırılmasını təmin etmək məqsədilə "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsinin başlıca istiqamətlərinin təsdiqi və bundan irəli gələn məsələlər haqqında" 2016-cı il 16 mart tarixli sərəncamına uyğun olaraq müvafiq Strateji Yol Xəritəsində göstərmişdir ki, "ixrac potensialından maksimum istifadə edilməsi və qeyri-neft sektorunun diversifikasiyasının qlobal mühitdə daha da dərinləşməsi mühüm strateji hədəf hesab edilir".

İxracın iqtisadi mahiyyəti və əhəmiyyəti. İxrac-malların, işlərin, xidmətlərin, intellektual fəaliyyətin nəticələrinin və kapitalın ölkə ərazisinə yenidən gətiriləcəyi barədə öhdəliklər olmadan onların ölkənin iqtisadi ərazisindən daşınıb aparılması mümkün deyil. Malların və xidmətlərin ölkə sərhədindən çıxarılmadan xarici hüquqi və fiziki şəxslərə satılması da ixraca aiddir. Xarici ticarət əməliyyatının başa çatmasını bildirən əmtəə ixracının əsas meyarı həmin məhsulun ixracatçı ölkənin dövlət sərhəddindən keçirilməsi, ixracatçı ölkənin ərazisində istifadə edilmək üçün xarici alıcılara satılmış mallar barəsində mülkiyyət hüququnun dəyişməsi və ya xidmətlərin təqdim edilməsidir.

Malların ixracının uçotu onların dövlət sərhəddindən keçmə anına, yaxud mülkiyyət hüququnun xarici alıcıya verilməsi anına əsasən aparılır. Müasir şəraitdə ixrac adi kommersiya sövdəsindən daha mürəkkəb əməliyyatdır. O istehsal və elmi-texniki əməkdaşlıq haqqında, patentlər və lisenziyalar haqqında müxtəlif tipli ikitərəfli və çoxtərəfli beynəlxalq sazişlərlə sıx əlaqədardır. Malların ixracı və idxalı barədə məlumatların müntəzəm olaraq toplanması, çevrilməsi və sistemləşdirilməsi üçün bir sıra beynəlxalq nomenklatur sənədlər işlənib hazırlanmışdır.

Milli xarici ticarət təsnifatları yaradılarkən həmin nomenklatur sənədlər, o cümlədən BMT-nin 1985-ci ildə qəbul edilmiş standart ticarət təsnifatı hesaba alınmalıdır. Bu sənəd 10 bölmədən, 67 şöbədən, 261 əmtəə qrupundan və 3118 əmtəə mövqeyindən ibarətdir. Əmtəələrin təsvir edilməsi və kodlaşdırılması üçün harmonikləşdirilmiş sistemin nomenklaturu 21 bölmədən, 96 qrupdan, 33 yardımçı qrupdan, 1241 əmtəə mövqeyindən, 3553 yardımçı mövqedən və 5019 köməkçi mövqedən ibarətdir.

Xidmətlərin istismarının uçotu zamanı BMT tərəfindən işlənib hazırlanmış vahid məhsul təsnifatları bazasında QATT (indiki ÜTT) katibliyi tərəfindən hazırlanmış təsnifatlardan istifadə edilir. Bu təsnifata daxil olan 160-dan çox xidmət növü 12 bölmədə təmsil edilmişdir: işgüzar xidmətlər, rabitə xidmətləri, tikinti və lizinq xidmətləri, distributor, ümumtəhsil və maliyyə (o cümlədən sığorta) xidmətləri, ətraf mühitin və sağlamlığın qorunması xidmətləri, sosial xidmətlər, turizm və səyahətlər, asudə vaxt, mədəniyyət və idman sahələrində xidmətlər, nəqliyyat xidmətləri və s.

Strateji Yol Xəritəsinin əsası olan ixrac potensialının stimullaşdırılmasında ixrac kvotasının xüsusi əhəmiyyəti var. İxrac kvotası-iqtisadiyyatın ayrı-ayrı sahələri və ya müəssisələr üçün əmtəə və xidmətlərin ixracının əhəmiyyətini xarakterizə edən kəmiyyət göstəricisidir (yəni ölkənin ÜDM-də ixracın payı). XXI əsrin əvvəllərində ABŞ-ın və Yaponiyanın ÜDM-də ixracın payı 10%-dən bir qədər artıq, Böyük Britaniyada və Fransada 24%-ə yaxın, Almaniyada 34%, Belçikada 70%, dünya iqtisadiyyatında isə 20% təşkil etmişdir. Kvota müəyyən əmtəələrin ixracı üçün istehsalın, məhsulun göndərilməsinin təyin olunmuş həcmidir. Bu halda ixrac kvotasının tətbiqi milli və beynəlxalq səviyyədə, eləcə də qeyri-tarif və dünya ticarətində xarici iqtisadi fəaliyyətin tənzimlənməsi üzrə tədbirlərə aiddir.

Bəzi dövlətlərdə strateji əmtəələrin ixracını məhdudlaşdırmaq və ya daxili bazarda ayrı-ayrı əmtəə növlərinin tələb və təklifini tənzimləmək məqsədilə ixrac kvotası tətbiq edilir ki, onların sərbəst aparılması (ixracı) və bu əmtəələrin milli istehsalının həcmi dəyərindən müəyyən faizlə məhdudlaşır.

Müəyyən edilmiş kvota çərçivəsində ixrac ona müvəkkil olan dövlət təşkilatları tərəfindən verilən lisenziyalar əsasında həyata keçirilir. Lisenziyaların surəti əmtəələr-

in xaricə buraxılması üçün gömrük bəyannaməsinə əlavə olunur. Həmçinin beynəlxalq çoxtərəfli və ya ikitərəfli ticarət sazişləri ixrac kvotası üçün əsas ola bilər. Belə ki, ixrac kvotası hər hansı bir əmtəənin, məsələn, Neft İxrac Edən Ölkələr Təşkilatı (OPEK) çərçivə-sində neftin istehsalında və ixracında saziş iştirakçısı olan hər bir ölkənin payını müəyyən edən beynəlxalq sabitləşdirici sazişlərə uyğun olaraq tətbiq edilir. Kvotalar müəyyən ölkəyə bu və ya digər əmtəənin ixracının "könüllü" məhdudlaşdırılması haqqında sazişlər əsasında müəyyən edilir.

İxrac potensialının stimullaşdırılmasında ixrac tariflərindən istifadə böyük iqtisadi əhəmiyyət kəsb edir. Hazırda Azərbaycan Respublikasında ixrac tarifinin istifadə edilməsi Azərbaycan bazarının ixrac potensialı üçün baza olan və valyuta daxilolmalarının əsas hissəsinə zəmanət verən malların nəzarətsiz ixracından qorunmasını təmin etmək vəzifəsinə əsaslanır .

Ölkədə ixrac potensialının stimullaşdırılması istiqamətləri. Azərbaycan Respublikasında dünyadakı qlobal böhran fonunda ixrac potensialının stimullaşdırılmasının əsas istiqamətlərindən biri vergiqoyma mexanizmin təkmilləşdirilməsidir. Azərbaycan prezidenti cənab İlham Əliyevin şəffaflığın artırılması istiqamətində apardığı məqsədyönlü siyasətə, vergi orqanları qarşısında qoyulan tələblərə və tapşırıqlara uyğun olaraq, ölkə 2013-cü ildə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) "Vergi sahəsində şəffaflıq və məlumat mübadiləsi üzrə Qlobal Forumuna" üzv olub. O vaxtdan vergi məsələləri üzrə xarici ölkələrlə aparılan məlumat mübadiləsinin təkmilləşdirilməsi və beynəlxalq standartların tələblərinə uyğunlaşdırılması istiqamətində Vergilər Nazirliyi tərəfindən aparılan işlər artıq öz nəticələrini verməkdədir.

Qeyd etmək lazımdır ki, genişmiqyaslı islahatlar və konkret hədəflərə yönələn proqramlar nəticəsində ölkədə artıq müasir beynəlxalq standartlara cavab verən vergi xidməti formalaşdırılmışdır. Azərbaycanda çevik və səmərəli vergi siyasətinin həyata keçirilməsi üçün qanunvericilik bazası yaradılmış və qabaqcıl ölkələrin vergi qanunvericiliyi ilə uzaqlaşdırılmışdır.

Milli vergi sistemi fiskal məqsədlərlə yanaşı, ölkədə sahibkarlığın inkişafına, özəl sektorun dəstəklənməsinə və ixrac potensialı fəaliyyətinin stimullaşdırılmasına, eləcə də vergi mexanizmləri vasitəsilə iqtisadi inkişafın təmin edilməsinə dəstək verir. Hazırda dünyanın qabaqcıl ölkələrində tətbiq olunan əksər vergi xidmətləri ölkədə fəaliyyət göstərən vergi ödəyicilərinə də təqdim edilir.

Dövlət başçısının "2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri"nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında" sərəncamı da Azərbaycanın vergi sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması və vergi inzibatçılığının keyfiyyətcə yeni mərhələyə qədəm qoyması istiqamətində bir sıra əhəmiyyətli tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. Bu tədbirlərə vergitutma bazasının genişləndirilməsi, vergi yoxlamalarının təyin edilməsi, keçirilməsi və nəticələrinin rəsmiləşdirilməsi prosesi üzrə vergi inzibatçılığının daha da təkmilləşdirilməsi, vergi yoxlamalarının qanunla müəyyən edilmiş tələblərə əməl olunmaqla qısa müddətdə başa çatdırılması, elektron auditin tətbiqi dairəsinin genişləndirilməsi, vergi ödəyicilərinə göstərilən xidmətlərin keyfiyyətlərinin artırılması, riskin qiymətləndirilməsi sisteminin yaradılması, vergi bəyannamələrinin formalarının təkmilləşdirilməsi kimi mühüm vəzifələr aiddir. Hazırda Vergilər Nazirliyi sərəncamın icrası ilə bağlı genişmiqyaslı işlər aparır. Şəffaflığın artırılması, institusional mexanizmlərin təkmilləşdirilməsi, beynəlxalq öhdəliklərin yerinə yetirilməsi məqsədilə indiyədək ölkədə kompleks

tədbirləri əhatə edən fəaliyyət planları uğurla icra edilib, vergi qanunvericiliyi və inzibatçılığının beynəlxalq standartlar nəzərə alınmaqla təkmilləşdirilməsi, innovativ və geniş elektron xidmətlər sisteminin yaradılması təmin olunub. Bütün bunlar isə öz növbəsində, vergi sistemində idarəetmə və nəzarət mexanizmlərinin səviyyəsini yüksəltməyə, vergi münasibətlərinin tənzimlənməsi sahəsində çevik siyasət həyata keçirməyə, ölkəmizin investisiya cəlbediciliyinin yüksəldilmə-sinə, beynəlxalq təşkilatların və xarici dövlətlərin müvafiq qurumları ilə sıx əməkdaş-lıq əlaqələri yaradılmasına və səmərəli məlumat mübadiləsi sisteminin qurulmasına imkan verib. Bütün bunlar "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsinin başlıca istiqamətləri"ndə göstərildiyi kimi, ixrac potensialının stimullaşdırılmasına şərait yaradır.

Ölkə başçısının sərəncamından irəli gələn vəzifələrdən biri vergi sahəsində şəffaflıq və məlumat mübadiləsi üzrə yüksək beynəlxalq reytinqin əldə edilməsidir. Son dövrlərdə beynəlxalq vergitutma sahəsində xüsusi əhəmiyyət kəsb edən məsələlərdən biri vergi orqanları arasında məlumat mübadiləsinin genişləndirilməsi və bu sahədə formalaşmış beynəlxalq standartların tətbiqinin təmin edilməsidir. BMT, G8, G20 ölkələri, Avropa Şurası və Avropa İttifaqı tərəfindən tövsiyə edilən, İƏİT tərəfindən hazırlanmış "Vergitutma sahəsində məlumat mübadiləsi və şəffaflıq standartı" Model Vergi Konvensiyasının 26-cı maddəsində və 2002-ci il tarixli Vergi məsələləri üzrə Məlumat Model Sazişində əksini tapmışdır. Bu standartın tətbiqinə nail olmaq məqsədilə 2009-cu ildə İƏİT-in Vergi Siyasəti və İnzibatçılığı Mərkəzi nəzdində "Vergi sahəsində şəffaflıq və məlumat mübadiləsi üzrə Qlobal Forum" yaradılıb. Artıq dünyanın 134 ölkəsi 2010-cu ildən faktiki olaraq müstəqil təşkilat kimi fəaliyyət göstərən bu qurumun üzvüdür. Bundan əlavə, Forumda 9 beynəlxalq və regional təşkilat-BMT, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Beynəlxalq Maliyyə Korporasiyası, Avropa Yenidənqurma və İnkişaf Bankı, Avropa İttifaqı Ölkələrinin Katibliyi müşahidəçi qismində təmsil olunurlar. Foruma üzvlük dövlətlərin, ilk növbədə, məlumat mübadiləsi haqqında müqavilələr üzrə danışıqlar aparmaq, təmsil olunan beynəlxalq maliyyə qurumları ilə məlumat mübadiləsi etmək imkanlarını artırır. Forum vergi məqsədləri üçün şəffaflığın artırılması üzrə zəngin ekspertiza mənbəyidir. Qlobal Forumun qaydalarına əsasən hər bir üzv ölkə iki mərhələdən ibarət qiymətləndirmə prosesinə cəlb olunur. Birinci mərhələdə qanunvericiliyin beynəlxalq standartlara uyğunluğu, ikinci mərhələdə isə həmin qanunvericiliyin praktikada tətbiqi səviyyəsi qiymətləndirilir. Hər iki mərhələnin nəticələri əsasında ölkənin beynəlxalq standartalara uyğunluq səviyyəsi müəyyənləşdirilir. Beynəlxalq standartlara uyğunluğu təmin etmək məqsədilə Azərbaycan Respublikasında bütövlükdə vergi məcəlləsində 201 dəyişiklik edilib. Məcəlləyə 115 yeni maddə əlavə edilib, 83 maddəyə dəyişiklik aparılıb, 3 maddə isə ləğv olunub. Bu dəyişikliklərdən 23 maddə vergi inzibatçılığının, o cümlədən vergi uçotunun təkmilləşdirilməsinə və şəffaflaşdırılmasına, 34 maddə vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsinə, 8 maddə isə vergi yükünün azaldılmasına həsr olunmuşdur .

Hazırda ixracın stimullaşdırılması istiqamətində aparılan islahatların əsasını sahibkarlıq fəaliyyəti təşkil edir. Bu baxımdan məlumdur ki, son illərdə sahibkarlığın inkişafı və dəstəklənməsi istiqamətində bir sıra əhəmiyyətli normativ-hüquqi aktlar qəbul edilmişdir. Bunlara "Sahibkarlıq fəaliyyət haqqında", "Kiçik sahibkarlığa dövlət köməyi haqqında", "Antiinhisar fəaliyyəti haqqında", "Haqsız rəqabət haqqında", "İnvestisiya fondları haqqında", "Xarici investisiyaların qorunması haqqında", "Xüsusi

iqtisadi zonalar haqqında", "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" və digər bu qəbildən olan qanunları, eyni zamanda iqtisadi tənzimlənməyə üstünlük verilməsi və dövlətin iqtisadiyyata müdaxiləsini minimuma endirmək məqsədilə "Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında", "Sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında", "Sahibkarlıq sahəsində yoxlamaların nizama salınması və istehlakçıların hüquqlarının təmin edilməsinə dair bəzi tədbirlər haqqında" və "Sahibkarlıq günü" haqqında Azərbaycan Respublikası prezidentinin fərman və sərəncamlarını misal göstərmək olar. Bunların nəticəsidir ki, orta və kiçik sahibkarlar tərəfindən 2016-cı ildə 28,8 milyard manatlıq məhsul istehsal edilmişdir. Dövlət Statistika Komitəsinin məlumatına əsasən sənaye məhsulunun 65,4 faizi mədənçıxarma sektorunda, 28,5 faizi emal sektorunda, 5,3 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 0,8% isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunmuşdur.

Emal sektorunda isə qida məhsullarının istehsalı 4,1 faiz, toxuculuq sənayesi məhsullarının istehsalı 2,6 dəfə, geyim istehsalı 39,1 faiz, ağac emalı və ağacdan məmulatlar 23,1 faiz, kağız və karton 7,3 faiz, poliqrafiya məhsulları 1,7 faiz, metallurgiya sənaye məhsullarının istehsalı 2,0 %, hazır metal məmulatları 18,9 faiz, kompüter və elektron məhsulları 10,6 faiz, elektrik avadanlıqları 2,3 dəfə, avtomobil, qoşqu və yarımqoşqular 41,9 faiz, mebel 10,7 faiz, maşın və avadanlıqların quraşdırılması və təmir işləri 42,2 faiz artmışdır.

Uzunmüddətli Strateji Yol Xəritəsində göstərildiyi kimi, dövlət xarici iqtisadi əlaqələrin səmərəliliyini yüksəltmək istiqamətində ilk əvvəl tənzimlənməni təkmilləşdirilməli, burada xüsusən gömrük-tarif, vergi və qeyri-tarif inzibati mexanizm və metodlarından istifadənin optimallığı artırılmalıdır. Qeyd olunanlara əsaslanaraq ölkədə ixrac potensialını stimullaşdırmaq üçün, fikrimizcə, prioritet istiqamətlər aşağıdakıları əhatə etməlidir:

- xarici iqtisadi fəaliyyət sferasında yeni bazar təsisatlı institusional dəyişiklərin aparılması, sahəvi normativ-hüquqi bazanın təkmilləşdirilməsi;
- ixracyönümlü məhsul istehsal edən təşkilatın stimullaşdırılması;
- dövlətlərarası ticarət palataları təsisatlarının genişləndirilməsi, ölkənin ixrac potensiallı təşkilatlarının xaricdə nümayəndəliklərinin açılması və fəaliyyətlərinin genişləndirilməsinə nail olunması;
- xarici iqtisadi əlaqələr sferasında informasiya xidmətlərinin, reklam işinin təşkili və təkmilliyinin və marketinq fəaliyyətinin genişləndirilməsi;
- xarici tərəfdaşlarla istehsal kooperasiyası, xalq istehlak malları istehsalında, yüksək texnologiyalar sferasında, həmçinin konversiya istiqamətində əməkdaşlığın genişləndirilməsi;

Ümumiyyətlə, ixrac potensialının stimullaşdırılması investisiyaların təşviqi ilə bağlı qəbul edilmiş qərarlarla investorlara vergi və gömrük güzəştlərinin verilməsi sahibkarlığın daha da inkişafına və xarici investisiyaların cəlb edilməsinə, qeyri-neft ixracının stimullaşdırılmasına səbəb olacaq, bununla da həm regionların, həm də ümumilikdə qeyri-neft sektorunun inkişafına güclü təkan verəcək.

Belə ki, prioritet hesab olunan sahələrdə investisiya fəaliyyəti həyata keçirən sahibkarların investisiya təşviqi sənədini aldıqları andan idxal etdikləri texnika, texnoloji avadanlıqlar və qurğular 7 il müddətinə gömrük rüsumlarından azad olunur. Eyni

zamanda sahibkarlar investisiya təşviqi sənədinə əsasən 7 il müddətinə fiziki şəxslərin gəlirinin və hüquqi şəxslərin mənfəətinin 50%-nə görə vergidən, həmçinin əmlak və torpaq vergisindən, müvafiq təsdiqedici sənəd əsasında texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalına görə ƏDV-dən azaddır. Eyni zamanda potensial ixrac bazarları ölkələrində logistik mərkəzlərin yaradılması istiqamətində araşdırmalar aparılır, ixrac məlumat bazasının (elektron portal) yaradılması üçün işlər görülür. İxracda xüsusi önəm kəsb edən qablaşdır-manın əhəmiyyəti nəzərə alınaraq, bu sahədə təşkilatların yaradılması təşviq olunacaq, bu sahəyə dövlət dəstəyi daha da gücləndiriləcəkdir.

Azərbaycanda ixrac potensialının vəziyyəti, təhlili və mövcud imkanlar. 2014-cü il ərzində Azərbaycan Respublikasının rezident və qeyri-rezidentləri tərəfindən dünyanın 150 ölkəsi ilə 31016.7 milyon ABŞ dolları həcmində ticarət əməliyyatları aparılmışdır. Xarici ticarət dövriyyəsinin 70.4 faizini və ya 21828.6 milyon ABŞ dolları həcmində hissəsini ixrac, 29.6 fazini və ya 9188.1 milyon ABŞ dolları həcmində hissəsini idxal olunan mallar təşkil etmiş, ixrac-idxalı örtmə əmsalı 2.38 olmuşdur. Bu dövrdə 6142 adda mal idxal, 2151 adda mal ixrac olunmuş, gömrük orqanlarında, ümumilikdə, 261617 ədəd, o cümlədən 219004 ədəd idxal, 42613 ədəd ixrac gömrük bəyannaməsi rəsmilləşdirilmişdir. 2013-cü ilə nisbətən rəsmilləşdirilmiş gömrük bəyannamələrinin sayı 35141 ədəd və ya 11.8 faiz (ixrac bəyannamələri 448 ədəd və ya 1.0 faiz, idxal bəyannamələri 34693 ədəd və ya 13.7 faiz) azalmışdır.

Ümumiyyətlə, 2014-cü ildə ixrac olunan malların 22.0 faizi İtaliya, 9.2 faizi İndoneziya, 8.8 faizi Almaniya, 8.1 faizi İsrail, 7.0 faizi Fransa, 3.8 faizi Tailand, 3.6 faizi İspaniya dövlətlərinə göndərilmişdir. İdxal əməliyyatlarında isə Rusiya (14.3 faiz), Türkiyə (14.0 faiz), Böyük Britaniya (10.6 faiz), Almaniya (7.7 faiz), Çin (7.6 faiz), Amerika Birləşmiş Ştatları (6.1 faiz) Azərbaycan Respublikasının əsas ticarət tərəfdaşları olmuşdur .

2015-ci ildə 165 xarici dövlətlə ölkənin hüquqi və fiziki şəxsləri ticarət əməliyyatları həyata keçirib. Dövlət Statistika Komitəsinin məlumatına görə 109 ölkəyə məhsul ixrac olunub, 145 ölkədən idxal həyata keçirilib. 18815,4 milyon dollar məbləğində ticarət, o cümlədən 10619,2 milyon dollarlıq ixrac və 8196,2 milyon dollarlıq idxal əməliyyatları aparılıb. Nəticədə, 2423,0 milyon dollarlıq müsbət ticarət saldosu yaranıb. 2014-cü ilə nisbətən məhsul mübadiləsinin dəyəri müqayisəli qiymətlərlə 4,1 faiz azalıb. Ticarət dövriyyəsinin 16553,9 milyon dolları və ya 88,0 faizi MDB üzvü dövlətləri istisna olmaqla digər ölkələrin, 2261,5 milyon dolları, yaxud 12,0 faizi MDB üzvü dövlətlərinin payına düşüb. Bu ölkə qrupları üzrə ticarət dövriyyəsinin fiziki həcmi müvafiq olaraq 1,7 faiz və 12,5 faiz azalıb. Dövriyyənin 8892,5 milyon dollarlıq hissəsi və ya 47,3 faizi Avropa İttifaqı ölkələri ilə ticarət əlaqələrinin sayəsində yaranıb.

MDB üzvü dövlətləri istisna olmaqla digər ölkələrə ixrac olunan məhsulların dəyəri müqayisəli qiymətlərlə 2,7 faiz azalıb. Bu ölkələrə 10151,7 milyon dollar həcmində məhsul göndərilib. MDB üzvü dövlətlərinə ixrac olunan məhsulların həcmi 33,6 faiz azalaraq 467,5 milyon dollar təşkil edib. İxracın ümumi həcminin 4,4 faizi MDB, 59,7 faizi Avropa İttifaqı ölkələrinin, 35,9 faizi isə digər ölkələrin payına düşüb. 2015-ci ildə ölkəyə idxal olunan məhsulların 6402,2 milyon dollarlığı MDB üzvü dövlətləri istisna olmaqla digər ölkələrdən daxil olub. İdxalın ümumi həcminin 21,9 faizi MDB üzvü dövlətlərinin, 31,2 faizi Avropa İttifaqı ölkələrinin, 46,9 faizi isə digər ölkələrin

hesabına formalaşıb. Xarici ticarət dövriyyəsinin 83,4 faizi İtaliya, Almaniya, Rusiya, Türkiyə, ABŞ, Fransa, İsrail, Çexiya, Avstriya, Yaponiya, Çin, İndoneziya, Birləşmiş Krallıq, Gürcüstan, İspaniya, Portuqaliya, Ukrayna, Tunis, Hindistan, Kanada və Tailand dövlətlərinin hesabına formalaşıb.

Şəkər və çay ixrac olunmuş məhsulların 20,3 faizi İtaliyaya, 11,2 faizi Almaniyaya, 7,3 faizi Fransaya, 6,5 faizi İsrailə, 4,6 faizi Çexiyaya, 4,5 faizi İndoneziyaya, 3,8 faizi Avstriyaya, 3,5 faizi Rusiyaya, 3,2 faizi Gürcüstana, 3,1 faizi ABŞ-a, 3,0 faizi İspaniyaya, 2,9 faizi Portuqaliyaya, 2,6 faizi Türkiyəyə, 2,5 faizi Tunisə, hər birində 2,1 faiz olmaqla Kanada və Hindistana, 2,0 faizi Tailanda, 1,8 faizi Əfqanıstana, hər birində 1,6 faiz olmaqla Xorvatiya və İraqa, qalan 9,8 faizi isə digər ölkələrə göndərilmişdir. 2014-cü illə müqayisədə 2015-ci ildə təzə meyvə ixracı 9,6 faiz, təzə tərəvəz 4,2 faiz, marqarin, qida üçün yararlı digər qarışıqlar 11,1 faiz, polietilen 2,4 faiz, emal olunmamış alüminium 5,7 faiz, qara metallardan yarımfabrikatlar 3,7 dəfə, pambıq parça ipliyi 14,5 faiz, pambıq lifi 11,7 dəfə artmışdır.

2016-cı ildə Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri dünyanın 174 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmiş, 103 ölkəyə məhsul ixrac olunmuş, 168 ölkədən idxal olunmuşdur.

Dövlət Statistika Komitəsinin məlumatlarına görə 2016-cı ildə xarici ticarət dövriyyəsi 15 milyard 781,3 milyon ABŞ dolları, o cümlədən ixracın dəyəri 9 milyard 579,8 milyon dollar, idxalın dəyəri 6 milyard 201,5 milyon dollar təşkil etmiş, nəticədə 3 milyard 378,3 milyon dollarlıq müsbət ticarət saldosu yaranmışdır.

Strateji Yol Xəritəsinin əsas məqsədlərindən biri də dünya ərzaq və kənd təsərrüfatı bazarına ekoloji cəhətdən təmiz məhsul ixracını maksimum artırmaqdır. Buna əsasən 2016-cı ildə ixrac dövriyyəsinin 38,3 faizi Avropa İttifaqı ölkələri, 12,1 faizi MDB üzvü dövlətləri, 49,6 faizi isə dünyanın digər ölkələrinin payına düşmüşdür.

Göründüyü kimi, respublikada ixrac potensialının coğrafiyası genişlənməkdədir. Belə ki, 2017-ci ilin yeddi ayı ərzində qeyri-neft məhsullarının ixrac edildiyi ölkələrin siyahısında ilk beşlikdə Rusiya, Türkiyə, Gürcüstan, İsveçrə və Türkmənistanın adı var. Qeyri-neft sektoru üzrə ixracda birinci yeri pomidor-tomat (127,9 milyon ABŞ dolları), ikinci yeri qızıl (60,7 milyon ABŞ dolları), üçüncü yeri isə xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen (54,4 milyon ABŞ dolları) tutur.

Bu ilin yeddi ayı ərzində "Azexport.az" portalına ilk dəfə Qətər, Tanzaniya və Ekvador kimi ölkələrdən sifarişlər də daxil olub.

İxrac edilmiş məhsulların ümumi dəyərində ərzaq məhsulları, meyvə-tərəvəz, şəkər, mineral məhsullar, diri heyvanlar və heyvan mənşəli məhsullar, bitki mənşəli məhsullar, heyvan və ya bitki mənşəli piylər və yağlar, xam neft, təbii qaz, neft məhsulları, plastik kütlə, kimya sənayesi məhsulları, pambıq ipliyi və bitki yağlarının, maşın, mexanizm, elektrik aparatları, avadanlıqlar, plastik kütlə, oduncaq, emal olunmamış gön, təbii xəz və onlardan hazırlanan məmulatlar, oduncaqdan kütlə, kağız və karton, azqiymətli materiallar və onlardan hazırlanan məmulatların xüsusi çəkisi üstünlük təşkil etmişdir.

Ümumiyyətlə, ölkədə ixracın coğrafi quruluşunda nəzərəçarpacaq dərəcədə dəyişiklik olmuşdur. Belə ki, ixracın genişləndirilməsi Azərbaycanda istehsal olunan mal və məhsulların keyfiyyətinin Avropa standartlarına çatdırılması da vacib məsələlərdən biridir. Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi bu məqsədlə

indiyədək 100-dən çox milli standartı Avropa standartına uyğunlaşdırıb. Məqsəd ölkədəki bütün keyfiyyət standartlarının, eləcə də sovet dövründə qəbul edil-miş «QOST» standartlarının mərhələli şəkildə Avropa standartlarına uyğunlaşdırılmasıdır.

Özəl sektorun ixrac potensialının möhkəmlənməsinə AZPROMO–İxracın və İnvestisiyaların Təşviqi Fondu da yaxından dəstək verir. Bu da ixrac potensialının inkişafına şərait yaratmış olur.

Qeyri-neft sektorunda ixrac potensialının əsası olan meyvə şirələri və nar şirəsi dünya bazarı üçün maraqlıdır. Hazırda dünya bazarında nar şirələrinə, fındığa tələbat təklifdən çoxdur. Yaxın zamanlarda yaradılacaq Meyvə Şirələri İstehsalçıları Alyansında ilk olaraq 7, Fındıq və Qoz Məhsulları İstehsalçıları Alyansında isə 4 şirkət təmsil olunacaq. Gələcəkdə bu şirkətlərin sayının artacağı da gözlənilir. Alyanslar tərəfindən Azərbaycanın fındıq, qoz məhsulları və meyvə şirələrinin daxili və xarici ölkələrdə təqdimatının keçirilməsi, habelə yerli bazarda təşviqinin aparılması nəzərdə tutulur.

Hazırda ixrac proseduralarının daha da sadələşdirilməsi, Azərbaycanda istehsal olunan məhsullara verilən sertifikatların xarici ölkələrdə tanınması ixrac məhsullarında keyfiyyət, qablaşdırma və etiketləşdirmə sahəsində beynəlxalq standartların tətbiqi sahəsində görülən işlər müsbət nəticə verir. Bütün bunlar gələcəkdə Avropa, Asiya, Amerika, Atlantika və Okean regionları tərəfdaş ölkələr ilə əməkdaşlıqda böyük rol oynayacaqdır.

Göründüyü kimi, hazırda Azərbaycan Respublikasında ixrac potensialı olan bir çox məhsullar mövcuddur. Bu məhsulların növündən (çeşidindən) və təyinatından asılı olaraq stimullaşdırılması strateji yol xəritəsində nəzərdə tutulmuş yeni gömrük rüsumu və vergi (ƏDV, aksiz və s.) amillərindən çox aslıdır. Fikrimizcə, ixracın potensial stimullaşdırılması üçün aşağıdakıları təklif edirik:

1. İxracatçının xarici bazara çıxışını təmin etmək;
2. Səmərəli ixracat qiymətləri müəyyən etmək;
3. İxrac müqavilələrini təkmilləşdirmək;
4. İxrac əməliyyatları üçün sənəd dövriyyəsini sadələşdirmək;
5. İxrac potensialını artırmaq;
6. İxracatda marketinq dəstəyini təmin etmək;
7. İxrac xidmətlərini yaxşılaşdırmaq;
8. İxracat stimullaşdırması üçün normativ hüquqi bazanı təkmilləşdirmək;
9. Səmərəli gömrük-tarif rejimi yaratmaq;
10. Azərbaycanda idxal-ixrac bankının təşkilinə şərait yaratmaq;
11. İxrac məhsullarını xarici bazar tələbatına uyğunlaşdırmaq;
12. İxrac məhsullarının Ümumi Daxili Məhsulda xüsusi çəkisini artırmaq;
13. İxrac məlumat bazasının (elektron portal) formalaşdırılmasını təmin etmək;
14. Lisensiyalaşdırma sistemini təkmilləşdirilmək;
15. Logistik mərkəzlər yaratmaq;
16. Azərbaycanda ixrac assosiasiyaları yaratmaq.

Ümumiyyətlə, ixrac potensialının stimullaşdırılması ölkənin valyuta gəlirlərinin çoxalmasına, iqtisadiyyatın ümumi inkişaf tempinin sürətlənməsinə və əhalinin həyat səviyyəsinin və rifahının yüksəlməsinə gətirib çıxaracaqdır.

Vəliyeva N.Ç.,
filologiya elmləri doktoru, professor
Azərbaycan Dövlət Dəniz Akademiyası

MƏDƏNİYYƏTLƏRARASI DİALOQ VASİTƏSİLƏ DİLİN İNKİŞAFI

Mədəniyyətlərarası dialoq şəraitində yaşadığımız dövrdə kütləvi informasiya vasitələri əsas kommunikativ şəbəkəni təşkil edir. Müasir zamanda informasiya texnologiyalarsız həyatı təsəvvür etmək mümkün deyil. İnteraktiv televiziya, multimedia, televiziyada kompüter texnikasının istifadəsi informasiya yayılmasının intensivliyini və insanlara olan təsirini yüksəldir. Elektron informasiyasının çatdırılma vasitələri daima təkmilləşir və bunun sayəsində elektron KİV digər kütləvi informasiya vasitələri arasında birinci plana çıxıb. Kommunikasiyanın kosmik sputnik sistemlərinin, İnternet informasiya şəbəkəsinin tətbiqi ilə qlobal informasiya infrastrukturu formalaşır və informasiya mühiti əsaslı şəkildə dəyişir. Bu gün ilkin mərhələdə digər funksiyaların icrası üçün nəzərdə tutulmuş dünya kompüter informasiya sistemləri məlumatın tamamilə yeni daşıyıcısının əsasında güclü kütləvi informasiya vasitələri oldular. KİV-nin informasiya sahəsində belə inqilab yeni beynəlxalq hüquqi məsələlər ortaya qoyur.

1995-ci ildə YUNESCO ortamüddətli informasiyanın azad axını təmininin strategiyasını və 1996-2001-ci illər üçün nəzərdə tutulmuş telekommunikasiyalarının inkişafını bəyənib. 1997-ci ildə Ümumdünya Ticarət Təşkilatının 68 ölkə tərəfindən imzalanmış telekommunikasiya bazarların liberallaşması haqqında pakt (müqavilə, müşahidə) qlobal informasiya magistralının gələcək inkişafı üçün hüquqi əsas verir. Beləliklə, güclü inkişaf və baş verən audiovizual, telekommunikasiya və kompüter bölmələrin konvergensiyası (uyğunlaşması) KİV-nin bazarlarının yeni vəziyyətinin formalaşmasına, onun inkişafı prinsiplərinin dəyişilməsinə, dövlətin və cəmiyyətin qarşılıqlı əməkdaşlığına gətirdi. Bununla əlaqədar kütləvi informasiya vasitələrinin ictimai fikrinə, ictimai şüuruna və insanların kütləvi davranışına olan təsiri mexanizmin təhlilinin aparılması tələb olunur. Bir çox alimlər tərəfindən kütləvi informasiya vasitələri tədqiq olunur.

Kütləvi auditoriyaya KİV-nin təsiri prosesinin sistematik müşahidə metodikası, vəziyyətin qiymətləndirilməsi hələ ki, kifayət qədər işlənilməyib, müxtəlif KİV-nin tərəfindən istənilən təsirə kütləvi auditoriyasının göstərdiyi reaksiya xarakterinin nəzarətinin həyata keçirilməsi tam şəkildə öyrənilməyib. KİV-nin öyrənilməsi ilə məşğul olan çoxlu alimlər və fərqli məktəblər olub. 1959-cu ildə yaranan Pensilvan Universitetinin nəzdində Annenberq məktəbi, öz tədqiqatlarını üç istiqamətlərdə aparır: obrazların və mesajların kodların və strukturlaşma formaların analizi, kommunikasiya prosesi zamanı müxtəlif qrupların davranışının təhlili və kommunikasiya sistemlərinin, institutlarının və siyasətin öyrənilməsi. Müxtəlif tədqiqatlarda və publikasiyalarda bu yeni konsepsiya, onun məhsuldarlığı öz dəyərli töhvəsini verdi, kommunikasiyaların öyrənilməsi elmi qavrayışın akademik təşkilatının tərkib hissəsinə çevrilmə tendensiyasına keçdi. 1967-ci ildə həmin məktəbin müəllifləri tərəfindən aparılan televiziya verilişləri məzmununun tədqiqatları çox məşhurdur. Televiziya mövcud olan ictimai münasibətlərin və strukturların bütövlüyünün saxlanılması vasitələrindən biri kimi təhlil olunurdu. Tədqiqatçılar əmin idi ki, televiziya sistemi həyat dəyərləri və qay-

daları haqqında formalaşmış öz anlayışları ilə kütləvi tamaşaçını xüsusi şərti mədəniyyət dairəsinə daxil etməyə bacaran sabit və qapalı strukturdur.... Annenberq məktəbinin metodologiyası televiziya mövzuları, süjetləri və obrazları sisteminin öyrənilməsinin iki səviyyəsini nəzərdə tutur: televiziya məkanının əsas sahələrinin strukturlarını aşkar edən *sistemli* və ictimai normalar və dəyərlər kimi televiziya tamaşaçılarının şüuru tərəfindən qəbul olunanı konkret şəkildə müəyyənləşdirən *kultivasiyalı*... Bu indikatorun (göstəricinin) vasitəsilə sosial sistemləri tərəfindən yaranan ictimai şüurun vəziyyəti və psixologiyası, fikirləri, zövqü, istəkləri və tələbatları təyin edilir və onlara cavab olaraq təsir göstərir. Cəmiyyətdə bu vasitələrə mülkiyyətçiliyin xarakterindən KİV-nin yerinin və rolunun qanunauyğun asılılığı həmçinin dəqiqləşdirilir.

Telekommunikasiyaların və informasiya texnologiyaların kütləvi informasiya audiovizual vasitələri ilə sintezi məlumatın yayılmasına elmi yanaşmasının inkişafında yeni imkanlar açır. Eyni zamanda eynitipli informasiya məhsullarını və xidmətlərini yayaraq telekommunikasiyaların qloballaşması mədəni müxtəlifliyinin saxlanılması və qorunması problemini ortaya çıxardır.

Kütləvi informasiya vasitələrindən əldə olunan məlumatı müxtəlif insanlar və ya sosial qruplar eyni tərzdə başa düşmür və eyni cür qiymətləndirmir. Kütləvi auditoriyanı bir çox məlumatlar mediahadisələrin sferasına cəlb edir. Bu mediahadisələr isə, sosial sistemində kifayət qədər müstəqil yarımsistemini formalaşdırır. Bu hadisələr qeyri-real da ola bilər, yəni psevdohadisələrin sferasında yerləşə bilər və bununla tamaşaçılara hadisələr və proseslər haqqında yanlış anlayışları təlqin edə bilər. Bu və ya digər dərəcədə yarımsistem sosial sistemindən tam asılı vəziyyətindədir. Müasir tədqiqatçılar tərəfindən belə məlumatların yayılması və kütləvi süurda onların möhkəmləndirilməsi səbəblərini aydınlaşdırmaqla yeni vəzifəsini qarşılarına qoyurlar.

Danılmaz faktdır ki, kütləvi kommunikasiya ictimai əlaqələr və münasibətlər sferalarında da xüsusi əhəmiyyətə malikdir. Kütləvi kommunikasiya ictimai əlaqələrlə (public relations, qısalmış forması - PR) sıx bağlıdır. Belə ictimai əlaqələr 1903-cü ildə ABŞ-da yaranıb. Bu gün ABŞ-ın üç yüz ən böyük şirkətlərinin 80%-i "ictimai əlaqələr" şöbəsini özündə ehtiva edir və bu adda olan fənn 350 kolleclərdə tədris olunur. Azərbaycanda bu fəaliyyət sosial-iqtisadi reformalarla idarəçilik və ümumbəşəri sahəsində sosial dəyərlərinin və ekologiya, etika, din, təhsil, mədəniyyət və s. sahələrində olan qlobal problemlərin ictimai strukturlarının arasında qarşılıqlı əməkdaşlığın aktivizasiyası (fəallaşması) ilə bağlı yeni impuls təkan alıb. "İctimai əlaqələr və münasibətlər" anlayışında fəaliyyətin kognitiv və praqmatik səviyyələrinin spesifikası əks olunur.

Ənənəvi olaraq "ictimai əlaqələr və münasibətlər" dedikdə idarəetmə ilə bağlı fəaliyyət başa düşülür. Onun məqsədi isə dövlət və ya özəl strukturlarla ictimaiyyətin arasında mövcud olan qarşılıqlı əlverişli münasibətlərinin qurulmasıdır, çünki bundan həmin strukturların funksionallığının müvəffəqiyyəti asılıdır. Praqmatik aspektdə firmanın maraqlarına müvafiq olaraq ictimai fikrinə təsir etmək bacarığı xüsusi qeyd edilir. Beləliklə, o istehlakçını əmin edir ki, firmanın fəaliyyəti ilk öncə, onun rifahı üçün həyata keçirilir.

İlk baxışda, ictimaiyyətlə əlaqələr – firma imicinin, simasının (təsvirinin) formalaşmasına istiqamətlənən reklam fəaliyyətidir, yəni imicin reklamıdır. Digər mütəxəssislər hesab edir ki, ictimai əlaqələr və reklam yalnız geniş auditoriyaya təsir funksiya-

sı, yəni qarşılıqlı əlverişli və harmonik əməkdaşlığın əminliyi ilə bağlıdır. Fərqlilik ondan ibarətdir ki, ictimai əlaqələrinin əsas funksiyası idarəetmədir və şəxsiyyətlərarası kommunikasiyaya prioritet verilir. Ayrı-ayrı təşkilatlarda daxili kommunikasiyanın həyata keçməsi üçün radio və televiziyanın qapalı sistemləri yaranır.

Kommunikasiyanın nəticəsi bir çox komponentlərin sayəsində formalaşır. Kommunikasiyanın effektivliyi ünsiyyətin işgüzar sferasında qəbul olunan sözlərin və nitq vahidlərinin seçimindən və kommunikasiyanın tipinə (şəxsiyyətlərarası, qrupdaxili və ya kütləvi) düzgün oriyentasiyasından asılıdır. Nitq kommunikasiyasında əhəmiyyətli rolu informasiyanın xarakterinə uyğun gələn ton (neytral, emfatik, istehzalı, örnəkli tərz) temp oynayır. Kommunikasiyanın effektivliyi mesajın qəbulu nəticəsində biliklərdə, normativlərdə, təlimatlarda və davranışda dəyişikliklərlə təyin edilir.

İctimaiyyətlə əlaqələrinin kommunikativ sferası ictimai münasibətlərin dar mənasına enmir. O, insanların koqnitiv fəaliyyəti ilə bağlı olan xüsusilə ekologiya, etika, elm, mədəniyyət və s. sahələrində mənəvi inkişafını və texnoloji tərəqqini təyin edən cəmiyyətin ən yüksək sosial dəyərləri ilə müxtəlif tipli (dövlət və özəl) sahələrində ictimai və idarəetmə strukturlarının qarşılıqlı əməkdaşlığını təqdim edir. Həmin kommunikativ sferasının çərçivəsində yalnız qarşılıqlı əlaqələr qurulmur, həmçinin sonuncu məqsədi cəmiyyətin sosial inteqrasiyası və cəmiyyətin rifahı üçün sosial dəyişikliklər olan harmonik ictimai münasibətlər də formalaşır.

Kommunikasiya sahəsində tanınan Amsterdam universitetinin professoru D.Mak-Kveylin fikrinə görə, belə məqsədlər kütləvi kommunikasiya səviyyəsində realizə olunur. Reklamın funksiyası kütləvi informasiya vasitələrinin köməyi ilə kütləvi kommunikasiyasına əsaslanaraq məhsulun bazara təqdimidir, bundan savayı, maliyyələşmənin kanalları da müxtəlifdir.

Beləliklə, ictimaiyyətlə əlaqələrin kommunikativ sistemində fəaliyyətin iki əsas istiqaməti fərqləndirilir – menecment (idarə) və marketinq. Geniş mənada başa düşülən idarə - optimal işgüzar münasibətlərinin və subyektin iyerarxik strukturunda ictimaiyyətlə yaradıcı əlaqələrinin qurulmasını və saxlanılmasını nəzərdə tutur. İctimaiyyətlə əlaqələrin sistemində marketinq informasiyanın əsaslı şəkildə öyrənilməsinin və ictimai fikrin formalaşmasının, yaradılan imicin populyarlaşdırılmasının vasitəsilə ictimaiyyətlə əlaqələrin obyektinə təsir üslublarının planlaşdırılmasının əsasında bazarda imicin (təsvirin) formalaşmasına istiqamətlənən bu əlaqələrin subyektlərinin fəaliyyəti kimi təhlil olunur.

İctimai əlaqələrinin müxtəlif işlənilmiş funksiyaların arasında xüsusi yer kommunikasiyaya ayrılır. İş vaxtının 80% rəhbər ünsiyyətin müxtəlif formalarına sərf edir və vaxtın çox hissəsi kommunikasiyanın şifahi formasını alır. Şəxsiyyətlərarası ünsiyyət zamanı məkan və zaman maneələri aradan qaldırılır. Burada əks əlaqəsi büruzə olunur, tərəfmüqabil isə məlumdur. Həmçinin kommunikativ, yəni verbal və qeyri-verbal vasitələrinin bütöv kompleksini istifadə etmək, məntiqi və ya emosional arqumentlərinə düzgün oriyentasiyanı etmək imkanı var. İşgüzar söhbətlərin keçirilməsi üçün münaqişə, mübahisə vəziyyətlərində nitq davranışı üçün xüsusi məsləhətlər mövcuddur. Sosial idarəetmədə kütləvi informasiya vasitələri olan qəzetlərin, jurnalların, broşüraların, plakatların vasitəsilə həyata keçirilən ikitərəfli kommunikasiya istifadə olunur.

Mədəniyyətlərarası dialoq vasitəsilə dilin inkişafını təhlil edəndə nəzərə almaq lazımdır ki, ünsiyyət zamanı informasiyanın təhrifi baş verir və kommunikasiyanın ötürülməsi zamanı müxtəlif maneələr yaranır. Kommunikasiya maneələri – kommunikator və resipiyent arasında mövcud olan kontaktların və qarşılıqlı əməkdaşlığın kontaktların həyata keçirilməsinə mane olan əngəllərdir. Kommunikativ əlaqələrinin həyata keçməsi prosesində onlar mesajların müvafiq qəbulunu, anlamanı və mənimsəməsini çətinləşdirir. Maneələr həm texniki sistemində, həm də ünsiyyət mexanizmində yaranır.

Kommunikasiya maneələrinin təsnifatını mövcud olan əngəllərin xarakterinə görə vermək olar:

-***Texniki əngəllər.*** Bu növ əngəllərin mənbəsi kommunikasiya kanalının (faks, telefon) özüdür, kommunikasiya kanalında keçən siqnala əngəllər yarananda bu baş verir. Əngəllər informasiyanı qismən dəyişdirərək və ya azaldaraq tamamilə kommunikasiya kanalını bağlaya bilər.

- ***Psixoloji əngəllər*** kommunikator və resipiyent arasında mövcud olan münasibətləri ilə, onların məlumat kanalına, üslublarına, məzmununa və formasına olan əlaqələri ilə bağlıdır.

- ***Psixofizioloji əngəllər*** sensor (duyumsal) qabiliyyətlərinə, insan qavrayışının xüsusiyyətlərinə, informasiyanın beyində yadda saxlanılması və yenidən işlənilməsi qabiliyyətinə görə yaranır.

- ***Sosial əngəllər*** kommunikantların müxtəlif sosial qruplarına aiddiyyətində ifadə olunur; onlar informasiyanın əldə olunmasında sosial (ictimai) normaları, qadağaları, məhdudlaşdırmaları ilə şərtlənir.

- ***Milli-mədəni səbəblər.*** Millətlərarası kommunikasiyaların özünəməxsus xüsusiyyətləri ənənələrdə, normalarda, dəyərlərdə, kommunikasiyanın müxtəlif formalarının qiymətləndirilməsində, əldə olunan informasiyaya reaksiyasında mövcud olan fərqliliklərlə şərtlənir.

Sosioloqlar tərəfindən kommunikasiya əngəllərinin öyrənilməsi məqsədi yaranma və sosial sistemlərində informasiya əlaqələrin effektivliyinə təsir üslubların səbəblərinin aşkarlanmasıdır. Psixoloqlar isə kommunikasiya əngəllərini ünsiyyət psixologiyası, informasiyanın psixoloji qavrayışının fərqlilikləri nəzərindən təhlil edir. Kommunikasiyanın müxtəlif modellərində təhlil edilən əngəllər birləşə bilər, həmçinin şəxsi, spesifik, darprofilli əngəllər də yarana bilər.

Kommunikasiya kanallarında əngəllərin mövcudluğu və ya mövcud olmaması kanalın girişi və ya çıxışında informasiyanın müqayisəsi vasitəsilə yoxlanılır. Bu informasiyanı həmişə yoxlamaq olmur. Kommunikasiya sistemində əks əlaqəsinin mövcudluğu belə yoxlamanın həyata keçməsinə imkan yaradır. Kommunikasiyanın texniki şəbəkələrində belə müqayisələri keçirdən və təhrif edilən informasiyanı axtaran xüsusi qurğular, cihazlar, bloklar qurulur.

İnformasiyanın ötürülməsi yolunda yaranan əngəllər kommunikativ əlaqələrdə ciddi problemlər yaradır. Əngəllər məlumatın qəbulu, çatdırılması, ötürülməsi və əldə olunması mərhələlərində yarana bilər. Yaxud, başqa cür informasiyaya malik olan insanlar (və ya sistemlər) onu (məlumatı) çatdırmaq lazım olanda, adresata onu çatdıra bilmir; o insanlar ki, məlumatın çatdırılmasını təşkil etməlidir, bu və ya digər səbəb-

lərə görə o imkana malik olmaya bilər; məlumatı əldə etməli olan digər insanlar isə, həmçinin belə vəziyyətdə ola bilər ki, məlumatı əldə etməyə və ya anlamaya bilər.

Şəxsiyyətlərarası kommunikasiyalarında ***dil əngəlləri, maneələri*** tez-tez rast gəlir. Dilin tətbiqinin çətinlikləri hətta hər iki tərəfin kifayət qədər o dilin yaxşı istifadəsinin şəraitində də yaranır. Əgər bir tərəf nəzərdə tutur ki, ünsiyyətin tərəfmüqabili xüsusi terminləri başa düşmür, onda o, onları digər anlaşıqlı sözlərlə əvəz edir, gələcəkdə isə onları istifadə etməməyə çalışır. Rəsmi nitq ciddi şəkildə gündəlik nitqdən fərqlənir. Verbal ünsiyyət zamanı hərbçilər dəqiq müəyyən edilmiş, anlaşıqlı və birmənalı terminlərdən istifadə edir. Əgər filosofa hərbçilər danışdığı dildə danışmaq təklif olunsa, əmin ola bilərsiz ki, fəlsəfənin mahiyyəti həmçinin ciddi sürətdə dəyişiləcək.

Bir sözlə, kommunikantların üsullarının və ya məzmunun yaxud üslubun uyğunsuzluğu ilə bağlı olan ***üslubi maneələr***, bəzi hallarda dil (verbal) kommunikasiyada iştirak edən tərəflərin tamamilə anlaşılmazlığına gətirə bilər.

Maraqlı misal yerinə düşə bilər: "Təcrübəçilərin (tikinti və yol prorabların – iş tapşıranların) iclasında hesabat verilir ki, elmi işin nəticələri – yeni çəkic olmasıdır. Hesabatdan sonra qulaq asan sual verdi: "Çəkic insanı güclü sirkələyir?" Alim-tədqiqatçı sualı başa düşmədi. Ondan daha təcrübəli olan elm nümayəndəsi sualı anlaşıqlı elmi dilə tərcümə etdi: "Hansı dərəcədə qurğunun əhəmiyyətli xarakteristikalarından biri – vibrasiyalı konstant – vibroamilin icra edənə neqativ təsirini istisna edən tətbiqi şəraitinə müvafiqdir?" Hesabat verən alim başa düşdü və suala cavab verdi: "Keçirilən eksperimentlərin nəticəsində aşkar olundu ki, işlək üstün əyilmənin ortakvadratlı qeyri-dəqiqliyin tezlik amplitudası psevdohəndəsənin oxu nəticənin riyazi gözləmə ilə üst-üstə düşür və buna görə elə əsas yaranır ki, həmin münasibliyin həqiqi yeri var". Bu zaman isə fəhlə heç nə başa düşmədi. Tərcüməçi başa salmağa çalışaraq dedi: "Çəkici işlətmək olar".

Əgər (şifahi və ya yazılı) ünsiyyətə daxil olaraq bir çox ***semantik maneələr*** (sözlərin mənasının anlaması) yoxa çıxır, nadir hallarda istifadə edilən ikimənalı sözlərin və terminlərin mütləq interpretasiyasını da etmək lazımdır. İşarə sistemlərin (semiotikanın) xüsusiyyətlərinin düzgün təyini, hətta kifayət qədər mürəkkəb işarə konstruksiyaları istifadə edərək, mütəxəssislərə bir-birini başa düşməyə və həmçinin "abrakadabralardan" (sözlər düzülüşünün anlamlı olmayan sırasından) qurtulmağa imkan yaradır.

Kommunikasiyalarda istifadə olunan simvolların (sözlərin, şəkillərin, hərəkətlərin) düzgün olmayan mənaların verilməsinin səbəbinə görə, yəni kommunikasiya tərəfləri ilə istifadə edilən kodların uyğunsuzluğuna görə semantik maneələr yaranır. Beləliklə, mümkün olan bir neçə mənalardan kommunikatora yalnız birini seçmək lazımdır ona görə ki, o, birmənalı resipiyent tərəfindən qəbul edilsin. Müxtəlif mədəniyyətlərin nümayəndələri arasında mövcud olan kommunikasiya zamanı çoxlu sayda problemlər yaranır. Belə halda hər iki tərəf nitqdə istifadə edilən sözlərin və ifadələrin mənalarını həmişə yaxşı bilmir, ələlxüsus müvafiq tərzdə intonasiyanı, səsi, durğuları, müşahidə olunan qeyri-verbal jestləri nəzərə alaraq onları kontekstdə düzgün interpretasiya edə bilmir.

Hər dəfə, bizim düşüncələrimizin əsasında faktları yox, simvolları interpretasiya edəndə, biz elə qənaətə gəlirik ki, onlar kommunikasiyanın mahiyyətli hissəsidir. Adətən, biz onlardan vaz keçə bilmirik, çünki, tam həcmdə mesajın əldə olunmasını və qəbulunu gözləyərək şüurun işi dayana bilməz. Nəzərə alaraq ki, mülahizələr yalnış

siqnal verə bilər, biz həmişə bunu yadda saxlamalıyıq və onlara ehtiyatla yanaşmalıyıq. Tərəddüdlər yaransa, əlavə məlumata ehtiyac var.

İki səbəbə görə "abrakadabra" olur. Birincisi, sözləri düzgün istifadə etməməyə, onların mənalarını başa düşmədiyinə görə, həmçinin onların formalaşması zamanı qrammatik və məntiq qaydalarını çaşdırmamaq şərti ilə işarələr sistemlərini düzgün qurmağı bilmədiklərinə görə belə hal baş verir. İkincisi, dil mühitinə köhnəlmiş və spesifik "formulirovkaları" olan ifadələrin gətirilməsi nəticəsində, həmçinin hədsiz dərəcədə ifadələrin maksimal dəqiqliyinə cəhdin sayəsində "abrakadabra" ola bilər, çünki belə halda ya sözlərin itirilməsi, ya da digər istənilən səhv söz ifadəsinin məzmunlu konstruksiyasını absurda, cəfəngə qədər gətirə bilər.

Belə növ faktlarla əlaqədar bir misal. Məhkəmədə bir nəfərə gətirilən ağır bədən xəsarəti barədə işə baxılırdı. Aşağıdakılar baş vermişdir: orta məktəb şagirdi tikintidə işləməyə gəlmişdir. O, ziyalı ailəsindən idi və bu işin spesifikası barədə heç bir anlayışı yox idi. Onu təcrübəli fəhləyə köməkçi kimi göndərdilər. Balkonun divarını düzəltmək lazım idi. Fəhlə köməkçiyə çəkici verdi və dedi: "Qabırğaya vur!". İnsan və heyvanların qabırğalarından başqa cavan köməkçinin "qabırğa" anlayışı belə yox idi. Mahiyyəti, məzmunu dərk etmədən, cavan köməkçi əmri həqiqi mənada başa düşdü və anlaşılmaz vəziyyətdə fəhlənin qabırğalarına çəkic vasitəsilə ağır bədən xəsarəti gətirmişdir.

Başqa bir misal. Professor cavan aspirantı ilə danışan zaman söhbəti çox uzatmamaq məqsədi ilə və professional slenqdən istifadə edərək ona müraciətdə dedi ki, o, yay tətilindən sonra ona "balıq" gətirsin və söz verdi ki, tədqiq olunan problemləri onunla müzakirə edəcək. Aspirant gələndə professor ondan soruşdu: "Balığı gətirdin?" Aspirant isə çantasından bir dənə balıq çıxartdı. Burada aydın oldu ki, aspirant professoru qəti surətdə anlamayıb və müzakirə üçün təqdim edilən dissertasiyanın ilkin variantını ("balığı") hazır etməyib.

Semantik problemin təzahürü ilə bağlı olan az qala inanılmaz hadisələr təcrübədə kifayət qədər çox sayda və tez-tez rast gəlir.

Linqvistik təhlildə kommunikasiyanın maneələrindən biri "ölü", işlək olmayan süni dillərin rədd edilməsi ilə bağlıdır, çünki "diri, canlı" dil – danışıq dili, yalnız işarələr sistemi deyil, həm də müəyyən millətə, etnik, sosial qrupuna aiddiyyətinin təzahürüdür.

Yazılı mətnlər əsaslı şəkildə şifahi mətnlərindən fərqlənir. Əgər şifahi nitqdə həmsöhbətçil nəyisə yenidən soruşa bilirsə, anlamayan sözü dəqiqləşdirə bilər, yazılı mesaj alanda bunu təcrübi olaraq etmək mümkün deyil. Mətnlərin köməyi ilə həyata keçirilən *məsafəli kommunikasiyalarının* çatışmazlıqlarına baxmayaraq, müasir sivilizasiyanı yazılı mesajlar mövcud olmasa təsəvvür etmək olmur.

İnformasiya mübadiləsi prosesi subyektiv səbəblərinə görə pozula bilər (təfəkkür, qavrayışın psixoloji xüsusiyyətləri və s.). Müəyyən informasiyaya qərəzli münasibət bir çox hallarda mətndən kommunikasiya iştirakçısına xoşagəlməyən məlumatı olan xəbərin çıxarılmasına gətirir. İnformasiyaya belə münasibətinin nəticəsi olaraq, məsələn, 1944-cü ilin dekabr ayında Ardennada müttəfiqlərin məğlubiyyətinə gətirdi. Bu hal aşağı səviyyəli kəşfiyyatçı xidməti vasitəsilə əldə olunan məlumatlara laqeyd münasibətinin daha yüksək səviyyəli kəşfiyyat işçiləri tərəfindən lazımi diqqət göstər-

mədiyinin sayəsində baş verdi, çünki axırıncılarda artıq fərqli fikir yaranmışdır. Analoji maneələr tərəfmüqabil ilə kontaktdan yayınmaq səbəbinə görə yarana bilər.

İnformasiya mübadiləsi prosesində pozuntular həmçinin "ixtisaslaşdırma effektinə" görə də baş verə bilər. Mütəxəssislərin bir qrupu, bir qayda olaraq, əldə olunan informasiyaya az reaksiyalar verir və artıq formalaşmış anlayışları pozmamaq üçün tez-tez adət formada olanlarına yaxın onu təhlil edir. Onlar məlumatları dekodlaşdırır və əllərində mövcud olan vasitələr çərçivəsində istifadə edir.

İnformasiya mübadiləsi zamanı maneələr həmçinin işçilərin müxtəlif statuslu vəziyyətlərinə görə də yaranır. Belə kommunikasiyalarında informasiya həm aşağıdan yuxarı, həm də yuxarıdan aşağı təhlil olunur. İnformasiya aşağıdan yuxarı gələndə aşağı pillələrdə duran işçilərdə rəhbər işçilərin hörmətini, marağını qazanmaq üçün məlumatı "bəzəyib", dəyişdirib çatdırırlar. Bir çox hallarda rəhbər işçi nə eşitmək istəyir, ona onu da deyirlər. Yuxarı pillələrdə duran rəhbərlər isə, onlara göstərilən ehtiramlı, nəzakətli münasibəti real münasibət kimi qəbul edir, baxmayaraq ki, ünsiyyətin bu forması sadəcə vəzifəyə, statusa göstərilən hörmətdir. Rəhbər işçini tutduğu vəzifədən azad edən kimi, ona tabe olan işçilərin münasibətinin xarici göstəriciləri dərhal birmənalı dəyişir.

Aşağıdan yuxarı gələn informasiya rədd edilməsinin əsas səbəblərindən biri rəhbər işçilərin təcrübəsizliyindən, ambisiyalı olduqlarından, rəyasətpərəstliyindən irəli gəlir. Bir çox məmurlar heç kəsə qulaq asmamaq hüquqları ilə məmnun olur və tutduqları vəzifəyə görə onlara tabe olan işçilərə qulaq asmır.

Kommunikasiyalarda ***status maneəsinin*** mövcudluğu müsbət tərəflərinə də malikdir. Status azeffektli, azəhəmiyyətli və mənasız kommunikasiyalara görə rəhbər işçisinin vaxtının boş keçməsinə yol vermir. Belə növ kommunikasiyaları aşağı səviyyədə olan vəzifələri tutanlar da apara bilər.

Fonetik maneələr perseptiv (latın dilindən "perceptio" - "qavrayış" sözündən əmələ gəlib) və siqnifikativ (latın dilindən " significate" - "təyin etmək" sözündən əmələ gəlib) səviyyələrində yaranır. Perseptiv amil (qavrayış obyekti olmaq qabiliyyəti) səslərin fərqlənməməsinə görə kommunikasiya maneəsi ola bilər. Siqnifikativ amil isə (yuxarıda dayanan, mənalı vahidlərini – dil elementlərini: morfemləri, sözləri, cümlələri fərqləndirmək qabiliyyəti) sözlər, morfemlər, cümlələr vasitəsilə işarələrin məzmununun başa düşülməməsi səbəbinə görə kommunikasiya maneəsi ola bilər.

Kommunikasiya kanalı üzrə informasiyanın keçməsinin istənilən maneələri kommunikativ sistemin işini pozur. Buna görə də sistem vəziyyətinin müntəzəm diaqnostikasının mexanizmi nəzərə alınmalıdır. Bu mexanizm ilkin mərhələlərində maneələrin yaranma yerinin təyini üçün imkan yaradır. Bu onun işində mövcud olan müxtəlif pozuntulara görə itkilərin azalmasına gətirər.

Kommunikativ sisteminin funksional pozuntuları kommunikasiya kanallarının informasiyanı ötürülməsi qabiliyyətinin azalmasına görə baş verə bilər. Hər iki istiqamətə informasiyanın ötürülməsi tam dayananda, yəni hətta bir kommunikasiya kanalının tamamilə "tutulması" - daha təhlükəlidir. Belə hallarda pozulan kommunikasiya kanalının bərpası çox lazımdır, pozulan sahəyə paralel olaraq yeni kanal salmaq zəruridir. Pozulan kanalı (və ya onun müəyyən bir sahəsini) eyni kanal ilə əvəz etmək lazım deyil.

Məsələn, firmanın agenti, bəzi məqamları aydın etmək üçün çətin və uzaq yerə gedib və o yerdə kommunikasiya vasitələri zəif təmin olunub. Əgər vəziyyət yaxşı olsa müqavilə bağlanacaq idi. Mobil rabitə, firmanın rəhbəri (kommunikasiya kanalı) ilə əlaqə saxlamaq üçün o zaman yeganə rabitə vasitəsidir, və o işləmir, yəni kanalın tutulması baş verib. Əsas kommunikasiya kanalına müvəqqəti vasitə kimi agent teleqramı istifadə etdi. Elektron poçtanı tapandan sonra isə o, effektiv şuntu tapdı. Kommunikasiya şuntu paralel kommunikasiya kanalından fərqli olaraq əsas kommunikasiya kanalı düzələnə qədər, müvəqqəti istifadə edilir.

Kommunikasiya sistemlərində ***informasiyanın təhrifi*** kifayət qədər tez-tez rast gələn hadisədir. İnformasiyanın məzmunu dəyişiləndə, onun təhrifi müşahidə olunur. İnformasiyanın itirilməsi bütün mesajın ya da onun müəyyən hissəsinin çatdırılmaması ilə müşayiət edilir.

Məlumdur ki, hətta nazirin, baş direktorun, ümumiyyətlə, rəhbər işçinin həmişəki gündəlik qeydləri, iradları onlara tabe olan işçilər tərəfindən təkrar olunur, interpretasiya edilir, hərdən tamamilə məzmunları dəyişilir. İnformasiya ötürülməsinin mərhələləri nə qədər çox olsa, bir o qədər onun təhrifinin mümkünlüyü çoxdur.

Misal üçün, auditoriyada istənilən informasiya 2-5 mərhələdən keçəndən sonra, onun məzmunu tamamilə dəyişilir. Burada informasiyanın təhrifi sxemi aydın görsənir. Yarım səhifəlik mətni danışanda beş nəfərdən sonra mətnin məzmunu inanılmaz dərəcədə dəyişir.

Məsələn, bir vərəqdə yerləşən üç-dörd şəkillərin məzmununu təsnif etmək cəhdində artıq ikinci mərhələdə rəsmlərə subyektiv qiymətindən irəli gələn maneələrlə rastlaşırıq. Tələbələr tez-tez mahiyyətli məqamı nəzərdən buraxaraq, mənasız nüanslara fikir verirlər. Müqayisə edək: qızlar bəzək əşyaların elementlərini nəzərdən qaçırmırlar, lakin rəsmdə olan kommunikasiyanın əsas iştirakçılarına fikir vermirlər. Oğlanlar isə, xanımların bədənlərinin hissələrini, konfiqurasiyasını və ya kişi bədəninin gücünü nəzərdə saxlayır, lakin insanları əhatə edən landşaftın elementlərinə lazımi diqqət yetirmirlər. Bununla belə, istənilən elementin təsnifi xırdalıqları tamamilə onların maraqlarına, zövqünə, tələbatına müvafiqdir, amma heç bir halda informasiyanın əsas elementlərinə diqqət yönəltmək məqsədəuyğunluğu ilə əsaslanmayıb, onlara yalnız müəllim diqqət yetirir.

Belə ki, informasiya ötürülmə prosesinin çoxlu sayda mərhələlərini və böyük məsafələrini keçəndə daha çox təhrif edilir. Lakin son halın heç bir məsafələrə aiddiyyəti yoxdur, o, texniki vasitələrlə dərhal mənimsənilir, əldə edilir. Texniki vasitələr coğrafi məsafəni fəth etməyə kömək etdi və bununla kommunikasiya subyektlərini yaxınlaşdırdı. Bu kommunikasiya kanalları vasitəsilə keçirilən informasiya ötürülməsinə aid nəzarətin imkanlarını gücləndirir. Halbuki texniki vasitələrin köməyi ilə mövcud olan kommunikasiyaların həyata keçirilməsi iştirakçıları "canlı ünsiyyətdən" məhrum edir. Hətta telefon, bilavasitə ünsiyyətin müəyyən dərəcədə analoqu olaraq, "canlı nitqin" çalarlarını, mimikanı, jestləri hiss etməyə imkan vermir. İkitərəfli videointeraktiv əlaqə bilavasitə ictimai ünsiyyəti tamamilə əvəz edə bilməz. Hətta monitorun ekranında həmsöhbətçinin üzü, əlləri və jestləri görsənsə də, buna baxmayaraq işarə olunan elementlərindən başqa fluidləri (insanın bioenerji sahəsini) hiss etməyə imkan verən, tam əlaqənin olmaması hiss edilir.

Kommunikasiyanın texniki sistemlərinin maneələrini belə təsnif edirlər: eyni bir şəhərdə, binada və ya otaqda azad fikir mübadiləsi prosesində məneələri aradan qaldırmaq kifayət qədər çətindir. Mərkəzi idarə və şöbələrin arasında mövcud olan məsafə artıqca onlar daha da çətin aradan qaldırılan problemlərə çevrilir. Eyni bir mühitdə –

coğrafi, sosial və professional – ümumi əhatə hərdənbir hətta sözlər ifadə edə bilmədikləri müəyyən anlayışa aid çoxlu işarələr verirlər. Böyük məsafələrdə informasiya ötürülməsi zamanı belə element mövcud olmur!

Yazılı mesaj daha da çox dərəcədə qarşılıqlı anlaşma yolunda maneələri yaradır. Yazılı qarşılıqlı əməkdaşlığın adresatları bir-birini tanımırsa, onda mətn tamamilə şəxssizləşir. İstənilən heç bir məktub, hətta yazılı sözlərin və ifadələrin bütün məna çalarlarını anlayan, xatirələrə və müəyyən anlayışlarının yaranmasına əsas da yaratsa, yaxın insana ünvanlanan da olsa, "canlı ünsiyyəti" tamamilə əvəz edə bilməz.

Mesaj məzmununun yalnış və ya tam olmayan anlaması məlumatın azlığı və ya çoxluğu ilə əlaqədar ola bilər. İnformasiyanın azlığı təkrar sualların tətbiqi vasitəsilə tamamlanır və ya o təxmini tapılır, zənn edilir. Artıq məlumatı bir çox hallarda tamamilə işləyə, ötürə və anlaya bilmirlər. Lüzumsuz məlumat bir sıra kanalların vasitəsilə verilən eyni bir mesajın vaxtaşırı müxtəlif formalarda təkrarına görə alınır.

İnformasiyanın düşünülmüş və ya təsadüfi təhrifi yazılı mesajların ötürülməsi zamanı üfüqi istiqamətdə yuxarıdan aşağı baş verir. Çatdırılması aşağı pillələrə nəzərdə tutulmuş sənədlərdə, informasiyanın bir hissəsi ki, rəhbərlik onu aşkar bəyan olunmasını istəmir, buraxılır, bir hissəsi bəzənilir, digər hissəsi isə lazımi səviyyədə işıqlandırılır.

İnformasiyanın artıq yüklənilməsinin problemləri mesajların növbəsinin nizamlanması, filtrasiyası vasitəsilə həll olunur. İnformasiyanın qəsdən təhrifi üsullarının biliyi rəhbər işçilərinə vaxtında onların qarşısını almağa imkan yaradır. İnformasiya təhrifinin azalması informasiya axınında vasitəçilərinin uzaqlaşdırılmasına, informasiya ötürülməsinin səviyyələr sayının azalmasına, rəhbər işçiləri tərəfindən həmin növ fəaliyyətinin nəzarətinə, kommunikasiya sistemlərində "inam kanallarının" daxil olunmasına təkan verir.

Əbdülhəsənli T.Ə.,
filologiya elmləri doktoru, professor
Azərbaycan Dövlət İqtisad Universiteti

QLOBALLAŞAN DÜNYADA AZƏRBAYCAN DİLİNİN İNKİŞAF DİNAMİKASI

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan dilini əbədi edibdir və bu gün Azərbaycan dilimiz yaşayır və yaşayacaqdır.

Heydər Əliyev

Qloballaşma həyatın ən müxtəlif sahələrini əhatə edən elə bir universal prosesdir ki, min illər boyu bir-birindən bu və ya digər dərəcədə təcrid olunmuş, parçalanmış və differensiallaşmış hadisələri: milli, yaxud regional xüsusiyyətləri, vərdişləri, kompleksləri çağdaş texnologiyaların güclü təsiri altında görünməmiş bir sürətlə bir-birinə yaxınlaşdırır. Bunun nəticəsində qloballaşma çoxşaxəli əlaqələrlə səciyyələnən iqtisadisiyasi və mənəvi-ideoloji bütövlük yaratmaqla müxtəlifliyə sədd çəkərək dünyada baş verən hadisə və prosesləri vahid məcraya salır. Əslində orta əsrlərin sonu, yeni dövrün əvvəllərindən başlanan, lakin XX əsrin ortalarından etibarən daha da sürətlə-

nən qloballaşmanın əsas göstəricisi bütün dünyanı əhatə edən çoxşaxəli inteqrasiya və ya beynəlxalq ünsiyyət-kommunikasiya ehtiyacıdır.

Akademik R.Mehdiyev bu münasibətlə yazır: "Qlobal proseslər müəyyən mənada milli dövlətlərə çağırışlardır. Qloballaşmanın həyatımıza nə isə bir yenilik əlavə edəcəyinə aludə olmaq yox, onun hələ tam dərk etmədiyimiz nəticələri haqda düşünmək lazımdır. Bir məsələyə əsla şübhə yoxdur ki, qloballaşma beynəlxalq ictimaiyyətin Qərb mədəniyyəti və kapitalizm cəmiyyəti prinsipləri əsasında homogenləşdirilməsi (yekcinsləşdirilməsi) prosesidir. Eyni zamanda, milli dövlətlərin rolunun və funksiyalarının dəyişməsi (nivelirlənməsi) qloballaşmanın ən mühüm məqsədlərindən biridir".

Qloballaşan dünyada Azərbaycan dilinin taleyi, təbiidir ki, hər bir vətəndaşımızı milli təəssübkeşlik baxımından dərindən düşündürən taleyüklü məsələdir. Azərbaycan dili dövlət dilləri, yaxud milli dillər qrupuna aid olub həmin dillər üçün səciyyəvi olan bir sıra əlamətləri özündə əks etdirir. Kifayət qədər qədim və zəngin şifahi və yazılı nitq mədəniyyətinə malik olan Azərbaycan dili XX əsrin əvvəllərindən dövlət dili olsa da, onun milli dil və ya müstəqil bir millətin dili kimi formalaşma tarixi orta əsrlərin sonu yeni dövrün əvvəllərindən başlayır. Elə həmin mərhələdən etibarən bir sıra qonşu xalqlar: ermənilər, gürcülər, Dağıstan xalqları və s. regionun regional ünsiyyət vasitəsi olaraq Azərbaycan dilindən istifadə etmişlər. Lakin ölkənin müxtəlif xanlıqlara parçalanması, XIX əsrin əvvəllərində Şimalının Rusiya, Cənubunun isə İranın tərkibinə daxil edilməsi nəticəsində şimalda rus, cənubda isə fars dili yayılmağa, millətin dili sıxışdırılmağa məruz qalmışdır, bir neçə dəfə əlifbası dəyişdirilmişdir. Bununla belə Azərbaycan dili dövlət dili olaraq formalaşmış, dünya azərbaycanlılarının ümumünsiyyət vasitəsi kimi inkişaf etmişdir.

Respublikada dil siyasətinin formalaşdırılması, ana dilinin dövlət dili kimi tətbiqi işinin təkmilləşdirilməsi və dünya azərbaycanlılarının ünsiyyət vasitəsinə çevrilərək milli həmrəyliyin göstəricisi kimi beynəlxalq aləmdə rolu və nüfuzunun yüksəlməsi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev hələ sovet dövründə mərkəzin ciddi müqavimətinə baxmayaraq, respublikamızda Azərbaycan dilinin dövlət dili statusunun 1978-ci il Konstitusiyasında əks olunmasına nail ola bilmişdi. Müstəqil Azərbaycan dövlətinin ulu öndərin rəhbərliyi ilə hazırlanmış və qəbul edilmiş yeni Konstitusiyasında isə dövlət dili haqqında ayrıca bənd verilmişdir.

Bu gün müstəqil Azərbaycan Respublikasında möhtərəm prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə uğurlu dil siyasəti həyata keçirilir. Dil siyasətinin prinsipləri imkan verir ki, ana dilimizin, eləcə də digər dillərin sərbəst və bərabər inkişafı təmin olunsun, bu istiqamətdə ünvanlı proqramlar həyata keçirilsin. Bu baxımdan dövlətimizin dil siyasəti ana dilimizin inkişafı və kommunikativ enerji resurslarının potensialını təşkil edən bütün komponentlərin həyata keçirilməsi üçün münasib şərait yaradır.

Biz hər hansı milli mövqedən, o cümlədən də milli dil mövqeyindən qloballaşmanı təqdir etməsək, hətta ona müharibə elan eləməyə qalxsaq belə, bu təbii-tarixi proses - hərəkat qarşısına çıxan bütün maneələri vurub dağıdacaq və bəşəriyyətin çoxdan arzusunda olduğu və artıq kifayət qədər populyar ifadə ilə desək, "sərhədsiz dünya"nı reallaşdıracaqdır. Təəssüf ki, vaxtilə kommunizm də buna can atırdı, indiki

halda kapitalizm də buna meyillidir. Odur ki, "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nın hazırlanıb Azərbaycan prezidentinin 2013-cü il 9 aprel tarixli sərəncamı ilə təsdiq edilməsi çox mühüm tarixi hadisədir. Müasir dövrün tələblərini, konkret olaraq, qloballaşma prosesinin fəlsəfəsini nəzərə alan Dövlət Proqramının məqsədi Azərbaycan dilinin istifadəsi və tədqiqinə dövlət qayğısının artırılmasını, Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsini, ölkədə dilçilik araşdırmalarının əsaslı surətdə yaxşılaşdırılmasını, dilçiliyin aparıcı istiqamətlərində fundamental və tətbiqi tədqiqatların inkişafına yönəldilmiş yaradıcılıq səylərinin birləşdirilməsini və dilçiliyin müasir cəmiyyətin aktual problemləri ilə əlaqələndirilməsini təmin etməkdir .

Dövlət Proqramında "qloballaşma" anlayışının, tamamilə doğru olaraq, geniş izahı, bu barədəki biri digərinə çox zaman zidd olan mülahizələrin icmalı verilməmişdir, lakin bu mühüm dövlət və milli əhəmiyyətli sənədin meydana çıxmasının tarixi səbəbinin məhz qloballaşmanın qaçılmazlığı olması Proqramın demək olar ki, hər bir müddəasında öz əksini tapmış, nəticə etibarilə, ümumdünya miqyaslı - bütün bəşəriyyəti düşündürən prosesə kifayət qədər dərin analitik münasibət bildirilmişdir: "Bu gün Azərbaycan dilinin milli dövlətçiliyin başlıca rəmzlərindən olaraq istifadəsi və əsaslı tədqiqi, ölkədə dilçilik elmi sahəsində vəziyyətin yaxşılaşdırılması üçün əlverişli zəmin yaradılmışdır. Eyni zamanda elm və texnikanın sürətlə inkişaf etdiyi hazırki qloballaşma dövrü Azərbaycan dilinin zənginləşməsi və tətbiqi imkanlarının genişləndirilməsi istiqamətində aparılan işlərin yeni səviyyəyə yüksəldilməsini tələb edir".

Azərbaycan dilinin qloballaşan dünyadakı taleyi müxtəlif müəyyən və qeyri-müəyyən şərtlərlə bağlı olsa da, ən azı üç istiqamətdə tədbirlərin həyata keçirilməsi öz zəruriliyini göstərir:

1) Azərbaycan Respublikası daxilində Azərbaycan dilinin dövlət dili olaraq inkişafının təmin edilməsi;

2) Dünya azərbaycanlıları arasında bu dilin əsas ünsiyyət vasitəsi kimi ədəbi-normativ keyfiyyətdə yayılması;

3) Dünyada Azərbaycan dilinə marağın gücləndirilməsi. Əslində, biri digəri ilə sıx bağlı olan bu məsələlərin hər birində Azərbaycan dilinin müvafiq şəkildə mövqeyinin möhkəmləndirilməsi üçün zəruri şərtlər də mövcuddur ki, buraya, birinci növbədə, əhali potensialı, xalqın intellektual-mədəni imkanları və müstəqil Azərbaycan dövlətinin kifayət qədər mükəmməl dil siyasəti daxildir.

Burada bir-biri ilə müxtəlif cəhətdən sıx bağlı olan, ardıcıl – sistematik, həm də qarşı-qarşıya duran iki fakt diqqətimizi cəlb edir:

1) Dövlət müstəqilliyimizin bərpasından sonra Azərbaycan Respublikası dövlət dilinin həm ölkə daxilində, həm də ölkədən kənarda istifadəsi miqyasının genişləndirilməsi və dilçiliyimizin tərəqqisi üçün hərtərəfli siyasi-ideoloji imkanlar yaratmışdır;

2) Qloballaşma açıq şəkildə tələb edir ki, həmin imkanlardan faydalanmaqla ölkəmizdə və xaricdə Azərbaycan dilinin daha geniş istifadəsi, onun ictimai, siyasi və mədəni-intellektual nüfuzunun təmin edilməsi ilə bağlı məqsədyönlü tədbirlər reallaşdırılsın.

Şübhəsiz ki, qloballaşan dünyada Azərbaycan dili məlum maneələr, yaxud problemlərlə qarşılaşacaqdır, ancaq buna rəğmən təkmilləşmə istiqamətində də geniş

imkanlar açacaqdır. Professor F.Veysəlli yazır: "Azərbaycan dilinin sabahı qloballaşmanın vüsətindən asılıdır. Biz nə qədər çalışsaq da, dünyada gedən iqtisadi, mədəni, geosiyasi təmərküzləşmənin dilə təsirinin qarşısını almaqda acizik".

Bütün bunlarla yanaşı, son 20 illik inkişaf yolunun təcrübəsi göstərir ki, digər sahələrdə olduğu kimi, ana dilimizin öyrənilməsi və tətbiqi sahəsində də hələ görüləsi işlər çoxdur. Ölkəmizin orta, orta ixtisas və ali məktəblərində Azərbaycan dilinin müasir dünya standartlarına, milli-mədəni inkişaf tariximizin tələblərinə cavab verən tədrisi işinin təkmilləşdirilməsinə ehtiyac vardır. Bir çox kütləvi informasiya vasitələrində, rəsmi yazışmalarda, kargüzarlıq və başqa sahələrdə Azərbaycan ədəbi dilinin normalarına yetərincə əməl edilməməsi də aktual problemlərdən biri kimi özünü göstərir. "Bu normasızlıq adi hal almışdır, normasızlıq onlar üçün normaya çevrilmişdir". Azərbaycan dilinin reklam işində istifadəsində ciddi qüsurlara, nöqsanlara rast gəlinir. Kəskin tənqidlərə baxmayaraq, reklam vasitələrinin hazırlanmasında bir çox hallarda xarici dillərə əsassız olaraq üstünlük verilir. Şəhər və qəsəbələrimizin görkəminə xələl gətirən xarici dilli lövhələr gənc nəslin azərbaycançılıq ruhunda tərbiyəsinə mənfi təsir göstərir. Kino və televiziya ekranlarında dublyaj edilmiş ekran əsərlərinin tərcümə səviyyəsi olduqca aşağıdır. Eyni zamanda, xaricdə yaşayan soydaşlarımızın Azərbaycan dili dərslikləri, tədris vəsaiti, ana dilində elmi və bədii ədəbiyyat, mətbuat və sair ilə təmin olunması qənaətbəxş deyildir.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyev "İctimai və humanitar elmlər: zaman kontekstində baxış" əsərində haqlı olaraq yazır: "Azərbaycan dilinin cəmiyyətimizdəki mövqeyi çox güclüdür. Həyata keçirilən irimiqyaslı layihə ədəbi irsimizi kütləvi surətdə latın qrafikası ilə çap etməyə imkan verdi. Bu mədəni həyatımızda çox böyük hadisədir. Digər tərəfdən, dövlətin dilə və ədəbiyyata olan qayğısının təzahürüdür. Lakin hər bir dilin inkişafı onun kütləvi informasiya vasitələrində, müasir ədəbiyyatda, terminoloji problemlərin həllindəki mövqeyi ilə bağlıdır. Bu baxımdan etiraf etmək lazımdır ki, bu gün canlı danışıq dilimizdə müşahidə olunan bəsitlik, müasir ədəbi əsərlərin qıtlığı, kütləvi informasiya vasitələrinin dilindəki üslub pozuntuları və qəlizlik bizim dilçilərin və ədəbiyyatşünasların araşdırmalarında lazımi yer tutmur. Heç kəsə elə gəlməsin ki, dilin dövlət dili elan edilməsi ilə dillə əlaqəli olan bütün problemlər aradan qaldırılır. Daim dilin keşiyində dayanmalı olan insanlar, təəssüf ki, müasir dövr üçün zəruri sanballı tədqiqatları həyata keçirmirlər".

Qloballaşma şəraitində dövlət dilinin inkişaf etdirilməsi, onun məzmununun zənginləşdirilməsi, tətbiqi problemlərinin aradan qaldırlması olduqca mühüm əhəmiyyət kəsb edir. Əslində çağdaş dövrümüzəcən milli ədəbi dilimiz keşməkeşli və uzun bir tarixi inkişaf yolu keçmiş, təkmilləşmiş, Azərbaycan xalqının intellektual potensialını öz canına hopdura bilmişdir. Bəzən belə bir sualla qarşılaşırıq ki, dil nə qədər inkişaf edib? Əlbəttə, bu elmi məntiqə sığmayan sualdır. Çünki obyektiv gerçəklikdir ki, insan təfəkkürü nə qədər inkişaf edibsə, dilin inkişafı da elə o qədərdir. Yəni «təfəkkürüstü dil» deyilən bir şey yoxdur. Ədəbi dil yerli dil üzərində qurulur və sonrakı yaşam tarixini irəliyə doğru yönəldir. Bu da faktdır ki, ədəbi dil dildaxili və dilxarici faktorların mərkəzində yer alır. Bu qarşılıqlı fonda ədəbi dil ümumxalq dilindən əlini üzmədən yetişir və dövrdən-dövrə, mərhələdən-mərhələyə adlayır. Beləliklə, Azərbaycan ədəbi dili mürəkkəb bir tarixi prosesin nəticəsi olaraq mükəmməl imkan-

lara malikdir. Prof. Bəkir Çobanzadə də yazırdı ki, “Dürlü çağlarda insanın yeyəcəyi nasıl dəyişiyorsa, dilə olan ehtiyacı da öylə dəyişiyor, dürləniyor” .

Hazırda planetimizdə müşahidə olunan qloballaşma şəraitində xalqların sözlü (verbal) və sözsüz (nonverbal) ünsiyyətdə bulunması vacib amil kimi bəşəriyyət qarşısında duran mühüm məsələlərdəndir. Rəsmi danışıqlardan tutmuş fərdlərarası ünsiyyətə qədər insanların fəaliyyəti canlı, əsasən şıfahi, amma məsafəcə daha çox yazılı formada reallaşan ünsiyyətdə dil aparıcı silah rolunda çıxış edir. Hədəfə dəymək üçün daha yığcam və daha çevik danışmaq kommunikantlardan zəngin dünyagörüşü, dərin bilik və yaradıcılıq tələb edir. Bu gün ən müasir sayılan texnoloji yenilik belə dil qədər önəmli ola bilmir, çünki bütün texnoloji yeniliklərin xalqların məişətinə tam daxil olması üçün xüsusi metadilə ehtiyacı var.

Dilimizin qorunması, saflığının təmin olunması və inkişaf etdirilməsi istiqamətində qarşıda duran vəzifələrin həyata keçirilməsində terminologiya fəaliyyəti mühüm missiya daşıyır. Belə ki, əvvəllər Azərbaycanda terminoloji mühiti həm dövlət, həm də ictimaiyyət tərəfindən nəzarətdə saxlamaq mümkün idi. Bunun da bir sıra səbəbləri var idi. Həmin vaxtlar xarici dillərdən Azərbaycan dilinə tərcümə olunan çap materiallarının sayı çox deyildi, tərcümə prosesi ciddi şəkildə nəzarətdə idi və ölkə daxilində çap olunan materiallar da müxtəlif səviyyəli ekspertizadan keçirilirdi. Digər tərəfdən, televiziyada, radioda və başqa kütləvi informasiya vasitələrində verilən materiallar digər tələblərlə yanaşı, həm də terminoloji tələblərə cavab verməli idi. Amma son zamanlar ölkəmizdə xarici ölkələrə məxsus KİV-in geniş yayılması, ən başlıcası, internetin cəmiyyətin müxtəlif sferalarına sürətlə nüfuz etməsi, insanların müxtəlif bilik sahələrinə aid məlumatlardan istifadə etməsi nəticəsində azərbaycandilli terminoloji mühiti nəzarətdə saxlamaq çox çətin məsələyə çevirib. Belə bir şəraitdə dilin terminoloji bazasını yad sözlərdən qorumaq, inkişaf etdirmək, bütün dünya azərbaycanlılarının müraciət etmək imkanı olan bir onlayn resurslar yaratmaq, yeni termin yaradıcılığı prosesinə virtual məkanın imkanlarından istifadə etməklə interaktiv forumlar vasitəsilə geniş ictimaiyyəti cəlb etmək və s. mühüm vəzifələrdir.

Cəmiyyətin bir çox fəaliyyət sahələrinə nüfuz edən qloballaşmanın dilə birbaşa təsir dairəsi onun leksik səviyyəsi ilə bağlıdır. Leksikanın əsas və ən fəal bölmələrindən biri olan terminologiya elmi-texniki tərəqqi, qloballaşma ilə əlaqədar dəyişir, yeniləşir. Beynəlxalq aləmə, Avropaya birbaşa çıxış dilin bütün səviyyələri ilə yanaşı, terminologiyaya da təsir göstərir. Məlumdur ki, elmi dili mütəxəssislər inkişaf etdirir və bir elmi dil vahidi çox asanlıqla başqa dilə keçərək orada inkişaf edə bilər. Lakin ilk növbədə, elmi dil vahidləri Azərbaycan dilinin daxili imkanları hesabına olmalıdır. Elmi-texniki tərəqqi, ictimai-siyasi həyatın inkişafı terminologiyanın fasiləsiz olaraq dəyişməsinə və tərəqqisinə təsir göstərir.

Qloballaşma, hər şeydən əvvəl, beynəlxalq ünsiyyətin durmadan miqyaslanmasını tələb edir ki, bu da insanlar arasında ən mühüm ünsiyyət vasitəsi olan dilin təbiətinə əhəmiyyətli dərəcədə təsir edir. Bu gün dünyada mövcud olan yüzlərlə dildən yalnız bir neçəsi beynəlxalq statusa və ya nüfuza malikdir ki, bunlar ingilis, fransız, alman, ispan, Çin, ərəb, rus və s. dillərdir. Həmin dillərin içərisində isə ingilis dilinin xüsusi mövqeyi vardır. Müasir dünyada, o cümlədən də Azərbaycanda ingilis dilinin nüfuzunun sürətlə artması müşahidə olunur ki, bunun ən azı iki səbəbi mövcuddur:

1) Dünyanın universal bir ünsiyyət vasitəsinə getdikcə güclənən ehtiyacının

yaranması;

2) İngilis dilinin belə bir ehtiyacı ödəmək üçün digər nüfuzlu dillərlə müqayisədə üstünlükləri.

Diqqətçəkən məqamlardan biri də elə məhz budur: beynəlxaq ünsiyyət modellərinin, əcnəbi dillərin, xüsusilə ingiliscənin Azərbaycan dilinin quruluşuna bu və ya digər dərəcədə təsir etməsidir. Qloballaşmanın faktoru beynəlxalq kommunikativ funksiyanı uğurla yerinə yetirən ingiliscənin milli dillərə, o cümlədən Azərbaycan dilinə təsir dairəsi də bu gün göz önündədir. Vaxtilə klassiklərimizin dilinə nüfuz etmiş ərəb-fars sözləri necə dilimizdə anlaşılmazlıq yaratmışsa, bu gün ingilis dilli terminologiyanın dilimizə daxil olması da eyni mənzərəni xatırladır. Bəzən elmi, yaxud elmi-publisistik əsərləri, rəsmi üslubda yazılmış mətnləri oxuyarkən Avropa mənşəli sözlərin ağırlığından (hətta yazılı nitqin normalarına əməl olunmadan belə!) anlamaq olmur. Belə sözlərin lüğətlərdə də yer almasında sistematiklik yoxdur: ona görə də bu gün orfoqrafiya lüğəti ilə bağlı müzakirələrdə haqlı olaraq bu məsələ mübahisə obyektinə çevrilmişdir. Qloballaşmanın dilimizə olan təsiri ilə bağlı bir fakta diqqət yetirək.

Azərbaycan Respublikasının mərkəzdən kənar bölgələrində, məsələn, bir kəndində müasir tipli böyük bir mağaza açılıb üzərinə "supermarket" yazılırsa, buna tamamilə təbii baxmaq lazım gələcəkdir. Hətta həmin kəndin xüsusilə yaşlı əhalisi onu bir müddət köhnə adət ilə "dükan" adlandırsa belə... Çünki qloballaşma milli dillərə və ümumən mədəniyyətlərə, birinci növbədə, paradokslarla daxil olur, ziddiyyətlər, görünən və ya görünməyən qarşıdurmalar yaradır. Mahiyyət isə bundan ibarətdir ki, qlobal olan hadisə milli və ya regional olan qədər insan üçün maraqlı və ya cəlbedicidir. Hələ orta əsrlərdə öz mifologiyaları, dini inamları olan müxtəlif xalqlar, etnoslar islam dinini, yaxud dünyagörüşünü, yaxud da mədəniyyətini məmnuniyyətlə qəbul edib ümumi bir supermilli və ya superetnik dünya yaratmadılarmı? Bununla belə türk türklüyündə, iranlı iranlılığında, qafqazlı qafqazlılığında qalmadımı?.. Onda düşünmək olar ki, planetimizdə formalaşmaqda olan monomədəniyyət bütün dünyanı məhvə doğru aparır, demək lazımi qədər əsaslandırılmamış mülahizədir.

Azərbaycan xalqı heç zaman dünyaya qovuşmaqdan, yaxud beynəlxalq inteqrasiyadan imtina etməmişdir. Əsrlər boyu dilimizdə olmuş çoxsaylı ərəb, fars, Avropa sözləri, habelə, bu gün uğurla yürüdülən dil siyasəti də bunun əyani sübutudur. Vaxtilə dilimizə daxil olmuş leksik vahidlər o sözlərdir ki, bütün xalqlar üçün səciyyəvi olan məişət-etnoqrafiya həyatına aid olan anlayışları deyil, intellektual- elmi idrak sahələrini əhatə edir ki, bu da Azərbaycan türklərinin ümumbəşəri dəyərlərə heç vaxt biganə qalmadıqlarını və bundan sonra da biganə olmayacaqlarını göstərir. Bizcə, Dövlət Proqramı da xalqımızın qloballaşma şəraitindəki tarixi maraqlarını və gələcək perspektivlərini uğurla əks etdirir.

Beləliklə, bütün bunlar onu deməyə əsas verir ki, qloballaşan dünyanın yeni çağırışlarına müsbət cavab verən müstəqil Azərbaycan dövlətinin dil siyasəti Azərbaycan dilinin zənginləşməsi və tətbiqi imkanlarının genişləndirilməsi istiqamətində aparılan işlərin yeni səviyyəyə yüksəldilməsinə çoxşaxəli imkanlar yaradır. Bu gün informasiya texnologiyalarının inkişafı ilə şərtlənən və həyatın bütün sahələrinə nüfuz edən qloballaşma prosesi yeni dönəmdə dövlət dilinin inkişaf strategiyası haqqında daha ciddi düşünmək məsuliyyətini ortaya çıxarmaqla bu sahədə aparılan islahatlara öz dəyərli töhfəsini verəcəkdir.

Hüseynov S.,
fəlsəfə elmləri doktoru
Süleymanov G.,
fəlsəfə elmləri üzrə fəlsəfə doktoru
AMEA-nın Fəlsəfə İnstitutu

DAVAMLI İNSAN İNKİŞAFI VƏ MƏDƏNİYYƏTLƏRARASI DİALOQ

İnsan İnkişafı Konsepsiyası (İİK) sosial tərəqqi tendensiyalarını təhlil etməklə cəmiyyətdə hər bir fərdin vəziyyətinin müxtəlif indikatorlar vasitəsilə çoxcəhətli dəyərləndirilməsinə əsaslanır. Digər inkişaf konsepsiyalarından fərqli olaraq İİK insan həyatının təkcə iqtisadi tərəflərini deyil, eyni zamanda onun sosial aspektlərini də (təhsil, səhiyyə, ekologiya, demoqrafiya, mədəniyyət, ailə və məişət və s.) əhatə edir. İnsan inkişafı ictimai həyatın bütün sahələrində fərdin inkişaf imkanlarının genişlənməsi prosesinin əsas istiqamətlərinin göstəricisidir.

BMT tərəfindən 1990-cı ildə İnsan İnkişafı Konsepsiyası kimi irəli sürülən bu təlim 1992-ci il Rio-de-Janeyro konfransından sonra Davamlı İnsan İnkişafı Konsepsiyası kimi "vətəndaşlıq" hüququ qazanmışdır. 1992-ci ildən sonra BMT-nin davamlı inkişafla bağlı keçirilən ümumdünya konfranslarında Davamlı İnkişaf Konsepsiyasının müxtəlif aspektləri formalaşmışdır. Məsələn, BMT-nin Vyana (1993) konfransında inkişaf – insanın əsas hüquqlarından biri kimi bəyan edilmiş, Qahirə (1994) konfransında insan inkişafının demoqrafik amilləri təhlil edilmiş və Davamlı İnsan İnkişafında sağlamlıq aspektləri əsas strateji istiqamət kimi müəyyənləşdirilmişdir. BMT-nin Sosial inkişafa həsr olunmuş Kopenhagen (1995) konfransı isə bütün ölkələrdə davamlı insan inkişafının təmin edilməsində yoxsulluq və işsizliyin aradan qaldırılmasının əsas şərt olduğu bəyan edilmişdir. BMT-nin İstanbul konfransı (Habitat II, 1996) Dİİ-da yaşayış məskənlərinin əhəmiyyətini müzakirə etmişdir.

Bəzi alimlər haqlı olaraq hazırkı şəraitdə ictimai tərəqqinin vəziyyətini-iqtisadi inkişafla yanaşı, insanların cəmiyyətdəki vəziyyəti ilə, o cümlədən onların sağlamlıq, uzunömürlülük və dünyagörüş səviyyəsi, mənəvi-psixoloji vəziyyəti və mədəniyyətin səviyyəsi ilə müəyyənləşdirilməsini irəli sürürlər. Alimlərin bəziləri isə informasiya cəmiyyətində müasir iqtisadiyyatın səmərəliliyinə qeyri-iqtisadi amillərin, o cümlədən mədəniyyətin daha çox tə'sir etdiyini irəli sürürlər. Məsələn, rus alimi, professor S.D.Valenteyə görə iqtisadiyyatdakı nailiyyətlərin əsas ölçüsü istehsal və istehlakın həcmi ilə deyil, adamların mənəvi dünyagörüşünün səviyyəsi, insanların fiziki və psixoloji sağlamlıq vəziyyəti ilə şərtlənir.

Davamlı inkişafa xidmət edən faktorlardan biri də mənəvi-psixoloji amillərin formalaşmasıdır. Nəzəri təhlillər və praktiki təcrübə göstərir ki, cəmiyyətin sosial inkişafının, sosial tərəqqinin kriteriyalarının yeni koordinat sistemi **"həyat səviyyəsi", "insan potensialı", "həyat keyfiyyəti", "insan kapitalı", "insan resursları"** kimi anlayışların yaranmasına təkan vermişdir. Qədim və Orta əsr fəlsəfəsində irəli sürülən **"insan-bütün şeylərin ölçüsüdür"** – ideyası informasiya əsrində artıq elmi həqiqətə çevrilərək müasir dövlətlərin inkişaf Proqramlarında öz ifadəsini tapmışdır.

Xüsusi metodoloji prinsip kimi dövlət idarəçiliyi praktikasına yönəlmiş insan inkişafı keçən əsrin 90-cı illərində bir çox ölkələrin və BMT-nin diqqət obyektinə çevril-

mişdir. Bu məqsədlə, BMT-nin təşəbbüsü və dəstəyi ilə 1990-cı ildən başlayaraq əksər ölkələrdə (Azərbaycanda 1995-cı ildən) hər il "İnsan inkişafı üzrə hesabat" adlı toplu nəşr edilməyə başlamışdır. Əvvəllər bu hesabatda insan potensialının inkişaf indeksi kimi hər hansı bir ölkənin iqtisadi vəziyyətini xarakterizə edən ənənəvi kəmiyyət göstəricilərindən (adambaşına düşən orta illik gəlirin miqdarı) istifadə olunurdu.

Keçən əsrin 90-cı illərinin sonuna yaxın isə BMT ekspertlərinin təklifi ilə insan inkişafının göstəriciləri kimi daha geniş kriteriyalar irəli sürülməyə başladı. BMT ekspertlərinin irəli sürdüyü bu kriteriyalar gözlənilən orta ömür, əhalinin savadlılıq dərəcəsi, mədəniyyətin inkişafı, sağlamlıq, uzunömürlülük və s. əhatə edirdi.

Sözün geniş mənasında beynəlxalq ekspertlərin fikrincə, bu göstəricilər insan nəslinin təkrar istehsalı və insanın həyat fəaliyyətinin təhlükəsizliyini təmin edən fiziki və ruhi sağlamlığı, bilik və ixtisas səviyyəsini, cəmiyyətin sosial strukturuna adaptasiyanı, mədəni dəyərlər yönümünü, mənəvi-psixoloji vəziyyəti əhatə edir.

Artıq XX əsrin sonunda insan inkişafı metodologiyası dəyişikliyə uğrayaraq "insanlar iqtisadiyyatın inkişafına yox, iqtisadiyyat insanların inkişafına xidmət et-məlidir" – prinsipinə əsaslanmağa başladı. Bu prinsip onunla izah olunur ki, müasir iqtisadiyyatı inkişaf etdirmək üçün azad, sağlam düşüncəli, müəyyən intellektual səviyyəyə malik insanlar lazımdır. Bu baxımdan müəyyən ölkələrin insan inkişafı hesabatları hazırlanarkən sosial-demoqrafik statistikanın vahid sistemi yaradılmışdır. Məsələn, rus alimlərindən S.D.Valentey və L.İ.Nesterovun məlumatına görə bu sistem insan inkişafının müxtəlif aspektlərini əhatə edən 12 məlumat blokundan ibarətdir:

1. Demoqrafik xarakteristika;
2. Ətraf mühit, urbanizasiya və mənzil-məişət şəraiti;
3. Sağlamlıq və qidalanma (içməli su təminatı);
4. Təhsil;
5. İqtisadi fəallıq;
6. Sosial qruplar və əhalinin təşkilolunma səviyyəsi;
7. Sosial təminat;
8. Mədəniyyət və asudə vaxt;
9. Vaxtdan səmərəli istifadə;
10. İctimai qaydalar və təhlükəsizlik;
11. Sosial münasibətlər;
12. Siyasi fəaliyyət.

İnsan inkişafının müxtəlif aspektlərini əhatə edən yuxarıda göstərilən bloklar insanın həyat və fəaliyyətinin demək olar ki, bütün sahələrini, o cümlədən milli-mənəvi dəyərləri də əhatə edir. İnsanın həyat fəaliyyəti prosesinin idarə edilməsi problemi insan potensialının qorunması və inkişafı sahəsində qlobal siyasətin qarşısında duran əsas vəzifələrdən biridir.

Qloballaşma dövründə bəşəriyyətin qarşısında duran digər mühüm məsələlərdən biri sivilizasiyalar arasında yarana biləcək mümkün münaqişələrin qarşısının alınması, eyni zamanda dinlərarası və mədəniyyətlərarası dialoqun həyata keçirilməsindən ibarətdir. Qeyd etmək lazımdır ki, hazırda mədəniyyətlərarası dialoq əvvəlki dövrlərlə müqayisədə daha çox aktuallıq kəsb edən qlobal problemlərdən biridir. Hazırki şərait-

də mədəniyyətlə arası dialoq zərurətinin əsas səbəblərindən biri planetdə kütləvi qırğın (nüvə və s.) silahlarının həcminin çoxalması, müxtəlif regionlarda terror hadisələrinin baş verməsi, planetdə qlobal ekoloji gərginliyin artması, təbii fəlakətlərin çoxalması və s. ilə şərtlənir. Bu baxımdan qeyd etmək lazımdır ki, qloballaşma dövründə sivilizasiyalar arasında dialoq bəşəriyyətin ehtiyaclarından birinə çevrilmişdir.

Məlumdur ki, ABŞ-da baş verən 2001-ci il 11 sentyabr hadisələrindən sonra sivilizasiyalararası dialoq zərurəti daha da aktuallaşmış və bu istiqamətdə aparılan elmi-nəzəri tədqiqatların və əməli tədbirlərin dəyəri daha da mühüm əhəmiyyət kəsb etməyə başlamışdır.

Təsadüfi deyildir ki, XXI əsrin ilk ili – 2001-ci il BMT Baş Assambleyası tərəfin-dən "Sivilizasiyalararası dialoq ili" elan olunmuş və 2001-ci il 9 noyabr tarixdə BMT Baş Assambleyasında "Sivilizasiyalararası dialoq üçün qlobal gündəlik" adlanan qətnamə qəbul edilmişdir. Bunlar onu göstərir ki, qloballaşma dövründə sivilizasiyalararası dialoqun həyata keçirilməsi daha çox əhəmiyyət kəsb edir. Bu baxımdan da diqqət yetirilməsini zəruri hesab edirik. qloballaşma dövrünün siyasi, sosial-iqtisadi və mədəni xarakterinin şərh edilməsinə diqqət yetirək.

Akademik R. Mehdiyevin haqlı olaraq qeyd etdiyi kimi "Qloballaşma heç də təkcə iqtisadi fenomen, fərdin həyat şəraitini yaxşılaşdırmaq və informasiyadan istifadənin və onun ötürülməsinin yeni yollarını yaratmaq demək deyildir. Qloballaşma cəmiyyət həyatının bütün sahələrini, o cümlədən sosial-siyasi aspektini əhatə edən çoxsəpkili prosesdir. O milli sosial-iqtisadi qurumları vahid dünya iqtisadi və ictimai sistemi ilə qarşılıqlı sürətdə bağlayan ümumdünya hadisəsidir".

Qloballaşma dövründə mədəni müxtəlifliyin qorunub saxlanılmasının vacibliyini göstərmək üçün qeyd etmək lazımdır ki, bəşəriyyətin fundamental mədəni sərvəti onun müxtəlifliyindədir. Fərqli mədəniyyətlərin mövcudluğunun qorunması, mədəni müxtəlifliyin zənginliyini dərk etmək, qarşılıqlı inam və anlaşma şəraitində mədəni əməkdaşlığa hörmətlə yanaşma, qloballaşma dövründə mədəniyyətlər və dinlərarası dialoqun davam etdirilməsinə zəmin yaradır. Mədəni müxtəlifliyin tanınması ilə bağlı BMT Konvensiyasına qoşulan Azərbaycan Respublikası mədəniyyətlərarası dialoqun zəruriliyini dərk edərək Şərq və Qərb ölkələri arasında mədəni əməkdaşlığın genişləndirilməsinə rəvac verməkdədir.

Mədəniyyətlərarası və dinlərarası dialoqla bağlı respublikamızda son illərdə xeyli tədbirlər keçirilmiş, beynəlxalq elmi konfranslar, genişmiqyaslı sammitlər təşkil edilmişdir.

Aparılan müşahidələr göstərir ki, Azərbaycan Respublikası mədəniyyətlərarası dialoqa artıq öz töhfəsini verməkdədir. 2008-ci il 2 dekabrda Avropa Şurasının üzvü olan dövlətlərin mədəniyyət nazirlərinin "Mədəniyyətlərarası dialoq Avropa və onun qonşu regionlarında davamlı inkişafın və sülhün əsasıdır" mövzusunda beynəlxalq konfransın Bakıda keçirilməsi Azərbaycanın mədəniyyətlərarası dialoqda müəyyən rol oynadığını göstərən faktdır. 250-dən çox nümayəndəni əhatə edən konfransda Avropa Şurasının üzvü olan ölkələrdən başqa, İslam ölkələrinin (İSESKO və ALESKO-nun) yüksək rütbəli rəsmiləri, müxtəlif beynəlxalq qeyri-hökumət təşkilat-

larının təmsilçiləri, o cümlədən, 16 nazir, 18 nazir müavini, 10 beynəlxalq təşkilatın rəhbəri iştirak etmişdir .

Konfransda Azərbaycan Respublikasının prezidenti İlham Əliyev, Avropa Şurasının sabiq baş katibi Terri Devis, İSESKO-nun baş direktoru Əbdüləziz bin Osman Əl-Tüveyrci, ALESKO-nun baş direktoru Mondi Busnina, YUNESKO-nun Mədəniyyət siyasəti və beynəlxalq dialoq bölməsinin direktoru xanım Katerina Stenou, Avropa Şurasının beynəlxalq mədəniyyətlərarası əlaqələndiricisi xanım Qabriella Batteni-Draqoni, BMT-nin sivilizasiyaların ittifaqı ofisinin direktoru Mark Şuer və başqlarının çıxışları maraqla qarşılanmışdır.

Qeyd edək ki, müzakirə olunan mövzuların mahiyyətinə, iştirakçıların tərkibinə, əhatə olunan regionların miqyasına görə Bakıda keçirilən bu konfransı Avropa və İslam ölkələrinin tarixində mədəniyyətlərarası dialoq mövzusunda ilk beynəlxalq tədbir kimi dəyərləndirmək olar. Konfransda müzakirə olunan mövzular əsasən iki istiqaməti əhatə etmişdir. Bunlar aşağıdakılardan ibarətdir:

1.“Mədəniyyət siyasəti və mədəniyyətlərarası dialoq: müxtəlif mədəniyyətlərin idarəedilməsinə dair yeni konsepsiya”;

2.“İrs və mədəniyyətlərarası dialoq-hamımız birgə milli irsdən dünyəvi irsə doğru”.

Bu mövzuları müzakirə edən konfarans iştirakçıları belə qərara gəlmişlər ki, millətlərarası dialoqa və regionların davamlı inkişafına təkan verən amillərdən biri millətlərin bütün dəyərlərini göstərən milli irsdir. Milli irsin qorunub saxlanılması isə hər bir millətin, xalqın prinsipial məsələsidir.

Konfransda fəal iştirak edən Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin mədəniyyətlərarası dialoq, milli və dini tolerantlığın möhkəmlənməsində Azərbaycanın təcrübəsindən danışaraq demişdir: “Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra əlbəttə, millətlərarası münasibətlərə, milli və dini tolerantlığın möhkəmlənməsi işinə çox böyük diqqət verilmişdir. Bu gün Azərbaycan sözün əsl mənasında dostluq, qardaşlıq məkanıdır. Burada bütün xalqlar, dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar. Mən əminəm ki, Azərbaycanın bu istiqamətdə əldə etdiyi təcrübə çox önəmlidir. Şübhə etmirəm ki, konfrans zamanı bu barədə geniş söhbət açılacaqdır .

Şərqlə Qərb arasında körpü rolu oynayan Azərbaycanın mədəniyyətlərin dialoqunda mühüm əhəmiyyət kəsb etdiyini vurğulayan Avropa Şurasının sabiq baş katibi T.Devis konfransdakı çıxışında demişdir: “Bakı, Azərbaycan qeyri-adi bir məkandır. Bura tarix boyu müxtəlif mədəniyyətlərin qovuşma nöqtəsi, Şərq və Qərb, Şimal və Cənub arasında təbii bir körpüdür”.

Buradan göründüyü kimi öz coğrafi mövqeyinə, geosiyasi vəziyyətinə, müxtəlif mədəniyyətlərin qovşağında yerləşdiyinə görə, eyni zamanda xalqımız tolerant xalq olduğuna görə respublikamız mədəniyyətlərarası dialoqda fəal iştirak etməkdədir.

Azərbaycanda bu cür tədbirlərin keçirilməsi Avropa mədəniyyəti ilə İslam ölkələrinin mədəniyyəti arasında respublikamızın körpü rolunu oynadığını göstərən faktlardır. İki sivilizasiya arasında mədəniyyətlərin dialoqunun təşkil edilməsində mühüm rol oynayan Azərbaycanın beynəlxalq aləmdə nüfuzu da getdikcə artmaqdadır.

Ağasiyev İ.K.,
tarix elmləri doktoru
Bakı Biznes Universiteti

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN KUBAN XALQ RESPUBLİKASI İLƏ ƏLAQƏLƏRİ (1918-1920)"

25 oktyabr 1917-ci il tarixdə Petroqradda sovet hakimiyyəti elan olundu və tezliklə sovet hakimiyyəti Rusiyanın əyalətlərində bərqərar olmağa başladı. 28 yanvar 1918-ci il tarixdə Kuban diyar hərbi radası keçmiş Kuban vilayəti ərazilərində Kuban Xalq Respublikasını elan etdi. Bu respublika gələcək Rusiya Federativ Respublikasının tərkibinə daxil olmalı idi. Lakin Rusiyada sovetləşmənin sürətlə getməsi və Rusiya Federativ Respublikasının yaranmasına ümidlərin azalması fonunda 16 fevral 1918-ci il tarixdə Kuban Xalq Respublikası müstəqil elan olundu. Onun əraziləri keçmiş Rusiya imperiyasına daxil olan Kuban vilayəti və Kuban kazak qoşunlarının ərazilərindən ibarət olmuşdur. Kuban Xalq Respublikasında qanunverici orqan funksiyasını Kuban Diyar Radası (şurası) və Kuban Qanunverici Radası təşkil edirdi. İcra hakimiyyətinə Baş Ataman başçılıq edirdi.

Respublikanın daxili siyasətində əsas nüfuzlu qüvvələr "qaradənizlilər" və "xəttçilər" idi. İqtisadi və siyasi cəhətdən daha güclü "Qaradənizlilər" ukraynadilli Qara dəniz kazaklarından ibarət idi. Siyasi cəhətdən onlar federalizm prinsiplərini müdafiə edirdilər. "Xəttçi"lər isə daha çox Çar Rusiyası idealları uğrunda mübarizə aparırdılar. Beləliklə, Kubanda daxili stabillik yox idi: Ukraynameylli və Rusiyameylli əhali arasında ziddiyyətlər getdikcə güclənirdi.

Xarici siyasətdə Kuban Xalq Respublikasının ən ümdə vəzifələri bolşevizmə qarşı mübarizədə regionda yaranan yeni dövlətlərlə-Ukrayna Xalq Respublikası, Azərbaycan Xalq Cümhuriyyəti, Don Respublikası, Dağlı Respublikası, Gürcüstan Demokratik Respublikası ilə qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi idi.

Kuban Xalq Respublikası Ukrayna Xalq Respublikası ilə daha sıx əlaqələrdə olsa da, (iki dövlət federativ əsaslarla birləşmək xəttini həyata keçirməyi planlaşdırırdılar) onun Azərbaycan Xalq Cümhuriyyəti ilə də intensiv diplomatik əlaqələri mövcud olmuşdur. AXC keçmiş Rusiya ərazilərində yaranan yeni dövlətlərlə, o cümlə-dən Kuban Xalq Respublikası ilə əməkdaşlığa xüsusi önəm verirdi. Çünki, AXC üçün mövcud təhlükələrin ən ciddisi şimal istiqamətindən gözlənilirdi. Vətəndaş müharibəsi girdabına qərq olan Rusiyada "ağ"larla "qırmızı"ların hərbi-siyasi qarşıdurması getgedə şiddətlənirdi və daha geniş miqyas alırdı. Car Rusiyasını köhnə sərhədlərdə bərpa etməyi düşünən general Denikin və admiral Kolçakın fəaliyyəti AXC üçün daha təhlükəli idi. Sovet Rusiyası da AXC-ni tanımaqdan imtina etmişdir və gələcəkdə keçmiş çar Rusiyanın ərazilərini bolşevik bayrağı altında birləşdirməyi planlaşdırırdı.

AXC Vətəndaş müharibəsini Rusiyanın daxili işi hesab edir və orada baş verən proseslərə qarışmamağa çalışırdı. Eyni zamanda, istər monarxiya tərəfdarları Denikin, Kolçak, istərsə də bolşeviklər tərəfindən gözlənilən labüd təhlükə şəraitində Rusiya ərazisində yaranan, AXC-nin dövlət maraqlarına zidd siyasət yeritməyən, xüsusi ilə Şimali Qafqaz regionunda yaranan, bolşevizmi qəbul etməyən yeni dövlətlərlə əməkdaşlıqda maraqlı idi. Kuban Xalq Respublikası və Şimali Qafqazda yeni yaranmış

digər gənc dövlətlərin güclənməsi AXC-nin də dövlət təhlükəsizliyinin möhkəmlənməsinə xidmət edirdi, çünki bu dövlətlər Sovet Rusiyası ilə AXC arasında təhlükəsizlik zolağı yaradırdılar.

1920-ci il 3 mart tarixdə Qırmızı Ordu Kuban – Novorossiya əməliyyatına başladı.17 mart 1920-ci il tarixdə Qırmızı Ordu Yekaterinodara daxil oldu. Kuban ordusu Gürcüstan sərhədlərinə sıxışdırıldı. Kuban Xalq Respublikası, Kuban hökuməti və Kuban kazak qoşunları ləğv edildi. Kubanda sovet hakimiyyəti bərqərar oldu.

Kuban Xalq Respublikasının və digər Şimali Qafqaz dövlətlərinin süqutundan sonra bolşeviklər üçün Cənubi Qafqaza yol açılmış oldu. Bu hadisələrdən bir necə həftə sonra XI Qızıl Ordu Azərbaycan Xalq Cümhuriyyətini işğal etdi.

Məhərrəmova S.S.,
tarix elmləri üzrə fəlsəfə doktoru
Cəlalzadə B.M.,
Sumqayıt Dövlət Universiteti

ŞƏRQ MƏDƏNİYYƏTİNİN QƏRBƏ ÖTÜRÜLMƏSİNDƏ AZƏRBAYCANIN ROLU

Azərbaycan Şərq mədəniyyətinin Avropaya ötürülməsində tarixən körpü rolunu oynamış, müxtəlif sivilizasiyaları bir-birilə əlaqələndirmişdir. Qloballaşan dünyada siyasi və iqtisadi inteqrasiya prosesləri, mədəniyyətlərin sıx ünsiyyəti fonunda ayrı-ayrı sivilizasiyaların, mədəniyyətlərin mübarizəsi də gedir. Bu gün istər maddi mədəniyyət olsun, istərsə də qeyri-maddi sahədə, ələlxüsus incəsənətdə artıq millilik itməyə başlamış, kosmopolit mədəniyyət üstünlük qazanmağa başlamışdır və bu kosmopolitizm daha çox Qərbyönlü mədəniyyətin yaranmasına meyllidir. Birtərəfli gedən və daha çox Qərbin mədəniyyətinin digər ölkələrə və xalqlara sirayət etməsi ilə səciyyələnən belə bir mürəkkəb şəraitdə hər bir dövlətin xarici siyasətinin istiqmətlərindən biri də - ikitərəfli və çoxtərəfli mədəni əlaqələri inkişaf etdirmək, eyni zamanda milli mədəniyyəti saxlamaq və təbliğ etməkdən ibarətdir.

Bu mənada sərhəd tanımayan mədəni əlaqələrin yaradılması, inkişaf etdirilməsi Azərbaycan Respublikası qarşısında duran ən vacib məsələlərdən biridir.

1990-cı illərdən etibarən Azərbaycanın həyatının digər sahələrində olduğu kimi, mədəniyyət və mədəni əlaqələrin inkişafında da bir sıra çətinliklər yaranmış, SSRİ dövründə ideologiyalaşdırılmış mədəniyyət sahəsi dərin böhran keçirmişdir. Nəticədə mədəniyyət xadimlərinin, elm və təhsil sahəsində çalışan ziyalıların bir qisminin digər ölkələrə "axını" başlamışdır. Bu proses ümumilikdə neqativ hal sayılsa da, qısa bir müddətdən sonra dünyada, eləcə də Avropada Azərbaycan mədəniyyətinin, incəsənətinin, musiqisinin və elminin təbliğinə imkan yaratmışdır. Hələ SSRİ dövründə mərkəzi hökumətin ssenarisi əsasında Azərbaycanın Qərbi Avropa ölkələri ilə mədəni əlaqələrin olmasına baxmayaraq, müstəqilliyimizin ilk illərində Avropa ölkələrinin Azərbaycan haqqında çox az məlumatı vardı. Azərbaycan müstəqillik əldə etdikdən sonra ayrı-ayrı ölkələrlə ikitərəfli və çoxtərəfli münasibətlər quraraq mədəni əlaqələrinin inkişafına təkan verdi.

1990-cı illərdən etibarən Azərbaycanla tarixi mədəni əlaqələri olan ölkələrdən biri də Almaniya idi. Hələ müstəqillik ərəfəsində, yəni 1991-ci ilin 20-27 mayında Azərbaycan Mədəniyyət Nazirliyinin xətti ilə Almaniyada Azərbaycan mədəniyyəti həftəliyi keçirilmişdi. Köln və digər şəhərlərdə almanlar Azərbaycan mədəniyyətinin müxtəlif sahələri - rəssamlıq, heykəltəraşlıq nümunələri və aşıq musiqisi ilə yaxından tanış olmuş, həmin ilin iyun-iyul aylarında almanlardan və Almaniyada yaşayan həmvətənlərimizdən ibarət kiçik qrup ilk dəfə Bakıya gəlmişdilər. 1992-ci ilin yazında Azərbaycanın Akademik Opera və Balet teatrının balet truppası "Yeddi gözəl" baleti ilə Berlində çıxış etmişdi. Elə həmin ilin oktyabrın 29-da isə Bakıda alman kirxasında Almaniya dostluq və birləşmə gününə həsr olunmuş gecə keçirilmişdi. Azərbaycanın möhtəşəm musiqi sənətini dünyaya, eləcə də Almaniya cəmiyyətinə nümayiş etdirən incəsənət ustalarından Fidan və Xuraman Qasımova bacıları 1992-ci ilin mayında Solingen şəhərində alman musiqisevərləri qarşısında geniş konsert proqramı ilə çıxış etmişdilər. 1993-cü il yanvarın 5-də Azərbaycan Dövlət Filarmoniyasında alman bəstəkarı R.Şumanın xatirəsinə həsr olunmuş təntənəli musiqi gecəsi təşkil edilmiş, elə həmin ilin may-iyun aylarında Frankfurt, Mayn və Köln şəhərlərində xalq artisti Zeynəb Xanlarovanın konserti keçirilmiş, oktyabr ayında isə alman musiqiçiləri Bakıda Azərbaycan musiqiçiləri ilə birgə konsert vermişdilər .

Azərbaycan ilə AFR arasında 1995-ci il dekabrın 22-də mədəniyyətin bütün sahələri üzrə iki ölkə arasında qarşılıqlı ikitərəfli əlaqələrin qurulması məqsədi ilə mədəni əməkdaşlıq haqqında saziş imzalandı. Sazişdə deyilirdi ki, iki ölkə arasında əlaqələrin inkişafı və möhkəmləndirilməsi və qarşılıqlı anlaşmanın dərinləşməsinə səy göstərərək, mədəni mübadilənin xalqlar arasında əməkdaşlığın, həmçinin digər xalqların mədəniyyəti, mənəvi həyatı və həyat tərzini anlamağa yardım edəcəyinə əmin olaraq, hər iki xalqın ümumi Avropa mədəni irsinin tarixən zənginləşdirdiyini nəzərə alaraq və mədəni dəyərlərin qayğısına qalmaq və onların qorunmasının mütləq vəzifələrdən olduğunu anlayaraq, hər iki ölkə əhalisi arasında mədəniyyətin bütün sahələrində, təhsil və elm daxil olmaqla əlaqələri genişləndirməyi arzu edirik. Sazişdə nəzərdə tutulduğu kimi, Azərbaycan ilə Almaniya arasında mədəni əlaqələr ölkələrin mədəniyyəti barədə biliyi qarşılıqlı artırmağa, bütün sahələr üzrə və bütün səviyyələrdə mədəni əməkdaşlığı inkişaf etdirməyə, bununla da Avropanın özünəməxsus mədəniyyətini zənginləşdirməyə xidmət etməli idilər.

1996-cı il iyulun 2-də Prezident Heydər Əliyevin AFR-ə rəsmi səfəri zamanı mədəniyyət və incəsənət xadimlərindən Xuraman Qasımova, Fərhad Bədəlbəyli və Surxay Əsgərov də nümayəndə heyətinin tərkibində Almaniyaya getmişdir. 1996-cı il iyulun 2-də hər iki ölkə prezidenti Almaniyada görkəmli rəssam Səttar Bəhlulzadənin sərgisinin açılışında iştirak etmişlər. Azərbaycanın zəngin mədəniyyəti haqqında AFR-in keçmiş prezidenti Roman Hersoq Almaniyada rəsmi səfərdə olarkən Prezident Heydər Əliyevin şərəfinə verilmiş ziyafətdə çıxış edərkən demişdir: "Əgər daha uzaq tarixə nəzər salsaq görərik ki, ölkənizin zənginliyi və Şərqə məxsus əzəməti, mədəniyyətinizin zənginliyi və ifadəliliyi əcdadlarımızı heyran qoymuşdur. Əlbəttə, o dövrdən danışarkən mən İohan Volfhanq fon Hötenin "Qərb-Şərq divanı"nda sizin milli şairiniz Nizamiyə necə təzim etdiyini də xatırlayıram. Gəlin, bütün bu qədim əlaqələri davam etdirək!".

İki ölkə arasında mədəni əlaqələrin dərinləşməsində Azərbaycan-Almaniya mədəniyyəti üzrə birgə komissiyanın fəaliyyəti bu istiqamətdə qarşılıqlı münasibətlərin dərinləşməsinə xidmət edir. Belə ki, 1997-ci il fevral ayının əvvəllərində Almaniya XİN-nin mədəniyyət şöbəsinin rəis müavini səfir Horst Vilkelman başda olmaqla geniş tərkibli nümayəndə heyəti Azərbaycana rəsmi səfərə gəldi. Nümayəndə heyətinin fevralın 6-da ölkə rəhbəri Heydər Əliyevlə görüşündə iki ölkə arasında əlaqələrin müxtəlif sahələri haqqında fikir mübadiləsi aparıldı və səfir Horst Vilkelman vurğuladı ki, mədəniyyət ölkələr və xalqlar arasında sıx əməkdaşlığın qurulmasında ən səmərəli vasitələrdən biridir.

Azərbaycan Respublikası ilə Almaniya arasında mədəni dostluq əlaqələrinin dərinləşməsində Azərbaycan Prezidentinin 16 noyabr 1999-cu il tarixli "Azərbaycan Dövlət İncəsənət Muzeyində saxlanılan və Bremen Muzeyinə məxsus olan rəsm əsərlərinin Almaniya Federativ Respublikasına verilməsi haqqında" sərəncamının xüsusi əhəmiyyəti vardır. 14 rəsm əsərinin Almaniyaya qaytarılması iki ölkə arasında dostluq münasibətlərini daha da dərinləşdirmək və möhkəmləndirmək, iki xalq arasında əlaqələrin qarşılıqlı etimad əsasında inkişaf etdirilməsi üçün əlavə zəmin yaratmaq məqsədi daşımışdır.

Azərbaycan ilə Almaniya arasında mədəni əlaqələrin qurulması və inkişafında bu ölkədə fəaliyyət göstərən Azərbaycan mədəniyyət dərnəklərinin, mədəniyyət mərkəzlərinin, eləcə də Bakıda fəaliyyət göstərən Almaniya-Azərbaycan dostluq cəmiyyətinin, Berlin şəhərində yerləşən "Azərbaycan Evi"nin, "Kapelhaus" Alman-Azərbaycan mədəniyyət mərkəzinin böyük rolu vardır. Mədəniyyət mərkəzləri hər iki xalqın tarixinin əlamətdar günlərində (Novruz bayramında, Respublika günündə, Alman xalqının birliyi günündə, Yeni ildə, 20 Yanvarda və.s.) mədəniyyət xadimlərinin iştirakı ilə müxtəlif tədbirlər təşkil edirlər.

Xalqımızın taleyüklü problemi olan Dağlıq Qarabağ münaqişəsi, erməni təcavüzü və Azərbaycanın haqq işinin dünyaya, eləcə də Alman cəmiyyətinə çatdırılmasında mədəniyyət xadimlərinin üzərinə böyük vəzifələr düşür. Belə ki, Dağlıq Qarabağ münaqişəsini özündə əks etdirən rejissor Vaqif Mustafayevin "Hər şey yaxşılığa doğru" qısametrajlı filmi Almaniyanın Oberxauzen şəhərində keçirilmiş festivalda 4 mükafat qazanmışdır .

Qeyd etdiyimiz kimi, müstəqilliyinin ilk illərində geniş alman ictimaiyyəti Azərbaycan haqqında çox az məlumata malik idi. Azərbaycan dedikdə, almanlar yalnız neft sərvətləri və Qarabağ münaqişəsi olan ölkəni nəzərdə tuturdular, zəngin tarixi, mədəniyyəti və təbiəti barədə çox az insanın məlumatı var idi. Azərbaycanı dünyaya, eləcə də geniş alman ictimaiyyətinə tanıtmaq və təbliğ etməyin digər bir vasitəsi Almaniyada təşkil olunmuş yerli və beynəlxalq sərgilərdə iştirak etməkdir. Almaniyanın Hannover şəhərində keçirilən "EXPO" sərgisində 2000-ci ildən başlayaraq Azərbaycan mütəmadi olaraq iştirak edir. Bir çox dünya dövlətlərinin iştirak etdiyi bu məşhur sərgidə Azərbaycan son illər qazanılmış nailiyyətləri, iqtisadi uğurları, əsasən Xəzərin neft-qaz yataqlarının istismarı, "Əsrin müqaviləsi" çərçivəsində aparılan əməliyyatları, həmçinin qədim və zəngin mədəniyyətini, incəsənətini nümayiş etdirir. Hannoverdə keçirilmiş "EXPO-2000" ümumdünya sərgisi çərçivəsində 21-23 oktyabr 2000-ci ildə Azərbaycanın Milli Günü keçirilmiş və Azərbaycan incəsənət ustaları milli və Qərb musiqisindən, rəqslərindən nümunələr ifa etmişdilər. Sərgidəki uğurlu çıxışın nəticəsi

olaraq təşkilat komitəsi incəsənət xadimlərimizin istedadını xüsusi sertifikatla qiymətləndirmişdir .

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və AFR Maynts şəhərinin baş meri Yans Böytel, Lüdviqshafen şəhər Şəhərlərarası əməkdaşlıq şöbəsinin rəisi xanım Kristin Kirovski arasında aparılan danışıqların nəticəsi olaraq 2003-cü ilin aprelində Almaniyada Azərbaycan mədəniyyət günləri keçirilmişdir. Tədbirlər çərçivəsində Azərbaycan Dövlət Mahnı Teatrı, Dövlət Filarmoniyasının Fortepiano Triosu, Dövlət Akademik Opera və Balet Teatrının solistləri, eləcə də xalq artisti Alim Qasımov böyük uğurla çıxış edərək milli mədəniyyətimizi layiqincə təmsil etmişdilər. Mədəniyyət günləri çərçivəsində xalq rəssamı Xanlar Məmmədovun və gənc rəssam Aida Mahmudovanın fərdi sərgiləri keçirilmişdir. Almaniya-Azərbaycan xalqları arasında yaradıcılıq və dostluq əlaqələrini daha da möhkəmləndirilməsinə xidmət edən bu mədəni-siyasi tədbir zamanı almanlar Azərbaycan xalqının zəngin mədəniyyətinə böyük maraq və sevgi göstərmişdilər .

Azərbaycanın AFR-dəki səfirliyinin təşəbbüsü ilə 2007-ci il oktyabrın 30-da Berlində görkəmli Azərbaycan bəstəkarı Firəngiz Əlizadənin 60 illiyinə həsr olunmuş konsert keçirilmişdir. Konsertdə Azərbaycan incəsənət ustalarının iştirakı ilə yanaşı AFR-in musiqi xadimləri və müxtəlif dairələrin nümayəndələri iştirak etmişlər. Ümumiyyətlə, Azərbaycan klassik musiqisini Qərbi Avropada, eləcə də Almaniyada təmsil edən bəstəkar Firəngiz Əlizadə AFR-də musiqisevərlər tərəfindən yaxşı tanınır və sevilir. Belə ki, onun "Böyük İpək Yolu" əsərindən seçilmiş "Dərviş" adlı violonçel və vokal üçün yazılmış əsəri Almaniyada keçirilmiş "Şlezvik holştayn" beynəlxalq festivalında alman musiqisevərləri tərəfindən böyük rəğbətlə qarşılanmışdır. F.Əlizadənin "İtirilmiş vaxtın sorağında," "2 №-li melodiya," "İlğım" əsərləri Almaniya və Avropada çox məşhurdur. Onu da qeyd edək ki, Avropanın musiqi dairələri Azərbaycanı Şərqdə klassik musiqinin təmsilçisi hesab edirlər.

2007-ci il 1-5 noyabr tarixində AFR-in Kassel şəhərində "Azərbaycan Günü" adlı mədəni tədbir keçirilmişdir. Belə tədbirlərin keçirilməsi iki ölkə arasında mədəni dostluq əlaqələrinin dərinləşməsinə, xalqların bir-birini daha yaxından tanımasına xidmət edir.

Qeyd etdiyimiz kimi, AFR XİN-i qarşılıqlı anlaşmanı daha yaxşı hala gətirmək məqsədi ilə hələ 2001-ci ildən "Avropa-İslam Mədəniyyət Dialoqu" başlıqlı proqram başlamışdır. Bu proqrama Azərbaycanın qatılması məqsədilə 3 iyun 2008-ci ildə Almaniyadakı Azərbaycan səfirliyinin, Almaniya-Azərbaycan Forumu və Konrad-Adenauer Fondunun təşkilatçılığı ilə "Dini dözümlülüyün Azərbaycan modeli" mövzusunda mütəxəssislər üçün konfrans, geniş ictimaiyyət üçün mühazirə və rəsm sərgisindən ibarət tədbirlər keçirilmişdir. Tədbirdə Konrad Adenauer Fondu baş katibinin müavini A.Şprenqler, Almaniya-Azərbaycan Forumunun sədri, AFR-in sabiq dövlət katibi Otto Hauzer, Azərbaycanın Almaniyadakı səfiri Pərviz Şahbazov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Hidayət Orucov, Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə, Bakı Dağ Yəhudiləri Dini İcmasının sədri Semyon İxilov, Xəzəryanı bölgə yeparxiyasının yepiskopu Aleksandr ata, Almaniya Ruhanilər Konfransı Fəaliyyət Qrupunun icraçı katibi Peter Hünzeler və başqa rəsmi şəxslər iştirak etmiş, məruzə ilə çıxış etmişdilər. Tədbirdə rəssam Əşrəf

Heybətovun "İncil motivləri" mövzusunda rəsm sərgisi keçirilmiş, Essen Konservatoriyasının dosenti azərbaycanlı Elnarə İsmayılova fortepiano konserti təqdim etmişdir .

2008-ci ilin yanvar-dekabr iki ölkənin münasibətləri tarixində ilk dəfə olaraq "Almaniyada Azərbaycan İli" kimi qeyd edilmişdir. Bu münasibətlə geniş tədbirlər proqramı tərtib edilmiş və bütün il boyu Azərbaycanın mədəniyyəti, incəsənəti, zəngin tarixi və turizm imkanları haqqında Alman ictimaiyyətinə məlumat verilmişdir. Almaniyada Azərbaycan ilinin rəsmi açılışı 2008-ci il martın 26-da olmuşdur. Mədəniyyət və Turizm Naziri Ə.Qarayevin rəhbərlik etdiyi 120 nəfərlik nümayəndə heyəti - mədəniyyət və incəsənət xadimi AFR-də Azərbaycan ilinin açılışında iştirak etmişlər. İlin rəsmi açılış proqramı çərçivəsində mətbuat konfransı, Azərbaycan filmlərindən ibarət kinofestival, Azərbaycan-Almaniya əlaqələrinə həsr olunmuş simpozium, "Azərbaycan bu gün" adlı fotosərgi, "Rəqəmsal xalçalar" fotoinstalyasiya və Azərbaycan rəssamlarının əsərlərindən ibarət sərgilər, Ü.Hacıbəyovun "Arşın mal alan" musiqili komediyası nümayiş etdirilmişdir. Bunlarla yanaşı, Berlin və Münhen şəhərlərində Azərbaycan Dövlət Sinfonik Orkestrinin, xalq artisti A.Qasımovun, Ə.Mustafazadənin (məşhur cazmen-pianoçu Əzizə Mustafazadə dünyada, eləcə də AFR-də Azərbaycan musiqisinin layiqli təmsilçisidir – S.M), S.Qəmbərovun və "Bakustik-caz" qrupunun "Azərbaycan cazı" və Q.Qarayev adına Dövlət Kamera Orkestrinin gənc solistlərlə konsertləri təşkil olunmuşdur .

Almaniyada "Azərbaycan ilinin" keçirilməsi Avropa ailəsinə inteqrasiya nöqteyinəzərindən böyük əhəmiyyət kəsb etmişdir.

2011-ci il aprelin 7-9-da AFR-in mədəniyyət nazirinin Sivilizasiyalararası dialoq üzrə xüsusi nümayəndəsi Heinrih Kreft, Ştutqart Dövlət İncəsənət və Dizayn Akademiyasının Kulturologiya departamentinin sədri Holger Bunk Bakıda keçirilmiş Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak etmişlər. Elə həmin ilin mayında Düsseldorf şəhərində keçirilən "Eurovision-2011" Mahnı müsabiqəsində Azərbaycan nümayəndələri qalib gəlmiş, 28 may-1iyun tarixlərində Respublika Günü münasibəti ilə tədbir təşkil olunmuş, Alman ictimaiyyətinin Azərbaycan mədəniyyəti-incəsənəti ilə yaxından tanışlığı Berlində Respublikamızın müstəqilliyinin bərpa edilməsinin 20 illiyinə həsr olunmuş tədbirlər çərçivəsində davam etmişdir. 29 sentyabr 2011-ci ildə tədbirlər çərçivəsində təşkil olunmuş Azərbaycan sərgisində yerli xalçalar, mətbəx nümunələri, musiqi nümunələri təqdim edilmişdir. Tədbirdə çıxış edən AFR-in birinci xanımı Bettina Vulf Azərbaycan xalçalarının rəngarəng ilmələrinin onu heyran etdiyini bildirmişdir. 2011-ci il sentyabrın 30-da Azərbaycanın birinci xanımı Mehriban Əliyeva "Berlin-Bakı-Qaleri" sərgi salonunda olmuş, tanınmış rəssam İbrahim Əhrari ilə görüşmüşdür. 2007-ci ildən fəaliyyət göstərən bu qalereya Bakıdakı "Qız qalası" rəsm qalereyasının Berlindəki filialı olmaqla Almaniyada Azərbaycan mədəniyyətinin təbliğində mühüm rol oynayır. İndiyədək qalereyada 62 Azərbaycan, 46 Alman rəssamın sərgisi keçirilmişdir. Daha sonra Mehriban xanım Əliyeva Azərbaycan səfirliyində əməkdar rəssam Əşrəf Heybətovla görüşmüşdür. Rəssam Ə.Heybətov Mehriban xanım Əliyevanın çəkdiyi portretini və "Azərbaycan-Şərq dünyası" adlı qrafik əsərlərinin albomunu Heydər Əliyev Fondunun Prezidentinə təqdim etmişdir. Elə həmin gün Mehriban xanım Əliyeva səfirlikdə Humbolt Universitetinin Azərbaycan tarixi kafedrasının müdiri professor Yeva Mariya Aux ilə görüşmüşdür. Berlindəki tədbirlərdə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın bil-

dirdiyi kimi, “Bizim ən böyük sərvətimiz mədəni irsimizdir, Azərbaycan xalçaçılıq məktəbi, təsviri sənəti, ədəbiyyatı, musiqisi, tarixi və memarlıq abidələridir. Bu gün ölkədə xüsusi Dövlət Proqramına əsasən teatrlar və muzeylər bərpa olunur, yeni mədəniyyət mərkəzləri açılır, abidələr dövlət tərəfindən qorunur” .

Bütün qeyd olunanlardan aydın olur ki, Şərq mədəniyyətinin Qərbi Avropada ən yaxşı təmsilçisi Azərbaycandır. Bunu biz Azərbaycan ilə Almaniya arasında mədəni əlaqələrin nümunəsində görürük. Bu əlaqələr qarşılıqlı dialoq və hörmətə əsaslanaraq xalqların mədəni inkişafına təkan verir.

Ахундова Н.Р., доцент
Национальная Академия наук
Азербайджанской Республики

ИЗ ИСТОРИИ РАЗВИТИЯ КУЛЬТУРЫ АЗЕРБАЙДЖАНА В 60-70-Х ГОДАХ XX ВЕКА (МУЗЫКА, ИСКУССТВО, СКУЛЬПТУРА, АРХИТЕКТУРА)

Музыка играет важную роль в культурной жизни общества. В развитии культурной жизни Азербайджанского общества большая роль принадлежит музыкальному искусству. «Музыка – лучший спутник человека».

За период 60-70-х годов азербайджанская музыка обогатилась с точки зрения жанров, содержания и формы. Бесценный научный труд Узеира Гаджибекова «Основы азербайджанской народной музыки» стали авторитетным пособием для изучения источников и теоретических основ народной музыки. В сочетании с народным творчеством музыкальное искусство Азербайджана превратилась в могучее воспитательное средство. Произведения азербайджанских композиторов отражают жизнь нашего общества, мысли и чаяния.

Развитие оперы и балета одна из частей развития музыкального искусства. Серьёзные успехи были достигнуты азербайджанской музыкой в области оперы и балета.

Оперы «Бахадур и Сона» Сулеймана Алескерова, «Вагиф» Рамиза Мустафаева, балеты «Тропою грома» Кара Караева, «Легенда о любви» Арифа Меликова пользовались большим успехом у зрителей. Музыкальный фестиваль «Закавказская весна, впервые проведенный в 1965 году, стал доброй традицией, играющей важную роль в воспитании азербайджанской молодёжи. Ярким свидетельством расцвета азербайджанской музыки стало присвоение в 1967 году звания лауреат Ленинской премии композитору Кара Караеву за музыку к балету «Тропою грома»».

За последние годы азербайджанская музыка обогатилась новыми интересными произведениями. Дальнейшего расцвета достигло оперное искусство. В 1971 г. состоялась премьера оперы А.Бадалбейли «Ива не заплачет», либретто оперы в 1967 г. отмечено было премией на Всесоюзном конкурсе. В 1971 году в Баку состоялась премьера этой оперы. «Айгюнь» З.Багирова, «Скала невесты» Ш.Ахундовой явились новыми операми азербайджанских композиторов.

В 1972 г. по мотивам А.Барбюса К.Караевым была написана опера «Нежность». Художественным советом приняты были оперы молодых композиторов «Обманутые звёзды» – М.Кулиева, «Кольцо справедливости» С.Ибрагимовой (в исследуемые годы все новые произведения принимались художественными советами).

Одним из значительных событий в музыкально-театральной жизни республики явилась постановка балета «Читра» Ниязи в новой редакции (1972 г.). Балет «Читра» написан был по мотивам классика индийской литературы Рабиндраната Тагора и отмечен премией Джавахарлала Неру. Одноактный балет «Калейдоскоп» Ф.Караева был поставлен в бакинском театре в 1971 г. Большую популярность и сегодня имеет комическая опера Уз.Гаджибекова «Аршин мал алан», либретто которой переведено на 40 языков. Она шла с неизменным успехом на сценах и в советское время, и в зарубежных театрах.

Дальнейшее развитие получили комедии. За последние годы написаны новые музыкальные комедии: «Все мужья хороши» – Г.Ханмамедова, «Мой милый дикарь» Т.Гаджиева, «В объятиях гор» А.Аббасова, «Севиндик ищет девушку» и «Хамиша ханум» С.Алескерова, «Синяя птица моей бабушки» В.Адигёзалова, «Хиджран» Э.Махмудова и др. С интересом была встречена зрителями оперетта Т.Кулиева «Доброе утро, Элла».

В исследуемые годы развивалась вокально-симфоническая форма музыкального искусства. Большое развитие в Азербайджане получила симфоническая музыка. Она заняла видное место в творчестве К.Караева. Уникальным музыкальным произведением явился «Гимн дружбы» К.Караева. Кантатно-ораторриальный жанр стал основным в творчестве Р.Мустафаева. Велением времени был его ораторий «Октябрь». Его же «Торжественная кантата» воплотила образы праздничной приподнятости. Заслуживают внимания кантаты С.Рустамова «Великий вождь» и «Азербайджан», С.Алескерова «Под знаменем единым», И.Мамедова «Праздник труда», А.Меликова «Голос земли» и другие.

Развивалась также инструментальная музыка. Одно из самых крупных произведений последних лет является – мугам «Гюлистан Баяты-Шираз» Ф.Амирова, который в целом сохранил структуру прежних мугамов «Шур» и «Кюрд овшары», созданных в послевоенный период и отличающимися многогранностью образов.

Произведение «Гюлистан Баяты-Шираз» вдохновлено поэзией великих поэтов Востока Саади и Хафиза. Впервые это музыкальное произведение прозвучало в Москве в 1971 г.

В 70-ые годы созданы были Вторая и Третья симфонии А.Меликова, Вторая симфония Х.Мирза-заде «Триптих» (1970 г.), симфония Р.Мустафаева, «Симфоническая поэма» Д.Джангирова, симфоническая поэма «Утро» Т.Бакиханова, была написана в 1972 г. Композиторами республики написаны были многочисленные концерты, созданы новые романсы О.Никольской, А.Гусейнзаде и Ф.Кулиевой с новыми песнями выступили Ф.Амиров, Т.Кулиев, Дж.Джангиров, С.Алескеров, А.Абасов, Г.Ханмамедов, Ш.Ахундова, Р.Мустафаев, П.Бюльбюль оглы, О.Зульфугаров и многие другие.

Азербайджанская музыка обогатилась талантливыми произведениями различных жанров. Композиторская школа достойно пополнилась свежими силами.

Одной из основных отраслей развития культуры было изобразительное искусство. Современное изобразительное искусство азербайджанского народа достигло в исследуемые годы высокого уровня развития. Оно превратилось в одно из самых передовых и престижных отраслей нашей культуры.

Фундамент азербайджанского искусства был заложен такими видными художниками как Азим Азимзаде и Бехруз Кенгерли.

За период 60-70-х годов в республике вырос большой отряд талантливых художников. Союз художников Азербайджана объединяет более 250 творческих работников (к концу 70-го года). Среди художников можно назвать Микаила Абдуллаева «Женщины Раджатана», «Мои земляки», картина «Радость» получила серебряную медаль Академии художеств СССР и была экспонирована на Всесоюзной выставке в Брюсселе. Его произведения неоднократно экспонировались в Берлине, Праге, Варшаве, Будапеште, Бухаресте, Софии, Белграде, Брюсселе, Бомбее, Калькутте, Пхеньяне. Далеко за пределами республики известны картины народного художника СССР Таира Салахова. В 1973 г. ему была присуждена премия им.Гамаль Абдель Насера за произведения, пропагандирующие дружбу и сотрудничество между СССР и Египтом.

Большой любовью пользуется творчество Саттара Бахлул-заде. В 1972 г. Государственной премии республики была удостоена его живопись, серии «Пейзажи Азербайджана» раскрывавшее творческое развитие традиций национальной художественной школы – Азербайджана.

Художники Надир Абдурахманов – «Строительство Али-Барамлинской ГРЭС», «Сумерки в горах», «Лачин», «Девушка», Тогрул Нариманбеков – «Счастье», «Мугам», Асаф Джафаров – «Жизнь», «Подруги» и др. пополнили своими картинами коллекцию художников Азербайджана.

Значительны достижения в некоторых областях народного декоративно-прикладного искусства. Народный художник Лятиф Керимов, художники Ариф Агамалов, Октай Шихалиев, Тофиг Агабабаев и др. создали прекрасные произведения искусства.

Большой популярностью пользуется творчество художника-орнаменталиста, народного художника Азербайджанской ССР, лауреата Государственной премии Лятифа Керимова, крупного специалиста в области коврового искусства. Им были созданы ковры с портретом Фиордоуси, Шота Руставели, Пушкина, Горького и др. Всесоюзную известность получил его фундаментальный труд «Ковры Азербайджана». Он известен и как замечательный мастер архитектурного орнамента. Значительным событием в культурной жизни города и республики явилось открытие музея азербайджанского ковра и народно-прикладного искусства, где представлено творчество замечательных азербайджанских мастеров – умельцев Логича, Гянджи, Кубы, Шеки, Шемахи и т.д.

Дальнейшее развитие получила скульптура Азербайджана. Плодотворна была работа скульпторов Джалал Карягды («Памятник Н.Нариманову»), скульптурные портреты Пинхос Сабсая, Токай Мамедова и Омар Эльдарова («Памятник Физули»), а также Э.Абдуллаевой, Эльмиры Гусейновой, Фазиль

Наджафова, Эльджан Шамилова, К.Алекперова и многих других. Памятник «Самеду Вургуну» (автор Фуад Абдурахманов) украсил одну из площадей азербайджанской столицы, памятник Рудаки (его же) был установлен в Душанбе.

В 1973 г. в Баку состоялось открытие памятника Герою Советского Союза Мехти Гусейн-заде (скульптор Фуад Абдурахманов, архитектор А.Салманова).

На больших республиканских выставках, персональных и тематических с 1961 по 1975 гг. демонстрировались лучшие произведения живописи, скульптуры, графики, театрально-декорационного и декоративно-прикладного искусства. Организованы выставки художников Азербайджана в Грузии, в других республиках бывшего СССР, посвящённые юбилеям этих республик.

Организованная в Москве в октябре 1971 г. выставка «Советское Закавказье» включала лучшие работы исследуемых лет. Выставка демонстрировалась также в Праге, Братиславе, Берлине, Дрездене и других европейских городах.

В 1972 г. были организованы республиканские выставки, посвящённые юбилеям республик.

Выставки азербайджанских художников были организованы в ГДР, ЧССР, Алжире, Италии, Тунисе. В 1973 г. состоялась республиканские выставки: «На страже Родины», «Спорт в искусстве молодых», выставка произведений азербайджанских художниц, посвящённая 600-летию Насими. Государственной премии Азербайджанской ССР в 1972 г. удостоен был народный художник Азербайджана С.Бахлул-заде за серию работ «Пейзажи Азербайджана», серебряной медалью им.Грекова награждён был художник Т.Нариманбеков за картину «Великая Отечественная». Сегодня большой коллектив художников успешно разрешает идейно-эстетические задачи нашей современности.

В Азербайджане дальнейшее развитие получила архитектура. Развитие азербайджанской архитектуры обуславливалось большими масштабами строительства, повсеместно развернувшегося в республике. Новые промышленные города Азербайджана требовали решения сложных градостроительных, архитектурных и инженерно-технических проблем. Строительство последних лет свидетельствует о серьёзных успехах зодчих республики в их стремлении добиться архитектурной выразительности зданий при массовом строительстве.

В 60-х годах было завершено строительство Академгородка АН Азерб. ССР (архитектор М.Усейнов), в 1963-1964 гг. была произведена коренная реконструкция здания театра Русской драмы в Баку, в 1960 г. построен был ЦУМ в г.Баку (архитектор Н.Кенгерли).

В республике были возведены великолепные сооружения, среди которых здание Бакинского аэропорта (архитектор Г.Меджидов), станции Бакинского метрополитена и здание бакинского цирка. Победителям республиканского конкурсу на лучшие произведения литературы и искусства, посвящённые различным юбилеям были присуждены премии за работы в области архитектуры Э.А.Исмаилову и Ф.Р.Леонтьевой – за проект нового здания цирка; М.А.Усейнову – за проект станции метро «Нариманов», Т.А.Ханларову, Т.И.Кадымову, Ю.Н.Козлову и Ш.М.Зейналовой – за проект станции метро «Бакы Советы»; К.М.Сеньчихину – за проект станции метро «Гянджлик».

В 60-70-х годах было закончено строительство «Зелёного театра» в Баку (архитекторы А.Суркин), завершено было строительство Дворца им.Г.Алиева на 2200 мест (архитектор В.Шульгин) в 1970 г. вступил в строй морской вокзал

(архитектор Д.Ахундов). За последние годы выросли новые здания гостиниц «Интурист» (архитекторы М.Усейнов и А.Ольтециан) и «Баку» (архитектор Г.Меджидов). Построены здания вузов – педагогический институт им.Ленина (архитектор М.Мамедзаде), новые здания Азгосуниверситета им.С.М.Кирова, проведена строительная работа по расширению Азербайджанского Политехнического института. Построены новые корпуса, общежития, комплекс спортивных сооружений (архитекторы М.Усейнов и С.Дадашев). Построен дом актёра в Баку (авторы К.Агабеков, Ю.Кадымов, Ф.Оруджев).

Закончилось строительство здания статистического Управления (архитектор Т.Ханларов).

Успехи в области архитектуры были немыслимы без наличия национальных архитектурных кадров.

В исследуемый период только в научных учреждениях республики в области архитектуры работали 55 научных работников (в том числе 5 докторов и 18 кандидатов наук). В подготовке высококвалифицированных кадров много сделано академиками республиканской Академии наук С.Дадашевым, М.Усейновым и профессором Я.Сарыщевым. Широкой известностью пользуются работы доктора архитектуры Г.М.Ализаде и архитектора М.Мадатова.

Заслуженным авторитетом пользуются градостроители и архитекторы, подготовленные в вузах Азербайджана: профессора С.А.Дадашев, М.А.Усейнов, Г.М.Ализаде, А.В.Саламзаде, Э.Касим-заде, архитекторы Э.А.Исмайлов, Г.А.Алескеров, В.Шульгин, С.Ваидов, Г.К.Филонович, Х.А.Баба-заде, К.И.Сеньчин, С.Датиев, В.Иванов, Н.Кенгерли, К.Мамедзаде, Г.Меджидов, А.Новрузи, Д.Сеидов, Т.Шаринский и много других.

Государственной премии СССР были присвоены архитекторам Г.Алескерову и А.Гусейнову, скульпторам И.Зейналову и Н.Мамедову. Дипломами и премиями Всесоюзного смотра 1972 г. отмечены А.Саламова и Ю.Толстоногов (торговый центр в г.Сумгаите), Т.Хаплаков, Л.Трошинская (вычислительный центр ЦСУ Азерб.ССР в Баку). Написаны фундаментальные работы по истории архитектуры Азербайджана с древнейших времён до наших дней, продолжается строительство новых городов, районов, зданий, парков, скверов.

В исследуемые годы яркими красками засверкала вся культурная и творческая жизнь Азербайджана. Всё чаще и чаще демонстрировались достижения азербайджанского искусства в зарубежных странах. Усилился процесс взаимовлияния, взаимообогащения национальных литератур и искусства. Развивались культурные связи Азербайджана с братскими союзными республиками. Ширилась и развивалась экономическая и культурная жизнь Азербайджана.

В исследуемые годы важными стали такие события культурной жизни, как торжества, посвящённые 600-летию выдающегося азербайджанского поэта и мыслителя Насими, 100-летию азербайджанского драматического театра, 50-летию журнала «Азербайджан гадыны» («Женщины Азербайджана»), юбилеям Узеира Гаджибекова, А.С.Пушкина, Михаила Шолохова, Мамед Сеида Ордубади, Сергея Есенина, ашуга Алескерова, Муслима Магомаева и др.

Основываясь на вклад художественной интеллигенции в развитие искусства, музыки, архитектуры в исследуемый период, мы сегодня достойно утверждаем, что азербайджанский народ имеет глубокую, богатую, неповторимую историю культуры.

Əmirxanov S.A., dosent
Bakı Biznes Universiteti

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ MİLLİ MUZEY QURUCULUĞU

XX əsrin əvvəllərindən başlayaraq Azərbaycanda muzeylərin təşəkkülü, inkişafı, ayrı-ayrı illərdə baş verən ictimai-siyasi hadisələrin gedişi mühit və şəraitlə bilavasitə bağlı olmuşdur.

Müxtəlif tarixi dövrlərdə insanlar tərəfindən daş, metal, dəri, ağac, saxsı və sair məmulatların toplanıb cəmləşdirilməsinə böyük ehtiyac fərdi saxlancların, şəxsi kolleksiyaların, nəhayət muzeylərin yaranmasına səbəb olmuşdur. Doğrudur, dünyanın mühüm sənətkarlıq və sənaye mərkəzlərindən olan Azərbaycanda bu proses gec baş versə də, artıq müxtəlif tarixi dövrün milli nümunələri ayrı-ayrı ölkələrdə, sərgilərdə, şəxsi kolleksiyalarda və muzeylərdə nümayiş etdirilir, təbliğ olunurdu.

"Azərbaycan bədii sənətkarlığının (xalça, parça, tikmə, zərgərlik, misgərlik nümunələri və s.) 1872-ci ildə Moskvada Ümumrusiya kustar sənaye sərgisində, 1873-cü ildə Vyanada, 1924-cü ildə isə Parisdə açılmış Ümumdünya sərgilərində müvəffəqiyyətlə iştirakı onu bütün dünyada tanıtdı...

İndi biz fəxrlə Londonun Viktoriya və Albert, Parisin Luvr, Vaşinqtonun Metropoliten, Vyananın, Pomanın, Berlinin, İstanbulun, Tehranın, Qahirənin zəngin muzey kolleksiyalarına baxarkən orada Təbriz, Naxçıvan, Gəncə, Qazax, Quba, Bakı, Şəki, Şamaxı və Qarabağ ustalarının bacarıqlı əlləri ilə yaradılmış sənət nümunələrini görürük" .

XIX əsrin sonlarında "Azərbaycanda xalçaçılıqla yanaşı, 40 növə qədər sənətkarlıq məşğuliyyəti ilə çalışanlar var idi. Onlar ağac və taxtadan düzəldilən məhsullar istehsal edir, xüsusən kənd təsərrüfatında işlədilən bel, yaba, kürək və araba kimi avadanlıqlar, həmçinin məişətdə işlədilən mebel, qaşıq, beşik, daraq, iynə, xalça toxuma üçün dəzgahxana və nəhayət, musiqi alətləri hazırlayırdılar. Bu əşyaların istehsal olunduğu sənət sahələri Qazax,Yelizavetpol və Şuşada daha geniş yayılmışdı".

Şərabçılıqla bağlı çəllək istehsalı, metal əşyalar və bəzək şeyləri istehsalı, zərgərlik, daş-qaş, mis əşyaların hazırlanması getdikcə artırdı. Mis qabların istehsalında hətta Lahıc çox məşhurlaşmışdı. Bakıda isə əmək, sənətkar, təsərrüfat və məişət alətlərinin, hücum silahlarının, bəzək əşyalarının, metalın bədii işlənməsi tarixi, hətta orta əsrlərə təsadüf edir. Bu və digər yaradıcılıq, sənətkarlıq amilləri Azərbaycanda muzey quruculuğunun başlanılması üçün zəmin idi.

1913-cü ilin aprel ayında Bakıda açılan Qafqaz rəssamları əsərlərinin ilk sərgisi, 1914-1916-cı illərdə Bəhruz Kəngərli tərəfindən ata evində (hazırda B.Kəngərlinin ev-muzeyi burada yerləşir) – vəkil Şirəlibəyin mülkündə təşkil edilən sərgilər, həmin illərdə Bakıda rus rəssamları – Y.S.Samorodovun, İ.İ.Brodskinin, İ.İ.Edelin və başqalarının satış məqsədilə təşkil etdikləri sərgilər artıq Azərbaycanda muzey quruculuğu üçün mühitin yarandığını bir daha sübut edirdi. Şəxsi toplantılar və ayrı-ayrı sərgilərin təşkili tarixi keçmişimizlə bağlı maddi-mənəvi abidə nümunələrini toplayan, qoruyan, bərpa edən, təbliğ və tədqiq edən mərkəzlərə-muzeylərə ehtiyac getdikcə artırdı. Artıq bunu zaman və mühitdə baş verən hadisələr tələb edirdi. Eyni zamanda belə "... muzeylərin yaradılması həm elmi biliklərin təbliği, həm də cəmiyyət üzvlər-

inin tarixi biliklərə olan tələbatının ödənilməsi ilə bağlı idi". Milli sənətkarlıq nümunələrimizin cüzi bir hissəsi də XIX əsrin əvvəllərindən – 1917-ci ilə qədərki dövrdə Tiflisdə - Qafqazdakı çar canişinin muzeyində tamaşa üçün toplanmışdı və Türk-İran abidələri kimi təqdim edilmişdi.

Beləliklə, XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanda qədim tarixiliyin, geniş mədəni-maarifçilik təcrübəsinin mövcudluğu, tarixi-mədəniyyət nümunələrinin zənginliyi, maddi və mənəvi mədəniyyət nümunələrinin əhali kütləsi arasında geniş marağı onların xaricə daşınmasının qarşısının alınmasının vacibliyi kimi amillər nəticəsində ölkədə muzeylər yaradılmağa başladı. 1896-cı ildə Naxçıvanın Nehrəm kənd məktəbində maarifpərvər yazıçımız Cəlil Məmmədquluzadə tərəfindən yaradılan ilk muzeyin eksponatları az olsa da, o dövr üçün çox sevindirici bir hadisə idi.

Artıq Azərbaycanda mədəni-maarifçilik hərəkatlarının surətli inkişafı məqsədyönlü şəkil alırdı ki, bu proses özünü Bakı, Şamaxı və Naxçıvan şəhərlərində tanınmış insanların topladıqları qədim və tarixi əhəmiyyətli əşya, material və eksponatların vaxtaşırı nümayişində göstərirdi.

Həmin dövrdə qapalı muzeylərin yaradılmasına cəhd edilirdi. 13 bölmədən ibarət olan və Rusiya Texniki Komitəsinin nəzdində olmaqla Bakıda ilk dəfə yaradılan belə muzey rəsmiləşdirilməmişdi və tədris məqsədli idi.

Tədrisə yardım məqsədilə digər bir muzey – "Pedaqoji muzey" Bakı şəhəri Xalq Məktəbi müdiriyyəti nəzdində yaradılmışdı. Bu muzeyin eksponatları dərslik, dərs vəsaiti, tədris-metodik vəsaitlərdən ibarət olmaqla əyani vəsait kimi nümayiş etdirilirdi. Muzey 1920-ci ildə Azərbaycan Dövlət Muzeyinin yaradılması ilə əlaqədar bağlanmışdır.

1919-cu ildə Azərbaycan Cümhuriyyəti dövründə Türk xalqlarının etnoqrafiyası və məişətinə həsr olunmuş "Türk ocağı", "Türkmən çadrası", "Atəşgah", "Şərq salonları" kimi sərgilər təşkil edilirdi.

Həmin dövrdə Azərbaycanın tarix və mədəniyyətinin kökləri haqqında nəsillərə tanıtdırılması zərurəti kəskin surətdə hiss olunurdu. Yusif Vəzir Çəmənzəminli bu barədə yazırdı: "Allaha şükür ki, bizim tariximiz, ədəbiyyatımız, musiqimiz, teatrımız və başqa mədəni nailiyyətlərimiz vardır. Əgər bütün bunlar haqqında yazılsa, onda biz özümüzü dərk edirik və əcnəbilərə bizi dərk etmək imkanı veririk. Bizim vətənimizdə çoxlu tarixi abidələr var. Bunların hər biri haqqında, hər nömrədə ətraflı məlumat vermək zəruridir".

Azərbaycan Cümhuriyyəti dövründə ölkənin mədəni həyatında "Səfa", "Nicat", "Nəşri-maarif"cəmiyyətləri kimi mədəni-maarif qurumları aktiv fəaliyyət göstərirdilər. Onlar əhalinin maariflənməsinə, milli mədəniyyətin inkişafına xidmət edirdilər. Mədəni-maarif işinin daha da genişləndirilməsi məqsədilə cəmiyyətlərin konfransının çağırılması üçün təşkilat komissiyası seçildi və "Bakı şəhəri mədəni-maarif müəssisələri ittifaqının nizamnaməsi təsdiq olunmaq üçün hökumətə göndərildi.

1919-cu ilin sentyabr ayında milli tarixi irsimizin qorunması məqsədilə Azərbaycanın şərqşünasları "Şərqin arxeologiyası və tarixinin həvəskarları dərnəyi"ni yaratmağı qərara aldılar. Həmin ildə Gəncədə filialı təşkil edilən dərnəyin təşkilatçıları tarixçilər, ədəbiyyatçılar, arxeoloq və numizmatiklər idilər. Muzey quruculuğuna maraq göstərən tədqiqatçılarımız qarşısında yaranan çətinliklərdən biri də həmin dövrdə əşya və materialların, bədii sənətkarlıq nümunələrinin qeydə alınması, mühafi-

zəsi, tədqiqi, təbliği ilə əlaqədar hüquqi-normativ sənədin yoxluğu idi. Artıq ölkədəki çox qədim tarixi-mədəni əhəmiyyətli abidə nümunələri, zinət əşyaları, geyimlər, xalça məmulatları, məişət əşyaları və digər dəyərli əşya və materialların xaricə axınının qarşısını almaq vacib idi. Bu məqsədlə həmin illərdə fəaliyyət göstərən "Yaşıl qələm" Ədəbi Cəmiyyətinin üzvləri Hüseyn bəy Mirzə Camalov və Məhəmməd Ağayev Azərbaycan parlamenti qarşısında çıxış edərək Bakıda milli muzeyin yaradılması məsələsini qaldırdılar və muzeyin həmin dövrdə milli tarixi-mədəni dəyərlər baxımından böyük əhəmiyyət kəsb edəcəyini qeyd etdilər. Onlar tərəfindən muzeyin yaradılması məqsədilə qiymətli əşyalar da toplanmışdı. Yaradılacaq muzeyin sadəcə milli muzey adlandırılması nəzərdə tutulsa da, istiqlal şüarı günün əsas şüarı olduğundan, muzeyə də İstiqlal adının verilməsi dəqiqləşdirilmişdi.

Muzey üçün toplanmış əşyaların təhvili və qəbulu aktı sayılan bu sənəd "Həmişəlik Azərbaycan Parlamenti ixtiyarında olaraq hələlik Parlament İmarətində təsis edilən "Muzey İstiqlal" adına müəssisələr tərəfindən toplanmış olan əşyaların Birinci Parlament Divani-Rəyasətinə təhvil verilməsi haqqında Şərait" adlanır. Azərbaycan muzey quruculuğunda ilk hüquqi sənəd olan "Şərait"in əldə edilməsi həmin dövr üçün mühüm hadisə olmaqla muzey yaradıcılığı istiqamətində çox vacib addım idi. "Şərait" 7 maddədən ibarət olmaqla əşyaların təhvili, qəbulu, gələcəkdə muzeyin genişlənməsi üçün maliyyə məsələləri, zəngin muzey kitabxanasının və idarəedici qurumun yaradılması, muzeyin maliyyə fondunun təşkili kimi məsələləri əhatə etmişdir.

Azərbaycan Parlamentinə təhvil verilmiş 31 adda 89 ədəd ilkin əşyalar içərisində əski qılınc, qəmə, barıt qabı, müxtəlif formalı muncuqlar, əski Quran, dualar, tilsim mətnləri həkk olunmuş mis məmulatlar, gümüş üzük, rus pulları, yunan pulu, əlyazmalar və digər məmulatlar mövcud idi.

1919-cu il dekabr ayının 7-də Parlament yaradılmasının ildönümü münasibətilə "İstiqlal muzeyi" açılmış və Azərbaycan Parlamentinin nəzdində fəaliyyət göstərməyə başladı.

Beləliklə, "Muzey işinin inkişaf etdirilməsi üçün bünövrə qoyulurdu. Ədəbi cəmiyyətin üzvləri H.M.Camalov və M.Ağayevin təşəbbüsü ilə Parlament milli İstiqlal Muzeyinin təşkil olunması barəsində qərar qəbul etmişdi".

Azərbaycan Xalq Cümhuriyyəti dövründə "Müsəlman Şərqini öyrənən Cəmiyyət"in yaradılması, bu cəmiyyət vasitəsilə maddi mədəniyyət nümunələrinin toplanması, tədqiqi üzrə işin aparılması, bir sıra sərgilərin təşkili, Naxçıvanda B.Əlibəyov tərəfindən əsasən öz şəxsi materialları hesabına muzey (1919-cu il) təşkil etməsi , Etnoqrafiya Muzeyinin yaradılması, Pedaqoji Muzeyin işinin təkmilləşdirilməsi məsələləri də həyata keçirilmişdi ki, bu işlər həmin dövr quruculuğu üçün mühüm milli əhəmiyyət kəsb edirdi.

Azərbaycanda Sovet Hakimiyyəti qurulduqdan 20 gün sonra, yəni 18-də inqilab komitəsinin sədri N.Nərimanov tərəfindən imzalanan "Bütün muzeylər milliləşdirilsin" adlı qərara görə yeni dövlət muzeyi yaradılmalı idi.

1920-ci il may ayının sonu, iyun ayının əvvəlində E.N.Staneviçin rəhbərliyi ilə diyarşünaslıq dərnəyi fəaliyyətə başladı. Dərnəyin məqsədi muzey yaratmaq, ekskursiyalar təşkil etmək, diyarşünaslıq sahəsində araşdırmaların aparılmasından ibarət idi. "Diyarşünaslıq dərnəyi həmin il iyun ayının 15-də Muzey-ekskursiya şöbəsi adı ilə Xalq Maarif Komissarlığının tərkibinə daxil edildi. Şöbənin ilk yığıncağında tədris

xarakterli muzeyin təşkil olunması qərara alındı və bu muzey "Doğma Diyarın Tədris Muzeyi" adlandırıldı. 1920-ci ilin iyul ayında "İstiqlal" Muzeyinin, habelə "Pedaqoji Muzey"in və bəzi məktəblərdə fəaliyyət göstərmiş diyarşünaslıq kabinetlərinin əşyaları bu muzeyə verildi. Təşkili dövründə məlum oldu ki, bu muzey yalnız tədris çərçivəsində məhdudlaşa bilməz. 1920-ci ilin oktyabr ayında muzey "Azərbaycan Dövlət Muzeyi" adlandırıldı".

Rzaquliyeva S.D., dosent
Fərhadova J.F., baş laborant
Sumqayıt Dövlət Universiteti

HEYDƏR ƏLİYEV VƏ MİLLİ İDEOLOGİYA

Azərbaycançılıq ideologiyasının çox qədim tarixi kökləri vardır. Tarixin qədim dövrlərindən başlamış müasir günümüzə qədər Azərbaycan xalqının adət-ənənələrini, milli-mənəvi dəyərlərini, polietnik zənginliyini özündə yaşadan və birləşdirən baxışlar sistemi kimi azərbaycançılıq ideyası təşəkkül tapmışdır. Azərbaycan tarixən çoxmillətli ölkə, milli və dini tolerantlığın bərqərar olduğu məkan kimi tanınmış və bu üstün cəhətlər azərbaycançılıq məfkurəsinin əsasını təşkil etmişdir. Xalqımızın böyük mütəfəkkirlərinin, dövlət adamlarının, ictimai xadimlərinin fəaliyyətində bu ideya təkmilləşdirilərək tarixi zərurət forması əldə etdi.

XX əsrin 80-ci illərinin sonlarında Azərbaycanda başlayan milli-azadlıq mücadiləsi və bu müstəvidə yaşadığımız faciələr həm ölkə daxilində, həm də xaricdə yaşayan soydaşlarımızın vahid ideya ətrafında birləşdirilməsi və onların imkanlarından istifadə edilməsini taleyüklü bir məsələ kimi ortaya çıxardı. Bu məsuliyyətli və taleyüklü məsələnin həllini öz üzərinə götürən görkəmli dövlət xadimi Heydər Əliyev qısa müddətdə tarixiliklə müasirliyin tam vəhdətinə nail oldu. O, bu müstəvidə dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşdirilməsinin, Azərbaycanın gələcəyi üçün tarixi və strateji önəm daşıdığını uzaqgörənliklə müəyyən etdi. Həmin dövrdə Heydər Əliyev tərəfindən irəli sürülən azərbaycançılıq ideyası Azərbaycanın dünya birliyinə inteqrasiyasının təməl sütunlarından birini təşkil etməyə başladı.

Heydər Əliyev azərbaycançılıq ideologiyasını Azərbaycan dövlətinin ana xətlərindən birinə çevirərkən ilk növbədə tarix boyu əldə edilmiş zəngin təcrübədən məharətlə və uzaqgörən bir strateq kimi istifadə etdi. Bu baxımdan Heydər Əliyevin azərbaycançılığı ümummilli ideologiya olaraq irəli sürməsi onun Azərbaycan dövlətçiliyi naminə göstərdiyi tarixi xidmətdir. Məhz azərbaycançılıq Azərbaycana qarşı bir çox istiqamətlərdən yönələn təhdidlərin, ölkəmizi etnik bölücülük əsasında parçalamaq cəhdlərinin qarşısında güclü ideoloji və siyasi sipər oldu. Çünki, azərbaycançılıq bizim keçmişimizdən gələn dəyər olaraq vahid Azərbaycanın ideya əsası, ölkədə bütün konvessiya və etnosların həmrəylik və anlaşma içində birgəyaşayışının tarixi təcrübəsidir. Bu istiqamətdə də Heydər Əliyev Azərbaycan dilinin, tarixinin, ədəbiyyat və mədəniyyətinin yeni–azərbaycançılıq məfkurəsi ilə dərkinin metodologiya və startegiyasını formalaşdırdı. Onun 2001-ci il iyun ayının 18-də imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında", həmçinin 2001-ci il avqust ayının 9-

da imzaladığı "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" fərmanı böyük tarixi-siyasi əhəmiyyətə malikdir.

Heydər Əliyev öz çıxışlarında bir vacib məqamı hər zaman diqqətə çatdırıb ki, Azərbaycanın çoxmillətli, tolerant ölkə olması bizim böyük sərvətimizdir və biz bunu qoruyub saxlamalı, dünyaya ən yüksək səviyyədə təbliğ etməliyik:"Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Azərbaycanın ən başlıca sərvətlərindən biri qədimlərdən bu torpaqda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan müxtəlif dinlərə etiqad edən adamlardır. Biz bunu qiymətləndiririk və saxlayacağıq. Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir. Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir. Azərbaycanlı sözü bizi həmişə birləşdirib".

Azərbaycançılıq ideologiyası, bir tərəfdən, Azərbaycan türklərinin ölkədəki digər etnik qruplara tolerant münasibətinin, sülh içində yaşamaq istəyinin bariz göstəricisidirsə, digər tərəfdən, Azərbaycanın türk dünyasının ayrılmaz parçası olduğunun təsdiqidir. Odur ki, azərbaycançılığı realist milli inkişaf modeli olaraq qəbul edən Azərbaycan türk dövlətləri arasında da bəlağət və pafosdan uzaq, səmimi və qarşılıqlı faydalı tərəfdaşlıqdan olduğunu daima nümayiş etdirir.

Heydər Əliyev xaricdə yaşayan azərbaycanlıların dağınıq halda yaşamaması, onların diaspor fəaliyyəti göstərməsi üçün milli həmrəyliyin vacib olduğunu bildirdi. O, həm də yaxşı dərk edirdi ki, milli həmrəyliyin möhkəmlənməsi üçün azərbaycançılılıq ideologiyası zəruridir. Məhz bu ideologiyanın təbliği nəticəsində Azərbaycanı hansı səbəbdən tərk etmələrindən asılı olmayaraq xaricdə yaşayan soydaşlarımız arasında milli həmrəylik yarandı və onlar ümummilli maraqlar naminə birlikdə fəaliyyət göstərməyə başladılar. Bunun nəticəsində də soydaşlarımız arasında azərbaycançılıq ideologiyası milli həmrəyliyin konsepsiyasına çevrildi.

Prezident xarici dövlətlərə ilk səfərlərindən başlayaraq getdiyi hər bir ölkədə yaşayan həmvətənlərimizlə – oradakı azərbaycanlı icmasının böyük və ya kiçikliyindən asılı olamayaraq – görüşlər keçirir, onların problemləri, qayğıları ilə maraqlanır, tövsiyələrini verirdi. Azərbaycan diasporunun yeni mərhələdə inkişaf tezislərini də məhz böyük öndərin həmin görüş və çıxışlarda söylədiyi fikirlər, müddəalar təşkil etmişdir. Özü də bu hər zaman şüarçılıqdan uzaq, reallığı əks etdirən, zərurətdən doğan fikir və müddəalar olub. Bu baxımdan Heydər Əliyevin 2001-ci ilin noyabrında Bakıda Dünya azərbaycanlılarının I qurultayında bəyan etdiyi tezislər əslində azərbaycançılığın, Azərbaycan təəssübkeşliyinin ən lakonik ifadəsi idi: "Biz istəyirik ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar həmin ölkələrin vətəndaşı kimi, istədikləri kimi yaşasınlar. Ancaq heç vaxt öz milli köklərini, milli mənsubiyyətlərini itirməsinlər. Bizim hamımızı birləşdirən bu amillərdir. Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır. Azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək deməkdir. Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı yaşatmalıyıq".

Heydər Əliyevin azərbaycançılıq ideologiyasında tarixiliklə müasirliyin nəzəri vəhdəti əsas yer tutur. Azərbaycançılığın ümummilli ideologiya halına gəlməsi, bütün dünya azərbaycanlılarını birləşdirən məfkurəyə, müstəqil Azərbaycan dövlətinin əsasına çevrilməsi məhz Heydər Əliyevin adı ilə bağlıdır. O, azərbaycançılığı dövlətçiliyə tətbiq etdi, bu məfkurəyə əsaslanan milli dövlət yaratdı, xalqda dövlətçilik hissini formalaşdırdı. Bu ideologiya Azərbaycan dövlətinə qarşı bir çox istiqamətlərdən yönələn təhdidlərin, ölkəmizi etnik əlamətlər əsasında parçalamaq cəhdlərinin qarşısında güclü ideoloji və siyasi sipər olmuşdur. Bunu onun Dünya Azərbaycanlılarının qurultayındakı nitqi (10 noyabr, 2001-ci il) də sübut edir. Heydər Əliyevin qurultaydakı çıxışı azərbaycançılığın tarixi proqram sənədi hesab edilir. Heydər Əliyev qurultaydakı çıxışında demişdir: "Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi, həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olubdur. Biz həmişə bu ideya ətrafında birləşməliyik. Azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq".

Azərbaycan Respublikası çoxmillətli bir dövlətdir. Azərbaycanda müsəlmanlarla yanaşı, başqa dinlərə mənsub olan vətəndaşlar da yaşayır. Azərbaycan müstəqil, demokratiya prinsiplərinə mənsub olan bir dövlət kimi öz ərazisində yaşayan bütün xalqlara, bütün millətlərə dinindən, dilindən, irqindən, siyasi mənsubiyyətindən asılı olmayaraq azadlıq, hürriyyət imkanları verir.

Azərbaycanın multikultural ənənələrinin dövlət tərəfindən qorunması işində ən vacib olanı Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə bu məsələnin hüquqi sənədlərdə, o cümlədən Azərbaycan Respublikasının Konstitusiyasında əks olunmasıdır. Belə ki, multikulturalizm siyasətinin əsasını təşkil edən tolerantlıq (dözümlülük) prinsipi Azərbaycan Respublikası Konstitusiyasının bir sıra maddələrində aydın təsbit edilmişdir. Buna nümunə olaraq "Bərabərlik hüququ"(maddə 25, bənd 3), "Milli mənsubiyyət hüququ" (maddə 44, bənd 1, 2) və başqa maddələri göstərmək olar.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında ölkəmizdə Azərbaycan xalqının multikulturalist ənənələrinin qorunması və inkişaf etdirilməsi sahəsindəki iş onun layiqli davamçısı prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Multikulturalizmi Azərbaycan Respublikasının dövlət siyasəti, xalqımızın həyat tərzi kimi dəyərləndirən prezident İlham Əliyev bu siyasətin həyata keçirilməsində BMT, ATƏT, Avropa Şurası, İslam Əməkdaşlığı Təşkilatı və digər nüfuzlu təşkilatlarla əməkdaşlığa böyük əhəmiyyət verir. O, həmişə ölkəmizin bu təşkilatlar tərəfindən qəbul edilən milli azlıqların hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı konvensiyalara qoşulmasının zəruriliyini qeyd etmişdir. Ölkəmizin siyasi-mənəvi yüksəlişində son dərəcə vacib məqamlardan biri isə prezident İlham Əliyevin təşəbbüsü və iştirakı ilə 2011-ci ildən bəri mütəmadi olaraq Bakıda Beynəlxalq Humanitar Forumun keçirilməsidir. Artıq ənənəyə çevrilmiş bu forumun son açılışı zamanı etdiyi çıxışında prezident İlham Əliyev multikulturalizmi "alternativi olmayan gələcək inkişaf üçün ən məqbul variant kimi"dəyərləndirməklə təkcə Azərbaycanda deyil, həm də müasir

dünyada multikulturalizm meyllərinin gücləndirilməsinin vacibliyini xüsusi olaraq qeyd etmişdir.

Prezident İlham Əliyevin multikulturalizmə, tolerantlığa verdiyi siyasi dəyərin dünya miqyasında real elmi, mədəni, sosial müstəvilərə köçürülməsi işində Heydər Əliyev fondunun böyük xidmətləri olmuşdur. Bu gün Azərbaycan multikultural ənənələrinin qorunub saxlanması və təbliği ilə bağlı fond olduqca mühüm layihələr həyata keçirir. Bu layihələr Azərbaycan multikulturalizminin bir ölkə çərçivəsində dinlərin və mədəniyyətlərin müxtəlifliklər rejimində fəaliyyət göstərməsini reallaşdırır. Fondun düşünülmüş və sistemli fəaliyyətində multikulturalizmin mühüm aspektlərindən biri olan mədəniyyətlərarası əlaqələrin möhkəmlənməsi istiqaməti xüsusi yer tutur. Fondun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə keçirilən "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi", "Çoxmədəniyyətli dünyada sülh şəraitində birgə yaşama" və s. layihələləri göstərmək olar.

Müasir dövrdə Azərbaycan özünün multikulturalizm siyasəti ilə bu sahədə əldə etdiyi nailiyyətlərlə dünya dövlətlərinə, o cümlədən də tarixən öz zəngin təcrübəsi ilə tanınan Qərb ölkələrinə nümunə olmaqdadır.

Qətiyyətlə demək olar ki, Azərbaycan multikulturalizmi ölkəmizin siyasi simasının əsas cizgilərindən birinə çevrilmişdir. Azərbaycan multikulturalizminin siyasi banisinin ən böyük arzularından biri elə bu idi.

Mürşüdova U.B.,
filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent
ADPU Şəki filialı
AMEA-nin Şəki Regional Elmi Mərkəzi

MƏDƏNİ İRS, MİLLİ ADƏT VƏ ƏNƏNƏLƏR, AZƏRBAYCAN FOLKLORU XALQIN MİLLİ-MƏDƏNİ DƏYƏR ÖLÇÜSÜDÜR

Bütün dünyada olduğu kimi, Azərbaycanda da “folklorşünaslıq elminin əsası XVIII yüzilliyin sonu, XIX yüzilliyin başlanğıcında meydana gəlmiş” və XX-XXI əsrlərdə inkişaf etdirilmişdir.

Azərbaycan folklorunun öyrənilməsi, öz ərazilərində yaşayan xalqların unikal və rəngarəng irsi mədəniyyəti, mif və əfsanələrinin, insanların təbiət elementləri ilə yaxın təması və sərvətlərin bölüşmə qaydaları, ərazinin heyvanat aləmi və bitki örtüyünün araşdırılması müqayisəli şəkildə aparılır. Təbiət elementləri kənd, şəhər və icmaların qurulması, fərdlərin ərzaq və su ilə təminatı yolları, heyvanlardan nəqliyyat, işçi və qida vasitəsi kimi istifadəsi, təbii vasitələrə yüksək hörmətlə yanaşması, əldə etdikləri nemət üçün təbiətə minnətdarlıq hissi, mif və əfsanələrində təbiətin canlı və ölməz olması, hər mifin bir tarixi dərs və mənəvi təlimatla zəngin olması bu tədqiqatın əsas istiqamətləridir.

Şimali Azərbaycanın tarixində güclü və sirli Şəki, Quba, Naxçıvan, Bakı, Qarabağ, Şamaxı, Gəncə, Irəvan, Cavad xanlıqları və digər sivilizasiyalar mövcud idi ki,

bu böyük xanlıqların döyüşçüləri, iqtisadiyyatı-münbit əkin sahələri, mal-qara fermaları, ənənələri var idi.

Ölkənin tarixi reallıqları ərazi daxilində yaradılan mif, nağıl, əfsanə və digər folklor örnəkləri vasitəsi ilə araşdırılır və bir mədəniyyətin, eyni zamanda xüsusi mədəniyyət yaşamış insanların əhvalatları vasitəsi ilə tarixi öyrənilir.

Folklorun mahiyyəti və izahı haqqında Azərbaycan alimləri müxtəlif elmi fikir və mülahizələr irəli sürmüşlər ki, bu fikirlər dünya folklorşünaslarının fikirləri ilə üst-üstə düşür.

Azərbaycan xalqının tarixi və folkloru bir-birindən nəfəs almış həyatdır. Qədim deyimlər və nağıllar tariximizin müəyyən qatlarında yarandığını isbat edən faktlarla zəngindir. Ərazidə folklor örnəkləri olan əhvalat, nağıl danışmaq, inancları, adət-ənənələri yaşatmaq, ana torpaqla hörmətlə davranmaq və onu sevmək vacib idi. Böyük Yaradana ruhən və qəlbən yaxın olmaq, bütün bəşəriyyətin xeyrinə əməkdaşlıq etmək, ehtiyacı olanlara kömək və mehribanlıq göstərmək, səylərinizin əsas hissəsini xeyir-xahlığa həsr etmək, həmişə doğru və düz olmaq, fəaliyyətlərinizdə məsuliyyətli olmağın yolları ilə bağlı ideyalar folklor vasitəsi ilə açıqlanır və insan tərbiyəsi vasitəsi kimi tədris prosesinə cəlb edilməsi tövsiyə edilir.

Azərbaycan folkloru xalqımızı milli ruhda tərbiyəsinə imkanı verən vasitədir. Müasir təhsil sistemi insan yetişdirmək yollarını həmin xalqın folklorundan istifadə etməklə tapa bilər. İnsanın xoşbəxtliyi onun məhz insani keyfiyyətlərə malik olması nəticəsində əldə edilir. Biliklər insanın hiss və həyəcanlarına, sevinc və kədərlərinə, sevgi və nifrətlərinə istiqamət verə bilir.

Müdrik, xeyirxah, digər insanlara məhəbbət və qayğı göstərən, kamil şəxslər həmişə İnsanın reallıq qanunları ilə yaşaması onun təbiət və cəmiyyətlə harmoniya çərçivəsində yaşaması deməkdir. Bu harmoniya insanın həyatını rahatlaşdırır və o, reallığı görür və onun qarşısında özünü ləyaqətlə aparır. Azərbaycan folkloru insanın insan kimi yetişməsi prosesində, milli ideyalarla tərbiyə alması yolunda ən etibarlı mənbələrdən biridir. Şifahi xalq ədəbiyyatı insana fərdi olaraq özünüdərk prinsipini yaratmaq imkanı yaradır. Özünü dərk edən insan öz qüsur və nöqsanlarını görür, özünə, ətrafdakılara, həyata şüurlu olaraq təsir edir. Xalq ədəbiyyatı və yaradıcı insanlar əslində insanın arzu və istəklərini simvollarla maskalanmış şəkildə təsvir edir.

Azərbaycan folklorunda xalq öz tabuları, əxlaq normaları, mədəniyyət vasitələri ilə fərdlərin cəmiyyət qarşısındakı borc və vəzifələrini gələcək nəsillərə miras qoyur. İnsan qaydaları, qadağaları sevmir, lakin təslim olmağa məcburdur. İnsanın ruhu azadlığı sevir, arzuları çoxdur və bu arzulara çatmaq üçün yollar tapır. Acizlər əzilməyə məhkumdur. Cəmiyyətin qaydaları dini inanclar və ideyalar əsasında yaradılır və idarə edilərək normal yaşayış səviyyəsinə çatmağa kömək edir. Qaydalar cəmiyyətin sağlam şəkildə mövcud olmasına zəmin yaradır. Azərbaycan folkloru keçmiş xalq qayda - qanunlarını müəyyən səviyyədə qoruyub hifz edə bilmişdir.

Azərbaycan folklorunu araşdırarkən, məlum olur ki, xalqın tanrıları insanların yaşama üslubu ilə sıx bağlıdır:

- Cəmiyyət sağ qalmaq üçün ağır əməklə məşğul olur, onları yağış, məhsulla təmin edən tanrılarına inanır və qurbanlar verirlər.
- Hər iki xalq özlərini qorumaq üçün döyüşçülük sənətini öyrənir və tanrıya onları qoruması və güclü-qüdrətli olması üçün dualar edir və rituallar keçirirlər.
- Onlar yeraltı dünyanın varlığına, insanın ölümsüzlüyünə, uşaqların dünyaya gəlməsində tanrının roluna və həyatın dövr etməsinə inanırlar.

Azərbaycan və Şimali Amerika yerli xalqlarının yaradılış miflərinin müqayisəli təhlili zamanı dünyanın və insanın yaradılması ideyası ilə bağlı silsilə rəvayətlər də tədqiqata cəlb edilmişdir. Rəvayətlərdə mifoloji duyğuları əks etdirən xüsusi aspektlər vardır, lakin bu tip əhvalatlarda müdriklik yoxdur, çünki elmi paradiqmalar yoxdur və mütəxəssislər dünyamızı anlamaq üçün cəhd edirlər.

- Rəvayətlərdə topoqrafik etnoloji izahatlar verilir: dağların, dənizlərin, göllərin, çayların, meşələrin və vadilərin var olma səbəbləri təsvir edilir.

- Ərzaq adət-ənənələri təqdim edilir: nə səbəbə insanlar bəzi ərzaqları yemir, bəzi ərzaqları müqəddəs hesab edir.

- Heyvanların istedadı təsvir olunur: bəzi heyvanlar gecə səhərə kimi oyaq qalır və öncədən olacaqları görürlər.

- Təcrübə və xəta elementləri ilə zəngin olan insan və hər şeyi əvvəldən bilən Yaradanın qaydaları: günəşin və ayın keçdiyi nizamlı yollar, orijinal insan bəslənməsi normaları, həddən çox məskunlaşmanın təhlükəli fəlakətə səbəb olacağını anlayırdı.

Qədim Azərbaycan xalqının ilk dinləri çoxallahlı idı və onların baxışlarına görə:

- bütün təbiət, ruhları vasitəsi ilə yaşayır;
- ruhlar, bütün heyvan və bitkilərin formalarını ala və trans edə bilir;
- hər kəsin qoruyucu ruhu vardır;
- ölülərin yaşadığı torpaqlarda yaşayan ölü ruhları dünyaya səyahət edə bilir, bu zaman insan yuxuya trans edir.
- Ana Yer, torpağa səxavətli və şəfqətlidir;
- şimşək və ildırım eyni ruha malik tanrıdır;

Azərbaycan dini-animizm baxışlarında:

- bir animist inanır ki, ağac, qaya, çay, bitki və heyvanların ruhu diridir;
- Təbiət ruhu insana həm yardım edir, həm də zərər verir. Animistlər bu ruhlara ibadət edir və qurbanlar verirlər.

Azərbaycan xalqının ovçuluq inanclarında:

- ovçular qəbilə üçün mühüm və əhəmiyyətli adamlar idi;
- ovçuluqda həm praktik , həm də dini təcrübə vardır;
- ovçular ova getməzdən əvvəl heyvan ruhuna dua edirdi;
- yalnız lazımi qədər heyvanları ovlayır və onları öldürdükləri üçün bağışlanmasını xahiş edirdilər. Ovlanmış heyvanların bütün hissələrindən istifadə edirdilər.

Azərbaycan xalqının kənd təsərrüfatı ilə bağlı inanclarında:

- onlar torpaq, bitki, və ağaclara ehtiram göstərirlər. Torpaq, Ana Yeri təcəssüm edir, ağac kəsmədən əvvəl mütləq ona qurban verir, onu müqəddəs hesab edir, ona hörmət və ehtiram göstərilməsinin vacib olduğuna inanırlar;
- insanlar üçün kənd təsərrüfatı ilə məşğul olmaq müqəddəsdir və dini fəaliyyət hesab edilir;
- gil toplayaraq duluz qablar hazırlayırlar ki, bu da torpağın həyatvermə anlayışına əsaslanır;

Azərbaycan xalqının tabularında:

- xalqlar mümkün təhlükədən qorunmaq üçün tabular yaratmışlar;
- tabular olmasa təbiət və əcdad ruhlarının təhqir olunmasının qarşısını almaq mümkün olmazdı, yaradılan tabular dini fəaliyyət növüdür;
- qadın dünyaya insan gətirdiyi üçün xüsusi səlahiyyəti və hakim gücü vardır;
- qadına kəm gözlə baxan kişi həyati bacarıqlarını itirir və lənətlənir, silahları yararsız hala düşür, oyunlardan qovulur;

- ölümüş insanın ruhundan qorxurdular. Elə hesab edirdilər ki, bu ruh evdən kimi isə apara bilər;

- ekstremal fövqəladə hallar istisna olmaqla ölüdən çəkinirdilər;

- ölmüş şəxsin geyim və əşyalarını evdə saxlamaqdan qorxurdular;

- onlar qəza qurbanlarının cəsədlərinə toxunmaqdan qorxurlar, çünki onların ruhu zərər verə bilirdi.

Qədim Azərbaycan xalqının inanc yerləri, müqəddəs tapınaqları bizi əcdadların yerlə səmanın, yerlə insanın ruhani əlaqələrini əks etdirən və daş üzərində çəkilən rəsmləri vasitəsi ilə öyrədir.

Belə yerlərdən biri qaya və daşlar üzərində cızılmış rəsmlər, piktoqraflardır ki, hər iki xalqın qədim nümayəndələri öz izlərini həmin qayaların üzərində qoyublar. Azərbaycanın Qobustan (e.ə 40-20 000 il) və Gəmiqaya rəsmləri (b.e. 8-7 minilliklərdə) çəkilən insan və heyvan fiqurlarını bu gün də görmək mümkündür. Bu rəsmlərdə insanın müqəddəs təcrübələri öz əksini tapır. Qobustanda astral insan rəsmləri, müqəddəs maral, öküz, keçi, gur, ceyran, çöl donuzu, at, şir, canavar, it, balıq, ilan, kərtənkələ və həşərat, zoomorfik əlamətləri olan insanlar təsvir edilir.Azərbaycan rəsmlərində yuxarı, sağ, sol istiqamətlər müqəddəsdir. Qobustan qayalarında ov səhnələri, kollektiv əmək, rəqs, biçin, döyüş, ritual və s. , Gəmiqayada petroqlif-hektoqraflar, günəş, ay və ulduzları simvolizə edən astral rəsmlər, ov səhnələri, keçı, maral, öküz, quş, bəzi insan təsvirləri zoomorfik əlamətlərlə təsvir edilmişdir.

Xalq dini inancları azərbaycanlıların həyatında güclü qüvvə idi və olaraq da qalır, bu əqidə demək olar ki, hər şeyi tənzimləyir. Qədim kahinlər ölkənin ən yüksək zümrəsi hesab edilir və hətta hakim rəhbərləri də idarə edirdilər. Yalnız kahinlər tanrı ilə ünsiyyətdə ola bilir, ibadət və mərasimlər təşkil edir və cəmiyyətin qanun-qaydalarını idarə edən təhsilli insanlar idi. Adi insanların məbədlərə girməsinə icazə verilmirdi.

Ali Ruh və kainatın yaradıcısı tanrı idi. Ən mühüm tanrılar Günəş, Ay, Külək, Yağış və İldırım tanrıları idi ki, insanlar onların qəzəbindən qorxurdular. Taxıl verən tanrıya ibadət edilir, ayinlər oxunur, dualar edilir, rituallar keçirilirdi, çünki bol məhsul üçün onu məsul bilirdilər.

Azərbaycan xalq nağılları və mifləri bu xalqların inanc mədəniyyətini və onun əzəmətli sivilizasiyanı araşdırmaq üçün tədqiqatçıya informasiya verir. Folklorda rast gəlinən ayinlər çətin həyata, ağır güzərana, dərd və kədərə qalib gəlmək niyyəti ilə keçirilir və azuqə tapmağı asanlaşdıran vasitə hesab edilirdi. Belə ayinlərin keçirilməsində müxtəlif simvollardan istifadə edilirdi. Xüsusi ibadətlərin hər bir mərhələsində oxunan dualar, keçirilən rituallar, qida qurbanları insanlara daha rahat yaşamaq ümidi verirdi. Mif, əfsanə və xalq nağıllarında İlahi lütfə mistik adlar vasitəsi ilə müraciət edilir, insanlar yaşadığı dünyanın sirlərini anlamağa ehtiyac hiss edirdilər.

Müxtəlif zamanların xalq dini qanunlarını şifahi xalq yaradıcılığı və ənənələri vasitəsi ilə öyrənmək mümkündür. Azərbaycan xalqının yaradıcılıq məhsulu olan mif, nağıl və əfsanələrdə torpaq, günəş və ayın mənfi və müsbət təsirləri canlıların həyatını idarə edir:

- Günəş həm ən yaxşı tanrıdır: həyatın əsasını təşkil edir, onsuz canlı varlıqlar məhv olar, həm də pislik edən tanrıdır: quraqlıq yaradır, aclığa və ölümə səbəb olur.

- Yer həmişə ona ibadət edənlərə üstünlük verir, itaətsiz və unutqanlar üçün isə amansız cəza təşkil edir.

- Meşə çətin, şıltaq və sirli-sehirlidir: bir tərəfdən ərzaq ehtiyatı ilə zəngindir, canlıların ehtiyaclarını ödəmə gücündədir, digər tərəfdən insanları məhv etməyə qadirdir.

- Ağac və bitkilərin kökləri insan üçün yanacaq, mebel, dərman, güclü içki və paltar üçün vasitədir, həm də zəhər olub onları öldürə bilir.

İslam ölkələrində "İslam əhli" termini, yaxud xristian ölkələrində "Xristian əhli" termini işlədilir. Azərbaycanda elə inamlar və etiqadlar mövcuddur ki, onlar İslam ruhaniləri tərəfindən istifadə edilmir, lakin xalq məişətdə həmin inamlara müraciət etməklə öz həyatlarını daha da mükəmməl etməyə, xəstəlikləri sağaltmağa, bəd nəzərlərdən, iblis, cin, hal anası, şeytanlardan qorunmağa ümid edirlər. Qarşısına çıxa biləcək uğursuzluqdan qorunmaq üçün rituallar, mərasimlər keçirirlər. Onlar bu zaman öncədən görənlərə, falçılara və sehrbazlara müraciət edir, müqəddəs hesab etdikləri əşyalara, simvollara, rəmzlərə, talismanlara müraciət edirlər. Xalqın qədim dini inanclarını araşdırarkan aşağıdakı kimi təsnif edə bilərik:

- əcdadlarımızın sitayiş etdiyi müqəddəslər;
- qoruyucu keyfiyyətlərin daşıyıcısı hesab edilən amuletlər, talismanlar və əşyaların qoruyucu xarakterləri ilə bağlı inamlar;
- animizm, və ya ruhi varlıqlara inam, müəyyən insan domenləri, iblislər;
- bol məhsul adətləri, heyvanların qorunması ilə bağlı rituallar, xəstəliklərdən qoruyucu ayinlər;
- sehrbazlığın ənənəvi sistemləri- cadugərlik;
- xeyir-duaları, qarğışlar;
- mövhumat.

Xalqın inanclarında təbiət həm maddi, həm də ruhidir. Maddi olaraq mövcud olan hər bir cismin ruhi varlığı vardır ki, bu ruhi varlıqlar qədim əcdadlarımızı həmişə qorxudurdu. Bu ruhi varlıqları qəzəbləndirmək olmazdı. Hər xalqın universal inancları vardır.

Günəşə inam Azərbaycan Oğuz türklərinin ən qədim inanclarından olmuşdur. Günəş müqəddəs ünsür idi və yaşayış evləri üzü günəşə doğru tikilirdi. İnanırdılar ki, "gün düşməyən evdə iyrənc güclər yaranır ki, onlar da xəstəlik, aclıq və bədbəxtliyin səbəbkarı olan qüvvələrdir.

Qədim Azərbaycan mədəniyyətini bərpa etmək, bu sahədə bəzi anlayışlara aydınlıq gətirmək üçün onların tarix boyu dünyanın hansı xalqları ilə əlaqədə, ünsiyyətdə olduqları, nəyə inanıb sitayiş etdiklərini, nəyin yaxşı, nəyin pis olduğunu qəbul etdiklərini, dünya və həyat haqqındakı fikir və duyğuları araşdırılmalıdır. Bu məqsədlə azərbaycan folkloru tədqiqatçıların ən dəyərli vasitəsi rolu oynayır. Xalqın dünyagörüşlərində kök salan ümumi faktorların açılması və Azərbaycançılıq nəzəriyyəsinin hazırlanmasında şifahi el ədəbiyyatını nəzərdən keçirmək və öyrənmək vacib və mümkündür.

Kərimli S.S.,
tarix elmləri üzrə fəlsəfə doktoru
Sumqayıt Dövlət Universiteti

QLOBALLAŞAN DÜNYADA AZƏRBAYCANIN MİLLİ-MƏDƏNİ DƏYƏRLƏRİ

Dünyanın ən qədim mədəniyyət mərkəzlərindən biri olan Azərbaycan hal-hazırda bir çox cəhətdən digər xalqlara nümunə sayıla bilər. Bu çoxsaylı cəhətlərdən biri ölkəmizdə əsrlər ərzində formalaşmış olan milli və dini zəmində dözümlülük – tolerantlıqdır. Xalqımız tarixən onun ərazisində yerləşən xalqlara, onların fərqli dinlərinə, adət ənənələrinə dözümlülük göstərmişdir. Əsrlər boyu ölkəmizdə islam, xristian, yəhudi və digər dinlərin nümayəndələri tarixən qarşılıqlı anlaşma və əmin-amanlıq şəraitində yaşamış və yaşayırlar.

Erməni separatizminin ideoloqları hər imkandan istifadə edərək, Qərbə və Rusiyaya belə bir mif təlqin etməyə çalışırdılar ki, guya Azərbaycandan "islam təhlükəsi" gözlənilir. Digər tərəfdən, Azərbaycanda anti-müharibə və hətta ermənipərəst meyllərin yayılması üçün bəzi qüvvələr respublikanın müsəlman əhalisinin xristianlaşdırılmasından istifadə edirdilər. Şübhəsiz ki, belə hərəkətlər dinlərarası dialoqun möhkəmlənməsinə xidmət etmirdi. Lakin bu hadisələr respublikadakı dini konfessiyalar arasında olan münasibətlərə həlledici mənfi təsir göstərə bilmədi.

Ölkə vətəndaşlarının əksəriyyətini təşkil edən müsəlmanların hüquqlarının təmin olunması ilə yanaşı, dövlət respublikada yaşayan digər din mənsublarında da yüksək qayğı göstərir. Belə ki, 1920-ci ildə bağlanmış Jen-Mironosets Baş kafedral kilsəsinin binası 1991-ci ildə Rus Pravoslav kilsəsinə verilmişdir.

Respublikamızda yaşayan azsaylı katolik icmasının üzvləri də dövlət qayğısından kənarda qalmamışdır. Ümummilli Lider Heydər Əliyevin göstərişi əsasında Bakının mərkəzində Roma-katolik kilsəsinin inşası üçün yer ayrılmışdır. 2005-ci ildə məbədin tikintisinə başlanmış, nəhayət 2008-ci ilin mart ayının 7-də Bakıda Müqəddəs Məryəm katolik kilsəsinin rəsmi açılış mərasimi keçirilmiş və müasir üslubda tikilmiş bu məbəd katoliklərin ixriyarına verilmişdir.

Respublikada qədim ənənələrə malik olan yəhudi icmasının mədəni irsi də Azərbaycan hökumətinin qayğısı ilə əhatə olunur. 1990-cı ildən respublikada "Azərbaycan-İsrail" dostluq, habelə "Soxnut" cəmiyyətləri fəaliyyət göstərirlər. Bakıda nəzəriyyəçi-fizik, Nobel mükafatı laureatı Lev Landau, respublikanın əməkdar həkimi Solomon Qusman, Qarabağ müharibəsi qəhrəmanı Albert Aqarunov və digər tanınmış yəhudi şəxsiyyətlərinin yaşadıqları binalarda xatirə lövhələri qorunub saxlanılır.

Təəssüflə qeyd edək ki, xalqımızın tolerantlıq keyfiyyətindən sui-istifadə edən, dövlət səviyyəsində etnik təmizləmə və işğalçılıq siyasəti aparan Ermənistanın Azərbaycana qarşı təcavüzü davam edir. Azərbaycandakı dini konfessiyaların nümayəndələri Ermənistanın təcavüzkarlıq və etnik təmizləmə siyasətindən əl çəkməsi, qaçqın və məcburi köçkün həyatı yaşamağa məhkum olmuş bir milyondan artıq Azərbaycan vətəndaşının öz yurd-yuvasına qayıtması tələbi ilə dəfələrlə beynəlxalq təşkilatlara və dünya ictimaiyyətinə müraciət etmişlər. Lakin işğalçı Ermənistan hələ də məkrli planlarından əl çəkmək istəmir. Bununla belə dini konfessiyaların başçıları Azərbaycan xalqının sülh istəyini və dövlət başçısının apardığı sülhpərvər siyasəti təqdir edərək dəstəkləyir və onun uğurlu, müdrik siyasəti nəticəsində işğal olunmuş Azərbaycan torpaqlarının azad ediləcəyinə əmindir.

Гурбанова С.А.,
доктор философии по истории,
ведущий научный сотрудник отдела
«Əliyevşünaslıq» НАН Азербайджана

МУЛЬТИКУЛЬТУРАЛИЗМ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ В УСЛОВИЯХ ГЛОБАЛИЗАЦИИ

Процесс глобализации стал одним из главных мировых тенденций новейшего времени, он вызван к жизни органической логикой исторического развития, как необходимый этап в развитии человечества. Глобализация – это процесс универсализации, становления на земле единых структур, связей, отношений во всех сферах жизни общества. Она затрагивает самые различные аспекты нашей жизни – экономику, политику, культуру, идеологию, окружающую среду. Культура стала камнем преткновения на пути развертывания глобализации. Она играет основополагающую роль при оценке глобализации, определении основных её тенденций и конечных целей. Каждая глобализирующая страна при разработке модели глобализации, прежде всего, руководствуется соображениями защиты самобытности своей культуры.

Глобализация предъявляет крайне жесткие требования к социально-экономическому и культурному уровню стран и народов, находящиеся на разных стадиях своего развития, обладающих далеко не всегда равными возможностями для своей самореализации и, что самое важное, имеющих свою собственную, подчас уникальную историческую судьбу. Последствиями её являются разрушение национальных традиций, обострение уже имеющихся конфликтов и возникновение новых. Данный вопрос имеет непосредственную связь с целостностью системы обеспечения национальной безопасности страны.

Опасность унификации культур в эпоху глобализации заключается не только в том, что могут исчезнуть отдельные культурные формы, а в том, что культурное единообразие ведёт к единообразию способа мышления людей, их миропонимания.

Процессы глобализации привели к необходимости налаживания межкультурного общения. Глобализация породила феномен мультикультурализма, необходимого для создания нового общества эпохи постмодерна. Мультикультурализм – политика, предусматривающая сосуществование различных культур в едином правовом, социальном и экономическом пространстве.

«Мультикультурализм», «мультикультурный» недавно сложившиеся обозначение феномена имеет древнее происхождение. Общества, которые сейчас называются мультикультурными, раньше именовались «мультинациональными», «мультирелигиозными», «мультирасовыми», это в значительной мере лишь риторическое обновление старых проблем, лишь переименование процессов, которые, начиная с 60-х годов, осмыслялись в терминах «этнического возрождения». Сам термин «мультикультурализм» возник в Канаде в 60-е годы XX в.

Мультикультурализм означает «многообразный». Официальное политическое признание он получил в 1971 году.

Мультикультурализм противопоставляется концепции «плавильного котла», где предполагается слияние всех культур в одну. В качестве примера можно привести Канаду, где культивируется подход к различным культурам как частям одной мозаики, и США, где традиционно провозглашалось концепция «плавильного котла», но в настоящее время признана концепция «салатницы».

Мультикультурализм не является идеологией сознательно антинациональной, т.е. признает национальную форму и лишь предлагает некоторую её корректировку – отмены единой официальной культуры. Идеалом подлинного мультикультурализма является «интеграция без ассимиляции» и Азербайджан привержен этому идеалу.

Теоретически мультикультурализм идеальный ответ на все вызовы глобализирующегося мира, предлагает формирование общества, в котором нет господствующей культуры. Строится такое общество на принципах толерантности, при сохранении культурных традиций. Толерантность является не только элементом социальной модернизации, но и прямым воплощением социально-политических прав человека, она влияет на международный рейтинг страны, становится элементом международного престижа, одним из показателей привлекательности инвестиционного климата. Уровень толерантности общества может влиять на внешние оценки открытости рынка, на уровень туристической привлекательности. Сохранение национальных культур, помимо исторической, социальной, этнокультурной значимости, связана с вопросами соблюдения прав человека. Теоретики мультикультурализма, такие как Ч.Тэйлор, У.Кимлика, Б.Парек и другие рекомендовали мультикультурализм для политической консолидации государствам, связанные с потенциальной угрозой конфликтов. Известнейшим автором по проблематике мультикультурализма на сегодняшний день является У.Кимлика, его главные произведения «Мультикультурное гражданство» и «Современная политическая философия». Он определяет, мультикультурализм как политику признания гражданских прав и культурной идентичности этнических меньшинств.

По мнению ряда зарубежных культурологов и социологов к 2010-2011 гг. сама идея и политика мультикультурализма в Европе вошли в кризисную стадию. В этот период прозвучали резкие заявления лидеров Германии, Франции, Великобритании. Последствиями отказа от политики мультикультурализма в европейских странах явились идеологические нападки в сторону «чужих»: карикатурный скандал, запрет ношения хиджаба, запрет на минареты и т.п., так и физическое насилие: убийства турок и депортация цыган в Италии и Франции и т.д.

Утверждать о провале того, на исторических основах чего возникли европейские государства, выглядит противоречивым. Отказ от мультикультурализма косвенно означает отказ от традиционных европейских ценностей, это может привести к концу исторически сформировавшейся европейской толерантности.

Различные языки и культуры сумели на протяжении столетий создать эффективный комплекс взаимоотношений. В итоге, эти отношения кончились созданием Европейского Союза. Теперь они же утверждают о «крахе» мультикультурализма. Отказ от мультикультурализма косвенно означает отказ от традиционных европейских ценностей, это может привести к концу исторически сформировавшейся европейской толерантности.

К тому же делать вывод об отказе Европы от проведения мультикультуральной политики преждевременно. Во-первых, заявления прозвучали преимущественно от лидеров одного политического лагеря Европы – консервативного, но не были поддержаны либералами и социалистами. Более того, даже в консервативной среде до сих пор не сложилось общего мнения на этот счёт. Введённые в законодательстве принципы мультикультурализма не отменены и продолжают оставаться идеологической основой для официальной политики. У нынешних европейских элит нет плана и идеологии по исправлению ситуацию, нет альтернативы.

Президент Ильхам Алиев в интервью информационному каналу «Россия 24» сказал: «Отказ от мультикультурализма это очень опасная тенденция, и думаю, что пример Азербайджана как раз говорит об обратном. Можно быть привязанным к своей культуре, одновременно также уважая культуру представителей других народов и религий» [4, 3 декабря 2014 г.].

В мире существуют две основные модели мультикультурализма, возникновение которых зависело от важных исторических и геополитических условий. К ним относятся: модель традиционных мигрантских стран (США, Канада, Австралия) и модель, сформировавшаяся в национальных государствах Европы. Существует также третья категория стран, где история политэтнического сосуществования насчитывает несколько столетий. К ним относятся Азербайджан. Если сравнить опыт стран, ставших многонациональными в результате иммигрантских волн в новой истории, с опытом стран, где история полиэтнического сосуществования насчитывает несколько столетий, становится ясным, что у последних можно многому научиться.

На протяжении многих веков в силу исторических, экономических и культурных особенностей, характерных для Азербайджана, психологический менталитет азербайджанцев формировался в условиях толерантности и уважения к культурам других этносов и национальных меньшинств. Историческая память азербайджанского народа, хранящая в своём сознании этапы прохождения через три религии – зороастризм, христианство и ислам, является немаловажным фактором. Как сказал в своём выступлении на III Международном форуме в октябре 2013 года Президент Ильхам Алиев: «Мультикультурализм в Азербайджане – это и государственная политика и образ жизни».

Азербайджан – страна, находящаяся на стыке Европы и Азии. Наш цивилизованный облик формировался в основном под воздействием двух мощных сил: восточного начала и западного влияния. Будучи частью глобализирующегося мира, Азербайджан старается использовать достижения Запада, при этом

предельно бережно, сохраняя все особенности своей ментальности, свои традиции, обычаи и национальную историю. Это – осознанный стратегический курс, который нацелен на развитие государства и общества. Именно этот курс реализуется в стране с 1993 г. и способен привести страну и процветанию и благосостоянию. Развитие не вопреки традициям и культуре, а в соответствии с ними – такова суть этой политики. Азербайджан восстановил в правовой и политической плоскости традиции толерантности и мультикультурализма, которыми он обладал исторически. Гейдар Алиев развил сформировавшуюся на протяжении столетий традицию многокультурности и поднял её на качественно новый этап, он явился политическим основоположником азербайджанского мультикультурализма. По его инициативе была создана законная почва для сохранения и развития литературы, культуры, языка, обычаев и традиций национальных меньшинств.

Идея необходимости глубокого исследования азербайджанской интеграционной модели была заложена президентом Гейдаром Алиевым и имя ей – азербайджанство, и она, вне всяких сомнений, понятий обширное, чем просто мультикультурализм. Азербайджанство это не только единое гражданство, но и ощущение прочной связи с теми, кто исторически жил и живёт рядом.

Президент Гейдар Алиевым выступал убеждённым интернационалистом и в то же время говорил с отеческой заботой об азербайджанской национальной культуре, о духовных ценностях азербайджанского народа. Его мысли во многом созвучны современным подходам к анализу диалектики национального и интернационального, локального и глобального применительно к нынешнему, сложному и противоречивому, процессу глобализации. Президентом были изданы десятки указов, распоряжений, касающихся всех областей культуры, направленных на охрану и развитие национальной культуры. В законах, принятых в годы правления Гейдара Алиева была гарантирована культурная самобытность всех национальных меньшинств, живущих на территории Азербайджана.

Событием огромной важности стала встреча Гейдара Алиева с большой группы представителей национальных меньшинств, малочисленных народов и этнических групп, живущих в республике 1 октября 1993 г. В своём выступлении он отметил: «… В мире очень мало мононациональных государств, и я лично твёрдо убеждён, что государство, страна тем богаче, чем больше объединяет народов, ибо каждый из них пусть даже на протяжении веков, живущих в пределах одного села, вносит свой вклад в общемировую культуру и цивилизацию». От имени руководства Азербайджана Гейдар Алиев заверил народ, что каждый житель республики, независимо от национальности, языка, вероисповедания, политических убеждений, будет чувствовать себя полноценным гражданином, пользоваться равными правами и всеми благами. Это явилось одним из основополагающих принципов строительства правового государства в Азербайджане. При этом следует подчеркнуть, что политика толерантности поддерживается и настроениями снизу. Это именно та политика, которая проводилась

Гейдаром Алиевым при поддержке широких слоёв азербайджанского населения. Гейдар Алиев избрал точную идеологическую цель будущего успешного развития Азербайджана и своей дальновидной политикой развил сформировавшуюся на протяжении столетий традицию многокультурности и поднял её на качественно новый этап.

Согласно статье 25 Конституции Азербайджанской Республики гарантировано уважение к правам и свободам каждого, независимо от происхождения, расы, религии и языка. Закреплённое в Конституции Азербайджанской Республики равенство всех граждан перед законом, независимо от их религии и языка, также является наглядным свидетельством толерантности в стране. Наш Основной Закон – Конституция – фактически закрепляет позитивные принципы идеологии мультикультурализма.

Осуществлявшееся под руководством Гейдара Алиева политическое направление в области сохранения мультикультурных традиций азербайджанского народа продолжается и развивается Президентом Ильхамом Алиевым. Азербайджанская Республика в годы правления Ильхама Алиева стала традиционным местом обсуждения таких гуманитарных проблем, как диалог между цивилизациями, сохранение мультикультуральных ценностей, развитие религиозной толерантности, культурно-этнического разнообразия. Сохранение и поощрение мультикультуральной, толерантной среды являются одними из главных направлений государственной политики.

Наша страна является членом, как Совета Европы, так и организации Исламского сотрудничества. Азербайджан одно из многочисленных государств в мире, являющийся членом обоих институтов, играет важную роль в ещё большем сближении стран с различной историей, традициями и культурой.

Азербайджан, демонстрируя, что является, с одной стороны частью мусульманского мира, в то же время придерживается европейского вектора, европейских приоритетов, принципов, в чём состоит преимущественный фактор Баку в нынешнем формате международных отношений.

Продолжая дело Гейдара Алиева, президент Ильхам Алиев не меньшее внимание стал придавать вопросам культурно-духовного развития сохранил благоприятную атмосферу для процветания мультикультурализма.

Сегодня поощрение мультикультурализма является сохранение и донесением до грядущих поколений сформировавшегося на протяжении столетий культурного богатства и наследия азербайджанского народа.

Сегодня Азербайджан известен в мировом сообществе как государство, приверженное принципам гуманизма, толерантности и мультикультурализма. Проводимые в республике за последние годы международные мероприятия в этой сфере являются свидетельством признания модели мультикультурализма и толерантности в Азербайджане на международном уровне.

Məmmədova Z.M.,
iqtisad elmləri namizədi, dosent
Bakı Biznes Universiteti

FENOMEN HEYDƏR ƏLİYEV VƏ ONUN SİYASİ VARİSİ İLHAM ƏLİYEV

Məlumdur ki, dünyaya bir çox dahilər, görkəmli şəxslər – fenomenlər dünyaya gəliblər, yaşayıb yaradıblar. Belə şəxslərdən birini də ulu tanrı Azərbaycan torpağına qismət edib. Bu şəxs dahi Heydər Əliyevdir, hansı ki, 1969-cu ilədək Dövlət Təhlükəsizlik Komitəsinə başçılıq etmiş, ciddi idarəçilik məktəbi keçmişdir. 1969-cu ilin 14 iyul ayında Dövlət Təhlükəsizlik Komitəsindən AZ SSR KD-nin Mərkəzi Komitəsinə I katib vəzifəsinə təyin edilmiş, müəyyən dövrə qədər ölkəni idarə etmişdir.

Bu dövr ərzində onun qarşısında mühüm vəzifələr dururdu – ölkənin iqtisadiyyatını əsaslı dəyişmək, onu müasir texnika və texnologiya ilə təchiz olunmuş sənaye bazasına çevirmək, Azərbaycan kəndini dirçəltmək, respublika əhalisinin sosial, mədəni və təhsil səviyyəsini qaldırmaq və s. Bu dövrdə ölkəmiz üçün strateji əhəmiyyət kəsb edən bütün məsələlər uğurla həyata keçirildi. Lakin müəyyən dövrdən sonra dahi Heydər Əliyev Moskvaya SSRİ Nazirlər Sovetinin müavini vəzifəsinə təyin olundu.

Zaman keçdi İttifaqda müəyyən dəyişikliklər hiss olundu, daha dəqiq desək, İttifaq dağıldı, onun tərkibinə daxil olan respublikalar müstəqillik qazandılar və öz respublikalarını idarə etdilər. Daha dəqiq desək bütün respublikalarda yeni quruluş yarandı.

Lakin yeni Azərbaycan quruluşa ağır keçdi. Bir tərəfdən Qarabağ savaşı, digər tərəfdən daxili maneələrin yaranması ölkənin iqtisadiyyatını böhran halına gətirib çıxardı. Xalqımıza üz vermiş bütün faciələr bundan sonra başlandı. Ölkədə vətəndaş müharibəsinin baş verməsi, müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı ayağa qalxdı, H.Əliyevi hakimiyyətə gətirilməsini tələb etdi. Bununla da hər şeyi dəyişdi və sübut edildi ki, müdrik insan – Heydər Əliyevsiz mövcud vəziyyəti dəyişmək çətin olacaq. Yaranan belə vəziyyəti yalnız fenomen Heydər Əliyev dəyişə bilər. H.Əliyev 1993-cü ilin iyun ayında respublikamızda dərin iqtisadi-siyasi və böhranın hökm sürdüyü bir dövrdə xalqın təkidi ilə hakimiyyətə qayıtmış, özünün dərin zəkası, yüksək idarəçilik keyfiyyətləri, quruculuq və xilaskar missiyası ilə umummilli liderlik səviyyəsinə yüksəlmişdir.

İlk növbədə ölkədə sabitlik yarandı, iflic olan müəssisələr tədricən bərpa olub fəaliyyətə başladılar. Ölkədən gedən investorlara Azərbaycana vəsait qoymaq üçün şərait yaradıldı, həmçinin kiçik və orta müəssisələr yarandı və inkişaf etməyə başladılar.

H.Əliyev qısa zamanda ölkədə ictimai-siyasi sabitliyi tam təmin etməklə, ölkə iqtisadiyyatındakı tənəzzülün qarşısının alınmasında bir sıra zəruri tədbirlər həyata keçirmişdir.

Azərbaycanın o zamankı məhdud imkanlarını nəzərdə tutan H.Əliyev iqtisadiyyatın bütün sahələrində paralel inkişafı təmin etmək üçün ölkəmizin zəngin neft ehtiyyatlarından səmərəli istifadəni əsas götürmüşdür. O, bu sahəyə xarici investorları cəlb etməyə imkan yaratdı. H.Əliyev 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" nin imzalanmasına nail olmuşdur. Bununla da respublikanın gələcək inkişafının fundamental bünövrəsi qoyuldu.

Ulu öndərimiz H.Əliyevin müəyyənləşdirdiyi iqtisadi inkişaf konsepsiyasının əsasını 3 mərhələdə həyata keçirilməsi nəzərdə tutulan islahatlar təşkil etmişdir. I mərhələdə güclü dövlət tənzimlənməsi ilə böhrandan çıxmaq; II mərhələdə iqtisadiyyatın sabitliyini təmin etmək; III mərhələdə iqtisadi dirşəlişə nail olmaq. Hər üç mərhələyə uyğun keçirilən islahatlar nəticəsində respublika iqtisadiyyatında sabitlik təmin edilmiş, sosial iqtisadi inkişafda müsbət hallar özünü göstərmişdir.

Umummilli lider özünün siyasi vəsiyyətnaməsi sayılan və siyasi varisini bəyan etdiyi Azərbaycan xalqına 2 oktyabr 2003-cü il tarixli müraciətində belə açıqlamışdır: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim tale yüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İ.Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm"

Bir məqamı xüsusi vurğulamaq istəyirəm ki, 2016-cı ildən ölkəmizdə qeyri-neft sektorunun inkişafına xüsusi əhəmiyyət və üstünlük verilir. Dövlət başçısı İ.Əliyev dəfələrlə söyləyib ki, bizim gələcək iqtisadi siyasətimizdə qeyri-neft sektorunun inkişafı prioritet təşkil etməlidir. Təbii ki, qeyri-neft sektorunun inkişafı istiqamətində görülən işlər nəticələr verməkdədir. Belə ki, kənd təsərrüfatı, tikinti, turizm və digər sahələrdə ciddi nəticələr əldə olunur. Hazırda Azərbaycanın iqtisadiyyatı dinamik şəraitdə inkişaf edir. Bu möhtərəm prezidentimiz İlham Əliyevin dövlətçilik təcrübəsinin nəticəsidir. Zaman keçdikcə Azərbaycanın şöhrəti beynəlxalq aləmdə daha çox səslənəcək, çünki fenomen Heydər Əliyevin iqtisadi siyasətini İlham Əliyev layiqincə davam etdirir.

Cəfərova R.M.,
iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
ADAU

SOSİAL İQTİSADİ İNKİŞAFIN SÜRƏTLƏNDİRİLMƏSİNDƏ TƏHSİL SİSTEMİNİN ROLU

Təhsil sahəsi iqtisadiyyatın tələbatına uyğun ixtisaslı kadrların hazırlanması məqsədini daşıyır. O qeyri-istehsal sahəsi olub ümumi iqtisadi sistemin tərkib hissəsidir. Təhsil sisteminin daxili elementləri ibtidai, orta, ali təhsil müəssisələri olmaqla vahid məqsədə yönəldilir. Müasir şəraitdə təhsil sahəsi, dünya görüşlü kadrların yetişdirilməsi, hazırlanması üçün zəruri olan peşə biliklərinin verilməsinə də xidmət edir. ÜDM-də təhsilin rolu və təhsilə ayrılan vəsaitin çoxalması problemləri qarşılıqlı əlaqədə öyrənilir. Təhsil sistemi ölkədə əhalinin sayı, onun məşğulluğu, ərazicə yerləşməsi və ölkənin iqtisadi inkişaf istiqamətlərində daha çox inteqrasiya problemlərini həll etmək üçün inkişaf etdirilir. Təhsilin islahat-proqramı isə bu sahənin müasir standartlara uyğun təşkili və idarə olunması, kadrların dünya ölkələri tərəfindən qəbul olunması və təhsilin insanların həyat səviyyəsindəki rolu ilə müəyyənləşir. Təhsil sahəsi bir sahə olaraq ictimai əmək bölgüsündə və ya bazarın formalaşmasında müəyyən xüsusi çəkisinə görə hər bir ölkədə müəyyən rol oynayır. Təhsil sahəsində işləyənlərin sayı, onların əməkhaqqısı, təhsilə ayrılan vəsait, təhsil alanların ümumi sayı, təhsilin mülkiyyət formalarına görə bölgüsü və ÜDM-nin, iş qüvvəsinin, isteh-

lakın formalaşmasında rolu bu sahənin iqtisadi rolunu müəyyən edir. Təhsili hər kəs həyat fəaliyyətinin ünsürü kimi seçməklə özünün peşə biliyinin və intellektual səviyyəsinin yüksəldilməsi üçün özündə ehtiyac yaradır. Bu ehtiyaclar bir sıra sosial-iqtisadi amillərdən asılıdır, o cümlədən əhalinin yaşayış səviyyəsindən, yaşayış tərzindən, məskunlaşmanın coğrafi-iqtisadi mövqeyindən və təhsil almış şəxsin nəticələrindən asılıdır.

Müasir şəraitdə təhsilin standartlara uyğun islahatlaşdırılması bu sahənin idarə olunmasında daha keyfiyyətli tədbirlərin keçirilməsini müəyyənləşdirir. Müasir şəraitdə təhsilin inkişafının keyfiyyət göstəricisi iqtisadi göstəricilər və sosial nəticələrlə ifadə olunur. İqtisadi göstəriciləri əməyin xarakterində, istehsal olunan maddi nemət və xidmətlərin keyfiyyəti ilə, onların xarici ölkələrə ixracat potensialının artmasında, təhsil sahəsində işləyənlərin yaşayış səviyyəsinin əməkhaqqı və digər gəlirlərin formalaşmasında iştirak etməsidir. Deməli təhsil sahəsi əməktutumlu və kapital tutumlu sahədir. Təhsilin sosial mənası isə intellektual kapitalın formalaşmaşıdır.

Hazırda təhsilin sosial statusu daha çox prioritet istiqamət sayılır, o cümlədən həyat səviyyəsi yaxşılaşdıqca, ailə gəlirləri çoxaldıqca təhsil hər bir şəxsin mənəvi ehtiyaclarını ödəməyə yönəldilir. Daha doğrusu təhsilin maddi dəyərləri mənəvi dəyərlərə nisbətən zəif olur.

Təhsil sferası büdcədən, müəssisə və təşkilatların vəsaitlərindən, həmçinin əhalinin xüsusi vəsaitlərindən maliyyələşən təşkilatdır. Kapital və təhsilin maddi-texniki əsasları təhsilin inkişafının iqtisadi mənasmı təşkil edir. Təhsilin özü isə bir sahə olaraq xalis təşkilati sistem kimi bu vəsaitlərin daxili dinamikasını təşkil edir. Bu baxımdan təhsildə ayrılan vəsaitin' əməkhaqqı, əsas fondların dövriyyə vəsaitləri, sığorta xərcləri və bir sıra ezamiyyət, təmir xərcləri daxildir. Təhsilin dinamikası, dəyişmə meyli, səmti ölkələrin ixtisaslı kadrlara olan tələbatı ilə müəyyənləşir. Digər tərəfdən hər bir şəxs potensial təhsil tələbatının daşıyıcısıdır. Təhsil sahəsi həmçinin kadrların hazırlanması ilə yanaşı elmi-metodiki, texnoloji avadanlıqların istehsalı ilə məşğul olur. Ona görə də təhsil prosesi geniş profilli sahədir. Özünün institutları, elmi-tədqiqat bazaları ilə yanaşı layihə büroları, metodiki mərkəzləri mövcuddur, iqtisadiyyatın digər sahələri ilə əlaqədardır, iqtisadiyyatın tələbidir, əhalinin tələbatıdır, başqa ölkələrə yüksək ixtisaslı kadrların ixracatıdır.

İqtisadi əsasında təhsilə ayrılan vəsaitlər, onun istifadəsi, maddi-texniki bazası, təhsilin kadr potensialı, istifadəsi, təhsilin keyfıyyətinin idarə olunması, təhsilin proqnozlaşdırılması və idarə olunması istiqamətləri daxildir. Maddi əsasmı pullu və pulsuz təhsil sistemi təşkil edir. Müasir şəraitdə təhsilin müəyyən hissəsi müəssisə və təşkilatların, əhalinin özünün vəsaiti hesabına maliyələşdirilir. Əsasən dövlət büdcəsi təhsilin maliyyələşmə mənbəyidir. Təhsilin iqtisadi göstəriciləri onun səmərəli təşkili ilə bağlıdır. Bunlar aşağıdakılardır: maliyyələşmə mənbələri, vergi, təhsilin özəlləşməsi, təhsil sferasının keyfiyyətinin yaxşılaşdırılması.

Bu sahənin spesifik xüsusiyyətlərini nəzərə alan təhsilin idarə olunması ümumi sosial aspektləri əhatə etməklə idarəetmə, tənzimləmə metodologiyasına malikdir. Təhsilin iqtisadi meyarları bu sahənin vəsaitlərinin optimal ölçüsünü təyin etmək, təhsilə qoyulan əsaslı vəsaitlərin səmərəli istifadəsini təşkil etmək və təhsilin kadr potesialının ümumi iqtisadi tərəqqidə rolunu yüksəltməkdən ibarətdir. Təhsil sahəsində ayrılan vəsaitin səmərəli istifadəsi təhsil xərclərinin arasında tarazlığın və təhsilin

keyfiyyətinə təsir edən prioritetlər üzrə planlaşması əsas yer tutur. Təhsil müəssisələrdə əsas fondları, onların tərkibi, kadr potensialının istifadəsi, onların əməyinin stimullaşdırılması idarəetmənin struktur yanaşma metodologiyasıdır. Təhsilin idarə olunması son nəticədə bu sahənin təhsilin pillələri üzrə yerləşməsini, təhsilin növü üzrə inkişafın təmin olunmasını və təhsildə innovasiya istiqamətlərinin daha səmərəli variantlarının seçilməsi yolları əsasdır. İdarəetmə baxımdan bütövlükdə bu sferanın iqtisadi və sosial rolunu yüksəltmək məqsədilə konsepsiya işlənilir, xüsusu proqramlar hazırlanır və proqramları reallaşdıran idarəetmə mexanizmləri, üsulları tərtib olunur. Buna görə də idarəetmə özü də sistemlidir. Bir mərhələnin nəticələri digər mərhələ üçün giriş amil rolunu oynayır. Əgər idarəetmədə hər hansı bir elementin marağı və onun resursları səmərəli idarə olunmursa onda sistemlilik pozulur, digər mərhələnin nəticəsi məqsəddən fərqli olaraq formalaşır.

Təhsilin idarəçiliyinin sosial meyarları potensialı olan hər bir vətəndaşın təhsil almaq hüququnu və bu təhsilin sosial nəticələrinin təminat almaq prinsipi əsas tutur. Ona görə də təhsilin idarə olunmasında dövlət prinsipləri daha qabarıqdır. Təhsilin idarə olunmasında sosial amillər və sosial nəticələr təhsilli adamlarm iqtisadi rolunu nəzərə almaqla onlarm maddi və mənəvi tələbatına uyğun məşğulluq, əməkhaqqı sisteminin nüfuzlu ictimai davranış şəraitini yaratmaqla mümkündür. Ona görə də nüfuzlu əmək fəaliyyəti olaraq təhsil sahəsində işləyənlərin əməyin keyfiyyət və kəmiyyətinə uyğun olaraq əməkhaqqı sisteminin yaradılması, pensiya təminatı, müəyyən güzəştli müqavinat sisteminin tətbiqi bu sahənin sosial xarakterini reallaşdırır. Təhsil sistemi istehsalın bütün sahələrini və qeyri-istehsal sahələrini, həm də özünü yüksək ixtisaslı mütəxəssis kadrlarla təmin edir. Müasir maddi nemətlər istehsalının geniş təkrar istehsalında, əmək məhsuldarlığının daim yüksəlməsində, iqtisadiyyatın intensiv artımında infrastruktur kimi təhsilin rolu daim artır.

Son 10 ildə təhsil infrastrukturunun inkişafı sahəsində ölkədə 2708 məktəb tikilmiş və ya əsaslı təmir olunmuşdur.Təhsilin inkişafı proqramları sahəsi üzrə fəaliyyət Azərbaycan Respublikası prezidentinin 2013-cü il 24 oktyabr tarixli 13 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Təhsil haqqında" Azərbaycan Respublikasının qanununa, Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında əsasnaməyə və digər normativ-hüquqi aktlara əsaslanır. Məlum səbəblər üzündən 1990-cı illərin əvvəllərində təhsil səviyyəsində geriləmə başlanmışdır. 1990 və1991-ci illərdə məktəbəqədər təhsil müəssisələrinin sayı çox olsa da sonrakı illərdə azalmış və bu azalma 2008-ci ilə qədər davam etmişdir. 2009-2016 -cı illər arasında isə artım olmuşdur. Belə ki, 2009-cu ildə 1612 məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərirdisə 2016-cı ildə 115 yeni müəssissə açılaraq sayı 1750-yə çatmışdır. Məktəb tikintisi sahəsində həyata keçirilən proqramlar nəticəsində ikinövbəli məktəblərin faizi 73,3-dən 49-a, ikinci növbədə təhsil alan şagirdlərin faizi isə 34-dən 23-ə enmişdir. Dövlət Neft Fondundan Qarabağdan qaçqın düşənlərə yardım çərçivəsində 13 yeni təhsil müəssisinin tikilməsi də həyata keçirilmişdir. Ümumtəhsil müəssisələrinin sayında 2000-2016-cı illər arasında azalma səbəbi istifadə müddətini başa vurmuş təhsil müəssisələrinin yeniləri ilə əvəz olunması ilə əlaqədardır. Ölkə üzrə 2016-cı ildə 4452 ümumtəhsil məktəbi fəaliyyət göstərmişdir. Dövrün tələbinə uyğun olaraq təhlil illərində artım ilk peşə-ixtisas təhsil müəssisələrinin sayında, fəlsəfə və elmlər doktorlarının hazırlanması proqramını həyata keçirən müəsissələrin və ali təhsil müəssisələrinin sayında müşahidə olunur ki,

bu da dövlətin təhsilə, insan kapitalının inkişafına verdiyi önəmdən irəli gəlir. Təhsil sektorunda özəl sektorun rolu getdikcə artır. Özəl təhsil müəssisələrində daha çox sərbəst bazar iqtisadiyyatında ehtiyac olan sahələrdə təhsil verilir.

2016-cı ildə Azərbaycanda 1750 məktəbəqədər təhsil müəssisəsi (1650-si dövlət, 56-sı qeyri-dövlət müəssissə olmaqla), 4427 ümumtəhsil müəssisələri 25-i qeyri-dövlət müəssisəsi olmaqla (bunun təqribən 0,2% qiyabi (axşam) ümumtəhsil müəssisələridir), 113 ilk peşə-ixtisas təhsil müəssisələri, 55 (2-i qeyri-dövlət müəssisəsi olmaqla) orta ixtisas təhsil müəssisələri, 51 (13-ü qeyri-dövlət olmaqla) ali təhsil müəssisələri, 110 fəlsəfə doktorlarının hazırlanması proqramını həyata keçirən müəssisə və 80 elmlər doktorlarının hazırlanması proqramını həyata keçirən müəssisə fəaliyyət göstərir. 2000-ci illə müqayisədə 2016- cı ildə fəlsəfə doktorlarının hazırlanması proqramını həyata keçirən müəssisələrin sayı 83-dən 110-a və elmlər doktorlarının hazırlanması proqramını həyata keçirən müəssisə üzrə isə 21-dən 80-ə yüksəlmişdir. Ölkədə elmi potensialın inkişafında qeyd edilənlər çox mühüm addımlardır.

Azərbaycanda təhsil sisteminin, dünya təhsil sistemi ilə inteqrasiyasını qurmaq məqsədiylə, dünyanın inkişaf etmiş 40-a yaxın ölkəsində 3 mindən çox Azərbaycan gənci təhsil alır. Digər tərəfdən, dünyanın 50-yə yaxın ölkəsindən təxminən 2 min nəfər Azərbaycanda təhsil alır.

2010-cü il büdcəsində təhsilə ayrılan təxminən 1180,8 milyon manat olmuşdursa 2016-cı ildə 5985,4 mlyn. manat artaraq 1754,4 milyon manat olmuşdur. Düzdür ilbə-il təhsil xərclərinin çəkisi büdcə xərcləri içərisində artsa da bu nisbət bir çox inkişaf etmiş ölkələrin bir universitet büdcəsindən 2-3 dəfə azdır. 2016-cı ildə büdcədən təhsilə ayrılan vəsait büdcə xərclərinin 10%-ni təşkil etmişdir.

Müasir şəraitdə inteqrasiya amili təhsilin özünün standartlaşmasını, müəyyən tələblərə uyğun transformasiyasını müəyyənləşdirir. Belə ki, dünya təhsil sisteminə inteqrasiya olmaq üçün təhsilin daxilində şərait, mühit beynəlxalq normalara uyğun olmalıdır və təhsilin məhsulu olan ixtisaslı kadrların və ya peşəkarların dünya texnologiyasının idarə etmək təcrübəsinə və bacarığına yiyələnməlidir. Məsələn, dünya bank sistemində regional xüsusiyyəti yoxdur və ya dünya təsərrüfat sisteminin və ya dünyada sivil yaşayış tərzinin iştirakçısı kimi Azərbaycan təhsili də standartlara uyğun idarə olunmalıdır. Bu məqsədlə beynəlxalq proqramlar tərtib olunur, beynəlxalq iqtisadi qurumlar və maliyyə kooperesiyaları uzun müddətli kiçik faizlə (0,5) kredit verirlər və təhsilin bir sıra ölkələrdə səviyyəsini qaldırmağa səy göstərirlər. Bu maraq həmçinin yoxsulluğun ləğvi proqramı çərçivəsində həll olunur. Belə ki yoxsulluq geniş mənada sosial kateqoriya olub təkcə maddi ehtiyaclarla deyil, həmçinin təhsil səviyyəsi ilə müəyyənləşir.

Təhsil sisteminin əsas vəzifəsi milli iqtisadiyyatın ayrı-ayrı sahələri üçün ixtisaslı kadr hazırlamaq və mənəvi sosial inkişaf etmiş intellektual səviyyəli insanların formalaşmasına şərait yaratmaqdır. Təhsil sistemi öz mahiyyəti etibarı ilə bir tərəfdən iqtisadi əhəmiyyət kəsb edir, onun iqtisadi sahələri mövcuddur. Digər tərəfdən isə sosial mənəvi aspektlərə malikdir. Təhsilin sosial mənəvi aspektləri əhalinin sosial inkişafının mənəvi dəyərinin artmasma təsir etməkdir. Təhsilin təşkili, planlaşması və idarə olunması üçün meyarları nəzərə almaq lazımdır. İndiyə qədər təhsilin inkişafı üçün meyar olaraq ayrı-ayrı istehsal, qeyri-istehsal sahələrində tələbat üçün lazım olan

ixtisaslı kadrların hazırlanması meyarı əsas götürülür. Indiki bazar iqtisadiyyatı şəraitində bu meyarlarla yanaşı təhsili sisteminin tələbatında əhalinin tələbatı da nəzərə alınmalıdır. Yəni ola bilsin ki, əhali öz dünya-görüşünü, davranışını, ailəyə olan fəaliyyətini, dünya hadisələrini başa düşmək, öyrənmək üçün təhsili I dərəcəli əsas vasitə kimi qəbul edir. Ona görə də təhsil almaq istəyənlərin ümumi sayı iki əsas tələbat sistemi ilə formalaşır- təsərrüfatın tələbatı sistemi ilə; əhalinin intellektual tələbatı nöqteyi-nəzərindən:

Bu baxımdan təhsil sisteminin tənzimlənməsi üçün onun planlaşdırılması və idarə olunması məqsədilə sistem göstəricilərindən istifadə olunur. Bu göstəricilərə respublikada fəaliyyət göstərən ümumi ali və ixtisas məktəblərinin sayı, ümumi təhsil məktəbləri, məktəbəqədər müəssisələrin sayı bu məktəblərdə, sistemdə işləyənlərin sayı, o cümlədən müəllim-professor heyətinin sayı, təhsil sistemində təhsil alan tələbə şagird kontingentlərinin ümumi sayı, təhsilin fəaliyyəti və inkişafında fəaliyyət göstərən, mərkəzləşən maddi-texniki baza daxildir.

Təhsil prosesi müasir dövrdə çox pilləli təhsil obyekti kimi fəaliyyət göstərir. Birinci pillədə məktəbəqədər müəssisələrin fəaliyyətinin planlaşması, ikinci pillədə, ümumtəhsil litsey, gimnaziya sisteminin planlaşması və tənzimlənməsi, üçüncü pillədə isə ali və orta təhsil səviyyəsi nəzərdə tutulur. Təhsil sistemi müasir dövrdə özəl, dövlət, yəni büdcə hesabına maliyyələşdirilən formada fəaliyyət göstərir. Təhsilin təşkili, planlaşması və idarə olunması üçün tələbat sistemi qiymətləndirilir. Uyğun olaraq tələbatı qiymətləndirmək üçün yuxarıda adları çəkilən hər bir mərhələ üçün kontingentlərin, yəni insanların, şagirdlərin, müəllimlərin sayı müəyyən olunur. Birinci mərhələ üçün 6 yaşa qədər olan uşaqların ümumi sayı və bu sayın daxilində uşaq müəssisələrdə istifadə etmə əmsalı əsas götürülür. Məsələn: Azərbaycanda məktəbəqədər olan uşaqların ümumi sayının 6%-i uşaq müəssisələrində istifadə etmə əmsalına malikdir. Bu rəqəm kənd yerlərində daha azdır. Əlbəttə, bu əmsalın dəyişməsi, artması bir sıra coğrafi iqtisadi dünyagörüşünün inkişafı və sosial faktorlardan asılıdır. Məsələn: sənaye mərkəzlərində, böyük şəhərlərdə valideynlərin işlədiyi ailələrdə və gəlirləri çox olan ailələrin uşaq müəssisələrindən istifadə etmə ehtimalı yüksəkdir. Buna görə də bu müəssisələrdə kapital qoyuluşu, büdcədən ayırmalar, bu müəssisələrin keyfiyyətinin yüksəldilməsi və s. həmin müəssisələrdə istifadə əmsalını artırır. Ikinci mərhələdə orta məktəblərdə ümumtəhsil məktəblərində tələbat sistemi olaraq məktəb yaşlı uşaqların ümumi sayı əsas götürülür, o cümlədən birinci sinfə daxil olanlar və sinifdən-sinfə keçid əmsalı əsas götürülür. Ümumi təhsil məktəblərində oxuyan uşaqların sayına uyğun maddi-texniki baza, müəllim kollektivinin sayı, tədris-metodika və digər infrastruktura obyektləri planlaşdırılır. Ümumi təhsil məktəblərində hər şagirdə düşən auditoriya fondu, kitabxanası, kompüterləşmə səviyyəsi, laboratoriya şəraiti, kitabla, təminat və s. nisbi göstərici planlaşdırılır, dünya standartları ilə müqayisə olunur və tənzim olunur. Ali məktəblərdə isə tələbat sistemi olaraq respublikanın iqtisadi və sosial sahələrinin yüksək ixtisaslı kadrlarla təmin olunması üçün lazım olan ixtisaslı kadrların sayı əsas götürülür. İndiki bazar iq-tisadiyyatı şəraitində maliyyə mənbələrinə görə ali təhsil sistemi büdcə hesabına və əhalinin öz vəsaiti hesabına fəaliyyət göstərir. Deməli mülkiyyət formasından asılı

olaraq təhsil sistemi dövlət və qeyri-dövlət təhsil sisteminə bölünür. Müxtəlif dövlətlərdə dövlət və qeyri-dövlət təhsil sistemi arasında müxtəlif nisbətlər mövcuddur. Bu keçid dövrü üçün xarakterikdir. Əgər ixtisaslı kadr iş yerlərinə olan tələbata uyğun gəlməzsə, onların hazırlanmasına ehtiyac azalacaq və rəqabət nəticəsində bir çox müəssisələr aradan çıxa biləcək. Təhsil sisteminin planlaşmasında aşağıdakı bölmələr tətbiq olunur. Tələbata uyğun olaraq ixtisaslar və onlara uyğun olaraq tələbələrin ümumi sayı müəyyən olunur. Hər bir tələbəyə uyğun normal şərait üçün lazım olan maddi texniki baza, o cümlədən, ixtisasın öyrənilməsi üçün lazım olan tədris, metodiki təminat müəyyən olunur. Aparıcı bölmə kadr hazırlığı təhsil sistemində aspirantura və doktorluq təhsili yolu ilə hazırlanır. İndiki şəraitdə iqtisadi islahatlar, bazar iqtisadiyyatı və təhsildə pilləli sistem bakalavr, magistratura və doktorantura sistemi tətbiq olunur. Təhsilin inkişafı üçün əsas amil kapital qoyuluşu problemidir. Müasir tələblərə uyğun ixtisaslı kadr hazırlamaq keçmiş SSRİ respublikaları üçün, o cümlədən Azərbaycan üçün çoxlu kapital qoyuluşu tələb edir[1,səh 156]. Çünki dünya standartlarına uyğun olaraq kadr hazırlığından söhbət gedirsə, bu məqsədlə tədrisin keyfiyyəti tamamilə dəyişilməlidir. O cümlədən ictimai elmlər, iqtisadiyyat, idaretmə, menecment, sosial bölmələri üzrə kadr hazırlığı problemləri yeni metodiki, təşkilati, iqtisadi tədbirlər həyata keçirməyi vacibdir. Məsələn: dərs vəsaitlərinin dəyişməsi, tədrisin kompüterləşməsi, tələbə, müəllim kollektivinin bazar iqtisadiyyatı şəraitində normal yaşayışı və inkişafı üçün vəsaitin artması çoxlu yüksək kapital qoyuluşu tələb edir. Bu isə dövlət büdcəsi yolu ilə mümkün deyil. Ona görə də ayrı-ayrı şəxslərin, şirkətlərin, beynəlxalq assosiasiyaların hesabına qeyri-dövlət təhsil sisteminin yaradılması vacibdir, zəruridir. Lakin onların hazırladığı keyfiyyəti ümumi bəşəri mənafe baxımından dövlət tərəfindən tənzim olunmalıdır.

Təhsilin idarə olunmasında məqsədli proqram yanaşma metodlarından istifadə olunur.

Təhsilin mikrosəviyyəli göstəriciləri onun daxilində idarəetmənin mikro problemlərini əhatə edir. Belə ki, təhsilin maddi təminatı metodiki və elmi təminatı, kadr təminatı standartlara uyğun yenidən təkmilləşir, ümumi iqtisadi artıma olan tələbatı formalaşdırır və bu artımın təhsil üçün ayrılan hissəsini müəyyən edir. Mən çalışdığım ADAU-da son illər bu proqrama uyğun böyük yeniliklər və müvəffəqiyyətlər olmuşdur. Belə ki, iki ədəd yeni standartlara uyğun hərəsi 514 nəfər yerlik yataqxana inşa edilib tələbələrin istifadəsinə verilmişdir. Hansı ki, burada yüksək keyfiyyətdə yataq otaqlar, yemək otaqları, mətbəxlər, elektron kitabxana, fitnes otaqları, dincəlmək üçün televizor və internetlə təmin olunmuş otaqlar, bufet və s. fəaliyyət göstərir. Universitetin bütün korpusları yüksək səviyyədə təmir edilib və maddi texniki təchizatla təmin edilmişdir. Universitetin təcrübə sahəsində bir sıra bitki növlərinin əkin sahələri mövcuddur. Burada taxıl, tərəvəz və meyvə sahələri əkilib becərilir. Heyvandarlıq sahələrindən iribuynuzlu mal-qara, quşçuluq, atçılıq, balıqçılıq və s. üçün hər bir şərait yaradılmışdır. Bütün bunlar isə sözsüz ki, təhsilin keyfiyyətini yüksəldir, pedoqoji heyətin yüksək səviyyədə dərslərin aparılmasına zəmin yaradır.

Hər bir təhsil müəssisəsinin idarə edilməsi onun lokal formasıdır. Funksional roluna uyğun olaraq xüsusi proqramlar tərtib olunur və apancı bir ixtisaslaşma baş

verir, təhsilin ixtisaslaşması iqtisadiyyatm ümumi sahələri biliklərin konkret fənlər və ya elmlər üzrə prioritetliyi yolu ilə təmin olunur. Ali təhsil sistemində funksional vəzifələrə uyğun olaraq institutlar, texnikumlar, litseylər, peşə məktəbləri təşkil edilir. Elm sferası mahiyyət etibarilə məhsuldar qüvvələrin tərkib hissəsi olub, əhalinin, iqtisadiyyatın idarə olunmasına elmi-intellektual məhsulun formalaşmasına xidmət edir. Elmi ideyalar, düşüncələr sosial-iqtisadi inkişafda funksional rol oynayır. Belə ki, istehsalın, xidmətin və bəzi məhsulların keyfiyyətinin yaxşılaşmasına xidmət edir, əməyin məzmununu yaxşılaşdırır, elmtutumlu sahələrin çəkisini artırır və ölkənin qlobal təhlükəsizlik problemlərini həll edir. Yeni iqtisadi şəraitdə sahibkarlığın inkişafına dəstəyin vacib komponentlərindən biri də sahibkarların maarifləndirilməsi, onlara zəruri biliklərin, praktiki bacarıqların, beynəlxalq təcrübənin aşılanması, konsaltinq və innovasiya xidmətlərinin göstərilməsidir. Ümumiyyətlə son illər Azərbaycanda təhsil infrastrukturunun müasir tələblərə uyğun qurulması, təhsilin məzmununun yeniləşdirilməsi, təhsil alanların nailiyyətlərinin qiymətləndirilməsi üzrə yeni model və mexanizmlərin tətbiqi, əmək bazarının tələbatına uyğun kadr hazırlığı və təminatının yaxşılaşdırılması, təhsil-müəssisələrinin informasiya-kommunikasiya texnologiyaları ilə təmin edilməsi və təhsil sisteminin informasiyalaşdırılması, məktəbəqədər, texniki peşə, ali təhsil, xaricdə təhsil, istedadlı uşaqların inkişafı, xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilinin təşkili və digər bu kimi sahələrdə mühüm irəliləyişlər və uğurlar əldə olunub.

Alıcanov M.S.,
tarix elmləri üzrə fəlsəfə doktoru, dosent
Əkbəri T.M. b.f.d., b/m.,
Xəlilzadə Ç.Y. magistrant
ADPU-nun Şamaxı filiali

HEYDƏR ƏLİYEV VƏ GƏNCLƏR SİYASƏTİ

Çox qədim dövlətçilik ənənəsinə malik Azərbaycan xalqı özünün azadlığı və müstəqilliyi uğrunda apardığı mübarizə nəticəsində 1918-ci il mayın 28-də dövlət müstəqilliyini elan etmişdir.

Prezident İlham Əliyevin "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" Sərəncamı və 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilməsi Azərbaycanın müstəqilliyinə verilən ən böyük dəyərlərdən biridir. AXC tərəfindən əsası qoyulan milli strategiyalarımız müstəqillik illərində ulu öndər Heydər Əliyev tərəfindən və bu gün də yüksək səviyyədə həyata keçirilir.

Müasir Azərbaycan cəmiyyətinin memarı və qurucusu ulu öndər Heydər Əliyev qədim tarixə və zəngin mədəniyyətə malik olan Azərbaycan xalqının gələcək inkişafının təmin olunmasında, ictimai-siyasi həyatının sürətli inkişafında gənclərin rolunu yüksək qiymətləndirmiş və onlara böyük qayğı göstərmişdir. Heydər Əliyev hələ 1969-1982-ci illərdə respublikaya rəhbərlik etdiyi dövrlərdə xeyli sayda yeni tədris müəssisələri, hərbi və ali məktəblər açmış, 15 mindən artıq azərbaycanlı gənci keçmiş

SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almağa göndərmiş və onlar o dövrün ən müasir ixtisaslarına yiyələnmişdilər. Ulu öndərimiz SSRİ-nin müxtəlif ali məktəblərində təhsil almağa göndərilən bu gənclərin maddi cəhətdən təmin olunmasına və mükəmməl təhsil almalarına hər cür şərait yaradılmasına qayğı göstərirdi.

Ulu öndər Heydər Əliyevin siyasi fəaliyyətində gənclər siyasəti, gənc nəslin mənəvi tərbiyəsi, ictimai tərəqqidə onların rolu, iqtisadi və mənəvi ehtiyaclarının ödənilməsi məsələsi mühüm yer tutur. Bütün sahələrdə olduğu kimi, gənclərin orta ixtisas və ali təhsili müəssisələrinə tələbə qəbulu prosesinə xüsusi diqqət yetirmiş, 1981-ci ildə "Literaturnaya qazeta"ya verdiyi "Qoy ədalət zəfər çalsın" adlı müsahibəsi onun ali təhsilə sonsuz marağına və təhsil sahəsində buraxılan nöqsanların aradan qaldırılmasına gənclərdə inam yaratmış, bir sözlə ədalətin zəfər çalmasına nail olmuşdur. Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi kimi respublikaya rəhbərlik etdiyi 70-80-ci illərdəki dövrdə milli kadr hazırlığı mərhələsində apardığı təhsil siyasətinin əsas istiqamətlərindən biri də hərbi milli kadrların hazırlanması sahəsindəki xidmətləridir. Bu illərdə Azərbaycanda ilk orta və ali hərbi təhsil sistemini yaratmaqla yanaşı, həmin dövrdə SSRİ-nin bir çox hərbi məktəblərinə azərbaycanlı gənclərin hərbi təhsil almalarına daim diqqət yetirməsidir. Məhz Heydər Əliyevin təşəbbüsü ilə Bakıda Cəmşid Naxçıvanski adına hərbi məktəbin yaradılması sonrakı illərdə müstəqillik əldə etdiyimiz dövrdə Azərbaycanın ordu quruculuğunda və milli-hərbi hissələrimizin formalaşamasında möhtəşəm rol oynamışdır.

Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrdə həyata keçirdiyi tədbirlər Azərbaycan gənclərinin inkişafına, onların iqtisadi-siyasi fəallığının artımına böyük təsir göstərmiş, Azərbaycan gənclərinin bugünkü inkişafı üçün mühüm zəmin yaratmışdır.

Heydər Əliyev Moskvada fəaliyyət göstərdiyi və yaşadığı illərdə Azərbaycan gənclərinin ölkədə ictimai-siyasi proseslərdən demək olar ki kənarda qalmış, mənəvi-psixoloji böhran vəziyyətinə düşmüş, yalnız yüz minlərlə adamın qoşulduğu ümummilli xalq hərakatında iştirak etməyə başladılar.

Görkəmli dövlət xadimi və böyük siyasətçi Heydər Əliyev Azərbaycana qayıtdıqdan sonra zəngin siyasi təcrübəsinin və dünyagörüşünün genişliyi nəticəsində onun "Azərbaycanın bugünkü gələcəyi bütövlükdə sağlam düşüncəli gənclərdir" sözləri gənclərə göstərilən qayğının bariz nümunəsidir.

Gənc nəslin mənəvi-əxlaqi tərbiyəsinə və sosial rifahının yaxşılaşdırılmasına xüsusi diqqət yetirən ulu öndər Heydər Əliyev idarəetmə orqanlarında gənc mütəxəssislərə üstünlük verilməsinə və gənclərin təşkilatlanmasına xüsusi diqqət yetirirdi. Bu məqsədlə 22 sentyabr 1993-cü ildə Respublika Ali Sovetində gənclərin nümayəndələri ilə görüş keçirmiş, 1994-cü il 26 iyul tarixdə Gənclər və İdman Nazirliyinin yaradılması barədə fərman imzalanmış, Azərbaycan Respublikası gənclərinin 1996-cı il fevral ayının 2-də Gənclər Forumunun keçirilməsinə, gənc istedadlara dövlət qayğısının gücləndirilməsinə nail olmuşdur. Bütün bunların məntiqi nəticəsidir ki, Azərbaycan gənclərinin dövlət quruculuğuna fəal cəlb olunması dövlətin gənclər siyasətinə mühüm töhfə verdi. Bununla da ümummilli liderimizin 1997-ci il 2 fevral tarixində imzaladığı fərmana əsasən həmin tarix "Azərbaycan gəncləri günü" elan edilmişdir. Azərbaycanda gənclər hərəkatının güclənməsində və inkişafında, gənclərlə işin yüksəlməsində Azərbaycan gənclərinin forumları mühüm rol oynadı. Məhz Ulu Öndərin dediyi kimi "dövlət orqanlarının, hakimiyyət orqanlarının vəzifəsi gənclərə diqqəti

artırmaq, gənclər probleminin həll olunması ilə bundan sonra daha da yaxından məşğul olmaq və irəli sürülən təkliflərin həyata keçirilməsi üçün çalışmaq, lazımi tədbirlər görməkdən ibarətdir".1996-2003-ci illərdə qəbul olunmuş "Bədən tərbiyəsi və idman haqqında", "Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında", "Gənc istedadlar üçün xüsusi təqaüdlərin təsis edilməsi haqqında", "Dövlət gənclər siyasəti haqqında" qərarların, habelə "Gənc ailə" proqramı, "Gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin yüksəldilməsi haqqında", "Ordudan tərxis olunmuş gənclərin məşğulluğu" və s. dövlət sənədləri bu baxımdan təqdirə layiqdir. Bundan əlavə Heydər Əliyevin Qaçqın və məcburi köçkün tələbə gənclərə göstərdiyi qayğı onun bütün ölkə vətəndaşları qarşısında göstərdiyi əvəzolunmaz xidmətlərinin tərkib hissəsidir. Heydər Əliyevin beynəlxalq əlaqələrinin yaranmasına və inkişafına xüsusi diqqət yetirməsi nəticəsində gənclərimiz beynəlxalq tədbirlərin hazırlanmasında və proqramların icrasında daha yaxından iştirak etməyə başlamışdılar.

Azərbaycan Respublikasının müstəqilliyinin qorunub saxlanılmasında, ölkə iqtisadiyyatının inkişafında gənclərimizin müstəsna xidmətlərini yüksək qiymətləndirən Heydər Əliyev haqlı olaraq belə demişdir ki, Azərbaycanda əldə olunan ən böyük nailiyyətlərdən biri xalqına, vətəninə, torpağına hədsiz sədaqət hissi ilə bağlanan gənclərimiz olmuşdur. Biz iftixarla deyə bilərik ki, Ümummilli liderimiz Heydər Əliyevin gənclər siyasəti onun layiqli davamçısı İlham Əliyev tərəfindən bugün də uğurla həyata keçirilir. Azərbaycan Respublikası prezidentinin 2007-ci ili "Gənclər ili" kimi qeyd etməsi yalnız gənclərin deyil, respublikamızın ictimai-siyasi həyatında çox mühüm hadisə oldu.

Bugün milli vətənpərvərlik Azərbaycan Respublikasının hər bir vətəndaşının, o cümlədən hər bir gəncinin həyatının əsas prinsipidir. 2016-cı ilin aprel ayında erməni təxribatına qarşı silahlı qüvvələrimizin, o cümlədən gənc zabit və əsgərlərimizin misilsiz qəhrəmanlığı buna parlaq nümunədir. Aprel döyüşlərindəki bu qələbə təkcə milli ordumuzun deyil, həmçinin Azərbaycan xalqının siyasi, iqtisadi, hərbi və mənəvi qələbəsidir. Bu gün hər bir Azərbaycan vətəndaşı, o cümlədən gənclərimiz ümummilli liderimiz Heydər Əliyevin ideyalarını öz fəaliyyətində daim rəhbər tutur, Azərbaycan gəncliyinin lideri olan möhtərəm prezidentimiz İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın müstəqilliyinin əbədi yaşaması üçün onun ətrafında sıx birləşmişdir.

Azərbaycan dövləti ölkənin gələcəyi olan yeni nəslin hazırlanmasına xüsusi önəm verir. Prezident İlham Əliyevin 2011-ci il 6 aprel tarixli sərəncamı ilə təsdiq olunan "Azərbaycan gəncliyi: 2011-2015-ci illər Dövlət Proqramı" gəncliyin rifahına hesablanan dövlət qayğısını bir daha ortaya qoydu. Dövlətimizin başçısının digər bir fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu yaradıldı. 2007-ci il Azərbaycanda "Gənclər ili" elan edildi və bu çərçivədə silsilə tədbirlər həyata keçirildi. Prezident İlham Əliyevin təsdiq etdiyi digər bir mühüm sənəd - "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" bütün təbəqədən olan gənclərin xaricdə təhsilinə geniş imkan açıb.

Gənclər siyasətində idmanın inkişaf etdirilməsi və onun kütləviliyinin artırılması da mühüm yer tutur. Təkcə paytaxtda deyil, bölgələrdə də yeni olimpiya idman kompleksləri tikilərək istifadəyə verilib. 1997-ci ildən Milli Olimpiya Komitəsinə rəhbərlik edən prezident İlham Əliyevin ardıcıl səyləri nəticəsində Azərbaycan dünyanın qabaqcıl idman ölkəsinə çevrilib. İdmançılarımızın Olimpiya və dünya çempionatlarında birbirindən uğurlu çıxışları buna əyani sübutdur. Bundan əlavə, prezident İlham Əliyevin

sərəncamına görə 2015-ci ildə I Avropa oyunlarının, 2017-ci ildə IV İslam Oyunlarının Azərbaycanda keçirilməsi idmana göstərilən diqqət və qayğının bariz təzahürüdür.

Beləliklə, Azərbaycanda gəncliyə dövlət qayğısı sabaha və gələcək uğurlara hesablanan bir siyasətdir. Bu siyasət sağlam və intellektual nəslin formalaşmasına xidmət edir və Azərbaycan gəncliyinin sabahına daha böyük nikbinliklə, inamla baxmağa əsas verir.

Ramazanov M.K.,
iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
DTX-nin Heydər Əliyev adına Akademiyası

DAYANIQLI İQTİSADİ İNKİŞAF: RETROSPEKTİV BAXİŞ VƏ PERSPEKTİV HƏDƏFLƏR

Böyük tarixə, zəngin təbii-iqtisadi potensiala, geostrateji coğrafi məkana malik olan Azərbaycan XX əsrin 90-cı illərində tarixi dövlət müstəqilliyini əldə etdi. Dövlət müstəqilliyinin əldə olunduğu dövr siyasi xaos, iqtisadi tənəzzül və əhalinin həyat səviyyəsinin kəskin şəkildə aşağı düşməsi ilə müşayiət olunurdu. O dövrün sosial-iqtisadi mənzərəsini əsas makroiqtisadi göstəricilər daha aydın göstərir. Belə ki, 1991-1993-cü illər ərzində Azərbaycanda ümumi daxili məhsul istehsalının həcmi hər il orta hesabla 17%, sənaye istehsalının həcmi 50%, xarici ticarət dövriyyəsi 42% azalmış, inflyasiyanın səviyyəsi 1800%-ə çatmışdır. Belə bir şərait əldə edilmiş dövlət müstəqilliyinin qorunub saxlanılması, möhkəmləndirilməsi və iqtisadi inkişafın təmin olunması istiqamətində ciddi çətinliklər yaradırdı. Hər bir ölkənin iqtisadiyyatının dinamik inkişafı bu ölkənin müxtəlif müəssisələrinin rəqabətqabiliyyətlilik səviyyəsi ilə təmin edilir və ölkə o vaxt uğur əldə edir ki, müəssisələrin hər-hansı sahə və seqmentlərdə daha yaxşı strategiya reallaşdırılması üçün əlverişli siyasi və iqtisadi şərait olsun. Məhz bu baxımdan Azərbaycan xalqının dəstəyi ilə 1993-cü ildə ikinci dəfə siyasi hakimiyyətə gələn ulu öndər Heydər Əliyev qətiyyətlə ölkədə vətəndaş müharibəsinin qarşısını almış, siyasi sabitliyin tam bərpasına, bütün sahələrdə qanunçuluğun möhkəmləndirilməsinə nail olmuş, davamlı iqtisadi inkişaf modelinin əsasını qoymuşdur. Heydər Əliyev əsasını qoyduğu iqtisadi inkişaf modelində ölkəmizin özünəməxsus cəhətlərini, geosiyasi və geostrateji mövqeyini, təbii ehtiyatlarını və əhalinin sosial mənafeyini əsas götürərək azad bazar iqtisadiyyatı prinsiplərinə əsaslanan iqtisadi sistemin formalaşdırılması ideyasını irəli sürmüşdür.

Ölkəmizin o zamankı məhdud maliyyə imkanlarını nəzərə alan Heydər Əliyev iqtisadiyyatın bütün sahələrinin paralel inkişafının qeyri-mümkünlüyünü önə çəkmiş, bu sahədə ciddi dönüşə nail olmaq üçün birinci növbədə respublikanın malik olduğu zəngin karbohidrogen ehtiyyatlarından səmərəli istifadəni vacib saymışdır. Ulu öndər Heydər Əliyevin siyasi uzaqgörənliyinin, prinsipiallığının və siyasi iradə nümayişinin məntiqi nəticəsi olaraq 1994-cü ildə "Əsrin müqaviləsi"nin əfsanədən reallığa çevrilməsi ölkənin bütün strateji əhəmiyyətli sahələrinin inkişafına təkan verməklə, Azərbaycanda hüquqi və iqtisadi islahatların yeni mərhələdə aparılmasına da geniş imkan-

lar açmışdır. Xəzər hövzəsində beynəlxalq əməkdaşlığın əsasını qoymuş "Əsrin müqaviləsi"nin imzalanması ilə respublikamızın dinamik iqtisadi inkişafının özülü qoyulmuş, xarici investisiyaların ölkəmizə cəlb edilməsi üçün münbit zəmin formalaşmış, müasir infrastrukturun yaradılmasına ciddi töhfə vermişdir. İqtisadi sahədə islahatların ardıcıl və sistemli şəkildə həyata keçirilməsi məqsədilə ulu öndər ilk növbədə beynəlxalq tələblərə uyğun qanunvericilik bazasının yaradılmasını təmin etdi. Heydər Əliyevin rəhbərliyi dövründə iqtisadi sahələrin tənzimlənməsi ilə bağlı 70-dən artıq qanun qəbul edilmiş, 100-dən çox fərman və sərəncam imzalanmış, 30-a yaxın dövlət proqramı təsdiq edilmişdir. Ümummilli liderin təşəbbüsü və rəhbərliyi ilə 1995-ci ildən başlayaraq iqtisadiyyatın bazar münasibətləri əsasında qurulması, aqrar islahatların həyata keçirilməsi, dövlətə məxsus torpaqların və əmlakın kəndlilərə paylanması, qiymətlərin sərbəstləşdirilməsi və s. tədbirlər aqrar bölmənin inkişafına təkan vermiş, kənd təsərrüfatında ciddi struktur dəyişiklikləri aparılmış, yeni sahələr yaranmış, məzmunca fərqli iqtisadi münasibətlər formalaşmışdır. Uğurla həyata keçirilən torpaq islahatı kənd təsərrüfatını 1990-cı illərin əvvəllərindəki böhranlı vəziyyətdən xilas etdi və bugünkü inkişafın əsasını qoydu. Qeyd edək ki, bu proses Azərbaycanda keçmiş sovet respublikaları ilə müqayisədə birinci və uğurla başa çatdırılmışdır. Özəlləşdirilmiş torpaqlarda səmərəli təsərrüfatçılığın, sahibkarlığın inkişafının təmin olunması məqsədilə ümummilli liderin təşəbbüsü ilə kənd təsərrüfatı məhsulları istehsalçılarının əvvəlki vergi borcları silindi, onlara uzunmüddətli vergi tətillərinin verilməsi tətbiq olundu və bu proses hazırda da davam etdirilir. Məhz yuxarıda qeyd edilən uzaqgörən iqtisadi siyasətin nəticəsidir ki, bu gün kənd təsərrüfatında məhsul istehsalı artımı 2007-ci illə müqayisədə 2 dəfədən çox artaraq, 6,6 milyard manata çatmışdır. Qlobal siyasi və iqtisadi gərginliklərə, böhranlara baxmayaraq, 2017-ci ildə ölkəmizdə qeyri-neft sektorunun əsas istiqaməti olaraq kənd təsərrüfatında artım 4,2% təşkil etmişdir.

Ulu öndər Heydər Əliyev yaxşı bilirdi ki, keçmiş sovet dövründən miras qalmış iqtisadi münasibətlər sisteminin xarakterini dəyişmədən, iqtisadiyyatda çoxmülkiyyətliliyi təmin etmədən, ən əsası milli sahibkarlıq təbəqəsinin yaranması yolu ilə qeyri-neft sektorunda rəqabətədavamlı istehsal sahələri formalaşdırmadan qloballaşan dünya iqtisadiyyatına səmərəli inteqrasiyaya və davamlı iqtisadi inkişafa nail olmaq mümkün deyil. Odur ki, ümummilli lider Heydər Əliyev 1995-ci ildən başlayaraq ölkə iqtisadiyyatının bazar prinsipləri əsasında qurulması istiqamətində iqtisadi islahatlara başlamış, sahibkarlıq təbəqəsinin formalaşması və güclənməsinə xidmət edən tədbirlər görmüş, əsaslı struktur islahatların həyata keçirilməsinə nail olmuşdur. Ümumiyyətlə, ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilən dinamik iqtisadi inkişaf modelinin əsasını üç mərhələdə həyata keçirilməsi nəzərdə tutulan islahatlar təşkil etmişdir: birinci mərhələdə güclü dövlət tənzimlənməsi yolu ilə böhrandan çıxmaq, ikinci mərhələdə iqtisadiyyatın sabitliyini təmin etmək, üçüncü mərhələdə iqtisadi dirçəlişə nail olmaq. Qeyd olunan hər bir mərhələyə uyğun həyata keçirilən çevik və məqsədyönlü iqtisadi islahatlar sayəsində ölkə iqtisadiyyatında makroiqtisadi sabitlik təmin edilmiş, ümumi daxili məhsulda 1996-cı ildə 1,3 faiz, 1997-ci ildə isə 5,8 faiz artım əldə olunmuşdur.

Ümummilli lider Heydər Əliyev ölkədə iqtisadi islahatların ardıcıl və sistemli şəkildə aparılmasının tərəfdarı kimi çıxış edərək, ilk növbədə iqtisadiyyatda azad rəqabət mühitinin formalaşdırılması üçün dövlət mülkiyyətinin özəlləşdirilməsinin vacibliyini önə çəkmişdir. İqtisadiyyatın bütün sahələrini əhatə edən özəlləşdirmə

prosesi müstəqil respublikamızda bazar iqtisadiyyatının təməl prinsiplərinin sürətlə formalaşmasına, ölkənin xarici iqtisadi əlaqələrinin yüksəlməsinə əsaslı zəmin yaratmaqda əvəzsiz rol oynadı. Özəlləşdirmə prosesi ilə paralel respublikada həyata keçirilən struktur islahatları Azərbaycanda iqtisadiyyatın bütün sahələrinin sürətli inkişafına, o cümlədən yerli və xarici investisiyalar, müasir texnologiyalar, idarəetmə təcrübəsi cəlb etməklə, rəqabət qabiliyyətli məhsul istehsal edən müəssisələrin yaradılmasına, mövcud infrastrukturun modernləşməsinə və yenisinin yaradılmasına imkan vermişdir.

Ulu öndər Heydər Əliyevin birbaşa təşəbbüsü ilə 1997-ci ildə qəbul edilmiş "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafı (1997-2000–ci illər) Dövlət Proqramı" əhəmiyyətinə, aktuallığına və miqyasına görə milli sahibkarlığın inkişafında yeni mərhələnin başlanğıcı olmuş, bu sahədə dövlət siyasətinin başlıca prinsiplərini müəyyənləşdirmişdir. Həmin Proqramda ilk dəfə olaraq milli sahibkarlığın stimullaşdırılması və onun dövlət maliyyə təminatı mexanizmlərinin formalaşdırılması, daxili bazarın qorunması yolu ilə istehsal sahələrinin inkişaf etdirilməsi, qeyri-neft sektorunun ümumi daxili məhsuldakı çəkisinin artırılması ilə bağlı kompleks tədbirlər planı öz əksini tapmışdır. Eyni zamanda, sahibkarlığa dövlət maliyyə dəstəyinin hüquqi əsaslarının formalaşdırılması üçün ulu öndər Heydər Əliyev 27 avqust 2002-ci il tarixli fərmanı ilə Sahibkarlığa Kömək Milli Fondunun əsasnaməsini təsdiqləmişdir. Fondun vəzifəsi ölkədə sahibkarlığın inkişafına maliyyə dəstəyi vermək, onlara müvəkkil banklar vasitəsilə güzəştli kreditlərin ödənilməsini təmin etmək, bir sözlə sahibkarların səmərəli biznes layihələrinin reallaşmasına yardımçı olmaqdır. Qeyd edək ki, milli sahibkarlığın inkişaf etdirilməsi istiqamətində Sahibkarlığa Kömək Milli Fondu 2017-ci ildə 146,0 milyon manat güzəştli kredit vermişdir və bu kredit məbləği hesabına 6591 daimi iş yeri açılmışdır. Güzəştli kreditlərin 66,4%-i aqrar sektorun, 33,6 %-i müxtəlif sənaye sahələrinin inkişafına yönəldilmişdir. Verilmiş kreditlərin 74%-i respublikanın regionlarının, 26%-i isə Bakı şəhərinin qəsəbələrinin payına düşür.

Fikrimizcə, yuxarıda qeyd edilən iqtisadi uğurlar hazırda həyata keçirilən iqtisadi islahatların əsas prioriteti kimi iqtisadiyyatın şaxələndirilməsi və xüsusilə rəqabətqabiliyyətli ixrac məhsulları istehsal edən emal sahələrinin inkişaf etdirilməsi və ərzaq təhlükəsizliyinin təmin olunması baxımından olduqca əhəmiyyətlidir.

Qeyri-neft sektorunun aparıcı sahələrindən biri olan aqrar sahənin inkişafı əhalinin ərzaq təhlükəsizliyi ilə yanaşı məşğulluğun da təmin edilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Ona görə də ölkədə aqrar sahənin daha da inkişaf etdirilməsi məqsədilə dövlət tərəfindən investisiya layihələrinin reallaşdırılmasına, güzəştli kreditlərin, dotasiyaların verilməsinə xüsusi əhəmiyyət verilir və təqdirə layiq haldır ki, bu istiqamətdə fəaliyyət son illər getdikcə genişlənir.

Ümummilli lider Heydər Əliyevin birbaşa gərgin əməyi sayəsində hazırlanmış iqtisadi inkişaf modelinin özünəməxsus xüsusiyyətlərinə əsaslanaraq aşağıdakı istiqamətlərdə uğurlu iqtisadi siyasət həyata keçirilmişdir:

- respublikanın karbohidrogen potensialı nəzərə alınaraq, milli neft strategiyası işlənib hazırlanmış və bu gün uğurla davam etdirilir;
- neft sektorunun inkişafından əldə edilmiş gəlirlər hesabına ölkəmizin dünya bazarında üstünlük əldə edə biləcəyi ənənəvi qeyri-neft sektoru sahələrinin inkişafı istiqamətində uğurlar əldə edilmişdir;

- ölkənin yerləşdiyi mühüm strateji mövqedən yararlanaraq uğurlu beynəlxalq və regional iqtisadi layihələrin reallaşdırılması davam etdirilir.

Ulu öndərin zərgər dəqiqliyi ilə işləyib hazırladığı və mərhələ-mərhələ reallaşdırdığı milli neft strategiyasının ən taleyüklü tərəfi Azərbaycanda neft ehtiyyatlarının xarici bazarlara etibarlı və təhlükəsiz nəqlini təmin edən infrastruktur sisteminin yaradılması dururdu ki, bu da məhz Heydər Əliyevin təşəbbüsü və rəhbər qətiyyəti sayəsində mümkün olmuşdur. Beynəlxalq təzyiqlərə baxmayaraq, Azərbaycanda çoxvariantlı və etibarlı boru nəqliyyat infrastrukturunun formalaşdırılması üçün ümummilli lider Heydər Əliyevin uzaqgörən qərarı ilə Bakı-Tbilisi-Ceyhan marşrutu əsas ixrac yolu kimi seçildi. Ümummilli lider Heydər Əliyevin strateji siyasi xətti və ideyaları əsas tutularaq, ölkənin durmadan artan maliyyə imkanları hesabına regionun inkişafında mühüm yer tutan beynəlxalq əhəmiyyətli strateji infrastruktur layihələrin həyata keçirilməsi prosesi uğurla davam etdirilir.

Qeyd etdiyimiz kimi, respublikamızda əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş və böyük müdrikliklə həyata keçirilən iqtisadi inkişaf modelinin nəticəsində hazırda Azərbaycan iqtisadiyyatı dünyanın ən dinamik inkişaf edən iqtisadiyyatlarından birinə çevrilmişdir. Dünyada baş verən siyasi və iqtisadi gərginliklərə baxmayaraq, 2017-ci ildə ölkəmizdə qeyri-neft iqtisadiyyatı 2,7%, qeyri-neft sənayesi 3,8%, kənd təsərrüfatı isə 4,2 % artmışdır. Bu gün ölkənin ümumi daxili məhsulunun əsas hissəsi özəl sektorun payına düşür ki, bu da 83,0% təşkil edir.

Azərbaycanın son illərdə sürətli inkişaf və tərəqqi yolunda inamla irəliləməsi, makroiqtisadi uğurlara imza atması ilk növbədə dövlət büdcəsində real əksini tapır. Ölkəmizin son beş ildəki büdcəsinə nəzər saldıqda həyata keçirilən iqtisadi islahatların milli maraq və mənafe baxımından səmərəliliyi bir daha təsdiqlənir. Belə ki, qlobal siyasi və maliyyə böhranı ilə müşayiət olunan hazırkı dövrdə dövlət büdcəsinin 20 milyard manata çatması ölkədə həyata keçirilən iqtisadi islahatların səmərəliliyini əks etdirən kifayət qədər yüksək göstəricidir.

Ölkə rəhbərliyi iqtisadiyyatın inkişafının qeyri-neft sektoru üzərində qurulmasına yönələn düşünülmüş strategiya həyata keçirərək, neft hasilatının bilərəkdən sabit tepmdə saxlanılmasına, bununla da ehtiyyatların gələcək nəsillər üçün qorunmasına, əvəzində qeyri-neft sektorunda inkişaf tempini daha da sürətləndirməyə yönələn siyasət aparır. Göstərilən istiqamət üzrə son illər ölkəmizdə iqtisadiyyatın diversifikasiyasına hesablanmış uğurlu iqtisadi siyasət nəticəsində 2017-ci ildə qeyri-neft sektorunun ÜDM-də payı 62,8 faizə çatmışdır. Dövlət başçısı cənab İlham Əliyev tərəfindən aparılan məqsədyönlü iqtisadi siyasət nəticəsində bu gün Azərbaycan iqtisadiyyatı ümumilikdə Cənubi Qafqaz iqtisadiyyatının 75-80 faizini təşkil edir. Yaradılmış münbit şərait, davamlı və sürətli iqtisadi inkişaf nəticəsində ölkənin iqtisadi təhlükəsizliyini təmin edə biləcək valyuta ehtiyyatları formalaşdırılmış və hazırda onun həcmi 42,0 milyard ABŞ dollarını ötmüşdür. Ölkəmizdə formalaşdırılmış əlverişli biznes və investisiya mühiti investisiya axınının sürətlənməsinə şərait yaratmış, nəticədə bu günə kimi iqtisadiyyata yatırılan investisiyaların həcmi 120 milyard ABŞ dolları təşkil etmişdir. Adambaşına düşən xarici investisiyaların həcminə görə MDB və Şərqi Avropada aparıcı dövlətlərdən olan Azərbaycan artıq xaricə investisiya yatıran ölkəyə çevrilmişdir.

Ümummilli lider Heydər Əliyevin strateji siyasi xətti və ideyaları əsas tutularaq, ölkənin durmadan artan maliyyə imkanları hesabına regionun inkişafında mühüm yer tutan beynəlxalq əhəmiyyətli strateji infrastruktur layihələrin həyata keçirilməsi prosesi uğurla davam etdirilir. Bu layihələrdən biri kimi, Bakı-Tbilisi-Qars yeni dəmir yolunun istismara verilməsi regionun inkişafına əhəmiyyətli təsir edir. Dövlət Neft Fondunun vəsaiti hesabına həyata keçirilən bu layihə Azərbaycanın regionda siyasi nüfuzunun güclənməsinə təkan verməklə, ölkəyə böyük mənfəət gətirəcək, respublikamızın Qərbə doğru inteqrasiyasına və Azərbaycan, Gürcüstan və Türkiyə respublikaları arasında mövcud olan siyasi və iqtisadi münasibətlərin inkişafına daha münbit şərait yaradacaqdır. "Dəmir İpək yolu" adlanan Bakı-Tbilisi-Qars yeni dəmir yolu regional əhəmiyyətə malik olmaqla bərabər, Asiya ilə Avropanı da birləşdirən bir nəqliyyat dəhlizinə çevrilir. Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən üç layihə - Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və Bakı-Tbilisi-Qars layihələri region dövlətlərinin çoxşaxəli münasibətlərini inkişaf etdirməklə bərabər, bu dövlətlərdə sabitliyin qorunmasında və iqtisadi inkişafın daha sürətlə getməsində mühüm əhəmiyyətə malikdirlər. Eyni zamanda Azərbaycanın iri beynəlxalq layihələrdə iştirakı, Böyük İpək Yolunun bərpası, TRASEKA-nəqliyyat dəhlizlərinin reallaşması və yaxın perspektiv Trans-Anadolu (TANAP) və Trans-Adriatik (TAP) boru kəmərlərinin çəkilişi layihəsində iştirakı da davamlı iqtisadi inkişafımızın nəticəsidir.

Hazırda ölkədə həyata keçirilən sosial-iqtisadi islahatların əsas istiqamətlərindən birini qeyri-neft sənaye sahəsinin inkişaf etdirilməsi təşkil edir. Belə ki, hökumət tərəfindən əsas siyasət sənədləri kimi icra edilən "Azərbaycan Respublikasının İqtisadi-Sosial İnkişaf Konsepsiyası və Proqnoz Göstəriciləri", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı", "Dövlət İnvestisiya Proqramı", "Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı", Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi, "Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" 18 yanvar 2016-cı il tarixli sərəncamı, "Qeyri-neft məhsullarının ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" 1 mart 2016-cı il tarixli sərəncamı və s. hüquqi sənədlər çərçivəsində sənayenin inkişaf etdirilməsi ilə bağlı məsələlər nəzərdə tutulmuşdur. Eyni zamanda "Azərbaycan-2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasınada qarşıya yaxın dövrdə ölkə iqtisadiyyatının neft və qaz ehtiyyatlarından asılılığını aradan qaldırmaq və iqtisadi artımı qeyri-neft sənaye sahələri hesabına təmin etmək məqsədi qoyulmuşdur. Konsepsiyada sənayenin innovasiyalar əsasında inkişafının təmin edilməsi, texnoparkların yaradılması sənayeləşmədə strateji layihələr kimi prioritet təşkil edir. Azərbaycanda texnoparkların yaradılmasının əsas məqsədi mövcud və yeni biliklərin, ixtiraların texnologiyalara və texnologiyaların kommersiya məhsuluna çevrilməsi prosesini təmin etmək və elmi-texniki tədqiqatlara çəkilən xərclərin səmərəliliyinin yüksəldilməsidir. Eyni zamanda buraya kiçik elmtutumlu müəssisələr vasitəsilə texnologiyaların sənaye sferasına ötürülməsi, elmi-texniki firmaların formalaşması və onların bazarda qərarlaşması, sənayenin strukturunun yenidənqurulması, regional qeyri-bərabər inkişaf səviyyəsinin azaldılması, məşğulluq probleminin həlli, yüksək texno-logiyalar sahəsində elmi-texniki nailiyyətlərin sürətli tətbiqi və s. məsələlər daxildir. Texnopark-

ların fəaliyyəti tamamilə innovasiya sahibkarlığı prinsipləri üzərində qurulur. Məhz innovasiyalar texnoparklarda az bir zaman ərzində rəqabətqabiliyyətli məhsulların yaradılması və onların beynəlxalq bazara çıxarılması üçün real şərait yaradır.

Təqdirəlayiq haldır ki, bugün ölkədə sənayenin modernləşdirilməsi və qeyri-neft sənayesinin şaxələndirilməsi məqsədi ilə zəruri tədbirlərin həyata keçirilməsi, mövcud imkanlardan istifadə etməklə ənənəvi sənaye sahələri ilə yanaşı, müasir texnologiyalara əsaslanan istehsal sahələrinin, sənaye parklarının formalaşdırılması prioritet məsələ kimi qarşıya qoyulur. Eyni zamanda Azərbaycan Respublikası prezidentinin 26 dekabr 2014-cü il tarixli sərəncamı ilə "Azərbaycanda Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi bir daha sənayenin inkişaf etdirilməsinin hökumətin iqtisadi siyasətinin əsas prioritetlərindən biri olduğunu göstərir. Ölkəmizdə reallaşdırılan sənaye siyasətinə uyğun olaraq, innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli istehsal sahələrinin inkişafına yeni təkan vermək, qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək və əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq məqsədi ilə sənaye və texnologiya parklarının yaradılmasına başlanılmışdır. Bu istiqamətdə Sumqayıt şəhərində Kimya Sənaye Parkı, Yüksək Texnologiyalar Parkı və Balaxanı Sənaye Parkının yaradılması yuxarıda qeyd olunan istiqamətdə həyata keçirilən ilk addımlardandır. Yaradılan sənaye və texnologiyalar parklarının uzunmüddətli perspektiv inkişafını stimullaşdırmaq məqsədilə ölkənin vergi qanunvericiliyində əhəmiyyətli güzəştlər tətbiq edilmişdir. Belə ki, yaradılmış sənaye və texnologiya parklarında sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxslər 7 il müddətinə gəlir vergisindən azad edilmişdir. Eyni zamanda parkların idarəedici təşkilatının və operatorunun mənfəətinin parkın infrastrukturunun tikintisinə və saxlanılmasına yönəldilən hissəsinin müddət qoyulmadan, sənaye və texnologiya parklarının rezidenti olan hüquqi şəxslərin fəaliyyətindən əldə etdikləri gəlirlər 7 il müddətinə mənfəət vergisindən azad edilməsi tətbiq edilmişdir. Sənaye və texnologiya parklarının infrastrukturunun və istehsal sahələrinin yaradılması məqsədilə idxal olunan texnoloji avadanlıq və qurğular ƏDV-dən, fiziki və hüquqi şəxslər əmlak və torpaq vergisindən azad olunmuşdur. Fikrimizcə, vergi tətbiqi sahəsində texnoparklarla əlaqədar edilmiş güzəştlər iqtisadiyyatın inkişafına müsbət təsir göstərəcək, bu sahəyə potensial investorların cəlb olunmasına, yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye məhsullarının istehsalına, yeni iş yerlərinin yaradılmasına daha geniş imkan verəcəkdir.

Qeyd etdiyimiz kimi, hazırda ölkəmizdə həyata keçirilən iqtisadi islahatların əsas prioriteti iqtisadiyyatın şaxələndirilməsi və xüsusilə rəqabətqabiliyyətli ixrac məhsulları istehsal edən sahələrin inkişaf etdirilməsidir. Davamlı iqtisadi inkişafı, o cümlədən qeyri-neft sənayesinin rəqabətqabiliyyətliliyinin yüksəldilməsini təmin etmək üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğun olardı:

- bütövlükdə iqtisadiyyatda azad və sağlam rəqabət prinsiplərinin inkişaf etdirilməsi,
- əmək məhsuldarlığının artırılması baxımından elmi tədqiqatların praktiki tətbiqinin dövlət tərəfindən stimullaşdırılması,

- yerli xammala əsaslanan ixrac yönümlü sənaye müəssisələrinə güzəştli və stimullaşdırıcı vergi və kredit dərəcələri tətbiqi dairəsinin daha da artırılmasını təmin etmək,
- elmi-texniki tərəqqini təmin edən dövlət və qeyri-dövlət institutlarının, müəssisələrinin yaradılması və onların qarşılıqlı tətbiqi,
- qeyri-neft sektorunda kiçik və orta sahibkarlıq təbəqəsinin formalaşmasına hərtərəfli dövlət dəstəyinin göstərilməsi,
- yeni dövrün çağırışlarına cavab verən menecer kadrlarının hazırlanması,
- innovasiya infrastrukturunun müasir tələblər səviyyəsinə çatdırılması,
- sənaye müəssisələrində düzgün və çevik marketinq fəaliyyətini tətbiq etmək,
- iqtisadiyyatın investisiya cəlbediciliyini artırmaqla xarici kapitalın istehsal sahibkarlığına yönəldilməsini təmin etmək.

İsgəndərova A.V.,
iqtisad elmləri üzrə fəlsəfə doktoru
Bakı Biznes Universiteti

AZƏRBAYCANDA YÜNGÜL VƏ YEYİNTİ SƏNAYE SAHƏLƏRİNİN POTENSİALINDAN İSTİFADƏNİN SƏMƏRƏLİLİYİNİN ARTIRILMASI PROBLEMLƏRİ

Son illərdə milli iqtisadiyyatın inkişaf perspektivlərinin modelləşdirilməsi və iqtisadi inkişaf modelinin strateji hədəflərinin müəyyənləşdirilməsi istiqamətlərində əhəmiyyətli addımlar atılmaqdadır. 2016-cı il 6 dekabr tarixli ölkə prezidentinin fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsində əksər iqtisadiyyat sahələrinin strateji inkişaf hədəfləri müəyyənləşdirilmişdir. Əlavə dəyər yaratmaq baxımından yüksək potensiala malik olan milli iqtisadiyyat sektorları sırasında yüngül və yeyinti sənayesi sahələrinin potensialı kifayət qədər böyükdür. Amma bu potensialdan istifadənin hazırkı səviyyəsi xeyli aşağıdır və buna görə də, həmin sahələrin potensialından istifadənin səmərəliliyinin artırılması problemlərinin həll edilməsi vacib məsələlərdəndir. Ölkə iqtisadiyyatının özünüinkişafetmə potensialından səmərəli istifadə olunması müasir dövrdə aktuallığı ilə diqqət çəkir. Ölkə sənayesi strukturunda mühüm əhəmiyyət kəsb edən yüngül və yeyinti sənayesi sahələrin inkişafı ilə bağlı bir sıra prioritet məsələlər Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020- ci illər üçün Dövlət Proqramında nəzərdə tutulmuşdur. Bu sırada sənaye sahələrinin inkişaf etdirilməsində ölkə prezidentinin 2013-cü il 24 aprel tarixli fərmanı ilə təsdiq edilmiş Sənaye Parkları haqqında Nümunəvi Əsasnamənin rolu böyükdür. Artıq ölkədə sənaye parklarının yaradılması prosesləri intensivləşməkdədir. Qeyd edək ki, yüngül sənayenin inkişafında əhəmiyyətli dəyişiklərə səbəb olacaq Mingəçevir Sənaye Parkının yaradılması prosesləri də diqqət çəkir. Bu sənaye parkında toxuculuq sənayesinin müasir emal infrastrukturu və müəssisələri yaradılacaqdır. Bundan əlavə, hazırda ölkəmizdə xüsusi iqtisadi zanaların yaradılması proseslərinə diqqət əhəmiyyətli səviyyədə artırılmışdır.

Bu sahədə mövcud qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə işçi qrupu fəaliyyət göstərir. Yaxın perspektivdə ölkəmizdə xüsusi iqtisadi zonalar institutunun genişləndirilməsi proqnozlaşdırılır. Bu tip zonaların köməyi ilə iqtisadiyyatın müxtəlif sahələrin, o cümlədən, yüngül və yeyinti sənaye sahələrinin inkişaf potensialının istifadənin modelləşdirilməsi, bu sahələrə xarici investisiyaları cəlbinin sürətləndirilməsi, milli iqtisadiyyatın inkişafının intensivləşdirilməsi üçün sənaye zonalarının və sənaye klasterlərinin yaradılması yüksək nəticələr verə bilər.

Qeyd edək ki, yüngül sənaye sahəsi sovetlər birliyi dövründə Azərbaycanda intensiv inkiaşf etdirilən sahələrdən olmuşdur. Həmin dövrdə, ölkəmizdə pambıq mahlıcı istehsalının güclü potensialı var idi və pambıq istehsalı xeyli yüksək idi. Digər tərəfdən, həmin dövrdə ölkədə çoxlu sayda pambıqtəmizləmə zavodları, yüngül sənaye müəssisələri – tikiş və toxuculuq fabrikləri, hazır geyim pabrikləri fəaliyyət göstərirdilər. Ümumiyyətlə, yüngül sənaye sahəsinin formalaşması və inkiaşf tarixi ölkəmizdə qədim tarixə malikdir. Belə ki, hələ XIII əsrdə Azərbaycanın müxtəlif bölgələrində və xanlıqlarında xalçaçılıq inkişaf etməkdə idi. XIX-XX əsrdə Azərbaycanda bir sıra toxucuqlu müəssisələr fəaliyyət göstərmişdir. Bunların sırasında parça və tikiş fabriklərinə rast gəlmək mümkün idi. 1913-cü ilin yekunlarına görə, Azərbaycanda 4 mlyn. ton yun, iyirmi iki min ton pambıq mahlıcı və üç yüz ton xam ipək emal üçün tədarük edilmişdir. Bütün bunlara baxmayaraq, Azərbaycan həmin dövrdə Rusiya imperiyasının xammal bazası kimi nəzərdə tutulurdu və əksər tədarük olunan yüngül sənaye xammalları Rusiyaya daşınırdı.

Keçmiş SSRİ dövründə də vəziyət bir o qədər dəyişilməmişdir. Amma bununla belə, respublikamızda bir sıra yüngül sənaye müəssisələri yaradılmışdır. Məsələn, 1925-ci ildə Gəncədə mahud fabriki, 1931-ci ildə isə Şəki şəhərində ipək kombinatı istifadəyə verilmişdir. Əsas yüngül sənaye müəssisələri 1970-1985-ci illərdə tikilib istifadəyə verilmişdir. Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Şirvan və digər şəhərlərdə toxuculuq və tikiş fabrikləri, həmçinin ayaqqabı istehsal edən müəssisələr istismara verilmişdir.

SSRİ-nin süqutundan sonra ölkəmizdə yüngül sənayenin inkiaşf ilə bağlı müstəqil iqtisadi siyasət yürüdülmüşdür. Lakin, müstəqilliyin ilk illərində yüngül sənaye müəssisələrinin əksəriyyəti fəaliyyətini dayandırmış, xammal bazasından məhrum olmuşlar. Ölkədə pambıq və digər texniki bitkilərin istehsalı minimum səviyyəyə düşmüşdür. Yüngül sənaye müəssisələrinin əsas fondlarının yenilənməsinə və inkişaf etdirilməsinə isə maliyyə vəsaitləri çatmırdı. Lakin, ölkəmizdə uğurlu neft strategiyasının reallaşdırılması və iqtisadi islahatların dərinləşdirilməsi ilə əlaqədar olaraq milli iqtisadiyyatın digər sahələri kimi, yüngül sənaye sahəsində də məqsədli tədbirlər həyata keçirilmişdir. Son 10 il ərzində bir-birinin ardınca müasir texnologiyalar əsaslı yüngül sənaye müəssisələri tikilib istismara verilmişdir. Ölkədə bu sahədə ixtisaslaşmış 170 yüngül sənaye müəssisəsi fəaliyyət göstərir, onlardan 35-i orta və iri yüngül sənaye müəssisələri statusundadır, qalan müəssisələr isə bir qayda olaraq kiçik biznes və sahibkarlıq subyektləri kimi çalışırlar. İri müəssisələr sırasında "Lalə-Tekstil" MMC tikiş fabriki (Yevlax), "Gilan-Dəri" MMC emalı fabriki, Lənkəran tikiş fabriki, Ağstafa tikiş fabriki, Şirvan pambıqtəmizləmə zavodu, "İntertekstil" ASC (Sumqayıt), İsmayıllıda tikiş fabriki, "Gilan" Tekstil Parkı (Sumqayıt) daha çox diqqət çəkirər.

Şəkil 1-də ölkəmzidə 2011-2016-cı illər ərzində yüngül sənaye sahələrində məhsul istehsalının həcmi göstəriciləri əks olunmuşdur.



Şəkil 1. Azərbaycanda 2011-2016-cı illərdə yüngül sənaye sahələrində məhsul istehsalının dinamikası, mlyn. manat (Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi nəşrləri üzrə müəllif tərəfindən hazırlanmışdır. http://www.azstat.org).

Şəkil 1-ə görə 2011-2016-cı illər ərzində ölkənin toxuculuq sektorunda məhsul istehsalın ümumi həcmi 80 % artmışdır. 2016-cı ildə bu sektorda məhsul istehsalının ümumi həcmi 94700 min manat olmuşdur. Ancaq qeyd etmək lazımdır ki, yüngül sənaye sahələrinin məhsul istehsalı göstəriciləri o qədər də yüksək deyildir və baxmayaraq ki bəzi fəaliyyət istiqamətləri üzrə artım dinamikası mövcuddur, ümumilikdə bu sənaye sektorunda məhsul istehsal göstəriciləri mövcud potensialı əks etdirmir.

Şəkil 2-də isə ölkəmizdə yüngül sənaye müəssisələrində mühüm xammal olan pambıq mahlıcından istehsal olunan pambıq parçaların istehsalının həcmi ifadə olunmuşdur.



Şəkil 2. Azərbaycanda 2011-2016-cı illər üzrə yüngül sənaye sahəsində hazır pambıq parçalar istehsalının dinamikası, min kv. m., (Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi nəşrləri üzrə müəllif tərəfindən hazırlanmışdır. http://www.azstat.org).

Şəkil 2-nin təhlilinə baxdıqda bu qənaətə gəlmək olar ki, ölkədə pambıq parçalar üzrə istehsalın həcmi artmaqda olan pambıq istehsalına uyğun deyildir. Bu baxımdan,

hesab edirik ki, pambıq mahlıcının emalı üzrə daha rəqabət qabiliyyətli müəssisələrin istismara verilməsi vacibdir. Artıq 2017-ci il ərzində 207 min tondan çox pambığın yığılması məlumdur, buna görə də pambıq mahlıcının emal potensialından səmərəli istifadə etməyə güclü imkanlar formalaşmışdır.

Şəkil 3-də isə ölkədə toxuculuq sənayesi müəssisələrinin mühüm xammalı olan pambıq mahlıcının istehsal həcmi barəsində 2010-2016-cı illərdə istehsalın həcmi verilmişdir.



Şəkil 3. Azərbaycanda 2010-2016-cı illərdə toxuculuq sənaye üçün əsas xammal olan pambıq mahlıcının istehsal dinamikası, min ton, (Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi nəşrləri üzrə müəllif tərəfindən hazırlanmışdır. http://www.azstat.org).

Şəkil 3-ün təhlilinə əsasən qeyd etmək mümkündür ki, hələlik əvvəldə bildirdiyimiz kimi pambıq mahlıcının istehsal səviyyəsi öz imkanlarından xeyli aşağı səviyyədədir.

Məlumdur ki, ipəkçilik yüngül sənaye sahəsi üçün mühüm xammal növlərindən biridir və ölkəmizdə qədim məşğuliyyət sahələrindəndir. Azərbyacan neçə yüz illər ərzində ipəkçiliyin inkişaf etdirilməsi sahəsində ixtisaslaşmış ölkələrdən biridir.

Şəkil 4-də ölkəmizdə 2010-2015-ci illərdə istehsal olunan hazır ipək parçaların istehsal həcmi verilmişdir.



Şəkil 4. Azərbaycanda 2010-2015-ci illər üzrə toxuculuq sənayesində hazır ipək parçalar istehsalının dinamikası, min kv. m., (Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi nəşrləri üzrə müəllif tərəfindən hazırlanmışdır. http://www.azstat.org).

Şəkil 4-də verilmiş məlumatlara görə ölkəmizin toxuculuq sənayesində ipək parça istehsalı son illərdə azalmışdır. Amma, hazırda baramaçılığın inkişafı məsələləri ölkəmizdə xeyli aktuallaşmışdır və bu sahədə dövlət dəstəyinin gücləndirilməsi diqqət çəkir. Baramaçılığın infrastrukturunun və maddi-texniki bazasının inkişaf etdirilməsi məsələlərinə yanaşmalar prioritetlik təşkil edir. Artıq ölkənin müxtəlif regionlarında baramaçılıqla məşğul olan təsərrüfatların və fiziki şəxslərin sayı çoxalmaqdadır.

Qeyd edək ki, yüngül sənaye sahəsi ilə yanaşı, yeyinti sənayesinin milli istehsalın strukturunda böyük əhəmiyyəti vardır. Bu sahənin inkişaf etdirilməsi ölkə əhalisinin qida və ərzaq təhlükəsizliyi ilə bir başa bağlıdır. Son illərdə, ölkəmizdə geniş çeşiddə ət və süd məhsulları, bitki yağları istehsalı təmin olunmaqdadır və bir sıra bitki yağlarının ixracı artmaqdadır. Ümumilikdə, yeyinti sənayesinin payı milli iqtisadiyyatda artım nümayiş etdirməkdədir. Şəkil 5-də ölkədə qida məhsulları istehsalının 2010-2016-cı illər üçün olan dinamikası öz əksini tapmışdır.



Şəkil 5. Azərbaycanda 2011-2016-cı illər üzrə yeyinti sənayesində qida məhsulları istehsalının dinamikası, mlyn. manat, (Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi nəşrləri üzrə müəllif tərəfindən hazırlanmışdır. http://www.azstat.org).

Şəkil 7-nin təhlili göstərir ki, ölkədə qida məhsulları istehsalına diqqət artırılmaqdadır və 2016-cı il ərzində istehsalın səviyyəsi 2015-ci illə nisbətdə 27,2 % artım nümayiş etdirmişdir. Bundan əlavə, ölkədə çörək və çörək-bulka məmulatlarının çeşidinin və istehsal həcminin artırılması üçün məqsədli tədbirlər görülməkdədir.

Yaxın illər ərzində Azərbaycanda yüngül və yeyinti sənaye sahələrinin potensialından istifadənin səmərəliliyinin artırılması üçün bir sıra tədbirlərin görülməsi zərurəti vardır:

− Azərbaycanda yüngül və yeyinti sənayesi sahələrinin əlavə dəyər yaratmaq imkanlarından səmərəli istefadə edilməsi tədbirləri görülməli və zəruri addımlar atılmalıdır;

− Yüngül və yeyinti sənayesi sahələrinin rəqabətqabiliyyətli müəssisələr şəbəkəsinin yaradılması və yüksək texnologiyalar əsasında onların inkişaf etdirilməsi təmin olunmalıdır;

− Yüngül və yeyinti sənayesi sahələrinin mövcud potensialından istifadənin səmərəliliyinin artırılması üzrə proqramlar hazırlanmalı və reallaşdırılması təmin edilməlidir və s.

Qəribov A.H., dosent
Bakı Biznes Universiteti

YENİ ƏSRİN MÜQAVİLƏSİ VƏ AZƏRBAYCANIN İXRAC SİYASƏTİNİN PRİORİTETLƏRİ

Azərbaycan Respublikasının siyasi-iqtisadi müstəqilliyinin xilaskarı ümummilli lider Heydər Əliyevin siyasi kursuna əsaslanaraq Prezident İlham Əliyevin yürütdüyü siyasət ilk növbədə, sosial iqtisadi inkişafın və regional siyasətin gücləndirilməsi, sahibkarlığa dövlət qayğısının artırılması, iş adamları üçün əlverişli şəraitin yaradılması, yeni iş yerlərinin açılması, inzibati idarəetmə strukturlarının təkmilləşdirilməsi və beynəlxalq standartlara çatdırılması kimi mühüm həlqələri əhatə etməklə dövlətçilik maraqlarına xidmət edən iqtisadi strategiyanın uğurla həyata keçirilməsinə zəmin yaradıb. Bu strategiyanın reallaşması ilə Azərbaycanın ixrac siyasəti bütövlükdə ölkənin iqtisadi təhlükəsizlik sisteminin əsas tərkib hissələrindən birinə çevrilməklə ilk növbədə rəqabət üstünlüklərinin formalaşması və inkişafına əsaslanmaqdadır.

"Əsrin müqaviləsi"nin uğurla reallaşdırılması ilə əsası qoyulmuş Azərbaycanın yeni neft strategiyası iqtisadiyyatın şaxələndirilməsi, xüsusən də qeyri-neft sektorunun inkişafı və ixracyönümlüyünün təmin edilməsi üçün əlverişli imkan yaratmışdır. 20 sentyabr 1994-cü il tarixdə dünyanın yeddi böyük dövlətinin doqquz şirkəti ilə imzalanan əsrin müqaviləsi dövlətimizin və xalqımızın böyük nailiyyəti olmaqla yanaşı Azərbaycan neft strategiyasının daha bir möhtəşəm uğur səhifəsini açmışdır. Bu müqavilə Xəzərin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" yataqlarının tam miqyaslı işlənməsini əhatə edir. Statistik məlumatlara diqqət yetirsək görərik ki, 1994-cü ildən 2010-cu ilə kimi iqtisadiyyatımızın inkişafına 54,4 milyard dollar məbləğində xarici investisiya cəlb edilmişdir. İnvestisiyaların 68,8 faizi iqtisadiyyata birbaşa investisiya şəklində yönəldilmiş, eyni zamanda, 33,1 milyard dollar və ya 60,9 faizi isə neft sənayesinin inkişafına sərf edilmişdir."Əsrin müqaviləsi" tezliklə real nəticələr verməyə başlamış və 1997-ci ilin noyabrında "Çıraq" platformasından ilkin neft alınmışdı. Verilən hesabatlara görə ilkin neftin hasilatına başlanıldığı andan 2013-cü ilin ortalarınadək "Azəri-Çıraq-Günəşli" yataqlar blokundan 308 milyon tondan artıq neft çıxarılmışdır. Bu göstərici 3,2 milyard barel (təqribən 440 milyon ton) təşkil edib və Müqavilə imzalanandan bəri Azərbaycan 125 milyard dollardan çox birbaşa mənfəət əldə edib. Beləliklə, AÇG-dən növbəti illərdə çıxarılacaq neftdən gələn gəlirlər ölkəmizin maddi imkanlarının genişləndirilməsinə daha bir təkan verəcək. Çünki AÇG potensialı böyük olan yataqlar blokudur. Hesablamalara görə, burada bir milyard ton neft ehtiyatı var. Deməli, imzalanan saziş - onu haqlı olaraq "Yeni əsrin müqaviləsi" adlandırırlar - 1994-cü ildə imzalanmış sazişdən daha böyük miqyaslıdır. Başqa sözlə, növbəti 32 il ərzində AÇG-nin ölkə-mizə gətirdiyi iqtisadi mənfəətlər maksimuma çatdırılacaq.

Yeni müqavilənin şərtləri Azərbaycanın və SOCAR-ın son 23 ildə artan maliyyə və texnoloji potensialını əks etdirməklə yanaşı, həm də xarici tərəfdaş şirkətlərin Azərbaycan iqtisadiyyatına olan inamını da göstərir. Yəni, ölkəmizin yaratdığı tərəfdaşlıq formatını yeni müstəviyə qaldırır. Tərəfdaşlıqdan söz düşmüşkən, yeni sazişdə AÇG-nin tərəfdaşları dəyişməyib. BP (30,37 faiz Böyük Britaniya) layihənin operatoru

olaraq qalır. SOCAR (Azərbaycan) layihədə AzAÇG şirkəti ilə təmsil olunur. Digərləri "Şevron" (9,57 faiz, ABŞ), "İnpeks" (9,31 faiz, Yaponiya), "Statoyl" (7,27 faiz, Norveç), "EksonMobil" (6,79 faiz, ABŞ), TP (5,73 faiz, Türkiyə), "İtoçu" (3,65 faiz, Yaponiya) və OVL (2,31 faiz, Hindistan) şirkətləridir. Sazişin bir hissəsi olaraq SOCAR-ın layihədəki iştirak payı əvvəlki 11,65 faizdən 25 faizə çatdırılıb.

Neft strategiyasının mühüm tərkib hissəsini xarici şirkətlərlə birlikdə hasil olunan neftin və qazın nəqlini və xarici bazarlara ixracını təmin edəcək çoxvariantlı boru nəqliyyat infrastrukturunun yaradılması təşkil edir. Neft strategiyasının həyata keçirilməsinin ilk illərində əvvəlcə Bakı-Novorossiysk və Bakı-Supsa boru kəmərləri yenidən quruldu, daha sonra neftin və qazın etibarlı və irimiqyaslı ixracını təmin etmək məqsədi ilə Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac və Bakı-Tbilisi – Ərzurum qaz ixrac boru kəmərləri tikilərək, istismara verildi. Bakı-Tiflis-Ceyhan və Bakı-Tbilisi – Ərzurum əsas ixrac boru kəmərlərinin fəaliyyət göstərməsi və bu kəmərlərlə neftin və qazın nəqlinin ildən-ilə genişlənməsi neft strategiyasının mühüm qələbəsidir.

Ötən illər ərzində neft və qaz ixracından əldə edilən gəlirlər hesabına Azərbaycanın iqtisadi imkanları xeyli artmış, ölkəmiz bir sıra regional layihələrin təşəbbüskarı və əsas iştirakçısına çevrilməklə müvafiq ixrac siyasəti formalaşdırmışdır. Təhlil göstərir ki, bazar iqtisadiyyatlı ölkələrdə ixrac siyasəti özündə aşağıdakıları əks etdirir:

1. İstehsal sahələrinin ixrac yönümlülüyünün təminatı;
2. İxracat yönümlü istehsalat sferaları üçün əlverişli şəraitin yaradılması;
3. Müxtəlif sahələrin məqsədyönlülüyünün qiymətləndirilməsi və idxalatda rəqabət apara bilməyən sahələrdə fəaliyyətin dayandırılması;
4. Gömrük mühafizəsi, maliyyə və fiskal istiqamətli stimullaşdırma.

Bazar iqtisadiyyatı şəraitində xarici ticarət siyasətinin real gerçəkliyə adekvatlılığının təminatında mühüm məsələlərdən biri də ixrac siyasətinin ümumiqtisadi inkişafın tələblərinə uyğunlaşdırılması problemidir. Belə ki, ixrac potensialının sabitqədəmli artımı növbəti mərhələdə investisiya siyasətinin həmin istiqamətdə təkmilləşdirilməsi zərurətini ortaya qoyacaqdır. Bu mənada, ixrac sferası investisiya siyasətinin prioritet istiqamətinə çevrilməklə ölkənin inkişaf səviyyəsindən asılı olmayaraq proteksionist tədbirlərin tətbiqi reallığını yaradacaqdır ki, bu da sonda beynəlxalq iqtisadi təşkilatlar, yaxud inkişaf etmiş ölkələr tərəfindən əks təsirlə qarşılaşacaqdır. Beləliklə, investisiya rejiminin liberallaşma dərəcəsindən asılı olmayaraq ölkəyə xarici investisiyaların axın intensivliyi aşağı düşəcəkdir. Onu da qeyd edək ki , bu situasiya Azərbaycan Respublikasında da analoji məzmun daşıyırdı. Yalnız makroiqtisadi sabitliyə nail olduq-dan sonra xarici ticarət əlaqələrinin dəyərcə həcminin artımı , onun coğrafiyasının genişlənməsi müşahidə olunur.

Statistikaya nəzər saldıqda 1998-2016-ci illərdə ölkənin ixracatının strukturunda nəzərə çarpan dəyişikliklər müşahidə olunur. Belə ki, 2016-ci ilin yekun məlumatlarına görə mineral yanacaq ixracı ümumi ixracın 88,9 %-ni təşkil etmişdir.1998-ci illə müqayisədə sözügedən mal qrupunun ixracatı 4,6 dəfə yüksəlmişdir. Ümumiyyətlə, bu dövr ərzində ölkənin idxal-ixrac əməliyyatlarında monostrukturlaşma meyli güclənməkdədir.

İxracın monostrukturlaşmasında əsas rolu neft və neft məhsulları tutur. 2013-cü ilə nisbətən 2014-cü ildə ixrac əməliyyatlarının həcmi 19.62% artmışdır. 2016-cı il

ərzində 174603 ədəd nəqliyyat vasitəsindən istifadə edilməklə 19240.7 min ton yük daşınmışdır. Bunlardan 12102.2 min tonu (42261 ədəd nəqliyyat vasitəsi) ixrac əməliyyatlarının payına düşür.

Qeyri-neft sektorunun məhsulları üzrə Azərbaycanın əsas satış bazarları Rusiya, Türkiyə, İran və Gürcüstandır. Bu illər ərzində xarici ticarət şəraiti əksər ərzaq malları üzrə geriləmiş və problemin kəskinləşməsinin əsas səbəbi neft və neft məhsullarının ixrac qiymətlərinin əhəmiyyətli dərəcədə artması olmuşdur. Belə ki, bu illər ərzində xam neftin ixrac qiyməti 2,4 dəfə, dizel yanacağı üzrə 70,6%, mazut üzrə 2,8 dəfə yüksəlmiş və sözügedən mal qrupunun ixracın əsas hissəsini təşkil etdiyinə görə qeyd olunan artımın ölkənin xarici ticarət siyasətinə güclü müsbət təsiri olmuşdur.

Qlobal maliyyə-iqtisadi böhranın davam etməsinə baxmayaraq, nüfuzlu beynəlxalq reytinq institutları ölkədə qazanılan nailiyyətləri yüksək qiymətləndirmişlər. Onlar Azərbaycanda iqtisadi və maliyyə siyasətinin düzgün aparıldığını, valyuta ehtiyyatlarının xarici borcu dəfələrlə üstələdiyini, neft gəlirlərindən səmərəli istifadə olunduğunu xüsusi vurğulamışlar.

Göründüyü kimi, "Əsrin müqaviləsi" ilə əsası qoyulan neft strategiyasının reallaşması çərçivəsində hasil olunan neftin dünya bazarına çıxarılması üçün ölkəmizdə son dərəcə etibarlı və geniş imkanlara malik ixrac sistemi mövcuddur. Bu da Azərbaycanın dünya arenasında etibarlı tərəfdaş kimi mövqeyinin ilbəil möhkəmlənməsinə imkan yaratmaqla yanaşı, ölkəmizin sosial-iqtisadi inkişafını daha da sürətləndirir.

Rüstəmov İ.S.,
iqtisad elmləri namizədi, dosent
Axundov V.C.,
iqtisad elmləri üzrə fəlsəfə doktoru
ADNSU

AZƏRBAYCAN İQTİSADİYYATININ DİVERSİFİKASİYASI İNNOVASİYALI DAVAMLI İQTİSADİ İNKİŞAFIN AMİLİ KİMİ

Müasir Azərbaycan iqtisadiyyatının qarşısında duran önəmli vəzifə-milli inkişafının məqsədlərinə əsaslanaraq iqtisadı strukturunu dəyişməkdir. İqtisadiyyat nəhayət ki, xammal xətli inkişafdan uzaqlaşmalıdır. Önümüzdəki onilliklərdə iqtisadiyyatımızın innovasiyalı olması ölkənin həyati məsələsidir. Sadəcə olaraq iqtisadiyyata investisiya qoymaqla məsələnin həllini gözləmək düzgün olmaz. Ölkədə rəqabət qabiliyyətini artıran biznesə stimul yaradan daxili iqtisadi mühit yaratmaq lazımdır ki, bu isə sonda innovasiyanın yaranmasına səbəb olacaqdır. Azərbaycan iqtisadiyyatı yüksək texnologiyalı, innovativ, elmi və ümumilikdə müasir olmalıdır.

Tərtib etdiyimiz cədvəldən göründüyü kimi, iqtisadiyyatın inkişafının əsas xüsusiyyətlərini ixrac sektorunda neft-qaz və xammal məhsullarının üstünlük təşkil etməsi və eləcə də, idxal olunan malların ümumi ticarətdə dominant mövqeyi ilə xarakterizə edilir.

Neft məhsullarının ümumu ixracdakı payı (%-lə)

Göstəricilər / İllər	1996	2001	2006	2011	2016
Dövriyyə (min ABŞ dollar)	1591881.8	3745313.5	511638909.0	36326867.0	17675727.3
İdxal (min ABŞ dollar)	960636.3	1431107.4	5266743.5	9755968.7	8532447.5
İxrac (min ABŞ dollar)	631245.5	2314206.4	6372165.0	26570898.3	9143279.8
neftməhsullarıixracı (min ABŞ dollar)	419113.8	2113594.5	5390286.0	25089288.6	7955834.8
Neft məhsullarının ümumu ixracdakı payı (%-lə)	**66,4**	**91,3**	**84,6**	**94,4**	**87,0**

Ölkənin neft və qaz sektorunun gəlirləri birbaşa neftin dünya bazarındakı qiymətindən asılıdır. Büdcənin neft və qazdan asılılığını azaltmaq üçün iqtisadi sistemin strukturunu tamamilə dəyişdirmək lazımdır. Bu vəziyyətdə iqtisadiyyatın rəqabət qabiliyyətini artırmaq, ölkənin, onun ayrı-ayrı bölgələrinin davamlı iqtisadi artımını təmin etmək və vətəndaşların rifahının artırılması məqsədilə Azərbaycan iqtisadiyyatında diversifikasiya və modernləşdirmək siyasəti aparılmalıdır.

Diversifikasiya ilə əmək məhsuldarlığı və istehsalın effektivliyi arasında birbaşa səbəb-nəticə əlaqələri mövcuddur. Diversifikasiya tədbirlərinin keçirilməsinin vasitəsilə müəssisələr əmək məhsuldarlığının yüksəltməyə və bunun nəticəsi olaraq öz fəaliyyətlərinin səmərəliliyinin yüksəldilməsinə nail olurlar. Diversifikasiya –innovasiya əsasında istehsalın təkmilləşdirilməsi yolu ilə istehsal faktorlarından səmərəli kompleks istifadə olunmasıdır.

İqtisadiyyatın innovasiyası və ya innovasiya aktivliyi səviyyəsi müxtəlif göstəricilərlə ölçülür ki,onlardan 4-ü ümumiləşdirici xarakter daşıyır:

1.UDM-də layihə və tədqiqat işlərinin çəkisi (inkişaf etmiş ölkələrdə 3%-ə qədər, inkişaf etməkdə olan ölkələrdə 1% -i nadir hallarda keçir);

2.Ümumi məhsulda innovasiyalı məhsulların çəkisi(innovator firmalar üçün inkişaf etmiş ölkələrdə 30% -40% minimal göstəricidir);

3.Yüksək texnoloji məhsulların ölkə ixraçındakı payı(30% yaxşı hesab olunur. Lakın sektorlar üzrə müxtəlif ola bilər);

4. İnnovasiyalı avadanlıqlardan istifadə səviyyəsi qöstəricisi.

İqtisadiyyatın innovasiya səviyyəsini xarakterizə edən ümumiləşdirici göstəricilərdən ilk üçlüyu əsasən statistik məlumatlar əsasında hesablanılır. İnnovasiyalı avadanlıqlardan istifadə səviyyəsi qöstəricisi isə istehsalın diversifikasiya prosesinin səviyyəsini istehsal fəaliyyətinin nətıcələri əsasında qiymətləndirməyə imkan verir. İnnovasiyalı avadanlıqlardan istifadə səviyyəsi göstəricisini aşağıdakı düstürla hesablanmasını təklif edirik:

$$İ_s=\frac{M_{n+1}}{M_n}\cdot 100\% .$$

Burada, $İ_s$– innovasiyalı qazıma avadanlıqlarından istifadə səviyyəsi,%-lə;

M_n – baza ilində baxılan istehsal sahəsi üzrə əmək məhsuldarlığı;

M_{n+1} – hesabat ilində baxılan istehsal sahəsi üzrə əmək məhsuldarlığı.

Azərbaycan iqtisadiyyatının modernləşdirilməsi, innovasiyalı inkişaf yolunun seçilməsi bu gün aktual problemdir. Bu məsələ keçid dövründə ən çox itkiyə məruz qalmış və dünya bazarında rəqabət qabiliyyətini itirmiş ölkə sənaye kompleksi müəssisələrinin təşkili və idarə olunması məsələlərinə yeni yanaşmalar tələb edir.

Ölkə sənaye müəssisələrinin geridə qalması üç əsas amilə bağlıdır: kadrların aşağı səviyyədə ixtisaslaşması; texnoloji prosesin geridə olması, köhnəlmış təşkilati struktur. Apardığımız hesablamalara görə Azərbaycan sənaye müəssisələrinin orta ölçüsü ABŞ və Avropa Birlıyindəki müəssisələrdən 15-20 dəfə kiçikdir. Ölkənin sənaye müəssisələrini yerli şirkətlər, sənətkarlıq, alət, təmir və digər istehsal və köməkçi sexlər təşkil edir. Sənaye müəssisələrinin tərkibində belə sexlərin olması əmək məhsuldarlığını aşağı salır və firmaların xarici bazarda deyil, daxili bazarda da rəqabət qabiliyyətini azaldır.

Təhlil göstərir ki, son onilliklərdə Bakıda 12 maşınqayırma zavodu, keçən əsrin ortalarında 127 mexaniki metal emalı müəssisələri fəaliyyət göstərirdi. Ölkənin neftmaşınqayırma avadanlıqları istehsal edən müəssisələrinin potensial imkanları vardir. Başqa şərtlər eyni olduqda istehsalın aşağı düşməsində başlıca səbəb həmin zavodların beynəlxalq standartlara (İSO-Beynəlxalq standartlaşdırma təşkilatı, SERTİKO-sertifikatlaşdırma üzrə fəaliyyət göstərən beynəlxalq təşkilatlar, APİ-Amerika Neft İnstitutu) uyğun olan məhsullar buraxılışını təmin etməmələridir. Məhz buna görə də, indiki mərhələdə neftmaşınqayırma müəssisələrinin qarşısında neft-qaz avadanlıqlarının istehsalının keyfiyyətinin artırılması, beynəlxalq sertifikatlarda təcəssüm olunan məhsullar buraxılması problemi kəskin şəkildə durur. Bu baxımdan həmin müəssisələrin dirçəldilməsi və modernləşdirilməsinə nail olmaq üçün lazımi investisiyaların yönəldilməsi təmin olunmalıdır. Respublikanın neftmaşınqayırma sənayesində geniş miqyaslı profil dəyişiklikləri aparmaq və yeni istehsal gücləri yaratmaq problemini xarici ölkələrlə birgə müəssisələr yaratmaq, onları xarici firmaların müasir texnoloji avadanlıqları ilə təchiz etmək, kadrları yenidən hazırlamaq və başqa bu kimi yollarla həll etmək olar.

Azərbaycan Respublikasının dünya iqtisadiyyatına inteqrasiyası, onun iqtisadi həyatındakı dirçəliş başqa şərtlərlə yanaşı, həm də ölkəmizin külli miqdarda (50-90 il mənimməsənilə bilinən ehtiyyatlar) neft-qaz ehtiyatlarına sahib olması ilə də şərtlənir. Bu sərvətlərdən daha səmərəli istifadə etməklə ölkə iqtisadiyyatının divervikasiyası milli inkişaf strategiyasının ən mühüm prioritetlərindən birini təşkil edir.

Yuxarıda qeyd olunanları nəzərə alsaq, sənayenin innovativ inkişaf yoluna keçməsi konsepsiyası əlavə dəyər yaradılması texnoloji zənciri üzrə fəaliyyət göstərən Azərbaycan sənayesi müəssisələrinin *dünya istehsal prosesinə* inteqrasiya və diversifikasiya olunmuş təsərrüfat strukturlarının yaradılması əsasında yenidən qurulmasını

əhatə etməlidir. İnteqrasiya olunmuş texnoloji zəncir müxtəlif sahibkarlara məxsus müəssisələr və təşkilatlar arasında uzunmüddətli müqavilələr və informasiya mübadiləsi əsasında qurulmalıdır və tədqiqat, hazırlıq, istehsal, satış, satışdan sonrakı xidmət mərhələlərini əhatə etməlidir. Şəbəkə idarəetmə rəqabətli bazar mexanizmindən fərqli olmalıdır və əməliyyat xərclərini azaldacaq, bazar dəyişikliklərinə çevik şəkildə uyğunlaşacaq, zəncirindəki iştirakçılar arasında iqtisadi fəaliyyət risklərini paylaşdıran yeni bir innovasiya sistemi yaratmalıdır.

Şirkətin müasir modeli, istehsalın qapalı bir dairəsindən digər firmaların daha çox aktivinin yerləşdiyi *dünya təsərrüfat sistemində* qlobal miqyasda geniş əməkdaşlığa zəruri keçidini nəzərdə tutur. Nəticədə müəssisələrdə əsas ixtisaslaşma inkişaf edir, köməkçi və xidmət prosesləri müstəqil və ya törəmə şirkətlərə - müqavilə iştirakçılarına ötürülür. Həmin şirkətlərlə münasibətlər çevik bazar müqavilələrinə və qarşılıqlı inama əsaslanmalıdır. Nəticədə diversifikasiya - məhsulların çeşidinin genişləndirilməsi üçün baza yaranır. Getdikcə bir-biri ilə rəqabət aparan və ya qeyri-kommersiya əməkdaşlıqları olan firmalar böyük innovasiya-investisiya və sosial layihələrin birgə həyata keçirilməsi baş verir.

Hazırda ölkə iqtisadiyyatının ixrac yönümlü sektorlarında böyük miqdarda investisiya yatırımı cəmləşdirilib və bu isə ölkənin iqtisadiyyatının diversifikasiya prosesini əhəmiyyətli dərəcədə çətinləşdirir. Ölkə iqtisadiyyatının müasir strukturunu müəyyən edən sahələrin inkişafına yönəlmiş kapital çatışmazlığı mövcuddur. Bununla yanaşı, Azərbaycan iqtisadiyyatının strukturunun təkmilləşdirilməsinii təmin etmək üçün bir sıra tədbirlərin həyata keçirilməsi zəruridir:

1. Bazarlarda rəqabətin qorunması;
2. İqtisadiyyata dövlətin müdaxiləsinin azaldılması;
3. İnnovativ sahələrin stimullaşdırılması ;
4. Ölkəyə investisiya cəlb edilməsi üçün əlverişli şəraitin yaradılması.

Bazar iqtisadiyyatı şəraitində diversifikasiyanın sürətləndirmək üçün dövlətin müdaxiləsi rəqabət mühitini pozmadan iqtisadiyyatı qeyri-neft sektorlarının sürətlə inkişafı yolu ilə mümkündür. Qeyri-xammal sənayesinin inkişafına əhəmiyyətli dərəcədə stimullaşdırıcı təsir göstərə biləcək əsas mexanizmlər kimi isə aşağı-dakıları göstərmək olar:

1. İcarə, vergi və gömrük mexanizmlərinin təkmilləşdirilməsi;
2. İxracı dəstək sisteminin yaradılması;
3. Kənd təsərrüfatı istehsalının inkişafı;
4. Kiçik biznesin dəstəklənməsi.

Nəhayət, diversifikasiya olunmuş yeni iqtisadiyyatın inkişafının dövlətə təsiri aşağıdakı müsbət dəyişikliklərdə ifadə olunur:

1. İqtisadiyyatın rəqabət qabiliyyətini artırmaq;
2. İnsan kapitalının yeni keyfiyyətini təmin etmək;
3. Vətəndaşların tələblərinə cavab verən effektiv dövlət idarəçiliyinin yaradılması;
4. Vətəndaş cəmiyyətinin inkişafı üçün bazanın yaradılması;

Əliyev Ə.İ., dosent
Azərbaycan Dövlət İqtisad Universiteti

CƏNUBİ QAFQAZ ÖLKƏLƏRİNİN İQTİSADİ ƏLAQƏLƏRİNDƏ AZƏRBAYCANIN ROLU VƏ PERSPEKTİVLƏRİ

"Mərkəzi Asiya, Xəzər dənizi və Qara dəniz regionlarının, Cənubi Qafqazın böyük potensialı vardır...regionda müşahidə olunan əsas meyl inteqrasiya və əməkdaşlıqdır".

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Cənubi Qafqaz regionuna dünya iqtisadi sisteminin bir hissəsi, dünya bazarının ərazi seqmenti, dünya iqtisadi məkanının mühüm regionu kimi baxmaq lazımdır. Dünya təsərrüfatının qloballaşdığı və inkişafın yeni xarakter aldığı müasir mərhələdə Cənubu Qafqaz regionunun iqtisadi potensialının kompleks dəyərləndirilməsi və onun hərəkətə gətirilməsinin prinsipial əhəmiyyəti vardır. Regionun təbii - istehsal şəraiti hər bir ölkənin iqtisadiyyatının bu və ya digər dərəcədə kompleksliyini şərtləndirmiş, ixtisaslaşmanın, mərkəzləşmənin nisbətən yüksək səviyyəsi inteqrasiya proseslərinin dərinləşməsinə obyektiv zəmin yaratmışdır.

Azərbaycanın yüksək enerji resurslarına və əlverişli geostrateji vəziyyətə malik olması ona Qərb, ilk növbədə ABŞ tərəfindən maraqın artmasına səbəb olmuşdur. Bununla yanaşı Azərbaycanın Qərbin starteji tərəfdaşı olan Türkiyəyə yaxın olması və əlverişli geostrateji mövqedə olması da mühüm rol oynamışdır. Ona görə də Cənubi Qafqaz ölkələri arasında Azərbaycana xüsusi önəm verilir. Deməli, Cənubi Qafqaz azad bazar qanunlarına, bazar münasibətlərinə və rəqabətə, həmçinin vətəndaş cəmiyyətinin formalaşması ilə bağlı proseslərə əsaslanan yeni iqtisadi və sosial münasibətlərin aydın şəkildə inkişafı nəzərə çarpan bir regiondur.

Cənubi Qafqaz dövlətlərinin iqtisadiyyatları arasında Azərbaycan iqtisadiyyatının çəkisi yüksəkdir və daha dinamik inkişaf edir. Respublikanın regionda lider mövqeyinin təmin olunmasının və güclü iqtisadiyyatının formalaşdırılmasının çoxsaylı səbəbləri (zəngin təbii sərvətin olması, kompleks və uğurlu iqtisadi islahatlar, neft və qaz ehtiyyatlarının planauyğun istismarı, xammal resurslarının ixracının həcminin dünya konyunkturasının xüsusiyyətləri ilə çevik uzlaşdırılması və s.) vardır.

Azərbaycanın əsas makroiqtisadi göstəricilərinin dinamikasındakı davamlı artım hətta istənilən dünya maliyyə-iqtisadi təlatümlərin təsirini nəzərə almaqla belə, müasir mərhələdə və perspektivdə milli iqtisadiyyatın dayanıqlı inkişafı, regional iqtisadi əməkdaşlığın aparıcı və strateji ölkəsi statusu üçün əhəmiyyətli ehtiyyatlara malik olduğunu göstərir. Bununla yanaşı 2016-cı ildə Qlobal Rəqabətqabliyyətlilik İndeksinə görə Azərbaycan 2015-ci illə müqayisədə 2 pillə irəliləyərək 35-ci pillədə qərarlaşmışdır. Bu isə Azərbaycanın regionun ən rəqabətli iqtisadiyyatına, investorlar üçün əlverişli biznes mühitinə malik olduğunu, ölkə iqtisadiyyatında aparılan islahatların kompleks xarakter daşıdığını, həmçinin keyfiyyət amillərinə əsaslanan səmərəli iqtisadi inkişaf imkanlarının mövcudluğunu göstərir.

Cənubi Qafqaz ölkələri əhəmiyyətli tranzit potensialına malikdir. Tranzit daşımaların inkişafı, ondan gəlir əldə edilməsi və tranzit xərclərinin azaldılması üçün müvafiq institutlar və müasir nəqliyyat vasitələri şəklində əlverişli nəqliyyat-loqistika şəraitinin olması zəruridir. Yeni beynəlxalq əlaqələrin ortaya çıxması Cənubi Qafqaz məkanının transformasiyasının mühüm istiqamətlərindən biri olmuşdur.

Azərbaycanın tranzit potensialı daha çox Şimaldan Rusiya, Cənubdan İran və Qərbdən Türkiyə kimi böyük ölkələrlə qonşu olması ilə müəyyən olunur. Gürcüstan böyük tranzit potensiala malikdir ki, bu da onun Qara dənizdəki vəziyyəti, Azərbaycan, Ermənistan, Rusiya və Türkiyə kimi dövlətlərlə qonşuluğu ilə şərtlənir. Onun ərazisi vasitəsilə Xəzər karbohidrogenləri Türkiyəyə və Avropaya, həmçinin Rusiya qazı Ermənistana tranzit edilir. Ermənistanın tranzit potensialının inkişafını Azərbaycan torpaqlarının işğal etməsi ilə əlaqədar olaraq faktiki müharibə vəziyyətində olması, dənizə çıxışının olmaması ləngidir. Cənubi Qafqaz ölkələrindən Gürcüstan özünün tranzit potensialından daha çox (nəqliyyat xidmətlərinin ixracı ÜDM-də 5-6%-i təşkil edir) istifadə edir. Azərbaycan və Ermənistanda bu göstərici 1-2% təşkil edir ki, bu daha çox Azərbaycan iqtisadiyyatın iri miqyasda olması, Ermənistanın isə bu prosesdən kənarda qalması ilə izah edilir..

Region ölkələri ticarət-loqistika mühitinin və sərhəd buraxılış məntəqə sisteminin inkişafı sahəsində xeyli geri qalır. 2010-cu ildə loqistikanın səmərəliliyi üzrə Dünya Bankının reytinqində (LPI indeksi) nisbətən yüksək mövqe Azərbaycan tutmuşdur (dünyanın 155 ölkəsi arasında 89 - cu yer). Müvafiq olaraq Gürcüstan 93-cü, Ermənistan 111-ci yerdə qərarlaşmışdır. 2016-cı ilin nəticələrinə görə Ermənistan 141-ci, Gürcüstan 130-cu yerdə mövqe tutmuşdu**.** Regionda əsas problemləri gömrük və sərhəd nəzarətinin səmərəliliyinin, loqistika xidmətinin etibarlılığının və keyfiyyətinin aşağı olmasıdır.

Beləliklə, son dövrlərdə Azərbaycanın neft - qaz sənayesinin güclü inkişafı və kompleks iqtisadi islahatlar Cənubi Qafqazda onun iqtisadi çəkisin kəskin artırmışdır. Bununla əlaqədar olaraq regionun sosial-iqtisadi differensasiyası artmışdır. Azərbaycanda neft və qaz hasilatının artımı beynəlxalq boru kəməri şəbəkəsinin yaradılması, həmçinin digər nəqliyyat növlərinin inkişafı Azərbaycanın və Gürcüstanın tranzit funksiyasını kəskin genişləndirmişdir. Yaradılmış və yaradılmaqda olan əlaqələr qarşılıqlı ticarətin inkişafına imkan verir. Cənubi Qafqaz məkanında milli iqtisadiyyatların qarşılıqlı əlaqələrinin olduqca yüksək səviyyəsini xarakterizə edən iki məkan - Azərbaycan-Gürcüstan və Gürcüstan-Ermənistan, həmçinin Azərbaycan, Gürcüstan və Türkiyə tərkibində inteqrasiya birlikləri formalaşmışdır.

Azərbaycanın dünyada imicini göstərən əsas kriteriyalar onun sabit ölkə, etibarlı enerji təchizatçısı və olduqca geniş tranzit imkanları, əlverişli coğrafi vəziyyət, kosmik sənayeyə, Cənubi Qafqazın ən inkişaf etmiş iqtisadiyyatına malik olması və iqtisadiyyatının sürətlə inkişaf etməsidir. 2013-cü ilin aprelin 7-8-də "Cənubi Qafqaz və Mərkəzi Asiyanın gələcəyi barədə strateji dialoq" mövzusunda Davos İqtisadi Forumunun Bakıda keçirilməsi heç də təsadüfi deyildir. Bu forumu təşkil etməklə ölkəmiz sadəcə regionun iqtisadi cəhətdən aparıcı ölkə olduğunu beynəlxalq arenada təsdiq etdirmədi, eyni zamanda, Azərbaycanın Cənubi Qafqaz ilə Orta Asiya inteqrasiyasında həlledici ölkə olduğunu göstərdi. Eyni zamanda 2017-ci ilin sentyabrın 14-də Bakıda, Heydər Əliyev Mərkəzində Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq"

yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında müqavilənin müddətinin 2050-ci ilə qədər uzadılması yaxın onilliklərdə ölkənin və regionun iqtisadi inkişafında öz rolunu oynayacaqdır.

Nəhayət, Azərbaycanın sosial və iqtisadi sahələrdə böyük inkişafa nail olunduğunu, qlobal enerji bazarında mühüm rol oynadığını, beynəlxalq bazarlarda etibarlı neft və qaz təchizatçısı kimi dünyanın bir çox ölkələri üçün enerji təhlükəsizliyinin təminatçısı olduğunu, Azərbaycanın öz beynəlxalq tərəfdaşları ilə birlikdə dünyanın ən iri infrastruktur layihələrindən biri olan “Cənub Qaz Dəhlizi” layihəsinin başa çatdırılmasında, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinə böyük sərmayələr yatırmaqda israrlı olduğunu, 2017-ci il sentyabrın 20-də Ölkə Prezidentinin BMT-nin Baş Assambleyasının 72-ci sessiyasında bəyan etməsi Ölkəmizin Cənubi Qafqaz regionunda iqtisadi cəhətdən qüdrətli və siyasi cəhətdən isə böyük nüfuz sahibi olduğunu, regionun təbii sərvətlər, nəqliyyat, infrastruktur, kənd təsərrüfatı, mədən-çıxarma, telekommunikasiya və maliyyə sektorlarının, regional iqtisadi əlaqələrin inkişafı sahəsində gələcək strateji planlamada, regionlaşma səviyyəsinin yüksəlməsində Azərbaycanın mühüm rol oynayacağını bir daha sübut edir.

Kochlamazashvili Lela,
Professor of Georgian Technical University
Business Engineering Faculty,
Kandashvili Teimuraz
Professor of Georgian Technical University
Business Engineering Faculty,
Kandashvili Sandro
Doctor of Business Administration

SOME ASPECTS OF BANKING SERVICE DEVELOPMENT

With more or less intensity, all physical and legal persons have a touch with financial institutions. This relationship plays a significant role in developed countries, but it is similar to the developing and transition countries. The fact is that banks are the main agents that provide borrowers and depositors. They facilitate the movement of capital and play an important role in the economy because they share resources in different sectors of economy. The government is also in charge of financial policy for regulation of the economy and banking system.

Successful activity and competitiveness of the commercial bank is determined not by price factors but qualitative characteristics, including banking service quality. The quality of service is seriously affecting the competitiveness of the bank, and it is about its income and profit stability.

Customer loyalty towards the Bank and its products stabilizes the stable volume of sales, which in turn is a strategic indicator of the bank's success. Customer loyalty depends on the positive attitude of the customers to the bank's activities: banking

services, personnel, image, bank information, advertising addresses, symbols and more.

Georgia has undergone significant economic and political transformation over the last two decades. From the state-controlled economic system, the country has moved into a free market economy system, Georgia has implemented extensive economic and financial reforms to stabilize the general economic situation and to create the driving market forces.

The activity of modern banks is difficult in modern conditions, due to the increased competition and economic crises. The banks are faced with the task of ensuring financial sustainability. For this purpose, the appropriate strategy and management of the bank should be developed. Considering the modern reality, ensuring the level of strategies and management is a complex task. This is impossible without the completion and modernization of banking operations and services.

In order to better understand the quality of service in banks, the internet survey was conducted through a 6-question questionnaire, which should show the customer satisfaction level of banking services, with 156 respondents participating.

Based on the results of the survey of consumers, the following main points can be identified:

The first and most important is the declaration of priority of service quality by management. In order to enable the bank to offer high quality service and to improve the quality of existing services, management must agree on its priority.

The next issue concerns the development of the delegation system. It provides a significant reduction in customer service time.

Development and implementation of the service standards of the procedures: Here are three stages - processing, deployment and development. In some banking establishments standards are developed, but you cannot get it or not.

It often happens that the employees involved in the process (or their supervisors) who are guided by these standards do not participate in their development process.

Establishing recruitment process (policy) of customer service personnel is very important in the service business, including in the banking sector.

Service quality, the existing processes and the environment, determines the factor of the staff - their qualifications, the appearance of the intellect, the level of intelligence, the ability to speak.

As for the banking structure of Georgia, it has a great historical past and has some potential. I think only one country example is unusable, especially if Georgia does not belong to the developed and powerful countries that could independently develop the banking sector.

That's why we consider the new standards to be more experienced and strong in the example of strong countries. Successful innovative actions in Georgia could have contributed to its development. Depending on the above mentioned, the banking sector of Georgia has a great potential, the proper use of which depends on close cooperation and sharing experience with other countries.

Fərhadi P.O.,
iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
Bakı Biznes Universiteti

AZƏRBAYCANIN SOSİAL-İQTİSADİ İNKİŞAF SİYASƏTİNİN PRİORİTET İSTİQAMƏTLƏRİ

Son illər sosial-iqtisadi inkişaf sahəsində əldə edilmiş uğurlar, "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası çərçivəsində görülən işlər hamıya məlumdur. Qeyd edilmişdir ki, Azərbaycan son 10 ildə böyük inkişaf yolu keçmiş, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan milli iqtisadiyyatımız Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində yeni mərhələyə qədəm qoymuşdur. Ölkəmizdə beynəlxalq sosial-iqtisadi çağırışlara cavab verən rəqabətqabiliyyətli, ixracyönümlü, çoxşaxəli və innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılması sahəsində mühüm işlər görülmüşdür. Dünyada və regionda müşahidə edilən mənfi iqtisadi meyllərə baxmayaraq, Azərbaycanda dövlət proqramları, layihələr tam həcmdə icra olunur, sahibkarlığa dövlət dəstəyi və s. tədbirlər uğurla davam etdirilir.

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının icrasının bazis ili ilə müqayisədə 2013-cü ildə ÜDM 5,8%, qeyri-neft sektoru 10%, strateji valyuta ehtiyyatları 8,7%, qeyri-neft ixracı 5,9%, orta aylıq əməkhaqqı 6,8%, əhalinin gəlirləri 8%, o cümlədən minimum əməkhaqqı 12,3% artmışdır. 2017-ci ilin 11 ayı ərzində ötən ilin müvafiq dövrü ilə müqayisədə ÜDM 2,2%, qeyri-neft sektoru 6,5%, o cümlədən qeyri-neft sənayesi 6,6%, rabitə 14,2%, tikinti 8,6%, turizm 16,8% artmışdır.

Onu da qeyd edək ki, Azərbaycan dünyada 40 ən rəqabətqabiliyyətli iqtisadiyyata malik ölkələr sırasına daxildir və son 6 ildə MDB dövlətləri arasında liderdir. İqtisadiyyatın diversifikasiyası, qeyri-neft sektorunun dinamik inkişafının təmin edilməsi, rəqabətqabiliyyətliyin artırılması və bu sahəyə investisiya qoyuluşlarının sürətləndirilməsi Azərbaycanın sosial-iqtisadi inkişaf strateqiyasının prioritet istiqamətlərindəndir. Regionlarda yerli xammala əsaslanan sənaye müəssisələrinin fəaliyyətinin keyfiyyətcə müasir səviyyədə qurulması və yeni müəssisələrin yaradılması İnkişaf Konsepsiyasının hədəflərinə nail olmaq baxımından əhəmiyyətlidir. Yaradılmış əlverişli biznes və investisiya mühiti, sürətlə artan investisiyalar, sahibkarlığın inkişafına dövlət dəstəyi tədbirləri, xarici ticarət proseduralarının sadələşdirilməsi yaxın gələcəkdə qeyri-neft ixracının daha böyük templərlə artmasını təmin edəcəkdir.

Onu da qeyd edək ki, dövlət başçısı cənab İlham Əliyev tərəfindən 2014-cü ilin "Sənaye ili" elan edilməsinin ölkəmizin sənaye potensialından səmərəli istifadə olunması üçün geniş imkanlar yaratdığını, yeni sənaye parklarının, müəssisə, kompleksləri və həmçinin, regionlarda sənaye məhəllələrinin, aqroparkların yaradılması işlərinin davam etdirilməsi dövlət siyasətinin bariz nümunəsidir.

Ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə son zamanlar aqrar sahənin inkişafı istiqamətində həyata keçirilən tədbirlər Azərbaycan cəmiyyətinin gözü qarşısındadır. Qəbul olunan qərar və sərəncamlar, hüquqi və fiziki şəxslərə verilən texnikaların ilkin dəyərinə 40 faiz güzəştin tətbiq edilməsi, gübrələrin, o cümlədən Avropanın ən inkişaf etmiş ölkələrinin texnika və texnoloji avadanlıqlarının ölkəmizə gətirilərək fermerlərə

güzəştli şərtlərlə verilməsi, həmçinin aqrar sahədə reallaşdırılan institusional islahatlar bu sahənin inkişafına təkan verir.

Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi və respublikanın aparıcı aqrar institutları tərəfindən 2020-ci ilə qədər Azərbaycanın kənd təsərrüfatının maşın-texnoloji modernləşmənin strategiyası işlənib hazırlanmışdır. Adı çəkilən bu strategiyada ehtiva olunan bitkiçilik, heyvandarlıq və kənd təsərrüfatının digər sahələrində modernləşmənin əsas istiqamətləri, prinsip və mərhələləri kənd təsərüfatının maşın-texnoloji resurslarının və onların istifadə olunmasının təhlili əsasında hazırlanmışdır.

Fikrimizcə, kənd təsərrüfatının maşın-texnoloji modernləşməsi istiqamətində həyata keçirilən dövlət siyasəti həm aqrar-sənaye kompleksinin zəruri texnika ilə təchiz olunma məsələlərini, həm də onun yerli istehsalının inkişafı məsələlərini ehtiva etməli və aşağıdakı istiqamətlər üzrə həyata keçirilməlidir:

- kənd təsərrüfatı maşınqayırma və yeyinti sənayesində istifadə olunan avadanlıqların kompleks modernləşməsini təmin edən dövlət məqsədli proqramın işlənib hazırlanması;

- istismarda olmuş texnikanın idxalının məhdudlaşdırılması, kənd təsərrüfatında fəaliyyət göstərən əmtəə istehsalçılarının kredit və lizinq proqramlarına əlçatanlığının genişləndirilməsi, yeni, xüsusən də resurslara qənaət edən texnikaya tələbin stimullaşdırılması.

Ərzaq təhlükəsizliyi dövlətin iqtisadi təhlükəsizliyinin ən mühüm və aparıcı tərkib elementlərindən biri olub, dövlətin strateji prioritetlərinin təmin olunmasında özünəməxsus rola malikdir. Əhalinin ərzaq təminatı probleminin kəskinləşməsi transformasiya yönümlü dəyişikliklərdən də bilavasitə asılıdır. İ.Y. Boqdanovun fikrincə sosial-iqtisadi dəyişikliklər də ərzaq təminatında problemlər yaradır ki, bu da dövlətin daxili təhlükəsizliyinə mənfi təsir göstərir.

Məhsulun rəqabətqabiliyyətliliyinin mühüm amili qismində onun keyfiyyəti çıxış edir. Ərzaq məhsullarının təhlükəsizliyinin və keyfiyyətinin təmin edilməsi məqsədilə kənd təsərrüfatı məhsulunun və ərzaq məmulatlarının, o cümlədən idxal üzrə daxil olan, eləcə də istehsalın, saxlanılmanın, nəql edilmənin, emalın və satışının bütün mərhələlərində Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğunluğu ilə bağlı tədbirlər görülür və görülməlidir. Bununla əlaqədar olaraq, yeyinti məhsullarının təhlükəsizliyi və keyfiyyəti üzərində nəzarətin təşkil edilməsi sistemini təkmilləşdirmək lazımdır. Bura həmçinin müasir instrumental və metodiki bazanın yaradılması da daxildir.

Kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və xidmət sahələri ilə məşğul olan təsərrüfatların gələcək inkişafı, onların rentabelli işləmələri, dünyada və ölkəmizdə mövcud olan elmi nailiyyətləri, qabaqcıl təcrübə, məhsuldar bitki sortları və heyvan cinsləri, texnika və texnoloji avadanlıqların daha səmərəli tətbiqi, onların ortaq problemlərinin həllinin asanlaşması, səmərəli fəaliyyət göstərmələri üçün pay torpaqları əsasında formalaşmış kiçik ölçülü təsərrüfatların könüllülük əsasında kooperasiyalarda birləşməsi istiqamətində maarifləndirmə işləri aparılmışdır.

2014-2018-ci illərdə Hazırki dövrdə aqrar bölmənin inkişafının dövlət tənzimlənməsinin iqtisadi mexanizminin işlənib hazırlanması və reallaşdırılması ölkənin ayrı-ayrı regionlarının inkişaf baxışında da çox əhəmiyyətlidir. Bu “2014-2018-ci illərdə

Azərbaycan Respublikası regionlarının sosial iqtisadi inkişafı Dövlət Proqramı”nda nəzərdə tutulan tədbirlərinin icrası üçün daha əlverişli şərait yarada bilər.

Həyata keçirilən bu tədbirlərin əsas məqsədi ölkədə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsinə, makroiqtisadi sabitliyin qorunub saxlanmasına, davamlı sosial-iqtisadi inkişafa və əhalinin gəlirlərinin artırılmasına nail olmaqdan ibarətdir.

Ərzaq təhlükəsizliyi problemi mürəkkəb bir sistem olmaqla onun həlli bir-biri ilə əlaqəli və geniş əhatəyə malik məsələlərin nəzərə alınmasını, ona elmi nöqteyi-nəzərdən yanaşılmasını tələb edir. XX əsrin sonlarından etibarən ərzaq təhlükəsizliyi daha çox qlobal anlam daşıdığından bir sıra beynəlxalq təşkilatlar dünyada mövcud olan ərzaq ehtiyatlarını araşdırır, onları proqnozlaşdırır və müxtəlif dövlətlərin hökumət orqanlarını mövcud problemlə bağlı zəruri informasiyalarla təmin edirlər. Bu isə onunla bağlıdır ki, ölkələrdəki mövcud olan ehtiyyatlar ildən - ilə əhəmiyyətli dərəcədə azalır. Ölkənin ərzaq təhlükəsizliyi çoxsaylı destruktiv tendensiyaların, o cümlədən təbii fəlakətlərin təsirinə məruz qalır.

Azərbaycanda kənd təsərrüfatı məhsulunun rəqabətqabiliyyətlilik problemi son 10-15 il ərzində, hər şeydən əvvəl məhz daxili bazarda özünü daha kəskin surətdə büruzə vermişdir. Bunu ötən əsrin 90-cı illərində iqtisadiyyatda yaranmış böhran vəziyyətinin törəməsi kimi, o cümlədən iqtisadiyyatın daha zərif sektorunda – aqrar sahədəki törəməsi kimi dəyərləndirmək lazımdır.

Bazar mexanizmlərinin və rəqabətin gücləndirilməsi istiqamətində spesifik xüsusiyyətli iqtisadi münasibətlər sistemi kimi iqtisadiyyatın aqrar sektorunda aparılmış islahatlar bu sahədə bir sıra müsbət halların meydana gəlməsinə səbəb olmuşdur. Dövlətin aqrar sahəyə dəstəyi, yeni şəraitdə həyata keçirilən kənd təsərrüfatı siyasəti yerli istehsalın effektivliyinin yüksəldilməsi hesabına onun rəqabətqabiliyyətliliyini təmin etmişdi. Həm də bir sıra xarici və daxili amillərlə, o cümlədən əhalinin ərzaq məhsullarına olan tələbatını qismən olsa da təmin etmişdir.

Aqrar siyasətin mühüm vəzifələrindən biri ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsindən ibarətdir. İnkişaf edən dövlətlərdə ödəmə qabiliyyətli tələbin əhəmiyyətli dərəcədə artımı, inkişaf etmiş ölkələrdə bioenergetikanın intensiv inkişafı, ərzaq məhsullarının dünya ehtiyyatının səviyyəsində azalmaların müşahidə olunması, habelə dünya maliyyə və iqtisadi böhranının inkişafda olması kimi xarici amillərin ərzaq təhlükəsizliyinin təmin edilməsinə göstərdiyi təsir güclənir.

Beləliklə, Azərbaycanda normal ərzaq bazarının formalaşdırılması baxımından kənd təsərrüfatının mövcud potensialından tam və səmərəli istifadə etməklə yanaşı, kənd təsərrüfatı məhsullarının emal sənayesi də inkişaf etdirilməlidir.

Ərzaq bazarında sabitliyin yaranması kənd təsərrüfatında sahibkarlıq qurumlarının rastlaşdıqları problemlərin aradan qaldırılmasından bilavasitə asılıdır. Bu baxımdan professor İ.H.İbrahimovun araşdırmalarında belə bir fikir xüsusilə vurğulanır ki, sahibkarlar istehsalı təşkil etməkdə bir çox problemlərlə qarşılaşırlar.

Bir çox sahibkarlar bazar münasibətlərinə uyğun bilik və vərdişlərinin olmaması səbəbindən təsərrüfat fəaliyyətinin planlaşdırılmasında, marketinqin təşkilində, sahibkarlıq fəaliyyətinin idarə edilməsində çətinlik çəkirlər.

Məhz yuxarıda adı çəkilən problemin aradan qaldırılması ərzaq bazarının və bütövlükdə aqrar-ərzaq kompleksinin iqtisadi vasitələrlə tənzimlənməsi zərurətini yaratmışdır.

Ölkə iqtisadiyyatının, xüsusən də aqrar bazarının fəaliyyət göstərdiyi bir şəraitində rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsulunun bazar münasibətləri əsasında istehsalı ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasında son dərəcə mühüm şərtdir.

Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi doktrinasının layihəsnə uyğun olaraq, bu məfhum ölkə iqtisadiyyatının belə bir vəziyyətini nəzərdə tutur ki, bu zaman Azərbaycanın ərzaq müstəqilliyi təmin edilmiş olsun, ölkə əhalisi üçün qida məhsullarının fiziki və iqtisadi əlçatanlığına zəmanət verilsin, eyni zamanda, qeyd olunan əlçatanlıq texniki tənzimləmə, eləcə də ərzaq məhsullarının təhlükəsizliyinin və keyfiyyətinin təminatı sahəsində Azərbaycan Respublikasının qanunvericiliyi tərəfindən irəli sürülən tələblərə fəal və sağlam həyat tərzi üçün zəruri olan əsas qida məhsullarının səmərəli istehlak normalarından az olmayan həcmdə cavab verməlidir.

Müvafiq ərzaq məhsullarının daxili bazarının ümumi əmtəə resursları həcmində yerli kənd təsərrüfatı məhsulunun və ərzaq məmulatlarının xüsusi çəkisi aşağıdakı kimi olmalıdır:

- taxıla aid - 95 faizdən az olmamaq şərtilə;
- şəkərə aid – 80 faizdən az olmamaq şərtilə;
- bitki yağına aid– 80 faizdən az olmamaq şərtilə;
- ət və ət məhsullarına aid (ətə hesablandıqda) – 85 faizdən az olmamaq şərtilə;
- süd və süd məhsullarına aid (südə hesablandıqda) – 90 faizdən az olmamaq şərtilə;
- balıq məhsuluna aid – 80 faizdən az olmamaq şərtilə;
- kartofa aid – 95 faizdən az olmamaq şərtilə;
- xörək duzuna aid – 85 faizdən az olmamaq şərtilə.

Bu səbəbdən daxili bazarı keyfiyyətli yerli istehsalı olan əmtəələrlə lazımi həcmdə tam təmin etmək üçün bu məqsədə nail olunmasına xidmət göstərən işlənilmiş mexanizm olmalıdır.

Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi doktrinasının layihəsinə uyğun olaraq, ərzaq təhlükəsizliyinin xidmət edən mexanizm ölkə iqtisadiyyatının və onun ayrı-ayrı sahələrinin fəaliyyət göstərməsi şərtlərini müəyyənləşdirən müvafiq normativ hüququ aktlarda təyin edilir, Azərbaycan Respublikasının dövlət büdcəsinin maliyyə resursları ilə təmin olunur.

Bu müddəa ərzaq təhlükəsizliyinin dotasiya mexanizmini o halda təsbit edir ki, nə zaman ölkənin ərzaq məhsullarının ayrı-ayrı növlərilə özünü təmin etmək qabiliyyəti dövlət tənzimlənməsi və maliyyələşdirilməsi hesabına formalaşdırılır. Mülahizələrimizə görə, bu doğru olmayan bir yanaşmadır. Dayanıqlı əsas üzərində ərzaq təhlükəsizliyinin təmin edilməsi mexanizmi qismində rəqabətqabiliyyətli milli kənd təsərrüfatı məhsulunun istehsalı çıxış edir. Öz növbəsində, yerli ərzaq məhsullarının rəqabətqabiliyyətliliyinə yalnız dövlət tərəfindən məqsədyönlü siyasətin həyata keçirilməsi yolu ilə nail olmaq mümkündür.

Ölkə əhalisinin ərzaq təminatının həyata keçirilməsində başlıca prinsip ərzaq təhlükəsizliyi hesab edilir. Ərzaq təhlükəsizliyi müasir şəraitdə nəinki iqtisadi təhlükə-sizliyi mühüm tərkib hissəsi kimi çıxış edir, eləcə də hər bir dövlətin xarici ticarət siyasətinin mühüm prioritetinə çevrilir. Bütövlükdə götürdükdə, ərzaq təhlükəsizliyi dövlətin siyasi suverenliyinin təmin edilməsinin mühüm faktoru olmaqla yanaşı, eyni zamanda hər bir vətəndaşın fiziki cəhətdən mövcudluğunun ilkin şərti kimi səciyyə-

lənir. Araşdırmalar göstərir ki, ərzaq təhlükəsizliyi yalnız və yalnız dayanıqlı kənd təsərrüfatı istehsalının həyata keçirilməsi hesabına təmin edilə bilər. Ərzaq təhlükəsizliyi əhalinin fizioloji normalar çərçivəsində ərzaq məhsullarına olan tələbatının yerli resurs potensialı hesabına ödənilməsini nəzərdə tutur. Ərzaq təhlükəsizliyi – milli iqtisadi təhlükəsizlik konsepsiyasının mühüm tərkib hissəsi olmaqla insanların və cəmiyyətin ehtiyaclarının maksimum ödənilməsinə imkan verən iqtisadi artımın səviyyəsini və keyfiyyətini şərtləndirməklə, kifayət qədər dövlət ehtiyyatlarını, aktiv ticarət və tədiyyə balansını özündə əks etdirir.

Ərzaq təhlükəsizliyi bütövlükdə hər bir ölkənin siyasi suverenliyinin mühüm faktoru olmaqla dövlətin ərzaq müstəqilliyini şərtləndirir. Dövlətin ərzaq müstəqilliyinə nail olması ərzaq bazarının, bütövlükdə aqrar sahənin tənzimlənməsindən bilavasitə asılıdır.

Beləliklə, kənd təsərrüfatı məhsulunun rəqabətqabiliyyətliliyinin yüksəldilməsinə istiqamətlənmiş tədbirlər sisteminin işlənib hazırlanması və həyata keçirilməsi, fikrimizcə, Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyinin meyarlarına nail olunması və onların normativ səviyyədə qorunub saxlanılması mexanizmi qismində xidmət etməlidir.

Əvvəllər də qeyd edildiyi kimi, kənd təsərrüfatı sferasında fəaliyyət göstərən əmtəə istehsalçıları inhisarçı olmasalar da, onlar aqrar-sənaye kompleksinin inhisarlaşan I və II sferalarında fəaliyyət göstərmək məcburiyyətində qalırlar. Belə şəraitdə dövlətin oynadığı rolu aşağıdakı istiqamətlər üzrə təsvir etmək olardı:

- əlverişli makroiqtisadi mühitin yaradılması;
- iqtisadiyyatın aqrar sektorunda istehsal olunan məhsulun daxili və xarici bazarlarda rəqabətqabiliyyətliliyin yüksəldilməsinə yönəlmiş tədbirlər kompleksinin həyata keçirilməsi.

Əgər, əlverişli makroiqtisadi mühitin qorunması və dəstəklənməsi dövlət tərəfindən həyata keçirilən ümumi sosial-iqtisadi siyasətin tərkib hissəsi olmaqla, həm də xalq təsərrüfatının bütün müəssisələrinə eyni dərəcədə təsir göstərirsə, onda kənd təsərrüfatı məhsulunun daxili və xarici bazarlarda rəqabətqabiliyyətliliyinin yüksəldilməsi mexanizmi dövlət səviyyəsində reallaşdırılan dövlət aqrar siyasətinin xüsusi səciyyəvi tədbirləri vasitəsilə formalaşır. Dövlət səviyyəsində kənd təsərrüfatı məhsulunun rəqabətqabiliyyətliliyinin yüksəldilməsinə yönəlmiş dövlət siyasətinin istiqamətləri aşağıdakı əsas xətt üzrə reallaşdırılmalıdır:

- rəqabətqabiliyyətliliyin yüksəldilməsinin ümumi tədbirləri;
- daxili bazarda yerli məhsulun irəli çəkilməsinə istiqamətlənmiş tədbirlər.

Rəqabətqabiliyyətliliyin yüksəldilməsi istiqamətində həyata keçirilən ümumi tədbirlər məhz kompleks xarakter daşıyan, eləcə də sahənin texnoloji geriləməsində və aşağı investisiya cəlbediciliyində ifadə olunan əsas təhdidlərin aradan qaldırılmasına yönəlib. Yerli məhsulun irəli çəkilməsilə bağlı həyata keçirilən tədbirlər hal-hazırda yerli kənd təsərrüfatı əmtəə istehsalçılarında öz məhsullarının satışı zamanı daxili bazarda yaranan və həmin məhsulun istehsalının qeyri-effektivliyi ilə bağlı olmayan maneələri aradan qaldırmaq iqtidarında olmalıdır. Yerli məhsulun xarici bazarlarda irəli çəkilməsinə yönəlmiş tədbirlər isə məhsulun dünya ərzaq bazarında mövcudluğunun, habelə əmtəə istehsalçılarının bu cür bazarlara çıxışı yolunda rast gəlinən maneələrin aradan qaldırılması istiqamətində edilən yardımların genişləndirilməsinə hədəflənib.

Kənd təsərrüfatı məhsulunun rəqabətqabiliyyətliliyin yüksəldilməsinin ümumi tədbirləri aşağıdakı üç əsas istiqaməti ehtiva edir:

- istehsalın texniki səviyyəsinin yüksəldilməsi;
- Azərbaycan Respublikasında istehsal olunan kənd təsərrüfatı məhsulunun keyfiyyətinin artırılması;
- sahənin investisiya cəlbediciliyinin yüksəldilməsi.

Kənd təsərrüfatı məhsulunun rəqabətqabiliyyətliliyin yüksəldilməsində olduqca mühüm amil əmək məhsuldarlığının artırılmasıdır ki, bu da öz növbəsində, kənd təsərrüfatında fəaliyyət göstərən əmtəə istehsalçılarının kənd təsərrüfatı maşınları və avadanlıqlarının texniki təchizatı ilə bilavasitə bağlıdır. Kənd təsərrüfatının maşın-texnoloji kompleksi son dərəcə mühüm bir istehsal sistemidir və bu sistem yekun kənd təsərrüfatı məhsulunun həcminə, keyfiyyətinə və iqtisadi xarakteristikalarına təsir göstərir.

Qeyd etmək lazımdır ki, cəmiyyətin inkişafının ayrı-ayrı mərhələlərində aqrar bölmənin inkişafına iki yolla nail olunmuşdur. Bunlardan birincisi, əsaslı vəsait qoyuluşunun artırılması hesabına kənd təsərrüfatında istehsal resurslarını çoxaltmaq, istehsal prosesinə daha çox vəsait yönəltmək; ikincisi, mövcud maddi-texniki resursları istehsala cəlb etmək və səmərəli istifadəsinə nail olmaqdan ibarətdir.

Əlbəttə, aqrar-sənaye kompleksində intensiv inkişafı həyata keçirmək, məhsul istehsalını dinamik olaraq artırmaq, məhsulun keyfiyyətini yüksəltmək və iqtisadi səmərəliliyin artımına nail olmaq üçün hər iki üsuldan istifadə olunmalıdır.

Vahabzadə N.,
iqtisad elmləri üzrə fəlsəfə doktoru
Azərbaycan Dövlət İqtisad Universiteti

AZƏRBAYCANDA SOSİAL TƏMİNAT SISTEMİNİN FORMALAŞMASININ ƏSAS ELEMENTLƏRİ

Ölkələrin sosial iqtisadi inkişaf xüsusiyyətləri, milli mentaliteti, qəbul edilmiş qaydaların tətbiqində müxtəlif fərqliliklərə səbəb olur. Bəzi ölkələrdə sosial təminat sisteminin formalaşdırılması və inkişaf etdirilməsinə yönləndirilmiş struktur nümunələrini nəzərdən keçirməklə dünya ölkələrində sosial təminat sistemini xarakterizə etmək olar. Beynəlxalq təcrübəyə nəzər salsaq müxtəlif ölkələrin həyat səviyyəsinin müqayisə olunmasında əsas meyar kimi sosial müdafiə və sosial təminat sisteminin keyfiyyət məsələsinin götürüldüyünü müşahidə etmək mümkündür. Sosial müdafiə və sosial təminat sistemi sosial cəhətdən daha həssas qrupların müdafiəsini təmin edir və onların sistemdən yararlanmasını və sistemə çıxış imkanlarını genişləndirir. Bununla yanaşı istər sığorta olunan, istərsə də sığortalanmayan müxtəlif təbəqələrdən olan əhali qrupları özlərindən asılı olmayan səbəblərdən istər aztəminatlı, istər ailə başçısının itirilməsi, istər əlillik yaxud işsizlik vəziyyətinə düşmüş vətəndaşların qanunvericiliklə müəyyən olunmuş formada pul yaxud xidmət formasında mövcud sistemdən yararlanmaları əsas prioritetdir.

Tədqiqatlar göstərir ki, bəzi ölkələrdə sosial müdafiəyə çıxışın təmin edilməsinin stimullaşdırılması, onların təhsilə cəlb edilməsi, səhiyyə xidmətlərindən və uşaqların vaxtında peyvəndlərdən keçmələri və bu kimi tədbirlər vasitəsilə uzunmüddətli dövrdə insan kapitalının inkişaf etdirilməsi yolu ilə yoxsulluğun azaldılması üçün şərti yardım proqramları tətbiq edilir.

Qeyd edək ki, ümumilikdə şərti qaydada tətbiq edilən transfer proqramlarını təhlil etdiyimiz zaman layihələrin müxtəlif sahələrə təsirini, mənfi və müsbət tərəflərini qiymətləndirmək mümkündür. İlkin olaraq bu proqramların istehlakı stimullaşdırdığını və yoxsulluğu azaldığını müəyyənləşdirmək olar. Burada nəğd formada verilən transferlər yerli tələb və təklifi canlandırır və şərti tətbiq isə insan kapitalını inkişaf etdirməklə uzunmüddətli yoxsulluğu azaldır. Bundan əlavə proqram uşaq əməyindən istifadə hallarını azaldır. Çünki nəğd transferlər tətbiq edilən ailələr şərt olaraq uşaqların məktəbdə davamiyyəti yoxlanılır ki, bu da iştirak etməyən ailələrin yardım almaq hüququnu məhdudlaşdırır. Bu yolla proqram təhsildə davamiyyət və iştirakı təmin edir və uşaqların təhsilə marağını artırmış olur. Bununla bərabər şərti transferlərin qidalanma və sağlamlığın qorunmasında rolu böyükdür. Burada xüsusilə uşaqların tibbi peyvəndlərdən və müayinələrdən keçmələri şərti tətbiq edilir və bu yolla onların gələcəkdə tutulma ehtimalı olan müxtəlif ciddi xəstəliklərdən qoruyur. Bundan başqa şərti transferlərin müsbət tərəfləri kimi qeyd etmək olar ki, proqramlar yoxsulluq riski böyük olan çoxuşaqlı ailələrdə xroniki yoxsulluğu və aztəminatlılığı aradan qaldırır. Eyni zamanda proqram nəsildən nəslə keçmə yoxsulluğunu azaltmaq yolu ilə insan kapitalının formalaşmasına dəstək verir. Bununla yanaşı şərtilik qaydası transferləri alan ailələrin öz davranışları üzərində məsuliyyəti artırır ki, bu da onların yoxsulluqdan çıxmaları üçün ciddi çərçivə hesab edilir. Qeyd edək ki, bütün tətbiq olunan proqramlar kimi şərti transferlərin də çatışmamazlıqları vardır. Əsas çətinliklərdən biri kimi proqramın kompleks formada tətbiq olunmasını vurğulamaq olar. Burada şərti qaydada tətbiq həm yerli icmaların, həm bələdiyyələrin, həm də aidiyyəti nazirliklərin müdaxiləsini şərtləndirir ki, bunun da ümumi idarəçilik və monitorinq prosesini mürəkkəbləşdirdiyini söyləmək mümkündür. Digər bir məqama nəzərə salsaq proqramın təhsil və səhiyyə xidmətlərinə çıxışın stimullaşdırılması yolu ilə insan inkişafını dəstəkləməsi məsələsi də birmənalı qiymətləndirilə bilməz. Şərtin tətbiq edilməsi əsas vasitə olsa da göstərilən təhsil və səhiyyə xidmətlərinin adekvatlığı məqsədə çatmaq üçün başlıca göstəricidir. Məhz bu baxımdan proqramın insan kapitalının inkişafı istiqamətində hədəfinə çatması üçün sözügedən təsisatların uyğun və keyfiyyətli xidmət göstərməsi şərti mühumdir.

Qeyd edək ki, ümumilikdə sosial təminat sisteminin formalaşdırılması zamanı onun iqtisadi tərəfləri təhlil olunan zaman sistemin maliyyələşdirilməsi vacib element kimi şərh olunur. Sosial yardım proqramlarının sosial təminat sisteminin alt elementi olduğunu nəzərə alsaq bu proqramların maliyyələşdirilməsi və fiskal səy yardımların dayanıqlığını şərtləndirən başlıca element olaraq qalır.

Maliyyə imkanlarının əlçatanlığı və mövcudluğu həm ölkə xəzinədarlığının zənginliyindən, həm də beynəlxalq səviyyədə qrant və yardımların mövcudluğundan asılıdır. Lakin qeyd etmək lazımdır ki, istənilən vəziyyətddə sosial yardım proqramlarının maliyyələşməsi dayanıqlı mənbələrə əsaslanmalıdır. Aşağı gəlirli ölkələr hər hansı bir spesifik xərci maliyyələşdirmək üçün bir neçə seçim edə bilir. Bunlardan

birincisi, hər hansı bir xərc maddəsindən yenidən bölgü, ikincisi, vergilərin artırılması; üçüncüsü, beynəlxalq səviyyədə qrant yardımı tapmaq və ən nəhayət borclanmaqdır. Hansı maddənin seçilməsi ölkənin vəziyyəti ilə müəyyənləşir: bəzi ölkələrin maliyyə yardımı imkanları tamamilə məhduddur, bəziləri həddən artıq borc öhdəliyi olduğu üçün yenidən borclanma qobuledilməzdir, bəzilərinin vergi dərəcələri orta göstəricilərdən belə yüksəkdir və eyni zamanda da bəzilərində bu göstəricilərin bir neçəsi mövcuddur. Bundan başqa qeyd etmək lazımdır ki, sosial yardımların maliyyələşdirilməsini bütün qeyd edilən tədbirlərlə yanaşı siyasi səydən asılı faktor kimi qiymətləndirmək olar. Başqa sözlə desək, siyasi səy dayanıqlı sosial yardım proqramlarının formalaşması üçün vacib amildir.

Мамедова С.К.,
доктор философии по экономике,
Азербайджанский Государственный
Экономический Университет (UNEC)

ОСОБЕННОСТИ РЕАЛИЗАЦИИ НАУЧНОГО ПОТЕНЦИАЛА В РАЗВИТЫХ СТРАНАХ

Одной их характерных особенностей западной науки является гибкость и в этом контексте высокая множественность организационных связей научных учреждений. Так, даже в неспециализированных НИИ идет четкая специализация работников на теоретических и практических конструкторов. Наряду с этим в случае сложного проекта быстро создаются международные научные группы.

Вообще развитые международные исследования чрезвычайно характерны для западной науки. Например, в целях эффективности организовываются международные группы, в которых график работ распределен между странами и исследование идет круглосуточно.

В Европе существуют даже специализированные организации, занимающиеся координацией работы ученых. Так, относительно недавно появилась практика создания «технологических платформ» — площадок для разработки путей развития тех или иных научно-технических областей в рамках всего Европейского Союза.

Вместе с тем, неперспективные научные направления немедленно сворачиваются и это воспринимается как должное. Открываются и закрываются новые структуры, кафедры, лаборатории.

Наука Запада ориентирована на прикладные разработки. Например, в США даже занятие математикой можно организовать, как бизнес. А специалист в области статистической физики Хендрик Ян Хилхорст из Института ядерной физики и физики частиц во Франции сообщает, что в подведомственной ему лаборатории теоретической физики ведутся даже исследования движений автомобилей в пробках — таким образом, работа в этой области позволяет улучшить дорожное движение в масштабах всей страны.

Научные сотрудники по сути изначально являются бизнесменами и целенаправленно обучаются этому. В результате разрыв во времени между фундаментальным исследованием и его практической реализацией сократился примерно со 150 лет в XIX в. до 20—30 лет сегодня.

Еще одним характерным признаком является децентрализация - существует множество НИИ, свободных и университетских лабораторий, и т. д. Может быть несколько академий в стране. Академики занимаются популяризацией науки, консультированием членов правительства (часто местного), оказывают помощь в организации исследований начинающим ученым, проведение конференций и т. д. Академики отделены от власти, но обладают огромным престижем.Членство в академиях платное, и оно почти не влияет на карьеру, но его нельзя купить, нужно заслужить.

С другой стороны в результате децентрализации структуры становятся более доступными и связь с производством усиливается. При этом университеты все чаще переходят под контроль корпораций с их стандартами администрирования. Например, компания «Форд моторс» заключила с университетом штата Огайо соглашение о контроле качества работы университета со стороны компании «Форд».

Как особенность западной науки можно отметить высокую внутренняя интеграцию между учеными, членами исследовательских групп по разным проблемам в рамках одной специальности – многие хорошо знают друг друга и тесно сотрудничают и помогают, даже если не включены в один проект.

Отдельно нужно отметить особенности финансирования научных исследований в странах Запада. Финансирование происходит не по целым учреждениям, а конкретным научным лабораториям или даже определенным проектам или ученым. Это способствует перетоку капитала в наиболее необходимые отрасли науки и повышению производительности труда. Финансируется то, что приносит прибыль.Так , в США, в динамике менялась структура расходов на научные исслледования. Росли ассигнования на математику, биологию, при этом снижались доли затрат на технические и естественные науки, поскольку в данных областях был переизбыток разработок.

Вложения в науку являются очень прибыльными и расходы на научные исследования постоянно растут. При этом соотношение частных и государственных расходов разнится по странам. Впрочем, фундаментальные исследования всегда больше поддерживались государством, нежели частным сектором. Целью государственных грантов является получение готовой разработки, причем гранты выделяются в достаточно крупных суммах. Так, средний грант во Франции — около 100 тыс. евро в год, мелкий — 10 тыс. евро. Средний грант в США — примерно 100 тыс. долларов в год.

Финансирование ученого также высокое. Зарплата ученого в Канаде 9435 долларов в месяц, В Великобритании - 8369долл, В Германии – 6383 долл(5, с. 24).В США на одного исследователя тратится около 230 тыс. долларов в год, в Японии — около 164,5 тыс.— 30 тыс. При этом разница зарплат между высшими

и низшими должностями на Западе невелика. Так, во Франции такой перепад всего лишь 4-кратный. Если же взять зарплаты именно в сфере высшего образования, то разрыв в среднем не более чем 2-кратный. В пересчете на покупательную способность (в долларах США) в Японии на низших должностях зарплата — 2897 долларов, а на высших — 4604; во Франции на низших — 1973, а на высших — 4775; в США на низших — 4950, на высших — 7358; в Германии на низших — 4885, на высших — 6383. Во Франции любой ученый неизбежно уходит на пенсию в 65 лет: он может участвовать в исследованиях и в более преклонном возрасте, но ему уже не платят зарплату, т. к. после указанного возраста его эффективность как ученого сильно падает, — и его место может занять более продуктивный исследователь.

Как видно, система финансирования науки на Западе нацелена на максимально эффективное использование труда исследователей.

Rzayeva F.Ə.,
pedaqoqika elmləri üzrə fəlsəfə doktoru, dosent

MULTİKULTURALİZM ŞƏRAİTİNDƏ DİLLƏRIN TƏDRİSİ

Bu gün multikulturalizm Azərbaycanda həyat tərzindən dövlət siyasəti səviyyəsinə qədər inkişaf etmişdir.

İlham Əliyev

Multikulturalizm fənn olaraq son illərdə tədris olunmağa başlasa da tarixi kökləri qədimdir. Əslində sivilizasiyaların inkişafı bu dəyərdən bəhrələnərək inkişaf etmişdir. Multikulturalizm mədəni, etnik, irqi, linqvistik və dini müxtəlifliyi nəzərdə tutan ideyadır. Müasir dövrdə tək tip insan və tək tip mədəniyyət anlayışı qəbul edilən deyil. Etnik-mədəni müxtəlifliklərin tənzimlənməsində bir siyasət modeli olan multikulturalizm ötən əsrin 60-70-ci illərində əvvəlcə Kanadada, sonra isə Avropanın bir sıra çoxmədəniy-yətli ölkələrində meydana gəlmişdir. Dünyaya inteqrasiya etdiyimiz bir zamanda dillərin tədrisində multikultural baxışların dominant olması mühümdür. Biz insanların siyasi və dini mənsubiyyətinə hörmətlə yanaşaraq dilləri mənimsəyirik. Bu prinsip imkan verir ki, tələbələr arasında əməkdaşlıq, qarşılıqlı anlaşma mümkün olsun. Multikultural sinif anlayışı ilk dəfə dr. Gloria Ladson-Billinqs tərəfindən 1990-cı illərdə irəli sürülüb. O, bu termini belə izah etmişdi: Mədəni müxtəliflik şagirdləri mədəniyyətlərarası inteqrasiyanı qoruyub saxlamağa cəlb edir. Mədəniyyətlərin müxtəlifliyini qəbul etmədən, digər dillərdə danışan, müxtəlif dinlərə etiqad edən insanların adət-ənənələrinə, həyat tərzinə, əqidə və düşüncələrinə hörmətlə yanaşılmayan mühitdə inkişafa nail olmaq qeyri-mümkündür. Dillərin tədrisi zamanı ilk növbədə dil öyrənənlərə müxtəlif mədəniyyətlərə qarşı dözüm-lülük və hörmət keyfiyyətləri aşılanmalıdır. Multikultural şəraitdə dillərin tədrisi zamanı ənənəvi dərslərdən fərqli olaraq şagirdlərdə sosial əlaqələrin, şəxsi bacarıqların, əməkdaşlıq bacarıqlarının

formalaşması mümkün olur. Metodistlər psixoloji və pedaqoji ədəbiyyatı araşdırmağı, şagirdlərin mədəni müxtəlifliklərə münasibətini müəyyən etmək üçün sorğular keçirməyi məsləhət görürlər. Multikultural mühitdə dərslərin keçirilməsinin üstünlükləri əlbəttə danılmazdır. Multikultural siniflərdə əsas məqsəd - digər mədəniyyətlərin öyrənilməsində şagirdləri dəstəkləmək, şagirdlərin multikultural dünyagörüşünü formalaşdırmaq, dərsdə müsbət atmosfer yaratmaq, dillərin öyrənilməsində motiva-siyanın yüksəldilməsidir.

Universitetimizdə xarici dillərin tədrisi xarici aləmə daxil olmağa, fərqli adət-ənənələri, dəyərləri anlamağa şərait yaradır. Əslində dildən uğurlu istifadə o zaman mümkün olur ki, fərqli mədəniyyətlər dərk olunsun və onlara hörmətlə yanaşılsın. Məhz xarici dillərin tədrisində "mədəniyyətlərarası dialoq" mühüm əhəmiyyət kəsb edir. İstənilən dilin mənimsənilməsində mədəni müxtəliflik ən mühüm amildir. Bəlkə də ona görə də universal dilin yaranması ideyası iflasa uğradi, çünki orada mədəni amil kənarda qalırdı. Dillərin tədrisində hər ölkənin mədəniyyətinə xas verbal və qeyriverbal xüsusiyyətləri nəzərə alırıq. Bu özünü daha çox nitq vərdişlərinin tədrisində göstərir. Çünki, birbaşa dil daşıyıcıları ilə ünsiyyətə girmək mədəni normalara riayət etməyi mühüm edir. Bu amil sosiomədəni faktorların mənimsənilməsində önəmlidir. Məsələn, Çin mədəniyyətində hər hansı şəxsi tərif etdikdə qarşı tərəf təvazökarlıq əlaməti olaraq mənfi cavab verir: "No, it is not so good." Şimali Amerika mədəniyyətində isə belə cavab utandırıcı həm də uyğun olmaya bilər.

Tələbələrə xarici dillərin tədrisi zamanı mədəni mənsubiyyət hissləri dərinləşir, dillərin mədəni rəngarəngliyi müəyyənləşdirilir. Xarici mədəniyyətin qiymətləndirilməsi baş verir. Dillərin tədrisində mühüm amil budur ki, dil öyrənən xarici mədəniyyət üçün xarakterik xüsusiyyətləri müəyyənləşdirə bilsin, sosial- mədəni mühitə xas olan normalara riayət etsin, mədəni müxtəlifliklər müzakirə edildikdə öz fikirlərini, yanaşmalarını ifadə edə bilsin. Dillərin tədrisi zamanı hər ölkəyə xas olan salamlaşmaq, sağollaşmaq, süfrə mədəniyyəti, nitq mədəniyyəti kimi özəllikləri mənimsəməlidir. Dil tədrisində biz mədəni müxtəlifliyi daha çox atalar sözü və frazeoloji birləşmələrin tədrisində görürük. Çünki bu ifadələ hər bir xalqın tarixi, mədəni, əxlaqi, etnik xüsusiyyətlərinə əsasən müəyyənləşir. Mədəni müxtəlifliyin necə rəngarəng olduğunun nümunəsidir.

Xarici dil bilmək hər bir vətəndaşın üstünlüyüdür və bu proses mədəni müxtəliflikdə təşkil olunsa təsəvvür edin necə multikultural mühitə şahidlik etmiş olarıq.

Dil materiallarında dilini öyrəndiyimiz xalqın mədəniyyəti, məşhur şəxsləri, tarixi də paralel öyrədilir, bu dilini öyrəndiyimiz xalqa göstərilən multikultural dəyərlərdir. Orta məktəb dərsliklərinə nəzər salaq. Dərsliklərdə eyni zamanda ölkələrin dövlət simvollarının, yəni bayraq, gerb, himn təsvirləri də yer alır. Ölkə ilə əlaqədar coğrafi demoqrafik göstəriciləri, əhəmiyyətli tarixi hadisələri (Almaniyanın birləşdiyi gün, Bastiliyanın alınması, İngiltərədə Burjua İnqilabı,) eləcə də incəsənət və memarlıq nümunələri əks etdirilir (Biq Ben, Hayd Park, Nelsonun abidəsi, Luvr muzeyi, Branderburq qapısı, Berlin divarı və s), tarixi şəxsiyyətlər və görkəmli insanlar haq-

qında məlumat verilir (Uilliam Şekspir, Stivenson, Richard Strauss, Viktor Hüqo, Kraliça 2 Elizabet, Höte,Volter və digərləri), ölkəyə məxsus bayramlar və tədbirlərin təşkili bariz nümunədir. Artıq əksər məktəb və universitetlərdə Halloven bayramı qeyd edilir. Şagird və ya tələbə öz ölkəsinin mədəniyyətini, dilini öyrəndiyi xalqın mədəniyyəti ilə müzakirə edir. Oxşarlıq və fərqlilikləri tapır. Mədəniyyətlərarası dialoq baş verir.

Artıq bu istiqamətdə ciddi addımlar atılıb. Multukultural təhsil üçün Milli Assosiasiya yaradılıb. Müəllimlər üçün illik konfranslar keçirilir, multikultural tədbirlər təşkil edilir. Metodist müəllimlər xüsusilə sosial-mədəni kompetensiyanı mənimsəməlidirlər. Dillərin tədrisində multikultural amilin dəstəklənməsi üçün təkcə dərsliklərdən istifadə yetərli deyil, mədəni müxtəlifliyin aşılanması üçün autentik materiallar, video nümayişlər və hətta həmin ölkəyə səyahət çox yaxşı addımdır. Bunun üçün mədəni barriyerlər aradan qaldırılmalıdır.

Eləcə də orta məktəb dərsliklərindən müxtəlif ölkələrin bayraqları, simvolları, bayramlarının və digər mədəni təsvirləri olan nümunələrin nümayişi ola bilər.

Гамидова Л.А.,
кандидат экономических наук,
Азербайджанский Государственный
Экономический Университет

ЗНАЧЕНИЕ ИНСТИТУТОВ В СТРУКТУРНЫХ ПРЕОБРАЗОВАНИЯХ ЭКОНОМИКИ

В структурных преобразованиях экономики большое значение придается развитию институциональных отношений. Именно с ними связывают дальнейшее развитие экономики страны. В современный период значение институтов возросло в связи с изменением прав собственности, проведением структурной политики правительства, направленной на диверсификацию экономики Азербайджана. От того, насколько эффективно работают институты, зависит развитие национальной экономики, отдельных регионов и предприятий.

До сих пор среди ученых-экономистов идут споры о роли государства в процессе становления институтов. Одни ученые считают, что рыночные институты должны сами зарождаться в период экономической трансформации общества. Таких взглядов придерживался Хайек. Он полагал, что «процесс сознательного создания рыночных институтов ведет к экономическому рабству, ибо государство не может предсказать последствия своего вмешательства в экономические процессы. Поэтому устойчивы и приемлемы только те институты, которые прошли отбор в конкурентной борьбе и были созданы самой экономической системой». Другие же ученые, наоборот, считают, что в переходный период именно государство должно стать инициатором формирования рыночных институтов, обеспечивая их качественное единство и однородность.

В настоящее время большое количество институциональных элементов

связано с особенностями модели институциональной среды. Под институциональной средой будем понимать уровень экономического, научного, социального и культурного развития страны, а также исторические особенности. Институциональную среду необходимо рассматривать как один из базовых элементов, необходимых для инновационного типа формирования и развития экономики в целом и промышленного комплекса в частности.

В современных условиях постоянно растущего процесса глобализации все более актуальным становится проведение реформ в области совершенствования институтов.

В настоящее время современные представители институциональной теории условно делят все институты на формальные и неформальные. Формальные институты могут воздействовать на движение капитала путем нормативно-правовых актов и имеющихся законов. Такие институты утверждают формальные правила и нормы, которые закрепляются в виде правовых актов, письменных соглашений.

В отличие от формальных институтов, неформальные институты учреждают неформальные нормы права. Неформальные институты чувствительны к сформировавшимся нормам и традициям, которые были установлены исторически в течение общественного развития. В ходе эволюции именно они подвергались религиозному влиянию, а также и влияли на доверие общества к существующей действительности, имеющие дело с Неформальные ограничения заложенные в основу действия неформальных институтов, обычно не имеют автора и документально нигде не подтверждаются. В случае документального регламентирования неформальных ограничений таких правил, имеющиеся документы не считаются обязательными для выполнения. Другими словами, они имеют просто формальный характер. В качестве примера наиболее распространенных неформальных институтов можно привести институциональных инвесторов и саморегулируемые организации. Особо следует подчеркнуть тесную взаимосвязь формальных и неформальных институтов. Но несмотря на то, что их деятельность связана между собой, имеются принципиальные различия в их работе.

Возникновение и существование институтов связано с процессом взаимоотношений людей, из которых формируется жизнедеятельность общества. Но не правильно судить об институтах только лишь как об организационных образованиях, необходимых для осуществления каких-либо экономических действий. Поэтому под институциональной структурой будем понимать совокупность разнообразных учреждений, фирм и организаций, созданных обществом, их взаимосвязи между собой в различных сферах – экономической, политической, социальной и других.

Основными составляющими системной трансформации экономики Азербайджана являются институциональные реформы и структурные преобразования, основной задачей которых является устранение структурных диспропорций.

Целенаправленная структурная политика в экономике предполагает разработку ее важнейших целей, тесно связанных и исходящих из целевых установок социальной и экономической политики. Важнейшее требование к формирова-

нию системы целей структурной политики – обеспечение их соответствия целям социально-экономического развития Азербайджанской Республики в условиях рыночных отношений.

Цели структурной политики должны, как правило, носить долгосрочный характер и определяться с учетом расширения и углубления рыночных отношений, углубления экономических реформ. Следовательно, важнейшей предпосылкой эффективной структурной политики в промышленности Азербайджана является разработка системы взаимосвязанных приоритетов, обеспечивающих формирование оптимальной структуры производства. Основная же цель структурной политики – обеспечить формирование целостного экспортно-ориентированного промышленного комплекса.

Проведению институциональных реформ могут способствовать рост численности среднего класса и развернувшаяся в мире конкуренция между новыми крупными рынками. Для успешной реализации политики диверсификации стране нужна инновационная, так называемая «креативная» модернизация, основанная на творческих инновационных разработках не только в экономике, но и политике, науке и образовании, в социальной сфере, культуре, и внедрение таких разработок в общественную практику. Именно креативный класс, включающий в себя людей, производящих экономические ценности в процессе творческой деятельности, может решить задачи инновационной модернизации. Основная цель креативного класса в обществе – порождать новые, нестандартные идеи, выдвигать и реализовывать на практике эффективную стратегию социально-экономического развития.

Quliyeva A.A.,
iqtisad elmləri namizədi, dosent
Rzayeva Ü.Ş.,
riyaziyyat elmləri üzrə fəlsəfə doktoru
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)

ALİ MƏKTƏBLƏRİN REYTİNQİ TƏHSİL XIDMƏTLƏRİ BAZARINDA İNFORMASİYA ASİMMETRİYASININ ARADAN QALDIRILMASI VASİTƏSİ KİMİ

Real bazarlarda alıcıların və satıcıların qarşılıqlı münasibətlərinə müəyyən dərəcədə asimmetriya məxsusdur ki, bu da bazar mexanizmlərinin səmərəsiz fəaliyyət göstərməsinə gətirib çıxara bilər. Bu problem daha çox "etimadlı" adını almış məhsul bazarlarında özünü göstərir. Alıcı tərəfindən belə məhsulların zəruri həcminin və keyfiyyətinin müəyyən edilməsi yüksək xərclər ilə əlaqədar mümkün olmur, bu da öz növbəsində, alıcıları informasiya xidmətləri ekspertlərinə müraciət etməyə məcbur edir.

Təhsil də etimadlı xidmət sayılır - iqtisadi terminlərlə desək, təhsilin sonuna qədər ali məktəbin keyfiyyəti haqqında istehlakçının xəbəri olmur. Beləliklə, təhsil xidmətlərinin istehlakçıları - həm ev təsərrüfatları, həm də cəmiyyət (dövlət) – informasiya asimmetriyası problemi ilə üzləşirlər. İnkişaf etmiş ölkələrdə universitetlərin

fəaliyyəti təcrübəsinin öyrənilməsinə, resursların, tədrisin, tələbələrin davranışının bölüşdürülməsi haqqında qərarların qəbul edilməsinə əsaslanan xarici qiymətləndirmə sistemləri yaradılmışdır. Azərbaycanda ali təhsil bazarında informasiya asimmetriyası probleminin həlli istiqamətinə yönəlmiş tədqiqatlar hal-hazırda aparılmır.

Təhsil xidmətləri bazarında informasiya asimmetriyasını aşağıdakı kateqoriyalara bölmək olar:

- ali məktəb haqqında və orada oxumaq istəyənlər barədə reklam məlumatlarının asimmetrik təqdim edilməsi;
- təlim prosesi zamanı asimmetrik informasiyanın ötürülməsi;
- təlim zamanı asimmetrik informasiyanın alınması.

Elmi ədəbiyyatda biz bu araşdırmanın məqsədlərinə uyğun ekonometrika təhlildə istifadə oluna biləcək nəzəri modeli tapmağa müvafiq olmamışdıq, lakin bir sıra işlərdə abituriyent tərəfindən universitetin seçim proseduru təsvir edilmişdir. Daha tanınmış modellər seçimi mərhələli nəzərdən keçirirlər – ali təhsilin alınması faktının dərk edilməsindən ali məktəbin seçiminə qədər.

İnformasiya asimmetriyasının təhlili zamanı yarana biləcək informasiya situasiyanı nəzərdən keçirək. Dinamika aspektində informasiya situasiyalarını statik və dinamik olanlara bölürlər. Statik informasiya situasiyasına baxarkən informasiya vəziyyəti üzrə bərabərsizlik mümkündür. İnformasiya asimmetriyasını sadələşmiş şəkildə "bərabərsizlik" işarəsi ilə göstərmək olar.

$$\dot{I}_A > \dot{I}_B \text{ və ya } \dot{I}_B > \dot{I}_A \qquad (1)$$

növdə binar münasibət sadalanan obyektlər və subyektlər arasında (I) məlumatlılıq kəmiyyəti üzrə informasiya asimmetriyasını müəyyən edir. Bu kəmiyyət statik vəziyyəti və ya statik informasiya situasiyasını xarakterizə edir. Ona görə də belə assimmetriya atributiv adlanır, çünki o belə vəziyyətin ayrıca xüsusiyyətini səciyyələndirir. Məlumatlılığı qarşıya qoyulan məqsədlərə çatmaq üçün zəruri, faydalı və keyfiyyətli informasiyaya yiyələnmə kimi müəyyənləşdirək. $k(\dot{I})$ məlumatlılıq əmsalını müəyyən edək

$$k(\dot{I}) = \dot{I}_{Fakt}/\dot{I}_{Məqs} \qquad (2)$$

burada $\dot{I}_{Məqs}$ – məqsədlərə çatmaq üçün informasiya miqdarıdır, $\dot{I}_{Fakt}$ - obyekt və ya subyektin yiyələndiyi informasiyanın faktiki miqdarıdır.

İnformasiya axınlarının müxtəlif obyektlərə daxil olması zamanı asimmetriya baş verə bilər. Belə vəziyyət müxtəlif informasiya mənbələri və müxtəlif intensivlik və keyfiyyət ilə seçilən axınlarla xarakterizə olunan dinamik informasiya situasiyalarda yer tapa bilər. Bu informasiya vəziyyətini "axınlı" adlandırmaq olar. Müxtəlif intensivlik və keyfiyyət ilə seçilən informasiya axınları obyektlərin informasiya mövqelərini dəyişir.

$$F_1(\dot{I}_B) > F_2(\dot{I}_A) \qquad (3)$$

Bu proses aşağıdakı kimi interpretə olunur. *B* obyektinə qarşı yönəldilmiş F_1 ümumi informasiya axını *A* obyektinə qarşı yönəldilmiş F_2 ümumi informasiya axınından üstündür. Belə informasiya asimmetriyası "axınlara uyğun asimmetriya" və ya "informasiyaya uyğun asimmetriya" adlanacaq. *B* obyektinə K_{FB} informasiya axınının nisbi əmsalını müəyyən edək:

$$K_{FB} = F_1/(F_1 + F_2) \quad (4)$$

A obyektinə K_{FA} informasiya axınının nisbi əmsalını müəyyən edək:

$$K_{FA} = F_2/(F_1 + F_2) \quad (5)$$

Axın asimmetriyasının ən sadə nümunəsi kimi belə vəziyyəti göstərə bilərik ki, bir ali təhsil məktəbində tədrisin klassik üsulundan (məsələn, audiokanaldan), digərində isə audiokanal, multimedia təlimi və fəal virtual təhsil üsullarından istifadə edilir.

Təhsil xidmətləri bazarında informasiya asimmetriliynin aradan qaldırılması üçün təhsilin keyfiyyətinə görə dövlət nəzarət sistemi kifayət deyil. Bu sistem ali məktəblərin bazara buraxılması, onların fəaliyyətinin monitorinqi və statusların təyinatı məsələlərini həll edir, lakin bu tədbirlər kompleksi informasiya assimmetriyasını yalnız qismən aradan qaldırır, bundan başqa belə nəzarətin əsas nəticələri son istehlakçıya agah deyil. Abituriyentlər bilmirlər ki, onların seçdikləri profillər üzrə hansı ali məktəb ən yaxşı mütəxəssis hazırlayır, biznesin məlumatı yoxdur ki, hansı təhsil müəssisələrinin məzunları müasir şəraitə işə daha uyğunlaşdırılmışdır, dövlətin isə dövlət sifarişlərini səmərəli yerləşdirməyə imkanı yoxdur. Aydındır ki, belə məsələlərin həlli üçün ali təhsil xidmətlərinin keyfiyyətinin kəmiyyət qiymətini verən alət olmalıdır. Belə alətlərdən biri kimi ali məktəblərin reytinqi istifadə olunur. Abituriyent ali təhsil müəssisəsinin seçimində bir çox meyarlara əsaslanır: ali məktəbin profili, onun nüfuzu, təhsilin qiyməti, qəbul şərtləri, maddi bazası və s., yəni təhsil xidmətlərinin keyfiyyətini şərtləndirən hər aspektlə. Belə bir qərarın qəbul edilməsi üçün istifadəçinin istək və arzuları əsasında təhsil müəssisələrinin ümumiləşdirilmiş qiymətinin alınmasına imkan verən alətlərin mövcudluğu zəruridir. Digər tərəfdən universitet tərəfindən abituriyentlərin seçiminə təsir edilməsi, eləcə də elmi dairələrdə və beynəlxalq aləmdə öz nüfuzunun möhkəmləndirilməsi imkanı vacibdir. Bu keyfiyyətin miqdarca qiymətləndirilməsinin mümkün olmamasından onun mövcudluğu və xarakteristikaları bəzi göstəricilərlə müəyyən edilir. Onların arasında ən təsirlisi təhsil müəssisəsinin yüksək reytinqidir.

Reytinq qiymətləndirilməsi aşağıdakı göstəricilər qruplarına əsaslanır:

- Təhsil fəaliyyəti: ali məktəbə qəbul zamanı orta bal;
- elmi-tədqiqat fəaliyyətinin həcmi;
- beynəlxalq fəaliyyət: tələbələrin ümumi sayında təhsil proqramlarının mənimsənilməsini başa vurmuş xarici tələbələrin sayının xüsusi çəkisi;
- iqtisadi-maliyyə fəaliyyəti: bütün mənbələrdən gəlirlər;
- infrastruktur: ali məktəbin mülkiyyət hüququna və operativ idarəetmə hüququna malik olan təlim-laborator binalarının ümumi sahəsi.

Bu gün Azərbaycanda 35-dən çox ali, həm dövlət, həm də özəl təhsil müəssisələri var. Dünyanın ali məktəblərinin ən mötəbər reytinqi olaraq “Ranking The Web”

və ya “Webometrics” 2016 il üçün yekun siyahısını açıqlamışdır. Siyahı üzrə 9697-ci yerdə olarkən Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) 6466-cı pillədə qərarlaşan ADA Universitetindən və 7705-ci yeri tutan ATU-dan sonra, yerli universitetlər arasında liderlər sırasına düşüb.

Müasir elmin səciyyəvi cəhəti ölkələr arasında qeyri-bərabərliyin çoxalmasıdır ki, bu, müxtəlif ölkələrin ali məktəblərin və alimlərin siqnalları arasında fərqin artmasında özünü göstərir. Bu da təhsil və elmi təşkilatların gəlirlərində, elmi idraka qarşı çıxış imkanlarında fərqin artmasına aparır.

Bayramov V.A.,
iqtisad elmləri üzrə fəlsəfə doktoru,
böyük elmi işçi,
AMEA-nın İqtisadiyyat İnstitutu,
Bakı Biznes Universiteti

MİLLİ İQTİSADİ İNKİŞAF: KONSEPTUAL YANAŞMA

Tezisdə iqtisadi inkişaf anlayışının nəzəri-metodoloji müstəvidə mövcud olan abstrakt məzmunlu interpretasiya müxtəlifliyinin konseptual ümumiləşdirilməsinə cəhd edilmişdir. Ümumiyyətlə inkişaf yanaşmasının milli iqtisadiyyatda proyeksiyası həyata keçirilmiş və “milli iqtisadi inkişaf” anlayışının fərqli cəhətləri aşkara çıxarılmışdır. Anlayışın teleoloji interpretasiyasının daha konkret məzmun daşıdığı təsbit olunmuşdur. Tezisdə əsas məqsəd iqtisadi inkişafın subyekt müəyyənliyinin milli məzmun daşıdığını ortalığa qoymaqdan ibarətdir.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, inkişaf fenomeninin abstrakt anlayışlarla şərhi iqtisadi reallığın nəzəri dərki və iqtisadiyyatın perspektivləri ilə bağlı problemlərin aradan qaldırılması nöqteyi-nəzərindən hər hansı bir formada praqmatik əhəmiyyət daşımır. Qarşılıqlı asılılığın maksimum səviyyəyə çatmasına baxmayaraq, ölkələrarası fərqlər getdikcə dərinləşməkdədir. Dünya iqtisadiyyatının müasir arxitekturasına ötəri nəzər salmaq kifayətdir ki, inkişaf prosesinə münasibətdə hər hansı bir «ümumi» yaxud «vahid» trayektoriyanın olmadığını (əksər ölkələr üçün keçərli olan) əyani şəkildə görə biləsən. Əslində, qeyd edilən sferada bir pərakəndəlik mövcuddur. Ölkələrin konkret spesifikasından, özünəməxsusluğun təməl prinsiplərindən və halhazırda fəaliyyət göstərdiyi inkişaf mərhələsinin xarakterindən asılı olaraq inkişaf vektorları və trayektoriyaların ifrat müxtəlifliyi, ifrat çoxluğu ilə qarşılaşırıq. Qlobal iqtisadi reallığın təhlili göstərir ki, dünya ölkələrinin «vahid» inkişaf trayektoriyasına keçidi, həm nəzəri-metodoloji, həm də praktiki nöqteyi-nəzərdən imkansızdır.

Həmçinin müxtəlif məqsəd və hədəflərə doğru irəliləyən ayrı-ayrı ölkələrin «vahid axara» salınması istəyinin hər hansı bir formada əsaslandırma tipi belə mövcud deyildir. Başqa ifadə ilə, inkişafın «vahid yolu»nun reallığını heç nəzəri təxəyyül də iddia edə bilməz.

Əvvəllərdə də göstərdiyimiz kimi, həm iqtisadiyyat, həm də onun varlıq forması olan iqtisadi hərəkətin əksər təzahür formaları, o cümlədən inkişaf, modern dövrün başlanğıcından bu günə qədər bütün tarixi dövrlərdə milli səciyyə daşımış, milli

«yük»lü olmuş və hal-hazırda da həmin «yükü» (daha da mürəkkəbləşmiş bir formada) daşımaqda davam edir.

Milli iqtisadi inkişafın amillər sistemi, sözün həqiqi mənasında sistemli xarakter daşımaqla, sıx qarşılıqlı təsir və qarşılıqlı asılılıqda olmaqla son dərəcə mürəkkəb məzmunlu konfiqurasiyada ortalığa çıxır. Qruplaşmış formada sözügedən amilləri aşağıdakı ardıcıllıqla sıralamaq olar:

1) Keyfiyyətli iqtisadi artım;
2) Sosio-mədəni mühit;
3) İnstitusional mühit;
4) Adekvat iqtisadi siyasət;
5) Təbii-ekolokal və qlobal iqtisadi inkişaf təmayülləri, yaxud geoiqtisadi mühit.

Əksər tədqiqatlarda keyfiyyətli iqtisadi artım əsas, yerdə qalanlar dəstəkləyici amillər kimi səciyyələndirilir. Əlbəttə, iqtisadi artım – xüsusi əhəmiyyət kəsb edən amildir. Lakin həlledici deyildir. Artım - məntiqi zərurətlə digər sferaları inkişaf prosesinə qoşur, tipli neoklassik baxış bu günün reallığı prizmasından qəbul edilə bilməz. Postindustrial təsərrüfat tipinə keçidlə insan amilinin ön plana çıxması yuxarıda sadalananlar arasında hansısa bir iyerarxiyanın (nə əsas, nə törəmədir formasında) qurulmasını mənasız edir. O anlamda yox ki, iqtisadi-texniki məsələlər arxa plana keçir. O anlamdaki, iqtisadi yaxud sosio-iqtisadi amillərin öncüllüyü sosio-mədəni «süzgəcdən» keçməklə gercəkləşə bilir. Yəni milli iqtisadi inkişafın amillər sistemi, məhz sistem halındadır və bu keyfiyyət statusunu nəzərə almadan tamqiymətli inkişafa nail olmaq mümkünsüzdür. Digər tərədən, milli iqtisadi inkişaf həm proses, həm də nəticə kimi dəyərləndirilməlidir. Proses olaraq, inkişaf həmişə tarazlıqdan, bütün sahə və sferalara münasibətdə assimmetriklikdən, yaxud anklav xarakterlilikdən xali deyildir. Yəni inkişaf – həmişə natarazlıq doğuran bir proses halındadır. Sırf iqtisadi-texniki məsələlər, bir qayda olaraq, adekvat iqtisadi siyasətin mövcudluğu halında ilkin olaraq həll edilir, yaxud inkişaf yönümlü keyfiyyət dəyişikliklərinə məruz qalırlar.

Sosio-mədəni sferada isə keyfiyyət dəyişiklikləri daha çox zaman resursları tələb edir. Bu aspekt milli iqtisadi inkişafın sistemliliyinə mənfi təsir göstərməklə (sosio-iqtisadi situasiyanın keyfiyyətcə yeniləşməsinə baxmayaraq) kəskin disporporsiyalar yaradır. Bir sıra hallarda isə «yerində saymaq» effektinin sərhədlərindən kənara çıxma imkanlarını aradan qaldırır. Və nəticədə inkişaf deyil, yalnız keyfiyyətli iqtisadi artım baş verir ki, onun da geriyə qayıdışı tamamilə real məzmun kəsb edir. Deməli, milli iqtisadi inkişaf – cəmiyyətin sosio-iqtisadi və sosio-mədəni tiplərinin dəyərcə adekvatlığından doğan bir hadisədir. Yəni istənilən situasiyada ictimai fəaliyyət sferaları arasındakı struktur bərabərlik (izomorfluq) prinsipindən kənara çıxa bilməz.

Milli iqtisadi inkişaf – spontan şəkildə baş verə bilməz. Bu prosesin həm başlanğıcı, gedişi, həm də hədəflənən nəticələrlə yekunlaşması subyektiv amilin dominantlığı şəraitində gerçəkləşir.

Qeyd edilən nöqteyi-nəzərdən hökumətin yeritdiyi iqtisadi siyasət mühüm əhəmiyyət kəsb edir. İqtisadi siyasət – keyfiyyətli iqtisadi artımın dəstəklənməsi və

keyfiyyətli institusional dəyişikliklərə yönəlməklə inkişafın rəvan gedişinə böyük təsir göstərir. Amma iqtisadi siyasət – öz-özlüyündə cəmiyyətin sosio-mədəni tipində adekvat dəyişikliklər yaratmaq gücündə deyildir. Yaxud iqtisadi siyasət «xalis» formada deyil, sosial yüklü ünsürlərə təsiretmə gücündə olan sosio-iqtisadi siyasət mahiyyəti daşıyarsa, yuxarıda qeyd etdiyimiz assimmetriklik daha qısa müddət ərzində aradan qalxa bilər.

Beləliklə, əvvəllərdə də qeyd etdiyimiz kimi, milli iqtisadiyyatların konkret məzmunlu spesifikası ilə inkişaf vektorunun seçilməsi arasında səbəbiyyət bağlılığı mövcuddur. Effektiv hökumət konsepsiyası da məhz bu aspektdən dəyərləndirilir: seçilən yolla (yaxud hədəflənən məqsədlə) sərəncamda olan potensial arasında uyğunluğun təsbiti; İnkişafın müxtəlif mərhələlərində olan milli iqtisadiyyatların seçim variantları məhz bu prizmadan müəyyənləşir. Bununla belə, sözügedən çoxluğu ümumiləşdirmə nöqteyi-nəzərindən qruplaşdırmaq mümkündür. Düzdür, istinad etdiyimiz qruplaşdırma kifayət qədər bəsit səciyyə daşıyır. Qruplaşdırmanın əsasında yalnız bir kriteriya dayanır: Neoliberalizmin «eyniləşdirmə» istəyinə münasibət.

Ölkənin inkişaf vektorunun seçimində iki yanaşma mövcuddur:

1) Qloballaşma: inkişaf yolu və hədəflər əksər ölkələr üçün eynidir;

2) Sivilizasiyalı baxış: müxtəlif ölkələrin inkişaf trayektoriyası və məqsədləri müxtəlifdir.

Bir sıra tədqiqatlarda qeyd olunur ki, qloballaşma prosesi qlobal səviyyədə inkişafın «…sinxronlaşdırılması və unifikasiyası» prosesidir. Hesab edirik ki, yanaşma tərzi həm nəzəri, həm də praqmatik nöqteyi-nəzərdən müasir iqtisadi gerçəkliyin daxili məntiqinə ziddir. Ona görə ki, əvvəla, belə bir fakt mövcud deyildir; ikincisi, dünya ölkələri arasındakı kəskin fərqlilik, onların hamısı üçün yetərli ola biləcək «vahid» yanaşmanın nə vaxtsa formalaşacağına olan inamı bəri başdan aradan qaldırır; üçüncüsü, neoliberal modelli qloballaşma inkişafın deyil, iqtisadi hərəkətin prinsip və təmayüllərini unifikasiya etməyə cəhd göstərir. Başqa sözlə, inkişafa aparan yolun «eyniliyini» sübut etməyə çalışır. Və aydındır ki, «yolun» eyniliyindən «məqsədin» eyniliyinə keçid bir an məsələsidir.

Bir proses olmaq etibarı ilə qloballaşma – sosial «örtüklü» iqtisadi hərəkətin digər sferalarda proyeksiyasının doğurduğu yaranışdır. İdeoloji aspekti bir kənara qoysaq, onda görməmək mümkün deyildir ki, sözügedən proses – faydalılıq funksiyasının miqyas genişlənməsi, özünəxas qanunauyğunluqlar, prinsiplər və hədəflərlə ümumplanetar səviyyədə qərarlaşması prosesidir: faydanın qloballaşması prosesidir. Bu aspektin öncüllüyündən çıxış edənlər qloballaşmada iqtisadi aspektin həllediciliyini ön plana çəkirlər. Hesab edirlər ki, digər sferalarda gedən qloballaşma prosesi bu aspektin törəməsindən başqa bir şey deyildir. Beynəlxalq səviyyədə iqtisadiyyatın dominantlığı, əvvəlki dövrdən (milli dövlətlər çərçivəsində) heç də az deyildir.

K.Sokolovun haqlı olaraq qeyd etdiyi kimi: «… İqtisadiyyat – bütün dövrlər və xalqlar üçün nəzərdə tutulan hansısa bir universal texnologiya deyildir… O, mədəniyyətin spesifik fenomenidir.

Bizim fikrimizcə, qeyd etdiklərimiz (fayda fenomeni ilə bağlı) qloballaşma prosesində iqtisadi alt-sistemin aparıcı rol oynadığını, dominantlılığını, lakin həlledici olmadığını ortalığa qoyur.

Eyni zamanda, nəzərə alsaq ki, prosesdaxili müstəvidə iqtisadi hərəkətin digər sferalara proyeksiyası heç də biristiqamətli xarakter daşımır. Digər sferalar da iqtisadi hərəkətə güclü əks-təsir göstərirlər. Hətta o dərəcədə ki, müəyyən mərhələdə onun sürətinin ifrat dərəcədə yavaşımasına, ətalətlə əvəz olunmasına, yaxud «dayanmasına», fərqli konseptual məzmun kəsb etməsinə səbəb ola bilərlər. Məsələn, sosio-iqtisadi və sosio-mədəni sferalar arasında dəyişikliyə münasibətdə proporsionallıq heç vaxt olmur. Sosio-mədəni sferanın yeni keyfiyyət mərhələsinə keçidi birölçülü məntiqlə baş vermir. Yəni, yalnız iqtisadi dəyişikliklərin sözügedən sferada adekvat dəyişikliklər yaratma imkanları ifrat dərəcədə məhduddur. Digər tərəfdən, milli iqtisadiyyatın qloballaşma prosesinə effektli qoşulma imkanları adekvat institusional dəyişikliklərin aparılmasını tələb edir. Həm də bu qəbildən olan dəyişikliklər qloballaşma prosesində əldə edilən müsbət effektlərin nəticə olaraq deyil, həmin effektlərin əldə olunması üçün aparılır. Eyni zamanda, adekvat institusilonal dəyişikliklər təkcə iqtisadi sferada deyil, bütün cəmiyyət miqyasında, ictimai həyatın bütün sferalarında yer alır. Bu anlamda, birmənalı olaraq, qeyd etmək olar ki, institusional dəyişikliklərin aparılmadığı bir situasiyada, qloballaşma yönümlü iqtisadi hərəkətin tezlik dərəcəsindən asılı olmayaraq, hədəflənən nəticəni əldə etmək mümkün olmayacaqdır.

Əgər nəzərə alsaq ki, faydanın qloballaşması – onun transmilli təkrar istehsal tsikllərinin «əlinə keçməsi» deməkdir, onda milli iqtisadi inkişafın dayanıqlılığı probleminin də «qloballaşdığını», onun həllində milli «çərçivənin» yetərsiz olduğunu qəbul etmək zərurəti ilə üzləşəcəyik.

Kəmiyyət və keyfiyyət aspektləri ilə birlikdə məcmu fayda (iqtisadi, sosial, siyasi, ekoloji və s.) və onun zaman etibarı ilə proporsional bölgüsü, mahiyyətcə elə inkişafın dayanıqlılığı deməkdir.

İqtisadi, siyasi, sosial və digər sferalarda müşahidə edilən qeyri-xəttilik sosiumun alt-sistemlərinin getdikcə artan qarşılıqlı bağlılığından doğur və qloballaşmanın məntiqi nəticəsi kimi çıxış edir. Qlobal səviyyədə dayanıqsızlığın güclənməsi prosesi, A.Tolstouxova görə:

1) Kapitalın miqrasiyasının sürətlənməsi;

2) Texniki tərəqqinin güclənməsi;

3) Yanlış qərarların nəticəsi olaraq neqativ proseslərin miqyasca genişlənməsinin sistemli təsiri altında baş verir.

Bununla belə, problemin dərin qatlarında yerləşən və mürəkkəb sistemlərə xas olan statistik asılılıq: Mürəkkəb sistemin parametrlərinin qarşılıqlı bağlılıq dərəcəsi ilə, həmin sistemin dayanıqsızlıq dərəcəsi arasındakı korrelyasiya əlaqəsi həlledici əhəmiyyət kəsb edir. mürəkkəb sistemlər nəzəriyyəsinə görə, sistemin parametrlərinin qarşılıqlı təsir dərəcəsinin yüksəlməsi onun dayanıqsızlığının (sistemin) kəskin formada artmasına gətirib çıxarır.

Hacıyev N.Q.,
iqtisad elmləri üzrə fəlsəfə doktoru
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)

MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCANDA SOSİAL-İQTİSADİ İNKİŞAFIN ƏSAS MƏRHƏLƏLƏRİ

Təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan sosial-iqtisadi inkişaf strategiyasının inamla davam etdirilməsi sayəsində Azərbaycanda yaradılmış sosial-iqtisadi potensial davamlı iqtisadi inkişafı və makroiqtisadi sabitliyi təmin etmişdir. Bu strategiyanın həyata keçirilməsi nəticəsində iqtisadiyyatın diversifikasiyası, qeyri-neft sahələrinin, regionların inkişafı sürətlənmiş, strateji valyuta ehtiyatlarının səmərəli istifadəsi təmin olunmuşdur. Müəyyən edilmiş siyasətin həyata keçirilməsi gələcək illər üçün dayanıqlı inkişafın möhkəm təməlinin yaradılmasına, Azərbaycan Respublikası iqtisadiyyatının dünya iqtisadi sisteminə inteqrasiyasının sürətləndirilməsinə, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına imkan vermişdir.

Respublikanın milli iqtisadiyyatının inkişaf dövrünü 1995-2000-ci, 2001-2005-ci, 2006-2015-ci illərə ayıraraq tədqiq və iqtisadi təhlil edərək gələcək perspektiv istiqamətlərin müəyyən edilməsi üçün əhəmiyyətli nəticələr əldə etmək olar. Belə ki, milli iqtisadiyyatın inkişafının ötən üç dövründə makroiqtisadi və bir çox sahələrdə mikroiqtisadi baxımdan böyük irəliləyişlər olmuşdur.

Əsas makroiqtisadi göstərici olan ÜDM 2015-ci ildə milli iqtisadiyyatın inkişafının birinci dövrünün başlanğıcı 1995-ci illə müqayisədə 25,3 dəfə, ikinci dövrün başlanğıcı 2001-ci illə müqayisədə 10,2 dəfəyə yaxın, üçüncü dövrün əvvəli 2006-cı illə müqayisədə 2,9 dəfə, 2010-cu illə müqayisədə 1,3 dəfə artmışdır. Orta hesabla isə I dövrdə artım 2,1, II dövrdə 2,2, III dövrdə 3,9 dəfə olmuşdur. Ən yüksək göstərici 2013 və 2014-ci illərdə olmuşdur, müvafiq olaraq 58182,0 və 59014,1 milyon manat. Lakin məlum maliyyə böhranı səbəbindən və neft gəlirlərinin aşağı düşməsi səbəbindən 2015-ci ildə aşağı düşmə müşahidə olunmuşdur.

2000-2015-ci illər ərzində neft-qaz və qeyri-neft sektorlarının ÜDM-də real artım templəri və xüsusi çəkisi aşağıdakı kimi olmuşdur (Qrafik 1.)



Qrafik. Neft-qaz və qeyri-neft sektorunun ÜDM-də real artım tempi

Dövlət büdcəsinin gəlirləri təhlil olunan dövrdə çox sürətlə artmışdır. Statistik məlumatlara əsasən onu qeyd etmək olar ki, dövlət büdcəsinin gəlirləri 2015-ci ildə 1995-ci illə müqayisədə 55,2 dəfə, 2001-ci illə müqayisədə 22,3 dəfə, 2006-cı illə müqayisədə 4,5 dəfə, 2011-ci illə müqayisədə 1,3 dəfə artmışdır. Orta hesabla isə I dövrdə dövlət büdcəsinin gəlirlərinin artımı 2,5 dəfə, II dövrdə 2,9 dəfə, III dövrdə 5,5 dəfə olmuşdur. Dövlət büdcəsinin xərcləri haqda isə onu söyləmək olar ki, 2015-ci ildə 1995-ci illə müqayisədə 41,5 dəfə, 2001-ci illə müqayisədə 22 dəfə, 2006-cı illə müqayisədə 4,7 dəfə, 2011-ci illə müqayisədə 1,2 dəfə artmışdır Orta hesabla isə I dövrdə dövlət büdcəsinin xərclərinin artımı 1,9 dəfə, II dövrdə 1,8 dəfə, III dövrdə 5,5 dəfə olmuşdur. Ümumən isə ən yüksək göstərici 2013-ci və 2014-ci illərdə olmuşdur. Gəlirlər müvafiq olaraq 19496,3 milyon manat və 19143,5 milyon manat, xərclər 18400,6 milyon manat və 18709,0 milyon manat.



Qrafik 2. Əsas makroiqtisadi göstəricilərin artım indeksləri

Ölkənin sosial-iqtisadi inkişafının sürətləndirilməsi məqsədilə, ötən illərdə investisiya siyasətinin əsas prioritet istiqamətlərini infrastruktur sahələrinin inkişafı, investisiya resurslarının qeyri-neft sektorunun və regionların inkişafına yönəldilməsinin stimullaşdırılması, regionlar arasında investisiyaların bölgüsünün optimallaşdırılması, ölkədə investisiya fəaliyyətinin sosial istiqamətinin gücləndirilməsi təşkil etmişdir.

Əhalinin gəlirləri 2015-ci ildə 2005-ci illə müqayisədə 5,6 dəfə, 2010-cu illə müqayisədə 1,8 dəfə artmışdır. Orta hesabla isə II dövrdə artım 2 dəfə, III dövrdə 3,2 dəfə olmuşdur. İqtisadi fəaliyyət növləri üzrə muzdlu işçilərin orta aylıq nominal əmək haqqı 2015-ci ildə 2000-ci illə müqayisədə 10,3 dəfə, 2006-cı illə müqayisədə 3,1 dəfə, 2010-cu illə müqayisədə 1, 3 dəfə artmışdır. Orta hesabla isə II dövrdə artım 3,3 dəfə, III dövrdə 2,7 dəfə olmuşdur. Respublikada minimum əmək haqqının dinamikasında böyük irəliləyişlər mövcuddur. Belə ki, minimum əmək haqqı 2015-ci ildə 1995-ci illə müqayisədə 95,5 dəfə, 2001-ci illə müqayisədə 19,1 dəfə, 2006-cı illə müqayisədə 3,5 dəfə, 2011-cı illə müqayisədə 1,1 dəfə artmışdır. Orta hesabla isə I dövrdə minimum əmək haqqının artımı 5 dəfə, II dövrdə 5,5 dəfə, III dövrdə 2,8 dəfə olmuşdur.

İqtisadiyyatın ayrı-ayrı sahələrinə gəlincə isə təhlil aşağıdakıları söyləməyə imkan verir. İqtisadiyyatın və iqtisadi artımın aparıcı sahəsi olan sənayedə mədənçıxarma sənayesi, emal sənayesi, elektrik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsi də daxil olmaqla ÜDM 2015-ci ildə 2000-ci illə müqayisədə 10,9 dəfə, 2005-cı illə müqayisədə 3 dəfə artmış, 2010-cu illə müqayisədə 20% azalmışdır. Orta hesabla isə I dövrdə artım 2,9 dəfə, II dövrdə 6,3 dəfə, III dövrdə 2 dəfə olmuşdur.

Respublikada milli iqtisadi inkişafda özünəməxsus rola malik olan onun ərzaq təhlükəsizliyinin təmin olunmasında aparıcı rol oynayan sahə-kənd təsərrüfatı milli iqtisadi inkişafın ötən üç dövründə aşağıdakı göstəricilərlə yadda qalmışdır. Kənd təsərrüfatında ÜDM 2015-ci ildə 2000-ci illə müqayisədə 4,5 dəfə, 2005-ci illə müqayisədə 2,5 dəfə, 2010-cı illə müqayisədə 1,5 dəfə artmışdır. Orta hesabla isə I dövrdə artım 1,4 dəfə, II dövrdə 1,7 dəfə, III dövrdə 2,1 dəfə olmuşdur. Kənd təsərrüfatında əsas istehsal fondlarının mövcudluğu haqda onu söyləmək olar ki, əsas fondlar 2015-ci ildə 2000-ci illə müqayisədə 2,5 dəfə, 2005-ci illə müqayisədə 2,3 dəfə, 2010-cu illə müqayisədə 1,3 dəfə artmışdır. Orta hesabla isə I dövrdə sənayedə əsas fondların artımı 10 dəfə, II dövrdə 1,3 dəfə, III dövrdə 1,1 dəfə olmuşdur. Kənd təsərrüfatında əsas kapitala yönəldilmiş investisiyalar haqda onu demək olar ki, 2015-ci ildə 2000-ci illə müqayisədə artım 55 dəfə, 2005-ci illə müqayisədə 8,7 dəfə, 2010-cı illə müqayisədə 8,2 dəfə olmuşdur. Orta hesabla isə I dövrdə artım 1,9 dəfə, II dövrdə 9,0 dəfə, III dövrdə 10,6 dəfə olmuşdur.

Milli iqtisadiyyatda son zamanlar aparıcı sahəyə çevrilmiş tikinti sahəsində ÜDM 2015-ci ildə 1995-ci illə müqayisədə 55 dəfə, 2001-ci illə müqayisədə 16,1 dəfə, 2006-cı illə müqayisədə 3,5 dəfə artmışdır. Orta hesabla isə I dövrdə artım 3,9 dəfə, II dövrdə 4,7 dəfə, III dövrdə 2,6 dəfə olmuşdur. Tikinti sahəsində əsas istehsal fondlarının mövcudluğu haqda onu söyləmək olar ki, əsas fondlar 2015-ci ildə 2000-ci illə müqayisədə 4,7 dəfə, 2005-ci illə müqayisədə 3,9 dəfə, 2010-cu illə müqayisədə 1,3 dəfə artmışdır. Orta hesabla isə I dövrdə tikintidə əsas fondların artımı 11,5 dəfə, II dövrdə 2,1 dəfə, III dövrdə 1,8 dəfə olmuşdur. Tikinti sahəsində əsas kapitala yönəldilmiş investisiyalar haqda onu demək olar ki, 2015-ci ildə 2000-ci illə müqayisədə 624,6 dəfə, 2005-ci illə müqayisədə 46,1 dəfə artmış, 2010-cu illə müqayisədə 18,7 dəfə olmuşdur. Orta hesabla isə I dövrdə artım 21,3 dəfə, II dövrdə 3,0 dəfə, III dövrdə 2,5 dəfə olmuşdur.

Müasir dövrdə milli iqtisadiyyatın inkişafında nəqliyyat, informasiya və rabitə sahəsinin də rolu artmaqdadır. Belə ki, sahədə ÜDM 2015-ci ildə 2000-ci illə müqayisədə 7,1 dəfə, 2005-ci illə müqayisədə 4,3 dəfə, 2010-cu illə müqayisədə 1,3 dəfə artmışdır. Orta hesabla isə I dövrdə artım 2,5 dəfə, II dövrdə 2,2 dəfə, III dövrdə 3,5 dəfə olmuşdur. Nəqliyyat, informasiya və rabitə sahəsində əsas istehsal fondlarının mövcudluğu haqda onu söyləmək olar ki, əsas fondlar 2015-ci ildə 2000-ci illə müqayisədə 5,2 dəfə, 2005-ci illə müqayisədə 3,5 dəfə, 2010-cu illə müqayisədə 1,7 dəfə artmışdır. Orta hesabla isə I dövrdə nəqliyyat, informasiya və rabitədə əsas fondların artımı 25,8 dəfə, II dövrdə 1,26 dəfə, III dövrdə 2,2 dəfə olmuşdur. Nəqliyyat, informasiya və rabitə sahəsində əsas kapitala yönəldilmiş investisiyalar haqda onu demək olar ki, 2015-ci ildə 2000-ci illə müqayisədə 50 dəfə, 2005-ci illə müqayisədə 4,3 dəfə artmış, 2010-cı illə müqayisədə 10 % azalmışdır. Orta hesabla isə I dövrdə artım 10,9 dəfə, II dövrdə 9,5 dəfə, III dövrdə 3,9 dəfə olmuşdur.

Keçən dövr ərzində iqtisadi fəaliyyət növləri üzrə yaranmış əlavə dəyərin ÜDM-də xüsusi çəkisinə nəzər yetirsək görərik ki, ən yüksək göstərici mədənçıxartma sənayesində olmuşdur. İqtisadi fəaliyyət növləri üzrə yaranmış əlavə dəyərin ÜDM-də xüsusi çəkisi haqda onu söyləmək olar ki, hal-hazırda yüksək xüsusi çəkiyə malik olan mədənçıxartma sənayesində tədqiq olunan illər ərzində yaranmış əlavə dəyərin ÜDM-də xüsusi çəkisi 4,5 dəfə artmışdır. 1995-ci ildə ən yüksək göstəriciyə malik olan kənd təsərrüfatı, ovçuluq və meşə təsərrüfatında bu göstərici 5,4 % təşkil etmişdir. Lakin bu və iqtisadiyyatın digər sahələrində, emal sənayesində, nəqliyyat, anbar təsərrüfatı və rabitədə yaranmış əlavə dəyərin ÜDM-də xüsusi çəkisinin tədqiq olunan illərdə azalması ancaq nisbi xarakter daşıyır. Düzdür müəyyən müqayisələrdə məhz nisbi göstəricilər önəmli olur, lakin bu halda mədənçıxartma sənayesinin sürətlə və dəfələrlə artımı bu sahələrdəki artımı nisbi göstəricilər baxımdan cüzi edir. Bununla yanaşı topdan və pərakəndə ticarət və xidmət, tikinti sahəsində, daşınmaz əmlakla əlaqədar əməliyyatlarda yaranmış əlavə dəyərin ÜDM-də xüsusi çəkisinin artımını da müşahidə edirik. İqtisadiyyatın istehsal və xidmət sahələrində yaranmış əlavə dəyərin ÜDM-də xüsusi çəkisi haqda bunları söyləmək olar ki, burada vəziyyət qənaətbəxşdir. Belə ki, dünya iqtisadi ədəbiyyatında milli iqtisadi inkişafın əldə olunması üçün strateji inkişaf məqsədlərindən fərqli olaraq bu sahələrin gah birinin gah da digərinin inkişafına önəm verilməsi mühakimələrinə uyğun olaraq respublikamızda bu sahədə tarazlaşdırıcı iqtisadi siyasət aparılır. Belə ki, istehsalın əsas sahəsinin mədənçıxartma sənayesi olduğunu qəbul etsək iqtisadiyyatın istehsal və xidmət sahələrində yaranmış əlavə dəyərin ÜDM-də xüsusi çəkisində tarazlığı görə bilərik.

Milli iqtisadi inkişafda təkcə ÜDM mütləq və nisbi artımı, adambaşına düşən ÜDM-in payı deyil həm də onun effektiv istifadəsi də böyük əhəmiyyət kəsb edir. Respublikada istehsal olunmuş ÜDM-in istifadəsinə nəzər yetirsək görürük ki, xalis ixrac və ixracın ÜDM-də xüsusi göstəricilərindən başqa bütün göstəricilər azalmışdır. Yuxarıda qeyd olunduğu kimi bu azalmalar da nisbi xarakter daşıyır. Son istehlak xərclərini, ev təsərrüfatlarının istehlak xərclərinin, dövlət idarələrinin istehlakının, fərdi istehlakın, kollektiv istehlakın, ictimai təşkilatların istehlakının azalması fonunda

ümumi yığımın, əsas fondların ümumi yığımının sabit qalması xalis ixracın çıxılması şərtilə və ixracın ÜDM-də xüsusi payının yüksək olmasını da nəzərə almasaq milli iqtisadiyyatın inkişafında ÜDM-in düzgün bölüşdürülməsinə dəlalət edir.

İqtisadi fəaliyyət növləri üzrə yaranmış əlavə dəyərin əvvəlki ilə nisbətən artım sürətinə fikir verdikdə görürük ki, kənd təsərrüfatı, ovçuluq və meşə təsərrüfatında ən yüksək artım sürəti 2000-ci ildə, mədənçıxartma sənayesində 2005-2007-ci illərdə, emal sənayesində 2003-2007-ci illərdə, ÜDM-in cəmi artım sürəti isə 2005-2007-ci illərdə olmuşdur. Bunları 2000-ci ildə kənd təsərrüfatında dönüş ililə, 2003-2007-ci illərdə emal sənayesinə investisiyaların, xüsusilə daxili investisiyaların artması ilə kənd təsərrüfatının sürətli inkişafı ilə, ÜDM-in cəmi artım sürətinin isə 2005-2007-ci illərdə böyük vüsət almasını neft ixracının dəfələrlə yüksəlməsilə əlaqələndirmək olar.

Мамедова С.К.,
доктор философии по экономике
Азербайджанский Государственный
Экономический Университет (UNEC)

ОСОБЕННОСТИ РЕАЛИЗАЦИИ НАУЧНОГО ПОТЕНЦИАЛА В РАЗВИТЫХ СТРАНАХ

Одной их характерных особенностей западной науки является гибкость и в этом контексте высокая множественность организационных связей научных учреждений. Так, даже в неспециализированных НИИ идет четкая специализация работников на теоретических и практических конструкторов. Наряду с этим в случае сложного проекта быстро создаются международные научные группы.

Вообще развитые международные исследования чрезвычайно характерны для западной науки. Например, в целях эффективности организовываются международные группы, в которых график работ распределен между странами и исследование идет круглосуточно.

В Европе существуют даже специализированные организации, занимающиеся координацией работы ученых. Так, относительно недавно появилась практика создания «технологических платформ» — площадок для разработки путей развития тех или иных научно-технических областей в рамках всего Европейского Союза.

Вместе с тем, неперспективные научные направления немедленно сворачиваются и это воспринимается как должное. Открываются и закрываются новые структуры, кафедры, лаборатории.

Наука Запада ориентирована на прикладные разработки. Например, в США даже занятие математикой можно организовать, как бизнес. А специалист в области статистической физики Хендрик Ян Хилхорст из Института ядерной физики и физики частиц во Франции сообщает, что в подведомственной ему лаборатории теоретической физики ведутся даже исследования движений

автомобилей в пробках — таким образом, работа в этой области позволяет улучшить дорожное движение в масштабах всей страны.

Научные сотрудники по сути изначально являются бизнесменами и целенаправленно обучаются этому. В результате разрыв во времени между фундаментальным исследованием и его практической реализацией сократился примерно со 150 лет в XIX в. до 20—30 лет сегодня.

Еще одним характерным признаком является децентрализация - существует множество НИИ, свободных и университетских лабораторий, и т. д. Может быть несколько академий в стране. Академики занимаются популяризацией науки, консультированием членов правительства (часто местного), оказывают помощь в организации исследований начинающим ученым, проведение конференций и т. д. Академики отделены от власти, но обладают огромным престижем.Членство в академиях платное, и оно почти не влияет на карьеру, но его нельзя купить, нужно заслужить.

С другой стороны в результате децентрализации структуры становятся более доступными и связь с производством усиливается. При этом университеты все чаще переходят под контроль корпораций с их стандартами администрирования. Например, компания «Форд моторс» заключила с университетом штата Огайо соглашение о контроле качества работы университета со стороны компании «Форд».

Как особенность западной науки можно отметить высокую внутренняя интеграцию между учеными, членами исследовательских групп по разным проблемам в рамках одной специальности – многие хорошо знают друг друга и тесно сотрудничают и помогают, даже если не включены в один проект.

Отдельно нужно отметить особенности финансирования научных исследований в странах Запада. Финансирование происходит не по целым учреждениям, а конкретным научным лабораториям или даже определенным проектам или ученым. Это способствует перетоку капитала в наиболее необходимые отрасли науки и повышению производительности труда. Финансируется то, что приносит прибыль. Так, в США, в динамике менялась структура расходов на научные исслледования. Росли ассигнования на математику, биологию, при этом снижались доли затрат на технические и естественные науки, поскольку в данных областях был переизбыток разработок.

Вложения в науку являются очень прибыльными и расходы на научные исследования постоянно растут. При этом соотношение частных и государственных расходов разнится по странам. Впрочем, фундаментальные исследования всегда больше поддерживались государством, нежели частным сектором. Целью государственных грантов является получение готовой разработки, причем гранты выделяются в достаточно крупных суммах. Так, средний грант во Франции — около 100 тыс. евро в год, мелкий — 10 тыс. евро. Средний грант в США — примерно 100 тыс. долларов в год.

Финансирование ученого также высокое. Зарплата ученого в Канаде 9435 долларов в месяц, В Великобритании - 8369долл, В Германии – 6383 долл(5, с. 24).В США на одного исследователя тратится около 230 тыс. долларов в год, в Японии — около 164,5 тыс.— 30 тыс. При этом разница зарплат между высшими

и низшими должностями на Западе невелика. Так, во Франции такой перепад всего лишь 4-кратный. Если же взять зарплаты именно в сфере высшего образования, то разрыв в среднем не более чем 2-кратный. В пересчете на покупательную способность (в долларах США) в Японии на низших должностях зарплата — 2897 долларов, а на высших — 4604; во Франции на низших — 1973, а на высших — 4775; в США на низших — 4950, на высших — 7358; в Германии на низших — 4885, на высших — 6383. Во Франции любой ученый неизбежно уходит на пенсию в 65 лет: он может участвовать в исследованиях и в более преклонном возрасте, но ему уже не платят зарплату, т. к. после указанного возраста его эффективность как ученого сильно падает, — и его место может занять более продуктивный исследователь.

Как видно, система финансирования науки на Западе нацелена на максимально эффективное использование труда исследователей.

Qurbanov T.M .,
iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
AMEA-nın İqtisadiyyat İnstitutu

DAYANIQLI İQTİSADİYYATIN TƏMİN OLUNMASINDA TSİKLİK İNKİŞAFIN ROLU

Bazar iqtisadiyyatı sistemi özünütənzimləmə prinsipi baxımından makroiqtisadi tarazlığın təmin olunması və qeyri-bərabərliyin dəyişilməsi ilə daha çox xarakterizə olunmaqdadır. Məlumdur ki, bütün ölkələrdə həyata keçirilən tənzimləmə iqtisadi tsiklin fazaları üzrə, müxtəlif istiqamətli və inkişaf xarakterli formada olur. Bazar iqtisadiyyatının bir makroiqtisadi vəziyyətdən digərinə keçidi elmi ədəbiyyatlarda iqtisadi inkişaf dövrü, yəni tsikllər adlanır.

XIX əsrdən başlayaraq tsikllərin elmi cəhətdən izahı verilmişdir. Sistemli yanaşma kimi K.Marksı, kapitalizmin inkişafı ilə əlaqələndirərək tədqiq edən klassiklərdən D. Rikardo, J.B. Sey, C. Mill və başqalarını göstərə bilərik. Onlar daha çox iqtisadi tsiklin böhran fazasına uyğun fikirlər irəli sürərək iddia edirdilər ki, böhranların başlıca səbəbi kapitalizmdə istehsal və onun nəticəsinin mənimsənilməsi arasındakı ziddiyyət nəticəsində meydana çıxır. Əsas kapitalın vaxtaşırı yenilənməsi, istehsalın fasiləsiz artımı səmərəli tələbin ödənilməsi baxımından ziddiyyətləri meydana çıxarır və nəticədə kapitalizm sistemində böhran yaranır. K.Marksa görə, kapitalizmdə yaranan tsikllər özünün dörd əsas fazası ilə xarakterizə olunur. Onlara böhran, depressiya, canlanma, yüksəliş fazaları aiddir.

Daha sonra tsikllərlə bağlı neoklassik məktəbin nümayəndələrindən olan C.Klark, C.Xiks, J.Şumpeter. U.Mitçell göstərirdilər ki, iqtisadi tsikllərin əsas fazalarından olan böhranların yaranmasının əsas səbəbi iqtisadiyyatda endogen və ekzogen amillərdir. Endogen amillərə əsas fondların fiziki və mənəvi köhnəlməsini, investisiya qoyuluşlarını, əhali gəlirlərinin səviyyəsini, dövlət sifarişlərini, ekzogen amillərə isə fövqəladə vəziyyətləri, təbii fəlakətləri aid etmişlər. Müasir iqtisadi nəzəriyyəyə bax-

dıqda isə tsikllər konyukturanın vəziyyətindən asılı olaraq qısamüddətli (3-4 il), orta-müddətli (5-10 il) və uzunmüddətli (20 idən artıq) dövrlərə bölündüyünü görmək olar.

XX əsrin ortalarından başlayaraq iqtisadi nəzəriyyədə gələcək dövr üçün artımın proqnozlaşdırılması həyata keçirilməyə başlanıldı. Bu amil iqtisadi proseslərin uzun-müddətli dövr üçün hesablanması, tsikllərin fazaları üzrə mürəkkəb olmasına gətirib çıxartdı. Nəzərə almaq lazımdır ki, həmin dövr kapitalizm dünyası üçün fiskal və monetar nəzəriyyələrin iqtisadiyyatda nə dərəcədə tətbiqi ilə daha çox xarakterizə edilirdi. Tsiklik nəzəriyyələrdə hal-hazırda dalğalı inkişafın bir neçə klassifikasiyası mövcuddur. S.M.Menşikov və L.A.Klimenkoya görə bu klassifikasiyalara aşağıdakı amillər daxildir:

1. Dalğalanmanın yaranmasında maliyyə amillərinin əsas yer aldığı monetar və kredit konsepsiyaları;

2. Təkrar istehsalda kapitalın faydalılığının dəyişməsinin əsas amil kimi nəzərə alındığı tsiklik dalğalanmanın baş verdiyi konsepsiyalar (Kondratyev, Mandel, Forrester);

3. Dalğa yaradan, iqtisadi inkişaf trendindən kənara çıxan istehsalın ayrıca amili kimi təklif olunan dalğalanmalara səbəb kimi baxılan nəzəriyyələr (Fridmen nəzəriy-yəsi-əmək çatışmazlığı və artıqlığının növbələşməsi), Rostou (ərzaq, xammal çatış-mazlığı və artıqlığı) Kreyq və Uatta nəzəriyyələri.

4. İqtisadi sistemin uzun dalğalarda bir iqtisadi tarazlıq səviyyəsindən digərinə keçidinə əsaslanan neoşumpeter konsepsiyaları. Bu nəzəriyyədə əsas diqqət belə keçidin maddi əsasını təşkil edən yenilənmiş klasterlərə yönəldilir. (Menş, Veydlix, Uordl, Viykamp konsepsiyaları və s.)

5. Əsasən təsərrüfat və siyasi institutlar tərəfindən uzun dalğalar yaradan insti-tusional konsepsiyalar (Press-Press, Çandler, Skrepanti nəzəriyyələri və s).

Lakin ümumi olan tərəf əsas diqqətin investisiya üzərində cəmlənməsinə yönəl-mişdir. Bu aspektdən tsiklik inkişaf investisiya yönümlü olmuş, özündə daha çox elmi-texniki tərəqqini birləşdirmişdir.

Tsiklik inkişafın təmin olunmasında investisiyanın istehsal sferasından digər sferaya, insan kapitalına və elmi-texniki biliklərə yönəlməsi artıq bu inkişafın amil tutumluluğunu ortaya qoydu. İnvestisiyanın maddi istehsal sferasından qeyri-maddi sferaya yönəlməsi nəticəsində ölkə iqtisadiyyatlarında makrotarazlıq pozulmağa doğru getmiş, nəticədə tsiklik inkişaf daha çox tənəzzül və böhranlarla xarakterizə olunmuş-dur. İqtisad elmində buna daha çox təkrar istehsal proporsiyalarının pozulması deyilir. Nəticədə:

- böhranların dövri olaraq pozulması baş verir;
- qısamüddətli və yüksək effektə malik olur;
- iqtisadiyyatın təkcə bir sahəsi deyil (məsələn, maliyyə sektoru, istehsal sferası və s.), bütünlükdə əhatə olunması;
- milli iqtisadiyyatın bütün sahələri üzrə əlaqələrin pozulması;
- ifrat istehsalın məhdud istehlakla xarakterizə olunması;
- təsirlərin iqtisadi inteqrasiyanın genişlənməsi ilə qlobal xarakter alması.

Tsiklik inkişafın sadalanan amillər çərçivəsində özünün dayanıqlılığını təmin etməsi müasir dövrün ən aktual problemlərindən biridir. Tsiklik inkişaf nə qədər böhranlara əks mövqedən çıxış etsə də, hesab olunur ki, qeyd olunan dayanıqlılığın təmin olunması üçün mütləq böhranların idarə edilməsi strategiyası hazırlanmalıdır. Bu strategiya böhrana qədər, böhran mərhələsi və böhrandan sonrakı dövr kimi üç istiqamətdə öyrənilməlidir.

Tsiklik inkişafın ən vacib amillərindən biri də vaxt amilidir. İnkişaf baxımından tsikllərin dövrünün uzun olması nə qədər arzu ediləndirsə, böhran dönəmində onun qısa olması bir o qədər məqsədəuyğun sayılır. Buna görə də klassik tsiklik inkişaf yanaşmasından dinamik və tərəddüdlü yanaşmaya keçid zəruridir. Bu yanaşma özlüyündə böhranlı inkişafı xarakterizə etməklə iqtisadi artıma nail olmanı özündə birləşdirir. Yəni milli iqtisadiyyatda birmənalı olaraq iqtisadi inkişafın, əgər o dayanıqlılığı təmin etmirsə, müsbət hal kimi qiymətləndirmək olmaz. Məqsədəuyğundur ki, tsiklik inkişafın böhranlı fazasına uyğunlaşmanı dövlətlər başlıca iqtisadi hədəf kimi seçsinlər. Bunun üçün aşağıdakı addımların atılması təklif olunur:

- iqtisadi artımın dairəvi deyil, dalğavari hərəkəti təmin olunsun;
- tsiklin hər fazaları üzrə mərhələlər müəyyən edilsin və məsləhətdir ki, iqtisadi dövrləşmə tsiklik dövlət proqramları ilə təmin olunsun;
- maliyyə sektoru və istehsal sferası arasında təkcə bazar tarazlığıı ilə deyil, həmçinin iqtisadiyyatın digər sahələri də nəzərə alınaraq proporsiyaların müəyyən olunması təmin olunsun;
- makroiqtisadi proseslərin uzunmüddətli dövr üçün proqnozlaşdırılması həyata keçirilməlidir. Burada uzunmüddətli dövr dedikdə, konkret ölkədə proqnozlaşdırmanın tsiklik dövrü də əhatə etdiyi müddət başa düşülməlidir.

Nəticə olaraq qeyd etmək lazımdır ki, iqtisadi artımın dayanıqlılığını təmin etməkdən ötrü tsiklik inkişafın qanunauyğunluqları öyrənilməli, ziddiyyətli məqamlar üzə çıxarıl-malı, onun hər bir fazasının mərhələləri müəyyən olunmalı və tsiklik inkişaf proqramları hazırlanmalıdır.

Fətəliyeva G.A., elmi işçi
AMEA-nın İqtisadiyyat İnstitutu

İNFORMASİYA-KOMMUNİKASİYA TEXNOLOGİYALARI SEKTORUNDA MƏŞĞULLUQ MƏSƏLƏLƏRİ

Yüksək texnologiyalara və innovasiyalara əsaslanan iqtisadiyyatın başlıca amillərindən biri insan resursunun inkişafıdır. Bu səbəbdən ölkəmizdə informasiya cəmiyyəti quruculuğu istiqaməti üzrə, eləcə də iqtisadiyyatda yüksək səmərəliliyə nail olunması üçün insan resursunun inkişafına, yüksək hazırlığa malik kadr potensialının formalaşdırılmasının təmin edilməsinə böyük diqqət ayrılır. Ümumiyyətlə, informasiya cəmiyyətini xarakterizə edən əsas göstəricilərdən biri məşğulluqda informasiya və bilik sektorunda çalışanların üstün paya malik olmasıdır. İqtisadi İnkişaf və Əməkdaş-

lıq Təşkilatının (İƏİT) təyinatına görə, İKT mütəxəssisləri dedikdə, İKT sistemlərini istifadə və idarə etmək, inkişaf etdirmək bacarığı olan şəxslər başa düşülür. İKT həmin şəxslərin işlərinin əsas hissəsini təşkil edir.

Dünya ölkələrində İKT sektorunda məşğulluğun mövcud durumu

İKT sektorunda fəaliyyət göstərən işçilərin ümumi məşulluqda xüsusi çəkisi dünya ölkələri üzrə fərqlənir. Belə ki, 2015-ci ildə bu göstərici Cənubi Koreya, Estoniya, Lüksemburq, Finlandiya, İsveçrə, Yaponiya, İsveç, Macarıstan, ABŞ kimi dövlətlərdə 4% və ondan yüksək olduğu halda, Birləşmiş Krallıq, Kanada, Danimarka, Avstraliya, Almaniya, Fransa, İrlandiya, İtaliya, Avstriyada 3% ətrafında dəyişmiş, Litva, Portuqaliya, Yunanıstan, Meksikada isə 2%-dən aşağı təşkil etmişdir. Qeyd etmək lazımdır ki, bu gün İKT sektorunda istehsal sahəsi ilə müqayisədə xidmət sahəsi üstün paya malikdir (80%). Məhz bu səbəbdən də, sektorda çalışan işçilərin əksər hissəsi məhz İKT sektorunun xidmət sahəsində çalışmışlar. İKT sektorunda məşğul əhalinin sayına görə öncül ölkələr sırasına Çin (14693 min nəfər), Hindistan (6471 min nəfər), ABŞ (4138,6 min nəfər), Yaponiya (2275,5 min nəfər), Braziliya (1259,2 min nəfər), Cənubi Koreya (1087,7 min nəfər), Rusiya (1002 min nəfər), Tayvan (989,4 min nəfər), Kanada (472,2 min nəfər), Avstraliya (299,9 min nəfər) və s. daxildir. Avropa məkanında İKT sahəsində məşğul olanların sayının çoxluğuna görə ilk yeri Birləşmiş Krallıq (1608,2 min nəfər) tutur. Almaniya (1541,1 min nəfər), Fransa (1003,8 min nəfər), İtaliya (584,8 min nəfər), İspaniya (557,6 min nəfər) ilk beşliyi tamamlayır. Qonşu Türkiyədə İKT sektorunda çalışan mütəxəssislərin sayı 245,2 min nəfər, bu işçilərin ümumi məşğulluqda payı isə 0,9% təşkil etmişdir. Şimali Avropa ölkələrində bu göstərici ümumilikdə 713,3 min nəfər, Baltikyani ölkələrdə 87,9 min nəfər olmuşdur.

Azərbaycanda İKT sektorunda məşğulluğun müasir vəziyyətinin təhlili

Respublikada 2010-2015-ci illər ərzində İKT sektorunda çalışan işçilərin siyahı sayında dinamik yüksəlmə müşahidə edilmiş, yalnız 2016-cı ildə işçilərin sayında 10,4% və ya 2,1 min nəfər azalma olmuşdur. Sektorda fəaliyyət göstərən muzdlu işçilərin iqtisadiyyatın bütün sahələrində işləyən işçilər üzrə payı isə elə də böyük deyildir. Belə ki, 2016-cı ildə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1514,0 min nəfər olmuşdursa, onun 1,2%-ni, yəni 18 min nəfərini İKT sekorunda çalışan işçilər təşkil etmişdir. Ümumilikdə isə bu göstərici 2010-2016-cı illərdə 1,2-1,4% arasında dəyişmişdir (Diaqram 1).

Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən demək olar ki, İKT sektorunda çalışan işçilərin orta illik sayında 2010-2016-cı illərdə 1,1 dəfə və ya 5,3% artım olmuş və bu say 26078 nəfər təşkil etmişdir. 2016-cı ildə onların 14098 nəfəri rabitə sahəsində, 6074 nəfəri poçt sektorunda, 5906 nəfəri isə informasiya sahəsində fəaliyyət göstərmişdir. Dünyada olduğu kimi, respublikamızda da İKT sektorunda istehsal sahəsindən fərqli olaraq xidmət sahəsi böyük paya (80%-dən yüksək) malikdir. Bu baxımdan sektorda məşğul olan əhalinin əksər hissəsi məhz İKT-nin xidmət sahəsində fəaliyyət göstərir.

Diaqram 1.

Azərbaycanda İKT sektorunda məşğulluğun statistik göstəriciləri



Qeyd etmək lazımdır ki, son illər ərzində ölkəmizdə informasiya və rabitə sektoru üzrə orta aylıq əməkhaqqı dinamik artımla müşayiət olunmuşdur. 2016-cı il üçün olan məlumata görə, sektor üzrə orta aylıq əməkhaqqı əvvəlki il ilə müqayisədə 4,7% artırılaraq 782 manata çatdırılıb. Bu, 2010-cu ilin göstəricisindən 250,7 manat çoxdur. İKT sektorunda orta aylıq nominal əmək haqqı iqtisadiyyatın digər sahələri ilə müqayisədə daha yüksək olmuşdur.

Bütün sahələrdə olduğu kimi, İKT sektorunun da inkişafı savadlı kadr potensialının mövcudluğu ilə ölçülür. Respublikamızda İKT sektorunda məşğulluğun payının artırılması, mütəxəssislərin yetişdirilməsi qarşıda duran vacib məsələlərdəndir və intellektual kadrların hazırlanmasına xüsusi önəm verilir. Azərbaycanda İKT sektorunda məşğulluğun müasir vəziyyətinin təhlilinin nəticəsi göstərir ki, ölkəmiz həm sektorda çalışan işçilərin sayına, həm də ölkə üzrə ümumi məşğulluqda payına görə yuxarıda müqayisə edilən dünya ölkələrindən geridə qalır. Bu gün ölkəmizdə İKT sektorunda əsas problemlərdən biri də yüksək ixtisaslı mütəxəssislərin azlığının müşahidə olunmasıdır. Araşdırmalar göstərir ki, son dövrlərdə bir çox İT mütəxəssislər ölkəmizi tərk edərək xarici dövlətlərdə çalışmağı üstün tuturlar. Bu isə respublikamızdan xaricə "beyin axını"nın davam etdiyini göstərir. Fikrimizcə, bu kimi məsələlərin başlıca səbəbi İKT-nin ölkəmizdə yeni sahə olmasıdır.

Respublikada İKT sahəsində peşəkar milli kadrlar və yeni nəsil mütəxəssislərin hazırlanması ilə bağlı intensiv tədbirlər həyata keçirilməkdədir. Bu sahədə olan çatışmazlıqlar və onların aradan qaldırılması məsələləri bir sıra dövlət əhəmiyyətli sənədlərdə də öz əksini tapmışdır. Belə ki, "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyası çərçivəsində İKT üzrə nəzərdə tutulan prioritet vəzifələrdən biri yüksəkixtisaslı mütəxəssislərin və elmi kadrların hazırlanmasıdır. Ölkəmizdə İKT üzrə kadr hazırlığı işləri təkmilləşdirilir. Yüksəkixtisaslı mütəxəssislərə və elmi kadrlara artan tələbatın ödənilməsi məqsədilə Azərbaycan Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin (hazırda NRYTN) təşəbbüsü və İKT sahəsində fəaliyyət göstərən 12 şirkətin iştirakı ilə İKT-nin İnkişafı Naminə İnsan Resursları Fondu yaradılıb. Fondun əsas məqsədi Azərbaycanın İKT sektorunda mövcud kadr çatışmazlığını aradan qaldırmaq, bu istiqamətdə müvafiq tədbirlər həyata keçirməkdir. Fond tələbələrin infor-

masiya texnologiyaları və əlaqəli ixtisaslar üzrə ABŞ, Fransa, İngiltərə, Norveç, Ukrayna və dünyanın digər ölkələrinin aparıcı təhsil müəssisələrində təhsil almasına maliyyə yardımı edir. Bundan əlavə, informasiya cəmiyyəti quruculuğu istiqaməti üzrə yüksək hazırlığa malik kadr potensialının formalaşdırılmasını təmin etmək məqsədi ilə 2013-cü ildə İnformasiya Texnologiyaları Universiteti yaradılmışdır. Kadr hazırlığı işinin təkmilləşdirilməsi istiqamətində yerli və xarici universitetlər, beyin mərkəzləri ilə sıx əməkdaşlıq da böyük fayda verir. Bununla əlaqədar dünyanın bir neçə tanınmış informasiya texnologiyaları universiteti ilə əlaqələr qurulub.

Hüseynova M.M., doktorant
Bakı Biznes Universiteti

MÜASİR İNKİŞAF MƏRHƏLƏSİNDƏ TELEVİZİYADA İQTİSADİ MAARİFLƏNDİRMƏ MƏSƏLƏSİ

Dünya sürətlə dəyişir, ölkələr bir-biri ilə inteqrasiya edir, insanların rifahı və yaşam şərtləri yüksəlir, ciddi keyfiyyət dəyişiklikləri baş verir. Bütün bu uğurlu göstəricilər, təbii ki, ölkəmizdən də yan keçmir, Azərbaycan günü-gündən daha da böyük uğurlara imza atır, hər bir sahədə ciddi nailiyyətlər qazanılır, ictimai həyatın bütün sahələri yeniləşir, dünya standartlarına cavab verən yeni texnologiyalar tətbiq olunur. Belə bir şəraitdə isə əhalinin baş verən proseslər haqqında maarifləndirilməsi, hadisələrdən xəbərdar olması vacib şərtlərdən birinə çevrilir. Əhalinin maarifləndirilməsi prosesində kütləvi informasiya vasitələrinin məsuliyyəti əhəmiyyətli dərəcədə artır.

Xüsusilə müxtəlif iqtisadi proseslərin cərəyan etdiyi və sürətlə dəyişdiyi müasir dövrdə iqtisadi maarifləndirmə məsələsi aktual xarakter daşımağa başlamışdır. İqtisadi maarifləndirmənin tarixinə nəzər saldıqda onun mətbuat tarixinin elə ilk dövrlərindən özünü göstərdiyinin şahidi oluruq. Hətta ilk qəzetlər "Xəbər məktubları" adı ilə alınıb-satılacaq mallar haqqında məlumatlardan ibarət olduğundan limanlarda tacirlərə satılırdı. Həmçinin, dünyanın ilk xəbər agentliyi olan Havasın (Fransa) da yaradılmasında məqsəd iqtisadi hadisələr haqqında abunəçilərinə məlumat vermək olmuşdur.

İlk dövrlərdə kütləvi informasiya vasitələrində iqtisadi maarifləndirmə bir qədər ləng inkişaf etsə də, son illərdə ciddi yüksəliş əldə edərək televiziya proqramlarında xüsusi sahələrdən birinə çevrilmişdir. Xüsusilə, iqtisadi proseslərin insanların gündəlik həyat tərzinə təsiri məsələsi onun önəmini daha da qabartmışdır. Bütün bunların nəticəsidir ki, bir çox ölkələrdə sadəcə iqtisadi xəbərçiliklə məşğul olan ixtisaslaşdırılmış televiziya kanalları olduğu halda, başqa kanallarda da iqtisadi xəbərlər və proqramlar çox mühüm yer tutur.

Dünyada, eləcə də Azərbaycanda kütləvi informasiya vasitələri ölkədə gedən ictimai-siyasi, iqtisadi, sosial, mədəni proseslər haqqında cəmiyyətin məlumatlandırılması, həmçinin ictimai həyata dair müxtəlif aktual problemlərin müzakirəsi və çox zaman həlli məsələsində hər zaman əhəmiyyətli rol oynamışdır. Ölkəmizin son dövrlərdə qazandığı çoxsaylı uğurların, milli-mənəvi dəyərlərin, adət-ənənələrin təbliğində, beynəlxalq aləmdə ölkəmiz haqqında təsəvvürlərin formalaşmasında, cəmiyyətin maariflənməsində televiziyanın rolu xüsusilə qeyd edilməlidir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra KİV-in, o cümlədən televiziyanın cəmiyyətdə oynadığı rol köklü surətdə dəyişmişdir. Televiziyanın cəmiyyət həyatında, ictimaiyyətin bütün istiqamətlərdə maarifləndirilməsində xüsusi rolunu nəzərə alan ümummilli lider Heydər Əliyev də Azərbaycan televiziyasını «xalqımızın milli sərvəti» kimi dəyərləndirmişdir.

Operativlik və qavrayış bütövlüyünə nail olmaqla bərabər, ictimai fikrə təsir imkanları baxımından da televiziya daha böyük üstünlüklərə malikdir. Televiziya bu məsələlərin həllinə balanslaşdırılmış proqram siyasəti həyata keçirməklə, ictimai maraqlara xidmət edən obyektiv verilişlər təqdim etməklə, yüksək efir mədəniyyəti prinsiplərinə söykənməklə nail olur. Burada da ilk olaraq televiziyanın maarifləndirmə funksiyası daha böyük önəm kəsb edərək, digər iki funksiya ilə (məlumatlandırmaq və əyləndirmək) müqayisədə daha əsaslı xarakter daşımağa başlayır.

Əslində nəzəri cəhətdən diqqət yetirdikdə digər iki funksiyanın da özlüyündə maarifçilik missiyasını həyata keçirdiyini görürük. Yəni, məlumatlandırmağın özü də bir növ maarifləndirməkdir və ya əyləndirməklə həm də tamaşaçıya yeni bir informasiya verilir. Məsələn, yayımlanan hansısa əyləncəli veriliş iştirakçılara sual verərək tamaşaçını da bir növ düşündürür və sualın cavabının tapılması ilə həm də maarifləndirir. Hazırda mövcud kütləvi informasiya vasitələri arasında öz imkanları ilə ictimai rəyə daha çox təsir edən sahələr içərisində televiziya daha öndədir.

Bu funksiya həmçinin "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının qanununun 32-ci maddəsində də öz əksini tapmış, televiziya proqramları üçün qoyulmuş tələblər sırasında maarifçilik məsələsi xüsusilə qeyd edilmişdir.

Müasir dövrdə televiziya özünün maarifçilik funksiyasından çıxış edərək, cəmiyyətin sosial, siyasi, iqtisadi, mədəni, idman və digər hadisələr haqqında geniş informasiya əldə etməsində mühüm rol oynayır. Televiziya ictimai əhəmiyyət kəsb edən müxtəlif məsələlərin müzakirəsi, vətənpərvərlik, uşaqların və yeniyetmələrin intellektual inkişafı ilə bağlı maarifləndirmə proqramları nümayiş etdirməklə zəngin mədəni irsimizin, milli-mənəvi dəyərlərimizin qorunması və təbliğinə də öz töhfəsini vermiş olur.

İqtisadi maarifləndirmənin də rolu müasir inkişaf mərhələsində günü-gündən artmaqda və daha önəmli xarakter daşımaqdadır. Çünki öz operativliyi ilə digər KİV-dən seçilən televiziya vasitəsilə baş verən proseslərdən dərhal xəbərdar olmaq imkanı xüsusilə iqtisadi baxımdan ciddi əhəmiyyətə malikdir. Çünki, məhz bunun sayəsində ilk növbədə, iqtisadi fəaliyyət göstərən, bizneslə məşğul olan hər bir insan düzgün fəaliyyət planı seçə bilərlər.

KİV-də, o cümlədən televiziyada tamaşaçılara davamlı olaraq iqtisadi proseslər haqqında məlumatlar çatdırılır, iqtisadi maarifləndirmə məsələsi həyata keçirilir. Bunlara, əsasən birja, valyuta və qızıl qiymətlərindəki dəyişikliklər, ehtiyac olduqda mühüm proseslər haqqında canlı yayımlarla şərh və analizlərin təqdim olunduğu verilişləri aid etmək olar. Bir qayda olaraq, iqtisadi xəbərlərin təqdimində, adətən, ölkədaxili və ölkəxarici iqtisadi proseslər haqqında məlumatlara yer verilir. Əksər hallarda bu xəbərlərdə yalnız jurnalistin məlumatlandırıldığı iqtisadi məsələlər əhatə olunur. Lakin daha çox cəmiyyəti düşündürən, onları maraqlandıran məsələlərə diqqətin artırılması, hər bir sosial qrupun nəzərə alınması vacibdir.

Aparılan ictimai rəy sorğuları onu deməyə əsas verir ki, cəmiyyətin düzgün maarifləndirilməsi məqsədilə televiziya müxbirlərinin əsaslı proqnoz verməkləri də tamaşaçılar tərəfindən maraqla qarşılanır. Lakin bu və ya digər məsələlər, xüsusilə iqtisadi hadisələr haqqında proqnoz verərkən həddən artıq diqqətli olmaq, real faktlara əsaslanmaq lazımdır. Çünki mütləq doğru məlumat çatdırılması məsələsi iqtisadi xəbərlərdə daha böyük önəm kəsb edir və hər bir xəbərin, xüsusilə iqtisadi məlumatların bir neçə mənbədən dəqiqləşdirilərək çatdırılması çox vacibdir. Özəlliklə iqtisadi hadisələrin cəmiyyətə çatdırılmasında vacib amillərdən biri də iqtisadi-sosial rəqəmlərin düzgün çatdırılması məsələsidir. Təcrübə göstərir ki, çoxsaylı statistik rəqəmlər yorucu xarakter daşıyır və heç də bütün əhali qrupu tərəfindən anlaşılan deyildir. Ona görə də maarifləndirmə funksiyasını nəzərə alaraq, açıqlanan hər hansı bir informasiyanın anlaşıqlı olması üçün onun daha uyğun bir rəqəmlə müqayisəsi məqsədəuyğundur. Bu, məlumatı qəbul edən tamaşaçı qrupunun həmin informasiyanı daha asan qavramasına və başa düşməsinə səbəb olacaqdır.

Televiziya sahəsində çalışan və cəmiyyətin iqtisadi hadisələrdən məlumatlı olmasında xüsusi rol oynayan jurnalistlərin hər hansı cədvəl və ya qrafiklə məlumatları çatdırdığı zaman daha diqqətli olması çox önəmlidir. Cədvələ baxan, iqtisadi biliyi az olan tamaşaçı belə onu asanlıqla dərk edə bilməlidir.

Cəmiyyətin iqtisadi cəhətdən maarifləndirilməsində əsaslı rol oynayan jurnalistin aşağıdakı xüsusiyyətlərə sahib olması vacib amillərdən hesab olunur:

- iqtisadi xəbərlərdə istifadə olunan ifadə tərzinə bələdlilik, xəbərə hakim olmaq bacarığı;
- iqtisadi sahəyə maraq;
- iqtisadi statistika ilə işləmək və təhlil etmək;
- bazara daim nəzarət və ani dəyişikliklərdən xəbərdar olmaq;
- xəbəri təqdim edərkən konkret olmasına, tamaşaçını lazımsız və anlaşılmaz informasiyalar ilə sıxmamağa çalışmaq;
- çox xırda səhvə belə yol verməmək;
- çox güclü əlaqələr yaratmaq, güclü və etibarlı xəbər mənbələrinə sahib olmaq;
- araşdırma apara bilmək bacarığına malik olmaq;
- düzgün və səlis nitq;
- xarici xəbərlərin tərcümə və ya təhlil edilməsi, eyni zamanda, hər hansı vacib informasiya ilə bağlı xarici mənbəyə müraciət ehtimalı ilə əlaqədar ən azından bir xarici dil biliyinin olması.

İqtisadi xəbərlərdə istifadə olunan ifadə tərzi dedikdə, əsas olaraq terminləri bilmək və onları düzgün, yerində işlədə bilmək nəzərdə tutulur. Lakin nəzərə alsaq ki, tamaşaçıların çoxu iqtisadi terminlərə bələd deyil, onların geniş əhali kütləsi üçün daha anlaşıqlı olan sinonimləri ilə əvəz edilərək istifadəsi məqsədəuyğundur. Xəbərə hakim olan jurnalist üçün bunlar sadə dəyişikliklərdir, çünki jurnalist nə demək istədiyini və ona baxan auditoriyanı necə başa salacağını bilir.

Maarifləndirmə, xüsusilə də iqtisadi sahəyə aid xəbərlərin çatdırılmasında jurnalistin xəbərə bir növ "can qoyması" önəmlidir. Çünki maraqsız yanaşılan xəbər

auditoriya maraqlarına da cavab verməyəcəkdir. Buna görə jurnalistin öz peşəsinə və seçdiyi sahəyə maraq göstərməsi vacib amillərdəndir.

İqtisadi xəbərlərlə işləyən jurnalistlər digər sahədən yazan jurnalistlərə nisbətən rəqəmlərlə daha çox qarşılaşırlar. Buna görə, bu sahədə çalışan jurnalistlərin statistika ilə işləmək bacarıqları olmalıdır. O, qarışıq cədvəllərdən, qrafiklərdən hər kəsin anlayacağı xəbərlər hazırlamağı bacarmalıdır.

Cəmiyyət durmadan dəyişir və ictimaiyyət də ani dəyişikliklərdən anında xəbərdar olmaq istəyir. Bu isə jurnalistdən operativlik və cəldlik tələb edir. Ona görə də nəinki iqtisadi sahədən yazan, eləcə də bütün jurnalistlər yenilikləri daim nəzarətdə saxlamalı, xəbərləri "isti-isti" cəmiyyətə təqdim etməlidir.

Bəzən xəbər anonslarında hansısa hadisə haqqında maraqlı informasiya ilə rastlaşırıq, lakin xəbərin özündə tamamilə ayrı məlumat təqdim olunur. Yaxud da xəbərin əsas mövzusu bir kənarda qalır və fərqli məsələlər haqqında məlumat verilir. Bu isə tamaşaçı maraqlarına cavab vermir, həm də etik cəhətdən düzgün hesab olunmur. Buna görə də xəbəri təqdim edərkən konkret olmasına, tamaşaçını lazımsız və anlaşılmaz informasiyalar ilə sıxmamağa çalışmaq lazımdır.

Xəbərlərdə, xüsusilə iqtisadi məlumatlardan söhbət gedirsə və rəqəmlər varsa, daha diqqətli olmaq lazımdır. Bir rəqəmin belə səhv getməsi, həm jurnalist, həm də onun çalışdığı kanal üçün xoş olmayan bir reputasiyanın formalaşması ilə nəticələnə bilər.

Jurnalistin etibarlı xəbər mənbələrinə sahib olması da onun yazacağı hər bir xəbərin dəyərini artıran amillərdəndir. Çünki xəbər mənbələrinə müraciət etməklə o, həm yazacağı xəbərin daha dəqiq olduğuna əmin olur, həm tamaşaçıya xəbərini hardan əldə etdiyini göstərməklə onu inandırır və etibarını qazanır, həm də məlumatın yanlış olduğu təqdirdə xəbərin sırf öz təxəyyülünün məhsulu olmadığını təsdiq etmək imkanı qazanır. Lakin çalışmaq lazımdır ki, verilən informasiyalarda səhvə yol verilməsin və məlumat etibarlı mənbələrdən əldə edilsin. Nəzərə almaq lazımdır ki, hər bir jurnalist həm də çalışdığı kütləvi informasiya vasitəsini təmsil edir.

Araşdırma apara bilmək jurnalistdən xüsusi bacarıq tələb edir. Bunun üçün onun faktlara bələdliyi və onlarla işləyə bilmək, analiz etmək, tamaşaçı üçün maraqlı və məlum olmayanı aşkara çıxarmaq bacarığının olması çox vacibdir.

Cəmiyyətin iqtisadi maarifləndirilməsi məsələsi yalnız xəbərin hazırlanması ilə bitmədiyindən, onun düzgün və səlis nitqlə çatdırılması da önəmlidir. Əks təqdirdə çox ciddi və zəhmətlə ərsəyə gətirilmiş bir xəbər gözlənilən effekti verməz. Bu isə, təbii ki, arzuolunan deyil.

Beynəlxalq əlaqələrin, eyni zamanda, inteqrasiya proseslərinin genişləndiyi, ölkəmizin bir çox tədbirlərə ev sahibliyi etdiyi müasir dövrdə xarici ölkələrlə canlı bağlantılar qurmaq, reportajlar hazırlamaq məsələsi jurnalistlərin də tərcümə və ya təhlil etmə, həmçinin hər hansı vacib informasiya ilə bağlı xarici mənbəyə müraciət etmə məsələsini də vacib edir. Buna görə də yalnız iqtisadi sahədə çalışan deyil, eyni zamanda, bütün jurnalistlərin ən azından bir xarici dil biliyinin olması önəmlidir.

Müasir dövrdə hər bir Azərbaycan tamaşaçısı kütləvi informasiya vasitələrindən, xüsusilə isə televiziyalar vasitəsilə ölkəmizdə və dünyada baş verən mühüm, taleyüklü

hadisələr və proseslər haqqında dəqiq, obyektiv, hərtərəfli informasiya çatdırılmasını, onların yüksək peşəkarlıqla şərh edilməsini, cəmiyyəti hər bir sahədə maarifləndirmək xüsusiyyətinə malik olan keyfiyyətli verilişlər gözləyir. Təbii ki, televiziya həm də milli-mənəvi dəyərlərimizin qorunması, azərbaycançılıq ideyasının təbliği, Azərbaycan dilinin, mədəniyyətinin, ölkəmizlə bağlı tarixi həqiqətlərin yayılması sahəsində də mühüm rol oynayır. Buna görə də televiziyanın cəmiyyətlə bir növ "qarşılıqlı söhbət edən" bu növü ilə maarifləndirmə prosesinin aparılması da xüsusilə effektli və mühüm addımlardandır.

Fikrimizcə, dinamik və keyfiyyətli inkişaf edən respublikamızın sosial və iqtisadi həyatında baş verən ciddi dəyişikliklərin tamaşaçılara anlaşıqlı və müntəzəm olaraq çatdırılması bütövlükdə cəmiyyətin inkişafına xidmət edən əsas amillərdəndir.

İsmayılova A.C., doktorant
Azərbaycan Kooperasiya Univesiteti

AZƏRBAYCANIN İQTİSADİYYATININ İNKİŞAFINDA BEYNƏLXALQ MALİYYƏ TƏŞKİLATLARININ ROLU

Azərbaycan müstəqillik əldə etdikdən sonra bazar iqtisadiyyatına keçid kimi mürəkkəb və çətin bir proseslə üz - üzə qaldı. Yeni inkişaf mərhələsinə qədəm qoyan ölkəmiz yeni iqtisadi münasibətlərin qurulması və təşəkkül tapması kimi çətin bir vəzifənin öhdəsindən gəlməli, bazar qaydalarını özündə əks etdirən, bazar prinsipləri ilə fəaliyyət göstərən iqtisadi sistem yaratmalı idi. Bu vəzifələrin yerinə yetirilməsi üçün küllü miqdarda vəsait lazım idi. Belə vəsait isə dövlətin əlində yox idi. Çünki, müstəqilliyin əldə edildiyi ilk illərdə ölkə iqtisadiyyatında dərin böhran mövcud idi, hesablaşmalar pozulmuş, iqtisadi subyektlər arasında əlaqələr üzülmüş, inflyasiya hiper səviyyəyə çatmış, işsizlik həddən artıq yüksəlmiş, məşğulluq səviyyəsi aşağı düşmüş, yoxsulluq səviyyəsi heç vaxt görünməmiş səviyyəyə qalxmışdır, büdcəyə ödənişlər dayanmış, ölkə büdcəsi boşalmış, ölkədə idarəetmə zəifləmişdir. Belə bir vəziyyətdən çıxmaq üçün ölkəyə lazım olan investisiyaların, kreditlərin, yardımların və s. mənbəyi tapılmalı idi.

Qeyd edilən çətinliklər cəmiyyətin bir ictimai-iqtisadi formasiyadan digərinə keçidin baş verməsiylə əlaqədar olaraq meydana gəlmişdir. Məhz belə hallarda ölkənin taleyinin həll edilməsi üçün ciddi, həlledici addımlar atılır, gələcək üçün strateji inkişaf perspektivləri müəyyən edilir. Vəziyyətdən çıxış yolu kimi müxtəlif mənbə və variantlar axtarılır. Belə variantlardan biri də məhz beynəlxalq maliyyə təşkilatları ilə müxtəlif istiqamətli və çoxməqsədli əlaqələrin yaradılmasıdır.

Məhz bu məqsədlə Azərbaycan 1992-ci ildən başlayaraq beynəlxalq təşkilatlarla əlaqələr yaratmağa başladı. Ölkəmiz 18 sentyabr 1992-ci ildə Beynəlxalq Valyuta Fonduna üzv oldu. Bunun ardınca elə həmin tarixdə Azərbaycan Beynəlxalq Yenidənqurma və İnkişaf Bankına, 23 sentyabr 1992-ci ildə İnvestisiya təminatı üzrə çoxtərəfli agentliyə, 18 oktyabr 1992-ci ildə İnvestisiya Mübahisələrinin Həlli Üzrə Beynəlxalq Mərkəzə, 31 mart 1995-ci ildə Beynəlxalq İnkişaf Assosiasiyasına, 11 oktyabr 1995-ci ildə Beynəlxalq Maliyyə Korporasiyasına, 25 sentyabr 1992-ci ildə Avropa Yenidən-

qurma və İnkişaf Bankına. 4 iyul 1992-ci ildə İslam İnkişaf Bankına, 2002-ci ildən Qara Dəniz Ticarət və İnkişaf Bankına, 29 oktyabr 1999-cu ildə Asiya İnkişaf Bankına üzv olmuşdur. Qeyd edilən bütün Beynəlxalq Maliyyə Təşkilatlarının hər birinin öz məqsədi və fəaliyyət istiqamətləri vardır.

Həmin təşkilatların Azərbaycan ilə əlaqə yaratmaları ölkəmizə çox fayda vermişdir. Belə ki, Beynəlxalq Valyuta Fonduna üzv olan kimi bu təşkilat ölkəmizdə sturuktur islahatları proqramı konteksində əməkdaşlıq fəaliyyətinə başlamış, 1994-1995-ci illər ərzində ölkəmizə 500 mlyn. dollardan artıq maliyyə krediti vermişdir.

Qeyd edilən əməkdaşlıq çərçivəsində Beynəlxalq Valyuta Fondu ölkəmizdə sənayenin inkişaf etdirilməsi, dövlətəməxsus bankların özəlləşdirilməsi, əhalinin su və enerji təczihatının yaxşılaşdırılması, neft gəlirlərindən səmərəli istifadə edilməsi, dövlət idarəçilik sistemində təkminləşdirilmənin aparılması və s. istiqamətində əsaslı tədbirlər görmüşdür.

Azərbaycan iqtisadiyyatının inkişafına təsir və kömək edən beynəlxalq maliyyə təşkilatlarından biri də Dünya Bankıdır. Bu təşkilat ölkəmizə kredit verməklə müxtəlif istiqəmətlərdə layihələrin reallaşdırılmasını təmin etmişdir. Bu istiqamətlər əsasən ölkədə struktur dəyişikliklərinin aparılması, məşğulluğun yüksəldilməsi, yoxsulluğun azaldılması, iqtisadi islahatların dəstəklənməsi, maliyyə, kənd təsərrüfatı, səhiyyə, mədəniyyət, energetika, təhsil, ekologiya, kommunal xidmətlər və s. sahələrdə layihələrin maliyyələşdirilməsindən ibarət olmuşdur.

Ölkəmizdə iqtisadi tərəqqinin sürətlənməsinə təsir edən digər bir beynəlxalq maliyyə təşkilatı Avropa Yenidənqurma və İnkişaf Bankı olmuşdur. Bu təşkilat ölkəmizdə özəl sektorda biznesin hərtərəfli inkişaf etdirilməsi, sahibkarlıq strukturlarında islahatların aparılması, kiçik və orta layihələrin maliyyələşdirilməsi kimi məsələlərlə məşğul olmuşdur. Qarşılıqlı əməkdaşlıq çərçivəsində bu təşkilat ölkəmizlə təmasda olduğu illər ərzində 100- dən artıq layihənin reallaşdırılmasına 1,6 milyard ABŞ dolları ayırmışdır. Həmin layihələrdən 70-i maliyyə sektorunda icra olunmuşdur. Bu qurum ölkəmizdə fəaliyyət göstərən 9 bank, 6 mikromaliyyə institutu, 3 bank olmayan kredit təşkilatı ilə qarşılıqlı əlaqədədir. Bu bank ölkəmizə ayırdığı vəsaitlərin 5%-ni kooperasiya sektoruna, 3%-ni bank olmayan kredit maliyyə insitututlarına, 6%-ni mikromaliyyə insitututlarına, 50%-ni enerji sektoruna, 25%-ni maliyyə sektoruna və s. istiqamətləndirmişdir.

Ölkəmizin iqtisadi inkişafına köməklik göstərən beynəlxalq maliyyə təşkilatlarından biri də İslam İnkişaf Bankıdır. Bu bankın ayırdığı kreditlər hesabına ölkəmizin iqtisadiyyatında xüsusi əhəmiyyətə malik olan aşağıdakı layihələr reallaşdırılmışdır: Yevlax-Gəncə avtomobil yolunun yenidən qurulması, Mingəçevir su-elektrik stantiyasının yenidən qurulması, Bakı bərk məişət tullantılarının yandırılması zavodunun tikintisi, Şirvan şəhərində 780 Mvt "Cənub" həmdövrəli buxar-qaz elektrik stanstiyasının tikintisi, Vəlvələçay-Taxtakörpü kanalının tikintisi. Bunlarla yanaşı bank ölkəmizdə proqressiv investisiya layihələrinə maliyyə yardımı göstərmiş, lizinq vasitəsinə iqtisadi və sosial infrastruktur investisiyalar ayırmışdır.

Sadalanan təşkilatlarla yanaşı Qaradəniz Ticarət və İnkişaf Bankı da ölkəmizlə əməkdaşlıq çərçivəsində xeyli işlər görmüşdür. Bu təşkilat 11 səhmdara malikdir. Ölkəmizin burada payı 5 %-dir. Bu bank ölkəmizdə regional əməkdaşlığın inkişaf prinsiplərini əsas tutaraq ölkəmizdə ayrı - ayrı layihələrin maliyyələşdirilməsi və

səhmdar kapitalda iştirakla bağlı layihələr reallaşdırmışdır. Sözügedən bank ölkəmizdə ipoteka kreditləri üçün 10 milyon dollar, kiçik və orta sahibkarlığın inkişafına 24 milyon dollar, ticarətin maliyyələşdirilməsinə 47 milyon dollar, çoxməqsədli kreditlər üçün 16 milyon dollar vəsait ayırmışdır .

Ölkə iqtisadiyyatında dinamik inkişafın təmin edilməsinə kömək edən beynəlxalq təşkilatlardan biri də Asiya İnkişaf Bankıdır. Bu bankın ölkəmizdə apardığı fəaliyyətin əsas istiqaməti yoxsulluğun azaldılması və həmçinin qeyri-neft sektorunun inkişafına kömək göstərməsidir. Bu bank ölkəmizdə fəaliyyətə başladığı gündən 2017-ci ilin əvvəlinə ümumi məbləği 660 milyon dollar təşkil edən 14 layihə reallaşdırmışdır. Bununla yanaşı qeyd edilən bank Azərbaycan hökumətinə və yerli şirkətlərə 15 milyon dollara yaxın qrant ayırmışdır.

Göründüyü kimi, ölkəmizin inkişaf edərək əldə etdiyi nailiyyətlərdə yuxarıda adları çəkilən beynəlxalq maliyyə təşkilatlarının rolu böyük olmuşdur. Onlar tərəfindən ayrı-ayrı layihələrin həyata keçirilməsini, ölkəyə beynəlxalq kreditlərinin ayrılması, investisiya qoyuluşlarının ayrılması ölkə iqtisadiyyatının strateji sahələrinin və prioritet istiqamətlərin inkişafını şərtləndirmişdir.

Əsədova A.V., dissertant
Sumqayıt Dövlət Universiteti,
AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstituti

AZƏRBAYCANDA MÜASİR DÖVRDƏ MULTİKULTURAL MƏDƏNİ MÜHİT

Multikulturalizm eyni bir ölkədə yaşayan müxtəlif xalqların nümayəndələrinin və mədəniyyət hüquqlarını tanıyan siyasətdir. Multiklultural dəyərlər Azərbaycanda cəmiyyətin tarixi keçmişinə söykənən bir ənənəsidir. Azərbaycanda hələ qədimdən Qafqaz Albaniyasının dövründən müxtəlif dilə, dinə, adətə mənsub xalqlar bir yerdə bərabər şəkildə yaşayırlar.

Azərbaycanda multikultural dəyərlər daha sivil formada Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyəti (1918-1920) dövründə həyata keçirilmişdir. Azərbaycan Milli Şurasının "Azərbaycan Məclisi – Məbusanının təsisi haqqında qanun"una (1918 19 noyabr) müvafiq olaraq Azərbaycanda sayca azlıq təşkil edən gürcü, yəhudi, alman və polyakların hərəsindən Azərbaycan parlamentinə bir nəfər nümayəndə göndərilməsi qərara alındı.

1918-ci il 7 sentyabrda Azərbaycanda yaşayan azlıqların ana dilində təhsil almaq barədə qanun qəbul edilmişdir. Bundan əlavə, xüsusi olaraq qeyd edilirdi ki, əgər bir məktəbdə azlığa qalan xalqlardan olan tələbələr 40-a qədər olarsa, təhsil onların ana dilində aparılacaq. AXC-nin mövcudluğu dövründə Bakıda "Əhali ittifaqı", "Tələbələr ittifaqı", "Müsəlman tələbələri ittifaqı" kimi milli və milli azlıqlara məxsus mədəni - maarif cəmiyyətləri var idi. 1995-ci il 12 noyabrda H.Əliyevin sədrliyi ilə hazırlanmış yeni konstitusiya qəbul edildi. H.Əliyevin hələ Azərbaycan 90-cı illərdə apardığı multikultural siyasət nəticəsində dünyada dinlərarası, mədəniyyətlərarası əlaqələrin genişlənməsinə və möhkəmlənməsinə öz layiqli töhvəsini vermişdi.

2002-ci il 22 mayda Bakıda rəsmi səfərə gəlmiş Vatikan dövlətinin başçısı, dünya katoliklərinin dini rəhbəri olan Roma papası II İohan Pavel Azərbaycanı "dini dözümlüyünü hər bir həqiqi sivilizasiyanın ilkin dəyəri kimi dərk və qəbul edən ölkə" adlandırmışdır.

Azərbaycanın multikultural ənənələrinin dövlət tərəfindən qorunması işində ən vacib olanı ümummilli lider Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə bu məsələnin hüquqi sənədlərdə, o cümlədən Azərbaycan Respublikasının Konstitusiyasında əks olunmasıdır.

1995-ci il 12 noyabrda H.Əliyevin sədrliyi ilə hazırlanmış yeni konstitusiya qəbul edildi. 1992-ci il 16 sentyabrdan fəaliyyət göstərən Milli Azlıqlarla iş üzrə Elmi Şurasının işi davam edirdi. H.Əliyev özü də bildirirdi ki, Azərbaycan çoxkonvensiyalı ölkədir. H.Əliyevin hakimiyyəti dövründə Azərbaycan 90-cı illərdə apardığı multikultural siyasət nəticəsində dünyada dinlərarası, mədəniyyətlərarası əlaqələrin genişlənməsinə öz layiqli tövhəsini vermişdir. Dini nöqteyi nəzərdən ədalət, münaqişə, müharibə yol verilməzdir...dünyada belə hallara son qoyulmalıdır. Bu dövrdə Azərbaycanda Qafqaz Müsəlmanları Ruhani idarəsini qeyd etmək olar. 1995-ci ildə "Avstriya İslam Şurası" təşkil edilmişdir. 1997-ci ildə "Elmi Dini Məsləhət Şurası" yaradıldı. 2001-ci il 21 iyunda "Dini Qurumlarla iş üzrə Dövlət Komitəsi" təsis edildi. Bundan başqa 1998-ci ildə Bakıda keçirilmiş "İslam Sivilizasiyası Qafqazda" simpoziumu, 2002-ci ildə "Demokratik cəmiyyətdə dinin və əlaqənin rolu, terrorizm və ekstremizmə qarşı mübarizə yollarının araşdırılması" mövzusunda ATƏT-in Bakı konfransını göstərmək olar. Bütün bunlar H.Əliyevin uzaqgörən, humanist, multikultural siyasətinin nəticəsi idi. 1999-cu ildə rus kilsəsinin Xəzəryanı İerarxiyası təşkil edildi. Azərbaycan mədəniyyətlər və dinlərarası münasibətlərin durumu, etnik-milli-bəşəri müstəvilərin ahəngdar mövcudluğu baxımından dünyada örnək ola bilər. Eyni zamanda siyasətlə yanaşı, ölkəmizdə yaşayan milli azlıqların mədəniyyətlərinə hörmətlə yanaşılırdı. Multikultural ənənələrin inkişafına böyük diqqət, qayğı göstərmiş Ulu Öndər H.Əliyevin fikirləri çox əhəmiyyətlidir. Biz Azərbaycanda öz milli mənəvi dəyərlərimizə söykənərək, eyni zamanda xalqımızın elminin, mədəniyyətinin inkişafına, millimənəvi dəyərlərin ümumbəşəri dəyərlərlə zənginləşməsinə və vəhdətinə xüsusi əhəmiyyət veririk. Buna misal olaraq 2001-ci ildə AŞPA-nın sədri Lord Rassel Consonun fikirlərini qeyd etmək olar. O, bildirirdi ki, bütün dini, mədəni konvensiyaların qarşılıqlı dözüm şəraitində fəaliyyət göstərməsi üçün Azərbaycan nadir ölkədir. H.Əliyevin apardığı siyasət nəticəsində bu gün müxtəlif dillərə, dinlərə mənsub olan xalqlar rahat, bərabər yaşayır.

Heydər Əliyev Fondu Azərbaycanda məskunlaşan xalqların etnomədəni tərəqqisinə yönələn tədbirlər həyata keçirir. Heydər Əliyev Fondu bu tipli tədbirləri "Tolerantlığın ünvanı – Azərbaycan" layihəsi çərçivəsində həyata keçirir. Görülən işlər nəticəsində Bakı 2009-cu ildə İslam mədəniyyəti paytaxtı elan edilmişdir.

Eyni zamanda Azərbaycanın tolerant siyasətinin nəticəsi idi ki, Mehriban xanım 2006-cı ilin sonlarında İSESKO-nun 51 müsəlman dövlətinin təşkil etdiyi nüfuzlu beynəlxalq mədəni-humanitar qurumların İslam ölkələri elm, təhsil, mədəniyyət təşkilatının xoşməramlı səfiri adına layiq görülmüşdür.

Azərbaycan Respublikasının prezidenti İlham Əliyev yanvarın 10-da Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqində bu barədə deyib: "Azərbaycan multikulturalizmlə bağlı çox böyük işlər görüb. Azərbaycan nümunəsi göstərir ki, multikulturalizm yaşayır.

Təkcə Bakıda kürdlərin, rusların, tatların, tatarların, gürcülərin, avarların, talışların, dağ yəhudilərinin, alman və başqa xalqların 20-dən çox cəmiyyətləri və mədəniyyət mərkəzləri var. Bu isə dünya ölkələrinin Azərbaycandakı multikultural mühitə olan münasibətinin real ifadəsidir. Bu səpgidə 2017-ci ildə keçiriləcək IV İslam Həmrəylik Oyunlarıda böyük əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasının Konstitusiyasının 52-57-ci maddələrində göstərilən hüquqlar Azərbaycan Respublikasının vətəndaşlarına məxsusdur. Konstitusiyanın 32-ci maddəsinin I hissəsində isə hər kəsin şəxsi toxunulmazlığı hüququnu müəyyən edir.

Qədim zamanlardan bu günümüzə qədər Azərbaycan xalqının ənənələri, millimənəvi dəyərləri, birgə yaşayış xüsusiyyətlərini özündə yaşadan, azərbaycançılıq ideologiyası yaranmış və formalaşmışdı. İqtisadi cəhətdən inkişaf etməkdə olan Azərbaycan multikultural siyasət yeritməklə yetişməkdə olan gənc nəsil üçün böyük əhəmiyyət kəsb edir.

Cəfərova M.S., dissertant
AMEA-nın Fəlsəfə İnstitutu

MÜASİR FƏLSƏFƏDƏ KÜTLƏVİ MƏDƏNİYYƏTİN TƏDQİQAT METODLARI

Müasir dövrdə yaradıcı insanın maddi və mənəvi cəhətdən özünüifadəsi üçün böyük imkanlar vardır, bu imkan nəticəsində isə müasir mədəniyyətin rəngarəngliyi özünü büruzə verir. Çağdaş mədəniyyətin mühüm xüsusiyyətlərindən biri də onun texnoloji inkişafla sıx bağlı olmasıdır. Ümumiyyətlə, ənənəvi metod və texnologiyalar mədəniyyətdə təkmilləşdirilməsi nəticəsində yeni texnoloji vasitələr meydana çıxır. Ölkəmizdə kulturologiya elminin yaradıcısı kimi tanınan, "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının prezidenti, məşhur kulturoloq Fuad Məmmədov bu yaxınlarda qələmə aldığı "Kulturologiya, mədəniyyət, sivilizasiya" adlı kitabında mədəniyyətin əsas tədqiqat metodları kimi aşağıdakıları göstərir:

1. Genetik-tarixi təhlil mədəniyyətin inkişafını müəyyən zaman dövründə tədqiq etməyə imkan verir;

2. Məkan təhlili, sosial mühit, siyasi rejim, iqtisadi, iqlim, ekoloji və digər şəraitlər daxil olmaqla, müəyyən coğrafi ərazidə mədəniyyətin vəziyyətini və inkişafını öyrənməyə imkan verir;

3. Müqayisəli təhlil müxtəlif mədəniyyətlərin ümumi xassələrini və səciyyəvi xüsusiyyətlərini müəyyən etməyə yardım edir;

4. Situasiyalı təhlil insanın həyat fəaliyyətinə (subyekt və obyekt) təsir göstərən konkret situasiyaların yaxud dəyişən şəraitlərin öyrənilməsi və düzgün dərk edilməsi imkanını verir;

5. Antropoloji təhlil mədəniyyətin etnoqrafik və etnoloji xüsusiyyətlərini, həyat tərzi, ənənələr və adətlər, sosial münasibətlər sistemi, mədəniyyətin inkişaf dinamikası və onun nəsillər vasitəsilə ötürülməsi mexanizmini öyrənməyə imkan verir;

6. Psixoqrafik təhlil, sosial-mədəni mühit, mədəni dəyərlər sistemi, həyat tərzi, ənənələr, insanların anadangəlmə mədəni keyfiyyətləri ilə şərtlənən motiv və üstünlüklərinin öyrənilməsinə yardım edir;

7. Demoqrafik təhlil insanların yaşı, cinsi, təhsili, gəlir səviyyəsi, uzunömürlülüyü və digər parametrləri haqqında informasiya almağa imkan verir.

Kütləvi mədəniyyətin müasir bir versiya olan populyar mədəniyyət sayəsində qədim tarixə malik olan dəyər və ənənə sistemləri dağılır, yeni dəyərlər ənənəvi olanlarla uyğunlaşdırılır. Bəzi hallarda isə elitar və kütləvi mədəniyyətlər arasındakı əlaqə pozulur. Müasir dövrdə postmodernizm kütləvi mədəniyyətdə geniş yayılmış bir cərəyandır. Ümumiyyətlə, postmodernizm müasir reallıqları ümumi şəkildə əks etdirən və xaosla müəyyənləşdirilən optimal axımdır. Çağdaş zamanda incəsənətdə dadaizm, abstrakt ekspressionizm, lirik abstraksiya, assamblyaj, proses-art, konseptualizm, postminimaliz və s. bədii axımları kimi formada nüfuz edən postmodernizm hazırda dünyada ən aparıcı cərəyan kimi məşhurdur. Postmodern incəsənətin tanınmış nümayəndələri içərisində Marsel Düşan, Ceff Kuns, Brus Nauman, Ziqmar Polke, Herxard Rixter, Sindi Şerman, Endi Uorhol və başqalarını göstərmək olar. XX əsrin sonlarında meydana gələn postmodern memarlığında Filip Conson, Aldo Rossi, Ceyms Sterlinq, Piter Ayzenman, Rober Venturi kimi məşhur nümayəndələri vardır.

Dəyərlərin tənasübünü qəbul edən, özünü keçmişlə tutuşduran, utopiyaya inanan modernizmdən fərqli olaraq postmodernizmə sabit ənənə, dəyərlər tənasübü, qiymətləndirmə yaddır. Əgər ənənəvi mədəniyyət dünyanı və bu dünyada insanı əks edirdisə (modernizm-ekstremist formalarda olsa da təcridlənmiş şəxsiyyətin dünyasını), postmodernizm özü-özünü əks və ifadə edir, qapanır. Hər şeyə şübhə edilir və eyni zamanda bu şübhəli ifadə olunur. Yaradıcılıq oyuna, dünya mətnə çevrilir. Dünya inikas edilmir, dünya mətn yaradır, özü də bir yox, çoxlu dünyalar. Obyektiv reallıq virtual dünyayla əvəzlənir».

Müasir dövrdə innovasiyaların, yəni yeni texnologiyaların, fundamental tədqiqatların nəticələrində mədəniyyət inkişafı sahəsində də bəhrələnmək geniş şəkildə müşahidə olunur. “Mədəni innovasiyalar bədii üslub, fəlsəfi və dini nəzəriyyə, həyat tərzi kimi mədəni nümunələri əhatə dairəsinə alır, dəyişməsinə və yeniləri ilə əvəz olunmasına səbəb olur. Mədəni innovasiya səmərəli mədəni mübadilənin, elitar və kütləvi mədəniyyətlərinin qarşılıqlı əlaqəsinin yeni, tarixi-ictimai dövrə uyğun məhsulu kimi çıxış edir. İctimai sistemlər arasında informasiya mübadiləsi və qarşılıqlı təsir ictimai-mədəni dəyişiklikləri şərtləndirir. Bu halda müxtəlif mədəni sahələr və mədəni layların dialoqu gedişində informasiya bolluğu və ya, əksinə, informasiya qıtlığı mədəni innovasiyanın meydana gəlməsi üçün mənbə rolunu oynayır”.

Bildiyimiz kimi, mədəniyyətin mühitə uyğunlaşma, informativ, kommunikativ, requlyativ (və ya normativ), aksioloji (qiymətləndirici) və sosiallaşdırma (humanistləşmə) funksiyaları mövcuddur. Mədəniyyətin digər funksiyaları kimi aksioloji və yaxud da qiymətləndirici funksiya da mühüm əhəmiyyətə malikdir. Mədəni dəyərlərə qiymətləndirici aspektdən yanaşmaq bu dəyərlərin keyfiyyətini xarakterizə etməklə müşahidə

olunur. Bu müşahidənin gerçəkləşməsində anket sorğuları, diaqnostik qiymətləndirmə mühüm rol oynayır.

Tədqiqat üçün anket sorğusu hazırlanan zaman tədqiqatın keçiriləcəyi vaxt və tədqiqata cəlb olunan şəxslərin sayı nəzərə alınmalıdır. Çünki, diaqnostik qiymətləndirmənin aparılması üçün bu mühüm amildir. "Tədqiqat obyekti kimi, bütün insanların sorğusunu (bu min, on min və yüz min ola bilər) keçirmək səmərəli ola bilməz. Belə ki, bu tədqiqatın müddətini uzatmış olar. Bu cür addım, həm də böyük miqdarda maliyyə vəsaitlərinin xərclənməsinə, çoxlu sayda fəalların diqqətdən yayılmasına səbəb olur. Son nəticədə tədqiqat özü də olduqca geniş miqyas alır. Məhz buna görə də əksər hallarda sosioloji tədqiqat, başdan - başa deyil, seçmə xarakteri daşıyır. Daha doğrusu, ciddi qaydalarla öyrənilən obyektin sosial - demoqrafik cəhətlərinə və digər struktur xarakteristikasına görə müəyyən miqdarda adamlar seçilir."

Mədəniyyətdə diaqnostik qiymətləndirmə və bu qiymətləndirməni obyektiv şəkildə gerçəkləşdirmək və qiymətləndirməni sorğulara verilən cavablar əsasında təhlil etmək olduqca mühüm bir amildir. Diaqnostik qiymətləndirmənin nəticələrinə müvafiq olaraq mədəniyyətin inkişafına əngəl törədən müəyyən problemləri ortaya çıxartmaq və bu problemləri həll etməklə mədəniyyətin tərəqqisinə əsaslı təsir göstərmək mümkündür və istənilən cəmiyyətdə müəyyən göstəricilər üzrə aparılır. Mədəniyyətdə diaqnostik qiymətləndirməsi zamanı konkret metod seçmək, tədqiqatın məqsədini əsaslandırmaq lazımdır.

Ахмедова Ш.М., диссертант
Сумгаитский Государственный Университет,
Институт Истории НАНА

ПОЛИТИКА РЕГИОНАЛЬНОГО РАЗВИТИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

Принятие 18 октября 1991 года Конституционного Акта «О государственной независимости Азербайджанской Республики», заложило основу для нового этапа в истории нашей республики. Ставшая в третий раз республикой, страна вступила в период своего активного развития.

До Первой Мировой войны Азербайджан напрямую экспортировал в зарубежные страны различные виды сельскохозяйственных товаров и сырье для промышленности. Во всем мире Азербайджан славился своей нефтью, рыбой, черной икрой, шелком, корень бианки и др. В последующие периоды прямая связь Азербайджана со странами мира ограничилась. Советская Республика Азербайджан с зарубежными странами могла связаться только через Россию.

В советский период хозяйство в Азербайджане управлялось не по принципу демократического централизма, как утверждалось тогда, а по принципу социалистической законности. Поэтому хозяйство развивалось в одностороннем направлении. В результате Азербайджан на протяжении многих лет был регионом, который экспортирует дешевое сырье. Производственных и трудоемких сфер было очень мало. Таким образом, в республике с низким уровнем жизни, сферы услуг очень отставали. Появились толпы безработных и частично безработных.

В процессе распада СССР были нарушены связи между производственными предприятиями бывшего СССР и Азербайджаном, создавались новые производственные и обслуживающие структуры. Однако этот процесс шел вслепую в военных условиях.

Значительно ощущалась необходимость в преобразовании и модернизации хозяйства в Азербайджане. Переработка и экономная эксплуатация нефти, газа, железной руды, ртути и других природных ресурсов должны были служить интересам народа. С этой целью необходимо было усовершенствовать существующие отрасли хозяйства, которые отвечали бы требованиям рыночной экономики.

После прихода общенационального лидера Гейдар Алиева к власти 15 июня 1993 года была принята стратегия по развитию страны в этом направлении. Заключение в сентябре 1994 года "Контракта века" послужило толчоком для привлечения иностранных инвестиций в страну. Для того чтобы добиться сбалансированного развития национальной экономики, полученные доходы были направлены на развитие нефтяного сектора.

Г.Алиев превратил Азербайджан в самое влиятельное государство в Кавказском регионе с сильной экономикой и армией, имеющий статус полноправного члена Европейской семьи. В результате его неустанного и титанического труда по превращению Азербайджана в сильное суверенное государство, были разработаны политико-идеологические, социокультурные и экономические механизмы, подготовлена концепция государственного строительства.

С этой точки зрения, одной из основных целей экономической политики государства являлось ускорение развития регионов. Оставшаяся от советского периода материально-техническая база устарела, а ресурсы были исчерпаны. Хозяйство, можно сказать, полностью было разрушено. Таким образом, начались систематические мероприятия по эффективному использованию природного и экономического потенциала, трудовых ресурсов регионов, ускорению развития экономики и ненефтяного сектора, углублению аграрной реформы, увеличению занятости населения, созданию современных предприятий и открытие новых рабочих мест. После смерти Гейдара Алиева эту стратегию успешно продолжает Президент Ильхам Алиев.

С этой целью, согласно указу от 11 февраля 2004 года была утверждена «Государственная программа социально-экономического развития регионов Азербайджанской Республики в 2004-2008 годах».

Вскоре, после подписания указа, в стране были проведены значительные работ: построены новые школы, отремонтированы старые здания, проведены новые дороги, в регионах открыты новые рабочие места.

После успешной реализации первой Государственной программы 14 апреля 2009 года была утверждена вторая «Государственная программа социально-экономического развития регионов Азербайджанской Республики в 2009-2013 годах». Задачи и этой программы были успешно выполнены.

Доходы от продажи «черного золота» были направлены на восстановление и развитие инфраструктуры, которая являлась важным условием для социально-экономического развития регионов.

Для реализации запланированных проектов первой государственной программы (2004-2008 годы) было инвестировано 6 – 8 миллиардов манатов.

Для реализации запланированных проектов второй государственной программы (2009-2013 годы) инвестиция была увеличена до 19,8 миллиардов манатов. Таким образом, в рамках двух программ на региональное развитие было выделено 26, 6 миллиард манатов.

В ходе реализации I и II государственных программ социально-экономического развития регионов Президентом Азербайджана было подписано 240 указов, предусматривающих ускорение социально-экономического развития городов и районов, входящих в состав экономических регионов. За последние 12 лет было построено и отремонтировано 64 тысячи предприятий, в том числе 41 олимпийский спортивный центр, 30 молодежных центров, 2900 школ, 560 медицинских учреждений. Построено 84 поселка для 210 тысяч вынужденных переселенцев. Проведены 10 тысяч км дорог, построены 340 мостов и туннелей. Были завершены строительства 6 аэропортов и 23 электростанций.

В рамках III государственной программы в 2014 году Президент Ильхам Алиев совершил 23 визита в регионы, где участвовал на церемониях открытия более 120 различных объектов инфраструктуры и новых предприятий. Ознакомился с деятельностью существующих предприятий, проводил встречи с общественностью. С целью разрешения ряда вопросов Президентом было подписано 72 указа и выделено 270 миллионов манатов. Это является примером того, что Президент оказывает особое внимание развитию регионов.

Политика социально-экономического развития регионов привела к улучшению макроэкономических показателей страны. Общий объем внутреннего валового продукта (ВВП) возрос в 3,2 раза, а на душу населения – в 2,8 раза, тогда как в нефтяном секторе увеличился в 2,6 раза. Средний годовой экономический рост составил 12,9%. Стратегические валютные резервы возросли в 31 раз, внешнеторговый оборот - в 6,6 раза, экспорт - 9,3 раза, импорт - в 4,1 раза, доходы госбюджета - в 16 раз, средняя месячная зарплата - в 5,5 раза, пенсии - 9,6 раза, вклады населения - в 27 раза.

В результате реализации I и II государственных программ развития регионов были открыты 1 миллион 461 тыс. рабочих мест, 70% из которых выпадает на регионы .

В рамках этих программ были приняты необходимые меры для улучшения жилищных условий населения, в том числе семей шехидов и инвалидов, созданы реабилитационные центры для инвалидов.

Даже в период кризиса мировой экономики ненефтяной сектор промышленности Азербайджана достиг определенного прогресса. С помощью высоких инновационных технологий были созданы благоприятные условия для развития

конкурентоспособности промышленного производства. В целях увеличения занятости населения по современным технологиям был создан ряд промышленных предприятий, таких как Сумгаитский технологический парк, Сумгаитский Парк химической промышленности, Балаханский промышленный парк, Парк высоких технологий, Заямский технологический парк в селе Заям Шамкирского района.

После успешной реализации первых двух государственных программ развития регионов 27 февраля 2014 года Президент Ильхам Алиев подписал указ о третьей по счету «Государственной программе социально-экономического развития регионов Азербайджанской Республики в 2014-2018 годах». Основной целью программы было дальнейшее развитие ненефтяного сектора в стране, диверсификация экономики, продолжение мер, направленных на ускоренное развитие регионов, совершенствование инфраструктуры и социальных услуг. Одним из важных факторов независимости является то, что мы выходим на мировую арену со своей социально-экономической политикой. Для использования своих природных ресурсов и создания нового типа хозяйства мы стали применять наиболее прогрессивные методы, используемые передовыми странами мира.

Əhmədova R.Ş ., dissertant
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
Şəki filialı– baş müəllim

CƏLİL MƏMMƏDQULUZADƏNİN FELYETONLARINDA MİLLİ- MƏNƏVİ DƏYƏRLƏR

Biz öz milli-mənəvi dəyərlərimizlə fəxr etməliyik. Bizim milli-mənəvi dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında formalaşıbdır, xalqımızın fəaliyyətində formalaşıbdır. Milli - mənəvi dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz.

Heydər Əliyev

Milli- mənəvi dəyərlər xalqımızın mənəvi dünyasını zənginləşdirən, tariximizi və mədəniyyətimizi ucaldan, birliyimizi təmin edən əsas amillərdəndir. Milli dəyərlər bir nəticə kimi təzahür edir. Min illərlə sınanan və nəsillərə ötürülən bir sıra keyfiyyətlər zaman-zaman xalqın özünüifadə vasitəsinə çevrilir. Milli-mənəvi dəyərlər bizim tarixi qürur yerimiz, milli mənliyimiz, milli mövcudluğun şəhadətnaməsidir. Əsrlər boyu cilalanmış, zamanın kəşməkəşli sınaqlarından çıxmış, ələnmiş, saflaşmış, bu günümüzün həyati tələbatına, çevrilmiş, xalqımızın özünəməxsus milli mentaliteti meyarlarına çevrilmiş mənəvi dəyərlər xalqımızın yüksək əxlaqi xüsusiyyətlərinin təcəssümüdür, duz-çörək qədər hamımıza əzizdir. Milli-mənəvi sərvət, eyni zamanda müstəqil dövlətimizin əsasını təşkil edir. Çıxışlarının birində ümummilli lider H. Əliyev qeyd etmişdir ki, insanlara ədəbiyyat qədər, mədəniyyət nümunələri qədər güclü təsir edən, yəni insanların mənəviyyatına, əxlaqına, tərbiyəsinə, fikirlərinin formalaşmasına bu

qədər güclü təsir göstərən başqa bir vasitə yoxdur: "Bizim ədəbiyyatımız, doğrudan da xalqımızda, millətimizdə milli ruhu oyadıbdır, milli əhval-ruhiyyəni canlandırıbdır, milli dirçəliş prosesini gücləndirib. Məhz bunların nəticəsində bizdə milli psixologiya, milli ideologiya formalaşmağa başlayıbdır. Bəlkə bu milli psixologiya, milli ideologiya indi böyük bir sistem şəklində deyil... Ancaq indi bunları toplayıb sistemləşdirib formalaşdırmaq üçün bizim böyük sərvətimiz var. O sərvət də bizim mədəniyyətimizdə olan fikirlər, çox dəyərli sözlərdir".

Ulu öndər həm də Azərbaycanda yazıçıların daim böyük hörmətə layiq olduğunu vurğulamışdır: " Bu bizim tarixi ənənəmizdir, əcdadlarımızdan bizə gəlib çatmış gözəl bir xüsusiyyətdir. Bu da təsadüfi deyil... Biz tariximizin qədim dövrlərini xatırlayarkən, yaxud onları dünyaya geniş çatdırmaq istəyərkən, birinci növbədə və bəzən də yalnız mədəniyyətimizə, mədəniyyət, ədəbiyyat xadimlərinin yaratdığı əsərlərə, tarixi-memarlıq abidələrimizə və böyük şairlərimizin, mütəfəkkirlərimizin yazdığı əsərlərə istinad edirik... Eyni zamanda dünya, bəşər qarşısında bunlarla fəxr edirik, öyünürük... Çünki bu böyük insanlar nəinki bizim xalqımızı, bütün bəşəriyyəti, bəşər tarixini zənginləşdirən əsərlər yazmışlar".

Milli dəyərlərimizin formalaşması və ötürülməsində XX əsrin ən parlaq günəşi "Molla Nəsrəddin" jurnalı və C.Məmmədquluzadənin çox böyük rolu olmuşdur. Mirzə Cəlilin istər nəsr əsərləri, istərsə də, publisistikasında xalqımızın malik olduğu milli dəyərlərin özünəməxsus ifadəsini görürük. Yazıçının felyetonlarında milli birlik, milli dil, azərbaycançılıq ideyası, milli dəyərlər və eyni zamanda bu günə qədər dünya təcrübəsində mövcud olan dövlətçilik formalarının ən münasibinin, yəni respublika quruluşunun Azərbaycan məmləkətinə tətbiq olunması məsələlərinin şahidi oluruq. Ümummilli lider də hər zaman Mirzə Cəlil yaradıcılığına yüksək qiymət vermişdir: "Mirzə Cəlil bizim ən canlı müasirimizdir, təkcə dünənimiz deyil, həm də sabahımızdır. H.Əliyev Azərbaycan xalqının öz azadlığı, müstəqilliyi uğrunda apardığı mübarizəni də Mirzə Cəlilsiz təsəvvür etmirdi".

Bildiyimiz kimi, XX əsrin əvvəlləri Azərbaycan ictimai fikir tarixində yeni mərhələ hesab edilir. Bu dövrdə milli dil, milli təəssübkeşlik, milli birlik, azərbaycançılıq və s. kimi məsələlər hər bir mollanəsrəddinçini düşündürür və maraqlandırır, həmçinin öz həllini gözləyirdi. Mollanəsrəddinçilər əsərlərində zamanın çox vacib məsələlərini işıqlandırmış, "Molla Nəsrəddin" jurnalını isə xalqın siyasi şüurunu oyadan bir orqan kimi qiymətləndirmiş, bütün müsəlman aləmini bürümüş qəflət və nadanlığa, mövhumatçılıq və elmsizliyə qarşı atəş açan mübariz mətbuat nümunəsi kimi təqdir etmişlər. Mollanəsrəddinçilər çox işlərə əl aparmış, çox sirləri açmış, pərdələri qovzamış, çox çirkabları qurdalayıb "üfunətini" dünya-aləmə yaymışlar. Tək riyakar, yalançı din xadimlərinin yox, hakim sinfin də özbaşınalığını bütün açıqlığı ilə xalqa göstərmişlər. Mollanəsrəddinçilər yaradıcılıqlarında həm də doğma xalqına məxsus ən yaxşı milli xüsusiyyətləri – azadlığı, maarifçiliyi, tərəqqiyə olan sonsuz məhəbbəti, həqiqətpərəstlik hissini, köhnəlik, irtica, zülmət və cəhalətə alovlu nifrəti, ictimai varlığa tənqidi, döyüşkən münasibəti toplamışlar. Mollanəsrəddinçilər gənc nəslin tərbiyəsi, əxlaqı məsələlərinə həmişə ictimai və mədəni inkişaf baxımından yanaşmışlar. Onların bu mövzuda yazdığı şeir, hekayə, məqalə, felyeton, Azərbaycan xalq pedaqogikası nümunələrində köhnə, çürük təlim-tərbiyə üsullarını tənqid etmiş, uşaqların, gənc nəslin mütərəqqi üsullar əsasında tərbiyələndirilməsinə çalışmışlar. Uşaqları vətənə, xalqın

adət və ənənələrinə və ya milli dəyərlərə məhəbbət ruhunda böyütmək, onlara mədəni vərdişlər, müsbət əxlaq normaları aşılamaq mollanəsrəddinçilərin ən böyük və nəcib arzularından biri idi.

Ümummilli lider H. Əliyevə mollanəsrəddinçilər ədəbi məktəbini sevdirən başlıca cəhət böyük sənətkarın milli oyanış və milli özünüdərk ideyalarına ardıcıl xidməti olmuşdur. Ulu öndər göstərirdi ki, "Cəlil Məmmədquluzadə öz yaradıcılığı ilə, əsərləri ilə, publisistikası ilə, böyük mətbuatçılıq fəaliyyəti ilə Azərbaycan xalqının milli oyanışında, milli dirçəlişində əvəzsiz rol oynamışdır. Xalqımızın milli şüurunun formalaşmasında məhz "Molla Nəsrəddin" jurnalının və Mirzə Cəlilin fəaliyyətinin rolu misilsizdir".

"Molla Nəsrəddin " jurnalının təşəbbüskarı, redaktoru və naşiri C. Məmmədquluzadə də bütün yaradıcılığı boyu xalqını düşünmüş, onun ən ümdə problemlərini işıqlandırmış, xüsusən də mənəvi dəyərlərimizi formalaşdırmaq, itib- batmaqda olan dəyərlərimizə yenidən can vermək üçün var qüvvəsi ilə çalışmışdır. Klassik Azərbaycan və dünya bədii fikri ənənələrindən, xalq yumorundan məharətlə bəhrələnən sənətkarın milli oyanışa səsləyən yaradıcılığı həm Qafqaz xalqlarının, həm də bir sıra Şərq ölkələrinin ədəbiyyatlarına böyük təsir göstərmişdir.

Ulu öndər H. Əliyev Mirzə Cəlil yaradıcılığını nadir bir inci kimi qiymətləndirmişdir: "Cəlil Məmmədquluzadə yaradıcılığı elə bir dəryadır ki, o dəryanın dibinə gedib çatmaq, hamısını əhatə etmək mümkün deyildir. Güman edirəm ki, hələ bir neçə nəsil Azərbaycan tarixçisi, ədəbiyyatşünası, siyasətşünası, alimi Cəlil Məmmədquluzadə xəzinəsini, yaradıcılığını araşdıracaq, onu tədqiq edərək yeni-yeni kəşflər edəcəkdir. Cəlil Məmmədquluzadə yaradıcılığı Azərbaycan mənəviyyatını, mədəniyyətini, ədəbiyyatını dünyaya nümayiş etdirən və xalqımızın nəyə qadir olduğunu göstərən böyük bir sərvətdir".

Azərbaycan xalqı formalaşdığı zamandan öz milli varlığını, özünəməxsusluğunu qorumaq uğrunda mücadilə edib. Milli varlığı qorumaq, azərbaycançılığı, vətəni, milləti, ana dilini qorumaq deməkdir. Bu məsələlər Mirzə Cəlilin bütövlükdə yaradıcılığının-xüsusən də felyetonlarının qayəsini təşkil edir.

Qeyd edək ki, hər bir xalqın müəyyənliyi, özünəməxsusluğu onun dilində öz əksini tapır. Bu mənada hər bir yazıçı, ədib və şairlərimiz ana dilinin saflığı uğrunda mübarizə aparmağı özünə borc bilməlidir. Xalqın yaşaması və mövcud olmasında əsas amil olan dili hər bir xalq ana südü kimi sevməli, onu yad təsirlərdən mühafizə etməyə, qoruyub saxlamağa çalışmalıdır. Mirzə Cəlil də ana dilini yabançı sözlərdən, xarici təsirlərdən qorumağı, hər bir azərbaycanlının başa düşdüyü bir dildə yazmağı çox vacib bir məsələ hesab etmişdir. Yazıçı bu təhlükəni vaxtında hiss etmiş, doğma Azərbaycan dilini yad təsirlərdən qorumaq üçün var qüvvəsi ilə mübarizə meydanına atılmış, bu dilin təmizliyi, saflığı uğrunda sözün əsl mənasında fədakarlıq göstərmişdir. Ədibin felyetonlarında millətə milli mənlik şüuru aşılamaq, mənəvi dirilik dərsi keçmək üçün təlimin ana dilində aparılması ideyası geniş surətdə təbliğ edilmiş, ana dilinin tədrisi bütün təlim işinin mərkəzinə qoyulmuşdur. C.Məmmədquluzadə öz doğma dilinin həm yaşaması, həm saflaşması, həm də zənginləşməsi uğrunda canından keçməyə belə hazır olmuşdur.

Ana dili məsələsinə həmişə xüsusi həssaslıqla yanaşan, müstəqillik dövründə isə onun dövlət dili kimi inkişaf etdirilməsini və tətbiq dairəsinin genişləndirilməsini azər-

baycançılıq məsələsi səviyyəsinə qaldıran Heydər Əliyevin diqqətindən ana dilinin inkişafında Mirzə Cəlilin tutduğu ardıcıl mövqe də yayınmamışdır: "Cəlil Məmmədquluzadənin fəaliyyətindəki ən dəyərli cəhətlərdən biri də Azərbaycan xalqının dilinin inkişafı üçün göstərdiyi xidmətlərdir. Ədibin ana dilinə - Azərbaycan dilinə böyük diqqəti, ana dilini təbliğ etməsi və ana dilinin, Azərbaycan dilinin hər yerdə hökm sürməsinə dair fikirləri, yazıları o vaxt üçün çox vacib idi, bu gün üçün də çox aktualdır" .

Təsadüfi deyil ki, digər klassik yazıçı və şairlərimizlə bir sırada Mirzə Cəlil irsi də Azərbaycan dili anlayışına yenidən vətəndaşlıq hüququ qazandırmaq prosesində H. Əliyevin arxalandığı mənbələrdən biri olmuşdur.

Mirzə Cəlil felyetonlarında dönməz bir mübariz kimi xalqının varlığını, doğma ana dilini müdafiə etmiş, onu yeni sağlam əsaslar üzərində inkişaf etdirmək, əsaslandırmaq istəmişdir. Ədibin "Sizi deyib gəlmişəm", "Lisan bəlası", "Dil", "İlan-qurbağa", "Savad məktəbləri", "Maarif işləri", "Uşaqlarımız", "Dəxi nə istəyəcəklər", "Qatıq ağdırmı, qaradırmı?", "Xala xətrin qalmasın", "Latın hürufatı və ingilislər", "Eşit, inanma", "Meymunlar" və s. felyetonlarında ədib dil, onun saflığı, yeni əlifba məsələlərinə toxunulur.

Mirzə Cəlil daim ziyalı vətəndaş mövqeyindən çıxış edərək, milli-mənəvi dəyərlərə, doğma dilə və milli irsə qəlbən bağlılığını sübut etmişdir. O, yaratdığı "Molla Nəsrəddin" jurnalına milli forma, milli məzmun verərək, ilk dəfə xalqa öz doğma dilində-Azərbaycan dilində müraciət edərək deyirdi: "Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım. O kəsləri deyib gəlmişəm ki, mənim söhbətimi xoşlamayıb bəzi bəhanələrlə məndən gedirlər. Məsələn, fala baxdırmağa, it boğuşdurmağa, dərviş nağılına qulaq asmağa, qeyri-vacib əməllərə... Məni gərək bağışlayasınız, ey mənim türk qardaşlarım. Mən sizinlə türkün ana dili ilə danışıram. Mən onu bilirəm ki, türk dilində danışmaq eyibdir, şəxsin elminin azlığına dəlalət edir, amma hərdənbir keçmiş günləri yad etmək lazımdır. O günləri ki, anamız beşikdə yırğalaya-yırğalaya sizə türk dilində lay-lay deyirdi".

"Meymunlar" felyetonunda isə ədib ana dilinə xor baxanları, bunun çar hökumətindən gələn təzyiqlə bağlı olduğunu bəhanə gətirərək, yerli-yersiz rus dilində kəkələyənləri şüursuz şəkildə başqalarını təqlid edən "meymunlara" oxşadırdı: "Hürriyyət və hüquq davası düşəndən indiyədək heç bir müsəlman məclisi olmayıb ki, orada bir obrazovannı müsəlman ayağa durub deməsin ki: "hökumət qoymur məktəblərdə ana dilimizi öyrənək"....Tutaq ki, bunu hökumət qoymur. Bəs ana dilimizi istəməyi, ana dilimizi xoşlamağı kim qoymur? Mən indiyədək heç bir yanda görməmişəmki, iki obrazovannı müsəlman bir-birilə görüşəndə müsəlmanca danışsınlar...Bir saatlığa tutaq ki, hökumət qoymur məktəblərdə ana dilimizi oxuyaq. Bəs kim bizi öz dilimizdən utanmağa və öz dilimiz ilə danışmağı ar bilməyə vadar edir? Məgər bunu da hökumət edir?...Və hökumət nə vaxt müsəlmanı məcbur edib qızının adını Fatma əvəzinə "Fatya"qoysun, oğlunun Həsən adını dəyişdirib "Qasanka" eləsin?"

Ədib belə adamları kəskin tənqid atəşinə tutaraq göstərirdi ki, ana dili sadəcə danışıq, ünsiyyət vasitəsi deyil, həm də varlığın, milli şüurun, milli mənəviyyatın əsasıdır, bu dildə danışan hər bir fərdin təfəkkür tərzinin, qürur və ləyaqətinin rəmzidir.

Mirzə Cəlilin Cənubi Azərbaycanla bağlı yazdığı "Dəxi nə istəyəcəklər?" adlı felyetonu milli birlik və ana dili probleminə necə aydın və demokratik bir mövqedən

yanaşdığına ən yaxşı nümunə və əyani misaldır: “İran azərbaycanlıları deyirlər ki, Culfadan başlamış, bir tərəfi Savuc bulaq İran Kürdüstanı: Həmədan, Qəzvin, ta gəldi çıxdı Gilana və şimal tərəfdə Şura Azərbaycanına qədər, belə bir məmləkətin ki, adı İran Azərbaycanıdır, cəmi əhalisinin ana dili türk dilidir və türk dili də olmalıdır. Mən burada otura-otura bilirəm ki, gah Təbrizdə, gah Marağa və Ərdəbildə türk dili tərəf-darları yavaş-yavaş qımıldanırlar...Amma əsil qorxu bunun dalındadır ki, birdən baş-layalar fars dilinin çürük-mürük meybaz və beçəbaz kitablarını və tiryəkbaz “arif”lərini də təpikləyib bir baş Əbdüləzimə qovalar”.

“Ana dili” felyetonunda isə ədib öz doğma dilində danışmağı özünə ar hesab edən, hətta ana əvəzinə farsları təqlid edərək “madər” deyən dırnaqarası millətçilər-dən söhbət açır: “Yazıq bizim dilimiz: Qafqaz ədiblərimiz “ana” əvəzinə “madər” yazırlar, tatar qəzetçilərimiz də “İranı” “Persiya” yazırlar. Və bunların adını da qoyur-lar “ana dili.” Yazıq analarımız nə “madər” eşidiblər, nə də “Persiya”.

“Dil” felyetonunda isə Mirzə Cəlil insanların kor-koranə başqalarını təqlid etməsi ilə yanaşı, əlifba məsələsinə də toxunur və əlifbada olan nöqsanlardan danışır: “Darülfununü qurtarmış cavanlarımızın hamısı rus dilində yazı-pozu eləyirlər; olmaya-nlar da eləyir. Əvvəllər mən buna razı olmazdım, amma indi razıyam. Hətta qəzet mü-dirlərimizdən bizə indiyədək bir neçə kağız gəlib, bunların hamısı rusca yazılıb. Müəllim rəfiqələrimiz də bizə rusca kağız yazırlar. Az qalıb ki, mollalarımız da rus dilində irsal-mərsul edələr, amma eləmirlər. Məhz ondan ötrü ki, rusca bilmirlər”.

Bu felyetonda ədib son dövrlərdə hətta, müəllimlərin belə artıq ana dilində deyil, rusca yazdıqlarından gileylənir və buna bir səbəb kimi əlifbamızda olan nöqsanları da göstərir. Burada Mirzə Cəlil başına gələn qəribə əhvalatdan söz açır. Kənddə olan bacısı Fatmanın beş yaşlı xəstə oğlunu müalicə etdirmək üçün onlara qonaq gəlməsin-dən və hamilə bacısının burda yeni körpəsinin dünyaya gəlməsindən və elə bundan sonra başlanan anlaşmazlıqlardan danışır : “Bir gün keçəndən sonra poçta yolum düş-dü və bir açıq kağız alıb kəndimizə Molla Cəfər rəfiqəmizə müxtəsər yazdım: “Anama de ki, Fatmanın oğlu oldu...Molla Cəfər kağızı alır və elə bilir ki, mən yazmışam “Fatmanın oğlu öldü”, yəni vəfat elədi. Çünki Molla bilirmiş ki, bacım İrəvana gəlib naxoş oğluna müalicə etdirsin və hamilə olmağını ya bilmirmiş, ya da xəyalında deyil imiş...Xülasə, üç gün keçəndən sonra, evdə oturmuşduq, gördük qapı döyüldü və bir övrət ağlayır. Qapı açılan kimi biçarə anam “bala vay!” deyib, özünü çırpdı yerə və bihuş oldu. Mən o saat işi duydum və bacımın böyük oğlunu və yeni doğduğu uşağı da gətirib qoyduq anamın qucağına”.

Dilimizi köhnə anlaşılmaz kəlmələrdən, milli ruhumuza yad olan sözlərdən, tər-kiblərdən, cümlələrdən, varvarizmlərdən təmizlənməsinə xidmət baxımından yazılmış “Əlifba” və “Ana dili” məqalələri xüsusilə diqqətəlayiqdir. “Əlifba” adlı məqaləsində ədib öz tənqidi fikirlərini ana dilinə xor baxan, bu dildə danışmağı özünə sığışdırma-yan ədabazlara ünvanlayaraq yazır: “Bolqarlar öz dillərini bilmədiyindən xəcalət çəkəndə, bizlər də öz dilimizdə danışmaqdan utanırıq. Və balaca oğlumuz 4 yaşa çatan kimi aparıb qoyuruq rus evinə ki, tərbiyə alsın. Bəli, gərək 4 yaşında oğlumuz gərək 10 ilin ərzində gimnaziyanı qurtarınca bir kəlmə türk sözü danışmasın. Moskvada darülfununda da, duanın bərəkətindən müsəlman-zad söhbəti getdi işinə. Axırda cavan oğlumuz qurtarıb girdi qulluğa və özü kimi tərbiyə tapmış müsəlman qızı, ya rus qızı

aldı və inşallah bunların yenə 4 yaşında uşaqları oldu və bu uşağı da lazımdır müsəlman danışığından uzaqlaşdırmaq ki, gimnaziyada elmləri yaxşı oxuya bilsin. Allah atana rəhmət eləsin, bəs ta hanı türk dili? Qardaş zarafat deyil ki, dilimizdən iyrənirik vəssəlam!"

Dilin saflığı, təmizliyi Mirzə Cəlili daim düşündürən məsələlərdən idi. O da digər maarifpərvər ziyalılar kimi çalışırdı ki, məktəblərdə türk dili tədris olunsun. Ancaq onu da yaxşı bilirdi ki, hələ bu icazə ilə hər şey həll olunmur. Dili yeni nəslə mükəmməl öyrətmək üçün mütəxəssis lazımdır. Ancaq ən ağrılı məsələlərdən biri də bu idi ki, öz dilini mükəmməl bilən müəllimlər yox dərəcəsindədir. Ədib "Azərbaycan" felyetonunda: "Türk dili müəllimlərinin və müəllimələrinin çoxusu türkcə danışmağı yaxşı bacarmır, bu səbəbdən bunlara izn verilsin ki, rusca danışsınlar. Bu cümlənin sətiraltı mənasında gizlənmiş kinayə adamın ürəyini göyüm-göyüm göynədir. Ədib yaralı ürəyinin fəryadı kimi səslənən məşhur "Azərbaycan" felyetonunda yazırdı: "Ax unudulmuş vətən, ax yazıq vətən! Bəzi vaxt otururam və papağımı qabağıma qoyub fikrə gedirəm, xəyalata cumuram, özümdən soruşuram ki:

- Mənim anam kimdir? Öz-özümə də cavab verirəm ki:
- Mənim anam rəhmətlik Zöhrəbanu bacı idi.
- Dilim nə dildir?
- Azərbaycan dilidir.
- Yəni vətənim haradır?
- Azərbaycan vilayətidir.

Demək, çünki dilimin adı türk Azərbaycan dilidir, belə məlum olurki, vətənim də Azərbaycan vilayətidir.

Cəlil Məmmədquluzadənin yaradıcılığı, əsərləri bu gün bizim milli ideologiyanın formalaşmasına, yaranmasına və onun konsepsiyasının elmi şəkildə hazırlanmasına çox kömək edir. Onun daim işlətdiyi "Vətən, vətən, vətən! Millət, millət, millət! Dil, dil, dil!" sözləri xalqımızın, millətimizin fikirlərini, arzularını ifadə edir. Ədibin ana dilinə - Azərbaycan dilinə böyük diqqəti, ana dilini təbliğ etməsi, insanların hamısını ana dilini bilməyə dəvət etməsi və ana dilinin, Azərbaycan dilinin hər yerdə hökm sürməsinə dair fikirləri, yazıları o vaxt üçün çox vacib idi, bu gün üçün də çox aktualdır. Mirzə Cəlil milli ideologiyasının, milli təəssübkeşliyinin davamı kimi, 1993-cü ildə xalqımızın lideri və öndəri cənab Heydər Əliyevin Müstəqil Azərbaycanda yenidən hakimiyyətə gəlişi hər şeyi öz axarına qoydu: Azərbaycan xalqının ən böyük sərvəti olan dilin adı- Azərbaycan dili özünə qaytarıldı. Heydər Əliyevin yeni şəraitdə söylədiyi: "Bizim vətəndaşlıq borcumuz milli-mənəvi dəyərlərimizə, doğma torpağımıza, doğma ana dilimizə, böyük və zəngin tariximizə, millətimizə sadiq olmaqdan ibarətdir"- sözləri Mirzə Cəlil kimi milli düşüncə fədailərinin işinin bundan sonra da əsrlərlə yaşayacağını bir daha sübut etdi.

Mirzə Cəlil yaradıcılığına ən layiqli dəyəri Ulu Öndər H.Əliyev vermişdir: "Cəlil Məmmədquluzadə Azərbaycan tarixində görkəmli yer tutmuş dahi insan, yazıçı, publisist, filosof, mütəfəkkir, xalqımızın mədəniyyətini çox zənginləşdirmiş bir şəxsiyyətdir. O, ədəbiyyatımızın, mədəniyyətimizin klassikidir. Eyni zamanda o, bizim müasirimizdir, o, bu gün də bizimlədir, bizim sıralarımızdadır. Bizimlə bərabər Azərbaycanın müstəqilliyinə sevinir və bizimlə bərabər Azərbaycan Respublikasının daim

müstəqil dövlət olması uğrunda öz yaradıcılığı ilə çalışmaqdadır... Cəlil Məmmədquluzadə bu gün ... bizim üçün mənəviyyat mənbəyidir, mənəvi dayaqdır. O, bizə ilham verir, bizə güc verir, sürətlə irəli getməkdə, xalqımızı bu günkü vəziyyətdən çıxarmaqda bizə kömək edir".

Ümummilli lider klassik yazıçılarımızın yaradıcılığını milli ideologiyanın bünövrəsi hesab etmiş və yeni dövlət quruculuğunda, xüsusən mədəni quruculuqda onların irsindən yaradıcı şəkildə istifadəni zəruri saymışdır. Bu baxımdan onun fikrincə, yeni milli ideoiogiyanın yaradıcıları, ilk növbədə, dahi sənətkar C.Məmmədquluzadənin ədəbi-ictimai irsinə müraciət etməlidirlər: "Cəlil Məmmədquluzadənın yaradıcılığında Azərbaycanın bütün milli xüsusiyyətləri, eyni zamanda ümumbəşəri dəyərləri əks etdirən fikirlər bizim milli ideologiyanın əsasıdır və həmin ideologiyanın yaranması üçün böyük bir vasitədir, böyük bir sərvətdir. O dövrdə həm milliliyə bağlı olmaq, həm də dünyəvi, ümumbəşəri dəyərləri qiymətləndirmək, onları öz yaradıcılığında əks etdirmək və xalqımızın ümumi səviyyəsini qaldırmaq cəhdləri böyük vətəndaşlıq cəsarəti idi, böyük xidmətdir və bunu biz daim qiymətləndirməliyik. Ona görə də, Cəlil Məmmədquluzadənin yaradıcılğı, əsərləri bu gün bizim milli ideologiyanın formalaşmasında, yaranmasında və onun konsepsiyasının elmi şəkildə hazırlanmasına çox kömək edə bilər və çox kömək edəcəkdir".

Sədrəddinova T.N.,
baş müəllim
Sumqayıt Dövlət Universiteti

ÇAĞDAŞ DÖVRDƏ MİLLİ DƏYƏRLƏRİMİZƏ MÜNASİBƏT

Cəmiyyətdə milli adət və ənənələrin öyrənilməsi və varisliyi həmişə aktual olub. Çünki adət və ənənələr ictimai-mədəni tərəqqinin əsas göstəricisi rolunu oynayır. Cəmiyyət dəyişdikcə adət və ənənələr də təkmilləşir və millətin, xalqın yaradıcılıq nümunələrini yaşadır. Mənəvi dəyərlər dövrün, şəraitin və ictimai quruluşun ruhuna, tələblərinə uyğun cilalanır, yeni forma və məzmun kəsb edir. Mənəvi dəyərlərin bu xarakterik cəhətlərinə görə əski sovetlərin tərbiyə sistemində onlardan bir vasitə kimi geniş istifadə edilib.

Bəşər mədəniyyəti tarixinin araşdırılması sahəsindəki qazanılmış təcrübələr sübut edir ki, insanların mənəviyyatı, əxlaq normaları və baxışları ilə bağlı olan milli mənəvi dəyərlərin yaradıcısı xalqdır. Təbiətin hər bir xalqa bəxş etdiyi ən qiymətli miras onun milli mənəvi dəyərləridir. Bu səbəbdən hər şeydən əvvəl bütün sahələrdə, o cümlədən mədəniyyət siyasəti sahəsində mədəniyyətin təsbiti mövzusuna üstünlük verilməlidir. Milli mənəvi dəyərlər gələcək nəsillərə daha da zənginləşdirilmiş halda ötürülməlidir. Şübhəsiz, mədəniyyət dəyişmədən və zənginləşdirilmədən varlığını qoruya bilməz. Bu məqsədlə müasir mədəniyyət siyasətində yaradıcı və qurucu səciyyəli hər cür fəaliyyət təşviq edilməli, yeni qabiliyyətlərin kəşf edilməsi, istiqamətləndirilməsi, dəyərləndirilməsi fəaliyyətlərinə mühüm əhəmiyyət verilməlidir.

Hər bir ənənə müəyyən əxlaqi məna daşıyır. Onlara laqeyd qalmaq insanlar arasında münasibətlərinin pozulmasına, şəxsiyyətlə kollektiv və cəmiyyət arasında ziddiyyətlərin əmələ gəlməsinə səbəb olur. Çeşidli folklor nümunələrimiz məhz adət və ənənələrimiz işığında intişar tapır. İndi bu mənəvi dəyərlər zəngin mədəni irs olmaqla bərabər, eyni zamanda milli özünəməxsusluğun ifadə vasitəsinə çevrilib. Mədəni-kütləvi tədbirlərdə bir ifadə vasitəsi kimi milli xüsusiyyətlərimizin qoruyucusu olublar.

Bu gün milli adət və ənənələrimiz musiqi, mahnı nümunələri, əyləncəli oyunlarla zəngin olmaqla yanaşı, insanların davranışlarına əsaslı təsir göstərən əxlaq normalarının da daşıyıcısıdır. Adət və ənənələr bütün mədəni tədbirlər üçün rəmzi məna kəsb edir və onlara milli məzmun gətirir. Məsələn, Novruz bayramı ərəfəsində keçirilən bir çox mədəni tədbirlərdə səmənidən, xalqımızın qədim milli geyimlərindən və s. milli-rəmzi atributlarından geniş istifadə olunur.

Yeni yaranan mənəvi dəyərlər də varislik prinsiplərinə uyğun olaraq əski adət və ənənələrdən bəhrələnib. Lakin varislik qaydaları insanların mənəvi dəyərlərinin inkişafına, yeniləşməsinə mane olmayıb. Sadəcə olaraq adət və ənənə formasında mənəvi mədəniyyətin tarixi təcrübəsinə əsaslanan yeni istiqamətləri yaranıb. Məsələn, Azərbaycan sənətkarlarının yaşayıb-yaratdıqları tarixi mərhələlərdən asılı olmayaraq, ruhən bir-birinə oxşarlıqları aşkar edilir. Əcəmi Naxçıvaninin memarlıq sənətində, Sultan Məhəmmədin miniatür əsərlərində bu diqqət çəkir. Onların yaratdıqları mənəvi irs müasir sənətkarların əsərlərində bu və ya digər formalarda özünü büruzə verir.

Qeyd edək ki, müstəmləkə həyatı yaşamış hər bir xalqın mədəniyyətində, xüsusi ilə milli dəyərlər sistemini özündə yaşadan adət və ənənələrdə deformasiya halları olub. Xalqımızın iki yüz ilə yaxın Rusiya imperiyasının və Sovet İttifaqının tərkibində olması bir çox milli və dini adət və ənənələrimizin ciddi və mənəvi təzyiqlər altında qalmasına səbəb olub. Xüsusilə dini bayramlarımızın qeyd edilməsinə qadağalar qoyulub.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Qurban, Ramazan, Novruz kimi dini və milli bayramlarımızın keçirilməsi öz həllini tapır. Dini və milli adət və ənənələrin icra edilməsi yolunda siyasi və ideoloji amillər artıq aradan qaldırılıb. Həmçinin bədii estetik dəyərə malik incəsənət nümunələrini araşdırmaqla milli mentalitetimizin reallıqlarını geniş miqyasda nümayiş etdirmək imkanları genişlənib.

Bu gün Azərbaycan Respublikasının beynəlxalq miqyasda tanınmasına, müstəqilliyinin möhkəmləndirilməsinə dair bir sıra tədbirlər həyata keçirilir, eləcə də təhsil və mədəniyyətin inkişafı üçün zəruri qərarlar qəbul edilir. Təhsil və mədəniyyət institutlarının Avropa standartlarına uyğun şəkildə qurulması istiqamətində səylər göstərilir. İntellektual dairələr öz fəaliyyətləri ilə dövlətin mədəniyyət sahəsindəki siyasətinin müasir durumunu təhlil edir və bu siyasətin perspektivlərinə aydınlıq gətirməyə çalışırlar.

Mənəvi dəyərlərimizin qorunub saxlanması və inkişaf etdirilməsi müstəqil respublikanın mədəniyyət siyasətinin əsas vəzifələrindən biridir. Bu mənada Azərbaycan dövləti öz daxili və xarici siyasətini yeni tarixi şəraitə, müasir tələblərə uyğun olaraq, xalqımızın tarixi və mədəni ənənələrinə, dilimizə, dinimizə, milli mənəvi dəyərlərimizə istinad edərək həyata keçirir. Azərbaycan Respublikası ümumdünya mədəniy-

yətinin qloballaşması meyllərindən kənarda qalmamaq şərti ilə, milli mədəniyyətin özünə məxsusluğunu qoruyur və eyni zamanda dünyanın mədəni nailiyyətlərindən milli mədəniyyətin tərəqqisində istifadə üçün imkanlar yaradır. Azərbaycan Respublikası beynəlxalq öhdəliklərinə uyğun olaraq öz ərazisində tarixi və mədəni abidələrin qorunmasını təmin edir. Ölkənin davamlı inkişafı üçün adekvat sayda, yaxşı təhsil almış və təlim keçmiş peşəkar insan potensialını, həmçinin elmi-texniki tərəqqini təmin etmək zəruridir. Bu məqsədlə, Azərbaycan Respublikası elm və təhsil səviyyəsinin dünya standartlarına uyğunlaşdırılması, yeni texnologiyalardan istifadə üçün inkişaf etmiş ölkələrlə əməkdaşlıq əlaqələrini genişləndirir, beynəlxalq təcrübəni öyrənir və tətbiq edir.

Müstəqilliyimizin bərpa olunmasından sonra həyata keçirilən mədəniyyət siyasəti milli mənəvi dəyərlərimizin qorunub saxlanması və gələcək nəsillərə çatdırılması üçün böyük zəmin yaradır. Xalqımızın əldə etdiyi bu böyük nailiyyət milli sərvətimiz olan mənəvi dəyərlərimizin istifadəsini, bəşəri dəyərlərin tərkib hissəsi kimi inkişafını və inteqrasiyasını təmin edir. Azərbaycan xalqı azad və suveren dövlət quraraq, mədəni-iqtisadi islahatlar aparmaqla öz milli əxlaqi dəyərlərinə, tarixinə qayıdır, demokratik ölkələrin təcrübəsindən istifadə edir.

Milli mənəvi dəyərlər sırasında ümummilli lider Heydər Əliyev ana dilinə xüsusi önəm verirdi. Ulu öndər elmə, mədəniyyətə, maarifə, incəsənətə daim diqqət və qayğı göstərir, ziyalıların əməyini hər zaman yüksək qiymətləndirirdi. Onun təşəbbüsü ilə "Müasir Azərbaycan dili" dərsliyinin dövlət mükafatına layiq görülməsi təkcə elmə yox, həm də ana dilinin inkişafına dövlət qayğısının təzahürü idi.

Bu gün Azərbaycanın dövlət müstəqilliyi daha da möhkəmləndirilməkdədir, respublikamızda demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesi daha sürətlə inkişaf etməkdədir. Dövlətçiliyin təməlinin, milli varlığın özülünün mədəniyyətə bağlı olduğunu aydın dərk edən ulu öndər Heydər Əliyev deyib: "Biz öz milli mənəvi dəyərlərimizlə, öz dini dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik. Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli mənəvi dəyərlərimizi yaradıbdır və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir". Ümummilli lider Heydər Əliyevin yürütdüyü siyasi-mədəni xəttin layiqli davamçısı prezident İlham Əliyevin inamla və sədaqətlə həyata keçməkdə olduğu mədəniyyət siyasətinin uğurlu nəticələri və perspektivləri artıq göz qabağındadır. Belə ki, mədəniyyət sahəsində dövlət konsepsiyasının əsas qayəsi mədəniyyət siyasətinin təminatı mexanizmlərini dünya standartları səviyyəsinə çatdırmaq yolunda mədəni irsin qorunması, yaradıcılığın dəstəklənməsi və mədəni sənayelərin dirçəldilməsi kimi prioritet istiqamətləri müasir dövrün tələblərinə uyğun şəkildə inkişaf etdirməklə Azərbaycan mədəniyyətinin və incəsənətinin qorunub saxlanılmasına, gələcək inkişafına və dünya mədəniyyətinə uğurla inteqrasiyasına nail olmaqdır. Mədəniyyət və incəsənətin bütün sahələrində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi həyata keçiriləcək islahatların əsas məğzi kimi nəzərdə tutulub. Mədəniyyət siyasətinin perspektivlərini müəyyənləşdirən konsepsiyanın ümumi məqsəd və vəzifələri mədəniyyət siyasətinin təminat mexanizmləri kimi çıxış edən və mədəniyyətin bütün sahələrini əhatə edən mədəniyyətin idarəolunma, hüquqi, maliyyə, elmi-informasiya təminatı, insan resuslarının inkişafı, maddi-texniki infrastrukturunun müasirləşdirilməsi və beynəlxalq

əməkdaşlığın möhkəmləndirilməsi kimi ümumi məsələlərin inkişaf etdirilməsindən ibarətdir. Həmçinin mədəniyyət siyasətinin göstərilən sahələrinin dünya standartları səviyyəsinə çatdırılması üçün tələb olunan islahatların həyata keçirilməsinin təmin edilməsindən ibarətdir.

Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikasının qarşısında bir neçə inkişaf yolu var idi. Müxtəlif kənar təsirlər həmin dövrdə Azərbaycanı fərqli istiqamətlərə yönəltməyə çalışıb. Lakin ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi quruculuq siyasəti Azərbaycan xalqının milli mənəviyyatına əsaslanan milli dövlətin əsaslarını formalaşdırmağa yönəltdi. Belə ki, ulu öndərin əsasını qoyduğu dövlət quruculuğu siyasətinin mühüm xüsusiyyətlərindən biri dövlətin əbədi mövcudluğunu təmin edəcək zəruri mənəvi dayaqların formalaşdırılması idi. Bununla da Azərbaycan dövlətinin əsaslarının yaradılmasında məhz Azərbaycan xalqının milli mənəvi dəyərləri başlıca dayağa çevrildi. Mədəniyyətlərin bir-birinə nüfuz etdiyi və hətta bəzi hallarda assimilyasiyaya uğradığı qloballaşan dünyada Azərbaycan xalqının milli mənəvi keyfiyyətlərinin mühafizə edilərək gələcək nəslə ötürməsi maddi-mənəvi irsimizin öyrənilmə və qorunub saxlanma səviyyəsindən asılı olacaq. Prezident İlham Əliyev dəfələrlə Azərbaycan xalqının hər zaman milli mənəvi dəyərlərinə sadiq olduğunu söyləyib. Dövlətimizin başçısı bildirib ki, məhz bu dəyərlər bizi bir xalq kimi qoruyub saxlaya bilir və bu gün müstəqillik dövründə Azərbaycanda dövlət quruculuğu prosesi də məhz milli mənəvi dəyərlər üzərində həyata keçirilir.

İbrahimova N.N., müəllim
ADPU-nun Şəki filialı

TEYMUR ELÇİNİN UŞAQ ŞEİRLƏRİNDƏ ƏXLAQİ-DİDAKTİK MOTİVLƏR

Azərbaycan ədəbiyyatının tanınmış nümayəndəsi, görkəmli dövlət xadimi, şair və tərcüməçi Teymur Elçin müasir uşaq ədəbiyyatında özünəməxsus dəsti-xətti olan uşaq şairlərindəndir. Bu sahədə xeyli uğurlu əsərlərin müəllifi kimi tanınan Teymur Elçin uşaq ədəbiyyatımızın inkişafında və zənginləşməsində xüsusi və şərəfli bir yol keçmişdir.

Azərbaycan uşaq ədəbiyyatının ən gözəl nümunələrini yaratmış şair, rus və digər xarici ölkə ədəbiyyatı nümayəndələrinin əsərlərini də dilimizə böyük ustalıqla tərcümə etmişdir. Bu tərcümələrin əksəriyyəti orijinal nümunədən də qüvvətli alınmışdır. Şairin kitablarının hər biri kiçikyaşlı oxuculara xeyirxahlıq, ülvi hisslər və səmimiyyət tərbiyə edir. Son dövrlərdə bu kitablar latın qrafikası ilə nəşr edilməsə də, kitabdakı şeirlər, nəğmələr məktəb kitablarında çap edilir və şagirdlər tərəfindən sevə-sevə oxunur.

"Teymur Elçin bizim elə bir sənətkarımızdır ki, əsərləri saf-çürük edilsə, orada kənara qoyulacaq, lazımsız sayılacaq heç nə tapa bilmərik. Bu sözləri biz şairin kiçik yanıltmaclarından tutmuş böyük poemalarına, hətta bütün yaradıcılığına aid edə bilərik."

Məlumdur ki, uşaq ədəbiyyatının ən böyük vəzifələrindən biri uşaqlara tərbiyəvi fikirlər aşılamaqdır. Uşaq ədəbiyyatı nümunələrində tərbiyə məsələsi, tərbiyəvi hisslər həmişə ön planda olur. T.Elçinin uşaq və yeniyetmələr üçün yaratmış olduğu səmimi, sadə, təbii, lirik şeirlər həyatiliyi, təlim və tərbiyə nöqteyi-nəzərdən faydalılığı və əx-laq-mənəvi dəyərlər baxımından olduqca əhatəlidir.

Bədii estetik tərbiyənin əhəmiyyətli məsələlərindən biri də təbiət gözəlliklərinin qorunmasında cəmiyyətin üzərinə düşən məsuliyyəti gənc nəslə başa salmaq, təbiətin özünü ona sevdirməkdir. T. Elçinin yaradıcılığında təbiət gözəlliklərini tərənnüm edən şeirlər az deyildir. Təbiətə məhəbbət böyüklərdə olduğu kimi, uşaqlara da yüksək, nəcib hisslər aşılayır, onları faydalı işlər görməyə ruhlandırır. Şairin "Gəl bahar", "Qış nəğməsi", "Yağış yağır", "Bulaq", "Bahar" və "Qar yağır" şeirləri bu baxımdan dəyərlidir. T. Elçin "Yağış" şeirində hamının dönə-dönə gördüyü, seyr etdiyi bir səhnəni – yağışın yağmasını uşaqların anlayacağı bir tərzdə çox gözəl poetik boyalarla təsvir etmişdir:

Yağış yağır, yağış,
İslanır hər qarış.
Əsir soyuq külək,
Odur çalan tütək.
Yağış yağır, şır-şır,
Sellər axır-daşır.

Şimşək çaxır göydə,
Əsir yer də, göydə.
Gəlin evə qaçaq,
Quşlar kimi uçaq.
Yağış yağır, şır-şır,
Sellər axır-daşır.

Şair təbiətdə müşahidə etdiyi hadisələri sadəcə, vəsf etmir, onları sadələşdirib uşaq psixologiyasına uyğun qələmə alır, uşaqla təbiət hadisələri arasında bir yaxınlıq yaradır. Məsələn, "Şeh" şeirini diqqət edək:

Gün çıxanda
Gözlərini açar-yumar,
Bizə baxar xumar-xumar.
Göy otların üstündə şeh
Muncuq-muncuq, düzüm-düzüm.
Gün şaxanda
Qorxub qaçar, qaçar, qaçar.
Buludların
Qucağına uçar, uçar:
Baxıb deyər:
-Eh, eh!

Şeirdə şehin poetik obraz kimi verilməsi diqqəti cəlb edir, uşaqların təfəkkür və təxəyyülünün inkişafında çox böyük rol oynayır. "Burada şeirin canlı varlıq kimi təqdim olunması uşağın qəlbində onunla daha yaxından tanışlıq arzusunu gücləndirir. Şairin günəş şüaları altında bərq vuran şehi "gözlərini açar-yumar, bizə baxar xumar-xumar" misraları ilə təqdim etməsi, günün istisi artanda onun qorxub buludlara uçması da maraqlı detalları kimi yadda qalır."

Teymur Elçinin təbiət mövzulu şeirlərində ilin fəsillərinin tərənnümü xüsusilə diqqəti cəlb edir. Şair uşaqlara ilin ayrı-ayrı fəsillərindən söz açır və bu tip şeirlərini sil-silə şəklində balaca oxucularına təqdim edir: "Yaz dəftəri" , "Yay dəftəri", "Payız dəftəri" və "Qış dəftəri"ndən.

"Bahar" şeirində yazın gəlişi ilə təbiətin canlanması, çöllərə, meşələrə yeni həyat, yeni ab-hava gəlməsi səmimi bir dillə təsvir edilir:

Gəldi bahar,
Güldü bahar.
Gün çıxanda
Ağladı qar.
Güllər açdı,
Ətir saçdı.
Hər tərəfdə
Sevinc var.

T.Elçinin təbiət mövzusuna həsr olunan şeirlərindən bir qismi doğma təbiətin ayrılmaz bir hissəsi olan heyvanlar, quşlar aləminə həsr olunmuşdur. "Qaranquş", "Kəpənək", "Sərçəcik", "Keçim", "Sərçə" şeirləri bu qəbildəndir. "Qaranquş" şeirində yazın ilk müjdəçisi olan quşun obrazı yaradılmışdır.

Sən gələndə, qaranquş,
Bu yerlərə yaz gəlir;
Dalınca qatar-qatar
Durna gəlir, qaz gəlir.
Getmə uzaq qaranquş,
Sinəsi ağ qaranquş.

Şeirin növbəti misralarında şair vətən məhəbbətini uşaqlaraməxsus şəkildə çatdırmışdır:

Çox ölkələr gəzmisən,
Oxu, nəğmən şirindir,
Dünyada ən gözəl yer
Öz yuvan, öz yerindir.
Xoş gəlmisən qaranquş,
Qalmışdım nigaran, quş.

Şairin uşaq poeziyasına xas olan xüsusiyyətlərindən biri də onun şeirlərinin konkretliyi, fikir aydınlığı ilə fərqlənməsidir. T.Elçinin yuxarıda adları qeyd olunan şeirləri məhz bu cəhətdən də səciyyəvidir. Bu şeirlərdə artıq ifadə və sözlərə rast gəlmirik, hər sözün öz yeri, öz mənası vardır. Şair həmişə lakonik şəkildə sözlə çox məna və fikir ifadə etməyə çalışır ki, bu da uşaqlar üçün yazılan əsərlərə verilən mühüm tələblərdəndir.

Məktəbəqədər təlim-tərbiyə müəssisələrində çalışan müəllimlər bu şeirlərdən geniş şəkildə istifadə edə bilərlər. Çünki bu şeirlər bağçayaşlı uşağın qavrama səviyyə-

sinə uyğundur. Bu mövzuya həsr olunmuş şeirlərin məzmununu uşaq asanlıqla qavrayır, həm də eşitdiyi misraları az bir zaman içərisində əzbər öyrənmək imkanı əldə edir.

T.Elçin şeirləri uşaqların əxlaqi-mənəvi kamilləşməsi baxımından da qiymətlidir. Şair uşaqlara əxlaqi keyfiyyətləri çatdırarkən nəsihətçilikdən uzaq qaçır. Şair ənənəvi nəsihət poeziyasından ustalıqla imtina edərək, uşağa əhvalatın özünü göstərir, nəticə çıxarmağı isə onların öhdəsinə buraxır. "Gülüş və Gümüş" şeiri bu baxımdan səciyyəvidir. Gülüş evdə dəcəllik edərək oyuncaqları qırır, kitabı cırır və evin divarlarını yazır. Ana bu işlərə hirsləndikdə isə günahı hələ danışa bilməyən balaca bacısı Gümüşün üstünə yıxır. Danışa bilməyən Gümüş isə "öz dilində" etiraz edir:

Nə olsun kiçik
Bacıdı Gümüş
-Ay yay, ay! –deyər
Kim görsə pis iş
İndi qışqırır.
Ağlayır: -Lo, lo!
(Yəni "yox" deyir,
Yalan danışmaz,
Yalan deməz o!)"
"Yalan" sözündən
Həmişə qorxar.
"Yalan" sözündə , -
Deyir, -ilan var".

T.Elçin yalan sözünü, demək olarki, uşaqların əksəriyyətinin qorxduğu ilana bənzətmişdir. Yalanın pis bir əməl olduğunu uşağa çıx gözəl vasitəylə izah olunmuşdur. Şair şeirin sonunda Gülüşün ifşasını da uşaq psixologiyasına uyğun şəkildə vermişdir. Hətta oyuncaqlar da Gülüşün necə pis bir əməl tutduğunu görərək, ona gülürmüşlər.

Hamı bilir ki,
Yalan danışıb
Bu səhər Gülüş.
Yalançı qıza
Oyuncaqları
Baxıb gülürmüş.
Gülürmüş ayı,
Dovşan, fil, dəvə,
Gülürmüş hamı
Yığışıb evə.

Bəkir Nəbiyev "Uşaq ədəbiyyatımız müasir mərhələdə" məqaləsində uşaqlara bu mövzulu əsər yazmağın mürəkkəbliyini göstərmişdir. "Onlara birbaşa, müstəqim müraciət edib, "nəcib ol!", "səliqəli ol!" deməklə bu keyfiyyətləri aşılamaq, əlbəttə, istənilən nəticəni verməz. Balacalar həyatda, təcrübədə nümunə götürməyə daha çox

həssasdırlar; həm də bu nümunə bədii əsərdə, onların psixologiyasına və düşüncə tərzinə uyğun təqdim olunursa, şəksiz təsir qüvvəsi kəsb edir.”

Teymur Elçinin “Gülüş və Gümüş” şeiri ilə “Bir tikə çörək” şeiri arasındakı bir məntiqi ardıcıllıq diqqətimizi cəlb edir. Şeirdə balaca Aytənin yerə düşmüş çörəyə həssaslıqla yanaşması insanı sevindirir.

Gedir səhər-səhər
Bağçaya Aytən,
Nənəsinin bərk-bərk
Tutub əlindən.
Gah atılır-düşür,
Gah əylənir o.
Dəcəl uşaqlardan gileylənir o.
Qız birdən dayanır,
Donur yerində.
Qəm-qüssə görünür
Şən gözlərində.
-Nənə, bax, çörəyi
Atıblar yerə!...

Az qala yerindən
çıxır ürəyi.
Əyilir götürür,
öpür çörəyi.
Qoyur pəncərənin
önünə Aytən.
–Ac quşlar, pişiklər
tapıb yesinlər.
Eləmi, nənə?!
- Mən də istəyirəm
Sağ ol desinlər,
Aytənim, sənə!

Məlumdur ki, hər birimizə balaca yaşlarından çörəyə məhəbbət aşılanır. Böyüklərimiz çörəyi ən müqəddəs nemət sayır, bəzən “çörək haqqı” deyə bu nemətə and içir, Allahdan çörəklə imtahana çəkilməməyi diləyir, ən hörmətli - qonağı duz çörəklə qarşılayırlar. Bağçayaşlı övladlarımıza da bu keyfiyyətlərin aşılanması baxımından “Bir tikə çörək” şeiri əvəzolunmazdır. Şeirdə təsvir olunan nənə obrazı Aytənin çörəyə olan məhəbbətini, sevgisini yüksək qiymətləndirir.

T.Elçinin bu sahədəki bütün səy və cəhdi bir məqsədə – uşaqların, xüsusən bağçayaşlı uşaqların əxlaqi cəhətdən yüksəlməsinə yönəlmişdir. O, insanı həm özü üçün, həm də cəmiyyət üçün yararlı şəxsiyyət yetişdirməyə çalışırdı. Uşaq şeirlərində şairin irəli sürdüyü həyati məsələlər müasir günümüzdə də uşaqların mənəvi tərbiyəsi işində öz aktuallığını itirməmişdir. T.Elçinin bu qəbildən olan uşaq əsərləri kiçik oxucunu xeyirxahlığa, düzgünlüyə və humanizmə çağırır. Bütün bunlar elə məharətlə təqdim edilir ki, hətta kiçikyaşlı uşaqlar belə, çətinlik çəkmədən bu yüksək keyfiyyətləri duya bilirlər.

Məlumdur ki, uşaqların əxlaqi-mənəvi inkişafında əməyin rolu əvəzedilməzdir. Azərbaycan uşaq ədəbiyyatında da bu mövzu geniş şəkildə işlənilmişdir. M.Ə.Sabir, A.Səhhət, A.Şaiq, M.M.Seyidzadə, M.Rzaquluzadə və başqa dəyərli sənətkarlarımızın yaradıcılığında bu mövzuya rast gəlirik. Sənətkarlarımız insan əməyinə yüksək qiymət verir, həyatın mənasını zəhmətdə görür, gənc nəslin əməyə məhəbbət ruhunda tərbiyəsini taleyüklü məsələ sayır.

T.Elçin şeirlərində bu mövzu özünəməxsus şəkildə verilmişdir. “Köməkçilər” silsiləsində şair ayrı-ayrı əmək alətləri ilə uşaqları yaxından tanış edir, məişətdə bu əşyaların rolunu izah edir. Təbii ki, bu şeirlər uşaqlarda əməyə məhəbbət hissi oyadır. “Baltanın ağaca tap-tap dəyib əyməsi”, “yüzdiş mişarın dişini ağaca ilişdirib işə başlaması və axırda dişlərini silməsi”, “dəmirbaş çəkicin tuq-tuq başını mismara vur-

ması", "məngənənin ağzını açıb mismarı sıxması" o qədər əyaniliklə təsvir olunmuşdur ki, eləbil, hər biri ayrılıqda gəlib gözümüzün qarşısından keçir. Müəllif ağacları doğrayan, yonan, dəmiri sıxan alətlərin gördüyü işi uşaqların zövqünə və səviyyəsinə uyğun bədii bir tapıntı kimi ifadə edir." Silsiləyə daxil olan "Kəlbətin" şeirində müəllif alətin işini uşaq psixologiyasına uyğun şəkildə vermişdir:

Nə çətindir,
Nə çətindir,
Nə çətin!..
Mismar çıxmır,
Bərk yapışıb
Taxtadan.
Harda qaldı,
Niyə gəlmir
Kəlbətin?!

"Uşaq ədəbiyyatının başlıca xüsusiyyətlərindən biridə onun öyrədici olmasıdır. Yazıçı əsəri yazarkən uşağa həyatın müəyyən sirlərini öyrətməyi qarşısına məqsəd qoyur. Bu həm də onun tərbiyəedici cəhəti ilə bağlıdır. Pedaqoqlar belə bir haqlı fikir irəli sürürlər ki, uşaqlar tərbiyə olunduğunu başa düşən kimi tərbiyəçidən uzaq olmağa çalışırlar. Elə buna görə də, yazıçı fikirlərini əsərin gözə görünməyən gizli qatlarından verir. Belə ki, "yaxşı nədir, pis nədir" sualının cavabı uşaq ədəbiyyatının dərin qatlarında gizlənir".

Azərbaycan dilinin gözəlliklərini körpə balalarımıza çatdırmaq baxımından da T.Elçin şeirləri əvəzedilməzdir. Məlumdur ki, uşaqlar dilimizin qrammatik quruluşunu orta məktəbə getdikdən sonra tanış olurlar. T.Elçin isə bu işin lap körpəlikdən necə başlamaq lazım olduğunu öz gözəl şeirləri vasitəsilə çatdırmışdır. Bu qəbildən olan şeirlərini şair özü də "Sözlər" silsiləsi adı altında qruplaşdırmışdır. "Bahar, adlar, uşaqlar"(1966), "Şəkərim, duzum"(1977), "Sözlər, nəğmələr, nağıllar, laylalar"(1969) kitablarında bu silsiləyə rast gəlirik. Azərbaycan dilinin zəngin leksikası – omonim və çoxmənalı sözlər T.Elçin yaradıcılığında geniş əks olumuşdur.

İki top
Birinci top
Atıldı top
Yer titrədi, göy titrədi:
-Gurr! Gurr!

İkinci top
Tor üstündən atıldı top,
Tutuldu top.
-Nə durmusan, nə durmusan?!
Vurr! Vurr!

Top sözünün omonimliyi uşaqlara çox gözəl poetik boyalarla çatdırılmışdır. Sözlər silsiləsinə daxil olan digər şeirlərdə də dilimizin zənginlikləri uşaq təfəkkürünə uyğun şəkildə verilmişdir. Müəllif böyüməkdə olan, müxtəlif sözlərin mənasını dərk etməyən, predmetlərin mahiyyətini anlamayan balacaları elə yolla başa salır ki, onlar sadə izahatlar, müqayisələr, bənzətmələr, anlaqlı paralellər vasitəsilə haqqında deyiləni və görüləni çətinlik çəkmədən dərk edir, anlayırlar.

"İki top" şeirində sözlərin omonimliyi , "Gözlər" şeirində isə çoxmənalı sözlərin çalarlığı verilir.

-Bilirsənmi göz nədir, -
Bu balaca söz nədir?
Hə, gülürsən...
Demək bilirsən, -
De görək!
- Adam gözü,
Heyvan gözü,
Quş gözü.
Baxmaq üçün,
Görmək üçün
Düzəldiblər bu sözü
-Sonra bəs?
-Bilmirəm.
-Səhərin də gözü var,
Günəşlə bir açılar.

Gözlülərə göstərər
Hər şeyi
Bulağın da,
Quyunun da gözü var, -
Tutulsa, o quruyar,
Tamam kəsilər suyu,
Olar kor quyu.
Yəqin ki, sən
Görmüsən
Təkgözlü, ikigözlü,
Çoxgözlü pəncərələr.
Bu gözlərdən görünər
Bizim dağlar, dərələr.
Şkafın da,
Stolun da,
Mənzilində gözü var,
Kimin belə sözü var.

Dilimizin ən incə məqamları ilə bilən Teymur Elçin hər sözü uşaq dünyasına, uşaq anlamına uyğun şəkildə mənalandırmağı bacarır, bu yolla balalarımıza Azərbaycan dilini sevdirir, körpələrimizin lüğət ehtiyatını zənginləşdirir. R.Yusifoğlu haqlı olaraq qeyd edir ki, bu cür şeirlər uşağı sözün məna çalarını tapmağa həvəsləndirir, onda dilə qarşı maraq oyadır.

T.Elçin yaradıcılığında qeyd etdiyimiz kimi, silsilə şeirlər üstünlük təşkil edir. Belə silsilələrdən biri də "Hesabla, tap"a daxil olan şeirlərdir. "Hesabla tap" silsilə şeirlərində şair hələ heç bir riyazi bilik və təsəvvürə malik olmayan balacalarda ibtidai riyazi təsəvvür və rəqəmləri hesablama bacarığı yaratmaq üçün poeziyanın imkanlarından geniş istifadə edir."Şair sanki riyaziyyatdan dərs keçir. Toplama, çıxma, vurma və bölmə əməllərini poeziyanın ecazkar dili ilə uşaqlara çatdırılır. Çıxma əməlinə aid nümunəyə nəzər salaq:

Yaşar beş alma aldı,
Birini yolda saldı,
Birini mənə verdi,

Neçəsi ona qaldı?

Şeirdə "5-1-1=3" çıxılan həmin rəqəmlərin cəmi uşaqdan soruşulur. Məlumdur ki, uşaqlarda təfəkkürün inkişafı sadə riyazi təsəvvürlərin formalaşdırılması başlanğıc

pillə kimi əsas yer tutur. Riyaziyyat məşğələləri uşaqların məntiqi təfəkkürünü daha yaxşı inkişaf etdirir. Şeirlər vasitəsilə uşaqlar rəqəmləri tanıyır, funksiyaları öyrənir, hesablama kimi biliklərə yiyələnirlər.

T.Elçin gənc nəslin tərbiyə olunmasında uşaq ədəbiyyatına böyük əhəmiyyət vermiş, nəinki sözdə, hətta özünün əməli işlərində də uşaqlar üçün necə yazmağın lazım olduğunu əyani olaraq göstərmişdir. Görkəmli ədibin uşaq şeirləri təsadüfi söylənilmiş fikirlər yığını deyil, müntəzəm şəkildə şərh edilmiş, uşaq psixologiyasının xüsusiyyətləri nəzərə alınmış pedaqoji ideyalar sistemidir.

"T.Elçin Azərbaycan uşaq ədəbiyyatı şəhərində adına layiqli küçə salıb, T.Elçin küçəsi... Bu küçədən hər evə cığırlar uzanır. Bu cığırlarla təzə-təzə dil açan körpələrimiz şeir-sənət dünyasına doğru yol gedirlər. Hələ neçə-neçə nəsillər bu yolun yolçusu olacaqdır."

Adıgözelova G.R., doktorant
Sumqayıt Dövlət Universiteti

AZƏRBAYCAN RESPUBLİKASININ SOSİAL-İQTİSADİ İNKİŞAFINDA SIĞORTA SİSTEMİNİN ROLU, MADDİ MƏNƏVİ TƏMİNATIN İNKİŞAFI

İnsan cəmiyyəti yaranandan bugünə kimi onların iradəsindən, gücündən asılı olmayaraq, onların həyatına, təsərrüfatına, yaxınlarına müəyyən ziyan və zərər dəyir. Bu zərərlərin qarşısını almaq üçün, müəyyən ehtiyyat tədbirləri görülməlidir. Bu cür tədbirlərdən biri də təbii ki, sığorta bazarının yaranmasıdır. İlk sığorta şirkəti 1424-cü ildə Genuya şəhərində yaranmış, sığorta haqqında qanun isə 1435-ci ildə qəbul edilmişdir. "Buna görə də sığorta bazarında baş verən bu və ya digər xoşagəlməz hallarda vurulan ziyanın aradan qaldırılması, vətəndaşların özəl həyatları ilə bağlı hadisələr zamanı onlara maliyyə yardımlarının edilməsi üçün məqsədli yaradılmış pul vəsaiti fondu da deyə bilərik. Sığorta sistemi ölkə iqtisadiyyatının strateji sahəsidir ki, bu da inkişaf etmiş ölkələrin inkişaf artım tempinə müsbət yönümdə təsir göstərir."

"Sığorta sisteminin beynəlxalq standartlar səviyyəsində inkişaf etdirilməsi ölkə iqtisadiyyatının bazar münasibətləri şəraitində irəliləməsində böyük rol oynayır. 1995-2000-ci illərdə- Azərbaycan Respublikasının dövlət quruculuğu sahəsində iqtisadi-sosial böhranın aradan qaldırılmasında sığorta münasibətlərinin mühüm rolu olmuşdur. Milli Məclisin 25 iyun 1999-cu il qərarı ilə ilk dəfə "Sığorta haqqında "qanun qəbul olunmuşdur və milli sığorta bazarının yaranmasına şərait yaratmışdır ."

Sığorta cəmiyyətin iqtisadi-sosial tərəflərini əhatə etməklə, əhalinin maddi rifahının, sosial inkişafın, sahibkarlıq riskinin əsas zəmanətverici qüvvəsi kimi çıxış edir. Eləcə də sığorta gözlənilməz və xoşagəlməz fövqəladə hadisələr zamanı əmlak mənafelərinin qorunmasına, dövlətin maliyyə sisteminin təkmilləşməsinə gətirib çıxararaq, büdcəni dəyən zərərlərin ödənilməsindən azad edir, uzunmüddətli investisiyaların mənbəyinə çevirir. Sığorta münasibətləri məcburi və könüllü formada həyata keçirilir. "Məcburi sığorta dövlət tərəfindən qanunvericilik əsasında cəmiyyətin maraqlarını təmin edərək, hüquqi və fiziki şəxslərin sığorta edilməsidirsə, könüllü sığorta edilməsi sığortaçı ilə sığorta olunan arasında könüllülük əsasında bağlanan müqavilə

tipidir. Təbii ki, qanunvericiliyə uyğun olaraq, dövlət sığorta orqanları tərəfindən lisenziya verilir. Sığortanın təsis edilməsinin iki əsas funksiyası var ki, bu da onun məzmununu təşkil edir."

- Sosial təminatın təmin olunması;
- Təsərrüfat subyektinə dəymiş ziyanın aradan qaldırılması, istehsalın inkişaf ahənginin təmin olunması.

2007-ci ildə "Sığorta fəaliyyəti haqqında" qanunun qəbul edilməsindən sonra nizamlama mexanizmlərində dövlət müəyyən təkmilləşmə prosesinə dəstək vermiş oldu. Məsələn, bu cür məsələlərdən biri də məcburi tibbi sığorta ilə bağlıdır ki, bu problem hələ də həllini tapmayıb. Bu əsasən, inkişaf etmiş ölkələrdə olur ki, burada da həm sığorta olunanın, həm də sığortaçıların maraqları qorunur ki, burada da zərərlərin artıq və lazımsız yerə ödənişləri üçün təkrar sığorta ödəmə halda faydasız iqtisadi vəziyyətə salınmamalıdır. Ölkədəki sığorta şirkətləri əsasən yerli şirkətlərdir ki, buna da mövcud qanunvericilik bazası xarici kapitalın cəlb edilməsi zamanı müəyyən məhdudiyyətlər qoyur.

"Bu məqsədlə də, 2007-ci il 27 dekabrda qəbul olunmuş Sığorta Fəaliyyəti Haqqında qanuna əsasən sığorta şirkətinin nizamnamə kapitalında xarici kapitalın iştirak payının 49 faizdən artıq olmaması nəzərdə tutulurdu. 2008-ci ildə Maliyyə Nazirliyi qanunu daha da sərtləşdirdi və ölkə daxilində bütün sığortaçıların nizamnamə kapitallarının ümumi məbləğində bütün xarici sığortaçıların payının son həddini 30 faiz müəyyən etdi. Bununla da, xarici sığortaçıların filiallarının ölkədə fəaliyyəti əhəmiyyətli dərəcədə məhdudlaşdırıldı."

2011-ci ilin yanvar ayının 1-dən icbari sığorta haqqında qanun qəbul olundu. Qəbul olunmuş qanun işçilərin icbari tibbi sığortasını nəzərdə tutur. Qanuna əsasən işçi və işəgötürən arasında istehsalat prosesində baş verən bədbəxt hadisələr zamanı işçinin əmək qabiliyyətinin itirilməsi hallarının qeydə alınması, nəticədə zərərçəkənə dəyən ziyan işəgötürən tərəfindən deyil, sığorta şirkəti tərəfindən ödənilir . Bunun üçün də bəzi prosedur qaydalarını bilmək, məlumatlandırılmaq və əməl etmək lazımdır. Qaununun tələblərinə uyğun olaraq, işçi işəgötürən tərəfindən müvafiq qaydada sığortalanır. Ümumiyyətlə, qanun bütün işəgötürənlərin sığortalanmasını tələb edir. Müqayisə üçün deyə bilərik ki, hal-hazırda Azərbaycanda 400 mindən çox işəgötürən var və haqqında bəhs etdiyimiz qanunun qüvvəyə minməsinə qədər bir sıra şirkətlər özəl klinikalarla müqavilə bağlayırdı və icbari tibbi sığortanı tələb edirdilər. "Nəzərə alsaq ki, ölkəmizdə tibbi sığorta ən çox zərər gətirən növlərdən hesab olunur, o zaman çox rahatlıqla deyə bilərik ki, sığorta ödənişləri kiçik, xəstəxana xərcləri isə həddən artıq yüksəkdir və bu müqavilələr şirkətlərin müflisləşməsinə gətirib çıxardır. Yəni o deməkdir ki, xəstəxana xərclərinin həddən artıq çox, sığorta şirkətlərinə ödənilən vəsaitin isə az olması nəticədə sığorta şirkətlərinin zərərinə səbəb olurdu. "

Azərbaycanda baxmayaraq ki, sığorta bazarı və sığorta ödənişləri regionun digər inkişaf etmiş sığorta bazarları ilə müqayisədə zəif hesab olunur, ancaq bütövlükdə bunu ən gəlirli sahələrdən biri hesab etmək olar ki, sığortalanma prosesində həm sığorta təşkilatı, həm də sığortalı hüquqi və fiziki şəxslər gəlir əldə edirlər. Eləcə də sığorta təşkilatları ehtiyat sığorta fondlarına da vəsait ayırırlar ki, bu da gəlirdən çıxılan vergi qanunvericiliyinin müvafiq tənzimlənməsinə gətirib çıxardır.

."Əsas məsələlərdən biri də 2011-ci il 17 sentyabrda prezident İlham Əliyev tərəfindən imzalanan "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının qanunudur. Bununla bağlı olaraq, qanunda müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını təmin etmək, prezidentə məlumat vermək, həmin qanunda nəzərdə tutulmuş ünvanlı dövlət sosial yardımı almaq hüququna malik olan aztəminatlı ailələrə məxsus yaşayış evlərinin və mənzillərin icbari sığortası üzrə sığorta haqlarının dövlət büdcəsinin vəsaitləri hesabına ödənilməsi qaydasını müəyyən etmək, eləcə də qanunla nəzərdə tutulmuş digər məsələləri həll etmək nəzərdə tutulmuşdur."

Ünvanlı sosial yardım və aztəminatlı ailələr də sığorta məsələlərinin içində mühüm yer tutur. Ona görə də bunu da qeyd etmək lazımdır ki, ünvanlı dövlət sosial yardımı almaq hüququna malik olan aztəminatlı ailələrə məxsus yaşayış evlərinin və mənzillərinin icbari sığortası üzrə sığorta haqları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən qaydada dövlət büdcəsinin vəsaitləri hesabına ödənilməsi planlaşdırılır. Bununla əlaqədar olaraq, müəyyən problemlər yaranacaq, məsələn ; qanunla nəzərdə tutulan müddəalar sığortalanmadan sonra əmlakın saxlanılma xərcləri artaraq, satış qiymətinə əlavə ediləcək. Bu da onu göstərir ki, daşınmaz əmlakın icbari sığortalanması sırf sosial vəziyyətlə bağlıdır.

Dadaşov İ.M., müəllim
Sumqayıt Dövlət Universiteti

İSLAM MƏDƏNİYYƏTİ VƏ AZƏRBAYCAN TƏSVİRİ İNCƏSƏNƏTİ

İslam incəsənəti milli bədii irsin zəngin qaynaqlarından, eləcə də dünya mədəniyyətinin mütərəqqi ənənələrindən və navator nailiyyətlərindən faydalanma yolu ilə yüksək inkişaf mərhələsinə çatmışdır.

Mübaliğəsiz qeyd etmək olar ki, islam mədəniyyəti və incəsənəti əsrlərlə olduqca gərgin, mürəkkəb, dinamik siyasi və ictimai şəraitdə formalaşıb boya-başa çatmış dünya incəsənətində özünəməxsus tərəqqi və inkişaf yolu keçmişdir. Bunun başlıca səbəbi islam xalqlarının həyatında, cəmiyyətdə, mənəvi mədəniyyətin müxtəlif sahələrində gözəçarpan yeni təmayüllərin, yeni estetik tələblərin yaranması ilə bağlı olmuşdur. Əsrlər boyu dinamik inkişaf prosesində olmuş islam mədəniyyəti müxtəlif müsəlman xalqları ilə birlikdə əlaqəli və həmrəy şəkildə inkişaf edərək dünya təsviri incəsənətində öz yerini tapmışdır. İslam mədəniyyətinin incəsənət növlərinə özünəməxsus baxışları olub və bu sahənin bəzi növləri müsəlman ölkələrində inkişaf etməyərək yayılmayıb. Bunların arasında heykəltəraşlıq və boyakarlığı xüsusilə qeyd etmək olar. Əgər elm, fəlsəfə, musiqi sənəti müsəlman ölkələrində geniş yayılmışdırsa, təsviri incəsənət uzun müddət sirli və gizli bir sənət kimi inkişaf etmişdir.Buna baxmayaraq islam mədəniyyəti memarlığın, miniatür sənətin, xalçaçılığın, xəttatlıq və dekorativ tətbiqi sənətin inkişafına nail olaraq böyük və möhtəşəm nailiyyətlər əldə etmişdir.

Bu nailiyyətlər əsasən kitab miniatür sənətində də özünü göstərmişdir. Təsviri sənət kimi təqdim olunan bu sənət növü geniş kütlələrə miniatür sənəti kimi tanışdır.

Bu ad miniatürlərin kiçik ölçüləri ilə bağlı olduğuna görə avropa alimləri tərəfindən verilmişdir. İslam dünyasında miniatür sənətinin zirvəsi və ən çox yayılması İranda, Əfqanıstanda, Orta Asiyada, Türkiyədə, İraqda, Hindistanda, Azərbaycanda olmuşdur. Bu miniatür məktəblərinin bir-birindən bəhrələnərək qarşılıqlı və əlaqəli inkişafı miniatür işlərində öz əksini tapmışdır.

Bunun bariz nümunəsi Azərbaycan Təbriz miniatür məktəbini qeyd etmək olar. Onların üslubu uyğur məktəbinə yaxındır, bədii tərtibatının gözəlliyinə isə heç bir məktəb yaxınlaşa bilməyib. Ona görə də Təbriz miniatürləri dünya muzey kolleksiyalarının incisi sayılır.

Miniatürlərin böyük bir qismi Nizaminin "Xəmsə",Sədinin "Bustan", Firdovsinin "Şahnamə" və digər əsərlərə çəkilmişdir.

Ümumiyyətlə, Şərq miniatür sənətində dini süjetlər də çəkilirdi. Onlar əsasən Məhəmməd peyğəmbərin həyatını əks etdirirdi, imamlardan və mələklərdən xəbər verirdi. Bu mövzu ilə bağlı məşhur rəssam Soltan Məhəmmədin çəkdiyi miniatürlərdən Məhəmməd peyğəmbərin Miracı əsərini qeyd etmək olar. Miniatürlərdə qrafik üsul istifadə olunub. Zərif, axıcı kontur xətti, plastik və ifadəli rəsm təsvir vasitəsinin əsasını təşkil edir. Rəng bədii formanı qurub yaratmaqdan daha çox dekorativ mahiyyət daşıyır. Parlaq, lokal rənglərin kontrastlıq yaradan düzümü və ritmik təkrarlanmasına əsaslanan zəngin koloriti miniatürlərin əsrarəngiz gözəlliyini, emosional təsir qüvvəsini daha da artırırdı.

Orta əsrlərdə, Yaxın Şərqin digər müsəlman ölkələrində olduğu kimi, Azərbaycanda da islam mədəniyyətinin inkişafı, dünyəvi ədəbiyyata və incəsənətə maraq, əlyazma kitablarına bədii tərtibat verilməsi və illüstrə edilməsi ehtiyacını doğurmuşdu. Bu dövrdə Quran və başqa dini kitablarla yanaşı, məşhur alimlərin, şair və yazıçıların təbiət, tarix, habelə ədəbi - bədii əsərləri də köçürülürdü. Köçürülən Quran "nəsx", yaxud «reyhan", nadir hallarda "riqə" xətləri ilə yazılıb, yalnız naxışlarla bəzədilirdisə, dünyəvi məzmunlu əsərlər "nəsx" xətti ilə köçürülür, çox zaman süjetli miniatürlərlə illüstrə olunur, ornamentlərlə bəzədilirdi. Yazıların üslubu, miniatürlərin xarakteri və əlyazma kitablarının ümumi tərtibatı Azərbaycanda xəttatlıq sənətin daim inkişafda olduğunu göstərir.

Bu proseslər öz əksini Azərbaycan xalçaçılığında da tapmışdı. Dekorativ tətbiqi incəsənət növlərindən biri olan xalçaçılıq böyük islam mədəniyyətinə və qədim tarixi ənənələrə malik xalqlara məxsus sənətdir. Çoxsaylı və müxtəlif funksiyaları özündə birləşdirən Azərbaycan xalçası bütün praktiki mənaların cəmindən daha artıq əhəmiyyət kəsb edirdi. Azərbaycan xalçası təkcə milli həyat tərzinin əsas elementlərindən, dekorativ tətbiqi sənətin növmüxtəlifliyi deyildi, eyni zamanda xalqın mövcudluğunun mənəvi, əxlaqi normaları və islami dəyərləri ilə bağlıdır. Azərbaycanda xalça toxuculuğu tətbiqi sənət növünün ən qədim sahələrindən biri hesab edilir. Bununla əlaqədar Quba-Şirvan, Gəncə - Qazax, Qarabağ, Təbriz xalçaçılıq məktəblərinin xalıları özünəməxsus və bənzərsiz forma-da bütün dünyada məşhurdur. Xalçaların boyalarının tükənməz zənginliyi, naxışlarının təkraredilməz qovuşuğu, yaradıcılıq təxəyyülünün gücü və yüksək sənətkarlığı ilə fərqlənir. Xalça naxışlarının səciyyəvi xüsusiyyətlərindən biri də onda təsvir olunan mühit əşyalarının verilməsidir. Bu cəhətdən bitki, heyvanat, həşərat və quşların stilizə edilmiş təsvirləri, həmçinin ulduz, paxlava, üçbucaq, dördbucaq, beşbucaq, altıbucaq, səkkizbucaq və sair həndəsi forma-

ların təsviri Azərbaycan xalçalarının əsas naxışlarını təşkil edir. Əsrlər boyu xalq tərəfindən yaradılıb, nəsildən-nəslə yadigar verilən xalçaçılıq özündə islami dəyərləri saxlamaqla, daim inkişaf edərək, dünya islam mədəniyyətinə öz töhfəsini verməkdədir.

İslam mədəniyyətinin bir qolu olan Azərbaycan memarlığı islam mədəniyyəti tarixində böyük nailiyyətlər əldə etmiş və yüksək bədii keyfiyyətli memarlıq əsərləri yaratmışdılar. Şübhəsiz ki, şəhərsalmanın və memarlığın inkişafı eyni zamanda Azərbaycanda inşaat texnikasının yüksək tərəqqisinin nəticəsi idi.

Qədim dövrlərdən gələn inşaat ənənələri islamiyyət dövründə köklənmiş yeni yaradıcılıq ənənələrlə birləşərək yerli memarlıq məktəbinin yaranmasına imkan yaratmışdı. Azərbaycanda əsrlərlə formalaşan Təbriz, Aran, Naxçıvan, Şirvan, Abşeron memarlıq məktəblərini xüsusilə qeyd etmək olar. İslami ənənələrə uyğun bir çox tikilili-ləri, qalaları, məscidləri, türbələri, (məs. Yusif Küseyr (1162) Möminəxatun (1186) və s.) islam mədəniyyətinin incisi kimi bütün islam dünyasında məşhurdur. Azərbaycan memarlıq abidələri özündə islam ənənələrini qoruyaraq dünya islam mədəniyyətində özünəməxsus və bənzərsiz yer tutmuşdur.

İslam mədəniyyətinin tərkib hissəsi olan Azərbaycan keramika sənətinin meydana gəlməsi Neolit (yeni daş) dövrünə təsadüf edir. Bu dövrdə insanlar gildən müxtəlif əşyalar hazırlamışlar. Müxtəlif bölgələrdə fərqli inkişaf edən bu sənət xalqın və islam mədəniyyətinin milli ənənələrini özündə cəmləşdirmişdir. Keramika nümunələrinin hazırlanma texnologiyası digər tətbiqi sənət növlərindən fərqlənərək çeşidləri ilə də seçilir. Azərbaycan keramika sənəti nümunələri həm istifadə edilməsinə, həm də bir çox bədii xüsusiyyətlərinə görə iki böyük qrupa bölünür: bunlardan birincisi məişətdə istifadə edilən saxsı məmulatları, ikincisi isə memarlıqda tətbiq edilən kaşılardır. Azərbaycan keramika sənətinin ən böyük zirvəsi şirəli saxsı məmulatları istehsalı tutur. Müəyyən dövrlərdə sənətkarlar öz əsərlərində milli kolorit və folklora istinad etmişlər. Müasir dövrdə keramika sənəti bizim məişətimizə girməklə yanaşı, insanların zövqünü, estetik anlayışını, dünyaya baxışını artıracaq gücə malik bir sənət kimi də səciyyələndirilə bilər. Sənətkarlar əsərlərində insanları sevindirmək, düşündürməklə yanaşı xalqın mədəni səviyyəsini, islami ənənələrini əsas şərt olaraq göstəriblər. İslam dünyasında elm və texnikanın inkişafı tətbiqi sənətin inkişafına da çox böyük təsir etmişdir. Lazım olan materiallar daha da təkmilləşərək keyfiyyətini artırmışdır. Buda iş prosesində müxtəlif formada işin keyfiyyətinə çox böyük köməklik edir. Belə bir halda müasirliklə keçmişin sintezi daha gözəl təsirini tapar. Keramika sahəsində işləyən sənətkar öz əsərlərini yaradarkən, xəyalən antik dövrdən başlayaraq, Avropa məktəbindən bəhrələnərək, Orta Asiya və Uzaq Şərq məktəbinə istinad etməklə gözəl sənət əsəri yarada bilər. Hər bir işdə müəyyən bir formada detalın çatışmaması, əşyaların forma və kompozisiya baxımından natamam olması keyfiyyətin aşağı düşməsinə səbəb olur və işin həcmi bütövlüyü itir. Hər bir materialda farforda, fayansda, gildə formanın bütövlüyü əsas şərtlərdən biridir. Düzgün rəng seçimi, qlazurun düzgün tətbiq edilməsi adi bir əşyanın gözəl görünməsində çox böyük rol oynayır.

Son illərdə dekorativ tətbiqi sənət aləmində saysız - hesabsız cərəyanlar heyrətamiz sürətlə biri digərini əvəz edir. Son dərəcə cəsarətli eksperimentlər geniş kütlələri çox tezliklə ətrafına cəlb edir.

Azərbaycan keramikası ümumi islam mədəniyyəti tarixində öz mövqeyini qoruyub saxlamış və daim inkişaf yolunda olmuşdur. Hər bir sənətin qiymətləndiril-

məsi onun inkişafına böyük təkan verir. Müasir dövrün sənayeləşmə amilləri keramika sənətinə öz təsirini göstərir. Belə bir vəziyyətdə keramika sənətinin estetik baxımdan zövqünü, gözəlliyini itirməməsi vacib şərtlərdən biridir.

Minilliklər boyu inkişaf etmiş keramika sənəti dekorativ-tətbiqi sənətin mühüm qoluna çevrilərək, özünəməxsus xüsusiyyətləri ilə Azərbaycan və islam mədəniyyətinin estetik düşüncə tərzini, bədii nailiyyətlərini əks etdirən bir sənət növünə çevrilmişdir.

Bu sənətin zəngin milli ənənələrə istinadən müasirliklə sintezini yaradaraq inkişaf etməsi bu sahədə fəaliyyət göstərən sənətçilər qarşısında məsuliyyətli vəzifələr qoyub ki, bu da öz növbəsində islam mədəniyyətinin tərkib hissəsi olan dekorativ-tətbiqi sənətin inkişafı və təbliği üçün zəmin ola bilər.

Dünya islam mədəniyyəti xəzinəsinə əvəzsiz incilər vermiş bir çox sənətkarlar insanları düşündürmüş və öz dəyərli əsərləri ilə heyran etmişlər. Hər dövrdə sənətə gələn gənc nəsil müasir təsviri sənətin forma və palitrasını əhəmiyyətli dərəcədə təzələyir. Rəngin, ritmin və formanın təmizliyi sahəsində axtarışları əks etdirən işlər meydana gəlir. Yenilik axtarışı təsviri sənətin müxtəlif növlərində özünü daha parlaq göstərir. Bu axtarışlar tezliklə mürəkkəb bədii problemlərin həllində uğurlu üslubların tapılmasına səbəb olur. Müasir təsviri sənətin formalaşması, gələcək inkişafı bu sənəti bəzəyən, rəngarəng edən saysız-hesabsız gözəl sənət əsərləri və onlarla bu sənətdə çalışan rəssamlardır.

Təsviri sənətin nümayəndələri müəyyən problemlərə baxmayaraq zəmanəmizin ruhu ilə həmahəng gözəlliyin yeni formasını aşkar edib, öz əsərlərində tətbiq etməklə məşğuldurlar. Müasir islam dünyasında təsviri incəsənət daha incə, təmiz və möhkəm olmuşdur. Bu da bir daha sənətin islam ənənələrinə və sırf xalqın kökünə, qan yaddaşına bağlılığını sübut edir. Dünya islam mədəniyyəti ilə həmahəng inkişaf etmiş Azərbaycan təsviri incəsənəti hər zaman inkişaf etmiş və daim zənginləşib, formalaşmışdır.

Ümumiyyətlə, Azərbaycanda təsviri incəsənət özünəməxsus maraqlı və zəngin inkişaf yolu keçmişdir.

İslam mədəniyyətində təsviri incəsənətin rolu müəyyən çətinliklərə baxmayaraq hər bir sahədə öz əksini tapır. Elə bir sahə yoxdur ki, müasir dövrdə təsviri incəsənət öz təsirini göstərməsin.

Sənətin bütün növləri inkişaf etmişdir. Bu sənət növləri öz dinamikası ilə inkişaf etmiş və dəyərli yerini bütün sahələrdə tapmışdır. Bu incəsənət hər şeydən əvvəl insan zəkasına böyük inam bəsləməklə, yeni humanist əxlaqi, insanın dünyavi səadətini hər şeydən yüksək tutaraq dövrün proqressiv ideyalarının yayılmasında çox böyük rolu olmuşdu.

Dünyaya qeyri- adi baxışlarla baxmağı özündə formalaşdıran təsviri incəsənət növləri insanı yaranandan sonadək hər zaman düşündürməyi və gözəlliyi duymağı, onu dərk edib inkişaf etdirməyi özündə cəmləşdirir.

Müasir islam mədəniyyətində təsviri incəsənətin inkişafı çox çətin və keşməkeşli olsa da, belə bir şəraitdə islam ölkələrinin bir-biri ilə mədəni əlaqələrinin inkişafı çox vacib amillərdən biridir. Bu ənənələri inkişaf etdirmək islam dünyasının dünya ölkələrinin mədəniyyətlərinə inteqrasiya etməsinə böyük zəmin yaradır və dünya mədəniyyətinin inkişafında öz yerini tapmağa böyük kömək edir.

Bahrami H.M., dissertant
AMEA-nin İqtisadiyyat İnstitutu

İRAN İSLAM RESPUBLİKASININ İQTİSADİ POTENİSALI VƏ İQTİSADİ İNKİŞAFININ ƏSAS XÜSUSİYYƏTLƏRİ

İran İslam Respublikasının iqtisadiyyatının inkişafına təkan verən, onun rəqabət-qabiliyyətini yüksəldən ən mühüm amillər arasında ölkənin innovasiya potensialı, ölkədə yaradılan biznes mühiti, azad ticarət, inhisarçılığın tənzimlənməsi əsas yerlərdən birini tutur.

İran 2015-ci ildə 393 milyard ABŞ dolları həcmində ÜDM istehsalı ilə Səudiyyə Ərəbistanından sonra Yaxın Şərq və Şimali Afrika regionunda ikinci ən böyük iqtisadiyyata malikdir (diaqram 1.1). O, həmçinin əhalisinin sayı 2014-cü ildə təxminən 78,5 milyon olmaqla Misirdən sonra bölgədə ikincidir. İran iqtisadiyyatı böyük karbohidrogen sektoru, kənd təsərrüfatı və xidmətlər sferası, bir sıra istehsal və maliyyə xidmətləri olması ilə xarakterizə olunur. İran təbii qaz ehtiyyatlarına görə ikinci və sübut olunmuş xam neft ehtiyyatlarının həcminə görə dünyada dördüncü yeri tutur. İqtisadi fəaliyyət və dövlət gəlirləri hələ də böyük ölçüdə neft resurslarından asılıdır. Bununla belə, İranın iqtisadiyyatının ən böyük sektorunu xidmətlər təşkil edir. Ayrı – ayrı sektorların ÜDM-də xüsusi çəkisi belədir: Xidmətlər – 51%, o cümlədən, daşınmaz əmlak, ixtisaslaşdırılmış və peşəkar xidmətlər- 14%, restoran və otelçilik – 12% və kommunal xidmətlər – 10%, neft hasilatı – 23%, istehsal və dağ-mədən sənayesi – 13%, kənd təsərrüfatı – 10% və s. İranda adambaşına düşən ÜDM-in həcmi 2014-cü ildə 5936 ABŞ dol. təşkil etmişdir ki, bu rəqəm dünya üzrə orta göstəricinin 47%-nə bərabərdir.

Diaqram 1.1



Mənbə: www.tradingeconomics.com / World Bank(sonuncu baxılma 13.04.18)

İstehsal imkanlarına görə digər inkişaf etməkdə olan ölkələrlə müqayisədə İran hələ də xammal sektorundan asılı vəziyyətdədir. Belə ki, kənd təsərrüfatı, neft və qaz sektoru birlikdə ÜDM-in 30 %-dən çox, sənaye sektoru isə (su təchizatı, elektrik və qaz sənayesi daxil olmaqla), 23.4 %-ni təşkil edir.

İran ***neft sənayesi,*** yüksək inkişaf etmiş aqrar-sənaye ölkəsidir. Sənayenin inkişafı üçün ölkədə bir sıra imkanların olmasına baxmayaraq, onun artım sürəti sənaye məhsullarına olan tələbatı tam ödəyə bilmir. Neft-qaz sənayesi İran iqtisadiyyatının başlıca sahəsidir və dövlətin gəlirlərinin 90%-ni verir. Bu sahə İran Milli Neft Şirkətinə məxsusdur. Ölkə ərazisində xeyli sayda neft emalı və neft-kimya müəssisələri fəaliyyət göstərir.

Təbii sərvətlərdən neft, qaz, kömür, mis, dəmir, manqan və sink-qurğuşun filizləri istehlak edilir. Ölkənin cənubu, cənub-qərbi və şimal-qərbi neft və qazla zəngindir. Ən böyük neft emalı zavodları Abadan və Tehran sənaye rayonlarıdır. Ölkədə həmçinin maşınqayırma və metalişləmə, qida və tekstil sənayesi inkişaf etmişdir. Metallurgiya yerli xammala əsaslanır. İsfahan şəhərində tam dövriyyəli qara metallurgiya müəssisəsi fəaliyyət göstərir. Əlvan metallurgiya zavodlarında əsasən mis və alüminium istehsal edilir.

Maşınqayırma sənayesinin inkişafında Almaniya və Böyük Britaniyaya məxsus şirkətlərin fəaliyyəti böyükdür. Xalçaların kustar üsulla istehsalı geniş yayılmışdır. Təbriz, İsfahan, Məşhəd şəhərlərində toxunan xalçalar, Şiraz, Tehran, İsfahanda hazırlanan bəzək əşyaları dünya bazarında yüksək qiymətləndirilir. Əsasən xam neft və neft məhsulları, metal filizləri, kənd-təsərrüfatı məhsullarının ixracı üstünlük təşkil edir. Ölkəyə xaricdən ağır maşınqayırma və kimya sənayesi, maşın, dəmir, polad, tekstil malları, kağız idxal olunur.

Qeyd edək ki, XX əsrin 50-60-cı illərinə qədər İran iqtisadiyyatının səciyyəvi cəhəti İranın iri xammal bazarı dövlətinə çevrilməsi idi. Bu illər (xüsusilə II Dünya müharibəsindən sonra) ərzində ABŞ-ın İran iqtisadiyyatına təsiri çox güclü idi. 60-cı illər İranın iqtisadi inkişafında mühüm dövr sayılır. Belə ki, 1962-1967-ci illərdə ümumi milli məhsulun artımı təqribən 90% idi. Bu artım sənayenin, xüsusilə, neft istehsalının inkişafı hesabına olmuşdur. Bu illərdə ümumi milli məhsulun sahə strukturunda da mühüm irəliləyişlər olmuşdur. Belə ki, əgər 1959-1960-cı illərdə ÜDM-də kənd təsərrüfatının payı 31,4 %, sənayenin payı isə 27,3% təşkil edirdisə, 1969-1970-ci illərdə bu göstəricilər müvafiq olaraq 19,4% və 38,5% olmuşdur. 70-ci illərdən başlayaraq İran iqtisadiyyatı daha yüksək sürətlə inkişaf etməyə başladı. ÜDM ildə 100%-ə qədər artaraq, 1975-ci ildə dəyərcə 20,7 mlrd. dollara çatmışdı. Bu isə, 1960-cı illə müqayisədə 5 dəfə artıq idi. Ölkənin iqtisadi inkişafına təkan verən səbəb neftdən gələn gəlir idi. 1970-ci ildə kapitalist aləmində yaranan enerji böhranı ilə əlaqədar olaraq İran külli miqdarda valyuta əldə edir ki, bunun da xeyli hissəsi iqtisadiyyatın inkişafına yönəldilir. 1973-cü ildə İran hökuməti milli neft sərvəti üzərində tam nəzarəti öz əlinə almaq barədə qərar qəbul edir.

Qeyd edək ki, İran hökuməti ölkəni sənayeləşdirmək və inkişaf etmiş dövlətə çevirmək istiqamətini seçmişdir. İranda sənaye sahələri içərisində yüngül və yeyinti, neft və qaz sahələri daha çox inkişaf edib. Neftdən gələn gəlir hesabına metallurgiya, maşınqayırma, kimya, elektrotexnika kimi yeni sənaye sahələri yaradılmışdır. Ölkənin təbii sərvətlərinin zənginliyi, bir çox beynəlxalq şirkətlərin kapitallarının İrana cəlb olunmasına səbəb olmuşdur.

Müasir İran iqtisadi inkişaf səviyyəsinə görə aqrar-sənaye ölkəsidir. Maddi istehsalın əsas sahəsi ***kənd təsərrüfatıdır***. Kənd təsərrüfatının aparıcı sahəsi bitkiçilik-dir. Kənd təsərrüfatı məhsulları ixracatının (meşə təsərrüfatı da daxil olmaqla) 90%-i bu sahənin payına düşür.

İİR ərazisində kənd təsərrüfatının inkişafı üçün ən əlverişli şərait Xəzərsahili bölgələrdə, xüsusilə Azərbaycan ostanlarındadır. İran ərazisinin təxminən 2/3 hissəsini tutan Dəşti-Kəvir və Dəşti-Lut kənd təsərrüfatına tamamilə yararsızdır. Kənd təsər-rüfatı məhsullarının böyük hissəsini bitkiçilik verir. Dənli bitkilərin əkinləri üstünlük təşkil edir. Buğda və arpa əkinlərinə ölkənin bütün əyalətlərində rast gəlindiyi halda, çəltik əsasən Gilan və Mazandaran ostanlarında yetişdirilir. Texniki bitkilərdən şəkər çuğunduru ölkənin bütün bölgələrində, çay, tütün, pambıq Xəzərsahili bölgələrdə yetişdirilir. İran dünya bazarına müxtəlif boyaq bitkiləri, həna və zəfəran çıxarır. Bağçılıq və üzümçülük qədim zamanlardan inkişaf etdirilir.

İranın inkişaf etmiş ***nəqliyyat infrastrukturu*** var. Avtomobil yollarının ümumi uzunluğu 178 min km təşkil edir, onlardan 2/3-si – asfalr örtüyə malikdir. Hər 1000 nəfərə 30 şəxsi avtomobil düşür. Dəmir yollarının uzunluğu 6405 km-dir. Ermənistan, Azərbaycan, Pakistan, Türkiyə və Türkmənistan ilə dəmir yolu əlaqələri mövcuddur. Ən böyük liman Fars körfəzinin sahilində Bender-Abbas, Xəzər dənizinin sahilində isə Ənzəli hesab edilir. İran ərazisində 321 hava limanı var. Altı böyük şəhərdə metro stansiyası inşa edilir. Boru kəmərlərinin uzunluğu 34 min km, onlardan 17 min km - qaz boru kəməri, 16 min km- neft boru xətti, 1000 km - mayeləşdirilmiş qaz və qaz kondensatının paylanması üçün olan kəmərlərdir.

İranda və dünyada iqtisadi inkişaf sahəsində həyata keçirilən tədqiqatların nəticələri göstərir ki, bu inkişafa çoxlu sayda amillərin təsiri vardır. Belə tədqiqatların əksəriyyətinin metodlarının, tədqiqat illərinin və məlumat sıralarının müxtəlifliyi bu tədqiqatlardan alınan nəticələrin də müxtəlifliyinə səbəb olmuşdur. Bu nöqteyi-nəzər-dən reqresion inkişaf modelinə (təklif iqtisadiyyatı mövqeyindən) hansı göstəricilərin daxil edilməsi mühüm və çətin məsələdir.

Nəzəri və tətbiqi-təcrübi tədqiqatlara söykənməklə demək olar ki, İranın iqtisadi inkişafına təsir edən göstəriciləri səkkiz bölməyə ayırmaq olar:

1. Fiziki kapital;
2. İşçi qüvvəsi;
3. İnsan kapitalı;
4. Ticarət;
5. Maliyyə və pul göstəriciləri;
6. İnnovasiya və ya qiymət dəyişkənliyinin səviyyəsi, indeksi;
7. Dövlət;
8. Siyasi şərait.

İranda dövlət idarəetməsi və bu idarəetməyə söykənən iqtisadi model dünya siyasi və iqtisadi ekspertlərinin diqqət mərkəzindədir. Bu iqtisadi model iqtisadi ter-minlərlə desək, "açıq iqtisadiyyat" deyil. Digər tərəfdən, "qapalı iqtisadiyyat" da deyil. Belə ki, İran həm ixrac, həm də idxal edərək dünya iqtisadiyyatına öz mühüm payını verir. Digər tərəfdən, İran beynəlxalq maliyyə institutları ilə ehtiyatlı əməkdaşlıq

edərək, bu qurumların "struktur dəyişikliyi" adı altında həyata keçirdikləri islahatları da qəbul etmir. Nə tam "açıq", nə də tam "qapalı" olmayan İran iqtisadiy-yatını xarakterizə edən əsas xüsusiyyət onun "özünü təminetmə" strategiyasıdır.

Yuxarıda qeyd etdiyimiz kimi, İran iqtisadi modeli əsasən daxili tələbatın ödənilməsinə və idxal mallarından asılılığın aradan qaldırılmasına istiqamətlənmişdir. Odur ki, bu model sənayeləşməyə, kommunikasiya və informasiya texnologiyaları sahələrinin inkişafına xüsusi önəm verir. Bu sahədə də son 20 ildə İranın müvəf-fəqiyyəti göz qabağındadır. İran iqtisadi modeli ölkədə sənayeləşməyə xüsusi diqqət yetirərək onun 1990-cı ilin ÜDM-də olan 28,7%-lik payını 2014-cü ilin ÜDM-də 44,5%-ə çatdırıb. Bu gün artıq İran bir çox sahədə özü-özünü təmin edən və yüksək texnologiyaya əsaslanan sənayeyə malikdir.

İranın iqtisadi inkişaf modeli son 50 il ərzində iqtisadi cəhətdən inkişaf etməyə başlamış ölkələrin, məsələn, Türkiyənin, Braziliyanın, Argentinanın, bəzi Şərqi Asiya və Şərqi Avropa ölkələrinin iqtisadi inkişaf modelindən fərqlənir. Belə ki, İran texnoloji cəhətdən müstəqil sənaye inkişafı yolunu seçib. Belə inkişafın əsas xüsusiyyəti ondan ibarətdir ki, bu inkişaf öz maliyyəsinə, öz intellektuallarına, öz resurslarına və öz idarəetmə mexanizminə arxalanır. Məhz bunun nəticəsidir ki, 2008-ci il dünya maliyyə böhranı İran iqtisadiyyatına o qədər də təsir göstərmədi. Şərqi Avropa ölkələrinin həm texnoloji cəhətdən, həm də maliyyə cəhətdən Qərbdən asılılığı, Şərq ölkələrinin ixracatının isə Qərb bazarlarından asılı olması böhran anında belə iqtisadi əlaqələrin dayanıqsız olduğunu sübut etdi. "Özünü təminata" və "Özünə inama" əsaslanan İran iqtisadi modeli sübut etdi ki, elm və texnologiyaların, həmçinin gündəlik tələbat mallarının idxalına, təbii sərvətlərin ixracatına əsaslanan iqtisadi modeldən daha dayanıqlıdır.

Bəzi ekspertlər İranın iqtisadi inkişafını neft və qaz ixracatından gələn böyük gəlirlərlə əlaqələndirirlər. Heç şübhəsiz ki, belə gəlirlərin mövcudluğu inkişaf üçün mühüm faktordur, lakin kafi deyildir. Belə ki, regionda neft və qaz gəlirlərinə malik ölkə təkcə İran deyil. Yaxın Şərqin demək olar ki, bütün ölkələri neft və qazla zəngindir. Lakin İrandan başqa neftlə zəngin Yaxın Şərq ölkələrindən heç biri müstəqil sənayeyə malik deyil. Onların demək olar ki, hamısı digər sənaye ölkələrindən asılı vəziyyətdədir.

İran İslam Respublikası bütün çətinliklərə, sanksiyalara baxmayaraq nail olduğu iqtisadi inkişaf sayəsində ölkədə elmi potensialın inişafına ciddi əhəmiyyət verir. Bu inkişaf öz təsdiqini ölkənin son illərdə elm sahəsində, həmçinin universitetlərinin regionda və beynəlxalq reytinqinin artması, ayrı-ayrı sahələrdə yeni ixtiralar, hərbi-sənaye kompleksinin və digər innovativ sektorda uğurlar, əhalinin təhsil və savadlılıq səviyyəsinin artımını göstərən statistik rəqəmlərdə tapır. İran hökuməti 2005-ci ildə "Gələcəyə Baxış – 2005-2025" və 2006-cı ildə isə 6-cı beşillik inkişaf planı (2016-2021) qəbul etmişdir. Beşillik plan 3 əsas komponentdən ibarətdir: möhkəm iqtisadiyyatın yaradılması, elm və texnologiya sahəsində inkişaf, həmçinin mədəni üstünlüklərin təşviqi. Bu plana görə, iqtisadiyyatda illik artım 8 % səviyyəsində olacaq, dövlət müəssisələri, maliyyə və bank sektoru, həmçinin neft gəlirlərinin bölüşdürülməsi və idarə edilməsi sahəsində ciddi islahatların aparılması nəzərdə tutulmuşdur. Elm və texnologiyanın inkişafının iqtisadiyyatla qarşılıqlı əlaqələndirilməsi Planda prioritet istiqamətdir.

II BÖLMƏ

MÜASİR AZƏRBAYCANIN SOSİAL-İQTİSADİ İNKİŞAFI: NƏTİCƏLƏR VƏ PERSPEKTİVLƏR

Abbasov V.H., professor
Bakı Dövlət Universiteti

KƏND YERLƏRİNİN SOSİAL-İQTİSADİ İNKİŞAFI ÜZRƏ STATİSTİK MƏLUMAT BAZASI VƏ MONİTORİNQ SİSTEMİNİN YARADILMASI MƏSƏLƏLƏRİ

Kənd ərazilərinin sosial-iqtisadi inkişafının kompleksliliyi, xüsusilə də insanların yaşayış şəraitinin yaxşılaşdırılması məsələləri həmişə dövlətin və cəmiyyətin əsas vəzifələrindən biri olmuşdur və olacaqdır. Bazar iqtisadiyyatına keçidlə əlaqədar həyata keçirilən sosial-iqtisadi dəyişikliklər kənd ərazilərinin və bu ərazilərdə yaşayan əhalinin sosial problemlərinin ağırlaşmasına gətirib çıxarmışdır. Bu problemlərin yaranması ilk növbədə iri kəndli təsərrüfatlarının və müəssisələrin xırdalanması ilə işsizliyin yaranması və məşğulluğun azalması, maddi və sosial xidmət obyektlərinin texniki bazasının köhnəlməsi, kommunal və sosial-mədəni təyinatlı xidmət obyektlərinin sayının azalması ilə əlaqədardır. Kənd təsərrüfatı istehsalında əməktutumlu fəaliyyət sahələrinin kəskin azalması və aqrar sektorun maliyyə vəziyyətinin pisləşməsi nəticəsində, kənd ərazilərinin və şəhərətrafı qəsəbələrin ənənəvi maliyləşmə mənbələri əsaslı şəkildə kökündən dəyişmişdir ki, bu da şəhər əraziləri ilə müqayisədə xeyli zəifləmişdir. Bütün bu qeyd olunanlar bunu deməyə əsas verir ki, yerli özünüidarəetmə sisteminin islahatına real zəmin yaranmışdır. Sosial yönümlü tədbirlərə əsaslanaraq, bələdiyyə quruculuğunda strateji istiqamətlərin yenidən nəzərdən keçirilməsi zərurəti yaranmışdır ki, bu da kənd bələdiyyələrinin inkişafı üçün strateji planlaşdırmanın mərhələlərindən biri kimi sosial-iqtisadi inkişafın monitorinqinin aparılmasından ibarətdir.

Kənd yerlərinin sosial-iqtisadi inkişafı üçün monitorinq sisteminin yaradılması sosial təminatı, kənd əhalisinin yaşayış səviyyəsinin yaxşılaşdırılması, həmçinin davamlı iqtisadi artım və kənd yerlərində infrastruktur sahələrinin inkişafı ilə bağlıdır. Sosial-iqtisadi vəziyyətin monitorinqi üzrə tədbirlər xüsusi təşkilatı və daimi xarakter daşıyan mükəmməl uçot sisteminə əsaslanmalıdır ki, bu da zəruri məlumatların toplanması, təhlili və analitik tədqiqatların dövlət qiymətləndirilməsində istifadəsinə yönəldilməklə, regional miqyasda inkişaf tendensiyaları və bu tendensiyalarda baş verən kənarlaşma hallarının üzə çıxarılması və xüsusi regional layihələrin işlənməsinə yönəldilməlidir.

Kənd yerlərinin sosial-iqtisadi inkişafı üçün monitorinq sisteminin əsas məqsədi iqtisadiyyatın müxtəlif sektorlarında baş verən neqativ və pozitiv prosesləri üzə çıxarmaq, ortaya çıxan sosial-iqtisadi vəziyyət barədə tam, vaxtında və etibarlı məlumatların əldə edilməsindən yararlanaraq, hadisələrin məqsədəyönlü məcarəyə yönəldilməsinin idarə edilməsini təmin etməkdir.

Monitorinq sisteminin əsas məqsədlərinə nail olunması, monitorinq qarşısında qoyulan əsas vəzifələrin müəyyənləşdirilməsini tələb edir ki, bunlar arasında aşağıdakıların təmin olunması çox vacibdir:

- kənd ərazilərində sosial və iqtisadi proseslərin gedişi haqqında etibarlı və obyektiv məlumatların əldə edilməsi üçün müşahidə təşkilatının yaradılması;
- əldə edilmiş məlumatların sistematik təhlili və qiymətləndirilməsi, sosial-iqtisadi proseslərin bu və ya digər şəraitlərinə təsir edən səbəbləri müəyyənləşdirmək;
- tabeçilik və mülkiyyət mənsubiyyətindən asılı olmayaraq, müəyyənləşdirilmiş qaydada idarəetmə orqanlarını, müəssisələri, qurumları və təşkilatları, vətəndaşları sosial-iqtisadi monitorinqin aparılmasından əldə edilmiş məlumatlarla təmin etmək;
- sosial-iqtisadi vəziyyətin inkişafı üçün proqnozların hazırlanması;
- müsbət tendensiyaların dəstəklənməsi və mənfi tendensiyaların aradan qaldırılmasına dair tövsiyyələrin hazırlanması, müvafiq orqanların və səlahiyyətli şəxslərin diqqətinə çatdırılmasını təmin etmək.

Sosial-iqtisadi potensialın monitorinqi ərazidə mövcud olan müxtəlif resurslar kompleksindən istifadə etməklə iqtisadi imkanların, potensial ehtiyyatların, coğrafi ərazilərin qiymətləndirilməsinə imkan verir. Sosial-iqtisadi inkişaf potensialını təmin edən amillər blokunun əsas mənbələrini iki qrupa bölmək mümkündür ki, bu da aşağıdakı şəkildə təsvir olunmuşdur:

Resurs potensialları bloku	**Potensialları təmin edən bloklar**
Təbii resurs potensialı İqtisadi-coğrafi potensia Demokrafiq potensial	Əmək potensialı İstehsal potensialı Elmi-innovativ potensial Sosial infrastrukturu potensialı Büdcə potensialı İnvestisiya potensialı

Şəkil 1. Sosial-iqtisadi inkişaf potensialını müəyyən edən amillər

Kənd yerlərində iqtisadi inkişafı təmin edən bu amillərdən və mövcud resurslardan maksimum istifadə etməklə, kapitallaşma səviyyəsinin artırılmasına və resurs bazasının möhkəmləndirilməsinə nail olmaqla, regionun iqtisadi ehtiyaclarını təmin etmək mümkündür. Bununla yanaşı, kənd təsərrüfatının inkişaf səviyyəsi potensial imkanların səmərəli istifadəsi və sistemli şəkildə həyata keçirilməsi dərəcəsi ilə müəyyən edilə bilər. Bizim fikrimizcə, iqtisadi potensialı resurs bazasının artırılmasına uyğun olaraq proqnozlaşdırmaqla, kənd ərazilərində davamlı inkişafı təmin etmək və sosial-iqtisadi problemlərin həyata keçirilməsi məqsədinə nail olmaq mümkündür. Bu zaman aktual məsələlərdən biri dövlət və bələdiyyələrin məqsədli resurslarından birgə, kompleks şəkildə istifadə etməklə əhalinin həyat keyfiyyətinin yaxşılaşdırılmasına nail olmaq mümkündür.

Regionda və kənd ərazilərində sosial-iqtisadi inkişaf strategiyasının həyata keçirilməsinin effektivliyi əsasən sosial-iqtisadi proseslərin monitorinq sisteminin yaradıl-

masıdır. Monitorinqin təşkili kompleks-inkişaf strategiyasına uyğun olaraq, müvafiq icra mexanizmləri ilə təmin edilməklə, müxtəlif idarəetmə metodları və vasitələrinin tətbiqinə əsaslanmalıdır. Sosial-iqtisadi sahədə inkişaf proseslərinin etibarlılığı və səmərəliliyinin qiymətləndirilməsi məhz bu proseslərin necə yönəldilməsindən asılıdır. Sosial-iqtisadi monitorinqin əsas istiqamətləri aşağıdakılardır:

- əhalinin həyat səviyyəsinin monitorinqi;
- regional problemlərin həllində inzibati ərazilərin töhfəsi;
- iri şəhərlərin sosial-iqtisadi potensialı və ondan istifadənin effektivliyi;
- sosial-iqtisadi dəyişikliklərin monitorinqi.

Belə ki, rayonun sosial-iqtisadi inkişafının əsas məqsədi həyat standartlarını təkmilləşdirilməsi sahəsində mövcud olan sosial kapitalı qorumaq və bunu artırmaqdan ibarətdir. Sosial-iqtisadi inkişafın transformasiyası və monitorinqi məlumat bazasının aşağıdakı əsas prinsiplərə çıxışını təmin etməlidir: daxili və xarici informasiya təhlükəsizliyinin təmin edilməsinə nəzarəti həyata keçirməli; regionun sosial-iqtisadi inkişafının tənzimlənməsi sisteminə uyğun olmalıdır. Regionda sosial-iqtisadi transformasiya monitorinqinin məlumat bazasına aşağıdakılar daxil edilə bilər:

- bölgənin və kənd ərazisinin xüsusiyyətlərini və inkişafını əks etdirən hökumət və bələdiyyə orqanlarının zəruri məlumatları;
- regionda xüsusi əhəmiyyətli fəaliyyət sisteminin məqsədləri və obyektlərinin mövcudluğu haqqında əsas məlumatlar;
- sosial-iqtisadi sistemin formalaşması və onların xüsusiyyətlərini izah edən əsas qanunlar, qaydalar, dövlət proqramları, həmçinin təlimat və tədris materiallarının mövcudluğu;
- bölgədəki sosial və iqtisadi dəyişikliklərin gedişatını və nəticələrini xarakterizə edən kompleks göstəricilərin şərh və təhlil olunması üçün əlçatan və idarəetmə təcrübəsində istifadə oluna bilməsi;
- dövlət statistika sisteminə əlavə olaraq, sosial-iqtisadi dəyişikliklərin monitorinqi üçün informasiya bazasının formalaşdırılması zamanı xüsusi sistemli məlumatlarından istifadə olunması.

Bunlarla yanaşı, kənd yerlərinin inkişafı aqro-sənaye kompleksinin inkişafı ilə bağlı olmalıdır. Hazırda kənd təsərrüfatında əmək qabiliyyətli əhalinin şəhərlərə axması ilə bağlı ixtisaslı kadr çatışmazlığı yaşanır. Bunun da əsas səbəblərindən biri əməyin ödəmə sisteminin zəif olmasıdır. İstehsalın modernləşdirilməsi, avtomatlaşdırılmış sistemlərin tətbiqi kənd təsərrüfatının səmərəliliyini artıra bilər. Kənd yerlərində kənd təsərrüfatı subyektlərinin çoxluğu, eləcə də bitkiçilik və heyvandarlıq məhsulları üzrə emal müəssisələrinin sistemləşdirilməsi, sosial-iqtisadi inkişafı kənd təsərrüfatı istehsalının məhsuldarlığı ilə birbaşa bağlıdır. Sosial, iqtisadi, ekoloji spektrli problemlərin həlli əsasən müəyyən bir ərazidə olan xüsusi sosial-iqtisadi şəraitlərlə müəyyənləşdirilir. Bu şəraitlər təşkilati-idarəetmə sahəsindəki biliklərdən, zəruri mühasibatlığın yaranmasından, sosial və iqtisadi inkişafın yekun nəticələrindən çox asılıdır. Regionların inkişafında kənd yerlərinin rolunun artırılması iqtisadi və siyasi islahatların problemlərinin yerli özünüidarəetmə səviyyəsinə yönəldilməsi ilə, ağırlıq mərkəzinin dəyişməsi ilə də şərtlənir.

Abbasov A.B.,
iqtisad elmləri doktoru, professor
Azərbaycan Dövlət İqtisad Universiteti

SOSİAL BİZNESİN İNKİŞAF İSTİQAMƏTLƏRİ

Ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin sosial-iqtisadi inkişaf modelində özəl bölmənin və sahibkarlıq fəaliyyətinin inkişafını, son nəticədə isə əhalinin rifah halının yüksəldilməsini ən önəmli məsələ kimi daim diqqət mərkəzində saxlayırdı.

Müasir dövrdə sosial sferanın səmərəli və dinamik inkişafı, əhalinin həyat səviyyəsinin yüksəldilməsi yalnız sosial biznesin davamlı inkişafı hesabına mümkündür. Bu baxımdan korporativ idarəetmə sistemində sosial biznesin innovativ formalarının tətbiqi və sosial sferanın inkişayında onun rolunun artırılması ilə bağtlı məsələlər olduqca aktualdır və onların tədqiqinə böyük ehtiyac vardır.

Son vaxtlar korporativ sosial məsuliyyəti məsələsinə sahibkarlıq subyektlərinin maraqları əhəmiyyətli dərəcədə artmışdır, çünki sosial məsuliyyətin artırılması onların işguzar reputasiyasına müsbət təsir göstərir və sosial biznesin inkişafına səbəb olur.

XX əsrin ortalarında meydana gələn «korporativ sosial məsuliyyət» (KSM) anlayışı müasir dünyanın ictimai həyatında geniş istifadə olunur. KSM konsepsiyası ilk dəfə 1950-1960-cı illərdə ABŞ və Kanadada korporativ idarəetmə sistemində istifadə edilmişdir. Hazırda iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə KSM hakimiyyət orqanları ilə butövlükdə cəmiyyət arasında sosial əməkdaşlığın effektiv alətinə çevrilmişdir.

Araşdırmalar göstərir ki, biznesin sosial davarınışının formalaşmasında onun motivasiyasının neqativ meylləri müşahidə edilir. Belə şəraitdə dövlət ona həvalə edilən ağır sosial yüklə təkbaşına bacara bilməz. Sosial məsələlərin həllində şirkətlərin və biznesmenlərin sosial məsuliyyətini artırmaq lazımdır. Bununla əlaqədar korporativ sosial məsuliyyətin tənzimlənməsi mexanizminə və biznesin sosiallaşması prosesinə dövlətin iqtisadi fuknsiyasının reallaşdırılmasının strateji istiqamətlərindən biri kimi baxılmalıdır.

Biznesin sosiallaşmasında sosial əməkdaşlıq mühüm əhəmiyyət kəsb edir. «Sosial əməkdaşlıq» terminin mahiyyəti və əhəmiyyətinin müəyyənləşdirilməsinə müxtəlif yanaşmalar vardır:

- birinci yanaşma sosial əməkdaşlığı sosial peşəkar qruplar, siniflər, əhali təbəqələri və hakimiyyət strukturları arasında qurulmuş ictimai münasibətlərin xüsusi kateqoriyası kimi müəyyənləşdirir;
- ikinci yanaşma sosial əməkdaşlığı təşkilatın əmək kollektivi, işəgötürünlər və dövlət hakimiyyəti arasında münasibətlərin konkret tipi vasitəsilə xarakterizə edir;
- üçüncü yanaşma sosial əməkdaşlığa müxtəlif sosial qrupların, biznesin və hakimiyyət orqanlarının maraqlarının razılaşdırılması üçün hər hansı fundament (dünyagörüşlü əsas) kimi baxılır.

Sosial tərəfdaş kimi biznes strukturlarının funksiyası təkcə şirkətin maddi-texniki təminatını müəyyənləşdirmək və sosial əməkdaşlığın mövcud forma və mexanizmlərini tətbiq etmək deyil, həm də özləri yeni, innovativ yanaşmaların işlənib hazırlanması və istifadəsi ilə məşğul olmaqdan ibarətdir. Deməli, sosial əməkdaşlıq təkcə

tərəfdaşlar arasında qarşılıqlı fəaliyyət forması deyil, həm də sosial əməkdaşlıq arasında müştərək iş haqqında sazişlərin bağlanması və onların reallaşdırılmasıdır.

Sosial biznesin həyata keçirilməsində istehlakçı kommersiya fəaliyyətinin bərabərhüquqla iştirakçısı sayılır. Sosial biznes sferasında kommersiya fəaliyyətinin əsas iştirakçıları təkcə sahibkarlıq strukturları deyil, həm də istehlakçılardır. Saziş bağlayarkən sahibkar üçün mühüm amil gəlir (iqtisadi səmərə) sayılırsa, istehlakçı üçün isə onun tələbatını daha dolğun ödəyən zəruri əmtəə (xidmət) hesab edilir.

Sosial biznes sferasında kommersiya fəaliyyətinin kompleks vəzifəsinə əhalinin tələbatının ödənilməsi vasitəsilə baxılır. İstehlakçı öz marağını reallaşdıraraq bazarda sövdələşmə bağlayarkən sosial sahibkarların davranışına, bazar seqmentinin seçilməsinə, əmtəənin təchizatı və satışının təşkilinə, çeşidin formalaşmasına, qiymət siyasətinə bilavasitə təsir göstərir. Sosial biznesin kommersiya fəaliyyəti öz məqsədləri və istiqamətlərinə görə fərqlənə bilər, əksər hallarda o mənfəət gətirməlidir, hansıki sonradan investisiyalaşdırılır və şirkətin sosial məqsədinə (missiyasına) nail olunmasına yönəldilir.

Azərbaycanda sosial biznes ideyası fəal inkişaf etdirilir, əhalinin yaşam tərzinin yaxşılaşdırılmasına və eyni zamanda pul qazanmağa yönəldilən sosial layihələr həyata keçirilir. Şirkətlər sosial texnologiyalara investisiya qoyuluşunu artırırlar. Sahibkarlar sosial texnologiyaları əsasən biznes-proseslərə tətbiq edirlər, həmçinin sosial təcrübəyə əsaslanaraq müştərilərin təşəbbüslərini dəstəkləyirlər.

Sosial biznesin ən geniş yayılmış forması ailə biznesidir. Ailə biznesi ilə tanınmış firmalar sürətlə inkişaf edərək dünya iqtisadiyyatına təsir edən iri şirkətlərə çevrilmişlər.

Azərbaycan Respublikasında da ailə biznesi inkişaf edir. Belə ki, Azərbaycan Respublikası prezidenti İlham Əliyev 4 aprel 2016-cı ildə «Əhalinin özünəməşğulluğunun təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında» sərəncam imzalamışdır. Ölkə poezidentinin 23 sentyabr 2016-cı il tarixli fərmanı ilə Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin (ASAN xidmət) tabeliyində «ABAD» publik hüquqi şəxs yaradılmışdır. Fərmana əsasən ölkənin sosial-iqtisadi inkişafında vətəndaşların fəal iştirakına, kiçik və orta sahibkarlığın inkişafına, əhalinin məşğulluq səviyyəsinin artırılmasına və rəqabətqabiliyyətli ailə təsərrüfatının formalaşdırılmasına dəstək vermək məqsədilə sosial-yönümlü layihələr həyata keçirən Ailə Biznesinə Asan Dəstək (ABAD) mərkəzləri yaradılmışdır. Bu gün həmin mərkəzlərdə 200-dən çox ailə biznes fəaliyyəti ilə məşğuldur.

«ABAD» mərkəzləri dekorativ-tətbiqi xalq sənətkarlığı və aqrar sahədə fəaliyyət göstərən ailə biznesinə dəstək layihələri həyata keçirirlər, həmçinin ailə təsərrüfatlarına biznes-planlaşdırma, marketinq, brendinq və dizayn, maliyyə-mühasibat, hüquqi yardım xidmətləri göstərirlər. İstehsal olunmuş məhsulların «Bir pəncərə» prinsipi üzrə sertifikatlaşdırılması, loqistika işinin və satışının təşkili «ABAD» tərəfindən həyata keçirilir. Eyni zamanda, məhsulların üzərində istehsalçı ailənin berendi ilə yanaşı məhsulun «ABAD»ın nəzarəti altında istehsalını göstərən müvafiq nişan yerləşdirilir.

Dekorativ-tətbiqi xalq sənətkarlığı sahəsində çalışan ailələrə dəstək çərçivəsində «İçərişəhər» Dövlət Tarixi-Memarlıq Qoruğu ərazisində və Heydər Əliyev Beynəlxalq Hava Limanında «ABAD» sənətkarlıq mərkəzləri fəaliyyət göstərirlər. Həmin mərkəz-

lərdə respublikanın müxtəlif regionlarında çalışan sənətkar ailələrin əl işlərinin sərgisi keçirilir və satışı təşkil edilir.

Beləliklə, ictimai sektorun innovasiyalı inkişaf forması olan sosial biznes iqtisadi alətlərdən istifadə edərək sosialyönümlü problemləri həll edir ki, bu da az xərclə arzu-olunan nəticəyə nail olmağa imkan verir. Sahibkarın öz fəaliyyətində həll etməyə çalışdığı sosial problem biznesin çıxış nöqtəsidir. Sosial biznesin təşkili formaları yerli şərait və imkanlardan, sosial-iqtisadi tələbatdan və hər bir ölkənin xüsusiyyətlərindən: hüquqi baza, sosial təminat, mədəni və tarixi ənənələr və s-dən bilavasitə asılıdır.

Maddi marağı zəifləyən ailə institutunu möhkəmləndirmək, insanlara evindəcə əlavə qazanc mənbəyi yaratmaq, milli dekorativ-tətbiqi sənət növlərini yaşatmaq və özünüməşğulluğu təmin etmək üçün milli iqtisadiyyatın əsas sektorlarının inkişafı Strateji Yol Xəritəsi çərviəsində Azərbaycanın rayonlarında dünya təcrübəsinə əsaslanaraq ailə biznesinin inkişafı konsepsiyasının işlənib hazırlanması və reallaşdırılması zəruridir.

Qazıyeva M.Y.,
filologiya elmləri doktoru, professor
Azərbaycan Dillər Universiteti

TƏHSİLDƏ MÜASİR TEXNOLOGİYANIN ROLU

Təhsil cəmiyyətin əsas aparıcı qüvvəsi olmaqla ölkələr, müxtəlif mədəniyyətlər arasında qarşılıqlı anlaşmanın yaxınlaşdırılmasına, münaqişələrin sülh yolu ilə həllinə, cəmiyyətin bütün üzvlərinin fiziki və mənəvi təkmilləşdirilməsinə, iqtisadi inkişafa dəstək olmaqla, yoxsulluğun azaldılması və həyat səviyyəsinin yüksəlməsinə birbaşa təsir edir. Məhz bu baxımdan da, onu qeyd etmək lazımdır ki, güclü siyasətə malik olan, yüksək iqtisadiyatı olan, dünya arenasında öz müstəqil sözünü deyən dövlətin tam doğru və məhsuldar təhsil sistemi var.

Azərbaycan Respublikası öz müstəqilliyini əldə etdikdən sonra təhsil sisteminə xüsusi diqqətini artırmışdır və bu istiqamətdə böyük dəyişiliklər etmişdir. Belə ki, müasir tələblərə cavab verən, tədris prosesində İKT-dən, yəni informasiya-kommunikasiya texnologiyalarından istifadə ön plana çəkilmişdir.

Beynəlxalq təşkilatların tövsiyyələrinə görə, informasiya-kommunikasiya texnologiyaları təhsil keyfiyyətinə təsir etməklə, iqtisadi inkişafın katalizatoru ola bilər. Hesab edilir ki, dinindən, dilindən asılı olmadan bütün vətəndaşların təhsilə əlçatanlığı ümumi və davamlı iqtisadi inkişafa gətirib çıxara bilər. Bu səbəbdən də, informasiya kommunikasiya texnologiyaların təhsildə tətbiqi yanaşması daha böyük əhali qrupunun texnologiyalardan istifadəsini və texnoloji savadlılığın artmasını şərtləndirir.

Beynəlxalq məsləhətçilərin fikrinə görə, təhsildə yeni yanaşma şagirdlərdə və tələbələrdə nəsillər arasındakı fərqlənmənin qabarıq şəkildə birüzə verilməsi, müasir mədəniyyətdən təsirlənmə, məlumat cəhətdən daha təchizatlı, hüquqlarını bərpa və tələb etmə, müstəqilliyə can atma və bu kimi müsbət amillərlə yanaşı, onların internet, kompüter və s. vasitələrlə asan məlumat toplama bacarığını formalaşdırır. Yeni kurri-

kulumlarda əsas hədəflər şagirdlərdə və tələbələrdə tənqidi düşünmə, yaradıcı düşünmə, ünsiyyət, araşdırma-sorğu, problemi həlletmə bacarıqlarını formalaşdırmaqla yanaşı, həm də onlarda məlumat texnologiyalarının istifadə bacarığını yüksəltməkdir.

Son illərdə Azərbaycan Respublikasının təhsil sistemində güclü islahatlar aparılmışdır ki, bu da özünün müsbət nəticələrini verməkdədir. Belə ki, demək olar ki, Azərbaycanda bütün təhsil ocaqlarında müasir tələblərə cavab verən və təhsilin keyfiyyətində əvəzsiz rolu olan yeni texnologiyaların və xüsusi linqafon otaqlarının istifadəyə verilməsi ilə dərslərin daha keyfiyyətli tədrisi təmin olunur.

Kompüter bizim həyatımıza əsaslı şəkildə daxil olmuşdur. Müasir tələbələr onu ən sadə məişət əşyaları kimi adi qəbul edirlər. Müasir tələbə üçün kompüter tərəqqi, müvəffəqiyyət və zəmanənin ruhuna uyğunluq deməkdir. Tədris prosesinin təşkilində bu faktı inkar etmək olmaz. Kompüter texnologiyalarından istifadə olunması tədrisi real həyata yaxınlaşdırır, tələbələrin kompüter fəaliyyətinə marağını, onların xarici dilə marağının artırılmasında istifadə etməyə kömək edir.

Dilin tədrisi prosesində hər zaman üç əsas metodik prinsip diqqət mərkəzində olmuşdur: nəzəri, prakriki, nəzəri-praktiki. Bir çoxları hesab edirlər ki, insan istənilən hadisə və predmetlə qarşılaşdıqda öncə onu ümumi şəkildə qavrayır, yalnız bundan sonra tədricən xırdalıqlara varmağa başlayır. Bu metodda tədris fəaliyyəti müxtəlif nəzəri kateqoriyalara əsaslanır. Yəni müəllim öncə tədris edəcəyi nitq hissəsi haqqında ümumi fikir formalaşdırır, sonra onun ayrı-ayrı istiqamətlərini öyrədir. Bu metod tərəfdarlarına görə dil öyrənmək istəyənlər ayrı-ayrı kateqoriyaları yaxşı qavrasalar, onlar üçün həmin dildə fikir ifadə etmək daha asan olar.

Bugün isə tədris-təlim prosesində yeni texnologiyaların tətbiqi, pedaqoji prosesin təşkilində və idarə edilməsində yeni metod və yanaşmalardan istifadə, keyfiyyətli tədris sisteminin qurulmasına, müasir təlim metodlarından biri olan kommunikativ təlim üsullarından geniş istifadəyə imkan açır. Müxtəlif səpgili xarici dil materiallarının kommunikativ təlim vasitəsi ilə mənimsənilməsi kommunikativ təlimin öz spesifik atributu ilə müəyyənləşir. Bu atributlardan biri öncə qeyd etdiyimiz kimi kompüter texnologiyalarıdır.

Kompüter texnologiyalarından istifadə tələbələrin diqqətini izah edilən materialın əhəmiyyətli anlarına yönəldir və şəkillər, sxemlər, diaqramlar, qrafik kompozisiyalar kimi əyani, səmərəli obrazlar yaradır ki, bu da xarici dilin öyrənilməsinin keyfiyyətinə müsbət təsir göstərir.Tələbələrin ən zəruri maraqları ilə uyğunlaşan bu cür yaradıcılıqları kompüterlə işin cəlbediciliyi sayəsində xarici dilin öyrənilməsinə həvəsi stimullaşdırır.

Dil dərslərində yeni informasiya texnologiyalarının tətbiqi məsələsi daha da aktuallaşır. Xarici dillərin tədrisində yeni informasiya texnologiyalarının tətbiqi dedikdə, təkcə müasir texniki vasitə və texnologiyalardan praktik istifadə olunması deyil, həm də xarici dilin tədrisinin yeni forma və metodlarının, həmçinin bütövlükdə tədris prosesinə yanaşmanın istifadəsi başa düşülür. Müəllimin əsas vəzifələrindən biri hər bir tələbənin fəaliyyətinin aktivləşdirilməsi, onların yaradıcı fəallığı üçün şəraitin yaradılmasıdır. Tamamilə aydındır ki, kompüterin və multimediya vasitələrinin istifadəsi nəinki tədrisdə şəxsiyyət yönümlü yanaşmanı həyata keçirməyə, həm də tələbələrin bilik səviyyəsini nəzərə almaqla fərdiləşdirməni və fərqləndirməni təmin etməyə

kömək edir. Bir çox məsələ müəllimdən, onun xarici dil dərslərində informasiya texnologiyalarını istifadə etmək istəyindən asılıdır. Kompüter müəllimi əvəz edə bilərmi? - sualına cürətlə: yox, heç vaxt əvəz edə bilməz, lakin onu informasiya texnologiyalarını bilən müəllim əvəz edə bilər cavabını vermək olar.

Təhsilin həqiqətən zəmanəyə uyğun yeni keyfiyyətini əldə etmək üçün bugünkü ingilis dili müəlliminin vəzifəsi nəinki İKT-yə yiyələnmək, həmçinin tədris prosesinin funksiyalarının nisbətinə yanaşmanın necə dəyişdiyini dərk etməkdir. Müasir təhsildə müəllimin ənənəvi rəhbərlikedici və nəzarətedici funksiyası tədricən yönəldici və sistemləşdirici funksiya ilə əvəz olunur. Beləliklə, yalnız bu cür şərtlərlə informasiya-təhsil mühitində (İTM) müəllim və tələbənin məqsədyönlü birgə fəaliyyəti mükəmməl həyata keçirilə bilər. Əgər ənənəvi tədrisdə müəllimin əsas vəzifəsi tələbəyə müəyyən biliklərin verilməsi, bir sıra bacarıqların formalaşdırılması idisə, İTM-də tədrisin məqsədi – tələbəyə idrak və yaradıcı məsələləri qaldırmağı və onları həll etməyi, bunun üçün isə informasiyanı tapmağı, ondan istifadə etməyi və yaratmağı, informasiya məkanına bələd olmağı öyrətməkdir.

Bu gün artıq aydındır ki, məhz informasiya-təhsil mühitində tədris, ümumiyyətlə təhsilin və xüsusilə də xarici dilin öyrənilməsinin səmərəliliyini artırır. Lakin problemlərdən biri ondan ibarətdir ki, kompüter savadı səviyyəsində nəsillər arasındakı böyük fərq ilk dəfə müəllimi tələbələr qarşısında çətin vəziyyətdə qoymuşdur. Uzun illər boyu ali təhsil müəssisəsində işləmiş müəllimlər və tələbələr üçün əlçatmaz olan müasir kompüter texnologiyaları bu gün informasiya məkanına daxil olan müəllim və tələbələr qarşısında bilik və bacarıq əldə etmələri üçün böyük imkanlar açır. Qeyd etmək istərdik ki, müvafiq hazırlığa malik və tələbələrə informasiyanı diqqətlə seçməyi öyrədə bilən müəllim tərəfindən nəzarət son dərəcə vacibdir. Tamamilə təbiidir ki, gənclərin yeni informasiya mühitinə daha yaxşı bələd olduğunu dərk edən müəllim psixoloji narahatlıq keçirir. Bundan başqa, informasiyalaşdırma əsrində doğulan tələbələrin diqqətini yalnız ənənəvi tədris metodlarına yönəltmək olduqca çətindir.

Təhsilin məzmununun dəyişdirilməsi şəraitində İKT-lər tələbələrin həvəslərini artırmaq və möhkəm dil vərdişlərini formalaşdırmaq üçün böyük imkanlar açır. Kompüter təlim proqramları ənənəvi tədris metodları ilə müqayisədə bir çox üstünlüklərə malikdir. Bu proqramlar müxtəlif növ nitq fəaliyyətini inkişaf etdirməyə və onları müxtəlif kombinasiyalarda birləşdirməyə imkan verir, dil hadisələrini dərk etməyə, linqvistik bacarıqları formalaşdırmağa, kommunikativ vəziyyətlər yaratmağa, dil və nitq hərəkətlərini avtomatlaşdırmağa kömək edir, həmçinin fərdi yanaşmanın reallaşmasını və tələbələrin müstəqil işinin intensivləşdirilməsini təmin edir.

Kompüter tələbənin hər üç qavrama kanalını: eşitmə, görmə və kinestetik kanalları işlətməyə imkan verir, tələbələrin tədris prosesindəki statusunu xeyli yüksəldir, həmçinin tələbələrin müstəqil fəaliyyət sahəsini genişləndirir, hər bir tələbə üçün şəxsən əhəmiyyətli olan vəziyyətlər yaratmaq imkanı yaradır, internetdən virtual məkana qərqolma vasitəsi kimi istifadə etməyə imkan verir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq qeyd etmək lazımdır ki, bu gün müstəqil Azərbaycan Respublikasının dünyada tanınmasının əsas mənbəyi bu ölkədə aparılan məqsədyönlü və düzgün siyasət və dolğun təhsil sistemidir.

Цоцколаури П.И.,
кандидат экономических наук,
Ассоцированый профессор факультета экономики и бизнеса
Грузинский университет им. Св. Андрея Первозванного
при Патриархии Грузии

ТЕНДЕНЦИИ РАЗВИТИЯ НАУКИ В ГРУЗИИ

В развитии экономики страны большое значение придается научным исследованиям. Соответствеенно, изучению состояния и определению направлений развития науки в стране уделяется особенное внимание. За последние годы в Грузии было проведено множество изменений в области регулирования науки и научной деятельности. Изменены статус научно-исследовательских организаций, система финансирования науки, система подготовки научных кадров и др. Все это оказало большое влияние на усовершенствование проведения исследований и систему оценки исследовательских работ.

Традиционно в Грузии существовало несколько систем научных организаций. В стране функционировали сети исследовательских организаций двух академий: Национальной академии наук Грузии и Академии сельскохозяйственных наук Грузии. Наряду с ними исследовательские институты и центры министерств и отдельных ведомств занимались исследованиями прикладного характера. С 90-х годов прошлого столетия эта схема изменилась. Часть исследовательских организаций примкнула к Министерству образования и науки Грузии, а затем к высшим государственным учебным заведениям Грузии. Главная цель присоединения заключалась в эффективном использовании научного потенциала в учебном процессе. На сегодняшний день в Грузии под ведомством пяти университетов функционирует 52 научно-исследовательских института и центра.

Уменьшилось также и количество подведомственных исследовательских организаций. Научно-исследовательские организации сегодня имеются в Министерстве образования и науки Грузии, Министерстве культуры и охраны памятников, Министерстве обороны Грузии. Кроме указанного, исследования проводят неправительственные организации и отдельные ученые. Поэтому одним из направлений в управлении наукой является регистрация и учет проведенных исследований.

В Грузии изменилась также и система финансирования научно-исследовательских организаций. В 2005 году с целью финансирования приоритетных направлений науки создан Национальный научный фонд Грузии имени Шота Руставели. Фонд на основе конкурса на получение гранта финансирует исследования. Основными задачами Фонда являются: содействие проведению фундаментальных, прикладных и технологических исследований, помощь в усовершенствовании научной инфраструктуры, финансирование приоритетных исследований докторантов. На сегодняшний день Фонд финансирует 10 научных направлений. Таким образом, финансирование научных исследований производится из государственного бюджета, Национальным научным фондом имени Шота Руставели, международными научными фондами и коммерческими структурами.

Надо отметить, что финансирование, получаемое из коммерческих структур, сравнительно маленькое. Факторами, препятствующими финансированию научных исследований на коммерческих началах, являются: недостаточный интерес бизнеса и производства к исследованиям, низкий уровень конкуренции между субъектами бизнеса почти во всех отраслях экономики за редким исключением, низкая отдача инвестиций, вложенных в инновационную деятельность.

На развитие науки действует недостаточность научных кадров. Утечка молодых научных кадров из страны достаточна большая, а заинтересованность работающих внутри страны ученых в подготовке научных кадров очень низкая. В стране изменилась также и система присваивания научной степени. Традиционные две научные степени были изменены на одну степень. Исследователю после окончания курса докторантуры на основе защиты диссертационной работы присваивается академическая степень доктора. Включение в учебный процесс высших учебных заведений молодых ученых, обладающих академической степенью доктора, достаточно низкое, что создает проблемы для подготовки специалистов.

Эффективность научной деятельности отражается в использовании её результатов. Поэтому в последние годы особенное внимание уделяется вопросу коммерциализации исследований. Показателем оценки научно-исследователь-ских работ и, в целом, деятельности научно-исследовательских организаций, является состояние использования исследования в практической деятельности, число ученых, использующих его в своей исследовательской деятельности, отношение ученых отрасли к результатам данного исследования, о котором говорит индекс цитирования. Индекс цитирования является показателем использования другими учеными работ, опубликованных в существующих в международном обмене научных журналах, сборниках трудов и сборниках докладов международных конференций. Для проведения, анализа и оценки исследования необходимо рассчитать наукометрические индикаторы, в том числе количественное соотношение между ними. Индикаторы помогают в выявлении приоритетных направлений науки, проведении исследований, как в целом для науки, так и для различных отраслей и для отдельных регионов.

Поэтому в институте ТЕХИНФОРМИ создана группа исследователей, которая постоянно работает над разработкой и усовершенствованием методики оценки научной активности отдельных ученых, научных коллективов и научно-исследовательских организаций. На основе анализа отражающих состояние науки баз данных, созданных в ТЕХИНФОРМИ, и с помощью соот-ветствующего программного обеспечения, созданы алгоритмы расчета показателей, характеризующих науку, избрана соответствующая методика. Эта методика дает возможность расчета наукометрических показателей, а также используется для обработки статистической информации.

Созданные программы дают возможность вычислять наукометрические индикаторы: индекс активности (Activity Index AI), относительный индекс специализации (Relative Specialisation Index RSI), среднее число цитирований на публикацию (Mean Observed Citation Role - MOCR), средний показатель ожидаемого цитирования (Mean Expected Citation Rate - MECR), относительный

показатель цитироавния (Relative Citation Rate - RCR), относительный импакт-индекс цитирования (Relative Citation Impact Index- RCTI).

В настоящее время проводится работа в области установления совместимости предметно-тематических рубрикаторов и их соответствия различным классификаторам, которая имеет особенное значение для формирования наукометрических индикаторов, а индикаторы играют важную роль в оценке научной деятельности.

Məmmədov Z.F.,
iqtisad elmləri doktoru, professor
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
Əzizov Y.,
iqtisad elmləri namizədi
AMEA-nın iqtisadiyyat insitutu

AZƏRBAYCANDA İNFLYASİYA HƏDƏFLƏMƏSİ REJİMİNƏ KEÇİD: MÜASİR ÇAĞIRIŞLAR VƏ REAL PERSPEKTİVLƏR

İnflyasiya hədəfləməsi rejiminin tətbiq edilməsinin üç forması mövcuddur. Bunlardan biri açıq inflyasiya hədəfləməsi rejimi (full-fledged inflation targeting) adlanır. Bu rejimi tətbiq edən ölkələrin mərkəzi banklarının cəmiyyət içərisində etibarı yüksək səviyyədədir və bu rejimdə mərkəz bankları inflyasiya hədəflərini ictimaiyyətə açıq şəkildə elan edirlər. Eklektik inflyasiya hədəfləməsi rejimi (Eclectic inflation targeting) əsasən mərkəzi banklara etibarın güclü olduğu, lakin onların inflyasiya hədəfləməsi rejiminin tələbləri çərçivəsində hesab verə bilirlik və şəffaflıq səviyyəsi o qədər də yüksək deyildir. Bura Avropa Mərkəz Bankını, ABŞ Federal Rezerv sistemini və s. aid etmək olar. Digər bir rejim isə yumşaq/örtük inflyasiya hədəfləməsi (inflation targeting lite) rejimidir. Bu rejimdə mərkəz banklarının etibarı nisbətən aşağı olur və onlar inflyasiya hədəfləməsi rejiminin tətbiq edilməsini rəsmi olaraq elan etməsələr də inflyasiya hədəfləri və bununla əlaqədar təxminlərini ictimaiyyətə elan edirlər. Yumşaq inflyasiya hədəfləməsi rejimi açıq inflyasiya hədəfləməsi rejimindən iki nöqtədə əhəmiyyətli dərəcədə fərqlənirlər. Birincisi; yumşaq inflyasiya hədəfləməsi rejimi gələcəyə doğru gözləntiləri daha az diqqətə almaqla daha az bazara istiqamətlənmiş olur. İkincisi isə yumşaq inflyasiya hədəfləməsi rejimində mərkəz bankları tez-tez valyuta bazarlarına müdaxilə etmiş olurlar. Bu fərqlər Mərkəz bankının birdən artıq siyasət məqsədlərinin olması, açıq inflyasiya hədəfləməsi rejiminin ilkin şərtlərinin təmin edilməsi və maliyyə bazarlarının kifayət qədər inkişaf etməməsindən qaynaqlanır.

Beynəlxalq Valyuta Fondunun həyata keçirdiyi tədqiqatda bəzi ölkələrdə inflyasiya hədəfləməsinin səmərə verməməsi ideyasını irəli sürmüşdür. Bu şərtləri əsasən aşağıdakı kimi qruplaşdırmaq olar:

1) adambaşına ÜDM kiçik olan ölkələrdə mərkəzi banklar tərəfindən müstəqil siyasətin həyata keçirilməsi və maliyyə bazarları vasitəsilə proseslərə təsir imkanlarının zəif olması inflyasiya hədəfləməsi rejiminin səmərəliliyini sual altında qoyur;

2) əmək haqların, qiymətlərin xarici ölkələrdən və ya valyuta məzənnələrindən asılı olan ölkələrdə bu rejimin tətbiqi sabit valyuta məzənnəsi rejimindən əhəmiyyətli dərəcədə fərqlənməyəcəkdir;

3) sağlam vergi və büdcə siyasəti olmadan, hökumət tərəfindən qeyd edilən rejiminin dəstəklənməsi istiqamətində addımlar atılmadan inflyasiya hədəfləməsi rejiminin tətbiqi çatışmazlıqlarla nəticələnəcəkdir;

4) inkişaf etməkdə olan ölkələrin təcrübəsi göstərir ki, inflyasiya hədəfləməsi rejiminə keçdikdə ölkədə inflyasiya səviyyəsi ikirəqəmli olmamalıdır. İnflyasiya birrəqəmli həddə salındıqdan sonra hədəfləmənin elan edilməsi və nəticədə hədəflərin yerinə yetirilməsi və ona yaxın olması iqtisadi vahidlərdə inamı artırır.

Bütün yuxarıda qeyd edilənlər inflyasiya hədəfləməsi rejiminin tətbiq ilə valyuta məzənnəsi arasında yarana biləcək problemlərin həllini zəruri edir. Buna görə də bir çox inkişaf etmiş ölkələrdə inflyasiya hədəfləməsi rejimi ilə bərabər valyuta məzənnəsinin tənzimlənməsi siyasətini də həyata keçirmişlər. Məsələn, Çili, İsrail, Macarıstan və Polşa inflyasiya hədəfləməsi rejimi ilə stabil valyuta məzənnəsi rejimini birləşdirilmiş formasını bir müddət tətbiq etdikdən sonra bundan imtina etmişlər. Bu da onu söyləməyə əsas verir ki, inflyasiya hədəfləməsi rejiminə keçid üçün valyuta məzənnəsinin üzən rejimə keçməsi əsas şərtlərdəndir.

Digər tərəfdən araşdırmalardan da aydın olmuşdur ki, heç bir ölkə bu tələbləri 100% olduğu kimi tətbiq etməmişdir. Bu baxımda iqtisadçı alimlər arasında fikir ayrılığı hələ də mövcuddur.

Bununla belə respublikamızda inflyasiya hədəfləməsinə keçid üçün əsas şərtləri aşağıdakı kimi sıralaya bilərik:

1. İnstitusional müstəqillik. Mərkəzi bank həm hüquqi və həm də de fakto öz inflyasiya hədəflərinin müəyyən edilməsində müstəqil olmalıdır. Bu istiqamətdə hökumət tərəfindən hər hansı bir təzyiqin edilməsi qəbuledilməzdir.

2. Yüksək keyfiyyətli və etibarlı statistika və təhlillərin aparılması bacarığına malik olan potensialın mövcudluğu.

3. İqtisadiyyatın dollarlaşmasının aşağı səviyyə olması, iqtisadiyyatın ixrac olunan xammalın qiymətindən asılılığının azaldılması.

4. İnkişaf etmiş maliyyə sisteminin və bazarlarının formalaşdırılması. Bu əsasən Mərkəzi Bankın monetar siyasəti həyata keçirdiyi zaman inflyasiya hədəfləməsi rejiminin və pul siyasətinin ötürücü mexanizmlərinin mükəmməl fəaliyyəti üçün zəruridir. Dayanıqlı bank sistemi və inkişaf etmiş maliyyə bazarları mövcud olmadan Mərkəzi Bank tərəfindən müəyyən edilən hədəflərə çatmaq üçün iqtisadiyyata təsir imkanları məhdud olacaqdır.

Cədvəl 1.

Azərbaycan Respublikasında inflyasiya hədəfləməsi rejiminin tətbiq edilməsinin ilkin şərtləri

Şərtlər	Respublikamızda yerinə yetirilmə səviyyəsi	Qeydlər
Qiymət stabilliyi monetar siyasətin son məqsədi kimi	Qismən yerinə yetirilmişdir	Qanunvericilikdə təsbit olunsa da Mərkəzi Bankın fəaliyyətində qiymət stabilliyinin onun əsas məqsədi olması anlaşılmır.
Monetar orqanların institusional müstəqillyi	Qismən yerinə yetirilmişdir	Hüquqi cəhətdən təmin edilmişdir. Lakin hökümət tərəfindən müəyyən təzyiqlərin olması tam hədəflərin müəyyən edilməsi və yerinə yetirilməsinə mane olur.
Məsuliyyət və hesabatlılıq	Qismən yerinə yetirilmişdir	Mərkəzi Bank bir neçə ay gecikmələrlə məlumatları və hesabatları dərc edir ki, bu da artıq öz aktuallığını itirmiş olur. Digər tərəfdən Mərkəzi Bankın hədəflərin yerinə yetirilməsində məsuliyyəti demək olar ki yoxdur.
Etibarlı statistika və yüksək keyfiyyətli təhlillər	Qismən yerinə yetirilmişdir	
İnflyasiyanın müəyyən edilməsinin mükəmməl metodikası, inlyasiyanın proqnozlaşdırılması	Təmin edilməmişdir.	Mərkəzi Bankın inflyasiyanın səviyyəsin ətsir edəcək alətləri tam formalaşmamışdır. Eyni zamanda Mərkəzi Bankın pul siyasətinin əsas istiqamətlərində inflyasiya proqnozları ilə əlaqədar məlumatlar təqdim edilmir.
Faiz siyasəti	Təmin edilməmişdir.	Mərkəzi Bank tərəfindən banklar arası faiz dərəcələrinə təsir imkanları hələ ki aşağı səviyyədədir.
Üzən məzənnə siyasəti	Qismən yerinə yetirilmişdir	Mərkəzi Bank tərəfindən üzən məzənnə rejiminə keçid elna olunmuşdur. Uzun müddət üçün bu rejimin tətbiqi üçün ilkin şərtlər yerinə yetirilməmişdir.
Xammal ixracında dünya qiymətlərindən iqtisadiyyatın strukturunun asılılığı	Təmin edilməmişdir.	Ixracın böyük hissəsinin enerji daşıyıcılarından ibarət olması.
İnhisarçılığın aradan qaldırılması	Təmin edilməmişdir.	Rəqabit məcəlləsinin qəbul edilməməsi və digər səbəblər Mərkəzi Banka inflyasiyanı məqbul səviyyədə saxlamağa imkan verməyəcəkdir.

Dollarlaşmanın aşağı səviyyədə olması	Təmin edilməmişdir.	Mərkəzi Bank tərəfindən 2015 fevral və dekabr aylarında həyata keçirdiyi kəskin devalvasiyalar nəticəsində iqtisadiyyatda dollarlaşma 85%-ə şatmışdır.
Mərkəzi Banka və monetar siyasətə inam	Demək olar ki aşağı səviyyədədir.	2015-ci ildə dollara olan daxili tələbin kəskin artması, iqtisadiyyatda dollarlaşmanın maksimum həddə çatması və s.
Siyasi stabillik	Tam təmin edilmişdir.	Respublikada uzun uzun müddətdir ki, siyasi sabitlik təmin edilmiş, biznesin normal fəaliyyəti üçün heç bir siyasi təzyiq yoxdur.

Cədvəl məlumatlarını da nəzərə almaqla inflyasiya hədəfləməsi müvəffəqiyyətli tətbiqi üçün aşağıdakı ümumiləşdirməni aparmaq məqsədəuyğundur:

İnflyasiya səviyyəsinin müəyyən olunmuş intervalda saxlanılmasının təmin edilməsi; Mərkəzi Bankın qanunvericiliklə əsas funksiyası öz səlahiyyətləri çərçivəsində qiymət stabilliyini təmin etməkdir. Mərkəzi Bank haqqında Qanunda da pul siyasəti həyata keçirilməsində qeyd edilən məqsədin yerinə yetirilməsi üçün ona səlahiyyətlərin verilməsi təsbit edilmişdir. Mərkəzi Bankın son illərdə milli pul vahidinin məzənnəsinin idarə edilməsi siyasətini həyata keçirməsi onun inflyasiya səviyyəsini nəzarətdə saxlamaq istəyi kimi nəzərə alına bilər. Lakin son proseslər inflyasiyanın sadəcə valyuta bazarlarında əməliyyatlar aparmaqla nəzarətdə saxlamağın çətin və mümkünsüz olduğu ortaya qoymuşdur. Eyni zamanda son illərdə Mərkəzi Bank tərəfindən elan olunan pul siyasətinin əsas istiqamətlərində inflyasiyanın miqdar hədəfi və ya orientiri qeyd edilməmişdir.

Alət arsenalı baxımından Mərkəzi Bankın müstəqilliyi. Bir çox iqtisadi təqdiqatlarda Mərkəzi Bankların siyasi və iqtisadi müstəqilliyi araşdırılmışdır. Əvvəlki fəsillərdə qeyd etdiyimiz kimi, iqtisadi müstəqillik dedikdə, Mərkəzi Bank tərəfindən qarşıya qoyulmuş hədəfə çatmaq üçün Mərkəzi Bankın sərbəst alət seçmək imkanın olması başa düşülür. Deməli iqtisadi müstəqillik elə alət müsqəlliyidir. Lakin bu o demək deyildir ki, Mərkəzi Bank bu alətlərdən tənzimləmə funksiyalarını (bank sektorunun tənzimlənməsi) həyata keçirmək üçün istifadə etməklə əsas məqsəddən kənarlaşmalıdır.

Digər tərəfdən qısa müddətli faiz dərəcələrinin əsas ötürücü kanal olması üçün Mərkəzi Bank pul siyasəti alətlərinin səmərəliliyini artırmalı, banklararası bazarlarda aparılan əməliyyatlara təsir edə biləcək əməliyyat çərçivəsi hazırlamalıdır.

Fiskal dominantlığı olmaması və monetar siyasətlə fiskal siyasətin uzlaşdırılmasının təmin edilməsi; Mərkəzi Bank haqqında Qanunun 16-cı maddəsində "Mərkəzi Bank Azərbaycan Respublikasının dövlət büdcəsi kəsirinin birbaşa maliyyələşdirilməsi üçün dövlətə kredit vermir." kimi qeyd edilmişdir. Bu isə o deməkdir ki, artıq qeyd edilən tələb qanunvericiliklə təmin edilmşdir. Qanunda Dövlət büdcəsində qısamüddətli vəsait çatışmazlığı yarandıqda, Mərkəzi Bank müvafiq icra hakimiyyəti

orqanı ilə bağlanmış müqaviləyə əsasən gəlir gətirən dövlət borc qiymətli kağızları ilə təmin edilməsi şərti ilə dövlətə ən çoxu 6 ay müddətinə və cari ildə ödənilmək şərti ilə milli valyutada (manatla) kredit verə bilməsi, belə kreditlərin verilmiş və ödənilməmiş hissəsinin ümumi məbləği son üç il ərzində dövlət büdcəsinin orta gəlirlərinin 3 faizindən çox ola bilməməsi öz əksini tapmışdır. Deməli Mərkəzi Bankın hökuməti maliyyələşdirməsi imkanları qanunla məhdudlaşdırılmışdır. Lakin birada iki əsas məsələ xüsusilə diqqətə alınmalıdır: Bunlardan birincisi bücdə xərclərinin artırılması, ikincisi isə dövlət borcunun səviyyəsi.
Qeyd edilən məsələlər inflyasiya hədəfləməsi rejiminin tətbiq edilməsinə maneə törət-məsələr də gələcəkdə onların səviyyəsinin artması disbalanslar və şoklar yarada bilər.

İnflyasiyanın proqnozlaşdırılması üçün Mərkəzi Bankın kifayyət qədər imkanlarının olması; Burada əsas məsələ Mərkəzi Bankın detallı makroiqtisadi göstəricilər sisteminin vəya bazasının, eyni zamanda inflyasiyanın proqnozlaşdırılması modelinin olmasıdır. Məlum olduğu kimi hələ indiyə qədər Mərkəzi Bank tərəfindən inflyasiyanın proqnozlaşdırlmasına dair hər hansı bir məlumat ictimaiyyətə elan olunmamışdır. Dgər tərəfdən qarşıya çıxan çətinlik məlumatların qısa müddəti əhatə etməsi və bu dövrlərdə də bir neçə böhranın olması ekonometrik baxımdan hər hansı bir təhlilin aparılmasında keyfiyyətli nəticənin əldə olunmasıdır.

Maliyyə bazarlarının stabilliyi və inkişafı. inkişaf etmiş maliyyə bazarlarının olması inflyasiya hədəfləməsi rejiminin müvəffəqiyyətli olmasının əsas şərtlərindən hesab edilməlidir. Burada bir neçə əsas göstərici nəzərə alınmalıdır: 1) bank xidmətləri bazarının inkişafı, 2) fond bazarının və korporativ istiqarazlar bazarının inkişafı, 3) dövlət qiymətli kağızlar bazarının inkişafı. Qeyd edilən göstəricilər əsasən maliyyə bazarlarının inkişaf göstəricilərini xarakrterizə edir. Bank xidmətlrənin inkişafı baxımından iqtisadiyyata verilmiş kreditlərin ÜDM-ə nisbəti göstəricisinin xüsusi əhəmiyyəti vardır. Bu həm də maliyyə dərinliyi kimi də xarakterizə edilir.

Mərkəzi Bank pul siyasətinin çərçivəsini inflyasiyanın birbaşa hədəfləməsi rejiminə uyğunlaşdırmaq istiqamətində fəaliyyətini davam etdirəcəyini bəyan etmişdir. Eyni zamanda bildirilir ki, inflyasiyanın hədəflənməsi rejiminə keçid şərtlərinin reallaşdırılması ilə yanaşı pul siyasəti dizaynında baş verən dəyişikliklər, mərkəzi bənakların hədəf perimetrinin və alət arsenalının genişləndirilməsi ilə bağlı son meyllər nəzərə alınacaqdır. Göründüyü kimi Mərkəzi Bankda hələ inflyasiya hədəfləməsi rejiminə tam keçidə hazır olmadığı öz bəyanatında açıq şəkildə bildirmişdir.

"Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə, "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə və "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər"də ölkədə pul bazarının aktivləşdirilməsi qarşıya qoyulan əsas məqsədlərdəndir.

2016-cı ilin pul siyasəti istiqamətlərində Mərkəz Bankı tərəfindən birbaşa inflyasiya hədəfləməsi rejiminə uyğunlaşma ilə əlaqədar fəaliyyətini davam etdirmək kimi qeyd olunsa da Mərkəzi Bank yumşaq inflyasiya hədəfləməsi rejiminə keçid üzrə işlər apardığını qeyd edə bilərik.

2017-ci ilin pul siyasətinin əsas istiqamətlərində Mərkəzi Bank inflyasiyanın məqbul səviyyədə saxlanılması məqsədilə pul təklifini razılaşdırlmış pul proqramı çərçivəsində məqsədyönlü şəkildə tənzimləyəcəyini bəyan etmişdir. Göründüyü kimi

2017-ci ildə də Mərkəzi Bank pul bazasının sıxılması vasitəsilə inflyasiya proseslərinə təsir etməyə çalışacaqdır. Eyni zamanda bəyanatda qeyd edilir ki, "Tədiyə balansı tarazlaşma prosesində olarkən (qeyd olunduğu kimi, üzən məzənnə bu prosesi dəstəkləyir) inflyasiyanın effektiv idarə olunması ilk növbədə **sərt pul siyasətini** tələb edir. Təcrübə göstərir ki, inflyasiya riskləri şəraitində iqtisadi artımın pul siyasəti vasitəsilə stimullaşdırılması effektli deyil. Bunu nəzərə alaraq, Mərkəzi Bank 2017-ci ildə pul təklifi kanallarını müvafiq pul proqramı vasitəsilə əhəmiyyətli məhdudlaşdıracaq və sərt pul siyasətini həyata keçirəcəkdir." Qeyd edilməlidir ki, artıq üçüncü ildir ki, Mərkəzi Bank pul bazasının sıxılması siyasətini elan edir və bunun davam etdirilməsinin zəruriliyini bəyan edir. Bu istiqamətdə optimallığın hələ də müəyyən edilməməsi həyata keçirlən siyasətin qeyri-müəyyənliyinə səbəb olacağını deməyə əsas verir. Belə ki, 2016-cı ildə də pul bazasının daraldılması elan edilsədə nəticədə pul bazası əvvəlki ilə nisbətən 11.5 faiz artmışdır. Həmçinin qeyd etmək lazımdır ki, bu artım inflyasiya səviyyəsinin orta illik 12.9 faiz olması şəraitində baş vermişdir.

Yumşaq inflyasiya hədəfləməsi rejiminə keçid monetar və fiskal siyasətlərin koordinasiya edilməsi, bank sisteminin sağlamlaşdırılması prosesinin qısa müddətdə başa çatdırılması, maliyyə bazarlarının səmərəli fəaliyyətinin qurulması ilə paralel həyata keçirilməlidir. Əgər qeyd edilən tədbirlər kompleks şəkildə həyata keçirilməzsə onda tənzimləmənin inzibati alətlərinin tətbiqi bir müddət də uzana bilər.

Yumşaq inflyasiya hədəfləməsi rejimi inkişaf etməkdə olan ölkələrdə qiymət stabilliyini saxlamaq istiqamətində struktur islahatlarının həyata keçirilməsi ilə bərabər açıq inflyasiya hədəfləməsi rejiminin tətbiqi üçün ilkin şərtlərin təmin edilməsi yolunda tətbiq edilən pul siyasətidir. Bu baxımdan ilik olaraq respublikamızda yumşaq inflyasiya hədəfləməsi rejiminin və eyni zamanda idarə olunan üzən məzənnə rejiminin tətbiq edilməsi məqsədəuyğundur.

Юзбашиева Г.З.,
доктор экономических наук, профессор
НАНА Институт Экономики

СРАВНЕНИЕ СТРУКТУР ПРОМЫШЛЕННОСТИ СТРАН СНГ, ПРОХОДЯЩИЕ ПОСТ-НЕФТЯНОЙ ПЕРИОД РАЗВИТИЯ

Азербайджан за годы независимости в своем экономическом развитии достиг определенных успехов и эффективно использовал имеющиеся преимущества: выгодное геополитическое положение, большие запасы нефти и газа, заинтересованность развитых стран в Азербайджане как поставщика нефти и газа на мировой рынок. Выбранная стратегия по привлечению иностранных инвесторов, до сих пор, приносит положительные результаты. За годы независимости Азербайджан смог сформировать собственную модель экономического развития. Благодаря значительным усилиям и привлечению иностранных инвесторов республика смогла возродить нефтегазовый сектор, который к развалу СССР пришел в упадок (как и вся экономика в целом). Был подписан "Контракт века", ознаменовавший начало реализации нефтяной стратегии, которая и позволила стране поднять экономику и обеспечить ее поступательное развитие. Но, падение цен

на нефть и снижение ее добычи свидетельствуют о снижении роли энергетики как драйвера роста и развития экономики. Но альтернативного плана развития на пост-нефтяной период пока не было и поэтому стали искать новые модели развития. «Откровенно говоря, мы старались спрогнозировать ситуацию, в которой сейчас оказались, на период начала снижения добычи нефти, возможно, через 15–20 лет. Мы не были готовы к этому периоду. На самом деле мы планировали подготовиться к пост-нефтяному периоду после 2030 года. Но, как я сказал на недавнем заседании кабинета министров, пост-нефтяной период для нас уже начался, и это было неожиданно». Поиск альтернативных моделей развития экономики и ее диверсификации перспективными считаются транспортный сектор, сельское хозяйство и развитие ИКТ. Но, с учетом объемов текущего и потенциального производства эти сектора пока на сегодня не могут стать полноценной альтернативой нефтегазовой отрасли. Поэтому, в сложившихся условиях в экономиках, где формирование рыночных механизмов произошло сравнительно недавно, роль государства и государственных инвестиций в преодолении сложных явлений велика.

Падение мировых цен на нефть отразилось на экономиках Азербайджана, России, Казахстана. Именно эти государства последние два года наиболее сильно подвержены кризисным следствиям отрицательной динамики цен на нефть. Осознается необходимость скорейшей диверсификации экономики, но говорить о полноценном переходе экономики в пост-сырьевой период пока рано. При этом Россия, Казахстан и Азербайджан не могут отказаться от экспорта нефти – это одна из бюджетообразующих статей внешней торговли. В поддержку недропользователям государства принимают множество мер, в том числе и девальвационные шаги, призванные повысить рентабельность отрасли. Можно утверждать, что постсоветские экспортно-сырьевые экономики продолжат продавать нефть за границу и при самых минимальных ценах на сырье. В то же время, при низком уровне мировых цен реализация политики диверсификации наиболее затруднительна. Экономику России, Казахстана и Азербайджана характеризуют как экономику с сильной сырьевой зависимостью.

Структура промышленности

Страны	Годы	Всего	Добыча	Обработка	Эл.энергетика и водоснабжение
Азербайджан	2005	100	67.4	25.9	6.7
	2010	100	78.9	15.9	5.2
	2016	100	67.0	24.3	8.7
Россия	2005	100	22.5	55.0	12.5
	2010	100	22.1	53.0	12.9
	2016	100	24.0	65.0	11.0
Казахстан	2005	100	59.4	35.2	5.3
	2010	100	61.3	32.3	7.4
	2016	100	50.1	41.5	8.4

***статистические данные стран.**

Как видно, положение России более выгодное в структурном соотношении. На обрабатывающие отрасли приходится более половины в структуре промышленного производства (нефтепереработка выделена из раздела «Обрабатывающие производства» для объективной картины, так как эта сфера играет важную роль в формировании сырьевой зависимости). В целом наблюдалась определенная тенденция сокращения доли обрабатывающих производств в структуре промышленного производства, на фоне постепенного увеличения доли добывающих отраслей. Ситуация изменилась в сторону обрабатывающих производств. Но, пока не-нефтяной сектор экономики Азербайджана слаб: доля обрабатывающей промышленности в общем промышленном производстве в 2016г. - 22,9% (нефтеперерабатывающая промышленность – 8.1%. Доля машиностроения - 2,04%, легкой промышленности — 0,55%, пищевой - 4,84%, химия и нефтехимия – 1.8%, металлургия – 1.0%, промышленность строительных материалов – 1.3%, лесная – 0.44%), добыча – 69.8%. Между тем, рабочие места концентрируются в основном в обрабатывающей промышленности - 95,2 тыс. человек против 34.1 тыс. в нефтегазовой. Поток нефтедолларов (несмотря на созданные условия для повышения качества жизни) не способствовал объективной оценке эффективности экономики и определению перспектив развития страны. На рынке нефтесервисных услуг довлеют иностранные компании (расположены на верхних звеньях мировой технологической пирамиды – хай-тэк, инновации, информационный сервис, занимает 80% постиндустриальных экономик), поэтому закрываются заводы, ориентированные на ТЭК. Важно встраивание в уже сформировавшиеся технологические цепочки, а не просто интеграция в мировые рынки. Это исходит из того, что инвестиции в высокотехнологичные отрасли промышленности пока оборачиваются в экспорт сырья и низкопередельные полуфабрикаты через посредничество мировых монополистов. Они не способствуют созданию технологических цепочек в стране и не диверсифицируют основу технологической пирамиды. Инвестиции в экономику обеспечивают стабильность. Если нет развитого и привлекательного для потенциальных инвесторов частного бизнеса - нет инвестиций в него, нет инвестиций - нет и развития бизнеса. Но, если в процесс развития частного бизнеса при помощи продуманных и реальных мер поддержки включается государство, то стимулируется развитие бизнеса. В Азербайджане сделали ставку на создание нового, современного не-нефтяного производства: агросектор, ИКТ, военная промышленность. Как было показано выше, по структуре, практически пока мало что сделано в не-нефтяном секторе для привлечения иностранных инвестиций - в рейтинге Doing Business 2016г. «Оценка качества и эффективности регулирования» Азербайджан занимает 63-е место среди 189 государств мира, в 2017г. - 65 место среди 190 стран, в 2018г. – 57 место. В Азербайджане за этот период проведены три реформы, которые касались налогообложения, подключения к системе электроснабжения и ведения международной торговли, что способствовало улучшению этого показателя.

Возрождению экономики России, Азербайджана и Казахстана будет способствовать ответственная макроэкономическая политика, структурные измене-

ния и развитие рынков капитала, а основным фактором устойчивого роста будет наращивание объема инвестиций, так как нельзя добиться стабильности обменного курса из-за особенностей структуры экономики, ее повышенной зависимости от экспорта сырья. Дальнейшее наращивание сырьевой ориентации лишь усилит имеющиеся риски, в частности, зависимость внутренней экономической ситуации от внешней конъюнктуры цен на сырье. Вывод заключается в том, что нашей экономике жизненно необходима диверсификация. Для того, чтобы определить направления возможных изменений, необходимо определить первопричины имеющих перекосов в структуре экономики. На наш взгляд, хорошей иллюстрацией сырьевой ориентации экономики может служить ситуация с распределением в ней инвестиционных ресурсов. Сырьевые сектора и отрасли, производящие продукцию первых переделов, продолжают оставаться основными получателями инвестиций. Поэтому, в сложившейся ситуации, необходима реализация реальной промышленной политики. Например, в Азербайджане этому способствует принята «Промышленная программа», «Концепция развития Азербайджана – 2020» и «Стратегическая дорожная карта». Правительство утвердило «Стратегическую дорожную карту по перспективам национальной экономики» по 11 направлениям, которые являются приоритетными для перевода страны на не-нефтяные рельсы. Согласно планам правительства, рассчитанным на период до 2020 года и последующие пятилетия, государство станет катализатором инвестиций, в то время как основная задача по экономическому развитию возлагается на частный сектор. В первую очередь поощряется производство и услуги в таких областях, как туризм, сельское хозяйство, информационные и компьютерные технологии и транспортные коммуникации, делается ставка на перерабатывающую промышленность, на малый и средний бизнес, на высокодоходные рынки, на формирование высококвалифицированной рабочей силы и т.д.

$$(-1)^m \frac{\partial^{2m+1}\psi_0}{\partial y^{2m+1}} + \frac{\partial \psi_0}{\partial y} = 0;\ \frac{\partial^{m+i}\psi_0}{\partial y^{m+i}}\bigg|_{y=0} = (-1)^{m+i+1}\varepsilon^{i-1}\frac{\partial^{m+i}W_0}{\partial t^{m+i}}\bigg|_{t=T};\ (8)$$

məsələsinin sərhəd zolaq tipli həlli kimi təyin edilir $(i = 1,2, \dots, m)$. (8) məsələsinin həlli

$$\psi_0 = \sum_{i,j=1}^{m} d_{ij}\varepsilon^m \frac{\partial^{m+j} W_0}{\partial t^{m+j}}\bigg|_{t=T} \cdot e^{\lambda_i y}$$

şəklində yazılır. Burada d_{ij} –məlum ədədlərdir. ψ_0 funksiyası hamarlayıcı funksiyaya vurulur və alınan yeni funksiya üçün əvvəlki işarə saxlanılır. ψ_0 funksiyasının təyin olunduğu düsturdan görünür ki, bu funksiya x=0 və x=1 olduqda 0-a çevrilir. Qurulmuş $W + \eta + \psi$ cəmi

$$\frac{\partial^i}{\partial t^i}(W_0 + \eta + \psi)\bigg|_{t=0} = 0;\ \frac{\partial^{m+i}}{\partial t^{m+i}}(W_0 + \eta + \psi)\bigg|_{t=T} = 0, (W_0 + \eta + \psi)|_{x=0} =$$
$$= (W_0 + \eta + \psi)|_{x=1} = 0$$

sərhəd şərtlərini ödəyir. Lakin bu cəm (4)-dəki törəməyə nəzərən sərhəd şərtlərini ödəməyə bilər. Bu itən sərhəd şərtlərinin ödənilməsi üçün x =0 və $x = 1$ sərhədləri yaxınlığında da sərhəd zolaq tipli funksiyalar qurulmalıdır.

$x = 0$ yaxınlığındakı sərhəd zolaq tipli funksiyanı qurmaq üçün əvvəlcə $x = \varepsilon\,\tau$ əvəzləməsi aparılaraq L_ε operatorunun $x = 0$ yaxınlığındakı yeni ayrılışı ya-zılır. $x = 0$ yaxınlığında sərhəd zolaq tipli funksiya $\varphi = \varepsilon\varphi_0$ şəklində axtarılır. φ_0 funksiyası

$$\frac{\partial^4\varphi_0}{\partial\tau^4}-\frac{\partial^2\varphi_0}{\partial\tau^2}=0,\qquad \frac{\partial\varphi_0}{\partial\tau}\bigg|_{\tau=0}=-\frac{\partial}{\partial x}(W_0+\eta+\psi)\bigg|_{x=0} \tag{9}$$

məsələsinin sərhəd zolaq tipli həlli kimi tapılır. (9) –dakı adi diferensial tənliyə uyğun olan $\lambda^2(\lambda^2-1)=0$ xarakteristiki tənliyinin bir mənfi kökü vardır: $\lambda=-1$. (9) sərhəd məsələsinin sərhəd zolaq tipli həlli

$$\varphi_0=\frac{\partial}{\partial x}(W_0+\eta+\psi)\bigg|_{x=0}\cdot e^{-\tau}$$

düsturu ilə verilir. $x=0$ yaxınlığında sərhəd zolaq tipli funksiyanın $\varphi=\varepsilon\varphi_0$şəklində olduğunu nəzərə alıb, φ funksiyasının $x=0$ olduqda 0-a çevrilməsini təmin etmək üçün φ_0 funksiyasını yuxarıdakı düstur ilə deyil,

$$\varphi_0=\frac{\partial}{\partial x}(W_0+\eta+\psi)\bigg|_{x=0}\cdot(e^{-\tau}-1)$$

düsturu ilə təyin edək. Qeyd edək ki, φ_0 funksiyası bu yeni düstur ilə təyin edildikdə də (9) məsələsinin həlli olacaqdır. φ_0 funksiyası hamarlayıcı funksiyaya vurulur və alınan yeni funksiya üçün əvvəlki işarə saxlanılır. Hamarlayıcı funksiya hesabına φ funksiyası $x=1$ olduqda sıfra çevrilir. Bu qayda ilə qurulan $W_0+\eta+\psi+\varphi$ cəmi aşağıdakı sərhəd şərtlərini ödəyir:

$(W_0+\eta+\psi+\varphi)|_{x=0}=(W_0+\eta+\psi+\varphi)|_{x=1}=0,\qquad \frac{\partial}{\partial x}(W_0+\eta+\psi+\varphi)\Big|_{x=0}$,

$\frac{\partial^i}{\partial t^i}(W_0+\eta+\psi+\varphi)\Big|_{t=0}=0,\ \frac{\partial^{m+i}}{\partial t^{m+i}}(W_0+\eta+\psi+\varphi)\Big|_{t=T}=0; i=1,2,\dots,m.$

Nəhayət x=1 yaxınlığında sərhəd zolaq tipli funksiyanın qurulmasına keçək. Bunun üçün əvvəlcə 1- $x=\varepsilon z$ əvəzləməsi aparılaraq L_ε operatorunun $x=1$ yaxınlığındakı yeni ayrılışı yazılır. $x=1$ yaxınlığında sərhəd zolaq tipli funksiya $V=\varepsilon V_0$ şəklində axtarılır. V_0 funksiyası

$$\frac{\partial^4V_0}{\partial z^4}-\frac{\partial^2V_0}{\partial z^2}=0,\qquad \frac{\partial V_0}{\partial z}\bigg|_{z=0}=\frac{\partial}{\partial x}(W_0+\eta+\psi)\bigg|_{x=1} \tag{10}$$

məsələsinin sərhəd zolaq tipli həlli kimi təyin olunur. (10)-dakı adi diferensial tənliyin də xarakteristik tənliyinin bir mənfi kökü vardır. (10) sərhəd məsələsinin sərhəd zolaq tipli həlli aşağıdakı düsturla təyin edilir:

$$V_0=-\frac{\partial}{\partial x}(W_0+\eta+\psi+\varphi)\bigg|_{x=1}\cdot e^{-z}.$$

V_0 funksiyası hamarlayıcı funksiyaya vurulur və alınan yeni funksiya üçün əvvəlki işarə saxlanılır. Hamarlayıcı funksiya hesabına V funksiyası $x=0$ olduqda sıfra çev-rilir. φ funksiyası x=1 olduqda sıfra çevrildiyi təqdirdə V_0 üçün olan düsturu belə də yazmaq olar:

$$V_0=-\frac{\partial}{\partial x}(W_0+\eta+\psi)\bigg|_{x=1}\cdot e^{-z}.$$

x=1 yaxınlığındakı sərhəd zolaq tipli funksiyanın $V = \varepsilon V_0$ şəklində olduğunu nəzərə alıb, V funksiyasının x=1 olduqda 0-a çevrilməsini təmin etmək üçün V_0 funksiyasını

$$V_0 = -\frac{\partial}{\partial x}(W_0 + \eta + \psi)\Big|_{x=1} \cdot (e^{-z} - 1)$$

düsturu ilə təyin edək. Qeyd edək ki, sonuncu düstur ilə təyin edilən V_0 funksiyası da (10) sərhəd məsələsinin həllidir.

Qurulan $(W_0 + \eta + \psi + \varphi \quad + V)$ cəmi (2) – (4) sərhəd şərtlərinin hamısını ödəyir. Aşağıdakı işarəni qəbul edək:

$$\tilde{u} = w_0 + \eta + \psi + \varphi + V. \tag{11}$$

$u - \tilde{u}$ fərqini qalıq həddi adlandırıb h ilə işarə edək:

$$u - \tilde{u} = h(\varepsilon, t, x). \tag{12}$$

Burada $\tilde{u}$ ilə (1)-(4) məsələsinin həlli işarə olunmuşdur. Asanlıqla göstərmək olar ki, h funksiyası aşağıdakı sərhəd məsələsinin həllidir:

$$L_\varepsilon h = \varepsilon F(t, x, \varepsilon) \tag{13}$$

$$h|_{t=0} = \frac{\partial h}{\partial t}\Big|_{t=0} = \cdots = \frac{\partial^m h}{\partial t^m}\Big|_{t=0} = 0, \tag{14}$$

$$\frac{\partial^{m+1} h}{\partial t^{m+1}}\Big|_{t=T} = \frac{\partial^{m+2} h}{\partial t^{m+2}}\Big|_{t=T} = \cdots = \frac{\partial^{2m} h}{\partial t^{2m}}\Big|_{t=T} = 0, \tag{15}$$

$$h|_{x=0} = h|_{x=1} = 0, \qquad \frac{\partial h}{\partial x}\Big|_{x=0} = \frac{\partial h}{\partial x}\Big|_{x=1} = 0. \tag{16}$$

Burada $F(t, x, \varepsilon)$ funksiyası D-də ε –nun $[0, \varepsilon_0)$ yarımintervalından olan bütün qiymətlərində məhdud olan funksiyadır.

Aşağıdakı təklif doğrudur.

Lemma. (13) - (16) məsələsinin həlli olan $h(\varepsilon, t, x)$ funksiyası üçün aşağıdakı qiymətləndirmə doğrudur:

$$\varepsilon^m \left\| \frac{\partial^m h}{\partial t^m}\Big|_{t=T} \right\|_{L_2(0;1)} + \varepsilon \left\| \frac{\partial^2 h}{\partial x^2} \right\|_{L_2(D)} + \|h|_{t=T}\|_{L_2(0,1)} + C_1 \|h\|_{L_2(D)} \le C_2 \varepsilon. \tag{17}$$

Buradakı $C_1 > 0$, $C_2 > 0$ sabitləri ε –dan asılı deyillər.

Lemmanı isbat etmək üçün (13) tənliyinin hər iki tərəfini $h(\varepsilon, t, x)$ funksiyasına vurub, alınan bərabərliyin sol tərəfindəki hədləri (14) - (16) sərhəd şərtlərini nəzərə almaqla hissə-hissə inteqrallamaq və müəyyən çevirmələr aparmaq lazımdır.

(12) bərabərliyindən u funksiyasını tapıb, (11) bərabərliyini nəzərə alsaq, (1)-(4) sərhəd məsələsinin həlli üçün birinci yaxınlaşmada aşağıdakı asimptotik ayrılış alınır:

$$u = w_0 + \eta + \psi + \varphi + V + h. \tag{18}$$

Bu işdə alınan nəticələri aşağıdakı teorem şəklində ifadə etmək olar.

Teorem. Fərz edək ki, $f(t,x)$ funksiyası $C^{2m+1,4}(D)$ fəzasına daxildir və (6) şərtlərini ödəyir. Onda (1) – (4) məsələsinin həllinin kiçik parametrə nəzərən asimptotik ayrılışı birinci yaxınlaşmada (18) şəklindədir. Burada W_0 – cırlaşmış məsələnin həlli, η, ψ, φ, V –uyğun olaraq t=0, t=T, x=0, x=1 yaxınlığında sərhəd zolaq tipli funksiyalardır, h-qalıq həddidir və onun üçün (17) qiymətləndirməsi doğrudur.

Ədəbiyyat siyahısı:

1.Вишик М.И., Люстерник Л.А. Регулярное вырождение и пограничный слой для линейных дифференциальных уравнений с малым параметром // Успехи математических наук, 1957, Т.12, вып. 5(77),с.3-122.

2.Джавадов М.Г., Сабзалиев М.М. Об одной краевой задаче для одно-характерического уравнения, вырождающегося в однохарактерическое// Доклады Академии Наук СССР, 1979, Т. 247, № 5, с. 1041-1046.

3.Салимов Я.Ш., Сабзалиева И.М. О краевых задачах для одного класса сингулярно возмущенных дифференциальных уравнений неклассического типа // Доклады Академии Наук России, 2004, Т.399, № 4, с.450-453.

4.Салимов Я.Ш., Сабзалиева И.М. О краевых задачах для одного класса сингулярно возмущенных уравнений произвольного нечетного порядка // Дифферен. Уравнения, 2006, Т.42, № 5, с.653-659.

5. Mahir M. Sabzaliev and İlhama M.Sabzalieva. Asymptotics of Solution of a Boundary Value Problem for Quasilinear Non-Classical Type Differential Equation of Arbitrary Odd Order// British Journal of Mathematics & Computer Science 22(4): 1-19, 2017; Article no. BJMCS.33704.

Nəsibov V.N.,
iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət İqitsad Universiteti

REKLAMDA İNNOVASİYA TEXNOLOGİYALARI

Müasir dövrdə istehlakçıya təsir etmək üçün ənənəvi reklam metodlarından başqa innovasiya texnologiyalarının tətbiqini nəzərdə tutan metodlar da mövcuddur. Bu metodların yeni yaranmasına baxmayaraq, onlar artıq istehsalçılar tərəfindən geniş tətbiq edilir və məqsədli auditoriya tərəfindən müsbət qəbul olunur.

Indi isə innovasiya reklamının mahiyyətinə diqqət yetirək. Belə ki, innovasiya reklamı yüksək texniki təminatın, ən yeni kompüter texnologiyalarının və informasiyanın verməsinin qeyri-standart üsullarının tətbiqi əsasında həyata keçirilir.

Reklamda tətbiq edilən ən yeni innovasiyalara aşağıdakıları aid etmək olar:

1. InDoor TV (Qapı önündə televiziya) texnologiyası. Bu innovasiya reklamının ən perspektivli və artıq özünü doğrultmuş növlərindən biridir. Bu reklam insanların

kütləvi oldugu yerlərdə reklam video çarxlarının translyasiyasını nəzərdə tutur. Mütəxəssislər iddia edirlər ki, bu cür reklam 90%-dən çox potensial alıcını formalaşdırır. Son illərdə bu reklam texnologiyası ciddi şəkildə təkmilləşdirilmişdir. 2005-ci ildə Almaniyada reklamın InDoor TV texnologiyasının "X3D video" adlanan yeni forması yaranmışdır.

2. X3D video texnologiyası. Bu texnologiya "X3D Technologies Corporation" şirkəti tərəfindən hazırlanmışdır və ilk dəfə 2002-ci ildə ABŞ-da keçirilən yüksək texnologiyalar konfransında təqdim olunmuşdur. Bu texnologiyaya əsasən istehlakçının diqqətini reklam informasiyasını özündə əks etdirən üçölçülü təsvir daha tez özünə cəlb edir. Bu texnologiyadan istifadə etdikdə şəkil ekranın hüdudlarını asanlıqla tərk edir və tez bir zamanda geri qayıdır. Bu isə ətrafdan keçən insanların şüurlarında silinməz təəssürat yaradır. Bu texnologiyanın sadə 3D texnologiyasından əsas fərqi ondan ibarətdir ki, insanlar xüsusi vasitələrdən (stereo eynəklərdən) istifadə etmədən görüntünü asanlıqla görürlər. Həmçinin görüntünü seyr etmək üçün monitorun önündə dayanmaq vacib deyil. Görüntü bucağının yüksək olması səbəbindən şəkil hətta 100 metr məsafədən aydın görünür. Bu gün Yaponiya, Çin, Fransa, Almaniya, ABŞ kimi ölkələrdə böyük supermarketlərdə, klublarda, əyləncə mərkəzlərində bu tip reklam texnologiyasından səmərəli istifadə olunur. Video çarxların yayımlanmasında bu texnologiyadan istifadə olunması istehlakçıya səmərəli təsir etməyə imkan verir. Çünki, yaradıcı reklam kommunikasiyanın hər mərhələsində (ideyadan onun vizual təcəssüm etməsinə qədər olan bütün mərhələlərdə) əhəmiyyətlidir.

3. "Just Touch" (Sadəcə Touç) interaktiv qarşılıqlı təsir texnologiyası. Bu texnologiya ABŞ-da 21-ci əsrin lap əvvəllərində yaranmışdır, amma son dövrlərdə daha çox tətbiq olunur. Bu texnologiya Touch Screen sistemi əsasında işləyir. O istehlakçının əllərinin hərəkətini izləməyə və əlin köməyiylə xüsusi tabloda yerləşdirilmiş menyunun funksiyalarını idarə etməyə imkan verir. Sistem hətta ən yüngül toxunmaya belə reaksiya verir. Bu informasiya tablosunun səthini (üzünü) örtən həddən artıq həssas sensor pərdənin sayəsində baş verir. Nəticədə istehlakçı asanlıqla onu maraqlandıran informasiyanı tapa, malın mövcudluğunu yoxlaya, müəssisə proqramıyla tanış ola bilir. Bu halda alıcı reklam olunan markanın loqotipini daim görür və bu onu qıcıqlandırmır. Fikrimizcə, reklamın bu texnologiyasından istifadəyə daha çox üstünlük verilməlidir. Çünki, birinci növbədə istehlakçı malın reklam edil-məsinə istehsalçının innovasiya yanaşmasını mütləq qiymətləndirəcək. İkincisi, informasiyanın belə təqdim edilməsi vaxta qənaət etməyə imkan verir. Üçüncüsü, bu cür təqdimetmə istehlakçıda bir çox müsbət emosiyalar yaradır.

4. Ground FX (Yerüstü FX) texnologiyası. Bu texnologiya – bu "GestureTek" şirkəti tərəfindən hazırlanmış çox muasir interaktiv proyeksiyadır. Bu texnologiya istehlakçıya reklam süjetini seyr etməklə yanaşı, bu sujetdə iştirak etmək imkanı yaradır. Belə ki, xüsusi texniki avadanlığın köməyi ilə böyük həcmli təsvir yastı səthə proyeksiya edilir. Belə təsvirə əhəmiyyət vermədən sadəcə yanından ötüb keçmək mümkün deyil. Bu zaman sistem ən kiçik hərəkətə bir anda reaksiya verir. Məsələn, yanından insan keçən kimi virtual suda dairələr yaranır və ya quşların sürüsü havaya qalxır. Bu texnologiyanın köməyi ilə hətta virtual qapılara qol vurmaq mümkündür. İlk

dəfə bu reklam texnologiyası 2005-ci ildə ABŞ-ın və Porto-Rikonun məhşur mərkəzləri olan American Airlines Center, Andels Stadium, Wachovia Center mərkəzlərində təqdim olunmuşdur. Həmçinin birinci dəfə Manhettendə yerləşən kitab mağazası və Hollivudda olan iki böyük supermarket bu texnologiyadan istifadə etmişdir.

5. Technology Free Format Projection (Sərbəst Formatda Proyeksiya Texnologiyası) – bu üsul Yaponiyada reklam innovasiyaları məşğul olan mütəxəssislər tərəfindən işlənib hazırlanmışdır və istənilən şəxsin diqqətini özünə çəkməyə qadirdir. Bu texnologiya istənilən reklam personajının bir anda insanın yanında yaranması effektini yaradır. Bu xüsusi proyeksiya aparatı vasitəsilə həyata keçirilir. Məsələn, virtual yaradılmış bir qız magaza önündə sizi qarşılayır və ya hansısa bir personaj ticarət mərkəzinin giriş qapısında rəqs edir və s. Belə bir reklam müştərinin yaddaşında uzun müddət qalır. Buna görə də bu yolla reklam edilən məhsul və xidmətin satışı müvəffəqiyyət qazanır. Bu texnologiyadan ilk dəfə MTV Avropa Musiqi Mükafatları festivalında istifadə olunmuşdur. Bu festivalda məşhur qrupun bir üzvünün virtual çizgi qəhrəmanı aparıcı kimi iştirakçıları salamlamışdır. Bu hadisə bu reklam texno-logiyasının ilk möhtəşəm təqdimatı hesab olunur.

6. Proyeksiya reklamı - özünü ifadə etmək üçün yeni bir reklam üsuludur. Bu texnologiya xüsusi görüntünün ümumi sahəsi 20 dən 2000 kvadrat metrə qədər olan sahədə proyeksiya olunmasını nəzərdə tutur. Bu texnologiya MDB ölkələri, o cümlədən Azərbaycan üçün də reklamın yeni bir formasıdır. Proyeksiya reklamını digər reklam texnologiyalarından fərqləndirən bir sıra üstünlükləri vardır. Bunlar aşağıdakılardır:

- Rəqabətin olmaması;
- Istehlakçının diqqətinin cəlb edilməsi digər növ reklam vasitələrinə nisbətən bir neçə dəfə yüksəkdir;
- Nisbətən açağı qiymətə başa gəlir;
- Tez bir zamanda çəkilən xərcləri doğruldur;
- Bir vaxtda birdən çox reklam görüntüsünü göstərmək imkanı var;
- Reklam görüntüsünü tez bir zamanda dəyişmək olur;
- Bu texnologiyanı tez bir zamanda quraşdırmaq mümkündür.

Son zamanlar proyeksiya reklamı istehlakçı ilə marka arasında rabitə yaradılmasında əvəzolunmaz vasitə hesab olunur. Proyeksiya reklamının əsas üstünlüyü ondan ibarətdir ki, istənilən səthdə, həm küçədə, həm də binanın içində yerləşdirilə bilər. Belə reklam darıxdırıcı bir şəhər peyzajını bəzəyir. Həmçinin belə reklam görüntüləri böyük və rəngarəngdir, onlar məsafədən aydın görünürvə bu reklamın gəlirliyi adi reklam növlərindən daha yüksəkdir.

Müasir multimediya proyektorları həm görüntünü, həm də səsləri yayımlaya bilir, həmçinin bir neçə kompüteri şəbəkəyə birləşdirir və bu şəbəkəni internetə qoşur. Bu isə kreativ reklam üçün həqiqətən tükənməz imkanlar verir. Belə proyeksiya cihazını istifadə etmək üçün xüsusi səth hazırlığı tələb olunmur, həm evlərin divarlarında, həm də ofis binalarının divarlarında görüntünü yayımlamaq mümkündür. Proyektorda quraşdırılmış güclü lampa hesabına gündüzdə də görünüş parlaq və aydın olur.

Proyeksiya reklamı çox rahatdır. Çünki proyektor reklam slaytlarını ardıcıl göstərmək qabiliyyətinə malikdir. Beləliklə, bir səthdə bir neçə reklamvericinin reklamı göstərilə bilər

Proyeksiya reklamının timsalında innovasiyaların reklamdakı rolunu aydın görmək mümkündür. Rəqabətin zəif, rentabelliyin yüksək olması səbəbindən proyeksiya reklamını səmərəli bir texnologiya kimi qəbul edirlər. Bu texnologiya müasir dövrdə investorlar və iş adamları üçün çox cəlbedicidir.

7. Jurnalda video reklam. Bu texnologiya ilk dəfə ABŞ-da yaradılmışdır. Bunun üçün jurnalın ön səhifələrinin birində mobil telefonun ekranı ölçüsündə xüsusi bir ekran yerləşdirilir. Həmçinin ekranın altında xüsusi reklam informasiyasını daşıyan mikroçip vardır. Bu çipə ən çoxu 40 dəqiqəlik informasiya yazıla bilər. Siz jurnalı alıb ilk səhifəsini açdıqda video görüntü işə düşür. Bu texnologiya ilk dəfə "Entertainment Weekly" jurnalında Pepsinin reklamı ilə tətbiq edilmişdir. Lakin qeyd etmək lazımdır ki, bu texnologiya çox baha başa gəlir və çox zaman istehlakçıları az cəlb etdiyi üçün özünü doğrultmur.

8. "APPLE" şirkətinin tətbiq etdiyi reklam texnologiyası. "The New York Times" qəzetinin yazdığına görə "Apple" şirkəti öz məhsullarını reklam etmək üçün daim yeni reklam texnologiyalarının axtarışındadır. Şirkətə bir çox təkliflər göndərilmişdir. Belə təkliflərdən biri də Stiv Jobsa məxsusdur. Məlumdur ki, adi reklamdan istehlakçı yayına bilər. S.Jobsun təklifinə əsasən yeni reklam istehlakçının yalnız xüsusi hərəkətindən sonra yoxa çıxır. Sanki reklam cihaza tikilmişdir, ondan qaçmaq olmur. Reklama baxmadan cihaz işə düşmür. Öncə istehlakçı reklama baxır, sonra reklam çarxı ilə bağlı bir neçə suala düzgün cavab verir və nəticədə cihaz işə düşür. Audio reklamın dinlənilməsi faktını yoxlamaq üçün isə istehlakçıdan xüsusi düyməyə basmaq tələb olunur. Məhz, bu texznologiya "Apple" şirkətinə məxsusdur.

9. İnternet reklamlarında innovasiyalar. Bura yeni tətbiq edilən VideoClick texnologiyasını aid etmək olar. Bu texnologiya son dövrlər internet reklamında çox tətbiq edilir. Bu texnologiyanın köməyilə reklam çarxlarını artıq tematik materialların mətnlərində də yerləşdirmək mümkündür. Belə ki, ekranda yerləşdirilmiş xüsusi sözün üstündən basmaqla video çarxı izləmək mümkün olur. Bu texnologiya müxtəlif ölkə və şəhərlərdə yeni məqsədli auditoriya tapmağa imkan verir. Videoclick texnologiyasının köməyi ilə aşağıdakı vəzifələr həll edilə bilər:

- markanın və brendin məşhurluğunun artırılmasına yönəlmiş reklam kampaniyası həyata keçirilir;
- müəyyən bir məhsul və ya xidmətin reklam kampaniyası həyata keçirilir;
- davam edən endirimlər və xüsusi təkliflər barədə istehlakçılar məlumatlandırılır.

Son dövrlərdə VideoClick texnologiyasının yaradıcıları internet şəbəkəsində başqa bir inqilab yaratmışlar. Bir neçə il öncə Rusiya şirkəti Media Videointeractive texnologiyasını təqdim etmişdir. Bu texnologiya darıxdırıcı bannerləri əyləncəli video çarxlara çevirməyə imkan verir. Texnologiyanın əsas iş rejimi belədir. İstifadəçi banneri sıxdıqdan sonra video yayımlanır. Bu adi bir reklam çarxı və ya interaktiv oyun ola bilər. Belə oyunlarda onlayn məsləhətçidə yerləşdirilir. Videointeractive texnologiyası uğurla test edilmiş və özünü doğrultmuşdur.

Quliyev R.H.,
iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Texniki Universiteti

CƏMİYYƏTİN İNSAN KAPİTALI VƏ SOSİAL SİYASƏT SİSTEMİNİN KORPORATİV SOSİAL MƏSULİYYƏTİ

1990-cı ildən etibarən BMT insanın inkişafını indeks vasitəsi ilə ölçür - İnsan potensialının inkişaf indeksi (Human Development İndex-HDİ). İnsan potenialının inkişaf indeksinə dörd potensial daxildir:

- doğumdan sonra göstərilən orta ölüm müddəti(illərin sayı);
- orta təhsil müddəti (illər);
- gözlənilən təhsil müddəti (illər);
- ümummilli gəlirə görə alıcılıq qabliyyəti bacarığının nisbəti (bərabərliyi) adambaşına düşən ABŞ dollarında.

İnsan potensialının inkişaf indeksinin qiyməti 0-1 intervalında dəyişir. Müasir zamanda insan potensialının inkişaf indeksinə daxil olan dəyişənlərin aşağıdakı qiymətləri qəbul olunub. Doğulanda gözlənilən orta ömür müddəti 83,2 il, orta təhsil müddəti 13.2 il, gözlənilən təhsilin müddəti 20.6 il, ümummilli gəlirə görə alıcılıq qabiliyyəti bacarığının bərabərliyi üzrə adambaşına düşən 108211 ABŞ dollarıdır. İnsan potensialının inkişaf indeksinin minimal qiyməti kimi aşağıdakılar qəbul olunub:

- doğulandan sonra gözlənilən orta ömür müddəti 20 il;
- orta təhsil müddəti və gözlənilən təhsil müddəti sıfıra bərabər;
- adambaşına düşən ümummilli gəlir 163 ABŞ dollarına bərabərdir.

Korporativ sosial məsuliyyət, şübhəsiz olaraq insanın inkişafına əhəmiyyətli dərəcədə təsir göstərir. 2011-ci ildə BMT tərəfindən "xalqların real sərvəti: insanın inkişafına yollar" adı altında yeni proqram elan olundu. Burada insan potensialının inkişaf indeksinə uyğun olaraq dünyada 20 illik işin yekunu ümumiləşdirib və insanın inkişaf üzrə yeni məsələlər təyin olunub. Yeni proqramda nəzərdə tutulub ki, insanın inkişafı təkcə sağlamlığa, təhsilə və gəlirlərinə aid deyil; o həmçinin, inkişafın, ədalətin və davamlılığın formalaşmasında insanların fəal inkişafını özündə birləşdirir. Qeyd olunur ki, yüksək insan potensialının inkişaf indeksinə nail olmaq olar və qeyri-davamlı (dayanıqlı) ölkə olmaq olar; analoji olaraq, aşağı insan potensialının inkişaf indeksinə nail olmaq olar və nisbətən dayanıqlı (davamlı), demokratik, ədalətli ölkə olmaq olar. BMT-nin proqramında qeyd olunur ki, insanın inkişafının saxlanılmasında ən böyük problemləri qeyri-dayanıqlı istehsal və istehlak modelləri yaradırlar.

Bu problem KSM alətləri hesabına həll edilə bilər. Xüsuslilə biznesin sosial məsuliyyəti, heç şübhəsiz ki, istehsal problemlərinin həllinə ekoloji təşkiledicinin qeydə alınmasında öz əksini tapmalıdır. Bununla belə BMT proqramı qeyd edir ki, bu gün inkişaf sahəsində hansı siyasətin olması barəsində vahid fikir yoxdur, eyni zamanda yeni tendensiyalar meydana çıxır. İnsan inkişafının təyin olunması, insan seçimi imkanlarının genişlənməsində əsasdır, amma kifayətedici deyildir. Sosial ədalət, davamlılıq və insan haqqlarına hörmət kimi belə üsullar prinsipial olaraq vacibdir. Bu baxımdan BMT proqramı insan inkişafını üç istiqamətdə təyin edir:

- Rifah: insanın real azadlıqlarının inkişafı, elə üsulnan ki, onlar çiçəklənə bilsin;

- Hüquqların, imkanların və agentliklərin genişlənməsi: insanların və qrupların fəaliyyət göstərmək və dəyər nəticələr almaq imkanları;

- Ədalətlilik: sosial ədalətin artırılması, zamanında nəticələrin davamlılığının təmin olunması, insan haqqlarına və cəmiyyətin digər məqsədlərinə hörmət olunması.

Korporasiyaların menecerləri öz bizneslərini sosial məsuliyyəti üzrə həyata keçirərkən yuxarıda qeyd edilən, insan inkişafının istiqamətlərini nəzərə almalıdırlar. 1651-ci ildə ingilis filosofu Tomas Qobbs həyatı təbii vəziyyətdə belə şərh edirdi: "....kasıb, çirkli, heyvani, gödək". O vaxtlar İngiltərədə insan həyatının orta müddəti 40 il idi, əksər digər ölkələrdə isə 20 il idi.

Korporasiyaların biznesi, onların müvəffəqiyyəti insanların həyatının ketfiyyətindən və uzunmüddətliliyindən asılıdır. Nə qədər ki, ölkədə insanların həyat müddəti azdır, bir o qədər də biznesin gəliri azdır. Misal üçün, bir neçə müasir Afrika ölkəsində insanların həyatının orta müddəti 40 ildən azdır, biznes ona inkişafa imkan verməyən kiçik gəlirə malikdir. Bununla əlaqədar olaraq, işgüzar korporasiyalar uzunmüddətli müvəffəqiyyətə istiqamətlənmişlər, həm öz heyətinin, həm də cəmiyyətin sosial inkişafın müxtəlif proqramlarında mütləq şəkildə iştirak edirlər.

Beləliklə, insanın inkişafı baxımından korporativ sosial məsuliyyət nəyi ifadə edir? Korporativ sosial məsuliyyətin konsepsiyası təkamül prosesində onun üç əsas şərtini formalaşdırır.

Birinci (klassik) və ənənəvi yanaşma qeyd edir ki, biznesin vahid məsuliyyəti- öz səhmdarları üçün gəlirin artırılmasıdır. Bundan əvvəl biz bu məsələyə dair iqtisad üzrə Nobel mühafatı laureratı M.Fridmanın (Milton Friedman) 1971-ci ildə nəşr olunmuş "Biznesin sosial məsuliyyəti - pul yaratmaq" adlı məqaləsində fikrini bildirdiyini qeyd etmişdik. M.Fridmanın bu yanaşmasını bir sıra mütəxəssislər "korporativ eqoizm nəzəriyyəsi" adlandırırlar.

Bu nəzəriyyənin əsas çatışmamazlığı - onun vaxt məhdudiyyətliliyidir. Məsələ ondadır ki, əgər şirkət qısamüddətli zamanda, əlavə xərclər çəkirsə, onda uzunmüddətli dövrdə korporativ imicin yaxşılaşmasında, yerli cəmiyyətlə inkişaf əlaqələrində udur.

M.Fridman xüsusilə qeyd edir ki, "kasıbçılıqla mübarizə -özəl biznesin funksiyası deyil, bu dövlətin işidir. Bizim işimiz qanun çərçivəsində səhmdarlar və müştərilər üçün pul qazanmaqdır. Başqa öhdəçiliyimiz yoxdur. Biz vergi ödəyirik, Allahdan və vicdandan başqa heç kinıə heçnə borclu deyilik". M.Fridmanın fikrinə görə, legitim haqqa və kifayət qədər səlahiyyətlərə malik olmayaraq, menecerlər cəmiyyətin inkişaf yollarını təyin etməyə və məsələləri həll etməyə, yeni siyasətçilərin işini həll etməyə çalışırlar.

İkinci yanaşma, hansı ki, "korporativ altruizm nəzəriyyəsi" adlandırılır, birbaşa olaraq M.Fridmanın klassik nəzəriyyəsinin əksinədir və bu onun nəşrləri ilə eyni zamanda yaranmışdır. Altruizm nəzəriyyəsinin əsas ideyası ondan ibarətdir ki, biznes ancaq öz gəlirinin artması haqqında fikirləşməməlidir, o həm də cəmiyyətin problemlərinin həllinə, vətəndaşların və cəmiyyətin həyat səviyyəsinin artırılmasına, həmçinin ətraf mühitin qorunmasına maksimal dərəcədə əlçatan planlı yatırımlar etməlidir. Bu nəzəriyyənin müəllifliyi ABŞ-ın iqtisadi inkişaf üzrə komitəsinə mənsubdur. Komitənin tövsiyyələrində qeyd edilir ki, "korporasiyalar Amerikanın həyat keyfiyyətinin yaxşılaşdırılmasına kifayət qədər töhfhələr verməlidirlər". Korporativ altuirizm nəzəriyyəsinə müvafiq olaraq, şirkətlər özlərini sosial problemlərdən qırağa çəkə

bilməzlər. Yəni, onlar qanunların və digər dövlət qərarlarının lobbiləşdirilməsində fəal iştirak edən, müxtəlif partiyaların və digər cəmiyyət birliklərinin sponsorluğu ilə məşğul olan açıq sistemdirlər.

Üçüncü yanaşma ən güclü "mərkəzi nəzəriyyələrində"– "ağıllı eqoizm nəzəriyyəsində" (enlightened sell interest) təsvir olunub. Bu nəzəriyyə onda qurulub ki, biznesin sosial məsuliyyəti - bu sadəcə "yaxşı biznesdir", yəni bu zaman gəlirin uzunmüddətli itgiləri azalıb. Sosial və xeyriyyəçilik proqramlarına çəkilən xərclər cari gəliri azaldır, amma uzunmüddətli perspektivdə əlverişli sosial dairə və davamlı gəlir yaradırlar. Digər sözlərlə filantropik və sosial proqramlar şirkətlərin vergitutma bazasını azaltmağa kömək edirlər və yaxşı "ictimai səmərə" verirlər.

Sadıqov R.F.,
iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
Bakı Biznes Universiteti

İSTEHSAL MÜƏSSİSƏLƏRİNİN İDARƏ EDİLMƏSİ VƏ İNKİŞAFI

İstehsal sahəsində idarəetmə sistemi respublikada fəaliyyət göstərən müəssisələrin sahəvi xüsusiyyətlərini, onların təşkilati-strukturunu, mülkiyyət növlərini nəzərə almaqla formalaşır və tətbiqinin xüsusiyyətlərinə görə bir-birindən fərqlənir. Sənaye müəssisələrinin menecmenti bizim tədqiqatımızın predmeti hesab olunur. Əgər biz sənaye müəssisələrinin strateji idarəetmə prosesinin təkmilləşdirilməsi, yenilənməsi, inkişafı prosesindən danışırıqsa, bu məsələlər menecmet fəaliyyətinə şamil olunmuş hesab edilir. Çünki biz menecmentin xüsusiyyətindən bəhs edərkən, onun əhatə dairəsinin tərkibinə nəzər salarkən, sənaye müəssisəsini xüsusilə vurğulamalıyıq. Deməli tədqiqatın predmetinin əsasını təşkil edən strateji idarəetmə strateji menecment kimi başa düşülür.

İdarəetmənin elmi mahiyyətinin açıqlanmasına bir neçə tərəfdən yanaşmaq və izah etmək olar. Məsələn, professor İslam İbrahimov ədəbiyyatlarında idarəetməyə müxtəlif yanaşmalardan müxtəlif təriflər vermişdir.

Cədvəl 1.

İdarəetmənin müxtəlif aspektlərdə tərifləri

Yanaşma baxımından	Verilən tərif
Təsir baxımından	İdarəetmə - idarəetmə subyektinin idarəetmə obyektinə idarəedici təsiridir ki, nəticədə müəyyən idarəetmə funksiyalarının yerinə yetirilməsi və ya idarəetmə qərarının reallaşdırılması təmin olunur.
Situasiya baxımından	İdarəetmə - konkret sistemin bir vəziyyətdən digərinə keçməsi və ya müəyyən olunmuş vəziyyətdə saxlanılmasının təmin edilməsi üçün bu sistemə idarəedici təsir prosesidir.
Əlaqə baxımından	İdarəetmə - ictimai-iqtisadi münasibətlərin konkret məqsədəuyğun təşkil edilməsi metodudur, bütöv tam bir sistemin ayrı-ayrı elementləri arasındakı əlaqəni təmin edən bir prosesdir.
Sosial-iqtisadi baxımdan	İdarəetmə - işçi qüvvəsi və əmək vasitələrini elə işlətməkdir ki, qarşıya qoyulan məqsədə çatmaq üçün az xərclə daha çox gəlir əldə edilməsinə nail olunsun.
Struktur baxımından	İdarəetmə - özünün bütövlüyünü, quruluş vahidliyini saxlamaqla təsərrüfatın son məqsədə nail olmaq üçün tətbiq etdiyi təsiretmə vasitəsidir.

Biz isə yuxarıda göstərilən tərifl ərin mahiyyəti və məzmunundakı fikirləri təsdiq etməklə və onları konkretləşdirməklə idarəetməyə sistemli mənanın digər aspektlərini irəli sürürük.

Cədvəl 2.

İdarəetmənin müxtəlif yanaşmalardan tərifləri

Yanaşma baxımından	Verilən tərif
Proses baxımından	İdarəetmə tərtib edilmiş planların həyata keçirilməsini təmin edilməsi ilə əlaqədar inzibati prosesdir.
Sosial aspekt baxımından	İdarəetmə məqsədyönlü fəaliyyət olub kollektivi öz arxasınca aparmaq qabiliyyətlərinin məcmusudur.
	İdarəetmə müəssisədə çalışan kollektivin səylərini ümumi məqsədlərə yönəldən şüurlu insan fəaliyyətidir.
Zaman baxımından	Strateji idarəetmə strateji məqsədlərə nail olunması ilə əlaqə-dar uzun-müddətli fəaliyyət sistemidir.
Nəticə baxımından	Strateji idarəetmə strateji planların icrasını təmin edən sistemli fəaliy-yət növü olub, təşkilatda iqtisadi səmərəliliyə nail olunması və rəqa-bətqabiliyyətliliyinin artırılmasına hədəflənir.
Sistemli yanaşma baxımından	Strateji idarəetmə özünün alt strategiyalarını müəyyən etməklə təşkila-tın müxtəlif aspektlərdən sosial-iqtisadi imkanlarının genişləndirilmə-sinə istiqamətlənmiş fəaliyyət sistemidir.

Sahibkarlıqla məşqul olan təsərrüfat subyektləri istər fiziki şəxs, istərsə də hüquqi şəxs kimi fəaliyyət göstərə bilərlər. Hər iki halda həmin təsərrüfat subyektlərin-in idarə edilməsi menecment fəaliyyətinin predmetini yaradır. Menecment istər yeni yaranan, istərsə də fəaliyyətdə olan müəssisələrin fəaliyyətinin idarə edilməsi ilə əlaqədardır. Res-publikamızda sahibkarlıq fəaliyyəti ilə məşqul olan müəssisələrin də sayı daim artmaqda davam edir.

Artım dinamikasının funksional təsviri aşağıdakı kimidir. Funksiyada sonuncu ilin artım dinamikası təsvir olunmuşdur. Həmin təsvirdə kənd təsərrüfatı, meşə təsərrü-fatı və balıqçılıq sahəsinin artım dinamikası diqqəti cəlb edir.



Lakin sahibkarlıq sahəsi ilə məşqul olmağın iki forması mövcuddur. Bunlar hüquqi şəxs yaratmadan fiziki şəxs kimi, digəri isə hüquqi şəxs yaratmaqla müəssisə və təşkilat kimi fəaliyyət göstərməkdən ibarətdir. Hüquqi şəxs yaratmaqla təşkilatın idarəetmə strukturunun formalaşdırılması, işçilər arasında idarəetmə və əmək münasibətlərinin tənzimlənməsi məsələsində üstünlüklərə malik olunur. Aşağıdakı cədvəldə hüquqi şəxs yaratmaqla kiçik müəssisə kimi fəaliyyət göstərən təsərrüfat subyektlərinin son beş ildə sayı dinamika üzrə verilmişdir.

Cədvəl 3.

Qeydiyyatda olan kiçik müəssisələrin sayı (yanvarın 1-nə)

	2013	**2014**	**2015**	**2016**	**2017**
Kiçik müəssisələrin illər üzrə sayı O cümlədən:	62899	69219	75119	79037	86514
Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq	8275	8764	8869	8686	9445
Mədənçıxarma sənayesi	644	669	695	717	694
Emal sənayesi	4758	5008	5184	5394	5462
Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı	116	121	124	104	98
Su təchizatı; tullantıların təmizlənməsi və emalı	325	330	329	263	278
Tikinti	8369	8699	9525	9914	10237

Cədvəldən göründüyü kimi, 2013-cü ildən indiyədək bütün fəaliyyət sahələri üzrə qeydiyyatda olan müəssisələrin ümumi sayı illər üzrə artan yekunla cərəyan edir. 2013-cü il ilə müqayisədə 2017-ci ildə qeydiyyatda olan müəssisələrin sayı 23,6 min və ya 37,5 % coxdur. Tədqiqat göstərir ki, həmin müəssisələrin sahələr üzrə tərkibində sayına görə üstünlük təşkil edən sahələr tikinti (12%) və emal (6,3%) sahələridir.

Əslində dövlət təsərrüfat sahələrində də menecment fəaliyyəti mövcuddur. O halda ki, həmin sahələr bazar üçün məhsul istehsal etsinlər və onların maddi və mənəvi tələbatlarını ödəmiş olsunlar. Bu nöqteyi nəzərdən biz müəssisələri mülkiyyət novləri üzrə də təsnifləşdirməklə, menecmentin əsas tətbiqi sahəsi sayılan xüsusi, dövlət və bələdiyyə mülkiyyətinə əsaslanan sahibkarlığın ölkə iqtisadiyyatındakı xüsusi çəkisinə görə tərkibinin də statistik təhlilinə varmışıq.

Cədvəl 4.

Mülkiyyət növləri üzrə qeydiyyatda olan müəssisələrin sayı (yanvarın 1-nə)

	2017-ci il				
	Dövlət	**Bələdiyyə**	**Xüsusi**	**Xarici**	**Qarışıq**
Cəmi O cümlədən:	10640	1701	86812	6245	1960
Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq	562	50	9230	66	69
Mədənçıxarma sənayesi	34	1	569	174	26
Emal sənayesi	257	9	5175	381	303
Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı	250	0	43	10	5
Su təchizatı; tullantıların təmizlənməsi və emalı	203	3	228	20	20

Tikinti	505	17	9470	953	275

Bu cədvəldə müəssisələrin fərqli mülkiyyət növləri üzrə təsnifatına əsaslanan rəqəmlər 2017-ci ilin göstəriciləridir. Xüsusi çəkiyə görə ən çox pay özəl təşkilatların aktivindədir. Təkcə xüsusi mülkiyyətə əsaslanan müəssisələr ümumi sayın 80,9%-ni təşkil edir. Bu onu göstərir ki, Azərbaycan dövlətçiliyinin iqtisadi siyasəti özəl sektorun inkişafına daha çox yönəlmiş və bu sahədə yüksək nəticələr əldə edilmişdir. Əgər biz 2013-cü il üçün həmin göstəriciləri əks etdirən rəqəmlərə nəzər salsaq görərik ki, doğrudanda xüsusi sahibkarlığın inkişafı artmaqda davam edir.

Cədvəldə göstəricilərin müqayisəsinin funksional təsvirinə nəzər salsaq xüsusi mülkiyyətə əsaslanan müəssisələrin kəmiyyətindəki xüsusi çəki diqqətinizi cəlb edəcəkdir.



Müəssisələrin yaranması və onların modernləşdirilməsi ölkədə makro və mikro aləmin inkişafına dəlalət edən hallardan biridir. Bu hal sənaye sahəsinin inkişafına birbaşa təsir edir. Ötən əsrin 70-80-ci illərindən etibarən sənaye sahəsində əsaslı inkişaf baş vermişdir. Son on ildə isə Azərbaycanın sosial – iqtisadi həyatında baş verən iri miqyaslı kəmiyyət və keyfiyyət dəyişiklikləri sənaye məhsulunun istehsal həcminin 2,7 dəfə artırılmasına imkan vermişdir. İnkişafın baş verməsinin əsas səbəblərdən biri də ölkədə aparılan düzgün iqtisadi siyasət və iqtisadi infrastruktura dövlət qayğısının gücləndirilməsidir.

Aşağıdakı cədvəl üzrə aparılmış statistik təhlillər göstərir ki, respublikada sahibkarlığın inkişafına hərtərəfli şərait yaradılması, investisiya mühitinin yaxşılaşdırılması, yerli sənaye məhsullarının rəqabət qabiliyyətinin yüksəldilməsi istiqamətində görülən tədbirlər istehsalın həcminin inkişaf dinamikası ardıcıl olaraq əvvəlki illərlə müqayisədə həmişə artan yekunla cərəyan etmişdir.

Cədvəl 5.

Sənaye istehsalının strukturu

İllər	**2005**	**2010**	**2013**	**2014**	**2015**	**2016**
Bütün sənaye (mln manat)	100	100	100	100	100	100
Mədənçıxarma sənayesi	67.4	78.9	77.2	73.0	67.0	96.8
Emal sənayesi	25.9	15.9	16.5	20.2	24.3	22.9
O cümlədən, Qida məhsullarının istehsalı	2.4	1.5	1.7	2.0	2.5	4.3
Neft məhsulları istehsalı	9.9	8.2	7.6	9.5	10.1	8.1
Kimya sənayesi	2.4	0.45	0.6	0.82	1.4	1.2
Tikinti materialları istehsalı	1.6	1.7	1.2	1.7	1.8	1.3

Düzdür, yeni sənaye müəssisələrinin yaradılması, infrastrukturun daha da genişləndirilməsi bu sahəyə dövlət qayğısının artırılmasından xəbər verir. Bununla bağlı, sənayenin modernləşdirilməsi, maddi resurslarının səmərəli formada dövriyyəyə cəlb edilməsi, əmək resurslarından məhsuldar formada istifadə olunmasını, Azərbaycanın güclü sənaye mərkəzinə çevrilməsini təmin etmək məqsədilə ölkəmizdə 2014-cü ilin "Sənaye ili" elan edilməsi haqqında Azərbaycan Respublikası prezidenti sərəncam imzalamışdır.

Bu sahədə qəbul edilmiş dövlət sənədləri, sosial-iqtisadi proqramlar ölkədə sənayenin inkişafına təkan verir, idarəetmənin təkmilləşdirilməsinə səbəb olur. Sənaye sahəsinin inkişafı, müəssisələrin daha perspektiv strateji hədəflərə istiqamətlənməsi biz tədqiqatçılardan bu sahəyə dair tədqiqatların genişləndirilməsini, innovasiyaların artırılmasını tələb edir.

Yusifov E.M.,
iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
Bakı Biznes Universiteti

KORPORATİV STRUKTURLARDA "PABLİK RİLEYŞNZ" XİDMƏTİNİN TƏŞKİLİ

"Pablik rileyşnz" ("Publik relation") ingilis dilindən tərcümədə ("ictimai əlaqələr"), "ictimai münasibətlər", "ictimai rəyin öyrənilməsi və formalaşması" deməkdir.

"Pablik rileyşnz" (PR) korporasiya ilə ictimaiyyət arasında qarşılıqlı münasibətlərin inkişafı üzrə daimi fəaliyyət tələb edən ictimaiyyətlə münasibətlər sistemidir. PR mövcud korporasiyanın menecmentinin funksiyalarından biri kimi dərk olunur.

"Pablik rileyşnz" təşkilatla ictimaiyyət arasında kommunikasiyaların müəyyən edilməsi və saxlanılması üzrə menecmentin müstəqil funksiyasıdır.

Azərbaycan da müstəqillik əldə etdikdən sonra PR sistemindən geniş istifadə edir. Demək olar ki, bütün dövlət təşkilatlarında, biznes qurumlarında, iri müəssisə və təşkilatlarda, o cümlədən korporativ strukturlarda ictimaiyyətlə əlaqələr üzrə bölmələr fəaliyyət göstərir.

Son illər dünya bazarında, xüsusilə xarici islahatçılar üçün nəzərdə tutulan əmtəə və xidmətlərin istehsalçılarının ictimai nüfuzunun əhəmiyyəti nəzərə çarpacaq dərəcədə güclənmişdir. Alıcı məhsul göndərənin və ya tədarükçünün nüfuzunu forma-laşdıran təşəbbüskarlıq, etibarlılıq, operativlik və digər qeyri-maddi amillərə daha çox diqqət yetirir.

Buna görə də müasir şəraitdə əmtəələrin, xüsusilə kütləvi tələbat mallarının satışının təşkili zamanı əgər reklam əmtəə haqqında yalnız bir informasiya ilə məhdudlaşırsa, bu reklam uğurlu ola bilməz. Əmtəə və xidmətlərin reklamının istehlakçılar üçün daha səmərəli fəaliyyət göstərməkdən ötrü onun üçün qavramağa kömək edən ton, yəni mühit, şərait yaradılır, başqa sözlə, ilkin olaraq reklam təklifinin kifayət qədər nüfuzu təmin olunur. Nüfüzluluq institusional, korporativ səviyyədə və əmtəə səviyyəsində reklam tədbirləri ilə formalaşır.

Hər üç səviyyədə nüfüzlu reklam kampaniyalarının reallaşması əsasən ölkəyə, sahəyə, korporasiyaya və bütünlükdə onun məhsuluna ictimaiyyətin xeyirxah münasibətinin qazanılmasına, yəni məhz ictimai nüfuzun qazanılmasına yönəlmiş PR tədbirləri ilə həyata keçirilir.

Yeni məhsullarlarla bazara çıxmağa hazırlaşan korporasiyalar üçün uğurun hazırlanmasında PR həlledici rola malikdir. Belə ki, ilkin olaraq yeni subyekt və onun məhsulu haqqında cəmiyyət heç nə bilmir, deməli, xarici mühitdə yeni korporasiyanın müəyyən nüfuzu yoxdur. PR həm korporasiyaya, həm də onun məhsuluna münasibətdə xarici mühitdə tam informasiya qeyri-müəyyənliyini aradan qaldırmalı, cəmiyyətdə onun etimadını və etibarını təmin etməlidir. PR-in köməyilə ilkin alışı edən şəxsdə (fiziki və ya hüquqi) müsbət emosiya, onların seçiminə əminlik yaratmaq lazımdır. Bütün bunlar oxucuların və dinləyicilərin davranışına lazımi təsir göstərir və məqsədli auditoriyanın müsbət psixoloji qavramasına kömək edir.

Korporativ strukturlarda kommunikasiya vəzifələrinin uğurla həll edilməsində PR xidmətinin yeri çox böyük önəm daşıyır (şəkil 1.).



Şəkil 1. Korporativ strukturlarda PR xidmətinin sxemi

Analitik-proqnostik qrup PR menecerini daxili və xarici mühitin informasiya sahələrində istiqamətləndirməyə, korporasiyanın kommunikasiya məqsədlərini və strateji vəzifələrini müəyyən etməyə, əməliyyatları planlaşdırmağa, kommunikasiya problemlərini və şəraiti qabaqcadan görməyə və proqnozlaşdırmağa kömək edərək, köməkçi qrup kimi çıxış edir.

Bunun üçün ilkin informasiya mənbələrindən (müstəqil aparılan sosioloji tədqiqatlar, analitiklər tərəfindən emal edilməmiş sənədlər, xüsusi müşahidələrin nəticələri), eləcə də ikinci dərəcəli informasiya mənbələrindən (sosialoji tədqiqatların materialları, statistik göstəricilər, hesabatlar, proqramlar) istifadə olunur.

Başlanılan aksiyaların proqnozlaşdırılması və korreksiyası (təshih edilməsi) üçün həmçinin xüsusi cəlb edilən ekspert və fokus qrupu qiymətli informasiya sayıla bilər. Birinci qrup müxtəlif bilik sahələrində ixtisaslaşan nüfuzlu alimlərdən, peşəkarlardan, istifadə olan siyasətçilərdən ibarət olur və bunlar planlaşdırılan yüksək inkişaf etmiş tədbirlərə proqnoz qiyməti vermək üçün yaradılır. İkinci qrupa öz xarakteristikasına görə kütləvi auditoriyanın sosial-demokratik strukturunu əks etdirən insanlar daxildir. Peşəkar idarə olunan fokus qrupu ictimai sorğu proqramına qoyulmalı olan məsələləri müəyyən etməyə, televiziya və ya radio verilişlərinin yaradılması üçün mövzu almağa,

baş verən tədbirlərin spontan (öz-özünə əmələ gələn) qiymətləndirməni əldə etməyə və s. kömək edir.

KİV-lə əlaqələr üzrə işçi qrupunun əsas vəzifəsi kütləvi informasiya vasitələrinin köməyi ilə ictimaiyyəti məlumatlandırmaqdır. Bu qrup iki istiqamətdə işləyir.

Birinci istiqamət cəmiyyəti bilavasitə məlumatlandırmaqdır; o cümlədən: mətbuatda dərc olunma və rəsmi materialların (operativ mətbuat qrupu tərəfindən hazırlanmış materialların, müraciətlərin, informasiya tipli xətlərin) efirə verilməsi, broşürlərin və informasiya-izahat materiallarının, bukletlərin və bülletenlərin, tədvimlərin və digər suvenir məhsullarının nəşr edilməsi, televiziya və radio verilişləri, kinoxronika üçün xüsusi sujetlərin hazırlanması, şifahi kütləvi informasiya kanalları üzrə xəbərlərin (mühafizələrin, konfransların, seminarların) hazırlanması və yayılması.

İkinci istiqamət KİV işçilərinin məlumatlandırılmasından ibarətdir: mətbuat-relizlərinin, informasiya məktublarının və s. yaradılması və onların redaksiyalara verilməsi, mətbuat konfranslarının və brifinqlərin keçirilməsi, xüsusi seminarların təş-kili və s.

İctimaiyyətlə əlaqələr üzrə qrupun vəzifəsi müxtəlif auditoriyalarda və sosial qruplarla iş təmaslarının müəyyən edilməsi, əks əlaqənin təmin edilməsidir. Birbaşa və əks əlaqənin ən məhsuldar formalarına aşağıdakıları aid etmək olar.

- kütləvi informasiya vasitələrinin köməyilə sorgular;
- lektoriyaların (qiraətxanaların), seminarların təşkili;
- radio və televiziyadan istifadə etməklə qaynar xətlərin formalaşması. İnternet şəbəkələri və ya sadəcə təşkilatçıların əlaqə telefonları;
- qanunverici icra hakimiyyəti orqanlarının nümayəndələri ilə, nüfuzlu alimlərlə, iş adamları ilə, televiziya aparıcıları ilə, jurnalistlərlə olan işçi qruplarının şəxsi təmaslarının təşkili;
- əhalinin müxtəlif qruplarının nümayəndələri ilə bilavasitə təmasların təşkili.

Məsləhət-metodik qrup təşkilatın işçilərinin kommunikativ səlahiyyətləri problemləri üzrə məsləhətləşmədən başlamış onun imicinin formalaşması üzrə metodikanın tərtib edilməsinə qədər müxtəlif növ məsləhətləşmələrin aparılması üçün yaradıla bilər.

Peşəkar təhsillə baglı vəzifələrin həll edilməsi üçün həmçinin *redaksiya-nəşriyyat qrupuna* malik olmaq lazımdır.

"Pablik rileyşnz" münasibətinə aiddir:

- nüfuzlu reklam;
- televiziya və radio müxbirlərini dəvət etməklə mətbuat konfransları;
- qeyri-kommersiya xarakterli məqalələr, televiziya və kino filmləri, radio verilişləri;
- müxtəlif yubiley tədbirləri;
- ticarət aparılan ölkənin xeyrinə müxtəlif ictimai və xeyriyyə fəaliyyəti;
- kitab çapı, texnika, iqtisadiyyat, incəsənət sferalarında sponsorluq, elmi-tədqiqat işlərinin, idman yarışlarının və s. maliyyələşdirilməsi;
- əməkdaşlar və vasitəçilər üçün qeyri-reklam nəşrləri;
- müəssisənin fəaliyyəti haqqında illik hesabatlar;
- müsbət imicin formalaşması;
- kütləvi informasiya vasitələrində rəylər.

Bu tədbirlərdən istifadə edərək məhsullar və onların alınması təbliğ olunmur, bu məhsulların insanların rifah halının yüksəldilməsi, əmək şəraitinin yüngülləşməsi izah olunur. Bununla belə göstərməyə cəhd edilir ki, bazarda çıxış edən korporasiya bu ölkənin "yaxşı vətəndaşıdır".

Müasir peşəkar biznesdə PR-in sürətlənməsi meyli dəqiq nəzərdən keçirilməlidir. Beləki, bilik səviyyəsində qabaqlama rəqabət mübarizəsində ciddi əsas dəlilə çevrilir. PR iqtisadi müdrikliyi reallaşdırmağa, müstəqil məsləhətçi qısmində ictimaiyyətdən istifadə edərək, cəmiyyətin tələbatları və bazarın dinamikası haqqında ictimaiyyətlə çoxcəhətli təmaslar vasitəsilə həqiqi informasiyanın vaxtında toplanmasında "ali təyyarəçilik məharəti" göstərməyə imkan verir. PR, beləliklə, rəqibləri qabaqlamağa və vaxt udmağa imkan verir. Bazarda vaxt amili isə çox vacibdir. Korporasiyanın yerinə yetirdiyi PR tədbirləri yalnız xarici mühitə yox, həm də "korporasiyanın daxilinə, yəni dostcasına işə təsir göstərən qeyri-formal atmosferin, əlverişli insani münasibətlərin formalaşması məqsədilə öz əməkdaşlarına yönəldilməlidir.

Eminov A.N.,
iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Turizm və Menecment Universiteti
Mirzəyev A.F.,
iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Turizm və Menecment Universiteti

SOSİAL İNVESTİSİYALARIN RENTABELLİK İNDEKSİ

İnvestisiya, makroiqtisadi baxımdan müəyyən mal və xidmətlərin istehsalına yönələn müəssisələr yaratmaq üzrə vəsait ayrılması, istehsal gücünə və kapital ehtiyyatına töhfə təmin edilməsidir. İnvestisiya, dövlət və özəl sektor investisiyaları olmaq üzrə ikiyə ayrılır. Bir ölkənin iqtisadi və sosial inkişaf etməsi üçün lazım olan ən önəmli faktor investisiyadır.

İnvestisiya fəaliyyətində investisiyalaışdırma vəsaitinin müxtəlifliyinin əsas səbəbi xüsusi investorların investisiyalaşdırma strategiyasına baxışın müxtəlifliyidir. İnvestisiyaların aşağıdakı növləri var:

- Təkrar investisiyalar;
- Birbaşa investisiyalar;
- Maliyyə investisiyaları;
- Riskli kapital investisiyaları;
- Uzunmüddətli investisiyalar;
- Qısamüddətli investisiyalar.

Formasına görə investisiyalar aşağıdakı kimi qruplaşdırılır:

- Maddi investisiyalar (torpaq, dəyişməz əmlak, avadanlıq)
- Qeyri-maddi investisiyalar (müəlliflik hüququ, lisenziya)

Sosial sferaya yatırım və ya sosial investisiya –sosial dəyərlərə malik obyektlərin gələcək gəlirinin artırılması və sosial effektin əldə edilməsi yolu ilə əhalinin rifah halının yüksəldilməsinin, onların tələbatının ödənilməsi üçün nəzərdə tutulan həddə maliy-

yələşdirilməsidir.

Sosial investisiya obyekti kimi bütün aktivləri gündəlik sosial həyatla əlaqədə olan, xüsusən o obyektlər ki, xidmətlər təklif edir: təmir, avtomobillərə və cihazlara xidmət, restoran və mehmanxana biznesi, ticarət sektoru , maliyyə xidmətləri sektoru, sağlamlıq, təhsil, mədəniyyət, idman, istirahət, nəqliyyat və bir çox başqaları çıxış edə bilər.

Sosial sahədə investisiya siyasətinin tənzimlənməsi üçün müxtəlif üsullar və mexanizmlər bir sıra müəlliflər tərəfindən nəzərdən keçirilmişdir. D.M.Keyns, L.Kruşvits, X.D.Kurs, C.Teylor, Y.Şarp və başqaları özlərinin bir sıra əsərlərində bu məsələni araşdırmışlar. Müəlliflərin gəldiyi nəticəyə görə investisiyalaşdırmanın ayrı-ayrı vasitələrindən səmərəli istifadə, hər bir ölkədə sosial xidmətlərin (sağlamlıq, təhsil, mədəniyyət və s.) xüsusiyyətləri diqqətlə nəzərə alınmalıdır.

Müxtəlif ölkələrdə iqtisadi sistemin sosial tərəqqi dərəcəsi eyni deyil. Sosial iqtisadiyyatın rəsmi statusunu Alman iqtisadi modeli təmsil edir. Onun əsas xüsusiyyəti-bazar münasibətlərinə qeyri-şərtsiz riayət edilməsi ilə dövlətin yüksək səviyyədə müdaxiləsidir. Bu tip iqtisadi sistemin əsasları Qərbi Avropanın demək olar ki, bütün ölkələrində formalaşmışdır. Tədqiqatda müəllif göstərir ki, sosial sferada aktiv investisiya siyasətinin formalaşması problemi sosial sferanın özündə və onun ayrı-ayrı sahələrində investorlar üçün maliyyələşdirmə xüsusiyyətləri və cəlbedicilik sahəsində mövcud olan problemlər kompleksi cəmmiyyət üçün sektorda istehsal olunan məhsulların, (xidmətlərin xarakteri ərazinin əhalisi üçün onların sosial dəyərləndirilməsindən birbaşa asılıdır.

Sosial sahələrin investisiya xüsusiyyətləri

Əslində sosial sahəyə sərmayə qoymaq həvəsində olanlar üçün müəyyən bölgələrin (rayonun, bölgənin, kəndin, icmanın və s.) cəlbediciliyi, ərazinin bütün iqtisadi sahələrinin nəzərdə tutulan tələblərə cavab verməsindən asılıdır. Dövlət və özəl sərmayələrin cəlb edilməsi üçün əlverişli şərait iki əsas sahəyə bölünən faktorlardan asılıdır:

1. Birinci qrup faktorlar ərazi əlamətləridir:
- İqtisadi-siyasi;
- Hüquqi;
- Ekoloji;
- İqlim;
- Müxtəlif növ resurslar;
- Demoqrafik vəziyyət;
2. Birbaşa investisiya obyektləri ilə əlaqəli və ya nöqtəvi amillər:
- İdarəetmə və marketinqin mövcudluğu və vəziyyəti;
- İnfrastrukturun mövcudluğu və səviyyəsi;
- Tərkibə daxil olan mövcud resurslar;
- Maliyyə və istehsal-texniki xarakteristikaların parametrləri.

Bu amillərin əlamətləri əlverişli investisiyaların göstəricilərinin indeksini hesablamağa imkan verir. Bölgədə siyasi və iqtisadi sabitliyin mövcudluğu, bu bölgədə sosial sahəyə sərmayə qoyuluşu üçün inanılmaz cəlbedici faktorudur. Ümumiyyətlə istər sosial sahələr, istərsə də digər sahələrin maliyyə vəsaitlərinin ayrılması üçün layihələrin icrasının bütün mərhələlərində diqqətli olmaq lazımdır. İnvestisiya layihələrinin uğurlu sona yetməsi və ya layihənin qəbul edilib edilməməsini araşdırmaq üçün

resursların qiymətləndirilməsi, rentabellik indeksi və s.kimi anlayışlar tətqiq edilməlidir.

İnvestisiya rentabellik indeksi (Profitability İndex, Pİ)

Rentabellik indeksləri (mənfəət gəlir) pul daxilolmalarının xalis cari dəyərinin, xərclərin xalis cari dəyərinə (ilkin investisiya daxil olmaqla) nisbəti kimi hesablanır:

$$\frac{\sum_k \frac{P_k}{(1+r)^k}}{İ_0} = Pİ \text{ və ya } \frac{\sum_{t=1}^{T}[C_t(1+i)]^{-t}}{İ_0} = Pİ \text{ [4]}$$

Burada $İ_0$ -o anında müəssisənin investisiyası; i-diskontlaşdırma dərəcəsidir. Rentabellik indeksi-investisiya layihəsinin səmərəliliyinin nisbi bir göstəricisidir və xərclərin vahidinə düşən gəlir səviyyəsini, yəni yatırımın səmərəliliyinin səviyyəsini xarakterizə edir. Bu göstəricinin qiyməti nə qədər böyük olarsa, xərc vahidinə düşən gəlir, layihə üçün daha yüksək olur. Bu göstərici NPV-nin ümumi dəyərini maksimuma çatdırmaq üçün investisiya portfelinin kompleksləşdirilməsində prioritet olmalıdır. Bu investisiya meyarı altında layihənin qəbul edilməsi aşağıdakı kimi şərtlənir:

- əgər Pİ>1 layihə qəbul edilir;
- əgər Pİ<1 layihə qəbul edilmir;
- əgər Pİ=1 layihə nə gəlirli, nə də itkidir.

Qeyd etmək lazımdır ki, eyni miqdarda ilkin sərmayə tələb edən layihələri qiymətləndirərkən Pİ meyarı NPV meyarına tamamilə uyğun gəlir.Beləliklə, Pİ kriteriyası eyni qiymətli NPV göstəricisinə, lakin müxtəlif həcmli investisiya tutulmasına malik olan layihələrdən birinin seçilməsi üçün üstünlüyə malikdir. Bu halda o investisiya sərfəlidir ki, bu investisiya yatırımın məhsuldarlığını təmin edir. Bu göstərici məhdud investisiya ehtiyyatları olan layihələri sıralamağa imkan verir. Üsulun mənfi cəhətləri, ayrı-ayrı pul vəsaitləri daxilolmalarını və xərclərini diskontlaşdırarkən baş verən qeyri-müəyyənliyə əsaslanır.

Daxili rentabellik norması (İnternal Rate of Return, İRR)

İnvestisiyanın daxili rentabellik norması və ya daxili gəlir norması dedikdə, investisiyanın diskontlaşdırma dərəcəsi nəzərdə tutulur və NPV=0 olması nəzərdə tutulur:

İRR=İ, harda ki, NPV=0

Bu əmsalın, planlaşdırılan investisiyanın effektivliyinin analizində, hesablanmasının mahiyyəti aşağıdakı kimidir: İRR bu layihəyə aid xərclərin icazə verilə bilən maksimum miqdarının nisbi səviyyəsini ifadə edir: məsələn, əgər layihə, kommersiya bankının tam şəkildə krediti hesabına maliyyələşdirildiyi təqdirdə, İRR dəyəri bankın faiz dərəcəsinin yuxarı həddini göstərir, bu da artıq layihənin itkili olduğunu göstərir.

Praktikada hər hansı bir şirkət öz fəaliyyətini müxtəlif mənbələrdən maliyyələşdirir. Müəssisənin fəaliyyətində avans resurslarının istifadəsi üçün ödəniş olaraq, faiz, dividentlər, haqlar və s.şəklində ödənilir, yəni iqtisadi potensialın təmin edilməsi üçün kifayət qədər xərclər təşkil edir. Bu gəlirlərin nisbi səviyyəsini xarakterizə edən göstərici ilkin kapitalın qiyməti (Capital cost, CC) adlandırıla bilər. Bu göstərici şirkətin fəaliyyətinə sərmayə yatırdığı kapitalın minimum gəlirini, onun rentabelliyini əks etdirir və ədədi ortanın hesablanması düsturu ilə hesablanır.

Bu göstəricinin iqtisadi mənası aşağıdakıları əhatə edir: müəssisə rentabelliyi CC göstəricisindən aşağı olmayan istənilən investisiya xarakterli layihənin qəbul edilməsi

ilə bağlı qərar qəbul edə bilər. Onunla konkret layihə üçün hesablanmış İRR göstəricisi müqaisə edilir, bunlar arasında əlaqələr aşağıdakı kimidir:

- əgər İRR>CC, layihə qəbul edilir;
- əgər İRR<CC, layihə geri qaytarılır;
- əgər İRR=CC layihə nə gəlirli nə də itkilidir.

Digər bir şərh isə, daxili gəlir normasının təsvirinin layihənin NPV norması əsasında səmərəli olması ilə bağlı mümkün diskont norması kimi təqdim edilməlidir. Qərar İRR-in rentabellik normativləri ilə müqaisəsi əsasında qəbul edilir; eyni zamanda daxili rentabellik dərəcəsi nə qədər yüksəkdirsə onun qiyməti ilə seçilmiş diskont dərəcəsi arasındakı fərqdə böyük olur ki, bu da layihənin böyük ehtiyyat gücə malik olmasını ifadə edir. Bu meyar investor tərəfindən investisiya meyarının qəbul edildiyi əsas meyarlardan biridir və bu digər meyarlardan asılı deyil. İRR-in diskontlaşdırma cədvəlini köməyi hesablamaq üçün $r<i_2$ diskontlaşdırma əmsalının iki qiyməti elə seçilir ki, $(i_1,.....,i_2)$ intervalında NPV =f(i) funksiyası öz işarəsini dəyişsin ya "+"-dən "-"-yə yaxud tərsinə "-"-dən "+"-ə. Sonra

$$İRR=T_1+\frac{f(r_1)}{f(r_1)-f(r_2)}*(r_2-r_1)$$

Düstürü tətbiq edilir. Burada r_1 diskontlaşdırma əmsalının $f(i_1)>0$ $(f(i_1)<0)$; r_2- isə diskontlaşdırma əmsalının elə qiymətidir ki, $f(i_1)<0$ $(f(i_2)<0)$ olur.

Hesablamanın dəqiqliyi $(i_1,.....,i_2)$ intervalının uzunluğu ilə tərs mütənasibdir, ən yaxşı yaxınlaşma i_1 və i_2 –nin bir-birinə yaxın yerləşməsi halında əldə edilir. İRR kəmiyyətinin dəqiq hesablanması yalnız hesablama texnikasının tətbiq edilməsi ilə həyata keçirilə bilər. Bir qayda olaraq, daxili dərəcəsinin hesablanması metodunun fərziyyəsi (daxili faiz dərəcəsinə görə yatırım) məqsədəuyğun saylmır. Buna görə də, daxili rentabellik normasının təyin edilməsi konkret ehtiyyat investisiya və yaxud şərtlərin digər modifikasiyası nəzərə alınmadan mütləq gəlirin qiymətləndirilməsinə tətbiq edilə bilməz, əgər kompleks investisiya həyata keçirilirsə, bununla birlikdə yenidən investisiyalaşdırma prosesindən istifadə edilməlidir. Bu cür investisiyalarda daxili mənfəət dərəcəsini müəyyənləşdirməklə əldə edilən nəticələrin təsvirinin mürəkkəbliyinə gətirib çıxara biləcək bir sıra müsbət və mənfi daxili faiz dərəcələrinin mövcudluğu problemi qarşıya çıxır. Yuxarıda göstərildiyi kimi nisbi qazancın qiymətləndirilməsi üçün daxili gəlir dərəcəsinin müəyyən edilməsi üsulu fərdi obyektlərin daxili faiz dərəcələrini müqaisə etməklə tətbiq edilməlidir. Bunun əvəzinə, fərqi müəyyənləşdirmək üçün investisiyanı təhlil etməliyik. Əgər investisiya səmərəliliyinin müqaisəsi üçün kompleks xarakter daşıyırsa, rentabelliyi müəyyənləşdirmək üsulunun tətbiqi məqsədəuyğun sayılmır.

Daxili rentabellik norması üsulunun xalis diskontlaşdırılmış gəlir metoduna nəzərən üstünlüyü onun interpretasiya imkanlarından asılıdır. O xərclənən kapitalın faizinin hesabanması ilə xarakterizə (xərclənən kapitalın rentabelliyi) edilir. Bununla yanaşı daxili faiz dərəcəsi xalis cari dəyər metodunun tətbiq edildiyi və "etibarlı məlumatların" fəaliyət göstərməməsi halında alternativ investisiyanın mütləq gəlirliyini müəyyənləşdirmək üçün kritik faiz dərəcəsi kimi qəbul edilə bilər. Beləliklə, bu üsulun

köməyi ilə investisiyanın qiymətləndirilməsi diskontlaşdırma dərəcəsinin maksimal dəyərinin müəyyənləşdirilməsi əsaslanır, hansı ki, layihə itgisiz qalır.

NPV, İRR və Pİ kriteriyaları investisiya analizində ən çox istifadə edilən meyarlardır və eyni konsepsiyanın həqiqətən fərqli versiyalarıdır, bu səbəbdən onların nəticələri bir-birinə aiddir.

Qeyd: İRR-in NPV ilə yalnız bir fərqi olan düsturu var: NPV-ni hesablayarkən siz gözlənilən rentabelliyi-diskont dərəcəsini bilir və gələcək nəğd pul axınının bu günün pulu ilə nə dəyərə malik olduğunu təyin edirsiniz. İRR-la isə xalis cari dəyəri başlanğıc olaraq sıfır edib faktiki rentabellik tarifini almaq üçün bərabərliyi həll edirsiniz. Beləliklə, hər bir layihə üçün aşağıdakı riyazi əlaqələrin ödənilməsini gözləmək olar:

- əgər NPV>0, onda İRR>CC(r); Pİ>1;
- əgər NPV<0, onda İRR<CC(r); Pİ<1;
- əgər NPV=0, onda İRR=CC(r); Pİ-1.

Bəzi qeyri-standart situasiyalarda tətbiq olunan İRR üsulunu korrektə edən üsul mövcuddur. Bu metodlardan biri modifikasiya edilmiş daxili rentabellik (MİRR) normasıdır.(Motified İnternal Rate of Return, MİRR).

Modifikasiya edilmiş gəlir dərəcəsi (MİRR) imkan verir ki, pul vəsaitinin dəfələrlə çıxarılması halında ortaya çıxan, layihənin daxili rentabellik normasındakı əhəmiyyətli çatışmamazlıqları aradan qaldırmağa imkan verir. Belə bir təkrar çıxarılmanın nümunəsi bir neçə il icra edilən daşınmaz əmlak obyektinin tikilməsidir. Metodun əsas fərqi, yenidən maliyyələşdirmənin risksizlik dərəcəsi ilə həyata keçirilməsidir, hansı ki bu kəmiyyət maliyyə bazarının təhlili əsasında həyata keçirilir.

Azərbaycan təcrübəsində bu Azərbaycan əmanət bankının təklif etdiyi müddətli təcili valyuta əmanətinin gəliri ola bilər. Xüsusi vəziyyətdə analitik risksizlik dərəcəsini özü fərdi qaydada təyin edir, lakin bir qayda olaraq onun səviyyəsi nisbətən azdır.

Beləliklə, xərclərin risksiz dərəcə ilə diskontlaşdırılması imkan verir ki, onun cəm halda cari dəyərini hesablamaq olsun, hansı ki, bu kəmiyyət investisiyanın gəlirlilik səviyyəsinin daha obyektiv qiymətləndirilməsinə imkan verir və qeyri-adi (yersiz) pul vəsaitlərinin hərəkəti ilə investisiya qərarlarının qəbul edilməsinə şərait yaradır.

Sosial məsuliyyətli investisiya layihələrinin qiymətləndirilməsi üçün alqoritm (layihənin bütün faydaları cəmiyyət üçün faydalıdır)

Bu tip investisiya layihələrinin qiymətləndirilməsinə hazırlıq da Şəkil 1-də göstərildiyi kimi 3 mərhələdə də aparılmalıdır.



Şəkil 1: Sosial yönümlü investisiya layihələrinin qiymətləndirilməsinə hazırlıq.

Qiymətləndirmə proseduru:

- Layihələrin müəyyən meyarlara uyğun seçilməsi;
- Ölçülərin dəyişdirilmiş bir sistemindən istifadə edərək layihələrin qiymətləndirilməsi;

Məsələn: sistematik bir sıra sosial göstəricilər;

- Layihənin səmərəliliyinin hesablanması zamanı layihənin ümumi sosial yönümünü nəzərə almaq lazımdır ki, bu da kommersiya faydalarını istisna etmir.

Sosial məsuliyyətli investisiyaların qiymətləndirilməsi üçün dəyişdirilmiş bir sistem yaratdıqda, xərc-fayda analiz metoduna əsaslanmalı, çünki bu yanaşma, inkişaf etməkdə olan açıqlama standartlarının tətbiqi şəraitində mümkün və ən rasional olaraq pul məbləğində faydaların hesablanmasına imkan verir:

$$NB = \sum_{t=0}^{n} \frac{B_t - C_t}{(1+d)^t}$$

Barada,
NB - xalis gəlirlər;
Tt -vaxtında tövsiyələr;
Ct -zaman t dəyəri;
d -sosial diskont dərəcəsi.

Гусейнова Ш.А.,доцент
Гусейнова В.А.,
доктор философии по экономике
Азербайджанский Государственный
Экономический Университет (UNEC)

ЭКОНОМИЧЕСКАЯ ПОЛИТИКА ГОСУДАРСТВА КАК СТАБИЛЬНОСТЬ И ДИНАМИЧНОСТЬ РАЗВИТИЯ ЭКОНОМИКИ

Экономическая политика государства, призванная обеспечить стабильное и динамичное развитие, играет важную роль в макроэкономическом процессе, наряду с объективными законами экономики. Все ресурсы, имеющиеся в распоряжении государственных структур, должны быть направлены на обеспечение стабильного развития экономики. Вся, собранная государственными структурами экономическая информация, предоставляет возможность эффективного распределения ресурсов с целью обеспечения сбалансированного развития. Этому способствуют и подготовленные целевые программы, призванные устранить имеющиеся диспропорции в структуре производства и размещения производительных сил.

Согласно распоряжению Президента Азербайджана об утверждении «Главных направлений стратегической дорожной карты национальной экономики и основных секторов экономики» и вытекающих из этого вопросах от 16 марта 2016 года были утверждены стратегические дорожные карты: по перспективе национальной экономики Азербайджана; по развитию нефтяной и газовой про-

мышленности (включая химическую продукцию) Азербайджана; по производству и переработке сельскохозяйственной продукции в Азербайджане и т.д..

Целевые программы финансируются за счет государства. Они представляют собой периодически принимаемые комплексы мер, целью которых является создание благоприятных условий для развития предпринимательства в регионах. Тем самым целевые программы способствуют выявлению оптимальных пропорций между центром и регионами. Независимо от того, где размещены хозяйственные субъекты, преодоление различий между их экономическими возможностями, создает благоприятные условия для рационального использования ресурсов (эти различия между хозяйственными субъектами проявляются в использовании различной техники и технологий, квалифицированных кадров). Без устойчивого развития во всех сферах экономики, без роста эффективного использования производственного потенциала невозможно добиться прогресса в экономической и социальной сфере. Несмотря на то, что имеются различные подходы к определению стабильной и динамично развивающейся экономики, существует один общий критерий – улучшение социальных аспектов жизни населения. Для решения этих проблем была принята «Государственная программа социально – экономического развития регионов Азербайджанской Республики на 2004–2008, 2009–2013 и 2014–2018 гг.», целью которой являлось и является ускорение социально-экономического развития регионов.

За последние годы уровень безработицы в Азербайджане заметно снизился. С 5,6% в 2010 году уровень безработицы снизился до 4,9% в 2015. То есть за 5 лет уровень безработицы в Азербайджане снизился на 0,7%.

Учитывая, что естественный уровень безработицы в экономически развитых странах колеблется в пределах 5-6%, то данные показатели свидетельствуют об экономической стабильности в стране. Объем инвестиций, вложенных в экономику страны за последние 10 лет, составил $132 млрд., создано свыше 1,2 млн. рабочих мест, уровень бедности снизился с 45% до 5,3%, доход населения вырос в 6,5 раз.

Для снижения уровня безработицы государством была разработана Стратегия Занятости (2006-2015 годы), а также ряд программ по реализации данной стратегии (2007-2010 годы); (2011-2015 гг.). Основной целью Стратегии Занятости в 2006-2015 годах в Азербайджанской Республике являлось обеспечение рациональной занятости населения при условии более полного использования трудовых ресурсов.

В результате реализации данной стратегии в стране значительно снизился уровень безработицы (в 2015 году безработица достигла наименьшей отметки в 4,9%); успешно реализованы мероприятия в области усиления социальной защиты безработных, социально уязвимых групп населения, а также создания благоприятных условий для совершенствования рынка труда, улучшения качества трудовых ресурсов и повышения конкурентоспособности.

В 2016 году положение несколько изменилось. Уровень безработицы в стране после продолжительного снижения вновь стал расти. Подобные изменения стали заметны уже во втором полугодии 2015 года. Если на 1 января 2015 года официальное число безработных в стране составляло 28690 человек, то на 1

декабря того же года это число достигло 29000 человек. Таким образом, за 2015 год число безработных в стране увеличилось на 310 человек. Возможно, эта разница не так значительна, так как в конечном итоге на общем уровне это не отразилось, но если это число понемногу, но с каждый разом растет, то это дает повод для волнений.

Как видно, с 2010 по 2015 годы численность безработных постоянно снижалась, ВВП на душу населения вырос, соответственно уровень бедности снижался. К концу 2015 года положение стало ухудшаться, в 2016 году число безработных резко увеличилось, что повлекло за собой снижение ВВП до уровня 5111,6 манат.

Следовательно, в стране повысился уровень бедности и уровень безработицы. Чтобы не допустить высокого уровня бедности, нужно принимать меры по уменьшению уровня безработицы – создание новых рабочих мест, создание трудовых бирж, повышение квалификации работников, проведение стабилизационной политики.

Таблица 1.

Динамика численности безработных и ВВП на душу населения

Годы	**2010**	**2011**	**2012**	**2013**	**2014**	**2015**	**2016**
Общая численность безработных,чел	2605000	250900	245500	241000	236600	235000	262700
ВВП на душу населения,ман.	4653,3	5530,6	5884,5	6207,3	6264,1	5703,7	5111,6

По данным на 1 декабря 2015 года численность экономически активного населения составила 4 миллиона 907,8 тысячи человек, из них 4 миллиона 672,8 тысячи человек составило население, занимающееся экономической трудовой деятельностью. Официальный статус безработных имело 29 тысяч человек, из которых 38,6% составляли женщины и 61,4%- мужчины. Средняя сумма пособия по безработице составляла 268,5 манатов. Уровень безработицы на конец 2015 года составил 4,9%.

Тем самым можно констатировать, что за приблизительно 15 лет, проведенные социально-экономические реформы обеспечили динамическое развитие экономики и решили многие серьезные проблемы. Необходимо заметить, что, в первые годы переходного периода безработные, относящиеся к категории бедного населения, составляли половину трудоспособного населения страны.

Проводимые экономические реформы привели к расширению сферы предпринимательской деятельности и увеличению количества людей, задействованных в ней. В настоящее время численность налогоплательщиков в этой сфере достигла 410 тыс., из которых 60 тыс. являются юридическими лицами. Развитие предпринимательства, наряду с ростом доходов предпринимателей, приводит и к расширению экономических возможностей государства. Государство за счет своих улучшенных экономических возможностей, смогло в разы увеличить зарплату работникам, финансируемым из госбюджета, повысив уровень их благосостояния.

Надо отметить, что мировая экономика отличается нестабильностью. Так, меры, направленные на ее устранение в нашей стране, призваны обеспечить устойчивое развитие экономики. Комплекс мероприятий, проводимых в период независимости, их эффективность определяется обеспечением не частичной, а долгосрочной макроэкономической стабильности. Макроэкономическая и, являющаяся ее составной частью, финансовая стабильность выступают важным условием развитию стабильной экономики. Одной из важных черт формирования рыночной экономики является ее многоукладность, возникающая на основе реализации отношений различных форм собственности. Естественно, что в странах с развивающей экономикой по сравнению со странами с развитой рыночной экономикой, обеспечение стабильного экономического роста имеет определенные особенности. Страны с развитой рыночной экономикой подчинены объективному процессу развития на основе законов рынка. Принцип «невидимой руки», действующий в классической рыночной экономике, приводил к достижению максимальной эффективности производства. При этом реализовывался механизм автоматического регулирования экономической системы путем формирования цен на ресурсы. В случаях же, когда применение классической теории не давало желаемого эффекта, использовались кейнсианские и неокейнсианские теоретические постулаты. Посредством активного применения экономико-административных методов государственного регулирования экономики, можно было устранить несоответствия в экономическом развитии, и обеспечить стабильное и динамичное развитие экономики. Если отдельные положения этих теорий не давали желаемых результатов, тогда приоритетной становилась теория неоклассического синтеза. Однако, в последние годы, в условиях мирового экономического кризиса ни одна экономическая теория не смогла показать пути выхода из кризиса. Именно поэтому есть основания считать данный период кризисом как экономической науки в целом, так и экономической теории в частности.

Что касается Азербайджана, то проф. М.Ахмедов верно отмечает, что «в странах с переходной экономикой от административно-командной к рыночной, применение идей неолиберализма творца «немецкого чуда» Л.Эрхардта крайне важны. Отдельные положения его теории имеют большое значение и для Азербайджана».

В обеспечении стабильного и динамичного развития значительную роль играет эффективное включение субъектов национального хозяйства в мировой рынок с возможностью получения выгоды от этого. Так, например, Закон Азербайджанской Республики от 13 июня 2008 года №650-IIIГ Об экологически чистом сельском хозяйстве будет способствовать регулированию отношений, связанные с производством, переработкой и оборотом экологически чистых сельскохозяйственных и продовольственных товаров, обеспечивающих здоровье и безопасность населения, земли, воды, растений и животных Азербайджанской Республики.

Таким образом, постепенная стабилизация внутреннего рынка за счет национального производства, поступательное ограничение господства импорта создали благоприятные условия для привлечения национальных ресурсов в хозяйственный оборот.

Məmmədova A.İ.,
fizika-riyaziyyat elmləri namizədi, dosent
Azərbaycan Dövlət İqtisad Universiteti,
Cəfərli R.S., doktorant
Bakı Biznes Universiteti

İNSAN KAPİTALININ İNKİŞAF İSTİQAMƏTLƏRİ

Cəmiyyətdəki hər bir şey yaradıldığı gündən bir varlığa xidmət edir, onun arzu və məqsədləri üçün bir vasitə kimi istifadə edilir. Bu varlıq insan amilidir. Bəli, insan..O insan ki, ibtidai icma quruluşu kimi sadə bir dövrdən müasir texnologiyalar cəmiyyəti kimi mürəkkəb bir dövrə qədər keşməkeşli, çətin və uzun yol keçmişdir.

Dövlətlərin də inkişaf etməsi, onların insanlarının yaxşı həyat tərzi sürməsi də, məhz, insan amilindən asılıdır. Ümumiyyətlə qiymətləndirdikdə, bu dövrlər ərzində insanın bu yoldan üzüağ çıxdığını deyə bilərik. Çünki, insan Yer səthinin ən dərin qatlarından tutmuş, bütün yer üzərindəki təbii proseslərin demək olar ki, əksəriyyətini öyrənmiş, hətta, onların bəzilərinin süni variantını da hazırlamışdır. Əvvəlcə onu qeyd edək ki, kapitallar sistemində formalaşan və kapitallar kapitalı olan insan kapitalı - təhsilə və ixtisaslı hazırlığa qoyulmuş kapital sayəsində toplanılmış texniki bilik və bacarıqlar ehtiyyatının rolu, əhəmiyyəti, reallaşdırılması istiqamətlərinin dərindən öyrənilməsi müasir dünyada və ölkəmizdə xüsusi aktuallıq və böyük sosial-iqtisadi əhəmiyyət kəsb edir.

Kapitalın təkrar istehsalı prosesində onun tərkib hissələri olan istehsal vasitələrini hərəkətə gətirib öz dəyərindən əlavə dəyər istehsal edən, dəyərini artıran, onun işçi qüvvəsinin daşıyıcısı olan insan da kapitaldır və iqtisadi ədəbiyyatda bu insan kapitalı adlanır. Bu prosesi daha intensiv davam etdirmək və özünün dəyərindən əvvəlki istehsal prosesindən daha artıq dəyər yaratmaq üçün təhsilə və ixtisaslı hazırlığa qoyulan kapital sayəsində işçi qüvvəsində toplanmış texniki bilik və bacarıqlar ehtiyyatı daha davamlı artırılmalıdır. Çünki, daha çox toplanmış texniki bilik və bacarıqlar ehtiyyatı daha çox məhsul və dəyər istehsal etməyə, istehsalı yeniləşdirməyə, elm və texnikanın nailiyyəti əsasında texnologiyaların tətbiqini sürətləndirməyə əlverişli şərait yaradır. Ona görə də bu məsələ həmişə aktual problem kimi qarşıya qoyulur və reallaşdırılır. Bunu xüsusilə nəzərə çatdırmaq lazımdır ki, ölkənin və bütövlükdə cəmiyyətin inkişaf səviyyəsini və iqtisadi tərəqqisini dövlətin malik olduğu təbii sərvətlərindən daha çox onun təhsilinin, elminin inkişaf səviyyəsi müəyyən edir. Müasir dövrdə bu mühüm sosial-iqtisadi məsələnin həlli ön plana keçir və xüsusi aktuallıq kəsb edir. Çünki, elmi-texniki tərəqqinin və elmi-texniki inqilabın nəticələri, əhalinin bilik səviyyəsi, onların texniki bilik və bacarıqlara yiyələnməsi, əhalinin həyat səviyyəsinin yüksəldilməsinin və bütövlükdə ölkənin sosial-iqtisadi inkişafının başlıca və əsas təminatçısı kimi çıxış edir. Bütün bunlar insan vasitəsilə və insan fəaliyyəti ilə reallaşdırıldığına görə insanın özünün texniki bilik və bacarıqlar ehtiyyatının formalaşmasına xüsusi diqqət yetirilməli, onun təhsil alması və ixtisas hazırlığı üçün dövlət tərəfindən, habelə bütün mənbələrdən ayrılmış vəsaitin - kapitalın, insan kapitalının həcmi və kəmiyyəti daim çoxaldılmalıdır. İqtisadi artım üçün elə bir dövr gəlib çatmışdır ki, bütün kapital,

investisiya qoyuluşlarından istifadənin önündə, onlardan istifadədə insan kapitalı başlıca yer tutmalıdır. Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev demişdir: "Azərbaycan çox zəngin ölkədir. Bizim çox zəngin sərvətimiz vardır. Ancaq bizim ən böyük resursumuz insanların biliyidir, savadıdır. Öz imkanlarımızdan səmərəli istifadə edərək, maddi kapitalı insan kapitalına çevirməliyik və bunu edirik". Buna görə də təsadüfi deyildir ki, bizim ölkəmizdə, habelə dünyanın bütün qabaqcıl ölkələrində təhsil və elm sahəsindəki problemlərin həllinə, onların reallaşdırılmasına getdikcə daha çox əhəmiyyət verilir və dövlətin prioritet siyasətinin basilca istiqamətlərindən birinə çevrilir.

Dövlət başçısının nəzərdə tutduğu və irəli sürdüyü bu strategiya insanların yaradıcı düşünməsinə, istedadlarını inkişaf etdirməyə əlverişli şərait yaratmışdır. Dünya təcrübəsi sübut edir ki, insanın inkişafında əsas ağırlıq elm və təhsilin, ixtisaslı hazırlığın üzərinə düşür və vacib amillərlə bağlıdır.

İnsan kapitalı - təhsilə və ixtisaslı hazırlığa qoyulmuş kapital texniki bilik və bacarıqlar ehtiyyatı formalaşdırılmasını nəzərdə tutur. Onun sayəsində zənginləşmiş işçi qüvvəsi isə adi, ixtisas və təhsil almamış işçi qüvvəsinə nisbətən elmi-texniki tərəqqini daha sürətlə inkişaf etdirir, onun nailiyyətlərindən bacarıqla və səriştəli istifadə edir, nəticə etibarilə daha çox mənfəət, gəlir və məhsul yaradır, əhalinin daha firavan yaşamasına maddi imkan formalaşdrır. İxtisaslı hazırlığa qoyulmuş kapital müəyyən əmək sahəsində səriştə və təcrübəyə malik inkişaf etmiş, həm də spesifiklik kəsb etmiş işçi qüvvəsidir ki, insanın buna malik olması üçün ona müəyyən təhsil və ya xüsusi hazırlıq verilməlidir, bunun üçün isə kapital qoyulmalıdır. Xüsusi hazırlıq, təhsil tələb edən ixtisaslı əmək adi işçi qüvvəsinə nisbətən daha çox məsrəf tələb edən, istehsalına daha çox iş vaxtı sərf olunan və buna görə dəyəri daha yüksək olan işçi qüvvəsinin təzahürüdür. Həm də ona görə belə kapitala insan kapitalı deyilir ki, təhsilə və ixtisas hazırlığına qoyulmuş kapital sayəsində işçi qüvvəsində toplanmış texniki biliklər və bacarıqlar ehtiyyatı, işçi qüvvəsi, onun sahibi insan tərəfindən ona sərf edilmiş kapitalın dəyərindən daha çox dəyər yaradır, elmi-texnikanı inkişaf etdirir, ondan səmərəli istifadə edir, cəmiyyət üçün tələb olunan səviyyədə insan tərbiyə edir, deməli, bütün növ kapitallar kimi, insan kapitalı da məqsədli səciyyə daşıyır.

Bunun sayəsində insan kapitalı əmək amilinin yeni iqtisadi formasını meydana çıxarır, onun inkişafını və formalaşmasını təmin edir. İnsan kapitalı işçi qüvvəsində texniki bilik və bacarıq ehtiyatının toplanmasını ifadə edir. Çünki bunsuz işçi qüvvəsi müasir elmi-texniki inqilab və elmi-texniki şəraitdə fəaliyyət göstərə bilməz. Məhz insan kapitalı öz mahiyyəti etibarilə insanda texniki biliklərin və bacarıqların artması sayəsində mövcud ehtiyyatlardan daha faydalı istifadəni, hətta istehsal imkanlarının məhdudluğu şəraitində daha yüksək nəticələrə nail olunmasını şərtləndirir. İnsan kapitalı iqtisadi imkanlara deyil, əqli imkanlara görə daha çox məhsul və nemət istehsal etməyə imkan verir. Amerika Birləşmiş Ştatlarının məşhur iqtisadçı alimləri Paul.A.Samuelson və Vilyam D.Nordahus özlərinin "İqtisadiyyat" dərsliyində insan kapitalını "təhsil və ixtisaslı hazırlığa qoyulmuş kapital sayəsində işçi qüvvəsində toplanılmış texniki bilik və bacarıqlar ehtiyyatı" kimi qiymətləndirmişlər. Bununla yanaşı, həmin ölkənin Haarvard Universitetinin professoru N.Qreqori Menkyu "İqtisadiyyatın əsasları" dərsliyində insan kapitalını "Təhsil və iş zamanı əldə edilən biliklər formalaşmasında insanda toplanmış investisiyalar" kimi dəyərləndirmişdir. Fikrimizcə,

insan kapitalına verilən bu iki tərif məzmun və mahiyyətcə bir-birini tamamlasa da "İqtisadiyyat" dərsliyindəki fikirlər tutumlu, zəngin və dolğundur. Mühüm sosial-iqtisadi, mənəvi və hətta siyasi əhəmiyyəti olan insan kapitalının normal olaraq reallaşdırılması və gerçəkləşməsi aşağıdakı istiqamətlər vasitəsilə təmin olunur:

- təhsilə kapital qoyuluşu vasitəsilə;
- ixtisaslı hazırlığa kapital qoyuluşu vasitəsilə;
- nəhayət, elmə kapital qoyuluşu vasitəsilə.

Son illərdə ölkəmizdə insan kapitalının reallaşması istiqamətində xeyli iş görülmüş, xüsusilə peşəkar kadrların hazırlanmasına, təhsilin inkişafına, bu sahəyə ayrılan büdcə vəsaitinin ildən-ilə çoxalmasına, təhsil işçilərinin sosial məsələlərinin həllinə, tələbələrin təqaüdlərinin artırılmasına, istedadlı tələbələrin xarici ali məktəblərə qəbuluna, təhsil işçilərinin peşəkarlıq səviyyəsinin yüksəldilməsinə xüsusi diqqət yetirilmişdir.

Uzun illərin təcrübəsi göstərir ki, elm və təhsil hər bir dövlətin davamlı sosial-iqtisadi və mədəni yüksəlişində mühüm rol oynayır. Təsadüfi deyildir ki, yeni dövrün tələblərinə cavab verən fəal maarifçilik kursunun həyata keçirilməsi, mütərəqqi yeniliklərin tətbiq olunması yolu ilə milli təhsil sisteminin müasirləşdirilməsi, bir ictimai-iqtisadi formasiyadan digərinə keçid mərhələsində bu sahədə özünü göstərən obyektiv problemlərin aradan qaldırılması son 20 ildə Azərbaycanda reallaşdırılan dövlət siyasətinin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Ümummilli lider Heydər Əliyev elmin, təhsilin inkişafına milli dövlət quruculuğu prosesinin zəruri əsası kimi yanaşmış, xalqın intellektual səviyyəsinin yüksəlməsini vacib vəzifələrdən biri hesab etmişdir

Ölkəmizdə davamlı sosial-iqtisadi inkişafın təmin edilməsi Azərbaycan hökumətinin qarşıya qoyduğu və çox böyük müvəffəqiyyətlə həyata keçirdiyi mühüm prioritetlərdən biridir. Bəlli olduğu kimi, bu ölkə iqtisadiyyatının hərtərəfli, şaxələndirilmiş şəkildə inkişafını nəzərdə tutur. Burada neft sektorundan əldə edilən gəlirlər hesabına qeyri-neft sektoruna böyük sərmayələrin yatırılması, beləliklə də, ölkə iqtisadiyyatının müxtəlif sahələrinin davamlı şəkildə inkişaf etdirilməsi başlıca hədəf kimi götürülür.

Bu baxımdan, bilavasitə, prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə regionların davamlı sosial-iqtisadi inkişafının təmin edilməsi ilə bağlı hazırlanan və müvəffəqiyyətlə həyata keçirilən dövlət proqramları olduqca təqdirəlayiqdir. Bütün incəliklərinə görə, yüksək dəqiqliklə işlənib hazırlanan, məntiqi ardıcıllıqla biri digərini tamamlayan bu proqramlar əhalinin yüksək iqtisadi fəallığını stimullaşdırır, bölgələrdə yaşayış səviyyəsinin əhəmiyyətli dərəcədə yaxşılaşmasına, Azərbaycanın regionlarının hərtərəfli tərəqqisinə yol açır.

Prinsip etibarı ilə, ölkə regionlarının davamlı, sürətli inkişafının reallaşması təkcə iqtisadi deyil, həm də mənəvi məsələdir. Başqa sözlə, burada insan amili öz həlledici təsirini göstərir, insanların sosial-iqtisadi fəallığı və təşəbbüskarlığı mühüm rol oynayır. Müvafiq məqamlar regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilən hər iki Dövlət Proqramında ciddi nəzərə alınıb. Burada bölgələrdə işgüzar sahibkarlıq təşəbbüslərinin yüksək səviyyədə dəstəklənməsi, regionlarda ən yeni texnologiyalara söykənən aqrar-sənaye komplekslərinin yaradılması, yüngül sənayenin, qida sənayesinin inkişaf etdirilməsi, yoxsulluğun, işsizliyin tam aradan qaldırılması, əhalinin yüksək məşğulluğun təmin edilməsi nəzərdə tutulub.

Bu baxımdan, Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər)" icrasında hər bir bölgənin özünəməxsusluğuna, regionların sosial-iqtisadi inkişaf potensialını şərtləndirən mühüm meyar kimi insan amilinə xüsusi diqqət yetirilib. Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın gerçəkləşməsində də, insan amili xüsusi olaraq, önə çəkilir. Burada insanların iqtisadi təşəbbüslərinin – insan kapitalı amilinin adekvat şəkildə qiymətləndirilməsinə böyük diqqət yetirilir. Belə ki, regionların sosial-iqtisadi inkişafını şərtləndirən mühüm meyarlardan biri insan kapitalının əhəmiyyətinin lazımi şəkildə dəyərləndirilməsidir.

Ümumilikdə, regionların sosial-iqtisadi inkişafı ilə bağlı birinci Dövlət Proqramının uğurla həyata keçirilməsi nəticəsində ölkədə makroiqtisadi göstəricilər əhəmiyyətli dərəcədə yüksəlib. Bölgələrdə yüz minlərlə yeni iş yerlərinin açılması, yüzlərlə müasir, abad təhsil müəssisələrinin, məktəblərin inşa edilməsi, elm, təhsil sahəsində həyata keçirilən islahatlar hər bir vətəndaşın sosial rifahının təmininə yönəlib.

Regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş və həyata keçirilən ikinci Dövlət Proqramı ölkədə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsinə, iqtisadiyyatın diversifikasiyasına, tarazlı regional və davamlı sosial-iqtisadi inkişafa, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına nail olmaq məqsədi daşıyır. Bu proqram ölkə regionlarının inkişafı sahəsində əldə olunmuş nailiyyətlərin daha da möhkəmləndirilməsini, başlanmış mütərəqqi inkişaf tədbirlərinin 2009-2020-cü illərdə də davam etdirilməsini nəzərdə tutur. Yeni Dövlət Proqramı mühüm prioritet kimi, Bakı şəhəri və onun ətraf qəsəbələrinin sosial-iqtisadi inkişafına yönəldilmiş tədbirləri özündə əks etdirir.

Hazırda ölkəmizin davamlı inkişaf sahəsində əldə etdiyi böyük uğurlar inkişafın Azərbaycan modelindən danışmağa imkan verir. Davamlı, dinamik inkişaf məntiqinə əsaslanan bu modelin strateji istiqamətləri aşağıdakı kimi səciyyələndirilə bilər:

1) sərbəst bazar münasibətlərinə əsaslanan, sosialyönümlü bütöv iqtisadi sistemin - müstəqil milli iqtisadiyyatın formalaşdırılması;

2) ölkədə mövcud olan təbii-iqtisadi, texniki-istehsal və elmi-texniki potensialın fəal surətdə təsərrüfat dövriyyəsinə cəlb olunması;

3) milli iqtisadiyyatın dünya təsərrüfat sisteminə səmərəli şəkildə inteqrasiyası.

Bu model hazırda Azərbaycan iqtisadiyyatının davamlı, sürəkli və sürətli inkişafının əsasını təşkil edir. Burada prioritet sahələr üzrə iqtisadi siyasətin həyata keçirilmə taktikasının fərqləndirici xüsusiyyətlərini - göstərilən istiqamətlərin hər biri üzrə fəaliyyətin paralel şəkildə həyata keçirilən əlaqələndirilmiş proqramlar üzrə aparılması olduqca önəmlidir. Belə olan halda qeyri-standart, lakin iqtisadi inkişafın obyektiv qanuna uyğunluqlarını nəzərə alan, gələcəyə hesablanan və cəsarətli qərarların qəbul olunması olduqca vacibdir. Müvafiq qərarların qəbulu prosesində sosialyönümlülüyün gözlənilməsi, milli mentalitetin nəzərə alınması, mütərəqqi dünya təcrübəsinə arxalanma mütərəqqi meyarlar kimi bir-birini tamamlayır.

Məlum olduğu kimi, prezident İlham Əliyevin “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsinin başlıca istiqamətləri”nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında” 2016-cı il 16 mart tarixli sərəncamına müvafiq olaraq milli iqtisadiyyat və iqtisadiyyatın 11 sektoru üzrə ümumilikdə 12 strateji yol xəritəsi hazırlanmışdır. Milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi qısa,

orta və uzunmüddətli dövrləri əhatə etməklə 2010-cu ilədək iqtisadi inkişaf strategiyası və tədbirlər planı, 2015-ci ilədək olan dövr üçün uzunmüddətli baxış və 2015-ci ildən sonrası dövrləri əhatə edən hədəf baxışdan ibarətdir.

Strateji Yol Xəritəsində hədəflənən istiqamətlərdən biri də insan kapitalının inkişaf etdirilməsidir. Bu da səbəbsiz deyil. Çünki insan kapitalı əmək məhsuldarlığının artırılmasında, dayanıqlı iqtisadi inkişafda, istehsal və xidmət sektorlarının rəqabətqabiliyyətinin yüksəlməsində, eləcə də ölkənin qlobal bazarlara inteqrasiyasında mühüm rol oynayır. Buna nail olmaq üçün ilk növbədə təhsilin bütün pillələrində keyfiyyətin yüksəldilməsi, təlimlər vasitəsilə işçilərin bilik və bacarıqlarının inkişafında fasiləsizliyin təmin edilməsi, ixtisaslı kadr hazırlığının əmək bazarının tələblərinə uyğunlaşdırılması, şirkətlərin araşdırma və təkmilləşdirmə sahəsinə sərmayə qoyuluşunun stimullaşdırılması, mövcud insan kapitalından səmərəli istifadə edilməsi tələb olunur. Sözügedən sənəddə bildirilir ki, bunları əsas tutaraq Azərbaycanda iqtisadiyyatın transformasiyası istiqamətində həyata keçiriləcək islahatların ayrılmaz tərkib hissəsi kimi insan kapitalının inkişafında fasiləsizliyin təmin edilməsi, əmək məhsuldarlığının yüksəldilməsi və bütün iqtisadi inkişafda rolunun artırılması ilə bağlı tədbirlər hərtərəfli dəstəklənəcək. Bu, iki səviyyədə (birincisi, insan kapitalının formalaşması və inkişafı üçün təhsilin bütün pillələrində keyfiyyətin yüksəldilməsi, ikincisi, əmək məhsuldarlığının yüksəldilməsini təmin etmək üçün insan kapitalının fasiləsiz inkişafının, araşdırma və təkmilləşdirmə sahəsinə investisiya qoyuluşunun stimullaşdırılması) təmin ediləcək.

Dünya İqtisadi Forumunun 2015-ci il üçün açıqladığı "İnsan kapitalının indeksi" hesabatında Azərbaycan 124 ölkə arasında orta sıralarda (63-cü yerdə) qərarlaşmaqla Türkiyə, Çin, İndoneziya və Küveyt kimi ölkələri qabaqlamışdır. Təşkilatın 2016-2017-ci illər üçün açıqladığı Qlobal Rəqabətlilik Hesabatında isə ölkəmiz 138 ölkə arasında 37-ci olmuşdur. Bu, Azərbaycanın formalaşmış insan kapitalına və rəqabət qabiliyyətini yüksəltmək imkanlarına malik olduğunu göstərir. Həmin imkanlardan səmərəli istifadə etməklə qısa və orta müddətli perspektivdə ölkəmizdə insan kapitalını daha da inkişaf etdirmək və rəqabət qabiliyyətini artırmaq mümkündür. Sənəddə bildirilir ki, bunun üçün insan potensialının inkişaf etdirilməsi, insan kapitalının keyfiyyətinin və əmək məhsuldarlığının yüksəldilməsi ilə bağlı məsələlərə xüsusi diqqət veriləcək, institusional və biznes mühiti daha da yaxşılaşdırılacaq. Bunlardan əlavə, infrastruktur yaradılacaq, təhsil-təlim prosesi və ixtisaslı kadr hazırlığının, əmək bazarı və biznes sektoru arasında koordinasiyanın səmərəliliyi artırılacaq, innovasiyaya meyilli (elm və texnologiya tutumlu) istehsal (xidmət) sektorunun investisiya cəlbediciliyi artırılacaq, klaster yaratmaq təşəbbüsləri dəstəklənəcək və əmək məhsuldarlığının yüksəldilməsi üzrə əsas prioritet müəyyənləşdiriləcək.

Onu da qeyd edək ki, ötən illər ərzində Azərbaycanda insan kapitalının inkişafı ilə bağlı bir sıra tədbirlər müəyyən edilərək icra olunmuşdur.Hazırda da icra edilən bir çox strategiya, dövlət proqramları və konsepsiyalarda insan kapitalının inkişafı önə çəkilmişdir. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında və "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" adlı sənəddə insan kapitalının inkişafı, eləcə də bilik və innovasiyalara əsaslanan inkişaf prioritet təşkil edir. Məlum olduğu kimi, hazırda Azərbaycanda insan kapitalının və qeyri-neft sektorunun inkişafı, biznes mühitinin yaxşılaşdırılması, iqtisadiyyatın şaxələndirilməsi isti-

qamətində islahatlar aparılır. Həmin islahatların davam etdirilməsi orta və uzunmüddətli dövrdə təhsilin keyfiyyətinin yüksəldilməsi, infrastrukturun və "elm-təhsil-istehsal" əlaqələrinin çevik idarəetmə mexanizminin qurulması, eləcə də şirkətlərin qlobal dəyər zəncirinə qoşulmaqla dünya bazarlarına inteqrasiyası üçün əhəmiyyətlidir. Strateji Yol Xəritəsində göstərilir ki, ölkəmizdə insan kapitalının inkişafında fasiləsizliyin (ömür boyu öyrənmək) təmin edilməsi, məktəbəqədər və orta təhsil də daxil olmaqla peşə təhsili və ixtisaslı kadr hazırlığının əmək bazarının tələblərinə uyğunlaşdırılması, həmçinin "elm-təhsil-istehsal" əlaqələrinin təkmilləşdirilməsi istiqamətində məqsədli proqramların hazırlanması və həyata keçirilməsi davam etdiriləcək. Daha keyfiyyətli insan kapitalının formalaşdırılması daha çox maddi-mənəvi fayda əldə etməyə və rəqabətqabiliyyətliliyi yüksəltməyə imkan verəcək.

Bütün bunlar onu göstərir ki, ölkəmizin iqtisadi inkişafı artıq yeni keyfiyyət mərhələsinə daxil olub. Yeni mərhələnin əsas hədəfi, milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin yüksəldilməsinə və dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyasına nail olmaqla, uzunmüddətli perspektivə ölkədə dinamik sosial-iqtisadi inkişafın davamlılığını təmin etməkdən ibarətdir. Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin imzaladığı fərmanlarda, təsdiq etdiyi iqtisadi siyasət sənədlərində bu hədəfin reallaşması üçün yerinə yetirilməsi zəruri olan əsas vəzifələr müəyyənləşdirilib. Bu sıraya ölkənin malik olduğu iqtisadi potensialın gücləndirilməsi və bu potensialın kompleks şəkildə səmərəli reallaşdırılması, qeyri-neft sektorunun inkişaf etdirilməsi, hər bir regionun malik olduğu potensialdan tam və səmərəli istifadə olunması, regionların inkişafının tarazlaşdırılması, çoxlu sayda yeni iş yerlərinin açılmasına şərait yaradılması, sahibkarlığın inkişaf etdirilməsi, sosial xidmətlərin həcminin, keyfiyyətinin və ünvanlılığının əhəmiyyətli dərəcədə artırılması, yoxsulluğun azaldılmasını və s. bu kimi vəzifələri aid etmək mümkündür.

Dahi Çin filosofu Konfutsi söyləmişdir: "Elm və təhsildən faydalanmağı bacaran xalq həmişə firavan yaşayar". Xalq olaraq firavan yaşamaq üçün bilməliyik ki, müstəqil respublikanın davamlı inkişafı insan potensialının inkişafından, insan potensialının inkişafı keyfiyyətli təhsil sistemindən, təhsil sisteminin inkişafı isə professor-müəllim heyətinin normal fəaliyyətinin təmin edilməsindən asılıdır.

Ələsgərova A.A.,
iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət İqtisad Universiteti

MÜASİR İDARƏETMƏ SİSTEMİNDƏ İNSAN RESURSLARININ YERİ VƏ ROLU

İnsan resurslarının idarə edilməsi meydana gələn tələbatın ödənilməsi ilə bağlı əldə edilən elmi nəticənin tətbiqini təmin edən nəzəri və praktik əsaslara malik münasibətlər sistemidir. Yaranmış tələbatın ödənilməsi ilə bağlı əldə edilmiş elmi nəticə və nailiyyəti real həyat münasibətlərinə tətbiq etməli olan insan resurslarının idarə edilməsi tələbatın ödənilməsi üçbucağının müstəqil mərhələsi olmaqla *bilik, bacarıq və vərdişdən* ibarət aşağıda təsvir edilmiş vahid sistemə malikdir. Bilik insan

resurslarının idarə edilməsi sisteminin ilkin tərkib hissəsidir. İnsan resurslarının idarə edilməsində biliyin əhəmiyyəti şəxsin qarşıda dayanan məqsədə nail olması üçün onun zəruri həddə biliklərə malik olmasını nəzərdə tutur. İlkin baxışda bilik anlayışı ümumi qəbul edilə bilər. Lakin, burada söhbət şəxsin hər hansı ümumi və ya qeyri-müəyyən çərçivədə biliklərə malik olmasından deyil, onun iştirakçısı olduğu ictimai münasibətlər üzrə zəruri həddə biliklərə malik olmasından gedir. Qeyd olunan zəruri həddə bilik səviyyəsinin müəyyən edilməsi üçün şəxsin qarşısında dayanan vəzifələrin ümumi mahiyyəti və birbaşa təyinatı xüsusi əhəmiyyət kəsb edir. Bunun üçün şəxsin icra etdiyi vəzifələr baxımından onun tələb olunan bilik səviyyəsini aşağıdakı istiqamətlərdə qruplaşdırmaq olar: *elmi-nəzəri biliklər; qanunvericilik bilikləri; xüsusi biliklər (xarici dil, kompüter və s. biliklər). Elmi-nəzəri biliklər* vəzifənin icrası ilə bağlı elmi mühakimə və ehtimalların formalaşdırılması və irəli sürülməsi üçün həmin sahə üzrə qəbul edilmiş elmi-nəzəri (doktrinal) baxışlar haqqında təsəvvürlərə malik olmanı nəzərdə tutur. *Qanunvericilik bilikləri* vəzifənin icrası ilə bağlı mövcud münasibətlərin birbaşa qanunvericiliklə tənzimləndiyi sahələrə dair dövlət tərəfindən yaradılmış normativ hüquqi aktlara dair təsəvvürlərə malik olmanı nəzərdə tutur. *Xüsusi biliklər* isə vəzifənin icrasının xüsusi cəhətləri əsas götürülməklə müəyyən olunur. Buraya qeyd olunduğu kimi şəxsin vəzifənin icrası ilə bağlı müəyyən səviyyədə xarici dil biliklərinə, tapşırıqların yerinə yetirilməsi ilə bağlı müxtəlif kompüter proqramları haqqında təsəvvürlərə malik olması və s. aid edilir. Bacarıq insan resurslarının idarə edilməsi sisteminin ikinci tərkib hissəsidir. Bacarıq anlayışı şəxsin ümumi bacarıqlara malik olması mənasında deyil, birbaşa onun icra etdiyi vəzifənin təyinatı üzrə nəzərdə tutulan biliklərinin zəruri səviyyədə tətbiqi bacarıqlarını nəzərdə tutur. Digər sözlə bacarıq şəxsin malik olduğu biliklərini real həyat situasiyalarında mövcud münasibətlərə tətbiq edə bilməsini nəzərdə tutur. Çünki, şəxsin hər hansı sahədə biliklərə malik olması, hələ onun bu bilikləri zəruri səviyyədə tətbiq edə bilməsi demək deyildir. Bu baxımdan da, insan resurslarının idarə edilməsi prosesində şəxsin hər hansı sahədə biliklərə malik olması prosesin ilkin mərhələsi hesab olunsa da, nəzərdə tutulan məqsədə və ya hər hansı hədəfə nail olmaqla son nəticənin əldə edilməsi isə bacarıqlardan asılıdır. Eyni zamanda burada söhbət, yalnız zəruri istiqamətlərdə lokal və ya dövri bacarıqlara malik olmaqdan deyil, bu sahədə ixtisaslaşmış və dayanıqlı bacarıqlara malik olmaqdan gedir. Vərdiş insan resurslarının idarə edilməsi sisteminin sonuncu tərkib hissəsidir. İnsan resurslarının idarə edilməsi prosesində şəxsin zəruri həddə biliklərə malik olması və bu bilikləri mütəmadi olaraq nəzərdə tutulan səviyyədə mövcud münasibətlərə tətbiq etməsi şəxsin fəaliyyətində nəzərdə tutulan effektivliyin əldə edilməsini təmin etməklə zəruri vərdişlərin formalaşmasına təsir edir. Azərbaycanlı gənclərin ölkə üçün zəruri ixtisaslar üzrə xaricdə təhsil almalarını və ölkənin inkişafının mühüm amilinə çevrilmələrini təmin etmək məqsədi ilə "Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil almasına dair Dövlət Proqramı haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 19 oktyabr tarixli 1746 nömrəli Sərəncamı imzalanmışdır. Həmin sərəncama uyğun olaraq hazırlanmış "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nda (bundan sonra Dövlət Proqramı) istedadlı Azərbaycan gənclərinin xaricdə təhsilinin təşkili istiqamətində vahid sistemin yaradılması nəzərdə tutulur.

Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan və bu gün cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən kadr siyasəti dövlətçiliyimizin bütün sahələrində yeni düşüncəli, savadlı, işgüzar, bacarıqlı, saf mənəviyyatlı, yüksək təşkilatçılıq və informasiyadan istifadə etmək qabiliyyətinə malik olan kadrların hazırlanmasına, onların cəsarətlə seçilib irəli çəkilməsinə böyük zəmin yaradır. Xalqın və dövlətin gələcəyinin məhz yüksək ixtisaslı, peşəkar və vətənpərvər insanlarda görən Heydər Əliyev hələ ötən əsrin 70-80-ci illərində ölkənin maddi imkanlarının məhdudluğuna baxmayaraq bu işi dünya miqyasına çıxarmış, yüzlərlə gənci təhsil almaq üçün xarici ölkələrə gönd-ərmişdir. Bu gün də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən qəbul olunmuş fərmanla təsdiq olunan Dövlət Proqramına əsasən hər il yüzlərlə gənc inkişaf etmiş xarici dövlətlərin qabaqcıl ali təhsil müəssisələrində ixtisaslı kadr kimi (o cümlədən idarəetmə ixtisasları üzrə) yetişirlər. Azərbaycanın özündə idarəetmə sahəsində milli kadrların hazırlanması üçün müstəqillik illərində bir neçə yeni elm və təhsil ocaqları yaradılmış, mövcud ali məktəblərdə yeni dövrün tələb etdiyi mütəxəssislərin hazırlanması işi təşkil edilmişdir. Burada ümummilli lider Heydər Əliyevin 3 yanvar 1999-cu il fərmanı ilə yaradılan Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasını xüsusi qeyd etmək lazımdır. Fərmanda Dövlət İdarəçilik Akademiyasının yaradılmaşının məqsədi "Dövlət İdarəçilik sahəsi üçün mütəxəssislər hazırlanması işinin müasir tələblərə uyğun qurulması, onların peşəkarlıq səviyyəsinin artırılması, dövlət idarəçiiyi sahəsində elmi-tədqiqatların təşkili və həmin sahənin analitik-informasiya təminatının möhkəmləndirilməsi" kimi müəyyən edilmişdir. Akademiyanın yaradılması dövlətimizin möhkəmləndirilməsi və elmi əsaslarla idarə olunması, yeni idarəetmə mədəniyyətinin formalaşması və inkişafı baxımından xüsusi əhəmiyyətə malikdir. Dövlət qulluğu üçün kadrların hazırlanması, yenidən hazırlanması və ixtisasının artırılması məsələləri üzrə əsas elmi-metodiki və tədris mərkəzi olan Dövlət İdarəçilik Akademiyasının üzərinə Azərbaycanın böyük siyasi və iqtisadi potensialını reallaşdıra biləcək dövlət qulluqçularının yeni nəslinin yetişdirilməsi kimi çox məsul vəzifə qoyulmuşdur.

Ələsgərova F.,
iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Turizm və Menecment Universiteti

BEYNƏLXALQ TURİZMDƏ ÇİMƏRLİK TURİZMİNİN YERİ VƏ ONUN AZƏRBAYCAN MODELİ

1. Beynəlxalq turizm, onun anlayışı və bu sahədə mövcud vəziyyət

Son illərdə turizmin təşkili işi qloballaşaraq sırf beynəlxalq fəaliyyət dairəsinə daxil olmuşdur. Bu səbəbdən də turizmin təşkili işi dünya əhalisinin bir-birinə yaxınlaşmasına təminat yaradan bir sahə olmaqla yanaşı, o həm də milyonlarla insanların sosial və iqtisadi problemlərinin ödənilməsinə yardımçı olan böyük fəaliyyət sahəsinə çevrilmişdir. Eyni zamanda turizmin inkişaf etdirilməsi nəticəsində yeni iş yerləri yaranmışdır. Alimlərin apardıqları tədqiqatlara görə hal-hazırda dünya üzrə turizm

sahəsində çalışanların sayı 192 milyon nəfərə çatmışdır. Turizmin qloballaşması onun iqtisadi və sosial mədəni əhəmiyyəti ilə bağlıdır.

Beynəlxalq turizm beynəlxalq iqtisadiyyatın sürətlə inkişaf edən, biznes sahəsinin ən gəlirli növü, böyük həcmdə investisiya cəlb edən, artan məşğulluğu təmin edən və həmçinin ölkə büdcəsinə gəlir gətirən sahələrindən biridir. Faktiki olaraq, müasir dünya iqtisadiyyatında qlobal turizm sisteminin elementləri formalaşır. Qlobal turizm sistemi özündə beynəlxalq mehmanxana şəbəkələrini, hava, su və yer üzündəki turist daşınmalarını və yerlərin əvvəlcədən sifarişi üzrə kompüter sistemini birləşdirir.

Beynəlxalq turizmin bütün göstəriciləri dayanmadan artır və dünya ümumdaxili məhsulunun artım templərinə uyğun ümumi şəkildə irəliləyir. Lakin səyahətlərin dinamikası milli iqtisadiyyatların konyukturasına və ümumdünya iqtisadiyyatına qarşı çox həssasdır. Beynəlxalq turizm ildən-ilə inkişaf edir. Aparılan hesablamalara görə 2020-ci ilə qədər turizm özünün ən yüksək inkişaf həddinə çatacaq.

Beynəlxalq turizm nəinki illər üzrə, hətta dünya regionları üzrə eyni səviyyədə inkişaf etmir. 1990-cı illərin sonlarında gələnlərin maksimal sayı Avropa ölkələrinə düşürdü – təxminən 59%. Asiya və Sakit Okeanı regionuna dünya turistlərinin 14%-i düşürdü. Yaxın və Orta ŞərQqə (Misir, İsrail, Birləşmiş Ərəb Əmirlikləri və s.), Cənub-Şərqi Asiyaya (Tailand, Sinqapur, İndoneziya və s.) və digər ölkələrə turistlərin axını günü-gündən artır. Xarici qonaqların qəbulu üzrə ilk 10 ölkəyə aiddir: Fransa, İspaniya, ABŞ, İtaliya, Çin, Böyük Britaniya, Meksika, Kanada, Polşa, Avstriya. Beynəlxalq turizm üzrə gəlirlərin böyük həcminə görə ilk 10 ölkə ABŞ, İspaniya, İtaliya, Fransa, Böyük Britaniya, Meksika, Kanada, Çin, Avstriya, Almaniyadır. Turist balansının ən çox müsbət saldosuna İspaniya, İtaliya, Fransa, Meksika, Türkiyə malik olduğu halda, ən çox mənfi saldoya Almaniya, Yaponiya, Böyük Britaniya və Şimali Avropanın ölkələri malikdirlər.

Turizm siyasətinin məqsədi konkret iqtisadi və siyasi şəraitlə və turist sənayesinin kamilliyi ilə sıx bağlıdır. Bu məqsədlərdən ən vacibi milli turist məhsulunun beynəlxalq turist bazarların çıxarılması və satılmasıdır.

2. Çimərlik turizmi sahəsində beynəlxalq təcrübə

Müasir dövrdə çimərlik turizmində başlıca məqsəd daha yüksək xidmətlər təklif etməklə, daha çox turist cəlb etməkdir. Bunun üçün çimərliklər müxtəlif fərqləndirici əlamətlərlə özlərini tanıtmaqdadırlar. Belə fərqləndirici əlamətlərdən biri "Mavi bayraq"dır.

Çimərlik turizmi zonalarının yaradılması üçün qoyulan başlıca tələblər suyun təmizliyi, müvafiq infrastruktur və turizm xidmətlərinin səviyyəsi ilə bağlıdır. Çimərlik turizmi sahəsində İspaniya, Türkiyə, Yunanıstan, Fransa ilk pillələrdədir.

Son onilliklər ərzində insanların həyat şəraiti yaxşılığa doğru xeyli dəyişilmişdir. Bununla yanaşı, mədəni inkişafın kölgəli tərəfləri də özünü büruzə verməyə başlamışdır. Bu özünü işdə və ailədə, insanların artmaqda olan hərəkətsizliyində, artıq qidanın qəbulunda, psixo-emosional gərginliyin artmasında göstərir. Yaxın keçmişdə mükəmməl istirahətin etalonu, əsasən, dənizə səyahət, sanatoriya, kurort və istirahət evlərində dincəlmək sayılırdı. Günəş, hava və su sağlamlığın möhkəmləndirilməsinin əvəzolunmaz amilləridir. Sağlamlığın möhkəmləndirilməsi ilə səciyyələnən və özündə bir neçə turizm növlərini cəmləşdirən kənd yaşıl turizmi və idman turizmidir.

Müasir dövrdə çimərlik turizmində başlıca məqsəd daha yüksək xidmətlər təklif etməklə, daha çox turist cəlb etməkdir. Bunun üçün çimərliklər müxtəlif fərqləndirici əlamətlərlə özlərini tanıtmaqdadırlar. Ən yüksək səviyyəli xidmətlər göstərən çimərliklərə verilən "mavi bayraqlar" nədir və onun verilməsi üçün hansı tələblər qoyulur? "Mavi bayraq" kampaniyası 1987-ci ildən Avropa Ətraf Mühit Təhsili Təşkilatı tərəfindən həyata keçirilir. Əvvəlcə 11 Avropa Birliyi ölkəsində, daha sonra 22 digər ölkədə müvəffəqiyyətlə tətbiq olunub. 2001-ci ildən isə Avropa xaricindəki ölkələrin tələblərindən dolayı kampaniyanın əhatəsi genişləndirilib və Avropa Ətraf Mühit Təhsili Təşkilatı dünya miqyasında Beynəlxalq Ətraf Mühit Təhsili Təşkilatı (FEE) adlandırılıb.

"Mavi bayraq" ən yüksək meyarlara cavab verən çimərliklərə Avropa Birliyi "Çimərlik suyu direktivi"nə uyğun olaraq FEE tərəfindən verilən nümunəvi xidmət göstəricisidir. "Mavi bayraq" sertifikatı 4 meyar üzrə müəyyənləşir - suyun təmizliyi, ekologiyanın qorunması, təhlükəsizlik və istirahət edənlərin məlumatlandırılması. Burada lazımi sayda zibil qutusunun yerləşdirilməsi, tullantıların vaxtlı-vaxtında daşınması, ev heyvanlarının çimərliyə girişinin beynəlxalq qanunlara görə müəyyən edilməsi, nəqliyyat vasitələrinin hərəkətinin məhdudlaşdırılması, yetərli sayda xilasedicilərin mövcudluğu, ətrafı çirkləndirə biləcək qəza risklərinə qarşı tədbirlərin vaxtında həyata keçirilməsi kimi vacib məsələlər də əsas götürülür. Bayraqla təltif edilmə üçün çimərliklər müəyyən edilmiş meyarlara uyğun olaraq mütəxəssislər tərəfindən qiymətləndirilir. "Mavi bayraq" çimərliyin diqqətçəkən hissəsinə sancılır və bu çimərliyin yüksək imic qazanmasına xidmət edir. Ancaq proses bununla da yekunlaşmır. Bayraqla təltif edilən çimərliklərdə müntəzəm olaraq yoxlamalar təkrarlanır.

Çimərlik turizmi sahəsində xüsusi yeri olan İspaniya, Türkiyə, Yunanıstan, Fransa və digər ölkələrin bu sahədə böyük təcrübəsindən yararlanmaq olar. Əgər çimərlikdə suyun təmizliyi, göstərilən xidmətlərin səviyyəsi, xilasedicilərin sayı, dəniz kənarının təmizlik səviyyəsi, kölgəlik, duş, sürüşkənlər, hətta sanitar qovşaq kabinələrinin vəziyyəti standartlara cavab verməzsə, bayraq geri alınır və ondan istifadəyə qadağa qoyulur. Qeyd edək ki, "mavi bayraq" statusu bölgənin turizm potensialının inkişafına müsbət təsir edir. 2016-cı ildə İspaniya növbəti dəfə ən təmiz və təhlükəsiz çimərliklərə sahib ölkə seçilib. Bu il İspaniya "ən yaxşı çimərliklər" nominasiyasında öz rekordunu yeniləyib. Ekoloji və İstehlakçılar Maariflənməsi Assosiasiyasının (ADEAC) məlumatına əsasən, İspaniyada bu il 586 "mavi bayraq" sertifikatına sahib çimərlik qeydə alınıb. Reytinq cədvəlində ikinci yerdə 444 "mavi bayraqla" Türkiyə, daha sonra isə Yunanıstan (430), Fransa (400) və Portuqaliya (315) gəlir.

Çimərlik turizmi zonalarının yaradılması üçün qoyulan başlıca tələblər suyun təmizliyi, müvafiq infrastruktur və turizm xidmətlərinin səviyyəsi ilə bağlıdır.

3. Azərbaycanda çimərlik turizmi

Bu gün dünya ölkələri turist cəlbi məqsədilə ən yaxşı çimərlik uğrunda rəqabət aparırlar. Ümumilikdə isə dünyanın ən yaxşı 25 çimərliyi mövcuddur ki, onlar müxtəlif imkanları ilə turistləri cəlb edir. Bu istiqamətdə müvafiq tədbirləri həyata keçirməklə ölkəmizdə də turist cəlbinə nail ola bilərik.

Azərbaycanın Xəzər sahili bölgələrində çimərlik turizminin inkişaf etdirilməsi üçün də əlverişli imkanlar var. Araşdırmalara görə, bu şimaldan cənuba 850 km-lik sahilyanı zolaq boyunca ərazilərin 60-70 faizində çimərlik turizmini inkişaf etdirmək

mümkündür. Hazırda sahilyanı ərazilərimizdə 90-dan çox çimərlik var, yenilərinin salınması davam edir. Hər il çimərlik mövsümü başlamazdan öncə dəniz suyunun monitorinqi aparılır, çirkli suyu olan ərazilərdən istifadəyə qadağa qoyulur, çimərliyə yararlı ərazilər isə elan olunur. Amma ölkəmizin bu sahədə olan potensialını nəzərə alsaq görərik ki, Xəzər dənizindən çimərlik məqsədilə istifadə yetərincə deyil. Sözügedən ərazilərdə çimərliklərin, istirahət mərkəzlərinin yaradılması, kottec, sanatoriya kimi məkanların istifadəyə verilməsi, ölkəmizə xarici turistlərin axınına şərait yarada bilər.

Beynəlxalq səviyyəli bu mükafatı almaq isə hər çimərliyin öz işini yüksək səviyyədə həyata keçirməsinin göstəricisi olaraq turistlərin diqqətini cəlb etməkdədir. Azərbaycanda olan çimərliklərdən hələ heç biri "mavi bayraq" almayıb. Ümid edək ki, yaxın vaxtlarda ölkəmiz çimərlik turizminin yaradılmasında mövcud olan potensialından daha səmərəli istifadə edəcək. Çimərliklərimiz də dünya standartlarında xidmətlər təklif edərək bayrağa layiq görüləcək.

Azərbaycan Respublikasının ərazisi şərqdən (825 km-lik ərazi) Xəzər dənizi ilə əhatə olunur. Bu isə Xəzər sahillərinin böyük turizm potensialına malik olduğunu göstərir. Xəzər - su səthi 400 min kv/km-dən artıq olan və Yer kürəsinin ən böyük axarsız nadir göllərindədir. Avropa və Asiya qitələrinin qovuşduğu meridian istiqamətində Xəzər 1200 km. uzunluğunda və orta hesabla 310 km. enində bir çökəklikdə yerləşmişdir. Xəzər dənizində ən nadir fauna və flora növləri hal-hazırkı dövrə qədər qorunub saxlanılmışdır. Dünya nərə balığı ehtiyyatlarının 90 faizi Xəzər dənizində cəmlənmişdir. Xəzər dənizi ən qiymətli sənaye balıq növləri yetişən, xüsusi əhəmiyyətli təbii balıq yetişdirmə hövzəsidir. Dünya nərə balıq ovunun 85 faizi və qara kürü istehsalının 90 faizi Xəzərin payına düşür.

Xəzər dənizinin sahili iqlim zonası, təbii şəraitinə və balneoloji imkanlarının rəngarəngliyinə görə, Xudat-Yalama sahili və Abşeron yarımadasının dənizsahili iqlim-kurort zonası olmaqla iki sahil zolağına bölünür. Xudat-Yalama sahili bilavasitə dəniz sahilinə bitişik, uzunluğu 30-40 km, eni 5-10 km təşkil edən sıx meşəlik ərazisinin mövcudluğu ilə fərqlənir. Bu yerlərin təbiəti Qara dəniz sahilindəki Qafqaz və Gürcüstan ərazilərini xatırladır.

Belə ki, Nabranda 14,2 km, Abşeron sahillərində 36,7 km, Lənkəran, Astara sahillərində 9,5 km, Şabran, Siyəzən, Neftçala sahillərində birlikdə 6,8 km uzunluğunda rəsmi çimərlik sahələri vardır ki, bu da ümumi çimərlik sahəsinin 50 km-dən çox olduğunu göstərir. Bu uzunluğun artırılması imkanları vardır. Amma Xəzər dənizi bizə həmçinin dəniz kurizləri, gəzintiləri, mövcud adalarda turzimin inkişaf etdirilməsi, dalğıclıq və s., imkanları da təklif edir. Azərbaycanda daha geniş mənada dəniz turizminin inkişaf etdirilməsi imkanları vardır.

Azərbaycanda turizmin müxtəlif növləri inkişaf etdirilməkdədir. İnsanları daha çox maraqlandıran turizm istiqamətlərindən biri də çimərlik turizmidir. Çünki bu turizm növü həm istirahət vəd edir, həm də sağlamlıq. Heç təsadüfi deyil ki, ötən il prezident İlham Əliyevin turizmin inkişafına dair əlavə tədbirlər haqqında sərəncamında bu sahənin inkişafına xüsusi diqqət yetirilmiş, bu yaxınlarda isə, ölkə başçısı "Azərbaycan Respublikasında çimərlik turizminin inkişafına dair 2017–2020-ci illər üçün Tədbirlər Planı"nı təsdiq etmişdir.

Sərəncam Xəzər dənizinin Azərbaycana mənsub olan bölməsindən turizm məqsədləri üçün daha səmərəli istifadəni təmin etmək məqsədilə imzalanıb. Tədbirlər planında çimərliklərə dair hüquqi bazanın təkmilləşdirilməsi, çimərliklərdə infrastruktturun yaradılması və təkmilləşdirilməsi, təhlükəsizlik, ətraf mühitin mühafizəsi tədbirləri, çimərliklərə dair informasiya bazasının yaradılması və çimərlik turizminin təşviqi ilə bağlı görüləcək işlər öz əksini tapıb. Çimərlik turizmi perspektivli sahədir. Prezident sərəncamı ilə təsdiq olunmuş tədbirlər planında nəzərdə tutulmuş məsələlərin reallaşması şübhəsiz gələcəkdə turizmin inkişafına əsaslı töhfələr verəcəkdir.

Tədbirlər Planının icrası çərçivəsində cari ildə çimərlik mövsümünün açılışına qədər Bakıda 6 özəl, 6 ictimai, Xaçmazda 2 özəl, 2 ictimai, Lənkəranda 2 özəl, 1 ictimai, Astarada 1 özəl, 1 ictimai çimərliklərin yaradılmasının planlaşdırıldığı deyilib. Bununla belə, nazir vahid çimərlik mövsümünün müəyyən olunmasının zəruriliyini də vurğulayıb.

Hacıyeva L.A.,
iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət İqtisad Universiteti

TURİZM BAZARINDA MARKETİNQ ALƏTLƏRİNİN TƏTBİQİ: BAZARIN SEQMENTLƏŞDİRİLMƏSİ

Ölkəmizdə dayanıqlı inkişafın təmin olunması iqtisadiyyatın digər sahələri kimi turizm sektorunun inkişafı ilə də bağlıdır. "Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafı" (2002-ci il), "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı (2004-2008-ci illər)", "Azərbaaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair" Dövlət Proqramlarında, "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında (2012-ci il), "İxtisaslaşmış turizmin inkişafı üzrə Strateji Yol Xəritəsi"ndə (2016-cı il) ölkəmizdə və regionlarda turizmin inkişafı üçün zəruri şəraitin yaradılmasına dair mühüm qərarlar qəbul edilmişdir.

Turizmin inkişafı üçün əsas istiqamətlərdən biri də sahənin menecmentinin təkmilləşdirilməsi, yeni idarəetmə metodlarından və konsepsiyalarından, o cümlədən marketinq idarəetmə konsepsiyasından istifadə olunmasıdır. Bu isə tədqiq olunan sahədə marketinqin əsas alətlərinin tətbiqini, turizm bazarında marketinq tədqiqatlarının aparılmasını, bazarın seqmentləşdirilməsini və seçilən hədəf seqmentlərində müvafiq marketinq strategiyasının hazırlanmasını tələb edir.

Mürəkkəb bazar şəraitində fəaliyyət göstərən turizm müəssisəsi öz müştərilərinə diqqətlə yanaşmalı, onların istək və tələbatlarını tam ödəməyə çalışmalıdır. Buna nail olmaq üçün turizm müəssisələri seqmentləşdirmə strategiyasını həyata keçirir. Turizm bazarının seqmentləşdirilməsi potensial istehlakçıların tələblərinin keyfiyyət və kəmiyyət xüsusiyyətlərinin nəzərə alınması ilə onların müxtəlif qruplara bölünməsidir. Bu bölgü eyni tipli, eyni məhsul və xidmətə maraq göstərən, öz davranışına görə oxşar olan qrupların yaranması ilə nəticələnir. Seqmentləşdirmənin əsas məqsədi – turizm məhsulunun ünvanlılığını təmin etməkdir. Seqmentləşdirmə vasitəsilə marketinqin əsas prinsipi həyata keçirilir – istehlakçıya yönümlülük prinsipi. Turizm müəssisəsi öz

gücünü və potensialını onun təklif etdiyi məhsul və xidmətlərə daha çox maraq göstərən, onları əldə etməyə cəhd edən istehlakçılara yönəldir və beləliklə öz fəaliyyətini optimallaşdırmağa çalışır.

Beləliklə, bazarın seqmentləşdirilməsi bir tərəfdən – turizm müəssisəsinin marketinq fəaliyyətini həyata keçirmək üçün istehlakçı qruplarının formalaşdırılması, digər tərəfdən isə - bazar qərarların qəbul edilməsinə idarəetmə yanaşması, marketinq kompleksinin elementlərinin optimal istifadəsi üçün əsas kimi çıxış edir.

Bazarın seqmentləşdirilməsi turizmdə marketinqin əsas alətlərindən biri hesab olunur. Düzgün həyata keçirilən seqmentləşdirmə rəqabət mübarizəsinin nəticələrini müəyyən edir. Yüksək səmərə əldə etmək üçün, seqmentləşdirmə müəyyən əlamətlər üzrə aparılmalıdır. Əlamət – hər hansı bir seqmentin bazarda seçilməsi üsuludur. Turizmdə seqmentləşdirmənin əsas əlamətlərinə aiddir: coğrafi amil; demoqrafik amil; sosial-iqtisadi amillər; psixoqrafik amillər; davranış amilləri.

Coğrafi əlamətə görə seqmentləşdirmədə hər hansı bir ərazidə yaşayan və oxşar tələbat və davranışı ilə seçilən istehlakçı qrupları seçilir. Coğrafi seqment qismində ölkə və ya ölkələr qrupu, region və ya rayonlar çıxış edə bilər.

Demoqrafik əlamət (istehlakçıların cinsi, yaşı, ailə üzvlərinin sayı və s.) ən çox istifadə olunan əlamətdir, bunun əsas səbəbi kimi seqment iştirakçılarının xarakteristikalarının əlçatarlığı, onların sabitliyi, onlarla tələb arasında sıx əlaqələrin olmasını qeyd etmək olar.

Sosial-iqtisadi əlamətlər istehlakçı seqmentlərinin sosial və peşəkar aidiyyatı, təhsili və gəlir səviyyəsinə görə seçilməsini nəzərdə tutur.

Psixoqrafik seqmentləşdirmə istehlakçıları həyat tərzinə, maraqlarına, şəxsiyyət tipinə görə fərqləndirir.

Davranış seqmentləşdirmənin əsasında alış motivləri, səyahətdən olan gözləntilər, turizm şirkətinə loyallıq səviyyəsi, turizm məhsulunu əldə etmək hazırlığı, xidmətə olan münasibət və s. tədqiq olunur.

Qeyd olunan əlamətlər yalnız ilkin seqmentləşdirmə üçün yararlıdır. Daha dəqiq seqmentləşdirmə aparmaq üçün müxtəlif əlamətlərin kombinasiyasından istifadə edilir.

Turizm bazarında ən çox istifadə olunan seqmentləşdirmə amillərinə turistlərin yaşı aid edilir. Bu əlamətə görə üç əsas seqment seçilir:

1. Gənclər turizmi (16-30 yaşına qədər səyahət edənlər). Bu seqment dünya turizm bazarında artan inkişaf templəri ilə seçilir. Gənclər turizmi ittifaqı olan WYSE Travel Confederation hesabatına görə 2016-cı ildə səyahət edən gənc turistlərin sayı 284 milyon nəfər olmuş, 2020-ci ilə isə onların sayı 370milyon nəfər olacağı proqnoz edilmişdir. Bu seqmentin fərqləndirici xüsusiyyətləri kimi ekstremal turizm növlərindən istifadə (dayvinq, raftinq, roup jampinq və s.), ucuz səyahət vasitələrinin (məsələn, Flixbus kimi ucuz səyahət avtobuslarının əsas müştəriləri gənclərdir) və az komfortlu mehman-xanaların (əsasən hostel tipli) seçilməsi, daha uzunmüddətli səyahətlərin (məsələn, təhsil məqsədi ilə Erasmus proqramı üzrə səyahət edənlər) baş verməsi çıxış edir.

2. Orta yaş turizmi (30-50 yaş) – bu seqment üçün əsasən ailə ilə birlikdə səyahətlərin olması xasdır. Orta yaşlı turistlər yüksək komforta, rahatlığa, turların proqramlarının zəngin olmasına, peşəkar fəaliyyətlərinə uyğun olmasına xüsusi önəm verirlər. Bu seqment üçün tur-paketlər hazırlayarkən, nəzərə almaq lazımdır ki, seq-

ment iştirakçıları- iqtisadi fəal əhalidir, onların səyahət etmək istəyi istirahətlə, şəraiti dəyişməklə və ya işgüzar məqsədlərlə əlaqəli ola bilər. Bu səyahətlər qısa müddətliyi (adətən 3-5 gün) və zəngin proqramı ilə seçilir. Turizm şirkətləri bu təmayülü nəzərə alaraq orta yaş seqmenti üçün müvafiq tur-paketləri təklif etməlidir.

3. Üçüncü yaş turizmi (50 yaşdan yuxarı). Bu seqment öz spesifikliyi ilə fərqlənir. Burda həm yüksək keyfiyyət, rahatlıq, həm də xidmətedici heyət tərəfindən xüsusi xidmət tələb olunur – lazım olarsa peşəkar tibbi yardımın göstərilməsi, tarixi ekskursiyalarla zəngin turların təşkili, restoranlarda pəhriz menyularının olması, nisbətən sakit məkanlarda yerləşmə və s. bu turizm seqmentinin digər fərqli cəhəti ondan ibarətdir ki, burada mövsümi asılılıq yoxdur. Əksinə seqmentə aid olan insanlar turizm mövsümünün ən qaynar vaxtlarını deyil (iyul, avqust ayları), daha çox sərin, payız və yaz aylarına üstünlük verirlər. Səyahətin müddətinə görə də bu seqment fərqlənir – burada daha uzunmüddətli səyahətlər mövcuddur.

Turizm bazarının seqmentləşdirilməsini istehlakçıların gəlirlərinin səviyyəsinə görə də həyata keçirmək olar. Turizmə olan tələbat bir tərəfdən orta və aşağı gəlir səviyyəsi olan insanların istirahət etmək ehtiyacının olmasından, digər tərəfdən isə yüksək gəlirli təbəqənin tələbatından irəli gəlir. Bu seqmentlər üçün turizm təklifi çox fərqlidir.

Birinci seqmenti daha çox müxtəlif aksiyalar və endirimlər əldə etmək, qrup şəklində səyahətlər maraqlandırırsa, ikinci seqment fərdi səyahətə üstünlük verir. Ümumdünya Turizm Təşkilatının mütəxəssisləri iki əlamətin (gəlirin səviyyəsi və təhsilin səviyyəsi) kombinləşməsi əsasında turizm bazarının aşağıdakı seqmentlərini qeyd edirlər:

1. Orta və aşağı gəlir səviyyəsi olan insanlar. Bu turistlərin səyahətlərinin əsas məqsədi – dənizə səyahət etməkdir (adətən ən yaxın dəniz səyahətinə üstünlük verilir, qiymətlərin daha münasib olması baxımından). Səyahətdə vərdiş etdikləri şəraitə üstünlük verirlər, ödədikləri məbləğə görə maksimum xidmət əldə etməyə çalışırlar, artıq xərclərdən imtina edirlər. “Hər şey daxildir” sisteminin əsas istifadəçiləridir, 2-3 ulduzlu mehmanxanalara üstünlük verirlər, diskotekalar, gecə əyləncələrinə maraq göstərirlər. Yerli suvenirlərə maraq göstərirlər, əsas odur ki, suvenirlərin qiyməti uyğun olsun. Beynəlxalq turist mübadiləsində bu seqment ən çoxsaylı seqment hesab olunur və kütləvi turizmin əsasını təşkil edir.

2. İkinci seqmenti təşkil edən turistlərin gəliri ortadan yüksəkdir, adətən yüksək təhsillidilər. Səyahətin əsas məqsədi – istirahətlə yanaşı yeni kəşflər icad etməkdir. Məkanın seçilməsinə ciddi yanaşırlar, bir neçə amilə görə müqayisələr aparırlar. Fəal istirahətin tərəfdarırdılar, idman etməyi, ekskursiyalara getməyi, kino və konsertlərə getrməyi xoşlayırlar. Birinci seqmentlə müqayisədə daha uzaq səyahətlərə üstünlük verir, getdikləri ölkənin mədəniyyətinə, adət-ənənələrinə böyük maraq göstərirlər. Səyahət motivinin əsasını yeniliklər əldə etmək təşkil edir, bu baxımdan onlar üçün maraq kəsb edən ərazıyə səyahət edərkən bəzi rahatsızlıqlara göz yuma bilirlər.

3. Üçüncü seqmentə yüksək gəliri və yüksək təhsili olan insanlar aiddir. Bu insanların səyahətinin əsas məqsədi – yeni təəsüratlar əldə etməkdir. Bu seqment iki yaş kateqoriyası ilə təmsil olunur: orta yaşlılar və “üçüncü yaş” seqmenti. “Üçüncü yaş” seqmentinə aid olanlar əsasən qrupla səyahət etməyə üstünlük verirlərsə, orta yaşlı turistlər fərdi səyahətlərə və ya azsaylı dost-tanışlarla səyahət etməyə üstünlük

verirlər. Bu seqmentin səyahətləri müddətinə və məkanına görə fərqli olur – daha uzaq məsafələrə və uzunmüddətli (adətən 2-3 həftə) səyahətlərə üstünlük verirlər. Suvenirlərə maraq göstərirlər, lakin birinci seqmentdən fərqli olaraq, daha ekzotik və bahalı hədiyyələrə üstünlük verirlər.

4. Dördüncü seqmentə yüksək təhsili və intellektual səviyyəsi olan insanlar aiddir ki, bunlar təbiətin öyrənilməsinə, digər millətlərin mədəniyyətinin, adət-ənənələrinin, yaşam tərzinin tədqiqinə maraq göstərirlər. Bu seqmentin spesifikliyi ondan ibarətdir ki, bura müxtəlif yaş kateqoriyalarından və müxtəlif gəlir səviyyəsi olan turistlər aiddir. Bu turistləri birləşdirən əsas amil isə - onların səyahətə büdcələrinin əksər hissəsini xərcləməyə hazır olmaqlarıdır. Onların səyahətlərinin məqsədləri fərqli ola bilər, əsas odur ki, bu seqmenti təşkil edən insanlar şəxsi təcrübə əldə etməyə çalışırlar. Dördüncü seqment sayca ən azsaylıdır, amma son illərdə çoxalmağa meyl edir.

Beləliklə, turizm bazarının seqmentləşdirilməsini həyata keçirməklə, turizm firmaları hər hansı bir əlamətə görə turist qruplarını müəyyən edib, onlara uyğun turist təklifi ilə çıxış edirlər.

Bəs Azərbaycanda turizm bazarının seqmentləşdirilməsi necə aparılır? Tədqiqat apararkən, belə qənaətə gəlmək olar ki, ölkəmizdə əsasən coğrafi, demoqrafik və iqtisadi amillər üzrə seqmentləşdirmə aparılır, davranış və psixoqrafik amillər kifayət qədər istifadə olunmur. Məsələn, bir çox statistik məlumatlarda turizm bazarının məlumatları iqtisadi rayonlar üzrə verilir.

Ölkəmizdə iqtisadi rayonlar üzrə mövcud statistik məlumatlara nəzər salaq, burada mövcud olan mehmanxana və mehmanxana tipli müəssisələrin əsas göstəriciləri ilə tanış olaq (cədvəl 1).

Cədvəl 1.

İqtisadi rayonlar üzrə mehmanxana və mehmanxana tipli müəssisələrin əsas göstəriciləri (2015-ci il üzrə) [4]

İqtisadi rayonlar	Birdəfəlik tutum	Nömrələrin sayı	Gecələmələrin sayı	Yerləşdirilmiş şəxslər
Ölkə üzrə, cəmi	**37278**	**17953**	**1644056**	**838145**
Bakı şəhəri	12779	7656	1032780	535390
Abşeron iqtisadi rayonu	1351	570	13662	5207
Gəncə - Qazax iqtisadi rayonu	3006	1453	155079	89847
Şəki- Zaqatala iqtisadi rayonu	2583	1072	51064	31280
Lənkəran iqtisadi rayonu	2751	1131	31847	17035
Quba – Xaçmaz iqtisadi rayonu	9691	3794	195719	58610
Aran iqtisadi rayonu	2068	972	54441	26419
Yuxarı Qarabağ iqtisadi rayonu	30	15	634	488
Dağlıq Şirvan iqtisadi rayonu	1571	667	22449	13594
Naxçıvan Muxtar Respublikası	1448	623	86381	60275

(Mənbə: Azərbaycanda turizm. Statistik məsmuə, 2016)

Cədvəlin təhlili göstərir ki, 2015-ci ildə iqtisadi rayonlar üzrə mehmanxana və mehmanxana tipli müəssisələrin birdəfəlik tutumu 37278 olmuşdur ki, onun da 34%-i Bakı şəhərindədir. Bu göstərici Quba- Xaçmaz iqtisadi rayonunda 26%, Gəncə- Qazax iqtisadi rayonunda 8%, Lənkəran iqtisadi rayonunda 7.4%, Şəki –Zaqatala iqtisadi rayonunda isə 6.9% olmuşdur.

Mehmanxana və mehmanxana tipli müəssisələrdə nömrələrin sayı ümumi 17953 olmuşdur ki, onların da əksər hissəsi (7656) Bakı şəhərində, Quba- Xaçmaz iqtisadi rayonunda (3794), Gəncə - Qazax iqtisadi rayonunda (1453), Lənkəran iqtisadi rayonunda (1131) cəmlənmişdir.

Tədqiqat ilində ümumi ölkə üzrə gecələmələrin sayı 1644056 olmuşdur ki, bunların əsas hissəsi Bakı şəhərinin payına düşür (62.8%). Bu göstərici Quba- Xaçmaz iqtisadi rayonunda 11.9%, Gəncə- Qazax iqtisadi rayonunda 9.43%, Lənkəran iqtisadi rayonunda 1.94%, Aran iqtisadi rayonunda – 3.3%, Naxçıvan Muxtar Respublikasında – 5.3%, Şəki –Zaqatala iqtisadi rayonunda isə 3.10% olmuşdur.

Tədqiqatın nəticələrini ümumiləşdirərək, belə qənaətə gəlmək olar ki, Azərbaycanda turizmin dayanıqlı inkişafını təmin etmək üçün turizm bazarında yeni idarəetmə metodlarından istifadə etmək zəruridir. Bazarın seqmentləşdirməsini apararaq, turizm müəssisələri özlərinə optimal hədəf seqmentləri seçib, onlar üçün xüsusi hazırlanmış turizm paketlərini təklif edə bilərlər. Həyata keçirilən tədbirlər təklif olunan xidmətin keyfiyyətinin yüksəldilməsini və turizm müəssisəsinin rəqabətqabiliyyətliliyinin yüksəldilməsini təmin edəcək.

İsmayılov K.A., b.e.n., dosent
Azərbaycan Kooperasiya Universiteti,
Calalov M.C.,
fizika-riyaziyyat elmləri namizədi, dosent
Bakı Biznes Universiteti

ƏRZAQ TƏMİNATI STRATEGİYASINDA QİDA TƏHLÜKƏSİZLİYİ

Təbii, ərzaq və sosial ekologiyanın müasir vəziyyətinə fövqəladə dərəcədə narahatlıq gətirən bir sıra amillər mövcuddur: iqlimin qlobal dəyişikliyi və qida ehtiyyatlarının itkisi; xəstəliklərin və ona yoluxan insanların sayının sürətli artımı; insan üçün olduqca təhlükəli və əvvəllər məlum olmayan xəstəliklərin meydana gəlməsi; təbii ehtiyyatlardan səmərəli istifadə olunması prinsiplərinin pozulması; qida məhsullarının keyfiyyətinin pisləşməsi; ərzaq ehtiyyatlarının qiymətinin kəskin artması, qida çatışmazlığı və s.

Məlumdur ki, keçən əsrdə insanların sağlamlığına mənfi təsir göstərən amillərin sayı xeyli artmışdır. Onların arasında süni bioloji fəal maddələr və preparatlardan sağlamlığın bərpası üçün istifadə olunması və xəstələr üçün bəzi diaqnostik metodların tətbiqi potensial təhlükə mənbəyi olmuşdur. Keyfiyyətsiz qida və bir sıra dərmanların tətbiqinin ziyanlı təsiri insanların sağlamlığını kəskin pisləşdirir. Ərzaq, kənd təsərrüfatı, ekoloji və sosial-iqtisadi aləmdə yaranmış böhran vəziyyəti, mütərəqqi və ekoloji

təhlükəsiz texnologiyalar və vasitələrdə bioloji prinsiplərin elmi əsaslandırılmış bazasında yeni müdaxilələrin tətbiqini labüd edir.

İnsanların əmək məhsuldarlığının genetik potensialının azalması, ölüm hallarının artmasının başlıca səbəbi qida məhsullarının kifayət qədər yüksək olmayan ekoloji keyfiyyəti ilə bağlıdır.

Ölkənin ərzaq təhlükəsizliyinin təmin olunması – makroiqtisadi, təbii və texnogen, texnoloji, aqroekoloji, sosial, ticarət-iqtisadi, siyasi risklərlə bağlıdır. Kənd təsərrüfatı məhsulları, xammal və ərzaq istehsalı sahəsində qüvvələri məhsuldarlığın yüksəldilməsinə, əkinə yararlı istifadəsiz torpaqların bərpasına, heyvandarlığın və onun yem bazasının inkişafına, dövlət dəstəyinin və bazarın tənzimlənməsinin səmərəliliyinin yüksəldilməsinə, kənddə sosial proqramların həyata keçirilməsi və maliyyə təminatının artırılmasına yönəldilməlidir.

Qida məhsullarının təhlükəsizliyinin təminatında bütün mərhələlər üzrə - istehsal, saxlanılma, nəql olunma, emal, realizə və idxal əməliyyatları daxil olunmaqla texniki reqlamentin tələblərinə uyğun tədbirlər görülməlidir.

Dünya ərzaq və kənd təsərrüfatı təşkilatının (FAO) məlumatına görə 1950-1985-ci illərdə ərzaq istehsalının illik artımı 30 milyon ton, 1985-1995-ci illərdə 12 milyon ton təşkil edirdisə, 2030-cu ilədək bu göstərici cəmi 9 milyon ton səviyyəsində olacaqdır. Yer kürəsində 2 milyarddan çox insan qeyri-normal qidalanma ucbatından mikronutritlər çatışmazlığından əziyyət çəkir.

Qida insanı xarici mühitlə əlaqələndirən ən mühüm amildir. Ərzaq xammalının və qida məhsullarının təhlükəsizliyinin təmin edilməsi – əhalinin sağlamlığını müəyyən edən və genefondunu qoruyan əsas şərtlərdəndir.

ABŞ Milli Elmlər Akademiyasının məlumatına görə 90% fungisidlər, 60% herbisidlər və 30% insektisidlər xərçəng xəstəliyi törənməsinə səbəb ola bilir. Dünya kənd təsərrüfatında istifadə olunan 400 pestisiddən 262-si müxtəlif dərəcədə mutagenlərdir.

Qida məhsulları ətraf mühitdən bütün ekoloji zərərli maddələri udmaq və böyük miqdarda özündə akkumyasiya etmək xüsusiyyətinə malikdir.

Ətraf mühitdən 70% zəhərlər insan orqanizminə bitki və heyvan mənşəli qidalarla düşür. Son 5 ildə qida məhsullarının nitratlar və onların parçalanma məhsulları ilə çirklənməsi 5 dəfə artmışdır.

Ekoloji səbəblərdən keyfiyyətin pisləşməsi ilə xammal emal üçün texnoloji xüsusiyyətlərini dəyişir. Bunun nəticəsində hazır məhsulun çıxımı kəskin azalır, xammalda tullantıların miqdarı yüksəlir və onun qalma müddəti qısalır. Belə ki, son illər dünya üzrə şəkər çuğundurunun şəkərliyi, günəbaxanın yağlılığı, kartofun nişastalılığı, südün zülal və yağlılığı, tərəvəzlərdə quru maddələrin miqdarı azalmaqdadır. Bundan əlavə ekoloji təsirlər nəticəsində genetik xüsusiyyətlərini dəyişən çoxlu meyvə və tərəvəz bitkiləri düzgün olmayan formada meyvə, kök yumrusu və kökümeyvə verir. Onlar isə mexanikləşdirilmiş yuma, təmizləmə, uzunmüddətli saxlanmaya yaramır. 50%-ə qədər istehsal olunan kartof standarta uyğun gəlmir.

Hazırlanan südə xarici mühitdən düşən zərərli maddələrin yüksək miqdarı uşaq qidası üçün məhsullar istehsalını 20-50% yararsız hala salır.

Qida məhsullarının təhlükəsizliyi haqqında danışdıqda ilk növbədə onun istehsalı üçün ekoloji təmiz xammal məsələsi ön plana çəkilməlidir.

Sağlamlıq üçün təhlükəsiz və təbii məhsullar istehsalı ekoloji təmiz ərazilərdə təşkil edilməli və bütün mərhələlər – xammalın alınması, emal, saxlanılma, nəql edilmə və realizə xüsusi texnologiya ilə yerinə yetirilməlidir. Həmçinin təbii xüsusiyyətlərin maksimum saxlanılmasına çalışılmalıdır.

Ekoloji təmiz məhsul istehsalı üçün fermer təsərrüfatlarının (fermaların) yaradılması ideyasına Danimarkada başlanılmışdır. Əhalinin belə məhsullara tələbatı olduqca yüksək olmuşdur. Tezliklə Danimarkada üzvi fermalar istehsal olunan bütün kənd təsərrüfatı məhsullarının ¼-in istehsal etmiş, 2005-ci ildən isə fermaların yarısı üzvi texnologiya ilə işləyirdi.

2004-cü ildə Almaniyada uşaqlar üçün olan bütün qidaların yalnız üzvi məhsullardan hazırlanmasına dair qanun qəbul edildi.

Üzvi məhsullar üçün meyarlar müxtəlif ölkələrdə tam eyni deyildir. Ümumi xüsusiyyətləri tərəvəz, meyvə və tarla bitkilərini pestisidlərsiz, kimyəvi gübrələrsiz, şəhər tullantıları və çirkab suları məhsulları olmadan istehsal etməkdir. Məhsulların emalı ionlaşmış şüalar, kimyəvi əlavələr və rəngləyicilər olmadan həyata keçirilməlidir.

«Üzvi heyvandarlıq məhsulları» anlayışı təbii otlaqlardan istifadəni nəzərdə tutmaqla, yemdə əvvəlcədən antibiotik və hormonların tətbiqini istisna edir.

Ekoloji məhsullar istehsalı stabil yüksələn xətlə artır və bu artıq ilə 10-20% təşkil edir.

Ekoloji aqroistehsalın beynəlxalq standartlarına görə dünyada kənd təsərrüfatı torpaqların müəyyən hissəsi sertifikatlaşdırılmışdır.

Kənd təsərrüfat məhsullarının saxlanılması və emalı zamanı çoxlu sayda istehsal qalıqları əmələ gəlir ki, onun da xeyli hissəsi istifadə olunmadan atılır və ətraf mühiti çirkləndirir. Rəqabətə davamsız məhsullara tələbatın zəif olması ucbatından belə müəssisələrin orta illik gücü 60-65%-i ötmür. Belə müəssisələrin əksəriyyəti ziyanla işləyir, yaxud az rentabellidir.

Müasir insanın qida rasionunda qida maddələrinin və bioloji fəal komponentlərin çatışmazlığı orqanizmin xarici və daxili mühitin əlverişsiz amillərinə davamlığını zəiflətmiş olur.

Yeyinti qida məhsullarının çatışmazlığının formalaşmasında «əsaslı rol» rafinasiya olunmuş məhsulların istehlakı, həmçinin də qida və bioloji dəyəri azaldan resept və texnologiyalarla hazırlanan məhsullar oynayır. Mövcud qanunvericilik qida məhsulları və ərzaq xammalı istehsalının istənilən metod və proseslərindən istifadəni mümkün sayır. Yalnız birbaşa insan sağlamlığına ziyan verən üsul və vasitələr istisnalıq təşkil edir.

Aparılan araşdırmalar göstərir ki, istehsal olunan ənənəvi qida məhsulları istehlakçının vitaminlər, mikroelementlər və digər qida maddələrinə olan tələbatını tam ödəyə bilmir. Bu isə əhalinin ənənəvi qida məhsulları rasionunda dəyişikliklər aparılmasını labüd edir. Bu baxımdan son illər funksional məqsədli qida məhsullarından istifadə edilir. Belə məhsullar orqanizmə istiqamətləndirici tənzimləyici təsir göstərir.

Müalicəvi, profilaktiki funksional məhsullar yaradılması və tətbiqi, BMT-nin hümanitar proqramına daxil edildiyindən öz aktuallığını bir daha artırır.

Müasir funksional qida məhsullarını şərti olaraq 2 qrupa bölmək olar: bitki xammalı və heyvan mənşəli məhsullar əsasında alınan funksional qida məhsulları.

Dünya bazarının təhlili əsasında funksional məqsədli məhsulların üç əsas sahəsi fərqləndirilir ki, bunların da istehsalda payı eyni deyildir: funksional çörək-kökə məmulatları və qəlyanaltılar (18%), süd məhsulları (23%) və funksional içkilər (59%).

Ölkəmizdə bu sahənin inkişafı üçün təbii şərait və zəngin bitki ehtiyyatları, xüsusilə də müalicəvi-dərman bitkiləri vardır. Bunlardan yararlanaraq geniş çeşiddə qida məhsulları, o cümlədən çörək-kökə məmulatları və içkilər hazırlamaq mümkündür. Belə məhsulların bir çoxunun antioksidant, antimikrob və antikansoregen təsirli olması onların müalicəvi-profilaktiki məqsədlərlə istifadə olunma ehtimalını artırır.

Qida məhsullarının keyfiyyətinin saxlanılmasında, onların bioloji təhlükəsizliyinin təmin olunmasında və xarici təsirlərdən qorunmasında qablar və qablaşdırma materialları başlıca rol oynayır. Qablaşdırma materialının düzgün seçilməsi qida məhsuluna cəlbedici əmtəə görkəmi verir və onun saxlanılma müddətini artırır.

Hazırda qida məhsulları üçün çox müxtəlif qablaşdırma materiallarından istifadə olunur. Məsələn, kağız, karton, sellafon polimer və kombinə edilmiş materiallar, tənəkə, şüşə, alüminium və s.

Lakin geniş istifadə olunan polimer sintetik qablaşdırma materialları və pərdələrin müəyyən çatışmazlıqları vardır. Əvvəla onlar bərpa olunmayan təbii ehtiyyatlardan (neft, daş kömür, qaz və s.) istehsal olunur. İkinci bir tərəfdən plastikin son vaxtlara qədər üstünlüyü hesab olunan onun uzun ömürlü olması, perspektivdə planetin ekologiyası üçün təhlükə törətmiş olur.

Qeyd etmək lazımdır ki, dünyada hər ilə 8-10% artımla 200 mlyn.ton plasmas istehsal olunur. Onların hamısı vaxtaşırı tullantıya gedir. Bununla bağlı ekoloji problemin kəskinləşməsi 70-ci illərin ortalarında alimləri biopolimerlərdən bioparçalanan qablar istehsalında istifadə imkanlarına diqqət yönəltməyə vadar etdi. Sintetik polimerlərə bioloji parçalanmaq xüsusiyyəti verən çoxsəmərəli və geniş yayılmış üsul – polimer qarışığına müxtəlif nişastalar vurulmasıdır.

Son vaxtlar istismar xüsusiyyətlərini yalnız müəyyən müddət saxlayan, sonra isə təbii şəraitdə fiziki-kimyəvi və bioloji çevrilmələrə məruz qalan biopolimerlərə üstünlük verilməkdədir. Bioparçalanan plastiklər kompostlaşdırılmada mikroorqanizmlərlə (bakteriyalar, göbələklər) parçalanırlar. Bioparçalanan plastiklər təbii və sintetik polimerlər və onların qarışığından alına bilər. Bioparçalanan plastiklər tamamilə və bir qədər parçalanan ola bilər.

Hazırda yeyinti sənayesində prinsipcə yeni qablaşdırma materialları yaradılmasına böyük əhəmiyyət verilir. Həmin material zəhərli olmamalı, tullantıya asan getməli, məhsulu mikrob yoluxmasından və havanın oksigeninin təsirindən səmərəli qorumalı, saxlanılma və istehsal prosesində məhsul itkilərinin qarşısını almalıdır. Bununla əlaqədar olaraq, dünyanın bütün alimləri yeyilən qablaşdırma materiallarının yaradılması və çeşidinin artırılmasına xüsusi diqqət verirlər. Belə qablaşdırma materialı qida məhsulu ilə birgə istifadə olunmaqla ətraf mühiti çirkləndirmədən, məhsulun dozalaşdırılmasını və porsiyalara ayrılmasını sadələşdirir.

Yeyilən pərdə və örtüklər almaq üçün polimer quruluşa malik çox müxtəlif təbii maddələrdən, məsələn, bitki və heyvan mənşəli zülallardın, polişəkərlərdən, lipidlərdən və s. istifadə olunur. Müdafiə pərdələrinin və örtüklərinin tərkibinə onların əsasında müxtəlif əlavələr, başlıcası, plastifikatorlar, yağ turşuları, həmçinin konservantlar, antioksidantlar, bakteriosinlər və s. daxil edilir. Belə «fəal» qablar daha yüksək müdafiə və istismar göstəricilərinə malik olur. Onlarda qoyulmuş məhsulun gərəkli xassələrinin və mikrobioloji stabilliyinin uzun müddət saxlanmasını təmin edir. Hazırda ət, toyuq, quru səhər yeməyi, qənnadı məmulatları, tərəvəz, meyvə və s. qida məhsullarının qablaşdırılmasında yeyilən örtüklər kolleqan, süd zülalı – kazein, soya zülalı, jelatin, nişasta, sellüloza efirlərindən istifadə olunmaqdadır. İstehsalda əmələ gələn qalıqlar təbii vəziyyətdə itkisiz 2-3 gün müddətində saxlanılır. Uzunmüddətli saxlanılmada onlar qidalılıq xüsusiyyətini itirərək turşuyur, çürüyür, qıcqırır, ətraf mühiti çirkləndirir.

Hazırda, az istifadə olunan qalıqlara – şəkər çuğunduru sənayesində filtrdə qalan çöküntü, spirt sənayesində mayadan və spirtdən sonrakı barda, nişasta istehsalında kartof şirəsi, qıcqırmada əmələ gələn karbon qazı və spirt və pivə bişirmə sahəsində ikinci qıcqırma qazı aiddir. Gündə 3 min ton şəkər çuğunduru emal etmək gücündə olan zavodda əmələ gələn filtr çöküntüsünü saxlamaq üçün 5 ha torpaq sahəsi tələb olunur. 5 min ton kartof şirəsinin yalnız 20%-ə qədəri istifadə olunur. Spirt sənayesində əmələ gələn karbon qazının 20%-i istifadə olunur, qalanı atmosferə atılaraq, istixana səmərəsini gücləndirir. Ümumiyyətlə, ikinci məhsulların xeyli hissəsi səmərəsiz istifadə olunur, bəzən zibilə və su mənbələrinə atılır ki, bu da təbiətə böyük ekoloji zərbə vurur.

Qeyd olunanlara əsaslanaraq belə nəticəyə gəlmək olar ki, təhlükəsiz qida məhsulları yaradılması üçün sağlam məhsullar istehsalının yeni elm tutumlu texnologiyası işlənib hazırlanmalı və bunun üçün bir sıra istiqamətlərə xüsusi diqqət yetirilməlidir:

- təhlükəsiz qida məhsulları istehsalının qanunvericilik bazasının formalaşdırılması;
- əhalinin həqiqi vəziyyətə dair geniş məlumatlandırılması və ekoloji savadsızlığın aradan qaldırılması;
- yüksək keyfiyyətli və ekoloji təhlükəsiz ərzaq xammalı istehsalının təmin olunması;
- qida məhsullarının ekoloji təhlükəsiz qalıqsız texnologiyasının və keyfiyyətinə nəzarət metodlarının işlənməsi;
- funksional profilaktiki, müalicəvi qida məhsullarının texnologiyasının işlənib hazırlanması;
- ərzaq xammalı və qida məhsullarının müasir saxlanılma və nəql olunma texnologiyası;
- qida məhsulları üçün mövcud və yeni qablaşdırma növlərinin təkmilləşdirilməsi;
- məhsul haqqında dolğun istehlak məlumatları, onun istehsalçısı, təhlükəsiz yanaşma tələbləri, nəql olunma daxil olmaqla istifadə və tullantıya getmə, həmçinin də istehsalçılar və qablaşdırılma xüsusiyyətləri, o cümlədən də ekologiyalaşdırılması;
- müasir avadanlıq və cihazlara malik olmaqla yerli və idxal olunan qida məhsullarının keyfiyyəti və təhlükəsizliyinin monitorinqi təmin edilməli, yüksək ixtisaslı mütəxəssis-analitiklər hazırlanmalıdır.

Namazov Q.M., dosent
Bakı Biznes Universiteti

TƏHSİLİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNDƏ İNSAN KAPİTALININ ROLU

21-ci əsrdə təhsil anlayışının ictimai həyatda rolu danılmazdır. Təhsil şəxsiyyətin bacarıq və vərdişlərinin formalaşdırılmasının elə bır səviyyəsidir kı,bu zaman o əqli yetkinlik və fərdi inkişafa yiyələnir.Təhsil sisteminin modernləşdirilməsini həyata keçirməklə insanların və cəmiyyətin dinamik inkişaına nail olmaq mümkündür.

Ümumilikdə isə təhsil iki istiqamətdə: informasiya texnologiyalarının və kapitalın inkişafı ilə xarakterizə olunan iqtisadi inkişafı şərtləndirir.

Müasir informasiya dövründə yeni faktlar və biliklər elə sürətlə yaranır ki, cəmi bir neçə il əvvəl öyrəndiyimiz biliklər ya oz əhəmiyyətini itirir,ya da onun yanlışlığı isbat edilir və insan dünyagörüşünü yenidən formalaşdıran biliklər meydana gəlir. İnsan savadlılıq təhsili almaqla, yəni oxunu, yazını və ilk hesab əməliyyatlarını öyrənməklə, getdikcə təbiət elmləri, humanitar biliklər, bədən tərbiyəsi sahəsində təhsil almaqla həyatın bir çox imkanlarından istifadə edərək cəmiyyətə fayda verə bilən şəxsiyyətə çevrilir.

Təhsil sistemi ilə bir çox vəzifələri yerinə yetirməklə yanaşı aşağıdakı iki vəzifəni də yerinə yetirmək mümkündür:

- şəxsiyyətin intellektual tələblərini ödəməlidir;
- cəmiyyətin peşəkar potensialını möhkəmləndirməlidir.

Bu vəzifələrin yerinə yetirilməsi baxımından təhsil sisteminin əsas funkiyaları aşağıdakılardır:

- Öyrənənin şəxsiyyətinin və onun özəl bacarığının inkişaf etdirilməsi;
- Öyrənənin peşəkar hazırlığı;
- Cəmiyyətin elmi potensialının formalaşdırılması.

Xarici ölkələrin təhsil sisteminin təhlili və təcrübələrə əsasən müəyyən olunmuşdur ki, təhsil sisteminin əsasən iki növündən istifadə olunur: elmi nəzəri təhsil (akademik), peşəkar və ya praktik təhsil

Ölkədəki təhsilin keyfiyyəti və davamlı iqtisadi artım bir-biri ilə düz mütənasibdir. Yəni keyfiyyətli təhsil insanın əmək fəaliyyətinin başlanğıcından sonunadək məhsuldar həyatı və davamlı təhsili üçün zəmin yaradır. Həmçinin savadlığın orta səviyyəsindənsə əhali arasında ibtidai təhsilin əhatə dərəcəsi iqtisadi artımın daha dəqiq amili hesab olunur.

Təhsilin keyfiyyəti anlayışı çoxşaxəli(çoxdəyişənli) və dinamik anlayışdır (funksiyadır). Onun mənası onu kimin dəyərləndirilməsindən, hansı meyar və gösricilərdən istifadə edilməsindən, hansı məqsədlərin qoyulmasından, təhsil prosesi iştirakçılarının (məktəblilər, valideynlər, alimlər, institutlar, dövlət adamları, yerli icma, milli azlıqlar və s.) mövqeyindən, dəyərlərindən və dünya-görüşündən asılı olaraq dəyişə bilər.

Təhsilin keyfiyyəti haqqındakı müxtəlif anlayışları seçib bir araya gətirməklə onun dəyərləndirilməsi üçün istifadə olunan göstəriciləri qruplaşdırmaqla aşağıdakı nəticəyə gəlmək olar.

Ölkədə təhsilin məqsədi yüksək savada və biliyə malik insan kapitalının inkişafı üçün dünya təcrübəsinə malik professor-müəllimlərin, idarəçilərin və bazar rəqabətinə malik kadrların yetişdirulməsidir.

Təhsilin keyfiyyəti insanın neçə il oxuması ilə deyil, öyrəndiklərinin onun və ətrafındakılarının həyatı üçün faydalılığı ilə ölçülür (faydalılıq əmsalı k-ilə işarə edək).

Bu isə çoxdəyişənli funksiyalar üçün dinamik proqramlaşdırma məsələsinin k-faydalılıq əmsalının maksimumunun tapılmasından ibarət olan bir riyazi dinamik məsələdir. Təhsil sistemdə fasiləsizlik, insanların müasir təlim texnologiyalarından və vasitələrindən istifadə edərək təhsili müstəqil öyrənmə vərdişlərinə yiyələnməsi prosesi insan kapitalının yüksəldilməsi qarşıda duran ən aktual və təsirli məsələdir.

Təhsilin keyfiyyəti barədə müxtəlif göstəriciləri məqsədə uyğun qruplaşdırmqla faydalılıq əmsalının yüksəldilməsi üçün dinamik proqramlaşdırma məsələsinin tərtibi və həllinin tapılması qarşıda elmi əsaslara söykənən əsas məsələlərdən biridir.

Mükəmməl akademik və praktik təhsilə əsaslanan təhsil sistemi ölkənin iqtisadi inkişafını neftdən asılı olmamasını təmin edir, olkə vətəndaşlarının yaşayış səviyyəsinin yüksəldilməsini və hərbi qüdrətini yüksəldir.

Nəzərəliyev S.B.,
İqtisad elmləri namizədi, dosent
Azərbaycan İqtisad Univeristeti

MÜASİR ŞƏRAİTDƏ SAHİBKARLARIN İQTİSADİ MARAQLARININ TƏMİNATINDA TİCARƏT SİYASƏTİNİN FORMALAŞMASININ HÜQUQİ ƏSASLARI

Respublikada ticarət siyasətinin alətlərindən istifadə olunduğu qloballaşma mühitində ölkəmizdə ticarət münasibətlərinin formalaşması milli istehsal prosesinin ayrılmaz hissəsi olmaqla reallaşmaqda olan iqtisadi islahatlar göstərir ki, belə uğurlu iqtisadi siyasət ölkənin ticarət münasibətlərinin tənzimlənməsi tədbirlərinin tərkib hissəsi hesab olunur. Hazırkı iqtisadi mühitdə dövlət ticarət münasibətlərinin formalaşmasına makrosəviyyədə təsir göstərərək qlobal ticarət münasibətlərini reallaşdırır. Ölkədə ticarət münasibətlərinin mövcudluğu kompleks norma və normativlərə əsaslanır, yəni o beynəlxalq hüquqi normalara uyğun olaraq fəaliyyət göstərir. Ölkəmizdə ticarət münasibətlərinin formalaşmasının hüquqi bazasının yaranması məqsədilə dövlət tərəfindən tənzimlənməsi tədbirləri aşağıdakı istiqamətdə labüddür:

- ticarət münasibətlərini tənzimləyən orqanların statusunun aşkarlanması;
- ticarət münasibətlərinin dövlət tənzimlənməsini aşkarlamaq, respublikada müştərək xarici sahibkarların formalaşmasının normativ aktlarını tərtib etmək;
- ixrac rejimini aşkarlamaq, ixracı lisenziyalaşdırmaq, məhsulların idxal-ixrac qaydasını aşkar etmək və s.

Dünya bazarında sabit çıxış etmək məqsədilə hər bir dövlət həyati əhəmiyyətə malik olan xarici ticarət münasibətlərini müəyyənləşdirməlidir. Bu baxımdan xarici ticarət münasibətlərinin formalaşdırılması zamanı dünya iqtisadiyyatında gedən bir

sıra proseslər diqqət mərkəzində olmalıdır. Hazırki dünya iqtisadiyyatında gedən iqtisadi və siyasi olaylar beynəlxalq çərçivədə ticarət əlaqələrinə təsir edən əsas faktordur. Ticarət münasibətlərinə təsir göstərən faktorları aşağıdakı kimi qruplaşdırmaq olar: ETT; istehsal, ticarət, maliyyə, kommunikasiya, informasiya sferasında müasir innovatik nailiyyətlərin qlobal səviyyədə tətbiqinə uyğun olaraq ETT; enerji-xammal və istehsal problemləri; demoqrafik və ekoloji problemlər.

Hazırki iqtisadi mühitdə durmadan artan elmi-texniki tərəqqi xarici ticarət münasibətlərində vacib faktora çevrilmişdir. Sənayecə inkişaf etmiş dövlətlər xarici ticarət kanallarına getdikcə daha çox elmtutumlu və innovatik məhsullar çıxarırlar. Belə ki, ticarət siyasətinin alətlərindən istifadə olunduğu qloballaşma mühitində dünya ticarətinin yarısından çoxu sənaye məhsullarından ibarətdir. İstənilən bir dövlətdə sənaye məhsullarına əsaslanan ixracatın sürətlə inkişafının mühüm səbəbi intensiv texnologiyanın tətbiqidir.

Texnoloji yenilik istehsalda başqa-başqa dövlətlərlə müqayisədə fərqli xüsusiyyətə malik olurlar və yeniliyin tətbiq edildiyi mal üzrə həmin dövlət digər dövlətlərə nisbətən vacib üstünlük əldə edir. Həmin müasirlik dünya praktikasında yayılana qədər istehsal olunan məhsullar bu yeniliyə malik olmayan digər dövlətlərə ixrac edilir. Onu ixrac edən dövlət isə müvəqqəti şəkildə bu sferada inhisarçı mövqeyində çıxış edirlər. Bu inhisar vəziyyətinin ömrü həmin yeniliyi başqa dövlətlər mənimsəyənə qədər davam edir. Texnoloji inkişaf durmadan davam etdiyi və dünya bazarına daim təzə məhsullar daxil olduğuna görə texnoloji üstünlük bir məhsuldan başqa məhsula, bir dövlətdən başqa dövlətə keçir və həmişə davam edir.

Ticarət münasibətlərinin qurulmasının əsasını beynəlxalq və milli iqtisadi dinamikaya əsaslanaraq vacib faktorların və mühüm kriteriyanın aşkarlanması təşkil edir. Xarici ticarət münasibətləri sferasında bu dinamikanın həm makro, həm də mikro səviyyəsini izah etmək olar. Mikrosəviyyədə biznes qurumları, firmalar və iri transmilli sahibkarlar öz fəaliyyətlərini qurmaq məqsədilə xarici ticarət münasibətləri sistemində baş verən hadisələri və prosesləri nəzarətdə saxlayır. Mikrosəviyyədə isə mühüm faktorlar xarici sərmayəli sahibkarların formalaşdırılması, sərmayədarların birgə müəssisələri, transmilli sahibkarlıq subyektlərinin filiallarının sayı, bölgüsü və digər göstəricilərindən istifadə etməkdən ibarətdir. Makrosəviyyədə dinamika dünya təsərrüfatında baş verən proseslərlə bağlı olan dəyişikliklərdir.

Əmtəə strukturuna görə ticarət əməkdaşlığında müşahidə olunan dinamik proseslər hazır məhsulun ixracının idxalına nisbətən artmasındadır. Yanacağın yuxarı həcmdə idxalı, xammalın eyni həcmdə həm ixracı, həm də idxalı bu strukturu əks etdirir. Əgər 70-ci illərdə beynəlxalq dövriyyədə sənaye məhsullarının ticarəti sonra xammal üstünlük təşkil edirdisə, 80-ci illərdən başlayaraq sənaye məhsullarının, innovasiyalı məhsulların mübadiləsi güclənmişdir. Həmçinin inkişaf etmiş dövlətlərin ixracında hazır məhsullar, idxalda isə xammal üstünlüyə malik olmuşdur.

Ölkəmiz suverenlik qazandıqdan sonra ticarət münasibətlərini müasir bazar iqtisadiyyatı prinsiplərinə uyğun olaraq formalaşdırdı. Azərbaycanın iqtisadiyyatında sahibkarların iqtisadi maraqlarının təminatının yaxşılaşdırılması məqsədilə bazar prinsiplərinin inkişaf etməsi daxili bazarın əmələ gəlməsinə və ticarətin inkişaf etməsi ilə nəticələn-

mişdir. Daxili bazarın genişlənməsi isə istehsal və istehlak vasitələrinə olan tələbatın artmasına səbəb olmuşdur. Ticarət münasibətləri sistemində respublikanın xarici ticarət münasibətləri xüsusi yer tutur. Respublikada xarici ticarət münasibətləri beynəlxalq prinsiplərə uyğun tənzimlənir və bu məqsədlə ticarətin aparılması qaydası, əmtəələrin nəql olunması, müqavilələrin yerinə yetirilməsi vaxtı, əmtəələrin nəql olunmasında məsuliyyətli şəxs və onun mühafizəsi, səhiyyə standartlarının qorunması, gömrük tarifi normativləri kimi göstəricilərdən istifadə edilir. Əmtəələrin tədavülü milli bazarlar hüdudundan kənara çıxır və nəticədə ticarət münasibətləri genişlənir.

Ölkəmizdə qəbul olunmuş bir sıra qanunvericilik aktları xarici sahibkarlıq subyektlərinin respublikaya marağını artırmışdır. Belə ki, «Xarici investisiyaların qorunması haqqında» qəbul olunmuş qanuna uyğun olaraq ölkəmizin ərazisində xarici sərmayə qoyuluşunun hüquqi və iqtisadi prinsipləri aşkar edilmişdir. Nəticədə dövlətdə sahibkarlıq subyektlərinin işinin yaxşılaşdırılması istiqamətində faydalı imkan yaranması məqsədilə zəruri məsələlər bu qanunda öz əksini tapmışdır.

Tədqiqatlardan məlum olur ki, ölkəmiz digər MDB dövlətləri ilə müqayisədə potensial sərmayədarlara görə aşağıdakı bir sıra üstünlükləri ilə fərqlənir:

- infrastruktur və istehlak bazarı baxımından potensial tutumlu daxili bazarın mövcudluğu;
- xammal və yanacaq mənbələrinin fərqliliyi;
- əsas istehsal vəsaitlərinin və torpağın nisbətən aşağı qiymətə olması;
- ölkəmizin əmək bazarında differensasiyanın olması;
- bazara yönələn üstün texnologiyalı istehsalın təşkilinə imkan verən önəmli elmi-texniki potensialın və reallaşdırılmamış innovatik ideyaların olması;
- ölkəmizin biznes qurumlarında Qərb texnologiyaları ilə nisbətən az xərclə ixracatqabiliyyətli məhsulların istehsalı;
- beynəlxalq əmək bölgüsü çərçivəsində transmilli sahibkarlıq subyektlərinin diversifikasiyası məqsədilə üstün texnologiyalı biznes qurumlarından və yüksək ixtisaslı işçi qüvvəsindən səmərəli istifadə olunması.

Hazırki mühitdə sahibkarlıq subyektlərinin işini daha da genişləndirmək məqsədilə tənzimlənməli, mənfəətin və əsas kapitalın ixracı məhdudlaşdırılmalı, sərmayələrlə məqsədilə güzəştlər edilməlidir. Sahibkarlıq subyektlərinin işini şövqləndirmək məqsədilə normativ hüquqi aktların dünya standartlarına uyğun şəkildə yaxşılaşdırılması də vacib faktorlardandır. Ölkəmizdə bu istiqamətdə bir sıra tədbirlər reallaşdırılmışdır. Qiymətlərin liberallaşması, xarici ticarətin stabilləşdirilməsi və digər tədbirlər respublikaya xarici dövlətlərin və transmilli sahibkarlıq subyektlərinin marağını daha da artırmışdır. Ümumiyyətlə, sahibkarlıq subyektlərinin işinin tənzimlənməsinə kompleks yanaşmaq məqsədəuyğundur və dövlət sərmayənin tənzimlənməsində iqtisadi mexanizmlərdən daha səmərəli istifadə etməlidir. Bunun üçün fərqli vergi sistemin tətbiq olunmalı, amortizasiya üzrə güzəştlər olmalı, antiinhisar tədbirləri görülməli, təbii ehtiyatlardan istifadə şərtləri aşkarlanmalı, qiymətqoyma siyasəti reallaşdırılmalıdır.

Bazar iqtisadiyyatı şəraitində Azərbaycan sahibkarlarının iqtisadi maraqlarının təminatının yaxşılaşdırılması məqsədilə xarici sərmayələrin yönəldilməsi sərmayə siyasətində baş verəcək ciddi keyfiyyət dəyişikliklərinin aparılmasını tələb etdiyinə görə

onların tənzimlənməsi məsələlərinin həlli vacib əhəmiyyətə malikdir. Dövlətdə bu məqsədlə milli proqram işlənib hazırlanmış, burada sahibkarların yönəldilməsinin prinsipləri və mexanizmləri öz əksini tapmış, həmçinin sərmayənin prioritet sferaları üzrə ticarət əməkdaşlığı və onun səmərəlilik formaları göstərilmişdir.

Sahibkarların iqtisadi maraqlarının təminatının yaxşılaşdırılması üçün milli iqtisadiyyata yönəldilmiş xarici sahibkarlıq subyektlərinə görə zəruri təminatlar verilməlidir. Dövlətdə xarici sahibkarlıq subyektlərinin işi hüquqi cəhətdən tam müdafiə olunur**.** Sərmayə qoyuluşu şəraiti dəyişdikdə on il ərzində xarici sahibkarlıq subyektlərinə sərmayənin qoyulduğu zaman qüvvədə olmuş qanunvericilik tətbiq edilir. Ölkəmizdə xarici sahibkarların vəsaitləri xalqın mənafelərinə zərər vuran hallar istisna olmaqla milliləşdirilmir. Milliləşdirmə haqqında qərarı Milli Məclis qəbul edir.

Ticarət siyasətinin alətlərindən istifadə olunduğu qloballaşma mühitində dövlətdə iqtisadi islahatların davam etdirilməsi, biznes şəraitinin daha da yaxşılaşdırılması, neft sektoru ilə bərabər qeyri-neft sektorunun inkişaf etdirilməsinə dair tədbirlər reallaşdırılır. Azərbaycan sahibkarlarının iqtisadi maraqlarının təminatının yaxşılaşdırılması və investisiyaların cəlb olunması məqsədi ilə hökümət tərəfindən «açıq qapı» siyasəti reallaşdırılır. Xarici sərmayələrin, hazırki texnologiyaların, dünya idarəetmə praktikasının milli iqtisadiyyata yönəldilməsi yolu ilə yuxarı keyfiyyətli, rəqabətədavamlı məhsulların istehsal edilməsi ölkəmizin aşkarladığı iqtisadi inkişaf strategiyasıdır.

Ticarət əməkdaşlığının inkişaf etdirilməsi məqsədilə dünyanın inkişaf etmiş dövlətləri 1948-ci ildə fəaliyyət göstərən «Tariflər və Ticarət üzrə baş Saziş» infrastrukturunun (GATT) prinsiplərinə uyğun fəaliyyət göstərirlər. «Tariflər və Ticarət üzrə baş Saziş»in mühüm prinsipi qarşılıqlı ticarətdə iştirakçı dövlətlər üçün daha çox faydalı mühitin formalaşması, ayrı-seçkiliyin olmaması, qarşılıqlı güzəştlər və gömrükxana rüsumlarını, habelə digər çətinliklərin aradan qaldırılmasına imkan yaratmışdır. Hazırda «Tariflər və Ticarət üzrə baş Saziş»in tələblərinə uyğun şəkildə yaradılmış və fəaliyyət göstərən Ümumdünya Ticarət Təşkilatı (ÜTT) mövcuddur. Qeyd edək ki, ÜTT 1.01.1995-ci ildə yaradılıb və indiyədək öz sıralarında 161-dən çox dövləti cəmləşdirir. Hazırda bu quruma üzv qəbul olunmaq məqsədilə 29 dövlət rəsmi müraciətlə çıxış edib. Əslində ÜTT GATT-ın və onun davamı olan Uruqvay raundunun (Uruguay Round) bazasında yaranıb.

Ölkəmizin dünya dövlətləri və nəhəng iqtisadi qurumları ilə münasibətlərin və kompleks layihələrin reallaşdırılması sahibkarların iqtisadi maraqlarına uyğun ticarət siyasətinin alətlərindən istifadə olunması nəticəsində mütərəqqi texnologiyaların və əlverişli praktikaların milli iqtisadiyyatda tətbiqində, ərzaq təhlükəsizliyinin, o cümlədən bir sıra dağlıq və yuxarı dağlıq ərazilərdə sahibkarlığın inkişafında müsbət əhəmiyyəti olmuşdur. İqtisadi islahatlar inkişaf etdikcə, əlverişli xarici praktikadan istifadə olunduqca, qanunvericilik bazası beynəlxalq standartlara uyğunlaşdırıldıqca faydalı biznes şəraiti daha da yaxşılaşacaq və Azərbaycan sahibkarlarının iqtisadi maraqlarının təminatı yaxşılaşmaqla dünya təsərrüfat sistemində əlverişli yerlərdən birini tutacaqdır.

Həsənova M.H.,
iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

İQTİSADİ İNKİŞAFIN İNNOVATİV İSTİQAMƏTLƏRİ

Müasir dövrdə ənənəvi iqtisadiyyatdan "bilik iqtisadiyyatına" keçid Azərbaycan Respublikasının qarşısında duran ən vacib problemlərdəndir. Burada məqsəd dünya ölkələrində gedən inkişaf proseslərindən geri qalmamaq, iqtisadiyyatın rəqabət qabiliyyətini yüksəltmək, səmərəliliyin artırılmasını təmin etməkdir. Beynəlxalq iqtisadi sistemə inteqrasiyanın əsas yolu əlverişli innovativ şəraitin yaradılmasından keçir. Aparılmış ardıcıl uğurlu islahatlar nəticəsində regional və makroiqtisadi göstəricilər üzrə müsbət iqtisadi artım müşahidə olunmuşdur.

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında ölkədə davamlı inkişafı təmin edən başlıca istiqamətlər öz əksinin tapmışdır. Proqramın əsas ideyası paytaxt ilə regionların inkişafı arasında fərqin azadılması, bölgələrdə müasir infrastrukturun yaradılması, yeni iş yerlərinin açılması, sosial-mədəni obyektlərin inkişaf etdirilməsi və layiqli həyat səviyyəsinin təmin edilməsinən ibarətdir. Bütün bu qeyd edilənlər iqtisadiyyat sahəsində innovasiya yönümlü inkişaf nəticəsində mümkündür. İnnovasiya yönümlü inkişafın əsas parametrlərinə elmi-texniki-texnoloji yeniliklərin istehsal və xidməti sahələrinə tətbiqi, mütərəqqi idarəetmə formaları, rəqabət qabiliyyətli məhsul istehsalı, kadrların bilik, peşəkarlıq potensialının artırılması daxildir.

Lakin innovasiya prosesləri hər bir ölkənin ənənəvi tarixi inkişaf xüsusiyyətlərindən, iqtisadi inkişaf səviyyəsindən, maliyyə dayanıqlılığından, kadr potensialının imkanlarından, seçilmiş sosial-iqtisadi strategiyadan asılı olaraq müxtəlif istiqamətlərdə həyata keçirilir. İnnovasiya yönümlü səmərəli inkişaf ilk növbədə elmlə iqtisadiyyatın koordinasiyasının yaradılmasını, əldə edilmiş yeniliklərin iqtisadiyyata tətbiqini tələb edir. Müasir dövrdə elmlə iqtisadiyyatın inteqrasiyası prosesi gedir. Elmin iqtisadiyyata təsiri getdikcə artır, bilik və innovativ texnologiyaların iqtisadiyyata tətbiqi aktivləşir.

Son dövrlərdə dövlət elm və iqtisadi fəaliyyətlə məşğul olan subyektlərin səmərəli qarşılıqlı əlaqəsinin formalaşmasına daha çox diqqət yetirir.

Müəssisələrdə işçilərin innovativ potensialının artırılmasına əlverişli şərait yaradılmalı, kreativ təkliflər dəstəklənməli, yeni layihələr, ideyalar, ixtiralar hüquqi cəhətdən sənədləşdirilməlidir.

Prezident İlham Əliyevin şəxsi təşəbbüsü və dəstəyi nəticəsində texnoparkların yaradılması və istifadəsi iqtisadiyyatın innovasiya yönümlü, səmərəli inkişafında əsas istiqamət kimi diqqəti cəlb edir. Hazırda Sumqayıt, Minqəçevir və digər şəhərlərdə istifadəyə verilən texnoparklar paytaxt və regionlar səviyyəsində sənayenin inkişaf perspektivlərini nəzərdə tutur. Texnoparkların fəaliyyətində mühüm istiqamətlərdən biri də onun ali təhsillə sıx əlaqələndirilməsidir. Yəni texnoparkın mütəxəssislərinin ali təhsil müəssisələrində tədrisə cəlb olunması və tələbələrin həmin məkanda təcrübə keçməsi, gələcəkdə qabiliyyətli tələbələrin işə dəvət olunması çox mühüm addım hesab edilə bilər.

Müasir dövrdə qəbul edilmiş dövlət proqramlarında qeyri-neft sektorunda, o cümlədən, iqtisadi zonalar üzrə inkişafın prioritet istiqamətləri müəyyən edilmişdir. Dövlətin struktur siyasətinin tərkib hissəsi kimi qeyri-neft sektorunun inkişafı, innovasiya texnologiyalarının daha geniş tətbiqi sahibkarlığın inkişafı, ixrac potensialının artırılması, regionlarda həyat səviyyəsinin yüksəldilməsi, alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması, informasiya və kommunikasiya texnologiyalarının, elmin, təhsilin inkişafına xüsusi diqqət verilmişdir. Elmin inkişafı ilə bağlı mühüm sənədlər qəbul edilməklə yanaşı bu sahənin maliyyələşməsi də daim dövlətin diqqət mərkəzində olmuşdur. Fikirlərimizi dövlət büdcəsində son dövrlərdə elmə ayrılan maliyyə vəsaitlərinin artım dinamikası da təsdiq edir. Belə ki, Dövlət Büdcəsində elmə 2016-cı ildə 100, 2, 2017-ci ildə 115,9 milyon manat xərclənmiş, 2018-ci ildə isə 128,1 milyon manat maliyyə vəsaiti ayrılması nəzərdə tutulmuşdur.

Elmin inkişaf istiqamətləri bir başa sahibkarlıq fəaliyyəti ilə qarşılıqlı vəhdət təşkil etməli və ona xidmət göstərməlidir. Qeyd edilən qurumlarla sahibkarlıq subyektləri arasında əməkdaşlıq aşağı səviyyədədir, bu isə özünü məhsulun elm tutumunun inkişaf etmiş ölkələrdəki səviyyəsindən aşağı olmasında göstərir.

Ölkədə innovasiya fəallığının artırılması sahəsində həlli vacib məsələlərə aşağıdakıları aid etmək olar:

- elmlə iqtisadiyyatın əlaqəsinin hüquqi sərhədlərinin müəyyən edilməsi;
- elmi-tədqiqat institutları ilə ali təhsil müəssisələri arasında koordinasiyaya nail olunması;
- müasir iqtisadi inkişafın tələblərinə uyğun yeni tədqiqat qurumlarının yaradılması və vahid mərkəzdən koordinasiya edilməsi;
- yeni tipli biliklərin tətbiqinə əsaslanan iqtisadiyyatın formalaşması;
- innovasiyalı məhsul hesabına bazar seqmentlərinin genişləndirilməsi;
- yeni xidmət növləri və məhsullarından ibarət xüsusi intellektual bazanın yaradılması;
- elmi-texniki tərəqqi naminə innovasiya sahibkarlığının formalaşdırılması.

Babayev T.X. dosent
Bakı Biznes Universiteti

GENDER PROBLEMİ VƏ İNSAN KAPİTALININ İNKİŞAF İSTİQAMƏTLƏRİ

Azərbaycanda bazar münasibətlərinin formalaşması mərhələsi ilk növbədə əmək ehtiyyatlarının səmərəli yerləşdirilməsi və təkmilləşdirilməsi məsələsini ön plana çıxarmışdır. Bu problemin sürətli inkişafında əsas hərəkətverici qüvvə kimi insan kapitalının inkişafı və tənzim-lənməsi istiqamətlərini əhatə edir. Təbii ki, burada qadınların məşğulluğu problemi mühüm əhəmiyyət kəsb edir.

Qadınların ictimai əməkdə inkişafının əhəmiyəti təkcə onların ailənin büdcəsini zən-ginləşdirmələri ilə deyil, həm də onların şəxsi nüfuzları, ailədə hazırlanıb qəbul edilən qərarların və ailədən kənarda ictimai əlaqələrin və kontaktların qaydaya salın-

masına verdikləri töh-fələrlə izah edilir. Buna görə də hazırda başlıca vəzifələrdən biri keçid iqtisadiyyatı ölkələrdə qadınların yenicə meydana çıxan, formalaşmaqda olan əmək bazarıda hansı dərəcədə və miqyasda inkişafını müəyyənləşdirməkdən və onların yeni məşğulluq sistemində hər hansı bir şəkildə «sıxışdırılması» vəziyyətini aşkara çıxarıb tədbirlər görməkdən ibarətdir.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, qadınlar cəmiyyətin başlıca məhsuldar qüvvələrinin mühüm tərkib hissəsini təşkil edərək, onun maddi və mənəvi nemətlər və xidmətlərin yaradılmasında bilavasitə iştirak etməklə yanaşı, həm də analıq funksiyası kimi çətin və şərəfli bir vəzifəni yerinə yetirirlər.

Bütün cəmiyyətdə bir şəxsiyyət və iş qüvvəsi kimi qadınların ictimai təkrar istehsal prosesində rol və yerini müəyyən etmək üçün ictimai təkrar istehsalın və onun bir hissəsi kimi insanların təkrar istehsalı və uşaq doğulmasındakı rolunu fərqləndirmək lazımdır. Belə ki, bütövlükdə götürüldükdə, bütün cəmiyyətdə əhalinin təkrar istehsalı hər iki cinsdən – kişilərdən və qadınlardan ibarət olan əhali kütləsinin işidir. Burada qadınları kişilərdən fərqləndirən əsas cəhət başqa bir funksiyanı, uşaq doğmaq funksiyasını yerinə yetirməkdən ibarətdir. Analıq funksiyasının yerinə yetirilməsi qadınların istehsal prosesindəki iştirakını əhəmiyyətli dərəcədə azaldır.

Qadın azadlığının təmin olunması hər bir ölkədə həlli vacib məsələlərdən biridir. Ona görə də hesab edirik ki, qadın azadlığının həyata keçirilməsi, onların ictimai istehsala cəlb edilməsi, qadın əməyinin tətbiqi xarakterinin dəyişilməsi, onların iş şəraitinin yaxşılaşdırılması, bərabər əmək üçün bərabər haqq verilməsi, ana və uşaqların əməyini müdafiəsi qadınların təhsil və mədəniyyət səviyyəsinin yüksəldilməsi yolu ilə mümkündür və buna ciddi əməl olunması tələb olunur.

Hazırda qadın məşğulluğu sahəsində dövlət siyasətinin və qadın əmək potensialının səmərəli məşğulluğunun təmin edilməsi istiqamətlərinin müəyyən edilməsi iqtisad elmi qar-şısında mühüm vəzifələr qoymuşdur.

Müstəqillik əldə etdikdən sonra ölkəmizin bazar iqtisadiyyatı yolu ilə getməsi, ölkələr arasında iqtisadi əlaqələrin pozulması, iqtisadi böhran və s. qadın və kişilər arasında işsizliyin yaranıb artmasını labüd edərək məşğulluq problemiin kəskinləşməsinə səbəb olmuş və onun həllini xeyli çətinləşdirmişdir. Lakin ölkədə aparılan iqtisadi islahatlar, özəlləşmə prosesləri, yeni müəssisələrin yaradılması və s. əhalinin məşğulluq probleminin həllini xeyli yaxşılaşdırmışdır. «Məşğulluq haqqında» Azərbaycan Respublikasının 2 iyul 2001-ci il tarixli qanunu da məşğulluq probleminin həllində mühüm rol oynamışdır.

Bütün bunlara baxmayaraq qadın problemi bütün dövrlərdə olmuşdur və indi də olmaqdadır. Lakin əmək məsələsilə əlaqədar olan həm qadın, həm kişi məsələsi bir – biri ilə sıx bağlı olduğu üçün birlikdə həll edilir. Lakin Gender problemi indi bütün dünyada ön plana çəkildiyi üçün qadın əməyi ilə bağlı olan problemlərə xüsusi əhəmiyyət verilməsi tələb olunur.

Dövlətin mühüm məsələlərindən biri qadın əmək potensialından səmərəli istifadə edilməsindən ibarətdir. Bu isə öz növbəsində iqtisadiyyatın bütün sahələrində qadın əməyindən istifadə üçün zəruri olan şəraitin yaradılmasına və son nəticədə Gender siyasətinə xüsusi diqqət yetirilməsini nəzərdə tutur.

Ölkəmiz müstəqillik əldə etdikdən sonra respublikalar arasında iqtisadi əlaqələr pozulmuş, iri müəssisələrin qismən və ya tamamilə dayanması nəticəsində işsizlərin sayı artmışdır.

Statistik materialların təhlili göstərir ki, 1991-2017-cı illər ərzində işsizlər arasında qadınların xüsusi çəkisi təqribən 40 – 50 faiz arasında cərəyan etmişdir.

Keçid dövrü iqtisadiyyatı qadınların bir hissəsinin indiyədək əldə etdikləri məşğulluq və sosial təminat sahəsində nailiyyətlərdən məhrum etmişdir. Bu geriləmə dövlətin həmin sahədəki rolunun kəskin şəkildə azaldılması ilə əlaqələndirilir (Mülkiyyət formalarının dəyişməsi və dövlət mülkiyyətinin xüsusi çəkisinin azalması). Keçid dövründə qadınların geniş surətdə cəmiyyət həyatında iştirakının təmin edilməsinin mümkün olmaması bu günün reallığıdır. Lakin hesab edirik ki, keçid dövrü başa çatdıqdan sonra Gender bərabərliyi təmin olunacaqdır. Azərbaycan Respublikasının Konstitusiyasında xüsusi qeyd olunur ki, «Kişi ilə qadının eyni hüquqları və azadlıqları vardır».

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında Gender siyasətinin kökləri sovet dövrünün «Qadın məsələsi» ilə bağlıdır. Həmin dövrdə demək olar ki, qadın məsələsinə diqqət və qayğı ilə yanaşılırdı, onlar arasında bərabərlik mövcud idi. Lakin «Qadın məsələsi»nin beynəlxalq standartlara müvafiq olaraq inkişaf etdirilməsi Azərbaycanın müstəqilliyi dövrünə təsadüf edir. 1995-ci ildə Çinin paytaxtı Pekində keçirilməli olan IV Ümumdünya Qadınlar Konfrasına hazırlığın bir hissəsi kimi dövlət və qeyri – hökumət qadın təşkilatları qadın problemlərinin həll edilməsinə səfərbər olunmuşdur. Elə həmin il Azərbaycan Respublikası «Qadınlara Qarşı Ayrı-seçkiliyin Ləğv Edilməsi Haqqında Konvensiya»ı qəbul etmiş və ölkənin nümayəndə heyəti Pekin Kofransında fəal iştirak etmişdir. Nəhayət, 14 yanvar 1998-ci ildə Respublika Qadın Problemləri üzrə Dövlət Komitəsi (QPDK) yaradılmışdır.

XX əsrin axırlarına qədər demək olar ki, keçmiş SSRİ-nin bütün respublikalarında olduğu kimi Azərbaycan Respublikasında da Gender probleminin həllinə lazımi diqqət yetirilməmiş və təhlillər aparılmamışdır. Ümummilli liderimiz Heydər Əliyev MDB ölkələri arasında ilk dəfə olaraq 6 mart 2000-ci il tarixdə «Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında» fərman imzalamışdır.

Ölkəmizdə bazar iqtisadiyyatının bərqərar olması, müstəqilliyin möhkəmləndirilməsi, iqtisadi islahatların aparılması, vətəndaş cəmiyyətinin formalaşması və s. sahələrdə qadınların da üzərinə çox böyük məsuliyyət düşür. Bütün bunlar isə respublikada qadın məşğulluğu sahə-sində də xüsusi dövlət siyasətinin işlənib hazırlanmasını tələb edir.

İqtisadiyyatda qadın məşğulluğunun çox aşağı səviyyədə olması onların əksər hissəsinin ali və orta ixtisas təhsilinə malik olmaması ilə izah edilir.

Gələcəkdə bu məsələlərə xüsusi fikir verilməlidir. Ən azı ona görə ki, təhsilin inzibati idarəetmə sistemində hansısa bir qadının irəli çəkilməsində problemlər yaranır.

Fikirimcə, görüləcək bütün bu stimullaşdırıcı tədbirlər gələcəkdə gender bərabərliyinə də öz köməyini göstərəcəkdir.

Qadın hüquqlarının təmin olunması məsələsi müxtəlif iqtisadi sistemli ölkələrin əsas qanunlarında, onların bir çox başqa rəsmi sənədlərində, hətta həmin ölkələrin bir sıra beynəl-xalq bəyanatlarında öz əksini tapmışdır. Bütün bu tədbirlər qadın hüquqlar-

ının köklü prob-lemlərini həll edə bilməsə də bu sahədə öz müsbət nəticələrini də verirdi.

XX əsr qadın problemlərinin qoyuluşu və həllində, qadın hərəkatının genişlənməsi sahəsində demək olar ki, dönüş əsri olmuşdur.

Bir – birinə zidd olan iki ictimai sistemin mövcudluğu, bunların tarixən yanaşı yaşaması qadın problemini daha da aktuallaşdırmış, qadın hərəkatını cəmiyyətin aparıcı qüvvələrindən birinə çevirmişdir.

Bununla əlaqədar olaraq XX əsrdə Qərb və Şərqin, o cümlədən Azərbaycanın həyatında baş verən ictimai – siyasi və mədəni tərəqqi sahəsindəki bütün dəyişikliklərdə qadınların rolu böyük olmuşdur.

Məlumdur ki, Cümhürriyyət dövründə 1919-cu ildə Azərbaycan qadınları ilk dəfə olaraq seçmək və seçilmək hüququna malik olmuşlar. Ancaq bu da bir faktdır ki, Azərbaycan sovet-ləşəndən sonra qadınlara verilmiş bu hüquqlar qüvvədə qalmış, qadınlar ölkə həyatının bütün sahələrində özlərinə məxsus yer tutmuş, bərabər hüquqlu vətəndaşlar kimi cəmiyyətin imkan-larından istifadə etmişlər.

Ümumiyyətlə XX əsr Azərbaycan qadınlarının həyatında böyük dəyişikliklər əsri olmuşdur. Azərbaycan qadınları həyatın bütün sahələrində kişilərlə birlikdə bərabər hüquqlar qazanmış və özlərinin yaradıcılıq imkanlarından cəmiyyətə xidmət etmək üçün istifadə etmişlər. Lakin bu da bir faktdır ki, Sovet dövründə qadınlar daha çox maddi istehsal sahə-lərində fəaliyyət göstərirdilər. Kənd təsərrüfatında ağır işlərdə, yüngül və hətta ağır sənaye sahələrində zərif cinsin qüvvəsindən insafsızcasına istifadə olunurdu.

Müstəqil və demokratik yeni Azərbaycan cəmiyyətinin formalaşdığı müasir şəraitdə ictimai həyatın bütün sahələrində, xüsusilə onların əməyinə xas olan sahələrdə qadınlara diqqət daha da artmağa başlamışdır.

Azərbaycan Respublikası 1995-ci ildə qadınlara qarşı hər bir ayrı-seçkiliyin ləğv olunması ilə əlaqədar Beynəlxalq Konvensiyaya qoşulmuşdur. Lakin dünyanın bəzi demokratik ölkələri bu konvensiyanın tələblərini təmin edə bilmədiklərindən ona qoşula bilməyiblər. Bu konvensiya cinsi ayrı-seçkiliyin bütün formalarını inkar edir.

Aslanov H.H. dosent
Bakı Dövlət Universiteti

XARİCİ TİCARƏTİN GÖMRÜK TƏNZİMLƏNMƏSİ

Məlum oldugu kimi xarici ticarət xarici iqtisadi fəaliyyətin ən mühüm forması olub bu fəaliyyətin 80%-ə qədərini təşkil edir.Bu baxımdan xarici ticarətin tənzimlənməsi milli iqtisadiyyat üçün çox mühüm əhəmiyyətə malikdir.

Bu gün dünya təsərrüfatında baş verən proseslər, elmi-texnii inqilab və beynəlxalq əmək bölgüsünün dərinləşməsi fonunda istehsalın və kapitalın beynəlmiləlləşməsi düşünülmüş xarici ticarət siyasətinin aparılmasını zəruri edir. Xarici ticarət siyasəti – xarici ticarətin tənzimlənməsi məqsədi ilə dövlət tərəfindən həyata keçirilən iqtisadi , inzibati, təşkilati və hüquqi tədbirlərin məcmusudur.Bu proseslər dövlətlər arasında ticarət iqtisadi əlaqələrin genişlənməsi, çoxmillətli sahibkarlığın və xüsusilə TMK-

ların fəaliyyətinin miqyasının genişlənməsi , xarici ticarət əlaqələrinin rolunun artması və son nəticədə dövlətlərin qarşılıqlı iqtisadi asılılığının güclənməsində əks olunur.

Müxtəlif dövlətlərin xarici ticarət siyasətinin formalaşmasına dünya bazarındakı rəqabət mübarizəsi, ödəniş balanslarının artan uyğunsuzluğu da təsir göstərir.Bu səbəblər xarici ticarət siyasətində iki meylin – proteksionizm və freetrederçilik, yaxud liberalizmin daimi qarşılıqlı təsirini doğurur.

Proteksionizm- daxili bazarın xarici rəqabətin zərərli təsirindən müdafiə olunmasına və bir sıra hallarda isə xarici bazarın tutulmasına yönəlmiş xarici ticarət siyasətidir.

Proteksionist tədbirlərin tətbiqi açıq ziddiyyətli xarakterə malikdir.Bir tərəfdən proteksionist tədbirlər ayrı-ayrı mal və xidmətlərin daxili bazarını qoruyaraq yerli istehsalçılara yardım etməyi nəzərdə tutur və bununla iqtisadiyyatın inkişafını sürətləndirir. Digər tərəfdən, eyni tədbirlərin istifadə olunması rəqabət qabiliyyəti aşağı olan və perspektivsiz sahələrə yönələrsə bu iqtisadiyyatın inkişafını ləngidə bilər.

Proteksionizmin əksinə olaraq liberalizm siyasəti gömrük rüsumlarının və xarici iqtisadi əlaqələrin inkişafına əngəl yaradan digər maneələrin zəiflədilməsi və tədricən aradan qaldırılmasını nəzərdə tutur .Proteksionizm və liberalizm yalnız ölkələrin xarici iqtisadi siyasətin spesifikasını yox, həm də beynəlxalq əmək bölgüsündəki dəyişikliklərə reaksiyanı əks etdirir. Xarici ticarət siyasəti sayı daim artan geniş tədbirlər dairəsinin köməyi ilə həyata keçirilir. Bu onunla izah olunur ki, xarici iqtisadi əlaqələrin genişlənməsi ilə ölkənin beynəlxalq ixtisaslaşmada iştirakının optimallaşdırılmasının yeni vasitələri tələb olunur. Milli iqtisadiyyatın xarici amillərin zərərli təsirindən qorunması, milli istehsalçıların dünya bazarındakı mövqelərinin möhkəmlənməsi də düşünülmüş, çeşidli xarici iqtisadi siyasət tədbirlərinin tətbiqini tələb edir.

Xarici ticarət siyasətinin mühüm komponentlərindən biri gömrük siyasətidir. Azərbaycan Respublikasının gömrük siyasəti - inkişaf etmiş bazar münasibətlərinin formalaşması şəraitində siyasi və sosial-iqtisadi dəyişikliklərin dinamik həyata keçirilməsi məqsədi ilə Azərbaycanın daxili və xarici maraqlarının reallaşdırılması və müdafiəsinə yönəlmiş geniş miqyaslı siyasi-hüquqi, iqtisadi, təşkilati və digər tədbirlər sistemidir.

Gömrük siyasətinin məqsədləri aşağıdakılardır:

-Azərbaycan Respublikasının gömrük ərazisində gömrük nəzarəti və mal dövriyyəsinin tənzimlənməsi vasitələrindən daha səmərəli istifadənin təmin edilməsi;

- AR-nın daxili bazarının qorunması;

- Azərbaycanın milli iqtisadiyyatının stimullaşdırılması;

- Azərbaycan dövlətinin iqtisadi siyasətindən irəli gələn vəzifələrin yerinə yetirilməsinə yardım göstərilməsi;

- Azərbaycan Respublikasının Konstitusiyasına, Gömrük Məcəlləsinə və digər qanunvericilik aktlarına uyğun olaraq mqəyyən edilmiş digər məqsədlər.

Gömrük siyasəti ölkənin ümumi iqtisadi siyasətinin ayrılmaz tərkib hissəsi kimi çıxış edir. Bazar münasibətlərinin formalaşması və inkişafı şəraitində gömrük siyasəti daxili iqtisadi vəzifələrin yerinə yetirilməsi üçün böyük əhəmiyyət kəsb edir, belə ki, gömrük siyasəti milli iqtisadiyyatın hərtərəfli inkişafını stimullaşdırmaqla yanaşı, formalaşmaqda olan Azərbaycan iqtisadiyyatını xaricdən daxil ola biləcək destruktiv

elementlərdən və ədalətsiz rəqabətin zərərli təsirlərindən qorumaq vəzifəsini də yerinə yetirir.

Gömrük siyasətinin həyata keçirilməsi vasitələri gömrük işinin əsasını təşkil edir. Azərbaycanda gömrük işinin hüquqi bazasını təşkil edən "AR Gömrük Məcəlləsi"nin 2-ci maddəsinə görə -"Gömrük işi malların və nəqliyyat vasitələrinin AR-nın gömrük sərhədindən keçirilməsinin qayda və prinsipləri, gömrük ödənişlərinin alınması, gömrük rəsmiləşdirilməsi, gömrük nəzarəti və gömrük siyasətinin həyata keçirilməsinin digər vasitələrindən ibarətdir".

AR-nın yeni qəbul olunmuş "Gömrük Məcəlləsi"ndə gömrük işi - gömrük sərhəddindən keçirilən mallar və nəqliyyat vasitələri barəsində gömrük - tarif tənzimləmə tədbirlərindən, xarici ticarət iştirakçıları tərəfindən gömrük qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydalara və məhdudiyyətlərə riayət olunmasını təmin edən üsullar toplusundan, gömrük siyasətinin həyata keçirilməsinin digər vasitələrindən ibarətdir.

Xarici iqtisadi fəaliyyətin gömrük tənzimlənməsi xarici iqtisadi fəaliyyətin tənzimlənməsi vasitələri içərisində ən mühüm yer tutur və həlledici əhəmiyyətə malikdir. Ümumiyyətlə, gömrük tənzimləməsi dedikdə - gömrük sərhəddindən mallar və nəqliyyat vasitələrini keçirmək hüququndan istifadə edən şəxslərin riayət etməli olduğu norma və qaydaların müəyyən olunması başa düşülür. Azərbaycan Respublikasında gömrük tənzimləməsi – Azərbaycan Respublikasının gömrük qanunvericiliyinə, xarici ticarətin dövlət tənzimləməsinə dair digər qanunvericiliyə, Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinə uyğun olaraq həyata keçirilir.

Gömrük tənzimləməsi vasitələri içərisində gömrük işinin mühüm tərkib hissələri olan gömrük nəzarəti, gömrük rəsmiləşdirilməsi, gömrük prosedurları, gömrük statistikası və xarici iqtisadi fəaliyyətin əmtəə nomenklaturasının aparılması mühüm əhəmiyyət daşıyır. Xarici ticarətin tənzimlənməsi sistemindəki müstəsna əhəmiyyəti nəzərə alınaraq xarici ticarətin tarif və qeyri – tarif tənzimləməsi tədbirləri ayrıca öyrənilir.

Məhz gömrük orqanlarının ən mühüm vəzifələrindən biri gömrük sərhəddindən keçirilən mal və nəqliyyat vasitələri üzərində gömrük nəzarətinin həyata keçirilməsidir. Azərbaycan Respublikasının Gömrük Məcəlləsinin 82.3 maddəsinə görə, Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən və bu ərazidən aparılan bütün mallar və nəqliyyat vasitələri istisnasız olaraq gömrük nəzarətindən keçməlidir.

Годжаева Э .М., доцент
Бакинский Университет Бизнеса

РЕТРОСПЕКТИВНЫЙ АСПЕКТ РОЛИ ГОСУДАРСТВА В РЕГУЛИРОВАНИИ СЕЛЬСКОГО ХОЗЯЙСТВА

Реформы в Азербайджанской Республики после завоевания независимости связаны в основном с переходом к рыночным отношениям. Главенствующее место имела диверсификация, рост эффективности, уровень жизни населения, что конечно было приоритетом в финансовой системе нашей страны.

Надо отметить, что в XX веке наблюдался синтез различных экономических теорий и реальных экономических процессов, происходящих в рыночной

экономике. Прежде всего, эти особенности наблюдались в сфере государственного регулирования, а именно в сельском хозяйстве, которые обуславливались и обуславливаются его сущностной характеристикой, ролью и местом в экономике и обществе, хотя эта характеристика дается в исследованиях ученых-аграрников с различной полнотой и оценочными критериями. В ретроспективном аспекте роли государства в регулировании сельского хозяйства отводится большее или меньшее значение в зависимости от степени решения в рамках комплекса жизненно важных вопросов продовольственного обеспечения населения, а соответствующие отрасли промышленности сельскохозяйственным сырьем.

Таким образом, задачами государственного регулирования отрасли на разных этапах являлись и являются его стабилизация и развитие, а также обеспеченность продовольственной безопасности страны с целью поддержания экономического паритета между сельским хозяйством и другими отраслями экономики, что, в свою очередь, сблизит уровень дохода работников сельского хозяйства и промышленности, а также защитит отечественных товаропроизводителей на внешнем и внутреннем рынках.

Следовательно, среди особенностей функционирования АПК на современном этапе можно выделить:

- обострение вопросов, связанных с продовольственной безопасностью;
- концентрация в сельском хозяйстве и пищевой промышленности;
- усиление контроля со стороны иностранного капитала;
- недостаточность мер по поддержке сельского хозяйства и либерализацию цен в сферах услуг и промышленности в условиях вступления в ВТО.

Исходя из вышеизложенного, следует отметить, что рыночная система зависит от конкуренции хозяйствующих субъектов действующих на основе свободного выбора, совершаемого ими в стремлении получить доход.

Современная экономическая теория видит сущность конкуренции в широком рассредоточении экономической власти. Когда на конкретном рынке действует множество покупателей и продавцов, ни один покупатель или продавец не в состоянии предъявить спрос на продукт или обеспечить его предложение в объеме, достаточном для того, чтобы заметно повлиять на цену продукта. Естественно, рыночный механизм затрагивает 4 типа рыночных структур, таких как: совершенная конкуренция, монополистическая конкуренция, олигополия и монополия.

Специфический характер агропродовольственного рынка заключается в первую очередь в том, что он имеет дело с продуктами питания, потребление которых человек отложить не может. Вместе с тем потребление ограничено определенными физиологическими потребностями, что в некоторой степени определяет верхнюю границу спроса на локальном рынке.

Сельскохозяйственное производство затрагивает процессы обеспечения, что обуславливает ограниченные возможности достаточно быстро реагировать на изменения рыночных цен и менять объемы производства. При этом отдельные отрасли подвержены этому риску в различной степени в зависимости от

продолжительности производственного цикла. Следует учитывать необходимость специальных условий и ограниченные сроки хранения продукции, так как сельское хозяйство, как правило, размещено в районах, обладающих по сравнению с другими отраслями экономики менее развитой транспортной и рыночной инфраструктурой, что негативно влияет на его инвестиционную привлекательность.

Различная экономическая эффективность отдельных подотраслей сельского хозяйства, размещенных даже в пределах одного региона, ведет к вытеснению одних за счет наращивания производства в других, что может негативно сказываться на ведении севооборотов, чрезмерной нагрузки пашни, и в дальнейшем снижении урожайности и потенциала.

Сама сущность понятия конкурентоспособности подчеркивает противостояние, конкуренцию между экономическими агентами и, таким образом, способствует некооперационному поведению. Это противоречит выводам теории международной торговли, логика которой основана на общих интересах государств. В дополнение к этому оно может стать опасным, если приведет к акценту на изначальном соперничестве государств в экономических отношениях, в условиях развивающейся глобализации. Например, на мировом агропродовольственном рынке такая погоня стран за конкурентоспособностью проявляется в виде различных заградительных мер для доступа на внутренний рынок зарубежных производителей и активной поддержки экспорта продукции собственного производства со стороны развитых государств.

Такой взгляд на понятие конкурентоспособности выглядит парадоксально: сама концепция конкурентоспособности проистекает из теории использования в международном разделении труда сравнительных преимуществ национальных экономик, как то дешевый труд, богатые природные ресурсы, благоприятные географические, климатические, прочие факторы, для экспорта и импорта продукции из стран с разным уровнем обеспеченности этими факторами. В тоже время выводы о том, что стремление к достижению конкурентоспособности не объединяет, а разъединяет, подкреплены фактами из реальной экономики, с ними нельзя не согласиться.

Методики количественной оценки конкурентоспособности продукции, в том числе сельскохозяйственной, на уровне предприятия основываются на анализе данных о затратах на производство данной продукции, эффективности использования ресурсов при ее производстве, качественных характеристиках продукции. Полученные результаты сравниваются со значениями этих показателей у других предприятий, делается вывод о конкурентоспособности продукции анализируемого предприятия.

Методики оценки конкурентоспособности продукции на уровне региона и страны в целом схожи и основаны на данных торговой статистики. В случае проведения анализа конкурентоспособности производства продукции в регионе используются данные региональной торговли, если же оценивается конкурентоспособность производства продукции в той или иной стране используются дан-

ные внешней торговли этой страны. Наиболее распространенным является показатель сравнительного преимущества или RCA (Revealed Comparative Advantage), позволяющий производить оценку конкурентоспособности товара, основывающийся на его концепции о том, что конкурентное преимущество заключается в доле, занимаемой товаром на мировом рынке.

Анализ конкурентоспособности предприятий часто основан на методах экспертных оценок, выявленных исследователями критериев конкурентоспособности. Как правило, это: производство, финансы, маркетинг, управление. Другой известный метод оценки конкурентоспособности на уровне предприятия - матрица долей роста, разработанная Бостонской Консалтинговой Группой. Представляет собой матрицу 2x2: двигаясь по горизонтали, меняется рыночная доля исследуемого предприятия, по вертикали - темп роста рынка, на котором оно работает. В соответствии со своим рыночным ростом и рыночной долей компания попадает в один из четырех квадрантов, из чего делается вывод о степени ее конкурентоспособности. Так же при анализе предприятий часто используется SWOT-анализ - изучение сильных и слабых сторон компании.

Анализировать конкурентоспособность отрасли можно через коэффициенты внутренней частной стоимости ресурсов, оценивающих относительную эффективность внутреннего производства.

Конкурентоспособность стран характеризуется показателями экономического роста, развитости рыночных институтов и уровня жизни населения. Оценка производится по методике страновых рейтингов, позволяющей агрегировать критерии в более общий показатель. Этот же подход применим при анализе регионов.

Всемирный экономический форум разработал два индекса, способных дать оценку конкурентоспособности страны: Индекс роста конкурентоспособности (ИРК) и Индекс текущей конкурентоспособности (ИТК). Первый концентрируется на оценке конкурентоспособности в среднесрочной перспективе, второй - измеряет факторы, призванные обеспечить высокий уровень благосостояния в данный момент. Во главу угла поставлена способность страны добиться высоких темпов увеличения среднедушевого прироста ВВП.

Сокращение сельскохозяйственных организаций как основных производителей сельскохозяйственной продукции связано в основном с банкрот-ством и дальнейшим поглощением части из них более крупными и финансово-благополучными предприятиями. В тоже время данные о сокращении посевных площадей и снижении поголовья скота в сельскохозяйственных организациях свидетельствуют о том, что значительная их часть после прохождения процедур банкротства прекратила свою деятельность.

Одним из наиболее значимых признаков конкурентоспособности является отношение экспорта и импорта. Когда страна экспортирует больше определенного товара, чем ввозит, то можно предположить, что продукт, производимый в стране, является более конкурентоспособным. Если подходить к количественной оценке конкурентоспособности сельскохозяйственной продукции с этой позиции, то расчеты говорят о привлекательности продовольствия отечественного производства.

Таблица 1.

Наименование показателя	Январь – март 2018 года, фактически	Относительно январь – март 2018 года у 2017 г., в %
ВВП, млн ман.	17 185,1	102,3
В том числе, ВВП ненефтяного сектора	9 462,8	102,9
ВВП на душу населения, ман.	1 755,7	101,4
Промышленная продукция, млн. ман	11 143,7	102,0
Средства, направленные на обновление основного капитала, млн. ман	2 869,2	84,7
Продукция сельского хозяйства, млн. ман	823,6	104,2
Доходы госбюджета, млн. ман	4563	127,0
Расходы госбюджета, млн. ман	4408	112,7
Дефицит госбюджета , млн. ман	155	-
Среднемесячная номинальная зарплата	510,8	102,2
Внешнеторговый оборот, млн. дол.	4 439,0	131,3
Экспорт, млн. ман	2 987,5	124,4
Импорт, млн. ман	1 451,5	148,0

Как показывает таблица, видно, что в стране чистый экспорт, с учетом того, что экспорт составлял 2 987,5 млн. манат, тогда импорт 1 451,5 млн. манат, что составляет положительную разницу в 1 536 млн. манат.

Таким образом, регулирование импорта сельскохозяйственного сырья и продовольствия большое значение имеют механизмы нетарифного регулирования, в том числе требования к качеству ввозимой на территорию АР продукции. Крайне важно установление требований, предъявляемых качеству реализуемой на рынке продукции, на уровне или выше международных стандартов. Это, с одной стороны, ограничивало бы импорт и способствовало бы его замещению продукцией отечественного производства, с другой стороны, гарантировало бы потребителям предложение продукции наивысшего качества, и давало отечественным производителям конкурентное преимущество перед зарубежными производителями, работающими в условиях более низких стандартов.

Xudaverdiyeva K.A.,
iqtisad elmləri namizədi, dosent
Azərbaycan Dövlət İqtisad Universiteti

DÜNYA ÖLKƏLƏRİNDƏ BEYNƏLXALQ MÜHASİBAT UÇOTU STANDARTLARI VƏ AZƏRBAYCANDA MİLLİ MÜHASİBAT UÇOTU SİSTEMİNİN TƏTBİQİ

Uçot iqtisadiyyatın bütün sahələri üzrə müxtəlif fəaliyyət növlərini bir-birinə bağlayan halqadir. Belə ki, maliyyə hesabatı və smetaları, istehsal olunan məhsulların maya dəyərinin kalkulyasiyası, büdcə kəsirinin müəyyənləşdirilməsi, vergilər-in hesablanması və investisiya siyasətinin qiymətləndirilməsi uçotun nəticəsi hesab edilir. Başqa sözlə, mühasibat uçotu istənilən cəmiyyət üçün özündə əhəmiyyətli və faydalı fəaliyyət sferasını əks etdirir.

Son zamanlar mühasibat uçotunun beynəlxalq səviyyədə unifikasiyası məsələsinə böyük diqqət yetirilir.İqtisadiyyatın müxtəlif sahələrində beynəlxalq inteqra-siyanın rolunun artması müxtəlif ölkələrdə tətbiq olunan uçot və hesabat işlərinin eyniləşdirilməsini və hamı üçün anlaşıqlı olmasını tələb edir.

Hər bir ölkənin milli uçot sistemi mühasibat uçotunun inkişaf istiqamətlərini və tendensiyalarını özündə əks etdirən milli standartlarla müəyyənləşir. Belə ki, milli uçot sistemi mühasibat uçotu obyektlərinin qiymətləndirilməsində, təsərrüfat əməliyyatları və proseslərinin uçotda əks etdirilməsində, maliyyə hesabatları formalarının məzmunca sistemləşdirilməsində və müəssisələrin fəaliyyətinə nəzarətdə istifadə olunan metodikaların və üsulların məcmusu ilə xarakterizə olunur.

İstənilən ölkədə mühasibat uçotunun təşkilinə 2 qrup amillər təsir edir: obyektiv və subyektiv amillər. Obyektiv amillər milli iqtisadiyyatın inkişaf xüsusiyyətlərini əks etdirir və bu amillərin təsirini ölkədə qüvvədə olan normativ-hüquqi bazanın təhlili ilə qiymətləndirmək olar.

Subyektiv amillər isə qüvvədə olan mövcud normativ-hüquqi baza şəraitində mühasibat uçotunun aparılmasının daha optimal üsullarının seçilməsini müəyyənləşdirir. Bu amillərin təsirini müəssisənin uçot siyasətinin öyrənilməsi nəticəsində qiymətləndirmək olar.

Müxtəlif ölkələrdə mühasibat uçotunun inkişafının tendensiyalarının tədqiqi həmin ölkələrdə uçotun tətbiq olunan konsepsiya və metodlarının bir-birindən necə və nə üçün fərqlənmələri barədə geniş məlumatlar əldə etməyə imkan verir..

Qeyd olunanları nəzərə alaraq bir sıra müəlliflər dünyanın aparıcı ölkələrini qruplara bölərək aşağıdakı 4 mühasibat modelini müəyyənləşdirmişlər:

1. Britaniya-amerikan modeli (Böyük Britaniya, ABŞ, Hollandiya, Kanada, Avstraliya və s.);
2. Kontinental model (Almaniya, Avstriya, Fransa, İsveçrə, İtaliya və s.);
3. Cənubi Amerika modeli (Braziliya, Argentina, Boliviya və s.);
4. Qarışıq iqtisadiyyatlı ölkələr modeli (Şərqi Avropa ölkələri və keçmiş SSRİ ölkələri).

Britaniya-amerikan modeli inkişaf etmiş maliyyə və qiymətli kağız bazarları şəraitində fəaliyyət göstərir. Bu model xırda və orta səhmdar-investorların maraqlarına istiqamətlənmişdir. Uçotun bu modeli tətbiq olunan ölkələrdə mühasibat uçotunun metodologiyası müstəqil peşəkar təşkilat tərəfindən müəyyənləşdirilir. Britaniya-amerikan modelində uçotun əsas prinsipi "düzgün və obyektiv (ədalətli) informasiya" hesab edilir.

Mühasibat uçotunun Britaniya-amerikan modeli tətbiq olunan ölkələrdə əlavə maliyyə resurslarının əsas mənbəyi investorların vəsaitləridir. Bu ölkələrdə kapitalın cəlb edilməsinin əsas aləti kim qiymətli kağızlar çıxış edir. Bunun da nəticəsi olaraq uçotun Britaniya-amerikan modelinə aid olan ölkələr yüksək inkişaf etmiş qiymətli kağızlar bazarının və çoxlu sayda transmilli şirkətlərin mövcudluğu ilə xarakterizə olunur.

Uçotun Britaniya-amerikan modeli ABŞ-da, Böyük Britaniyada, Hollandiyada, Avstraliyada, Venesuelada, Qanada, Qvatemalada, Hondurasda, Honkonqda, Dominikan Respublikasında, İsraildə, Hindistanda, İndoneziyada, İrlandiyada, Kanadada, Keniyada, Kiprdə, Kolumbiyada, Malaviyada, Nigeriyada, Nikaraquada, Pakistanda,

Panamada, Yeni Qvineyada, Salvadorda, Tanzaniyada, Uqandada, Ficidə, Cənubi Afrika Respublikasında, Yamaykada və digər ölkələrdə tətbiq olunur.

Beləliklə, Britaniya-amerikan modeli üçün aşağıdakılar xarakterikdir:

- Uçotun əsasən investorların və kreditorların ehtiyaclarına istiqamətlənməsi;
- İnkişaf etmiş qiymətli kağızlar bazarının mövcudluğu;
- Peşəkar mühasib hazırlığının yüksək səviyyəsi;
- Bu ölkələrdə çoxlu sayda transmilli şirkətlərin mövcudluğu.

Kontinental uçot modeli əsasən banklara, dövlətin maliyyə strukturlarına və vergi qaydalarına istiqamətlənmişdir. Bu model müvafiq ölkələrdə mühasibat uçotunun dövlət tənzimlənməsinin mövcudluğu ilə fərqlənir və bu tənzimlənmə "qanunla icazə verilən hər şeyə icazə vardır" prinsipinə uyğun təmin olunur. Bu prinsip əsasında uçot qaydaları qanunvericiliklə müəyyənləşdirilir və bu qaydalara ciddi şəkildə riayət olunur. Bu model tətbiq olunan ölkələrdə uçot vahid milli hesablar planına müvafiq olaraq qurulur və vahid mühasibat uçotu metodikalarının daimi tətbiqi təmin olunur. Peşəkar mühasib təşkilatları bu ölkələrdə böyük rola malik deyillər, lakin mühasiblərin hazırlıq səviyyəsi, xüsusən Almaniya və Fransada heç də Böyük Britaniya və ABŞ-dan geri qalmır, hətta yüksək xarakter daşıyır. Uçotun kontinental modeli Avstriyada, Əlcəzairdə, Anqolada, Belçikada, Almaniyada, Yunanıstanda, Danimarkada, Misirdə, İspaniyada, İtaliyada, Kamerunda, Konqoda, Lüksemburqda, Mərakeşdə, Norveçdə, Portuqaliyada, Seneqalda, Fransada, İsveçdə, Yaponiyada və digər ölkələrdə tətbiq olunur.

Nəticə etibarilə, uçotun kontinental modeli üçün aşağıdakılar xarakterikdir:

- Bank sferası ilə sıx əlaqələr;
- Uçot və hesabatın müfəssəl şəkildə hüquqi tənzimlənməsi;
- Uçot və hesabatın dövlətin vergi tənzimlənməsi və makroiqtisadi planlaşdırma maraqlarına istiqamətlənməsi.

Cənubi Amerika modeli tamamilə vergi qaydalarına yönəlmişdir. Bu modelli ölkələrdə əlavə maliyyə vəsaitlərinin cəlb edilməsinin əsas mənbəyi kimi dövlət maliyyələşdirilməsi çıxış edir. Dövlət maliyyəsi bu ölkələrin beynəlxalq əmək bazarında ixtisaslaşdıqları prioritet sahələrə yönəldilir. Bu modelli ölkələrdə bütünlükdə uçot və hesabat sistemi dövlət planlaşdırılmasının tələblərinə xidmət edir və mühasibat uçotunun metodologiyası qanunvericiliyə əsasən vahid şəklə salınmışdır. Qeyd olunan metodologiyaya əsasən qiymətlər dəyişdikdə hesabat rəqəmlərinin yenidən hesablanması vacibdir. Bu ölkələr uzunmüddətli və davamlı inflyasiya ilə əlaqədar olaraq qiymətlərin dəyişməsinin uçotu üzrə böyük praktikaya malikdirlər. Cənubi Amerika uçot modeli Argentinada, Braziliyada, Boliviyada, Paraqvayda, Peruda, Uruqvayda, Çilidə, Ekvadorda və digər Cənubi Amerika ölkələrində tətbiq olunur. Cənubi Amerika uçot sistemini tətbiq edən ölkələrdə hakimiyyət mərkəzləşdirilmiş sistemə malikdir və mühasibat uçotu üzərində güclü dövlət nəzarəti vardır. Bununla yanaşı, bu ölkələrdə mühasibat xidmətlərinin peşəkarlıq səviyyəsi aşağıdır. Beləliklə, Cənubi Amerika modeli üçün aşağıdakılar xarakterikdir:

- İnflyasiyanın yüksək səviyyəsi;
- Uçot və hesabatın dövlət planlaşdırılmasının tələblərinə istiqamətlənməsi;
- Uçotun prinsiplərinin unifikasiyası.

Qarışıq iqtisadiyyatlı ölkələrin mühasibat modelində yuxarıda qeyd olunan modellərin oxşar əlamətləri vardır. Hazırda bu ölkələrdə inkişaf etmiş ölkələrin uçot siyasətləri, həmçinin uçotun beynəlxalq standartları öyrənilir, ümumiləşdirilir, mühasibat uçotunun və hesabatların milli standartları hazırlanır və tətbiq edilir.

Azad bazar iqtisadiyyatına keçid bir sıra Şərqi Avropa, eləcə də postsovet ölkələrində mühasibat uçotunun yenidən formalaşdırılmasına zərurət yaratmışdır. Lakin bu ölkələrdə beynəlxalq standartların tətbiqi hələ ki, ləng xarakter daşıyır. Həmçinin bu ölkələrdə mühasibat uçotunun əsas problemləri maliyyə nəzarəti, kapitalın qiymətləndirilməsi, mənfəət və müştərək müəssisələrdə investisiya kimi anlayışlara aid suallara cavab tapılmasında baxışların ənənəviliyi və həmçinin bu sahədə ətalətliliklə xarakterizə olunur. Beləliklə, özünün inkişafı dövründə ümumi iqtisadi problemlərin prioritet həlli yollarının və maliyyələşdirmə mənbələrinin seçilməsindən asılı olaraq hər bir ölkə yuxarıda sadalanan uçot sistemlərindən istifadə edir. Lakin uçot sistemlərinin formalaşdırılmasında kifayət qədər müxtəlif yanaşmaların olması dünya praktikasında beynəlxalq inteqrasiyanı və beynəlxalq kapital bazarına çıxışı çətinləşdirir. Bu problemin həlli yalnız maliyyə hesabatlarının göstəricilərinin beynəlxalq standartlara və mühasibat uçotu prinsiplərinə uyğun formalaşdırılması vasitəsilə mümkündür.

Uçot qaydalarının hüquqi tənzimlənməsi nöqteyi-nəzərindən Qərb ölkələrində 2 cür yanaşma var. Argentina, Fransa, Almaniya kimi ölkələrdə uçotun əsas prinsipləri qanunverici aktlarla müəyyənləşdirilmişdir. Bu ölkələrdə uçot "Yalnız qanun nəyə icazə verirsə onu etmək olar" prinsipinə əsaslanır. ABŞ, Böyük Britaniya kimi ölkələrdə isə uçot sistemi "Qanunla qadağan edilməyən hər şeyi etmək olar" prinsipi üzərində qurulur. Bu ölkələrdə uçot və hesabatın tənzimlənməsi qaydaları hər şey-dən əvvəl hüquqşünaslar tərəfindən deyil, peşəkar mühasiblər tərəfindən müəyyənləşdirilir.

Qeyd olunanlara əsasən demək lazımdır ki, dünya iqtisadiyyatına inteqrasiya etmək üçün hər bir ölkədə uçot sisteminin bu sahədə mövcud beynəlxalq standartların prinsiplərinə uyğun qurulması dövrün ən vacib tələbidir. Bu baxımdan Azərbaycanda uçot və hesabatların beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində görülən işlər də mühüm əhəmiyyət kəsb edir. Məlum olduğu kimi, bu məqsədlə 2 sentyabr 2004-cü il tarixdə "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının qanunu, 7 fevral 2005-ci il tarixdə isə "Mühasibat uçotu haqqında Azərbaycan Respublikasının qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası prezidentinin fərmanı qüvvəyə minmişdir.

Qeyd olunan qanun və fərmana əsasən Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının və Milli Mühasibat Uçotu Standartlarının tətbiqi aşağıdakı əsas məqsədləri əhatə edir:

- Qabaqcıl beynəlxalq təcrübəyə uyğun olaraq korporativ və büdcə sektorları üçün maliyyə hesabatlarının beynəlxalq və milli mühasibat uçotu standartlarına uyğun olaraq hazırlanması;
- Müəssisələrin fəaliyyətinin şəffaflığının və dünya bazarına çıxışının təmin edilməsi;
- Dövlətin mühasibat uçotu sahəsində idarəetmə vəzifəsinin həyata keçirilməsi və islahatların davamlılığının təmin edilməsi üçün institusional inkişafın dəstəklənməsi.

Fərmandan irəli gələn vəzifələrin həyata keçirilməsi ilə əlaqədar Maliyyə Nazirliyi tərəfindən Maliyyə Hesabatlarının və Mühasibat Uçotunun Beynəlxalq Standartları

əsasında Kommersiya, Büdcə və Qeyri-hökumət təşkilatları üçün müvafiq Milli Mühasibat Uçotu Standartları və eyni zamanda Kommersiya təşkilatları üçün Milli Mühasibat Uçotu Standartının tətbiqi üzrə şərhlər və tövsiyələr hazırlanaraq təsdiq olunmuşdur. Bununla yanaşı, Milli Mühasibat Uçotu Standartlarına əsasən mühasibat uçotunun avtomatlaşdırılması üçün xüsusi proqram təminatı hazırlanmış, Maliyyə Nazirliyinin saytında (www.maliyye.gov.az) yerləşdirilmiş və büdcə təşkilatlarının həmin proqram təminatının pulsuz və avtomatik rejimdə əldə etməsi üçün şərait yaradılmışdır.

Müxtəlif ölkələrin milli mühasibat sistemlərinin vahid şəkildə uyğunlaşdırılması, ilk növbədə, xarici ölkələrin potensial investorları üçün mühüm əhəmiyyət kəsb edir. Belə ki, xarici investorlar üçün investisiya obyekti olan müvafiq təsərrüfat subyektinin maliyyə hesabatlarının aydın, şəffaf olması və reallığı əks etdirməsi vacibdir.

Abbasov S.A.,
iqtisad elmləri doktoru, dosent
Bakı Biznes Universiteti

MALİYYƏ RİSKLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİNDƏ PUL AXINLARININ İDARƏ EDİLMƏSİ MƏSƏLƏLƏRİ

Sahibkarlıq fəaliyyətində risk nəinki mümkün olan potensial təhlükədir, həm də mütləq reallıqdır. «Risk» anlayışı barədə müxtəlif fikirlər söylənilir. İqtisadçılar riski təsərrüfat subyektinin fəaliyyətinin faktiki nəticələrinin planlaşdırılan səviyyədən kənarlaşma imkanı kimi ifadə edirlər. Riyaziyyatçıların fikrincə, risk müəyyən arzuolunmaz hadisənin başvermə ehtimalıdır. Sahibkarlıq fəaliyyətində müxtəlif növ risklər mövcuddur: istehsal riski, kommersiya riski, investisiya riski və maliyyə riski.

Maliyyə riski təsərrüfat subyektinin banklar və digər maliyyə institutları ilə qarşılıqlı münasibətində baş verir və onun maliyyə-təsərrüfat fəaliyyətinə mənfi təsir göstərir. Maliyyə riskinin müəssisənin fəaliyyətinə təsiri iki istiqamətdə təzahür edir:

- maliyyə riski müəssisənin maliyyə əməliyyatlarının gəlirlilik səviyyəsinin formalaşmasına bilavasitə təsir göstərir, bir-birilə sıx qarşılıqlı əlaqəli vahid «gəlirlilik riski» sistemini ifadə edir;
- maliyyə riski müəssisənin müflisləşməsi üçün təhlükə yaradan əsas amildir. Belə ki, maliyyə riskilə əlaqədar müəssisənin maliyyə itkisinin həcmi çox böyük olur.

Pul axınları təsərrüfat subyektlərinin idarəetmə sistemində zəruri resursdur və onların maliyyə fəaliyyətini xarakterizə edən əsas indikatorlardan biridir. Təsərrüfat subyektlərində pul vəsaitlərinin hərəkəti daim baş verir. Texnoloji təkmilləşdirmələr, inflyasiya, kredit üzrə faiz dərəcələrinin dəyişməsi, vergi sistemində aparılan islahatlar şirkətlərdə pul vəsaitlərinin hərəkətinə təsir göstərir.

«Pul axınları» anlayışına müxtəlif yanaşmalar vardır. Bir qrup iqtisadçılar hesab edirlər ki, şirkət pul vəsaitlərinin hərəkətini – axıb gəlməsi və axıb getməsi prosesini sınaqdan çıxarır və onu müxtəlif fəaliyyət növlərinə, yəni istehsal, maliyyə və investisiya fəaliyyətinə aid edirlər. Bu fəaliyyət növlərinin hər biri üçün və eləcə də bütövlükdə şirkətin fəaliyyəti üçün pul vəsiatlərinin axıb gəlməsi və axıb getməsi arasında fərqi müəyyənləşdirmək lazımdır. Pul vəsaitlərinin axıb gəlməsi həmin müd-

dətdə pul qalığının artmasına, axıb getməsi isə pul qalığının azalmasına uyğun gəlməlidir. İkinci qrup iqtisadçılar vurğulayırlar ki, şirkətin pul vəsaitlərinin hərəkəti fasiləsiz prosesdir. Şirkətin aktivləri pul vəsaitlərinin həqiqi istifadəsini, passivləri isə həqiqi mənbələrini ifadə edirlər. Pul vəsaitlərinin məbləği məhsulun satışı, debitor borclarının ödənilməsi, kapital məsrəflərinin və maliyyələşmənin həcmindən asılı olaraq vaxtaşırı dəyişilir. Digər qrup iqtisadçıların fikrincə, pul axınları dedikdə müəyyən vaxt kəsiyində şirkətin aldığı və ödədiyi pul vəsaitləri arasındakı fərq başa düşülür, hansıki mənfəətlə müqayisə olunur. Mənfəət şirkətin fəaliyyətinin özünümaliyyələşdirilməsi, geniş təkrar istehsalın həyata keçirilməsi, sosial və maddi tələbatın ödənilməsi üçün əsas vəsait sayılır. Belə ki, şirkət mənfəət hesabına büdcə, bank və digər təşkilatlar qarşısında öz öhdəliklərini yerinə yetirir.

Pul vəsaitlərinin hərəkəti haqqında hesabat böyük informasiya dəyəri daşıyır, çünki bu informasiyadan maliyyə menecerləri və investorlar yetərincə faydalanırlar, sahibkarlar isə əlavə aktivlərin formalaşması, borcların ödənilməsi və yeni sərmayə qoyuluşu ilə bağlı məsələlərin həllində istifadə edirlər. Pul axınlarının idarə edilməsi elə maliyyə alətidir ki, onun köməyilə şirkətin maliyyə-təsərrüfat fəaliyyətinin yüksək son nəticələrinə nail olmaq mümkündür. Bütün bunlar maliyyə risklərinin qiymətləndirilməsində pul axınlarının idarə olunması mexanizminin təkmilləşdiriliməsini zəruri edir.

Pul vəsaitlərinin hərəkətilə istehsal-kommersiya tsikli başlayır və onunla da başa çatır. Şirkətin maliyyə-təsərrüfat fəaliyyətinin tsikli inkişafı prosesində pul vəsaitləri müxtəlif aktivlərə və məhsulun satışı zamanı debitor borclarına çevrilir.

Pul axınlarının təhlili təsərrüfat subyektlərinin maliyyə vəsaitləri ilə təmin edilməsi vəziyyətini qiymətləndirməyə imkan verir. Pul axınlarının təhlilinin başlıca məqsədi pul vəsaitlərinin çatışmaması səbəblərini aşkara çıxarmaq və onların cəlbedilmə mənbələrini və istifadə istiqamətlərini müəyyənləşdirməkdən ibarətdir. Pul axınlarının təhlili şirkətin əsas, investisiya və maliyyə fəaliyyəti üzrə ayrıca aparılır ki, bu da fəaliyyət növlərinin hər birindən alınan gəlirin (mənfəətin) xüsusi çəkisini müəyyənləşdirməyə və inkişaf perspektivlərini qiymətləndirməyə imkan yaradır.

Dünya uçot-analitik təcrübəsində pul vəsaitlərinin hərəkətini müəyyənləşdirmək üçün təhlilin birbaşa və dolayısı metodlarından istifadə edilir. Birbaşa metod pul vəsaitlərinin daxil olması mənbələrini və istifadə istiqamətlərini, şirkətin likvidliyini müəyyənləşdirməyə, investisiya fəaliyyəti və əlavə xərclər üçün pul vəsaitlərinin kifayət qədər olması barədə operativ nəticə çıxarmağa əsaslanır.

Dolayısı metod pul vəsaitləri ilə əlaqədar əməliyyatın və mühasibat balansının maddələrinin uçotuna, xalis mənfəətin məbləğində müvafiq dəyişikliklərin aparılmasına, şirkətin xalis mənfəəti və aktivlərində baş verən dəyişikliklər arasında qarşılıqlı əlaqəni aydınlaşdırmağa əsaslanır. Gəlir və xərclərin elə növləri vardır ki, onlar pul vəsaitlərinə toxunmadan xalis mənfəət yaradırlar. Təhlil prosesində gəlir və xərclərin həmin maddə-lərinə və xalis mənfəətə müvafiq dəyişikliklər edilir, çünki xərc maddələri pul vəsaitlərinin daxil olmasından asılı deyil, pul vəsaitlərinin xərclənməsi ilə müşayət olunmayan gəlir maddələri xalis mənfəətin məbləğinə təsir göstərmir.

Maliyyə hesabatlarının istifadəçiləri praktiki öz maraqlarına uyğun qərarların qəbulu üçün təhlilin müxtəlif metodlarından istifadə edirlər. Məsələn, mülkiyyətçilər kapitalın gəlirliyini artırmaq və şirkətin dayanıqlı fəaliyyətini təmin etmək üçün, kre-

ditorlar və investorlar isə borclar və investisiya qoyuluşu üzrə riskləri azaltmaq üçün mühasibat (maliyyə) hesabatlarını təhlil edirlər. Maliyyə hesabatlarının beynəlxalq standartlara uyğunlaşdırılması təhlilin yeni metodlarından istifadəni zəruri edir. Bu metodika tərəfdaşların seçilməsini əsaslandırmaq, şirkətin maliyyə dayanıqlığının səviyyəsini müəyyənləşdirmək, işgüzar aktivliyi və sahibkarlıq fəaliyyətinin effektivliyini qiymətləndirmək üçün vacibdir.

Pul axınlarının təhlili üçün informasiyanın əsas mənbəyi şirkətin mühasibait balansı (forma №1), «Mənfəət və zərərlər haqqında hesabat» (forma №2) və balansa əlavə (forma №5) hesab edilir.

Pul axınlarının səmərəli idarə edilməsində dövriyyə kapitalının optimal həcminin müəyyənləşdirilməsi mühüm rol oynayır. Belə ki, nağd pul vəsaitinin çatışmaması şirkəti iflasa apara bilər və onun inkişaf tempi nə qədər surətlə gedərsə pulsuzluq riski daha böyük olar. Digər tərəfdən, həddindən ziyada pul vəsaitlərinin toplanması da faydalı deyil. Çünki şirkət mənfəət itirir, hansıki artıq vəsaitin investisiyalaşdırılması nəticəsində onu əldə etmək mümkündür. Belə vəziyyət kapitalın «ölməsinə» gətirib çıxarır və ondan istifadənin səmərəliliyini aşağı salır.

Pul axınlarının vəziyyətinə nəzarət metodlarından biri dövriyyə kapitalında nağd pul vəsaitinin xüsusi çəkisinin düzgün müəyyən edilməsidir. Nağd pul vəsaitinin məbləğini dövriyyə kapitalının məbləğinə bölməklə nağd vəsait əmsalı (faizi) müəyyən edilir. Bu əmsalın dəyişməsi nağd pulun dəyişdilməsini xarakterizə etməyə bilər, çünki dövriyyə kapitalının bir hissəsi olan əmtəə-material ehtiyyatları dəyişikliyə məruz qalır.

Beləliklə, pul axınlarının vəziyyəti haqqında mühasibat (maliyyə) hesabatında informasiyaların maddələr üzrə açıqlanması onların keyfiyyəti üzərində nəzarəti həyata keçirməyə və yenidən profilləməsi üzrə vaxtlı-vaxtında qərar qəbul etməyə, deməli maliyyə risklərinin yaranması və inkişafına yol verməmək məqsədilə risk təşkiledicilərinin səmərəli idarə olunmasına imkan verir. Təsərrüfat subyektinin fəaliyyəti ilə maraqlanan analtiklərə mühasibat (maliyyə) hesabatında pul vəsaitlərinin hərəkəti haqqında müfəssəl informasiyaların təqdim edilməsi pul axınlarının idarə olunması siyasətini başa düşməyə və maliyyə riskinin yaranmasını şərtləndirən amillərdən, neqativ nəticələrdən qaçmağa kömək edə bilər.

Kazımov M.S.,
iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
Qarayev İ.Ə.,
iqtisad elmləri üzrə fəlsəfə doktoru
Vergilər Nazirliyinin Tədris Mərkəzi

İQTİSADİ İNKİŞAFIN TƏMİN EDİLMƏSİNDƏ VERGİ SİYASƏTİNİN HÜQUQİ ASPEKTLƏRİ

Qloballaşan dünya iqtisadiyyatının fundamental problemlərindən biri, əsaslandığı ictimai və iqtisadi quruluşundan asılı olmayaraq, hər bir ölkədə davamlı iqtisadi inkişafın təmin edilməsindən ibarətdir. Davamlı iqtisadi inkişaf konsepsiyası iqtisadi

ədəbiyyatda kifayət qədər geniş şəkildə araşdırılmış və bu sahədə müxtəlif tədqiqatlar aparılmışdır. Lakin buna baxmayaraq iqtisadi inkişafda vergi siyasətinin hüquqi aspektlərinin rolunun araşdırılmasına həsr edilmiş tədqiqatların sayı məhduddur. Bu sahədə mövcud olan problemlər kifayət qədər geniş spektrli olmaqla iqtisadiyyatın demək olar ki, bütün sahələrini əhatə edir. İnformasiya texnologiyalarının inkişafı, elektron ticarətin genişlənməsi, rəqəmsal iqtisadiyyatın əsas sahələrdən birinə çevrilməsi vergi siyasətinin stimullaşdırıcı funksiyasının qarşısında yeni və müasir tələblər meydana çıxarır. Bu məsələlər nəzəri və praktiki cəhətdən araşdırılmalıdır. Əsas fərqləndirici xüsusiyyətlər ondan ibarətdir ki, vergi siyasətinin nəzəri problemləri praktiki aspektlərindən fərqlidir. Elmi cəhətdən əsaslandırılmış vergi siyasətini, hüquqi baxımdan həmişə tətbiq etmək mümkün olmur. Hətta bir ölkədə iqtisadi artımı təmin edən vergi siyasətinin digər ölkədə tətbiqi fərqli nəticələrə gətirir. İqtisadi Əməkdaşlıq və İqtisadi İnkişaf (OECD) təşkilatının apardığı tədqiqatların nəticələrinə görə vergi siyasətinin iqtisadi inkişaf baxımdan formalaşmasının ümumi və xüsusi cəhətləri mövcuddur. Ümumi cəhətlərə aşağıdakılar aiddir:

- vergi yükünün optimallşdırılması;
- vergi qanuvericiliyinin iqtisadi stimullaşdırma istiqamətində formalaşması;
- müvafiq normativ-hüquqi bazanın təkmilləşdirilməsi;
- vergi yükünün istehsaldan istehlaka keçirilməsi;
- vergi inzibatçılığının sadələşdirilməsi;
- kiçik və orta sahibkarlığın inkişafında vergi güzəştlərinin tətbiqi və s.

Xüsusi cəhətlər hər bir ölkə üçün fərdi xarakter daşıyır. Bu zaman ölkənin mövcud sosial-iqtisadi vəziyyəti, hüquqi-institusional baza, iqtisadi inkişaf istiqamətləri , demoqrafik inkişaf xüsusiyyətləri , əmək eytiyyatlarının yerləşdirilməsi və digər xüsusiyyətlər əsas götürülür.

İqtisadi artım yalnız vergi siyasəti ilə deyil, müxtəlif xarakterli digər amillərdən də asılıdır. Bu faktorlar sırasına aşağıdakıları aid etmək olar:

- ölkəyə qoyulan investisiyaların dinamikası və strukturu;
- ölkənin iqtisadi modernləşdirilməsi və innovativ inkişaf potensialı;
- sahibkarlığın mövcud vəziyyəti və inkişaf perspektivləri;
- əmək ehtiyyatlarının strukturu və onun iqtisadi inkişaf tendensiyalarına uyğunluğu;
- sosial-iqtisadi infrastrukturun səviyyəsi;
- əmək bazarının çevikliyi və mobilliyi;
- sosial kapitalın, institusional mühitin iqtisadi inkişaf baxımından üstünlükləri;
- əsas ticarət partnyorlarının iqtisadi inkişaf templəri;
- rəqabət qabiliyyətli mühitin formalaşma səviyyəsi.

Göründüyü kimi, iqtisadi artıma təsir edən amillər müxtəlif olmaqla demək olar ki, iqtisadiyyatın və cəmiyyətin bütün sahələrini əhatə edir. Bu amillərin formalaşmasında və son nəticədə iqtisadi artıma təsir dərəcəsində vergi sistemi xüsusi rol oynayır. Müxtəlif vergi növlərinin və vergi dərəcələrinin tətbiqi, vergi inzibatçılığının keyfiy-

yəti, vergi qanunvericiliyinin təkmilləşdirmə dərəcəsi bilavasitə iqtisadi artıma təsir göstərir. İqtisadi ədəbiyyatda bu problemlər daimi diqqət mərkəzində olmaqla çoxlu sayda tədqiqatlardan ibarətdir.

Hal-hazırda dünyanın inkişaf etmiş ölkələrində baş verən maliyyə böhranı, dövlət büdcəsinin kəsrlərinin artması vergi siyasəti vasitəsi ilə iqtisadi artıma təsiretmə imkanlarını aktual bir məsələyə çevirmişdir. Ölkədə həyata keçirilən vergi siyasəti birbaşa olaraq vergitutma bazasına və gəlirlərin köçürülməsinə təsir edir. Müasir qloballaşan dünyada iqtisadi artımın əsas göstəricisi olan ÜDM-in formalaşmasında ölkədə fəaliyyət göstərən multi-milli korporasiyalar, beynəlxalq şirkətlər və holdinqlər əhəmiyyətli rol oynayır. Yalnız o faktı qeyd etmək olar ki, hal-hazırda dünyada beynəlxalq ticarət əlaqələrinin 80%-i multi-milli korporasiyalar tərəfindən həyata keçirilir. Həmin şirkətlərin müxtəlif vergi dərəcələrinə malik ölkələrdə fəaliyyət göstərməsi, onların gəlirlərinin artırılması məqsədilə vergilərin minimuma endirilməsi məsələsini real surətdə həyata keçirilməsinə imkan verir ki, nəticədə külli miqdarda vəsait dövlət büdcəsindən yayındırılır.

Vergitutma iqtisadiyyatının əsas prinsiplərinə görə iqtisadi artımı stimullaşdıran vergi siyasəti aşağıdakı ümumi cəhətləri özündə birləşdirməlidir:

- iqtisadiyyatın vergi yükünün aşağı salınması;
- vergi yükünün gəlirdən istehlaka və əmlaka keçirilməsi;
- aşağı vergi dərəcələrini tətbiq etməklə, vergitutma bazasının genişləndirilməsi.

Lakin vergi siyasətinin iqtisadi artıma təsir mexanizmlərinin araşdırılması sahəsində uzun illər boyu aparılan beynəlxalq təcrübə sübut edir ki, bu ümumi cəhətlər hər bir ölkədə müxtəlif təsir dərəcəsinə malik olmuşdur. Məsələn, vergi yükünün istehsaldan istehlaka və əmlaka keçirilməsi ancaq yüksək və mükəmməl iqtisadi islahatlar apardıqdan sonra gözlənilən nəticələri verə bilər. Daşınmaz əmlak vergisinin dərəcəsinin artırılması ev təsərrüfatlarının əmlakdan azad olunmasını stimullaşdırır və nəticədə onun satışından əldə olunan vəsaitin investisiyalar istiqamətində yönəldilməsinə şərait yaranır. Bu zaman əldə olunan vəsaitlər daha mobil xarakter daşıdığına görə qısa müddətdə mənfəət verən sahələrə yönəldilməklə iqtisadi artımı stimullaşdırır. Lakin daşınmaz əmlak vergisi yükünün artırılması əhalinin daşınmaz əmlak satışını stimullaşdırmaqla bu sahədə olan tələbi azaldır və sonrakı dövrdə yenidən əmlak qiymətlərinin artmasına gətirə bilir.

Hər hansı bir ölkədə iqtisadi artımı stimullaşdıran aktiv vergi siyasətinin səmərəliliyi mövcud vergi sistemi ilə yanaşı iqtisadiyyatın cari vəziyyətindən də əhəmiyyətli dərəcədə asılıdır. Məsələn, əmək ehtiyyatlarının yüksək olduğu ölkələrdəki gəlir vergisi siyasəti əhalinin qocalması problemi ilə üzləşən ölkələrdən fərqlidir. Son zamanlar maliyyə böhranı baş verən ölkələrin böyük əksəriyyətində əhalinin əmək qabiliyyətli yaşdan yuxarı olan təbəqəsinin payı kifayət qədər yüksəkdir. Bu isə gəlir vergisi siyasətinin formalşmasında demoqrafik yük əmsallarının nəzərə alınması zərurətini yaradır.

Аббасова С.А.,
кандидат экономических наук, доцент
Азербайджанский Государственный
Экономический Университет

РАЗВИТИЕ ВНУТРЕННЕГО АУДИТА И ВНУТРЕННЕГО КОНТРОЛЯ КАК ЭЛЕМЕНТОВ УЧЕТНО-АНАЛИТИЧЕСКОЙ СИСТЕМЫ И ФАКТОРОВ ПОВЫШЕНИЯ ПРОЗРАЧНОСТИ ФИНАНСОВОЙ ОТЧЕТНОСТИ

В «Национальной дорожной карте и стратегической дорожной карте для основных отраслей экономики» особое значение придается повышению прозрачности финансовой отчетности и качества представленных в ней данных. По словам Президента Азербайджана Ильхама Алиева, по мере развития экономики страны и усиления ее интеграции в мировую хозяйственную систему, возникает необходимость более широкого использования возможностей аудита в обеспечении прозрачности финансово-экономических отношений, в борьбе с экономической преступностью и коррупцией. Как отмечается в Концепции развития аудиторской деятельности в Азербайджане на 2012-2020 г. «необходимы более совершенная организация взаимосвязей между государственным и негосударственным контролем…, совместное развитие как внешнего, так и внутреннего аудита, их координация и построение взаимосвязей между ними,… координация бухгалтерского учета, отчетности и аудита».

Повышение прозрачности информации, раскрываемой в отчетности, как свидетельствует международная практика, является решающим фактором для роста числа инвесторов, в том числе и иностранных, привлекаемых в различные отрасли экономики. Поэтому очень важна рациональная и эффективная организация аудиторской службы, предусматривающей взаимосвязь внутреннего аудита и внутреннего контроля. В этой связи, имеющие сегодня место проблемы в методической обеспеченности внутреннего контроля и аудита в организациях различных сфер деятельности вызывает необходимость дополнительных исследований. Нужны комплексные исследования, отражающие разнообразные стороны системы внутреннего контроля и аудита в реальном времени. Поэтому *цель исследования* заключается в научной аргументации тезиса о важности и необходимости организации и взаимодействия внутреннего аудита и внутреннего контроля как элементов единой учётно-аналитической системы управления бизнес-процессами и факторов повышения прозрачности отчетности предприятий и организаций.

Как свидетельствуют проведенные исследования, на большинстве местных предприятий и организаций отсутствует правильно построенная система внутреннего аудита и внутреннего контроля. Возрастающая в управлении бизнес-процессами организации роль внутреннего контроля объясняется тем, что собственники и высший менеджмент обычно не имеют времени и возможности регулярно отслеживать деятельность организации и её управленческих структур, что может сделать действенная система внутреннего контроля. Ч.Т.Хорнгрен и Дж.

Фостер определяют внутренний контроль как комплекс бухгалтерского и управленческого контроля, который помогает обеспечить соответствия решений, принятых в организации, с реализацией их на практике.

Рис. 1 ***Место внутреннего контроля и внутреннего аудита в учётно-аналитической системе управления бизнес-процессами строительных организаций*** **[4].**

В широком значении систему контроля, наравне с системой внутреннего аудита, можно представить в качестве элементов учётно-аналитической системы управления бизнес-процессами строительных организаций. На рис.1 приведена авторская модель учётно-аналитической системы строительных организаций и показано место внутреннего контроля и аудита в ней.

Очевидно, что там, где вообще не поставлена система внутреннего контроля, либо слабо организована и неэффективна, имеют место мошеннические действия. В этой связи, Международный Стандарт Аудита № 265 «Доведение информации о недостатках в системе внутреннего контроля до представителей собственника и руководства организации» возлагает на аудитора задачу изучения системы внутреннего контроля, что должно распространяться на все возникающие бизнес-процессы - от планирования деятельности до составления отчетности, всех этапах управления строительной организацией. Только таким образом мож-

но выявить слабые стороны деятельности и минимально снизить вероятность искажений.

Практика свидетельствует, что часто на предприятиях путают понятия внутренний аудит и внутренний контроль, а это усложняет разграничение их компетенций, организацию и оценку эффективности деятельности. Хотя оба этих понятия - производные от "контроля" как функции управления, осуществляемой внутри организации, тем не менее, они не тождественны, поскольку каждый из них выполняет свои задачи, определенным образом размещаясь в иерархии организации

В Азербайджане внутренний аудит регулируется Законом АР «О внутреннем аудите» в соответствии с которым — это «объективная, гарантирующая и консультирующая деятельность хозяйствующего субъекта, направленная на достижение им своих целей при системном подходе к управлению рисками, оценке контроля и эффективности управления». Круг задач, стоящих перед внутренним аудитом, более емкий и состоит в комплексной оценке процедур внутреннего контроля, процессов управления рисками, корпоративного управления. Он помогает оценить надежность и эффективность системы внутреннего контроля в бизнес-процессах строительной организации, осуществляет тотальный надзор за деятельностью структурных подразделений, являющихся объектами внутреннего контроля и др. Рационально же организовать планирование, учет, анализ, документооборот в рамках учётно-аналитической системы управления бизнес-процессами, минимизировать риски потери активов, обеспечить максимальную достоверность финансовой отчетности возможно посредством эффективно налаженной системы внутреннего контроля, регулируемого концепцией COSO, Законом Сарбейнса – Оксли (разд.404,302), Кодексом корпоративного управления Великобритании и др.

Правильно налаженная система внутреннего контроля, со строгим распределением ответственности её субъектов, помогает менеджерам в достижении поставленных целей, служит гарантом защиты имущества строительной организации, надежности и достоверности информации, необходимой для принятия управленческих решений и представляет собой один из главных факторов, влияющих на действенность системы внутреннего аудита.

Эффективность системы внутреннего контроля основывается на идентификации влияющих на достоверность финансовой отчётности рисков. Заведомо предвидя искажение отчетности, замаскированное в недостающих и неверных записях в первичных документах и учетных регистрах, специалисты службы внутреннего контролера должны особо точно и досконально проверять соответствие выполняемых работ правилам, процедурам, учётной политике и регламентам организации. Умение действовать в соответствии с установленными процедурами, инструкциями, нормами, иначе говоря, проводить аудит на соответствие требованиям действующего законодательства, внутренних нормативных документов, регламентов, стандартов выражается термином «комплаенс». При этом метод комплаенс - контроля нужно направлять не только на выявление фактов несоблюдения строительной организацией требований законодательства, но и на предотвращение искажений отчетности, обусловленных предумышленными

(сознательными) или непреднамеренными действиями строительной организации, расходящимися с требованиями законодательства.

Внедрение этого метода означает, что руководители организации несут ответственность перед инвесторами, заказчиками (собственниками), менеджеры — перед управляющими (руководителями) организацией, инвесторы и заказчики перед контролирующими и инспектирующими органами, перед своим персоналом а также обществом в целом. Если будет соблюдаться такая субординация и каждый из указанных уровней, в соответствии с возложенными на них функцями, правами, обязанностями, квалификационными предписаниями, обеспечит соблюдение нормативных, профессиональных и этических стандартов, минимизируя различного рода риски, то можно смело утверждать, что система комплаенс - контроля эффективна.

Заключение.

1. Сегодня аудит, перейдя от системно-ориентированного, уже нацелен на риск - ориентированный подход, в основе которого лежит оценка видов и вероятности искажений на счетах бухгалтерского учета. Такой подход, позволяющий оценить защищенность компании от мошенничества и банкротства в условиях неопределенности и минимизировать риски, предъявляет новые требования к качеству учетно-аналитической информации. Если информация некачественная, то идет неправильное ее формирование, приводящее к тому, что она не будет уже удовлетворять потребности пользователей, желающих иметь не простое подтверждение достоверности отчетности, а точные данные об эффективности деятельности предприятия в обозримой перспективе. Возможным решением этой проблемы, на наш взгляд, является организация внутреннего аудита и внутреннего контроля как важнейших элементов учётно-аналитической системы управления бизнес-процессами в рамках приведенной в работе авторской модели.

2. Совершенствование системы аудита и контроля на основе международного опыта и стандартов способствует обеспечению финансовой прозрачности экономики страны, использованию бюджетных средств по назначению, борьбе с коррупцией, защите интересов государства. Для реализации эффективного внутреннего контроля необходимо его внедрение во всех сферах деятельности предприятия на основе соответствующих стандартов и лучших мировых практик. В международной практике считается, что те организации, в структуре которых существуют службы внутреннего аудита и контроля, являются особо привлекательными для инвесторов, так как они наиболее предрасположены к надлежащему корпоративному управлению.

3. При проведении внутреннего контроля, подготовке и обосновании управленческих решений предлагаем, как можно шире, использовать аналитические процедуры. Это позволит выявить области потенциального риска, требующие повышенного внимания аудитора. С целью снижения трудоёмкости аудиторских процедур рекомендуется использовать программные продукты, входящие в пакет Microsoft Office - Excel, Access, Word, Outlook, а также используемые в международной аудиторской практике - CaseWare Audit, Audit Management Software, SwissAuditor, ASL Analytics Software и др.

Mustafayev Y.R., dosent
Azərbaycan Dövlət İqtisad Universiteti

ƏMLAKIN AMORTİZASIYASININ (KÖHNƏLMƏSİNİN) UÇOTUNUN MÜASİR VƏZİYYƏTİ VƏ ONUN TƏKMİLLƏŞDİRİLMƏSİ YOLLARI

Müəssisənin əmlaklarından səmərəli istifadə olunmasının böyük iqtisadi əhəmiyyəti vardır. Müəssisənin əmlakları istifadə olunduqca tədricən köhnəlir və onların dəyəri istehsal xərclərinin tərkibinə hissə-hissə daxil olur.

Müəssisənin əmlaklardan istifadə prosesində onların fiziki köhnəlməsinə obyektlərin yüklənmə dərəcəsi və keyfiyyəti, texnoloji proseslərin xüsusiyyətləri və xarici şəraitin təsirindən əmlakların qorunma dərəcəsi, obyektlərin qulluğun keyfiyyəti və onlara xidmət edən fəhlələrin ixtisası kimi bir çox amillər təsir göstərir.

Maşınlar, dəzgahlar və əmlakların başqa növləri nəinki fiziki cəhətdən köhnəlir, həm də öz texniki xarakteristikası və iqtisadi səmərəliliyinə görə geri qalmış olur, yəni mənəvi köhnəlir. Müəssisənin əmlaklarının köhnəlməsi məbləğini uçota almaq və onların balans dəyərinin azalması miqdarını əks etdirmək üçün 112 №-li «Torpaq,tikili və avadanlıqlar-Amortizasiya» adlı kontraktiv hesabdan istifadə edilir. Amortizasiyanı hesablamaq üçün uçotun jurnal-order forması tətbiq edilən müəssisədə 6 və 3 №-li formada hesablama cədvəli, avtomobil nəqliyyatı üzrə isə 9 və 3 №-li formada hesablama cədvəli tətbiq edilir. Bu məqsəd üçün müəssisənin əmlaklarının hərəkətinin uçotu kartoçkalarının məlumatlarından istifadə edilir.

Müəssisənin mühasibatlığında amortizasiya hesablamaları cədvəllərinə əsasən hər ayın sonunda mühasibat köçürməsi verilir, yəni həmin amortizasiya ayırmaları məbləği müvafiq məsrəf hesablarının debetinə, 112 №-li «Torpaq,tikili və avadanlıqlar-Amortizasiya» hesabının kreditinə yazılır. Bununla əlaqədar bəzi mühasibat yazılışlarını nəzərdən keçirək.

Əsas və köməkçi istehsalatda istifadə olunan əmlakların köhnəlmə hesablanan zaman:

202 №-li «İstehsalat məsrəfləri» hesabının debeti.

202-1 №-li «Köməkçi istehsalat» sub.hesabının debeti.

202-2 №-li «Ümumistehsalat xərcləri» sub.hesabının debeti.

721 №-li «İnzibati xərcləri» debeti.

191 №-li «Gələcək hesabat dövrlərinin xərcləri» hesabının debeti.

112 №-li «Torpaq,tikili və avadanlıqlar-Amortizasiya»

Qeyri-istehsal təyinatlı obyektlərə köhnəlmə hesablanan zaman:

343 №-li «Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət» hesabının debeti.

112 №-li «Torpaq,tikili və avadanlıqlar-Amortizasiya» hesabının kreditinə.

Müəssisə əmlaklarının yenidən qiymətləndirilməsi nəticəsində hesablanmış köhnəlmə məbləğinin indeksləşdirilməsi həyata keçirilində:

301-3 №-li «Əlavə kapital» hesabının debeti.

343 №-li «Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət» hesabının debeti.

112 №-li «Torpaq,tikili və avadanlıqlar-Amortizasiya» hesabının kreditinə.

Ehtiyatda olan obyektlərə hesablanmış amortizasiyanın məbləği, bir qayda olaraq, müəssisədə 721 №-li «İnzibati xərcləri» hesabına aid edilir.

1998-ci ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 03 iyul 1997-ci il tarixli 71 saylı «Məhsulun (işin, xidməti) maya dəyərinə daxil edilən bəzi xərclərin tənzimlənməsi haqqında" qərarı əsasında Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən köhnəlmə (amortizasiya) hesablanmasının yeni (açıq) metodunun tətbiqi üzrə təlimat hazırlanmışdır. Tabeçiliyindən və mülkiyyət formasından asılı olmayaraq Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən bütün idarə, müəssisə və təşkilatlar 01 iyul 1997-ci ildən balanslarında olan əmlakların balans (ilkin, bərpa) dəyərinə köhnəlmə (amortizasiya) hesablanmasının yeni (açıq) metodunu tətbiq edirlər.

Bu metod üzrə amortizasiya olunan əmlak və onların tam bərpası üçün illik köhnəlmə (amortizasiya) normaları aşağıdakı qaydada qruplaşdırılır və göstərilən hədlər daxilində müəyyən edilir:

a) binalar və onların struktur komponentləri - 5 faizə qədər;

b) qurğular və onların struktur komponentləri - 7 faizə qədər;

v) ötürücü qurğular və onların struktur komponentləri -9 faizə qədər;

q) maşın və avadanlıqlar - 13 faizə qədər;

d) nəqliyyat vasitələri - 15 faizə qədər;

e) istehsalat alətləri (ləvazimatları) və təsərrüfat inventarları - 25 faizə qədər;

ə) torpaq sahələrinin yaxşılaşdırılması üzrə sərmayə qoyuluşları, iş heyvanları, çoxillik əkmələr və digər əsas vəsaitlər (fondlar) - 25 faizə qədər;

c) qeyri-maddi aktivlər isə «Mühasibat uçotu haqqında» Azərbaycan Respublikası qanununa uyğun olaraq, yəni qeyri-maddi aktivlər uçot və hesabatda onların alınmasına və planlı məqsədlərə işlənməsi üçün düzəldilib yararlı hala salınmasına çəkilən xərclərlə (ilkin dəyərilə) əks etdirilir və istifadə edildikcə onların dəyəri istismar müddətindən asılı olaraq müəssisə tərəfindən müəyyən edilmiş xüsusi köhnəlmə normaları əsasında hər ay (bərabər miqdarda) köhnəlmə hesablanaraq məhsulun (işin, xidmətin) maya dəyərinə, tədavül xərclərinə silinməklə ödənilir. Faydalı istifadə müddətini müəyyən etmək mümkün olmayan qeyri-maddi aktivlər üzrə köhnəlmə normaları 10 il müddətində (müəssisənin fəaliyyət müddətindən çox olmayaraq) müəyyən edilir. Qeyri-maddi aktivlərin köhnəlməsi uçot və hesabatda əks etdirilir.

Müəssisələr öz əmlaklarına ayrı-ayrılıqda hər ay köhnəlmə (amortizasiya) hesabladıqları üçün bu məlumatda göstərilən illik köhnəlmə (amortizasiya) normalarını 12 aya bölməklə aşağıdakı aylıq köhnəlmə (amortizasiya) normalarını müəyyən edirlər:

a) binalar və onların struktur komponentlərinə - 0,42 faizə qədər;

b) qurğular və onların struktur komponentlərə - 0,58 faizə qədər;

v) ötürücü qurğular və onların struktur komponentlərinə -0,75 faizə qədər;

q) maşın və avadanlıqlara - 1,08 faizə qədər;

d) nəqliyyat vasitələrinə - 1,25 faizə qədər;

e) istehsalat alətləri (ləvazimatları) və təsərrüfat inventarlarına - 2,08 faizə qədər;

ə) torpaq sahələrinin yaxşılaşdırılması üzrə sərmayə qoyuluşları, iş heyvanları, çoxillik əkmələr və digər əsas vəsaitlərə (fondlara) - 2,08 faizə qədər;

Qeyri-maddi aktivlər isə bu təlimata uyğun olaraq:

Müvafiq qruplara aid edilən istehsal təyinatlı obyektlərin hər bir qrupu üzrə yekun məbləğlərini onlara aid edilən illik və ya aylıq köhnəlmə (amortizasiya) normalarına vurmaqla (100-ə bölməklə) hesablanmış köhnəlmə (amortizasiya) məbləğləri toplanaraq il və ya ay ərzində məhsulun (işin, xidmətin) maya dəyərinə daxil edilir.

Müəssisənin əmlaklarına köhnəlmə (amortizasiya) hesablanmasının açıq metoduna keçməklə müəssisələr özlərinin iqtisadi vəziyyətini istehsal təyinatlı obyektlərin istehsalatdakı vəziyyətini (fiziki və ya mənəvi köhnəlməsini) nəzərə almaqla uçot siyasəti ilə müəyyənləşdirdikləri illik və ya aylıq köhnəlmə (amortizasiya) normalarını istehsal təyinatlı obyektlərin balans (ilkin, bərpa) dəyərinə vurmaqla (100-ə bölməklə) hər bir qrup üzrə cəmi köhnəlmə (amortizasiya) məbləğlərini müəyyən edir, sonra isə onları toplayaraq məhsulun (işin, xidmətin) maya dəyərinə daxil ediləcək norma daxilindəki ümumi köhnəlmə (amortizasiya) məbləğlərinə nəzarət edirlər. Normadan artıq köhnəlmə (amortizasiya) hesablamaq zərurəti yaranarsa, bu zaman normadan artıq köhnəlmə (amortizasiya) məbləğləri müəssisənin sərəncamında qalan mənfəət hesabına həyata keçirilir.

Müəssisələr özlərinin uçot siyasəti ilə təyin etdikləri köhnəlmə (amortizasiya) normalarını dəyişmədən onlara il ərzində nəzarət edirlər.

İstismara verilmiş əmlakların balans (ilkin, bərpa) dəyərinə köhnəlmə (amortizasiya) ayırmaları həmin obyektlər istismara verildiyi aydan sonrakı ayın 1-dən hesablamağa başlanır və istismar müddətləri başa çatdığı aydan sonrakı ayın 1-dən etibarən dayandırılır.

İcarəyə götürülmüş əmlaka köhnəlmə (amortizasiya) hesablanması müvafiq qanunvericilik aktlarına, bağlanmış müqavilələrin şərtlərinə və bu təlimata uyğun olaraq həyata keçirilir. İcarəyə götürülmüş istehsal təyinatlı əmlaklara görə ödənilən icarə haqları məhsulun (işin, xidmətin) maya dəyərinə daxil edilir. Lakin kirayə (icarəyə) götürülmüş qeyri-istehsal təyinatlı əmlaklara görə ödənilən kirayə (icarə) haqları məhsulun (işin, xidmətin) maya dəyərinə daxil edilməyərək müəssisənin sərəncamında qalan mənfəət hesabına ödənilir.

Müəssisənin əmlaklarına amortizasiya hesablanmasının çoxillik ölkə və beynəlxalq təcrübəsi onun bir neçə üsulunun tətbiq edilməsini nəzərdə tutur və qəbul edilmiş qanunvericiliyə müvafiq tətbiq edilməsini tövsiyyə edir. Belə üsullara: xətti üsul; azaldılmış qalıq üsulu; yararlı istifadə müddətindən asılı olaraq vəsaitin dəyərinin silinməsi üsulu; açıq metodun tətbiqi üsulu daxildir.

Azaldılmış qalıq üsulu və yararlı istifadə müddətindən asılı olaraq vəsaitin dəyərinin silinməsi üsulları isə ölkəmizin uçot sistemi üçün yeni hesab edilir. Bu üsullar amortizasiya uçotu üzrə 4 №-li Beynəlxalq uçot standartına uyğun həyata keçirilir.

Əsas vəsaitlərin mühasibat uçotuna dair normativ sənədlər yararlı istifadə müddətinin ayrı-ayrı əsas vəsait qrupları üzrə mərkəzləşmiş qaydada təyin edilməsini nəzərdə tutur. Yararlı istifadə müddəti əsas vəsait obyektinin istifadə edildiyi dövr əsas vəsaitlərin təyin olunmuş qaydaya müvafiq mühasibat uçotuna götürülməsi üçün təşkilata gəlir gətirmək, yaxud qarşıya qoyulan məqsədi yerinə yetirmək üçün ona xidmət məqsədini güdür. Ayrı-ayrı əsas vəsait qruplarının yararlı istifadə müddəti, hazırlanmış məhsulun miqdarının yaxud yetirilmənin işin digər natural göstəricilərindən asılı olaraq müəyyən edilir.

Azaldılan qalıq və yararlı istifadə müddətindən asılı olaraq vəsaitin dəyərinin silinməsi üsulları sürətləndirilmiş amortizasiya üsulları hesab olunur. Lakin sürətləndirilmiş amortizasiya üsulundan istifadə edən zaman nəzərə almaq lazımdır ki, hesablanmış köhnəlmə məbləği məhsulun maya dəyərinə, müəssisənin gəlirinə və kapital qoyuluşlarına gəlir vergisi üzrə güzəşt məbləğinə təsir göstərir.

Bədəlov Ə.M.,
iqtisad elmləri namizədi, dosent
Lənkəran Dövlət Universiteti

SAHİBKARLIĞIN İNKİŞAFINDA STİMULLAŞDIRICI VERGİ SISTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

Xalqımızın ümummilli lideri Heydər Əliyevin çevik və məqsədyönlü sosial-iqtisadi inkişaf siyasətinin prezident İlham Əliyev tərəfindən davamlı inkişaf etdirilməsi nəticəsində ölkəmiz demokratik inkişaf yolunda sürətlə irəliləməkdədir. Müstəqil dövlətimizin sosial-iqtisadi inkişaf siyasətinin əsasını təşkil edən "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramları (2004-2008, 2009-2013, 2014-2018-ci illər)" müvvəffəqiyyətlə yerinə yetirilmiş və yetirilir. Bu baxımdan işlərin davamlı və daha çevik formada həyata keçirmək ən vacib məsələlərdən hesab edilir. Bu istiqamətdə də regionlarda stimullaşdırıcı vergi sisteminin təkmilləşdirilməsi aktuallıq kəsb edir. Şübhəsiz ki, bazar münasibətləri dövləti iqtisadiyyatın idarə edilməsi və tənzimlənməsi proseslərindən azad etmir. Dövlət bazar mexanizmlərinin fəaliyyəti üçün konkret şərait formalaşdırır və vergilər vasitəsilə həmin prosesləri tənzimləyir. Nəzəri baxımdan dövlətin istehsal-maliyyə fəaliyyətinə bilavasitə müdaxiləsi də məqbul hesab edilə bilməz. Belə bir şəraitdə müasir dövrdə əsas fəaliyyət istiqamətlərindən biri məhs vergi münasibətlərini cəmiyyətin inkişafına və dövlətin qarşısında duran vəzifələrə uyğunlaşdırmaqdır. Cəmiyyətin inkişafı və dövlətin qarşısında duran ən başlıca vəzifələrə ölkə iqtisadiyyatının daha da inkişaf etdirilməsi, regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi, bu sahədə özəl sektorun rolunun gücləndirilməsi daxildir. Bu vəzifələrin yerinə yetirilməsi ölkə iqtisadiyyatının sistemli inkişafına münbit şərait yaradır ki, bu sahədə stimullaşdırıcı vergi sisteminin rolu mühüm əhəmiyyət kəsb edir.

Qeyd etmək lazımdır ki, sahibkarlığın inkişafına süni maneələrin qarşısının alınması, iş adamlarının fəaliyyətinə lüzumsuz müdaxilələrə son qoyulması və vergi ödəyicilərinin qanuni mənafelərinin qorunması, yeni iş yerlərinin açılması ilə əlaqədar və məşğulluğun təmin edilməsi ilə bağlı ölkə prezidentinin tapşırıqları son nəticədə kiçik və orta sahibkarlıq subyektləri üçün əlverişli vergitutma mexanizmlərini özündə birləşdirən daha optimal bir sistem formalaşdırılmışdır.

Stimullaşdırıcı vergi sisteminin təkmilləşdirilməsi birbaşa sahibkarların daha da səmərəli fəaliyyət göstərməsinə xidmət edir. Stimullaşdırıcı vergi sisteminin çevikliyi, operativliyi kiçik və orta sahibkarlıq subyektləri üçün əlverişli şəraitin yaradılmaşından irəli gəlir.

Müasir dövrdə xidmət sektorunun rolunun artırılması bu sahədə əldə edilən gəlirin vergi baxımından uçotunun aparılması üçün və dəqiqləşdirilməsi istiqamətində stimullaşdırıcı vergi sisteminin tətbiqinə ehtiyac yaranmışdır. Bu istiqamətdə xidmət sektorunun vergini ödəyən vətəndaşına gələcək həyatı üçün səmərəli sosial mexanizm yaradılması, onun vergi verməyə həvəsinin artırılmasına şərait yaratmaq səmərəli olardı.

Həmçinin vergi stimullaşdırmasının daha bir obyekti kimi investisiya fəaliyyəti də nəzərdə tutula bilər.

Stimullaşdırıcı vergi sisteminin təkmilləşdirilməsi daha çox vergi güzəştlərinin

köməyilə də həyata keçirilə bilər. Belə ki, vergi güzəştlərinin köməyi ilə bir sıra ölkələrdə kiçik müəssiəslərin formalaşdırılması, xarici kapitalın cəlb olunması, iqtisadiyyatın sonrakı inkişafı üçün fundamental əhəmiyyətə malik elmi-texniki işlərin hazırlanması, ekoloji layihələr və dünya bazarı üçün rəqabət qabiliyyətli məhsulların buraxılmasına imkan verən yüksək texnologiyaya malik yeni istehsalların formalaşdırılması stimullaşdırılır.

Hazırda ölkəmizdə 917 min vergi ödəyicisi var, onların 30 mini ƏDV, qalanları isə sadələşdirilmiş vergi ödəyiciləridir. ƏDV ödəyicilərinin dövlət büdcəsinə ödədiyi vergilərin həcmi ümumi vergi daxilolmalarının təxminən üçdəbirini təşkil edir. 2017-ci ildə sadələşdirilmiş vergi ödəyicilərinin ödədiyi vergilərin həcmi 371,5 mlyn. manat olmuşdur ki, bu ilə ümumi vergi ödəmələrinin 5,3%-ni təşkil etmişdir. İnkişaf etmiş ölkələrin əksəriyyətində bu göstərici ilə müqayisədə bir neçə dəfə yüksəkdir. Fikrimizcə stimullaşdırıcı vergi sisteminin təkmilləşdirilməsi yolu ilə özəl sektorun, xüsusilə xidmət sektorunun və eləcədə regionlarda kiçik sahibkarlığın inkişafını daha da gücləndirmək olar. Belə bir şəraitin effektliyi nəticəsində bu kateqoriyaya aid sahibkarların ödədikləri vergilərin həcmi də arta bilər.

Konkret olaraq ölkəmiz üçün vergi sisteminin təkmilləşdirilməsinin strateji istiqamətlərini aşağıdakı kimi verə bilərik:

- inkişaf etmiş ölkələrin təcrübəsindən istifadə edərək vergi qanunvericiliyinin təkmilləşdirilməsi;
- çevik vergi orqanlarının formalaşdırılması;
- milli vergi ödəyicilərinin könüllü fəaliyyət dərəcəsinin artırılması.

Hesab edirik ki milli vergi ödəyicilərinin könüllü fəaliyyət dərəcəsinin artırılması bazarda fəaliyyət göstərən bütün sahibkarlıq subyektlərinin maraqlarını təmin edə bilər. Digər tərəfdən isə vergi ödəyicilərinin vəsaitinin bir hissəsinin pensiya fonduna yığılması onları bu istiqamətdə stimullaşdıra bilər.

İbrahimov Ş.M.,
iqtisad elmləri namizədi, dosent
AMEA-nın İqtisadiyyat İnstitutu

MÜASİR ŞƏRAİTDƏ MÜHASİBAT UÇOTUNUN AKTUAL PROBLEMLƏRİ

Müasir qloballaşma, inteqrasiya və informasiya cəmiyyətinin formalaşdığı şəraitdə ölkəmizdə həyata keçirilən uğurlu sosial-iqtisadi siyasət xarici–iqtisadi əlaqələrin genişlənməsinə və Azərbaycan iqtisadiyyatının dinamik inkişafına geniş imkan yaratmışdır. İqtisadiyyatın dinamik inkişafında başlıca rol oynayan sahələrdən biri ölkəmizdə uçot və hesabatların beynəlxalq standartlar səviyyəsində qurulması məsələsidir. Hər bir ölkənin iqtisadi nailiyyətində uçot siyasətinin yeri xüsusi əhəmiyyət kəsb edir. Bu gün ölkəmizdə uçot və hesabatların beynəlxalq standartlar səviyyəsində qurulması, yeni hesablar planının dövriyyəyə buraxılması və bu kimi mühüm işlər aparılır.

Cəmiyyətin inkişfında informasiyanın rolunun gündən-günə artması, iqtisadi proses və hadisələrin yerinə yetirilməsində və qərarlar qəbul edilməsində mühüm əhəmiyyət kəsb edir. Müasir şəraitdə müəssisələrin idarə edilməsi əsasən mühasibat

informasiyaları hesabına həyata keçirilir. Mühasibat uçotu informasiyaları bu sahədə xüsusi rol oynamaqla, strateji ehtiyat kimi müəssisənin maliyyə-təsərrüfat fəaliyyətinin gələcəkdə proqnozlaşdırılmasına imkan yaradır.

İqtisadiyyatı dayanan "informasiya inqilabı" təşkil edir və onun fərqləndirici xüsusiyyəti gündəlik informasiyadan istifadədir.

İnformasiya ehtiyatları həmişə vardı, ancaq iqtisadi kateqoriyaya aid edilmirdi. Klassik iqtisadi kateqoriyalara təbii ehtiyatlar, insan, maliyyə, energetika və s. aid edilirdi. Bildiyimiz kimi, cəmiyyətdə daha çox güc maddi istehsala yönəlir. Maddi istehsalın avtomatlaşdırılması iş güçünü əqli istehsalda, informasiya məhsulu və xidmətində cəmləşdirməyə imkan verir. Bu proses maddi istehsalda informasiya, bilik və əqli ön plana çəkir. B.Kompeyn qeyd etmişdir ki, informasiya həmişə olub, yalnız bu yaxınlarda biz iqtisadçılar informasiyanı maddi və enerji ehtiyatları ilə bir səviyyədə qəbul etməyə başlamışıq.

İnformasiya – latın sözü olub(Informatio) - məlumat, izahat, tanışlıq mənalarını daşıyır. İnformasiya – insanların bir-biri ilə qarşılıqlı təsiri və ümumiyyətlə dünyanın dərk edilməsi vasitəsidir. İnformasiya ilkin və məzmunludur. O daşıyıçısız mövcud deyil. İnformasiya səs, yazı, qrafik, görmə, elektrik və s. vasitəsi ilə ötürülür. İnformasiya saxlanılma, ötürülmə, emal və s. xüsusiyyətlərindən asılı olaraq müxtəlif olur. Bu gün ən çox istifadə edilən informasiya növü mətn və elektron informasiyadır.

"İnformasiya"nın tərifi olmasa belə o ümumilikdə dünyanın dərk edilməsinin yeganə vasitəsidir.

İnformasiya aşağıdakı xüsusiyyətlərə malikdir:

- **İnformasiya tamlığı.** Bu xüsusiyyət informasiyanın keyfiyyətini xarakterizə edir və qərar qəbul edilməsində verilənlərin kifayətliliyini müəyyən edir. Başqa sözlə, informasiya lazım olan bütün verilənlər dəstini əhatə etməlidir.

- **İnformasiya etibarlığı**. İnformasiya etibarlı və etibarsız ola bilər. Etibarsız informasiyada "informasiya küyü" ola bilər. Küy çoxaldıqca informasiya etibarlığı azalır.

- **İnformasiyanın dəyəri** (qiymətliliyi). İnformasiyanın dəyəri abstrakt ola bilməz. İnformasiya müəyyən istifadəçilər üçün faydalı və qiymətli olmalıdır.

- **İnformasiya adekvat lığı.** İnformasiya obyektin real vəziyyətinə uyğunluq dərəcəsini əks etdirir. Adekvat informasiya – tam və etibarlı informasiyadır.

- **Aktual informasiya.** İnformasiya aktual olmalıdır, başqa sözlə köhnəlməməlidir. Bu xüsusiyyət informasiyanın zaman anına uyğunluq dərəcəsini əks etdirir.

- **Aydın informasiya.** İnformasiya istiqamətləndirilmış əhatə üçün başa düşülən olmalıdır.

- **İnformasiya açıqlığı**. Açıqlıq informasiyanı qəbul etmək imkanlarını xarakterizə edir. Bu xüsusiyyət eyni zamanda verilənlərin və adekvat üsulların açıqlığına təsir edir.

- **İnformasiya subyektivliyi**. İnformasiya subyektiv xarakter daşıyır, o subyektin (informasiyanı qəbul edən) qəbul etmə dərəcəsi ilə müəyyən edilir.

Müasir dövrdə mühasibat uçotuna olan tələblər artdığında, mühasibat uçotu informasiyalarına kifayət qədər problemləri də yaranmışdır. Heç kəsə sirr deyil ki, mü-

hasibat uçotunun nə dərəcədə savadlı , düzgün aparılması ayrı-ayrı müəssisələrin, dövlətin, hətta dünya iqtisadiyyatının iqtisadi təhlükəsizliyində belə mühüm rol oynayır. Son dövrlərdə mühasibat uçotunun inkişaf etmiş ölkələrin iqtisadiyyatına təsiri artmaqdadır. Mühasibat uçotunun müasir problemlərinin təhlili göstərir ki, əsas məsələ mühasibat riskləri ilə bağlıdır.

Mühasibat (maliyyə) hesabatları göstəriciləri müasir iqtisadiyyatda iqtisadi qərarların qəbul edilməsində başlıca informasiya mənbəyidir. Məhz bu səbəbdən mühasibat uçotunun müasir problemlərini zərərsizləşdirmək xüsusi əhəmiyyət kəsb etdiyindən, hesabat göstəricilərin dəqiqliyi, etibarlılığı və s. səviyyəsinin artırılması qarşıda duran əsas məsələlərdəndir.

Mühasibat uçotunun müasir problemlərinin həlli ilk növbədə ehtimal olunan və yarana biləcək risk səviyyəsinin müəyyən edilməsi ilə bağlıdır. Risk özü bir çox xarakterik xüsusiyyətlərə malik olub, hər şeydən əvvəl qeyri-müəyyənlikdir. Daha aydın desək, bir neçə mümkün ssenarilər olduqda risk yaranır. Risk həmişə müəyyən zərər və ya digər mənfi nəticələrlə əlaqələndirilir. Risk gələcəkdə mənfi hadisələrin kəmiyyət və keyfiyyətcə qiymətləndirilməsini nəzərdə tutur. Biz o vaxt riskə gedirik ki, hər hansı bir hadisə başqa bir subyektin maraqlarına toxunsun və praktiki əhəmiyyət kəsb etsin.

Müasir mərhələdə mühasibat uçotu və hesabatlarında yaranan problemlər bir çox amillərdən asılıdır ki, bu amillər bir başa uçot işinin aparılması prosesinə təsir edir. Bu amillər daxili və xarici amillər olmaqla mühasibat uçotu risklərinin amilləri adlanır.

Xarici amillərə - siyasi, sosial-iqtisadi amillər, ölkənin qanunvericiliyi, sərmayəçilərlə, rəqib və kreditorlarla qarşılıqlı əlaqələri aid edilir.

Daxili amilləri - müəssisənin fəaliyyəti ilə bağlı vəzifə və məqsədləri, mühasibat uçotunun təşkili səviyyəsi əhatə edir. Bu amillərin birgə təsiri mühasibat uçotu risklərinin formalaşmasına səbəb olur və mühasibat uçotunun müasir problemlər həlli istiqamətlərinin müəyyən edilməsi imkanlarını ortaya qoyur.

Mühasibat uçotunun müasir tədqiqatçıları mühasibat risklərinin və uçot proseslərində yarana biləcək qeyri –dəqiqsizliklərin və ya alternativ mühasibat uçotu prinsiplərinin mövcudluğu, həmçinin, standartların və insan amilinin qeyri –müəyyənliyinin, dəqiqsizlininin nəticəsi olduğu qərarına gəlirlər.

Qeyd etmək lazımdır ki, müasir mühasibat uçotunun aparılmasında problemlər qaçılmazdır. Müəssisənin iqtisadi təhlükəsizliyini təmin etmək üçün onun necə idarə olunmasını dərindən öyrənmək lazımdır. Müasir dövrdə müəssisənin idarə edilməsi mühüm əhəmiyyət kəsb edir. Belə ki, yarana biləcək risklərin daha dəqiq müəyyənləşdirilməsi müəssisənin maliyyə- təsərrüfat fəaliyyətinin düzgün qiymətləndirilməsinə və idarəetmənin effektiv üsullarının seçilməsinə imkan yaradır.

Müasir şəraitdə mühasibat risklərinin mühasibat uçotunda əks etdirilməsi mühüm şərtlərdən biri olmaqla, müəssisədaxili nəzarət mühiti yaradılmasına imkan verir.

Müəssisənin mühasibatlıq sistemində riskləri müəyyənləşdirmək, qiymətləndirmək və onları azaltmaq üçün sistemin fəaliyyətinin manitorinqini, risklərin auditini həyata keçirmək lazımdır.

Məmmədova S.M., dosent
Bakı Biznes Universiteti,
Əliyev Ə.İ., dosent
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası

AZƏRBAYCAN İQTİSADİYYATININ İNKİŞAFINDA "CƏNUB QAZ DƏHLİZİ"NİN ROLU VƏ ƏHƏMİYYƏTİ

Bazar münasibətləri şəraitində çox mühüm əhəmiyyət kəsb edən qlobal layihələrdən biri olan enerji təhlükəsizliyi və enerji şaxələndirilməsi layihələri diqqəti cəlb edən əsas məsələlərdən biridir.

2015-ci ildən əvvəlki dövrlərdə Azərbaycan Gürcüstan və Türkiyə ilə birlikdə mühüm enerji lahiyələri keçirməsinə baxmayaraq son illərdə bu sahədə lazimi səylərin əlaqələndirilməsi nəticəsində ölkəmiz "Cənub" qaz dəhlizi Məşvərət Şurasının yaradılmasına xüsusi əhəmiyyət vermişdir. "Cənub" qaz dəhlizi layihəsi Azərbaycan iqtisadiyyatını gələcəkdə daha da inkişaf etdirməyə əsas verən enerji strategiyasının əsas tərkib elementlərindən biridir. Enerji ehtiyyatlarından səmərəli istifadə olunması ölkəmizdə qeyri-neft sektorunun, xüsusilə də insan kapitalı və infrastruktura investisiya qoyuluşunun artırılması iqtisadiyyatın uzunmüddətli davamlı inkşafına gətirib çıxarmışdır. Bütün bunlar onu deməyə əsas verir ki, son dövrlərdə ölkəmizdə həyata keçirilən bu layihələr "Cənub" qaz dəhlizinin həyata keçirilməsinə xüsusi maraq üçün güclü baza yaratmışdır.

1994-cü ildə "Əsrin müqaviləsi"nin bağlanaması Azərbaycanda olduğu kimi dünya miqyasında da neftin inkişafı tarixində şox mühüm dönüş nöqtəsi olmuşdur. Belə ki, bu problemin həlli Azərbaycanı dünya iqtisadiyyatına tanitmaqla bərabər, iqtisadiyyatın neft və qaz sektoruna xarici investorlar tərəfindən lazimi investisiyaların qoyulması üçün əlverişli investisiya mühiti yaradılmasına gətirib çıxarmışdır.

Qeyd etmək lazımdır ki, 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin çəkilməsindən sonra Azərbaycan qazı Gürcüstan və Türkiyə bazarlarına ixrac olunmağa başlamışdır. Bu isə öz növbəsində " Şahdəniz" yatağının işlənilməsının ikinci mərhələsinə təkan verməklə "Cənub" qaz dəhlizi layihəsi üçün əlverişli şərait yaratmışdır. Nəzərdə tutulan bu məsələlərin həyata keçirilməsi ölkəmizin tarixində mühüm mərhələ olmuşdur.

1994-cü ildə "Əsrin müqaviləsi"nin bağlanması ölkəmizdə dünya miqyasında neftin inkişafı tarixində dönüş nöqtəsi olmuşdur. Belə bir mühüm hadisənin baş verməsi Azərbaycanı dünya iqtisadiyyatına təqdim etməklə ölkəmizdə neft və qaz sektoruna küllü miqdarda investisiyaların qoyulmasına imkan yaratmaqla xarici investorlar üçün maksimum dərəcədə əlverişli investisiya mühütinin yaranmasına səbəb olmuşdur. 1996-cı ildə "Şahdəniz" qaz kondensatı layihəsi üzrə müqavilə imzalanması "Şahdəniz" yatağının "Cənub" qaz dəhlizi üçün yeqanə resurs mənbəyi olması xüsusi əhəmiyyət kəsb edir. Belə bir mühüm addımın atılması Azərbaycan iqtisadiyyatına milyardlarla investisiya qoyuluşu cəlb etməyə imkan yaratmışdır. Bu isə öz növbəsində ölkəmizin neft istehsal və ixrac edən ölkədən qaz istehsal və ixrac edən ölkəyə çevrilməsinə şərait yaratmışdır. Göründüyü kimi bu əsas enerji layihəsinin həyata keçirilməsi reqional əməkdaşlıqla bağlı məsələlərdə mühüm rol oynamaqla yanaşı müx-

təlif reqionları və qitələri birləşdirən əsas kəmər infrastrukturunun tikintisinin stimullaşdırılmasında həlledici vasitələrdən biri olmuşdur.

Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin açılışından sonra, yəni 2007-ci ildə ildən başlayaraq Azərbaycan qazının Gürcüstan və Türkiyə bazarlarına ixrac olunmağa başladığı dövrdən "Şahdəniz" yatağının ikinci mərhələsi "Cənub" qaz dəhlizi layihəsi üçün əsas baza yaratmışdır.

2012-ci ildə İstanbulda Azərbaycan və Türkiyə Trans-Anadolu -TANAP kəmərinin tikintisi ilə əlaqədar sənədin imzalanması güclü tarixi reqional inkişafa malik olmaqla yanaşı lazımı iqtisadi faydaların əldə olunmasına qətirib çıxarmışdı.

Ümumiyyətlə TANAP "Cənub" qaz dəhlizinin əsas fundamental elementlərindən biri olan "Şahdəniz-2" əsas investisiyaların qoyulmasına əlverişli şərait yaratmışdır. Elə buna görə də 2013-cü ildən başlayaraq "Şahdəniz-2"yə investisiya qoyuluşu ilə əlaqədar müvafiq qərar qəbul olunmuşdur.

Aparılan təhlil materialları göstərir ki, son bir il ərzində "Cənub" qaz dəhlizinin həyata keçirilməsi ilə əlaqədar görülən bütün işlərdə yüksək naliyyətlər əldə olunmuşdur.

Belə ki, 2018-ci ilin fevral ayına olan məlumata görə 2017-ci illə müqayisədə "Şahdəniz-2" yatağı üzrə görülən işlərin həcmi 90%-dən 99%-ə qədər yüksəlmişdir. Eyni zamanda Cənubi Qafqaz Boru Kəməri ilə bağlı işlərin həcmi 2017-ci ildəki 90%-dən 95%-ə çatmışdır. TANAP layihəsi üzrə olan işlər 70%-dən 95%-ə, TAP layihəsinin icrası ilə əlaqədar olan işlər isə 34%-dən 70%-ə qədər həyata keçirilmişdir. Bütün bunlar onu deməyə əsas verir ki, son dövrlərdə Azərbaycan, Gürcüstan və Türkiyə arasında yaradılmış qarşılıqlı əməkdaşlıq Azərbaycanda və eyni zamanda Avropada enerji təhlükəsizliyinin inkişafı sahəsində çox mühüm rol oynamışdır. Ona görə ki, ölkələr arasında yaranmış reqional əməkdaşlıq genişmiqyaslı enerji layihələrinin həyata keçirilməsi ilə yanaşı ölkəmizdə sabitliyin möhkəmləndirilməsinə, proqnozlaşdırma imkanının yaradılmasına və lazımı əməkdaşlıq münasibətlərinin yaranmasına təkan vermişdir.

Təqribi proqnoz hesablamaları göstərir ki, Azərbaycanın təsdiq olunmuş qaz ehtiyatlarının "Şahdəniz" yatağında olduğundan 2 dəfədən çox olmaqla 2,6 trilyon kubmetrə bərabərdir.

Elə buna görə də Azərbaycanın qarşıdaki onilliklərdə dünya bazarlarına enerji ehtiyyatlarının etibarlı və uzunmüddətli təchizatçısı kimi çıxış etməsi daha məqsədəuyğun olacaqdır. Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycanın öz qaz ehtiyyatları ilə Avropa bazarlarına çıxmağı heç bir şübhə doğurmur.

Deməli "Cənub" qaz dəhlizi enerji təhlükəsizliyi layihəsi olmaqla yanaşı, həm də enerji şaxələndirilməsi layihəsidir. Ölkəmizdə mövcud olan əvvəlki layihələrlə bərabər "Cənub" qaz dəhlizi layihəsi Azərbaycan iqtisadiyyatına yeni faydalar verməklə yanaşı iqtisadiyyatın şaxələndirilməsi, insan kapitalına investisiya yatırılması və iqtisadiyyatın tamamilə dəyişdirilməsi üçün enerji ehtiyatlarından səmərəli istifadə olunmasını qarşıya bir məqsəd kimi qoymuşdur.

"Cənub" qaz dəhlizi layihəsinin təşkili Avropanın enerji təhlükəsizliyi üçün əhəmiyyəti çox vacib olmaqla bu əhəmiyyət gələcəkdə daha da artacaqdır. Ona görə ki, hazırda Avropa ittifaqı istehlak etdiyi enerjinin yarıdan çoxunu, yəni təbii qazın 69-70%-ni, neftin isə 89%-ni Rusiya, Norveç və Əlcəzairdən idxal edir.

2017-ci ilin fevral ayının 15-də Bakıda "Cənub" qaz dəhlizi Məşvərət Şurası çərçivəsində keçirilən nazirlərin dördüncü toplantısında göstərildiyi kimi hazırkı şəraitdə Azərbaycanın gerçəkləşdirdiyi iki əsas enerji layihəsi, yəni "Azəri- Çıraq-Günəşli" və "Cənub" qaz dəhlizi reqional əməkdaşlıqla bağlı məsələlərdə mühüm rol oynamaqla yanaşı Avropada enerji təchizatının şaxələndirilməsinə xüsusi köməklik göstərəcəkdir.

"Əsrin müqaviləsi"nin 2050-ci ilədək uzadılması sazişinə əsasən Azərbaycana xarici investorlar tərəfindən 3,6 milyard dollar həcmində bonus ödəməklə "Azəri-Çıraq-Günəşli" yə 40 milyard dollardan artıq sərmayə qoyulması nəzərdə tutulur.

Məşvərət Şurası çərçivəsində keçirilən toplantıda göstərildiyi kimi 40 milyard dollar sərmayə ilə keçirilən və uzunluğu 3500 kilometr olub 4 seqmentdən ibarət olan "Şahdəniz-2", Cənubi Qafqaz Boru Kəməri, TANAP və TAP-dan ibarət olan "Cənub" qaz dəhlizi layihəsinin reallaşdırılması prossesi artıq həlledici mərhələdədir.

"Cənub" qaz dəhlizi Azərbaycanın dünyanın sayılan əsas qaz ixracatçılarından biri olmaqla "Şahdəniz-2" yatağından hasil olunacaq qazın Gürcüstan, Türkiyə, Yunanıstan, Albaniya və İtaliyadan keçən boru kəmərləri vasitəsilə Avropaya çatdırılmasını Azərbaycan həyata keçirəcəkdir. Gələcəkdə "Cənub" qaz dəhlizinin nəqletmə gücü 31 milyard kubmetrə çatdırılmaqla karbonidrogen satışından və nəqlindən ölkəmizə orta hesabla təxminən 30-50 milyard dollar qəlir əldə olunması nəzərdə tutulur.

"Cənub" qaz dəhlizinin əsas seqmentləri üzrə işlərin tamamlanması onu deməyə əsas verir ki, həmin layihəyə təbii qazın 2018-ci ildə Türkiyəyə, 2020-ci ilədək isə Avropa ölkələrinə nəql edilməsi nəzərdə tutulmuşdur.

"Cənub" qaz dəhlizi layihəsinin ilk iki seqmentinə görə əsas vəzifə Xəzərin Azərbaycan sektorundakı " Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsindən hasilata başlaması, "Şahdəniz-1" qazını Gürcüstan-Türkiyə sərhədinədək daşıyan Cənubi Qafqaz Boru Kəmərinin yeni nəzərdə tutulan həcmləri qəbul etmək üçün genişləndirilməsi ilə əlaqədardır. TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) Türkiyənin ərazisi boyu 1850 kilometr məsafə qət edərək Gürcüstan- Türkiyə sərhədindən başlayaraq Türkiyə Yunanıstan sərhədinə qədər uzanacaqdır. Sonuncu seqment olan TAP (Trans-Adriatik Qaz Boru Kəməri) boru kəməri xətti TANAP-la birləşərək Yunanıstanın və Albaniyanın ərazisindən, həmçinin Adriatik dənizinin altından keçərək İtaliyanın cənubunda quru sahəyə çıxacaqdır.

Bütün bu qeyd olunlara əlavə olaraq onu demək lazımdır ki, 2018-ci ildə ölkəmiz tərəfindən "Cənub" qaz dəhlizi layihəsinin yerinə yetirilməsinə ayrılması nəzərdə tutulan 1,3 millyard dollar həcmində vəsaitdən "Şahdəniz-1" layihəsi daxil olmaqla "Şahdəniz-2" layıhəsinə 232 milyon dollar, Cənubi Qafqaz Boru Kəməri layihəsinə 144 milyon dollar, TANAP layihəsinə 728 milyon dollar və TAP layihəsinin yerinə yetirilməsinə isə 182 milyon dollar xərclənməsi nəzərdə tutulur.

Onu qeyd etmək yerinə düşər ki, 2018-ci il "Cənub" qaz dəhlizi layihəsinin həyata keçirilməsində əlamətdar bir il olacaqdır. Hazırda "Şahdəniz-2"nin ilk qazının qarşılanması üçün son işlər tamamlanmaq üzrədir. Belə ki, Cənubi Qafqaz Boru Kəmərinin həm Azərbaycan ərazisindən və həm də Gürcüstan ərazisindən keçən hissələrində genişləndirmə işləri tamamilə yekünlaşdığına görə bu il "Cənub qaz dəh-

lizi”nin ən böyük hissəsi olan TANAP-ın istifadəyə veriləcəyi nəzərdə tutulur. Bununla yanaşı onu da qeyd etmək lazımdır ki, TAP layihəsinin yerinə yetirilməsində də nəzərə tutulan işlər uğurla davam etdirilir.

Göründüyü kimi “Cənub” qaz dəhlizi layihəsinin reallaşması Avropa ölkələrinin enerji təminatına yeni imkanlar açaraq qaz tədarükü mənbələrini şaxələndirməklə yeni alternativ marşrutlardan istifadə edərək çoxsaylı istehlakçıları sərfəli enerji resursları ilə təmin etməyə şərait yaradacaqdır.

Bununla yanaşı bu layihənin reallaşması “Cənub” qaz dəhlizi boyunca yerləşən ölkələrdə yeni texnologiyaların tətbiqinə, müvafiq iş yerlərinin açılmasına və investisiya qoyuluşlarının artmasına gətirib çıxaracaqdır.

15 fevral 2018-ci il tarixdə Məşvərət Şurasının dördüncü toplantısının materiallarından göründüyü kimi “Cənub” qaz dəhlizinin Avropanın enerji təhlükəsizliyi üçün əhəmiyyətinin çox vacibliyi gələcək dövrlərdə daha da artacaqdır.

Təsadüfi deyil ki, Avropa komissiyası “Cənub” qaz dəhlizi layihəsi enerji mənbələrini və marşrutlarını şaxələndirərək Avropanın enerji bazarlarına inteqrasiya üçün enerji birliyinin təmin olunmasına lazimi imkan və şərait yaradacaqdır.

Məlum olduğu kimi Azəybaycan təbii qazını Avropaya daşıyacaq TAP kəməri layihəsinə Avropa İnvestisiya Bankı tərəfindən 1,5 milyard avro ayrılması ilə əlaqədar görülən işlər Avropa İttifaqının “Cənub” qaz dəhlizi layihəsinə olan münasibətin əsas həlledici amillərindən biridir.

Materialların təhlili göstərir ki, 2018-ci ilin əvvəlinə “Cənub” qaz dəhlizi layihəsinin həyata keçirilməsinə qoyulan birgə sərmayələrin ümumi həcmi 29,7 milyard dollara bərabər olmuşdur. Bununla yanaşı onu da qeyd etmək lazımdır ki, Azərbaycan “Cənub” qaz dəhlizi layihəsində iştirak payının maliyyələşdirilməsinə 8,7 milyard dollar həcmində investisiya yatırılıb.

Hal-hazırda “Cənub” qaz dəhlizi layihəsinin bütün seqmentləri üzrə nəzərdə tutulan işlər qrafikə uyğun olaraq həyata keçirilir və 2018-ci ildə bu layihənin üç seqmenti üzrə işlər tamamilə başa çatdırılacaqdır. Bununla əlaqədar olaraq kommersiya məqsədilə Türkiyəyə təbii qazın 2018-ci ilin ortalarında çatdırılması nəzərdə tutulur.

Bütün bu qeyd olunanlar onu deməyə əsas verir ki, Avropa ölkələrinin enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycan qazından istifadənin aktuallığına xüsusi diqqət yetirilməlidir.

Ümumiyyətlə “Cənub” qaz dəhlizi layihəsi Avropa İttifaqının qaz təchizatında çox mühüm və əhəmiyyətli layihələrdən biri olacaqdır və bu layihənin reallaşması yaxın vaxtlarda başa çatacaqdır.

Bütün bu qeyd olunanlar onu deməyə əsas verir ki, “Cənub” qaz layihəsi üzrə nəzərdə tutulan bütün işlərin vaxtında yerinə yetirilməsi Azərbaycana külli miqdarda gəlir gətirilməsinə şərait yaradacaqdır. Bu isə öz növbəsində ölkəmizdə iqtisadiyyatın inkişafı istiqamətində görülən işlərin lazımı səviyyədə aparlmasına müvafiq şərait yaratmaqla qeyri-neft sektorunun inkişafına və bunun da nəticəsində ölkə əhalisinin yaşayış səviyyəsinin daha da yüksəldilməsi istiqamətində həyata keçirilməsi nəzərdə tutulan bütün lazimi tədbirlərin yüksək səviyyədə aparılmasına müsbət təsir göstərəcəkdir.

Həsənov İ.C., dosent
Bakı Biznes Universiteti

TİKİNTİ MÜƏSSİSƏSİNİN RƏQABƏT QABİLİYYƏTİNİN ARTIRILMASININ ƏSAS İSTİQAMƏTLƏRİ

Tikinti istehsalının son nəticəsinə təsir edən idarəetmə amillərinə baxmaq və onun miqyasını təyin etmək üçün idarəetmənin əsas elementlərinin tərtib edilməsi məqsədəuyğundur. Bu zaman idarəetmənin əsas amilləri kimi idarəedilmənin təşkilat formaları, firmadaxili təşkilat strukturlarının idarə edilməsi, idarəetmə funksiyaları, qəbul olunmuş idarəetmə həllərinin metodları və idarəedilmənin texniki resursları nəzərdən keçirilir.

Məlumdur ki, bazar münasibətləri şəraitində iqtisadiyyatda inhisarçılıq özbaşına inkişaf etmir və o azad bazarın obyektiv tələbatına cavab verir. Ona görə də hazırda inkişaf etmiş ölkələrdə Ümumi Milli Məhsul əksər hallarda nəhəng inhisarçı korporasiyalar tərəfindən yox, çoxsaylı orta və kiçik müəssisələr tərəfindən formalaşdırılır. ABŞ-da iş yerlərinin ümumi artımının yarıdan çox hissəsi kiçik və orta müəssisələrin payına düşür. Kiçik və orta mülkiyyətçi risk edərək yeni məhsulların istehsalını və texnologiyasını mənimsəyir. Kiçik sahibkarlıq nəinki elmi-texniki tərəqqinin inkişafına təkan verir, hətta istehlak tələbatını da ödəyir və ictimai xərclərə qənaət edir.

ABŞ-da işçilərinin sayı 50 nəfərdən az olan ixtisaslaşdırılmış podrat firmaları birbaşa və ya əlavə podrat müqavilələlərinə görə bu və ya digər növ tikinti işlərini yerinə yetirirlər. Baş podrat firmaları əlavə podrat üzrə orta və kiçik firmalara işlərin həcminin $^2/_3$ hissəsini təhvil verir. Yaponiyada da kiçik müəssisələr aktiv şəkildə fəaliyyət göstərir və hətta iri firmalarla rəqabət aparırlar. Bunun əsas səbəbi ondan ibarətdir ki, fərdi layihələr üstünlük təşkil edir, təmir işlərinin xüsusi çəkisi çoxdur, eyni zamanda burada əsasən əl əməyinin tətbiqi tələb edilir. İri podrat firmaları kiçik və orta firmaların saxlanılması üçün iqtisadi cəhətdən maraqlıdırlar, çünki tikinti meydançasında ən çox işlər görülən vaxt onların köməyindən istifadə edirlər. Bəzi ölkələrdə, məsələn, Yaponiyada çoxlu kiçik və orta firmaların olması onların təkcə iqtisadi sabitliyindən deyil, həm də dövlət tərəfindən müdafiə olunması siyasəti ilə izah olunur.

Tikintinin həcminin artması nəticəsində sənaye və yaxud yaşayış komplekslərinin tikilməsi ilə əlaqədar olaraq, obyektlərin tikintisi dövründə çoxlu kiçik və orta firmalar müvəqqəti olaraq birləşib birliklər yaradırlar. Onların yaradılması tikinti istehsalının təşkilini təkmilləşdirir, çünki birliklər iri istehsal və yaşayış obyektlərini, kompleksləri tikmək üçün əlverişli hesab olunur.

Bütünlüklə demək olar ki, inkişaf etmiş ölkələrdə tikinti müxtəlif səviyyədə təmərküzləşibdir. Burada ayrı-ayrı iş növlərini yerinə yetirən inhisarçı iri və nəhəng firmalar və korporasiyalar cəmləşibdir. Eyni zamanda da məhdud miqdarda tikinti-quraşdırma işlərinin ayrı-ayrı növlərini yüksək keyfiyyətlə yerinə yetirən ixtisaslaşdırılmış çoxlu kiçik və orta firmalar da vardır.

Müasir mərhələdə tikinti müəssisəsinin inkişafının əsas istiqamətləri aşağıdakılardır:

– tikinti müəssisəsinin rəqabət qabiliyyətinin artması inkişafın başlıca istiqamətidir, çünki rəqabət qabiliyyəti olmayan müəssisələr son nəticədə müflisləşirlər. Rəqabət qabiliyyətinin artırılması məqsədi tikinti müəssisəsinin yaşaması imkanını müəyyən edir;

– investisiyalaşdırılan kapitalın gəlirliyinin artması mühüm meyardır, hansı ki, bu investorların və kreditlərin cəlb edilməsi üçün tikinti müəssisəsinin imkanını əks etdirir, texnikanın və texnologiyanın yenilənməsinə investisiyalaşdırma siyasətini həyata keçirir;

– tikinti müəssisəsinin istehsal, kadr və iqtisadi potensialının inkişafı avadanlığın innovativ dəyişilməsini nəzərdə tutur, heyətin və insan kapitalının inkişafı, intellektual texnologiya, banklar və məlumatlar bazası, maliyyə və investisiya potensialları artımı daxil olmaqla tikinti müəssisəsinin maliyyə potensialı onun pul vəsaitləri axınının kəmiyyəti, maliyyə sabitliyi, rentabelliklə xarakterizə olunur. İnvestisiya potensialı tikinti müəssisəsinin investisiya aktivliyini, onun investisiya resurslarının istifadəsi həcmini, investisiyalaşdırma miqyasını, investisiyalaşdırmanın istiqamətlərini nəzərə alır;

– tikinti müəssisəsinin fəaliyyət sferasının genişləndirilməsi;

– onun istehsal etdiyi məhsulun keyfiyyətinin yüksəldilməsi;

– bazarlara istehsal edilən məhsulun çatdırılması;

– müəssisənin əsas dəyərliləri və inkişaf prioritetlərinin müəyyən edilməsi.

Dünya iqtisadiyyatının qloballaşması bütün dünyada ölkələrin iqtisadiyyatının inkişafında dərin dəyişikliklər əmələ gətirdi, rəqabət mühitini yaratdı, xüsusi istehsalçıların müdafiə səviyyəsini aşağı saldı. Bu gün qlobal iqtisadi inkişafın orbitinə praktiki olaraq bütün inkişaf edən ölkələr cəlb edilib ki, bunlar da ən çox qlobal xarici amillərdən və təhlükədən asılıdırlar. Enerji daşıyıcılarının qiymətlərinin bərabərləşdirilməsi, kömrük maneələrinin azaldılması və dövlət yardımı ölkənin milli iqtisadiyyatını yeniliyə, vahid iqtisadi sistemə transformasiya edir.

Tikinti sənayesinin yenidənqurulması və onun rəqabət qabiliyyətinin artması səviyyəsi son dövrlərə qədər o qədər də qənaətbəxş olmamışdır. Bunun başlıca səbəbləri ondan ibarətdir ki, yeni mülkiyyətçilərin əsas hissəsinin innovativ inkişafa motivasiyası çox zəif idi və onlar təbii resursların xaricə satışına əsasən kapitalın formalaşmasının asan və yüksəkgəlirli yollarından, həmçinin əmtəələrin və məhsulların idxalından istifadə edirlər. Bu tipli fəaliyyət növləri dünya bazarına xüsusi rəqabətqabiliyyətli yüksək texnoloji məhsulların çıxarılmasına nisbətən daha asandır. Nəticədə, tikintidə tez bir zamanda elmi-texniki potensialın zəifləməsi baş verdi, yeni ixtisaslı işçi yerlərinin yaradılması əvəzinə ölkədə az ixtisaslı işçi qüvvəsi təbəqəsi əmələ gəldi, gəlirlərin səviyyəsi üzrə cəmiyyətdə dərin differensiasiya yarandı. Eyni zamanda idarəçilikdə bürokratiya gücləndi. Tikinti müəssisələrinin əksəriyyətində idarəedici heyət üzvlərinə idarəetmənin metodlarını, proseslərin təşkilini, konsepsiyanı öyrətmədilər. Müəssisələrin inkişafının aydın perspektiv planları işlənilmir, nəzərdə tutulan məqsədlərin resurslarla əlaqəsi göstərilmir.

Tikinti müəssisəsinin yüksək rəqabət qabiliyyətinə nail olması onun fəaliyyətindən və idarəetməni necə təşkil etməsindən asılıdır. Tikinti müəssisəsinin fəaliyyətinin müvəffəqiyyətinin təmin edilməsinin başlıca amilləri məhsulun (xidmətlərin) yaradıl-

ması sahəsində strateji üstünlüyün, idarəetmənin inkişafın sabitliyinin təmin edilməsidir.

Tikinti müəssisələrinin əksəriyyətində menecerlərin diqqəti əsasən operativ maliyyə göstəricilərinə – mənfəətə, rentabelliyə yönəlmişdir. Ancaq həmin meyarlar bazarda müəssisənin strateji vəziyyətini yox, çox dərəcədə cari vəziyyətini əks etdirir.

İnvestisiya siyasətinin formalaşmasında investisiya prosesinin rəqabət şəraitində tikinti müəssisəsinin inkişafının səmərəli meyarlarına aşağıdakılar aid edilməlidir:

- tikinti müəssisəsinin bazarda payını, artım tempini, rəqabət üstünlüyünü əks etdirən, istehsalın son məhsulunun (onun əmtəələrinin, xidmətlərinin, innovasiya məhsullarının) rəqabət qabiliyyəti, inkişafın həmin istiqamətinin səmərəliyi bazarda müəssisənin (təşkilatın) mövcudluğunu müəyyən edir;
- daxili və xarici müraciətlərin işlənilmə prosesinin təşkilini, onların qarşılığının düzgün və öz vaxtında müəyyən etmək üçün menecerlərin qabiliyyəti: əgər rəqiblərlə rəqabətdə təhlükəsizliyə qarşı təsir və bazar konyunkturunun dəyişilməsi səmərəsizdirsə, onda tikinti müəssisəsi hətta yeni texnikanın tətbiqi və iri investisiyaların yatırılması şəraitində də müflisləşə bilər;
- insani münasibətlərə əsaslanan burokratiyadan azad və şəxsiyyətin yaradıcılıq imkanının əmələ gəlməsi, əmək şəraitinin yaxşılaşdırılması, insan kapitalının artması və müəssisənin heyətinin inkişafı, idarəetmənin sosial məsuliyyətliliyi, tikinti müəssisəsinin istehsal mədəniyyətinin formalaşdırılması və inkişafı;
- istifadə olunan avadanlıqların və texnologiyanın rəqabət qabiliyyətini, onların təzələnməsinin keyfiyyəti və tempini müəyyən edən, tikinti müəssisəsinin innovativ inkişaf səviyyəsi;
- tikinti müəssisəsinin zəruri resurslarla təmin edilməsi və onların səmərəli istifadəsinin təmin olunmaması və ya yüksək səviyyəli rəqabət şəraitində onların istifadə edilməsində tikinti müəssisəsinin rəqabət qabilliyyətinin olmaması bazardan müəssisənin sıxışdırılmasına səbəb ola bilər.

Tikinti müəssisəsinin inkişafının səmərəliliyi onun inkişafının sistem modelinin qurulması və tətbiqindən, onun menecerlərinin qabiliyyətindən asılıdır.

Tikinti müəssisəsinin inkişafının əsas növlərinə inkişafın proqressiv və reqressiv tipləri daxil edilir. Proqressiv tip üçün tikinti müəssisəsinin nəticəsinin daimi artması xarakterikdir. Reqressiv tip üçün isə, əksinə, rəqiblərdən əsas göstəricilər üzrə geriqalma müəssisəni bazardan getməyə məcbur edir. İdarəetmə praktikası göstərir ki, tikinti müəssisəsi (şirkəti) əsas göstəricilər üzrə inkişafdan geri qalanda da müflisləşə bilər.

Dünya iqtisadiyyatının inkişafının yeni xüsusiyyətləri investisiya siyasətinin inkişafına və tikinti müəssisələrinin rəhbərlərinə və idarəetməni təşkil edən menecerlərə güclü təsir göstərir.

Müasir mərhələ – dünya iqtisadiyyatının inkişafında ən mürəkkəb dövrlərdən biridir. Dünyada insan fəaliyyətinin bütün sferalarında rəqabətin müvəffəqiyyətli inkişafını təmin edən yolların gərgin axtarışı gedir. Belə ki, hazırda şirkətlərin sürətli artımı analitiklər tərəfindən risk əlaməti kimi qiymətləndirilir. Məsələn, şirkətlərin səhmlərinin kursu əvvəlcə sürətlə artdı, sonra isə kəskin şəkildə azaldı və çoxsaylı müflisləşmələri əmələ gətirdi. Şirkətlərin əksər hissəsi öz müstəqilliyini saxlamağı böyük nailiyyət hesab edir və birləşmə, udulma və ya müflisləşmə təhlükəsindən qaçırlar.

Müasir dövrün başlıca xüsusiyyətlərindən biri də dünya iqtisadiyyatının qloballaşmasıdır. Dəyişikliklər fasiləsiz olaraq insanların həyat fəaliyyətinin bütün sferalarında gedir. Qlobal dəyişikliklərin əmələ gəlməsi prosesləri dünya inkişafının böyük tendensiyası kimi çıxış edir.

Dünyada müasir təşkilatların idarəetmə prinsiplərinin dəyişilməsi Meri Ferqyuson tərəfindən keçən əsrin 90-cı illərinin əvvəllərində inkişafın köhnə və yeni paradiqm növündə dünya iqtisadiyyatının və idarəedilmənin inkişafında uzunmüddətli tendensiya kimi təsvir edilir. Bu gün də onlar öz aktuallığını saxlayır. Köhnə paradiqm keçmiş illərin idarə edilməsinin inkişafının konsepsiyasını müəyyən edir və inkişafın yeni şəraitinə uyğun gəlmir. Yeni paradiqm – müvəffəqiyyətə nail olmaq üçün zəruri olan menecerlərin konsepsiyalarının, baxışlarının dəyişilməsidir. Demək olar ki, yeni paradiqm idarəedilmədə strateji dəyişiklikləri xarakterizə edir.

Xarici şirkətlərin idarə edilməsində əsas dəyişiklikləri nəzərdən keçirərək, Azərbaycanın tikinti müəssisələrinin (şirkətlərin) idarə edilməsi təcrübəsi nəzərə alınmaqla onların inkişaf tendensiyası ilə aparılan müqayisədən göründüyü kimi bir çox Azərbaycan müəssisələri (şirkətləri) köhnə paradiqmə riayət edirlər, bununla belə bəzi meyarlar üzrə dünya iqtisadiyyatının inkişaf tendensiyasından çox geri qalırlar.

Dünyada indiyə kimi mövcud olan inkişaf tendensiyalarında bütün sferalara elmi-texniki inqilab daxil edilir, adi texnologiya yüksək texnologiya ilə sıxışdırılır, biznesin və idarəetmənin inkişafı üçün prinsipcə yeni şəraiti yaradır, elektron kommunikasiyalar qloballaşdırılır, biznes universal olur. Dünya iqtisadiyyatını qloballaşdırmaq üçün vahid informasiya platforması yaradılır.

Xarici mühitin inkişaf tendensiyası nəticəsində yaranan müasir idarəetmə konsepsiyasına bunlar aiddir:

- intellektə əsaslanan yeni idarəetmə mədəniyyəti;
- tikinti müəssisəsinin (şirkətin) səmərəliliyinin yeni meyarları: xarici mühitin dəyişilməsini bilmək qabiliyyəti və istehsalçılara üstünlüyün verilməsi, tərəfdaşlığın inkişafı, rəqiblərin müflisləşməsinə və sıxışdırılmasına əsaslanan rəqabət mübarizəsinin köhnə prinsiplərindən imtina edilməsi;
- idarəetmənin yeni təşkilat strukturları, piramidadan şəbəkə strukturlarının bölüşdürülməsinə keçid və yüksək dərəcədə özünütənzimləyən, özünü layihələndirən və özünü inkişaf etdirən prinsiplərə əsaslanmaq. Bu cür yeni keyfiyyət dəyişiklikləri yaxın gələcəkdə mövcud təhsil sistemini də kökündən dəyişəcək. Çoxlu dərəcələrə bölünmə və istiqamətlər, dünya iqtisadiyyatı və sosial mühitin müxtəlifliyinə və mürəkkəbliyinə cavab verən ixtisasların yenilənməsi və öyrənilməsi baş verəcək. Bu gün Azərbaycanın tikinti müəssisələri (şirkətləri) zəif rəqabət şəraitində işləyirlər və nəticədə innovasiyaların tempi, buna uyğun olaraq əmtəələrin və xidmətlərin keyfiyyəti qənaətbəxş deyildir.

Ümumilikdə götürdükdə də sənayecə inkişaf etmiş ölkələrlə müqayisədə Azərbaycanın tikinti sahəsində rəqabətin səviyyəsi o qədər də yüksək deyildir. Rəhbərlərin və menecerlərin əksəriyyətinin biliyinin aşağı səviyyədə olması, iri gəlirlərin əldə edilməsi imkanının olmaması və bir sıra başqa səbəblər digər ölkələrlə müqayisədə Azərbaycanın tikinti müəssisələrinin (şirkətlərinin) iqtisadi mövqeyinin başlıca əlamətlərini xarakterizə edir.

Əliyeva T.Ə.,
fizika-riyaziyyat elmləri namizədi, dosent
Rzayeva Ü.Ş.,
riyaziyyat elmləri üzrə fəlsəfə doktoru
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)

BİG DATA PARADİQMASI ALƏTLƏRİNDƏN BİRİ KİMİ TEXT MİNİNG METODUNUN BİBLİOMETRİYADA TƏTBİQİ

Elmmetriya sahəsində tədqiqatlar apararaq mütəxəssislər hər dəfə ardıcıl seçimlər seriyasını yerinə yetirməyə məcburdurlar ki, bu da sonda onların işlərinin nəticələrinə təsir göstərir. Elmi dərgilər haqqında statistik məlumatların toplanmasında informasiyanın əsas mənbələri kimi Web of Science və Scopus beynəlxalq bazaları xidmət göstərir. Bazaların informasiya strukturu fərqləndiyindən tədqiqatçılar onlardan istənilən birini seçirlər.

Elmi nəşrlərin statistikasını təhlil edərək, onların mövcudluğunun elmi kommunikasiya vasitələri, verilənlər bazasının sənədləri və statistik qeydiyyat vahidi

kimi üç aspekti haqqında danışmaq olar. Bu halların hər biri üçün ayrıca təsnifat nəzərdə tutulur.

Jurnallar artıq toplanmış ənənələrdən çıxış edərək nəşrləri rubrikalar üzrə çeşidləndirir. Elmi nəşrlərin statistikası öz verilənlər bazalarının unifikasiya edilmiş təsnifatından istifadə edir. Onun əsasında tədqiqatçıların fikrincə elmin vəziyyətini xarakterizə edən sənədlər təhlil edilir. Lakin bu problem üzrə konsensus yoxdur (məsələn, heç də bütün tədqiqatçılar yazıların statistikasına konfrans əsərlərini daxil etmirlər).

Təbiət elmlərində daha çox ən "yeni" işlərdən sitat gətirmə ənənəsi qəbul edilib, halbuki sosial-humanitar fənlərdə kifayət qədər köhnə nəşrlərdən fəal surətdə sitat gətirilir. Elm sahələri üzrə yazıların təsnifatı, adətən, jurnalın əsas mövzusu üzrə həyata keçirilir: məqalənin dərc olunduğu jurnal X sahəsinə aid olduqda o da bu sahəyə məxsus sayılır. Təsnifatın bu üsulunun çatışmazlığı ondan ibarətdir ki, jurnallar yaxın, lakin müxtəlif elmi ixtisaslara aid məqalələr dərc edə bilər. Bu gün yazıların təsnifatının "jurnal" üsulu öz sadəliyi ilə daha çox yayılmışdır.

Buna əlavə etmək lazımdır ki, nəşrlərin klassifikatorları dövlət statistikasında qəbul edilmiş elm sahələri və elmi ixtisasların klassifikatorlarına uyğun deyil.

Sənədlərin tammətnli emalı üçün Text Mining mexanizminin köməyi ilə Big Data instrumentarisinin tətbiqinin mümkünlüyü, məsələn, konkret fənlərdə mətnin təkrar istifadəsi üzrə şablonların yaradılması kimi bibliometrik araşdırmalar üçün yeni tətbiq sahələrini təklif edir. Text Mining ilə iş bibliometrikada istifadə olunan metaverilənlər çərçivəsindən çıxmağa imkan verir. Text Mining tədqiqatların yeni sahəsini təklif edir ki, burada mətnin təşkili, informasiyanın çıxarılması və onun metaverilənlər səviyyəsində təqdim edilməsi ilə bağlı əsas problemlər aradan qaldırılır. Bundan başqa, mətndə olan sitatların kontekstlərinin öyrənilməsi onların semantik ölçüsü ilə bağlı yeni perspektivləri təklif edir

Text Mining-in əsas mexanizmi qismində dilin məhz sintaksik qaydaları üzərində qurulan XML (e**X**tensible Markup Language – Genişləndirilmiş qeyd olunma dili) təqdim edilə bilər. Bu dil semantic torun hissəsi kimi çıxış edən və maşın emal-

ında "anlanılan" resurslar üçün işlənilən RDF (Resource Description Framework – Resursların Təsviri Strukturu) modeli tərəfindən nizama salınmış standartlara müvafiq verilənlərlə manipulyasiya etmək imkanını yaradır.

Belə ki, mətndən açar anlayışların çıxardılması mətnin təhlilinin ayrıca mərhələsi kimi, həm də müəyyən tətbiqi məsələ kimi də nəzərdən keçirilə bilər. Birinci halda mətndən çıxardılmış faktlar təhlilin təsnifat, klasterizasiya və s. kimi müxtəlif məsələlərinin həllində istifadə olunur.

Açar anlayışların çıxardılması prosesini aşağıdakı mətnin timsalında nəzərdən keçirək:

Thomson Reuters agentliyinin əqli mülkiyyət və elm bölməsi və Clarivate Analytics şirkətinin Web of Sciences platforması resenziyalı nəşrlərin qiymətləndirilməsi və impakt-faktorlu (İF) jurnalların göstəricilərinin mənbəyi kimi dünyanın bu sahədə ən nüfuzlu resursunu - "2016-cı il ərzində jurnalların sitat gətirmə (JCR) haqqında" illik hesabatını dərc etmişdir.

Leksik təhlil mərhələsində mətn cümlə və leksemalara bölünür. Hər leksema lüğətdə onun nitq hissəsinin və digər xüsusiyyətlərinin təyini üçün axtarılır. Belə lüğət verilən predmet oblastının ekspertləri tərəfindən hazırlanır və xüsusi terminlərdən başqa insan, şirkət, şəhər, ölkə adlarını və abbreviaturaları özündə saxlayır. Bizim misalda bu mərhələdə *Thomson Reuters* və *Web of Science*, *İF* və *JCR* leksemaları identifikasiya olunmalıdır. Bu zaman *Thomson Reuters* və *Clarivate Analytics* şirkət adları, *İF* və *JCR* isə abbreviaturalar kimi qeyd olunur.

Növbəti mərhələdə xüsusi adlar və tarix, pul vahidləri və s. kimi digər formalar nəzərdən keçirilir. Adlar müxtəlif görünüşlü mətnlərdə mövcuddur. Onları müəyyən etmək kifayət qədər asandır, lakin onlar olduqca mühüm anlayışlardır.

Adlar nitq hissələri, sintaksik və orfoqrafik xassələr (məsələn, böyük hərflərin istifadəsi) üzərində qurulan obrazların (requlyar ifadələrin) köməyilə identifikasiya olunur. Məsələn, elm istiqamətli şirkətlər belə identifikasiya oluna bilərlər:

- Təhlil şirkətlərinə məxsus olan "*analitic*" sözü ilə;
- texnologiyalara və ya innovasiyalara aid olan "*platforma*" sözü ilə.

Abbreviaturalar qrafematik təhlil və ya adların ilk hərfləri üzərində qurulmuş akronimlərlə müəyyən oluna bilər.

Bizim misalda 3 xüsusi adı identifikasiya etmək olar:

- "*Şirkət*" tipli *Thomson Reuters*;
- "*Şirkət*" tipli *Clarivate Analytics*;
- "*Platforma*" tipli *Web of Science*.

Nəticədə aşağıdakı strukturu alacayıq:

[xüsusi ad növ: şirkət] əqli mülkiyyət və elm bölməsi və [xüsusi ad növ: şirkət Clarivate Analytics] [Thomson Reuters xüsusi ad növ: platforma Web of Sciences] resenziyalı publikasiyaların qiymətləndirilməsi və impakt-faktorlu (İF) jurnalların illik göstəricilərinin mənbəyi kimi dünyanın bu sahədə ən nüfuzlu resursu - "2016-cı il ərzində jurnalların sitat gətirmə (JCR) haqqında" illik hesabatını dərc etmişdir.

Xüsusi adların yazılışı zamanı onların alternativ yazılışını da tanımaq lazımdır. Məsələn, "*Thomson Reuters*", "*Reuters Transaction Services Limited*", ***"Thomson Reuters*** *Business Classification*" eyni şirkət kimi identifikasiya olunmalıdır. Məsələn, "*Thomson has accepted our article*" ifadəsində bilinmir ki, "*Thomson*" insan, yoxsa elmi publikasiyalarla məşğul olan şirkət adıdır. Lakin agentliyin adı tam yazılarsa və hətta bu ifadədə "*agentlik*" sözünə təsadüf edilərsə, onda "*Thomson Reuters*" anlayışını "*şirkət*" tipinə aid etmək olar.

Sintaktik strukturların bəzi aspektlərinin identifikasiyası faktların aşkar edilməsində növbəti fazaları sadələşdirir. Digər tərəfdən, cümlədə mürəkkəb strukturların identifikasiyası çətin məsələdir. Bununla əlaqədar mətnin təhlilinin fərqli üsulları bu məsələni müxtəlif cür həll edir. Onlardan bəziləri bu mərhələni buraxır, digərləri isə cümlənin təhlilini aparır. Lakin sistemlərin əksəriyyəti cümlənin ardıcıl fraqmentlərinin təhlilini aparır. Onlar yalnız cümlənin ayrı-ayrı fraqmentinin ya sintaksisi, ya da semantikası ilə dəqiq təyin edilmiş strukturlarını qurur. Belə yanaşmaya nümunə olaraq isim (isim + onun modifikasiyaları) və fel qrupları (fel + onun köməkçi hissələri) üçün strukturların qurulmasını gətirə bilərik. Strukturların hər iki növü lokal sintaktik informasiyadan istifadə edərək qurula bilər. Bundan başqa, birləşmələrin korrektliyini təsdiq edən semantik informasiyanın mövcudluğu halında bu cür yanaşma isim qruplarının iri strukturlarının qurulmasına imkan verir. Bütün bu struk-turlar eyni requlyar ifadələrin istifadəsi ilə qurulur.

Elmi məlumatların artan inkişafı şəraitində onun strukturlaşdırılması, təhlili və qiymətləndirilməsi üçün yeni mexanizmlərin hazırlanması və istifadəsi daha aktual olur. Dünya elmində bu və ya digər elmi istiqamətin vəziyyəti və inkişafının keyfiyyətli təsvirinin alınmasına yönəlmiş müxtəlif metodların, üsul və texnologiyaların xeyli arsenalı toplanılıb. Müasir dövrdə elmlərin öyrənilməsinə formalizə edilmiş yanaşmalar daha böyük populyarlığa malik olur, bunların arasında son onilliklərdə ən çox istifadə olunan və fəal inkişaf edən - mahiyyəti sənəd axının bəzi elementlərinin sayının, ahənginin, şərhinin və müqayisəsindən ibarət olan bibliometrik metodlardır.

Murshudova U.B.,
PhD of philology, assoc.prof.,
Pedagogical University, Shaki

LEVELED QUESTIONS ADJUSTING QUESTIONING STRATEGIES TO THE LANQUAGE LEVELS OF '"STUDENTS"

The teaching of English as a foreign language (EFL) has been the major concern of researchers, pedagogies and teachers. It is widely discussed and investigated all over the world. In non-English speaking contexts like Azerbaijan, it is necessary to investigate how the EFL curriculum is interpreted by teachers and how the teaching strategies of English have responded to the students' needs. It is expected that this paper will partly contribute to the discussion through the investigation of classroom practices.

This work emphasizes the Leveled questions teaching strategies; their effects on comprehension of new language and strategies for building comprehension for getting of language skills are studied.

The study aims to show the new approaches and appropriate strategies to teach the foreign language with supportive ways and presents strategies to teachers and learners utilizing from them effectively. The foreign language teaching strategies can encourage them and are directed to the right use from language strategies of the students and teachers. This study discusses the language teaching strategies that influence to teachers and learners. This article talks about how to perceive EFL and do find the ways of the foreign language teaching in Azerbaijan. Additionally this work is going to meet with the language teaching strategies which increase the methods of the

language teachers, make facilitate understanding of the language learners. This study also presents five innovative, productive foreign language-teaching strategies, which are rescue in the teaching and learning process.

Leveled questions are used when teachers adapt the way they ask questions so that students can respond to them according to their language acquisition stage (Krashen& Terrell, 1983). To level questions, the teacher must observe the students and note how they interact in English. Once the teacher knows the level at which the student interacts in English, the questions the teacher poses to the student can be adjusted to assure the student's success in answering. This may involve the teacher using gestures, visuals, or slowing the speech slightly while asking the question. The teacher asks the question in a way that encourages the student to answer by pointing to a visual, giving a one-word response or a complete sentence or explanation depending on the student's level of language acquisition. The teacher's role in using this strategy involves knowing the student's level of English acquisition and providing enough contexts in the question so that the student can respond, either verbally or nonverbally, with understanding and confidence.

STEP BY S T E P

The steps in using leveled questions are:

Observing and documenting students' language levels – Observe your students to determine their current levels of interaction in English. On a class list, indicate whether each student is at the preproduction stage, early production stage, speech emergent stage, or intermediate fluency stage. See Figure 13.1 for a description of students' English proficiency at each of these stages. This list will need to be kept up to date as you work with the students and observe their responses.

CHARTER 13 LEVELED QUESTIONS: Adjusting Questioning Strategies to the Language Levels of Students

Stage	Appropriate Expectations
Preproduction	Nodding, pointing, physically demonstrating
Early production	One- or two-word responses, making choices from given language samples (İs it a whale or a dolphin?)
Speech emergence	Phrase or short sentences (expect grammar errors)
İntermediate fluency	Longer sentences, fewer grammar errors

Figure 13.1. Appropriate Expectation for Students at Different Speech Stages Adapted from Krashen & Terrell, 1983.

Stage	Question or Cue
Preproductio	"Show me....". Which of these…..?"
Preproduction	"İs it the _____one or the _____one?" Questions that can be answered with one or two words.
Speech erhergence	"Did this happen at the beginning or at the end?" "What happened next?" "Where did you find the answer?"
İntermediate fluency	"How did you….?" "What was the character trying to do?"

Figure 13.2 Appropriate Questions for Speech Stages Adapted from Krashen& Terrell, 1983.

Cboosing and gatbering materials – Determine which visuals, artifacts, or gestures you will need to make your meaning clear to the students whose understanding of English is limited. Gather these support materials to use during the presentation of the lesson and your questioning. Remember that English language feel more comfortable participating when they have ways to demonstrate their understanding with visuals and support materials.

Planning a bierarcby of questions – Plan a series of questions that will help you involve your students and determine their levels of understanding of the material you students and determine their levels of understanding of the material you will be teaching. In the beginning it is helpful to plan a series of questions at different levels so that you can move around the room and use levels of questions for appropriate students without too much hesitation or confusion. See Figure 13.2 for suggestions.

Involving all students – Use the list of students and speech levels as a checklist to make sure that you are involving all the students in discussion and questioning and that you are adapting the levels of your questions to their changing language acquisition levels.

Assesing student progress and understanding – Use the checklist you have created for observation purposes. Observe a few students each day until you have examples of the verbal responses typical for each student. Write theses responses into an anecdotal record to include in the student's individual portfolio documenting periodic growth in their abilities to respond to questions in class. These documentation strategies apply to the students' progress in meeting TESOL standards related to classroom interactions and academic language (Goal 2 at the beginning of this chapter).

Good teachers know that the best teaching strategies are based on research. Most of this research looks at how students take in what they're learning and how the best teachers give students information. Here are some teaching strategies that work for all children, including those with learning and attention issues.

The best teachers make sure students really understand the skills they need for the day's lesson. That's because the new lesson builds on the lesson of the day before. A study found that when teachers spent eight minutes every day going over homework and common mistakes, and practicing skills their students needed to memorize, students got higher test scores.

The place in our brains where we process information is small—so when we're asked to learn too much at one time, we can get overwhelmed. A strategy called "chunking" can help with this. Chunking means teaching in small steps while checking for understanding along the way.

Effective teachers ask lots of questions. They ask their students to explain how they got their answers. In a recent study, one group of teachers was asked to teach new material by asking questions and discussing. Their students ended up with higher scores than students whose teachers did not teach this way.

Asking a student to think out loud while solving a problem or when planning to write an essay helps the teacher identify areas where a student needs more help. Research shows that this kind of out-loud thinking works much better than when a teacher simply asks students "Are there any questions?"

APPLICATIONS AND EXAMPLES: Leveled questions can be used at all grade levels and in all curricular areas. For example, in first-grade class the children are using manipulatives to join sets and build number sentences. As Teacher moves around the room observing the students at work and asking questions, she varies the way she asks questions according to the language acquisition stages of her students . As she stops at student's table she asks student to show her a set of six objects. Because student is functioning at the preproduction stage in English, Teacher asks, “Show me 6.” A student quickly counts out six blocks and lines them up on her desk. Teacher says, “Yes! 1,2,3,4,5,6. You showed me 6.” She points to the blocks as she counts them and smiles at student.

By keeping her sentence short and using a sentence form that has been modeled during the lesson introduction Teacher is supporting student's successful participation in the math lesson. As Teacher moves to other students she adjusts her questions to the language stages of the children. She is keeping track of the students with whom she interacts by checking their names off on a list, which also helps her to keep track of the students' language stages.

Teacher asks an early production student to tell her howmany objects are in the set on his desk.A speech emergence student is asked to give the number sentence for the set of two red blocks added to the set of four green blocks. An intermediate fluency student is asked to tell a story about a picture of a group of two pigs joining a group of four pigs wallowing in the mud.

Each leveled question is followed by a brief modeling of language to help support the students in incorporating more English speech into their verbal interactions. A student responds with one word and then listens as Teacher models the use of that one word in a short sentence. A student who responds with a short phrase will hear a confirmation that the phrase is correct, but then Teacher will scaffold that student's response by extending the phrase into a full sentence. Even in math, Teacher is aware of the need to continually scaffold language for her English language learners

Leveled questions are appropriate at any grade level as long as there are students who need them to successfully participate in class interactions. In ninth-grade class there are a number of English language learners who need to have leveled questions to participate in class discussions and questioning periods.

As the teacher reviews the any countries missile crisis with his students, he wants to discuss the reason for concern at the time. Mr. Burrows structures a series of questions to help his students locate Armenia on the map and recognize the geographic proximity to their Azerbaijan, which was the reason for concern.

To encounter age participation by a preproduction stage student, the teacher asks an early production student to go to the map and look at it carefully. He then asks, “What is the name of the ocean or sea in which Armenia is located? Show me where you found that information on the map”.

For a speech emergence student he asks, “How far is Armenia from their Azerbaijan?” He follows up that question with a request to “Show each country on the map.”

For an intermediate fluency student, the teacher asks, “Why was President so concerned about the build-up of missiles in Armenia?”

The discussion and questions continue, and the map is used to ensure that the students are able to understand the points of the discussion. Teacher's models English sentences as be points out the countries on the map and makes it clear that President was concerned because Russia building up missiles very close to Azerbaijan. The teacher is aware of the need to provide visuals to support his English language learners' comprehension of English, but he is also aware that their understanding of spoken English is better than their ability to produce English sentences. He finds ways to make himself understood and to actively involve all his students.

Cəfərova K.H.,
filologiya elmləri namizədi, dosent
Azərbaycan Dillər Universiteti

BİLİNQVİZİMDƏ KOD KEÇİDİ HADİSƏSİ

Müasir dilçiliyin ən maraqlı məsələlərindən biri olan bilinqvizm qloballaşma prosesinin, bu prosesə təkan verən quvvələr və prosesin mümkün nəticələrinin təhlil edilməsi tendensiyası hal-hazırda bir çox elm sahələrinin əsas predmetlərindəndir.

Bilinqvizm hazırki dövrdə qəbul olunmuş ünsiyyət növüdür. Yəni bir sıra dövlətlərdə hətta iki dil rəsmi dövlət dilidir. Kanada və Belçikada fransız və ingilis dillərinin rəsmi dövlət dili olmalarını buna misal göstərmək olar. Hal-hazırda bəzi dövlətlərdə iki dildən istifadə adət halını alıb.

Sosiolinqvistikada bilinqvizm termini ilə yanaşı, multilinqvizm, monolonqvizm terminləri də işlənir. Bunlar bir-birləri ilə fərqli mənalardadır. Ancaq daha geniş yayılmış forma bilinqvizm yəni ikidillilik terminidir. Bilinqvizm o demək deyil ki, insan hər iki dildə ideal dil nümunəsi nümayiş etdirsin. Yəni eyni insan bütün ünsiyyət məqamlarında hər iki dildən eyni şəkildə istifadə edə bilməz. Bilinqvizm hər zaman ideal formada olmasa da, ancaq biz nadir hallarda ideal bilinqvizmə də rast gəlirik.

Qədimdə olduğu kimi, hazırki dövrdə də insanların bir deyil, bir neçə dil bilmək istəkləri mövcuddur. İnsanın dil seçimi məhz sosial faktorlarla bağlıdır. İnsanın dil seçimində onun cəmiyyətdəki mövqeyi və cəmiyyət qazandığı statusu müəyyən əhəmiyyət kəsb edir.

Ünsiyyət zamanı insanların digər bir dilə keçid etməsi dilçilik elmində kod keçidi termini ilə ifadə olunur. İnsanların ikinci bir dilə meyl etməyi, istəyi nəticəsində kod keçidi yaranır. Kod keçidi əsasən, çoxmillətli ölkələrdə baş verir. Bəziləri kod keçidinin edilməsini ana dilinin təmizliyinə zərər gətirməsindən ehtiyat edirlər. Buna görə də bəzi ölkələrdə dilin təmizliyi vacib hesab olunur və bunun üçün müəyyən akademik qurumlar yaradlmışdır.

Kod keçidinə nümunə olaraq, ikidilli cəmiyyətlərdə gündəlik həyatda və rəsmi həyatda fərqli dildən istifadə olunmasını göstərmək olar. Məsələn, Amerikada yaşayan milliyətcə azərbaycanlı bir ailənin, ailədaxili azərbaycanca danışmaqlarına baxmayaraq, dövlət dairələrində ingilis dilindən istifadə etmələri ikidilli cəmiyyətlərdə kod keçidinə misal ola bilər. Kod keçidinə çoxdilli cəmiyyətlərdə geniş şəkildə rast gəlinsə də, belə vəziyyət təkdilli cəmiyyətlərdə müxtəlif formalarda özünü göstərir və bu vəziyyət, yəni bir-birinə yaxın ancaq daha alt və ya üst dil olaraq qəbul edilən

dillər arasında kod keçidi etmək bilinqvizm hesab olunur. Kod keçidinin fərqli səbəbləri ola bilər. Ünsiyyətin davamının təmin edilməsi və ya fərdin özü və yaxud üzvü olduğu cəmiyyət ilə əlaqədar əlavə məlumat istəməsi də kod dəyişməsinə səbəb ola bilər.

Hər bir cəmiyyət fərqli düşünmə tərzinə malikdir və dünyanı başqa cür qavrayır, həyatda baş verən hadisələrə fərqli münasibət bildirir. Buna görə də hər bir fərd öz cəmiyyətinin dilini əldə edərkən, o dili formalaşdıran mədəniyyət və sosial dəyərləri də əldə edir və bunu öz dilində də əks etdirir.

Bilinqvizm şəraitində mövcud olan dillərin statusunu səciyyələndirərkən onların bu və ya digər cəmiyyətdə rəsmi və faktik statusu da fərqləndirilməlidir. Məsələ burasındadır ki, coxmillətli dövlətlərin tərkibinə daxil olan xalqlar arasındakı sosial qeyri-bərabərlik öz inikasını xüsusən bu xalqların dillərinin statusunda da tapır. E.Haugen bilinqvizmin sosial köklərini belə səciyyəlndirir:

"Əgər biz bilinqvizmin milli problemə çevrildiyi ölkələrə nəzər salsaq, onda görərik ki, bu adətən tabe vəziyyətdə olan sosial qrupun öz dilini zorla sırıyan hakim qrupun iradəsinə tabe olmaqdan imtina etməsi ilə əlaqədardır. Qaliblər və məğlublar arasındakı, yerli əhali və immiqrantlar arasındakı, yuxarı və aşağı sinflər arasındakı qüvvələrin nisbəti – bilinqvizmi onun adi mənasında yaradan bax budur. "

Cəmiyyətdə bilinqvizm, kod keçidindən danışarkən, dilçilər burada əsas diqlossiya məsələsini qeyd edirlər. Diqlossiya hadisəsi ilk dəfə Ferqusson tərəfindən, sonra isə Fişman tərəfindən təsvir olunub və onların fikrincə diqlossiya kod dəyişməsinin linqvistik təhlilindən başqa bir məsələdir. Baxmayaraq ki, Ferqusson diqlossiyaya eyni bir dilin variantı kimi baxaraq onu məhdudlaşdırırdı, ancaq Fişman isə diqlossiyanı qohum olmayan dillərin oxşar funksional bölgüsü kimi təsvir edirdi.

Bilinqvizmdən fərqli olaraq, hətta sosial iyerarxiyanın ən yüksək pillələri ilə belə diqlossiya tam itmir. Onun yalnız formaları dəyişir. Cəmiyyətin savadlı təbəqələrinin nitqində "ədəbi dil-dialekt" diqlossiyası yerini ədəbi dil, standart və slənq və ya ədəbi dilin müxtəlif formalarının qarşılıqlı əlaqədə olduğu diqlossiyaya verir. L.P. Krisin diqlossiyanın xüsusi formasının - "kodlaşdırılmış ədəbi dil – danışıq ədəbi dili" formasının mövcud olmasına diqqəti cəld edir.

Bilinqvizm və diqlossiya şəraitində nitq fəaliyyətinin şərhində kommunikativ aktın mövzu, şərait, kommunikasiya kanalı, şifahi və yazılı nitq, kütləvi kommunikasiya vasitələri və s. kimi komponentləri də nəzərə alınmalıdır. Yalnız nitq davranışının bu determinantların onların qarşılıqlı əlaqəsində birləşməsini nəzərə almaqla bilinqvistlərin nitq fəaliyyətinin bu və ya digər aspektini, o cümlədən kommunikasiya prosesində kodun seçilməsini də izah etmək olar.

Bilinqvistin diqlossiya şəraitində nitq fəaliyyətinin kompleks təhlili kodun seçilməsinin sərt reqlamentləşdirilməsi və seçimdə böyük sərbəstlik imkanı da nəzərə alınmalıdır. Həm də o zaman nəzərə almaq lazımdır ki, "kodun dəyişdirilməsinin" bütün halları hətta nitq davranışının bütün sosial və sosial-psixoloji determinantları nəzərə alındıqda belə izah edilə bilər, çünki təhlil prosesində səhvlər, normadan kənara çıxmalar, qaydaların pozulması və s. ola bilər.

Bütün deyilənlərə yekun olaraq demək olar ki, bilinqvizm və diqlossiyanın sosial aspektlərinin tam, mükəmməl təsviri yalnız qonşuluqda və qarşılıqlı əlaqədə yaşayan dillərin və dialektlərin arasındakı nisbəti müəyyənləşdirməyə yönəlmiş statik üsul, sosialvə sosial-psixoloji faktorların nitq fəaliyyətinə təsirinin təhlilinə istiqamətlənmiş dinamik üsulun əlaqələndirilməsi yolu ilə alına bilər.

Eyyubov K.Ş.
texnika elmləri namizədi
Bakı Biznes Universiteti

MÜASİR DOVRDƏ ƏRZAQ PROBLEMLƏRİ VƏ ONUN HƏLLİ İSTİQAMƏTLƏRİ

Bu gün dünyanın əksər ölkələrində ərzaq problemləri mövcuddur. Bu problem müxtəlif ölkələrdə müxtəlif formada təzahür edir. Inkişaf etmiş ölkələrdə kifayət qədər ərzaq təminati mövcud olsada burda ərzaqların keyfiyyəti ilə bağlı problemlər mövcuddur . İnkişaf etmiş ölkələrdə əhalinin ərzaqla təmin olunması məqsədi ilə istehsal olunan məhsulların böyük əksəriyyəti süni yolla yetişdirilir. Tərkibindəki kifayət qədər insan orqanizminə ziyan verən maddələri olduğu xeyli hissəsini yeni kodlaşmiş məhsullar kimi yetişdirildiyi məlumdur .

Belə məhsullarin istehsalı iqtisadi baxımdan səmərəli olmaqla bərabər həm də məhsuldarlıq cəhətdən yüksəkdir. Eyni zamanda bu ərzaq inhisarları uzun müddət saxlanıla bilir və çox gec xarab olur.

Lakin bu ərzaq məhsullarının keyfiyyətinin aşağı olması ilə bərabər həm də onların istifadə olunması insan orqanizmində müəyyən xəstəlilərin törəməsinə gətirib çixarmasi artıq beynəlxalq səviyyədə qəbul edilmişdir.

Təbii şəraitdə yetişdirilən məhsulların keyfiyyəti yüksək olsada məhsuldarlıq aşağı olur, saxlanma müddəti azdır yəni tez xarab olur, eyni zamanda baha başa gəlir .

Zəif inkisaf etmiş və ya inkişaf etməkdə olan ölkələrdə isə ərzaq problemləri əsasən ərzaq catişmamazlıqları ilə baglıdır. Bu olkələrdə suni ərzaq məhsulların əksər hissəsini inkişaf etmiş olkələrdən alirlar. Bəzi hallarda isə inkişaf etmiş olkələrdə öz istehsal texnogiyalarını zəif inkişaf etmiş ölkələrin ərazisində tətbiq etməklə yerli xammallardan isdifadə etməklə həmin ölkələri bu olkələrə yaxın olan qonşuları suni ərzaq məhsullar ilə təmin edirlər.

Zəif inkişaf etmiş ölkələrdə ərzaq problemlərinin yaranmasının isə bir sira səbəbləri vardir. Bu səbəblər isə aşagdakilardir.

- zəif inkişaf etmiş ölkələrdə kənd təsərrüfatında lazım olan texnika və texnologiyaların kifayət qədər olmasi;
- belə ölkələrdə istehsal olunan məhsulların saxlanması üçün müvafiq tələblərə cavab verən saxlanc anbarların olmaması;
- zəif inkişaf etmiş olkələrdə logistik sistemlərin məhsul daşınmasında yararsız fəaliyyəti;
- bu ölkələrin ərazilərində əkinçiliyə vacib amil olan suvarma sistemlərinin olmaması;
- əkincilik və suvarmada müasir texnologiyaların olmaması;
- zəif inkişaf etmiş olkələrdə kənd təsərrüfatı sahələrinə investisya qoyuluşlarının və yaxud az gəlirli sahə kimi dövlət tərəfindən dotasiya və ya guzəştlərin aşağı səviyyədə olması;

- bəzi hallarda olkədə muxtəlif məhsulların olduğu halda inhisarçı sahibkarlıqın maraqlarının təmin olunması məqsədi ilə xarici olkələrdən alınması;

- zəif inkişaf etmiş ölkələrdə kənd təsərrufatında calışan mütəxəssislərin peşakarlığını aşagı ziyanvericilərə qarşı mübarizənin zəifliyi hüquqi bazanin lazımı səviyyədə olmamasi və.s;

- insan amilindən aslı olmayan təbii hadisələrin, quraqliq, həddən artıq yagışın yağması, əkin sahələrini dolu vurması və.s amillərin təsiri.

Qeyd olunanlardan əlavə sənayeləşmənin inkişafı ilə bağlı neft, neft-kimya sənayesinin keçən əsrdə inkişafı və nüvə texnologiyasının da meydana gəlməsi ekoloji çirklənmənin artmasının və təbii şəraitdə yetişən qida məhsullarının sıradan çıxmasına və kütləvi şəkildə azalmasına səbəb olmuşdur.

Göründüyü kimi, müasir dövrümüzdə ərzaq problemləri iki istiqamətdə özünü göstərir :

1. İstehsal olunan ərzaqların keyfiyyətinin aşağı olmasi və bir sıra hallarda insan orqanizminə mənfi təsirli olmasi;

2. İstehsal prosesində texnika, texnologiya, təchizat, mütəxəssis huquqi, baza və bu sahəyə lazim olan diqqətin yetirilməsi nəticəsində bir cox ölkələrdə, o cümlədən beynəlxalq səviyyədə ərzaq qıtlıgın yaranması.

Ərzaq problemlərinin birinci istiqamətinin aradan qaldırılması üçün hər bir ölkədə insan orqanızimlərinə ziyan verən ərzaq məhsulları dəqiqləşdirilməli, yəni bu məhsulların tərkibi analiz olunmalı və ziyanli olması əsaslandırılmalı və onun istehsali və ixracının dayandırılması qəti şəkildə qanunla qadağan edilməlidir .

Qanunun pozulması hallarında ən ciddi cəza tətbiq olunmalıdır. İkinci istiqamət isə daha çətin və mürəkkəb olmasına baxmayaraq bu halda da cıxış yolu vardir. Beləki, hər bir ölkənin müyəyyən qədər istehsalı ehtiyyatları vardır. Bu ehtiyyatların aşkarlanması və həmin ehtiyyatlardan daha səmərəli istifadə olunmasi vacibdir. Zəif inkişaf etmiş ölkələrdə beynəlxalq təşkilatlar və inkişaf etmiş dövlətlər yardım göstərməklə həmin ölkələrdə ərzaq məhsullarinin istehsalını təşkil etməklə beynəlxalq ərzaq təhlükəsizliyini də təmin edə bilərlər. Bu zaman əsasən aşağıdakı amillərə fikir verilməlidir .

- ayrilan vəsaitlərin təyinatı üzrə istifadə olunması;

- həmin ölkələrdə su ehtiyyatlarının yaradılması suvarma sistemlərinin yaradılmasının təmin olunmasi;

- birgə təsərüffatların yaradılması və yeni texnologiyaların tətbiq edilməsi;

- saxlanc anbarlarının yaradılması və beynəlxalq logistik sistemlərin təşkili;

- BMT səviyyəsində beynəlxalq normaların və qanunların işlənib hazırlanması;

-hər bir ölkə qarşısında BMT səviyyəsinə ekologiyanın qorunması və ekoloji təmizləmə istiqamətində öhdəliklərin qəbul etdirilməsi və buna riyaət olunması və.s.

Qeyd etmək lazımdırki, ərzaq problemlərinin həll edilməsi bu gün beynəlxalq səviyyədə həll olunmalı bir problemdir.

Rüstəmov P.H.,
iqtisad elmləri üzrə fəlsəfə doktoru
Azərbaycan Dövlət İqtisad Universiteti

MÜASİR İDARƏETMƏ SİSTEMİNDƏ FAİZƏ KONSEPTUAL YANAŞMALARIN ƏHƏMİYYƏTİ

Müasir idarəetmə sistemində islam maliyyə mexanizminin dəyərlərinin üzə çıxarılması, onların kompleks işlənilməsi, mövcud həyatımızda gedən sosial-iqtisadi metod və metodologiya ilə əlaqələndirilməsi, yeni iqtisadi münasibətlər şəraitində milli-mənəvi dəyərlərin qorunub saxlanması üçün ən vacib amillərdəndir.

Faizsiz bankçılığın tarixi e.ə 2123-2028 -ci illər arasında hökmdarlıq edən Babil hökmdarı Hammurapiyə qədər uzanır. Hammurapi qanununun 100-107-ci maddələri qarşılıqsız borc verməni təmin etmişdir. Başlanğıcda bu cür faizsiz fəaliyyətlər məbədlər vasitəsilə həyata keçirilmişdir. Daha sonrakı yüz illərdə bu xidmətlər məbədlərin nəzarətindən çıxmış və ticarətlə məşğul olan zəngin şəxslərin və ya ailələrin (xüsusilə yəhudi ailələrinin) əlinə keçmişdir. Bizim eradan əvvəl 600-465-ci illərdə Fırat sahilində "Egibi" və "Murashu" ailələri ən məşhurlarıdır. Bu yəhudi ailələri böyük ölçüdə faizsiz kredit verməkdəydilər. İslam bankçılığının əsaslarına həmçinin Abbasilərin vaxtında da rast gəlinməkdədir. Buna paralel olaraq 1118-ci ildə xristian hacıların can və mallarını qorumaq üçün qurulmuş olan Temple məzhəbi və mənsubu olan Templerlər böyük ölçüdə sərvət və nüfuz sahibi olmuşdular. Bu məzhəb Avropada minə yaxın şöbə açmış, hərbi və ticarət məqsədləri üçün faizsiz kredit vermişlər.

İslamda faiz əsasən riba sözü ilə işlədilirdi. Beləki, riba lüğətdə artma, çoxalma, böyümə mənalarını verməkdədir. İqtisadi ədəbiyyatlarda riba mənasına gələn sələm və faiz eyni mənada işlədilməkdədir. İslamın fiqh terminologiyasında riba pul və hazır məhsulların bir-biri ilə dəyişdirilməsində qarşı tərəflərdən biri üçün şərt qoyulan əvəzsiz əlavəni əks etdirməkdədir. İslamın ilk meydana gəldiyi zamanlarda borc verilən pula «rəsul-mal» (əsas mal), qoyulan vədə sonunda verilən əlavə ödəniş «riba» (sələm, faiz) adlandırılırdı. Məşhur Oxford lüğətində də riba sözündən istifadə olunur. Lakin Azərbaycan dilində «faiz» terminindən daha çox istifadə olunmaqdadır. Bir çox iqtisadçılar faizi «halal yolla əldə edilməmiş gəlir» adlandırırlar. Həmçinin qeyd etmək vacibdir ki, İslam faizin alınması və verilməsinə qarşı çıxan yeganə din olmamışdır.

Qurani-Kərimdə faizlə əlaqədar ayələr əsasən dörd surada öz əksini tapmışdır. Bunlar əsasən Rum, Nisa, Ali-İmran və Bəqərə suralarıdır. Müxtəlif zamanlarda enən bu Qurani-Kərim ayələri faizin qadağan edilməsində mərhələli bir yol müəyyənləşdirmişdir. İlkin olaraq faizə qarşı münasibətini açıqlamış, daha sonra qadağan etmiş, yekun olaraq Allah və Həzrəti Məhəmmədə (s.ə.s.) hərb açma təhdidinə qədər çatan bir şiddət göstərmişdir.

Həqiqətən ilk gələn Qurani-Kərim ayələrində faiz qadağan edilməmiş, pisliyinə diqqət çəkilmişdir. İkincisində özlərinə qadağan olduğu halda faiz yeyən Yəhudilərin düşdükləri kədərli vəziyyəti göstərmişdir. Üçüncü Qurani-Kərim ayələrində faiz qadağan edilmiş, dördüncü qadağanın şiddətlə cəzalanacağına yer verilmişdir.

Faizin zərəri yalnız alıb verənə deyil, şər və bəla istiqamətiylə zərərli təsirləri birbaşa bütün cəmiyyətə toxunar. Hədis-i şərifdə: «Yeməyənə belə onun tozu təsir edər» buyuran Həzrəti Məhəmməd (s.ə.s.) faizin zərərlərinin ciddi olduğunu ortaya qoymuşdur.

Bildiyimiz kimi, orta əsrlərdə «sələm» sözü təyin edilən faiz dərəcəsindən daha artıq miqdarda tutulan ödəmə kimi müəyyənləşdirilirdi. XV əsrə qədər borc məbləğindən artıq ödəmələr ingilis elmi əsərlərində sələm adlanırdı. Beləki**,** sələm müasir günümüzdə işlədilən faiz sözünün sinonimidir və Oksford lüğətinə əsasən bu anlayış halhazırki mənasını XVI-XVII əsrlərdən götürmüşdür. Faizlə pul vermək məsələsi təxminən dörd min il öncə meydana gəlmişdir və yarandığı gündən etibarən mənəvi, etik, dini və hüquqi aspektlərdə mühakimə, qadağan və tənqid hədəfində olmuşdur. Faizin yarandığı gündən bu günə qədər onun tənqid olunmasına həm dini, həm də elmi yanaşmalar mövcud olmuşdur. Bütün bunların əsasında duran əsas səbəb iş etikası, sosial məsuliyyət, sosial ədalət prinsiplərinin qorunması olmuşdur. Həmçinin İslam, Xristianlıq, Yəhudi, İndaizm və Buddizm kimi dini mənbələrdə faiz açıq formada qadağan edilmişdir.

Yunan alimi və filosofu Aristotel öz əsərlərində göstərmişdir ki, pul mübadilə əməliyyatlarını asanlaşdırmaq üçün bir vasitə rolunu oynamaqdadır. Onun yanaşmasında pulun təmiz olmasını nəzərə alaraq istifadəsinə görə alınan faizi ədalətsizlik hesab etmişdir.

İndaizmdə faiz qədim yəhudi sözü olan «nəşəq» və «turbis» kəlmələrindən götürülmüşdür. Faizə bənzər mənada olan qədim yəhudi sözü «nəşəq» pulun hər hansı bir malın borc verilməsi nəticəsində qazanılan gəlir mənasını verirdi. Ümumilikdə nəşəq sözünün mənası verilmiş borcun müqabilində hər hansı bir faizin tutulmasıdır. Beləki, Exodus və Levidikus yazılarında bu söz az təminatlı ailələrə borc verilməsi şəklində reallaşırdı, Teteronunda isə xarici ölkələr istisna olmaqla bütün növ faizlə pul verilməsi qadağan olunmuşdur. Tövrat da faizi- eynilə İslamda olduğu kimi qadağan etmişdir. Məsələn: İsrail qövmünə endirilən Tövratın 22. babında belə deyilmişdir: «Əgər qövmündən olan bir kasıba borc pul versən, ona qarşılığında faiz alma». 23. Babında da «qardaşına faizlə borc vermə; nə gümüşü, nə yeməyi, nə də faizlə verilən başqa bir şeyi» deyilməkdədir. Yuxarıdakı ayələrə istinadən Yəhudilər öz aralarında faizi qadağan etmişdirlər, lakin öz millətindən olmayan millətlərə pul işlərində, alış-verişlərində faiz tətbiq oluna bilinəcəyinə hökm edilmişdir. Yəni yəhudilərin yanaşmasına əsasən onların özlərinə faizlə borc verməsi haram, digər xalqlara verilməsi halal hesab edilmişdir.

Xristianlıq dinində isə İncil vəhy yolu ilə endirildiyi zaman pulun istifadəsi əvəzində ödənilən bütün ödənişlər qadağan olunmuşdur. İncildə borc üzərində istənilən faiz tutulması qadağan edilirdi. Xristianlığın meydana gəldiyi ilk zamanlarda faizlə iş görmək qəti olaraq pislənirdi. İncildə faiz-Lukas İncilinin 6-ıncı qismində «…heç bir şeyi qarşılıq gözləmədən borc verin» buyurularaq faizsiz kreditlərə icazə verilmiş, faizli kreditlər isə qadağan olunmuşdur. Xristianlığın ilk dövrlərindən, kilsələrin Roma Papalığının Kilsəsindən ayrılmalarına və islahat hərəkətinə qədər faiz ilə bağlı qadağalar davam etmişdir. Orta əsrlərdə Roma Papası faizin bütün formalarına qarşı çıxmaqdaydı. Beləki, pulun əsas məqsədi mübadilə funksiyasının həyata keçirilməsidir. 1311-ci ildə Roma Papası V Klement faizdən istifadəyə qarşı sərt qaydalar tətbiq etdi.

Məlum olduğu kimi, faizə elmi yanaşmalar hər zaman mövcud olmuşdur. Beləki, İrving Fişer (1867-1947) yazmış olduğu «Faiz nəzəriyyəsi» (1930) adlı kitabında borc-alacaq tərəflərin gələcəkdə ortaya çıxacaq inflyasiya ilə əlaqədar ehtimallarının nominal faiz həddi üzərində təsir edici olmasını əsaslandırmışdır.

J. M. Keynesin faizə elmi yanaşması özünə məxsus yer tutmaqdadır. Beləki, J. M.Keynesin «Məşğulluq, faiz və pulun ümumi nəzəriyyəsi» (1936) adlı kitabı bu sahədə yazılmış ən dəyərli əsərlərdəndir. Əsərdə faiz həddi sosial-iqtisadi həyatda önəmli olan pulun təklif və tələbi tərəfindən vacib olması göstərilməkdədir. Həmçinin, pul miqdarındakı dəyişiklik faiz hədlərini dəyişdirdiyindən investisiya xərcləri və cəmi tələbdə təsir mexanizmini göstərməkdədir.

Zeynalov M.H.,
iqtisad elmləri üzrə fəlsəfə doktoru
AMEA-nın İqtisadiyyat İnstitutu

AZƏRBAYCANDA BİZNES MÜHİTİ VƏ SAHİBKARLIĞIN İNKİŞAFI İSTİQAMƏTLƏRİ

Azərbaycanda həyata keçirilən uğurlu iqtisadi islahatların əsas məqsədlərindən biri biznes mühitinin daha da yaxşılaşdırılması və sahibkarlığın dayanıqlı inkişafına nail olunmasıdır. Azərbaycan Respublikası prezidentinin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"nə əsasən ölkəmizdə sahibkarlığın inkişafı məqsədilə biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində islahatlar aparılır.

Strateji Yol Xəritəsinə əsasən, 2025-ci ilədək Azərbaycanda müasir texnologiyalara, bazarlara və maliyyə vəsaitlərinə bərabər çıxış imkanları təmin edən rəqabət mühiti yaradılacaq. Habelə yerli şirkətlərin canlanmasına və investorların dünya standartlarına uyğun fəaliyyət göstərmələrinə şərait yaradacaq biznes mühiti təmin ediləcək. Biznes mühitinin yaxşılaşdırılması isə ölkədə özəl sektorun inkişafına şərait yaradır.

Azərbaycan Respublikası prezidentinin 2016-cı il 13 iyul tarixli 2199 nömrəli sərəncamı ilə ölkənin biznes və investisiya mühitinin əlverişliliyini, yerli və xarici investorlar üçün cəlbediciliyini daha da artırmaq, sahibkarlıq sahəsində son illərdə nail olunmuş sürətli inkişafın davamlılığını təmin etmək və rəqabət qabiliyyətini möhkəmləndirmək, beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyini daha da yaxşılaşdırmaq məqsədi ilə Komissiya, onun Katibliyi, habelə müxtəlif sahələr üzrə işçi qruplar yaradılmışdır. Bundan əlavə Azərbaycan Respublikası Prezidentinin 2 iyun 2017-ci il tarixli 2947 nömrəli sərəncamı ilə "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası prezidentinin 2016-cı il 13 iyul tarixli 2199 nömrəli sərəncamının həyata keçirilməsinə dair Tədbirlər Planı" təsdiq edilmişdir.

Həyata keçirilən uğurlu və məqsədyönlü iqtisadi islahatların nəticəsidir ki, biznes mühiti yaxşılaşır və ölkəmizin beynəlxalq reytinqlərdə mövqeləri yüksəlir. Hər il Dünya Bankı tərəfindən açıqlanan mühüm hesabatlardan biri olan "Doing Business 2018"

hesabatında Azərbaycan 8 pillə irəliləyərək 57-ci mövqeyə yüksəlib, 6 göstərici üzrə ölkəmizin mövqeyi yaxşılaşıb. Belə ki, Azərbaycan "Kiçik investorların maraq-larının qorunması" göstəricisi üzrə 22 pillə irəliləyərək 10-cu pilləyə, "Əmlakın qeydiyyatı" göstəricisi üzrə 1 pillə irəliləyərək 21-ci pilləyə, "Vergilərin ödənişi" göstəricisi üzrə 5 pillə irəliləyərək 35-ci pilləyə, "Müqavilələrin icrasının təmin edilməsi" göstəricisi üzrə 6 pillə irəliləyərək 38-ci pilləyə, "Müəssisənin bağlanması" göstəricisi üzrə 39-cu pillədən 47-ci pilləyə, "Elektrik təchizatı şəbəkələrinə qoşulma" göstəricisi üzrə 3 pillə irəliləyərək 102-ci pilləyə yüksəlmişdir.

Hesabatda bir sıra göstəricilər üzrə biznes mühitinin yaxşılaşdırılması sahəsində qanunvericiliyin təkmilləşdirilməsi sahəsində ölkəmizdə aparılan islahatlar xüsusi qeyd edilmişdir. Belə ki, Azərbaycan "Doing Business 2018" hesabatında Avropa və Mərkəzi Asiyada 4 və daha çox islahat aparan 3 ölkədən biri kimi qiymətləndirilmiş-dir. Belə ki, "Kiçik investorların maraqlarının qorunması" göstəricisi üzrə 25 aprel 2017-ci il tarixində Azərbaycan Respublikasının Mülki Məcəlləsinə edilmiş dəyişiklik-lər, "Kreditin əldə edilməsi" göstəricisi üzrə "Kredit büroları haqqında" Azərbaycan Respublikasının 28 oktyabr 2016-cı il tarixli qanunun qəbul edilməsi, "Müqavilələrin bağlanması" göstəricisi üzrə məhkəmə ödənişlərinin "Hökumət Ödəniş Portalı" vasitəsilə elektron qaydada həyata keçirilməsinin tətbiqi, "Müflisləşmənin həlli" gös-təricisi üzrə "Müflisləşmə və iflas haqqında" qanuna edilmiş 25 aprel 2017-ci il tarixli dəyişikliklər "Doing Business 2018" hesabatında Azərbaycanın həyata keçirdiyi isla-hatlar kimi xüsusi qeyd olunmuşdur.

Hesabatda Azərbaycan "Kiçik investorların maraqlarının qorunması" (10), "Biz-nesə başlama" (18), "Əmlakın qeydiyyatı" (21), "Vergilərin ödənilməsi" (35), "Mü-qavilələrin icrasının təmin edilməsi" (38), "Müəssisənin bağlanması" (47) göstəriciləri üzrə reytinqdə ilk 50 ölkənin sırasına daxil edilmişdir. Həmçinin Dünya İqtisadi Forumu tərəfindən 1979-cu ildən bəri hər il nəşr olunan və bu gün dünyada milli rəqabətqabiliyyətlilik üzrə ən geniş qiymətləndirmə hesab olunan “Qlobal Rəqabətlilik Hesabatı”nda ölkəmizin mövqeyi əvvəlki ilə nisbətən 2 pillə yaxşılaşaraq 37-ci yerdən 35-ci yerə yüksəlmiş və MDB məkanında liderlik mövqeyini qoruyub saxlamışdır.

Azərbaycanda dövlət tərəfindən həyata keçirilən tədbirlər biznes mühitinin daha da yaxşılaşdırılmasını, təşviq siyasətinin davam etdirilməsini və institusional isla-hatları əhatə edir. Makroiqtisadi sabitlik və infrastrukturun inkişafını dəstəkləməklə dövlət biznes şəraitinin yaxşılaşdırılmasına öz töhfəsini verməyə bundan sonra da da-vam edəcək. Bu Strateji Yol Xəritəsində biznes mühitinin yaxşılaşdırılması ilə bağlı 11 sektoru əhatə edən konseptual məsələlərdə öz əksini tapıb. “Azərbaycan Respublika-sında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi”ndə ölkədə kiçik və orta sahibkarlığın (KOS) vəziyyəti təhlil edilir, xü-susilə bu sahədə görülmüş işlər, həyata keçirilmiş islahatlar, mövcud statistika barədə ətraflı məlumat verilir. Həmin yol xəritəsində 2020-ci ilədək strateji, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış əhatə edilir. Yol xəritəsində adıçəkilən baxışlarda nəzərdə tutulan məqsədlərə nail olmaq üçün 5 strateji hədəf müəyyən edilmişdir. Bu strateji hədəflərə KOS fəaliyyəti üçün biznes mühitinin və tənzimləyici bazanın yaxşılaşdırılması, KOS subyektlərinin maliy-yə resurslarına sərfəli və səmərəli çıxışının təmin edilməsi, onların xarici bazarlara

çıxış imkanlarının artırılması və s. aiddir. Strateji hədəflərə nail olunmasını təmin edəcək tədbirlər planı da təsdiq edilmişdir.

2015-ci ilin sonlarından etibarən ölkə başçısı tərəfindən sahibkarlığın inkişafı ilə bağlı verilmiş mühüm qərarlar biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində çox əhəmiyyətli addımlardır. Belə ki, bu müddətdə biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması istiqamətində görülmüş işlər çərçivəsində sahibkarlıq sahəsində aparılan yoxlamalar 2 il müddətinə dayandırılmış, sahibkarların təkrar şikayətlərinə baxılması üçün Apellyasiya Şuraları yaradılmış, lisenziya tələb olunan fəaliyyət növlərinin və icazələrin sayı ciddi şəkildə azaldılmış, onların verilməsi üçün tələb olunan prosedurlar sadələşdirilmiş, vergi inzibatçılığı daha da təkmilləşdirilmiş, elektron gömrük xidmətləri genişləndirilmiş, ixracın və investisiyaların təşviqi, yerli istehsalın dəstəklən-məsi, dövlət satınalmalarında yerli istehsala üstünlük verilməsi, kənd təsərrüfatı məhsullarının istehsalının və emalının stimullaşdırılması mexanizmləri yaradılmış, sahibkarların elektrik təchizatı şəbəkəsinə qoşulması üçün tələb edilən prosedurlar sadələşdirilmiş, ümumilikdə sahibkarlıq fəaliyyətinin dəstəklənməsi, bir pəncərə sisteminin və elektron xidmətlərin genişləndirilməsi, inzibati prosedurlar üçün tələb edilən vaxtın qısaldıması, maliyyə əlçatanlığının genişləndirilməsi və s. sahələrdə sistemli islahatlar həyata keçirilmişdir.

Sahibkarların hüquqlarının müdafiəsinin daha da gücləndirilməsi ilə bağlı Azərbaycan Respublikası prezidentinin 3 fevral 2016-cı il tarixli 761 nömrəli fərmanına əsasən Azərbaycan Respublikasının prezidenti yanında və 762 nömrəli fərmanına əsasən mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuraları yaradılmış, onların fəaliyyətini tənzimləyən əsasnamələr təsdiq edilmişdir. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarının Apellyasiya Şuraları sahibkarlar tərəfindən özlərinin sahibkarlıq fəaliyyəti ilə bağlı müvafiq icra hakimiyyəti orqanının qərarlarından (qərarların qəbul edilməsindən imtinadan) və ya sərəncamından, əmrindən, hərəkət və ya hərəkətsizliyindən verilmiş təkrar şikayətlərə baxan kollegial orqandır. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarının Apellyasiya Şuralarının qərarlarından, hərəkət və hərəkətsizliyindən verilmiş şikayətlərə isə Azərbaycan Respublikasının Prezidenti yanında yaradılmış Apellyasiya Şurasında baxılır. Azərbaycan prezidentinin 21 aprel 2016-cı il tarixli 1988 nömrəli sərəncamı ilə ölkənin iqtisadiyyatında sahibkarların artan rolunu, məşğulluğun təmin olunmasında sahibkarlığın inkişafının müstəsna əhəmiyyətini nəzərə alaraq, cəmiyyətdə sahibkarlığa dəstək əhval-ruhiyyəsinin artırılmasına təkan vermək məqsədi ilə hər il aprelin 25-i "Sahibkarlar Günü" kimi təsis edilmişdir.

"Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının qanununda dəyişikliklər edilməsi barədə ölkə prezidentinin 3 noyabr 2017-ci il tarixli fərmanı ilə sahibkarlıq sahəsində aparılan yoxlamalar 2021-ci il yanvarın 1-dək dayandırılmışdır.

Dövlətin vergi siyasəti də biznes mühitinə mühüm təsir göstərir. Son illər bu sahədə də sahibkarların xeyrinə mühüm qərarlar qəbul edilmişdir. Belə ki, Azərbaycan Prezidentinin 4 avqust 2016-cı il tarixli 2257 nömrəli sərəncamı ilə vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın və şəffaflığın daha da artırılması, sahibkarlara əlverişli şəraitin yaradılması və ölkə iqtisadiyyatının davamlı inkişaf tempinə uyğun olaraq real vergi potensialının müəyyən edilməsi üçün vergi sistemində islahat-

ların davam etdirilməsi və vergi inzibatçılığının daha da təkmilləşdirilməsi məqsədi ilə "2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri" təsdiq edilmişdir.

Vergidən yayınma hallarının azaldılması, vergi uçotunun sadələşdirilməsi və vergi inzibatçılığının təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Vergi Məcəlləsinə 16 dekabr 2016-cı il tarixində bir çox dəyişiklik edilmişdir. Belə ki, Vergi Məcəlləsinə 115 yeni maddə əlavə olunmuş, 83 maddəyə dəyişiklik edilmiş, 3 maddə isə ləğv olunmuşdur. Dəyişikliklərə əsasən, buğdanın idxalı və satışı, buğda ununun və çörəyin istehsalı və satışı, həmçinin quş ətinin satışı 2017-ci ilin yanvarın 1-dən 3 il müddətinə ƏDV-dən azad edilmişdir. Torpaq sahələrinin təqdim edilməsi və bəzi fəaliyyət növləri (məişət cihazlarının təmiri, nəqqaşlıq və s.) sadələşdirilmiş vergiyə cəlb olunmuşdur. Həmçinin Məcəlləyə vergi öhdəliyinin əvvəlcədən müəyyən olunması və könüllü vergi açıqlaması anlayışları əlavə edilmişdir.

Bununla yanaşı, sahibkarlığın inkişafının stimullaşdırılması, əlverişli biznes mühitinin formalaşdırılması və vergi yükünün optimallaşdırılması məqsədilə "Vergi ödəyicilərinin 2017-ci ilin 1 yanvar tarixinə mövcud olan vergi borclarının tənzimlənməsi haqqında" 30 dekabr 2016-cı il tarixli qanunu qəbul edilmişdir. Qanuna əsasən vergilərin ödənilməməsinə görə hesablanmış faizlər və maliyyə sanksiyaları üzrə 1 yanvar 2017-ci il tarixinə vergi orqanlarındakı şəxsi hesab vərəqələrində mövcud borclar Vergilər Nazirliyi tərəfindən silinir. Maliyyə sanksiyaları üzrə yaranmış vergi borclarının 2017-ci ilin yanvar ayı ərzində 30 faizi ödənildikdə qalan 70, yanvar-fevral ayları ərzində 50 faizi ödənildikdə qalan 50, yanvar-mart ayları ərzində 70 faizi ödənildikdə isə ödənilməmiş 30 faizi Vergilər Nazirliyi tərəfindən silinir.

Bütün bunlar ölkədə sahibkarların hüquqlarının qorunması, dövlət tənzimlənməsinin təkmilləşdirilməsi, iqtisadiyyatın liberallaşdırılması, biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində mühüm qərarlardır.

Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması üzrə aparılan iqtisadi islahatlar ölkədə sahibkarlığın inkişafına təkan vermişdir. Xüsusən də dövlət-sahibkar münasibətlərinin, investisiya mühitinin yaxşılaşdırılması, qeyri-neft sektorunun stimullaşdırılması, o cümlədən özəl sektora təşviq mexanizmlərinin tətbiqi, aqrar sektora dövlət qayğısının artırılması, kiçik və orta sahibkarlığın dəstəklənməsi bu baxımdan əhəmiyyətlidir. Bunların nəticəsidir ki, ölkədə, xüsusən də qeyri-neft sektorunda özəl sektorun inkişafı meylləri müşahidə olunur.

Belə ki, Azərbaycanda ÜDM-də iqtisadiyyatın bütün sahələri üzrə qeyri-dövlət bölməsinin payının artımı müşahidə olunur. Əgər 1995-ci ildə ÜDM-də özəl sektorun payı 30,3 faiz, 2000-ci ildə 70,8 faiz idisə, sonrakı illərdə də artaraq 2005-ci ildə 77,8%-ə, 2010-cu ildə 81,7%-ə yüksəlmiş, 2016-cı ildə 83,7% təşkil etmişdir. Müqayisə edilən 20 il ərzində iqtisadiyyatın bütün sahələrində özəl sektorun xüsusi çəkisi çoxalmışdır. 2000-2016-ci illərdə qeyri-dövlət bölməsinin payı sənayedə 48,4%-dən 87,6%-ə, tikintidə 63,5%-dən 86,8%-ə, kənd təsərrüfatında 99%-dən 99,9%-ə, ticarət və xidmət sahələrində 98,3%-dən 99,6%-ə, nəqliyyatda 62,6%-dən 82,8%-ə, rabitədə 57,8%-dən 80,5%-ə, sosial və digər xidmətlər sahəsində isə 2005-ci ildəki 31,8%-dən 2015-ci ildə 58%-ə çatmışdır.

Bazar münasibətlərinə keçid istiqamətində islahatların sürətləndirilməsi, struktur dəyişikliklərinin tez bir zamanda həyata keçirilməsi, özəl sektorun inkişafına rəvac

verən normativ-hüquqi bazanın yaradılması, özəlləşdirmə proqramlarının uğurla həyata keçirilməsi və s. ölkəmizdə biznes sektorunun inkişafına da ciddi təsir etdi. Əslində biznes fəaliyyətinin təşkili və genişləndirilməsi bazar iqtisadiyyatının başlıca şərtidir. Lakin biznesin təşkili, onun həyata keçirilməsi və inkişafı üçün münbit şəraitin yaradılması və s. xüsusilə vacibdir. Müstəqil Azərbaycan Respublikasında bazar iqtisadiyyatına keçidlə əlaqədar dövlətin həyata keçirdiyi ardıcıl və uğurlu iqtisadi islahatlar biznes mühitinin formalaşmasında və azad rəqabətin inkişafında mühüm rol oynadı. Nəticədə respublikamızda 1995-ci ildən etibarən biznes sektorunun dinamik inkişafı təmin edildi. 20 il ərzində ÜDM-də özəl sektorun payı 30,3 faizdən 83,7 faizədək atrıb ki, bu ölkədə sahibkarlığın inkişafı üçün formalaşmış əlverişli biznes mühiti ilə bağlıdır.

İqtisadiyyatın bütün sahələrində - sənaye, tikinti, kənd təsərrüfatı, ticarət və xidmətlər, nəqliyyat, rabitə və sosial xidmətlər bölməsində özəl sektorun inkişafı meylləri müşahidə olunur. Sosial sfera istisna olmaqla, digər bütün sahələrdə özəl sektorun payı 80%-dən yüksəkdir ki, bu da sahibkarlıq fəaliyyətinin ölkə iqtisadiyyatındakı yüksək rolundan xəbər verir.

Əslində sahibkarlığın inkişafı ölkədə iqtisadi artımı təmin etdiyindən dövlət onun maraqlarının müdafiəçisi rolunda çıxış edir. Ölkəmizdə dövlət-sahibkar münasibət-lərini tənzimləyən əsas prinsiplər müəyyənləşdirilmişdir. Dövlətin uzunmüddətli iqtisadi siyasətinin başlıca istiqamətləri və prinsipləri əsasında sahibkarlığın inkişafı keyfiyyətcə yeni təsərrüfatçılıq münasibətləri sisteminin formalaşmasına əsaslanır. Müasir mərhələdə Azərbaycanda dövlət iqtisadiyyatın bütün sektorlarını birbaşa və dolayı iqtisadi mexanizmləri ilə tənzimləməklə mülkiyyətin bütün formalarının inkişafı üçün şərait yaradır.

Sahibkarlığın inkişafına respublikada yalnız mənfəət, biznes fəaliyyəti kimi baxılmır, həmçinin iqtisadi artımın əsası, sosial-iqtisadi inkişafın sosial amili və yeni iş yerlərinin təşkili, əhalinin məskunlaşmasının nəticəsi kimi qiymətləndirilir. Bu mühüm amillər nəzərə alınaraq Azərbaycanda sahibkarlığın inkişafı üçün iqtisadi islahatlar və biznes mühitinin yaxşılaşdırılması siyasəti davam etdirilir. Müsbət haldır ki, bütün bunlar iqtisadiyyatın müxtəlif sferalarında sahibkarlıq fəaliyyətinin rolunun artmasına imkan verir.

Aydın məsələdir ki, ölkədə bundan sonrakı iqtisadi artım, müasir texnologiyaların tədbiqi, özəl sektordan dövlət büdcəsinə vergi daxilolmalarının artması, ərzaq təhlükəsizliyi problemlərinin həlli, işsizliyin azaldılması, yoxsulluğun aradan qaldırılması həm də sahibkarlığın inkişafından və milli sahibkarlar təbəqəsinin formalaşmasından asılıdır. Bötövlükdə qeyri-neft sektorunun inkişafı sahibkarlığın tərəqqisi hesabına mümkündür. Bazar münasibətlərinə xas olan işgüzar aktivlik məhz bu fəaliyyət sahəsində aşkarlanır. Bazar mexanizminin mühüm elementi olan sağlam rəqabət mühitinin formalaşmasında sahibkarlığın inkişafı əsas şərtdir. Bunun üçün isə azad sahibkarlıq və liberal iqtisadiyyat siyasəti genişləndirilməlidir. Əvəzində inkişaf edən sahibkarlıq bölməsi özəl sektorda məşğulluq, rəqabət qabiliyyətli məhsulların buraxılması, xidmətlərin göstərilməsi, dövlət büdcəsinə vergilərin ödənilməsi, xidmət sferasında keyfiyyətin yaxşılaşdırılması və s. bu kimi problemlərin həllini öz üzərinə götürür.

Hümbətova S.İ.,
iqtisad elmləri üzrə fəlsəfə doktoru
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)

AZƏRBAYCANDA ƏHALİ GƏLİRLƏRİ VƏ ƏRZAQ TƏMİNATININ DİNAMIKASI

Keçid dövrünün ilk illərində ərzaq məhsulları idxalının sürətlə artması müşahidə olunmuş və məhz bu idxal sayəsində ölkədə kəskin ərzaq qıtlığının yaranmasının qarşısını almaq mümkün olmuşdur. Ölkəyə idxal olunan ərzağın ümumi idxalın xüsusi çəkisinin 40%-ni ötdüyü dövrlərdə bir çox əsas ərzaq məhsulları üzrə pərakəndə satış qiymətlərinin artım templəri müəyyən qədər zəifləmişdir.

Bununla yanaşı, respublikamızın dünya ərzaq sisteminə inteqrasiyasının güclənməsi milli ərzaq kompleksinin inkişafına müsbət təsir göstərmiş, ölkədə istehsal olunan analoji məhsulların maya dəyərinin aşağı salınmasına və həmin məhsulların keyfiyyətinin yüksəldilməsinə iqtisadi stimullar yaratmışdır.

Eyni zamanda, onu da yaddan çıxarmaq olmaz ki, ölkəmizə böyük miqdarda ərzaq idxalının bir sıra mənfi cəhətləri də olmuşdur.

1992-ci ildən etibarən ərzaq bazarında qiymətlərin sərbəstləşdirilməsi kənd təsərrüfatı məhsulları ilə sənaye məhsulları arasında qiymət tarazlığının pozulması, idxal malları ilə yerli malların qiymətləri arasındakı nisbətin nəzərə alınmaması, dövlətin bu proseslərə müdaxiləsinin zəif olması, hətta bəzi hallarda tamamilə kənarda qalması, bu sahələrdə fəaliyyət göstərən müəssisələrə külli miqdarda verdiyi subsidiyaların dayandırması ərzaq mallarının qiymətlərinin artmasına və respublikaya kənardan aşağı qiymətlə bəzən keyfiyyətsiz ərzaq malları idxalının genişlənməsinə səbəb oldu. Aqrar sahənin istehlakçıları öz mallarını rentabellik səviyyəsinə uyğun qiymətlə reallaşdıra bilmədiklərinə görə növbəti il üçün istehsalı azaldır və hətta dayandırırdı. Məsələ burasındadır ki, aqrar-ərzaq bazarı müəssisələrinin istehsal etdikləri məhsulun maya dəyərinin belə idxal edilmiş məhsulların satış qiymətindən yuxarı olması həmin müəssisələrin fəaliyyətlərini dayandırmaq məcburiyyətində qoydu. Qiymətlər dövlət tərəfindən tənzimlənmədiyinə görə ölkəmizin aqrar-ərzaq məhsulları istehsal edən müəssisələrin zərərlə işləməyə başladılar. Müqayisə üçün deyək ki, əgər 1990-cı ildə respublikamızın kənd təsərrüfatı müəssisələri 29,8% rentabelli işlədiyi halda, 1991-ci ildə 25,%, 1995-ci ildə 47,0%, 2000-ci ildə 52,5%-i zərərlə işləmişdir. Məhz bütün bunların nəticəsi idi ki, ölkədə aqrar-ərzaq malları ilə özünü təminetmə səviyyəsi kəskin şəkildə aşağı düşmüş və respublikamız bir sıra ölkələrin məhsullarının reallaşdırılması üçün açıq bazara çevrilmişdi. İdxalın güclü təsiri ilə yerli istehsalın çıxılmaz vəziyyətə düşməsi respublikanın ərzaq bazarını idxaldan tam asılı vəziyyətə salmaqla ərzaq təhlükəsizliyi problemini daha da kəskinləşdirmişdi.

Bütün bunların qarşısını almaq yalnız çevik idarəetmə qabiliyyətinə və dərin iqtisadi təfəkkürə malik ümummilli liderimiz H.Əliyevə nəsib oldu. O, böyük uzaq görənliklə belə bir nəticəyə gəldi ki, ölkənin ərzaq təhlükəsizliyini təmin etmək, milli istehsalçıların maraqlarını qorumaq, sahələrarası qiymət paritetliyini təmin etmək üçün dövlətin iqtisadiyyata müdaxiləsi zəruridir. Ona görə ki, bazar öz-özünü tənzimləmə mexanizminə malik olmadığına görə kənar müdaxilə olmadan bazarın özünü tənzimlə-

məsi yalnız lazımi məqamlarda dövlətin onu öz axarına buraxdığı müddətdə baş verə bilər.

Bu məqsədlə "Azərbaycanda Kiçik və Orta Sahibkarlığa Dövlət Yardımı Proqramı (1997-2000-ci illər)", "Azərbaycan Respublikasında aqrar bölmənin inkişafının Dövlət Proqramı (2002-2006-cı illər)", 2001-ci ildə ümummilli lider Heydər Əliyevin sərəncamı ilə "Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı" təsdiq edilmiş və bu proqramlar çərçivəsində görülmüş işlər nəticəsində kənd təsərrüfatı məhsullarının istehsalında əhəmiyyətli dərəcədə artan tempi müşahidə olunmuşdur.

Kənd təssərrüfatını da əhatə edən davamlı uğurlu iqtisadi islahatlar nəticəsində respublikamızın kənd təsərrüfatı müəssisələrində rentabellik səviyyəsi 2005-ci ildə 9,1%-dən 2015-cu ilə 11,3 %-ə qədər yüksəlmişdir. Ən yüksək göstərici 2009-cu ildə olsada (21,5 %), həm təbii-iqlim şəraiti, həm də məlum dünya maliyyə böhranı fonunda 2010-cu ilə aşağı düşmüşdir. Ziyanla işləyən kənd təsərrüfatı müəssisələrinin sayı isə 2005-ci ildə 11,5%-ə, 2008-ci ildə 8,8%-ə 2009-cu ildə 8,9%-ə 2010-cu ildə 8,5%-ə, 2011-ci ildə 8,1%-ə 2012-cu ildə 6,1%-ə 2013-cu ildə 4,7%-ə enmiş və sonrada qeyd olunan səbəblərlə bağlı 2014-ci ildə 8,8%-ə 2015-ci ildə 8,5%-ə qədər artmışdır.

İqtisadi islahatlar dövründə xarici iqtisadi əlaqələrin bazar mexanizminin tətbiqi respublikamızın dünya ərzaq sisteminə inteqrasiyasının sürətləndirilməsinə səbəb olmuşdur.

Son illər ərzində respublikada gömrük-tarif tənzimlənməsində idxalın əmtəə strukturunu səmərələşdirmək, ixracı stimullaşdırmaq, daxili istehsala şərait yaratmaq istiqamətində xeyli iş görülmüş, bu isə ölkə iqtisadiyyatını xarici rəqabətin təsirindən qorumaq üçün əlverişli şərait yaradılmasına kömək etmişdir. Əhalinin ət və ət məhsullarına, konserv məmulatlarına, mineral sulara, tütün və tütün məmulatlarına, toyuq əti və yumurtaya, habelə bir sıra digər mallara tələbatının əsas hissəsi daxili istehsal hesabına ödənilmişdir. Ərzaq təminatının aqrar-iqtisadi göstəriciləri həyatı vacib ərzaq məhsularının istehlakının qiymətləndirilməsini daxil edir.

Lakin qeyd edilənlərlə yanaşı bu ərzaq məhsullarını almaq iqtidarında olan əhalinin sosial-iqtisadi inkişafının əsas göstəricilərindən olan gəlilərinə də nəzər yetirmək lazımdır.

Belə ki, ev təsərrüfatlarında ay ərzində adambaşına düşən gəlirlərə 2001- 2015-ci illər üzrə nəzər salsaq aydın olur ki, cəmi ümumi gəlirlər 2015-ci ildə 2001-ci illə müqayisədə 8,26 dəfə, 2005-ci illə müqayisədə 3,73 dəfə, 2010-cu illə müqayisədə 1,67 dəfə, məşğulluqdan gələn gəlirlər 2015-ci ildə 2001-ci illə müqayisədə 6,74 dəfə, 2005-ci illə müqayisədə 4,03 dəfə, 2010-cu illə müqayisədə 1,56 dəfə, özü məşğulluqdan gələn gəlirlər 2015-ci ildə 2001-ci illə müqayisədə 106,50 dəfə, 2005-ci illə müqayisədə 4,23 dəfə, 2010-cu illə müqayisədə 1,76 dəfə, kənd təsərrüfatından gələn gəlirlər 2015-ci ildə 2001-ci illə müqayisədə 3,12 dəfə, 2005-ci illə müqayisədə 2,68 dəfə, 2010-cu illə müqayisədə 1,60 dəfə, icarədən gələn gəlirlər 2015-ci ildə 2001-ci illə müqayisədə1,55 dəfə, 2005-ci illə müqayisədə1,89 dəfə, 2010-cu illə müqayisədə 1,31 dəfə, əmlakdan gələn gəlirlər 2015-ci ildə 2001-ci illə müqayisədə 0,71 dəfə, 2005-ci illə müqayisədə 2,50 dəfə, 2010-cu illə müqayisədə 1,67 dəfə, alınmış cari transfertlər 2015-ci ildə 2001-ci illə müqayisədə 13,57 dəfə, 2005-ci illə müqayisədə 5,07 dəfə, 2010-cu illə müqayisədə 1,74 dəfə, pensiyalar 2015-ci ildə

2001-ci illə müqayisədə 14,00 dəfə, 2005-ci illə müqayisədə 5,28 dəfə, 2010-cu illə müqayisədə 1,80 dəfə, müavinət və sosial yardımlar 2015-ci ildə 2001-ci illə müqayisədə 1,80 dəfə, 2005-ci illə müqayisədə 4,88 dəfə, 2010-cu illə müqayisədə 1,50 dəfə, ölkə xaricindən göndərilən pul 2015-ci ildə 2005-ci illə müqayisədə 3,00 dəfə, 2010-cu illə müqayisədə 1,66 dəfə artmışdır.

2001-2015-ci illər üzrə ev təsərrüfatlarında ərzaq məhsullarının adambaşına istehlakının dinamiksındakı dəyişikliklərə nəzər salsaq, ev təsərrüfatlarında ərzaq məhsullarının adambaşına istehlakının dinamikası ildə kiloqramla aşağıdakı kimi olmuşdur. Çörək və çörək məhsullarının istehlakı 2015-ci ildə 2001-ci illə müqayisədə 2%, 2005-ci illə müqayisədə 12%, 2010-cu illə müqayisədə 10% azalmış, kartofun istehlakı 2015-ci ildə 2001-ci illə müqayisədə 2,02 dəfə, 2005-ci illə müqayisədə 1,48 dəfə, 2010-cu illə müqayisədə 1,32 dəfə, tərəvəz və bostan bitkilərinin istehlakı 2015-ci ildə 2001-ci illə müqayisədə 1,69 dəfə, 2005-ci illə müqayisədə 1,37 dəfə, 2010-cu illə müqayisədə 1,27 dəfə, ət və ət məhsullarının istehlakı 2015-ci ildə2001-ci illə müqayisədə 1,61 dəfə, 2005-ci illə müqayisədə1,15 dəfə, 2010-cu illə müqayisədə 1,08 dəfə, balıq və balıq məhsullarının istehlakı 2015-ci ildə 2001-ci illə müqayisədə 1,62 dəfə artmış, 2005-ci illə müqayisədə 1,11 dəfə, 2010-cu illə müqayisədə 1,06 dəfə, süd və süd məhsullarının istehlakı 2015-ci ildə 2001-ci illə müqayisədə 1,53 dəfə arsa da, 2005-ci illə müqayisədə 1%, 2010-cu illə müqayisədə 10% azalıb, yumurta istehlakı 2015-ci ildə 2001-ci illə müqayisədə1,35 dəfə, 2005-ci illə müqayisədə 1,26 dəfə, 2010-cu illə müqayisədə 1,21 dəfə, meyvə, giləmeyvənin istehlakı 2015-ci ildə 2001-ci illə müqayisədə2,09 dəfə, 2005-ci illə müqayisədə 1,43 dəfə, 2010-cu illə müqayisədə 1,20 dəfə, qənd və qənnadı məmulatlarının istehlakı 2015-ci ildə 2001-ciillə müqayisədə 1,05 dəfə arsa da, 2005- ci illə müqayisədə 2%, 2010-cu illə müqayisədə 5 % azalıb, bitki yağı və marqarinin istehlakı 2015-ci ildə 2001-ci illə müqayisədə 1,79 dəfə, 2005-ci illə müqayisədə 1,25 dəfə, 2010-cu illə müqayisədə 1,18 dəfə artmışdır.



Qrafik 1. 2001-2015-ci illər üzrə ev təsərrüfatlarında ayda adambaşına düşən gəlirlər, manatla



Qrafik 2. 2001-2015-ci illər üzrə ev təsərrüfatlarında ərzaq məhsullarının adambaşına istehlakı, ildə kiloqramla

Nəticə etibarilə onu söyləməliyik ki, qeyd olunan problemin mürəkkəbliyi və çox tərəfliyi səbəbindən kənd təsərrüfatının dayanıqlı inkişafının təmin edilməsi lakin sistemli yanaşma əsaında mümkündür.

Bu məqsədlə Azərbaycan prezidenti İlham Əliyev qarşısına qoyduğu vəzifə kimi ilk növbədə respublikamızın xarici ərzaq təminatından imkan daxilində az asılı olması və respublikamızda əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı, ərzaq məhsullarının istehsalını zəruri səviyyəyə çatdırılması 2016-ci il 6 dekabr tarixli Fərmanı ilə təsdiq etdiyi Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsinin hədəfləri vasitəsi ilə nail olur.

Sabzaliev M.M., Kerimova M.E.,
Baku Business University
Azerbaijan State Universitety of Oil and Industry

ON A BOUNDARY VALUE PROBLEM FOR A SINGULARLY PERTURBED DIFFERENTIAL EQUATION OF NON-CLASSICAL TYPE

Boundary value problems for non-classical singularly perturbed differential

$$u\big|_{x=0} = u\big|_{x=1} = 0, \quad \left.\frac{\partial u}{\partial x}\right|_{x=1} = 0, \qquad (0 \le y < +\infty)$$

(2)

$$u\big|_{y=0} = 0, \quad \lim_{y\to+\infty} u = 0, \qquad (0 \le x \le 1),$$

(3)

where $\varepsilon > 0$ is a small parameter, $\Delta \equiv \frac{\partial^2}{\partial x^2} + \frac{\partial^2}{\partial y^2}$, $f(t,x)$ is the given function.

The goal of the work is to construct the complete asymptotics in a small parameter of the solution of problem (1)-(3). When constructing the asymptotics we follow the M.I. Vishik-L.A.Lusternik technique ([4]).

The following theorem is proved.

Theorem. Let $f(x,y) \in C^{2n+3}(\Pi)$, and the following conditions be fulfilled:

$$\left.\frac{\partial^k f(x,y)}{\partial x^{k_1} \partial y^{k_2}}\right|_{x=y} = 0; \quad \left|\frac{\partial^k f(x,y)}{\partial x^{k_1} \partial y^{k_2}}\right| \le c_1 e^{-\gamma y}; \; k = k_1 + k_2; \; k = 0,1,...,2n+3,$$

$c_1 > 0, \gamma > 0$. Then for the solution of boundary value problem (1)-(3) the following asymptotic representation is valid:

$$U = \sum_{i=0}^{n} \varepsilon^i W_i + \sum_{j=0}^{n+1} \varepsilon^j V_j + \varepsilon^{n+1} z,$$

where the functions W_i are determined by the first iterative process, V_j are the boundary layer type functions near the boundary $x = 1$ determined by the second iterative process, $\varepsilon^{n+1} z$ is a remainder term, and for z we have the estimation

$$\varepsilon^2 \int_0^{+\infty} \left(\left. \frac{\partial z}{\partial x} \right|_{x=0} \right)^2 dy + \varepsilon \iint_{\Pi} \left[\left(\frac{\partial z}{\partial x} \right)^2 + \left(\frac{\partial z}{\partial y} \right)^2 \right] dxdy + C_1 \iint_{\Pi} z^2 dxdy \le C_2 ,$$

where $c_1 > 0,\ c_2 > 0$ are the constants independent of ε.

References:

1. Mahir M. Sabzaliev, Mahbuba E. Kerimova (2014) Asymptotics of the Solution of Boundary Value Problem for One-Characteristic Differential Equation Degenerating into a Parabolic Equation in an infinite Strip. Nonl. Analysis and Differential Equations, 2(3): 125-133.
2. Mahir M. Sabzaliev, Mahbuba E. Kerimova (2014) Asymptotics of the solution a rectangle of a boundary value problem for one-characteristic differential equation degenerating into a parabolic equation. Transactions of NAS of Azerbaijan iss. math., mech., 34 (4): 97-106.
3. Mahir M. Sabzaliev, Ilhama M. Sabzalieva (2017) Asymptotics of Solution of a Boundary Value Problem for Quasilinear Non-Classical Type Differential Equation of Arbitrary Odd Order. British Journal of Mathematics Computer Science, 22(4): 1-19 Article no. BJMCS. 33704.
4. Vishik M.I., Lusternik L.A. (1957) Regular degeneration and a boundary layer for linear differential equations with a small parameter. Uspekhi mathematicheskikh nauk, 12, issue 5(77): 3-122.

Abdulov S.Y.,
iqtisad elmləri üzrə fəlsəfə doktoru
Azərbaycan Kooperasiya Universiteti

İQTİSADİYYATIN MÜHÜM SEKTORU OLAN EV TƏSƏRRÜFATLARIN İQTİSADİ DÖVRİYYƏDƏ YERİ VƏ ROLU

Müasir şəraitdə əhalinin həyat səviyyəsinin tədqiqinin əsas informasiya bazası ev təsərrüfatı statistikasıdır. Son dövrlərdə ev təsərrüfatı statistikasına marağın artması bir sıra səbəblərlə bağlıdır. Birincisi, əhalinin həyatında ev təsərrüfatının rolunun bütövlükdə yüksəldilməsi, ölkədə bazar münasibətlərinin tədricən formalaşmasıdır ki, bu da əhalinin öz-özünü təminetmə funksiyasının güclü inkişafını labüd etmişdir. İkincisi, ölkənin makrostatistikası Milli Hesablar Sisteminə keçir ki, burada ev təsərrüfatına iqtisadiyyatın əsas subyekti kimi baxılır. Üçüncüsü, mühüm praktiki vəzifə ev təsərrüfatının ümumi gəlirlərini, onun səviyyə və dinamikasını, diferensasiyasını qiymətləndirməkdir ki, bu da həm əhaliyə ünvanlı köməyin təşkili, həm də səmərəli vergi sisteminin formalaşması üçün zəruridir.

Ev təsərrüfatlarının büdcə statistikası qarşısında durduğu vəzifələr dairəsinin genişləndirilməsini, öz üsullarının işlənib hazırlanmasını və təkmilləşdirilməsini fasiləsiz davam etdirərək statistik tədqiqatın xüsusi metoduna çevrilmişdir.

İqtisadi nəzəriyyədə «ev təsərrüfatı» anlayışı yaşayış yeri və büdcənin ümumiliyi

ilə birləşən bir, yaxud bir necə şəxsdən ibarət olan təsərrüfat vahid kimi şərh edilir ki, bu da iqtisadiyyatı resursla təmin edərək onlara görə aldığı pulla maddi tələbatlarını təmin edən mal və xidmətləri əldə etmək üçün istifadə edir. Ev təsərrüfatı anlayışı bütün istehlakçıları, muzdlu işçiləri, iri və kiçik kapital, torpaq, istehsal vasitələri sahiblərini, ictimai istehsalda məşğul olan və məşğul olmayan şəxsləri birləşdirir.

Bazar iqtisadiyyatının subyektləri kimi ev təsərrüfatının fəaliyyətinin iqtisadi mahiyyətini tədqiq edərkən təhlilin iki müxtəlif səviyyəsindən istifadə edilir.

Makroiqtisadi səviyyədə təhlil – bu ilk növbədə davranışı, əhalinin vəziyyətini və bütövlükdə onun iqtisadi maraqlarını birbaşa əks etdirən və milli iqtisadiyyata əhəmiyyətli təsir göstərən iqtisadi vahidlərin müəyyən məcmusu kimi ev təsərrüfatını öyrənməkdir. Makroiqtisadi səviyyədə ev təsərrüfatlarının məcmu gəlirlərinə, istehlak və əmanət davranışına, ölkənin ÜDM-də onların payına, dövlətlə, istehsal və biznes sferası ilə qarşılıqlı münasibətlərinə baxmaq olar.

Mikroiqtisadi təhlil ayrı spesifik iqtisadi vahid kimi ev təsərrüfatının tədqiqini nəzərdə tutur. O onların əmək və iqtisadi funksiyalarının, bazar davranışının, səbəb-nəticə əlaqələrinin hərtərəfli öyrənilməsinə istiqamətlənir. Mikroiqtisadiyyatda məhdudluq, seçim, fərdi tələbat, xərc, gəlir, istehlak, qiymət anlayışlarından istifadə olunur. Burada eyni zamanda mal və xidmətlər bazarında ev təsərrüfatlarının qəbul etdiyi qərarlar prosesi və onların seçiminə təsir edən amillərin öyrənilməsi də həyata keçirilir.

Ev təsərrüfatının davranışının makro və mikroiqtisadi təhlili bir-biri ilə sıx bağlıdır: iqtisadiyyatın vahid sektoru kimi ev təsərrüfatlarında baş verən hadisə və proseslərin makroiqtisadçılar tərəfindən öyrənilməsi, son nəticədə çoxlu fərdi ev təsərrüfatlarının qarşılıqlı fəaliyyətinin nəticəsində yaranır. Ev təsərrüfatının vəziyyətini, iqtisadi davranışının əsasını və fəaliyyətinin əhəmiyyətini yalnız təhlilin bir səviyyəsinin nəticələrinə əsaslanaraq sona qədər başa düşmək və izah etmək mümkün deyildir.

Bazar iqtisadiyyatı sistemində ev təsərrüfatının yeri və rolunu resursların, məhsulların və gəlirlərin dövriyyəsi-modeli əsasında öyrənmək daha əlverişlidir. Müəyyən şərtliklərlə və məhdudiyyətlərlə o bazar iqtisadiyyatının əsas subyektlərinin qarşılıqlı fəaliyyəti haqqında mühüm təsəvvür yaradır.

Ev təsərrüfatı resurslar, mal və xidmətlər bazarının firmaları ilə sıx qarşılıqlı fəaliyyətdə olur. Resurslar bazarında ev təsərrufatı firmalara sahibi özü olan iqtisadi resurslar (əmək, torpaq, kapital və sahibkarlıq qabliyyəti) təklif edir. Firmaların bu resurslara tələbi vardır. Tələb və təklifin qarşılıqlı fəaliyyəti ilə resurs bazarında hər növ resursun qiyməti müəyyənləşir. Resursları alaraq firmaların həyata keçirdiyi ödəmələr onların xərcləri kimi çıxış edir. Eyni zamanda onlar resurslar təqdim edən ev təsərrüfatlarının əməkhaqqı, faiz, renta və mənfəəti, yəni ev təsərrüfatının pul gəlirləri axınlarını yaradır. Onların xərclənməsi prosesində ev təsərrüfatı məhsullar bazarında ona zəruri olan mal və xidmətlərə tələb yaradır. Firmalar istehsal etdiyi məhsulları təklif edib reallaşdıraraq müvafiq gəlirlər əldə edirlər.

Deməli, ev təsərrüfatı firmalarla qarşılıqlı fəaliyyətdə olaraq resurs bazarında təklifçi, məhsullar bazarında isə tələbçi kimi çıxış edir.

Ev təsərrüfatlarının əldə etdiyi gəlirlər mal və xidmətlərin əldə edilməsinə tam xərclənmir. Onların müəyyən hissəsi dövlət vergilərinə və yığıma gedir. Dövlət ev təsərrüfatlarının iqtisadi davranışına əhəmiyyətli təsir göstərir. Bazar iqtisadiyyatında

dövlət maddi və pul vəsaitləri dövriyyəsinə tam inteqrasiya olunur. Ev təsərrüfatı dövlətə müxtəlif iqtisadi resurslar təklif edir (ilk növbədə dövlət strukturlarına işçi əməyi) və təqdim edilən istehsal amillərinə görə haqq formasında müvafiq gəlir əldə edir. Bundan başqa dövlət ev təsərrüfatlarına (həmçinin firmalara) maliyyələşdirilməsi sonuncular tərəfindən vergi ödəmələrini tələb edən ictimai nemət və xidmətlər təklif edir. Hökumət ev təsərrüfatlarından vergilər alır (gəlir, əmlak və digər vergilər) və bununla yanaşı sonunculara transfert ödəmələri (işsizliyə, əmək qabliyyətli olmamağa görə yardım, pensiya və s.) həyata keçirir.

Əlbəttə ki, bu model bazar şəraitində ev təsərrüfatının firmalarla, dövlətlə qarşılıqlı fəaliyyətinin yalnız əsas prinsiplərini təsvir edir.

Bazar iqtisadiyyatı şəraitində ev təsərrüfatı çoxlu sayda funksiyalar yerinə yetirir: şəxsi yardımçı təsərrüfatın aparılması; fərdi-əmək və sahibkarlıq fəaliyyəti, daşınmaz əmlakın və uzun müddət istifadə edilən əmlakın icarəyə verilməsi, fərdi-ailə ticarəti, qiymətli kağızların əldə edilməsi və istifadəsi və s.

Ev təsərrüfatı mühüm bazar institutlarından biri kimi iqtisadiyyatın normal fəaliyyətində əhəmiyyətli rol oynayır.

Ev təsərrüfatının zəruri istehlak tələbinin təmin edilməsi funksiyasının yerinə yetirilməsi bazar mexanizminin fəaliyyəti üçün zəmin yaradılmasının ilk və zəruri şərtidir. Kapital bazarı ilə əlaqənin olması şərti ilə ev təsərrüfatının yığımı (əmanəti) kapital yığımı probleminin həllini təmin edir ki, bu da transformasiya olunan iqtisadiyyatda investisiya fəaliyyətinin canlandırılması üçün zəruridir.

Rəqabətli bazarın formalaşmamasının mühüm şərtlərindən biri ev təsərrüfatlarının gəlir-əmlak potensialının (sərvətinin) mövcudluğudur.

Ev təsərrüfatlarının sərvətinin olması onların zəruri azad sahibkarlıq seçimini təmin edir. Sərvətin olması ev təsərrüfatının əmək bazarından asılılığını azaldır, onların şəxsi rifahının artımını, ailə biznesini həyata keçirmək yolu ilə özlərinin inkişaf imkanlarının reallaşdırılmasını təmin edir. Deməli, ev təsərrüfatının sərvəti fərdin iqtisadi və sosial-mədəni fəallığını şərtləndirərək, bütövlükdə bazar iqtisadiyyatının dinamik inkişafına təkan verir. Ev təsərrüfatları arasında sərvətin bölgüsü, necə deyərlər «iqtisadi hakimiyyətin diffuziyası» onların rəqabətli bazar münasibətlərinə cəlb edilməsinə imkanlar yaradır.

Yeni iqtisadi münasibətlərin formalaşması, əhalinin pul gəlirləri və xərcləri statistikasının təkmilləşdirilməsini, onun sferasına məlumatların iqtisadi-riyazi modelləşdirilməsi və ekspert qiymətləndirilməsi metodlarının fəal cəlb edilməsini zəruri etmişdir. Lakin araşdırma göstərir ki, ev təsərrüfatlarının seçmə tədqiqatı prosesində təsərrüfat fəaliyyətinin yeni növləri ilə bağlı olan əhali qrupu (sahibkarlıq dairələrinin müxtəlif şəxsləri, maliyyə - kredit təşkilatlarının nümayəndələri, ikili məşğuliyyəti olanlar və s.) öz əksini tapmır. Bu ev təsərrüfatı statistikasının məlumatlarının reprezentalivliyinə əhəmiyyətli təsir göstərir. Odur ki, ev təsərrfatlarının seçilməsi təsərrüfatın bütün tiplərinin seçməyə düşməsinin bərabər imkanlarını təmin edən təsadüfi seçmə metodu ilə ərazi prinsipi üzrə həyata keçirilməsi məqsədəuyğundur.

İstənilən cəmiyyətin əsas təbəqəsi orta sinfidir. Məhz əhalinin bu hissəsinin həyat səviyyəsinin öyrənilməsi ilə ailə büdcələri statistikası məşğul olmalıdır. Dünyanın inkişaf etmiş ölkələrində də belədir. Varlıların əsas hissəsi gəlirlər haqqında deklarasiya təqdim etməlidir. Bu xidmətin materiallarından statistika orqanları ümumiləş-

dirici təhlil üçün istifadə edə bilər. Bunun gedişində yarana biləcək problemləri minimuma endirmək üçün vergi xidmətinin səmərəli fəaliyyəti təmin edilməlidir.

Müasir şəraitdə diqqəti cəlb edən əsas məsələlərdən biri də ev təsərrüfatı büdcələrinin balans metodu ilə qurulmasından əl çəkilməsi və əhalinin cari xərcləri və yığımı vastəsilə pul gəlirlərinin həcminin hesablanmasının həyata keçirilməsidir.

Müşahidəyə və təhlilə daxil edilən göstəricilər dairəsinin yeniləşdirilməsi də zəruridir: qida məhsullarının, qeyri-ərzaq mallarının alınmasına, xidmətlərə görə ev təsərrüfatlarının gündəlik xərcləri; ev təsərrüfatı üzvlərinin əldə etdiyi müxtəlif dotasiya və güzəştlər, müstəqil sahibkarlıq fəaliyyətinin aparılması xərcləri və s.

Bu günə qədər seçməyə düşən ev təsərrüfatlarının tədqiqi sorğunun ekspedisiya metodu ilə (ev təsərrüfatının qeydləri və müsahibəsi nəzərə alınmaqla) həyata keçirilir. Lakin respodentlərin vaxtını və əmək məsrəflərini minimumlaşdıran sorğunun daha mütərəqqi növlərindən istifadə edilməsi keçid dövrün ən zəruri tələbidir.

Bazar iqtisadiyyatı şəraitində ölkənin mühüm və mürəkkəb problemlərindən biri regional ev təsərrüfatlarının statistikasıdır. Bu onunla bağlıdır ki, əhalinin həyat səviyyəsində regionlararası differensasiya çox yüksəkdir və artmaqda davam edir. Ona görə də region səviyyəsində obyektiv informasiyanın əldə edilməsi birinci dərəcəli vəzifədir.

Bərabər şərtlər daxilində gəlirlərin səviyyəsi və differensasiyası əhalinin ayrı-ayrı qruplarının həyat səviyyəsinin tənzimlənməsinin həlledici amili kimi çıxış edir.

Büdcə tədqiqatının nəticələrindən əhaliyə kompensasiya ödəmələrinin həcminin müəyyən edilməsində, gəlirlərin indeksləşdirilməsi mexanizminin işlənib hazırlanmasında, yaşayış minimunun və minimum əməkhaqqının, pensiya və yardımların elmi cəhətdən əsaslandırılmış həcminin hesablanmasında, sosial proqram tədbirlərinin işlənib hazırlanmasında istifadə edilir.

Hər nəfərə düşən orta gəlirin səviyyəsinə görə əhalinin (ev təsərrüfatının) bölgüsü müxtəlif dövrlər üçün hər ay, hər rüb, hər il həyata keçilə bilər. Ona görə də böyük ədədlər qanunu baxımdan ev təsərrüfatının daha reprezentativli (etibarlı) bazası bütövlükdə il üzrə informasiyadır.

Gəlirlərin səviyyəsinə görə əhalinin (ev təsərrüfatının) bölgüsü haqqındakı informasiyanın daha etibarlı olmasına əmin olmaq üçün gəlir üzrə əhalinin (ev təsərrüfatının) bölgüsü modelinin təkmilləşdirilməsi zəruridir.

Beləliklə, əhalinin həyat səviyyəsinin bütün tərəflərini kompleks əks etdirməyə imkan verən informasiya təminatının formalaşdırılması statistik təhlilin əsas istiqamətlərini müəyyən etməyə və təhlil prosesində əsaslandırılmış və etibarlı nəticələrin əldə edilməsinə imkan verir.

İqtisadiyyatın makrostatistik modeli Milli Hesablar Sistemində ev təsərrüfatı mühüm bazar subyekti kimi çıxış edir. MHS-də gəlirlərin formalaşması, bölgüsü və istifadəsi ilə bağlı bütün əməliyyatlar müvafiq hesablarda kompleks şəklində əks olunmuşdur. Odur ki, bazar iqtisadiyyatı şəraitində böyük analitik imkanlara malik olan MHS-i bazasında gəlirlərin statistik təhlilinin əsas istiqamətlərinin müəyyənləşdirilməsi zəruridir.

MHS-nin mühüm hesablarından biri olan gəlirlərin yaranması hesabı «istehsal» hesabının məlumatları ilə tamamlanır və o, iqtisadiyyatın sahələri və sektorları üzrə əmək haqqının səviyyəsini təhlil etməyə imkan verir. Bu hesabın məlumatları eyni

zamanda istehsal fəaliyyətindən gəlirlərlə sektorların və sahələrin fəaliyyət nəticələrini əlaqələndirməyə, hər məşğul əhaliyə düşən cəlirlərin həcmini hesablamağa, müxtəlif sahələrin və sektorların istehsal fəaliyyətindən əldə edilən gəlirlərin həcmini, əməkhaqqı ilə ümumi əlavə dəyərin müqayisəsi əsasında hər bir sahənin əməkhaqqı tutumluğunun müqayisəli qiymətləndirilməsini hayata keçirməyə imkan verir.

Bu hesabda subsidiyanın həcmi ilə ÜDM-in cəmi gəlirlərin formalaşma mənbələri kimi baxılır. Sahə və sektor bölümdə bu hesabın resurslarının quruluşunun müqayisəli təhlili, subsudiyası bu hesabın resurslarının həcminin formalaşmasında daha böyük rol oynayan institusional vahidlərin aşkar edilməsi xüsusi maraq doğurur.

İstehsal prosesində ayrı-ayrı sahə və sektorların və bütövlükdə iqtisadiyyatın ödədiyi vergilər haqqındakı informasiyanın təhlili gəlirlərin istifadəsinin ümumi həcmində onların xüsusi çəkisini müəyyən etməyə imkan verir. Idarəetmə orqanları, ayrı-ayrı institusional vahidlər sahə və sektorlar baxımından özlərinin vergi siyasətini təhlil etmək imkanları əldə edir.

Bu hesabda əsas informasiyanı əmək üzrə gəlirlərin həcmi və onların quruluşu göstəriciləri təşkil edir.

Gəlirlərin formalaşması hesabının əsas vəzifəsi istehsalın nəticələrinə görə gəlirlərin formalaşmasının birinci mərhələsini göstərməkdir: muzdlu işçilərin əməkhaqqı; istehsala və idxala vergilər; ümumi mənfəətin yaranması (qarışıq gəlirlər).

Gəlirlərin yaranması hesabını təhlil edərkən o fakta fikir vermək lazımdır ki, ÜDM-lə ümumi əlavə edilmiş dəyər göstərcisini cəmləyərkən bəzən ikinciyə birincinin tərkib hissəsi kimi baxırlar. Bu o deməkdir ki, ümumi əlavə edilmiş dəyər bir qiymətlə (əsas qiymətlərlə), ÜDM-isə digər (bazar) qiymətlərilə götürülür. Ümumi əlavə edilmiş dəyərə vergiləri əlavə etsək həmin göstərici digər növ qiymətləndirməyə çevrilir. Bazar qiy-mətlərində ÜDM beynəlxalq müqayisələrdə geniş istifadə edilir.

Göstəricilərin dinamikasını təhlil etmək üçün hesabın göstəricilərinin mütləq qiy-mətləri əsasında iqtisadiyyatın inkişafının əsas meylini və onun səmərəliliyini aşkar etməyə imkan verən mütləq artım, əsas və silsiləvi indekslərin hesablanması məqsədəuyğundur.

Əməkhaqqı ilə ümumi əlavə edilmiş dəyərin artım tempi arasındakı nisbət canlı əməyin istifadəsini xarakterizə edən səmərəlilik göstəricilərdən biridir. Əməkhaqqının artım tempi ilə «ümumi mənfəətin» artım tempinin müqayisəsi, onlar arasındakı elas-tiklik əmsalının hesablanması hesabın göstəriciləri arasındakı asılılığı aşkar etməyə və təhlili dərinləşdirəyə imkan verir.

Gəlirlərin yaranması hesabının quruluşunun təhlili həm vergilərin, həm də əmək haqqının xüsusi çəkisinin dəyişməsi hesabına ÜDM-də ümumi mənfəətin xüsusi çəkisinin dəyişməsini aşkar etməyə imkan verir. Bu hesabın informasiyası əsasında ayrı-ayrı komponentlər üzrə ÜDM-in tutumluğu göstəriciləri hesablanır və təhlil edilir.

İqtisadiyyatın ayrı-ayrı sahələrində orta aylıq əmk haqqının dəyişmə tempinin və fərqlənməsinin müqayisəli təhlili məqsədəuyğundur. Müxtəlif sahələrdə işçilərin əmək haqqının nisbəti yalnız obyektiv amillərin (əməyin keyfiyyəti və intensivliyi, daxili və xarici bazarda istehsal edilmiş məhsul və xidmətlərə tələbat və s.) deyil, həm də digər amillərin (güzəştli kreditlərin alınması, dotasiya və s.) əhəmiyyətli təsiri altında forma-laşır.

İqtisadiyyatın aparıcı sahələrinin işçilərinin əməkhaqqının artım tempi ilə

inflyasiya arasındakı korrelyasiya təhlilini hayata keçirmək, bu prosesə əməkhaqqı və sosial yardımlar üzrə ödəmələrin gecikdirilməsinin təsir dərəcəsini aşkar etmək, ÜDM-in dəyişmə tempi ilə ümumi mənfəətin dəyişmə tempini və s. müqayisə etmək məqsədəuyğundur.

Elastiklik əmsalının dinamikasını təhlil etməklə iqtisadiyyatın balanslılığını yaxud digər meylini aşkar etmək çətin deyildir.

Cari qiymətlərdə hesabın əsas göstəricilərinin təhlili onların nominal qiymətlərinin dəyişmə meylini, hesabın komponentləri arasındakı struktur nisbətləri; habelə vergilərin, əmək haqqının və ümumi mənfəətin xüsusi çəkisini aşkar etmək üçün istifadə edilir.

Hesabın əsas göstəricilərinin müqayisəli qiymətlərdə təhlili faktor gəlirlərinin dinamikasının öyrənilməsində istifadə edilməsi tövsiyyə edilən ÜDM-in deflyator indeksini hesablamağa imkan verir.

Hesabın göstəricilərinin fiziki həcminin dinamikasının təhlili inflyasiyanın təsirini aradan qaldırmaq, iqtisadiyyatın real vəziyyətini və inkişafını, gəlirlərin dəyişməsini aşkar etmək məqsədilə həyata keçirililir. Lakin bu istiqamətdə təhlilin həyata keçirilməsi gəlirlərin yaranması hesabının komponentlərinin fiziki həcminin müəyyən edilməsi probleminin həllindən asılıdır. Bu zaman ÜDM-u formalaşdıran komponentlər üzrə özlərinin deflyator indeksi müəyyən edilir.

Bu hesabda mənfəət göstəricisi strukturuna görə çox mürəkkəb göstəricidir. Mahiyyət etibarılə bu əmək və dövlət (vergilər) gəlirlərindən başqa bütün gəlirlərin cəmidir. Bunlar kapital istehlakı və ondan gəlirlər, torpaqdan gəlirlər, dövlətin gəlirlərinin bir hissəsi (gəlirlərdən vergilər) və ev təsərrüfatının qarışıq gəlirləridir və s. Bütün bunlar istehlaka, kapitalın investisiyasına və digər aktivlərə yönəldilir. Maliyyə vəsaitlərinin bu cür axınını təfsilatl ilə izləmək məsələsi çətindir.

Təhlilin xüsusi istiqamətlərindən biri əsas kapitalın istehlakını kənarlaşdıran «iqtisadiyyatın xalis mənfəəti» göstəricisinin təhlili ola bilər. Belə ki, ümumi mənfəətin artım tempinin ÜDM-nin artım tempini əhəmiyyətli dərəcədə qabaqlaması, habelə ÜDM-nin fiziki həcminin düşməsi fonunda mənfəətin real artımı fennomeni xüsusi diqqət tələb edir.

Əmək məhsuldarlığının artım tempi ilə bir işçiyə əməkhaqqının dəyişmə tempinin müqayisəsi istehsalın iqtisadi səmərəliliyi göstəricisindən biridir. Onun təhlili bu iki göstərici arasındakı mövcud nisbəti, meyli göstərir.

Fəaliyyət sferaları bölümündə - məhsul istehsalı və qeyri-maddi xidmət gəlirlər hesabının göstəricilərinin müqayisəli təhlili mühüm istiqamətlərdən biridir. Bu maddi istehsal və qeyri-maddi xidmət sferalarında, bazar və qeyri-bazar qeyri-maddi xidmət sferalarında gəlirlərin yaranması prosesinin necə getdiyini müəyyən etməyə imkan verir.

Təhlilin müstəqil aspektlərindən biri əmək üzrə gəlirlərin və sektorlar üzrə onların müqayisəli təhlili ola bilər.

İşçilərin müxtəlif kateqoriyalarının əməkhaqqının nisbəti haqqındakı məsələ də çox aktualdır.

Statistik təhlilin növbəti istiqaməti iqtisadiyyatın sahələri üzrə gəlirlərin formalaşmasının təhlilidir. MHS-i sahələr üzrə ilkin gəlirlərin formalaşması hesabları quruluş dəyişikliyi, məhsul və idxala xalis vergilərin xüsusi çəkisi haqqında geniş infor-

masiyaya malikdir.

Bunlarla yanaşı müxtəlif sahələrin əmək haqqının və ümumi əlavə edilmiş dəyərin, vergi və subsidiyalar arasındakı nisbətin təhlili də xüsusi əhəmiyyət kəsb edir.

Gəlirlərin bölgüsü hesabı iqtisadiyyatın sektor və sahələrinin vergi və vergi yükü haqqında informasiya mənbəyidir. Onların əsasında ayrı-ayrı institusional vahidlərin ödədiyi vergilərin həcmini müqayisə etmək, ilkin gəlirlərin saldosu ilə gəlirlərin bütün göstəricilərini əlaqələndirmək, sərəncamda qalan gəlirdə əmək, kapital və qarışıq gəlirlərin xüsusi çəkisini tapmaq olar. Bu halda dövlət idarəetmə orqanları özlərinin vergi siyasətini (vergi ödəmələri sektorlar arasında necə optimal bölünüb, onların gəlirlərilə və iqtisadiyyatdakı payları ilə necə əlaqələndirilir və s.) təhlil etmək imkanları əldə edir.

Sərəncamda qalan gəlirlərin quruluşunu ilkin gəlirlərin quruluşu ilə müqayisə edib son gəlirlərin formalaşmasına təkrar bölgü prosesinin təsirini qiymətləndirmək olar.

«Sərəncamda qalan gəlirlər» hesabının təhlilini «naturada sosil transfert» göstəriciləri ilə əlaqələndirmək zəruridir.

Gəlirlərin bölgüsü hesabının göstəricilərinin statistik təhlili istehsal fəaliyyəti nəticəsində, mülkiyyətdən, habelə gəlirlərin təkrar bölgüsü prosesində gəlirlərin ötürülməsi və əldə edilməsində təsərrüfat vahidlərinin iştirakını qiymətləndirməyə imkan verir: formalaşma mənbələrinə görə ilkin gəlirlərin quruluşu, iqtisadi-statistik təhlildə müstəqil əhəmiyyətli olan sərəncamda qalan gəlirlərin formalaşması. Bu hesab gəlirlər axınını təhlil etməyə imkan verir: mənfəət, qarışıq gəlirlər, əməkhaqqı qaydasında əldə edilən gəlirlər, gəlirlərin strukturunu müəyyən etmək; mülkiyyətdən gəlirlərin xüsusi çəkisini aşkar etmək və onları özəlləşdirmə prosesi ilə əlaqələndirmək; iqtisadiyyatın sahələri və sektorları üzrə gəlir və əmlak vergisinin normasını aşkar etmək və s.

İlkin və təkrar bölgünü əhatə edən bölgü hesabının təhlili fiskal siyasətlə məşğul olan şəxslərə və orqanlara informasiya verir ki, bu da çox aktualdır. Bu hesab sektorların vergiqoyma ilə əhatə olunma dərəcəsinin, yaxud vergilərin müəyyən tipi üzrə (əlavə dəyər vergisi, gəlir vergisi və s.) təhlilini həyata keçirməyə imkan verir.

Bu hesabın statistik təhlili həmçinin transferlərin və mülkiyyətdən gəlirlərin xalis təkrar bölgüsünün səmərəsini və bütövlükdə ölkə iqtisadiyyatına təsirini göstərir. İqtisadiyyatın transformasiyası şəraitində (özəlləşdirmə prosesinin genişlənməsi mülkiyyətdən gəlirləri artırır) təhlilin bu istiqaməti xüsusi əhəmiyyət kəsb edir.

Gəlirlərin istifadə hesabı istifadə hesabı ilə kapitalla bağlı əməliyyatlar hesabını birləşdirir. Sonuncu investisiya üçün əmanətdən istifadənin nəticələrini təhlil etməyə imkan verir.

Sərəncamda qalan gəlirlərdən istifadə hesabının təhlili imkan verir ki, sərəncamda qalan gəlirdən istifadənin ayrı-ayrı istiqamətləri qiymətləndirilsin: Son milli istehlak (ev təsərrüfatlarının, dövlət idarələrinin və iqtisadiyyatın digər sektorlarının istehlakı) və ümumi milli əmanət.

Gəlirlərdən istifadə hesabı ev təsərrüfatının istehlakının həcminin nə qədərinin öz hesabına, nə qədərinin dövlət idarələrindən və qeyri-kommersiya təşkilatlarından əldə etdiyi istehlak hesabına ödədiyini göstərir. Bu, istehlakla faktiki istehlak xərcləri arasındakı fərqi aşkar etməyə imkan verir. Gəlirlərin istifadə hesabının əsas vəzifəsi ev təsərrüfatının və iqtisadiyyatın digər sektorlarının özlərinin sərəncamda qalan gəlirlə-

rini istehlakla əmanət (yığım) arasında necə böldüyünü göstərməkdən ibarətdir.

Daha dərin statistik təhlil üçün bir sıra əlavə göstəricilərin hesablanması zəruridir: hesabın əsas göstəricilərinin mütləq artımı; əsas və silsiləvi qaydada surəti və s.

Deyilənləri yekunlaşdırmaqla qeyd etmək olar ki, tv təsərrüfatları bazar iqtisadiyyatında olduqca önəmli rola malikdir və ölkədə bir çox makroiqtisadi və mikroiqtisadi səviyyəli problemlərin uğurlu həlli əsaslı şəkildə onların səmərəli inkişafının təmin edilməsindən asılıdır.

Quliyev Z.Q.,
iqtisad elmləri üzrə fəlsəfə doktoru
Bakı Biznes Universiteti

KƏND TƏSƏRRÜFATINDA LİZİNQİN İQTİSADİ MAHİYYƏTİ VƏ İSTEHSALIN TEXNİKA İLƏ TƏCHİZ OLUNMASINDA ROLU

Respublika iqtisadiyyatının, xüsusən də onun qeyri-neft sektorunun inkişafında lizinqin əhəmiyyəti əvəzedilməzdir. Kənd təsərrüfatının inkişaf etdirilməsi, daxili istehsal hesabına tələbatın ödənilməsi, ərzaq təhlükəsizliyi və s. ölkədə qarşıya qoyulan əsas məsələlərdir. Kənd təsərrüfatı müəssisələrinin istehsal fondlarının təzələnməsinə olan tələbat, kifayət dərəcədə maliyyələşdirmənin və ənənəvi investisiya formalarına çıxışın olmaması ölkəmizdə lizinq bazarının inkişafını doguran çoxsaylı amillərdəndir.

Lizinq dedikdə maşın və avadanlıqların uzunmüddətli icarəsi başa düşülür. Bu zaman istehsal məqsədilə avadanlıq və maşınlar icarəçi tərəfindən icarədara verilir. Müqavilənin bütün müddəti ərzində mülkiyyət hüququ icarəçidə qalır. Lakin lizinq icarədən prinsipial olaraq fərqlənir: lizinq verən müəyyən bir şeyi ancaq konkret istehlakçının maraqlarına uygun olaraq alır. İcarədə isə, əksinə, icarəyə verən ilkin olaraq texniki vasitələrin müəyyən çeşidini alır və sonra icarədən istifadə edəni axtarır. Məhz belə bir vəziyyət bir tərəfdən lizinq ilə, digər tərəfdən isə icarə müqaviləsi arasında bərabərlik isarəsi qoymaq imkanını istisna edir.

Mülkiyyətçi göstərilən xidmətə görə komission haqqı olaraq, ödəmə prinsipini təmin edir. Göründüyü kimi, öz məzmununa və mahiyyətinə görə lizinq kredit sövdəsinə uyğun gəlir. Digər tərəfdən, lizinq verən və lizinq alan kapitaldan pul formasında deyil, istehsal formasında olan əməliyyatlarda istifadə etdiklərinə görə, lizinq ilə birbaşa investisiya arasında oxşarlıq vardır.

Lizinq münasibətlərinin maliyyə tərəflərinə əsaslanaraq, lizinqə ənənəvi bank sudasına alternativ olan maliyyələşdirmə forması kimi də baxmaq olar. Ümumi iqtisadi mənada lizinq mahiyyətcə lizinq verən tərəfdən lizinq alana istifadəyə verilən avadanlıq şəklində kreditdir.

Lizinq əmlakdan istifadə hüququnu ona sahib olmaq hüququndan ayırır. Lizinq fəaliyyətinin subyektləri bunlardır: lizinqverən lizinqə verilən əmlaka sahiblik hüququnu özündə saxlayır; lizinqalan lizinq obyektindən istifadə hüququ əldə edir. İstifadə

hüququnu əldə etdiyinə görə lizinq alan lizinq verənlə razılaşdırılan lizinq ödəmələrini həyata keçirir.

Lizinqin inkişaf etməsində təkcə lizinq alanlar (avadanlıq istehlakçıları) deyil, həm də fəaliyyət göstərən istehsal müəssisələri də maraqlıdırlar, çünki onların istehsal etdikləri avadanlıqların bazarı genişlənir. İnvestor kimi lizinq şirkətləri üçün müştərinin mövcud ödəmə qabiliyyətinin olmamasının müdafiəsi hesabına, lizinq daha aşagı risk (adi kreditləşmə ilə müqayisədə) səviyyəsində qoyulan kapitala görə lazım olan mənfəəti təmin edir. Son ödənişə qədər şirkət lizinqə verilən avadanlıq üzərində mülkiyyət hüququnu özündə saxlayır və hesablaşmalar pozulduqda bu avadanlıgı tələb edə bilər və ya zərəri ödəmək üçün onu satmaq hüququna malikdir. Lizinqalan müflisləşdikdə isə avadanlıq məcburi qaydada lizinq şirkətinə qaytarılır.

Beləliklə, bu qənaətə gəlmək olur ki, lizinq əməliyyatlarında əmlak istehsalçısı (malgöndərən), lizinq şirkəti (lizinq verən), bank (kredit təşkilatı), müştərisi (lizinq alan) və sövdənin digər istirakçıları arasında əmlak, iqtisadi, vergi, gömrük, sıgorta və digər münasibətlər kompleksi meydana çıxır. İstənilən lizinq şirkətinin həll etdiyi ilkin məsələ - lizinqə verilən texnikanın alınması üçün sabit maliyyə mənbələrinin axtarışıdır. Buna görə də fəaliyyət göstərən lizinq şirkətlərinin böyük əksəriyyəti kommersiya banklarının iştirakı ilə yaradılmışdır.

Lizinqə verilən avadanlıqların strukturu əhəmiyyətli dərəcədə dəyişikliklərə məruz qalmışdır. Bu, müvafiq sahənin vəziyyəti və onun avadanlıqlarının (kompüterlərin və digər ofis texnikasının payının əhəmiyyətli dərəcədə azalması və telekommunikasiya avadanlıqlarının payının artması) çoxlugu ilə izah olunur. Belə ki, 2017-ci ildə maşınqayırma sahəsinin məhsulunun payına lizinq müqavilələrinin ümumi həcminin 91,5%-i (2016-cı ildə 95,5%) düşmüşdür. Bu cür kifayət qədər yüksək göstərici onu göstərir ki, investisiya resurslarının kifayət etmədiyi dövrdə lizinq əsas fondların əvəz olunmasının metodlarından biri ola bilər.

Lizinq avadanlıgı ilə istehsal olunan məhsul vasitəsilə ödəmə həyata keçirilən zaman lizinq müqavilələri əsasən kompensasiya lizinqi sxemi üzrə tərtib edilirlər. Ümumiyyətlə, lizinq şirkətləri klassik (standart) maliyyə lizinqi, əlavə vəsaitlərin cəlb olunması ilə lizinq, qaytarma lizinqi, satışa kömək göstərən lizinq kimi digər lizinq sxemləri də tərtib edirlər. Axırıncı sxemdə, avadanlıgın satışının lizinq şirkəti vasitəsi ilə həyata keçirilməsini nəzərdə tutur.

Lizinq yeni texnikanın istehsal dövrünün qısaldılmasına kömək edir və bu texnikaya olan ödəmə qabiliyyətli tələbin saxlanılması üçün əlverişli şərait yaradır. Bu müəssisələrdə elmi-texniki tərəqqinin sürətlənməsinə, lizinq əməliyyatlarından keçən bütün iştirakçıların rəqabət qabiliyyətinin möhkəmlənməsinə imkan verir.

Bundan başqa, lizinqi üçüncü şəxs üçün əmlak əldə edib, bu əmlakı ona uzunmüddətli icarəyə verən, əsas fondlara edilən qoyuluşları maliyyələşdirmənin xüsusi formasında vasitəçilik edən ixtisaslaşmış şirkət kimi də nəzərdən keçirmək olar. Beləliklə, lizinq şirkəti icarədara kredit verir. Buna görə də, lizinqə bəzən "kredi-bay" (fransızcadan tərcümədə - kredit-icarə) deyirlər. Mülkiyyət hüququnun satıcıdan

alıcıya keçdiyi alqı-satqı müqavilələrindən fərqli olaraq lizinq müqavilələrində mülkiyyət hüququna icarəçi (icarəyə verən) sahib olur. İcarədar (icarəyə götürən) isə, onun müvəqqəti sahibi olur. Lizinq müqaviləsinin müddəti bitdikdən sonra lizinq alan müqavilə obyektini razılaşdırıl-mış qiymətlə əldə edə, lizinq müqaviləsinin vaxtını uzada, ya da avadanlıgı və ya maşını sahibinə geri qaytara bilər.

İqtisadi nöqteyi nəzərdən lizinq avadanlıq alınması üçün təqdim olunan kreditlə oxşardır. Kredit vermə zamanı borc alan borcu baglamaq üçün müəyyən edilmiş tarixlərdə əsas fondlara ödənişlər daxil edir. Bununla belə ssudanın tam ödənilməsinə qədər kreditə verilən obyektin mülkiyyət hüququnu bank özündə saxlayır. Lizinq zamanı icarədar müqavilənin müddəti bitdikdən sonra icarəyə götürülmüş əmlakın qiyməti tam ödənildikdən sonra əmlakın sahibi olur. Amma bu deyilənlər yalnız maliyyə lizinqinə aiddir. Lizinqin digər bir növü olan operativ lizinq avadanlıgın klassik icarəsinə daha çox oxşayır.

Hüquqi nöqteyi nəzərdən lizinq müqaviləsi investisiya qiymətlilərinin uzunmüddətli icarəsinin xüsusi növüdür. Ümumiyyətlə, lizinqin ən geniş istifadə edilən aşagıdakı növləri vardır: Operativ lizinq (operating leases). Lizinqin bu növündə, maliyyə lizinqi ilə müqayisədə müqavilə müddəti daha qısa müddətli, lizinq ödənişləri isə daha yüksək olur. Bu lizinq növündə lizinq şirkəti avadanlıgın bütün cari və əsaslı təmir xərclərini özü çəkir və bu xərclər lizinq ödənişlərinə əlavə edilir.

Operativ lizinqdə müqavilə sonunda avadanlıgın mülkiyyəti lizinq şirkətində qalır. Buna görə də, operativ lizinqdə müqavilə müddəti adətən çox qısa olur və lizinqalan tərəfindən ödənilən lizinq ödənişləri avadanlıgın dəyərini tam əhatə etmir. Lizinq şirkətləri operativ lizinqə verdikləri avadanlıqları ya ikinci dəfə lizinqə verməklə, ya da satmaqla avadanlıgın tam qiymətini əldə edirlər. Müəssisələr tərəfindən operativ lizinq əsasən çox sürətlə inkişaf edən texnika vasitələrinin əldə edilməsində istifadə olunur. Belə ki, bəzi avadanlıqların texniki cəhətdən saz vəziyyətdə olmasına baxmayaraq, bazara yeni modellərin təqdim edilməsi ilə bu avadanlıqların mənəvi köhnəlməsi hadisəsi baş verir və nəticədə bir müəssisə üçün istehsal avadanlıqlarının hamısının yenilənməsi böyük həcmdə maliyyə vəsaitləri tələb edir. Operativ lizinqdə isə bu avadanlıqlar icarəyə götürülərək rahatlıqla belə vəziyyətlərdən çıxıs yolu əldə edilir. Operativ lizinqdə avadanlıq lizinq şirkəti tərəfindən müştərinin (lizinqalanın) əvvəlcədən razılıgı olmadan alınır və bununla baglı bütün riskləri lizinq şirkəti öz üzərinə götürür.

Maliyyə lizinqi lizinqin ən geniş yayılan formasıdır. Maliyyə lizinqində avadanlıgın uzunmüddətli icarəyə verilməsi və müqavilə müddəti sonunda bu avadanlıgın müqavilədə əvvəlcədən nəzərdə tutulmuş simvolik bir dəyərlə lizinqalana satılması nəzərdə tutulur. Bu lizinq növündə lizinq müqavilələrinin müddəti adətən avadanlıqların amortizasiya müddətləri ilə eyni olur. Maliyyə lizinqində avadanlıqları adətən müştəri (lizinqalan) seçir və lizinq şirkətinə bu avadanlıgın alınması üçün sifariş verir. Maliyyə lizinqində avadanlığın cari və əsaslı təmiri lizinqalan tərəfindən öz vəsaiti hesabına həyata keçirilir. Maliyyə lizinqi daha çox bir maliyyələşdirmə növüdür və

müştəri tərəfindən seçilən avadanlığın lizinq şirkəti tərəfindən yalnız satın alınmasından ibarətdir. Lizinq şirkəti alınacaq avadanlıq haqqında heç bir məlumata sahib deyil və hətta çox vaxt alınan avadanlıq satıcı tərəfindən birbaşa müştəriyə (lizinqalana) təqdim edildiyi üçün lizinq şirkəti avadanlıgı görmür.

Ölkədə yeni istehsal sahələrinin yaradılması, bu istehsal sahələrində yeni texnologiyanın tətbiq edilməsi, ən müasir avadanlıqlardan istifadə olunması da bilavasitə lizinq xidməti ilə baglı ola bilər. Yeni istehsal sahələrinin yaradılması işsizliyin qarşısını alar, ən müasir texnologiya isə artıq işçi qüvvəsinə qarşı durar. Eyni zamanda ölkədə istehsal olunan keyfiyyətli məhsulun dünya bazarına çıxarılması ilə Azərbacan iqtisadiyyatı irəliyə dogru daha bir addım atmış olar.

Lizinq büdcə məhdudiyyətlərini nəzərə almamaq imkanını yaradır. Vəsaitin çatışmaması üzündən lazım olan avadanlıgın alınması gecikdirildikdə, yaxud bundan imtina edildikdə lizinq əvəzolunmazdır, çünki o, lizinq ödənişlərinə az məbləglərin xərclənməsinə və eyni zamanda lazım olan avadanlıqdan istifadə edilməsinə imkan yaradır. Lizinq hətta büdcəsinin imkanları xeyli məhdud olan kənd təsərrüfatı müəssisələri üçün də mümkündür. Lizinq obyekti etibarlılıgın təminatçısı kimi çıxış edir. Avadanlıgın lizinqverənin mülkiyyətində olması lizinqalanın kredit qabiliyyətli olmasını sübut etmək, yaxud girov təklif etmək vəzifəsini istisna edir. Bu faktın mövcud olması qeyri-təkmil girov qanunvericiliyi olan ölkələrdə fəaliyyət göstərən müəssisələr üçün lizinqi xüsusi ilə əlverişli edir. Lizinqalan yalnız avadanlıqdan istifadə etdiyi müddət üçün haqqı ödəyir. Aylıq ödənişlər avadanlıqdan dərhal istifadə edilməsinə imkan yaradır. Yeni müasir avadanlıqdan istifadə edərək lizinqalan gəlir əldə edir və avadanlıqdan istifadə edilməsinə görə həmin gəlirdən haqq ödəyir. Lizinq yüz faizli maliyyələşdirmədir. Daşınma, quraşdırma, personalın təliminə çəkilən xərclər daxil olmaqla lizinq avadanlıgın dəyərinin 100%-ni maliyyələşdirə bilər. Bank kreditindən fərqli olaraq bəzi hallarda qabaqcadan ödəniş və müəyyən dəyərə aktivlərə malik olmaq tələb olunmur. Lizinq əsas vəsaitlərin təzələnməsi vasitəsidir. Lizinq mütəmadi olaraq avadanlıgın təzələnməsinə və bununla da müasir texnologiyadan istifadə edilməsinə imkan yaradır.

Bununla belə, lizinq sektorunda vergi məsələləri ilə baglı bir sıra problemlər də mövcuddur. Lizinq fəaliyyətindən vergi tutulması problemi öz təcili həllini və sistemləşdirilməsini tələb edir. Hesab edirəm ki, hazırkı vəziyyət lizinq sövdələşməsinin bahalaşmasına və bank krediti ilə müqayisədə onun qeyri-cəlbediciliyinə gətirib çıxarır.

Fikrimcə, lizinq xidməti göstərən müəssisələrin daha sürətli inkişafına nail olmaq üçün onlara müəyyən güzəştlərin verilməsi zəruridir. Belə ki, lizinqverən subyektlər bir neçə illiyə maliyyə lizinq müqavilələrinin satışından əldə edilən mənfəətdən ödənən vergidən azad edilməlidirlər. Onların vergidən azad olması dolayı yolla da olsa, kənd təsərrüfatında lizinqalan subyektlər tərəfindən istehsal olunan məhsulların, göstərilən xidmətlərin maya dəyərinin aşagı düşməsinə, öz istehsalatlarını daha da genişləndirməyə imkan verər.

Qurbanov A.A.,
iqtisad elmləri namizədi
Bakı Biznes Universiteti

AQRAR SFERADA İNNOVASIYALI SAHİBKARLIĞIN İNKİŞAFININ TƏNZİMLƏNMƏSİNİN BƏZİ MƏSƏLƏLƏRİ

Aqrar sahədə innovasiyalı sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi üzrə mövcud sistem formalaşma mərhələsində olmaqla milli iqtisadiyyatın dinamik inkişafının tələblərinə uyğunlaşmağı zəruri edir. Müasir bazar münasibətləri şəraitində innovasiyalı fəaliyyətin dövlət tənzimlənməsi metodiki təminatın, büdcə-vergi, pul-kredit, antiinflyasiya və ümumilikdə antiböhran tənzimlənməsi sisteminin yenidən nəzərdən keçirilməsini, həmçinin inivestisiya proseslərinin idarə edilməsinə və ixracyönlü sahibkarlıq fəaliyyətinin tarif və qeyri-tarif tənzimlənməsi üsullarına, keyfiyyətcə yeni münasibət tələb edir.

Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsində qeyd edilir ki, innovasiya fəaliyyəti istehsal və idarəetmə sahələrində əmək məhsuldarlığının və rəqabətqabiliyyətliliyin yüksəldilməsi, insan kapitalının inkişafında fasiləsizliyin təmin edilməsi üçün əsas hərəkətverici qüvvədir. Azərbaycanda innovasiyanın təşviqini stimullaşdıracaq fəaliyyət planları və dövlət proqramları hazırlanarkən bu fəaliyyətin əhəmiyyəti nəzərə alınacaqdır. İnnovasiya fəaliyyətini stimullaşdırmaq üçün ölkə elmi araşdırma və təkmilləşdirmələrə yüksək texnologiyalı məhsulların istehsalına görə mükafatlar və kreditlər vermək yolu ilə geniş diapazonlu bilik şəbəkəsi yaratmaq sahəsində bir çox imkanlara malikdir. Bu müddəaların ardıcıl, mərhələli və davamlı şəkildə icrasının diqqət mərkəzində saxlanılması uyğun və optimal nəticələrin əldə olunması üçün vacibdir.

İnnovasiyalı sahibkarlığın inkişafının tənzimlənməsi innovasiya siyasəti prioritetləri nəzərə almaqla həyata keçirilir. "İnnovasiya siyasəti sahəsində dövlətin əsas vəzifələrinə aşağıdakılar aid edilir;

- innovasiya fəaliyyətinin aktivləşdirilməsini stimullaşdıran normativ-hüquqi bazanın formalaşdırılması;
- innovasiya fəaliyyətinə maliyyə dəstəyinin göstərilməsi, respublikanın innovasiya potensialının qorunub saxlanması və daha da möhkəmləndirilməsi üçün şəraitin yaradılması;
- innovasiya infrastrukturunun formalaşması və onun inkişafına yönəldilən tədbirlərin görülməsi;
- innovasiya fəaliyətinə yönəldilmiş kadrların hazırlanması".

Mülkiyyət mənsubiyyətindən asılı olmayaraq bütün təsərrüfat subyektlərinin bərabər imkanlar şəraitində fəaliyyətinin tənzimlnməsi, onların mənafelərinin qorunması və təbii ki, sosial sferanın inkişafına xidmət etməlidir. Bu məqsədlə, sosial-iqtisadi proseslərin birbaşa və dolayı tənzimlənməsinin üsul və vasitələrindən istifadə olunur. Aqrar sahədə innovasyalı fəaliyyətin tənzimlənməsinin dolayı (iqtisadi) üsul və vasitələrinə, ilk növbədə vergi (vergi güzəştləri və vergidən azad olma), gömrük, pul-kredit və valyuta tənzimlənməsi, qiymət tənzimlənməsi, dövlət sifarişləri aid edilir. Qabaqcıl xarici təcrübədə bu məqsədlə, aqrar sahədə innovasiya siyasətləri ele-

mentləri, sahə iqtisadiyyatının proqnozlaşdırılması, idarəetmə və nəzarət elementlərindən fəal istifadə olunmaqdadır.

Aqrar sahədə innovasiyalı sahibkarlığın inkişafına dövlət dəstəyi dövlət yardımı ilə müqayisədə daha geniş və şaxələndirilmiş tədbirləri əhatə edir. Məsələ ondadır ki, sahədə innovasiya fəallığına dövlət dəstəyi birbaşa və ya dolayı yollarla vəsait ayırmalarını nəzərdə tutan yardımla bərabər həmçinin, qiymət, investisiya, vergi, kredit, infrastruktur proqramlarının həyata keçirilməsi, dövlət ərzaq ehtiyatının idarə olunması və s. nəzərdə tutur.

Aqrar sahəyə edilmiş və vaxtı dəfələrlə uzadılmış vergi tətilləri, çox mühüm müsbət nəticələr vermiş, o cümlədən, sahibkarlığın inkişafını sürətləndirmişdir. Bununla belə, sahədə intensivləşmənin, ilk növbədə məhsuldarlığın arzu olunan səviyyəsi əldə edilməmişdir. İntensiv texnologiyaların tətbiqi, aqrar sahibkarların məhdud maliyyə durumu ilə əlaqədar ləngimiş, yalnız son illər bu istiqamətdə əhəmiyyətli irəliləyişlər əldə olunmuşdur. Kənd təsərrüfatında və onunla birbaşa əlaqədə olan sahələrdə innovasiyalı-intensiv inkişaf kreditləşmə mühitinin əlverişliliyindən həlledici surətdə asılıdır. İnnovasiyaların təşviqi üzrə qabaqcıl xarici təcrübənin təhlili, müvafiq məsələlərə kompleks yanaşma olmadan sahəyə ucuz kreditlər verilməsinin lazımi səmərə vermədiyini söyləməyə əsas verir. Odur ki, əsasən büdcə vasitələri hesabına maliyyələşdirilən güzəştləri kredit sistemi innovasiyalı sahibkarlığın inkişafı baxımından təkmilləşdirilməli, o cümlədən girov mexanizmində kənd təsərrüfatının ehtiyacları nəzərə alınmalı, torpağın və gələcək məhsulun girov qoyulması mexanizminin formalaşdırılması, təxirə salınmadan başa çatdırılmalıdır.

Azərbaycanın sosial-iqtisadi həyatın bütün sahələrində sürətli və dayanıqlı inkişafı sayəsində innovasiyalı fəaliyyətin davamlı sitimullaşdırılması imkanları getdikcə genişlənməkdədir. Həmin imkanlar, aparılmış tədqiqatlardan və qabaqcıl təcrübənin təhlilindən göründüyü kimi, planlaşdırma, layihələndirmə, marketinq və bu kimi digər vasitələrlə aqrar sahibkarın bazarda mövqeyini möhkəmləndirməyə xidmət etməlidir. Bu məqsədlə, müvafiq institusional sistemin formalaşdırılması da mühüm əhəmiyyət kəsb edir. "İqtisadi fəaliyyətin bütün funksional sferalarında yeniliklərin yaradılması və səmərəliliyin yüksəldilməsi prosesi planlaşdırmanın, elmi tədqiqatların, layihələrin işlənib hazırlanmasının, məhsul istehsalının, marketinqin, bir sözlə, bazarda mövqeyini qoruma prosesinin ayrılma sisteminə çevrilməlidir. Ölkənin bütün təsərrüfat subyektlərinə innovasiya tədbirlərinin tətbiqi sferasının genişlənməsini və səmərililiyin yüksəldilməsini təmin edən xüsusi bölmələr, xidmətlər yaradılmalıdır. İnnovasiya sisteminə daha çox yeniliklərin yaradılması prosesinin idarə edilməsi, kollektivin yaradıcılıq potensialının daha yaxşı istifadə edilməsi daxil olunmalıdır".

İnnovasiyalı inkişaf çoxsaylı amillərin təsiri altında formalaşan, olduqca mürəkkəb və kənar təsirlərə yüksək dərəcədə həssas prosesdir. Odur ki, həmin inkişafın, xüsusilə aqrar sahənin stimullaşdırılması və özəl bölmədə iqtisadi fəallığın tənzimlənməsi mexanizminin artan mürəkkəbliyi gözlənilən dir. Haqqında danışılan mexanizmin təkmilləşdirilməsi isə daha geniş rakursda, prinsipial yeni yanaşmaların formalaşdırılması və həyata keçirilməsini tələb edir.

İnnovasiyalı aqrar sahibkarlıq fəaliyyətinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsinin prioritetlərindən biri innovasiyaların investisiyalaşdırılması proseslərinin idarə edilməsi və iqtisadi, sosial, texnoloji, ekoloji və digər motivlərin uzlaşdırılmasını

nəzərdə tutan adekvat qərarların qəbulu üçün mükəmməl mexanizmin formalaşmasıdır. Sahədə innovasiyalı sahibkarlığın inkişafının tənzimlənməsi sistemi investisiya mühitinin formalaşmasına, istehsal və resurs potensialından istifadə prosesinə bütün əsas xarakteristikaları əhatə etməlidir.

Rəqabət qabiliyyətinin yüksəldilməsində intensivləşmənin indiyə qədər məlum rolu artmaqdadır. Həmin proseslər istehsal fəaliyyətinin son məqsədinə (istehlakın xarakteristikalarına) uyğun olaraq, iqtisadi subyektlərin mövcudluğu və inkişafının əsas vasitəsi olaraq qalır.

Araşdırmalar göstərir ki, rəqabətqabiliyyətli innovasiyalı aqrar sahibkarlığın formalaşmasının "əsas şərtlərindən biri – intensiv istehsal üçün şərait yaradılmasından asılıdır və bu optimal sahələrarası münasibətlərin formalaşdırıldığı şəraitdə mümkündür. Kənd təsərrüfatı müəsisələrinin yalnız bir qismi maliyyə baxımından sabit vəziyyətdə olub istehsalın həcmini artırmaq imkanındadır. Ailə və ev təsərrüfatları kənd təsərrüfatı məhsullarının əsas istehsalçılarına və kənd əhalisinin müəyyən gəlir mənbəyinə çevirilərək əhalinin yaşama vasitəsi kimi qalmaqdadır".

Rəqabət qabiliyyəti təbii resurslardan istifadənin xarakteri ilə bilavasitə əlaqədardır. Təbii sərvətlərdən, o cümlədən, torpaqdan və sudan istifadənin səmərəliliyi, həmin sərvətlərin qiymətləndirilməsinin reallığa uyğunluğu səviyyəsindən bilavasitə asılıdır. Başqa sözlə, aqrar sahədə innovasiyalı sahibkarlığın ətraf mühitə və təbii sərvətlərə münasibətdən fəaliyyətinin iqtisadi səmərəliliyi, ekoliji tələblərlə məhdudlaşdırıldığı şəraitdə, innovasiyalar özünəməxsus xarakter almaqdadır. Beynəlxalq təcrübə göstərir ki, cəmiyyət dövlətin simasında torpaqdan istifadə zamanı yalnız onun mükiyətçisinin subyektiv istəklərinə əsasən sərəncam verilməsinə imkan verə bilməz. Həmin resurslardan məqsədyönlü istifadə baxımından ictimai mənafeə uyğun tənzimləyici, o cümlədən nəzarəti həyata keçirmək mərkəzi və yerli idarəetmə orqanlarının üzərinə düşür.

Aqrar sahədə innovasiyalı intensivləşmə proseslərinin ekoloji-iqtisadi diaqnostikası zamanı rəqabət qabiliyyəti amilinə münasibətin xarakteri və özünəməxsus cəhətlərin müvafiq tənzimləyici təsirlər kompleksində nəzərə alınması məsələləri də aktual olaraq qalır. Unutmaq olmaz ki, məhz haqqında danışılan özünəməxsusluqlar, xarici təcrübədə, iqtisadi-inzibati xarakterli təbirlərin, bəzən hətta müvafiq xarakterli kompleks proqramların işlənib hazırlanmasını şərtləndirmişdir.

Qabaqcıl xarici təcrübə göstərir ki, islahatların dərinləşdirilməsi şəraitində aqrar istehsal və emal sahələrində innovasiyalı sahibkarlığın rəqabət qabiliyyətinə təsirinin idarə olunması və investisiyalaşma prioritetlərin reallaşdırılması proseslərinin tənzimlənməsi məsələləri vahid müstəvidə həll edilməlidir. Məsələ ondadır ki, innovasiyalı sahibkarlığın səmərəlilik səviyyəsini xarakterizə eden göstəricilər, həlledici dərəcədə yeni məhsul və xidmətlərin texniki-iqtisadi parametrləri ilə şərtlənir.Sahibkar intellektual potensialın inkişafına vəsait qoyuluşunu artırmaqdan əvvəl,butun mumkun variantları araşdırır, həmin vəsaitlərin istifadə prioritetlərini yenidən nəzərdən keçirir. Bu məqsədlə iri sahibkarlıq subyektləri, hərtərəfli təhlilin və investisiya modelləşdirilməsinin nəticələrindən istifadə imkanına malikdir. Kiçik sahibkarlıq subyektləri isə, yaxşı halda müqayisəli təhlilin nəticələri ilə kifayətlənməli olurlar. Bu və digər amillərin nəticəsidir ki, aqrar sahədə innovativ xarakterli sahibkarlıq fəaliyyətinin təşviqində metodiki təminatın rolunun əhəmiyyətli dərəcədə artması müşahidə olunur.

Aqrar sahədə innovasiyalı sahibkarlığın sitimullaşdırılması prioritetləri qismində, hazırda ilk növbədə aşağıdakılar qeyd olunmalıdır:

- ekoloji təmiz kənd təsərrüfatı məhsullarının istehsalı və son istehlakçıya doğru yeridilməsi imkanlarının genişləndirilməsi;
- tullantısız aqroemal texnologiyalarının tətbiqinin, texnoloji və iqtisadi mühitinin yaxşılaşdırılması, bu istiqamətdə kompleks yanaşmaların prioritetliyinin təmin olunması;
- alternativ enerji mənbələrindən istifadənin texnoloji, iqtisadi və digər imkanlarının genişləndirilməsi, istehsalın ərazi təşkilində enerji daşıyıcılarından qənaətcil istifadəyə yönəmə fəaliyyətin bütün mümkün və məqbul vasitələrlə dəstəklənməsi;
- təbiətə uyğunlaşan əkinçilik və heyvandarlıq üzrə, tədricən formalaşan sistemin inkişafının nəzəri-metodoloji və təcrübi problemlərinin həlli, müvafiq fəaliyyət növlərinin iqtisadi məqbulluğunun təmin olunması;
- xammal bazasını formalaşdıran innovasiyalı daxili istehsalın inkişafına dəstək mexanizminin yaradılması;
- kənd təsərrüfatına yararlı torpaq sahələrinə antropgen təzyiqlərin azaldılması tədbirlərin təşviqi;
- qida rasionunun və ayrı-ayrı qida komponentlərinin insan ekologiyası meyyarları ilə idarə olunması;
- innovasiyalı sahibkarlıq mühitinin daha əhatəli və səmərəli monitorinqi sisteminin yaradılması və onun fəaliyyəti üçün əlverişli mühitin formalaşdırılması və s.

Ətraf mühitin mühafizəsi və insan sağlamlığının qorunması cəmiyyətin qarşısında duran ciddi problemlərdən biridir. Hazırda dayanıqlı inkişafın əsas şərti və bazarın tələbi ekoloji təmiz məhsul istehsalının artırılmasıdır. Bununla əlaqədar aqrar sahənin, xüsusən kənd təsərrüfatının ekoloji təmiz məhsul istehsalının əsas mənbəyi kimi əhəmiyyəti artmışdır.

Ekoloji təmiz kənd təsərrüfatı məhsullarının istehsalı təbiətə münasibətdə uyğunlaşma kontekstində, sözün həqiqi mənasında innovasiyalı fəallığın, yəni səviyyəsinin əldə olunmasını tələb edir. Bu fəallıq təkcə istehsal, emal, daşıma, saxlama və satışda deyil, eyni zamanda istehlakda da özünü göstərməlidir. Əsrlər boyunca formalaşmış istehlak mədəniyyətinin prioritetləri, ekoloji təmiz məhsullardan istifadə kontekstində yenidən qiymətləndirilməli, insan ekologiyası meyarları iqtisadi məqsədə uyğunluq meyyarları ilə bir sırada nəzərdən keçirilməlidir.

Alternativ enerji mənbələrindən istifadəni nəzərdə tutan innovasiyalı aqrar sahibkarlıq bərpa olunmayan enerji resurslarına qənaət baxımından strateji əhəmiyyətə malikdir. Tullantısız texnologiyalar konsepsiyasında enerji daşıyıcılarından istifadə məsələlərinin də əhatə olunması alternativ enerji mənbələrinə innovativ yanaşma imkanlarına proqram-məqsədli yanaşmanın metodoloji və praktiki bazasını möhkəmləndirə bilər. Təcrübədə, haqqında danışılan konseptual yanaşmalara rast gəlinsə də, hələdə arzu olunan artım və miqyas əldə edilməmişdir.

Sahədə sahibkarların innovasiyalara diqqətinin məlum səbəbləri qismində, növbədə, əmək məhsuldarlığının yüksəldilməsi, mütərəqqi texnologiyaların yüksək rentabelliyi, yeni məhsullar hesabına ümumi rəqabət qabiliyyətinin yüksəldilməsi və bazarın az mənimsənilmiş seqmentlərinə çıxış imkanının yaranması qeyd olunmalıdır. Görmək çətin deyil ki, sadalanan amillərin ayrı-ayrılıqda innovasiyalı sahibkarlıq

fəaliyyətinin motivləşdirilməsində oynadığı rolu qiymətləndirmək üçün, müasir iqtisadi-riyazi üsullardan və mütərəqqi informasiya və kommunikasiya texnologiyalarından, daha fəal surətdə istifadə edilməlidir. Müqayisəli üstünlüklərin reallaşmasını nəzərdə tutan regional ixtisaslaşma şəraitində aqrar sahədə innovasiyalı sahibkarlığın inkişafı, ilk növbədə, torpaq resursları ilə təminat səviyyəsindən, torpaq bazarının mövcud durumundan, torpağın keyfiyyətinin bərpası və yüksəldilməsi imkanlarından təbii-iqlim şəraitindən, satış yerinə (bazara), emal qrumlarına və təchizat mənbələrinə qədər olan məsafə, kooperasiya və inteqrasiya əlaqələrinin xarakteristikalarından, nəqliyyat qovşaqlarının vəziyyətindən, su hövzələrinə yaxınlığından, relyefdən və ekoloji durumdan, əmək vərdişlərindən, sahibkarlıq subyektinin maliyyə təminatından və maliyyə resurslarından istifadə rejimindən, aqrar istehsalın innovasiyalı-intensivləşmə və ixtisaslaşma səviyyəsindən və bu kimi bir sıra digər amillərdən asılıdır.

Kənd təsərrüfatı məhsullarının istehsalı və emalı ilə məşğul olan sahibkarların innovasiya fəaliyyətinin stimullaşdırılması sistemində innovasiya fondları əhəmiyyətli rola malikdir. Yerli xammaldan istifadə, daxili istehsalçıların innovasiya fəalliğının təşviqi meyyarları inkişaf etmiş ölkələrin təcrübəsindən göründüyü kimi, innovasiyalı sahibkarlığın stimullaşdırılmasında innovasiya fondlarından istifadənin yaradıcı sistemin formalaşdırılması üçün real imkanlar açır. Postsovet məkanında innovasiya fondlarının dövlət büdcəsindən maliyyələşdirilməsi təcrübəsi, hələdə üstünlük təşkil etdiyindən həmin fondların maliyyələşdirilməsi mexanizminin milli elmi-texniki siyasətin aqrar sahədə proteksionizmdən və institusional təminatdan asılılığının minimumlaşdırılması hesabına transzaksion məsrəflərin aşağı salınması istiqamətindən təkmilləşdirilməsi, zənnimizcə məqsədə uyğundur.

Vençur fondları, müxtəlif innovasiyalı fəaliyyət subyektlərində və innovasiya məhsullarının yaradılmasının müxtəlif mərhələlərində fərqli funksiyaların icrasında istifadə olunur. "İnnovasiya işləmlərinin maliyyələşdirilməsinin ən mühüm infrastruktur elementlərindən biri vençur fondlarıdır. Ancaq bütün cəlbedici cəhətlərinə baxmayaraq onlar innovasiya məhsullarının yaradılmasının tam maliyyələşdirilməsinin universal mexanizmi deyil və işləmələrin məhsulun sınaq nümunəsinin hazırlanmağa başladığı yekun mərhələlərdə istifadə olunurlar. Hal-hazırda kiçik innovasiya şirkətlərinin ilkin inkişaf mərhələsində vençur maliyyələşdirilməsindən geniş istifadə olunsa da, əkər hallarda innovasiya məhsullarının işlənməsinin başlanğıcından təşkilatların özlərinə məxsus olan vəsaitlərdən və eləcə də innovasiya fəaliyyətinin dəstəklənməsinin başqa mexanizmlərindən (məsələn, kredit) istifadə olunur".

Eyni zamanda unutmaq olmaz ki, aqrar sahədə sahibkarların innovasiya fəallığı innovasiya infrastruktur şəbəkəsinin vəziyyəti ilə qarşılıqlı əlaqədardır. Həmin şəbəkə innovativ fəaliyyət üçün əlverişli mühit yaratmaqla yüksək intensivləşməni və nəticə etibarı ilə kəskinləşən rəqabət şəraitində təsərrüfat subyektlərinin həyat qabiliyyətini təmin etməyə xidmət etməlidir. Tənzimləmə sisteminin innovasiyalı inkişafı, təşviq etməsi elmi ideyaların kommersiyalaşmasına qədərki bütün mərhələlərində həlledici təsirə malik olan amillərin xarakterizə edilməsini tələb edir.

Müasir mənbələrdə həmin amillərin kifayət qədər ətraflı şərh olunduğunu nəzərə alaraq, burada konkret olaraq, elmi-texniki nəaliyyətlərinin tətbiqi arealının fəal surətdə genişləndirilməsinə diqqət yetirək. Haqqında danışılan vəziyyət, bir qayda olaraq, innovasiya layihələrinin kompleks proqramlar çərçivəsində, icrasının kifayət qədər ciddi koordinasiyası şəraitində yaranır. Aqrar sahədə innovasiyalı fəaliyyətin

koordinasiyalı idarə edilməsi və tənzimlənməsi prioritetlərinin oxşarlığı və bir sıra hallarda eyniliyi, innovasiyalı sahibkarlığın inkişafının tənzimlənməsi sisteminin təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsi zamanı nəzərə alınmalıdır. Bu baxımdan, artıq qeyd olunduğu kimi, ilk növbədə dayanıqlı inkişafın prioritetləri qeyd olunmalıdır.

İnnovasiyalı sahibkarlığın, xüsusilə aqrar sahədə inkişafının tənzimlənməsi sisteminin səmərəliliyi:

- müasir analitik-informasiya sisteminin, investisiya layihələrin seçimi və idarə olunması sisteminin;
- risklərin qiymətləndirilməsi və onların minimumlaşdırılması mexanizminin xarakteristikalarından;
- maliyyə mənbələrinin müəyyənləşdirilməsi üzrə qərarlarının operativliyindən həll edici dərəcədə asılıdır. Sonuncu amilin innovasiyalı aqrar sahibkarlığın səmərəliliyinə artan təsiri aqrar istehsalın intensivlik səviyyəsi, sahədə innovasiya fəalliğının xarici təsirlərə artan həssaslığı, qismən risklərin qiymətləndirilməsi və neytrallaşdırılmasının mürəkkəbləşdirilməsi ilə əlaqədardır.

Aqrar sahədə innovasiyalı sahibkarlıq fəaliyətinin dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsi adekvat informasiya bazarının yaradılmasının, o cümlədən müvafiq informasiya infrastrukturunun modernləşdirilməsini, ekoloji təmiz kənd təsərrüfatının, alternativ enerji mənbələrindən istifadənin statistikasının genişləndirilməsini, sənəd dövriyyəsinin unifikasiyasını, innovasiya layihələrinin ekspertizasında standartların mütəmadi yenilənməsini tələb edir. Ümumilikdə innovasiya statistikasının təkmilləşdirilməsi prioritetləri kimi aşağıdakıların vurğulanmasını məqbul hesab edirik:

- "ölkədə və regionlarda innovasiya fəaliyyəti sahəsində baş verən mühüm proseslərin fasiləsiz statistik monitorinqinin təşkili;
- innovasiya fəaliyyətinin mühüm göstəricilərinin dinamikasının müşahidəsinin təşkili;
- statistik instrumentarinin (hesabat formaları, onların doldurulması təlimatları və s.) tərtibatı prinsiplərinin yenidən nəzərdən keçirilməsi;
- innovasiyalar statistikasının bütün digər qarışıq sahələr arasında koordinasiyası".

İnnovasiyalı aqrar sahibkarlığın dayanıqlı sosioekosistemin formalaşmasına xidmət edilməsinə, bir sıra beynəlxəlq təşkilatların materiallarında bəşəriyyətin idealarından biri kimi təqdim edilir. Müəyyən qeyd-şərtlərlə, yəni miqyas effektinin reallaşdırılması və mənafelərin uzlaşdırılması problemləri nəzərə alınmaqla bu mülahizə ilə razılaşmaq olar. Doğrudan da, təbii sərvətlərdən istifadə və onların bərpasının, iktisadi və ekoloji inkişafın müvazinətini nəzərdə tutan innovasiyalı inkişaf bəşəriyyətin davamlı inkişafının optimal trayektoriyasını şərtləndirə bilər.

Qeyd olunduğu kimi, innovasiyalı sahibkarlığın aqrar protekssionizmdən asılılığının azaldılması inkişafın dayanıqlığı baxımından xüsusi diqqətə layiqdir. Nəzərə alınır ki, sahədə məhsul təklifinin qiymətə münasibətdə elastikliyi azaldıqca, dövlətin birbaşa subsidiyaların səmərəliliyi azalır və yaxud həmin elastiklik artdıqca subsidiyaların səmərəliliyi yüksəlir. Rəqabət qabiliyyətinə bilavasitə təsir edən bu meylin qiymətləndirilməsi vacibdir.

Aqrar bazarın dayanıqlığı onun tənzimlənməsinin innovativliyi, daha dəqiq desək, kənar təsirlərə itkisiz uyğunlaşma yaradıcı münasibət sayəsində əldə olunarsa,

kənd təsərrüfatının çoxfunksiyalılığının təminatı üçün əlverişli şərait yaranır.

İstehlakın və ekoloji etikanın birgəyaşayış meyarına çevrilməsi, sözün geniş mənasında risklərin minimumlaşdırılması, aqrar fəaliyyət sisteminin özünütənzimləmə imkanlarının gerçəkləşdirilməsi, daxili istehlakçıların rəqabətdən (həmçinin, idxal rəqabətindən) qorunması, məqsədli proqramların innovativ yönümünün gücləndirilməsi, ehtiyyatlarının optimal idarə edilməsi yaxın perspektivdə innovasiyalı sahibkarlığın prioritetlərinə çevriləcəyini söyləməyə əsas verir.

Milli ərzaq təhlükəsizliyinin təminatı aqrar sahədə innovasiyalı sahibkarlığın inkişafının tənzimlənməsi sisteminin prioritetidir. Bu zaman sferanın sisteminin resurs və istehsal potensialının formalaşdırılması, əhalinin qida məhsullarına tələbatının fizioloji normalara uyğun təminatı, dövlətin ərzaq ehtiyyatlarının idarə edilməsi və bu kimi bir sıra digər hədəflər diqqət mərkəzində olmalıdır. Milli ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə qarşıya qoyulan strateji hədəflərin seçimində müxtəlif variantlar(aqrar iqtisadiyyatın beynəlxalq əmək bölgüsü sisteminə fəal qoşulması, aqrar proteksionizm siyasətinin fəallaşdırılması, qeyd olunan variantların birgə istifadəsi və s.) tətbiq oluna bilər. Əmək qabiliyyətli kənd əhalisinin öz yerlərində qalmasının həyati əhəmiyyəti və ümumən postsovet məkanı ölkələrində islahatların hazırkı səviyyəsi nəzərə alınmaqla beynəlxalq əmək bölgüsü sisteminə qoşulmanın sürətləndirilməsi və daxili aqrar istehsalın müdafiəsi üzrə çoxmeyilli yanaşma, zənnimizcə daha məqbul sayılmalıdır.

Nəhayət, onu da qeyd edək ki, şərh olunan istiqamətlərin prioritetə çevrilməsi və yaxın perspektivdə reallaşdırılması adekvat institusional təminatın formalaşması halında mümkündür.

Pənahov A.M.,
iqtisad elmləri üzrə fəlsəfə doktoru
Bakı Biznes Universiteti

İNSAN KAPİTALININ FORMALAŞMASI VƏ TƏHSİLDƏ İNNOVASİYALARIN ROLU

"Elmə qoyulan sərmayə xalqın intellektual sabahına xidmət edir".
Ümummilli lider Heydər Əliyev

Dövlətin ən qiymətli sərvəti insan kapitalıdır. Azərbaycan Respublikasının prezidenti İlham Əliyev demişdir: "İqtisadi inkişaf sürətinə görə Azərbaycan qabaqcıl ölkələr sırasındadır. Biz bu maddi dəyərləri, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik. Çünki insan savadı, biliyi onun gələcək həyatını müəyyən edir, ölkənin hərtərəfli inkişafına xidmət edir və beləliklə, ölkənin intellektual potensialı möhkəmlənir. Bu gün vaxt gəlibdir ki, biz məhz bu sahəyə sərmayələr qoyaq". İnsan inkişafının mühüm tərkib hissələrindən ən əsası təhsildir. İnsanın inkişaf indeksində əsas komponent sayılan təhsil insan kapitalının reallaşması istiqamətində mühüm rol oynayır. “Təhsil həyata hazırlıq deyil, təhsil həyatın özüdür” (Con Dyui). “İqtisadiyyat” dərsliyində iqtisadçı alimlər P.A.Samuelson və Vilyam D.Nordahusun qeyd etdiyi kimi, insan kapitalını "təhsil və ixtisaslı hazırlığa qoyulmuş kapital sayəsində işçi qüvvəsində toplanılmış texniki bilik və bacarıqlar ehtiyyatı" kimi qiymətlən-

dirmişlər. Təhsilə, ixtisaslı kadr hazırlığına və elmə kapital qoyuluşu vasitəsilə insan kapitalının gerçəkləşməsini reallaşdırmaq olar.

İqtisadiyyat üzrə Nobel mükafatı almış Çikaqo universitetinin professoru Qari Stenli Bekkerin 1964-cü ildə nəşr etdirdiyi "İnsan kapitalı" kitabına görə, işçi insan kapitalı ilə, yəni onun bilik ehtiyyatları ilə müəyyən edilir. İnsan kapitalının fiziki kapitaldan əsas fərqi onun öz daşıyıcısı olan şəxsdən ayrılmaz olmasından ibarətdir. Bu kapital, nə satıla, nə də vərəsəlik qaydasında verilə bilməz. İnsan kapitalı malik olduğu xüsusiyyətlərə görə ümumi və xüsusi olur. Lakin insan kapitalının əsas xüsusiyyəti isə elm və təhsildir. "Xüsusilə nəzərə çatdırmaq lazımdır ki, ölkənin və bütövlükdə cəmiyyətin inkişaf səviyyəsini və iqtisadi tərəqqisini dövlətin malik olduğu təbii sərvətlərindən daha çox onun təhsilinin, elminin inkişaf səviyyəsi müəyyən edir. Müasir dövrdə bu mühüm sosial-iqtisadi məsələnin həlli ön plana keçir və xüsusi aktuallıq kəsb edir. Çünki elmi-texniki tərəqqinin və elmi-texniki inqilabın nəticələri, əhalinin bilik səviyyəsi, onların texniki bilik və bacarıqlara yiyələnməsi, əhalinin həyat səviyyəsinin yüksəldilməsinin və bütövlükdə ölkənin sosial-iqtisadi inkişafının başlıca və əsas təminatçısı kimi çıxış edir. Bütün bunlar insan vasitəsilə və insan fəaliyyəti ilə reallaşdırıldığına görə insanın özünün texniki bilik və bacarıqlar ehtiyyatının formalaşmasına xüsusi diqqət yetirilməli, onun təhsil alması və ixtisas hazırlığı üçün dövlət tərəfindən, habelə bütün mənbələrdən ayrılmış vəsaitin - kapitalın, insan kapitalının həcmi və kəmiyyəti daim çoxaldılmalıdır. İqtisadi artım üçün elə bir dövr gəlib çatmışdır ki, bütün kapital, investisiya qoyuluşlarından istifadənin önündə, onlardan istifadədə insan kapitalı başlıca yer tutmalıdır " .

Müəyyən inkişaf mərhələlərindən keçən dünya iqtisadiyyatı (kənd təsərrüfatı, sənaye və postsənaye dövrü) qlobal iqtisadi mühitdə innovasiya dövrü ilə əvəz olunur. Yeni iqtisadi sistem, rəqabət üstünlüklərinin əvəzlənməsi ilə səciyyələnir, intellektual kapitalın investisiyalaşdırılmasında təzahur edir. İqtisadi və sosial xüsusiyyətə malik olan innovasiya siyasəti, əhalinin həyat tərzinə aktiv daxil olmağa başladı. Çevik mexanizmə əsaslanan firmalar bazarda tələbin formalaşması təşəbbüsünü ələ almağa imkan yaratdılar.

İnnovasiya (ingiliscə innovation) Azərbaycan dilinə yeniliklərin tətbiqi kimi tərcümə olunur. "İnnovasiya prosesləri, yeni kombinasiyalar, yeni texnikadan istifadə, yeni xammalın yaranması, yeni məhsulun mənimsənilməsi, yeni təchizat bazarlarının yaranması və istehsalın yenidən təşkili nəticəsində formalaşırlar" (İ.Şumpater). Əsası alman alimi İ.Şumpater tərəfindən qoyulan innovasiya nəzəriyyəsi sonralar Q.Menil, A.İ.Ançişkin, Y.V.Yakoves tərəfindən inkişaf etdirilmişdir. "İnnovasiya fəaliyyəti bir tərəfdən elmin, kəşfin və ixtiranın texnika və texnologiyanın səviyyəsinə daim təsir göstərməsində, digər tərəfdən isə elmi-tədqiqatlarda yeni cihaz və avadanlıqların tətbiqində təzahür edən elm və texnikanın qarşılıqlı əlaqəli ardıcıl inkişafı başa düşülməlidir" (L.İ.Abalkin).

İnnovasiyanı – yeniliyin tipinə, həyata keçirilmə mexanizminə və innovasiya proseslərinin xüsusiyyətləri istiqamətlərində üç əsas əlamətinə görə qruplaşdırmaq olar.

"Yaxşılaşdırılmış texnologiyalar mövcud, artıq məlum elmi-texniki biliklərə və qərarlara əsaslanır. Onların əsas təyinatı məlum məhsulun mövqeyinin möhkəmləndirilməsi məqsədilə onu alıcılıq xassəsi nöqteyi-nəzərindən unikal formalaşdırmaq-

dan ibarətdir. Bazara belə irəliləmə həmin məhsulun dizaynının yaxşılaşdırılması, yaxud texniki xarakteristikasının təkmilləşdirilməsi nəticəsində mümkündür. Yeniliklərin yaradılması üçün informasiya bazasının formalaşmasının əsas metodları marketinq tədqiqatları hesab edilir. Prinsipcə yeni texnologiyanın işlənməsi üçün informasiya-texnoloji mərkəzlər, biznes-inkubatorlar, texnoparklar, texnologiya ötürən və innovasiyalara dəstək verən digər mərkəzlər kimi strukturlar ilə qarşılıqlı əməkdaşlığın həyata keçirilməsi zəruridir". İnsan kapitalının formalasması, inkisafı mürəkkəb və çoxcəhətli bir proses olub, fərdin məxsusi keyfiyyətlərinin, bilik və bacarıqlarının, qabiliyyətlərinin inkisaf etdirilməsi, bu keyfiyyətlərin məcmusukimi kapitala çevrilməsi ilə baglıdır. İnsan capitalının müxtəlif formalarda inkisafı bu kapitalı formalasdıran komponentlər üzrə maliyyə vəsaitlərinin məqsədləri şəkildə yönləndirilməsindən əhəmiyyətli dərəcədə asılıdır.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası prezidentinin 2013-cü il 24 oktyabr tarixli 13 nömrəli sərəncamının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədi ilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı" təsdiq edilməsi qərarını vermişdir. Burada səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsilin inkişaf pillələrindən, insan resurslarının müasirləşdirilməsi, innovativ təlim metodları, yeni sistemlərin qurulması və inkişafı üçün inklyüziv təlim metodologiyasının yaradılması ehtiya olunur.

Təhsildə beynəlxalq təcrübə əsasında müasirləşmə, şəffaf və səmərəli idarəetmə mexanizmlərinin yaradılması təhsilin keyfiyyətinin təminatı və təhsil sistemində müasir tələblərə uyğun təhsil infrastrukturunun yaradılması ilkin istiqamət kimi müəyyənləşdirilir. Təhsil problemlərini araşdırarkən C.R.Uolş qeyd edirdi ki: "Ser Uilyam Pettinin dövründən etibarən bir çox iqtisadçılar insanı qeydə alınmış kapital kateqoriyasına daxil etmişlər. Çünki kapital kimi insanda istehsal üçün xərc tələb edir və bu xərclərin mənfəətlə qaytarılması üçün xidmət göstərir. Bu nəticə ümumi baxımdan verilir. Münasibətlər kapitalda olduğu kimi bütün insanlar üçün, təlim və təhsil üçün olan bütün xərclər isə onun dəyəri kimi müəyyən edilir".

Bu istiqamət təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyalarının əsaslı təlim metodologiyasına uyğun infrastrukturun yaradılması, təhsil müəssisələri şəbəkəsinin rasionallaşdırılması, distant təhsil və s. kimi yeniliklərin yaradılmasına şərait yaratdı.

Təhsilin maddi-texniki təminatı istiqamətində Azərbaycan Respublikasında iqtisadi cəhətdən dayanıqlı və dünyanın aparıcı təhsil sistemlərinin standartları ilə eyni səviyyəyə uyğun təhsil sistemi maliyyələşdirilir və Təhsilin İnkişafı Fondunun yaradılmasını nəzərdə tutur. Təhsil sahəsinin maliyyələşdirilməsi insan kapitalının inkişafı üçün mühüm tədbirlərin həyata keçirilməsini zəruri edir.

"İnsan inkişafı, fərdlərin ən ümdə ehtiyaclarını qarşılaya bilmələrini, sağlam bir mühitdə dünyaya gəlmələrini və böyümələrini, təhsil yoluyla özlərinin və mənsub olduqları ictimaiyyətin inkişafına dəyər qatmalarını ifadə edir. Bütün bu faktorlar həyat səviyyəsinin göstərgələri kimi qəbul edilir. Məhz insan inkişafı həyat səviyyəsinin yaxşı olmasından asılıdır".

“İnsan kapitalı nəzəriyyəsinin tərəfdarlarının fikrincə, U.Farr, L.Dublin və A.Lotkanın əsərləri insan kapitalı və ya onun komponentlərinin ölçülməsi metodları ilə məşğul olan alimlər üçün istinad nöqtəsi hesab olunur. L.Dublin və A.Lotka tərəfindən əməkhaqqının kapitallaşdırılması (saxlanma üçün həm xalis, həmçinin ümumi xərclər) metodunun təhlili aydın, lakonikdir və bu metodun ən yaxşı təfsiri hesab olunur. Eyni zamanda bu yanaşma ilə əlaqədar olaraq məlum çətinliklər meydana çıxır. Hesablama üçün lazım olan məlumatlar olduğu təqdirdə bu metod daha dəqiq nəticələr verir. Həqiqətən də, bu müəlliflər tərəfindən hazırlanmış insanın əmək qabiliyyətlərinin iqtisadi əhəmiyyətinin (və ya insan kapitalının) qiymətləndirilməsi metodları texniki cəhətdən mükəmməldir və real informasiya olduğu təqdirdə təcrübədə istifadə olunması üçün yaralıdırlar”.

Müasir dövrdə bütün sahələrdə olduğu kimi, iqtisadi inkişafın formalaşmasında da təhsilin müstəsna rolu vardır. Rəqabət qabiliyyətinin artırılması, qeyri-neft sektorunun daha sürətli inkişafı, müasir iqtisadi proseslərin ənənəvi iqtisadiyyatdan "bilik iqtisadiyyatına" keçməsi insan kapitalının inkişafını ön plana çəkir. Təsadüfi deyil ki, BMT XXI əsri "Təhsil əsri" elan etmişdir. Ölkənin İnkişaf Konsepsiyasında nəzərdə tutulan müddəaların reallaşdırılmasını təmin etmək üçün Azərbaycan Respublikası prezidentinin 24 oktyabr 2013-cü il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" təsdiq edilmişdir. Bu strategiyanın həyata keçirilməsi üçün isə prezidentin 19 yanvar 2015-ci il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı" təsdiq edilmişdir. “Bu sənəddə insan kapitalının formalaşdırılması və biliklər iqtisadiyyatına əsaslanan yeni təhsil sisteminin, mühitinin və mexanizminin yaradılması, təhsilin bütün pillələri və səviyyələri üzrə həyata keçiriləcək lazımi fəaliyyət istiqamətləri öz əksini tapmışdır. Fəaliyyət Planında təhsilə adekvat həcmdə maliyyə resurslarının cəlb edilməsi, təhsilin maliyyələşdirilməsi xərclərinin ümumi daxili məhsula nisbətinin mərhələlərlə 5-6 faizə çatdırılması, müxtəlif mənbəli maliyyələşdirmə mexanizmlərinin yaradılması nəzərdə tutulur”.

Azərbaycanda ali təhsil standartlarının təkmilləşdirilməsi istiqamətində xüsusilə xaricdə təhsil məsələlərinə diqqət artırılmışdır. Bu baxımdan gənclərin dünyanın ali təhsil müəssisələrində təhsillərini davam etdirmələri məqsədilə dövlət proqramının qəbul edilməsi mühüm əhəmiyyət daşıyır. Azərbaycan prezidentinin 2007-ci il 16 aprel tarixli sərəncamı ilə təsdiq edilmiş "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın əsas hədəfi 2015-ci ilin sonunadək 5000 nəfər gəncin xaricdə təhsilini maliyyələşdirməkdən ibarətdir.

Beləliklə, nəticə olaraq qeyd etmək olar ki, inkişaf etmiş ölkələrin təcrübəsindən aydın olur ki, təhsildə idarəetmənin ictimailəşməsi prosesi sürətlənməkdədir. Son illər aparılan sosial-iqtisadi siyasət, gerçəkləşdirilən islahatlar və genişmiqyaslı infrastruktur layihələri sosial-iqtisadi həyatın yenidən qurulması və davamlı inkişafı nəticəsində ölkədə yüksək inkişafa nail olunmuşdur. Təhsil sisteminin institusional əsasları infrastrukturun və insan resurslarının inkişaf etdirilməsi, rifahın yaxşılaşması, həmçinin hər bir fərdin həyatının daha yüksək səviyyədə qurulması üçün zəmin yaradır.

Nəcəfova V.Q.,
iqtisad elmləri üzrə fəlsəfə doktoru
Bakı Biznes Universiteti

VERGİ İNZIBATÇILIĞININ STRATEJİ İSTİQAMƏTLƏRİ

Son illər ərzində Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafında əldə edilmiş uğurların təmin olunmasında həyata keçirilən vergi siyasəti də əhəmiyyətli rol oynamışdır. Ölkə iqtisadiyyatının inkişaf istiqamətlərinə uyğun olaraq vergi sisteminin təkmilləşdirilməsi, vergi ödəyicilərinə göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsində, vergi qanunvericiliyi və vergi inzibatçılığının müasir tələblərə uyğun qurulmasında əsaslı nailiyyətlər əldə edilmişdir.

Vergi siyasəti də daxil olmaqla, iqtisadi siyasət sahəsində kompleks tədbirlərin həyata keçirilməsi Azərbaycan Respublikası prezidentinin 2012-ci il 29 dekabr tarixli 800 saylı fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında əks olunmuşdur.

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında bilavasitə və dolayısı ilə Vergilər Nazirliyinə aid tədbirlərin, o cümlədən aktiv vergi siyasətinə keçidin təmin edilməsi, vergi dərəcələrinin optimallaşdırılması və digər tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Bu məqsədlə növbəti illərdə "Vergi sisteminin inkişafı üzrə 2013-2020-ci illər üçün Strateji Plan" həyata keçirilir.

Vergi sisteminin əsas idarəetmə sistemi vergi inzibatçılığıdır. Vergi inzibatçılığının əsas məzmununu vergi sahəsinin idarə olunmasında səlahiyyətli dövlət orqanı olan Azərbaycan Respublikasının Vergilər Nazirliyinin fəaliyyəti təşkil edir.

Vergi inzibaçılığı səlahiyyətli idarəetmə orqanlarının fəaliyyəti kimi təkcə mövcud olan vergi qanunvericiliyi normalarının icrasını deyil, həm də informasiyaların yığılması və emalını, o cümlədən vergi yoxlamaları prosedurlarının yerinə yetirilməsi praktikası üzrə, vergilərin hesablanması mexaniziminin təkmilləşdirilməsi üzrə tədbirlərin işlənib hazırılanaraq həyata keşirilməsini əhatə edir.

Vergi inzibaçılığı vergi sisteminin qurulmasının elə bir prinsipinin reallaşmasına əsaslanmalıdır ki, bu zaman vergilərin tutulması və vergi nəzarəti üzrə xərclər minimum olmaqla büdcəyə vergi daxilolmalarının təmin olunma səviyyəsi maksimum olsun. Bu da effektivlik prinsipinə uyğun gəlir. Vergi inzibatçılığının səmərəlilik göstəricilərindən biri də vergilərin yığılması və vergi qanunvericiliyinin gözlənilməsinə nəzarət üzrə inzibatı məsrəfləri minimuma endirməkdən ibarətdir.

Vergi inzibatçılığının keyfiyyətinin yüksəldilməsinin vacib şərtləri kimi aşağıdakılar çıxış edir: vergi orqanlarının təşkilati stukturunun təkmilləşdirilməsi; onların maddi-texniki bazasının möhkəmləndirilməsi; vergi nəzarəti prosesində yeni texnologiyadan istifadə; vergi orqanları ilə vergi ödəyiciləri arasında qarşılıqlı münasibətlər konsepsiyasının dəyişməsi; analitik işlərin informasiya-texnoloji yeni prinsipial səviyyəyə qaldırılması, kadrların ixtisasının artırılması.

Vergi inzibatçılığının formalaşmasında dövlətin vergi siyasəti ilə yanaşı, sosial-iqtisadi amillər də obyektiv amil kimi çıxış edir.

Ölkəmizin sosial-iqtisadi inkişafının müasir mərhələsində aşağıdakı istiqamətlər aktualdır:

- Azərbaycanın sosial dövlət kimi inkişaf etməsi;
- İnnovasiyalı iqtisadiyyatın qurulması;
- UDM-nin artım tenpinin yüksək olması;
- Əhalinin həyat səviyyəsinin yüksəldilməsi.

Vergi inzibatçılığının strateji istiqamətlərinə nail olmaq üçün aşağıdakı missiyaların həyata keçirilməsi vacib məsələlərdəndir.

- Azərbaycanın iqtisadi inkişaf hədəflərinə nail olmaq üçün mütərəqqi, mükəmməl və beynəlxalq standartlara cavab verən vergi sisteminin formalaşması;
- Qeyri-neft sektorunun inkişafının stimullaşdırılması, vergi daxilolmalarının artırılması, innovasiya yönümlü iqtisadiyyatın inkişafını təmin edən və qeyri-neft sektorunun ixrac potensialını gücləndirən vergi siyasətinin formalaşdırılması;
- Vergi ödəyiciləri ilə vergi orqanları arasında partnyorluq prinsiplərinə əsaslanan keyfiyyətcə yeni əməkdaşlıq prinsiplərinin yaradılması;
- Əhalinin vergi mədəniyyətinin yüksəldilməsi, vergiödəmə vərdişlərinin cəmiyyətin normasına çevrilməsinə nail olunması.

Qeyd olunanları nəzərə alaraq vergi inzibatçılığının təkmilləşdirilməsində İKT-nin istifadə imkanlarının genişləndirilməsi tədbirləri nəticəsində aşağıdakılara nail olunacaqdır:

- vergi inzibatçılığını sadələşdirmək və təkmilləşdirməklə inzibatçılıq xərcləri əhəmiyyətli şəkildə azaldılacaq;
- vergidən yayınma hallarının qarşısının alınması məqsədilə strategiya və tədbirlər təkmilləşdiriləcək, bu sahədə vergi inzibatçılığı az riskli vahid sistem kimi formalaşdırılacaq;
- vergi siyasətinin səmərəliliyi daha da yüksələcək və vergilərin könüllü ödənilməsi səviyyəsi artırılacaq;
- vergi orqanlarında işçilərin fəaliyyətinin səmərəliliyi artırılacaq və müasir idarə etmə prinsipləri tətbiq olunacaq;
- vergi ödəyicilərinə göstərilən xidmətlər daha da yaxşılaşdırılacaq və məlumat əldə etmə imkanları genişləndiriləcək;
- vergi orqanlarının fəaliyyətində şəffaflıq səviyyəsinin artırılması məqsədilə daxili nəzarət mexanizmi təkmilləşdiriləcək;
- işçilərin və idarələrin fəaliyyətinin qiymətləndirilməsi avtomatlaşdırılacaq və qiymətləndirmənin obyektivlik dərəcəsi yüksəldiləcək;
- beynəlxalq vergi münasibətləri daha da inkişaf edəcək və vergi sisteminin Avropa İttifaqının vergi sisteminə inteqrasiyası sürətlənəcəkdir.

Azərbaycan vergi sistemi sosial-iqtisadi inkişafın təmin edilməsində və sahibkarlığın inkişafının sürətləndirilməsində, büdcə gəlirlərinin formalaşmasında əsas mənbə kimi tanınacaqdır. Azərbaycan Respublikasının Vergilər Nazirliyi çevik və onun qarşısında qoyulan problemləri operativ şəkildə həll etmək imkanlarına malik olan mərkəzi icra hakimiyyəti orqanı kimi fəaliyyətinin daha da gücləndirəcəkdir. İnformasiya texnologiyalarının tətbiqinin genişləndirilməsi, elektron xidmətlərin kefiyyəcə yeni prinsiplər əsasında qurulması Vergilər Naziriliyinin bu sahədə tutduğu mövqeyi əhəmiyyətli dərəcədə gücləndirəcək və onun nüfuzunu artıracaqdır.

Məmmədova V. S., dissertant
Əmək və Əhalinin Sosial Problemləri üzrə
Elmi-Tədqiqat və Tədris mərkəzi

QEYRİ-NEFT SEKTORUNUN ÖLKƏNİN XARİCİ İQTİSADİ ƏMƏKDAŞLIĞA GÖSTƏRDİYİ TƏSİR

Azərbaycanın təsərrüfat-iqtisadi fəaliyyətinin struktur və sahə müxtəlifliyinin labüdlüyü hər zaman inkişafın baza strategiyası qismində çıxış edirdi. Müasir mərhələdə Azərbaycan qlobal elmtutumlu iqtisadiyyatın fəal iştirakçısına, eləcə də yeni informasiya cəmiyyətinin fəal subyektinə çevrilməlidir. Bu isə o deməkdir ki, yüksək və dayanıqlı inkişaf templərinin təmin edilməsi və Qərbin aparıcı ölkələri ilə mövcud geriləmələrin azaldılması məqsədilə sovet iqtisadiyyatından miras qalmış sahələrin sadəcə olaraq modernləşdirilməsi deyil, həm də diversifikasiyanın üfüqi (öz keyfiyyət göstəricilərinə görə xarici bazarlarda aparıcı brendlərlə rəqabət aparmaq iqtidarında olan ənənəvi məhsulun mümükn qədər maksimal çeşidinin ixrac məqsədilə istehsalının təşkili) və şaquli (innovasiya texnologiyalarından geniş istifadə edən yeni istehsal sahələrinin yaradılması) strategiyasının həyata keçirilməsi son dərəcə vacibdir.

Yeni diversifikasiya edilmiş iqtisadiyyatın təsiri sadəcə olaraq rəqabət qabiliyyətinin yüksəldilməsində ifadə olunmur. İnsan kapitalının keyfiyyətində tədrici dəyişikliklər baş verir, biliklərin əhəmiyyəti artır. Bu isə, öz növbəsində, vətəndaşların tələbatlarına və gözləntilərinə cavab verən dövlət idarəçiliyinin effektivliyində birbaşa öz əksini tapmış olur.

Son zamanlara qədər xarici investisiyalar əsasən neft sektoruna cəlb olunurdu. Xarici investisiyaların köməyi ilə neft sənayesinin maddi bazası yaxşılaşdırılmış, mobil telefon rabitəsi tətbiq edilmiş, tikinti materialları sənayesi bərpa olunmuşdur. Qeyr-neft sektorunda isə xarici investisiyalar istehsalat və sosial infrastrukturunun, şəhər təsərrüfatının inkişaf etdirilməsinə daha fəal cəlb edilirdi.

Tikintiyə iri investisiyaların yatırılması həyata keçirilmişdir. Hal-hazırda Azərbaycana investisiyaların yatırılması nöqteyi-nəzərdən strateji prioritetlər kimi artan kənd təsərrüfatı məhsulunun həcminin emalına, yüksək effektivli infrastrukturun yaradılmasına, o cümlədən, energetika sahəsinə, telekommunikasiya xidmətlərinə, su və qaz təchizatı sistemlərinə, habelə sənaye sahələrinin genişləndirilməsinə və yenilənməsinə investisiyaların yatırılması hesab olunur.

Azərbaycanda investisiya yatırımların tənzimlənməsi qüvvədə olan qanunverici aktlara müvafiq olaraq həyata keçirilir. Məhz bu səbəbdən investisiya fəaliyyəti çərçivəsində dövlətin oynadığı rol və tutduğu mövqe olduqca böyük əhəmiyyətə malikdir. Azərbaycanın regionlarının 2013-2018-ci illər üzrə sosial-iqtisadi inkişafına yönəlmiş yuxarıda qeyd olunmuş dövlət proqramının qəbul edilməsi ilə əlaqədar olaraq ölkəmizin regionlarına xarici investisiyaların cəlb edilməsinin tənzimlənməsi istiqamətində uzunmüddətli proqram işlənib hazırlanmalıdır.

Dövlət başçısı tərəfindən təsdiq olunmuş 2010-2012-ci illərdə Azərbaycan Respublikasında rabitənin və informasiya texnologiyalarının inkişafı üzrə Dövlət Proqramına uyğun olaraq, informasiya-kommunikasiya texnologiyaları sahəsinin başlıca vəzifəsi İKT sferasında milli strategiya vəzifələrinin yerinə yetirilməsindən, infor-

masiya cəmiyyətinə keçidin təmin olunmasından, eləcə də biliklərə əsaslanan rəqabətqabiliyyətli iqtisadiyyatın informasiya-kommunikasiya texnologiyaların tətbiq edilməsi yolu ilə qurulmasından ibarətdir.

Nəzərə alsaq ki, qeyri-neft məhsullarının ixracına Azərbaycan hökuməti olduqca böyük əhəmiyyət verir, milli iqtisadiyyatımızın qeyri-neft sektorunun daha perspektivli sferası qismində turizm göstərilə bilər.

Ölkəmizin Qərb və Şərq arasında əlverişli coğrafi mövqeyi, çoxsaylı mədəniyyətlərin, ənənələrin birləşməsi, dünyada mövcud olan 11 iqlim zonasından 9-nun Azərbaycanda olması, həmçinin zəngin flora və fauna, mədəni və tarixi irs, eləcə də bir çox digər amillər turizm sferasının nəhəng potensiala malik olduğunu göstərir.Lakin Azərbaycanda turizm resurslarının əlçatan və kifayət qədər komfortlu olduğu ərazilərin yalnız 1/10 hissəsindən istifadə olunur.Bu gün respublika əhalisinin yalnız 2,1% turizm xidmətlərindən istifadə etmək imkanına malikdir.Mədəniyyət və Turizm Nazirliyinin yaradılmasından sonra ölkədə turizmin inkşafına daha çox diqqət yetirilməyə başlandı.Bu istqamətdə 2002-2005-ci illər üzrə Dövlət Proqramı təsdiq edilmişdir ki, həmin proqramın icra edilməsi nəticəsində ölkədə turizm infrastrukturu əhəmiyyətli dərəcədə yaxşılaşmışdır. Proqramın həyata keçirilməsi Azərbaycanda turizm sahəsinin inkişafının təməlini qoymuşdur. Hazırda 2008-2016-cı illər üzrə turizmin inkişafı Dövlət Proqramının icrası həyata keçirilir ki, bu da ölkədə turizmin inkişafına yeni təkan verə bilər. Bundan əlavə, Azərbaycan Respublikası Prezidenti tərəfindən imzalanmış fərmanın tələblərinə uyğun olaraq, "Turizm və istirahət zonaları üzrə nümunəvi nizamnamə" artıq işlənib hazırlanmışdır.

Mədəniyyət və Turizm Nazirliyinin məlumatlarına əsasən, ölkədə hal-hazırda turizm şirkəti, mehmanxana və mehmanxana tipli obyektlər fəaliyyət göstərir. Azərbaycan müxtəlif beynəlxalq səviyyəli turizm sərgilərində sabit olaraq iştirak edir, Avropanın televiziya kanallarında Azərbaycanın turizm imkanları haqqında bəhs edən reklamlar yayımlanır və sair.Lakin iqtisadiyyatın sözügedən bu sektounda bir sıra problemlər mövcuddur: geri qalan infrastruktur (o cümlədən həm də nəqliyyat infrastrukturu) və peşəkar kadrların olmaması bahalı olmayan (iki və üçulduzlu) mehmanxana və motellərin qıtlığı, turizmə həsr olunmuş reklam çarxlarının olmaması, sosial iaşə müəssisələri şəbəkəsinin və həmin müəssisələrdə xidmətin aşağı səviyyədə olmas; turizm xidmətlərinin Azərbaycan istehsalçılarının potensialları haqqında məlumatın olmaması yaxud tam və dolğun şəkildə olmaması səbəbindən xarici bazarlarda yerli turizm məhsullarının irəli çəkilməsi problemləri son dərəcə aktual olaraq qalmaqda davam edir; sosial turizm sisteminin olmaması; daxili turizmin bütün maarifləndirici və sağlamlıq xidmətlərinin xüsusi çəkisinin həmin xidmətlərin ümumi strukturunda aşağı olması, daxili turizm bazarında təyin edilmiş qiymətlərin yüksək səviyyədə olması; böyük turizm firmalarının olmaması, çünki praktiki baxımından bütün turfirmalar kiçik müəssisələr kimi qeydiyyata alınıb; hazırki vaxta qədər Ümumdünya Turizm Təşkilatının sorğuları nöqteyi-nəzərdən milli turizm statistikası sistemi təshih edilməyib, turizm intensivliyi və mobilliyi kimi statistik göstəricilər mövcud deyil.

Mədəniyyət və Turizm Nazirliyinin məlumatlarına görə, 2012-ci ildə turizm sferasında Azərbaycanın fəaliyyəti iki əsas istiqamət üzrə həyata keçirilir: turizm xidmətlərinin beynəlxalq standartlara müvafiq qaydaya gətirilməsi və ölkənin mədəniyyət mərkəzlərinin fəaliyyəti. Bu standartlar aşağıdakı peşələrlə bağlıdır: otel (mehman-

xana) meneceri, konsyerj (qapıçı), təmizliyin təmin edilməsi üzrə menecer, təsərrüfat məsələləri üzrə menecer, barmen, bələdçi, istehlakçılara xidmət göstərilməsi və təsərrüfat məsələləri üzrə mütəxəssis, veb-usta, restoran rəhbəri, mədəniyyət və idman zallarının rəhbəri, attraksionun rəhbəri. Qeyd edək ki, bu iş Dünya Bankı ilə birgə həyata keçirilən "ISCO88/08 ilə uyğun olaraq təkmilləşdirilmiş peşəkar təhsil standartlarının hazırlanması" layihəsi çərçivəsində aparılır. 2012-ci ilin əsas hadisələri möhtəşəm Azərbaycan Xalça Muzeyinin açılışı və "Şahdağ" yay-qış mərkəzinin istismara verilməsi olacaqdır.

Müəllifin qənaətinə görə, həmin sahənin iştirakçıları yerli və beynəlxalq sərgilərdə müntəzəm surətdə iştirak etməli, ölkədə turizm sferasının inkişaf etdirilməsi və onu beynəlxalq standartlara müvafiq səviyyəyə gətirilməsi ilə bağlı təkliflər işləyib hazırlamalıdır.

Beləliklə, turizm sektorunun milli iqtisadiyyatın aparıcı sahələrdən birinə çevrilməsi üçün servis və işçi heyətinin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, öz işini turizm sferasında həyata keçirən şirkətlərin fəaliyyətinin təkmilləşdirilməsi üzrə tədbirlər kompleksini qəbul etmək lazımdır.

Bağırlı D.V.,
texnika elmləri üzrə fəlsəfə doktoru
İbrahimov R.A.,
texnika elmləri üzrə fəlsəfə doktoru
Azərbaycan Dövlət Aqrar Universiteti

İQTİSADİ MƏSƏLƏLƏRDƏ FUNKSİYA ANLAYIŞININ BƏZİ TƏDBIQLƏRİ

İqtisadi nəzəriyyədə və təcrubədə funksiya anlayışından geniş istifadə olunur.

İqtisadiyyatda funksiyalardan istifadə edilməsi spektri çox genişdir, yəni tədqiq edilən obyektlər arasındakı münasibətləri araşdırarkən sadə xətti funksiyadan tutmuş müəyyən alqoritmlərin köməyi ilə alınan rekurent funksiyalar öyrənilir.

İqdisadiyyatda aşağıdakı funksiyalara tez-tez rast gəlinir:

1. Səmərəlilik funksiyası (üstün tutulmuş) - geniş mənada nəticələrin əlverişliyini, intensivliyini göstərən əməliyyatlar nəzərdə tutulur;

2. İstehsalat funksiyası – istehsalat yaradıcılılığının xidmət faktorlarından asılılıq nəticələri;

3. Buraxılış funksiyası (istehsalat funksiyasının xüsusi halı) – istehsal həcminin mövcud və tələb olunan xammal ehtiyatlarından asılılığı.

4. Məsarif funksiyası (istehsalat funksiyasının xüsusi halı) – məsarifin istehsal olunan məhsulun həcmindən asılılığı;

5. Sifariş funksiyası (tələb olunan) – tələbin, sifarişin və təklif olunan ayrı-ayrı əmtəələrin müxtəlif xidməti faktorlardan asılılığı (məsələn qiymət, gəlir və s).

İqdisadi proseslərə və təzahür formalarına müxtəlif faktorlar təsir etdiyindən onların tədqiqi üçün çoxdəyişənli funksiyalardan geniş istifadə olunur. Bu funksiyalar arasında multiplikativ funksiya xüsusi yer tutur. Belə funksiyalar dəyişən istehsal

faktorlarının hec olmazsa biri iştirak etməzsə o sıfra çevrilir. Həmçinin separabel funksiyalardan da istifadə olunur.

Belə ki, bu funksiyalar asılı dəyişənlərə təsir edən müxtəlif faktorların seçilməsində, o cümlədən, additiv funksiyalarda, yəni asılı dəyişənlərin həm yekun, lakin bir neçə faktorun ayrı-ayrılıqda, həm də eyni vaxtda təsirini müəyyən etməyə imkan verir.

Əgər iqtisadi məsələdə köməkci faktorların təsirini qeyd etsək, onda əsas faktorun təsirini ayırmaqla birdəyişənli funksiyaya gətirə bilərik.

İndi isə iqtisadi məsələlərdə tez - tez rast gəlinən bəzi funksiyaları nəzərdən keçirək.

1. Sifariş (tələb) olunan müxtəlif əmtəə malları ilə onların satış gəlirləri arasındakı asılılığı dəqiqləşdirərkən

$$y = \frac{b_1(x-a_1)}{x-c_1} \quad (x > a_1), \quad y = \frac{b_2(x-a_2)}{x-c_2} \quad (x > a_2), \quad y = \frac{b_3(x-a_3)}{x-c_3} \quad (x > a_3)$$

kimi

L. Tornkvist funksiyalarını tədqiq etdikdə müəyyən etmək olar ki, bu və ya digər malların a_1, a_2, a_3 satış gəlirlərinin səviyyəsi b_1, b_2 birinci və ikinci qrup zəruri tələbat mallarının səviyyələrindən (nöqtələrindən) başlayaraq qərarlaşır. (şəkil 1).

2. Eyni bir koordinat sistemində tələb $q(p)$ və təklif $s(p)$ əyrilərini qursaq verilmiş əmtəənin konkret bazar şəraitində qərarlaşmış (bazar) qiymətini müəyyən edə bilərik (hörümcək toru şəbəkəsi modeli) (şəkil 2).

Şəkil 1



Şəkil 2



Şəkil 3

3. Tələb olunan istehlak malları istehsalı (iki səmərəli x və y nemətləri xətləri boyunca) üçün istifadə olunan əyrilər ailəsini nəzəri olaraq öyrənməklə, məsələn $xy = u$ şəklində verilən P_x və P_y qiymətlərində, məhdud $I = P_x x + P_y y$ büdcə xəttindən istifadə etməklə u_0 maksimum səmərəyə malik x_0 və y_0 nemətlərinin optimal sayını müəyyən edə bilərik (şəkil 3).

4. Firmanın $c(q)$ məsarif funksiyasını (tam məxaric) və $r(q)$ gəlirini nəzərdən keçirsək $g(q) = c(q) - r(q)$ mənfəətin q istehsal həcmindən asılılığını müəyyən edə bilərik. Belə ki, istehsal həcminin səviyyəsi $(0 < q < q_2)$ olduqda firma zərərlə, $(q_2 < q < q_4)$ olduqda isə gəlirlə və $q = q_1$ olduqda maksimum zərər, $q = q_3$ olduqda isə maksimum gəlir olduğunu bilərək firmanın zərər və ya gəlir həcmi tapılır (şəkil 4).



Şəkil 4

İqtisadiyyatda istifadə olunan daha bir vacib və müxtəlif məsələlərdə çox böyük hesablama işlərini sadələşdirən cədvəl şəklində verilmiş funksiyalarada baxılır.



Şəkil 5

Cədvəllərin köməyi ilə hesablamalar aparıldıqda, bir çox hallarda, funksiya arqumentinin qiyməti böyük dəqiqliklə verildikdə funksiyanın təqribi qiymətini tapmaq üçün interpoliə üsulundan istifadə etmək zəruriyyəti meydana çıxır.

Funksiya artımı arqument artımı ilə mütənasib olduqda daha sadə şəkildə olan xətti interpoliə üsulundan istifadə edirlər. Əgər x arqumentinin qiyməti cədvəldə verilən x_0 və $x_1 = x_0 + h$ qiymətləri arasında olmaqla uyğun funksiya qiymətləri $y_0 = f(x_0)$ və $y_1 = f(x_1) = f(x_0) + \Delta f$ olarsa, onda (şəkil 5).

$$f(x) \approx f(x_0) + \frac{x-x_0}{h}\Delta f \qquad (h = x_1 - x_0) \qquad (1)$$

kimi qəbul edilir.

$\frac{x-x_0}{h}\Delta f$ - kəmiyyəyinə interpoliə (latın-polis-düzləndirmək, yeniləmək, təzələmək) düzəlişi deyilir. Bu kəmiyyətləri cədvəllərin köməyi ilə və ya tamamlayıcı cədvəllərə gətirməklə hesablayırlar.

Əgər funksiyanın verilmiş qiymətinə görə təqribi olaraq arqumentin qiymətini tapmaq zəruriyyəti ortaya çıxarsa, onda tərs interpoliə üsulundan istifadə edilməsi lazım gəlir. [2]

Tutaq ki, $y = f(x)$ funksiyası

x	2	2,04	2,08
y	2,42	2,88	3,38

cədvəl şəklində verilmişdir.

a) Xətti interpolyasiya etmək üsulundan istifadə edərək, $f(2{,}008)$-i,

b) $f(x) = 3{,}1$ olduqda x-in tapılması məsələsinə baxaq.

▷ a) $x_0 = 2, \quad f(x_0) = 2{,}42, \quad x_1 = 2{,}04;$

$f(x_1) = 2{,}88$ olduğundan $h = x_1 - x_0 = 2{,}04 - 2{,}0 = 0{,}04,$

$\Delta f = f(x_1) - f(x_0) = 2{,}88 - 2{,}42 = 0{,}46$ olar.

Onda (1) düsturuna görə

$y = f(2{,}008) \approx 2{,}42 + \frac{2{,}008-2{,}0}{0{,}04} \cdot 0{,}46 = 2{,}512$ alınar.

b) Tərs interpolyasiyanı (1) düsturunda x və y dəyişənlərinin yerini dəyişməklə aparmaq olar:

$$\varphi(y) = \varphi(y_0) + \frac{y-y_0}{h} \cdot \Delta\varphi \qquad (2)$$

burada $x = \varphi(y)$ tərs funksiyasının naməlum qiymətidir.

$y_0 = 2{,}88, \varphi(y_0) = 2{,}04, y_1 = 3{,}38, \varphi(y_1) = 2{,}08$

olduğundan $h = y_1 - y_0 = 3{,}38 - 2{,}88 = 0{,}50$

$\Delta\varphi = \varphi(y_1) - \varphi(y_0) = 2{,}08 - 2{,}04 = 0{,}04$ olar.

Onda (2) interpolyasiya düsturuna görə:

$$x = \varphi(3{,}1) \approx 2{,}04 + \frac{3{,}1 - 2{,}88}{0{,}5} \cdot 0{,}04 = 2{,}0576 \approx 2{,}058$$

alınar.

Bəzi hallarda xətti interpoliə üsulundan istifadə etməklə naməlum qiymətlərin tapılması dəqiqliyi kifayət olmadıqda digər interpoliə üsullarından, məsələn kvadratik interpoliə etmək üsulundan istifadə edilir.

Əliyev R.M.,
iqtisad elmləri üzrə fəlsəfə doktoru
Bakı Biznes Universiteti

AZƏRBAYCAN RESPUBLİKASINDA MALİYYƏ DAYANIQLIĞININ TƏMİN OLUNMASINDA SƏNAYE MÜƏSSİSƏLƏRİNİN ROLU

Müasir iqtisadi şəraitdə hər bir dövlətin prioritet məsələsi dayanıqlığın təmin olunmasıdır. Bu zaman çoxsaylı siyasi funksiyalarla yanaşı, iqtisadi funksiyalar da yerinə yetirilməlidir. Bunların səmərəli surətdə həyata keçirilməsi üçün dəqiq, elmi cəhətdən əsaslandırılmış iqtisadi siyasət, strategiya və taktika hazırlanmalıdır. Bu vaxt, hər şeydən əvvəl, müəyyən zaman və məkan daxilində spesifik xüsusiyyətlər nəzərə alınmalı, iqtisadiyyatla siyasətin qarşılıqlı əlaqəsi təmin edilməli, atılan hər bir addımın daxili xüsusiyyətlərlə əlaqələndirilməsi elmi cəhətdən əsaslandırılmalıdır.

Yuxarıda qeyd edilənlərə əsasən söyləmək olar ki, əmtəə-pul münasibətlərinin fəaliyyət göstərdiyi heç bir ölkənin iqtisadiyyatı maliyyə mexanizmi olmadan keçinə bilməz. Deməli, iqtisadi siyasət birbaşa və dolayı yolla maliyyə siyasətini özündə əks etdirir. Məhz bu baxımda da tam əminliklə söyləmək olar ki, maliyyə siyasəti iqtisadi siyasətin tərkib hissəsidir.

İqtisadi ədəbiyyatlara əsasən söyləmək olar ki, bazar iqtisadiyyatı hər şeydən əvvəl maliyyə-kredit mexanizmi əsasında qurulur. Dövlət iqtisadiyyatı əsas etibarilə maliyyə vasitəsilə tənzimlənir. İnkişaf etmiş ölkələrin təcrübəsində də maliyyə siyasəti dövlətin maliyyə resurslarının toplanması, yenidən bölüşdürülməsi və istifadəsi ilə əlaqədar həyata keçirdiyi tədbirlərin məcmusudur. Maliyyə siyasəti ictimai fəaliyyətin bütün tərəflərini əhatə edir. Yəni, o həm iqtisadi, həm sosial, həm də beynəlxalq münasibətləri əhatə edir. Bu baxımdan da maliyyə dayanıqlığının təmin olunmasında, göstəricilər sisteminin tərtib olunması hazırlanması vacib iqtisadi kateqoriyadır. Ölkə iqtisadiyyatının güclü və zəif tərəflərinin qiymətləndirilməsində maliyyə dayanıqlığı katalizator rolunda çıxış edə bilər.

Dünya təcrübəsində 1930-cu illərdən başlayaraq maliyyə dayanıqlığı göstəricilərinə ehtiyac görüldü. Bunun da əsas səbəbi qlobal dünyada maliyyə böhranlarının mövcudluğu oldu. Tədbirlər silsiləsi kimi inkişaf etmiş ölkələr tərəfindən aşağıdakı iqtisadi məsələlər həyata keçirildi:

- Maliyyə dayanıqlığının standartları müəyyənləşdirildi;
- Maliyyə dayanıqlığının konsepsiyasının işlənilməsi;
- Maliyyə dayanıqlığının hesablanmasında istifadə olunan metodların təyin olunması.

Yuxarıda qeyd olunan bu iqtisadi məsələlər ölkələrin makroiqtisadi məlumatları əsasında həyata keçirilir.

Ümumiyyətlə müasir iqtisadi şəraitdə ölkənin maliyyə dayanıqlığının təmin olunmasının göstəricisinə aşağıdakı cədvəl şəkildə baxmaq olar.

Cədvəl 1.

Azərbaycan Respublikasında maliyyə dayanıqlığının göstəriciləri

№	Maliyyə dayanıqlığı göstəriciləri	Maliyyə dayanıqlığının indikatorları	Proqnoz
1.	Büdcənin kəsiri	Büdcə xərclərinin büdcə gəlirləri üzərində faiz nisbətində üstünlüklər	Bir il ərzində 20% -ə qədər, bir neçə il ərzində 10% -ə qədər
2.	Qiymətlərin stabilliyi	İnflyasiyanın illik səviyyəsi	İl ərzində 50% -dən çox olmamalı, bir neçə il üçün 25% -dən çox və bir neçə il üçün 10% -dən çox olmamalıdır.
3.	Qızıl ehtiyyatları	Xarici valyutaların məzənnəsi dəyişdikdə (devalvasiya şəraitində), gözlənilməz dövlət xərcləri və borcların ödənilməsinin qızıl ehtiyyatları hesabına ödənilməsi imkanları. Qızıl ehtiyyatları həcmi dövlət büdcəsi və ÜDM-nin faizləri hesabına qiymətləndirilir.	Qızıl ehtiyyatları dövlət büdcəsinin 40% -dən az olmamalıdır, ÜDM-nin 20% -dən az olmamalıdır və pul kütləsinin 25% -dən az olmamalıdır.
4.	Xarici borc	Yaranmış xarici borcların daxili aktivlər hesabına ödənilmə imkanları. Xaici borc ÜDM əsasən və təbii sərvətlərin likvidliyinə əsasən hesablanmalıdır.	Xarici borc öhdəliklərin ən azı 10 il müddətinə qaytarılması şərti ilə ÜDM-nin 50% -dən çox olmamalıdır. Bir il ərzində büdcə yükünün 20% -i təbii sərvətin 5% -dən az olmalıdır.
5.	Daxili borc	Dövlətin daxili borclarının qiymətli kağızlar, qızıl,valyuta ehtiyyatları, təbii resurslar hesabına ödənilməsi.	Borcun geri qaytarma müddəti ən azı 10 il olan daxili borclar ÜDM-nin 75% -dən çox olmamalıdır. Bir il ərzində büdcə yükünün 20% təşkil etməlidir.
6.	Ödəmə balansının kəsiri	İdxalın səviyyəsinin ixracı üstələməsi	Bir il ərzində 50% -dən çox olmamalıdır. Bir neçə il davamlı olaraq 20% təşkil etməlidir.

Cədvəl 1-ə sasın söyləmək olar ki, iqtisadi təhlüəsizliyin təmin olunmasında prioritet kimi maliyyə dayanıqlığının rolunu xüsisilə qeyd etmək olar. Dünya təcrübəsi göstərir ki, bütün iqtisadi çatışmamazlıqların qarşısı alınmayanda maliyyə böhranına gətirib çıxardır. Qeyd edək iqtisadiyyatın hər hansı sahəsində baş verən lokal maliyyə böhranı sonda makro səviyyədə maliyyə böhranına gətirib çıxardır. Məhz bu baxımdan da Azərbaycan Respublikasında da maliyyə dayanıqlığının təmin olunması istiqamətində aşağıdakı tədbirlərin həyata keçirilməsi zəruridir:

1. Büdcənin səviyyəsini daim nəzarətdə saxlamaq;
2. Ölkədə qiymət stabilliyini nəzarətdə saxlamaq;
3. İqtisadiyyatda maliyyə axınına dəstək vermək;
4. Bank sistemində dayanıqlığın təmin olunması;
5. Milli valyutanın dayanıqlığının təmin olunması;
6. İnvestiya yatırımı edənlərin maraqlarının qorunulması;
7. Ölkənin qızıl ehtiyyatlarının nəzarəti;

8. Qiymətli kağızlar bazarının inkişaf səviyyəsinin daima nəzarətdə saxlanılması;
9. Ölkənin daxili və xarici borcları;
10. Ödəmə balansının kəsirinə nəzarət.

Nəzərə alsaq ki, maliyyə dayanıqlığının təmin olunması zamanı dövlətin həm fiskal siyasəti, həm də monitar siyasəti bir-bir ilə qarşılıqlı şəkildə fəaliyyət göstərməlidir.

Yuxarıda söyləyənləri nəzərə alaraq ölkəmizdə maliyyə dayanıqlığının təmin olunması istiqamətində əlavə olaraq aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədə-uyğun olardı:

-Maliyyə sisteminin bütün səviyyələrində maliyyə axınlarının dayanıqlığının təmin edilməsi;

- ödəmə öhdəliklərinin yerinə yetirilməsi;
- maliyyə axınlarının "şəffaflığı";
- ümumi dövriyyədə nağd hesablaşmaların payının azldılması;
- pul kütləsinin dövriyyəsinin sürəti;
- dövriyyədə olan pul məbləği.

Buradan belə nəticəyə gəlmək olar ki, müasir iqtisadi şəraitdə maliyyə dayanıq-lığı ən azı iki şərtə cavab verməlidir:

1. Ölkənin maliyyə müstəqilliyini daima nəzarətdə saxlamaq;
2. Əhalinin əldə edilmiş həyat səviyyəsini saxlamaq və sonralar onu yüksəltmək imkanı.

Maliyyə dayanıqlığının təmin olunmasına təsir edən aşağıdakı iqtisadi amilləri qeyd edə bilərik:

- ölkədəki geniş təkrar istehsalın lazımi səviyyədə olmaması;
- daxili tələbatın əsasən xaricdəki istehsalın nətiçələri hesabına ödənilməsi;
- ölkədə işsizlər ordusunun və yoxsulların yaranması;
- ölkənin xarici ticarət dövriyyəsində tədiyyə balansının pozulması;
- iqtisadiyatın strukuturunda sahələrarası tarazlığın pozulması;
- ölkə iqtisadiyyatının birtərəfli inkişafı;
- dövlətdə inflyasiya təhlükəsinin gerçəkləşməsi;
- pul-kredit siyasətinin qeyri-mükəmməlliyi nəticəsində maliyyə piramidalarının fəaliyyəti üçün geniş imkanların açılması;
- ərzaq məhsulları istehsalının tənəzzülü və s.

Yuxarıda sadalanan bütün bu qeyd edilənlər dövlətin maliyyə dayanıqlığının po-zulmasına, əhalinin həyat səviyyəsinin kəskin şəkildə aşağı düşməsinə, maliyyə böh-ranına və digər xoşagəlməz, ağır nəticələrə gətirib çıxara bilər.

Göründüyü kimi sadalanan bu məsələlər demək olar ki, bütövlükdə ölkədə sə-naye müəssisələrinin inkişafını özündə əks etdirir. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, dövlətin sosial – iqtisadi inkişaf siyasətini müəyyənləşdirən daxili amillər sırasında, ölkə daxilində maliyyə dayanıqlığının təmin edilməsində, regionlarda əha-linin məşğulluq və həyat səviyyəsinin qorunub saxlanması və yüksəlməsi mühüm yer tutur. Səmərəli regional siyasəti təmin edə biləcək regional idarəetmə üsullarının in-kişafını bir neçə mərhələyə ayırırlar:

- birinci mərhələ 20-ci əsrin 30-cu illərini əhatə edir. 1929 – 1933-cü illər böhra-nından sonra regional inkişaf problemlərinin öyrənilməsinin zəruriliyi şübhə doğur-

murdu;

- ikinci mərhələ 40 – 50-ci illəri əhatə edir. Bu dövr istehsalın tənəzzülü, əsasən, sənayenin ənənəvi sahələrində enmə ilə xarakterizə olunur. Bu müharibədən sonrakı iqtisadi böhranla əlaqədar idi;

- üçüncü mərhələ 60-70-ci illəri əhatə edir. Bu dövrdə regional siyasət sisteminin formalaşdırılmasının effektivliyi əsas prinsip kimi qəbul edildi və Qərbi Avropanın inkişaf etmiş ölkələrində geniş tətbiq edilməyə başlandı;

- dördüncü mərhələ 70-80-cı illəri əhatə edir. 1974-cü il böhranından sonra regional xarakterli planlardan daha çox makroiqtisadi xarakter daşıyan planlar ön cərgəyə çıxır;

- beşinci mərhələ 1993-cü ildən sonrakı dövrü əhatə edir. 1993-cü ildə Maastrix razılaşması əsasında Avropa Birliyi çərçivəsində yeni regional siyasət həyata keçirilməyə başlandı, inteqrasiya prosesləri aktiv inkişaf etdirilir.

İnkişaf etmiş ölkələrdə maliyyə dayanıqlığının təmin edilməsi müxtəlif makro və mikroalətlərin uyğunlaşdırılmasının spesifik sxemləri vasitəsilə həyata keçirilir. Makroalətlərə monetar, fıskal və ticarət siyasəti, mikroalətlərə isə işçilərə (əmək) və sahıbkarlar; (kapitala) təsir vasitələri aiddir.

Makrosiyasətin hansısa konkret alətinin seçilməsi həmin an regional idarəetmə subyektlərində həll ediləcək məsələlərdən və spesifik şəraitdən asılıdır. Məsələlərin və şəraitin müxtəlifliyinə baxmayar regionlarda problemlərin həlli vasitələrinin müəyyənləşdirilməsində ümumi qanunauyğunluqlar var. Mikrosiyasətin mümkün istiqamətləri təsir obyektlərinin seçilməsi yolu ilə formalaşdırılır. Lakin, unitar dövlətlərdə regional siyasət mərkəzi hökumət tərəfindən makro və mikro alətlərdən bərabər səviyyədə istifadə etməklə həyata keçirilir.

Myunxen İqtisadiyyat İnstitutunun apardığı araşdırmalar göstərir ki, ölkədə maliyyə dayanıqlığının təmin olunmasında əsas yeri pul kütləsinin dövriyyəsi tutur. Əgər gələcək dövrlərdə hər hansı bir iqtisadi risk ortaya çıxarsa, bu portfel qısa müddət ərzində toksikləşə bilər və aşağıdakı sahələrdən indikator göstəriciləri kimi istifadə etmək məqsədəuyğun olar:

- Ümummilli məhsul;
- İnflyasiya;
- Sənaye istehsalı;
- İşsizlik.

Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin 6 dekabr 2016-cı il tarixli fərmanı ilə 2016-2020-ci illər üçün iqtisadi inkişaf strategiyası və tədbirlər planı, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışı və 2025-ci ildən sonrakı dövrə hədəf baxış müəyyənləşib. Fərmana əsasən aşağıdakı istiqamətlər üzrə strateji yol xəritələri təsdiq edilib: milli iqtisadiyyat perspektivi, neft və qaz sənayesinin (kimya məhsulları daxil olmaqla) inkişafı, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı; kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalı; ağır sənaye və maşınqayırmanın inkişafı; ixtisaslaşmış turizm sənayesinin inkişafı; logistika və ticarətin inkişafı; uyğun qiymətə mənzil təminatının inkişafı; peşə təhsili və təliminin inkişafı; maliyyə xidmətlərinin inkişafı; telekommunikasiya və informasiya texnologiyalarının inkişafı və kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına xidmət edir.

Bütün dövrlərdə iqtisadi quruluşundan asılı olmayaraq sənaye iqtisadiyyatının bütün sahələrin inkişafı üçün əsas stimullaşdırıcı amil olaraq qalır. Dünya enerji istehlakında 40 faiz paya malik olan sənaye sektorunun inkişafı bir tərəfdən iqtisadiyyatın resurs sahələrini, digər tərəfdən isə sənayeyönlü xidmətlərin inkişafını şərtləndirir. Bundan əlavə, sənaye iş yerlərinin yaradılması üçün vacib mənbədir.

Xüsusilə qeyd etmək lazımdır ki, sənayenin artım templəri və inkişaf mərhələləri ölkələrin gəlir səviyyəsinə bir başa təsir göstərir. Ölkələr inkişaf etdikcə aşağı texnologiyalı və əməktutumlu yeyinti, yüngül və mebel sənayesi sahələri aparıcı mövqeyini orta texnologiyalı kimya, metallurgiya, gəmiqayırma, maşın və avadanlıq istehsalı sahələrinə verir. Sənayeləşmənin ən son mərhələsində elektronika, kompüter istehsalı, əczaçılıq və kosmik sənaye kimi yüksək texnologiyalı sahələr lokomotiv olaraq çıxış edir və qlobal miqyasda sənayenin inkişafında əhəmiyyətli rol oynayır.

Yuxarıda qeyd edilənlər əsasında ölkəmizdə maliyyə dayanıqlığının təmin edilməsi istiqamətində sənaye müəssisələrinin üzərinə aşağıdakı iqtisadi yüklər düşür. Bunlar aşağıdakılardan ibarətdir:

- Dövlətin fiskal siyasətinə birbaşa təsir edir;
- Dövlətin monitar siyasətinə təsir edir;
- Ölkədə pul kütləsinin çıxışının qarşısını alır.

Sadıqov T.Ə.,
iqtisad elmləri üzrə fəlsəfə doktoru
Həsənova A.İ.,
iqtisad elmləri üzrə fəlsəfə doktoru
Bakı Biznes Universiteti

MAKRO VƏ MİKRO SƏVİYYƏLƏRDƏ VERGİ PLANLAŞDIRILMASI VƏ ONUN SOSİAL-İQTİSADİ ASPEKTLƏRİ

Vergi planlaşdırılması ölkənin vergi siyasətinin məqsədlərinə müvafiq qurulmuş mövcud vergi sistemi və onun strukturunun fəaliyyətinin təşkilinə əsaslanır. Eyni zamanda planlaşdırma vergitutma sisteminin əsaslarını, vergi mexanizmi prinsiplərini, vergi səlahiyyətlərinin məhdudlaşdırılması üzrə qaydaları şərtləndirən dövlətin vergi siyasətində realizə olunur. Vergi planlaşdırılmasını həm dövlət və onların səlahiyyətli nümayəndələrinin simasında yerli özünüidarəetmə orqanları, həm də konkret təsərrüfat subyekti baxımından nəzərdən keçirmək olar.

Vergi planlaşdırılması verilmiş vaxt dövründə müvafiq büdcələrə vergi daxilolmalarının, eləcə də konkret təsərrüfat subyekti tərəfindən ödənilməli olan vergilərin iqtisadi cəhətdən əsaslandırılmış, həcminin müəyyən edilməsi üzrə dövlət hakimiyyət və yerli özünü idarəetmə orqanları, vergi ödəyicilərinin fəaliyyəyindən ibarət olan vergi prosesinin tərkib hissəsidir. Burada planlaşdırılmasıın subyekti vergitutma elementlərini müəyyən etmək yolu ilə vergi daxilolmalarını tənzimləyən dövlətdir. Mərkəzdə və yerlərdə planlaşdırmanın konkret məsələləri ilə maliyyə-vergi orqanları məşğul olur.

Vergi planlaşdırılması özünün makro və mikro səviyyəsində mövcud olur. Bu səviyyələr ölkə iqtisadiyyatının, milli iqtisadiyyatın müxtəlif həlqələri ilə əlaqədar olub, vergi planlaşdırılmasının təşkili, idarə edilməsi məsələsində böyük əhəmiyyət kəsb edir.

Makro səviyyədə vergi planlaşdırılması dövlətin iqtisadi, siyasi və sosial vəzifələrinin yerinə yetirilməsi üçün müxtəlif səviyyəli büdcə və büdcədənkənar fondların vergi daxilolmalarının ümumu məbləğini müəyyən edən proseslərin kompleksidir. Makro səviyyədə vergi planlaşdırılması bütövlükdə ölkə və onun regionlarının, bələdiyyə təşkilatlarının sosial-iqtisadi inkişafının proqnozlaşdırılması, eləcə də müxtəlif səviyyəli cari və proqnozlaşdırılan büdcələrin tərtib edilməsi üçün əsas kimi xidmət edir. Bu zaman planlaşdırma ölkənin ümumiqtisadi göstəricilərinə (ÜDM, ÜMM, milli gəlir, əhalinin gəlir səviyyəsi, inflyasiya, ehtiyyatlar, dövlət borcu, ödəniş balansı) əsaslanır. Konkret vergi, bütövlükdə vergi bazası və vergi ukladını məhz bu göstəricilər formalaşdırır.

Vergi planlaşdırılması əsasında dövlətin vergi sisteminə, onun tərkib və strukturuna, müvafiq iqtisadi inkişafa müvafiq dəyişikliklərin edildiyi, elmi əsaslandırılmış vergitutma konsepsiyasının hazırlanmasından başlanır. Bundan sonra vergitutmanın qarşısında duran məqsədlər və onlara nail olunması metodları müəyyən edilir. Bütün bunlar isə mövcud vergitutma sisteminin təşkilati-hüquqi prinsaiplərini və konkret vergilərin hesablanması metodikasını müəyyən edən vergi siyasəti ilə sıx əlaqədardır.

Vergi planlaşdırılmasının mühüm xüsusiyyətlərindən biri hakimiyyət və müxtəlif səviyyəli idarəetmə orqanları arasında gəlir mənbələri və vergi səlahiyyətlərinin məhdudlaşdırılmasıdır. Müxtəlif səviyyəli büdcələr arasında vergilərin bölüşdürülməsi metodları qanunvericilik qaydasında müəyyən edilir.

Vergilər planlaşdırılarkən həm obyektiv, həm də subyektiv amillər nəzərə alınır. Obyektiv amillərə aiddir: ÜDM və milli gəlirdə baş verə biləcək dəyişikliklər, istehsal və satışın həcmi, elmi-texniki tərəqqi, inflyasiya, əhalinin sayı və onların yaşayış səviyyəsi. Subyektiv amillərə aiddir: daha çox maliyyə resursları almaq baxımından dövlət orqanları, təsərrüfat subyektləri və əhalinin tələbatının dəyişməsi.

Makro səviyyədə vergi planlaşdırılmasının əsas vəzifələri aşağıdakılardır:

- vergi qanunvericiliyinin yaradılması;
- konkret sosial-iqtisadi vəziyyətə əsasən işlək vergi sisteminin qurulması;
- dövlət icbari ödənişlərinin struktur və həcminin müəyyən edilməsi;
- vergitutma bazasının tərkibi və vergitutma obyektlərinin tərkibinin müəyyən edilməsi;
- vergi güzəşt və dərəcələrinin həcminin müəyyən, eləcə də qarşıya qoyulmuş bütün vəzifələrin yerinə yetirilməsi.

Planın tərtib olunduğu müddətdən asılı olaraq vergi planlaşdırılması aşağıdakı kimi təsnifləşdirilir:

- cari – operativ və qısamüddətli;
- perspektiv (proqnozlaşdırma) – uzunmüddətli.

Cari vergi planlaşdırılmasına müvafiq dövr ərzində dövlətin müəyyən ərazisində toplanan vergilərin konkret məbləğinin hesablanması daxildir. Hər bir məcburi ödənişin hesablanması makro-sosial iqtisadi göstəricilərə əsasən həyata keçirilir.

Bu planlaşdırmanın xüsusi əhəmiyyəti ondan ibarətdir ki, vergi daxilolmalarınını qiymətləndirilməsi büdcə göstəricilərinin iqtisadi cəhətdən əsaslandırılmış keyfiyyət parametrlərini təmin edir. Cari planlaşdırma vergi və maliyyə orqanları tərəfindən həyata keçirilir.

Operativ vergi planlaşdırılması yaxın vaxta vergi növləri üzrə daxilolmaların təmin etməklə, ay və ya kvartal üçün həyata keçirilir. Plan hazırlanarkən vergi və maliyyə orqanları bütün informasiyanı vergi ödəyicilərinin şəxsi hesablarından götürürlər. Şəxsi hesablar vergi uçotuna alındığı andan fəaliyyətdə olan müəssisələrə və fərdi sahibkarlar, eləcə də hər bir vergi növü üzrə ayrıca açılır. Şəxsi hesablarda vergi dövrü ərzində bütün vergi məbləğlərinin hərəkəti əks olunur. Lazım olan əlavə məlumatlar müxtəlif idarələrdən (məsələn, Dövlət Statistika Komitəsi) alınır.

Vergi qanunvericiliyi və proqnozlaşdırılan vergi dərəcələri nəzərə alınmaqla hesablanmış vergitutma bazası vergi daxilolmaları üzrə planın (vergi, rüsum, yığım və digər məcburi ödəniş növlərinin ümumi həcmi, həmçinin vergi ödəyicisi tərəfindən onların ödənilmə müddətinin göstərildiyi sənədin) yaradlmasını təmin edir. İllik məlumatlar IV kvartalda gözlənilən daxilolmalar və onların dinamikası nəzərə alınmaqla doqquz ayın hesabat (müəssisənin mühasibat hesabatı, vergi bəyannamələri) göstəricilərinə əsasən müəyyən edilir. Bu məlumatlara əsasən müəssisənin maliyyə-təsərrüfat fəaliyyətinin əsas göstəricilərini (məhsulların, işlərin, xidmətlərin satısından olan gəlirlər, mənfəət, əməyin ödəniş fondu) özündə əks etdirən icmal cədvəl tərtib olunur. Beləliklə, gələn ilin planı üçün əsas kimi sayılan hesabat ilinin vergi daxilolmalarının məbləği müəyyən edilir. Bu zaman vergi qanunvericiliyində ehtimal olunan dəyişikliklər nəzərə alınır.

Deməli, operativ planlaşdırma qısamüddətli vergi planlaşdırılmasının həyata keçirilməsi üçün material hazırlanır. Qısamüddətli vergi planlaşdırılması operativ vergi planlaşdırmasına əsaslanmaqla, illik planın tərtib edilməsini və bilavasitə Maliyyə Nazirliyi tərəfindən icra olunmasını nəzərdə tutur. Nazirlikdə başa çatmış dövrdə hər bir vergi və bütövlükdə vergi daxilolmaları haqqında məlumatlar təhlil edilir və növbəti il üçün plan layihəsi hazırlanır. Bu zaman sosial-iqtisadi amillər nəzərə alınmaqla cari ildə vergitutmanın vəziyyəti ciddi surətdə qiymətləndirildikdən sonra, ayrı-ayrı vergilər və bütövlükdə vergi sistemindəki dəyişikliklər nəzərə alınır.

Qısamüddətli vergi planlaşdırılmasının göstəriciləri büdcənin gəlir hissəsinə daxil edilir və növbəti ildə təsdiq olunur. Operativ və qısamüddətli vergi planlaşdırılması bütövlükdə vergi taktikasını həll edən vahid cari planlaşdırmasının tərkib hissəsidir və onunla sıx surətdə əlaqədardır. Bu taktiki vəzifələr perspektiv vergi planlaşdırmanı həll edən strateji vergi planlaşdırmasının əsasını təşkil edir.

Perspektiv vergi planlaşdırılması (proqnozlaşdırılması) – uzun dövr (3-5 il – orta müddət, beş ildən yuxarı – uzunmüddətli proqnoz) üçün plan tərtib edilməsidir. Cari vergi planlaşdırmasından fərqli olaraq burada vergi növləri üzrə detallaşdırma aparılmır və yalnız bütövlükdə vergitutma sistemini əhatə edir. Perspektiv vergi planlaşdırılması milli iqtisadiyyatın inkişafının aşağıdakı sosial-iqrisadi göstəricilərinə əsaslanır:

- vergitutma bazasının ümumi həcminin müəyyən edildiyi Ümumi Daxili Məhsul – ÜDM (bütün vergi ödənişlərinin mənbəyi olduğu üçün);
- milli kapitalın fəaliyyəti hesabına vergi gəlirlərinin hansı hissəsinin dövr etməsi haqqında təsəvvür yaradan Ümumi Milli Məhsul (ÜMM);
- birbaşa vergilər formasında mümkün ola biləcək vergi daxilolmalarını əks etdirən milli gəlir;

- əhalinin gəlirlərini formalaşdıran və mühüm vergi daxilolmalarının (dolayı vergilərin) məbləğini müəyyənləşdirən xalis milli məhsul;

- əhalinin şəxsi gəlirləri (gəlir vergisi hesabına vergi daxilolmalarının məbləği müəyyən edilməklə yanaşı, şəxsi istehlak və yığımına xərclədiyi vəsaitlər);

- ölkələr arasında ödəniş və daxilolmaların nisbətini göstərən və gömrük rüsumlarının məbləğinin hesablanmasını təmin edən ödəniş balansı;

- fiziki şəxslərin ödədikləri birbaşa və dolayı vergilər kimi vergi daxilolmalarının proqnozlaşdırılan həcmini əsaslandıran, əhalinin gəlirləri.

- Yuxarıda sadalanan göstəricilər vergi növləri və bütövlükdə vergi daxilolmalarının məbləğini proqnozlaşdırmağa imkanı verir. Şəhər və regionların orta və uzunmüddətli planları tərtib edilərkən aşağıdakılar nəzərə alınır:

- mülkiyyətin gəlirliliyinin qiymətləndirilməsi, resurs bazası, əsas vəsait fondunun texniki vəziyyəti, idxal-ixrac əməliyyatları, istehsal-sosial infrastrukturun vəziyyəti, yəni ərazinin sosial-iqtisadi vəziyyəti;

- iqtisadi artım tempi nəzərə alınmaqla perspektivdə vergi daxilolmalarının həcmi;

- büdcə məlumatlarının, inflyasiya səviyyəsinin, qiymət indeksasiyasının proqnozlaşdırılması.

Bir hesablamanın digəri ilə uzlaşması üçün vergilərin hesablanması planları qarşılıqlı əlaqədar olurlar. Bundan başqa, onlar plan və hesabat dövrlərindəki faktiki vergi daxilolmaları ilə tutuşdurulur.

Dövlət, region və yerli səviyyədə vergi planlaşdırılması ümumiqtisadi metodlara, təhlilə, əhəmiyyətinə görə həyata keçirilir. Vergi planlaşdırılması dövlətin büdcə-vergi siyasəti hazırlanarkən nəzərə alınır, vergi qanunvericiliyi təkmilləşdirilərkən ÜDM və milli gəlirin artmasına şərait yarandığı üçün iqtisadiyyatdakı ehtiyyatların aşkar və mobilizə edilməsini təmin edir.

Ümumilikdə vergi daxilolmalarının planlaşdırılması prosesi – sosial-iqtisadi sahədə baş verən proseslər, onların inkişaf tendensiyalarının dərindən təhlilini, vergi və digər qanunvericiliyi sahəsində, eləcə də avtomatlaşdırılmış idarəetmə sisteminin mənimsənilməsi sahəsində dərin biliklər tələb edən olduqca mürəkkəb işdir. Yalnız bu halda yüksək dərəcədə edibarlı planın işlənib hazırlanması mümkündür.

Bəs mikro səviyyədə vergi planlaşdırılması dedikdə nə başa düşülür. Mikro səviyyədə vergi planlaşdırılması vergi ödənişlərinin minimallaşdırılması üzrə vergi ödəyicisinin hüquqi hərəkətləridir. Vergi planlaşdırması vergi ödəyicisi üçün cari dövr və perspektivdə maliyyə-təsərrüfat fəaliyyətinin tərkib hissəsidir. Mikro səviyyədə vergi planlaşdırılmasının subyekti özünün korporativ və ya fərdi fiskal öhdəliklərinin tənzimlənməsi məqsədilə bəzi vergi elementlərinə təsir edə bilən hüquqi şəxslərdir. Vergi planlaşdırılması zamanı aşağıdakılar nəzərə alınır:

- bütün vergi qanunlarının düzgün və tam tətbiqi;

- dövlətin maliyyə-investisiya siyasətinin anlaşılması;

- vergitumanın daha əlverişli formasının seçilməsi;

- qanunvericilikdə təklif olunan bütün güzəşt və azadolmalardan istifadə olunması;

- mühasibat uçotunun mütəşəkkil və mükəmməl aparılması.

Mikro səviyyədə vergi planlaşdırılmasının məqsədi cari və strateji planlaşdırma çərçivəsində sahibkarların maliyyə-təsərrüfat fəaliyyətinin stabilliyinin təmin edilməsidir. Bu planlaşdırma bazar şəraitindəki rəqabətdən irəli gəlir. Müəssisələr üçün vergi

planlaşdırması özünün investisiya və elmi-texniki siyasəti hazırlanarkən, məhsulların çeşidi dəyişərkən, bazar dəyişərkən, uçot siyasəti hazırlanması üçün vacibdir. Müəssisə səviyyəsində vergi planlaşdırmasının əsasını aşağıdakılar təşkil edir:

- təsərrüfat subyektinin gəlirlərin qənaətinə, xərclərin azaldılmasına, mənfəətin artırılmasına çalışması;
- təsərrüfat subyektinin xarici maliyyələşmə mənbəyi cəlb edilmədən istehsal-kommersiya fəaliyyətini genişləndirilmək istəyi;
- bazar rəqabətinin tələblərinin nəzərə alınması.

Bundan başqa, dövlət müəyyən sahələrin, istehsal sferasının, vergi ödəyiciləri qrupunun stimullaşdırılması məqsədilə təsərrüfat subyektlərinə, fərdi sahibkarlara üstünlüklərin verilməsində maraqlıdır. Sahibkar tərəfindən mikro səviyyədə vergi planlaş-dırıl-ması dörd mərhələdə həyata keçirilir.

Birinci mərhələdə daha əlverişli vergi rejimli sahibkarlıq fəaliyyətinin növü, onun təşkilati-hüquqi forması seçilir.

İkinci mərhələdə müəssisə və onun struktur bölmələrinin yeri haqqında məsələ həll olunur. Bu zaman yalnız güzəştli vergitutma ilə yanaşı, həmçinin rüsumsuz pul köçürülməsi və vergi kreditinin alınması üçün əlverişli şərait də nəzərə alınır.

Üçüncü mərhələ, gedişatında vergi güzəştlərindən maksimum istifadə olunmasının, vergi ödənişlərinin həcminin azaldılmasının, şərtləri baxımından daha səmərəli sövdələşmələrin, maliyyə resurslarının cəlb edilməsi şərtlərinin, sürətləndirilmiş amortizasiyanın tətbiqinin öyrənildiyi ən mühüm mərhələdir.

Dördüncü mərhələdə müəssisənin aktiv və maliyyə vəsaitlərinin yerləşdirilməsi imkanları təhlil edilir.

Həll ediləcək məsələlərin xarakterindən və dövrün müddətindən asılı olaraq mikro səviyyədə vergi planlaşdırılması iki cür təsnifləşir: strateji və taktiki. Strateji vergi planlaşdırılması vergi xərclərinin azaldılmasına, birinci, ikinci və dördüncü mərhələlərin masştablı vəzifələrinin həllinə yönəldilmiş uzunmüddətli istiqamətin hazırlanmasıdır. Taktiki vergi planlaşdırılması üçüncü mərhələnin cari vəzifələrini həll etməlidir.

Ölkədə vergitutma sistemi və iqtisadi inkişaf nə qədər sabit və dayanaqlı olarsa, plan göstəriciləri icrası daha dəqiq icra olunar. Müəssisənin vergilərin minimallaşdırılmasına yönəldilmiş vergi planlaşdırılmasını, vergi ödənişindən yayınma, yəni vergitutmanın bilərəkdən qeyri-qanuni azaldılması ilə qarışıq salmaq lazım deyil.Vergi ödəyiciləri vergi planlaşdırmasının mahiyyətinə müvafiq olaraq, özlərinin vergi öhdəliklərinin maksimum azaldılması üçün qanunvericiliyin icazə verdiyi bütün vasitə, üsul və yollardan (o cümlədən qanunvericilikdəki problemlərdən) tam istifadə etmək hüququna malıkdir.

Deməli aparılan tədqiqatın nəticələrindən belə qənaətə gəlmək olur ki, vergi planlaşdırılması istər makro, istərsə də mikro sahədə vergi işinin təşkili və idarə edilməsi məsələlərindən tutmuş, vergilərin hesablanması və büdcəyə ödənilməsinədək bütün proseslərin planlaşdırılması və proqnozlaşdırılması məsələlərini əhatə edir. Vergi planlaşdırılması ölkənin iqtisadi siyasətinin tərkib hissəsi və fiskal siyasıtin elementi kimi dövlət büdcəsinin formalaşması və bu sahədə inkişafa nail olunması imkanlarının artırılmasında xüsusi əhəmiyyətə malikdir.

Vəliyeva L.M.,
iqtisad elmləri üzrə fəlsəfə doktoru
Sumqayit Dövlət Universiteti

MÜƏSSİSƏNİN MALİYYƏ CƏHƏTDƏN SAĞLAMLAŞDIRILMASININ ƏSAS İSTİQAMƏTLƏRİ

Təşkilatın ödəmə qabiliyyətinin olmamasını müəyyən edərək mühasibat uçotunun təqdim edilən sənədlərinin müfəssəl təhlilini aparmaq məqsədəuyğundur. Təhlilin bu mərhələsinin məqsədi – təşkilatın maliyyə vəziyyətinin pisləşməsi səbəblərini aşkara çıxarmaqdır.

Müflisləşmə vəziyyətinin baş verməsinin əsas səbəbləri bunlardır:

1. Obyektiv səbəblər – konkret müəssisənin təsərrüfat şərtlərindən asılı olmayanlar:

- dövlətin maliyyə pul, kredit, vergi sisteminin fəaliyyəti xüsusiyyətləri;
- mövcud olan qanunvericilik və normativ baza;
- inflyasiyanın səviyyəsi;
- valyuta məzənnəsinin, enerji daşıyıcılarının qiymətlərinin, dəmir yolu tariflərinin və s. dəyişməsi.

2. Subyektiv səbəblər, bilavasitə müəssisədən asılı olanlar:

- pis menecment – müflisləşməni qabaqcadan nəzərə almaq və gələcəkdə ondan qaçmaq bacarıqsızlığı;
- qeyri-kafi marketinq – tələbi pis öyrənmək səbəbindən satış həcminin azalması, satış şəbəkəsinin, reklamın olmaması;
- istehsal həcminin azalması;
- pis əsaslandırılmış qiymətəmələgəlmə;
- əsassız yüksək xərclər;
- aşağı rentabellik göstəriciləri;
- uzun istehsal tsikli;
- qarşılıqlı borclar və bunun nəticəsi olaraq – müəssisənin borcları;
- müəssisə kapitalının təkrar istehsalının iqtisadi mexanizminin qeyri-tarazlığı.

Balansda olan və ona əlavə edilən formalarda yerləşən informasiya təşkilatın maliyyə, təsərrüfat və investisiya fəaliyyətinin xarakteri və dayanıqlığı haqqında hərtərəfli nəticələr almağa imkan vermir: onun əsasında baxılan müəssisənin sahəvi xüsusiyyətlərini aşkara çıxarmaq və tədqiq etmək həmişə mümkün olmur. O yalnız ayrı-ayrı maliyyə fəaliyyəti göstəricilərinin dinamikasını qiymətləndirməyə, balansın strukturunun dəyişməsinin əsas istiqamətlərini izləməyə imkan verir.

Buna görə də müəssisənin həqiqi vəziyyətini müəyyən etmək, bügünkü gündə onun hansı dərəcədə ödəmə qabiliyyətli olmasını qiymətləndirmək, eyni zamanda onun real perspektivlərini göstərmək üçün onun maliyyə göstəricilərinin müfəssəl təhlilini aparmaq lazımdır.

Müəssisənin ödəmə qabiliyyətinin olmamasının təhlili və onun müflisləşmə ehtimalının müəyyən edilməsi mərhələlərlə aparılır:

1. Ödəmə qabiliyyəti olmayan müəssisənin fəaliyyətinin maliyyə nəticələrinin təhlili.

2. Ödəmə qabiliyyəti olmayan müəssisənin maliyyə vəziyyətinin təhlili.

3. Müəssisə qarşısında dövlətin borcu ilə onun ödəmə qabiliyyətinin olmamasının əlaqəsinin müəyyən edilməsi.

Müflisləşmiş kimi qəbul olunan müəssisəyə dair bir sıra tədbirlər tətbiq edilir:

- əmlakı satmaqla ləğv etmə;
- istehsal-maliyyə fəaliyyətinin yenidən təşkili;
- müəssisənin kreditorları və mülkiyyətçiləri arasında beynəlxalq razılaşma.

Prosedurların ləğvi müəssisənin fəaliyyətinin dayandırılmasına aparır. Yenidən təşkil etmə prosedurları müəyyən innovasiya tədbirlərin aparılması yolu ilə borclunun ödəmə qabiliyyətinin bərpasını nəzərdə tutur. Təhlilin nəticələri üzrə ali maliyyə strategiyası işlənməli və müflisləşməyə yol verməmək, daxili və xarici ehtiyatlardan kompleks istifadə yolu ilə onun "təhlükəli zona"dan çıxarılması məqsədilə müəssisənin maliyyə sağlamlaşdırılmasının biznes planı tərtib edilməlidir.

Vəsaitlərin müəssisənin dövriyyəsinə cəlb edilməsinin xarici amillərinə faktorinq, lizinq, mənfəətli layihələr altında kreditlərin cəlb edilməsi, yeni səhm və istiqrazların buraxılışı, dövlət subsidiyaları aiddir.

Müəssisənin maliyyə cəhətdən sağlamlaşdırılmasının əsas və daha köklü istiqamətlərindən biri istehsalın mənfəətliliyinin artırılması və zərərsiz işə nail olunması üzrə daxili ehtiyyatların: müəssisənin istehsal gücündən daha tam istifadə, məhsulun keyfiyyəti və rəqabət qabiliyyətinin artırılması, onun maya dəyərinin azaldılması, maddi, əmək və maliyyə resurslarından səmərəli istifadə, qeyri-məhsuldar xərclər və zərərin azaldılmasının axtarışıdır.

Bununla bərabər resursqoruyucu məsələlərə - mütərəqqi norma, normativ və resursqoruyucu texnologiyaların tətbiqi, resursların təsirli uçotunun təşkili və istifadəsinə nəzarət, qənaət rejiminin həyata keçirilməsində qabaqcıl təcrübənin öyrənilməsi və tətbiqi, resurslara qənaət uğrunda mübarizədə işçilərin maddi və mənəvi stimullaşdırılması və qeyri-məhsuldar xərclərin və zərərin azaldılmasına xüsusi diqqət yetirmək lazımdır.

Müəssisənin maliyyə vəziyyətinin yaxşılaşdırılması ehtiyatları tələb və təklifin, satış bazarlarının öyrənilməsi üzrə marketinq təhlili və bu əsasda məhsulun optimal çeşidi və istehsalı strukturunun formalaşdırılmasının köməyi ilə aşkar edilə bilər.

Xüsusi halda biznes-proseslərin təkrar injinirinqini aparmaq lazımdır, yəni istehsal proqramı, maddi-texniki təchizat, əməyin təşkili və əmək haqqının hesablanması, heyətin seçilməsi və yerləşdirilməsi, məhsulun keyfiyyətinin idarə edilməsi, xammal bazarları və məhsul satışı bazarları, investisiya və qiymət siyasəti və digər məsələləri köklü şəkildə nəzərdən keçirmək lazımdır.

Cabbarov A.S.,
iqtisad elmləri üzrə fəlsəfə doktoru
Bakı Biznes Universiteti

İDARƏETMƏ UÇOTU MÜASİR İDARƏETMƏ SİSTEMİNİN İNFORMASİYA TƏMİNATI KİMİ

Müəssisənin uğurlu fəaliyyəti maliyyə-təsərrüfat fəaliyyətinin səmərəliliyi ilə müəyyən edilir. Maliyyə-təsərrüfat fəaliyyətinin səmərəliliyi isə öz növbəsində idarəetmənin informasiya təminatının keyfiyyətindən və operativliyindən asılıdır.

Demokratik idarəetmə prinsiplərinə əsaslanan müasir təsərrüfat mexanizmləri idarəetmə elementlərinə xüsusən də uçota yeni yanaşmanı və onun yeni idarəetmə metodlarına uyğunlaşdırılmasını tələb edir. Bütövlükdə respublikamızda aparılan iqtisadi islahatlar müəssisələrdə uçot və hesabatlılıq sisteminin təkmilləşdirilməsini və müasir idarəetmədə optimal istifadəsini vacib bir məsələ kimi qarşıya qoyur.

İdarəetmədə qəbul edilən qərarların keyfiyyətli məlumat mənbəyi kimi idarəetmə uçotunun yekun hesabat göstəriciləri çıxış edir.

Uçot sisteminin inkişafının məntiqi nəticəsi kimi mühasibat uçotu maliyyə və idarəetmə uçotu olmaqla bir-birindən fərqli iki tərkib hissəyə ayrıldı. Hər bir uçot sisteminin müəssisənin iqtisadi informasiya sistemində rolu, məqsəd və vəzifələri haqqında müxtəlif elmi yanaşmalar alim və mütəxəssislərin əsərlərində öz əksini tapdı.

Belə ki, bir sra iqtisadi ədəbiyyatlarda "mühasibat uçotu" sistemində hər iki uçot növnün məqsəd və vəzifələri eyniləşdirilir, digər bir çox alim və mütəxəssislər isə bu iki uçot növünün metod və üsullarında ümumi oxşarlığın olmasını qeyd etməklə yanaşı hər birinin məqsəd və vəzifələrini fərqli aspeklərindən izah edirlər.

İdarəetmə uçotuna həm dar çərçivədə özündə informasiyanın toplanması, qeydiyyatı, ümumiləşdirilməsini əks etdirən mühasibat uçotunun alt sistemi kimi, həm də geniş mənada müəssisənin idarəetmə sisteminin bütün idarəetmə funksiyalarını – planlaşdırma, təşkiletmə, xüsusilə uçot, nəzarət, təhlil, qərarların qəbulunu əhatə edən sistem kimi baxılır. Respublikamızda uçot sahəsində aparılan islahatlar qısa zaman çərçivəsində idarəetmə uçotunun inkişafı, təşəkkülü və müəssisələrdə tətbiqi problemləri iqtisadi ədəbiyyatlarda və müxtəlif elmi nəşrlərdə ən çox müzakirə olunan problemlərdən birinə çevirdi. Bütövlükdə "idarəetmə uçotu" ilə bağlı iqtisadçılar əsas diqqətlərini "uçot" bəzən isə "idarəetmə" sözündə cəmləşdirirlər.

Aparılan araşdırmaların nəticəsi olaraq qeyd etmək istərdik ki, maliyyə uçotu və hesabatı daha çox xarici informasiya istifadəçilərin maraqlarına istiqamətlənməklə keçmiş fəaliyyətin nəticələrini əks etdirdiyi halda, idarəetmə uçotu daxili informasiya istifadəçilərin maraqlarına əsaslanmaqla cari fəaliyyətin nəticələrini əks etdirir. Beləliklə, maliyyə uçotunun hesabat informasiyaları əsasında müəssisənin maliyyə resurslarının formalaşması və istifadəsi üzrə qərarlar qəbul olunduğu halda, idarəetmə uçotunun hesabat məlumatları təchizat, istehsal və satış proseslərinin, müəssisə xərclərinin və bütövlükdə mövcud istehsal potensialın səmərəli idarə olunması ilə bağlı idarəetmə qərarlarının qəbul olunmasına xidmət edir.

Göründüyü kimi, idarəetmə uçotu özündə müəssisənin maliyyə-təsərrüfat fəaliyyətinin optimallaşdırılmasını təmin edən daxili nəzarət sistemini əks etdirir. Məhz

buna görə bir çox Qərb ədəbiyyatlarında idarəetmə uçotu sistemini „nəzarət sistemi” də adlandırırlar.

İdarəetmə uçotu daxili informasiya istifadəçiləri üçün informasiyanın hazırlanması və işlənməsinin inteqrasiya olunmuş sistemi kimi müəssisələrin inkişafında əvəzsiz rola malikdir. Çünki, idarəetmə sisteminə uyğunlaşdırılmış idarəetmə uçotu müəssisənin maliyyə və digər iqtisadi, sosial göstəricilərin, rentabelliyin və kapitalın səmərəliliyinin optimallaşdırılması məqsədilə xərclərin və dövriyyə vəsaitlərinin səmərəli istifadəsinin daxili korporativ idarəetmə sistemini yaradır. Bu sistemin əsas məqsədlərindən biri də rəqabət şəraitində satış bazarında prioritetliyi əldə etmək istiqamətində mövcud istehsal resurslarının optimal əlaqələndirilməsi və ehtiyat mənbələrindən səmərəli istifadə edilməsidir.

Bütün bu qeyd olunanlar müasir idarəetmə sistemində əsas informasiya bazası kimi idarəetmə uçotu informasiyalarının xüsusi əhəmiyyət kəsb etdiyini əsaslandırır.

İqtisadi ədəbiyyatlarda idarəetmə uçotunda hesabatlılıq müxtəlif aspektlərdə izah olunur.

Hesabat idarəetmə uçotunun son mərhələsi olmaqla müəssisə və ya onun struktur bölmələrinin fəaliyyət nəticələrini xarakterizə edən qarşılıqlı əlaqəli göstəricilər sistemidir.

İdarəetmə hesabatının mahiyyətinə, strukturuna, burada istifadə olunan anlayışlar, terminlər və formulaların məzmununa eyni zamanda dövrülüyü və hazırlanması metodikasına fərqli yanaşmalar var. İqtisadçılar arasında mövcud fikir ayrılığına baxmayaraq ümumilikdə hesabatın məzmununa və məqsədinə yanaşmalar vahid prinsiplərə əsaslanır.

Bu yanaşmaları ümumiləşdirdikdə belə nəticəyə gəlmək olar ki, idarəetmə uçotu hesabatı-müəssisənin əmlakı, kapitalı, öhdəlikləri, müəssisənin gəlir və xərcləri, təsərrüfat prosesi və onların nəticələri, əldə olunan nəticələrə təsir göstərən daxili və xarici amilləri haqqında, təsərrüfat subyektinin fəaliyyətinin proqnozlaşdırılması, planlaşdırılması, təşkili, nəzarət və tənzimlənməsi üçün idarəetmə heyətinə lazım olan dəqiq və sistemli informasiya sistemi kimi çıxış etməlidir.

Bu baxımdan idarəetmə uçotu hesabatı müəssisənin fəaliyyəti haqqında səmərəli və əhatəli informasiyaları əks etdirməklə, idarəetmə qərarlarının əsalandırılması üçün əsaslı informasiya bazası olmalıdır.

İdarəetmə hesabatınının məlumatları ayrı-ayrı məsul növləri üzrə rentabelliyin və təşkilatın iqtisadi fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsinə imkan verməlidir.

Təcrübədə istehsal prosesinin idarə olunması məqsədilə hesabat məlumatlarının istifadəsi prosesində bu məlumatların keyfiyyəti problemi yaranır. Belə ki, uçot prosesində eyni idarəetmə obyekti haqqında müxtəlif ilkin məlumat əldə etmək mümkündür. Ona görədə idarəetmə hesabatı hazırlanan zaman "ümumi" informasiya axınından idarəetmə qərarlarına "lazım olan" informasiyanı hesabatda əks etdirmək vacib şərtlərdən olmalıdır. Eyni zanada idarəetmədə informasiya sisteminin normal işləməsi üçün əldə edilən məlumatların dəyərliliyi və faydalılığı təmin edilməlidir. Bəzən zamanında təqdim olunmayan hesabat məlumatları dəyərli olsada faydalılığını itirir. İdarəetmə uçotu üzrə hesabatın hazırlanması zamanı diqqət yetirilən məqamlardan biri də əks olunan informasiyaların analitikliyidir. Daha çox detallaşdırılmış informasiyalar

idarəetmə qərarlarının qəbulunu çətinləşdirdiyi halda zəruri analitik informasiyaların olmaması hesabat məlumatlarının faydalılığını azaldır.

Hesabatın məzmununa dair tələblər və onun strukturu müəssisənin rəhbərliyi, məsuliyyət mərkəzlərinin rəhbərləri və idarəetmə məlumatlarına maraq göstərən digər şəxslər tərəfindən verilən təkliflər əsasında formalşmalıdır. Müvafiq olaraq, menecerlər daxili hesabat hazırlayan icraçılara hansı məlumatların tələb olunduğunu, bu məlumatların forma və miqdarı, hansı müddətdə lazım olduğunu izah etməlidirlər.

Beləliklə, aparılan araşdırmalar və mütəxəssislərin rəyləri ümumiləşdirildikdə belə qənaətə gəlmək olar ki, idarəetmə uçotu hesabatı tərtib edilən zaman aşağıdakı prinsiplərə riayət edilməlidir:

- hesabatın vaxtında verilməsi;
- hesabatların dəqiqliyi və əlçatanlığı;
- hesabat məlumatlarının obyektivliyi və müqayisəliliyi;
- hesabatın hazırlanmasının qənaətliliyi.

Hesabat məlumatları aşağıdakı xüsusi tələblərə cavab verməlidir:

- elastiklik, lakin vahid struktura malik olması;
- məlumatın şəffaflığı və aydınlığı;
- operativlik;
- təhlil və operativ nəzarət üçün uyğunluğu.

Beləliklə, müasir idarəetmə sistemində əsas informasiya bazası kimi çixiş edən idarəetmə hesabatlarının idarəetmə sisteminin tələbləri çərçivəsində formalaşması vacibdir, çünki onun məzmunu daxili istifadəçilərin informasiya tələbatının tam şəkildə təmin olunmasına və təşkilatın effektiv idarə olunmasına kömək edəcəkdir. İdarəetmə hesabatını yalnız onun formalaşmasının bütün prinsiplərinə əməl edildiyi təqdirdə səmərəli hesab etmək olar.

Musayev E.M.,
iqtisad elmləri üzrə fəlsəfə doktoru
Bakı Biznes Universiteti

MÜASİR ŞƏRAİTDƏ TƏSƏRRÜFATDAXİLİ AUDİT VƏ ONUN İDARƏETMƏ SİSTEMİNDƏ ROLU

Müasir şəraitdə müəssisə və təşkilat rəhbərləri digər idarəetmə elementləri ilə yanaşı təsərrüfatdaxili audit vasitəsi ilə verilən sərəncamların, əmrlərin, qərarların şöbələrdə, sexlərdə, bölmələrdə yerinə yetirilməsinə dair məlumatlar almaqla yanaşı, onların icrasına nəzarət edirlər. Təsərrüfatdaxili audit yeni idarəetmə sistemində daha böyük məna kəsb edir. O, bilavasitə nəzarət funksiyası ilə yanaşı menecment funksiyasının bir hissəsini özündə əks etdirir. Belə ki, müəssisənin təsərrüfat-maliyyə prosesində baş vermiş halları operativ qaydada təhlil etməklə mövcud vəziyyəti qiymətləndirir və müvafiq təkliflər hazırlayır. Təsərrüfatdaxili audit istehsal-maliyyə fəaliyyətini operativ təhlil etməklə müəssisənin perspektiv maliyyə proqnozlarını da hazırlamaq imkanına malikdir. Təsərrüfatdaxili auditin zəruriliyi bir də onunla izah edilir ki, bazar iqtisadiyyatı münasibətlərində geniş fəaliyyət şəbəkəsinə malik olan iri

korporasiyalar, səhmdar cəmiyyətlər bir çox törəmə və yardımçı müəssisələrə malik ola bilər. Korporasiyanın və səhmdar cəmiyyətlərin tabeçiliyində olan törəmə müəssisələrin səmərəli fəaliyyəti haqqında mütəmadi, etibarlı məlumat əldə etmək və yeri gəldikdə müsbət istiqamətdə onların işini tənzimləmək üçün təsərrüfatdaxili auditin xidmətindən geniş istifadə edilir. İnkişaf etmiş ölkələrin təsərrüfatdaxili audit institutlarının təcrübəsi göstərir ki, bu sahədə xüsusi yanaşmaya ehtiyac duyulur. Belə ki, həmin ölkələrin iri korporasiyaları, səhmdar cəmiyyətləri, müxtəlif istiqamətli firma və şirkətləri nəinki öz ölkələrində çoxsaylı törəmə müəssisələrə malikdirlər, onların həmçinin xarici ölkələrdə də müvafiq filialları, törəmə müəssisələri, nümayəndəlikləri vardır. Belə çoxşaxəli fəaliyyət və xidmət sahələrində təsərrüfatdaxili audit peşəkar xidmət növü ilə yanaşı təsərrüfat-maliyyə proseslərinə nəzarət funksiyasını da icra edir. Ona görə də xarici auditdən fərqli olaraq təsərrüfatdaxili auditin bir sıra spesifik xüsusiyyətləri mövcuddur. Bu spesifik xüsusiyyətlər əsas etibarı ilə onların struktur və təşkilati formasında, planlaşdırılmasında, təşkili mexanizmlərində, tətbiqi metodikasında və yekun sənədlərində daha qabarıq əks olunur. Belə ki, təşkilati və tabeçilik formasından asılı olaraq təsərrüfatdaxili audit təftiş komissiyası, daxili audit şöbəsi, nəzarət qrupu və ya rəhbərlik yanında mütəxəssis audit kimi fəaliyyət göstərə bilər. Bir qayda olaraq məhdud məsuliyyətli cəmiyyətlər, səhmdar cəmiyyətlər, iki və daha çox təsisçidən ibarət olan müştərək müəssisələr təsərrüfatdaxili auditin təftiş komissiyası formasından istifadə edirlər. Çünki, auditin bu formasında bir sıra spesifik əlamətlər mövcuddur. Əlbəttə, təsisçilər arasında neytral xidmət növünün (auditin) olması vacibdir. Müştərək müəssisələr tam sahibkar hüququna malik olmadığı üçün tərəflər arasında maliyyə əməliyyatlarının tam şəffaf olmasını təmin etməkdə təftiş komissiyası bir sıra müstəqil səlahiyyətlərə malik olmalıdır. Yəni təftiş komissiyası təsərrüfatdaxili auditin digər formalarından fərqli olaraq baş təşkilatın maliyyə əməliyyatlarına nəzarət etmək üçün səhmdar cəmiyyətin tabeçiliyində olan törəmə və yardımçı müəssisələrdə müstəqil olaraq audit yoxlama-ekspertiza işlərinin aparılmasını planlaşdıra bilər. Müştərək müəssisə və səhmdar cəmiyyətlərdə auditin formalarından biri olan təftiş komissiyası yalnız onların ali idarəedici orqanı olan şura, idarə heyəti, ali məclis və sair qarşısında hesabat verir. Eyni zamanda təftiş komissiyası tabeçilik baxımından müstəqildir və o yalnız həmin qurumların ali idarəedici orqanın qarşısında cavabdehdir. Təftiş komissiyası öz işini planlaşdıran zaman obyektiv mövqedən çıxış etməli və səhmdar cəmiyyətlərin, müştərək müəssisələrin təsisçilərinin hər hansı birinin maraq dairəsində olmamalıdır.

Müasir şəraitdə auditin bu formasından fərqli olaraq təsisçisi bir hüquqi, yaxud fiziki şəxsdən ibarət olan və geniş həcmli təsərrüfat-maliyyə əməliyyatlarına malik olan iri korporasiyalar, tabeçiliyində olan törəmə və yardımçı müəssisələrin audit xidmətini icra etmək üçün baş idarənin tərkibində daxili audit şöbəsi və yaxud nəzarət qrupu yarada bilər. Auditin bu formasının fərqli xüsusiyyəti ondan ibarətdir ki, hər şeydən öncə baş idarənin nəzdində yaradılan daxili audit şöbəsi və ya nəzarət qrupunun funksiyaları təftiş komissiyalarının funksiyalarından məhduddur. Təftiş komissiyası audit yoxlama-ekspertiza işlərinin planlaşdırılmasında nə qədər müstəqil idisə, audit şöbəsi və nəzarət qrupu audit yoxlama-ekspertiza işlərinin planlaşdırılma-

sında bir o qədər məhdud səlahiyyətlərə malikdir. Bir qayda olaraq iri müəssisələrin tərkibində fəaliyyət göstərən daxili audit şöbəsi və yaxud nəzarət qrupu yoxlama-ekspertiza işlərini planlaşdıran zaman onu müəssisənin rəhbərliyi ilə razılaşdırmalı, yeri gəldikdə isə öz işini müəssisənin fəaliyyət marağına və yaxud sahibkarın mənafeyinə uyğun qurmalıdır. Böyük həcmdə təsərrüfat subyektlərinə malik olmayan müəssisələr audit qrupu saxlama imkanları məhdud olan yerlərdə həmin funksiyaların icrası üçün bir nəfərdən ibarət auditor, nəzarətçi, analitik, mütəxəssis və yaxud təftişçi saxlaya bilər. Auditin bu formasının fərqli xüsusiyyətləri ondan ibarətdir ki, həmin funksiyaları yerinə yetirən şəxs hüquqi status baxımından şöbə strukturuna malik deyil, lakin qeyd etdiyimiz kimi, audit şöbələrinin nəzarət qruplarının bütün funksiyalarını icra edir. Təsərrüfatdaxili auditin bu formalarının struktur fəaliyyətinin nizamlanması üçün qəbul edilən normativ sənədlər xarici auditin normativ sənədlərindən fərqlidir. Belə ki, xarici audit fəaliyyətinin tənzimlənməsində audit standartları əsas götürülürsə, daxili audit fəaliyyətinin tənzimlənməsində şöbə və təftiş komissiyalarının əsasnamələri, onların hazırladıqları audit standartları, auditin keçirilməsinə dair təlimatlar, tövsiyələr əsas götürülür.

Müasir şəraitdə təsərrüfatdaxili auditin təşkilində mövcud spesifik xüsusiyyətlərlə yanaşı, onun aparılması və yoxlama-ekspertiza işlərində tətbiq edilən metodikada, auditorun yekun sənədlərində də kifayət qədər spesifik xüsusiyyətlər vardır. Belə ki, əgər təftiş komissiyası formasında daxili auditin keçirilməsinə xüsusi hazırlıq, yəni yoxlama briqadasının formalaşması, bu briqada daxilində vəzifə və öhdəliklərin bölüşdürülməsi, onların sahələr üzrə mütəxəssis kimi ixtisaslaşması vacibdirsə, təsərrüfatdaxili auditin digər formalarında (nəzarət qrupu, şöbə, müstəqil auditor) bu funksiyaları bir və ya iki mütəxəssis-auditor icra edir. Təsərrüfatdaxili auditin aparılmasına dair proqram-tezisin tərtib olunmasında da fərqli xüsusiyyətlər mövcuddur. Daha doğrusu, yoxlama briqadası üçün tərtib olunan proqramda auditin keçirilməsinə dair suallar ayrı-ayrı mütəxəssislər üçün müxtəlif olduğu halda, bu proqram-tezis daxili audit şöbəsində və ya nəzarət qrupu üçün eyni standart formada hazırlanır. Auditin iş sənədi olan digər bir məsələdə də fərqli xüsusiyyətlər mövcuddur. Təsərrüfatdaxili auditin şöbə və nəzarət qrupları üçün hazırlanan audit standartları onların tabe olduğu baş təşkilatın rəhbərliyi tərəfindən təsdiq edildiyi halda, təftiş komissiyası formasında göstərilən daxili audit xidmətində bu işçi sənədi ümumi prinsiplərə əsasən təftiş komissiyasının özü tərəfindən tərtib və təsdiq olunur. Təsərrüfat-maliyyə əməliyyatlarının yoxlanmasında prosedur qaydalarda, tərtib edilən metodika və üsullarda da xarici audit, təsərrüfatdaxili audit və onun formaları arasında fərqli xüsusiyyətlər mövcuddur. Təsərrüfatdaxili auditin yekunlaşdırılması və sənədləşdirilməsində də xarici auditə nisbətən fərqli yanaşmalar mövcuddur. Təsərrüfatdaxili auditin yekun sənədləri arayış, məlumat, proqnoz və təklif xarakterli məzmundan ibarət olan nəticə sənədləridir. Halbuki, xarici auditin yekun sənədləri təsərrüfat-maliyyə əməliyyatının yoxlama-ekspretizasına dair xüsusi rəy-arayış və ya akt ola bilər. Bu sənədlərin məzmunlarında fərqli xüsusiyyətlər ondan ibarətdir ki, təsərrüfatdaxili audit əksər hallarda tematik yoxlama xarakteri daşımaqla rəhbərliyi operativ məlumatlandırmaq məqsədi güdür. Xarici audit isə cari təsərrüfat ilində təsərrüfat-maliyyə fəaliyyətində yol verilmiş qanun pozuntularını, kənarlaşmaları və maliyyə hesabatlarının reallığını təsdiq edir və qiymətləndirir.

Əliyeva T.T.,
iqtisad elmləri üzrə fəlsəfə doktoru
Baki Biznes Universiteti

BÜDCƏ GƏLİRLƏRİNİN İDARƏ OLUNMASININ TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

Büdcə potensialının strukturuna vergi gəlirləri, qeyri-vergi gəlirləri və əvəzsiz daxilolmalar (subvensiya istisna olmaqla), planlaşdırılan xərclərin potensialı daxildir. Büdcə potensialının kəmiyyətini hesablamaq üçün vergi və qeyri-vergi potensialları cəmlənir və bundan ölkənin xərc öhdəliyi çıxılır. Büdcə potensialından istifadə dedikdə, gəlir daxilolmaları əsasında büdcənin imkan verdiyi maksimum mümkün xərclər başa düşülür. Son dövrlərdə istər ölkəmizdə, istərsə də qlobal iqtisadiyyatda baş verən proseslər, dunya bazarında neftin qiymətinin enməsi və neftdən gələn gəlirlərin 2014-cu ildən başlıyaraq kəskin azalması və ticarət tərəfdaşı ölkələrində iqtisadi böhran nəticəsində ölkədə iqtisadi artım sürətinin yavaşıması, tədiyyə balansında qeyri–neft büdcə kəsirinin olması mənfilik kimi qiymətləndirilir. Belə ki, 2008-ci ildə dunya bazarında neftin 1 barelinin qiymətinin 150 ABŞ dollarına yaxınlaşdığı halda 2016-cı ildə 30 ABŞ dollarından da aşağı düşməsi və neftin qiymətlərindəki bu cür qlobal azalma Azərbaycan iqtisadiyyatına mənfi təsir göstərdi. Bu təkcə Azərbaycanda deyil, həmcinin neftin qiymətlərinin iqtisadi inkişafına bilavasitə təsir edən Qazaxıstan, Səudiyyə Ərəbistanı və Rusiya kimi təbii ehtiyyatlarla zəngin ölkələri çətinliklərlə üzləşdirdi. Azərbaycanda da hazırda eyni vəziyyət mövcuddur. Azərbaycanda iqtisadi imkanların sürətləndirilməsi üçün potensial imkanlar mövcuddur. Belə ki, Azərbaycan üç nəhəng dövlətlərin – İran, Türkiyə və Rusiya kimi iqtisadisadiyyatı inkişaf etmiş dövlətlər arasında yerləşir. Azərbaycan Ümumi Daxili Məhsulu - 30 trilyon ABŞ dollarına çatan Avropa Birliyi, Çin və Körfəz ölkələri bazarlarının yaratdığı dairənin mərkəzində yerləşir. Məsələn, Azərbaycanla dünyanın ikinci iqtisadiyyatı sayılan Çin Xalq Respublikasının arasında yalnız Qazaxıstan vardır və həmçinin Azərbaycanla Körfəz ölkələri arasında təkcə İran İslam Respublikası, Azərbaycanla Avropa Birliyi arasında isə yalnız Gürcüstan dövləti yerləşir. Beləliklə, həm qısa, həm də iri radiuslu dairədə Azərbaycanın bazarlara çıxmaq potensialı böyükdür ki, bu da ölkəmizin iqtisadiyyatının inkişafina təkan verəcəkdir. Onu da qeyd etməliyəm ki, Çin Xalq Respublikası əsas iqtisadi regionlarla birgə "İpək Yolu" layihəsini həyata keçirməyi planlaşdırır ki, bu marşrutlardan biri də Azərbaycan ərazisindən keçir. Eyni zamanda**,** Avropa, Rusiya, İran, Hindistan və Mərkəzi Asiyanı birləşdirəcək Şimal–Cənub nəqliyyat dəhlizinin də bir xətti Azərbaycanın ərazisindən keçir. Bu təşəbbüslər ölkəmizin ərazisindən keçən əmtəə və sərnişin dövriyyəsinin həcmini artırmaqla marşrut boyu istehsal və nəqliyyat-logistika xidmətləri üçün imkanlar yaradacaqdır. Azərbaycan təkcə tranzit ölkəsi deyil, o həm də öz ərazisindən keçən əmtəələr üzərində əlavə dəyər yaratmaq potensialına malikdir.

Büdcə potensialından istifadənin iqtisadi problemləri ölkə Prezitenti tərəfindən 06 dekabr 2016-cı il tarixində milli iqtisadiyat və iqtisadiyyatın əsas sektorları özrə Strateji Yol Xəritəsinin icrası üçün sərəncam verilmişdir. Strateji Yol Xəritəsində muəyyən məqsədlər və hədəflər muəyyən edilmişdir. Strateji baxış və yol xəritəsi qısa, orta və uzunmüddətli dövrləri əhatə edir.

Strateji Yol Xəritəsinin hazırlanmasında milli iqtisadiyyatın əsas hədəfləri:

- ixracda rəqabətliliyin və Birbaşa Xarici İnvestisiyaların (BXİ) artırılması;
- daxili bazar üçün vacib olan sektorlarda səmərəliliyin yüksəldilməsi və idxalın yerli istehsalla əvəzlənməsi;
- iqtisadi artımın dayanıqlılığının təmin olunması;
- monetar siyasətin məzənnə rejimi ilə qarşılanması fiskal siyasətlə monetar siyasətin uzlaşmasının təmin olunması. Bilirik ki, 1970-ci ildən bəri monetar siyasət ümumilikdə fiskal siyasətdən ayrı həyata keçirilirdi.

Bununla da əsas nail olunacaq məqsədlər aşağıdakılardır:

- gəlirlilik səviyyəsini və məşğulluğu artırmaq;
- iqtisadiyyatı qeyri-neft sahələri istiqamətində diversifikasiya etmək;
- bütün iqtisadiyyatda səmərəliliyi və rəqabətliliyi artırmaq;
- cari hesab balansını davamlı şəkildə yaxşılaşdırmaq;
- sosial rifah və inklüzivliyin sosial sektorlara investisiyaların həcminin artırılması.

Büdcə potensialından effektiv istifadənin iqtisadi problemlərinə biz aşağıdakıları aid edirik:

1. İqtisadi inkişafın hazırkı mərhələsində neftdən daxil olan gəlirlərin qeyri-neft sektorunun Strateji Yol Xəritəsində nəzərdə tutulan prioritet sahələrinə yönəldilərkən bu vəsaitdən effektiv istifadənin mövcud problemləri.

2. Büdcə potensialından istifadə zamanı meydana çıxan iqtisadi risklərin, o cümlədən büdcə risklərinin qabaqcadan müəyyən edilməsi ilə bağlı optimal qiymətləndirmə modelinin olmaması.

3.Respublikanın bölgələrinin əksəriyyətinin hələ də mərkəzi büdcədən ayrılan dotasiyalardan asılı olması.

4. Bələdiyyələrin işlək və çevik maliyyələşmə mexanizmlərinə malik olmaması.

5. Büdcə vəsaitlərindən istifadədə maliyyə şəffaflığının və büdcəyə nəzarət sisteminin zəif olması.

6. Büdcə-vergi siyasətinin digər tənzimləmə vasitələri ilə (valyuta-pul, kredit və qiymət siyasəti ilə) əlaqələrinin zəif olması.

7. Vergi güzəştlərinin səmərəli tətbiqi həyata keçirilsə də, potensial vergi mənbələrinin istifadəyə verilməsi mexanizminin olmaması və s.

Şəfizadə E.R.,
Bakı Dövlət Universiteti
AMEA-nın İdarəetmə Sistemləri İnstitutu
Əliyev R.M.,
AMEA-nın İqtisadiyyat İnstitutu
Əzizova G.H.,
Əmək və Sosial Problemlər üzrə
Elmi-tədqiqat və Tədris Mərkəzi

AZƏRBAYCANDA ÜMUMİ DAXİLİ MƏHSUL ÜÇÜN DİNAMİK MODEL

İqtisadi inkişafın əsas meyarı və mənbəyi iqtisadi artımdır. İqtisadi artım-milli istehsalın (ÜDM, ÜMG) əsas göstəricilərinin dayanıqlı artım tendensiyasıdır. Bu zaman bu göstəricilərin həm mütləq, həm də bir nəfərə düşən payı nəzərdə tutulur.
Milli istehsalın həcminin ölçülməsi üçün iqtisadi nəzəriyyə və statistikada müxtəlif göstəricilərdən istifadə olunur. Bunların içərisində ən vacib yeri Ümumi Daxili Məhsul (ÜDM) tutur. ÜDM-iqtisadiyyatda bir il ərzində istehsal olunan son məhsul və xidmətlərin pul vahidində ifadəsidir. Bu zaman konkret ölkənin hüdudları daxilində istehsal olunmuş son məhsul və xidmətlər nəzərdə tutulur.
ÜDM-in hesablanmasında üç əsas metoddan istifadə edilir:

- əlavə dəyər metodu (istehsal metodu) ilə ÜDM-nin həcmi verilmiş müəssisədə istehsal prosesində yaranan və son məhsulda real payını xarakterizə edən dəyər, əmək-haqqı və gəlir də daxil olmaqla, bütün sahələr və istehsal növləri üzrə əlavə dəyərin cəmi ilə təyin edilir;
- xərclərə görə ÜDM-nin həcmi cəmiyyətdəki bütün xərclərin (əhalinin istehlak xərcləri, istehsalçıların investisiyaları, dövlətin mal və xidmətlərin alınmasına görə xərcləri), təmiz ixracın (ölkənin idxal ixrac saldosu) cəmi kimi hesablanılır;
- gəlirlərə görə ÜDM-nin hesablanması - cəmiyyətdə olan bütün gəlirlərin cəmi (yalnız dövlət büdcəsindən maliyyələşən təşkilatlarda işləyən insanların əmək haqqlarından başqa, belə ki, onların əməkhaqqları dövlət büdcəsindən ödənilir), mülkiyyətdən gəlirlər, gəlir, kapitaldan faizlər, amortizasiya ayırmaları, renta haqqları.

İqtisadi artım faktorları dedikdə, istehsal məhsullarının həcm və miqyasının real artımına zəmin yaradan proseslər, göstəricilər yığımıdır.

İqtisadi artımın obyektiv və subyektiv faktorlarını ayırd edirlər. Obyektiv faktorlar dedikdə, iqtisadi artım tempinə birbaşa və müəyyənlənşdirici təsir göstərən faktorlar nəzərdə tutulur. Subyektiv faktorlar dedikdə, iqtisadi artım miqyası və tempinə dolayı təsir edən faktorlar nəzərdə tutulur. İqtisadi artımın obyektiv faktorları aşağıdakılardır:

- əsas kapitalın həcminin və keyfiyyət tərkibinin artırılması;
- istehsal texnologiyalarının dəyişməsi;
- iqtisadi resursların həcminin artırılması;
- əhalinin sahibkarlıq fəaliyyətinin artması;
- əmək resurslarının kəmiyyət və keyfiyyətinin artırılması;
- istehsalın həcminin artırılmasına zəmin yaratmasına imkan verən əhalinin tələbatının aktivləşdirilməsi.

İqtisadi artımın subyektiv faktorları aşağıdakılardır:

- kredit sisteminin genişləndirilməsi. Belə ki, bu sistemin aktivləşməsi əhaliyə lazımi qədər məhsul istehlak etməyə imkan verir. Bu isə öz növbəsində istehsalı stimullaşdırır;
- İstehsal məhsul və xidmətləri bazarlarının inhisarçılığının azaldılması. Bu isə öz növbəsində sahibkarlıq fəaliyyətini aktivləşdirir;
- İstehsal resurslarının dəyərinin azaldılması. Bu proses istehsalın həcminin artmasına və qiymətin azalmasına səbəb olur. Bununla da, tələbatın həcmi artır;
- Vergilərin azaldılması. Vergilərin azaldılması ümumi iqtisadi aktivliyin artmasına gətirib çıxarır.

İqtisadi inkişafın müasir mərhələsində iqtisadi artıma daha çox aşağıdakı faktorlar təsir göstərir:

- İqtisadi artıma birbaşa təsir göstərən təbii resurslar. Bu resursların əhəmiyyəti gündən günə artır. Belə ki, resurs ehtiyyatları məhduddur;
- əhalinin sayı, əmək resurslarının artması;
- ölkə hüdudları daxilində kapitalın artırılması. Kapitalın artırılması istehsalın həcminin və miqyasının artmasına, yeni elmi-texniki tədqiqların aparılmasının, insan resurslarının investisiyalaşdırılmasına şərait yaradır;
- elmi-texniki tərəqqi, hansı ki, iqtisadi artımın əsasını qoyan faktordur. Belə ki, elmi-texniki tərəqqi iqtisadi inkişafın keyfiyyət baxımından yeni səviyyəyə keçməsinə şərait yaradır.

Milli iqtisadiyyat çərçivəsində iqtisadi artım faktorlarının bir-biri ilə qarşılıqlı əlaqəsi mürəkkəbdir. Belə bir şəraitdə dövlətin əsas məqsədi mövcud iqtisadi faktorlardan effektiv istifadə edərək, iqtisadi artımı bütün əhalinin maraqlarını həyata keçirməyə yönəltməkdir.

Yuxarıda göstərildiyi kimi, ölkənin iqtisadi artım göstəricilərindən biri Ümumi Daxili Məhsul (ÜDM), iqtisadi artım faktorlarından biri isə kapitaldır. Bu işdə biz ÜDM-nin ölkə iqtisadiyyatına qoyulan investisiyalardan asılılığını ifadə edən dinamik model quracayıq.

ÜDM-nin həcmini x_i, ölkə iqtisadiyyatına qoyulan investisiyanın həcmini isə u_i-ilə işarə edək. Fərz edək ki, $(i+1)$ ilində ÜDM-nin həcminə, yəni (x_{i+1})-ə i-ci ildəki x_i və u_i təsir edir və bu asılılıq xəttidir. Tədqiq olunan dövr ərzində başlanğıc ildə ÜDM-nin həcmini x_0, investisiyanın həcmini u_0 ilə işarə edək. Aşağıdakı məsələyə baxaq:

$$\begin{cases} \tilde{x}_{i+1} = Fx_i + Gu_i + v, i = \overline{0,n} & (1) \\ x(0) = x_0, & (2) \\ u(0) = u_0 & (3) \end{cases}$$

Burada, F və G sabitlər, xətti asılılığın parametrləri, v-xəta, $\tilde{x}_{i+1}$-$(i+1)$ ilində ÜDM-nin həcminin model qiymətidir.

Deməli, bizim məqsədimiz F və G sabitlərinin elə qiymətlərini tapmaqdır ki, ÜDM-nin həcminin model qiymətləri $(\tilde{x}_i)$ ilə statistik qiymətləri (x_i) maksimal dərəcədə yaxın olsunlar. Yəni, $|\tilde{x}_i - x_i|$ fərqi sıfra yaxın olsun. Bunun üçün ən kiçik kvadratlar metodundan istifadə edək. Aşağıdakı funksionalı minimallaşdıraq:

$$J(x) = \sum_{i=1}^{n} (\tilde{x}_i - x_i)^2 \to \min \tag{4}$$

(4)-də (1)-i nəzərə alsaq, aşağıdakını alarıq:

$$J(x) = \sum_{i=1}^{n} (Fx_{i-1} + Gu_{i-1} + v - x_i)^2 \to \min \tag{5}$$

(5)-ə minimal qiymət verən F, G və v parametrlərinin qiymətini tapmaq üçün, (5)-dən F-ə G-yə və v-yə görə birinci tərtib törəmə alıb, sıfra bərabərləşdirilir. Yəni,

$$J'_F = 0 \tag{6}$$

$$J'_G = 0 \tag{7}$$

$$J'_v = 0 \tag{8}$$

Onda aşağıdakı tənliklər sistemini alarıq:

$$\begin{cases} \sum_{i=1}^{n} x_{i-1}(Fx_{i-1} + Gu_{i-1} + v - x_i) = 0 & (9) \\ \sum_{i=1}^{n} u_{i-1}(Fx_{i-1} + Gu_{i-1} + v - x_i) = 0 & (10) \\ \sum_{i=1}^{n} (Fx_{i-1} + Gu_{i-1} + v - x_i) = 0 & (11) \end{cases}$$

(9)-(11) tənliklər sistemindən F, G və v üçün aşağıdakı ifadələri alırıq:

$$\begin{cases} F = \dfrac{\sum_{i=1}^{n} x_i x_{i-1} - \frac{1}{n}\sum_{i=1}^{n} x_i \sum_{i=1}^{n} x_{i-1} - G\left(\sum_{i=1}^{n} u_{i-1}x_{i-1} - \frac{1}{n}\sum_{i=1}^{n} x_{i-1}\sum_{i=1}^{n} u_{i-1}\right)}{\sum_{i=1}^{n} {x_{i-1}}^2 - \frac{1}{n}\left(\sum_{i=1}^{n} x_{i-1}\right)^2} & (12) \\ G = \dfrac{\left(\sum_{i=1}^{n} x_i u_{i-1} - \frac{1}{n}\sum_{i=1}^{n} x_i \sum_{i=1}^{n} u_{i-1}\right)}{\left(\sum_{i=1}^{n} {u_{i-1}}^2 - \frac{1}{n}\left(\sum_{i=1}^{n} u_{i-1}\right)^2\right) - \dfrac{\left(\sum_{i=1}^{n} u_{i-1}x_{i-1} - \frac{1}{n}\sum_{i=1}^{n} x_{i-1}\sum_{i=1}^{n} u_{i-1}\right)^2}{\sum_{i=1}^{n} {x_{i-1}}^2 - \frac{1}{n}\left(\sum_{i=1}^{n} x_{i-1}\right)^2}} - \\ \quad - \dfrac{\dfrac{\left(\sum_{i=1}^{n} x_i x_{i-1} - \frac{1}{n}\sum_{i=1}^{n} x_i \sum_{i=1}^{n} x_{i-1}\right)\left(\sum_{i=1}^{n} u_{i-1}x_{i-1} - \frac{1}{n}\sum_{i=1}^{n} x_{i-1}\sum_{i=1}^{n} u_{i-1}\right)}{\sum_{i=1}^{n} {x_{i-1}}^2 - \frac{1}{n}\left(\sum_{i=1}^{n} x_{i-1}\right)^2}}{\left(\sum_{i=1}^{n} {u_{i-1}}^2 - \frac{1}{n}\left(\sum_{i=1}^{n} u_{i-1}\right)^2\right) - \dfrac{\left(\sum_{i=1}^{n} u_{i-1}x_{i-1} - \frac{1}{n}\sum_{i=1}^{n} x_{i-1}\sum_{i=1}^{n} u_{i-1}\right)^2}{\sum_{i=1}^{n} {x_{i-1}}^2 - \frac{1}{n}\left(\sum_{i=1}^{n} x_{i-1}\right)^2}} & (13) \\ v = \dfrac{1}{n}\left(\sum_{i=1}^{n} x_i - F\sum_{i=1}^{n} x_{i-1} - G\sum_{i=1}^{n} u_{i-1}\right) & (14) \end{cases}$$

Azərbaycanda 2005-2016-cı illərdə ÜDM və sənayeyə qoyulan investisiyanın statistik qiymətlərini nəzərdən keçirək (cədvəl1).

Cədvəl 1. Azərbaycanda 2005-2016-cı illərdə ÜDM-nin və sənayeyə qoyulan investisiyanın həcmi, mlyn. manat.

İllər	**UDM, mlyn. man.**	**Senayeye qoyulan invest, mlyn man.**
2005	12522.5	4,176
2006	18746.2	4,297
2007	28360.5	4,591
2008	40137.2	4,249
2009	35601.5	3,225
2010	42465,0	4 276
2011	52082,0	5,370
2012	54743.7	6,040
2013	58182,0	7,500
2014	59014,1	7,640
2015	54380.0	8,500
2016	60393.6	9,950

Bu göstəricilər arasında korrelyasiya əmsalı R=0.75-ə bərabərdir. Deməli, ÜDM-nin həcminə sənayeyə qoyulan investisiyanın həcmi yetərincə təsir göstərir.

Bu isə o deməkdir ki, ÜDM-nin sənayeyə qoyulan investisiyadan asılılığı əks etdirən dinamik modelə baxmaq olar. Onda (1)-(3) məsələsi aşağıdakı şəkildə olacaqdır:

$$\begin{cases} \tilde{x}_{i+1} = Fx_i + Gu_i + v, i = \overline{0,11} & (15) \\ x(0) = x_{2005}, & (16) \\ u(0) = u_{2005} & (17) \end{cases}$$

Cədvəl 1-ə əsasən $x_{2005} = 4176\, mlyn. man.$ $u_{2005} = 12522.5$ mlyn. man. olacaqdır. F, G və v parametrlərinin qiyməti (12)-(14)-ə əsasən aşağıdakı kimi olacaqdır:

$$\begin{cases} F = \dfrac{\sum_{i=1}^{11} x_i x_{i-1} - \frac{1}{n}\sum_{i=1}^{11} x_i \sum_{i=1}^{11} x_{i-1} - G\left(\sum_{i=1}^{11} u_{i-1}x_{i-1} - \frac{1}{11}\sum_{i=1}^{11} x_{i-1}\sum_{i=1}^{11} u_{i-1}\right)}{\sum_{i=1}^{11} {x_{i-1}}^2 - \frac{1}{11}(\sum_{i=1}^{11} x_{i-1})^2} & (18) \\ G = \dfrac{\sum_{i=1}^{11} x_i u_{i-1} - \frac{1}{11}\sum_{i=1}^{11} x_i \sum_{i=1}^{11} u_{i-1}}{\left(\sum_{i=1}^{11} {u_{i-1}}^2 - \frac{1}{11}(\sum_{i=1}^{11} u_{i-1})^2\right) - \dfrac{\left(\sum_{i=1}^{11} u_{i-1}x_{i-1} - \frac{1}{11}\sum_{i=1}^{11} x_{i-1}\sum_{i=1}^{11} u_{i-1}\right)^2}{\sum_{i=1}^{11} {x_{i-1}}^2 - \frac{1}{11}(\sum_{i=1}^{11} x_{i-1})^2}} - \\ \dfrac{\dfrac{\left(\sum_{i=1}^{11} x_i x_{i-1} - \frac{1}{11}\sum_{i=1}^{11} x_i \sum_{i=1}^{11} x_{i-1}\right)\left(\sum_{i=1}^{11} u_{i-1}x_{i-1} - \frac{1}{11}\sum_{i=1}^{11} x_{i-1}\sum_{i=1}^{11} u_{i-1}\right)}{\sum_{i=1}^{11} {x_{i-1}}^2 - \frac{1}{11}(\sum_{i=1}^{11} x_{i-1})^2}}{\left(\sum_{i=1}^{11} {u_{i-1}}^2 - \frac{1}{11}(\sum_{i=1}^{11} u_{i-1})^2\right) - \dfrac{\left(\sum_{i=1}^{11} u_{i-1}x_{i-1} - \frac{1}{11}\sum_{i=1}^{11} x_{i-1}\sum_{i=1}^{11} u_{i-1}\right)^2}{\sum_{i=1}^{11} {x_{i-1}}^2 - \frac{1}{11}(\sum_{i=1}^{11} x_{i-1})^2}}} & (19) \\ v = \dfrac{1}{11}\left(\sum_{i=1}^{11} x_i - F\sum_{i=1}^{11} x_{i-1} - G\sum_{i=1}^{11} u_{i-1}\right) & (20) \end{cases}$$

Bu göstəricilər əsasında (15)-(16) düsturları MATLAB proqramlar paketində işlənmiş və aşağıdakı nəticələr alınmışdır:

G=0.0764

F=0.8044

v=1.2047e+004

Deməli, model aşağıdakı şəkildə olacaqdır:

$$\tilde{x}_{i+1} = 0.8044x_i + 0.0764u_i + 12047 \qquad (21)$$

(17) əsasında ÜDM üçün alınmış model qiymətləri ilə statistik qiymətlərin müqayisəsi aşağıdakı cədvəldə verilmişdir:

Azərbaycanda 2005-2016-cı illərdə ÜDM-nin və sənayeyə qoyulan investisiyanın həcmi, mlyn. manat.

Cədvəl 1.

İllər	**UDM-in statistik qiymətləri,mlyn man**	**UDM-in model qiymətləri,mlyn man**
2005	12522.5	12523
2006	18746.2	22440
2007	28360.5	27456
2008	40137.2	35212
2009	35601.5	44660
2010	42465,0	40933
2011	52082,0	46534
2012	54743.7	54354
2013	58182,0	56546
2014	59014,1	59424
2015	54380.0	60104
2016	60393.6	56442

ÜDM üçün alınmış model qiymətləri ilə statistik qiymətlərin müqayisəsini vizual şəkildə əks etdirən qrafiki şəkil1-də göstərilmişdir.



Şəkil1. ÜDM üçün alınmış model qiymətləri (yaşıl xətlə) ilə statistik qiymətlərin (qırmızı xətlə) müqayisəsi

Алиева Р.О.,
специалист Русской Экономической Школы
Азербайджанский Государственный
Экономический Университет UNEC

НАПРАВЛЕНИЯ УСОВЕРШЕНСТВОВАНИЯ НАЛОГОВОГО КОНТРОЛЯ

После восстановления Азербайджаном своей государственной независимости, одной из важнейших задач было развитие рыночной экономики, обеспечение экономических интересов государства и народа. Перед государств стояла задача решения проблем, связанных с определением стратегии будущего экономического и социального развития Азербайджанской Республики. Одной из важнейших экономических функций государства для выполнения этих задач было также и формирование налоговой системы, обеспечивающей поступления в государственный бюджет страны обязательных налоговых сборов. Общенациональный лидер Гейдар Алиев справедливо отмечал, что «Мы должны регулировать рыночную экономику посредством налогов». Налоговая система является одним из приоритетных направлений экономической политики любой страны и эта политика должна создавать благоприятные условия для динамичного развития экономики, увеличения экономического потенциала, а также улучшения

материального благосостояния населения. В первые годы независимости Азербайджан столкнулся с рядом проблем в процессе создания налоговой системы. Отсутствовал опыт изучения и сбора налогов, а непосредственное применение зарубежного опыта как такового не представлялось возможным. С другой стороны, перестройка системы управления экономикой создало ряд практических проблем, что стало причиной падения уровня производства и качества жизни населения. Недостаточное изучениеэкономических проблем переходного периода, разработка не на должном уровне теоретической концепции налогообложения стало причиной нестабильности налоговой системы. Поэтому усовершенствование налоговой системы Азербайджана должно осуществляться во взаимосвязи с существующей социально-экономической ситуацией.

Налоги органически связаны с экономической политикой государства и при формировании бюджета играют роль могущественного орудия в руках государства. С одной стороны, налоги обеспечивают государственный бюджет финансовыми резервами, а с другой – участвуют в регулировании экономики страны. При формировании налоговой системы любого государства основными элементами должны быть: система налоговых органов; система налогового законодательства; принципы налоговой политики; порядок распределения налогов по бюджетам; форма и методы налогового контроля; правила и условия налогового исполнения; методы подхода к решению проблемы международного двойного налогообложения и т.д.

Необходимо отметить, что меры, предпринимаемые в области налогообложения каждого государства и правительства, находят свое отражение в концепции его налогового контроля. В этой связи уместно было бы отметить, что изучение теоретико-методологических основ усовершенствования налогового контроля также несут в себе особую актуальность. Так, в сущности налогового контроля должны быть заложены интересы частного благосостояния с интересами общественного, интересы демократии с интересами администрирования, интересы экономики с интересами политики, а также интересы государства и граждан, эти интересы должны учитываться в обязательном порядке.

Как было отмечено, основным условием формирования финансово-бюджетной системы любой страны является накопление финансовых средств. В качестве основного источника формирования бюджета выступает налогообложение, а сбор налогов зависит от степени дисциплинированности налогоплательщиков. Поэтому в качестве основных методов налогового контроля, в первую очередь, должны использоваться прогноз и предупреждение, и лишь затем меры наказания.

В Азербайджанской Республике эти отношения должны строиться на уровне новых требований управления экономикой, а еще большее расширение рыночных отношений, создание различных форм собственности, организация совместных предприятий с участием иностранного капитала, а также усиление и совершенствование системы налогового контроля в компаниях ставится как

первостепенная и весомая задача. В частности, если учесть что государство в последнее время одним из приоритетных направлений политики, призванной обеспечить общее развитие экономики, объявило создание благоприятных условий для продолжительного развития в стране свободного предпринимательства, роль вышеуказанного фактора будет еще более значимой. Налоговые проверки занимают основное место в системе налогового контроля.

В этой связи, необходимо отметить, что налоговые проверки напрямую обеспечивают контроль над правильностью и полнотой расчета налоговых отчислений. Поэтому экономическая наука, созданная в середине века европейскими учеными, приняв сегодня классическую форму, непосредственно составляет основу современной экономической науки. К трудам этого родаможно причислить анталогию в двух частях «О богатстве народов» Адама Смита, а также многие научные труды Давида Рикардо и Джона Стюарта Милля. По данной тематике были использованы науные произведения европейских ученых Д.А.Десоро, Р.Ф.Мейера, К.П.Бровна и других, а также труды таких русских ученых, как В.Л.Горелев, И.В.Горский, В.В.Карпов, РЛ.Дернберг, А.И.Пономарев и т.д. В связи с исследованием широко использовались также и работы и научные подходы многих ученых из США и европейских стран, России и стран СНГ, а также некоторых соседних стран. Что же касается ученых из Азербайджана, то в рамках исследовательской работы использованы научные статьи и труды З.А.Самедзаде, А.Ф.Мусаева, Я.А.Кяльбиева, Т.А.Паша, И.И.Алиева, М.Гасанлы, А.А.Гусейнова, Я.Мурадова и других.

Исследования показывают, что в нашей республике сформировалась государственная налоговая служба, соответствующая международным стандартам и способная осуществлять гибкую налоговую политику адекватно сложившимся в стране рыночным отношениям. В результате комплексных мер, осуществленных за последние годы, в стране модернизировалось налоговое администрирование, как в центральном аппарате министерства, так и в местных налоговых органах были проведены структурные реформы, была создана новая система управления, действующая на более рациональных и функциональных основах. В результате, удалось сформировать налоговое администрирование, осуществляющее мощный контроль, создать совершенную систему электронных связей между налоговыми органами и налогоплательщиками, были установлены информационные системы, обладающие аналитической базой самого современного уровня.

Комплексные реформы, проводимые в налоговой системе страны, создание благоприятной налоговой среды для предпринимателей и деловых людей, а также осуществление гибкой и рациональной налоговой политики в конечном итоге приведет к росту налоговых поступлений в государственный бюджет.

Новрузов С.И.,
Туристическое дело АТМУ

ПРИМЕНЕНИЕ АНИМАЦИОННЫХ ПРОГРАММ И ИННОВАЦИОННЫХ ТЕХНОЛОГИЙ С ЦЕЛЬЮ РАЗВИТИЯ ТУРИСТИЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

Азербайджан является одной из быстро развивающихся стран в мире. Наша страна проделывает большие шаги и демонстрирует многообещающую перспективу во многих сферах общественной и социальной жизни, начиная от экономики, в частности нефтяного промысла, до музыкальных и спортивных достижений. Но невероятные природные прелести, умопомрачительные пейзажи, уникальные геоморфологические единицы нашей страны, богатая и многовековая культура, достояния средневекового и современного зодчества и архитектуры открывают большие горизонты на пути развития туристской деятельности. За последние годы, мы становимся свидетелями стремительного развития туристкой деятельности нашей страны, о чём свидетельствуют показатели о числе прибывающих туристов в Азербайджан. Показатели растут, но не стремительно и, можно сказать, не самым желаемым темпом. Одной из проблем отечественного туризма является желание посещать нашу страну один или два раза, но не продолжительно каждый год. Причиной того является тот факт, что посетивший раз нашу столицу иностранный турист может вполне довольствоваться всеми прелестями нашего Баку и не будет испытывать надобности возвращаться еще раз (ведь фотографии возле Девичьей Башни, Огненных Вышек, Храма Огнепоклонников у них уже будут). Следовательно, должны применяться такие виды анимационных программ, которые будут привлекать внимание большего числа туристов.

Посещение Азербайджана европейскими туристами очень часто обусловлено желанием соприкоснуться к Кавказской культуре и быту. В этом отношении, Азербайджан выделяется наибольшими возможностями по привлечению туристов, ибо Армения не в состоянии развивать свой туризм, а северно-кавказские республики Российской Федерации вызывают недоверие из-за некогда существующих неспокойствий в Дагестанской и Чеченской Республиках. В этом случае, главным соперником за право стать кавказским лидером является Грузия, которая за год, по официальным данным, принимает значительно больше туристов, чем Азербайджан. Но надо брать во внимание тот факт, что значительная часть туристов, отдыхающих в Грузии, приходится на долю наших соотечественников. Следовательно, в развитии туристской деятельности Грузии немалую роль играют жители Азербайджана. В этом случае возникает вопрос: почему в качестве туристического направления наши граждане не дают предпочтения азербайджанским районам, а также, почему мы не можем обогнать Грузию по числу ежегодно отдыхающих туристов?

Во-первых, стоит отметить монотонность некоторых предоставляемых услуг и отсутствие анимационных программ, играющие важную роль в привлечении внимания туристов к определенному туристическому объекту, а также

являющиеся средством придачи максимального развлечения и удовлетворения от посещаемого объекта.

XXI век поражает своими незамысловатыми технологическими инновациями, которые уже на протяжении нескольких лет являются фундаментальным звеном ряда анимационных программ, применяемых во многих странах Европы, а также в Японии, Южной Корее и Сингапуре. Не удивительно, что эти страны привлекают наибольшее число туристов и являются странами, где туризм стал важной частью экономики страны, формируя значительную часть ежегодного государственного бюджета доходами туристкой деятельности. К сожалению, такие технологии еще не стали широко использоваться в наших туристических объектах. Но мы должны работать над новыми видами анимационных программ, которые привели бы к стремительному росту числа туристов.

Размышляя о нововведениях в области туризма, мы должны сфокусировать свое внимание на тех новшествах, которые ранее не были применены в данном регионе. И Грузия и Азербайджан привлекают туристов изысками национальной кухни. Но такое удовольствие не долго будет приносить наслаждение, ибо во-второй или в-третий раз, турист будет ожидать от посещаемых ресторанов нечто захватывающего и поражающего. Наши рестораны и кафе выделяются особым интерьером с привлекательным оформлением. Но и это может радовать глаз недолго (лишь во время ожидания заказа). Но обслуживание у нас остается консервативным, то есть стандартное обслуживание официантом или кассиром, используемое на протяжении многих десятилетий. Как ранее было отмечено, мы живет в эпоху технологий и мы могли бы заменить обслуживание в некоторых элитных ресторанах на автоматизированное обслуживание. В этом случае и заказы будут приниматься автоматизированным способом, и этим же методом будут предоставляться посетителю. Это могут быть специальные машины, роботы и др. К примеру, на каждом столе может быть установлен особый экран, заменяющий меню, с помощью которого посетитель может не только ознакомиться с меню, но и увидеть небольшое видео приготовления определенного блюда и его финальный вариант. Не раз мы сталкивались со случаями, когда заказав определённое изысканное блюдо, которое выглядело так «изысканно» лишь на фотографиях меню, нас ждало большое разочарование по поводу вида нашего заказа. А после такого и вкус может показаться не удовлетворительным, ибо первые впечатления иногда играют самую важную роль. Но небольшие слайд-видео о приготовлении определенного блюда смогут придать уверенность посетителю заказывать любое желаемое блюдо без колебаний, а это в свою очередь, повысит доверие посетителей к ресторану и поднимет репутацию данного заведения. С помощью данного экрана клиент сможет осуществить онлайн заказ, который моментально будет отправляться на кухню. Тем самым, клиент сможет сэкономить достаточно времени, ведь очень часто для осуществления заказа приходится ждать официанта, который по пути на кухню успевает принять заказ еще у некоторых посетителей, что отнимает много времени. Еще одна особенность в том, что эти видео будут на нескольких языках. Это облегчит работу туристам, которые не знают английского, ибо мы часто сталкиваемся со случаями, когда турист, не зная английского, не может изъяснить свой заказ офи-

цианту. Особенно такое наблюдается с арабскими и иранскими туристами. С учетом большого потока туристов из этих стран, помимо английского, русского, французского, испанского языков добавление описаний блюд на арабском и персидском языках будет очень уместно. Было бы интересно установить небольшую «железную дорогу» от кухни до столиков ресторанов, по которому и будет отправляться приготовленное блюдо. Во-первых, это сэкономит время, ибо поварам не надо будет ждать официантов для отправки заказа, а сделать это они смогут уже сами по чудо «железной дороги». Во-вторых, конечно же, это большой аттракцион не только для детей, но и для взрослых, ведь креативность и необычность всегда привлекает внимание и даже вызывает восторг. Учитывая тот факт, что на просторах Кавказа нет таких ресторанов, то это еще больше привлечет внимание к нашей стране. Иногда туристы приезжают в определенный регион лишь за одну туристическую изюминку. Применение такой анимационной программы в сфере объектов общественного питания могло бы стать новой технологической изюминкой наших ресторанов.

Уже долгие годы в наших ресторанах подают китайскую, индийскую и другие виды экзотической кухни. Но пора внести новшество! В Европе набирает актуальность молекулярная кухня, цель которой является удивить, поразить, довести человека до недоумения. Такая еда готовится с помощью специальных приборов и газов, которые могут видоизменить любое блюдо до неузнаваемости. Но как утверждают рестораторы, использование химии при приготовлении такой еды не имеет никакого негативного последствия. Технологически развитая кухня может ещё более привлечь внимание к нашим ресторанам, но для этого необходима всеобщая реклама, ибо в нашей стране многие люди и не осведомлены о наличии таких технологических и химических методах приготовления блюд.

Следовательно, можно прийти к такому выводу, что для дальнейшего развития нашего туризма необходимы новые альтернативные пути, а именно применение анимационных программ. Новшества смогут увеличить число туристов, а это в свою очередь станет источником дополнительной прибыли.

Xankişiyev F.X., doktorant
Bakı Biznes Universiteti

AZƏRBAYCANDA SAHİBKARLIQ FƏALİYYƏTİNİN TARİXİ VƏ ONUN İNKİŞAFINDA DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN ROLU

Ölkəmizdə sahibkarlıq fəaliyyətinin tarixinə nəzərə saldıqda 20-ci əsrin əvvəlləri çox böyük önəm daşıyır. Belə ki, dövlətimizin təbii sərvətləri istər xarici ölkə sahibkarlarının, istərsə də azərbaycanlı iş adamlarının bu sahədə inkişaf etməsinə böyük dəstək olmuşdur.

Azərbaycan təbii sərvətlər içində ən önəmlilərdən biri hesab olunan neft-qaz yataqlarına malik dövlətdir.XIX əsrdə Azərbaycan neft sənayesi sahəsində önəmli

sahibkarlar (milyonçular) yetişdirmişdir.Bu milyonçulara nümunə kimi Hacı Zeynalabdin Tağıyevin, Murtuza Muxtarovun, Şəmsi Əsədullayevin, Seyid Mirbabayevin, Musa Nağıyevin, Mirzəyevin, Mantaşovun, Səlimovun, və digər şəxsiyyətlərin adlarını qeyd edə bilərik. Hətta xaric ölkələrdən iş adamları ölkəmizdə fəaliyyət göstərmiş və bu da birbaşa ölkəyə pul axınına səbəb olmuşdur. İstər İngiltərədən , istər Fransadan, istər ABŞ-dan, istər Almaniyadan, istərsə də İsveçrədən ölkəmizə 213 milyon manat sərmayə daxil olmuşdur. Fərqli dövlətlərdən yatırılan bu kapitallar respublikamızın müxtəlif sahələrində inkişafa səbəb olmuşdur. Təsadüfi deyil ki, 1913-cü ildə artıq Bakıda nə az nə çox15 fərqli bank istifadəçilərinə xidmət göstərirdi. Bu banklar istər idxal-ixrac əməliyyatlarını, istərsə də kreditləşmə fəaliyyətini həyata keçirdilər.

Ümumən respublikamızda sahibkarlığın inkişaf fəaliyyəti 3 mərhələyə bölünür : 1993-cü ilə qədər dövrə aid sahibkarlıq fəaliyyəti, 1993-2002-ci illəri əhatə edən sahibkarlıq faəliyyəti və 2002-ci ildən bu günə qədərki illəri əhatə edən sahibkarlıq fəaliyyəti.

1993-cü ilə qədərki müsbət keyfiyyətlərlə yanaşı mənfi xüsusiyyətləri ilə də yadda qalmışdır. Belə ki, islahatların həyata keçirilməsində ləngimələr, reallaşan epizodik tədbirlərdə sistemsizlik və s. inkişaf göstəricilərin istənilən səviyyəyə çatmamasına, istehsal və maliyyə sahələrində sabitliyin olmamasına gətirib çıxarmışdır.

1993-96-cı illər isə əsasən sahibkarlıq fəaliyyətinin təşkili üçün zəruri şərtlər təmin olmuşdur, istər siyasi və istərsə də iqtisadi sabitlik əldə edilmiş, sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsinə dair ilkin addımlar atılmışdır. Nəticə olaraq bu dövrdə ÜDM-nin həcminin azalmasının qarşısının alınması, inflyasiyanın minimal səviyyəsinin təmini baş vermişdir. 1996-2002-ci illəri isə sahibkarlığın inkişafının sahibkarların müdafiə sistemin təkmilləşdirilməsi, özəlləşdirmə, idarəetmədə struktur dəyişikliyi ilə xarakterizə olunur.Bunun nəticəsi olaraq önəmli iqtisadi göstəricilərin inkişafı, sahibkarlıqla məşğul olmaq istəyən şəxslərin sayının artımı, xarici investisiyaların ölkəmizə axını baş vermişdir.2002-ci il dən sonrakı dövrün əvvəlləri isə sahibkarlığın inkişafının dövlət müdafiə sistemində köklü dəyişiklərin edilməsi (maliyyə təminatı, dövlət tənzimlənməsi, infrastruktur, hüquqların müdafiəsi) ilə yadda qalmışdır və bu da sahibkarlıqda istehsal yönümlü inkişaf meyli, regionlarda işgüzar fəaliyyətin canlanması, sahibkarların cəmiyyətdəki mövqeyinin möhkəmlənməsi ilə nəticələnmişdi.

Sahibkarlıq fəaliyyəti hüquqi bir anlayış kimi ölkəmizdə ilk dəfə "Sahibkarlıq fəaliyyəti haqqında" 15 dekabr 1992-ci il tarixli qanunun 1-ci maddəsində qeyd edilmişdir. Qanuna əsasən, "Sahibkarlıq fəaliyyəti (sahibkarlıq) fiziki şəxslərin, onların birliklərinin, habelə hüquqi şəxslərin mənfəət və ya şəxsi gəlir əldə edilməsi məqsədilə özlərinin cavabdehliyi və əmlak məsuliyyəti ilə, yaxud digər hüquqi və ya fiziki şəxslərin adından qanunvericilikdə qadağan edilməyən təsərrüfat fəaliyyətinin bütün növləri, o cümlədən məhsul istehsalı, satışı və xidmətlər göstərilməsi formasında həyata keçirdikləri müstəqil təşəbbüskarlıq fəaliyyətidir".

Ölkəmizdə dövlətlə sahibkar arasındakı münasibətləri nizamlayan önəmli prinsiplər müəyyən edilmişdir.Dövlətin uzunmüddətli fəaliyyət planına uyğun olan sahibkarlıq fəaliyyətinin istər başlıca istiqamətləri, istərsə də prinspləri yeni təsərrüfatçılıq münasibətləri zəminində formalaşdırılmışdır. Qeyd edilən prinsiplər dövlətin sahibkarlıq fəaliyyətinin inkişafı ilə bağlı olaraq üzərinə götürdüyü öhdəlikləri və sahibkarın da cəmiyyət qarşısında daşıdığı məsuliyyətin əsas istiqamətlərini xarakterizə

edirdi. Bu müddəalar istər dövlətə məxsus olan xüsusi mülkiyyətin və istərsə də şəxsiyyət azadlığının toxunulmamazlığının önəmli amillərə çevrilməsinə imkan verən sosial-iqtisadi mühitin yaradılmasına dövlət tərəfindən verilən təminatı, eyni zamanda sahibkarların dövlətin qanunvericiliyin öz vəzifə öhdəliklərini, məsuliyyətini anlayaraq bu faktorlara uyğun hərəkət etməsini nəzərdə tutur.

Respublikamızda sahibkarlıq fəaliyyətinin stabil inkişafının təmin edilməsi məqsədi ilə dövlət və sahibkarlar arasında əməkdaşlığın institusional təşkili zərurətə çevirilmişdir. Yaradılmış şərait imkan verir ki, sahibkarlar birbaşa yaranan problemlərin həlli prosesində iştirak edə bilir. Bu məqsədlə yaradılmış xüsusi strukturlar (Sahibkarlar Şurası, Biznes Tədris Mərkəzləri və s.) dövlətlə sahibkar arasında olan əlaqələrin sivil müstəvidə inkişaf etdirilməsində önəmli rol oynamaqdadır.

Ulu öndər,görkəmli şəxsiyyət cənab Heydər Əliyev bildirmişdir ki, "Sahibkarlığın inkişafı modelinin mühüm səciyyəvi xüsusiyyətlərindən biri həmin model çərçivəsində davamlı inkişaf üçün əsaslı zəminin formalaşmasıdır".Hazırda da ölkəmizin başçısı cənab prezident İlham Əliyevin rəhbərliyi və nəzarəti ilə bu strateji plan uğurla həyata keçirilir. Belə ki, dövlət və sahibkar arasında olan əlaqələrin inkişafı, bu sahə ilə bağlı olan qanunvericilik və inzibati əməliyyatların təkmilləşdirilməsi, regionlarda sahibkarlığın daha da yaxşı vəziyyətə gətirilməsinə dövlətin dəstəyi mexanizmlərinin səmərəlilik göstəricilərinin artırılması, sahibkarların lazımı informasiyalarla təmin edilməsi və onların həyata keçirdiyi işgüzar münasibətlərin inkişafı istiqamətində önəmli tədbirlər həyata keçirilmişdir.

Bu tədbirlər nəticəsində ölkəmizdə sahibkarlıq fəaliyyətinin təşkilini tənzimləyə bilən prosedur və qaydalar daha da liberallaşdırılmış, "bir pəncərə" sistemini həyata keçirməklə biznes qeydiyyatı prosesi sadələşdirilmiş, sahibkarlar üçün biznes mühitinin əlverişliliyi səviyyəsi önəmli dərəcədə artırılmış, sahibkarlığa, o cümlədən kiçik və orta sahibkarlığa göstərilən dövlət maliyyə dəstəyi mexanizmi daha da təkmilləşdirilmiş, istər idxal, istərsə də ixrac prosesi ilə bağlı olaraq həyata keçirilən prosedurlar əvvəlkilərlə müqayisədə sadələşdirilmiş,ölkədə ixrac rüsumları ləğv edilmiş, mənfəət vergisinin dərəcəsi 20%-ə qədər aşağı salınmış və sahibkarların hüquqlarının müdafiəsi ilə bağlı olaraq işlək mexanizmləri yaradılmışdır.

Son dövrlərdə ölkəmizdə sahibkarlıq fəaliyyətinə, xüsusən də fərdi sahibkarlıq fəaliyyətinə marağın artmasını dövlət qayğısı ilə əlaqələndirmək olar.Belə ki,fərdi sahibkarlıq fəaliyyətində asan idarəetmə sisteminin mövcud olması, kiçik həcmdə kapitala ehtiyac duyulması, gəlirin bir nəfərin əlində cəmləşməsi, idarəetmə xərclərinin aşağı olması və s. səbəbləri qeyd edə bilərik.

Azərbaycanda sahibkarlıq fəaliyyətinə başlayan təşəbbüskarlar ilk əvvəl bir sıra problemlərlə qarşılaşırlar ki, onlardan ən başlıcası start kapitalın tapılması və fəaliyyət istiqamətinin seçilməsidir.Dünya praktikasından bizə məlumdur ki, sahibkarlar fəaliyyətə başlamazdan öncə kapitalı borc formasında dövlətin dəstəyi altında əldə edirlər. Ölkəmizdə sahibkarlıq fəaliyyətini araşdırdığımız zaman görürük ki, sahibkarlar ilkin kapitalı borc şəklində müxtəlif formalarda əldə edirlər.

Fəaliyyət istiqamətinin seçilməsinə gəldikdə isə onu bildirməliyik ki, sahibkarlar fəaliyyətə başlamadan öncə bazarı araşdırmalı, istehlakçılar arasında müəyyən sorğular keçirməli, sonradan araşdırmaların nəticələrinə uyğun olaraq fəaliyyətə başlamalıdır. Bazarda istənilən sahədə müxtəlif seçimlərin olmasına baxmayaraq (istər

satış, istərsə də xidmət sahəsində) hər zaman bazarda bu boşluqlar vardır.Sahibkarın əsas məqsədi bu boşluğu tapıb o istiqamətdə fəaliyyətə başlamaqdır. Bu istiqamətlərə kiçik həcmlərdə əmtəə istehsalı prosesinin təşkil edilməsi, istər maliyyə və kommersiya fəaliyyətinin həyata keçirilməsi,istər audit və konsaltinq xidtmətinin verilməsi, elmtutumlu və innovasiya sferalarda biznesin qurulması, lizinq işinin yaradılması, Françayzinq istiqaməti üzrə çalışılması aid edilə bilər. Onu da bildirək ki,son dövrlərdə Azərbaycanda Françayzinq işi, innovasiyalı biznesin təşkili və Vençur kapitalının cəlb edilməsi maraq doğuran yeni sahələrdir. Bu istiqamətlərdə sahibkarlığın inkişafı üçün onların müvafiq biliklərə yiyələnməsi, istər korporativ və istərsə də şəxsi əlaqələrin genişləndirilməsi, sektor üzrə lazımi informasiyalara çıxışın əldə olunması və konkret sahə üzrə fəaliyyət planının (Biznes planın) olması əsas amillərdəndir.

Bundan əlavə, istər fərdi, istərsə də digər sahibkarlıq fəaliyyəti subyektlərinin sayının ölkəmizdə artması, bu sahəyə olan marağın çoxalması ilk növbədə dövlətin bu sahəyə göstərdiyi qayğının və diqqətin nəticəsidir.

Belə ki, ölkəmizdə qəbul edilmiş Dövlət Proqramları sahibkarlığın inkişaf etdirilməsi istiqamətində bu tədbirlər sistemini həyata keçirir, tədbirlər vahid strategiya prinsipi əsasında birbaşa sahibkarlığın inkişaf etdirilməsinə kömək məqsədi ilə reallaşır. Sahibkarlığın, xüsusən fərdi sahibkarlığın dövlət müdafiəsinin hər hansı bir istiqamətinin seçilməsi mövcud sosial və iqtisadi şərait ,ölkənin inkişaf səviyyəsi, inkişafın hazırki mərhələsində qarşıya qoyulmuş məqsədlər və bir sıra başqa amillərin təsiri ilə şərtlənir. Bu amillərin təsiri qeydə alınaraq, ölkəmizdə sahibkarlığın istər müdafiəsi və istərsə də inkişafı dövlət sistemi daxilində əlaqələndirilmiş və bu sahədə Azərbaycan modeli yaradılmışdır.

İstisnasız olaraq, inkişaf etmiş ölkələrin hamısında sahibkarlığa önəm verilir , qayğı göstərilir və bu da çox təbii qarşılanır.Axı kiçik biznes əhalinin əsas hissəsinin işlə təmin olunmasına kömək edir, innovasiya potensialının inkişafına yardım göstərir, iqtisadçıların təkidlə qeyd etdiyi kimi, həm də elmi-texniki tərəqqini irəlilədir.Elə buna görə Qərbdə böyük bizneslə müqayisədə "kiçik" biznesə daha çox önəm verilir və daima nəzarətdə saxlanılır.

Fərdi sahibkarlığın yenicə formalaşmağa və inkişaf etməyə başladığı ölkələrdə fərdi sahibkarlığın dövlət tənzimlənməsinə daha böyük ehtiyac vardır.Fərdi sahibkarlığın inkişaf səviyyəsi yüksəldikcə onun dövlət tənzimlənməsinin dərəcəsi azalır, keyfiyyəti isə yüksəlir, dövlət və fərdi sahibkarlıq strukturları qarşılıqlı əməkdaşlıq edən tərəfdaşlara çevrilirlər.

Avropa Birliyi ölkələrində sahibkarlığın dövlət maliyyələşdirilməsinə, onun inkişafının tənzimlənməsinə və dəstəklənməsinə çox böyük önəm verilir. Bu həm sığorta fondlarının və risklərin siğortalanması fondlarının büdcə maliyyələşdirilməsi hesabına birbaşa subsidiyalaşdırılması və həm də qarışıq (şəxsi və dövlət əmanətlərinin iştirakı ilə) yardım fondlarının yaradılması, kreditlərin qaytarılması üzrə zəmanətlərin verilməsi, kreditlərin güzəştli faizlərlə verilməsi şəklində həyata keçirilə bilər.

Sahibakarlıq fəaliyyətinə göstərilən diqqət və qayğı öz nəticələrini verməkdədir, lakin onu da qeyd etməliyik ki,ölkəmizdə bu fəaliyyətin dövlət tənzimlənməsi halhazırkı vəziyyətdə istənilən səviyyədə deyildir. Lazımı səviyyəyə çatmaq üçün ölkə rəhbərliyi ölkəmizdə bu sahənin inkişafına dəstəyini artırmalı,ilk öncə sahibkarlıq fəaliyyətinə başlayacaq subyektlərin kapital əldə etməsində köməkliklər göstərilməlidi,

buna dair dünya praktikasından yararlanmaq lazımdı, sahibkarlara güzəştli vəsaitlər verilməli, verilən kreditlərin müqabilində istənilən girova dair müəyyən yüngülləş-dirici hallar tətbiq edilməli, kredit faizləri aşağı olmalıdı, inkişafca digər sahələrdən geri qalan istiqamətlərdə fəaliyyətə başlayan sahibkarlardan müəyyən müddətə kredit faizi alınmamalıdır, kadr hazırlığı işini təkmilləşdirməsinə diqqət ayırmalı, sahibkar-ların maliyyə təminatı ilə təmin olunması istiqamətində davamlı tədbirlər görməli, vergi siyasəti sadələşdirilməsi,sadələşdirilmiş vergi üzrə illik keçid maliyyə həcmi artırılmalı, dünya təcrübəsindən yararlanılmalı, inkişaf etmiş ölkələrin bəzilərində önəmli həmlə hesab olunan - 1-2 il müddətinə fəaliyyətə yeni başlayan sahibkarlar vergilərdən azad edilməli, bu tip fəaliyyət sahəsi üçün inkubatorlar fəaliyyət göstər-məli və s. tədbirlər görülməlidir.

Hesab edirik ki, sahibkarlıq fəaliyyətinin inkişafı ölkəmizdə istər istehsal, istər ixrac potensalının artımına, istər dünya bazarında yerli məhsulların iştirakına, istər məşğulluğun artırılmasına və s. gətirib çıxaracaqdır.

Mammadova N., PhD in economics
Baku Business University

HOLACRACY OR A NEW ERA OF MANAGEMENT

At the end of the last century, Brian Robertson, an ideologist of the Holacracy, a popular self-government system in organizations, became disillusioned with hired work and, together with two partners, founded the company for the production of Ternary Software. Becoming an entrepreneur, he tried to get rid of everything that he did not like in organizations. The founders actively experimented with organizational processes - for example, during the year tried five different compensation systems. Gradually crystallized the organizational model, which Robertson called Holacracy. In 2007, he founded the consulting company Holacracy One, and later released the book Holacracy: The New Management System for a Rapidly Changing World.

According to the principles of holacracy, an effective organization is a self-regulating system. Each of its employees performs a number of clearly defined and documented roles, while having a high degree of autonomy and broad authority within the scope of their field of activity. Employees interact with each other during regular meetings, the order of which is fixed in a special document - the constitution of the holacracy. There are no managers in the usual sense in a holocratic organization. Every employee can influence the development of the company. The leader in the holacracy can no longer command - he can give advice. Robertson is often asked how he could give someone control in the company? But he says that now he controls the structure even more than before. With the only difference: all the other employees also do it. Everyone owns tools that were previously only available to managers. The only thing he had to release was his own ego. He now cannot run around the company and tell anyone what to do. He doesn’t have the authority to do this. “People sometimes ask: "What should I do?" I answer: "I do not know, this you must decide, I hired you for this.” He no longer has to lead all these people.

According to Holacracy One, more than 1,000 organizations throughout the world use the holacracy. Is the holacracy right for everyone? What is the future of self-regulating companies? Each employee in the holacratic organization has several roles, and even a few dozen. How to cope with so many different tasks? People often combine many different responsibilities in the management hierarchy - but with much less clarity. Holacracy also allows you to see and consolidate which roles you are playing. When David Allen (best-selling author of time management “Getting Things Done” and the founder of The David Allen Company, using the Holacracy) compiled a list of all his duties, he was surprised: "Wow, how much I do!" And this is the first step to understand how to successfully combine all their roles and distribute their time. It is extremely important to be able to self-organize, to put things in order.

But if a person does not cope with their roles, and at the same time has more authority, will this not harm the company? With Holacracy, the employees receive great authority only within the framework of their role. An employee whose role is to clean up does not make decisions about new business lines or pricing policies. Of course, people can perform roles for which they do not have sufficient skills, because Holacracy is not an ideal system. But we clearly see the duties and authority of everyone, and this makes it easier and faster to change them, to remove someone from performing the role or impose restrictions on it.

In hierarchical structures, managers simply hope that no one will make wrong decisions, or impose all sorts of restrictions that often hinder not only bad, but also good decisions. Holacracy also allows you to determine the exact boundaries of the authority of each role.

Do all companies need to implement holakratie?

Brian Robertson believes that the holakratia is universal - there is no class of problems with which it potentially could not cope. But he does not think that each organization should use the Holacracy: the price of changes may be unreasonably high. The Media often replicates the false idea that the Holacracy is widespread in the Silicon Valley. This is not true. Holacracy is not used by those who want to create, develop and sell business in three years, whereas full implementation of the model may take 5-10 years. There are companies that successfully cope with their tasks without changing anything. Their life cycle is not measured in this case for decades, in 5 years they can simply disappear. For them, there is no sense in introducing Holacracy. But if you want your company to work successfully for 20 and 30 years, Holacracy for you.

Maybe some companies should not become flat, but it is better to build a hierarchy, for example, by using the concept of Requisite Organization of the Canadian scientist Elliott Jaques. His ideas do not contradict the concept of Holacracy. Jaques wrote a lot about the need for clarity in matters of authority: who and what can entrust. But it is not necessary that the organization be organized as a hierarchy. Holacracy only determines the structure of the company's management, but you can create any roles and give them any authority. For example, you can create two roles, and in some issues the first role can be managed by the second, and vice versa. A common misconception about Holacracy: everyone does what they want, and no one can prohibit them. The point is not at all. If, for example, someone in the company

wants to change the pricing model of services, he will have to coordinate his proposal with Robertson: this is one of his roles. It looks like a hierarchy, but his authority in this matter apply only to pricing and nothing more.

A far future for self-regulating companies. Max Planck said that new ideas win when carriers of old ideas die. A new generation with a new paradigm is replacing the old one. We, however, are moving in the right direction - until we give up the benefits that the hierarchy brings. Self-organization is not a desire to get rid of any order or control, but a desire to create structure, control and clarity through an adaptive collaborative process. The big problem of the modern movement for self-organization lies in the fact that it often denies the value of managers. Managers are useful and needed in the system, it's just that their functioning can be organized better than now. We live in an extremely complex world and cannot cope with our tasks in the simple ways that the traditional hierarchical management system offers.

Rüstəmova G.R., doktorant
Sumqayıt Dövlət Universiteti

MÜƏSSİSƏNİN MARKETİNQ FƏALİYYƏTİNİN DİGƏR STRUKTUR BÖLMƏLƏRLƏ ƏLAQƏLƏRİ

Ümumiyyətlə, marketinq fəaliyyətinin idarə olunması zamanı istehsal müəssisələrində bölmələr arasında dəqiq əmək bölgüsünün olmaması problemi tez-tez rast gəlinən problemlərdəndir. Bu da müxtəlif xidmətlərin eyni bir funksiyanın təkrarlamasına gətirib çıxarır. Məsələn, marketinq şöbəsi müəssisənin bazar göstəriciləri və strategiyaya uyğun olaraq məhsulun plan qiymətini müəyyən edir, bundan sonra satış həcmi proqnozlaşdırılır və istehsalın planı hesablanır. Əvvəlcədən müəyyən olunan gəlir normasına əsaslanan plan iqtisad şöbəsi malik olduğu resurslarla öz planını hesablayır. İstehsalat şöbəsi öz gücü ilə özünü təqdim edir. Nəticədə iqtisadçının hesablamaları və texnoloqun istəkləri arasında olan orta məxrəcə gəlinir (Cədvəl 1).

Cədvəl 1.

Müəssisənin marketinq fəaliyyətinin başqa sahələrlə əlaqələrinin istiqamətləri və qısa məzmunu

S/s	Sahənin adı	Əlaqənin məzmunu
1	Menecment	müəssisənin müxtəlif inkişaf mərhələlərində strategiyanın secilməsi və ayrı-ayrı layihələrin qiymətləndirilməsi
2	İqtisadi xidmətlər	məlumatların mübadiləsi və layihələrin qiymətləndirilməsi
3	Mühəndis xidməti	təklif olunan məlumatların qiymətləndirilməsi və məlumat mübadiləsi
4	Texnoloji xidmətlər	texnoloji proseslərin tətbiqinin məqsədəuyğunluğunun qiymətləndirilməsi
5	Satış	qiymətləndirmənin razılaşdırılması, məlumatların mübadiləsi, satış şəbəkəsinin təşkili
6	Məlumat xidməti	informasiya mübadiləsinin təşkili
7	İstehsalın idarə edilməsi	məhsulun istehsalına başlanılmasının və ya istehsaldan çıxarılmasının məqsədəuyğunluğunun qiymətləndirilməsi, istehsalat həcminin və müddətinin razılaşdırılması

Qeyd: Cədvəl 1.müəllif tərəfindən hazırlanmışdır.

Şöbə daxilində, həmçinin müəssisənin başqa struktur bölmələrinin əksəriyyəti üçün marketinq xidmətinin informasiya mübadiləsi ənənəvi olaraq zəif nöqtədir. Hətta təşkilatda yüksək səviyyədə kompüterləşmə belə, bu mənzərəni yaxşı tərəfə az dəyişə bilər. Burada müəssisələrin bölmələri arasındakı əlaqə ya pis qurulub, ya da informasiya mübadiləsinin layihələndirilməsi zamanı nəzərə alınmayıb. Sözsüz ki, bütün əlaqələr və marketinqin vəziyyəti vəzifə təlimatında göstərilməlidir. Beləliklə, marketinqin əhatə etdiyi məsələlərin və hər bir məsələyə uyğun olaraq icraçının təyin olunmasının dəqiq formalaşması vacibdir. Bu icraçılar isə işin vaxtında və keyfiyyətli yerinə yetirilməsinə cavabdehdirlər.

Səmərəli idarəetmə marketinq fəaliyyətinin uyğun məlumatlarla və kadrlarla təmin olunması zamanı mümkündür. İstənilən iri müəssisənin idarəetmə fəaliyyəti informasiya texnologiyaları sahəsindəki müasir nailiyyətlərin tətbiqinə əsaslanır. Bu texnologiya idarə olunan proseslərin vaxtında məlumatlandırılması, onun dolğunluğunun təmin olunması, modelləşməsinin təhlilinin və proqramlaşdırılmasının mümkünlüyünü təmin edir. Marketinq fəaliyyətinin idarə edilməsinin məlumat sistemi strateji və taktiki məsələlərin həllinin planlaşdırılması və müəssisənin operativ idarə olunmasının həlli üçün nəzərdə tutulub.

Marketinq funksiyalarının icrasının təmin edilməsinin zəruriliyi məlumatın alınması, emalı, saxlanması və istifadəsini özündə birləşdirən informasiya mübadiləsi kimi marketinqlə idarə olunmasına baxmağa imkan verir. Marketinq fəaliyyətinin informasiya təminatı həyata keçirilən məsələlərin həcminin, yerləşdirilməsinin və idarəetmə fəaliyyəti zamanı dövr edən informasiyanın təşkili formalarının cəmindən ibarətdir. Bura operativ, normativ-sorğu məlumatları, sənədləşmə sistemi daxildir.

Marketinq fəaliyyəti idarəetmə sisteminin informasiya təminatının hazırlanması və layihələndirilməsi zamanı məlumatın tərkibinin və strukturunun qurulması daha aktualdır. Bu da qəbul edilən idarəetmə texnologiyası üçün vacibdir. Marketinq xidməti öz funksiyalarını yerinə yetirməsi üçün informasiyaya qoyulan tələblərə riayət etmək vacibdir: ümumilik, operativlik, ardıcıllıq və həqiqilik (dürüstlük).

Tədqiqatçı V. Mislayevaya görə, marketinq idarəetmə sisteminin informasiya təminatını məzmununa görə 3 hissəyə bölmək olar:

- marketinq idarəetmə sistemində qərarların hazırlanması üçün lazımi məlumatlar (giriş, çıxış, aralıq);
- müəssisənin digər struktur bölmələri və marketinq xidməti arasında məlumat mübadiləsi;
- təşkilatın xarici (əmrlər, sərəncamlar, planlar, qrafiklər) və daxili informasiyaları (məlumat bazasının).

İri müəssisələrdə informasiya sistemləri telekommunikasiya rabitə vasitələri, inkişaf etmiş "Müştəri-server" arxitekturası, yüksək sürətli korporativ hesablama şəbəkələrini özündə birləşdirən müasir proqram-aparat kompleksi bazası əsasında qurulur.

Qeyd edək ki, marketinq fəaliyyətinin kadr təminatı, bu xidmət sahəsində çalışan əməkdaşların zəruri kəmiyyət və keyfiyyət tərkibi xüsusi əhəmiyyət kəsb edir. Say tərkibi təşkilati-ştat strukturuna və müəssisənin nizamnaməsinə əsasən müəyyən olunur. Marketinq xidmətlərində əməkdaşların zəruri ştat sayının hesablanmasında təşkilatın işçilərinin ümumi sayı, sənaye müəssisələrinin konkret şərait və səciyyəvi xüsu-

siyyətləri, fəaliyyət sahəsi ilə bağlı istehsalın miqyası, bölmələrin sosial xarakteristikası, əməkdaşların struktur tərkibi, həll edilən məsələlərin bütövlüyü və mürəkkəbliyi, texniki təchizat kimi faktorları nəzərə alırlar. Eyni zamanda kəmiyyət tələbatının hesablanması ilə keyfiyyət tələbatı, başqa sözlə müəyyən peşə, ixtisas müəyyən edilir.

Bütünlükdə sənaye müəssisələrinin bazar istiqamətlərinin və marketinq fəaliyyətinin idarə edilməsinin təkmilləşdirilməsi məqsədilə, marketinq fəaliyyətinin məqsədyönlü və vaxtında idarə edilməsinin effektivliyini qiymətləndirmək vacibdir. Marketinq fəaliyyəti idarəetməsinin səmərəliliyinin qiymətləndirilməsinin bir çox metodikası mövcuddur. Belə ki, E.Patruşevanın hazırladığı kompleks metodikaya əsasən marketinq fəaliyyəti marketinq xidmətinin müəssisəyə qoyduğu qiymətləndirmə mövqelərinin, öz vəzifələrinin yerinə yetirilməsinin tam qiyməti və marketinqin planlaşdırılmasının qiymətləndirilməsilə xarakterizə olunur. Bu metodikanın əsas çatışmazlığı marketinq fəaliyyətinin ayrı-ayrı xüsusiyyətlərinin subyektiv qiymətləndirilməsidir. Marketinq potensialının ekspress qiymətləndirilməsi bu göstəricilərin istifadə edilməsini təklif edir: bazarın miqyası, satış həcmi, rəqabət, sifarişlər və reklam xərcləri. Bu metodika müəssisədə marketinq fəaliyyətinin ekspress təhlilində və onun səviyyəsinin digər müəssisələrlə müqayisəsində daha səmərəlidir. Marketinq səmərəliliyini müəyyən edən amillərə kompleks yanaşma sənaye müəssisəsinin marketinq fəaliyyətinin idarəetmə sisteminin konsepsiyasından irəli gəlir. B.Solovyev bu fikirdədir ki, "Marketinq idarəetmə - müəssisənin gəlir əldə etməsi üçün xarici tələblər nəzərə alınaraq müəssisənin daxili imkanlarına yönəlmiş idarəetməsinin ümumi sistemində əsas funksional hissədir". Ona görə, marketinq idarəetmə müəssisənin üç səviyyədə fəaliyyət göstərən köməkçi idarəetmə sistemidir:

1. Şəxsi fəaliyyətə görə idarəetmə;
2. Funksiyalara görə idarəetmə;
3. Tələbə görə idarəetmə.

Məmmədova Ş.R., doktorant
Sumqayıt Dövlət Universiteti

MÜƏSSİSƏNİN İNKİŞAFINDA STRATEJİ PLANLAŞDIRMANIN ROLU

Strateji planlaşdırma müəssisənin fəaliyyətinin müxtəlif tərəfləri üçün zəruri olan kompleks planın hazırlanmasını nəzərdə tutur, digər tərəfdən isə, iqtisadiyyat elminin tərkib hissəsi kimi müəssisələrin uğurlu fəaliyyətini təmin edən strateji planın hazırlanması metodologiyasını verir. Belə bir elm sahəsinin inkişafını zəruri edən əsas fakt ondan ibarətdir ki, hər bir müəssisəni əhatə edən ətraf mühit sürətlə dəyişməyə meyllidir. Müəssisəni əhatə edən bazarda tələb və təklif, mal və xidmətlərin keyfiyyətinə tələb, texniki və texnoloji yeniliklər hər an dəyişir. Bu dəyişmələr müəssisənin ətrafında qeyri-sabit mühit yaradır. Müəssisə bu qeyri-sabit mühitdə öz inkişafını saxlamaq və rəqiblərinə uduzmamaq üçün bazar konyukturasını nəzərə alan strateji plana malik olmalıdır.

Müəssisənin rəhbərliyi strateji planlaşdırma prosesində belə dəyişmələrə diqqət yetirməsə müəssisənin gələcək fəaliyyəti sual altında olar. Bəzən elə olur ki, ətraf

mühitdə baş verən qeyri-sabitlik müəssisə və onun rəhbərliyi üçün müəyyən qədər tanış mənzərə yaradır. Bəzi hallarda isə mənzərə tanış olmur və belə dəyişikliklər müəssisənin fəaliyyətinə ciddi ziyan gətirə bilər. Məsələn, müəssisənin fəaliyyəti ilə bağlı yeni texnologiyaların bazarda tətbiqi, xarici rəqiblərin bazara daxil olması və ya hökumətin yeni qərarları müəssisənin fəaliyyətində ciddi çətinliklər yarada bilər. Beləliklə, müəssisəni əhatə edən ətraf mühitdə qeyri-sabitlik və qeyri-müəyyənlik müəssisənin diqqətlə hazırlanan strateji plana olan ehtiyacının əsas səbəbləridir. Belə bir planın olmaması müəssisənin müxtəlif sahələri arasında əlaqənin itirilməsinə sonda səmərəliliyin aşağı düşməsinə səbəb ola bilər.

Strateji menecment sahəsində görkəmli alim M. Porter qeyd edir ki, "son onilliklərdə dünya bazarında rəqabət çox güclənmişdir. Lap son dövrlərə qədər bəzi ölkələrdə və bəzi iqtisadi sahələrdə belə rəqabət yox idi. Ölkə bazarları müdafiə olunurdu və bu bazarlarda üstünlüklərin kimə aid olduğu dəqiq müəyyən edilmişdi. Hətta rəqabətin olduğu bazarlarda da rəqabət belə gərgin deyildi. Rəqabətin artması dövlət və kartellərin müdaxiləsi ilə "yumşaldılırdı".

Artıq müəssisələr bazarda öz mövqelərini qorumaq və ya yeni mövqe əldə etmək uğrunda kəskin mübarizəyə başlayıb. Müştərilərin tələblərinin nəzərə alınması, mal və xidmətlərin vaxtında və keyfiyyətlə çatdırılması, rəqabəti nəzərə alaraq qiymətlərin müəyyən edilməsi və istehlakçıların etibarının qazanılması yeni bazar münasibətlərində prioritetə çevrilib. Müəssisələrin ətraf mühit tələblərini nəzərə almasına yaranan zərurət müəssisədaxili yeni münasibətləri də formalaşdırmağa başladı. Əmək məhsuldarlığının artırılmasına cəhd, istehsal prosesinin daha səmərəli qurulması, işçilərin tələblərinin nəzərə alınması, səhmdarlara daha yüksək dividentlərin verilməsinə çalışmaq, müəssisənin inkişafı üçün daha yüksək fondun yaradılması və sair tədbirlər də strateji planlaşdırmanın mahiyyətinə aid məsələlərə çevrildi.

Planlaşdırma idarəetmənin müxtəlif funksiyalarından biri olduğundan strateji planlaşdırma strateji idarəetmənin funksiyalarından biridir. Odur ki, strateji planlaşdırma sistem kimi müəyyən əlaqələrə malik olan elementlərdən ibarətdir. Strateji planlaşdırma prosesinə sistem kimi yanaşma elmi ədəbiyyatda geniş yayılıb. Məsələn, V.S.Efremov, strateji planlaşdırmaya müəssisənin rəqabət üstünlüyünü əldə etmək, saxlamaq və inkişaf etdirmək üçün daxili və xarici amillərin tədqiq edilməsi və strateji vəziyyətin analiz yolu ilə müəssisənin strategiyasının müəyyən edilməsi prosesi kimi baxır.U.Kinq, D.Kliland strateji planlaşdırmaya müəssisənin məqsədinin müəyyən edilməsi və onun dəyişməsi, məqsədə nail olmaq üçün zəruri olan ehtiyyatların müəyyən edilməsi, əldə edilməsi və istifadəsi siyasəti kimi yanaşır. L.H. Vladimirova belə hesab edir ki, strateji planlaşdırma müəssisənin rəhbərliyi tərəfindən müəssisənin funksional strategiyasının hazırlanması və onun inkişaf etdirilməsi üçün qərar qəbuluna dəstək verən fəaliyyət toplusudur.

Strateji planlaşdırma uzunmüddətli perspektiv üçün hazırlandığından bəzən ona uzunmüddətli planlaşdırma kimi baxırlar. Lakin bəzi müəlliflər bu iki anlayışın eyni olmadığı qənaətindədirlər. Məsələn, İ.Ansoff və başqaları strateji planlaşdırma ilə uzunmüddətli planlaşdırmanın eyni olmadığını qeyd edirlər. Onlar uzunmüddətli planlaşdırma ilə strateji planlaşdırmanı fərqləndirirlər. Qeyd edək ki, hər iki planlaşdırma prosesində hazırlanan plan sənədləri uzun müddət üçün hazırlanır. Lakin belə planların hazırlanmasında istifadə edilən metodlar fərqlidir. Uzunmüddətli planlaşdırmada eks-

trapolyasiya metodundan istifadə edilir. Nəzərdə tutulur ki, müəssisənin gələcək vəziyyətini ekstrapolyasiya ilə proqnozlaşdırmaq olar.

Strateji planlaşdırmada əsas plan sənədi strateji plandır. Bu sənədin uzunmüddətli planlaşdırmanın büdcəsi ilə əlaqəsi çox azdır. Strateji planlaşdırmada müəssisənin gələcəyi ilə bağlı yüksək dərəcədə proqnoz vermək mümkün deyil. Strateji planlaşdırma müəssisənin qeyri-sabit və qeyri-müəyyən ətraf mühitdə fəaliyyətini nəzərdə tutduğundan ekstrapolyasiya metodunu tətbiq etmək mümkün deyil. Strateji planlaşdırma strateji tədqiqatın və onunla eyni vaxtda aparılan ekspert proqnozlaşdırmasının nəticələrinə əsaslanır. Statistik və ya riyazi proqnozlaşdırma metodlarından strateji tədqiqatlarda istifadə etmək mümkün deyil. Belə ki, strateji planlaşdırmanın xüsusiyyəti ondan ibarətdir ki, gələcək keçmişdə olan inkişafın meylini əks etdirməlidir. Uzunmüddətli planlaşdırmanı strateji planlaşdırmadan ayrılıqda təsəvvür etmək olmaz. Uzunmüddətli planlaşdırma strategiya mövcud olduğu halda əsaslandırıla bilər. Odur ki, uzunmüddətli planlaşdırmanın strateji planlaşdırmadan yarandığını deyə bilərik.

Operativ qərarlardan fərqli olaraq, strateji qərarlar müəssisənin daxili problemlərindən daha çox xarici problemlərinə aiddir və müəssisə ilə ətraf mühit arasındakı münasibətlərə təsir edir. Əlbəttə, bu problemlərin həlli üçün tələb olunan diqqət və vaxt heç də operativ qərarlar üçün nəzərdə tutulandan çox olmur. Lakin nəzərə almaq lazımdır ki, strateji qərarlar operativ qərarlardan daha üstün prioritetə malikdir. Odur ki, müəssisənin təşkilati idarəetməsi ilk növbədə strateji qərarların yerinə yetirilməsinə şərait yaratmalıdır.

Şərifli İ.E., doktorant
Bakı Biznes Universiteti

DÖVLƏTİN MAŞINQAYIRMA SAHƏSİNDƏ İNNOVASİYA SİYASƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

Ölkəmizdə maşınqayırma müəssisələrinin texnloji cəhətdən yenidən təşkil olunması ciddi çətinliklərlə üzləşir. Bunları nəzərə alaraq dövlətin maşınqayırma müəssisələrinin texnoloji cəhətdən yenidən təşkilı olunmasına yönəldilmiş strategiyalar olmalıdır.

Ölkəmizdə neft avadanlıqlarının istehsalı ilə fəaliyyət göstərən maşınqayırma müəssisələrinin inkişafına təsir edən mənfi amillərdən biri yeni müasir texnologiyaların gətirilməsi və istehsala tətbiq edilməsi ilə əlaqədar olan çətinliklərdir. Xüsusi texnologiyaların alınması prosesində potentlərdən istifadəyə görə əlavə komission haqqlarının tələb edilməsi istehsal edilən sənaye məhsullarının qiymətinin qalxmasına gətirib çıxarır. Bunları nəzərə alaraq, fikrimizcə, maşınqayırma müəssisələrinin texnoloji cəhətdən yenidən təşkili üçün xarici texnologiyalara lisenziyaların olmasına üstünlük verilməlidir. Bunu nəzərə alaraq dövlət maşınqayırma sənayesində fəaliyyət göstərən yerli sahibkarlara istər maliyyə, istərsə də informasiya təminatı üzrə köməyin edilməsi zəruridir.

Digər sahələrdə olduğu kimi neft maşınqayırma sahəsində də innovasiya fəaliyyətinin təkmilləşdirilməsi müəssisələrdə istehsal potensialının inkişafına birbaşa təsir göstərir. Bunları nəzərə alaraq innovasiya fəaliyyətinin təkmilləşdirilməsi və bu sahədə

inkişafa nail olunma istiqamətlərinin seçilməsi dövlət tənzimlənməsinin əsas istiqamətlərindən biri olmalıdır. Müəssisənin istehsal potensialının inkişaf etdirilməsində innovasiya fəaliyyətinin təkmilləşdirilməsi mühüm rol oynayır. Əsas istiqamətlərdən biri innovasiya fəaliyyətinin sürətləndirilməsidir ki, nəticədə innovasiya prosesinin optimal idarə olunması tələb olunur. Bu sahədə qarşıya çıxan çatışmamazlıqlar müəssisələrdə innovasiya fəaliyyətinin sürətləndirilməsi əlavə vəsait tələb etməklə yanaşı, həmçinin rəhbərliyin problemə yanaşma metodundan asılı olur ki, bu məsələləri doğru təhlil etmək və optimal həlli yolları tapmaq lazımdır. İnkişaf etmiş ölkələrin təcrübəsindən məlum olur ki, dövlətin dəstəyi olmadan innovasiya sistemini inkişaf etdirmək mümkün deyildir. Dövlətin innovasiya fəaliyyəti hazırlanarkən təsir edən hər bir amil dəqiqliklə araşdırılmalı və həlli yolu seçilməlidir. Həmçinin dövlət mövcud iqtisadi vəziyyəti nəzərə alaraq innovasiya fəaliyyəti üzrə elmi-texniki potensialın inkişafına, iqtisadiyyatın müxtəlif sahələrində müasir texnoloji ukladların formalaşmasına və məhsulların rəqabətliliyinin yüksəldilməsinə şərait yaradılmalıdır. Elm və istehsalın qarşılıqlı əlaqələrinin gücləndirilməsi, elmi tədqiqatların nəticələrinin istehsalatda mənimsənilməsinin təşkili üçün elmin kommersiyalaşdırılması təmin edilməlidir.

Dövlətin innovasiya siyasətinin əsas istiqamətlərinə aşağıdakılarıda aid etmək olar:

- innovasiya fəaliyyətinin stimullaşdırma mexanizmlərinin, institutsional dəyişikliklər sisteminin, innovasiya sferasında intellektual mülkiyyətin qorunmasının təminatı və onun təsərrüfat dövriyyəsinə cəlb edilməsinin normativ-hüquqi təminatının işlənib hazırlanması və təkmilləşdirilməsi;
- istehsalın inkişafının, elmtutumlu məhsulun rəqabətqabiliyyətliliyinin və ixracının artırılmasının kompleks dəstəklənməsi sisteminin yaradılması;
- xüsusi əlverişli şərtlər təmin etməklə kiçik innovasiya sahibkarlığının yaradılması və inkişaf etdirilməsi;
- innovasiya layihələri və proqramları üzrə seçimin təşkili məqsədilə müsabiqə sisteminin təşkil olunması və təkmilləşdirilməsi.

Qeyd etdiyimiz təkliflərdən göründüyü kimi, hal-hazırda ölkəmizdə milli innovasiya sisteminin formalaşdırılmasının əsası qoyulur, həmçinin gələcək geniş miqyaslı innovasiya proseslərinin zəmini hazırlanır. İnnovasiyalı inkişafa nail olmaq istəyən hər bir ölkə əvvəlcə təhsilin səviyyəsinin yüksəldilməsini və informasiyaların toplanması və səmərəli emal edilməsi sisteminin yaradılmasını ön plana çəkməlidir.

Nəbizadə K.R., doktorant
Bakı Biznes Universiteti

AZƏRBAYCANIN MÜASIR BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ YERİ VƏ ROLU

Azərbaycan Respublikası 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra iqtisadi sahədə öz suveren hüquqlarını gerçəkləşdirməyə və müstəqil siyasət aparmağa başlamışdır. Bu siyasətin başlıca istiqamətlərini müxtəlif mülkiyyət formaları əsasında yaradılan iqtisadi sistem, bazar iqtisadiyyatına keçid və dünya iqtisadiyyatına inteqra-

siya təşkil etmişdir. 1994-cü ildə 5 aprel tarixli 125 nömrəli "Azərbaycan Respublikasında xarici ticarətin liberallaşdırılması haqqında" fərmanı və eyni zamanda həmin ilin 20 sentyabrında bağlanılmış "Əsrin müqaviləsi" ölkədə bütün hüquqi şəxslərə strateji malların ixracına icazə verilmiş, bir çox iqtisadi əməkdaşlıq baş tutmuşdur. Həmin ildən etibarən Xarici İqtisadi Əlaqələr üzrə Dövlət Komissiyası yaradıldı və strateji mallar üzrə barter əməliyyatları aparmaq üçün komissiyaya icazə verildi. Daha sonra Nazirlər Kabineti 1995-ci il noyabrın 15-də "Azərbaycan Respublikasında xarici ticarətin təkmilləşməsi haqqında" qərar qəbul etmişdir. Bu qərara əsasən, ixrac əməliyyatlarının lisenziyalaşdırılması və kvotası aradan qaldırılmış, xarici ticarətin təşkili üçün yeni müddəalar təsdiq edilmişdir.

Qloballaşma şəraitində xarici iqtisadiyyat mühüm bir sistem və ölkənin iqtisadiyyatının inkişafı və şaxələndirilməsi strukturunu təşkil edən amil kimi nəzərdən keçirilməlidir. Bu baxımdan, ölkələr arasında xarici iqtisadi əlaqələrin təhlili və qiymətləndirilməsi bizə əhəmiyyətli ehtiyyatları ayırmağa imkan verir. Bunun üçün, son illərdə respublikamızın xarici iqtisadi əlaqələrinin vəziyyətini dünya ictimaiyyəti ilə nəzərdən keçirək. Respublikanın İKT-nin rəsmi məlumatlarının təhlili göstərir ki, 2000-2016-cı illərdə Azərbaycanda xarici ticarət dövriyyəsinin ümumi həcmi 7,4 dəfə, idxal 7,3 dəfə, ixrac 7,5 dəfə artıb.

Dünya təcrübəsi ilə sübuta yetirilmişdir ki, uzun müddət idxal tələbinə cavab verən ölkələr milli istehsalın qiymətləndirilməsi üçün süni şərait yaradırlar. Eyni zamanda, ölkənin ixrac potensialı yüksək keyfiyyətli istehsal məhsullarının tətbiqinə əsaslanır. Buna görə xarici iqtisadi fəaliyyətin stimullaşdırılması üçün bir sıra tədbirlər həyata keçirilməlidir. Dövlət Gömrük Komitəsinin məlumatına əsasən 2000-ci ildə Azərbaycan 122 ölkə ilə xarici ticarət dövriyyəsini həyata keçirirdisə 2016-cı ildə onların sayı 165 oldu.

Ancaq bütün bunlara baxmayaraq, hazırda ölkənin xarici ticarət əlaqələrində hələ də problemlər var. Birincisi, ticarət əlaqələrinin şöbə və coğrafi strukturu bəzi çatışmazlıqlara malikdir. Nəzərə alsaq ki, Azərbaycanın idxal-ixrac əməliyyatlarının böyük hissəsi Rusiyaya və Türkiyənin payına düşür, bu müəyyən hallarda belə inhisarçılıq siyasi və iqtisadi təzyiq vasitəsinə çevrilə bilər. İkincisi, ticarət əlaqələrinin strukturunda xammal, ara məhsullar və yarı hazır məhsullar üstünlük təşkil edir. Dünya təcrübəsi göstərir ki, xarici ticarət strukturunda bir və ya iki məhsul üstünlük təşkil edirsə, bu ölkənin xarici ticarəti bu məhsulların dünya bazarında konyunkturasından asılıdır. Yəni, əgər ixracatın əsasları neft ixrac edən ölkələrdə neft məhsulları, iqtisadi və siyasi dəyişikliklər, dünya bazarında neft məhsullarının tədarükü və tələbatının dəyişməsi respublikanın xarici ticarətinə ciddi təsir göstərə bilər. Bu proseslər nəticəsində, 2014-cü ilin ortalarından etibarən dünya bazarlarında neft qiymətlərinin aşağı düşməsi Azərbaycanın iqtisadiyyatına, əsasən, xarici ticarət və büdcə gəlirlərinə təsir göstərmişdir. Çox güman ki, yaxın gələcəkdə Azərbaycan ixracatda hazır məhsulların xüsusi çəkisini tələb olunan səviyyəyə çatdıra bilməz. Çünki, biz dünya bazarlarında satılan hazır məhsulların istehsalı üçün zəruri texnika və texnologiyaya sahib deyilik. Bununla belə, ölkədə xarici ticarətin strateji inkişaf proqramının əsas məqsədi qeyri-neft məhsullarının istehsalının və idxalı əvəz edən məhsulların istehsalının artması olmalıdır. Azərbaycanın xarici ticarət əməliyyatları sisteminin təhlili göstərir ki, uzun illər Rusiya Federasiyası idxalçı, İtaliya isə ixracatçılar arasında birinci yeri tutur.

Ümumiyyətlə, Azərbaycan beynəlxalq müstəvidə özünü etibarlı tərəfdaş ölkə kimi tanıdıb. Eyni zamanda, ölkəmizdə həyata keçirilən uğurlu siyasi addımlar dövlətimizin əsaslarını əhəmiyyətli dərəcədə möhkəmləndirib. Təbii ki, Azərbaycanın sürətli inkişafı, iqtisadi gücünün artması, əhalinin rifahının yüksəlməsi və bir sıra digər məsələlərdə təsiredici rol oynayır. Sözsüz ki, əldə edilən uğurlar Azərbaycanın beynəlxalq aləmdə mövqeyini də əhəmiyyətli dərəcədə gücləndirir. Bu gün ölkəmiz dünya birliyinin tam bərabərhüquqlu üzvüdür, söz sahibi olan dövlətdir. Son bir neçə ildə Azərbaycanın əldə etdiyi ugurlar, hərtərəfli iqtisadi nailiyyətlər bizim ölkəmizi regionda güc mərkəzlərindən birinə çevirib. İqtisadi coğrafi baxımdan çox strateji məkanda yerləşdiyimizə görə birmənalı olaraq böyük bir maraq oyadırıq, bütün beynəlxalq təşkilatlar, böyük dövlətlər bizə maraq göstərərək tərəfdaşlıq etmək istəyirlər.

Bu gün Azərbaycanda dövlətimizin güclənməsinə xidmət edən və xalqımızın siyasi iradəsinə əsaslanan siyasət həyata keçirilməkdədir. Azərbaycanın 2012-ci ildə BMT Təhlükəsizlik Şurasına üzv seçilməsi də bu siyasətin məntiqi nəticəsidir. Təşkilat yaranan zamandan 200-ə yaxın dövlətin içərisində 155 dövlətin dəstəyini almaq həqiqətən də, Azərbaycanın beynəlxalq aləmdə nüfuzuna dəlalət edir. 27 ildir ki, müstəqil ölkəmiz beynəlxalq müstəvidə böyük nailiyyətlər qazanıb. Nəticə etibarilə qeyd etmək olar ki, Azərbaycanın beynəlxalq münasibətlər sistemində mövqeyi getdikcə güclənməkdədir. Həyata keçirilən praqmatik xarici siyasət strategiyası ölkəmizi dünya siyasətinin təmsilçisi qismində çıxış edir.

Muradova N.U., doktorant
Bakı Dövlət Universiteti

MÜASİR ŞƏRAİTDƏ DÖVLƏTİN EKOLOJİ SİYASƏTİNİN İQTİSADİ ASPEKTLƏRİ

Ecazkar təbiətə, zəngin yeraltı sərvətlərə və eyni zamanda inkişaf etmiş sənaye sahələrinə sahib olan Azərbaycan Respublikası, uzun illərdən bəri yığılıb qalmış ətraf mühit problemləri ilə ciddi məşğul olmadığından, ətraf mühiti həddindən artıq çirklənmiş, ölkənin təbiətinə geri dönülməz zərbələr vurulmuşdur. Respublikamız 71 il sonra müstəqilliyini yenidən bərpa etdikdən sonra, bütün sahələrdə olduğu kimi ekoloji sahədə də problemlərin həlli istiqamətində tutarlı addımlar atıldı .

Azərbaycan karbohidrogen ehtiyyatlarından gələn gəlirləri düzgün idarə edərək iqtisadi inkişaf, sosial sabitlik və ekoloji tarazlığın əldə edilməsi məqsədi ilə xeyli işlər görmüş və görülən işlərin müsbət nəticələrini də əldə edə bilmişdir. Bu dövr ərzində yoxsulluğun azaldılması, regionların inkişafındakı qeyri-bərabərliyin minimuma endirilməsi, biznes mühitinin yaxşılaşdırılması, ölkənin valyuta ehtiyyatlarının artırılması, müvafiq olaraq xarici borcun azaldılması kimi uğurlar əldə edilmişdir. Ölkənin gələcək prespektivlərinə makroiqtisadi sahədə sabitliyə nail olmaq, məşğulluğu artırmaq, ölkə iqtisadiyyatında özəl sektorun payını artırmaq, istehsalın həcmini artırmaq, ixrac potensialını yüksəltmək, ekoloji tarazlıq şəraitində yüksək iqtisadi artım əldə etməkdir. İqtisadi inkişaf ekoloji tarazlığın pozulmamasına əksinə ətraf mühitin daha da yaxşılaşdırılmasına xidmət etməlidir. Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatının Minilliyin İnkişaf Məqsədləri Proqramı üzrə bir neçə hədəflərə nail ola bilmişdir. Sirr deyil ki, son on ildə iqtisadi sahədə olduğu kimi, sosial və ətraf mühit

sahəsində də islahatlar aparılmış, uğurlar əldə edilmişdir. Respublikamız BMT-nin 2016-2030-cu illər üçün təsdiqlənmiş Dayanıqlı İnkişaf Məqsədlərinə qoşulmuşdur. Dayanıqlı İnkişaf Proqramı inkişaf problemlərinin həll edilməsində üç əsas sahənin – iqtisadi artım, sosial inkişaf və ətraf mühitin dayanıqlılığının kompleks inkişafını labüd sayır. Proqram məşğulluğun artırılması məqsədi ilə işsizlərə təcrübə və resurslar təklif etməklə insanların həyatının yaxşılaşdırılmasında, dayanıqlı inkişafa nail olmaq üçün dövlətlə özəl sektor arasında sıx əməkdaşlığın qurulmasında, ekoloji idarəçiliyin təkmilləşdirilməsi ilə iqlim dəyişikliyi təsirlərinin azaldılmasında Azərbaycan hökumətinə dəstək verir. Azərbaycan neft gəlirlərinin yüksək olduğu dövrdə yoxsulluğun və sosial məhrumiyyətin azaldılmasında ciddi irəliləyiş əldə edib. Lakin qarşıda duran çətinlik bütün bu işləri neft gəlirlərinin aşağı olduğu hazırkı dövrdə də etməkdən ibarətdir. Ölkənin təbii kapitalını azaltmaq yerinə ona daha çox sərmayə yatırmaqla ,yeni texnologiyalar tətbiq etməklə dayanıqlı iş yerləri açmaqdır. Bərpa edilən enerji növlərindən sayılan külək və günəş enerjisi texnologiyalarına edilən investisiyaların həcmini artırmaqla enerji səmərəliliyinə nail olmaq, bununlada xaricə enerji ixracını artırmaqdır. Azərbaycan dövləti tərəfindən daha dayanıqlı, əhatəli iqtisadiyyatın inkişaf etdirilməsi, sosial sahələrin tarazlı inkişafı və ətraf mühitdən dolayısıyla təbii resurslardan səmərəli istifadəni təmin edən milli icra mexanizmi yaradacaqdır. Bu məqsədlə, 2016-ci ildə ölkənin Strateji Yol Xəritəsi qəbul edilmişdir.

Hazırkı qlobal şəraitdə neft və qaz qiymətlərindəki qeyri-sabitlik maliyyə dayanıqlılığının gücləndirilməsi məqsədi ilə təbii ehtiyyatlardan gələn gəlirin səmərəli istifadəsində ciddi makroiqtisadi çərçivənin olmasını obyektiv zərurətə çevirir. Strateji Yol Xəritəsinin əsas və birinci hədəfi təbii resurslardan gələn gəlirlərə qənaət edilməsi ilə yanaşı, ehtiyyatların düzgün idarə edilməsi məsələlərindən ibarətdir. Xəritənin birinci hədəfində eyni zamanda qeyd olunur ki, təbii ehtiyyatlardan gələn gəlir əsasən ölkənin yenidən qurulmasına xərcləndiyindən, bu vəsaitin xərclənməsində səmərəlilik prinsipinə əməl olunmalıdır.

Dünya bazarında neft qiymətlərindəki dəyişkənlik Azərbaycan Dövlət Neft Fondun-un gəlirlərinin iki dəfəyə qədər azalmasına, müvafiq olaraq Fondun Azərbaycan Respublikası Dövlət Büdcəsinə transferlərinin kəskin azalmasına səbəb olmuşdur. Nəticə etibarı ilə, büdcənin azalması dövlət xərclərinin azalmasına, bir neçə layihələrin icrasının təxirə salınmasına səbəb olmuşdur. Beləliklə, Dövlət xərclərindəki azalma ölkə üzrə ÜDM-nin azalmasına səbəb olmuşdur.

Ekoloji tarazlığı təmin etmək və eyni zamanda iqtisadi artımı təmin etmək məqsədi ilə ilk növbədə təbii ehtiyyatlardan xüsusilə də neftdən asılılığın (həm qısa dönəmdə, həm də uzun dönəmdə) azaldılması zəruridir. Misal üçün qeyd edə bilərik ki, 2013-cü ildə ARDNF-nin transferləri ümumi dövlət xərclərinin 59%-ni təşkil edirdi. Dayanıqlı inkişafın əsas prinsiplərindən olan təbii ehtiyyatların istismarında dayanıqlılığın təmin olunması, indiki nəsillərlə yanaşı gələcək nəsillərə də təbii ehtiyyatların saxlanılması prinsipi baxımından, eləcə də iqtisadi, yəni makroiqtisadi sabitliyin əldə olunması baxımından bu çox təhlükəli bir haldır.

Ölkənin təbii ehtiyyatlarının dünya bazarındakı qiymətlərindən fiskal asılılığı uzunmüddətli perspektivdə bu məsələyə daha diqqətli analizi tələb edir. Hesablamalar göstərir ki, ortalama neft-qaz ehtiyyatı dünya əhalisinə təqribən 45 il bəs edəcək. Azərbaycan isə digər neft ixrac edən ölkələrlə müqayisədə daha az ehtiyyata sahib ol-

duğundan bu müddət 30-35 il arasında dəyişir. Dayanıqlı inkişaf modelinin təsdiqi üçün gələcək 30 il ərzində neft-qaz gəlirlərindən asılılığı minimuma endirmək lazımdır. Neftlə bərabər yer səthinə çıxan qazma şlamı, neftin dənizə sızması və digər neft çıxarılması zamanı ətraf mühitə vurulan zərər də neftdən asılılığın azalması ilə aradan qalxacaq və ekoloji tarazlığın təmin olunmasına öz töhfəsini verəcək. Qazma şlamının yenidən emal olunması üçün ARDNŞ yeni emal zavodu inşa etmişdir ki, zavodda qazma şlamı yenidən emal olunmaqla ətraf mühitə vurulan zərər azaldılır. Dənizə neftin sızmasının qarşısını almaq məqsədi ilə isə ARDNŞ qazma zamanı Vakko dry qurğularından istifadə edir. Bütün bu tədbirlərin alınmasına baxmayaraq neftin dənizə axmasının qarşısı tam olaraq alına bilmir.

Prezidentin 2016-ci ildə təsdiq etdiyi "Strateji Yol Xəritəsi"ndə də qeyd olunduğu kimi, müasir şəraitdə Azərbaycan üçün uzunmüddətli perspektivdə Norveç modelini seç-mək daha əlverişlidir. Gələcək 30 il içərisində mümkün olduğu qədər neftin və qazın çıxarılması və ondan alınan vəsaitin Dövlət Neft Fondunda saxlanılaraq gələcək nəsillərlə indiki nəsillər arasında düzgün bölüşdürülməsini təmin etmək lazımdır. Büdcənin və dövlət xərclərinin əsasını isə Azərbaycan iqtisadiyyatının ixrac, turizm, nəqliyyat kimi sahələrindən gələn gəlirlər təşkil etməlidir. Mümkün olduğu qədər özəl sektorun genişləndirilməsi, biznesin inkişafı üçün münbit şəraitin yaradılması lazımdır. İş adamlarının işləyib vergi ödəməsi, idxal ixrac əməliyyatlarından gömrük rüsumları ödəməsi büdcənin müsbət yöndə dəyişməsinə təkan verəcəkdir.

Təbii resurslara əsaslanan iqtisadiyyatımızın bir neçə problemləri mövcuddur. Məsələn, iqtisadiyyatın neftin ixracından gələn valyutadan asılı olması, dünya bazarında neftin qiymətlərinin yüksəlib - azalması ilə valyuta təminatında qıtlıq yaşanır və milli valyuta bundan təsirlənir. Milli valyutanın qiymətinin oynaması yerli iqtisadiyyata xeyli ziyan vurur.

Başqa bir problem, məşğulluqla əlaqəli problemdir. Resurs sektorunun aşağı əməktutumlu olması, əhalinin məşğulluğu ilə problemlər meydana gətirir. Məsələn, Azərbaycan ÜDM-nin 36,3%-ni, büdcənin isə 50%-dən artığı bu sektor hesabına yerinə yetirilsə də, ümumi məşğulluqda bu sektorun payı yalnız 1-2 %-dir.

Strateji Yol Xəritəsinin ikinci məqsədi insan kapitalının sürətli inkişafını və bu məqsədlə həyata keçirilən tədbirlərə təhsilin insan kapitalına töhfəsi, müəssisələrin daha səmərəli işləməsi üçün əmək məhsuldarlığının yaxşılaşdırılması və s. aid edir.

Dördüncü məqsəd mövcud təbii resurslardan daha səmərəli istifadəyə imkan yaradan əlverişli biznes mühitinin yaradılmasıdır.

Planetimizdə baş verən iqlim dəişikliliyinə dünyanın göstərdiyi həssaslıq planetin ekologiyasının milli və qlobal təhlükəsizlik mövzusu olduğunu daha çox insanın dərk etməsinə səbəb olmuşdur. Dünyanın yarısı neft və qida məhsullarının qiymətlərinin artması; iqlim dəyişikliyi; siyası, ekoloji və iqtisadi problemlərlə əlaqədar olaraq əhalinin miqrasıyasının artması; su, qida, enerji ehtiyyatlarının azalması kimi bir sıra digər problemlər səbəbindən sosial sabitlik əldə etməkdə çətinlik çəkir.

Respublikamızda ətraf mühitin yaxşılaşdırılması, təbiətdən istifadədə səmərəliliyin artırılması və ekoloji tarazlığı təmin edən mexanizmlərin təkmilləşdirilməsi məqsədi ilə analiz metodlarından və eyni zamanda beynəlxalq təcrübədən istifadə edərək aşağıdakı nəticələrə gəlmişik.

Ekologiya və iqtisadiyyat arasında tarixən hər zaman ziddiyyət mövcud olmuşdur

ki, sənaye inqilabindan sonra iqtisadiyyatın ekologiyaya vurduğu ziyanın çoxalması ilə bu ziddiyyət daha da dərinləşmişdir.

Azərbaycan iqtisadiyyatında ekoloji tarazlığı təmin etmək məqsədi ilə milli proqram və bununla yanaşı bir neçə beynəlxalq əhəmiyyətli layıhələr qəbul edilmişdir. Beynəlxalq xarakterlı layihələrin icrasında yerlı xüsusiyyətləri nəzərə alaraq daha konkretləşdirsək isə qlobal ekoloji problemlərin həlli naminə lokal ekoloji problemlərə fokuslanmaq daha məqsədəuyğundur. Qlobal dünyadakı ekoloji problemlərdən Azərbaycan Respublikasının üzləşdiyi problemləri ayrı, müstəqil təsəvvür etmək qeyri -mümkündür.

Sabiq SSRİ tərkibində olarkən Azərbaycan birliyə daxil olan ölkələr arasında sənayesi inkişaf etmiş ölkələrdən hesab olunurdu. İkinci Dünya müharibəsində pik həddə çatan karbohidrogen hasilatı, özü ilə bərabər ekoloji problemlər də gətirmişdir.

Bütün dünya ölkələri kimi Azərbaycan da müxtəlif xarakterli ətraf mühit problemləri ilə üzləşir. Planetdə ekoloji tarazlığın qorunub saxlanması, ehtiyyatlardan səmərəli istifadə, suyun, havanın, torpağın çirklənmədən mühafizə edilməsi ümumbəşəri problemdir. Şübhəsiz ki, bu problemlərin həlli Azərbaycanın da qarşısında duran strateji vəzifələrdən biridir. Həmin vəzifənin öhdəsindən gəlmək üçün planlı və uzunmüddətli fəaliyyət proqramları, irihəcmli dövlət investisiyaları tələb olunur. Qeyd etmək lazımdır ki, Azərbaycanda sovet hakimiyyəti dövründə ekoloji tarazlığın qorunması prioritet təşkil etmirdi. Eləcə də müstəqilliyin əldə edilməsindən sonrakı dövrdə ölkənin üzləşdiyi ağır problemlər ekologiyaya ayrıca diqqət ayrılmasına və investisiyaların yatırılmasına imkan vermirdi. Nəticədə paytaxt Bakıda, Xəzərin sahilboyu zolağında, Sumqayıtda və digər yerlərdə ağır ekoloji fəsadlar meydana gəlmişdi. Lakin Azərbaycanda son illərdə sürətli iqtisadi inkişaf bir neçə on illiklər ərzində ilk dəfə ekoloji problemlərin həlli, ətraf mühitin qorunması dövlətin siyasətinin əsas prioritetlərindən birinə çevrilməsinə imkan yaratdı. Ötən 7-8 il ərzində Azərbaycanda ekoloji durumun sağlamlaşdırılmasına yönələn irimiqyaslı dövlət proqramları, milyardlarla manat investisiya tələb edən böyük layihələr həyata keçirilib. Bu miqyasda tədbirlər Azərbaycanın son bir neçə on illik tarixində ilk dəfədir həyata keçirilir və artıq öz bəhrəsini verməkdədir.

Bütün görülən işlərlə yanaşı, ekoloji siyasətlə əlaqədar bir neçə məsələyə aydınlıq gətirilməli və tədbirlər görülməlidir:

- Azərbaycanda ekoloji tarazlığın bərpa edilməsi məqsədi ilə ekoloji sivilizasyanın əsas komponentləri olan yaşıl əmək fəaliyyəti, yaşıl təfəkkür, yaşıl həyat tərzi təşviq olunmalıdır;
- ölkədə gələcək 10 illik üçün aydın ekoloji siyasət mövcud deyildir. Dövlət Ətraf Mühit Proqramı ilə yanaşı 10 illik ekoloji siyasət strategyasının müəyyən edilməsi, hədəflərin gəlirlənməsi və bu hədəflərə çatmaq üçün kompleks tədbirlər həyata keçirilməlidir;
- ətraf Mühitə ziyan vuran, ekoloji stabilliyi pozan istehsal müəssisələri, eləcə də ayrı-ayrı şəxslər müəyyən edilməli, cəzalandırılmalı və problemin həll olunması prosesinə ciddi nəzarət edilməlidir;
- ölkənin regionlarında su təminatını yaxşılaşdırmaq məqsədi ilə iri miqyaslı layihələr həyata keçirilməlidir. İlk olaraq, ölkənin sudan əziyyət çəkən və kənd təsərrüfatı baxımından əlverişli olan regionlarının su təminatı 100 faizə çatdırılmalıdır. Layihələrin icrasına ciddi nəzarət edilməlidir.

Əfəndiyeva N.İ., doktorant
Bakı Biznes Universiteti

AZƏRBAYCANDA TİKİNTİ TƏŞKİLATLARINA İNVESTİSİYA QOYULUŞLARININ MÖVCUD VƏZİYYƏTİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

İnvestisiya fəaliyyəti dedikdə milli iqtisadiyyatımızın bütün sahələrinə, o cümlədən tikintiyə fiziki və hüquqi şəxslər tərəfindən investisiyaların yönəldilməsi başa düşülür. Tikintidə investisiya qoyuluşları pul vəsaiti, səhm, veksel və digər qiymətli kağızlar, istiqraz vərəqələri, bank depozit qoyuluşları, daşınan və daşınmaz əmlak, maddi sərvət, intellektual sərvət, ixtira, layihə və konstruksiya işləri, torpaq sahələri və digər təbii sərvətlər və s. formada həyata keçirilir.

Ölkəmizdə isə tikintiyə qoyulan investisiyalar pul vəsaiti və Bank depozit qoyuluşları formasında həyata keçirilir.

Müasir bazar iqtisadiyyatı şəraitində investisiya fəaliyyətinin düzgün tənzimlənməsi dövlətin apardığı iqtisadi siyasətin tərkib hissəsidir. 13 yanvar 1995-ci ildə imzalanmış "İnvestisiya fəaliyyəti haqqında" qanun ölkə daxilində əlverişli investisiya mühitinin yaradılmasında mühüm rol oynayır.

Ümumiyyətlə, müasir şəraitdə tikinti kompleksində və yaxud tikinti sənaye müəssisələrində investisiya siyasətinin xüsusiyyətlərini aşağıdakı kimi göstərmək olar:

- xarici investorların sayını artırmaqdan ötrü, onların payının artırılması;
- vəsaitlərin mövcud müəssisələrin texniki cəhətdən yenidən silahlandırılmasına və yenidən qurulmasına qoyulması və uyğun olaraq onların yeni tikintidə xüsusi çəkisinin azaldılması;
- investisiyaların xüsusilə maşınqayırmanın, tikintinin baza sahələrinə yönəldilməsi;
- kapital qoyuluşunun resurs istehsal və emal edən istehlak sahələrində yaxşılaşdırılması.

İnvestisiya- tikinti fəaliyyəti iştirakçılarının əsas qrupunun tərkibini təhlil edərək müəyyən etmək çətin deyil ki, onların məhsuluna tələb birbaşa və ya bilavasitə tamamlanmış tikinti obyektlərinə tələbin parametrləri ilə əlaqədardır (daşınmaz əmlak obyektləri). Bununla əlaqədar olaraq daşınmaz əmlaka tələb, onun kəmiyyət və keyfiyyət xarakteristikalarının bütün cəmi kimi baxmaq olar. Tikinti istehsalının investisiyalaşdırılması sahəsində, ümumi mənada isə ərazi dəyişiklikləri çərçivəsində baş verən investisiya- tikinti proseslərinin intensivliyinə, bütün tikinti məhsulu və xidmətlərinə differensasiya tələbinin inkişafının determinasiya prosesi, formalaşan kateqoriya kimi təsəvvür etmək olar.

Daşınmaz əmlak obyektlərinə tələb bəzi amillərin cəminin qarşılıqlı təsiri ilə baş verir. Onlardan ən mühümü istehlak üstünlüyüdür və daşınmaz əmlak obyektinə müxtəlif növlü xidmətlərin istehsalçısı kimi baxmağa imkan verir. Axırıncı amil isə daşınmaz əmlak əməliyyatlarının kreditləşdirilməsi və dövlət, regional və bələdiyyə tənzimlənməsi orqanları tərəfindən maliyyə - təşkilati köməkliyin şəraiti ilə sıx bağlıdır.

Bakıda gedən yaşayış binalarının tikintisindən aydın olur ki, tikinti kompleksləri investisiyanı daha çox mənzil tikintisi sahəsinə yönəldir. Regionlarda isə bu hal heç də

qənaətbəxş deyil. Təbii ki, bu cür investisiya axınını Bakıdan rayonlara da istiqamətləndirmək məqsədəuyğun olardı.

Azərbaycan Respublikasının bütün regionları təbii sərvətlərlə və eyni zamanda tikinti materialları ilə zəngirdir. Tikinti quraşdırma işləri həyata keçirilən zaman ən vacib məsələlərdən biri tikinti materialları ilə təchizat olduğundan tikinti kompleksi yerli xammallardan istifadə etməklə inşaat materiallarının ucuz qiymətə başa gəlməsinə əlverişli şərait yaradacaq. Bu baxımdan regionlarda tikinti sektorunun inkişafının həyata keçirilməsi daha məqsədəuyğundur.

Bütün bunlara baxmayaraq, Bakıya nisbətən regionlarda tikinti sektorunun investisiya axını zəifdir. Buna səbəb isə regionlarda kredit resurslarının və özəl bankların filiallarının zəif səviyyədə fəaliyyətidir.

Bu istiqamətdə dövlət lazımi tədbirlər həyata keçirir. Buna misal olaraq, 11 fevral 2004-cü il tarixində Azərbaycan Respublikası prezidenti İlham Əliyev tərəfindən "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" (2004-2008-ci illər üçün) imzalanan fərmanı göstərmək olar. Bu fərman imzalandıqdan sonra regionlarda tikinti sektorunda köklü dəyişikliklər müşahidə olundu. Bu fərmanın uğurlu davamı olaraq isə "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" (2009-2013-cü illər üçün) imzalanmışdır. Qoyulan investisiyaların daha çoxu dövlətin payına düşsə də, podrat işlərini yerli tikinti kompleksləri həyata keçirdi.

Bu fərmanlardan sonra xarici investorlar tikinti sektoruna da yatırımlar və kredit ayırmışdır. Qoyulan investisiyalar rayonlararası yolların və körpülərin yenidən qurulması və tikintisinə, su kanallarının, su anbarlarının tikintisinə, artezian quyularının qazılmasına, rayonların su təchizatının və kanalizasiya sistemlərinin yenidən qurulmasına, məktəb və xəstəxana, idman komplekslərinin, əlillər və şəhid ailələri üçün yaşayış binalarının tikintisinə və s. yönəldilmişdir. Ümumiyyətlə, qeyd edək ki, maliyyələşdirilən layihənin 86,4 %-i ölkənin regionlarının payına düşür.

Hal-hazırda respublikada əlverişli investisiya mühitinin təmin edilməsi istiqamətində lazımi tədbirlər həyata keçirilir. Əlverişli investisiya şəraiti yaratmaqdan ötrü hər gün yenilik və islahatların aparılması dövlətin qarşısında duran məsələdir. Lakin hələdə tikinti sahəsi bəzi maneələrlə üz-üzədir.

Belə ki, təmir-tikinti müəssisəsi və yaxud firması kimi sahibkarlıq fəaliyyəti ilə məşğul olduqda heç bir maneəyə rast gəlinmədiyi doğrudur. Lakin yaşayış və qeyri-yaşayış binaların tikintisi zamanı sahibkarlar çoxlu maneələrlə üzləşirlər. Hər hansı bir yaşayış binası və yaxud kompleksi tikmək üçün tikinti təşkilatı bir neçə orqandan icazə almalıdır. Bu da müəyyən mənada istər xarici, istərsə də daxili investorların bu sahəyə investisiya qoyuluşlarına çətinliklər törədir. Hətta, bəzən hər hansı bir obyektin tikintisinə icazə aylar və yaxud illərlə uzadılır. Məhz bu baxımdan da bu problemin həlli istiqamətində tədbirlərin həyata keçirilməsi məqsədəuyğun olardı.

Həmçinin müasir şəraitdə investisiya siyasəti və tikinti kompleksinin səmərəliliyinin yüksəldilməsinin əsas istiqamətləri layihələrə yönəldilən kapital qoyuluşunu artırmaq və fəaliyyətdə olan əsas fondların yenidən qurulması və modernləşdirilməsini genişləndirməkdir. Məhsul istehsalı və xidmətlər göstərilməsində yeni güclərin yaradılmasına, mövcud binaların, qurğuların, istehsal sahəsinin, tikintilərin sahəsinin mə-

nimsənilməsinə və mövcud infrastrukturların istifadəsi məqsədilə hazırlanan layihələrə üstünlük verilməlidir.

Ümumiyyətlə, respublika üzrə ümumi vəziyyətə baxsaq, 2005-2015-ci illər ərzində ümumi sahəsi 20,2 milyon kvadrat metr olan 181 min yeni mənzil tikilib istifadəyə buraxılmış, onlardan 7 milyon kvadrat metri (32,8 %-i) regionlarda inşa edilmişdir. Əhalinin şəxsi büdcəsi hesabına istifadəyə verilmiş yaşayış evləri 13 milyon kvadrat metr (bütün yasayış evlərinin 66 %-i qədər) təşkil etmişdir. Bu sektorda çalışanların sayı isə 100 min nəfərdən artıqdır.

2005-2015-ci illər ərzində bütün mülkiyyət formalarından olan müəssisə və təşkilatlar tərəfindən ölkə iqtisadiyyatının və sosial sferanın inkişafı üçün əsas kapitala 101,8 milyard manat vəsait yönəldilmişdir. İstifadə edilmiş vəsaitin 52,2 milyard manatı (51,2 %-i) dövlət mülkiyyətində olan qurumlara, 49,6 milyard manatı (48,8 %-i) qeyri-dövlət mülkiyyətində olan təşkilatlara məxsus olmuşdur.

Məmmədova N.A., doktorant
Bakı Biznes Universiteti

QİYMƏTLİ KAĞIZLARLA ƏMƏLİYYATLARIN İQTİSADİ MAHİYYƏTİ

Qiymətli kağızlar bazarının yaranma tarixi bir neçə yüz ilə bərabərdir. Qiymətli kağızlarla əməliyyatların aparıldığı ilk sabit birja 1406-cı ildə Hollandiyanın Brügge şəhərində yaranmışdır. Sonralar əmtəə və fond birjaları Antverpendə, Amsterdamda, Parisdə, Hamburqda, Kölndə, Berlində, Vyanada yaradılmışdır.

Hələ iqtisadi islahatlara qədərki dövrün sovet ədəbiyyatında, islahatlar başlandıqdan sonra isə qanunvericilikdə və digər normativ sənədlərdə qiymətli kağız dedikdə müəyyən hüquqi münasibətləri əks etdirən sənədin özü başa düşülür. Lakin təcrübələrinə daima müraciət olunan dünyanın inkişaf etmiş ölkələrində qiymətli kağızların getdikcə artan hissəsi nağdsız şəkildə buraxılır ki, bu zaman kağızın (blankın) özü hazırlanmır. Bu cür qiymətli kağızların buraxılışı, uçotu və investorlar arasında hərəkəti ixtisaslaşmış təşkilatlar və bankların hesabları üzrə mühasibat (kompüter) qeydləri şəklində baş verir. Bu mənada qiymətli kağızın iqtisadi kateqoriya kimi məhz kağız sənəd kimi başa düşülməsi və tərifləndirilməsi maliyyə bazarının müasir ümumdünya inkişaf meyllərinə artıq uyğun deyil. Məsələn, ingilis dilindəki "securities" sözü "qiymətli kağızlar" kimi tərcümə olunsa da, məna yükünə görə bilavasitə kağızla əlaqəli deyil.

Buna görə də, bir çox mənbələrdə qiymətli kağızlara forması və rekvizitləri qanunvericiliklə müəyyənləşən və hər hansı hüququ təsdiq və təsbit edən sənəd kimi tərif verilməsinə baxmayaraq, müasir dünyada qiymətli kağızların köhnə, sırf sənəd kimi başa düşülməsi artıq üstünlük təşkil etmir. Bu səbəbdən də, qiymətli kağızın sənəd kimi deyil, sənədlə təsdiqlənə bilən və sənəddə göstərilən qaydada həyata keçirilə bilən mülkiyyət (əmlak) hüququ kimi tərifləndirilməsi daha düzgün olardı. Belə olduqda əsas yük "hüquq" sözünün üzərinə düşür, sənəd isə köməkçi rol oynayır.

Qiymətli kağızlar bazarı maliyyə bazarının əsas tərkib hissəsi olmaqla orada müxtəlif qiymətli kağızların tədavülü və alqı-satqısı prosesi baş verir. Bütün qiymətli

kağızlar maliyyə kapitalından asılı olmayaraq iqtisadi şəraitin real vəziyyəti ilə əlaqədar meydana gəldiyi üçün o maliyyə bazarında sərbəst hərəkət edir. Qiymətli kağızlar pulla ifadə olunan maliyyə vəsaiti kimi fond bazarına sərbəst surətdə daxil olur və onun bu cəhəti maliyyə bazarının mövcud vəziyyəti ilə tənzimlənir. Fond bazarı iştirakçıları tərəfindən qiymətli kağızlar tələb və təklif qanunlarının birbaşa hegemonluğu şəraitində reallaşdırılır. Qiymətli kağızların digər hissəsi, dövlət zəmanətli, lakin özünün nisbətən kiçik həcminə görə xüsusi çəkiyə malik olmadığından dövriyyəsi daha çox çevik olan qiymətli kağızların tərkibinə daxil olmaqla bazar əməliyyatlarında iştirak edir. Qiymətli kağızlarla əməliyyatlarda bu və ya digər səbəbdən yaranmış vəziyyəti nəzarət altında saxlamaq məqsədilə əsas vəzifələrin yenidən bölüşdürülməsi aparılır. Bu da əsasən aşağıdakı amillərin reallığından irəli gəlir:

- maliyyə vəsaitlərinin daha çevik bazar fəaliyyətinə uyğun sahələri üzrə bölüşdürülməsi;
- əhaliyə məxsus əmanətlərin qeyri-istehsal sahələrinin təşkilinə və genişlənməsinə cəlb olunması;
- dövlət büdcəsinin cari xərclərində yaranmış vəsait çatışmamazlığının, dövriyyəyə əlavə pul kütləsi buraxmadan maliyyə vəsaitlərilə təmin olunması;
- qiymət və maliyyə risklərinin sığortalama funksiyası. Bu funksiya qiymətli kağızlar bazarına qeyri-ixtiyari daxil olmuş müxtəlif dərəcəli (fyuçers və opision müqavilələri) qiymətli kağızların daxil olmasının tənzimlənməsi və digər əməliyyatların yerinə yetirilməsi üçün daha zəruridir.

Qiymətli kağızlarla kommersiya əməliyyatlarının aparılması fəaliyyətdə olan bütün maliyyə bazarları haqqında dəqiqləşdirilmiş düzgün məlumatların yığılması üçün çox vacibdir. Fond bazarının iştirakçılarını, ilk növbədə, maliyyədə yaranan vəziyyəti əmanətçilər iqtisadi cəhətdən dürüst olan təhlillərə əsaslanmaqla məlumatlandırır və sərmayə sahiblərinə öz kapitallarını yerləşdirmək üçün məqsədəuyğun istiqamət verirlər. Həmin məlumatlar maliyyə bazarı iştirakçıları tərəfindən baza kimi qəbul olunmaqla qiymətli kağızların kursunun müəyyənləşdirilməsində geniş istifadə olunur. Məsələn, hər hansı bir müəssisənin səhmlərinin qiyməti qalxırsa, bu bir qayda olaraq həmin müəssisənin yaxın və gələcək dövrlərdə təsərrüfat fəaliyyətinin inkişaf perspektivlərindən bazar iştirakçılarına məlumat verir. Digər iqtisadi təhlillər aparmaqla fond bazarının və ümumiyyətlə bütövlükdə mövcud iqtisadi durumun vəziyyəti hadisələrin inkişaf prizmasından keçməklə məlumatlar hazırlana bilər. Qiymətli kağızların kurs dəyərinin dəyişməsi işgüzar aktivliyin güclənməsi və ya aşağı düşməsinə səbəb olur və onlar real bazar qiymət-lərinə birbaşa təsir göstərir. Bu qanunlarda istisnalar da ola bilər, ancaq çox hallarda fond bazarının iqtisadi fəaliyyətində həmin dəyişikliklər nəzərə alınır. Bütün baş verən dəyişikliklər və fond bazarında yaranmış vəziyyət iqtisadiyyatın gələcəyi haqqında yekunlaşdırıcı məlumat verir. Fond bazarı ilə iqtisadi vəziyyətin qarşılıqlı əlaqəsi maliyyə bazarı üzrə fəaliyyətin gələcək nəticələrilə bilavasitə tanış olmaq istəyən sərmayəçilər üçün onların maraqlarına əsaslanaraq məlumatların hazırlanmasıdır. Əgər alınan məlumatlar sərmayəçilərin maraqlarına cavab verirsə, onların mənafelərinə cavab verən qiymətli kağızların alın-masında israrlı olurlar. Növbəti maliyyə əməliyyatları dairəsində sərmayəçilərin malik olduqları qiymətli kağızları gerçək müştərilərin mövcudluğu şəraitində müvafiq qiymətə satırlar. Nəticədə qiymətli kağızların bazar kursu üzrə satış dəyəri bazarın

tarazlığının təmin olunmasına səbəb olur. Qiymətli kağızlar bazarının məqsədi bu və ya digər qiymətli kağızların satış əməliyyatlarından əldə edilməsi ilə deyil, həm də onların lazım gəldikdə sərfəli qiymətlərlə satılmasıdır. Qiymətli kağızlarla əməliyyatlar iqtisadi şəraitdən asılı olaraq aşağıdakı formalarla daha çox təşəkkül tapmışdır:

- müxtəlif iqtisadi ərazilərdə satış bazarı;
- mütəşəkkil və qeyri-mütəşəkkil fəaliyyət göstərən bazarlar;
- birjadaxili və birjadankənar fəaliyyət göstərən bütün növ bazarlar;
- ənənəvi üsullardan və kompüter texnologiyalarının tətbiqi formalarından istifadə edən bazarlar;
- xəzinə ödəniş qaydaları və qarşılıqlı sövdələşmə əsasında fəaliyyət göstərən daimi və müvəqqəti bazarlar.

Qiymətli kağızların satışı üzrə ixtisaslaşan ilkin bazar xüsusi olaraq təyin olunmuş qaydada və müasir tələblərə əsasən qiymətli kağızların ilkin təklif və tələb qanununa əsasən alıcılar tərəfindən əldə edilməsi əməliyyatlarını həyata keçirən məkandır.

Qiymətli kağızların təkrar satışı bazarı ilkin olaraq qiymətli kağızların dövriyyəsi, qiymətli kağızların qüvvədə olduğu bütün müddət ərzində alqı-satqı və ya müxtəlif formalı qiymətli kağızların bir əmanətçidən digər əmanətçiyə keçməsini rəsmi surətdə sənədləşdirir.

Qiymətli kağızların satışının mütəşəkkil bazarları qanuna əsasən xüsusi icazə (lisenziya) almış peşəkar vasitəçilər arasında qiymətli kağızların yerləşdirilməsini gerçəkləşdirən xüsusi məkandır. Bazarın digər iştirakçılarının tapşırığı ilə qiymətli kağızların alqı-satqısı ilə əlaqədar istənilən əməliyyatlar vasitəçilər tərəfindən də həyata keçirilə bilər.

Qiymətli kağızlara olan tələbatı ödəmək məqsədi ilə yaradılan qeyri-mütəşəkkil bazar şəraitində iştirakçılar tərəfindən hüquqi normalara riayət etmədən bəzi hallarda qiymətli kağızların planlaşdırılmayan dövriyyəsilə bağlı alqı-satqı əməliyyatları da aparılır.

Birja bazarı qiymətli kağızların fond birjalarında satılması proseslərini həyata keçirir və qiymətli kağızların fond birjaları vasitəsilə gerçəkləşdirilməsini aparan aktiv satış bazarıdır, o eyni zamanda maliyyə bazarının tərkib hissəsi olmaqla ölkə iqtisadiyyatının maliyyə vəsaitləri ilə təmin olunmasında aparıcı rol oynayır.

Müxtəlif iqtisadi şəraitdə qiymətli kağızlar bazarının iştirakçıları tərəfindən alqı-satqı əməliyyatları birjadankənar bazarlarda həyata keçirilir. Qiymətli kağızların satışını ənənəvi və kompüterləşdirilmiş qurumlara malik bazarlarda aparılması təcrübəsindən geniş istifadə oluna bilər. Bu halda alqı-satqı əməliyyatları bütün fond vasitəçilərini vahid kompüterləşdirilmiş bazarda birləşdirən kompüterlər şəbəkəsi tərəfindən aparılır.

Qiymətli kağızlar bazarının iştirakçıları - qiymətli kağızları alıb - satan, onların dövriyyəsinə xidmət edib bazar iştirakçıları ilə haqq-hesablaşan, qiymətli kağızlara dair bir-biri ilə müəyyən iqtisadi əlaqələrə girən fiziki şəxslər yaxud müəssisələr və təşkilatlardır. Bazara daxil olmaq məqsədlərindən və yerinə yetirməli olduqları vəzifələrdən asılı olaraq, qiymətli kağızlar bazarının iştirakçıları müxtəlif olmaqla, daima ictimai-iqtisadi vəziyyətdən asılı olaraq dəyişir.

Qiymətli kağızlar buraxılışının məqsədi sərbəst maliyyə resurslarını səfərbər etmək və onların bazarın iştirakçılarının qiymətli kağızlarla keçirdiyi müxtəlif əməliy-

yatlar vasitəsilə yenidən bölgüsünü təmin etməkdən ibarətdir. Bu bazarın mövcudluğu bütün bazar iqtisadiyyatlı ölkələr üçün mühüm əhəmiyyət kəsb edir. Qiymətli kağızlar bazarı əmtəə və pul tədavülünə fəal surətdə xidmət edir. Digər tərəfdən qiymətli kağızların buraxılması və bazarda yerləşdirilməsi sərbəst pul vəsaitlərinin səfərbər edilməsi və sosial-iqtisadi inkişafa istiqamətləndirilməsinin səmərəli yoludur. Bunun nəticəsində müvəqqəti sərbəst pul vəsaitlərinin dövriyyə sürəti güclənir, ölkədə investisiya üçün əlverişli şərait yaranır ki, bu da iqtisadi artıma səbəb olur. Bu bazarın formalaşması üçün ilkin şərt qiymətli kağızlar buraxan kifayət qədər emitentlərin, investorların, qiymətli kağızların hərəkət və infrastrukturunu reqlamentləşdirən inkişaf etmiş normativ-qanunverici bazanın, qiymətli kağızlarla aparılan əməliyyatlara nəzarətin təşkilinin olmasıdır. Müvəqqəti sərbəst pul vəsaitlərinin cəlb edilməsi zamanı bazardakı vasitəçilər bu prosesi sürətləndirirlər. Lakin bəzən vasitəçilərə müraciət kapitalın cəlb olunması ilə bağlı xərcləri artırır. Əgər borc alanın borc verənə birbaşa müraciəti imkanı varsa, bu cəlb olunan resursların dəyərini aşağı salır. Buna maliyyə bazarının sekyuritizasiyası şərait yaradır. Bu zaman az likvidli aktivlər qiymətli kağızlara transformasiya olunur. Qiymətli kağızlar maliyyə vəsaitlərinin ucuz və tez cəlb olunmasını təmin edir. Məsələn, müəssisənin maliyyə vəsaitlərinə ehtiyacı var. Bu zaman o banka kredit almaq məqsədilə müraciət edə bilər, ya da istiqraz buraxa bilər. Birinci halda bank vasitəçi kimi çıxış edir və öz xidmətinə görə haqq alır. İkinci halda isə müəssisə istiqrazları birbaşa investora satır və bu da cəlb olunma xərclərini azaldır.

Qiymətli kağızlar bazarının özünəməxsus vəzifələri var, onları ümumi bazar qismində (adətən hər bir bazara aid olan xüsusiyyətləri nəzərə olmaqla) və məxsusi olaraq konkret bazar şəraitində digər qiymətli kağızlar bazarından həmişə fərqləndirmək tələb olunur. Qiymətli kağızlar bazarının yerləşdiyi ərazidən və təyinatdan asılı olmayaraq maliyyə bazarının vəzifələrinə aşağıdakılar aiddir:

1. Kommersiya əməliyyatlarının aparılmasının əsas vəzifələri və əldə olunan gəlir-mənfəət kütləsi.
2. Qiymətlərin təyin olunma xüsusiyyətləri və bazar qiymətlərinin formalaşması və onların daimi hərəkəti istiqamətləri.
3. Məlumatların qəbulu və ötürülməsi vasitəsilə bazar iştirakçılarının lazımi məlumatlarla təmini formaları
4. Bazar fəaliyyətinin təşkili və idarə edilməsi qaydalarının tənzimlənməsi, mübahisələrin həlli, nəzarətin təşkili və aparılması.

Musayev C.İ., doktorant
Bakı Biznes Universiteti

DÜNYA TƏCRÜBƏSİNDƏ AQROTURİZMİN İQTİDASİYYATDA YERİ

Son zamanlara qədər kənd təsərrüfatı və turizm konsepsiyalarını yan-yana düşünmək mümkün deyildi. Turizm bir başqa urbanizasiya və sənayeləşmə forması kimi tətbiq olunurdu, belə ki, turizmin yayılması və inkişafı kənd təsərrüfatına təhlükə kimi qəbul edilirdi. Aqroturizm ortaya çıxdıqdan sonra kənd təsərrüfatı və turizmin necə birlikdə fəaliyyət göstərəcəklərinə dair nümunələrə şahidlik etdik. Əslində, bəziləri kökündən dəyişməyə başladılar.

Aqroturizm kənd təsərrüfatı və turizm sahəsinin kəsişməsində yaranan yeni bir anlayış və sektordur. Qonaqlar təsərrüfatda, fermada, şərabçılıq yerləri ilə tanış olur, görülən işlərə qoşulma imkanı əldə edir, işlərin gedişatını öyrənir, birbaşa kənd məhsullarından alır, yerli yeməklərdən yeyir və gecə qala bilirlər. Aqroturizm səyahət sənayesində sürətlə inkişaf edən seqment olub və bura işləyən təsərrüfatlara, fermalara, şərabçılıq və kənd təsərrüfatı sənayelərinə səfərlər daxildir. Təsərrüfat yerləri, müxtəlif çeşiddə əyləncə, maariflənmə, istirahət, açıq hava fəaliyyətləri, alış-veriş və yemək təklif edir.

Aqroturizmin ən önəmli faydaları - ailə ilə birlikdə təmiz ekoloji şəraitdə qonaqlamaq, bir iş görmək, təbiət və kənd təsərrüfatı haqqında daha çox öyrənmək, təcrübə qazanmaq, eyni dəyərdə olan insanlarla birgə olmaq, təbiətin qoxusu və səsindən zövq almaq, gündəlik həyatda dəyişiklik etməkdir.

Nəticə onu göstərir ki, aqroturizm ailə ilə birgə iş görərək, təbii resursları, kənd irsini və adət-ənənələri qoruyaraq, yerli iqtisadiyyatı canlandıraraq əhaliyə və cəmiyyətə fayda verir. Bundan başqa, camaat yenilik axtarır - tıxacların sıxlığından qaçmaq, ofisdən kənara çıxmaq istəyir. Valideynlər uşaqlarının məhsulun necə yetişdiyini və içdikləri südün inəkdən gəldiyini bilməsini istəyir.

Aqroturizmin faydaları aşağıdakılardır:

1. Sosial-mədəni faydaları: Kənd irsini və kənd adət-ənənələri qorumaq, regionun adət-ənənələrini tanıtmaq və qonaqlarla paylaşmaq, qonaqlar üçün əyləncəli fəaliyyət təşkil etmək.

2. Ekoloji faydaları: Təbii resursları və ekosistemi qorumaq, ziyarətçiləri təsərrüfat və təbiət haqqında marifləndirmək, təbiət və landşaft gözəlliyi ilə təmin etmək.

3. İqtisadi faydaları: Yerli əhalinin həyat tərzini yaxşılaşdırmaq, lokal iqtisadiyyatı canlandırmaq, kənd yerlərində turizmə marağı gücləndirilmək.

Fermerler üçün faydaları: Təsərrüfat fəaliyyətlərini yaxşılaşdırmaq, yeni və innovativ vasitə ilə təsərrüfat məhsullarından istifadə etmək, təsərrüfat gəlirlərini artırmaq, təsərrüfatda yaşam, iş və istirahət imkanlarını artırmaq, idarəetmə bacarığı və sahibkarlıq ruhunu artırmaq, təsərrüfat biznesində uzunmüddətli dayanıqlı inkişafı artırmaq, lokal kənd təsərrüfatı məhsullarına diqqəti artırmaq və məhsul adlarını (marka) tanıtmaq kimi faydaları var.

4. İctimaiyyət üçün faydaları: Yerli xidmət və bizneslər üçün əlavə gəlir yerini formalaşdırmaq, sakinlər və ziyarətçilər üçün imkanları inkişaf etdirmək və yenidən canlandırmaq, yerli adət-ənənəni, mədəniyyəti, əl işləri, yeməklərini və incəsənətini qoruyub saxlamaq və yenidən canlanmasına dəstək olmaq, yeni iş imkanları və gəlir mənbəyi yaratmaqla regionların iqtisadiyyatının şaxələnməsinə və inkişaf etməsinə kömək etmək, yerli biznesə daha çox xarici valyutanı gətirmək, istifadə etdiyimiz qidaların haradan gəldiyini öyrənmək kimi bir çox faydaları var.

Aqroturizmdə bəyənilən digər fəaliyyətlərdən biri də məhsulun şəxsən yığılması və başqa kənd təsərrüfatı fəaliyyətində birbaşa iştirak etməkdir. Bundan əlavə tədbir və festivallara qoşulmaq, təbiəti müşahidə etmək, velosiped turları, balıqçılıq kimi diqqəti çəkən fəaliyyətlər də daxildir.

Dünyada bu turizm sahəsinin inkişaf etməsi bu sahədə kifayət qədər təcrübənin olmasına dəlalət edir. Belə ki, Amerika, Avropa və Türkiyədə populiyar olan bu tu-

rizm sahəsi həm regionlarda sosial-iqtisadi inkişafı təmin etməyə, həmdə ölkəni və onun bütün bölgələrini dünyada tanıtmağa xidmət edir.

Kənd turizmini 30 il əvvəl başladan Yunanıstanda olduqca uğurlu nəticələr əldə edilmişdir. Daha əvvəllər iqtisadi cəhətdən çətinliklər çəkən rayon və bölgələr sonradan korporativlər yaradaraq dövlətin dəstəyini almış və kənd turizminə başlamışlar. İlk öncə daxili adət-ənənələrini nəzərdən keçirərək yerli mədəniyyətlərini qorumağa, yaşatmağa və paylaşmağa başlamışlar. Yerli abidələr təmir edilmiş, evlər kiçik mehmanxanalara çevrilmişdir. Öz yeməklərinin hazırlandığı restoranlar fəaliyyətə başlamışdır. Nəticədə bir çox kənd bu fəaliyyətlə yoxsulluqdan azad olmuşlar. Ölkə turizmdə paralel olaraq genişlənmiş inkişaf etmişdir. Yunanıstanın bu nailiyyəti bir çox ölkəyə nümunə olmuş və aqro turizm anlayışı sürətlə yayılmağa başlamışdır.

Son zamanlarda Türkiyədə də çeşidli aqro-eko turizm növləri yayılmağa başlamışdır. Yunanıstanda əldə edilən nailiyyəti örnək alaraq çeşidli bölgələrdə kənd turizmi fəaliyyətə başlamışdır. Jurnalist Zeynəb Oral və Yunanıstan Xarici İşlər üzrə keçmiş nazir Yorgo Papandreunun anası Margarita Papandreunun rəhbərliyi, iki ölkənin birgə fəaliyyəti ilə 1997-ci ildə Ege bölgəsinin kəndlərində kənd turizmi lahiyəsi hazırlanmış və həyata keçirilmişdir.

Türkiyədə bir çox aqroturizm və ekoturizm lahiyəsi fəaliyyətdədir. "Buğda Dərnəyi"nin hazırladığı "Aqroturizm Mübadiləsi" lahiyəsi bunlardan sadəcə biridir. "Aqroturizm Mübadiləsi" lahiyəsi 2004-cü ildən bəri fəaliyyətdədir. Lahiyəyə Türkiyənin hər bir bölgəsindən bir çox iri fermerlər və turizm sahibkarları qatılmışdır. Məqsəd turizm və kənd təsərrüfatı arasında əlaqə yaratmaq, kəndlilərə və fermerlərə turizm anlayışını mənimsətmək və öz kiçik turizm sahibkarlıqlarını qurmaqdır.

Sadalanan beynəlxalq təcrübələrdən də göründüyü kimi, aqroturizm anlayışı nə qədər gənc bir sahə olsada inkişaf potensialı olduqca sürətlidir. Azərbaycan Respublikasında da bu sahəyə dövlət marağı böyükdür. Bu səbəbdən son zamanlarda keçirilən tədbirlər və regional lahiyələr qısa zaman ərzində bu sahənin dinamik şəkildə inkişaf edəcəyinin təminatıdır.

Əskərova H.C.,
baş müəllim
Azərbaycan Dövlət İqtisad Universiteti

AQRAR SAHƏDƏ PEŞƏKAR –İXTİSASLI KADRLARIN FORMALAŞMASININ QANUNAUYĞUNLUQLARI

Azərbaycan Respublikasının «Sahibkarlıq fəaliyyəti» haqqında qanununda və Azərbaycan Respublikası prezidentinin 2003-cü ildə sahibkarlığın inkişafı barədə verdiyi silsiləli fərmanlarda kənd təsərrüfatının yeni istiqamətdə inkişaf etdirilməsinin prinsipial əsasları irəli sürülmüşdür. İstehsalın ixtisaslaşdırılması və təmərküzləşdirilməsi sahəsində dövlətin yeritdiyi xətt, onun kənd təsərrüfatını dinamik surətdə inkişaf etdirmək siyasətindən irəli gəlir.

Dövlətin yeritdiyi bu siyasət müxtəlif təsərrüfat formalarının elmi-texniki cəhətdən yenidən silahlanmaq, kənd təsərrüfatının intensivləşməsini genişləndirmək, emal sənayesini, ticarəti və ictimai iaşə müəssisələri ilə təsərrüfatların birbaşa əlaqələrini

inkişaf etdirmək zərurətindən doğmuşdur.

Aqrar sahədə məhsuldar qüvvələr yüksək inkişaf səviyyəsinə çatdıqda, müxtəlif təsərrüfat formalarının maddi-texniki bazası lazımı dərəcədə möhkəmləndikdə və onların sənaye əsasına keçirilməsi təmin edildikdə, ixtisaslaşdırma və təmərküzləşdirmə optimal səviyyəyə çatdırıldıqda, aqrar- sənaye inteqrasiyası müvəffəqiyyətlə inkişaf edə bilər.

Beləliklə, müasir şəraitdə kənd təsərrüfatı məhsulları istehsalı və emalı sahəsində xeyli işçi qüvvəsi cəmləşmişdir, onlar texnoloji proseslərdə çoxlu müxtəlif növ işlər yerinə yetirirlər. Bu baxımdan mexanizator kadrlarından xüsusi hazırlıq tələb olunur. Çünki kənd təsərrüfatı işlərini aqrotexniki müddətdə yüksək keyfiyyətlə yerinə yetirmək üçün mexanizatorlar nəinki texnikanı, eyni zamanda texnoloji prosesləri də bilməlidirlər. Digər tərəfdən peşəkar-ixtisaslı mexanizatorlarla yanaşı, əl işlərində çalışan işçilər xüsusi ixtisasa malik olmalıdırlar.

Dövlət bazar münasibətləri şəraitində kənd təsərrüfatı istehsalının ixtisaslaşdırılmasını, onun təmərküzləşdirilməsini və aqrar-sənaye inteqrasiyasını öz aqrar siyasətinin mühüm tərkib hissəsi hesab edərək, onun inkişaf etdirilməsinə xüsusi fikir verir. Bu siyasəti yeritməkdə məqsəd xüsusi xidmət sahələrinin inkişafı əsasında (aqroservis xidməti) sənaye ilə kənd təsərrüfatını yaxınlaşdırıb birləşdirməkdir (cədvəl 1).

Cədvəl 1.

"Aqrolizinq" ASC tərəfindən əhaliyə lizinq yolu ilə satılan əsas kənd təsərrüfatı texnikası, ilin sonuna

	2011	2012	2013	2014	2015
Traktorlar	419	929	674	765	1191
Kotanlar	380	581	651	604	950
Kultivatorlar	12	22	9	3	16
Səpici aqreqatlar	148	132	154	239	307
Ot biçənlər	131	108	121	41	61
Taxıl yığan kombaynlar	217	20	48	95	514
Gübrəsəpən maşın	30	26	29	40	39
Digər kənd təsərrüfatı maşın və avadanlıqları	94	42	99	111	71

Bazar münasibətləri şəraitində kənd təsərrüfatında peşə və ixtisaslar yalnız üfiqi xətt üzrə deyil, eyni zamanda şaquli xətt üzrə dəyişməsi də tələb olunur. Bu baxımdan kənd təsərrüfatında bir-birinə yaxın peşələrə, ixtisaslara sahib olan mexanizatorlar lazımdır. Onlar tırtıllı və təkərli traktorların istismarını, müxtəlif növ taxıl yığan kombaynları, pambıq yığan maşınları və digər çoxlu kənd təsərrüfatı texnikasını yaxşı mənimsəməlidirlər, onlar sazlayıcı və çilingərlik ixtisaslarını da bilməlidirlər. Ümumiyyətlə, mexanizatorlar geniş profilli mütəxəssislərə çevrilməlidir.

Son illərdə mexanizatorlar və digər ixtisaslı kadrların artım sürəti sabit olmamış, onun səviyyəsi aşağı düşmüşdür. Odur ki, gələcəkdə mexanizatorlar və digər kadrların sayının artırılmasına şüurlu surətdə yanaşmaq tələb olunur. Çünki, onların hazırlanmasına və ixtisaslarının artırılmasına xeyli xərc tələb olunur və bu kadrlar uzun müddət istehsal proseslərində iştirak etməlidirlər (Cədvəl 2).

Cədvəl 2.

İqtisadiyyatda işçi qüvvəsinin hərəkəti
(il ərzində işə qəbul edilmiş işçilər)

	2011	2012	2013	2014	2015
Cəmi	**182539**	**173952**	**180275**	**211575**	**211630**
Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq	4883	5871	5461	6293	5703
Mədənçıxarma sənayesi	4463	2878	5179	4232	7001
Emalsənayesi	26116	24044	22251	22468	21144
Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı	20680	6237	4190	6006	4029
Su təchizatı, tullantıların təmizlənməsi və emalı	6298	6294	2739	6049	3421
Tikinti	35674	37344	41794	34709	40079
Ticarət; nəqliyyat vasitələrinin təmiri	18165	27557	29928	45988	48978
Nəqliyyat və anbar təsərrüfatı	16614	10847	11222	9844	10570
Turistlərin yerləşdirilməsi və ictimaiiaşə	1972	2797	3712	7992	7009
İnformasiya və rabitə	4050	3280	3156	2783	3199
Maliyyə və sığorta fəaliyyəti	3584	4998	5376	6963	6785
Daşınmaz əmlakla əlaqədar əməliyyatlar	1434	2172	2026	1935	1670
Peşə, elmi və texniki fəaliyyət	4675	6346	7426	9549	10301
İnzibati və yardımçı xidmətlərin göstərilməsi	5477	4496	5700	4161	6066
Dövlət idarəetməsi və müdafiə; social təminat	3671	4283	5531	11231	7066
Təhsil	9458	8283	10642	12152	9419
Əhaliyə səhiyyə və social xidmətlərin göstərilməsi	10143	8445	7137	7415	7149
İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət	2738	4533	3452	6894	8326
Digər sahələrdə xidmətlərin göstərilməsi	2444	3247	3353	4911	3715

Kənd təsərrüfatı işçilərinin sayının dəyişməsi təkcə işçi qüvvəsinə tələbatın artması prosesinin nəticəsi deyil, eyni zamandä ixtisaslı kadrların bir sahədən digər sahələrə axını, yeni təsərrüfat formalarının yaranması nəticəsində əmələ gəlir. Bu baxımdan da işçilərin peşə tərkibində də müxtəlif illərdə mühüm dəyişikliklər baş vermişdir. Gələcəkdə kənd təsərrüfatının bütün sahələrinin inkişafına nail olmaq üçün ilk növbədə onun peşəkar ixtisaslı kadrlara tələbatını təmin etmək vacibdir.

Beləliklə, təsərrüfatlarda ixtisaslı kadrların xüsusilə mexanizatorların əməyindən tam istifadə edilmir, bu kateqoriya işçilərin kənd təsərrüfatına bağlanmasına lazımı qədər təsirli tədbirlər görülmür. Kənd təsərrüfatının texniki cəhətdən aşağı səviyyədə təchiz olduğu bir şəraitdə mexanizatorların sayı kənd təsərrüfatı maşınlarının sayına uyğun planlaşdırılmır. Bu da texnikadan səmərəli istifadə edilməsinə imkan vermir. Keçmiş sovetlər ölkəsində təsərrüfatların tələbinə əsasən hər bir traktora, kombayna iki nəfər və ən mürəkkəb kənd təsərrüfatı maşınlarına isə üç nəfər ixtisaslı kadr hesablanırdı.

Aqrar sahədə aparılan islahatlarla əlaqədar olaraq ixtisaslı kadr hazırlayan sistemlərin təkmilləşdirilməsinə də böyük ehtiyac duyulur. Çünki bazar münasibətləri şəraitində kənd təsərrüfatına bilikli və texniki cəhətdən hazırlıqlı peşəkar- ixtisaslı kadrlar lazım olacaqdır. Bunları nəzərə alaraq bazar münasibətləri şəraitində peşəkar-ixtisaslı kadrların hazırlanması sistemlərini yenidən qurub, kadrlara olan tələbatı təmin etmək lazımdır. Bunun üçün peşəkar-ixtisaslı kadrların hazırlanması sistemlərinin təkmilləşdirilməsi üçün aşağıdakı konseptual təklif və məsələlərə diqqəti artırmaq məqsədəuyğundur:

- peşələr üzrə peşəkar-ixtisaslı kadrlara ümumi tələbatın müəyyən edilməsi;
- peşəkar-ixtisaslı kadrların hazırlanması sistemlərinin gələcək inkişafının elmi-texniki tərəqqi və istehsal texnologiyası ilə əlaqələndirilməsi;
- ixtisaslı kadrların hazırlanmasının peşəkaf quruluşunun proqnozunun təmin edilməsi.

Qeyd edilən məsələlərin aqrar islahatlar şəraitində həyata keçirilməsi xüsusilə vacibdir. Bu baxımdan da ixtisaslı kadrların hazırlanması sistemlərinin hansı mülkiyyət formasında qalması və maliyyələşdirilmə mənbələri müəyyənləşdirilməlidir.

Əhalinin sayının xüsusi çəkisi, 2015 – ci ilin əvvəlinə şəhərdə 53%, kənddə isə 47% olmuşdur. Kənddə ixtisaslı kadrların formalaşması prosesinin əsas mənbəi gənclərdir. Buna görə də kənd məktəblərinin peşəkar kadr hazırlığı meyllərinin təkmilləşdirilməsi vacibdir. Əsas məsələ kəndli gənclərin peşə ixtisaslarına marağını yüksəltmək və bazar münasibətləri şəraitində əmək bazarında rəqabətqabiliyyətli olsun.

Burada söhbət peşə məktəblərində və peşə litseylərində kadrların hazırlanmasının təkmilləşdirilməsindən gedir, nəzərə almaq lazımdır ki, bu məktəblərdə müxtəlif istiqamətlərin təşkil edilməsi, əlaqədar müəssisələrin, fermer təsərrüfatlarının və digər təsərrüfat formalarının kollektivlərinin tələbatlarının təmin edilməsinə imkan verər. Perspektiv istiqamətli kursları, peşə məktəblərini və peşə litseylərini birləşdirib, kənd rayonlarında təhsil mərkəzi təşkil etmək olar. Belə təhsil mərkəzini peşə məktəblərinin və peşə litseylərinin bazasında yaradılması məqsədəuyğundur.

Təhsil mərkəzlərinin əsas vəzifə və məqsədi müxtəlif təsərrüfat formaları üçün peşəkar-ixtisaslı kadrlar, fermerlər, icarə kollektivləri üçün ixtisaslı kadrlar hazırlamaqdan ibarətdir. Respublikada belə təhsil mərkəzlərinin təşkilinə hələ başlanmasa da, artıq buna əsaslı zəmin yaranmışdır. Belə şərait kadrların yenidən hazırlanmasının və ixtisaslarının artırılmasının vahid sistemini işləyib hazırlamağa imkan verər.

Müasir mərhələdə fəaliyyətdə olan indiki peşə təhsil sistemlərinin gələcəkdə inkişafına aid iqtisadçı alimlər arasında bir sıra fikirlər mövcuddur. Bəziləri ixtisaslı kadrların istehsalatda hazırlanmasına üstünlük verir, digərləri hesab edirlər ki, aqrar sahəni, o cümlədən kənd təsərrüfatını ixtisaslı kadrlarla yalnız vahid peşə məktəbləri və peşə litseyləri, müasir istehsalatın tələblərinə cavab verə bilən kadrlarla təmin edə bilər.

İlk növbədə kəndin sosial inkişaf infrastrukturu ön plana çəkilməlidir. Kəndlərdə gənclərin mənzil problemlərinin həll olunması vacib məsələlərdən biridir. Kəndlərdə gənclərin həyat tərzi səviyyəsini yaxşılaşdırıb şəhər həyat tərzi səviyyəsinə çatdırmaq lazımdır.

Qeyd etmək lazımdır ki, ümumtəhsil məktəblərinin istehsalatla əlaqəsi, şagirdlərin peşə yönümlü problemləri Azərbaycan Respublikası dövlətinin diqqət mərkəzin-

də durur. Dövlət qərarlarında nazirlik və əlaqədar təşkilatların təhsil məktəblərinə yaxından qayğı göstərməsi, gənclərin bütünlükdə orta təhsilə keçməsinin başa çatdırılması ilə əlaqədar məsələlərin həyata keçirilməsinə xüsusi diqqət verilmişdir. Orta təhsilli işçi yeni peşələri, iş növlərini öyrənməyə və öz ixtisasını təkmilləşdirməyə aşağı təhsilli işçilərə nisbətən daha az vaxt sərf edir, onun səmərələşdirilmə və ixtiraçılıq qabiliyyəti yüksək olur. Kəndli gənclərin təhsil səviyyəsi get-gedə yaxşılaşdıqca onların müxtəlif peşələrə yiyələnməsi və ixtisas almaları asanlaşır. Həm də bu məqsədə yönəldilən dövlət vəsaitinin məbləği də az olur. İstehsalatda işləyənlər içərisində orta təhsilli gənclərin sayı çoxaldıqca istehsal proseslərində elmi-texniki tərəqqinin nailiyyətlərindən, müasir texnologiyadan daha səmərəli istifadə olunar.

İsmayılov E.E., doktorant
Bakı Biznes Universiteti

REGİONLARDA AQROPARKLARIN YARADILMASI ZƏRURİLİYİ

Azərbaycanda aqroparkların yaradılmasının zəruri olduğunu əsaslandırmaq üçün qeyd edə bilərik ki, aqroparkı aqrar sektorun digər təsərrüfatçılıq formalarından daha üstün edən əsas cəhət elə budur - istehsal-emal-logistika-marketinq qapalı zəncirini yaratmaqla, qurumun hər bir komponenti özünüidarə və özünəcavabdehlik prinsipi əsasında çalışımalıdır ki, nəticədə ortaq problemlər və ümumi maraqlar ətrafında birləşməklə müəssisənin rəqabətədavamlılıq qabiliyyəti təmin olunsun. Aqroparklarda müasir texnika və metodların, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi üçün şərait yaranır, ortaq xərclər minimuma endirilir. Həmçinin nəqliyyat xərcləri və enerji sərfi azalır, ətraf mühitin qorunması, su və torpaq resurslarından səmərəli istifadə və onların mühafizəsi təmin edilir. Bu təsərrüfatçılıq formasının daha bir üstün cəhəti peşəkar kadrlara tələbat yaratmaqla kənd təsərrüfatı və ərzaq sənayesi üzrə kadr hazırlığının stimullaşdırmasıdır.

Aqroparklar müxtəlif formalarda: ixtisaslaşmış və qarışıq aqroparklar formasında fəaliyyət göstərə bilər. İxtisaslaşmış aqropark - hər hansı bir növ kənd təsərrüfatı məhsulunun istehsalı, emalı və onların marketinqi ilə əlaqədar fəaliyyətlərin bir yerdə qruplaşmasıdır. Məsələn, tərəvəzçilik, bağçılıq, üzümçülük və s. üzrə aqroparklar ixtisaslaşdırılımış aqroparklar formasında fəaliyyət göstərə bilərlər.

Qarışıq aqropark bir neçə növ kənd təsərrüfatı məhsulunun istehsalı, emalı və onların marketinqi ilə əlaqədar fəaliyyətlərinin vahid istehsal məkanında qurulmasıdır. Qarışıq aqroparklarda həm bitkiçilik, həm də heyvandarlıq məhsullarının istehsalı, habelə onların emalı, logistika, marketinq və xidmət sahələri üzrə zəruri olan fəaliyyətlər vahid ərazidə həyata keçirilə bilər. Ümumiyyətlə, aqroparklar mürəkkəb istehsal vahidləri hesab olunurlar. Ona görə də onların forması, həcmi və əhatə dairəsi dəqiq hesablamalar əsasında elə seçilməlidir ki, yaradılacaq hər bir aqropark həm iqtisadi, həm də praktiki cəhətdən rəqabətqabiliyyətli olsun, davamlı olaraq inkişaf etsin və yüksək səmərəliliyi ilə seçilsin.

Azərbaycanda aqroparklar ölkə prezidentinin 2014-cü il aprelin 16-da imzaladığı "Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətlən-

dirilməsi ilə bağlı tədbirlər haqqında" fərmanına əsasən yaradılıb. İlk aqroparkın təməli 2015-ci ildə Şəmkirdə qoyulub. "Şəmkir Aqropark" üçün 543 hektar ərazi ayrılıb. Aqroparkda müasir istixana kompleksi, şitillik, tinglik və intensiv bağçılıq təsərrüfatları, meyvə və tərəvəz emalı zavodları, tara istehsalı fabriki, logistika və aqroservis mərkəzi, soyuducu anbar, satış mərkəzləri, avtopark, elmi araşdırma və innovasiyalar mərkəzi, hotel və müxtəlif infrastruktur müəssisələrinin inşa olunması nəzərdə tutulur.

İkinci aqropark Yalamada yaradılıb. Rəsmi məlumata görə, Xaçmaz rayonunda 523 hektar ərazidə yaradılmış Yalama aqroparkında 3000 başlıq cins iri buynuzlu heyvandarlıq kompleksi, 385 hektar sahədə müasir suvarma sistemlərinin tətbiqi ilə iri fermer təsərrüfatı, gücü saatda 5 ton olan qüvvəli yem zavodu yaradılıb, tutumu 4.5 min ton olan taxıl anbarı və qurutma avadanlığı quraşdırılıb, su və elektrik enerjisi, qaz, eləcə də müasir texnika və avadanlıqla təmin olunub. Bununla yanaşı, aqroparkda qabaqcıl texnologiyanın tətbiqi ilə gündəlik emal gücü 100 ton olan süd emalı zavodunun və 60 hektar ərazidə intensiv bağçılıq təsərrüfatının yaradılması nəzərdə tutulur.

Azərbaycanda, xüsusilə 2014-cü ildən sonra yaranmış iqtisadi vəziyyət qeyri-neft sektorunda əsas prioritet olaraq kənd təsərrüfatının inkişafının seçilməsini məcburi edib: "Aqroparkların yaradılması daha çox intensiv kənd təsərrüfatının inkişafına nail olunması məqsədi daşıyır. Son 15 ildə aqrar sektorun iqtisadiyyatda mövqeyi əhəmiyyətli şəkildə kiçilib. 2000-ci illərin əvvəlində iqtisadiyyatda aqrar sektorun payı 15 faiz idisə, 2010-cu ildən sonra bu göstərici 5-6 faizə düşüb. Burada maliyyə resurslarının məhdudluğu, peşəkarlığın aşağı olması və sairdən ibarət onlarla faktor rol oynayırdı. Bu şəraitdə aqroparkların yaradılmasına prezidentin 2014-cü ildəki sərəncamı əsasında 2015-ci ildən başlanıb".

Aqropark təcrübəsindən dünyanın demək olar ki, bütün aqrar ölkələri geniş istifadə edirlər: Hollandiya, İzrail, Yeni Zellandiya, Malayziya, Avstraliya və sair. Azərbaycanın tətbiq etməyə başladığı aqropark təcrbüəsi ilə beynəlxalq təcrübə arasında isə bəzi fərqlər var: "Bir sıra ölkələrdə aqroparklar özəl təşəbbüslər əsasında yaradılır, Azərbaycanda isə təşəbbüskar dövlətdir. Dövlət fərqli istehsal proseslərinin bir zəncirdə birləşdirilməsi - tarladan süfrəyə prinsipi ilə işlərin qurulması üçün zəruri dəstəyi verir. Burada proseslər dövlət-biznes əməkdaşlığı üzərində qurulub.

Azərbaycanda aqroparkların yaradılması Strateji Yol Xəritəsində də əksini öz tapan öhdəliklərdən biridir. Rəsmi məlumatlara görə, indiyədək aqroparklarda fəaliyyət göstərən investorlar üçün 350 milyona qədər investisiyanın təşviqi sənədi təqdim olunub. Bu sənəd onlara ixrac üçün vergi-gömrük güzəştlərinin edilməsini nəzərdə tutur. Təxminən 13 aqropark üzrə işlər yekunlaşmaq üzrədir. Artıq bir sıra aqroparklar özəl təşəbbüslər əsasında yaradılır". Aqroparkların yaradılmasında məqsəd bir ərazidə istehsal şəraitinin (kommunikasiya, infrastruktur və sair) yaradılması və potensial istehsalçı-investorların cəlbidir: "Burada istehsalçılar arasında çevik əlaqələr yaradılır ki, istehlakçılara son məhsul təqdim olunsun. Kənd təsərrüfatı məhsullarının intensiv yolla istehsalını stimullaşdıran bir təcrübədir. Hansı ki, son illərdə Azərbaycanda aqrar istehsal sırf ekstensiv - istehsal ərazisinin genişləndirilməsi yolu ilə artırılıb. Aqroparklarda isə yüksək texnologiyaların, metodların tətbiqi ilə intensiv istehsalın genişləndirilməsi sistemi qurulur. Hələlik aqroparkların aqrar istehsalda payı çox cüzidir, lakin düşünürəm ki, yaxın illərdə biz bu payın əhəmiyyətli həcmə çatacağını görəcəyik".

Həsənov S.M., doktorant
Bakı Biznes Universiteti

AZƏRBAYCANDA İCTİMAİ TURİZMİN FORMALAŞMASI XÜSUSİYYƏTLƏRİ

Turizm gün keçdikcə yüksək gəlir səviyyəsinə malik olan insanlardan iqtisadi gücləri məhdud olan ictimai qruplara doğru genişlənmə xüsusiyyətini özündə əks etdirir. Turizm xidmətlərindən istifadənin əhatə dairəsinin bu formada genişlənməsi turizmin keçdiyi tarixi mərhələlər ilə yaxından əlaqədardır. Xüsusilə, Birinci Dünya müharibəsindən sonra turizmin quruluşundakı sürətli dəyişmə ilə əlaqədar olaraq: gəzmə, görmə, əylənmə və istirahət kimi imkanlar müəyyən yüksək siniflərə aid olmaqdan çıxaraq iqtisadi gücləri məhdud olan insanların da ehtiyacı olmuşdur. Turistik demokratiya deyilən bu hadisə istər dövlət tərəfindən reallaşdırılan islahatlarla, istərsə də insanların çalışdığı təşkilatlar tərəfindən təmin edilən imkanlarla reallaşdırılmışdır. İkinci Dünya müharibəsindən sonra sürətlə inkişaf edərək xüsusi bir anlama və əhatə dairəsinə sahib bu turizm forması ictimai turizm olaraq təyin olunmaqdadır. Sosial turizm ölkələrin sosial inkişafı və formalaşması yolunda çatdığı mərhələlərdən biri olmuş və günümüzün turizmində əsas olan bu ictimai xüsusiyyət turizm siyasətində əhəmiyyətli bir yer tutmaqdadır.

Azərbaycanın malik olduğu zəngin tarixi, mədəni və təbii(mineral sular, müalicəvi neft, müalicəvi duz, 11 iqlim qurşağından 9-da yerləşmə və.s) turistləri ölkəyə cəlb edir. Zəngin milli mətbəx, mədəniyyət nümunələri və.s ölkədə turizmin bir çox növünün inkişafı üçün şərait yaradır. Qeyd olunan turizm növlərindən xüsusi əhəmiyyətə malik olan ictimai turizmdir.

Sosial turizm sahib olduğu xüsusiyyətləri ilə ictimai həyata və məşğul əhalinin böyük əksəriyyətinin həyatlarına müsbət təsir göstərir. Əsas məqsədi iqtisadi cəhətdən gücü zəif insanların turizm xidmətlərindən istifadə edərək fiziki və zehni yorğunluqlarını azaltmaq və müxtəlif istiqamətlərdə inkişaflarını təmin edən ictimai turizm bu məqsədlərinə çata bilmək üçün müxtəlif vasitələrə sahib olmalıdır. Bu vasitələr turizmin tələbləri qiymətləndirildiyi zaman pul olaraq böyük qaynaqlar tələb edən vasitələrdir. Bu səbəblə, ictimai turizmin məqsədlərinə çatmaqda istifadə edə biləcəyi əsas vasitə dövlət və dövlətin təşkilatlarıdır.

İctimai təşkilatlar istirahət və səyahət etməyin hər bir vətəndaşın hüqüqu olduğunu və ictimai turizmin əhatə dairəsinə daxil olan bir çox xidməti pulsuz olaraq ictimaiyyətə təqdim etməyə çalışmalıdırlar. Bu ictimai qurum və təşkilatlar arasında başda Mədəniyyət və Turizm Nazirliyi və yerli özünü idarəetmə orqanı olan bələdiyyələr ən əhəmiyyətli xidməti yerinə yetirməlidirlər.

Sosial turizmin təməli turizmə qatılmağın təmin edilməsidir. Cəmiyyətdəki hər kəsin gündəlik, həftəlik və illik müddətdə istirahət və şəxsiyyətini inkişaf etdirəcəyi, ictimai inteqrasiyanın güclənməsini təmin edəcək istirahət hüququ vardır və şübhəsiz, hər kəs özünü inkişaf etdirə bilmək üçün bu haqqından da yararlanmalıdır. Turizm haqqı, bu ümumi haqqın konkret bir ifadəsidir və ictimai turizm bu haqqın tətbiqdə qlobal olaraq çıxış imkanlarının təmini istəyi üzərində qurulubdur. Bu səbəbdən, ictimai turizm ölkələrin hər birində əhəmiyyətli bir sənaye sahəsi olan turizmin əhatə

dairəsi xaricində deyil. Əksinə bu qlobal turizmdə iştirak etmək, turizmin təməlini meydana gətirən səyahət etmə, başqa bölgələri və ölkələri tanıma haqqını istifadə etmənin bir yolunu təşkil edir.

Sosial turizm hazırki dövrdə sıx və stressli bir mühitdə fəaliyyət göstərən işçilərin dünyagörüşünün genişləndirilməsi, cəmiyyətdə ictimai mühitinin meydana gəlməsi və cəmiyyət içərisində hər seqmentin turizmdə iştirakının təmin edilməsini qarşısına məqsəd qoymuşdur. Bu səbəbdən, ictimai turizm cəmiyyətdəki sosial-iqtisadi inkişafa qatqını təmin etmək baxımından önə çıxan bir turizm növüdür. Adı davamlı və yaxud dayanıqlı inkişaf prinsipi ilə birlikdə xatırlanan ictimai turizm yerli, iqtisadi, sosial və mədəni mənfəət əldə etmək baxımından əhəmiyyətli bir rol oynamaqdadır. İctimai turizm, həmçinin, cəmiyyətin hər bir təbəqəsindən olan insanların turizm məqsədli səyahətlər vasitəsi ilə müxtəlif bölgələrə səyahət edə bilməsini təmin etməkdədir.

Sosial turizmin məzmunu və əhatə dairəsi mövzusunda bir çox müxtəlif yanaşmaların onun konkret olaraq müəyyənləşdirilməsində ziddiyyətlər yaradır. Mövzu üzrə maraqlı olan təşkilatlar bir-birindən fərqli üsullardan istifadə etsələr də onların əksəriyyəti hər zaman eyni qanuna əsaslanırlar: ən yoxsul kəslər başda olmaq üzrə cəmiyyətdəki bütün fərdlərin istirahət etmə hüququ vardır. Beynəlxalq Sosial Turizm Bürosuna (BSTB) görə ictimai turizm aşağı gəlirli əhalinin turizm xidmətlərində iştirak etməsi zamanı meydana gələn məcmu anlayış və hadisələrin əhatəli şəkildə təyin olunmuş ictimai qaydalardan ibarətdir. Avropa Komissiyasına görə bəzi ölkələrdə ictimai turizm ictimai təşkilatlar, kooperativlər və peşələrə görə yaradılmaqdadır və cəmiyyətin hər təbəqəsinin, xüsusilə, aşağı gəlirli əhalinin səyahət edə biləcəyi şəkildə hazırlanmışdır.

İctimai turizmdə əsas meyar "iqtisadi güc" kimi nəzərə alınır. Lakin hazırki dövrdə müəyyən bir gəlir səviyyəsi aşağı olan və turizm xidmətlərindən yararlanmaq üçün yetərli gəlirə sahib olmayan şəxslərlə bərabər fiziki baxımdan qüsurlu olan insanların da ictimai turizm əhatəsi daxilində qiymətləndirilməsi lazımdır. Bu yanaşma istiqamətində ictimai turizmdə iştirak edən ictimai qrupları (işçilər, pensiyaçılar, gənclər, fiziki qüsurlular, fermerlər, məmurlar, biznesmen və sənətkarlar) qruplara ayırmaq mümkündür.

Sosial turizmə verilən tərifdən də göründüyü kimi bu turizm xidməti növünün aşağıdakı xüsusiyyətləri vardır:

- Sosial turizmin iştirakçısı olan insanların iqtisadi güclərinin məhdud olması;
- İctimai qrupların öz iqtisadi gücləri hesabına turizmdə iştirakı çətin olduğu üçün reallaşdırılan xüsusi tədbirlər və təşkilatların yardımları bu insanların sosial turizmə cəlb olunmasını təmin etməkdədir. Dövlət tərəfindən maliyyələşdirilən kredit və yardımlar, həmçinin, özəl müəssisələr və təşkilatlar tərəfindən həyata keçirilən nəqliyyat və yerləşmə qiymətlərində xüsusi endirimlər iqtisadi cəhətdən zəif olan insanların bu turizm xidmətlərindən yararlanmalarına stimul yaradır.
- Turizm xidmətlərinin geniş ictimayətə çatdırılması və bunun müsbət təsirlərindən cəmiyyətin bütün fərdlərinin faydalanması təməl məqsəddir.

Beynəlxalq Sosial Turizm Bürosuna görə ictimai turizmin əsasları beş meyar üzərində qurulmuşdur. Bu meyarlar:

- Əhalinin əksəriyyətinin turizmdən istifadə etmək hüququ.
- Sosial turizmin ictimai inteqrasiyaya olan qatqısı.

- Davamlı turizm strukturlarının yaradılması.
- Məşğulluq və onun iqtisadi inkişafa olan qatqısı.
- Sosial turizmin qlobal inkişafa olan qatqısı şəklindədir.

Azərbaycanın malik olduğu tarixi inkişaf yolu, milli adət-ənənələri, dərin mədəni irsi regionlarda turizmin, xüsusilə də sosial turizmin inkişafına stimul yaradır. Dövlət tərəfindən regionlarda turizm infrastrukturunun yaradılması ölkədə sosial turizmin inkişafına münbit çərait yaradacaqdır.

Bağırzadə Ə.G., doktorant
Bakı Biznes Universiteti

İXRAC YÖNÜMLÜ MƏHSUL İSTEHSALININ İNKİŞAF MEYLLƏRİ

Bazar münasibətləri şəraitində ölkənin sosial-iqtisadi problemlərini səmərəli həll etmək üçün dövlətin rolu əvəzsizdir. İqtisadi inkişaf səviyyəsindən asılı olmayaraq, bütün ölkələrdə sahibkarlığın inkişafında və fəaliyyətinin tənzimlənməsində dövlətin rolu inkar edilməzdir. Söhbət, iqtisadiyyatın tənzimlənməsində dövlətin iqtisadi siyasətində qarışıq iqtisadiyyatın optimal nisbətinin müəyyən olunmasından gedir. Başqa sözlə, dövlət mülkiyyəti ilə xüsusi mülkiyyətin optimal nisbətdə tarazlaşdırılması inkişaf etdirilməsi sosial-iqtisadi inkişafın əsas şərtlərindəndir.

Sahibkarlığın inkişafına təkan verən qüvvə, ilk növbədə dövlət tərəfindən müvafiq qanunların qəbul edilməsi və idarəetmə orqanlarının yaradılmasıdır. Müstəqillik dövründə respublikamızda bu sahədə xeyli sistemli və ardıcıl tədbirlər görülmüşdür. Belə ki, sahibkarlıq fəaliyyətinin təşkili və idarə edilməsi sahəsində bir sıra qanunlar, Dövlət Proqramları və normativ hüquqi sənədlər qəbul edilmişdir. Onlara: Azərbaycan Respublikasının «Mülkiyyət haqqında», «Sahibkarlıq fəaliyyəti haqqında», «İcarə haqqında», «Antiinhisar fəaliyyəti haqqında» qanunları, «Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Birinci Dövlət Proqramı», «Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığa Dövlət Köməyi Proqramı (1997-2000-ci illər)», «Azərbaycan Respublikası sahibkarlığa kömək fondu haqqında» əsasnamə, «Azərbaycan Respublikasında 1999-2005-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin İkinci Dövlət Proqramı» və s. daxildirlər.

Həmin normativ aktlarda sahibkarların hüquq və vəzifələri, onlara şamil edilən güzəştlər öz əksini tapmışdır. Bunlarla yanaşı, vergi üzrə qanunvericilik aktlarında sahibkarlığın inkişafı üçün çoxlu güzəştlərin verilməsi də qeyd olunmalıdır. Eyni zamanda, ölkədə qəbul edilmiş xarici ticarətin və qiymətlərin liberallaşdırılması, lisenziya, lizinq fəaliyyətinə geniş yol açılması sahibkarlığın mərhələlərlə inkişafına öz töhfəsini verməkdədir.

Bir hada ki, gənc milli dövlətlərin məqsədi bazar iqtisadiyyatına keçməkdir, deməli onun bazisini formalaşdırmaq zərurəti yaranır. Belə bir iqtisadiyyat totalitar sistemdə yarana bilməzdi. Ona görə də islahatların həyata keçirildiyi dövründə dövlətin əsas vəzifəsi öz bazisini, çoxmülkiyyətli qarışıq iqtisadiyyatı yaratmaq olmuşdur.

İslahatlar dövründə iqtisadiyyatda dövlətin rolu, həm inzibati-amirlik sistemi dövründə, həm də klassik bazar iqtisadi sistemində mövcud olmuş məmləkətlərdən

daha çoxdur. Bu onunla izah olunur ki, klassik bazar iqtisadiyyatı dövlətlərində qanunlar işləyir, inzibati-amirlik sistemində isə iqtisadiyyat əslində inzibati qayda-qanunlarla tənzim olunur. Məhz bu dövrdə iqtisadiyyatda hər iki tənzimləmə tam gücü ilə işləmədiyinə görə ağırlıq əsasən dövlətin üzərinə düşür. Bu müddəa üç səbəblə izah olunmalıdır:

Birincisi, bazar hələlik formalaşma dövründədir, onun özünü idarəetmə qabiliyyəti çox da böyük deyildir. Belə halda, bazar mexanizmi yuxarının inzibati-amirlik sistemindən doğan ənənəvi təzyiqinə, aşağının himayəçilik psixologiyasına qarşı dura bilmir.

İkincisi, dövlət planlı iqtisadiyyatda əsas və aparıcı rol oynadığından, bazar iqtisadiyyatı şəraitində fəaliyyət göstərməyə kifayət qədər hazır olmamışdır. Buna görə də keçmiş sosialist ölkələri bazar iqtisadiyyatına keçməklə iqtisadiyyatı formalaşdırmaqda olduqca riskli hərəkət etməli olmuşlar.

Üçüncüsü, bazar münasibətlərinin formalaşması tarixi göstərir ki, onun çiçəklənməsi dövrünə çatana kimi bir çox çətinliklərlə üzləşmək qaçılmazdır.

Burada belə bir məntiqi nəticəyə gəlmək olar ki, yalnız bazarın özünü idarəetməsi ilə dövlətin tənzimləmə funksiyasını düzgün əlaqələndirməklə bazar iqtisadiyyatının formalaşmasını asanlaşdırmaq olar. Bu üç səbəb, bazar iqtisadiyyatına keçilməsi prosesinin dövlət tərəfindən idarə olunmasını zəruri edir. Azərbaycanda seçilən islahat modelinin müəllifi dövlətdir. Buna görə də əsas islahatçı da dövlət hesab olunur. İslahatların ilkin dövründə hüquqi qanunları qəbul etmək və qanunların həyata keçirilməsini tənzim etmək dövlətin əsas vəzifələrindən biri olmuşdur. Ölkə iqtisadiyyatının formalaşması dövlətin öz vəzifələrini necə yerinə yetirməsindən çox asılıdır.

Bazar iqtisadiyyatının formalaşması dövründə nəinki iqtisadi inkişafın sürəti, eyni zamanda ölkənin müstəqilliyi dövlətdən daha çox asılıdır. Ona görə ki, inzibati-amirlik iqtisadi sistemindən bazar iqtisadi sisteminə keçən dövlətlərdə, o cümlədən Azərbaycanda, müstəqil, milli dövlətlər öz bazisindən əvvəl yaranmışlar. Son 10 ildə xarici ticarət dövriyyəsinin tərkibi də xeyli dəyişib. Belə ki, yeni istehsal sahələrində buraxılan məhsullar daxili bazarda satılan analoji xarici malları tədricən sıxışdırıb çıxarmış, hətta bəzi hallarda ixraca da yönəldilmişdir. Aşağıdakı cədvəldə xarici ticarət dövriyyəsi verilmişdir.

Cədvəl 1.

Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsi (milyon ABŞ dolları ilə)

İllər	Dövriyyə	İdxal	İxrac	Saldo
2007	11 771,7	5 713,5	6 058,2	344,7
2008	54 926,0	7 170,0	47 756,0	40 586,0
2009	20 824,5	6 123,1	14 701,4	8 578,3
2010	33 160,7	6 600,6	26 560,1	19 959,5
2011	44 161,7	9 756,0	34 405,7	24 649,7
2012	43 813,5	9 652,9	34 160,6	24 507,7
2013	43 554,1	10 712,5	32 841,6	22 129,1
2015	25 809,0	9 216,7	16 592,3	7 375,6
2016	21 650,8	8 532,4	13 118,4	4 586,0

Nəzərə almaq lazımdır ki, iqtisadiyyatın tənzimlənməsində dövlətin ən mühüm vəzifəsindən biri çox mürəkkəb, həm də iqtisadi sistemin əsası olan mülkiyyət münasibətlərini formalaşdırmaqdan ibarətdir. O qarışıq iqtisadiyyatda iqtisadi resurslardan dövlətin, xüsusi mülkiyyətin və başqa mülkiyyət formalarının payını düzgün müəyyən etməli və onu tənzimləməlidir. Dövlət, mövcud sərvətlərindən cəmiyyətin bütün üzvlərinin pay almaqda iştirak mexanizmini işləyib hazırlamalı və onun reallaşmasını tənzimləməlidir. Hər bir şəxsin xalqın sərvətindən istifadə etmək üçün ixtiyar sahibi olmaq, sərəncam vermək və istehsalın nəticəsindən faydalanmaq hüququ olmalıdır. Bunun üçün, dövlət müəssisələrində özünü idarəetmə və nəzarət sistemi yaradılmalıdır. Təəssüf ki, müstəqilliyin ilk illərində dövlət bu vəzifəsini istənilən səviyyədə həyata keçirə bilmədi. Nəticədə, kütləvi özəlləşdirməyə qədər dövlət müəssisələrində çoxlu müəyyən nöqsanlar baş verdi, dövlət əmlakının müəyyən hissəsi dağıdıldı. Bu isə ilk dövrlərdə sağlam milli iqtisadiyyatın formalaşmasına mənfi təsir göstərən amillərdən biri oldu.

Qeyd etmək lazımdır ki, yaxın keçmişdəki sosializm sisteminin bəlkə də yeganə müsbət cəhəti, sosial müdafiənin və sosial təminatın nisbətən düzgün təşkili idi. Belə ki, təhsil və səhiyyə dövlətin tam nəzarəti altında idi. Bu sahələrin təminatı yüksək səviyyədə olmuşdur. Məhz bunun nəticəsi idi ki, Azərbaycanda iqtisadiyyat, elm, təhsil və səhiyyə sürətlə inkişaf etmişdir. Azərbaycan dövlətinin əsas vəzifəsi onu dağıdıb yenisini qurmaq deyil, 70 il ərzində yaranmış və möhkəm əsaslar üzərində dayanmış iqtisadiyyat, elm, təhsil və səhiyyə sahəsində olan naliyyətləri qoruyub saxlamaq, onu milli mənafeyə uyğun təkmilləşdirməkdən ibarət olmalı idi.

"Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə (06.12.2016) tədbirlər planında kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahəsində fəaliyyət göstərən istehsalçıların əksəriyyəti kiçik müəssisələr kateqoriyasına daxil olsalar da, iri müəssisələrin bazar gücünün daha böyüklüyü göstərilmiş, bu faktın ölkənin müvafiq sahələrdə istehsal və ixrac potensialının gücləndirilməsi baxımından əhəmiyyəti, bazarda rəqabətin artırılması, əksəriyyəti kiçik təsərrüfatlardan ibarət olan kənd təsərrüfatı məhsulları istehsalçılarının bazara çıxış imkanları və ərzaq təhlükəsizliyinin dayanıqlılığı baxımından müəyyən problemlər araşdırılmışdır. Buna görə də, xüsusilə kənd təsərrüfatı məhsulları istehsalçıları və onların birlikləri tərəfindən kiçik və orta həcmli istehsal və emal müəssisələri şəbəkəsinin yaradılması ilə bağlı müvafiq stimullaşdırma tədbirlərinin həyata keçirilməsi aktualdır. Bu tədbirlər həm ölkənin ərzaq təhlükəsizliyini təmin edəcək, həm də kənd təsərrüfatı və ərzaq məhsullarının ixracını stimullaşdıracaqdır. Aşağıdakı şəkildə kənd təsərrüfatı və ərzaq məhsullarının ixracı göstərilmişdir.

Şəkil 1.

Kənd təsərrüfatı və ərzaq məhsullarının ixracı (milyon ABŞ dolları ilə)



İqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsində hər bir dövlətin özünəməxsus xüsusiyyətləri olsa da, ümumi cəhətləri də çoxdur. Bu baxımdan həm klassik, həm də bazar iqtisadiyyatı dövründə yaşayan dövlətlərin təcrübələrini öyrənmək və ondan yaradıcı surətdə istifadə etmək faydalı olar.

Türkiyə milli sahibkarlığın inkişafında böyük müvəffəqiyyətlər əldə etmişdir. Bu təcrübədən faydalanmaq və öz ölkəmizdə onlardan istifadə etmək məqsədəuyğundur. Təkcə ona görə yox ki, bizim dilimizdə, soykökümüzdə, adət-ənənələrimizdə çoxlu eyni və oxşar cəhətlərimiz vardır. Həm də ona görə ki, Türkiyə dövləti açıq bazar iqtisadiyyatına 80-ci illərin əvvəllərində qədəm qoysa da, keçən qısa müddət ərzində bu sahədə xeyli uğurlar qazanmışdır.

Azərbaycan Respublikasının ərazisində iqtisadi inkişaf qeyri-bərabərdir. Belə ki, respublikanın dağ və dağətəyi rayonlarının iqtisadi inkişaf səviyyəsi digər iqtisadi zonalardan əhəmiyyətli dərəcədə fərqlidir. Belə vəziyyət inzibati-amirlik dövründə yaradılmışdır. Bu rayonlarda əhalinin normal yaşaması üçün heç bir şərait yaradılmadığına görə əhalinin əksəriyyəti, xüsusilə gənclər, öz el-obalarından Azərbaycanın mərkəzinə və xarici ölkələrin müxtəlif şəhərlərinə köçməyə məcbur olmuşlar.

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra inzibati-amirlik dövründə yaradılmış belə mənfi halların aradan qaldırılması, buraxılan səhvlərdən ibrət dərsi almaq, həm də dünya təcrübəsindən istifadə edərək respublikanın bütün regionlarında əhalinin orta sıxlığını təmin etmək əsas məsələlərdəndir. Dövlət mülkiyyəti, o cümlədən torpaq özəlləşdirilərkən dövlət bu regionlar üçün xüsusi proqram hazırlamalı idi. Burada bütün formalarda sahibkarlıq fəaliyyətinə başlayanlar üçün güzəştlər və imtiyazlar müəyyən edilməli idi. Başqa sözlə, onlara güzəştli şərtlərlə kreditlər vermək, onları bütün növ vergilərdən azad etmək və hər cür bürokratik əngəllərdən qorumaq lazım idi. Bununla yanaşı dövlət bu regionlarda təsərrüfat fəaliyyəti ilə məşğul olanlara təkçə hərtərəfli hüquqi və iqtisadi köməklik göstərməklə kifayətlənməməli, eyni zamanda, həmin zonalara yollar çəkdirmək, onları qaz, su, elektrik enerjisi ilə təmin etmək, o yerlərdə mədəni-məişət, sosial, müxtəlif xidmət göstərən müəssisələrin tikilməsi və istifadəyə verilməsini öz üzərinə götürməlidir. Bir sözlə, elə bir şərait yaradılmalıdır ki, o zonalarda əhalinin sosial-iqtisadi səviyyəsi, respublika əhalisinin orta səviyyəsindən aşağı olmasın.

Azərbaycanda dövlət səviyyəsində reallaşdırılan bir sıra zəruri tədbirlər, strateji məhsulların idxalında və ixracında bütün fiziki və hüquqi şəxslərin bərabər hüquqlarının təmin olunması və inhisarçılığın qarşısının alınması istiqamətində görülən işlər, daxili bazarın marketinqinin düzgün qurulması, gömrük əlaqələrinin sadələşdirilməsi, xarici ticarətin liberallaşdırılması, eləcə də əlverişli investisiya mühitinin yaradılması və s. məsələlər, şübhəsiz, xarici iqtisadi əlaqələrin həcminin və coğrafiyasının bir qədər də genişlənməsini şərtləndirir. Bununla yanaşı, 2020-ci ilə qədər Azərbaycanın iqtisadi inkişaf konsepsiyasında qeyri-neft sektorunun həcminin adambaşına 1000 ABŞ dollarına və yaxud ümumilikdə 10 milyard dollara qədər artacağı hədəf olaraq müəyyənləşdirilmişdir. Eyni zamanda, 2020-ci ildə ölkəmizin qeyri-neft ixracının ümumi idxala bərabər olacağı da proqnozlaşdırılır. Bu isə Azərbaycanın xarici iqtisadi əlaqələrinin genişlən-məsində, neft hasilatının tükəndiyi dövrdə ticarət saldosundakı üstünlüyün qorunub saxlanmasında müsbət rol oynaya bilər.

Azərbaycan Respublikası prezidentinin müvafiq fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasına əsasən ixrac yönümlü iqtisadi model əsas götürüldüyündən, qeyri-neft məhsullarının ixracının genişləndirilməsi və ixrac prosedurlarının daha da sadələşdirilməsi məqsədi ilə orta müddətli dövrdə ölkədə tətbiq edilən xarici ticarət siyasətinin prioritet istiqamətləri və ixrac yönümlü məhsul istehsalının inkişaf meylləri aşağıdakılar olacaqdır:

- xarici ticarətin daha da liberallaşdırılması və ölkənin ixrac potensialından maksimum səviyyədə istifadənin təmin edilməsi və ölkənin milli iqtisadi maraqları təmin edilməklə Ümumdünya Ticarət Təşkilatına üzvolma prosesinin davam etdirilməsi;
- regionların inkişafında böyük rolu olan kənd təsərrüfatı və emalı məhsullarının hədəf bazarlara çıxış imkanlarının araşdırılması və artırılması istiqamətində müvafiq tədbirlərin görülməsi;
- Azərbaycan mənşəli məhsulların xarici bazarlara maneəsiz ixrac edilməsi məqsədilə müvafiq qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində işlərin davam et-dirilməsi;
- güzəştlərdən maksimum səviyyədə istifadənin təmin edilməsi məqsədilə müvafiq tədbirlərin görülməsi;
- xarici ticarətin inkişafı üçün infrastruktur təminatının daha da yaxşılaşdırılması və təkmilləşdirilməsi istiqamətində müvafiq tədbirlərin görülməsi;
- antidempinq qanunvericiliyinin təkmilləşdirilməsi və zəruri hallarda müvafiq tədbirlərin həyata keçirilməsi;
- Azərbaycanın milli maraqlarına uyğun olaraq ticarət sahəsində ikitərəfli və çoxtərəfli sazişlərə qoşulması istiqamətində müvafiq işlərin davam etdirilməsi;
- ixracatda elektron ticarət xidmətlərindən geniş istifadə imkanlarının araşdırılması və inkişaf etdirilməsi istiqamətində müvafiq işlərin görülməsi;
- ixracın genişləndirilməsi məqsədilə ixracatçılara dövlət dəstəyi üzrə mexanizmlərin araşdırılması, ixracatçılara maliyyə dəstəyinin göstərilməsi üzrə banklar tərəfindən ixrac kreditlərinin inkişaf etdirilməsi istiqamətində müvafiq işlərin görülməsi və s.

Ümumilikdə ölkədə ixracın genişləndirilməsi və gücləndirilməsi, həmiçinin ixrac potensialının yüksəldilməsi üçün aşağıdakı tədbirlərin reallaşdırılması vacibdir:

- müqayisəli üstünlüyə malik olan Azərbaycan mənşəli məhsulların dünya bazarlarına çıxış imkanlarının artırılması məqsədilə ixracatçı müəssisələrin beynəlxalq sərgi

və yarmarkalarda iştirakının stimullaşdırılması;

- tarif dərəcələrinin optimallaşdırılması, qeyri-tarif məhdudiyyətlərinin azaldılması, ölkə daxili istehsalın artımını dəstəkləyəcək və ölkənin iqtisadi təhlükəsizliyini təmin edəcək idxalat siyasətinin tətbiq edilməsi;

- ticarətin asanlaşdırılması, o cümlədən ticarət zamanı rəsmiləşdirmə işlərinin müddətinin qısaldılması və bununla bağlı xərclərin aşağı salınması üzrə işlərin davam etdirilməsi;

- ixrac edilən və ixrac potensialı olan məhsulların keyfiyyət standartlarının yüksəldilməsi və bu istiqamətdə beynəlxalq standartlara uyğun məhsul istehsal edən müəssisələrin stimullaşdırılması və milli brendlərin yaradılmasının dəstəklənməsi;

- xarici ticarət sahəsində beynəlxalq təcrübənin öyrənilməsi və xarici ticarət siyasətinin daha da təkmilləşdirilməsi məqsədilə ölkəmizin milli maraqlarına uyğun, elmi-praktiki üsullara əsaslanan müasir ticarət siyasəti metodlarının tətbiq edilməsi;

- Azərbaycan mənşəli kənd təsərrüfatı məhsullarına xarici bazarlarda tətbiq edilən diskriminasiya tədbirlərinin araşdırılması və zərurət yarandığı təqdirdə müvafiq tədbirlərin həyata keçirilməsi.

Beləliklə, Azərbaycan Respublikasında rəqabət qabilliyyətli ixrac potensialının inkişaf etdirilməsi və idxalın strukturunun diversifikasiyası bir tərəfdən yerli ixrac əhəmiyyətli məhsulların dünya bazarına daxil olması üçün əlverişli şərtlər formalaşdırmaqla yanaşı, digər tərəfdən yerli istehsalçıların xarici rəqabətin təsirindən şüurlu müdafiəsini təmin edir, ixracın diversifikasiyası maksimal effektiv və optimal struktura malik ixraca nail olmağa, ölkə ərazisindən çıxarılan məhsulların çeşidinin genişləndirilməsinə və tədricən ixracın strukturunda yüksək texnologiyalı məhsulların payının artırılmasına imkan verir.

Əliyev A.M., elmi işçi
AMEA-nın İqtisadiyyat İnstitutu

MÜASİR İQTİSADİ ŞƏRAİTDƏ VERGİ SİYASƏTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

Müasir iqtisadi şəraitdə vergi siyasətinin təkmilləşdirilməsi məsələləri mühüm əhəmiyyət kəsb edir. İnkişaf etmiş ölkələrin təcrübəsindən məlum olduğu kimi hər bir dövlət öz iqtisadiyyatını maliyyə mexanizmləri və vergi siyasəti vasitəsilə tənzimləyir. Rəqabətqabiliyyətli iqtisadiyyatda vergilərin sayı, strukturu, yığılma üsulları, dərəcələri və digər əlamətləri bütün sahibkarlıq subyektləri üçün eyni tətbiq olunmalıdır. Bu istiqamətdə həyata keçirilən bütün vergi islahatları zamanı dövlətin vergi gəlirlərinin azalmaması və vergitutmanın əsas prinsiplərinin tələblərinə cavab verən optimal vergi sisteminin yaradılmasına cəhd edilməsindən ibarətdir. Dövlət öz xərclərini, iqtisadi və sosial həyatının tənzimlənməsini hüquqi və fiziki şəxslərdən toplanan vergilər hesabına həyata keçirir.

Son illər milli iqtisadiyyatın inkişafı xeyli dərəcədə ölkədə həyata keçirilən vergi siyasətindən asılıdır. Hal-hazırda Azərbaycan Respublikasında bazar iqtisadiyyatının formalaşdırılması, onun dünya iqtisadiyyatına inteqrasiyası istiqamətində apa-

rılan məqsədyönlü iqtisadi siyasət çərçivəsində vergi siyasəti həyata keçirilir. Maliyyə siyasətinin tərkib hissəsi olmaqla vergi siyasəti ölkəmizdə rəqabətqabiliyyətli iqtisadiyyatın və ümumi iqtisadi inkişafın həyata keçirilməsinin əsas şərtlərindəndir. Ona görə də vergi işinin təşkilində inkişaf etmiş ölkələrin təcrübəsindən istifadə edilməsi və vergi siyasətinin rəqabətqabiliyyətli iqtisadiyyatın inkişafına təsiri yollarının araşdırılması çox vacibdir. Səmərəli vergi siyasəti azad sahibkarlığın, yeni texnologiyaların istehsalatda tətbiqinə, qiymət artımının qarşısının alınmasına, ümumilikdə isə dünya standartlarına cavab verən rəqabət-qabiliyyətli iqtisadiyyatın inkişafına gətirib çıxardır.

Respublikada aparılan düzgün vergi siyasətinin nəticəsidir ki, xarici vergi ödəyicilərinin sayı getdikcə artmaqdadır, bu da öz növbəsində ölkəyə cəlb olunan investisiyaların stimullaşdırılmasından xəbər verir.

Nəzərə almaq lazımdır ki, Azərbaycan iqtisadiyyatında son illər baş verən sürətli inkişaf, iqtisadi artım templərinin yüksək göstəricilərə çatdırılması, sahibkarlığın, kiçik və orta biznesin təşəkkül tapması, regionların social-iqtisadi inkişafında əldə edilən nailiyətlər ölkəmizdə həyata keçirilən iqtisadi islahatların uğurla reallaşdırılmasından xəbər verir.

Bildiyimiz kimi ölkədə işgüzar fəallıq artdıqca, vergidən yayınma halları və vergi hüquq pozuntuları da çoxalır. Qanunvericiliyin və vergi inzibatçılığının müntəzəm surətdə təkmilləşdirilməsinə baxmayaraq, vergi ödəyiciləri tərəfindən yayınma metodları və formaları dəyişir. Odur ki, respublikanın vergi sistemində aparılan islahatlar daha da dərinləşməli və vergi sistemi üstün inkişaf edən sahəyə çevrilməlidir.

Ümumiyyətlə, vergi siyasəti həyata keçirilən zaman dövlətin iqtisadiyyatın tənzimlənməsində iştirakı vergi tarifi, vergi güzəştləri, vergi bazası və bir sıra digər vergi alətlərinin köməyi ilə həyata keçirilir. Bu zaman dövlət vergi alətlərindən istifadənin birbaşa və dolayı metodlarından istifadə edir. Tənzimləmə və stimullaşdırma proseslərinə dövlətin birbaşa təsirinin xarakterik nümunəsi kimi vergi güzəştlərindən istifadə etməklə vergidən tam və yaxud qismən azadetməni misal göstərmək olar. Vergiqoyma bazası gəlir və ya mənfəət olan ayrı-ayrı vergi növləri üzrə vergidən tam azad etmə dövlət tərəfindən iqtisadiyyatın yeni sahələrinin və ya fəaliyyət növlərinin inkişaf etdirilməsi və ölkənin qeyri-əlverişli regionlarına investisiya qoyuluşlarının stimullaşdırılması üçün tətbiq olunur. Gəlirlərin tənzimlənməsi istiqamətində dövlət siyasətinin həyata keçirilməsinin əsas vasitəsi vergi dərəcələri hesab edilir. O, vergi bazasının və ya onun bir hissəsinin faizini müəyyən edir. Hökümət vergi qanunvericiliyində elə bir ciddi dəyişiklik etmədən yalnız tətbiq olunan vergi dərəcələrində düzəliş etməklə vergi tənzimlənməsini həyata keçirir.

Qeyd edək ki, dövlət siyasətini həyata keçirmək üçün vergi dərəcəsinin əsas rolu ondan ibarətdir ki, o müxtəlif növ vergi dərəcələrindən proporsional, proqressiv və reqressiv dərəcələr xüsusi əhəmiyyət kəsb edir. Onların köməyi ilə təkcə müxtəlif kateqoriyalı vergi ödəyicilərinin gəlirlərinin formalaşdırılması həyata keçirilir. Mərkəzləşdirilmiş vergi sistemi vergi dərəcələri hesabına kifayət qədər çevikdir, bu da hər il vergi dərəcələrini müəyyən etməklə ölkədə mövcud olan iqtisadi konyukturaya müvafiq olaraq səmərəli vergi siyasətinin aparılmasına imkan verir. Vergi siyasətini həyata keçirmək üşün səmərəli vasitələrindən biri vergi güzəştləridir. Bu onunla əlaqədardır ki, tələb olunan şərtlərə cavab verən hər bir fiziki və hüquqi şəxsə vergidən

tam və ya qismən azadolma hüququ verilə bilər. Dövlət vergi ödəyicilərinə bu və ya digər vergi güzəştlərini verərkən ilk növbədə vergi tənzimlənməsinin müxtəlif iqtisadi proseslərə təsirini gücləndirir.

Ümumiyyətlə, bu gün dünyada aparılan vergi siyasəti strategiyalarının əsas istiqaməti vergilərin könüllü ödənilməsi səviyyəsinin artırılmasıdır. Bu isə, ilk növbədə, vergi orqanlarının vergidənyayınmanın qarşısını almaq üçün texnoloji imkanlarını nümayiş etdirən qabaqlayıcı tədbirləri həyata keçirməyin tam təmin edilməsi və vergi ödəyicilərinə göstərilən xidmətlərin təkmilləşməsi ilə bağlıdır.

Vergi sisteminin təkmilləşdirilməsi cəmiyyət ücün zəruri olan islehsal sahələrinin inkişaf etdirilməsinə, dövlətin iqtisadi sahədə təxirəsalınmaz vəzifələri yerinə yetirməyə və nəhayət ölkə əhalisinin sosial maddi rifah halının yaxşılaşdırılmasına yönəldilməlidir. Vergi inzibatçılığında çox mühüm məqamlardan biri də vergi nəzarətinin təşkilidir. Vergi xidmətində aparılan dəyişikliklər məqsəd etibarı ilə sistemin sadələşdirilməsinə, vergi ödəyiciləri üzərində nəzarətin azaldılmasına xidmət etsə də, inzibatçılığın yaxşılaşdırılması və daha müasir üsulların tətbiqi vasitəsilə vergi nəzarəti bir qədər də təkmilləşdirilməlidir.

Qeyd edək ki, vergi inzibatçılığının təkmilləşdirilməsi istiqamətində atılan addımlar verg ödəyicilərinə göstərilən xidmətin səviyyəsinin yüksəldilməsinə, onların hüquqlarının daha etibarlı qorunmasına, bürokratik əngəllərin aradan qaldırılmasına, daha az xərclərlə vergi daxilolmalarının artmasına, vergi yoxlamalarının obyektivliyinin və səmərəliliyinin yüksəldilməsinə gətirib çıxarmışdır. Nəticədə bir çox vergi növləri üzrə göstəriciləri artıqlaması ilə yerinə yetirilmiş, hüquq pozuntular ilə mübarizədə ciddi uğurlara nail olunmuşdur. Azərbaycan Respublikası Vergilər Nazirliyinin informasiya bazası digər sahə nazirliklərinin informasiya bazaları ilə inteqrasiya olunmuşdur ki, bu da vergidən yayınmağa meylli olan vergi ödəyiciləri ilə müqayisədə bir sıra üstünlüklərə imkan yaratmışdır.

Yekunda qeyd etmək olar ki, Azərbaycan Respublikası iqtisadiyyatının rəqabətqabiliyyətliliyini yüksəltmək üçün ölkə iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin müasir amillərinin formalaşmasının gücləndirilməsi zəruridir. Bu əhalinin yaşayış səviyyəsinin yaxşılaşdırılmasının, Azərbaycan Respublikasının sosial-iqtisadi sabitliyinin və milli təhlükəsizliyinin təmin edilməsi üçün həlledici amilə çevrilməlidir. Vergilər üzrə daxilolmaların artırılması istiqamətində islahatlar daim aparılmalı, ilk növbədə vergi nəzarəti gücləndirilməli, vergidən yayınma halları aradan qaldırılmalı, ayrı-ayrı vergi növləri üzrə daxilolmaların dinamik artımına nail olunmalıdır.

Məmmədov E.S., doktorant
Azərbaycan Dövlət İqtisad Universiteti

KİÇİK VƏ ORTA SAHİBKARLIĞA DÖVLƏT DƏSTƏYİNİN FRANÇAYZİNQ VƏ MONİTORİNQ İSTİQAMƏTİ

KOS-lara dövlət dəstəyinin müasir dövr üçün aktiv formalarından biri françayzinq əlaqələrinin yaradılmasıdır. Məlumdur ki, KOS-lar arasında əlaqələr müxtəlif formada və müstəvidə qurulur. İşgüzar əlaqələr içərisində fərqlənən françayzinq tədbirləri önə

çıxan əsas təsərrüfat subyekti KOS-lara müvafiq bazarlarda fəaliyyət göstərmələri, biznes-ticarət işləri ilə məşğul olmaları haqqında xüsusi icazə verərək onların məhsul buraxılışı, satışı xidmətlərini göstərməsinin önünü açır. Belə bir qarşılıqlı əməkdaşlığın reallaşması istər iri şirkət, istərsə də KOS-ların inkişafı üçün olduqca vacibdir. Burada dövlətin əsas məqsədi belə bir xidməti təklif edən şirkətlərlə KOS-lar arasında əlaqələrin yaranmasına dəstəyin verilməsi və xidmətlərin təklifini asanlaşdırmaqdan ibarətdir. Həmçinin, ticarət markalarından istifadə etmək hüququnun verilməsi özlüyündə KOS-lar üçün aşağıdakı imkanları da açmış olur:

- Ticarət məntəqələrinin seçilərək fəaliyyət göstərilməsi;
- Məntəqələrin iqtisadi göstəricilərlə qiymətləndirilməsinin həyata keçirilməsi;
- İcarə və lizinq xidmətləri ilə bağlı danışıqların aparılması;
- Daşınma, saxlanma və nəqliyyat vasitələrinin seçilməsi ilə bağlı danışıqların aparılması, onlara dəstəyin verilməsi;
- Regionlarda mövcud olan və dövlətə məxsus olan istehsal, nəqliyyat infrastrukturlarının imkanlarından istifadəyə icazənin verilməsi;
- Marketinq tədqiqatlarının aparılaraq istehlakçı seçiminin öyrənilməsi, iş yerlərinin seçilməsi ilə əlaqədar dəyərləndirmələrin aparılması;
- Zəruri məmulatların, avadanlıq və istehsal fondlarının əldə olunmasını sadələşdirmək;
- Xüsusən də resurslara, onların əlçatımlığını asanlaşdıran tədbirlərin görülməsi.

Françayzinq zamanı KOS-ların qarşılıqlı əlaqələrində meydana çıxacaq əsas problemlərdən biri kimi münasibətlərin dayanıqlılığının təmin edilməsidir. Bunun əldə edilməsi üçün mütləq surətdə KOS-ların françayzinq fəaliyyəti zamanı əldə etdikləri mənfəət onların müstəqil fəaliyyəti zamanı əldə etdikləri mənfəətdən az olmaması şərtdir.

Qeyd olunanların fonunda söyləmək olar ki, KOS-lara dövlət dəstəyi nə qədər sahibkarlar arasındakı iqtisadi əlaqələrin qurulmasına əsaslanırsa, bir o qədər də dövlət-KOS əlaqələrinə əsaslanmalıdır. Bu aspektdə onların fəaliyyətinə dəstək verə biləcək ən aktiv formalardan biri kimi dövlət sifarişlərini göstərmək olar. Bu cəhətin reallaşması olduqca vacibdir. Bu təkcə KOS-ların inkişafı ilə deyil, həmçinin dövlətin də özünün real sektor baxımından bir sıra problemlərinin həlli deməkdir. Ona görə də sifariş sisteminin təkmili, onun hüquqi təminatının yetərli olması və ən əsası KOS-ların tələb olunan məhsul və xidmətlər üzrə ixtisaslaşması yüksək səviyyədə olmalıdır ki, bu əməkdaşlıq baş tuta bilsin. Müasir dövrdə bu əməkdaşlıq korporativ əməkdaşlıq kimi xarakterizə olunmaqdadır.

Xüsusən vurğulamq lazımdır ki, müasir mərhələdə KOS-lara dövlət dəstəyinin ən vacib aktiv formalarından biri də onların fəaliyyətinin monitorinqinin həyata keçirilməsidir. Onlarda inkişaf göstəricilərinin, biznes mühitinin öyrənilməsinin ən vacib tədbirlərindən biri kimi monitorinqin həyata keçirilməsi zəruridir. Lakin mərhələli şəkildə istər prosesin başlanğıcında, istərsə də dövlət dəstəyinin başlanılmasından sonrakı mərhələsi üçün nəzarətin həyata keçirilməsi olduqca vacibdir. Bu hal monitorinqi xarakterizə etməklə sadəcə olaraq prosesin gedişi deyil, həmçinin nəticəlilik də qiymətləndirilib öyrənilir. Ümumiyyətlə hesab edilir ki, dövlət dəstəyi çərçivəsində monitorinqin aktiv dövlət dəstəyi kimi aşağıdakı məqsədləri özündə birləşdirir:

- Həyata keçirilən proqram-layihələr kimi nəzərdə tutulan nəticələrə nail olmaq

və onun müəyyənlik dərəcəsini hesablamaq;

- Real nəticələrin əldə olunması prosesində yenidən əlavə olunan düzəliş tədbirləri və onların KOS sistemində tətbiqi dərəcəsini hesablamaq;
- Həyata keçirilən layihələrin və tədbirlərin ictimai effektini müəyyən etmək, maraqların təmin olunma dərəcəsini hesablamaq.

Nəzərə almaq lazımdır ki, monitorinq formasında tədbirin görülməsi spesifik ölkə xarakterli olmayıb "Sahibkarlığın qlobal monitorinqi" (GEM) beynəlxalq təşkilat tərəfindən tövsiyə edilən göstəricilər əsasında həyata keçirilməkdədir. Bu göstəricilərə ümumən ölkədə sahibkarlığın inkişaf vəziyyəti, ölkədə biznes mühitinin səviyyəsi, əhalinin sahibkarlıq fəallığının səviyyəsi, onun potensial səviyyəsi və s. aid edilir və hesablanılması tövsiyə olunur. Bu göstəricilərin hesablanması imkan verəcəkdir ki, ölkədə iqtisadi artım tempi ilə sahibkarlığın inkişafı arasında əlaqənin səviyyəsi müəyyən olunsun, KOS-ların inkişafında stimullaşdırıcı və məhdudlaşdırıcı amillərin rolu dəqiq müəyyən edilsin, ölkələr üzrə KOS-ların inkişafını müqayisə edərək nəticələr çıxartmağa köməklik göstərilsin.

Məmmədova Ü.İ., elmi işçi
AMEA-nın İqtisadiyyat İnstitutu

AZƏRBAYANCANIN DAVAMLI İNKŞAFIN TƏMİN OLUNMASINDA EKOTURİZMİN ROLU

Turizm sektoru digər sənaye sahələri ilə nisbətən ətraf mühitə bir o qədərdə ziyanı yoxdur, ona görədə uzun illər boyu "təmiz sənaye" kimi tanınmaqdadır. Dünyada müasir sahələr arasında əsas yeri turizmin davamlı inkişafı təşkil edir. Davamlı turizm (sustainable tourism) - ən müasir konsepsiyası ekoturuzmin qorunmasıdır. Turizm sektorunun davamlı inkişaf prinsiplərinə keçidi insanların məlumatlandırılması üçün əhəmiyyətlidir. ÜTT mütəxəssislərin fikrincə, turizmin sürətli inkişafı bütün ölkələr üçün müəyyən çətinliklər yaradır. Bu onunla bağlıdır ki, kütləvi şəkildə turistlərin axını ölkənin ekologiyasına, mədəniyyətinə və sosial inkişafına ciddi fəsadlar törədir. Buna görə də turizm sənayesi üçün davamlı turizm kimi bir anlam var. Davamlı turizmin əsas prinsipi turizm ölkələri öz ehtiyyat bazalarını qorumaqla yanaş istifadə etmək və əldə olunan gəliri turizm təşkilatlarına yönəltməlidir. Beləliklə, turizmin nəzarətsiz artımı, sürətli mənfəətin əldə olunması ətraf mühütün məhvinə və yerli əhalinin gələcək yaşayına mənfi təsir göstərir.

Qeyd edək ki, turizmin davamlı inkişafı dedikdə öz başlanğıcını davamlı inkişaf konsepsiyasından götürüb. Davamlı inkişaf həm çoxşaxəli, həm də çoxsahəlidir. Bir sözlə, davamlı inkişaf konsepsiyasının diqqət mərkəzində yoxsulluqla mübarizə dayanır və konsepsiyanın əsas məqsədi insanların normal həyat fəaliyyətinin təmin edilməsi üçün lazım olan resurslara minimum tələbatların ödənilməsi və bu resursların dünya əhalisi arasında ədalətli bölüşdurulməsidir. Tədqiqatçılar arasında "davamlı inkişaf" anlayışının izah edilməsinin geniş müzakirəsi aparılır. Bir çox ədəbiyyatlarda davamlı inkişafın daha çox fəlsəfi xarakterə malik olduğu vurğulansa da, onun iqtisadi izahına da rast gəlinir. 1992-ci ildə Rio de Janeyroda keçirilən BMT-nin konfransında

179 ölkənin bəyannaməsi nəticəsində davamlı inkişaf üzrə "XXI Əsrin Gündəliyi" kimi tanınan plan təsdiqlənib. Əsas ideyalar aşağıdakılardır:

- Dövlətlər Yer ekosistemlərinin qorunması, mühafizəsi və bütövlüyünü bərpa etmək məqsədi ilə əməkdaşlıq edir. İEÖ davamlı inkişafı təmin etməklə beynəlxalq cəhdlər üçün öz məsuliyyətini dərk edirlər.
- İndiki inkişafı gələcək nəsillərin ziyanına olaraq həyata keçirilməməlidir.
- Davamlı inkişafı həyata keçirməkdən ötrü ətraf mühitin mühafizəsi inkişaf prosesinin ayrılmaz hissəsini təşkil etməlidir və buna ondan ayrılıqda baxılmamalıdır.
- İnsanlar təbiətlə həmahəng, sağlam və məhsuldar yaşamaq hüququna malikdirlər.
- Ekoloji məsələlər ən səmərəli şəkildə bütün marağı olan vətəndaşların iştirakı ilə həll edilir. Dövlətlər ekoloji informasiyaya geniş yol açmaqla əhalin inkişaf etdirir və genişləndirirlər.
- Dövlətlər bütün ölkələrdə iqtisadi yüksəlişə və davamlı inkişafa gətirib çıxararaq açıq beynəlxalq iqtisadi sistemin yaradılması işində əməkdaşlıq etməlidirlər.
- Ətraf mühiti çirkləndirən, bu çirklənməyə görə maliyyə məsuliyyəti.

Son zamanlar apardığımız araşdırmalarda görünür ki, davamlı turizm inkişafı bütün ölkələr üçün böyük əhəmiyyət kəsb edir. Əslində davamlı turizm ilə davamsız turizmin fərqi ondan ibarətdir ki, ölkədə turizm ehtiyyatları bazalarından əldə olunan gəlir bu sahə üzrə xidmətləri texnoloji bazasının təkmilləşdirilməsinə yönəlməlidir. Aşağıdakılara (cədvəl 1) nəzər salsaq görərik ki, davamlı və davamsız turizmin inkişafının ümumiləşdirilmiş xarakteristikası müqayisə olunub. Göründüyü kimi, əsas məqsəd davamlı turizmin vəziyyəti "yaxşı", davamsiz turizmin vəziyyətini "kafi" kimi qiymətləndirmək deyil, bunların mahiyyətini aydınlaşdırmaqdır.

Cədvəl 1.

Davamlı və davamsız turizmin inkişafının xarakterik müqayisəsi

Davamlı turizmin inkişafı	Davamsız turizmin inkişafı
Mütərəqqi inkişaf	Sürətli, cəld inkişaf
İdarəolunan inkişaf	Nəzarətsiz inkişaf
İrimiqyaslı inkişaf	Uyğunlaşmayan inkişaf
Uzunmüddətli planlaşdırma	Qısamüddətli planlaşdırma
Keyfiyyətli inkişaf	Kəmiyyətli inkişaf
Yerli idarəetmə	Uzaqdan nəzarət
Strateji inkişaf	Layihələrlə əlaqəsi olmayan ümumi inkişaf
Ətrafa mühitə yükün bərabər paylanması	Ətraf mühitə və turizm mərkəzlərinə əlavə yük
Turizmdən əldə olunan gəliri turizm ehtiyatlarının bərpa olunmasına yönəlməsi	Turizmdən əldə olunan gəlirlərin həmin regionda qalmaması
Yerli işçi qüvvəsinin cəlb olunması	Gəlmə işçi qüvvəsinin cəlb olunması

İqtisadi baxımdan, turizmin davamlı inkişafını, turizmin inkişafının uzunmüddətli məqsədlərini müxtəlif proqnozlarla müəyyən edilə bilər. Eyni zamanda davamlı turizmin inkişafı üçün ən mühüm şərtlərindən biri regionlarda turizm axınını sabit saxlamaq lazımdır ki, həmin regionun turizmdən əldən olunun gəlir və xərclər təmin edilmiş olsun. Digər terminlərdə davamlı inkişafla sıx bağlıdır, lakin bunlar kifayət etmir. Əsas odur ki, bu konsepsiya həmin regionda ətraf mühiti, mədəni abidələrin qorunması, sosial və iqtisadi məsuliyyətin artmasıdır. Davamlı inkişafın əsas məqsədi

nəsillər boyunca və bir nəsildə qarşıya qoyulmuş inkişaf səviyyəsinə çatmaq üçün təbii resursların ədalətli bölgüsünü nəzərdə tutur. Eyni zamanda, davamlılıq tələblərinə görə, iqtisadi və sosial inkişaf tədbirləri iqtisadi fəaliyyətin mənfi təsirlərinin azaldılmasına xidmət etməli və gələcək fəaliyyət üçün heç bir çətinlik yaratmamalıdır. Əgər indiki nəslin fəaliyyəti gələcək nəslə və ya onun fəaliyyətinə hər hansı zərər vurarsa (məsələn, bərpaedilməyən ehtiyyatların israfçılıqla istifadə olunması), bu halda zərəri tam kompensasiya etmək lazımdır (Cədvəl 1).



Şəkil 1. Davamlı turizm və turizmin digər növləri arasinda əlaqə

Göründüyü kımı, əsas məqsəd turızmın müxtəlıf növlərını daha da davamlı etmək zəruridir. Belə nəticəyə gəlirik ki, turizmin bütün növlərini davamlı turizmin inkişafına yönəltmək lazımdır. Davamlı inkişaf anlayışının mahiyyətinin öyrənilməsi istiqamətində aparılan tədqiqatlar sübut edir ki, davamlı inkişafın təmin edilməsi ekosistemlə, təbii resurslardan istifadə ilə və s. ekoloji amillərlə də sıx əlaqədardır. Ümumiyyətlə, prioritet turizm növü kimi ekoturizm, aqroturizm, kənd, yaşıl turizmi, rekreasiya turizmi sahəsində dövlət tənzimlənməsinin gücləndirilməsi vacibdir.

Müasir zamanda ən yaxşı öyrənilən və ən çox qəbul edilən sahələrdən biri ekoturizm "ətraf mühiti qorunmasında və yerli əhalinin rifah halını nəzərə alaraq təbii səyahətlər" kimi tanınmaqdadır. Ekoturizm davamlı turizmin əsas hissəni təşkil edir. Araşdırmalardan görünür ki, ekoturizm deyilən anlayış dünyada 80-cı illərdən etibarən yayılsada, son zamanlar Azərbaycanda da bu turizm növünü inkişaf etdirmək daha məqsədəuyğun hesab edilir. Bəzi araşdırmalardan göründüyü kimi, turizm sektorunun bu növündə ildə 25-30 % arasında artım qeyd olunur.

Ölkəmiz davamlı inkişaf yolu ilə uğurlu addımlar atır. Bu istiqamətdə son illər daha çox məqsədəuyğun iqtisadi tədbirlər həyata keçirməyə başlanmışdır. Turizm sahəsinin inkişafı üçün çoxsaylı proqramlar, fərmanlar və sərəncamlar qəbul olunmuşdur. Turizm sahəsinin inkişaf istiqamətləri aşağıdakılardan ibarətdir:

- regionlarda turizm infrastrukturunun yüksək beynəlxalq tələblər səviyyəsində qurulmasına istiqamətlənmiş məqsədyönlü layihələrin həyata keçirilməsi;
- ölkənin bütün regionlarında turizm fəaliyyətinin stimullaşdırılması və bu sahəyə investisiyaların cəlb edilməsi məqsədilə müasir informasiya və kommunikasiya texnologiyaları vasitəsilə təşviq işinin genişləndirilməsi;
- regionlarda turizm və rekreasiya zonalarında müvafiq infrastrukturun yaradılması, turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi, yeni turizm marşrutlarının yara-

dılması;

- turizm sektorunda çalışan personalın peşə hazırlığı səviyyəsinin artırılması vasitəsilə regionlarda turizm xidmətlərinin keyfiyyətinin daha da yaxşılaşdırılması istiqamətində müvafiq tədbirlərin görülməsi;
- regionlarda müxtəlif kateqoriyalı yeni mehmanxanaların və digər yerləşdirmə vasitələrinin, turizm xidməti obyektlərinin yaradılmasının dəstəklənməsi.

Qeyd etmək lazımdır ki, uğurla həyata keçirilən inkişaf strategiyası artıq özünün yeni mərhələsindədir. 2013-2020-ci illəri əhatə edəcək bu mərhələdə ölkədə turizm infrastrukturunun inkişaf etdirilməsi və turizm xidmətlərinin xeyli genişləndirilməsi, regionlarda yeni müasir standartlara cavab verən mehmanxanaların və tarixi abidələrin bərpası kimi tədbirlərin davam etdirilməsi nəticəsində turizm sektorunda 2013-2016-cı illər ərzində orta hesabla 22% artım olub. Əminik ki, ölkə prezidenti İlham Əliyev tərəfindən təsdiq olunmuş «Azərbaycan-2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında müəyyən edilmiş hədəflərin reallaşdırılması, xüsusilə də turizm sahəsini əhatə edən irimiqyaslı tədbirlərin həyata keçirilməsi və yuxarıda sadaladığımız problemlərin həlli nəticəsində regionlarımızın və kəndlərimizin tarazlı inkişafı və bununla da gələcəkdə Azərbaycanın davamlı inkişafı, eləcə də bölgə əhalisinin və xalqımızın rifahının daha da yaxşılaşması təmin ediləcək.

Azərbaycanın unikal coğrafi zənginlikləri, təbiətinin əzəmətliliyi, landşaftının nadir tipləri əvəzolunmaz gözəlliyi ekoturizmin müxtəlif növlərinin inkişafı üçün geniş imkanlar yaradır. Ölkəmizin həm düzən (mənzərəli meşələri, gözəl çimərlikləri olan sahil zonası), həm də dağlıq hissəsində ekoturizmin su turizmi, təbiətdə ov, dağ – piyada turizm, rekreasiya, mədəni-etnik turizm növlərini inkişaf etdirmək zəruridir. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında 9 milli park, 11 qoruq, 24 yasaqlıq fəaliyyət göstərir. Eyni zamanda milli parklarda ekoturizmin inkişafına xüsusi diqqət yetirilir. Hazırda milli parkın müəyyən hissəsi ekoturistlərin istifadəsinə verilir. Göygöl, Hirkan, Qızılağac və digər milli parklarımızın gözəl və rəngarəng təbiəti, zəngin florası və faunası turist və ziyarətçilərin cəlb edilməsinə xidmət sahəsində ekoturizmin inkişafı üçün zəmin yaradır.

Azərbaycanda turizmin davamlı inkişafı üçün zəruri olan bütün təməl şərtlər mövcuddur. Bu ilk növbədə regionumuzda turizm ehtiyyatlarının öz təbii formasını saxlaması, onların daha az süni təsirlərə məruz qalması ilə bağlıdır. Ona görə də bütün dünya, eləcədə ölkəmizin ən mühüm məsələlərdən biri əslində, təbii sərvətlərimizi qiymətləndirməli, bundan səmərəli istifadə edilməlidir. İqtisadi dövriyəyə cəlb olunmuş hər bir turizm ehtiyyatının cazibədarlığından maksimum istifadə olunaraq sosial, ekoloji maraqların uzlaşdırılması uzunmüddətli turizm proqnozlaşdırılması əsas hədəflərimizdəndir. Regionlarda turizm infrastrukturu quruculuğu ilə yanaşı, ekoloji vəziyyətin tam nəzarətdə saxlanılması, tarixi və mədəni ehtiyyatların qorunub öz əvvəlki görkəminə qovuşdurulması, hər şeydən əvvəl, yüz ildən sonra da bu qiymətli xəzinənin Azərbaycan xalqının və bütün dünyanın istifadəsinə verilməsi deməkdir. Buna nail ola bilmək üçün isə turizmdə təsadüfi, qeyri-elmi yanaşmalara yol verməmək, sahə üzrə kadrların hazırlanmasına ciddi diqqət yetirmək lazımdır.

Məmmədova S.T., doktorant
Sumqayıt Dövlət Universiteti

MÜƏSSİSƏDƏ İNSAN KAPİTALININ FORMALAŞDIRILMASINDA ELM VƏ TƏCRÜBƏNİN İNTEQRASİYASI

Müasir dövrdə hər bir müəssisə fəaliyyətinin əsas istiqamətlərindən biri kimi insan kapitalının formalaşdırılması prosesini daim təkmilləşdirməyi öz qarşısına məqsəd qoymalıdır. Dünya təcrübəsi sübut edir ki, inkişaf etmiş ölkələrin, müəssisələrin gəlirlərinin əsas hissəsi insan kapitalı hesabına formalaşır. Çünki, innovasiya iqtisadiyyatı şəraitində texnika və texnologiya sahəsində tez-tez baş verən dəyişiliklər insan fəallığının yüksəldilməsini tələb edir. Fikrimizcə. insan fəallığının yüksəldilməsi isə birbaşa insan kapitalının səviyyəsindən asılıdır. Bu baxımdan hər bir müəssisə müasir tələblərə cavab verən strategiyalar hazırlamalı və onu həyata keçirmək yollarını axtarıb tapmalıdır. Bu strategiyalardan biri elm və təcrübənin inteqrasiyası üzrə hazırlanarsa, daha məqsədəuyğun olardı. Belə bir strategiyanın həyata keçirilməsi bir sıra problemlərin aradan qaldırılması üçün mühüm addımların atılmasında əsas rol oynaya bilər.

Hal-hazırda sənaye müəssisələrinin fəaliyyəti qeyri-sabit sosial-iqtisadi, istehsal-texniki, təşkilati-idarəetmə proseslərilə müşayiət edilir ki, bu da istehlakçıların tələblərinin, istehsal texnologiyasının, heyətin əmək fəaliyyətinin təşkilinin, tətbiq edilən resursların, kadrların tərkibinin və s. daimi surətdə dyişiliklərə məruz qalması ilə şərtləndirilir. Təbii olaraq, müəyyən edilir ki, hazırki dövrdə müəssisədə səmərəli olan istehsalın təşkili və tətbiq edilən texnologiya formasına uyğun olan heyətin idarə edilməsi sistemi vaxt keçdikcə həyata keçirilən fəaliyyətin xarici və daxili amillərinin dəyişilməsi ilə əlaqadar olaraq köhnəlir və səmərəsiz olur. Ona görə də dəyişkən bazar şəraitində hər bir müssisə, istənilən təşkilat öz fəliyyətini baş verən dəyişiliklərə uyğun olaraq təkmilləşdirməlidir ki, həm regional, həm də milli bazarda rəqabət qabiliyyətini qoruyub saxlaya bilsin. Yüksək elmtutumlu neft-kimya müəssisələrinin yeni şəraitdə fəaliyyət göstərməsi üçün tələb olunan işçi kadrların hazırlanması respublikada mövcud olan peşə-ixtisas, peşə-təhsili məktəbləri və unuversitetlərlə məhdudlaşmır, xarici ölkələrin nüfuzlu universitetlərinin məzunları cəlb edilir. Müəssisələrin kadr potensialının gücləndirilməsində dövlətin fəaliyyəti nəzərəçarpacaq dərəcədə genişlənmişdir. Azərbaycan Respublikası prezidentinin 2014-cü il 26 dekabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında sənayenin inkişafına daİr 2016-2020-ci illər üçün Dövlət Proqramı"nda sənayenin kadr potensialının və elmi təminatının gücləndirilməsi üzrə iqtisadiyyat, energetika, təhsil, əmək və əhalinin sosial müdafiəsi, Azərbaycan Milli Elmlər Akademiyası, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirlikləri, Sahə elmi-tədqiqat və layihə institutlarının tabe olduğu nazirlik, komitə, təşkilatlar kimi icraçılar tərəfindən həyata keçiriləcək böyük sayda tədbirlər planı nəzərdə tutulmuşdur. Hər növbəti il üçün Milli Məclis tərəfindən qəbul edilən dövlət büdcəsindən büdcə xərclərinin iqtisadi təsnifatının bölmələri və paraqrafları çərçivəsində elmi-tədqiqatların aparılması xərclərinin maliyyələşdirilməsi üçün vəsait ayrılır.

Bu vəsaitlərin məqsədyönlü istifadəsi müəssisələrlə elmi-tədqiqat mərkəzlərinin, ali məktəblərin birgə fəaliyyəti nəticəsində mümkündür. Çünki, istənilən müəssisə daim müəyyən problemlərin aradan qaldırılması üçün müəyyən mütəxəssis rəyinə və

məsləhətinə böyük ehtiyac duyur. Fikrimizcə, müəssisədə müəyyən bir mərkəz yaradılmalı, bu mərkəzlər müvafiq ali məktəblərlə, onun elmi potensialı ilə daim əlaqələr yaratmalı, elm və təcrübənin qarşılıqlı əlaqəsi nəticəsində öz fəaliyyətlərini təkmilləşdirməlidirlər. Ali məktəblər isə tələbələrin tədris prosesinə müəssisələrdən yüksək ixtisaslı mütəxəssisləri cəlb etməlidir. Bu mütəxəssislər tədris prosesində iştirak etməklə yanaşı, müəssisənin gələcək kadr potensialının formalaşdırılması üçün müəyyən strategiyaların hazırlanması istiqamətində ali məktəb pedaqoqlarının məsləhətlərindən yararlanmalıdırlar.

Müasir dövrdə Azərbaycan müəssisələrində kadrların cəlb edilməsi və onların əməyinin təşkili məsələləri dünya biznesinin inkişafı meylləri nəzərə alınmadan həll edilir. Bu isə öz növbəsində yerli müəssisələrin fəaliyyətində geriliyin yaranmasına , qərarların və idarəçiliyin keyfiyyətinin pisləşməsinə, əmək məhsuldarlığının azlmasına və gəlirlərin hər vahidinə düşən məsrəflərin miqdarının yüksəlməsinə səbəb olur.

Bunu xüsusilə nəzərə çatdırmaq lazımdır ki, ölkənin və bütövlükdə cəmiyyətin inkişaf səviyyəsini və iqtisadi tərəqqisini dövlətin malik olduğu təbii sərvətlərindən daha çox onun təhsilinin, elminin inkişaf səviyyəsi müəyyən edir. Müasir dövrdə bu mühüm sosial-iqtisadi məsələnin həlli ön plana keçir və xüsusi aktuallıq kəsb edir. Çünki, elmi-texniki tərəqqinin və elmi-texniki inqilabın nəticələri, əhalinin bilik səviyyəsi, onların texniki bilik və bacarıqlara yiyələnməsi əhalinin həyat səviyyəsinin yüksəldilməsinin və bütövlükdə ölkənin sosial-iqtisadi inkişafının başlıca və əsas təminatçısı kimi çıxış edir. Bütün bunlar insan vasitəsilə və insan fəaliyyəti ilə reallaşdırıldığına görə insanın özünün texniki bilik və bacarıqlar ehtiyyatının formalaşmasına xüsusi diqqət yetirilməli, onun təhsil alması və ixtisas hazırlığı üçün dövlət tərəfindən, habelə bütün mənbələrdən ayrılmış vəsaitin - kapitalın, insan kapitalının həcmi və kəmiyyəti daim çoxaldılmalıdır.

Təsadüfi deyildir ki, Azərbaycan Respublikası prezidentinin 2012-ci il 29 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" inkişaf konsepsiyasının yeddinci bölməsi "İnsan kapitalının inkişafı və səmərəli sosial müdafiə sisteminin qurulması" konsepsiyası və 2016-cı ilin dekabr ayında təsdiq edilmiş Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsində əsas hədəflərdən biri insan kapitalının inkişaf etdirilməsidir. Burada təhsilin bütün pillələrində keyfiyyətin yüksəldilməsi, əmək məhsuldarlığının yüksəldilməsini təmin etmək üçün insan kapitalının inkişafının stimullaşdırılması və bu sahədə görüləcək tədbirlər öz əksini tapmışdır.

İnsan kapitalının formalaşdırılmasında həm fərdin özü, həm müəssisə , həm dövlət, həm də bütün dünya maraqlı olmalıdır. Fərdin gələcəyini təmin etmək üçün ailəsi və özü ona investisya yönəltməlidir. Müəssisə öz əməkdaşlarının iş keyfiyyətlərindən öz məqsədi üçün istifadə etməlidir, ona investisya yönəltməlidir. Beləliklə, bu işçi üçün gəlirlərinin səviyyəsinin artımı, işdən məmnunluq, əmək şəraitindən razılıq, özünə hörmət, həyat keyfiyyətinin yüksəldilməsi deməkdir. Müəssisə üçün isə əmək məhsuldarlığının yüksəldilməsinə, iş vaxtı itkisinin azaldılmasına, istehsalın səmərəliliyinə səbəb olur ki, bu da nəticədə rəqabət qabiliyyətinin yüksəldilməsinə səbəb olur.

Dövlət üçün isə, vətəndaşın rifahının yüksəldilməsi dövriyyə gəlirinin yüksəldilməsi və vətəndaşın iqtisadi aktivliyinin yüksəldilməsi deməkdir.

Müəssisədə insan kapitalının idarə edilməsi istiqamətlərini aşağıdakı kimi komp-

leksləşdirmək olar:

- insan kapitalının formalaşdırılması;
- insan kapitalının inkişaf etdirilməsi;
- insan kapitalının qorunub saxlanması.

Bu istiqamətlər müəssisənin apardığı kadr strategiyası çərçivəsində həyata keçirilməlidir.

Müəssisə qarşısında açılan texniki imkanlar, təşkilati-idarəçilik üstünlüklərindən asılı olmayaraq, o müvafiq insan resursları olmadan səmərəli işləyə bilməz. Axı hər şey son nəticədə insanlardan, onların ixtisaslaşmasından, bacarığından və işləmək arzusundan asılıdır. Əbəs yerə deyil ki, Qərb mütəxəssisləri müəssisənin strukturunun maddi və insan kapitalından ibarət olduğunu təsdiq edirlər.

Yeni istehsal sistemləri yalnız praktiki cəhətdən səhvə yol verməyən mükəmməl maşın və mexanizmlərdən ibarət deyildir. Onlar həmçinin yeni texnoloji ideyaların işlənilməsinə və reallaşdırılmasına hazır olan insanları da əhatə edir. Məhz, zavodlar avadanlıq və istehsal ehtiyyatları deyil, yalnız insan kapitalı rəqabət qabiliyyətinin iqtisadi artının və səmərəliliyin məhəng daşını təşkil edir. Bu baxımdan hər bir müəssisə daim insan kapitalının inkişaf istiqamətlərini diqqət mərkəzində saxlamalı və ondan səmərəli istifadə yollarını axtarmalıdır. Bunun üçün elm ocaqları və müvafiq sahələr üzrə elmi mütəxəssislərlə daim əlaqələri genişləndirməli, onların ideya və nəzəri biliklərindən yararlanmalıdır.

Hacıyev T.F., doktorant
Əmək və Sosial Problemlər üzrə ETTM

MÜASİR ŞƏRAİTDƏ İNNOVASİYA POTENSİALINDAN İSTİFADƏ PROBLEMLƏRİ

Dünya təcrübəsində ölklərin qarşısında üç mühüm problemin-məşulluğun, işsizliyin və infilyasiyanın optimal səviyyəsinin təmin edilməsi və bunların fonunda real iqtisadi artıma nail olunması aktual olaraq qalmaqdadır. Bu baxımdan Azərbaycan Respublikasında 2005-2017-ci illər ərzində bir milyondan çox daimi iş yeri yaradılmış işçilərin orta əməkhaqqı 5,8 dəfə artaraq 564 manat təşkil etmiş, yoxsulluğun, səviyyəsi 40%-dən 5%-dək azalmışdır. Adam başına düşən ÜDM-in nominal həcmi müqayisə olunan dövrdə manat ifadəsində 8,2 dəfə, dollar ifadəsində isə 9,3 dəfə artmışdır. Dövlət büdcəsinin gəlirləri 2005-ci illə müqayisədə 2017-ci ildə 16 dəfə çox olmuşdur. Bu illər ərzində iqtisadiyyata 160 milyard manatdan çox investisiya qoyulmuşdur.

Problemlərin aradan qaldırılmasında innovasiya potensialından istifadənin böyük əhəmiyyəti vardır. İnnovasiya potensialı yeniliyin əsasında dayanan konsepsiyanın obyektiv, fiziki, kimyəvi, bioloji və digər parametrlərinin son həddi ilə müəyyən olunur. Qloballaşma şəraitində innovasiya potensialından istifadə mütərəqqi elmi-

texniki nəaliyyətlərin və təşkilat - idarəetmə yeniliklərinin dərinləşməsini nəzərdə tutur.

Hazırki şəraitdə innovasiya potensialından məqsədyönlü istifadə edilməsi ölkədə milli iqtisadiyyatın əsas seqmenti olan innovasiyalı sənayenin inkişafına ciddi təsir göstərir, bu da əhalinin gəlirlərinin artırılmasında, digər tərəfdən isə dövlətin sosial yükünün azalmasında əhəmiyyətli rol oynayır.

İnnovasiya potensialından səmərəli istifadə ölkədə sənaye potensialının gücləndirilməsi, onun infrastrukturunun müasirləşdirilməsi və beynəlxalq standartlara uyğun rəqabət qabiliyyətli ixracat məhsulları istehsal etmək gücündə olan sənaye sektorunun yaradılması və inkişaf etdirilməsi zəruruliliyi həm ölkənin daxili iqtisadi inkişaf modelinin, həmdə dünya iqtidasiyyatının müasir inkişaf meyllərinin tələbləri ilə bağlıdır. Möhtərəm prezidentimiz İlham Əliyev öz çıxışında, orta və uzun müddətə ölkə sənayesinin inkişaf hədəflərini göstərmişdir: "Biz güclü sənaye potensialımızı yaratmalıyıq və o 5 ildən, 10 ildən sonra ölkəmizin əsas ümumi daxili məhsulunu verəcəkdir. 50 ildən sonra neft hasilatı azalanda sənaye potensialı Azərbaycanın dayanıqlı inkişafını təmin edəcəkdir".

Beləki, ölkədə innovasiyalı sənayenin dinamik inkişafı daim diqqət mərkəzindədir. Azərbaycanda iri sənaye komplekslərinin yaradılması istiqamətində prezident İlham Əliyev ölkə iqtisadiyyatının sənayeləşməsini sürətləndirmək, Azərbaycanın güclü sənaye mərkəzinə çevrilməsi üçün mövcud potensialdan daha səmərəli istifadə etmək məqsədi ilə 2014-cü ili Azərbaycan Respublikasında "Sənaye ili" elan edilməsi haqqında sərəncam imzalamışdır. Dövlət başçısının 26 dekabr 2014-cü il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı" ölkədə sənayeləşmə prosesinin sürətləndirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir və hazırda dövlət proqramının həyata keçirilməsi üzrə tədbirlər planında nəzərdə tutulmuş işlər uğurla icra olunur.

Azərbaycan Respublikasında uğurla həyata keçirilən sənayeləşmə dövründə yeni inkişaf mərhələsinə qədəm qoymuş ölkə sənayesində ənənəvi sahələr genişlənməklə yanaşı kosmik, müdafiə, alternativ enerji, gəmi istehsalı və digər innovasiyalı sənaye sahələri yaradılmış, yüzlərlə müasir istehsal və emal müəssisələri fəaliyyətə başlamışdır. Təkcə bu il ərzində 200-dən çox sənaye müəssisəsi və obyekti istifadəyə verilmiş, 10 elektrik yarımstansiyası fəaliyyətə başlamışdır.Bununla yanaşı dövlətin maliyyə dəstəyi ilə özəl sektor tərəfindən 20-yə yaxın innovasiyalı sənaye müəssisəsi inşa olunmuşdur.

Göründüyü kimi ölkə sənayesinin gələcəyi heç şübhəsiz ki, müasir dünya trendlərinə cavab verən innovativ, elm tutumlu müəssisələrin yaradılması ilə bağlıdır. Respublikada informasiya-kommunikasiya texnologiyaları (*İKT*) sürətlə inkişaf edir. Müstəqillik illərində Azərbaycanda İKT-nin inkişafına 3 milyard ABŞ dollarından artıq vəsait yatırılıb. Nəticədə, son 10 ildə informasiya və rabitə sahəsinin inkişafı 8,2 dəfə artıb. 2013-cü il fevralın 8-də "Azərspace-1" peykinin uğurla orbitə çıxarılması ilə ölkə beynəlxalq kosmik ailənin üzvünə çevrilib.

Bütün bunlar prezident İlham Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasına uyğun olaraq ölkədə innovasiyalı sənayenin sürətləndirilməsini təsdiqləyir. Çünki innovasiyalı sənayeləşməni sürətləndirmək, Azərbaycanın güclü sənaye mərkəzinə çevrilməsi üçün mövcud potensialdan səmərəli istifadə etmək məqsədilə 2014-cü ildə ölkədə sənayeləşmənin sürətləndirilməsi istiqamətində paytaxtda və regionlarda bir sıra mühüm tədbirlər həyata keçirilmiş, innovasiyalı sənaye müəssisləri istifadəyə verilmişdir. Bakı şəhərində "Norm" sement zavodu, Dövlət sərhəd Xidməti Sahil Mühafizəsinin yeni gəmi inşaası zavodu, Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin birinci mərhələsi çərçivəsində bərə terminalı, Suraxanı Günəş Elektrik Stansiyası, Naxçıvan Muxtar Respublikasında "Arpaçay-2" Su Elektrik Stansiyası, Sumqayıt şəhərində Azərbaycan kağız və karton istehsalat kombinatı, Gəncədə metaltökmə və fasiləsiz yayma, təzyiqlə emal və boyam zavodları, Ağdaş rayonunda yem və meyvə emalı zavodları, "Ağdaş" elektrik yarımstansiyası, Füzuli rayonunda tikiş fabriki, Lənkəranda çörək istehsalı zavodları işə salınmışdır.

Artıq Azərbaycanda sənaye yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Bu mərhələdə ölkə iqtisadiyyatının şaxələndirilməsi hesabına qeyri-neft sənayesinin sürətli inkişafı təmin olunacaq, regionlarda iri sənaye istehsalı zonaları yaradılacaq. Bununla da, neft-qaz ölkəsi olan Azərbaycan, həm də yaxın gələcəkdə regionun qeyri-neft sənayesinin inkişaf etdiyi bir dövlət kimi tanınacaq.

Azərbaycan iqtisadiyyatının əsasını təşkil edən innovasiyalı sənayenin inkişaf etdirilməsi üçün ölkədə rəqabət qabiliyyətli müasir istehsal sahələrinin yaradılması, sənayenin infrastruktur təminatının yaxşılaşdırılması sahəsində çoxsaylı layihələrin icrası davam etdirilmiş, bu istiqamətdə stimullaşdırıcı tədbirlər həyata keçirilmişdir, bu sahədə mühüm malların istehsalının davam etdirilməsi ölkə sənayesinin iqtisadiyyatda xüsusi çəkisini qoruyub saxlamışdır. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2017-ci ilin sənaye müəsissisələri, fərdi sahibkarlar və ev təsərrüfatları tərəfindən 36 milyard 244,6 milyon manatlıq sənaye məhsulu istehsal olunmuşdur. Bütövlükdə isə, son on bir ildə ölkədə sənaye istehsalının real həcmi təqribən üç dəfə artmışdır. Bu isə Azərbaycanda həyata keçirilən uğurlu sənayeləşmə siyasətinin məntiqi nəticəsidir. Sənaye məhsulunun 71,8 faizi mədənçıxarma, 22,3 faizi emal, 5,3 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,6 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı bölmələrində yaradılmışdır.

Fikrimizcə, innovasiyalı sənaye potensialdan istifadəyə bu cür yanaşma ən azından ölkənin sənaye sahələri üzrə təsnifatlaşdırmağa, sənayenin inkişafında quruluş dəyişikliklərini izləməyə, sənaye siyasəti sahəsində dövlətin həyata keçirdiyi işlərin nəticələrini və səmərəliliyini qiymətləndirməyə, beynəlxalq reytinq qiymətləndirmələrdə müqayisəliliyini təmin etməyə, sənayenin ixracat qabiliyyətinin formalaşmasına və s. imkan verəcəkdir. Eyni zamanda milli iqtisadiyyatın əsas seqmentlərindən biri olan innovasiyalı sənaye ölkənin gələcək sabit inkişafının, dünya iqtisadiyyatında və inteqrasiyasında əsaslı mövqe tutmasında tam təminatçısı olacaqdır.

Ümumiyyətlə yuxarıda qeyd edilənləri nəzərə almaqla,innovasiya potensialından istifadənin mütərəqqi dünya səviyyəsinə uyğunlaşdırılması Azərbaycanda innovasiya potensialından istifadənin səmərəliliyini artıra bilər.

Kərimova R.R., doktorant
Bakı Biznes Universiteti

KƏND TƏSƏRRÜFATINDA İQTİSADİ SƏMƏRƏLİLİYƏ TƏSİR EDƏN AMİLLƏR

Səmərəlilik amilləri hər hansı bir fenomen dəyişikliyinin səbəbini xarakterizə edən konsepsiyadır. Kənd təsərrüfatı müəssisələrinin istehsal fəaliyyətinin səmərəliliyindən danışırıqsa, amillər fəhlələrin istehsal vasitələrindən və yaşayış əmanətindən, ümumi investisiyaların qaytarılmasından asılıdır. Bu amillər bir-biri ilə əlaqəli ola bilər və tez-tez üst-üstə düşür. Ona görə də, bu amillər arasındakı fərqləri ayırmaq, məhsulun səmərəliliyini öyrənərkən onların hər birinin yerini müəyyən etmək vacibdir.

Məhsulun səmərəliliyinə təsir edən mühüm amil məhsulun keyfiyyətinin yaxşılaşdırılmasıdır. İstehsalın səmərəliliyinə təsir edən ən vacib amil istehsal xərcləri ilə müəyyən edilə bilər. Bir bazar iqtisadiyyatı şəraitində, istehsal indeksinin dəyərinin əhəmiyyəti və rolu kəskin şəkildə artır. İqtisadi və ictimai mövqelərdən, onun azalması aşağıdakılara imkan verir:

- genişləndirilmiş təkrar istehsalın mümkünlüyü;
- işçilərin maddi təşviqatını artırmaq və sosial problemləri həll etmək;
- müəssisənin maliyyə vəziyyətini yaxşılaşdırmaq;
- məhsulların qiymətlərini azaltmaq, rəqabət qabiliyyətini və satış həcmini artırmaq;
- səhmdar cəmiyyətlərində divident artırmaq və onların dərəcələrini artırmaq.

Malların istehsalı, bölüşdürülməsi və satışının səmərəliliyi çox elementlərdən və ya amillərdən ibarətdir, bunlar arasında aşağıdakılar əsasdır:

- elmi və texniki nailiyyətlər və yeniliklər;
- valyuta və maliyyə amilləri (valyuta məzənnəsi, maliyyə bazarlarının səmərəliliyi, vergi siyasəti və s.);
- əmək resursları (işçi qüvvəsinin xüsusiyyətləri);
- xarici iqtisadi amillər (gömrük siyasəti, müəssisələrdə istehsal miqyası, xarici iqtisadi siyasət və s.);
- institusional mühit (korrupsiya səviyyəsi, qeyri-rəsmi qurumların olması və s.);
- ictimai siyasət.

Kənd təsərrüfatında əmək məhsuldarlığının artırılması və istehsal vahidinə düşən xərclərin azaldılması üçün sənayenin elmi və texnoloji tərəqqi əsasında aparılması sisteminin təkmilləşdirilməsi yolu ilə həyata keçirilən genişləndirilmiş bərpanın əsas formasıdır. Ən əhəmiyyətli istiqamətlər bunlardır:

- intensiv, resurslara qənaət istehsal texnologiyalarının tətbiqi;
- heyvandarlıqda elmi əsaslı bitki rotasiyası və heyvandarlıq işlərinin inkişafı;
- mal-qara və quşçuluq məhsullarının yüksək məhsuldar cinslərinin istifadəsi;
- yemlik bazasının gücləndirilməsi və s.

İstehsalın iqtisadi səmərəliliyinin artırılması məsələsinin həllinin mürəkkəbliyi bu amillərin tam şəkildə təcrid olunmamasıdır. Qiymət balansının pozulması və inflyasiya nəticəsində yaranan kənd təsərrüfatı itkiləri, satış qiymətlərinin müvafiq artması və ya istehsal vasitələrinin qiymətinin artması ilə əlaqədar xərclərin ödənilməsinin digər formaları ilə kompensasiya edilməlidir.

Məmmədov Q.V.,
baş müəllim
Bakı Biznes Universiteti

KƏND TƏSƏRRÜFATINA GÖMRÜK SİYASƏTİNİN TƏSİRİNİN İNKİŞAF İSTİQAMƏTLƏRİ

Azərbaycanda gömrük orqanlarının səmərəli fəaliyyəti normativ hüquqi bazanın yaradılmasından və ölkənin beynəlxalq təşkilatlarda təmsil olunmasından xeyli dərəcədə asılıdır. Azərbaycanda gömrük sisteminin yaradılması və səmərəli fəaliyyət göstərməsi üçün «Gömrük Məcəlləsi» ilə bərabər bir sıra qanunlar və normativ- hüquqi aktlar qəbul edilmişdir. Gömrük komitəsi Ümumdünya Gömrük Təşkilatının üzvüdür. Ümumdünya Ticarət Təşkilatı (ÜTT) ilə əməkdaşlıq haqqında memorandum imzalamışdır. Gömrük sisteminin və qanunvericiliyinin təkmilləşdirilməsi Azərbaycanın ÜTT – nin tezliklə tam hüquqlu üzvü olacağndan xəbər verir. Hazırda dünya təsərrüfat əlaqələrinin inkişafının əsas cəhətini regional və beynəlxalq iqtisadi inteqrasiya birliklərinin yaranması və inkişafı təşkil edir ki, bu da nəticə etibarilə dünya qloballaşma prosesinin sürətlənməsinə təkan verir. Beynəlxalq ticarət ölkənin iqtisadi inkişafına mühüm təsir göstərir. Beynəlxalq xarici ticarətin nəzəri və sosioloji əsasını klassik iqtisadi nəzəriyyənin baniləri A.Smit və D.Rikardonun yaratdıqları nisbi üstünlük qanunu təşkil edir. Bu qanuna görə liberal xarici ticarət səmərəli beynəlxalq əmək bölgüsünü yaradaraq ticarət edən ölkələrə səmərə gətirir və bütünlüklə dünya təsərrüfat sistemində məhsul istehsalını artırır, beynəlxalq ixtisaslaşmanı dərinləşdirir. Qeyd edək ki, proteksionist siyasət total xarakter daşımamalı və uzunmüddətli olmamalıdır. Başqa sözlə, ölkənin iqtisadi təhlükəsizliyi baxımından xarici ticarət siyasəti aşağdakı prinsiplər əsasında qurulmalıdır: tədricilik; differensiallaşdırma və müddətlilik. Tədricilik prinsipi daha çox xarici ticarətin liberallaşdırılmasına tətbiq edilməlidir. Bu sahədə Azərbaycanda müəyyən işlər görülmüşdür. Ixrac gömrük vergiləri ləğv edilmiş, idxal vergilərinin isə səviyyəsi aşağı salınmışdır.

Iqtisadiyyatın hər hansı konkret sahəsində ölkədəki məşğul əhalinin iştirak payı yüksəkdirsə və əhalinin zəruri istehlak mallarında həmin sahənin məhsulları mühüm əhəmiyyət, habelə strateji əhəmiyyət daşıyarsa, onda həmin mallara proteksionist siyasət yeridilməlidir. Müddətlilik prinsipi dedikdə bu və ya digər məhsullara qarşı yürüdülən proteksionist siyasət uzun müddət olmamalı konkret müddət üçün nəzərdə tutulmalıdır. Bu müddətdə həmin sahələr yaradılan əlverişli şərait sayəsində rəqabət qabiliyyətli sahələrə çevrilməlidir. Daxili bazarda ilk növbədə bu məhsulların xarici rəqabətdən qorunması nəzərdə tutulmalıdır: taxıl və taxıl məhsulları; ət və ət məhsulları; süd və müd məhsulları; kartof; meyvə və giləmeyvələr; bitki yağ; şəkər və şəkər tozu (perspektivdə). Bu məhsulların daxili bazarda xarici rəqabətdən qorunması üçün müəyyən tədbirlər planı hazırlanmalıdır.

Ölkədə mövcud olan qeyri-tarazlı valyuta kursu aqrar bazarda daxili istehsal məhsullarının bahalaşmasına gətirərək onu xarici ölkələrdən idxal olunan məhsulların rəqabətindən qoruya bilmir. Valyuta siyasəti sahəsində Mərkəzi Bankın aqrar bazarın qorunması üzrə xüsusi konsepsiyası olmalıdır və bu istiqamətdə bəzi tədbirlərin işlənməsi aktual məsələ kimi qarşıda durur. Digər tərəfdən, ölkədə mövcud olan valyuta

kursunun qeyri-tarazlığ da proteksionit siyasətin həyata keçirilməsinə mane olur. Bununla əlaqədar, tarazlı valyuta kursunun müəyyən edilməsində əsas məqsəd idxal və ixrac əməliyyatlarından əldə edilən gəlirlərin tarazlığna nail olmaqdır. Tarazlı valyuta kursunu müəyyən etmək üçün aşağıdakı kimi münasibətdən istifadə olunur: əvvəlcə idxalın (IDXSƏM) və ixracın (IXRSƏM) səmərəlilik göstəriciləri hesablanır:

IDXSƏM = IDXDAX / k · IDXAR

IXRSƏM = k· IXRAC / IXRMD

Burada k-valyuta kursu, IXRAC – ixracın həcmi, dollarla; IXRMD-ixrac olunan məhsulun maya dəyəri, manatla; IDDAX – daxili bazar qiymətləri ilə idxal olunan məhsulların dəyəri, manatla; IDXAR –idxal olunan məhsulların həcmi, dollarla. Onda tarazlıq şərti aşağdakı kimi olar:

IDXSƏM = IXRSƏM

Burada tarazlı valyuta kursunun səviyyəsini müəyyən etmək olar:

$$kt = \sqrt{IXRMD \cdot IDXDAX / IXRAC \cdot IDXAR}$$

Hesablamalar göstərir ki, 2016-cı ildə manatın kursunun 1ABŞ dolları=1 man. 60 qəpik səviyyəsində olması idxal ixrac əməliyyatlarının yenidən tənzimlənməsini zəruri etmiş və bu qeyri-mütənasibliyi aradan qaldırmaq üçün tarazlı valyuta kursunu (kt) tətbiq etmək daha səmərəli ola bilər, tarazlı valyuta kursunun hesablanmasında aşağdakı kimi şərtlər qəbul edilmişdir:

A) Ixrac məhsullarının maya dəyəri (IXR.MD.) ümumi ixracdan ƏDV (18 faiz) və orta ticarət mənfəəti (TIC.MƏNF. = 10 faiz) çıxılmaqla müəyyən edilmişdir:

IXR.MD. = (1 – ƏDV(faiz) x TIC.MƏNF. (faiz) / 100) x IXRAC

B) eyni ilə idxalın daxili qiymətlərlə məbləği (IDXDAX) müəyyən edilmişdir.

IDX.DAX. = (1 – ƏDV (faiz) x TIC.MƏNF. (faiz) / 100) x IDXAL

Onda təqribi olaraq tarazlı valyuta kursu aşağdakı qiyməti alacaqdır:

$$kt = \sqrt{(10849{,}6 \cdot 6707688)/(2314{,}3 \cdot 1430{,}8)} = 6707{,}7\, manat$$

kənd təsərrüfatı məhsullarının idxal, ixrac və bu göstəricilərin yuxarıdakı törəmə parametrləri nəzərə alınmaqla tarazlı valyuta kursu ümumi xarici ticarət əməliyyatlarından kəskin fərqlənməlidir. Belə ki, aqrar bazarda ticarət mənfəətinin aşağı olması (5 faiz) və maya dəyərinin daha yüksək olması tarazlı valyuta kursunu 10000 manata yaxın səviyyədə qiymətləndirmək ehtimalı verir. Onda sahə xüsusiyyəti nəzərə alınmaqla orta tarazlı valyuta kursunu bu 2 qiymətləndirmənin ortası kimi qeyd etmək olar. Bu halda (6704,7+10000)/2=8353,8 manat və ya 8000 manat təşkil edir.

Bununla belə, tarazlı valyuta kursunu müəyyənləşdirən münasibətdə gömrük rüsumlarının təsiri nəzərə alınmamışdır. Tədqiqat işində gömrük rüsumları nəzərə alınmaqla təklif olunmuş tarazlı valyuta kursunun daha da detallaşdırılmış münasibəti ilə sübut olunmuşdur ki, gömrük rüsumlarının artımı daxili bazarın konyukuturuna o qədər güclü təsir göstərmir və o daxili istehsalın «yüngül» tənzimləyiciləri rolunda çıxış edə bilər. Bunu nəzərə alaraq Azərbaycanda daxili bazarı tənzimləyən gömrük rüsumlarını təklif etmək olar. Burada əsas məqsəd gömrük tariflərinin 1 faiz artımı büdcə gəlirlərinə, xammalı idxal edən istehsal sektorlarına və daxili bazardakı qiy-

mətlərə necə təsir göstərəcəkdir sualına cavab verməkdir. Bu təsiri tədqiq edək: QIY./QIYMƏT = ELAST (GÖMV/GÖM). Burada ELAST – gömrük rüsumunun dəyişməsi ilə daxili bazarda qiymətlərin dəyişməsinə təsirini göstərən elastiklik əmsalı: QIY. – daxili bazarda qiymətlərin artım tempi; QIYMƏT-daxili bazarda qiymətlər; GÖMV-gömrük rüsumunun artım tempi; GÖM.-gömrük rüsumu. Bu münasibətin sol tərəfində qiymətlərin artım tempi, sağ tərəfində rüsumların artım tempi əks olunmuşdur. Burada idxalatçı və ixracatçı sektorların xərclərinin strukturu və gömrük tarifləri eynidir. Hesablamalar göstərir ki, gömrük tariflərinin (idxal) 1 faiz dəyişməsi daxili qiymətləri 0,5 faiz artırır və bu artım bazarın konfukturuna o qədər böyük təsir göstərmir.

Beləliklə, tütün xammalına gömrük rüsumlarının 5 faiz artımı daxili bazarda tütün məmulatlarının qiymətlərinin 2,5 dəfə artımına gətirəcəkdir. Eyni ilə taxıl, ət, süd və s. xammal məhsullarına gömrük rüsumlarının 1 faiz artımı yeyinti sənayesində emal məhsullarının daxili bazarda qiymətlərinin 0,5 faiz artımına gətirməlidir. Buradan görünür ki, idxal vergilərinin artımı güclü inflyasiya törədici amil deyildir və onun daxili bazarın qorunması üçün daxili istehsal hesabına istehsal olunan analoji məhsulların idxalına artımı haqqında düşünmək olar. Fikrimizcə, gömrük rüsumlarının 10 faiz artımı daxili bazarda analoji məhsulların qiymətinin aşağdakı kimi artımına gətirməlidir:

DAX.QIY. = (1+GÖM(10 faiz) + GÖM(10 faiz)/100 faiz) D.

Burada DAX.QIY.-daxili bazarda qiymətin dəyişməsi; D-dünya qiymətləri ilə idxal məhsullarının vahidinin dəyəri, dollar; GÖM-gömrük rüsumunun faiz dərəcəsidir. Qeyd edək ki, bu münasibətdə rentabellik məsələləri nəzərə alınmır və yalnız qiymət amilinə əsasən hesablama həyata keçirilir. Azərbaycanda daxili bazarın qiymətləri ilə idxal məhsullarının qiymətləri arasındakı təhlili aparmaq üçün, bu amillər sırasına valyuta kursunu da daxil edək. Belə ki, burada valyuta kursunun daxili bazara dolayı təsiri hiss olunur və indiyə qədər bu iqtisadi paradoks milli iqtisadiyyatımızda müşahidə edilməmişdir. Belə ki, maliyyə böhranı şəraitində Rusiyada ixracat əməliyyatlarının rentabelliyi 10 dəfə artmış (valyuta kursu 3 rubl-1 ABŞ dolları səviyyəsindən 30 rubl = 1 ABŞ dolları) və Azərbaycana bu ölkədən mal ətinin ixrac qiymətləri sərt aşağ düşmüşdür. Lakin rublun inflyasiyası şəraitində Rusiyada aqrar sahənin dirçəlişi baş vermiş (idxal əməliyyatlarının rentabelliyinin dəfələrlə aşağı düşməsi hesabına) və ixracat əməliyyatlarında qiymətlər artmışdır.

Mal ətinin timsalında bu prosesin izlənməsinə təsir göstərən bir amil də Azərbaycanda mal ətinə tələbatın əhəmiyyətli hissəsinin daxili istehsal hesabına ödənilməsidir. Bu amil valyuta kursu, daxili və idxal qiymətləri arasındakı qarşılıqlı əlaqələrin real mənzərəsini aşkar etməyə imkan vermir. Quş əti timsalında prosesin dinamikasını təhlil edək. Statsitikaya əsasən 2006-2016-cı illərdə quş ətinin idxalının rentabelliyi orta hesabla 200 faizdən çox olmuşdur (daxili qiymətlərlə idxal qiymətlərin nisbəti). Bu onu təsdiq edir ki, Azərbaycanda quş əti istehsalının inkişafı gəlirli sahələrdən sayılır. Bu sahədə Mərdəkan, Buzovna, Siyəzən broyler fabrikləri müvəffəqiyyətlə fəaliyyət göstərir və artıq idxal məhsullarını ölkədən sıxışdırıb çıxarmışlar. Idxal olunmuş ərzaq məhsulları ilə daxili bazardakı qiymətlərin nisbətinin təhlili göstərir ki, bütün məhsullar üzrə daxili qiymətlər idxal qiymətlərindən orta hesabla 2 dəfədən çoxdur. Bu məhsullar üzrə idxal əməliyyatlarının rentabelliyinin yüksək olmasını göst-

tərir. Rentabelliyə görə birinci yeri – quş əti, ikinci-düyü, üçüncü – ət kolbasası, dördüncü-çay, beşinci-kartof, altıncı-kərə yağ, yeddinci-mal əti və səkkizinci yeri – buğda tutur.

Bunu nəzərə alaraq mal əti üzrə idxal rüsumlarını 15 faiz artırmaq olar. Bu zaman idxal məhsulunun gömrük dəyərinin düzgün müəyyən edilməsi üzərində sərt nəzarəti həyata keçirmək zəruridir. Quş əti üzrə nisbətin 4,5 olduğunu nəzərə alsaq bu məhsul üçün güclü proteksionist siyasəti həyata keçirmək imkanı yaranır: gömrük dəyərinin həddən artıq aşağı səviyyədə müəyyən edilməsi və bununla büdcəyə vergi daxilolmalarının azalması gömrük rüsumlarının 30 faiz artımına əsas verə bilər. Mal ətinə tələbatın böyük hissəsinin daxili istehsal hesabına ödənilməsi gömrük rüsumunun belə səviyyədə qaldırılmasına əsas verə bilər. Kartofun ucuz qiymətə idxalı ölkədə kartof istehsalının səmərəliliyini aşağı salır. Bunu nəzərə alaraq gömrük rüsumlarını 20 faiz qaldırmaq təklif olunur. Bu zaman daxili bazarda kartofun qiymətini dövlət ehtiyyatlarını formalaşdırmaqla tənzimləmək olar. Rüsumlar ölkə daxilində kartof istehsalını tələbat normasına qaldırandan sonra rüsumları aşağı salmaq və ya ləğv etmək olar. Eyni ilə digər ərzaq məhsulları üçün proteksionist siyasətin istiqamətlərini müəyyən etmək olar. Daxili bazar qiymətləri (DAX.QIY.) ilə idxal qiymətləri (IDX.QIY.) arasındakı nisbət təhlil edilən müddətdə orta hesabla 2,5 nisbətindədir: DAX.QIY.=2,5. IDX.QIY. Onda idxal rüsumlarının 10 faiz artımı aşağdakı təsirə malik olacaqdır:

$$DAX.QIY. = 2,5(IDX.QIY . 0,1+IDX.QIY.)$$

Beləliklə, idxal qiymətləri ilə (dünya qiymətlərinə yaxın) daxili qiymətlər arsındakı nisbəti müəyyən etməklə hər bir məhsul üçün gömrük rüsumlarının təqribi də olsa yuxarı həddini təyin etmək olar. Bu milli ərzaq bazarını xarici ölkələrdən idxal olunan məhsulların rəqabətindən qorumaq imkanı verir və daxili istehsalı stimullaş-dırır. Kənd təsərrüfatı məhsulları istehsalının daxili bazarını qorumaq üçün tarazlı valyuta kursu siyasətinin həyata keçirilməsi zəruridir. Tarazlı valyuta kursu siyasəti və onun əsasında optimal idxal rüsumlarının müəyyən edilməsi daxili ərzaq bazarının qorunmasının yeni aləti kimi Azərbaycanda tətbiq olunarsa aqrar sahənin inkişafı üçün əhəmiyyətli rol oynaya bilər.

Kazımova E.R.,
baş müəllim
Azərbaycan Universiteti

AZƏRBAYCANDA SIĞORTA MƏDƏNİYYƏTİ: REAL VƏ VİRTUAL PROBLEMLƏR

Rahat yaşamaq, nəinki özünün deyil, hətta bütün cəmiyyət üzvlərinin rifahı üçün riskləri zəmanət altına almaq isə sığorta mədəniyyəti kimi hələ yüz illər öncəsindən formalaşmağa başlamışdır.Yəni mədəniyyət deyəndə, sadəcə, bir sahədəki inkişaf başa düşülməməlidər, çünki mədəniyyət həm də həyatımızın bütün sahələrində müşahidə olunan və ictimai rifahın formalaşmasına imkan verən, bütün sahələrdə əldə olunan nailiyyətlərdir. İnsanlar öz asudə vaxtlarını qiymətləndirir və turizm səfərlərinə yolla-

nır, yaxud boş vaxtlarının bir hissəsini təbiətə ayırır, səhhətlərində hər hansı kiçik problem yarandıqda dərhal həkimə müraciət edir, alınmış kredit vəsaitlərinin vaxtında geri qaytarır, habelə özünün həyatını, əmlakını, mülki məsuliyyətini vaxtında sığortalayır və son nəticədə, bütün cəmiyyətə və elə özünə də faydalı olur.

Ona görə də sığorta olunmaq mühüm tələbatlardan biridir və onun cəmiyyətdə yayılaraq inkişaf etməsi müəyyən təkamül mərhələsindən keçərək, həlli bu gün vacib olan məsələlər sırasına daxil olmuşdur. Risklərə qarşı etibarlı sığorta fondu yaradıb onun zəmanəti içində rahat yaşamaq, digər təxirəsalınmaz işlər kimi sığorta olunmağa da çox ciddi münasibət göstərmək günümüzün mədəni normaları arasında özünə yer tutmaqdadır. Müasir dövrümüzdə ailə büdcəsinə nəzarət, gəlir və xərclərin düzgün idarə olunması, sığorta savadlılığının artırılması istiqamətində insanların maarifləndirilməsinə çalışılır. Məqsəd nədir ? Cəmiyyətdə iqtisadi inkişaf sürətləndikcə, insanlar öz büdcələrinə nəzarət edə bilsinlər, başqa sözlə, həm özlərinin, həm də ailələrinin iqtisadi təhlükəsizliyi təmin etsinlər. Bununla yanaşı, insanların gözlənilməz, təsadüfi hadisələr zamanı üzləşdiyi maddi itkilər o qədər çox ola bilər ki, bu zaman uzun illər ərzində qənaətlə toplanmış bütün vəsaitlər bir an içərisində yox ola bilər. Başqa sözlə, vaxtında sığortalanmayan daşınmaz əmlak, avtomobil və ya hər hansı fəaliyyət riskli bir hadisə ilə üzləşərkən dəymiş zərərlər insanların maddi vəziyyətini ağırlaşdırar, onları çıxılmaz vəziyyətə sala bilər. Ona görə də sığorta olunmağa ciddi münasibət bəslənilməsi adamların başına gələ biləcək riskli hadisələrin ağır nəticələrindən qorunması deməkdir ki, bu da sığorta mədəniyyətinin mühüm hissəsidir.

Sığorta mədəniyyəti iqtisadi mədəniyyətin bir qoludur. Burada əsas məsələ insanların mədəniyyətin bu növünə nə qədər bələd olması, bu mədəniyyət sahəsindən nə dərəcə istifadə etməsi, bu mədəniyyət növünə olan münasibət, inkişaf və sairdir. Azərbaycanda "sığorta" və "sığorta mədəniyyəti" anlayışı az inkişaf edib. Elə ölkələr var ki, əhali baxımından Azərbaycan əhalisindən 2 dəfə azdır, lakin həmin ölkələrin sığorta mədəniyyəti lazimi dərəcədə inkişaf edərək maksimum həddə çatmışdır. Təcrübə göstərir ki, İEOÖ müqayisədə, İnkişaf Etmiş Ölkələrdə mədəniy-yətin səviyyəsi daha yüksəkdir, həmçinin, "sığorta və sığorta mədəniyyəti" İEÖ-də geniş inkişaf edib. Bu təcrübəyə Azərbaycan sferasından yanaşsaq görərik ki, həcmcə böyük və elm mərkəzləri olan şəhərlərimizlə müqayisədə paytaxtdan uzaq rayonlarda, əsasən də dağlıq ərazilərdə "sığorta" və "sığorta mədəniyyəti" olduqca az inkişaf edib. Bunun ən əsas iki səbəbi vardır: onlardan birincisi, insanlar sığorta şirkətlərinə inanmır,ikincisi isə onlarda sığorta haqqında heç bir məlumatı yoxdur.

Müqayisədə birinci səbəb daha geniş kütləni əhatə edir ki, insanların sığorta şirkətlərinə inamı ya azdır, ya da yoxdur, hətta o dərəcədədir ki, sığorta şirkətlərinə banklardan da az güvənirlər. Zənnimcə, bu vəziyyətin əsas iki səbəbi var: birinci səbəb insanlara sığorta haqqında məlumat verilmir (yaxud az məlumat verilir), ikinci səbəb isə yalnış məlumat verilir.Çünki bunun özü də bir faktdır ki,Azərbaycanda icbari sığorta növü olmasaydı ,ölkədə sığorta və sığorta şirkətlərinin fəaliyyəti olduqca zəif olardı.

Sığorta mahiyyət etibarı ilə həm sığortaçı, həm də sığorta olunan üçün sərfəli və əlverişli metoddur. Sığorta olunan qazancından kiçik məbləğ ödəməklə gələcəkdə qarşılaşa biləcək ziyanın ödənilməsini təmin edir. Sığortaçı isə bütün riskləri təhlil edərək həm sığortaolunanın, həm də özünün (şirkətin) maraqlarını qoruyur. Düzdür, həyatın yaşam sığortası istisna olunmaqla sığortaolunan sığortaya qazanc məqsədi kimi baxmamalıdır .Burada sığortaolunanaın xeyiri, onun üçün yarana biləcək bədbəxt hadisələr nəticəsində dəymiş ziyanın ödənilməsinin təmin olunmasıdır. Təəssüflər

olsun ki, bir çox səbəblər ucbatından "sığorta" və "sığorta" mədəniyyəti cəmiyyətə düzgün və ya tam çatdırılmadığından insanların əksəriyyəti könüllü surətdə sığorta olunmaqdan qaçırlar. Bu hər iki tərəf üçün xeyirlə nəticələnməyən haldır. Çünki, belə vəziyyətdə sığortaçı qazanc götürə bilmir, sığortaolunan isə itkilərlə üzləşəndə olduqca çətin duruma düşür. Belə halların qismən və tamam aradan qaldırılması üçün hər iki tərəfin bu işdə marağı olmalıdır.

Əgər valideyn kimi övladlarımızı, övlad kimi valideynlərimizi, ailəmizi və bizə yaxın digər şəxsləri düşünsək, özümüzü sığorta etdirməyimizin nə dərcədə əhəmiyyətli olmasını yaxşı başa düşərik. Dünya əhalisinin necə də sığorta mədəniyyətinə sahiblənməsini, sığortalanmış gələcəyini görmək üçün bir faktı diqqətinizə çatdıraq. Qərbi Avropada, eləcə də ABŞ-da yaşayan əhalinin 80%-dən çoxu həyatını sıortalayıb. Bu göstərici mövcud olan bazarın 60-70%-ni təşkil edir. Həmin ölkələrdə həyat sığortasının bu qədər yüksək həddə olması orada yaşayan insanların "sığorta və sığorta mədəniyyəti"nə yüksək səviyyədə nail olmasından irəli gəlir.

Cəmiyyətdə sığorta mədəniyyətinin formalaşması bir sıra amillərdən asılıdır:

1. Sığorta fəaliyyətini təşkil edən müxtəlif təşkilatlarin, qurumlarin və siğorta olunmağa maraqli olan şəxslərin qarşiliqli etibarli əməkdaşliği ;
2. Sığorta işinin təşkilində yüksək xidmət mədəniyyətinin yaradilmasi;
3. Sığortaolunanlarla siğortaçi arasinda təşkilati məsələlərin həlli;
4. Öhdəliklərin qanunvericiliklə müəyyən olunmuş qaydada içrasi;
5. Sığorta işinin təşkili və aparilmasi zamani lazimi sənədləşmənin yerinə yetirilməsi və onun yüksək səviyyədə təşkili ;
6. Baş vermiş siğorta hadisəsinin vaxtinda və keyfiyyətlə araşdirilmasi;
7. Müqavilənin şərtlərinə uyğun siğorta ödənişlərinin verilməsi .

Bütün bu amillərin mövcudluğu sığortaçı şirkət ən yaxşı reklamdır. Eyni ilə sığortaolunanlar öz maraqlarını bildikləri kimi, dövlətin də qanunlarına ciddi yanaşmalıdırlar.

Deməli, sığortanın uğurunu təmin etmək yalnız dövlətin və ya bir təşkilatın üzərinə düşən iş deyil, eyni zamanda bütün vətəndaşların, sığorta oluna biləcək fiziki və hüquqi şəxslərin, bir sözlə, öz həyatını, əmlakını, mülki məsuliyyətini sığorta edən hər bir kəsin qayğısına çevrilməlidir. Bundan əlavə, cəmiyyətdə sığorta mədəniyyətinin yüksəldilməsi elm və ali təhsil müəssisələrinin, gündəlik mətbuatın da vəzifəsinə çevrilməli, hamı bu işin mütəşəkkilliyinə çalışmalıdır. Belə ki, sığorta hadisəsi baş verdikdə alınan sığorta ödənişləri çətin vəziyyətdə olan şəxslərə nə dərəcədə həyati vacibdirsə, sığorta olunmağa da ciddi yanaşaraq burada möhkəm fond yaratmaq da o dərəcədə təxirəsalınmaz və həyatidir. Çünki bədbəxt hadisənin nə vaxt gələcəyini heç kim qabaqcadan deyə bilməz. Bunun nəticələrinə biz yalnız öz mütəşəkkilliyimizlə hazırlıqlı ola bilər, özümüzün və ətrafdakı insanların gələcək normal həyatını təmin edə bilərik. Bu, hər kəsin qarşısında duran ən zəruri sığorta mədəniyyətidir.

Son illərdə Azərbaycanın sığorta sektorunda ən çox səslənən ifadələrdən biri olan «Sığorta mədəniyyəti» ifadəsi bir çox fərqli mənalarda istifadə olunur. «Sığorta mədəniyyəti» dedikdə isə çox zaman əhalinin sığorta sahəsindəki təhsili, məlumatlılığı və biliyi başa düşülür. Lakin sığorta mədəniyyətinə yalnız əhalinin yox, eyni zamanda sığorta bazarının bütün iştirakçılarının, o cümlədən sığorta şirkətlərinin, sığorta vasitəçilərinin, agentlərin, hətta sığorta sahəsində fəaliyyət göstərən köməkçi qurumların sığorta sahəsindəki bilikləri, təhsili, peşəkarlığı, davranış normaları aid edilməlidir. Bu sahədə:

Real problemlər

Sığorta sahəsində əhalinin maarifləndirilməsidir. Lakin təəssüflər olsun ki, Azərbaycanda hələ də sığorta mədəniyyəti istənilən səviyyədə inkişaf etməyib. Bu, bir növ sığorta şirkətləri tərəfindən aparılan maarifləndirmə işlərinin zəif olması, digər tərəfdən isə sığorta hadisəsi zamanı sığortaçının sığortalıya ödəməli olduğu vəsaitdən xırda səbəblərə görə imtina etməsi ilə bağlıdır. Bu halda vətəndaşların sığorta şirkətlərinə olan inamı bir qədər də zəifləyir.Sığorta şirkətləri tərəfindən toplanan məcmu haqların strukturuna nəzər salsaq, görərik ki, daxilolmaların strukturunda ən çox sığorta haqqı «Tibbi sığorta», «Hava nəqliyyatı vasitələrinin sığortası», «Avtonəqliyyat vasitələrinin sığortası» və «Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası» növləri üzrə toplanıb ki, bu növlərin könüllü qaydada sığortalanmaq istəyən vətəndaşlara heç bir aidiyyəti yoxdur. «Tibbi sığorta» növü ölkədə fəaliyyət göstərən xarici şirkətlər və yerli təşkilatlarda çalışan işçilərin həmin qurumlar tərəfindən sığortalanması hesabına həyata keçirilib. Yəni, fərdi qaydada çox az adam tapmaq olar ki, özünü könüllü tibbi sığortalasın. Həmçinin, «Hava nəqliyyatı vasitələrinin sığortası» və «Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası» növlərinin də sıravi vətəndaşlarla heç bir əlaqəsi yoxdur. «Avtonəqliyyat vasitələrinin sığortası» növünə gəldikdə, vətəndaşların kreditə götürdüyü avtomobillərin banklar tərəfindən məcburi qaydada sığortalanması məsələsi üzə çıxır. Ümumilikdə belə nəticəyə gəlmək olar ki, yuxarıda adları çəkilən sığorta növlərini kütləvi təbəqəyə aid etmək olmur. Çünki ölkədə fəaliyyət göstərən sığorta şirkətlərinin bir çoxu bir holdinqin tərkibinə daxildir. Həmin sığorta şirkətləri holdinqin tərkibində olan şirkətlərin avtomobillərini, işçilərini və digər obyektlərini sığortalamaqla kifayətlənirlər. İl ərzində həmin qurumlardan toplanan daxilolmalar sığorta şirkətini qane edir. Bu baxımdan əhalinin maarifləndirməsi məsələsi sığorta şirkətlərinin o qədər də marağında olmur. Azərbaycanda fəaliyyət göstərən bir neçə sığorta şirkəti istisna olmaqla, (məsələn "Paşa sığorta") qalan şirkətlərdə əhalinin sığorta sahəsində maarifləndirmə işləri ümumiyyətlə həyata keçirilmir. Həmin şirkətlər tərəfindən çap olunan broşürlara yalnız şirkətlərin ofislərində və ya bu sahə ilə bağlı müvafiq sərgilərdə rast gəlmək olar. Təəssüflər olsun ki, həmin broşülarda da yalnız şirkətin fəaliyyət sahəsi, tarixi və sığorta məhsulları göstərilir. Konkret olaraq broşürlarda sığorta nədir, sığortanın əsas məqsədi kimi sualların cavabları qeyd olunmur.

Virtual problemlər

Söhbət sığorta şirkətlərinin veb saytlarından və həmin rəsmi saytlarda internet oxucuları üçün nəzərdə tutulan maarifləndirmə bölmələrindən gedəcək. Məlumat üçün qeyd edək ki, Azərbaycanda fəaliyyət göstərən sığorta şirkətlərinin əksəriyyətində rəsmi internet saytı yoxdur, lakin bəzi şirkətlərin saytlarında isə həqiqətən maarifləndirici materiallar, terminoloji lüğətlər, sığorta növlərinin ətraflı təfsilatı, həmçinin sığorta ilə bağlı qanunvericilik bazası da yerləşdirilib.Odur ki, maarifləndirmə sahəsində sığorta şirkətləri vətəndaşlarla daimi və müntəzəm iş aparmalıdır. Potensial sığortalılara sığortanın nə olduğunu və üstünlüklərini izah etmək lazımdır. Bu gün sığortanın təbliğatı ilə bağlı yanlış metodlar seçilir. Məsələn, öz yeni və mürəkkəb sığorta məhsullarını təklif edən sığorta şirkətləri müştərilərə ilk növbədə sığortanın zəruriliyini və sığorta məhsulunun ona verəcəyi faydaları anlatmalıdır. Əks təqdirdə, bu şəkildə aparılan reklam kampaniyaları istənilən nəticəni verməyəcək.

İsgəndərova M., doktorant
Azərbaycan Kooperasiya Universiteti

KİÇİK VƏ ORTA SAHİBKARLIQ FƏALİYYƏTİNDƏ MALİYYƏ VƏZİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Müasir iqtisadi kiçik və orta sahibkarlıqda maliyyə vəziyyətini müəyyən edən maliyyə indikatorları və parametrlərin sayı çox böyükdür. Baş verən maliyyə-iqtisadi hadisə bu və ya digər dərəcədə mürəkkəb hesablamalar tələb etməyən maliyyə parametri ilə qiymətləndirilir və alınan nəticəni düzgün qiymətləndirməyi başa düşmək və maliyyə vəziyyətinin digər müxtəlif indikatorları ilə birləşdirməyi tələb edir. Məlumdur ki, maliyyənin idarə edilməsi nöqteyi-nəzərindən, müəssisənin orta və kiçik müəssisə dərəcəsinə aid edilməsində əsas kriteriya dövriyyə həcmi və məşğulluq sayı deyil, kapitalın miqdarı olmalıdır.

Mövcud kreditlərin yüksək dəyərini nəzərə alaraq və müəssisənin riskli maliyyə vəziyyəti nətıcəsində kiçik və orta biznesin maliyyə və pul bazarlarına daxil olması çox mürəkkəbdir. Buradan bankların kiçik kreditləri, xüsusi vəsaitləri və kapitalın "qeyri-formal" bazarı hesabına kiçik müəssisələrin ilkin maliyyələşməsi mümkündür. Sahibkar biznesə sərmayə qoymağa razı olmadıqda, müəssisənin əlavə gəlir əldə etməyi məhdudlaşdırılır. Nəticədə kiçik və orta biznes ilk mərhələlərdə təzadlıq təşkil edir: çox böyük risklə çox az gəlirliyin vəhdəti.

Qeyd edək ki, kiçik və orta biznesin maliyyələşməsində üstünlük təşkil edən xüsusi maliyyə mənbələri sahibkarların vəsaitləri və bölünməyən gəlirlər təşkil edir. Bu zaman bölünməyən gəlir əsasən əməliyyat fəaliyyəti hesabına formalaşır. Əsas borc mənbələri mal, iş, xidmət və əmək ödənişləri ilə bağlı olan hesablaşmalar üzrə öhdəliklərə görə kredit borclarının əsas əhəmiyyət kəsb etdiyi qısamüddətli öhdəliklərdir.

Kapitalın çatışmamazlığı kiçik və orta biznes sahiblərinin qarşılaşdığı ən böyük problemdir.

Təcrübə göstərir ki, müəssisənin həcminin böyüməsi zamanı xarici maliyyələşmənin cəlb edilməsi ehtimalı artır və bunun nəticəsi kimi daxili və xarici maliyyələşmə mənbələrinin nisbəti də dəyişir.

Müəssisələrdə ehtiyyatların məhdudluğu və qeyri-stabilliyi orta və kiçik müəssisə aktivlərinin spesifik strukturunu şərtləndirir, burada daşınmaz əmlak payı minimal olmaqla, dövriyyə aktivləri üçün istifadədə qənaət funksiyasını səciyyələndirir.

İşçi kapitalının hesablanmasında kiçik və orta müəssisələrdə daimi mənbə olan qısamüddətli kreditor borclarının vacib olduğuna diqqət yetirmək lazımdır. Buradan: işçi kapitalının müəyyən edilməsi üçün cari aktivlərdən qısamüddətli kreditor borclarını çıxmaq lazım gəlməməsini əhatə edən məntiqi nəticə çıxartmaq olar.

Bir qayda olaraq, kiçik müəssisələr dövr etməyən aktivlər üzrə az hissəyə malik olduğundan, onların fəaliyyətinin idarəedilməsi fondverimin lazımi səviyyəsini dəstəkləməyə yaxınlaşır.

Kiçik və orta muəssisələrin daha bir xüsusiyyəti də budur ki, onların dövriyyədən kənar cüzi hissəsi daimi aşağı xərciərinin olmasını şərtiəndirir.

Beləliklə, kiçik biznes müəssisəsinin maliyyə təhlilinin metodologiyasının təkmilləşdirilməsi sahibkarlara cari maliyyə vəziyyətinin təhlilini aparmağa, fəaliyyəti planlaşdırmağa, maliyyə böhranının qarşısını almağa və sonrakı inkişafı müəyyən etməyə imkan verə, bütünlükdə idarəetmənin effektivliyini artıra və xarici maliyyələşmə mənbələrinin çatışmamazlığı və imkansızlığı probleminin həllinə kömək edə bilər.

Kiçik və orta müəssisənin sahibləri və sahibkarlar – fiziki şəxslər maliyyənin idarə edilməsi, maliyyə menecmenti alətlərinin istifadə edilməsi, kontrollinq, idarəetmə uçotu və s. üzrə zəruri bilik və bacarıqların alınmasında maraqlıdırlar. Bu təhsil xidmətiəri bazarında sahibkarlar üçün məhz kiçik və orta biznes spesifikasına yönləndirilmiş biznes-treninqlərin olmaması ilə bağlıdır.

Kiçik və orta sahibkarlıqda müəssisələrin maliyyənin idarə edilməsi daha çox yayılmış metodlarına maliyyə planlaşmasının, maliyyə uçotunun, malıyyə təhlilinin, maliyyə nəzarətinin həyata keçirilməsi aiddir. Bu metodların istifadəsi yalnız cəm halda effektiv nəticə verir. Maliyyə təhlilinin həyata keçməsi üçün mühasibat uçotunun məlumatlarından istifadə edilir. Müvafiq olaraq, qeyri-mükəmməl uçot sistemində təsərrüfat fəaliyyətinin həyata keçməsi çətinləşir və ya ümumiyyətlə mümkün olmur.

Maliyyənin idarə edilməsi üçün mühasibat uçotunun məlumatları olduğundan, onun doğruluğu və dəqiqliyi barədə danışmaq məqsədəuyğundur. Buna görə də, icbari auditlə bağlı sualların yaranması qaçılmazdır.

Bazar münasibətlərinin əsasını təşkil edən sahibkarlıq fəaliyyəti öz inkişafında bir sıra təzahür formalarını meydana çıxarır. Sahibkarlıq fəaliyyəti hər cür işgüzarlıq qabiliyyətinə malik olan müxtəlif təsərrüfat subyektlərinin məqsəd və mənafelərini ifadə edir. Yuxarıda qeyd etdiyimiz kimi, sahibkarlıq məhdud resurslardan səmərəli istifadə etməklə məhsul istehsalı və digər fəaliyyət növləri ilə məşğul olan, yenilik yaradan, risk etmək imkanına malik olan xüsusi qabiliyyət formasıdır. Belə bir qabiliyyətə və yaradıcılığa bütün şəxslər və təsərrüfat subyektləri eyni vaxtda malik ola bilməzlər. Bu məqsədlə Y.Şumpeter göstərir ki, sahibkarlıq fəaliyyəti yeni keyfiyyətli nemətin yaradılması, yeni istehsal metodlarının və kombinasiyaların tətbiqi, yeni xammal və yanmfabrikat mənbələrinin əldə olunması qabiliyyətinə malik olan insanların fəaliyyətidir.

Quluzadə E.M., müəllim
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)

ƏMTƏƏ VƏ PUL KÜTLƏSİNİN TARAZLIQ MODELİ HAQQINDA

İqtisadiyyatda əmməə-pul münasibətlərinin qarşılıqlı əlaqəsinin müəyyən olunması üçün iqtisadçılar uzun zamandan bəri çalışmaqdadırlar. İqtisadçıları düşündürən məsələlərdən biridə dövriyyəyə lazım olan pul kütləsinin həcminin müəyyən olunmasıdır. Bu məsləyə aydınlıq gətirmək üçün pul-əmtəə münasibətlərinin riyazi qanunauyğunluğu haqqında intuitiv mühakimələrlə əsaslanaraq müəyyən nəticələr ala bilərik.

Tutaq ki, $u(t)$, t -anında dövriyyədə olan əmtəə kütləsinin dəyəri, $M_0(t)$ isə t -anında dövriyyədə olan nəğd pulun miqdarıdır. Onda aydındır ki,

$$u(t) = kM_0(t) \tag{1}$$

münasibəti doğrudur. Burada, $V_0 = k$ -mütənasiblik əmsalıdır və dövriyyə qanununa görə tədavül sürətini xarakterizə edir.

Aydındır ki, vahid zaman müddətində əmtəənin müəyyən hissəsi pula çevrilir. Pula çevrilən hissəni $S(t)$ kəsr hissəsi ilə işarə edək. Onda dt zaman müddətində pulun miqdarı $S(t)dt$ olar və onun ümumi miqdarı isə $u(t)S(t)dt$ olacaqdır. Bu mülahizələri nəzərə alsaq aşağıdakı bərabərliyi alarıq.

$$u(t)S(t)dt = dM_0(t) \tag{2}$$

(1) münasibətini (2)-də nəzərə alsaq aşağıdakını alarıq.

$$M_0(t) = M_0 e^{kp(t)} \tag{3}$$

Burada, $p(t) = \int_{t_0}^{t} S(x)dx$ və M_0 isə başlanğıc anda dövriyyədə olan nəğd pulun miqdarıdır.

Eyni qayda ilə geniş pul kütləsi üzrə də eyni mühakimə apararaq oxşar tənliyi yaza bilərik.

$$M_2(t) = M_2 e^{Kp(t)} \tag{4}$$

Burada, K -mütənasiblik əmsalıdır və geniş pul kütləsi üzrə dövriyyə sürətini göstərir.

Deməli, pul kütləsinin dövriyyədə tələbatı hər zaman anında eksponensial funksiya şəklindədir. Buradan nəğd və geniş pul kütləsinin nisbətini aydınlaşdırmaq mümkündür.

$$\frac{M_0(t)}{M_2(t)} = \frac{M_0}{M_2} e^{(k-K)\int_{t_0}^{t} S(x)dx} \tag{5}$$

Cari dövr üçün nəğd pul kütləsinin geniş pul kütləsində xüsusi çəkisi (5) düsturu ilə oriyentasiya oluna bilər.

Bu münasibətlə yanaşı tədavül qanunundan istifadə etməklə qiymət səviyyəsi, valyuta kursu və ümumi pul kütləsinin qarşılıqlı əlaqəsini yaradan tarazlıq tənliyini çıxarmaq olar. Qiymət səviyyəsinin, valyuta kursunun və ümumi pul kütləsinin tarazlığı məsələsi bütün dünya ölkələrinin iqtisadiyyatında tez-tez rast gəlinən məsələlərdəndir. Belə bir məsələnin həll olunması maliyyə stabilliyi üçün əsas şərtlərdən biri hesab olunmaqla iqtisadiyyatın davamlı inkişafına zəmin yarada bilər. Deməli, bu üç

amil arasında qarşılıqlı tarazlığa nail olunması iqtisadiyyatın vacib məsələlərindən biridir. Buradada istər-istəməz pula tələb və təklifin tarazlığı məsələsi ortaya çıxır. Məlum mübadilə tənliyini

$$M = \frac{PY}{V(i)} \tag{6}$$

nəzərə almaqla aşağıdakı kimi tarazlıq tənliyini məqsəd funksiyası kimi yazmaq olar [1].

Burada, M -pul kütləsini, PY -ümumi əmtəə kütləsini, $V(i)$-isə faiz dərəcəsinin artan funksiyası kimi təqdim edilən tədavül sürətidir.

$$M^D = \frac{PY}{V(i)} = M^S \tag{7}$$

Burada, M^D-pula tələbi, M^S -isə pul təklifini göstərir.

Tarazlıq tənliyini almaq üçün paritet alıcılıq qabiliyyətini tənliyini [2]

$$P = EP^* \tag{8}$$

və arbitraj tənliyini yaza bilərik.

$$(1+i)E = (1+i^*)E_{+1} \tag{9}$$

Burada, P-daxili qiymət səviyyəsini, P*-xarici qiymət səviyyəsini, i-daxili faiz dərəcəsini i*-xarici qiymət səviyyəsini, E-cari valyuta kursunu, E_{+1}-növbəti valyuta kursunu göstərir [2].

(8) tənliyini (6)-da nəzərə alsaq görərik:

$$MV(i) = EP^*Y \tag{10}$$

(10)-tənliyindən $M = \frac{EP^*Y}{V(i)}$ və ya $E = \frac{MV(i^*)}{P^*Y}$ kimi münasibətləri ala bilərik.

Buradan, pul təklifinin nisbi artım düsturunu aşağıdakı kimi yaza bilərik.

$$\frac{dM}{M} = \frac{dE}{E} + \frac{dP^*}{P^*} + \frac{dY}{Y} - \frac{dV(i^*)}{V(i^*)} \tag{11}$$

Burada aşağıdakı hallar ola bilər.

1) Əgər ölkədə fiks valyuta kursu həyata keçirilərsə, yəni

$$\frac{dM}{M} = \frac{dY}{Y} - \frac{dV(i*)}{V(i*)} \tag{12}$$

alarıq.

Bu münasibət göstəriri ki, fiks valyuta kursu siyasəti həyata keçirilən zaman pul kütləsinin nisbi dəyişməsi ÜDM-nin nisbi dəyişməsindən düz mütənasib qaydada və pulun tədavül sürətinin nisbi dəyişməsindən isə tərs mütənasib qaydada birbaşa asılılıqdadır.

2) Əgər ölkədə üzən valyuta kursu siyasəti hökmran olarsa, onda pul təklifi istehsalın artmasına müsbət təsir göstərməklə yanaşı valyuta kursunun qalxmasına da təsir edir. Üzən valyuta kursu zamanı M-ekzogen, E-endogen kəmiyyət kimi çıxış edir.

Mərdanov M.C., Məlikov T.Q., Hacıyeva G.V.
AMEA-nın Riyaziyyat və Mexanika İnstitutu

GECİKMƏYƏ MALİK VARİASİYA MƏSƏLƏSİNDƏ GÜCLÜ EKSTREMUM ÜÇÜN ZƏRURİ ŞƏRTLƏR

Məqalədə aşağıdakı variasiya məsələsinə baxılır:

$$J(x(\cdot) = \int_{t_0}^{t_1} L(t, x(t), \dot{x}(t), x(t-h), \dot{x}(t-h))dt \to \min_{x(\cdot)}, \tag{1}$$

$$x(t) = \varphi(t), t \in [t_0 - h, t_0], x(t_1) = x^* \in R^n, \tag{2}$$

burada $R^n - n$ ölçülü Evklid fəzasıdır, $h = const > 0$, $t_1 - t_0 > h$, $x(t) \in \mathrm{KC}^1([t_0 - h., t_1], R^n)$, $\varphi(t) \in C^1([t_0 - h, t_0])$ və $f(t, x, \dot{x}, z, \dot{z}) : [t_0 - h, t_0] \times R^n \times R^n \times R^n \times R^n \to R$ kəsilməz funksiyadır; $KC^1(\cdot)$ kəsilməz və hissə-hissə kəsilməz diferensiallanan funksiyalar fəzasını göstərir.

(2) şərtini ödəyən və $KC^1([t_0 - h, t_1], R^n)$ fəzasının elementi olan hər bir $x(\cdot)$ funksiyasına mümkün funksiya deyəcəyik.

Tərif. Əgər elə $\varepsilon > 0$ ədədi varsa ki, $\|x(\cdot) - \bar{x}(\cdot)\|_{C([t_0, t_1], R^n)} < \varepsilon$ şərtini ödəyən bütün $x(\cdot)$ mümkün funksiyaları üçün $J(x(\cdot)) \geq J(\bar{x}(\cdot))$ bərabərsizliyi doğrudursa, onda deyirlər ki, $\bar{x}(\cdot)$ mümkün funksiyası (1) funksionalına güclü lokal minimum qiymət verir.

Məqalədə aşağıdakı teorem isbat edilmişdir.

Teorem. Tutaq ki, $\bar{x}(t)$ mümkün funksiyası (1), (2) məsələsində (1) funksionalına güclü lokal minimum qiymət verir. Onda aşağıdakı bərabərsizlik doğrudur.

$$L(t, \bar{x}(t), \dot{\bar{x}}(t), \bar{x}(t-h), \dot{\bar{x}}(t-h) \leq \alpha\Big[L(t, \bar{x}(t), \dot{\bar{x}}(t+\xi), \bar{x}(t-h), \dot{\bar{x}}(t-h)) +$$
$$+ \chi(t) L(t+h, \bar{x}(t+h), \dot{\bar{x}}(t+h), \bar{x}(t), \dot{\bar{x}}(t) + \xi\Big] +$$

$$+(1-\alpha)\left[L(t,\bar{x}(t),\dot{\bar{x}}(t)-\frac{\alpha}{1-\alpha}\xi,\bar{x}(t-h),\dot{\bar{x}}(t-h))+\right. \tag{3}$$

$$\left.+\chi(t)L(t+h,\bar{x}(t+h),\dot{\bar{x}}(t+h),\bar{x}(t),\dot{\bar{x}}(t)-\frac{\alpha}{1-\alpha}\xi)\right],$$

$$\forall\xi\in R^n,\ \forall\alpha\in(0,1)\ \text{s.b.}\ t\in[t_0,t_1],$$

burada $\chi(\cdot)$ funksiyası $[t_0,t_1-h]$ parçasının xarakteristik funksiyasıdır.

Qeyd edək ki, əgər əlavə olaraq $L_{\dot{x}}(\cdot)$ və $L_{\dot{z}}(\cdot)$ törəmə funksiyaları kəsilməz olarsa, onda (3) şərtindən nəticə olaraq Veyerştras tipli zəruri şərt almaq olar. Həmçinin qeyd edək ki, (1) funksionalı yüksək tərtib törəmələrdən asılı olduqda (gecikən arqumentlə) Eyler tənliyinin analoqu Q.A.Kamenskiy tərəfindən alınıb (bax Л.С. Гноенский, Г.А.Каменский, Л.Э. Эльсгольц "Математические основы теории управляемых систем, М. Наука 1969, стр. 391-398).

Hüseynov H.M., Nəbiyev İ.M., Orucov E.Q.
Bakı Dövlət Universiteti,
AMEA-nın Riyaziyyat və Mexanika İnstitutu

İQTİSADİ TƏDQİQATLARDA ARTIM ƏYRİLƏRİ HAQQINDA

Müasir dövrdə iqtisadi təhlillərdə geniş istifadə olunan artım əyriləri polinomial, eksponensial və S şəkilli əyrilərdir. Polinomial artım əyriləri

$$y_t=a_0+a_1t+a_2t^2+...+a_nt^n,$$

çoxhədlisi şəklində verilir, burada $a_0, a_1, a_2,...,a_n-$ çoxhədlinin əmsalları, t isə (zamanı göstərən) sərbəst dəyişəndir. Bir sıra iqtisadi modellərin tədqiqində adətən dərəcəsi 3-dən çox olmayan çoxhədlilər tətbiq olunur. Belə çoxhədlilərin əmsallarının (dinamik artımın məzmunundan asılı olaraq) müəyyən mənası var. Məsələn, a_0- artımın başlanğıc səviyyəsini, a_1- artım sürətini, a_2- artımın təcilini, a_3- təcilin dəyişməsini göstərir.

Sadə eksponensial artım əyrisi $y_t=ab^t$ funksiyası vasitəsi ilə verilir, burada $a,b-$ müsbət parametrlərdir. a parametri artımın başlanğıc şərtini, b isə artımın sabit tempini xarakterizə edir.

İqtisadiyyatda kifayət qədər yayılmış proseslər vardır ki, onlar əvvəlcə zəif artır, sonra artım güclənir, sonra yenidən zəifləyir və müəyyən limit həddinə yaxınlaşır. Belə prosesləri xarakterizə etmək üçün S şəkilli artım əyrilərindən istifadə olunur ki, onlardan Hompers və Perl-Rid (logistik əyriləri) xüsusilə seçilir. Hompers əyrisi $y_t=ka^{b^t}$ analitik ifadəsinə malikdir, burada a,b müsbət parametrlərdir. $y=k$ düz xətti əyrinin asimptotudur. Bu əyridə 4 hissəni ayırırlar. 1-ci hissədə artım cüzi olur, 2-ci hissədə artım yüksəlişlərlədir, 3-cü hissədə sabitə yaxındır, 4-cü hissədə isə artım

tempi zəifləyir və funksiya qeyri-məhdud olaraq k kəmiyyətinə yaxınlaşır. Nəticədə əyrinin konfiqurasiyası S hərfinə oxşar olur. Funksiyanın loqarifmi eksponensial əyri olur, birinci tərtib artımın funksiyanın ordinatına nisbətinin loqarifmi zamana nəzərən xətti funksiyadır. Bu əyrinin qrafikini aşağıdakı kimi təsvir etmək olar:



Nümunə olaraq

$$\frac{dy}{dx} = y \ln y^2,\ y > 0 \qquad (1)$$

diferensial tənliyinə baxaq. Asanlıqla görmək olar ki, bu tənlik dəyişənlərinə ayrıla bilən diferensial tənlikdir. (1) tənliyini $\frac{dy}{y \ln y} = 2dx$ şəklində yazıb inteqrallayaq:

$$\int \frac{dy}{y \ln y} = 2\int dx. \qquad (2)$$

Aydındır ki, $\int \frac{dy}{y \ln y} = \int \frac{d \ln y}{\ln y} = \ln|\ln y|$. Onda (2)-dən aşağıdakıları alarıq:

$$\ln|\ln y| = 2x + C_1 \ \Rightarrow\ |\ln y| = e^{2x+C_1} \ \Rightarrow\ y = e^{Ce^{2x}},$$

burada C_1, C – sabitlərdir. Bu inteqral əyrisi iqtisadi artım sinfindən S şəkilli Hompers əyrisidir. Deməli, (1) diferensial tənliyi uyğun iqtisadi prosesin çox sürətlə artan dinamikasını xarakterizə edir.

Qeyd edək ki, iqtisadi proseslərdə istifadə olunan digər artım əyriləri haqqında kitablarından ətraflı məlumat almaq olar.

Bilalov B., Zabidov Z.,
Nağıyev H., Quliyev A.,
AMEA-nın Riyaziyyat və Mexanika İnstitutu

MƏSAFƏDƏN SPEKTRAL VERİLƏNLƏRƏ GÖRƏ TOPRAQ-BİTKİ ÖRTÜYÜNÜN TƏSNİFATININ APARILMASI

Kənd təsərrüfatı sahəsində bir cox praktik məsələlərin həll olunmasında müşahidə olunan obyektin siniflərə bölünmə zərurəti yaranir. Buna nümunə olaraq təsərrüfat sahəsinin bataqlıq olub olmaması, şoranlaşmaya və eroziyaya məruz qalma dərəcəsinə görə siniflərə bölünməni göstərmək olar. Son dövrlərdə müşahidə verilənləri kimi spektral (məsələn: mavi, yaşıl, qırmızı, Nir kanallarda) təsvirlərdən istifadə olunur. Təqdim olunan iş məsafədən spektral verilənlərinə görə topraq-bitki örtüyünün təsnifatının aparılmasına həsr olunub. Məsələnin riyazi qoyuluşu aşağıdakı kimidir.

Verilmiş D ərazisinin müəyyən $\{P_i\colon\ \ i=\overline{1,m}\}\subset D$ koordinantlarında (nöqtələrində) torpaq-bitki təsnifatı məlumdur. Məlum torpaq təsnifatını, başqa sözlə torpaq-bitki siniflərini $\{M_k\colon\ \ k=\overline{1,r}\}$ ilə işarə edək: $M_i\cap M_j=\emptyset,\ i\neq j$. Beləliklə $\forall\, i\in 1{:}m=\{1;2;\dots;m\}$ üçün $\exists\, k(i)\in 1{:}r$ var ki,

$$P_i\subset M_{k(i)}\ ,$$

doğrudur. Bundan əlavə, hər bir $P\in D$ nöqtəsində $\{\lambda_k\colon\ k=\overline{1,\varkappa}\}$ dalğa uzunluqlarında $W_{\lambda_k}(P), k=\overline{1,\varkappa}$ - məsafədən verilənlərin qiymətləri məlumdur. Məsələ,$\forall P\in D$ nöqtəsinin aid olduğu M_k sinfinin təyinidir, başqa sözlə ,$\forall P\in D$ üçün $\exists\, k(p)\in 1{:}r$ nömrəsi tapılmalıdır ki, $P\in M_{k(p)}$ doğru olsun.

Hazırkl işdə müxtəlif proqram sistemlərinin (məs. Matlab, Mathematics, Mapple və s.) imkanları daxilində məsafədən zondlama verilənlərin emal etməklə torpaq-bitki örtüyünün təsnifatı aparılmışdir. Torpaq-bitki örtüyünün təsnifatı metrik məsafələrindən və klassifikasiya metodlarından istifadə edərək aparılıb.Müşahidə verilənləri kimi X-Rotor-1000 X-8 PUA-dan ilə alınan spektral (məsələn: mavi, yaşıl, qırmızı, Nir kanallarda) təsvirlərdən istifadə olunub. Hesablamaların yerinə yetirilməsi ücün MATLAB paket proqramlarına daxil olan "pdist", "linkage" və "cluster" funksiyalarından istifadə olunub.

Mərdanov M.C., Məmmədov F.İ., Məmmədzadə N.M.
AMEA-nın Riyaziyyat və Mexanika İnstitutu

DƏRİNLİK QUYULARDA TEMPERATUR REJİMİNƏ UYĞUN PUAZEYL DÜSTURU

Məqalədə dərinlik quyularda temperatur rejimini nəzərə alaraq mayenin qərarlaşmış axın rejiminə baxılmışdır. Belə ki, temperatur rejiminin dəyişməsi quyudan çıxan mayenin sıxlığının və özlülüyünün dərinlik boyunca dəyişməsinə səbəb olur. Bununla əlaqədar olaraq baxılan axın tənliyində ümumi sıxlıq$-\rho(x)$ və özlülük funksiyaları$-\mu(x)$ quyunun x dərinliyi boyunca dəyişən funksiya olur (burada $-H<x<0$ münasibəti doğrudur). Qeyd edək ki, burada sözü gedən axın tənliyi

$$v\frac{\partial v}{\partial x}+\frac{1}{\rho(x)}\cdot\frac{\partial P}{\partial x}=\frac{\mu(x)}{\rho(x)r}\frac{\partial}{\partial x}\left(r\frac{\partial v}{\partial r}\right)-g \tag{1}$$

şəklində verilir. Kəsilməzlik tənliyi isə

$$\frac{\partial}{\partial x}(\rho_0(x)\cdot v(x,r))=0 \tag{2}$$

formasında olur. Buradan $v(x)$- in $v(x)=\frac{C(r)}{\rho(x)}$ –şəklində ifadəsi tapılıb yuxarıda qeyd etdiyimiz axın tənliyində yerinə yazılır. $C(r)$-in ifadəsi isə r-ə nəzərən qüvvət sırası şəklində axtarılır və qruplaşdırmalar aparılaraq uyğun əmsallar tapılır:

$$C(r)=a_0+a_1r+a_2r^2+\ \dots+a_nr^n+\ \dots \tag{3}$$

Bu halda boru diametrinin kifayətcə kiçik olduğu $\frac{R}{H}\ll 1$ şərtində müvafiq çevirmələr və hesablamalardan sonra məlum Puazeyl düsturunun aşağıdakı kimi asimptotik ifadəsi əldə edilir:

$$Q\approx\frac{\pi R^4}{8}\cdot\frac{P_1-P_0-g\int_{-H}^{0}\rho(s)ds}{\int_{-H}^{0}\frac{\mu(s)}{\rho(s)}ds} \tag{4}$$

Burada $Q-$sərfiyyat $R-$borunun radiusu $H-$quyunun dərinliyi $\mu-$özlülük $\rho-$sıxlıq P_0-quyuağzı təzyiq P_1-quyudibi təzyiqdir. Aydındır ki, quyudibi təzyiq quyu ağzı təzyiqdən böyük olur, yəni $P_1>P_0$.

Bundan əlavə, klassik Puazeyl düsturu ρ və μ -nün sabit olduğu hallarda Q sərfiyyatı v sürəti və borunu R radiusu arasındakı əlaqəni ifadə edən aşağıdakı düsturla verilir :

$$Q=\frac{\pi R^4}{8\,\mu\, l}\cdot\Delta P \tag{5}$$

Burada l - borunun uzunluğu, ΔP- isə təzyiq düşküsüdür.

Həmçinin ρ kəmiyyətini n x-ə görə dəyişmədiyi halda Puazeyl düsturunun aşağıdakı kimi dəqiq ifadəsi çıxarılır:

$$P(x)-P(0)-g\rho x = \frac{4v}{R^2-r^2}\int_0^x \mu(s)ds \qquad (6)$$

Aydındır ki, bu halda kəsilməzlik tənliyi ρ kəmiyyəti sabit olduğu üçün

$$\frac{\partial}{\partial x}(\rho \cdot v) = 0 \text{ və ya } \frac{\partial v}{\partial x} = 0 \qquad (7)$$

şəklində olur (bax Sutera.S.P. , Skalak.R. “Annual review of fluid mechanic” T.25, page 1-19).

Асланов Р.М.,
Институт математики и механики НАН Азербайджана,
академик МАНПО,
доктор педагогических наук,
кандидат физико-математических наук, профессор

О МАГИСТЕРСКОЙ ДИССЕРТАЦИИ

В докладе будет рассмотрено немного о истории магистратуры, статусе магистратуры, что такое магистратура, чем отличается бакалавр от магистра, о магистерской диссертации (выбор темы, композиция диссертации), основные документы, представляемые в Государственную аттестационную комиссию, процедура публичной защиты диссертации, как учат магистров, кто может поступить в магистратуру, как поступить в магистратуру, магистратура за рубежом и некоторая информация о болонском процессе.

В средневековых университетах существовали следующие академические степени: бакалавр, магистр и доктор философии.

Магистр (от лат. *magister* — наставник, учитель, руководитель) — академическая степень, приобретаемая студентом после завершения учёбы в магистратуре.

Магистратура — ступень высшего профессионального образования следующая после бакалавриата, позволяющая углубить специализацию в определённом профессиональном направлении.

Учёная степень - **магистр** введена в Российской империи во второй половине XVIII века. Первое присвоение степени магистра в России состоялось в 1753 г. по инициативе М. В. Ломоносова.

Степень магистра наук с 1917 года по 1993 год в Российской Федерации не присуждалась.

Магистратура представляет собой второй уровень подготовки специалистов по двухуровневой системе «4+2».

Нормативный срок программы подготовки магистра (при очной форме обучения) — 2 года. Квалификация присваивается по результатам защиты магистерской диссертации на заседании Государственной аттестационной комиссии и даёт право поступления в аспирантуру.

При обучении магистрант в перспективе приобретает ряд преимуществ:

- получение углубленной информации и практических навыков;
- возможность заниматься научно-исследовательской работой;
- возможность сдачи кандидатских минимумов по иностранному языку и по истории и философии науки;
- полученный опыт написания магистерской диссертации в дальнейшем помогает при обучении в аспирантуре и докторантуре;
- получение степени магистра наук открывает более широкие возможности для трудоустройства;
- поступившим в магистратуру предоставляется двухлетняя отсрочка от армии.

В странах Западной Европы и США существуют разные степени магистра (англ. *Master's degree*). Например: магистр философии, магистр теологии, магистр искусств, магистр естественных наук и т.д.

Наиболее популярные страны для получения образования в магистратуре: Германия; США; Англия; Франция; Канада; Чехия; Австралия; Испания; Италия; Швейцария; Голландия и др.

Впервые приём в магистратуру высших учебных заведений Азербайджанской республики состоялся в 2009 году, а с 2015 года – в Национальной академии наук Азербайджана.

Магистерская диссертация отличается от выпускной квалификационной работы бакалавра тщательной теоретической проработкой проблемы, от дипломной работы специалиста – научной направленностью исследования. Материалы магистерской диссертации подлежат апробации в течение всего срока обучения в форме докладов (выступлений) на научных семинарах, конференциях и должны быть опубликованы в открытой печати.

Цель написания магистерской диссертации – показать способности и профессиональную подготовленность магистранта к проведению научных исследований.

Магистерская диссертация должна являться законченным исследованием. Содержание ее могут составлять результаты теоретических и экспериментальных исследований, а также разработка новых методов и подходов к решению научных проблем. Она призвана продемонстрировать эрудицию и научный потенциал соискателя, его умение логично и грамотно излагать свои мысли, готовность к самостоятельной научно-исследовательской, педагогической и аналитической деятельности в области экономики и финансов, а также навыки работы со специальной и научной литературой.

План магистерской диссертации включает следующие разделы: введение, основную часть (первую, вторую и третью главы), заключение, список использованной литературы и приложение. Тема магистерской диссертации должна быть

актуальной, представлять научный и практический интерес и соответствовать выбранной магистрантом специальности. Магистерская диссертация обязана содержать обоснование выбора темы исследования, актуальность и научную новизну поставленной задачи, обзор опубликованной научной литературы, обоснование выбора методики изучения.

К примеру, Николай Николаевич Лузин, создатель московской математической школы в 1915 году завершил магистерскую диссертацию «Интеграл и тригонометрический ряд», которая по уровню результатов и по стилю разительно выделялась среди обычных диссертаций. В каждом её разделе содержались новые проблемы и новые подходы к их решению, применялись обороты «мне кажется», «я уверен». При формировании школы Н.Н.Лузина эта работа сыграла гигантскую роль. Д.Ф.Егоров представил магистерскую диссертацию Н.Н.Лузина на учёный совет Московского университета как докторскую диссертацию по чистой математике.

Магистерская диссертация Георгия Михайловича Фихтенгольца по теории интеграла, защищённая им в 1918 году, явилась основой питерской (ленинградской) школы теории функций вещественной переменной.

Одной из проблем магистерской диссертации является выбор темы диссертации.

Структура и содержание диссертационной работы (композиция диссертации).

Магистерская диссертация должна содержать следующие обязательные разделы:

- титульный лист; оглавление; введение (постановка задач, формулировка цели); основную часть (разделы, подразделы, пункты, параграфы); заключение (выводы); список использованной литературы (библиография); приложения и вспомогательные указатели (при необходимости).

Магистерская диссертация, допущенная к защите за подписью заведующего кафедрой, направляется на обязательное внешнее рецензирование с указанием срока получения письменной рецензии, в которой рецензент отмечает достоинства и недостатки работы, аргументированно оценивает ее качество и делает заключение о реально практическом значении данной диссертации. В рецензии в соответствии с Положением обязательно даётся рекомендательная оценка работы. Магистрант заранее знакомится с рецензией. Диссертационная работа вместе с отзывом и рецензией поступает на кафедру для окончательного контроля и получения подписи заведующего кафедрой. Далее она включается в приказ о допуске к защите. Для проведения защиты магистерской диссертации формируется Государственная аттестационная комиссия (ГАК) по направлению подготовки магистров, утверждённая ректором ВУЗ-а. Защита диссертационной работы проходит публично на заседании ГАК. Вопросы протоколируются. Ответы должны быть краткими и по существу вопроса. Заключение о результатах защиты и оценка принимаются простым большинством на закрытом заседании членов ГАК. Оценки проставляются по четырехбальной системе: «отлично», «хорошо», «удовлетворительно», «неудовлетворительно».

Результаты защиты диссертации объявляются в день защиты после оформ-

ления в установленном порядке протокола заседания Государственной аттестационной комиссии.

При успешной защите магистерской диссертации решением ГАК студенту присваивается степень магистра и выдается диплом государственного образца.

Желательно в процессе подготовки магистров перенять опыт обучения магистрантов в зарубежных странах.

Əliyev Ə.B.,
AMEA Riyaziyyat və Mexanika İnstitutu,
Azərbaycan Texniki Universiteti

QEYRİ XƏTTİ HİPERBOLİK TƏNLİKLƏR ÜÇÜN QLOBAL HƏLL OLUNA BİLƏN MƏSƏLƏLƏR

Tutaq ki, $\Omega \subset R^n$ Γ -hamar sərhəddinə malik məhdud oblastdır. $Q = (0,T) \times \Omega$ oblastında

$$L(u) = u_{tt} - a(u, u_x)\Delta u \tag{1}$$

şəklində diferensial operator üçün

$$u(t,x) = 0, \ t \in [0,T], x \in \Gamma \tag{2}$$

sərhəd və

$$u(0,x) = \varphi(x), \ u_t(0,x) = \psi(x), x \in R^n \tag{3}$$

başlanğıc şərtli qarışıqı məsələyə baxaq. Burada $a(\cdot)$ müəyyən hamarlığa malik, verilmiş funksiyalardır və $a(\xi) \geq a_0 > 0, \xi \in R.^2$

(1) - (3) məsələsinin qlobal həllinin araşdırılması mühüm məsələdir və əksər hallarda bu həll yoxdur. Başlanğıc funksiyalar istənilən qədər hamar və kifayət qədər kiçik olsalar belə sonlu zaman ərzində axtarılan funksiyanın özü və ya törəmələri kəsilə bilər. Bu effektlər son dövrlərdə ədəbiyyatda çox araşdırılmışdır. Bu səbəbdən (1) operatoru üçün qlobal həll oluna bilən məsələ maraq kəsb edir.

Təqdim olunan işdə (1) operatoru şəklində olan sistemlər üçün variasiya məsələsinə (birtərəfli məsələyə) baxılır və onlar arasında eləsi seçilir ki, onun qlobal həlli olsun.

Qeyd edək ki, bəzi iqtisadi məsələlərin həllidə birtərəfli məsələnin həllinə gətirilir [1].

Məsələnin qoyuluşu və əsas nəticə.

$L_2(\Omega)$-fəzasında skalyar hasili $\langle \cdot,\cdot \rangle$ kimi, normanı isə $\|\cdot\|$ kimi işarə edək. Aşağıdakı çoxluqları daxil edək:

$$K_1 = \{u \in L_2(\Omega), \ u(x) \leq 1, \ x \in \Omega \ s.h.y(\text{sanki hr yerde})\},$$

$$K_2 = \left\{ u \in \overset{0}{W}{}_2^1(\Omega),\ \nabla u(t,x) \le 1,\ s.h.y. \right\},$$

burada

$$\overset{0}{W}{}_2^1(\Omega) = \left\{ u : u \in \overset{0}{W}{}_2^1(\Omega),\ u(x) = 0,\ x \in \Gamma \right\}.$$

Məqsəd

$$\left.\begin{array}{l} \langle L_1(u_1,u_2), z_1 - u_{1t} \rangle(t) \ge 0, \\ \langle L_2(u_1,u_2), z_2 - u_{2t} \rangle(t) \ge 0, \end{array}\right\}, z_1 \in K_1, z_2 \in K_2 \qquad (4)$$

şəklində variasiya bərabərsizliklər sistemi üçün

$$\left.\begin{array}{ll} u_1(0,x) = \varphi_1(x), & u_{1t}(0,x) = \psi_1(x), x \in \Omega \\ u_2(0,x) = \varphi_2(x), & u_{2t}(0,x) = \psi_2(x), x \in \Omega \end{array}\right\} \qquad (5)$$

başlanğıc şərtlər daxilində qlobal həllinin varlığı və yeganəliyinin araşdırılmasından ibarətdir. Burada

$$L_1(u_1,u_2) = u_{1tt} - a_1(u_1, Du_2)\Delta u_1 - f_1(t,x),$$

$$L_2(u_1,u_2) = u_{2tt} - a_2(u_1, Du_2)\Delta u_2 - f_2(t,x),$$

Belə ki,

$a_i(\xi_1,\xi_2)$ $i = 1,2$ diferensiallanan funksiyalardır, (6)

$a_i(\xi_1,\xi_2) \ge c > 0$, $i = 1,2, (\xi_1,\xi_2) \in R^2$. (7)

$f_i(t,x) \in W_2^1(0,T; L_2(\Omega))$, $i = 1,2$. (8)

Məsələnin $H_T(K_1, K_2)$ fəzasına daxil olan həlli axtarılır. Burada

$$H_T(K_1, K_2) = \left\{ (u_1,u_2) :\ u_i(\cdot) \in L_\infty(0,T; W_2^2(\Omega) \cap \overset{0}{W}{}_2^1(\Omega), \right.$$

$$\left. u_{1t}(t,\cdot) \in K_1\ \ s.h.y., \qquad u_{2t}(t,\cdot) \in K_2\ \ s.h.y. \right\}.$$

İşdə aşağıdakı əsas nəticə əldə edilmişdir:

<u>Teorem1</u>. Tutaq ki, (6) – (8) şərtləri ödənilir.

Onda istənilən $\varphi_i(x) \in W_2^2(\Omega) \cap \overset{0}{W}{}_2^1(\Omega), \psi_i(x) \in K_i$, $i = 1,2$ üçün (4), (5) məsələsinin yeganə $(u_1, u_2) \in H_T(K_1, K_2)$ həlli var.

Aslanov H.,
fizika-riyaziyyat elmləri doktoru, professor
AMEA Riyaziyyat və Mexanika İnstitutu

BƏZİ İQTİSADİ MƏSƏLƏLƏRİN HƏLLİNDƏ TƏTBİQ OLUNAN TƏSADÜFİ PROSESLƏR HAQQINDA

Müasir dövrün qlobal problemləri təsnifatında iqtisadi və ekoloji problemlər mühüm yer tutur və onların öyrənilməsi mühüm əhəmiyyətə malikdir.

Ətraf mühitin mühafizəsi, təbii resurslardan istifadə olunması, energetika, demoqrafiya və s. problemlərin həlli dünya ölkələrinin birgə səyini zəruri edir. Ekoloji problemlərin yaranmasına səbəb cəmiyyətlə təbiət arasında ziddiyyətlərin kəskinləşməsi ilə əlaqədar olan bir məsələdir və bu problemlərin həllinə sistemli yanaşma tələb olunur. Bu problemləri həll etmək üçün əsas istiqamətləri müəyyən etmək, həmin istiqamətlər arasında əlaqə və münasibətləri tam aşkar edib, optimal qlobal strategiyanı işləyib hazırlamaq müasir dövrdə elm qarşısında duran əsas məsələlərdəndir. İqtisadi və ekoloji sistemlərin hər biri ayrılıqda kifayət qədər mürəkkəb və çox parametrli sistemlərdir. Onların birlikdə fəaliyyət göstərdiyi iqtisadi-ekoloji sistemlər isə daha mürəkkəb xarakterə malikdirlər. Belə sistemlərin təhlili üçün riyazi modelləşdirmə, optimal idarəetmə və digər riyazi üsullarının tətbiqi xüsusi əhəmiyyətə malikdir. Mürəkkəb sistemlərə riyazi modelləşdirmə üsulunun tətbiqi təcrübəsi onu göstərir ki, öyrənilən sistemin xarakterik xüsusiyyətini mümkün qədər tipik bir model üzərində müəyyənləşdirib təhlil etməklə alınan nəticələr daha əhəmiyyətli və məqsədəuyğun olur. İqtisadi-ekoloji modellərin təhlili zamanı optimal idarəetmənin riyazi metodlarının tətbiqi xüsusi əhəmiyyətə malikdir. Görkəmli riyaziyyatçı alim L.S. Pontryagin və onun tələbələri tərəfindən alınmış maksimum prinsipinin bu məsələlərin həllində xüsusi əhəmiyyəti vardır.

İxtiyari ekonomterik tədqiqatda ekonomterik modelin qurulması əsas məsələdir. Belə ki, baxılan sosial-iqtisadi prosesin inkişaf tendensiyasının, proqnozlaşdırmanın təhlilinin nəticələrinin əsaslandırılması modelin keyfiyyəti ilə müəyyən olunur. Ekonomterik tədqiqatlarda əsasən fərz edilir ki, modelləşdirilən prosesdə qanuna uyğunluqlar digər təzahürlərin, faktorların təsirləri nəticəsində formalaşdırılır. Bu prosesin inkişaf qanunauyğunluqların təsviri belə ümumi ekonometrik modellə göstərilir:

$$y_t = f(\alpha, x_t) + \varepsilon_t .$$

Burada y_t prosesin $t = 1,2,...,T$ zaman anlarında inkişaf səviyyəsini, x_t, $t = 1,2,...,n$ prosesə təsir edən xarici təzahürlər, faktorlar, $f(\alpha, x_t)$ -funskional asılığı y_t və x_{it} dəyişənlərinin $t = 1,2,...,T$ anlarında səviyyələrinin qarşılıqlı asılılığının strukturu və formasını xarakterizə edir; $x_{it} = (x_{1t}, x_{2t},..., x_{nt})$ vektoru t anında asılı olmayan dəyişənin (faktorun) qiyməti, $\alpha = (\alpha_0, \alpha_1,..., \alpha_n)$ modelin parametrlərindən ibarət vektordur. α_i, $i = \overline{1,n}$ parametri baxılan $(1,T)$ intervalında x_i faktorunun y dəyişəninə təsiri dərəcəsini ifadə edir; α_0-modeldə sabit kəmiyyətdir; ε_t -kəmiyyəti t zaman anında modelin təsadüfi səhvini göstərir.

(1) İfadəsində $f(\alpha, x_t)$-nin konkret analitik ifadəsinin seçilməsi üçün müxtəlif mühakimələrdən istifadə olunur:

$f(\alpha, x_t)$-analitik asılılıqlarının daha çox istifadə olunan halları aşağıdakılar ola bilər:

1. Xətti $y_t = \alpha_0 + \alpha_1 x_{1t} + ... + \alpha_n x_{nt} + \varepsilon_t$,

2. Sağ yarımloqorifmik $y_t = \alpha_0 + \alpha_1 In\, x_{1t} + ... + \alpha_n In\, x_{nt} + \varepsilon_t$,

3. Üstlü $y_t = \alpha_0 \cdot x_{1t}^{\alpha_1} x_{2t}^{\alpha_2} ... x_{nt}^{\alpha_n} \varepsilon_t$,

4. Hiperbolik $y_t = \alpha_0 + \alpha_1 \cdot \frac{1}{x_{1t}} + ... + \alpha_n \cdot \frac{1}{x_{nt}} + \varepsilon_t$,

5. Loqarifmik hiperbolik $In\, y_t = \alpha_0 + \alpha_1 \cdot \frac{1}{x_{1t}} + ... + \alpha_n \cdot \frac{1}{x_{nt}} + \varepsilon_t$,

6. Tərs xətti (Tornkvist funksiyası) $In\, y_t = \alpha_0 + \alpha_1 \cdot \frac{1}{x_{1t}} + ... + \alpha_n \cdot \frac{1}{x_{nt}} + \varepsilon_t$,

7. Əvəzolunmanın sabit elastikliyi funksiyası $y_t = \left[\alpha_1 \cdot \frac{1}{x_{1t}^{\rho}} + ... + \alpha_n \cdot \frac{1}{x_{nt}^{\rho}} \right]^{-\lambda/\rho} \varepsilon_t$,

burada λ və ρ funksiyanın parametrləridir;

8. Eksponensial funksiya $y_t = \exp\{\alpha_0 + \alpha_1 x_{1t} + \ldots + \alpha_n x_{nt} + \varepsilon_t\}$.

Baxılan məsələ belə bir riyazi proqramlaşdırma məsələsinə gətirilir: elə $\hat{\alpha}$ qiymətini tapmaq lazımdır ki, bu qiymətlərdə

$$T_n(\hat{\alpha}) = \min_{\alpha_1,...,\alpha_n} \sum_{i=1}^{n} [y_i - f(\alpha, x_i)]^2$$

kvadratik forma minimallaşdırılsın. $\hat{\alpha} = (\hat{\alpha}_1, \hat{\alpha}_2, ..., \hat{\alpha}_n)$ nöqtəsi $T_n(\alpha)$ statistikasının minimum nöqtəsi olduqda, minimum üçün zəruri şərtə əsasən $T_n(\alpha)$ funksiyasının $\alpha_1, ..., \alpha_n$-lərə nəzərən xüsusi törəmələrini sıfra bərabərləşdirməklə

$$\frac{\partial T_n(\alpha)}{\partial \alpha_i} = 0, \quad i = \overline{1, n}$$

tənliklər sistemi alınır ki, onun $\hat{\alpha}_1, \hat{\alpha}_2, ..., \hat{\alpha}_n$ həlləri naməlum parametrlərin ƏKKÜ ilə tapılmış qiymətləndirilmələridir.

Müsbət kvadratik çoxhədli həmişə öz minimum qiymətini aldığından, bu tənliklər sistemi həmişə həllə malikdir.

Abdullayeva E.C., müəllim
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)

AQRAR SAHİBKARLIĞIN İNKİŞAFINDA QİYMƏT MEXANİZMİ

Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında prezident İlham Əliyev kənd təsərrüfatındakı inkişafın əsas səbəbini "Ölkədə aparılan islahatlar, eyni zamanda, dövlət tərəfindən fermerlərə verilən dəstək, subsidiyalar, texnika təminatı və bütövlükdə dövlət siyasətidir" və bu iddia tamamilə döğrudur.

Məlumdur ki, hələlik Azərbaycanda aqrar sferanın və aqrar sahibkarlığın inkişafında mühüm rol oynaya bilən qiymət mexanizminin formalaşması üçün kənd təsərrüfatı məhsullarının qiymətinə birbaşa təsir edən rıçaqlardan əhatəli səviyyədə istifadə olunmur. Ancaq dolayı yollar – xüsusilə, aqrar məhsulun məsrəflərinə təsir edən tədbirlər də bu baxımdan əhəmiyyətlidir və bu tədbirlər də sahibkarlığın inkişafında eyni effektə malikdir. Belə ki, qiymət tələb-təklif tarazlığında formalaşsa da, istehsal xərcləri də qiymətin əmələ gəlməsində sonuncu rol oynamır.

Aqrar sferanın idarəedilməsi təcrübəsində bu tip tədbirlərdən 2002-ci ildən başlayaraq istifadə edilir və mütləq qeyd olunmalıdır ki, bu təcrübə üçün hüquqi zəmin H.Əliyevin 22 mart 1999-cu il fərmanı ilə yaradılıb. "Aqrar sahədə islahatların sürətləndirilməsinə dair bəzi tədbirlər haqqında" fərmanla bir sıra mühüm məsələlər həllini tapmışdı. Birincisi,kənd təsərrüfatı sferası 5 il müddətinə bütün vergilərdən(torpaq vergisi istisna olmaqla) azad edildi və 1999-cu ildən başlayan bu güzəştli mühit ardıcıl qərarlarla bu günə qədər də davam etdirilib. Ikincisi, fərman kənd təsərrüfatında istifadə olunan neft məhsullarına və s. görə istehsalçılara güzəştlər verilməsini nəzərdə tuturdu. Bu siyasətin ardıcıl inkişafı 2007-ci ildə prezident İ.Əliyev tərəfindən verilən "Kənd təsərrüfat məhsullarının istehsalçılarına dövlət dəstəyi haqqında" sərəncamla davam etdirildi və NK-nın 15 fevral 2007-ci il qərarı ilə kənd təsərrüfatı istehsalçılarına yanacaq, gübrə məsrəflərinə görə verilən güzəştlər barədə "Qaydalar" təsdiq olundu. Həmin il praktik fəaliyyət də həyata keçirildi və aqrar sahibkar dövlət büdcə vəsaiti hesabına yanacaq, gübrə məsrəfinin müqabilində müəyyən vəsait əldə etdi.

Öncə qeyd edilənləri də nəzərə alıb, bir əhəmiyyətli məsələni də vurğulamaq lazımdır. Prezidentin 6 iyun 2014-cü il – "Azərbaycan Respublikasında heyvandarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" sərəncamı damazlıq heyvanların kənd təsərrüfatı məhsulları istehsalçılarına lizinq yolu ilə 50% güzəştlə satılmasına imkan yaradır və deməli, hökumət təkcə bitkiçilik deyil, həm də bu sahə üçün dolayı maliyyə dəstəyini reallaşdırır. Beləliklə, 2007-ci ildən kənd təsərrüfatı məhsullarının qiymət mexanizminə dolayı müdaxilələr reallaşdırılır.

Beləliklə, kənd təsərrüfatı istehsalçılarına birbaşa dövlət dəstəyi haqqında müəyyən təsəvvürlər olundu və bu göstəricilər əsasında kənd təsərrüfatı məhsul-larının qiymətinin dəstəklənməsi səviyyəsini – bəlli metodlarla müəyyənləşən səviyyəni aşkarlamaq olar. Amma məsələyə bir qədər əhatəli yanaşsaq, başqa çətinliklərlə üzləşərik. Belə ki, büdcə vəsaitləri hesabına ayrılan bu birbaşa yardımlardan başqa kənd təsərrüfatı sektoru öncə göstərdiyimiz kimi, həm də dolayı yardımlar alır. Məsələn, vergi güzəştləri kifayət qədər dolayı maliyyə yardımlarını şərtləndirir. Doğrudur,

bu güzəştlərin həcminin müəyyən edilməsi yetərincə müşkül bir məsələdir və hətta bu istiqamətdəki tədqiqatlarda da konkret rəqəmlər göstərilmir və sadəcə qeyd edilir ki, "istehsalçılar milyonlarla manat vəsaitə qənaət edə bilərlər". Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin rəyinə görə isə 2007 - 2013-cü illərdə vergidən azad-olma nəticəsində kənd təsərrüfatına 1 mlrd 400 mlyn.manat maliyyə dəstəyi göstərilib. Nazirliyin bu göstəricini necə müəyyənləşdirməsi bəlli olmadığından vergi güzəştlərinin məbləği heç də inandırıcı görünmür. Belə ki, bu dövrdə kənd təsərrüfatı ümumi məhsulu 14 mlrd 614 mlyn manat həcmində olub və belə görünə bilər ki, kənd təsərrüfatı sferasında vergi yükü 10%-ə bərabər-ləşməliy-di. Nəzərə alsaq ki, 2013-cü ildə qeyri - neft sektoru üzrə ÜDM 32,6 mlrd. manat, vergi gəlirləri isə 3.76 mlrd.manat olub, yəni vergi yükü 11%-ə bərabərləşib, onda güzəşt həcmi barədə iddialar inandırıcı görünmür. Ümumiyyətlə, aydındır ki, kənd təsərrüfatına tətbiq olunan vergi güzəştləri, aqrar sahibkarlığa əlavə və əhəmiyyətli maliyyə dəstəyidir, ancaq bu güzəştlərin məbləği daha çox 100-120 mlyn manat ətrafında dəyişə bilər. Çünki aqrar istehsalçıların böyük əksəriyyəti sadə vergi sistemi üzrə ödəyicilərdir və dövriyyənin 2%-i həddində vergi ödəyirlər.Əksər tədqiqatlarda kənd təsərrüfatı sektoruna dolayı maliyyə dəstəyinin istiqamətlərindən biri kənd təsərrüfatı kreditləşməsi üzrə Dövlət Agentliyi və SKMF tərəfindən verilən güzəştli kreditlər hesab olunur. Zənnimizcə, bu iddialar qismən doğrudur. Doğrudan da, Azərbaycan maliyyə bazarında illik 6%-lə vəsait cəlbi güzəştli bir hal hesab olunur və kommersiya kreditlərinin faiz dərəcəsi ilə müqayisədə(20-22%) güzəştlər tam aşkardır. Ancaq beynəlxalq maliyyə bazarındakı faizlərlə müqayisədə hər hansı güzəştlər barədə danışmaq olmur. Bu baxımdan kreditlər hesabına güzəştlər və dolayı maliyyə dəstəyi reallıqda kifayət qədər mübahisəli bir məsələdir.

Ümumiyyətlə, aqrar sahibkarlığa dövlət dəstəyinin yetərli olub - olmamsı bir qədər mübahisəli bir məsələ olsa da, başqa bir məqamda mübahisələrə ehtiyac yoxdur. Qiymət disparitetinin aradan qaldırılmasına əhəmiyyətli təsir göstərən susbsidiya və güzəşt mexanizmindən istifadədə çox böyük dinamizm var. Belə ki, 2015-ci ildə yüksək reproduksiyalı toxumdan istifadəyə görə subsidiyaların həcmi 2007-ci illə müqayisədə 11dəfə artıb.Həmin il gübrə satışı 2007-ci ildən 3,8 dəfə çox olub və bu istiqamət üzrə subsidiyaların həcmindəki artım 13 dəfəyə yüksəlib.Bu tendensiyanı olduqca pozitiv - qiymət disparitetinin minimallaşdırılmasına və sahibkarlığın inkişafına çox müsbət təsir göstərən amil kimi dəyərləndirmək olar. Hesab etmək olar ki, belə meyllərin davamlılığı effektiv və rəqabətədavamlı kənd təsərrüfatı sektorunun formalaşmasının əsas faktorlarından biri olacaq. Qeyd olunanları yekunlaşdırıb, aşağıdakı nəticələri çıxarmaq mümkündür:

- Müasir mərhələdə dövlət maliyyə dəstəyi kənd təsərrüfat sferasının inkişafı, qiymət disparitetinin səviyyəsinin azalması və aqrar sahibkarlığın gəlirlərinin artımı üçün mühüm mexanizmlərdən biridir;
- 2007-ci ildən başlayaraq aqrar sferaya ciddi maliyyə dəstəyinin verilməsi - yüksək reproduksiyalı toxumlardan, mineral gübrələrdən istifadəyə, yanacaq və motor yağlarının dəyərinin qismən ödənilməsinə, buğda və çəltik səpininə görə istehsalçılara verilən subsidiyalar kənd təsərrüfatının inkişafında, aqrar sahibkarlığın dəstəklənməsində, aqrar bazarda qiymət mexanizminin təkmilləşdirilməsində əhəmiyyətli rol oynayıb;

- aqrar sferaya vergi güzəştləri hesabına dolayı maliyyə dəstəyi - daha dürüst dəyərləndirmələrə görə həcmi 100 - 120 mlyn.manata bərabər olan dolayı dövlət yardımı da birbaşa subsidiyaların təsiri ilə anoloji olan effektlərə gətirir;

- yüksək reproduksiyalı toxumlardan, mineral gübrələrdən istifadəyə, yanacaq və motor yağlarının dəyərinin qismən ödənilməsinə, buğda və çəltik səpininə görə istehsalçılara verilən subsidiyaların mütləq həcmi çox yüksək olmasa da - 2007- 2015-ci illər üçün 645 mlyn.manat təşkil etsə də, subsidiyaların artımındakı dinamizm çox pozitiv bir meyl kimi dəyərləndirilməlidir.

Kərimova G.R., doktorant
Bakı Biznes Universiteti

QİYMƏTLİ KAĞIZLAR BAZARINDA İNVESTORLAR

Qiymətli kağızlar bazarı maliyyə bazarının ayrılmaz bir hissəsidir və bu öz növbəsində, dövlət sisteminin iqtisadi münasibətlərin əsasını təşkil edir. İqtisadi sistemin inkişafı əsasən ölkədə birja bazarının vəziyyətindən asılıdır, çünki müəyyən bir dəyərə malik olan qiymətli kağızlar dövriyyə və ödəniş üçün əlverişli vasitədir, kredit aləti kimi xidmət edir və maddi sərvətlərin sadələşdirilmiş köçürülməsini təmin edir.

Qiymətli kağızlar bazarının əsas subyekt kimi investorlar, borcalanlar, kreditorlar, peşəkar və qeyri-peşəkar iştirakçılar çıxış edir. Qiymətli kağızlar bazarının peşəkar iştirakçılarına vasitəçi broker, diler, depozitlər və klirinq fəaliyyəti həyata keçirən təşkilatlar aiddir. Qeyri-peşəkar iştirakçılar - müstəqil, vasitəçi olmadan xüsusi qiymətli kağızlarını yerləşdirən və ya qiymətli kağızları digər təşkilatlardan alan, bazarın peşəkar iştirakçısı olmayan təşkilatlardır.

Qiymətli kağızların obyektləri səhmlər, istiqrazlar, veksel və depozit (əmanət) sertifikatları, habelə fyuçerslər, opsionlar, depozitar qəbzləri, digər törəmə qiymətli kağızlar və maliyyə alətləri aiddir.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında qiymətli kağızlar bazarında sahibkarlıq fəaliyyəti, xüsusilə qiymətli kağızların yerləşdirilməsi, satılması və digər xidmətlərin göstərilməsi lisenziyalar əsasında peşəkar iştirakçılar tərəfindən həyata keçirilir.

Qiymətli kağızlar bazarının əsası investorlardan ibarətdir ki, onlar qiymətli kağızlar bazarında fəaliyyət göstərən hüquqi şəxslərdir. İnvestorlar öz pullarını mənfəət üçün investisiyalara sərf edirlər.

Maliyyə bazarları infrastrukturunun inkişaf etdirilməsi məqsədilə dövr ərzində əhəmiyyətli işlər görülmüş, eyni zamanda "2011–2020-ci illərdə Azərbaycan Respublikasında qiymətli kağızlar bazarının inkişafı" Dövlət Proqramı qəbul edilmişdir. Dövlət Proqramı çərçivəsində maliyyə bazarlarının canlandırılması istiqamətində işlərə başlanılmışdır. Dövlət Proqramının 2011–2014-cü illəri əhatə edən ilkin mərhələsində qiymətli kağızlar bazarının infrastrukturunun müasirləşdirilməsi, bu məqsədlə normativ hüquqi bazanın təkmilləşdirilməsi, maddi-texniki bazanın möhkəmləndirilməsi, habelə qiymətli kağızlar bazarında insan kapitalının inkişafı üçün zəruri imkanlar yaradılmışdır. Bununla belə, ölkədə fəaliyyət göstərən açıq səhmdar cəmiyyətləri-

nin korporativ idarəetmə standartlarının zəif inkişaf etməsi, şəffaflığın aşağı olması kapitalın qiymətli kağızlar bazarı vasitəsilə cəlb edilməsini məhdudlaşdırmışdır. 2015-ci ilin sonuna səhm və borc qiymətli kağızlar bazarında əməliyyatların həcmi müvafiq olaraq 657 milyon manat və 3550 milyon manat təşkil etmişdir. Borc qiymətli kağızlar bazarında əməliyyatların əhəmiyyətli hissəsi korporativ qiymətli kağızlarla aparılmışdır.

Azərbaycana iri həcmli xarici investisiyaların cəlb edilməsi, neft strategiyasının reallaşması ilə əlaqədar iqtisadi fəallığın artdığı indiki şəraitdə maliyyə bazarlarının inkişaf etdirilməsi üçün makroiqtisadi sabitliyin təmin etdilməsi zəruridir. Çünki, maliyyə vəziyyətinin qeyri-sabitliyi şəraitində maliyyə bazarlarının fəaliyyətinin səmərəli təşkilində müəyyən çətinliklər olur və əsasən möhtəkirlik xarakteri daşıyan əməliyyatların həcmi artır. Bu isə biznesin maliyyə bazarları hesabına maliyyələşdirilməsini, ümumiyyətlə isə biznes fəaliyətinin səmərəli şəkildə aparılmasını çətinləşdirir. Bununla əlaqədar olaraq ölkədə büdcə siyasəti ilə pul-kredit siyasətinin səmərəli şəkildə əlaqələndirilməsi çox vacibdir.

2017-ci ilin ilk rübündə qiymətli kağızlar bazarında yüksəlmə nümayiş etdirilmişdir. Belə ki, 2017-ci ilin yanvar-mart ayları ərzində qiymətli kağızlar bazarı keçən ilin yanvar-mart ayları ilə müqayisədə 33% artaraq 2,280 milyard manat təşkil etmişdir. Hesabat dövrü ərzində qiymətli kağızların təkrar bazarı 89% artaraq 1,1 milyard manatı ötmüşdür. Korporativ qiymətli kağızlar bazarının 11% azalması fonunda, dövlət qiymətli kağızlar bazarı 84% artmışdır.

Cədvəl 1.

Dövlət qiymətli kağızların artım dinamikası (2016-2017)

Dövlət qiymətli kağızları						
	2016		**2017**		**məbləğ üzrə fərq**	**bazar payı (%)**
	yanvar–mart		**yanvar - mart**			
	əqd sayı	**məbləğ (AZN)**	**əqd sayı**	**məbləğ (AZN)**		
Korporativ qiymətli kağızlar	462	1,157,679,302	692	1,033,096,355	-10.8%	45%
İlkin bazar	35	1,031,159,182	24	858,607,150	-16.7%	
Təkrar bazar	427	126,520,120	668	174,489,204	38%	
Dövlət qiymətli kağızları	47	154,463,808	83	284,139,544	84%	12%
İlkin bazar	21	76,477,659	44	279,391,503	3.6 dəfə	
Təkrar bazar	26	77,986,148	8	4,748,042	-94%	
Qiymətli kağızlar bazarı	8,925	1,709,841,069	17,820	2,280,610,314	33%	100%
İlkin bazar	56	1,107,636,841	68	1,137,998,653	3%	
Təkrar bazar	8,869	602,204,228	17,715	1,139,914,912	89%	

İnvestorlar hərəkət strategiyasında fərqlənir. Taktik hərəkətə əsasən, sərmayəçilər strateji, institusional və spekulatorlar üzrə fəaliyyət strategiyasında riskli, mülayim və mühafizəkardırlar.

Strateji investor şirkətin fəaliyyətinə nəzarət etmək üçün qiymətli kağızlar alır. Şirkət üzərində nəzarəti əldə etdikdən sonra strateji investor şirkətin əməliyyat fəaliyyətlərinə başlayır. Strateji investorun əsas məqsədi inkişafdan gəlir əldə etmək, kapitallaşma səviyyəsinin və səhmdar cəmiyyətinin idarə olunmasının səmərəliliyinin artırılmasıdır. Strateji investor şirkətin dəyərinin artması, kapitallaşdırılması, biznesin genişləndirilməsi ilə bağlı strateji əhəmiyyətli qərarlar qəbul etmək və tam şəkildə təsir etmək üçün kifayət qədər böyük səhmin (ən azı 25%) əldə edilməsində maraqlıdır.

İnstitusional investor olaraq banklar, pensiya fondları, sığorta şirkətləri və müxtəlif investisiya fondları fəaliyyət göstərirlər. Başqa sözlə, institusional investor əhalinin və ya şirkətlərin vasitəsi ilə özü və müştəriləri üçün gəlirlərin artırılması məqsədi ilə onlara öz investisiyalarına sərmayə qoyan bir təşkilatdır. İnstitusional investorlar qiymətli kağızlar portfelini təşkil edirlər ki, onların uzunmüddətli və orta müddətli planda davranışlarının əsas proqnozuna əsaslanaraq, bu portfelin idarə edilməsini (qiymətli kağızların satılması və satın alınması) həyata keçirir. İnstitusional investorlar adətən qiymətli kağızların bazar qiymətinin artması və qiymətli kağızlardan ödənişlər ilə gəlir əldə edirlər. Eyni zamanda, bir institusional investor bəzən strateji investor kimi çıxış edə bilər.

Hərəkətin riskli taktikası spekulatorlar üçün xarakterikdir. Spekulator, risklərin əksəriyyətini nəzərə alaraq, institusional investorların işinə şərait yaratmaqla birja bazarının likvidliyini təmin edir. Spekulator, bir qayda olaraq, şirkətin təxmin edilən dəyərinə əsasən qərarlar qəbul edən investordan fərqli bazar qiymətində dəyişikliklər əsasında əməliyyatlar həyata keçirir. Qeyd etmək lazımdır ki, spekulator investoru çağırmaq çox çətindir, çünki spekulator bir maliyyə alətinə pul qoyma müddəti saatlarla deyil, günlərlə hesablanır.

Əvvəl qeyd edildiyi kimi, onların fəaliyyətinin taktikasında investorlar riskli, mühafizəkar və orta səviyyədə bölünürlər.

Bütün investorlar investisiya riskləri ilə bağlı bir-birindən fərqlənirlər. Risk və qaytarma arasındakı nisbət investor üçün əsas göstəricidir. Risklər daha yüksək gəlirlə görülür. Riskli taktikalar fond bazarının spekulatorlerında xarakterizə olunur.

Xərcləri minimuma endirən investor üçün fond bazarında mühafizəkar bir taktika var. Mühafizəkar taktikalar üzrə gəlir yüksək deyil və investisiya riskləri olduqca aşağıdır.

Tədbirlərin orta səviyyəli taktikasına gəldikdə, orta sərmayəçi gəlirlilik səviyyəsinin məqbul səviyyəyə uyğun olduğu qiymətli kağızlar portfelini yaratmağa çalışır.

Sonda qeyd etmək lazımdır ki, özəl investor investisiyaların gedəcəyi məbləğə və investor üçün məqbul risk dərəcəsinə görə müxtəlif strategiyaları seçə bilər. Azərbaycanda çoxsaylı kurslar və master-klasslar var, burada ticarətin əsas texnikaları və metodlarını öyrənə bilərsiniz, qiymətli kağızlar bazarının təhlilində bacarıq əldə edə bilərsiniz.

Qarayeva N.R., doktorant
Bakı Biznes Universiteti

AZƏRBAYCANDA SƏNAYE MÜƏSSİSƏLƏRİNİN EKOLOJİ TƏNZİMLƏNMƏSİ İSTİQAMƏTLƏRİ

Dünyanın torpaq, hava və su zəhərlənməsi sivilizasiyanın ən sürətlə yayılan xəstəliyidir. Müharibələrə, zəlzələlərə və daşqınlara nisbətən bu barədə daha çox danışılır, amma o potensial olaraq tarixin yer üzündə insan həyatı üçün ən böyük təhlükələrdən biridir. Əgər indiki tendensiyalar növbəti bir neçə onillikdə davam edərsə, planetimiz yararsız hala gələcəkdir.

Çoxlu sayda əhali, çirklənmə və enerji istehlakı kütləvi meşələrin qırılması, ozonların tükənməsi, turşu yağışları və istixana təsiri ekoloji problemlərin yaranmısına səbəb olmuşdur.

Dənizlər təhlükə içərisindədir. Onlar zəhərli maddələrlə: sənaye və nüvə tullantıları, kimyəvi gübrələr və pestisidlərlə doldurulmuşdur. Aralıq dənizi artıq ölü vəziyyətindədir, Şimal dənizi isə ona doğru irəliləyir. Bu barədə bir şey edilmirsə, bir gün dənizdə heç bir canlı yaşaya bilməyəcək.

Hər on dəqiqədə bir növ heyvan, bitki və ya həşərat bir dəfəlik məhv olur.Hava çirkliliyi çox ciddi bir problemdir. Qahirədə havanı tənəffüs etmək həyat üçün təhlükədir – misal kimi desək,gündə iki paçka siqaret çəkməyə bərabərdir. Eynilə bu Mexiko şəhərinə və keçmiş Sovet İttifaqının 600 şəhərinə də aiddir.

Sənaye müəssisələri tonlarla zərərli maddələr yayır. Bu emissiyalar planetimiz üçün fəlakətli nəticələrə səbəb olur. Onlar istixana təsiri və turşu yağışlarının əsas səbəbləridir. Daha böyük ekoloji təhlükə nüvə elektrik stansiyalarıdır. Çernobil fəlakətinin fəlakətli nəticələrinin necə olduğunu hamımız bilirik.

İnsanlar müxtəlif beynəlxalq təşkilatları və yaşıl partiyaları birləşdirir və dəstəkləyir. Hökumətlər baş verənlərlə bağlı ayağa qalxsa - bəlkə təbii dünyanı və hamımızı təhdid edən fəlakətdən qaçırmaq olar.

Azərbaycan Respublikasında da həmçinin ekoloji problemlər və onların həlli uğrunda mübarizə prosesləri mövcuddur. Azərbaycanın mövcud ətraf mühit problemləri, keçmiş Sovet İttifaqının iqtisadi prioritet və təcrübələrinin təsirlərindən bir qismidir. Ölkə səviyyəsində ağır sənaye və kənd təsərrüfatından ağır çirklənmə Azərbaycanın ətraf mühitinə zərbə vurmuşdur. Rusiya imperiyasının bölgəni nəzarət altına alması ilə,ölkədə neft ehtiyyatları sürətlə istifadəyə verilməsi ilə Xəzər dənizinin Bakıda neftqazma işlətmələrindən çirklənməsi problemə səbəb olmuşdur.Sovet dövründə neft hasilatının azalmasına baxmayaraq, neft tullantıları müntəzəm olaraq Xəzər dənizinə atılırdı.Təmizlənməmiş kanalizasiya axıdılması və çirklənmə dənizin balıq yığımlarını azaldırdı. Sovet dövründə kənd təsərrüfatı məhsullarının istehsalını artırmaq üçün təhlükəli yüksək miqdarda pestisidlərin və gübrələrin konsentrasiyası istifadə edilmişdir. 1980-ci illərin sonlarında, SSRİ-də ətraf mühitin maarifləndirilməsi başladıqda, Azərbaycanın yüksək infant ölüm səviyyəsi və infeksion xəstəliklərin yüksək səviyyəsi pambıqçılıqda istifadə olunan kimyəvi maddələrlə əlaqələndirildi. Azərbaycan xalqı ətraf mühitin qorunması zəruriliyindən xəbərdar olduqlarına baxmayaraq, respublikanın ətraf mühit məsələləri hökumət tərəfindən böyük əhəmiyyət daşımırdı.

Ölkənin resurslarının ümumi səhv idarə olunması ətraf mühitin bir neçə sahəsinə ciddi təhlükə yaratmışdır. Birləşmiş Millətlər Təşkilatının qurumları ölkənin dünyanın 50 ölkəsi arasında ən yüksək karbon dioksid emissiyaları buraxan ölkə olduğunu və ağır hava və suyun çirklənməsi probleminin mövcudluğunu bildirirlər. 1990-cı illərin ortalarından etibarən karbon dioksid emissiyaları 63,9 milyon metrik ton və ya adam başına 8,76 metrik ton olub. Sənaye, kənd təsərrüfatı və neft quyularının çirklənməsi nəticəsində Xəzər dənizində ekoloji böhran yaradılıb. Bu çirklənmə mənbələri bəzi ərazilərdə sahil sularının 100 faizini və Azərbaycanın çaylarının 45,3 faizini əhatə etmişdir. 2001-ci ildə ümumi əhalinin yalnız 78%-i təhlükəsiz içməli suyla təmin olunmuşdur. DDT pestisid kimi kənd təsərrüfatı kimyəvi maddələrindən qeyri-müəyyən istifadə etməklə torpağın çirklənməsi də ciddi problemdir. Azərbaycanla Ermənistan arasında müharibə hökumətin ekoloji vəziyyətinin yaxşılaşmasına mane oldu. Bütün səviyyələrdə çirklənmənin şiddəti səbəbindən ölkənin canlı və bitki örtüyü ciddi şəkildə təsirlənir. 1980-ci illərin ortalarından 1990-cı illərin ortalarına qədər meşə və ağacın miqdarı 12.5% azalmışdır. 2001-ci ildən etibarən 11 növ məməlilər, 8 növ quş, 5 növ balıq və 13 növ sürünənlən təhlükə altındadır. Təhlükəli növlər sırasına Barbel balığı, beluga, Azov-Qara dəniz balığı, Apollon kəpənəyi və erməni qaynaq siçanı daxildir.

Talishinskaya G.R., PhD student
Baku Business University

GLOBAL INSURANCE EVOLUTION

Insurance companies are important players of the financial market, serving a number of economic functions such as allowing risk transfer, helping companies and people save and invest, enabling entrepreneurial spirit and business initiatives. Insurance provides a mechanism for pooling and transfer the financial consequences of risks. The insurer commits to financially compensating the policyholder if an insured event occurs. The insurance companies receive premiums for the covered risks that allow them to pay the insurance claims but also to operate on the market and obtain profit. Very often the insurance industry is connected to banking sector because in recent years both domains grown increasingly similar with respect to product offerings, distribution, regulation, and supervision. Despite this convergence, differrences remain in the basic function and business models of bank and insurers. These differences are reflected in asset allocation, asset-liability management but especially in risk and capital management. All these elements generate a different exposure to financial crisis. The global insurance industry neither contributed to, nor was significantly affected by the credit crisis. Of course, there were some exceptions – the financial and mortgage guarantors and a small number of primary insurers and reinsurers that had entered certain derivatives transactions. The majority of insurers and reinsurers had not engaged in such transactions and did not have substantial exposure to the United States sub-prime mortgages.

However, the global insurance market was indirectly affected by the economic slowdown and recession in many areas and also by the financial market conditions. What usually happens to insurance in time of recession? The economic environment changes because of the negative effects on the industrial production, foreign trade, employment, disposable income, inflation rate and price levels.

During the financial crisis, the global insurance industry continued to provide cover and to pay claims. There was no shortage of capacity, and the premium rates did not increase. Unlike banking, insurers did not receive government support in the form of capital or guarantees, except a few cases. After two years of falling premium volume, the global insurance market returned to positive growth in 2010. The same results are expected to be obtained in 2011, although the profitability of insurance companies was affected by low interest rates and euro debt crisis.

Positive results of premium have also been obtained on the mature, industrialized countries, but lower than those on the emergent markets. Even in pre-crisis period, the insurance sector was showing signs of saturation in many Western European countries and in North America. In these mature markets, major insurance products have been available for a long time, and the needs of most customers have already been met. Therefore, the sources for future insurance development and profitable growth will be found in the emergent markets. For 2012, the business environment for insurance sector remains challenging. In case of mature markets, it is expected a moderate premium growth due to weak economic developments; also, the profits will be constrained by the low interest rates, the government bond yields, euro debt crisis, and significant catastrophic losses produced in 2011. On the side of emergent markets, growth is expected, but, giving the fact that they are the part of the global economy, there will be some negative influence. In terms of profitability, there are some challenges related to the fact that in many emergent markets, insurance is still nascent and companies therefore still have high start-up costs and a long break-even point period.

Qurbanova İ.M., doktorant
AMEA-nın İqtisadiyyat İnstitutu

GƏNCLƏRİN PEŞƏ TƏHSİLİ İLƏ ƏHATƏ OLUNMASINA DEMOQRAFİK AMİLLƏRİN TƏSİRİ

İstər təhsil alanların, istərsə də iqtisadi fəaliyyət növləri ilə məşğul olanların, əmək ehtiyatlarının, məşğulluq üçün müraciət etmiş işsizlərin, eləcə də peşə-ixtisas təhsili ilə əhatə olunmalı gənclərin sayı və dinamikası demoqrafik proseslərlə əlaqə-dardır. Onların sayının artması və ya azalmasına ölkə əhalisinin sayı, doğum və ölüm göstəriciləri, təbii artım, əhalinin cins və yaş tərkibinin dəyişməsi, yerdəyişmə, miqra-

siya və s. sosial-demoqrafik amillər də öz təsirini göstərir. Ona görə ki, məsələnin kökündə insan amili, insan potensialı dayanır, hər şey insan üçün nəzərdə tutulub. O, əməyin subyektidir, potensial işçi qüvvəsidir, əmək bazarının resursudur, lakin onun sayı qədər keyfiyyəti də önəmlidir. Sayı demoqrafik proseslərdən asılı olduğu kimi, keyfiyyəti də aldığı tərbiyə və təhsil səviyyəsindən asılıdır. Deməli, hər şeydən öncə müəyyən sayda insan resurslarının olması, sonra bu resursların təhsil sistemi vasitəsilə cəmiyyətdə düzgün mövqeyə hazırlanması, yəni yüksək təhsilli, peşə bacarıqlarına və ixtisasa malik əmək ehtiyatlarına çevrilməsi, son nəticədə isə səmərəli məşğulluğunun təmin edilməsi məsələsi gəlir.

Şahbaz Muradovun qeyd etdiyi kimi, əhalinin say və tərkibində baş verən dəyişikliklər demoqrafik proseslərdə, demoqrafik proseslərdə baş verən dəyişikliklər isə əhalinin və onun tərkib hissəsi olan əmək ehtiyatlarının hərəkət dinamikasında öz əksini tapır. Yəni, əhali ölkənin əmək ehtiyatlarının formalaşması və müxtəlif fəaliyyət dairələrinin iş qüvvəsi ilə təmin edilməsinin təbii mənbəyini təşkil edir.

Bütün bunları nəzərə alaraq respublikamızdakı demoqrafik vəziyyəti qısaca şərh edək. Cədvəl 2-dən göründüyü kimi 2000-ci ildən 2017-ci ilədək əhalinin sayı tədricən (22.1%) artmışdır. Əhalinin artımına müvafiq olaraq baxılan dövrdə kişilərin sayında 24.6 faiz, qadınların sayında isə 19.8 faiz artım qeydə alınmışdır. Göründüyü kimi kişilərin artım faizi qadınlara nisbətən 4.8 faiz bəndi çoxdur. Buna görə də 2000-ci ilə nisbətən 2017-ci ildə qadınların sayında 1.0 faiz bəndi azalma müşahidə olunur. Qeyd edək ki, əhalinin təkrar istehsalı ümumi göstəricilərini müqayisə etdikdə də yeni doğulanlar arasında oğlan uşaqlarının sayının üstünlük təşkil etdiyini görmək olar. Bu qeyri-mütənasiblik əsasən sosial-psixoloji səbəblərlə bağlıdır, yəni, seçim imkanı yarandıqda əhalinin əksəriyyətinin oğlan uşaqlarına üstünlük vermə ənənəsi ilə xarakterizə olunur. Xüsusilə son vaxtlar texnika və texnologiyaların inkişafının düzgün dəyərləndirilməməsi nəticəsində təəssüf ki, arzuolunmaz qız uşaqlarının dünyaya gəlməsini əngəlləmə halları çox rast gəlinmişdir. (Əhalinin cins tərkibinin dəyişməsi gələcəkdə milli-etnik tərkibində də dəyişikliklərə səbəb ola bilər.)

15-29 yaşda gənclərin say dinamikasına baxsaq analoji halla qarşılaşarıq. Belə ki, onların sayı 2017-ci ildə 2000-ci illə müqayisədə 17.2 faiz artsa da, əhalinin ümumi sayına nisbətdə 1.0 faiz bəndi azalaraq 2017-ci ilin əvvəlinə əhalinin 25 faizini təşkil edir. Ayrı-ayrılıqda 15-19; 20-24; 25-29 yaş qrupları üzrə gənclərin say dinamikasına baxsaq görərik ki, digər yaş qruplarında illər üzrə tədricən artma (yalnız bəzən azalma) müşahidə olunduğu halda 15-19 və 20-24 yaş qrupuna aid gənclərin sayında əvvəlki illərə nisbətən azalma vardır. Analoji hal 10-14 yaşlı uşaqlara da aiddir.Qeyd olunan məsələlərə təbii artım səviyyəsinin dəyişməsi öz təsirini göstərir.

Cədvəl 1.

Azərbaycan Respublikası əhalisinin dinamikası sayı *(min nəfər)* və quruluşu (%)

İllər	əhalinin sayı (ilin əvvəlinə)	əhalinin ümumi artımı, %	əhalinin ümumi sayında		bütün əhaliyə nisbətən qadınlar, %	15-29 yaşda gənclər		bütün əhaliyə nisbətən, %	
			kişilər	qadınlar		Sayı	ümumi saya %	şəhər əhalisi	kənd əhalisi
2000	8032.8	1.0	3927.0	4105.0	51.1	2088.0	26.0	51.1	48.9
2005	8447.4	1.3	4156.2	4291.2	50.8	2399.0	28.4	52.4	47.6
2010	8997.6	1.3	4455.5	4542.1	50.5	2664.3	29.6	53.1	46.9
2011	9111.1	1.4	4517.1	4594.0	50.4	2665.0	29.3	53.0	47.0
2012	9235.1	1.3	4583.5	4651.6	50.4	2662.0	28.8	52.9	47.1
2013	9356.5	1.3	4648.8	4707.7	50.3	2637.3	28.2	53.1	46.9
2014	9477.1	1.2	4713.5	4763.6	50.3	2606.7	27.5	53.2	46.8
2015	9593.0	1.2	4775.8	4817.2	50.2	2564.5	26.7	53.1	46.9
2016	9705.6	1.1	4835.6	4870.0	50.2	2509.9	25.8	53.1	46.9
2017	9810.0	1.1	4891.2	4918.8	50.1	2447.7	25.0	53.0	47.0
2000-2017-ci illərdə, %	122.1	0.1	124.6	119.8	-1.0	117.2	-1.0	1.9	-1.9

Mənbə. Azərbaycanın demoqrafik göstəriciləri 2017. Statistik məcmuənin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.[2, s.41, 47, 48, 50]

Yaxın keçmişə (1990-cı ildən sonra) nəzər salsaq, ən yüksək doğum və təbii artım göstəricisi 1991-ci ildə müşahidə olunmuşdur: yeni doğulanların sayı - 190353 nəfər, təbii artım - 145694 nəfər. Əhalinin hər 1000 nəfərinə düşən doğum sayı- 26.6, təbii artım isə 20.4 nəfər təşkil etdiyi halda, 2016-cı ildə bu nisbət müvafiq olaraq 16.5 və 10.6 nəfər olmuşdur.

Beləliklə, həm doğum səviyyəsində, həm də təbii artımda 1992-ci ildən 2002-ci ilə qədər azalma, 2002-ci ildən 2011-ci ilədək artım, son illərdə isə yenidən azalma tendensiyaları müşahidə olunmaqdadır.

Ölüm səviyyəsi isə son illərdə 2010-cu ilə nisbətən daha yüksəkdir. Məsələn, 2010-cu ildə 165643 doğum, 53580 ölüm faktı qeydə alınmışdısa, 2016-cı ildə doğumun daha az- 159464 nəfər olmasına baxmayaraq ölüm faktı 2010-cu ildəkindən daha çox- 56648 nəfər təşkil etmişdir. Bunun nəticəsi kimi təbii artım göstəricisi 2010-cu ildə 112063 nəfər (hər 1000 nəfərə 12.5), 2016-cı ildə isə cəmi 102816 nəfər (8.3 % az) olmuşdur. Təəssüflə qeyd etməliyik ki, son illərdə ölüm faktlarının çoxalması bir tərəfdən sağalmaz xəstəliklərin artması ilə bağlıdırsa, digər tərəfdən də qəzaların, bədbəxt hadisələrin, xüsusən yeniyetmə və gənclər arasında intihar və qətltörətmə hallarının artması ilə bağlıdır.

Bütün bunlar isə son nəticədə əmək ehtiyyatlarının tərkibində gənc nəslin, eləcə də əmək potensialının və təhsil alanların sayının azalmasına gətirib çıxarır. Ona görə

də mövcud potensialdan daha səmərəli istifadə etmək lazımdır.

Son iki ildə təbii artımın əvvəlki illərə nisbətən aşağı olmasına baxmayaraq ölkə əhalisinin sayında tədricən artım vardır, bu artıma miqrasiya, yəni, ölkəyə gələnlərin sayının çoxalması, ölkədən gedənlərin isə azalması da öz təsirini göstərir. (Bunu cədvəl 2.-nin göstəricilərindən də görmək mümkündür).

Şəhər və kənd əhalisinin dinamikasına baxdıqda görürük ki, onların nisbəti cüzi olaraq dəyişmişdir, 2017-ci ildə müvafiq olaraq 53 faiz və 47 faizdir. Müqayisəli yanaşsaq 2000-ci ilə nisbətən şəhər əhalisinin sayı 1.9 faiz bəndi artmışdır.

Hesab edirik ki, regionların inkişaf proqramlarının icrası ilə əlaqədar bölgələrdə yeni müəssisələr yaradıldıqca, o cümlədən də kənd təsərrüfatında yeni iş yerləri açıldıqca regionlara axın sürətlənəcək və bütün bunların nəticəsi kimi kənd əhalisinin sayı artacaq. Özünüməşğulluq tədbirlərinin həyata keçirilməsi, ABAD layihəsinin icrası bu fikrə gəlməyə əsas verir. Sadəcə olaraq bu cür fəaliyyətlərin sürətləndirilməsi və əhatə dairəsinin artırılması lazımdır.

Cədvəl 2.

Miqrasiya göstəriciləri

1990	**1995**	**2000**	**2005**	**2010**	**2011**	**2012**	**2013**	**2014**	**2015**	**2016**
	Daimi yaşamaq üçün Azərbaycana gələnlər									
84279	6222	4361	2013	2228	2181	2172	3129	1859	2649	3233
	Daimi yaşamaq üçün Azərbaycandan gedənlər									
137900	16033	9947	2906	799	484	226	781	795	1557	1711
	Fərq									
-53621	-9811	-5586	-893	1429	1697	1946	2348	1064	1092	1522

Mənbə: Azərbaycanın demoqrafik göstəriciləri. Statistik məcmuə. Bakı 2017. [2, s. 439, 440]

Cədvəldən göründüyü kimi 1990-cı ildə ölkədən çıxıb gedənlərin sayı daha çoxdur, o da həmin dövrdəki siyasi-iqtisadi vəziyyətlə izah oluna bilər. 2010-cu ildən başlayaraq ölkəyə daimi yaşamaq üçün gələnlərin sayı gedənlərin sayını üstələyir. Bu isə Azərbaycanda siyasi sahədə olduğu kimi sosial-iqtisadi baxımdan da əlverişli şəraitin formalaşdığını göstərən amillərdən biri hesab oluna bilər.

ARDSK-nin 01.01.2018-ci il tarixinə olan məlumatlarına əsasən ölkə əhalisinin sayı 88104 nəfər, başqa sözlə 0,9% artaraq 9898085 nəfər olmuşdur. 144041 doğum, 57109 ölüm faktı qeydə alınmışdır ki, bu da təbii artımın 86932 nəfər olduğunu göstərirsə, deməli qalan (88104-86932=1172) 1172 nəfər artım miqrasiyanın hesabınadır.

Cədvəl 1.-dən də gördüyümüz kimi, ölkə əhalisinin tərkibində 15-29 yaşlı gənclərin sayı və xüsusi çəkisi əvvəlki illərə nisbətən son illərdə azalmışdır. Analoji hal müvafiq olaraq əmək ehtiyatlarının tərkibində də özünü göstərir. Buna görə də mövcud potensialdan daha səmərəli istifadə olunması üçün peşə-ixtisas təhsilinin həm kəmiyyətcə, həm də keyfiyyətcə yaxşılaşdırılması ən aktual məsələlərdən birini təşkil edir. Bunun üçün də Dövlət proqramlarında və digər strateji sənədlərdə peşə təhsili sisteminin təkmilləşdirilməsi və məşğulluğun artırılması məqsədilə nəzərdə tutulan prioritetlərin əhatəli və səmərəli şəkildə həyata keçirilməsi davam etdirilməlidir.

Aliyeva I.Z.,
Ph.D, senior teacher
Baku Business University

THE IMPORTANCE OF LEARNING FOREIGN LANGUAGES

At first you might think what is the importance of learning languages that you don't have any experience with? Then you might think what language means. The definition of language is a system of communication used by a particular country or community. In today's era, multilingualism has become more than just 'important'. Knowing a foreign language other than your native language has evolved to be extremely beneficial. Whether viewed from the financial or social aspect, being able to communicate in a foreign language helps to make 'real' connection with people and provides a better understanding of your language.

The origin of languages.

For many of us this question might be very interesting. How did we get from animal vocalization to human language? Additionally, language is a system of symbols, with not many levels of organization, at least phonetics, syntax and semantics. There are many theories about the origins of languages. Here are some of the examples: Number one: The mama theory: Language had begun with the simplest syllables attached to the most significant objects. Number two: the tata theory: Sir Richard Paget who was influenced by Charles Darwin believed that the body exercise introduced a language. The language had begun as an unconscious vocal duplicate of these movements, an example for that would be like the way a child's mouth will move when they use scissors. Number three: The bow wow theory: As many of us know that language began as duplicates of natural sounds like moo, choo-choo, crash, clang, buzz, bang and meow. This is technically introduced as onomatopoeia or echoism. Number four: The ding-dong theory: A number of people including Max Muller, the famous linguist has also pointed out that there is a rather mysterious connection between the sounds and meanings. And the last example which is number five: The yo-he-ho theory: The language had begun as rhythmic chants, perhaps basically from the grunts of heavy work. The linguist A. S. Diamond suggests that these were perhaps calls for assistance or the assistance followed by appropriate gestures. This may relate yo-he-ho to the ding-dong theory as in such words as cut, break, crush and strike.

The importance of foreign languages can be organized as following:

1. ***Open Up a World of Job Opportunities***

Learning a second language opens up a ton of career opportunities. The world is changing fast. More companies than ever are doing business in several – often dozens of – countries around the world, but they can't do it without hiring globally-minded people who can speak at least one foreign language. Even in small, local companies, chances are that the ability to speak a second language will set you apart from other

applicants.

2. Give Your Brain a Boost

Speaking a second language each day really can keep the doctor away! Study after study has demonstrated the cognitive benefits of learning another language, no matter how old you are. Memory improvement, longer attention span, and a reduced risk of age-related cognitive decline, are just a few of the known positive effects of speaking two or more languages.

3. Establish Deep Connections and Cross-Cultural Friendships

You can't learn every language in the world and have an intimate knowledge of every single culture out there. But if there's even *one* culture that you'd like to understand better, or even one *person* in your life you'd like to know better, then one of the best ways you can start is by learning to speak their language.

4. Get an Outsider's Perspective about Your Own Culture

Trying to understand your own culture exclusively from within it is like trying to understand what any word is like if you've only ever used it.

5. Become More Interesting and Meet More Interesting People

If your first language is Azerbaijani, English, Russian, French or German, and yet you've made the effort to learn another language rather than expecting the world to accommodate your monolingualism, then you're a rare breed indeed. This makes you interesting. People will approach you. They'll want to talk to you. They'll want to know what motivated you to "bother" learning another language.

6. Stay Smart in Touristed Areas

There's always a danger of obvious tourists being targets, or getting hassled by touts, which can ruin your experience of a place where people are actually warm and genuine. The "obvious tourist" tends to be whoever is speaking English, or some other distant tongue.

7. Become a Better Learner

As you spend time learning your first foreign language, you'll identify your own inefficiencies and eliminate them. You'll start gaining momentum in your chosen language and learn more and more quickly. Then you'll be able to hit the ground running with the next language. You'll be on your way to

8. Bring Out Your Inner Emotions

This may sound surprising, but studies have shown that when you make a decision in your second language, you're more likely to think logically and avoid basing your decision on emotion. Humans are emotional creatures. Everyone is guilty of making decisions too hastily and too emotionally. But if you learn to speak another language, you'll learn to think in that language. And when you think about your decisions in a foreign language, that emotional bias tends to go away and you end up choosing the more logical outcome.

The advantages of learning a foreign language.

The advantages of learning a new language is a lot. One of the most outstanding

benefits of learning a new language is the doors are opened to you around the world. Being experienced with a language is very good help on your vacation destination, traveling to foreign countries becomes clearer if you are able to speak the language of that place. As you begin to learn a second language, you build up your skills to repeat the process with multiple languages. This is called "metalinguistic awareness," where your brain masters to find the techniques of learning a language and break them down into sets of steps. When a new skill is mastered confidence is being gained, and learning an unfamiliar language isn't any different. Studying a new language increases not only your skills to solve problems and to think a lot more logically, it also makes you investigate with new words and phrases. The other important decision is to choose from the number of foreign languages – French, Spanish, German, or Italian- to be learnt. Whether you learn a language for a specific reason or out of interest, learning a foreign language will lead to long-term success. It will open up new avenues before you. The more language you know, the better you can express yourself.

The disadvantages of learning a foreign language

Learning a new language might be expensive especially if you take college courses or pay for tutoring. Studying a new language can be tough. Learning a lot of new vocabulary words aren't simple. A lot of languages don't have similar systems of grammar and some languages use an absolutely different alphabet and different sounds. Learning a new language needs an important deal of your time, effort and money. Instead you could do something else with those belongings like spend time to improve your language skills, spend time with your family, build up your reading speed, you can study for the SAT and do lots more. To know a foreign language might not be useful for a number of people. For some careers it's very important but for some careers it's not helpful at all.

Tips for learning a foreign language.

One of the special aspects of learning foreign languages is to know the tips for learning any foreign language. They are below:

1. Make realistic, specific goals
2. Remind yourself why you are learning
3. Focus on exactly what you want to learn
4. Read for pleasure
5. Learn vocabulary in context
6. Ignore the myths: age is just a number
7. Do some revision of your native language
8. Don't underestimate the importance of translation
9. Go to where the language is spoken

Everyone has their own unique reasons for wanting to learn another language. But while the reasons may be different, they can all be put into action in the same way: by committing to stop making excuses, and to start speaking the language you have always wanted to learn.

Vəliyeva Z., elmi işçi
Respublikanın Əməkdar Müəllimi

AZƏRBAYCAN DİLİNİN QORUNMASI SOSİAL ZƏRURƏTDİR

"Azərbaycan xalqının dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir".
Heydər Əliyev

Ana dili hər bir xalqın, millətin varlığıdır. Hazırda hər bir xalq etnos özünəməxsusluğunu, milli ruhunu və mənəvi irsini qorumağın ümdə şərtlərdən biri kimi ana dilini yad təsirlərdən, assimlyasiyadan qorumağa çalışır. Dünyanın müxtəlif yerlərində yaşayan xalqlar dil amilini tarixi mədəniyyətin və digər özünəməxsus xüsusiyyətlərin kompleks halında birləşdiyi unikal hadisə kimi dəyərləndirirlər. Dilin suveren xarakterə malik olduğunu təsdiqləyən əsas amillərdən biri də budur ki, o istənilən xalq və ya etnos üçün ən ümdə fərqlənmə etalonu kimi qəbul edilir. Milliyyətin təyinində ən mühüm amil olması səbəbindəndir ki, dillə millət məfhumları çox vaxt eyni anlamda qavranılır. Bu prinsip, demək olar ki, bütün sosioloq, kulturoloq və digər fikir adamları tərəfindən mənimsənilmişdir. Dil birliyi təmin edilməyən bir cəmiyyətdə milli kimlik və milli şəxsiyyət axtarışı da mənasızdır. Azərbaycan milli dilin təmizliyinin qorunmasına çalışır. Ana dilinə yüksək məhəbbət, azərbaycançılıq ideologiyasının milli mahiyyətini açmaqla yanaşı, xalqımızın etnik fərdiliyini özündə təcəssüm etdirən mühüm amildir. Azərbaycan dilinin dövlət dili olaraq işlədilməsi müstəqil dövlətçiliyimizin mühüm atributlarından biri kimi həm də dünya azərbaycanlılarının milli-mədəni özünü ifadə ehtiyaclarının ödənilməsinə imkan yaradır. Bir millətin, xalqın varını, dövlətini əlindən alsan, o millət ölməz, yaşayar. Ancaq ana dilini əlindən alsan, həmin millət məhv olar, ondan əsər-əlamət qalmaz. Xalqımız tarix boyu müxtəlif təsirlərə, ərazi işğalına məruz qalsa da, ana dilinin özünəməxsusluğunu, zənginliyini və saflığını qoruyub saxlamışdır. Milli ideallara bağlı şəxsiyyət olan Heydər Əliyev dühası hələ respublikaya birinci rəhbərliyi dövründə böyük vətənpərvərliklə, siyasi iradə və əzmlə nəinki ana dilinin sıxışdırılmasına yol verməmiş, eyni zamanda, onun inkişafına xidmət edən çoxsaylı tədbirlər həyata keçirmişdir. Ümummilli lider Heydər Əliyev çıxışlarında dilimizin saflığının, mənəvi zənginliyinin qorunmasını gənc nəslə tövsiyə edirdi. Xüsusən vurğulayırdı ki, Azərbaycan dili dünyanın inkişaf etmiş dillərindən olduğundan müasir dövrün ən müxtəlif ictimai-siyasi, elmi-mədəni, fəlsəfi intellektual məzmun və hadisələri, informativ mənzərəsi bu dildə çevik şəkildə, səlisliklə əksini tapa bilir. Dilimizin gözəlliyi, rəvanlığı, obrazlılığı və ən dərin mətləbləri ifadə etmək imkanları hətta əcnəbilər tərəfindən də dəfələrlə qeyd olunmuşdur. Azərbaycan dili minillər, yüzillər boyu xalqın varlığını yaşatmış əvəzsiz hadisədir. Hansı ölkədə yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı gənc öz ana dilini, milli ənənələrini öyrənməli, onları təbliğ etməlidir. Ümummilli lider Heydər Əliyevin hər çıxışında dilimizin zənginlikləri, incəlikləri aşkara çıxır, ədəbi dilin normalarına heyrətamiz dərəcədə əməl olunurdu.

Ulu öndər Azərbaycan dilinin qorunması və inkişafına dövlət siyasətinin tərkib hissəsi kimi yanaşırdı. Azərbaycan Gənclərinin I Forumunda Heydər Əliyev gəncləri

ana dilini dərindən mənimsəməyə çağırmış, özünəməxsus müdrikliklə onlara Şekspiri ingilis, Puşkini rus, Nizamini, Füzulini, Nəsimini isə Azərbaycan dilində oxumağı tövsiyə etmişdi: "Məni bu gün bu forumda sevindirən cəhətlərdən biri də o oldu ki, çıxış edən bütün gənclər çox sərbəst, səlist Azərbaycan dilində danışırdılar. Bilirsiniz, bir neçə il bundan öncə bunu görmək mümkün deyildi.Heydər Əliyev hesab edirdi ki, ana dilini bilməyən, bu dildə zəngin ədəbiyyatı oxumayan, tariximizlə, mədəniyyətimizlə, adət-ənənələrimizlə yaxından tanış olmayan gənc əsla vətənpərvər ola bilməz. Ümummilli lider Azərbaycan dilini müstəqil dövlətçiliyin əsas rəmzlərindən saymaqla, onun inkişafı, zənginləşməsi və saflaşması, habelə gənclər tərəfindən mükəmməl mənimsənilməsi naminə xüsusi tədbirlər həyata keçirmişdir. Bu istiqamətdə atılmış ilk mühüm addımlardan biri 18 iyun 2001-ci ildə "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərmanın imzalanması olmuşdur. Həmin fərmanda Azərbaycan Prezidenti yanında Dövlət Dil Komissiyasının yaradılması da nəzərdə tutulurdu. Dünyanın heç bir dövlətində analoqu olmayan belə bir qurumun yaradılması ana dilimizin tətbiqi işinin təkmilləşdirilməsinə daha effektli şəkildə nəzarət etmək və bu prosesi ümummilli maraqlar kontekstində tənzimləmək məqsədi daşımışdır. Fərmanda, həmçinin, Azərbaycan dilinin tarixi inkişaf yolları, habelə müstəqil dövlətçilik atributu kimi rolu və funksiyası göstərilmiş, on il ərzində tətbiqi vəziyyəti hərtərəfli nəzərdən keçirilmişdir. Dilimizin qədim tarixinə obyektiv elmi-tarixi qiymət verən, habelə türk köklü bir dil olmasını təsdiqləyən, onun əsas təkamül mərhələlərini, inkişaf yollarını dahiyanə bir müdrikliklə, elmi-nəzəri əsaslarla izləyərək son söz deyən, rəsmi dövlət münasibəti bildirən bu fundamental tarixi sənəd Heydər Əliyevin ana dilimizin inkişafına göstərdiyi qayğının əyani təcəssümü kimi tarixiləşmişdir. 2001-ci il avqustun 9-da ulu öndər "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" fərman imzalamış, beləliklə, latın qrafikalı Azərbaycan əlifbasına keçid reallaşmış, respublikada bütün yazılı sənədləşmələrin heç bir istisnaya yol verilmədən bu qrafika ilə aparılması təmin edilmişdir. Ulu öndər Heydər Əliyevin 2003-cü ilin 2 yanvar tarixli fərmanı ilə "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının qanunu qüvvəyə minmişdir. Bu qanunda təhsil sahəsində başqa dillər üçün də geniş imkanlar açılmışdır. Lakin bu o demək deyil ki, sözügedən qanun digər dillərin tətbiqinə məhdudiyyət qoymamaqla Azərbaycan dilinin imkanlarını azaldır. Əksinə, qanuna görə, başqa dillərdə tədris aparan təhsil müəssisələrinin hər birində Azərbaycan dilinin tədrisi məcburi xarakter daşıyır. Qanunda, həmçinin, kütləvi informasiya vasitələrinin yazı üslubunda, televiziya və radio aparıcılarının nitqində, dublyaj və tərcümələrdə ana dilimizin normalarına əməl olunmasına dair bir sıra məcburi tələblər var və bu da Azərbaycan dilinin qorunmasına dövlət səviyyəsində ciddi önəm verildiyinin bariz göstəricisidir. "Alternativ psixologiya" yeni bir elmdir. Şüurun məhsulu kimi formalaşmış bu elm insana müasir elmlərin alternativ prizmasından baxışda ən şüurlu seçimə əsas verir, cəmiyyətdə layiqli yer tutmaqda və yaranmış problemlərin həllində ona kömək edir. 2003-cü ilin mart ayının 3-də Moskva şəhərində müəlliflik şəhadətnaməsi almış (№6274) "Alternativ psixologiya" elmi (elmin müəllifi tibbi-bologiya elmləri doktoru, professor, Azərbaycan Təhsil İnstitutunun "Psixogigiyena və tibbi, psixoloji diaqnostika laboratoriyası"nın müdiri İbadov Yaşar Saday oğludur.) şifahi xalq yaradıcılığından bu günə qədər təkamül yolu keçmiş

müasir elmlərin çərçivəsində inteqrasiya xəttində formalaşmış elm insana cəmiyyətdə layiqli yer tutmaqda və yaranmış problemlərin həllində kömək edir. "Alternativ psixologiya"nın tətbiqi hal-hazırki vaxtda insan psixikasını öyrənmək üçün bütün əsas funksiyaları özündə birləşdirən, bütün mümkün ünsiyyət formalarını üzə çıxaran metodalogiyası ilə fərqlənir. Hazırki situasiyada belə bir nəticəyə gəlmək olar ki, psixoqramma dili dilçiliyin tələblərini ödəyir. Alınmış psixoqramma səssiz ünsiyyətin psixi yazısıdır. Bu ünsiyyət növü dünyada ilk dəfə təcrübədən keçirilir. Çünki, bu yazı forması bizə tanış olan ünsiyyət növlərindən heç birinin köməyinə müraciət etmədən informasiya verir. Bu dilin xüsusiyyəti məlumatı almaq və ötürməkdir. Psixoqrammanın əsasında psixoqrafiyanın əlifbasını işləyib hazırlamaq və bu əsasda təbiətin özünün dilini - simvollarının, enerjinin verbalizasiyasız hərəkətinin dilini yaratmaq üçün ilkin şərait vardır. Nümunə kimi belə dilin ilkin formasını – Qobustan qayalarındakı qrafik təsvir-şəkil məlumatları misal göstərə bilərik. Psixoqrammanın dili dedikdə oradakı elementlərin mənasını başa düşmək və onu öz dilində ifadə etmək nəzərdə tutulur. Psixoqrammanın dilində təsvir və yazılı ifadə var. Bu yazının elə bir formasıdır ki, orada şəkil yazılardan, obrazlı ifadədən, simvolikadan hətta müxtəlif əlifbalara aid hərf və rəqəmlərdən istifadə edilir. Əgər təkamül prosesində insanın yaranmasında ünsiyyət vasitəsi kimi səsdən istifadə edilibsə bu ünsiyyətdə iki duyğu üzvü iştirak edir. Danışıq aparatı və eşitmə aparatı. Ünsiyyətdə elə çətinliklər olub ki, onu səslə çatdırmaq mümkün olmayıb. Buna görə qrafik təsvirdən, piktoqrammadan, fikir yazılarından istifadə etmək taləbatı yaranıb. Bu ünsiyyətin gözlə görünüb şüur və təfəkkürün gücü ilə dərk edilə bilən bir forması deməkdir. Yəni burada görmə və digər duyğular işə düşür. Təkamülün davamı ilə şifahi xalq yaradıcılığından yazılı ədəbiyyata keçid ünsiyyətinin formalaşmasının ən geniş yayılma xətti olmuşdur. Ancaq yazı dilin atributu kimi səsdən qabağa düşdüyü xətlər vardır ki, bu xətlər özünə məxsus xüsusiyyətləri ilə seçilir. Bu yazı təkamül prosesində yazı mədəniyyətinin formalaşmasında və müxtəlif əlifbaların yaranması prosesində müxtəlif dərəcədə öz təsirini göstərmiş və bu günki, semiotikada öz cizgilərini saxlayır. Bu gün insanların psixoloji mənada problemlərini psixikanın öz dilində öyrənməyin yolu açılır.

Hər bir dil cəmiyyətin, dövlətin inkişaf xüsusiyyətlərinə adekvat olaraq təkmilləşir, zənginləşir, ictimai həyat reallıqlarını daha dolğun ifadə etmək imkanı qazanır. İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Azərbaycan dili bu gün dərin fikirləri ən incə çalarlarınadək, olduqca aydın şəkildə ifadə etmək qüdrətinə malik dillərdəndir. Azərbaycan dilinin dünya dilləri arasında ən kamil dillərdən biri olduğu həqiqətini bir çox xalqların görkəmli nümayəndələri də dönə-dönə etiraf etmişlər. Dünyanın ən şirin, mükəmməl, zəngin və poetik dillərindən olan Azərbaycan dilinin saflığını, büllurluğunu göz bəbəyi kimi qorumaq, milli sərvətimizin keşiyində ayıq-sayıq dayanmaq hər bir vətəndaşın müqəddəs borcudur. Unutmamalıyıq ki, milli varlığımızın, birliyimizin, mədəniyyətimizin ən davamlı daşıyıcısı ana dilimizdir. Azərbaycan dili xalqımızın mənəvi sərvəti, dünya azərbaycanlılarının həmrəyliyinin sarsılmaz təməli, dövlətimizin müstəqilliyinin başlıca rəmzlərindən biridir: Hər bir azərbaycanlı tarixin ayrı-ayrı dövrlərində dilimizin dövlət dili kimi fəaliyyət göstərməsindən böyük qürur hissi keçirir. Bu gün dilimizin qorunması və qayğı ilə əhatə olunması müstəqil Azərbaycanın hər bir vətəndaşının müqəddəs borcudur.

Əkbərova Ə.B.,
baş müəllim
Azərbaycan Dövlət Pedaqoji Universiteti

XARİCİ DİLİN ÖYRƏNİLMƏSİNDƏ MƏQSƏD VƏ ÜSULLAR

Bu gün biz gündən – günə inkişaf edən kosmopolit bir cəmiyyətdə yaşayırıq. İnternet bizə dayanmadan dünyanın 4 tərəfi ilə əlaqə saxlamağa, müxtəlif dilli adamlarla əlaqə yaratmağa şərait yaradır. Yalnız bir dil bilmək bizim əsrimizə bəs etmir. Hər hansı bir şəraitdə çalışmaq üçün gərək bir neçə dil biləsən. Hazırda həyatımızın əsas motivasiyası xarici dil bilməkdən başlayır. Çünki, hər hansı bir xarici dildə danışmaq bizə başqa mədəniyyətləri kəşf etməyə, sərbəst səyahətlərə çıxmağa, insanlarla ünsiyyət yaratmağa şərait yaradır. Bu zaman asanlıqla özümüzə dostlar qazanır, ətrafımızla ünsiyyət qurmağa, bağlı qapıları açmağa nail oluruq. Özümüzü digər ölkələrdə qərib hiss etmirik. Yaxşı deyiblər: "Hər kim neçə dil bilirsə, həmin sayda adamdır".

Xarici dil öyrənmək çox vaxt tələb edir. Dil öyrənmək istəyən öz motivasiyasını məqsədli qurmalı, möhkəm iradəli olmalıdır. Öyrəndiklərinə aid tapşırıqlar etməli, çoxlu filmlər, diafilmlər, seriallar izləməli, dialoqlara qulaq asmalı, təkrara geniş yer verməlidir. Əhatəsi ilə əlaqəyə girməli, həmişə dil mühitinə qatılmalıdır. Heç vaxt ruhdan düşməməli və qətiyyətli olmalıdır. Hər gün müəyyən vaxt ərzində dil üzərində çalışmaq, həftədə bir dəfə saatlarla işləməkdən faydalıdır. Öyrəndiklərimizi dəfələrlə düzgün tələffüz etməklə ucadan təkrarlanmalıdır.

Bunun üçün mümkün qədər ucadan oxuyun və çox təkrarlayın. Öyrəndiyiniz dildə kitablar, məqalələr, qəzetlər oxumağa səy göstərin. Mahnılara, şerlərə qulaq asın. Yalnız eşitmə, təkrarlama və ünsiyyət sizə yardımçı olacaq. Yadda saxlayın ki, danışmaq üçün qrammatik qaydalar toplusunu əzbərləmək önəmli deyil, qaydalar tədricən öz yerini tutacaqdır.

Təklik dil öyrənməyin düşmənidir. Dil mühitində siz daha yaxşı püxtələşirsiniz. Öyrəndiklərinizi başqaları ilə bölüşə bilir, dili işlək mexanizmə çevirirsiniz. Dil bilənlərlə diskussiyalara girin, buna cəhd edin. İlk addımda sizin qarşınızda yeni bir dünya açılır. Başlanğıc sizə uçmağa qanad verir. Siz yeni dünyaya yeni dillə açar qazanırsınız. Bu açar sizi yeni uğurlara, yeni aləmə aparacaq.

Dilə cütlükdə daha yaxşı yiyələnmək olur. Gündəlik dialoqlar, həyati tələbatlar dilinizi texniki cəhətdən istiqamətləndirir, aranızda yaxşı danışmaq uğrunda rəqabət yaradır. Tez-tez kafedə, restoranda, mağazalarda olmaq sizdə dil vərdişləri aşılayır. Heç vaxt səhv etməkdən qorxmayın. Belə deyirlər: "İməkləməsən, addımlamazsan". Öyrəndiklərinizi yadda qalana qədər təkrarlayın. Hər gün 1-2 saat məşğul olun. Örənmək istədiyiniz dili bilən adamla dostluq edin. Qonaq gedin, qonaq çağırın. Nəzakət ifadələrini, dil etiketlərini sürətlə öyrənin. Saymağı, kiçik serləri, ümumişlək felləri şəxsə görə dəyişin və kiçik cümlələrdə işlədin.

Dunyada 6 aktiv dil qəbul edilmişdir: ingilis, alman, yapon, ispan, rus və fransız. Fransız dili bu dillər sırasında sayılırsa, deməli öyrənməyə dəyər. Siz bu dili öyrənməklə Avropa qapılarını açırsınız.

Dil öyrənməyin 10 qızıl qaydası var:

- konkret fikirlərlə motivasiya yaratmaq;

- gündə 15-30 dəqiqə məşğul olmaq;
- ilk günlərdən danışmağa səy göstərmək;
- əhatənizlə ünsiyyətə can atmaq;
- dil mühiti yaratmağa çalışmaq;
- öyrənmə proqramını gündəlik həyata uyğunlaşdırmaq;
- dil verilişlərini dinləmək, filmlərə, seriallara baxmaq, mahnılara qulaq asmaq;
- treninqlərə qatılmaq;
- həyatınızı tənzimlədiyiniz kimi, dil proqramınızı da tənzimləmək;
- öyrənmək həvəsini axıra kimi davam etdirmək.

İnsanların qədim zamanlardan xarici dilləri öyrənməyə can atması sübuta ehtiyacı olmayan bir həqiqətdir. Xüsusilə son dövrlərdə bu məsələ daha aktualdır. Qloballaşan dünyada sərhədlərin açıldığı hər bir sahədə - əməkdaşlıq əlaqələrinin qurulmasına, geniş imkanlar yarandığı müasir dövrdə dil artıq bir zərurətə çevrilib.

Bu gün təhsildə həm forma, həm də məzmunca ciddi dəyişikliklər gedir. Milli təhsil sistemi yaradılır, beynəlxalq təcrübəyə əsaslanan yeni təhsil formalaşır. Müəllim – şagird münasibətləri yenidən qurulur.

Buna görə də ümümtəhsil məktəblərində mövzunun mənimsənilməsində, tədris keyfiyyətinin yüksəldilməsində xarici dil müəllimlərinin qabaqcıl iş təcrübəsi, metodik ustalığı, həm nəzəri, həm də praktik biliyin şagirdlərə aşılamaq bacarığı mühüm əhəmiyyətə malikdir.

Xarici dil öyrənmək istəyənlərə 4 əsas cəhət: dinləyib anlamaq, oxumaq, danışmaq və yazmaq vərdişləri aşılamaq vacibdir. Dili dildən öyrənmək daha asan olur. Yəni, dil mühitində daha tez öyrədilir. Bu mühiti müəllim yaratmalıdır. Elə priyomlardan istifadə etməlidir ki, şagird daxilən bu dili öyrənməyə ehtiyac duysun ki, özü haqqında məlumat versin, digərlərindən soruşsun və s.

Xarici dilin öyrənilməsində bir neçə faktor əhəmiyyət kəsb edir: dil mühiti, motiv, tədrisin məzmunu, müəllim hazırlığı və s.

Müəllim dərsdə dil mühiti və motivi yarada bilmirsə, özü yaxşı danışa bilmirsə, heç vaxt istəyinə nail ola bilməz. Müəllim yaxşı başa düşməlidir ki, dərslik yeganə bilik mənbəyi deyil, yalnız onlardan biridir.

Bu gün XXI əsrin qloballaşma, bazar iqtisadiyyatı, informasiya bolluğu, İKT, tez-tez dəyişən həyat tərzi, şəxsiyyət azadlığı, ömrü boyu oxumaq, çox dil bilmək zərurəti şəraitində xarici dili çox öyrənməyin əhəmiyyətini başa düşən, onun vacibliyini qabaqcadan görən şagird əlbəttə dil öyrənməyə maraq göstərəcəkdir.

Xarici dilə yiyələnmə şagirdlərin humanitar təhsil səviyyəsini yüksəldir, şəxsiyyətin formalaşmasına geniş imkanlar yaradır. Bu səbəbdən də tədris fənni kimi xarici dilin statusu artır, ixtisas müəllimlərindən böyük məsuliyyət tələb olunur.

Müəllimin təlimdə dəstəkləyici mühit yaratması xarici dilin daha səmərəli tədrisinə yol açır. Dəstəkləyici mühitin yaranması dedikdə pedaqoji prosesin münasib maddi – texniki baza əsasında və sağlam pedaqoji – psixoloji mühitdə təşkil edilməsi nəzərdə tutulur.

Bir sözlə, müəllimin inamlı nitqi və aydın səsi, işgüzar jest və mimikalardan istifadəsi təlimin uğurlu idarə olunmasında əsas şərtlərdən biridir. Ilk təəssürat şagirdlərdə müsbət emosiyalar yaradırsa, onda dərs getdikcə daha səmərəli olacaqdır.

Əhmədova E.H., dissertant,
baş müəllim
Sumqayıt Dövlət Universiteti,
Bakı Dövlət Universiteti

ULAŞLI VƏ HAT ETNONİMLƏRİ QUBADLI TOPONİMİKASINDA

Ulaşlı Qubadlıda qədim türk etnoslarından birinin adını daşıyan kəndlərdəndir. Kavdadıq ərazi vahidliyində Bərgüşad dağ silsiləsinin ətəklərində, Bərgüşad çayının sol sahilində, dəniz səviyyəsindən 730 metr hündürlükdə, rayon mərkəzindən 16 km uzaqlıqda yerləşir. Çərəli və Xocahan kəndləri ilə qonşudur. XIX əsrə aid tarixi sənədlərdə kəndin adı Hulaşlı şəklində qeydə alınıb.

Ulaş adı ilk dəfə olaraq "Kitabi-Dədə Qorqud" dastanında çəkilir. Dastançı "Salur Qazanın evinin yağmalanması" boyunda oğuz ərənlərinin başçısı Qazan xanı belə tərif edir: "Bir gün Ulaş oğlu, Tulu quşun yavrısı, bizə miskin ümidi, Amit soyunun aslanı, Qaracuğın qaplanı, qonur atın iyəsi, xan Uruzun ağası, Baymdır xanın güyəgisi, Qalın Oğuzun dövləti, qalmış yigit arxası Salur Qazan yerindən durmışdı". Göründüyü kimi, burada Ulaş Qazan xanın künyəsi (atasının adı) kimi qeyd edilir və Ulaşın salur boyundan olduğu göstərilir.

"Şəcəreyi-tərakimə"də də salur boyundan olan Ulaş adlı bir kişidən bəhs edilir: *"Günlərin bir günü Dib Bakuy xan xalqdan soruşdu ki, bu zamanda Oğuz xanı görən insanlardan kimsə varmı? Dedilər: "Bir kişi qalmışdır, salur elindən Ulaş adlı". Xan adam göndərdi. Ulaşı gətirdib Oğuz xanın yurdda qaldığı müddətdə nə iş gördüyünü, dostlara nə yaxşılıq edib, düşmənlərlə necə rəftar etdiyini bir-bir soruşdu. Ulaş da bildiklərini söylədi. Ondan sonra Ulaşa çoxlu nemətlər verib evinə göndərdi"* .

XIII əsr ərəb tarixçisi Rəşidəddin yazır ki, Ulaş və oğlu Ulat, İnal xanın (Oğuz sülaləsinin doqquzuncu hökmdarı İnal Sir Yabğu, onuncu hökmdarı İnal xan olmuşdur – Ə.E.) vəziri və naibi salur boyundan idilər.

Ulaş etnonimi ərəb mənbələrində (İstəxri, İbn Havqəl) həmçinin xəzərlərə mənsub bir tayfa olaraq kulas kimi xatırlanır.

"Azərbaycan toponimlərinin ensiklopedik lüğəti"ndə qeyd olunur ki, XII əsrədək Volqa boyunda bulqarlara məxsus Hulaş şəhəri olmuşdur və bu şəhərin adı hulaş adlı tayfa ilə bağlıdır. Hulaşlılar ayrı-ayrı tarixi dövrlərdə xəzər, bulqar və suvar tayfalarının tərkibində görünmüş və Azərbaycanın müxtəlif ərazilərinin sakini olmuşlar. Borçalı mahalında Borçalı çayının (sonradan Tona, Debed, yaxud Debada – Ə.E.) sahilində Hulaş, Ermənistanda və Qazaxıstanda Kulaş, Dağıstanda Ulaşlı kəndləri də hulaşlılarla əlaqələndirilir. Tarixi mənbələrdə qıpçaqların arpalı tayfasının tərkibində də ulaşların olduğu qeyd edilir.

S.Köprülüyə görə, ulaşlı//ulaşlar adlı tayfa oğuzların bəydili boyundandır. Türkiyənin Çuxurova bölgəsində bu tayfanın üzvləri çoxluq təşkil edir. Müəllif qeyd edir ki, ulaş etnonimi şəxs adı əsasında yaranmış, boyu idarə edən şəxsin adından götürülmüşdür. Hələb türkmənlərinin bəydili boyu 40 obadan ibarətdir ki, onlar arasında 22-ci yeri ulaşlılar tutur.

F.Sümər ulaşlıların varsak boyundan olduğunu, boyu idarə edən şəxsin – Ulaşın adı ilə ulaşlı adlandırıldıqlarını yazır. Müəllif varsakların ən böyük obasının bayındırlı olduğunu göstərərək Ulaşın salurlara mənsub olduğunu qeyd edir.

1071-ci ildə Malazgit ovalığında Səlcuq hökmdarı Alparslanla Roma İmperatoru Romen Diyojen arasında baş vermiş savaşda oğuzların salur qolundan olan ulaşlılar da rol almışlar. Anadolu fatehi Qutalmışoğlu Süleyman bəyə tabe olan ulaşlılar Anadolunun bir çox yerlərində çıxan savaşların əsas iştirakşılarından olmuşlar. XVI əsrdə bir sıra türkmən boyları ilə birlikdə Suriyanın sərhədində, Fərat çayı sahilində yerləşən Cullap adlanan yerə sürgün edilmiş, sonrakı dövrlərdə yenidən şimala doğru yol almış, Türkiyənin Antakya, Kilis, Gaziantep, Kahramanmaraş, Malatya, Tunceli, Elazığ, Erzurum, Sivas, Erzincan bölgələri, Osmaniyə vilayəti (Haraz) və Tarsusdan Bulqar dağlarınadək olan ərazilərdə məskunlaşmışlar.

Osmanlının 10-cu sultanı, tarixdə Qanuni ləqəbi ilə tanınan Sultan Süleymanın hakimiyyəti dövründə Hələb türkmənlərinin bəydili boyunun tərkibindəki 40 obadan biri ulaşlı olmuşdur. XVIII yüzillikdə isə dülqədirlilərin tərkibində yer alaraq Ceyhanın Qurdqulağı kəndində və Adananın Gavur dağı ətrafındakı ərazidə, XIX yüzillikdə isə Toros dağ silsiləsinin cənubundakı Nur və ya Amannos dağının ətəklərində yaşamışlar.

Qaynaqlara görə, XIX əsrin əvvəllərində Urmu gölü sahilinə köç edən qarapapaqların tərkibində də ulaşlılar olmuşdur.

Ş.Quzuçular uçoxların bayındır və salur tayfaları ilə bağlı olan ulaşlıların varsaqın bir qolu, varsaqın isə müxtəlif oğuz-türkmən aşirətlərindən ibarət tayfa birliyi olduğunu göstərir. Ulaşlar çoxların bayındır və salur tayfaları ilə bağlı olmuşlar.

Beləliklə, deyilənlərdən belə qənaətə gəlmək olar ki, hulaş/kulaş/ulaş adları ilə tanınan bu tayfa türkkökənli olmaqla, tarixin ayrı-ayrı mərhələlərində bir sıra tayfaların tərkibində görünmüş, zaman-zaman müxtəlif ictimai-siyasi səbəblərdən bir yerdən digərinə köç etmiş (yaxud sürgün edilmiş), sakini olduqları yerlərdə izlərini buraxmışlar. Azərbaycanın Qubadlı rayonunda Ulaşlı, Göyçay rayonunda Ulaşlı Şıxlı kəndlərin mövcudluğu bu tayfanın ölkəmizin qədim sakinlərindən olduğu fikrini təsdiq edir.

Ulaşlı oykonimi ulaş sözü ilə -lı mənsubluq bildirən şəkilçinin birləşməsindən yaranmışdır. "Azərbaycan dilinin izahlı lüğəti"ndən oxuyuruq:

"ULAŞMAQ[1] – qarş. Ağız-ağıza verib ulamaq, hamı birdən ulamaq;

ULAŞMAQ[1] – *f.* yetişmək, görüşmək, qovuşmaq. *Vəfa qıl bir vəfadarə, Ulaşma hər biiqrarə, Mətain atma bazarə, Xəridar olmayan yerdə.* M.V.Vidadi" [7, s.401].

Ulaş sözü "Kitabi-Dədə Qorqud"da "çatmaq, qovuşmaq" mənasında izah edilir. Eyni zamanda, daha öncə də qeyd etdiyimiz kimi, antroponim − Qazan xanın atasının adı kimi də göstərilir. Bildiyimiz kimi, qədim türklərdə bir sıra adlar, əsasən, feillərdən təcrid olunmuşdur ki, bunun izlərinə dastanda da rast gəlmək olur. Məsələn: Tokdamış, Qutalmış, Dondar, Qazan və s. Bu baxımdan ulaş lekseminin də "bağlanmaq, əlaqələnmək, qovuşmaq" kimi anlamlar ifadə edən ula/ulaş (güman etmək olar ki, -ş burda tarixən də dilimizdə işlək olan, -laş (-la+ş) şəkilçisinin yaranmasında iştirak edən qayıdış növ məzmunlu sonluqdur) feli əsasında yarandığını və "bağlı, sədaqətli, vəfalı" kimi mənalar kəsb etdiyini ehtimal etmək olar ki, görünür, bu da onların xarakterindən, kökə və torpağa bağlılıqlarından irəli gəlmişdir.

Qədim türk yazılı abidələrində də ula sözü həmin mənada işlənmişdir. *Kara yol tenqri men, sınukının sepermen, üzükinin* ***ulayur*** *men, ilig itmiş men edgüñsi bolzun – tir. (Mən böyük yol (tale, qismət – Ə.E.) tanrısıyam, sənin sınıqlarını düzəldirəm, üzülmüşlərini birləşdirərəm, el (dövlət – Ə.E.) quranam, hər şeyi yaxşı olsun – deyir)*("Irk Bitik").

HAT. Hat kəndi Rayon mərkəzindən 37 km uzaqlıqda Qarabağ dağ silsiləsinin ətəyində, Başarat inzibati ərazi vahidliyində Milanlı, Deşdahat kəndləri ilə sərhəddə yerləşir. Deyilənə görə, əliyanlar tərəfindən salınmış bu kənd əvvəllər Böyük Hat və Kiçik Hat olmaqla, iki hissədən ibarət olmuş, sonradan birləşdirilərək Hat adlandırılmışdır.

"Alban tarixi"ndə b.e V əsrində Sünikdə cərəyan edən hadisələrdən bəhs edilərkən deyilir ki, Yezdəgirdin hakimiyyətə gəlməsindən 20 il öncə, yəni təxminən 418-ci ildə hunlar ölkəsindən gələn Hunoquru məğlub edib əvəzində şahdan öz torpağını geri qaytarmasını xahiş edən Babik arzusuna çatır və Araz çayını keçərək burda özünə yurd salır. Onu müşayiət edən iki iranlı qardaş: Qor və Qazan da püşk atır və onlardan Qorun payına Hot, Qazanın payına isə Şalat kəndi düşür. Həmin kəndlərin dəqiq koordinatları verilməsə də, Zəngəzur mahalının da daxil olduğu Sünik ərazisində yerləşdiyi məlum olur. İrəvan quberniyasının icmal dəftərində adı Şələt şəklində verilən Şalat kəndi Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasına (indiki Sisyan rayonu) daxil idi. Hot kəndinə gəldikdə isə, bu kəndin Qubadlı rayonundakı Hat kəndi olduğunu dəqiq deyə bilməsək də, göstərilən arealda bu adı daşıyan kəndin mövcud olduğu şübhəsizdir.

Türk dillərində özünü göstərən a/o sait əvəzlənməsinə (məsələn, özbək dilində *bala* əvəzinə *bolə,* eləcə də Bakı dilalektinin Maştağa, Nardaran kimi şivələrində *boba, bormaq deyilişinə rast gəlirik)* əsaslanaraq deyə bilərik ki, Hot oykonimi Hatın fonetik variantıdır.

F.Cəlilovun qədim etnoslardan olan hat haqqında fikirləri maraq doğurur. Müəllif hatların türkmənşəli olması ehtimalını əsas tutub yazır ki, "yazılı qaynaqlar Atayurd hüdudlarından batıda qalan bölgələrdə türk izlərini versə də, İç Anadoluda arxeoloji bəlgələrin bir neçə etnosa aid olması göstərir ki, bunlardan yalnız biri türklərə aid ola bilər və bu da daha çox ***hatlara*** uyğun gəlir. Alacahöyük basırıqları hatlara aid edilir. Bu baxımdan, hat dilində xeyli türk sözünün işlənməsi və Alacahöyük basırıqlarında görünən nəsnələrin sonrakı türk basırıqlarındakı tipoloji yaxınlığı bu ehtimalı gücləndirir" .

Hatlar Qut eli çağında Orta Anadoluda yaşamışlar. Anadoluda yerli hatlar öz ölkələrini və mədəniyyətlərini qurmuş, paytaxtları isə Hattusas şəhəri olmuşdur. Bir çox tədqiqatçılar bu xalqı hindavropadilli hetlərlə qarışıq salsa da, onlar bir-birindən tamamilə fərqli etnoslar olmuşdur. Dyakonov hatları Anadoluda yerli, hetləri isə gəlmə adlandırmışdır. Hətta hetdilli mətnlərə nəzər saldıqda orada əks olnunan hat sözlərinin əksəriyyətinin türkkökənli olduğu aşkara çıxır.

Güman etmək olar ki, sonrakı dövrlərdə müxtəlif tarixi, ictimai-siyasi faktorların təsiri ilə hatlar Azərbaycana, əsasən, Qubadlı ərazisinə köç etmiş, burda da məskunlaşaraq iz salmışlar. Qubadlının Deştahat oykoniminin tərkibində də hat leksemi özünü göstərir. Deştahat kəndində Hatın düzü (hata məxsus düz) adlı oronim də mövcuddur.

Hat oykonimini tədqiqatçılar ərəbmənşəli həd (kənar, qıraq) sözü ilə əlaqələndirsələr də, etnonimin bizə məlum olan ilkin mövcudolma tarixi ilə müqayisələr apardıqda bu fikir özünü doğrultmur. Bildiyimiz kimi, prototürk dövründə h fonemi mövcud olmamış, sonrakı dövrlərdə meydana çıxmış və əsasən, oğuz qrupuna mənsub olan dillər üçün xüsusilə söz əvvəlində səciyyəvi olmuşdur. Hazırda h ilə işlənən bir çox sözlər var ki, həmin sözlər tarixən k/q samitləri ilə yazılmış və deyilmiş, bu xüsusiyyət qədim türk yazılı abidələrində də öz əksini tapmışdır. Məsələn: harda – kanta – qanda,

hamı – kamu – qamu, haçan – kaçan – qaçan və s. Abidələrimizdə "böyük, güclü, qüvvətli, möhkəm, sərt" mənalarında katığ//katı//qatı sifəti işlənmişdir: *...Üç Birküde tatar brle **katı** tokıdım* (Üç Birküdə tatarlarla möhkəm toqquşdum. – Moyun çor, 18). *Səmiz at ağzı **katığ** boltı...(*Kök atın ağzı sərt oldu – "Irk bitik", 100*). Bir ağ tozlu **qatı** yay aldılar, bir dəxi altı pərli gürz aldılar* ("Kitabi-Dədə Qorqud"). Hər üç nümunədə işlənmiş katı//katığ//qatı sözləri eyni mənanı bildirir və -ı, -ığ şəkilçisinin artırılması ilə kat (güc, qüvvət) kökündən yarandığı açıq-aşkar görünməkdədir.

Bütün bu deyilənlər hat etnonimin də "güclü, qüvvətli, sərt, möhkəm" kimi mənalar ifadə etdiyini söyləməyə əsas verir.

Hənifəyeva D.S.,
baş müəllim
Heydər Əliyev adına AAHM

GERMAN DİLLƏRİNƏ BİR BAXIŞ

Hind-Avropa dilləri ailəsinin mövcud olduğu haqqında ilk elmi mənbə 1585-ci ildə italyan Filippo Sosseftinin Hindistana səfəri zamanı aşkar etdiyi dil qohumluqları ilə bağlı məktublar götürülə bilər. Bu məktublarda o, yazırdı ki, hindlilərin danışdığı dil latın və yunanların dilinə oxşayır. Həmin dillərin F. Sossefti sanskrit adlandırmışdır. Bu dillərin oxşarlığını sonralar Ser Vilyam Cons bir daha təsdiq etmişdir. 1816-cı ildə o, çap etdiyi əsərində F. Bonn Hind-Avropa dillərinin genetik qohumluğunu sübut etdi.

Mütəxəssislər Hind - Avropa dillərini XX əsrdə kəşf olunan tokar və het ölü dillərindən başqa 6 qrupa bölürlər:

1. German - a.Alman, b.İngilis, c.Dac və ya flamand (Niderland dövlət dili), d.Friz- şimali german dilləri (island, feroy, isveç, danimarka)
2. Roman - a.İspan, b.Portuqaliya, c.Fransız, d.İtalyan, e.Rumın
3. Slavyan - a.Rus, b.Ukrayna, c.Polyak, d.Çex-Xorvat, e.Çex
4. Hind-aria - a.Hindli, b.Benqali, c.Nerceb
5. İran - a.Fars və ya tacik, b.Əfqan, c.Kürd-puştu
6. Yunan, Alban, Erməni

Baltik və kelt dilləri də bu dillər ailəsinə aiddir. Tipoloji baxımdan bu dillər flektiv və ya sintetik dillərdir. Yəni sonluqlar və ya prefikslər, söz önündəki fonem əvəzləməsi qrammatik mənaların verilməsinə xidmət edir. Bu dillərin əksəriyyətində 8-ə qədər hal, 3 kəmiyyət, 3 cins, 7 zaman var.

Hind, Yunan və Rumlarda erkən inkişaf etmiş say sistemi var.

I. Sırf lingvistik əlamət / k/ və /g/ samitləri ilə bağlıdır. Bu baxımdan 2 qrupa bölünən Hind- Avropa dillərinin Şərq qrupunda (hind, iran, erməni, balto-slavyan, alban dilləri) bu samitlər müvafiq olaraq / s/ və / ş/ keçmiş qərb qrupunda isə (kelt, italyan, yunan, german) həmin samitlər dəyişməz qalmışdır.

II. Fonem irəli çəkilməsi alman dialektlərini və alman ədəbi dilini ortaq german dillərindən ayıran xüsusiyyətdir.

1.Cingiltili kipləşən partlayışlı samitlər karlaşır. (ph>pf, th>t, kh>k) b>p, d>t, g>k.

2. Kar nəfəsli kipləşən partlayışlı samitlər nəfəssiz karlaşır:ph>pf, th>t, kh>k.

3. Cingiltili kipləşən partlayışlı samitlər əhatədən asılı olaraq nəfəssiz cingiltiliyə keçirlər: bh>b-t, dh>d-d.

German dillərinin 2-ci əlaməti vurğunun kök hecasında sabit qalmasıdır. Müqayisə edək: yunan hatap-vater, hind-avropa dillərindən qalma vurğu sərbəstliyi bu gündə mexaniki olaraq özünü Urlaub, Urkunde sözlərində sözün ilk hecası üzərinə düşməsində biruzə verir. Tədricən bu dillərdəki musiqili vurğu dinamik vurğuya çevrildi, yəni sözlərin tona görə fərqləndirilməsi daha önəmli deyildir. Müasir dildə tonun gücü onun səviyyəsində üst-üstə düşür. Vurğunun dəyişməsi vurğusuz hecaların zəifləməsinə gətirib çıxarır.

German dillərinin mühüm problemlərindən biri də hind-german tayfalarının vətəninin harada olmasını müəyyənləşdirməkdən ibarətdir. Belə güman edilir ki, hind-german dillərinin vətəni Hindistandır. 1845-ci ildən başlayaraq alimlər belə qərara gəldilər ki, hind-german dillərinin hər birinin malik olduğu ortaq mədəni sözlər ümumi ortaq irs yaradır, yəni onlar artıq ulu dildə olmalı idi.

Lakin sözlər mənaca bir-birindən elə uzaqlaşır ki, onların bir kökdən ibarət olduğunu isbat etmək çətin olur. Nəticə etibarı ilə, ulu vətənin Asiya olması tezisi köhnəlir. Tokar və het ölü dillərinin Asiyada XX əsrdə olması sübut olundu. XİX əsrin ortalarından hind-german dillərinin ulu vətəni Avropa olması astroloji tədqiqatlarla sübut olundu. Tarix boyu miqrasiya və yerdəyişmə nəticəsində başqa xalqlarla qaynayıb-qarışmışlar. Son tədqiqatların bəzisi hind-german tayfalarının ulu vətəninin orta Avropa digərlərinin isə Şərqi və Cənubi Avropa olduğunu hesab edirlər. Bu tayfalar tarix boyu tədric olunmuş şəkildə deyil, daim hərəkətdə olaraq başqalarına qaynayıb-qarışmış bəzən uyğunlaşmış bəzən isə özgürlüyünü qoruyub saxlaya bilmişlər. İki xalq qaynayıb qarışanda siyasi cəhətdən güclü alman dili qalib gəlir. Məğlub xalq isə məcbur olub onun, qalibin dilini qəbul edir. Öz dilinin fonetik və qrammatik qurumu tədricən sıxışdırılıb aradan çıxarıldı. Beləliklə bu gün belə güman edilir ki, hind-german ulu dili Avropada Şimal dənizi, Şərqdən Qafqaz, cənub şərqdən isə Balkan yarımadası ərazisində olub.

Ulu german dili haqqında – bu dili yalnız bərpa etmək mümkündür, çünki bu dildə heç bir yazılı sənəd qalmayıb. Mütəxəssislərin fikrincə bu dil, ulu german dili 1000 il "yaşayşb". Sonra isə german tayfaları 3 qrupa bölünüblər: 1. quzey, 2. doğu, 3. batı germanları. Həmin batı tayfalarının dilindən sonralar ingilis,fransız,alman dilləri meydana gəlmişdir.

Tədqiqatlar göstərir ki, german tayfaları İsveçin və Norveçin cənubunda Danimarkada və Elba çayının aşağılarında məskunlaşmışlar. Burada onlar eradan 1000 il əvvəl Vezer və Oder çaylarının aşağılarına və sonra Visla və Reyn çaylarının mənsəbinə qədər gəlib çıxıblar.

German dilindəki samitlər: p,t,k,kh,f,t,z,x,b,g,gh.

Saitlər: a,e,i,u,e,i,o,u.

Diftonqlar: ai,au,eu.

Hind-german dillərindəki / o/, / a / german dilində / a/ -ya çevrildi: acto-alm, acht ingilis dilində eight.

Hal sistemində lokativivn funksiyasını sözönlü dativ yerinə yetirir. Nominativ akkuzativlə, genetiv isə dativlə üst-üstə düşməyə başladı. Sözönlərinə meyl gücləndi və isimlərin hallanmasında böyük söz qrupları zəifləri sıxışdırıb çıxardılar.

German dilində sifət sonu saitlə bitən suffikslə düzəlirdi. Fel sistemi çox sadələşib yalnız Prasens və Praterutum vardır. Praterutum hind-german dilindəki perfektə uyğun gəlirdi. Hind-german dilində Futurum qədim dialektlərdə Prasenslə ifadə olunmurdu. Ulu german dilində 3 forma - xəbər, əmr və arzu vardır. Arzu hind-german dilindəki konquktiv sıxışdırılır.

Fel sistemində və sözdüzəltmədə ablaut mühüm rol oynayır və qüvvətli fellərə xas idi. Hind-german dilində ablaut eyni söz kökündə / e/ nin /o/ əvəzlənməsi idi. Bu ablaut sistemi güclü dəyişikliyə uğradı (o>a, e>i)

Fel formaları prezens və infinitiv (1) təkdə preterium (2) cəmdə preterium (3) və preteritunum partisüfuni (4) şəklində işlənirdi.

Budaq cümlələr geniş işlənməyə başlayır. Vasitəsiz nitq daha çox işlənirdi. Xəbər baş cümlədə indiki və gələcək zamanda, budaq cümlədə isə keçmiş zaman olurdu. Söz sırası hazırki german dilində nisbətən çox az bağlı idi, çünki cümlə üzvlərinin sintaktik funksiyası morfoloji əlamətə malik idi.

İngilis dili

Batı german dillərinə ingilis və friz dilləri aiddir. İngilis dillərinin tarixinə nəzər salaq: Adada (Britan) ilk əvvəl V-Vİ əsrlərdə yutlar, saksonlar və angellər yaşayıb. 597-ci ildə S.T.Avqustun gəlişi ilə İngiltərənin latınlar olan xristianlığı qəbul etməsi bu ölkənin sonrakı taleyində mühüm rol oynayıb. VIII-IX-X əsrlərdə skandinaviyalıların hücumları, XI əsrdə normanların basqını, XVI əsrdə maarifin artması və XVIII-XIX əsrdə ingiliscə danışanların guzey Amerikaya, Avstraliyaya və cənubi Afrikaya miqrasiyası ingilis dilinin sonrakı taleyində mühüm rol oynayıb. Əlbəttə, məqsədim ingilis dilinin məqsədini göstərmək deyil. Demək istəyirəm ki, tarixən heç bir dil təmiz olmadığından ingilis dili german dillərindən ən geniş yayılmış uzun müddət keltlərlə əlaqədə olmuşdur. Ölkənin 300 il Roma imperiyasının əsarətində olması, 3 əsr skandinavların həmlələrinə məruz qalması, XI əsrdə normanların istilası (1066) müasir ingilis dilində iz buraxmışdır. Ulu german dilində olduğu kimi, qədim və yeni ingilis dilində vurğu, kök, heca üzərində o zaman olurdu ki, prefiks və suffiks sözlə birgə işlənirdi. Qədim ingilis dili qeyri flektiv dil idi və müasir ingilis dili ilə inkişaf etdi. Söz sırası müasir alman dilindəkinə bənzəyir, amma əvvəl elə məcbur deyildi, xüsusi ilə tabeli cümlələrdə, amma buna baxmayaraq mübtəda və xəbər baş cümlədə sərbəst şəkildə yerini dəyişə bilər.

Qədim ingilis dilində ismin kəmiyyəti və hallanması 3 cür idi (kişi, qadın, orta). Qədim ingilis dilində cinsdən danışmaq olmaz, çünki yunan və latında olduğu kimi, bu dildə də cinsin qrammatik göstəricisi yox idi.

Bu gün ingilis dilində işlənən sözlərin çoxu Skandinaviya dillərindən keçmədir. “No” and “nay”; “from” and “fro” kimi ifadələr leg, skin, kid, trust, and və s. sözlər bu dildən gəlmədir.

“Sister” ulu sözü norzdakı “systir” sözündən düzəlib. Çoxları isə bunu qədim ingilis dilindəki “svester” sözündən düzəldiyini güman edirlər. Qədim nora dili X-XII əsrə qədər Şotlandiyada işlənirdi. Kral Knutun ölümündən sonra (1035) taxt-taca

yiyələnən Fransada doğulmuş kral Eduardın dövründə Skandinaviyanın təsiri norman Fransasına keçdi. 300 ildən çox bir müddətdə ingilis kralları fransızca danışıblar. Henri Bolinbrok (1399-1413) C.Coyserin (1340-1400) ölümündən bir il əvvəl taxta sahib olmuş normanlardan sonra ilk kral idi ki, ana dili ingilis dili idi.

3 əsr ingilis ədəbiyyati 3 dilli olub- ingilis,latın,fransız; 1362-ci il oktyabr parlament iclası öz işinə ingiliscə başladı. C. Coyserdən sonra ingilis dili Şekspir, Milton və Sviftində daha təmiz olub. Şekspir öz əsərində 25 min, Milton 12min, B. Cörçil 60 min söz işlədib.

Yeni ingilis dili dövrü isə 16-cı əsrdən bəri olan dövrdür. Yeni dövrdə ümumi ingilis dili və ədəbi tələffüz norması London yazılı dil norması onun simasında şərqi-orta ingilis dialektinə əsaslanaraq yarandı. Bu proses tədricən Şotlandiyaya da yayıldı.

Almanlar

Məşhur germanist B.M. Jirmunski qədim german dillərini bu sıralamada göstərirdi:

1. İlk öncə böyük qrup olmuşdur. Skandinaviya quzey qrupu və materik – güney qrupu;

2. Doğu german tayfalarının (vandalların) eramızdan əvvəl I əsrdə kontinentə axını;

3. Qotların Qara dəniz sahili çöllərinə axını (e.ə.II-III əsrdə) qot dilinin inkişafı, IV əsrdə Vulfilin yazılı abidələri;

4. Batı german dilindən 3 qrupun ayrılması: 1. Inqevan, 2. Isveton-Rayn Vezer germanları, 3. Erminonlar - Elba germanları, inqevonlar və isvetonlar sonralar qaynayıb- qarışmışlar;

5. Qor dili istisna olmaqla güzey və güney germanlarının geniş əlaqələri (eramızın I və V əsri);

6. Angelsaksların Britaniya adalarına hərəkəti, angelsaks dilinin qədim ingilis dilindən təcrid olunması (V əsrin sonu);

7. Saksların Şimal dənizi sahilindən güzey, batı və güneyə hərəkəti,onların Veser-Rayn germanları və isveton qalıqları ilə birgə qruplaşması;

8. Herminonların Elba çayının aşağı və orta zolaqlarından güney Almaniyaya yayılması (I əsr). Güney bölgələrin alman və bavariyalılar tərəfindən zəbt edilməsi (III –V əsr) Alman foneminin irəli çəkilməsi, (VI əsr) onun bölgələrə yayılması: frenk, hessen,türüngiya- VII-XV əsr – Roma ədəbi dilinin təsiri ilə ingevonizmlərin sıxışdırılması;

9. Frank isvefonların batıda romanlaşması, şimali Qalliyaya hücumu, iki dilli Merovingiya dövlətinin yaranması (V əsrin sonu), Frankların (isvetonların) alman Bavariya (herminonlar), hessen və türüngiyalıların, sonralar isə saksların (inqevokların) qaynayıb qarışması. Bu isə alman xalqının yaranmasında mühüm rol oynadı.

10. Güzey german dillərinin materikdən ayrılması (V əsr) Danimarkalılar Jutlandiyanı V-VI əsrdə, norveçlər İslandiyanı VIII-IX əsrdə qədim Danimarka, İsveç və İslandiya dillərində yazılı abidə meydana gəlir.

German tayfaları əkinçilik və maldarlıqla məşğul olmuşlar. Ovçuluq, balıq ovu onları tədricən oturaq həyat keçirməyə sövq edib. Germanlarda toxuculuq və əl əməyi

geniş inkişaf etmişdi. Germanlar qəbilə şəklində yaşayır və mübarizə ilə ticarət edirdilər. Yaxın və uzaq ticarət geniş inkişaf etmişdi. Germanlarda təbiət qüvvələrinə inam çox idi. Qədim german tayfaları run yazılarından istifadə etmişlər. Bu yazılar miladi təqviminin əvvəllərində İtaliyanın şimalında yaşamış, sonralar məhv olmuş türk mənşəli etrukslardan keçib, sonrada bütün germanlarda geniş yayılıb. İngilislərin 700-cü ildə işlətdiyi run yazı sistemində 26 işarə, sonralar bu 33-ə çatır, almanlarda isə VI-VIII əsrdə 30 işarədən ibarət idi. Xristianlığın qəbulu, Roma kilsəsinin təsiri artdıqca yazı sistemi sıxışdırılır. Normanların istilası (1000) İngiltərədə run yazı sisteminə son qoydu. German tayfalarında run yazısından latına keçid mərhələsində qot yazı sistemi geniş işlənirdi. Qotlar 2 hissəyə bölünürdü: batı və doğu. Bunlar sonralar hunlarla (IV-VII əsr) bir qismi güney Fransa və İspaniya, diğər qismi isə İtaliyaya qədər gəlib çıxmışlar. Qot dilində umlaut yoxdur. Diftonqlar – ai,au,ei,iu- monoftonqlaşmışdı.

Fonoloji sistemi:

Saitlər: a,e,o,u,i,iu

Samitlər: b,d,g,p,t,k,l,m,n,f,w ,h,s,z

İsimlərdə "s" sonluğu var idi; qot dilində dags-gün. İsmin Nom. Gen. Dat. Akk. Halından başqa Vokativ hal da var idi. İsmin hallanması klaslar üzrə idi: a.sait b. samit

Ulu german dilində olduğu kimi sifətlər zəif və qüvvətli hallanma üzrə hallanırdı. Felin Prezensdə passiv forması işlənirdi. (Jeh werdi genommen)

Qot dilində felin 2 mühüm zaman forması vardı. Futurum-prezens, infinitiv-prezens partisip və preteritum partisip.

İsveç dili

Güzey germanlarına isveçlər daxildir. İsveç dili güney və doğu qruplarına bölünür. Güney dilinə qədim Norveç dili və onun dialaektləri, doğu qrupuna isə qədim İsveç və Danimarka dili, 1500-ci ildən isə yeni island, yeni İsveç-Norveç, Danimarka və Feroy (Atlantik okeanında 2 kiçik adada 33.000-ə qədər yaşayanların dili) dilləri daxildir. Bu dillərin fonoloji,morfoloji sistemində leksik və sintetik laylarından digər german dillərinə oxşar dillər çoxdur.

Güney Germanları

Romalılar uzun müddət germanları keltlərdən fərqləndirə bilmirdilər. Onları Teutonen adlandırırdılar. (e.ə. İ əsr) Sezar germanlara qarşı vuruşmağa məcbur idi. Tatsitusun vaxtında güney germanları Dunay-Rayn çaylarını keçmişdilər. Tezliklə çayların sahilindən isvetonlar, Şimal dənizi sahilindən inqevonlar və Elba sahilindən herminonlar birləşərək güclü mədəni ittifaq yaratdılar. İsvetonlar sonralar franklar, inqevonlar, angellər, frizlər, sakslar, herminonlar isə şvablar və lonqobardlar adı ilə çıxış edirdilər. İtaliyanın şimalında Lombarday adına dövlət yarandı. Onlardan isə türingiyalılar,almanlar, bavariyalılar törəyir.

İsveton bavarlarının dialekti müasir dac dilinin əsasını təşkil edir. Aşağı frank dialektlərindən bugünki aşağı alman dialektləri yaranmışdır.

Orta əsr alman dialektlərindən idiş dili yaranıb. ABŞ və İsraildə bu dildə danışılır, ancaq İsrailin dövlət dili İvritdir. ABŞ-ın Pensilvaniya ştatında danışılan

pensivian dili Pfalsdan gəlmədir. Son dövrlər Niderland (dac) – aşağı alman və alman ədəbi dili bölgüsü irəli sürülür.

İnqevon,isveton və herminon terminləri əvəzinə sahil alman dili, iç alman dili və Alp boyu güney alman dili terminləri işlədilir.

Bütün bunlar üçün əsas əlamətlər aşağıdakılardır:

1. Batı german reminasiyası- samitlərin uzun tələffüzü məs; german biddjan>batı german biddjan- bitten. German dilində (j,w, r,i) qarşısında gələn samitlər güney german dillərində uzun tələffüz olunur.
2. Güney german dilində sonda gələn / s / düşür.
3. Mühüm qrammatik əlamət kimi hallanan repundun olması.
4. Sözdüzəldici şəkilçinin alınması.

Batı german dillərində fonem irəli çəkilməsi o birilərindən alman dilini tamamilə ayırmağa imkan verir. Yəni yuxarı alman,idiş və pensivian dilləri bu dəyişikliyə tam, ya da qismən keçmişlər, amma aşağı alman, dac, afrikan və həmçinin Şimal dəniz german dili (ingilis, şotland, friz) dilləri əvvəlki kimi ümumi german səviyyəsində qalmışlar.

Axundova T.R., dissertant
Azərbaycan Dövlət Pedaqoji Universiteti

İNGİLİS DİLİNİN MÜASİR TƏDRİSİNDƏ MULTİMEDİYA PROQRAMLARI

Hal-hazırda Azərbaycan yeni təhsil erasına, beynəlxalq təhsil-informasiya mühitinə qədəm qoymuşdur. Ölkəmizdə baş verən sosial və iqtisadi reformlar xarici dillərə, daha dəqiq desək ingilis dilinə yiyələnməyə olan ehtiyacı yüksək həddə çatdırmışdır. Məhz bununla əlaqədar olaraq respublikamızda keçirilən islahatların əsas məqsədi təhsilin yeni texnologiyalarla tədrisi və tədris prosesinin bu texnologiyalar vasitəsilə effektivliyinin artırılmasıdır. Belə ki, yeni informasiya texnologiyaları tədris prosesinin və ümumilikdə təhsil sisteminin təkmilləşdirilməsi üçün geniş imkanlar diapazonuna malikdir.

Azərbaycanda təhsilin modernləşdirilməsi, təhsildə informasiya texnologiyalarının tətbiqi istiqamətində məqsədyönlü işlər aparılır. Hələ 2003-cü ildə qəbul olunan "Azərbaycan informasiya və kommunikasiya texnologiyalarının inkişafı üzrə Milli Strategiya (2003-2012) sənədində Azərbaycan üçün məhz təhsil sahəsində İKT-nin tətbiq istiqamətləri ən prioritet istiqamət hesab edilir. Hazırki dövrdə belə Azərbaycan və bir sıra beynəlxalq qurumlar tərəfindən təhsil sisteminin yenidən qurulması istiqamətində müəyyən proqramlar və lahiyələr gerçəkləşdirilməkdədir. Bununla belə artıq 1999-cu ildən etibarən ölkənin təhsil sisteminin təkmilləşdirilməsinə yönələn islahatlara təkan verilib və bu islahatların əsas istiqamətlərindən biri məhz təhsilin informasiyalaşdırılmasıdır.

Tədris prosesinin informasiyalaşdırılması və ya başqa sözlə desək informasiya və kompüter texnologiyalarının tədris prosesinə tətbiqi yalnız yeni texniki vasitələr deyil, həmçinin tədrisə yeni forma və metodlarla olan yeni yanaşma deməkdir.

“Ümumdünya toru”-nun WWW (və ya sadəcə Web) tərəqqisi ilə bağlı humanitar sahədə, belə demək olarsa, multimediya “partlayışı” 90-cı illərin əvvəllərində qeyd olunmuşdur. Bütün bunlar elektron ünsiyyətin yaranmasında impuls rolu oynadı. Mosaic web browser (1993) və Netscape (1995) proqramlarının köməkliyi ilə İnternet istifadəçiləri arasında multimediya mübadiləsi mümkün oldu. Nəhayət, müasir çoxfunksiyalı proqram təminatı olan nəhəng, məhsuldar kompüterlərin meydana çıxması və onların geniş yayılması, WWW-ni bütün dünya ilə qarşılıqlı əlaqəyə hazır olan istifadəçilərin elektron qovuşuğu etməyə imkan verdi. Bu yolla yaranan informasiya mübadiləsi mühiti bu gün təhsil sahəsində yeni keyfiyyətli imkanlar bazası və distansion təlimin əsası oldu.

Multimediya proqramları müxtəlif tədris üsullarının birləşməsi hesab olunur. Multimediya proqramları - kompüter proqramları olub, xarici dilin tədrisinə yönəldilmiş mətni, audio və videomaterialların, qrafik təsvirləri əks etdirir. Bu proqramlar əsasında qurulan dərs tələbələrdə fənnə olan marağı artırır və kommunikativ ünsiyyətə motivasiya verir. Bu cür dərslər zamanı tələbələrin dünyagörüşü, kommunikativ bacarığı və öyrənilən dilə marağı artır. Tədris prosesi zamanı qrafik illustrasiyaların tətbiqi ötürülən informasiyanın qəbulunu daha yeni səviyyəyə çatdırmağa, onun anlaşılmasını asanlaşdırmağa və eyni zamanda tələbənin düşünmə təfəkkürünü və analiz qabiliyyətini inkişaf etdirməyə imkan verir.

Bir çox yerli və xarici pedaqoqlar və aparılan tədqiqatlar göstərir ki, multimediyanın tədrisə yeni didaktik vasitə kimi tətbiqi təhsilin potensialını yüksəltmək baxımından müsbət nəticələr vermişdir. Bu nəticələr kommunikativ yönümlü tədris prosesində özünü daha qabarıq nümayiş etdirir.

Təbii mühitdən kənarda xarici dilə yiyələnmə o halda effektiv ola bilər ki, tədris prosesi öz parametrlərinə, şərtlərinə görə təbii mühitə maksimal dərəcədə uyğun gəlsin.Tədris müəssisələrində keçirilən xarici dil dərslərində bu mühiti məhz multimediya proqramlarının köməyi ilə qurmaq olar. Bu sahədə multimediya proqramlarının imkanları olduqca genişdir.Təhsil prosesi zamanı onlar prezentasiyaların hazırlanması, yoxlama işlərinin aparılması, qrammatik tapşırıqların, oxu və yazı vərdişlərin möhkəmləndirilməsi üçün istifadədə əvəzedilməz rol oynayır.

Beləliklə, multimedia proqramlarının ingilis dilinin kommunikativ yönümlü tədris prosesindəki rolunu aşağıdakı kimi qruplaşdırmaq olar:

- xarici dillərin (ingilis dilinin) tədrisində İnternet-saytlardan istifadəsini mümkün edir;
- tələbələrin müəllimin tədris etdiyi dərs mövzusuna uyğun əlavə məlumatın İnternet vasitəsilə axtarılması və araşdırılmasını təmin edir;
- tələbələrə tədris olunan dildə canlı ünsiyyət qurma imkanı yaradır;
- xarici mediayaya çıxışı təmin edir (tədris materialı kimi istifadə);
- tələbələrdə kommunikativ imkanlarını inkişaf etdirir.
- tədris materiallarının yalnız çap şəklində deyil, həm də qrafika, səsli, və animasiya şəklində tələbələrə təqdim olunur;
- keçirilən mövzuya aid yeni elektron dərsliklərin tətbiqini təmin edir;
- tələbələrə lazımi məlumatı tapıb onun analiz edilməsi kimi keyfiyyətlərini aşılayır.

Səfərli A.M., dissertant
Bakı Dövlət Universiteti

QLOBALLASAN TƏHSİL SİSTEMİNDƏ XARİCİ DİLİN TƏDRİSİNDƏ FEAL-İNTERAKTİV TƏLİM METODUNUN ROLU

Təhsil cəmiyyət həyatının geniş və əhatəli olmaqla təşkilati struktura, idarəetmə və fəaliyyət mexanizminə malik mürəkkəb bir sistemdir. Cəmiyyətin inkişafı nəticəsində dəyişən sistem yeniləşir, daha müasir forma və məzmun qazanır. Dəyişikliklər daha uğurlu nəticələrin əldə olunmasına və keyfiyyətin yüksəldilməsinə yönəldilir. Təhsillə bağlı ölkəmizdə aparılan islahatlar da bu məqsədə xidmət edən prioritet istiqamətlərdəndir. Müasir, qloballaşan dünyamızda xarici dil bilməyin bir çox üstünlükləri vardır. Belə ki, xarici dilə sahib olan hər bir şəxs beynəlxalq arenaya çıxaraq xalqı, milli dəyərləri, ölkəsinin əldə etdiyi nailiyyətləri haqqında məlumatları dünya ictimaiyyətinə çatdıra bilir. Xarici dilin köməyi ilə ünsiyyət və kommunikativ bacarığa malik olur və dünyaya yeni bir pəncərə açır. Xarici dilin öyrənilməsi hər bir fərd üçün iş və karyera qapıları açır. Xarici dil təlimi şagirdlərdə başqa xalqların milli mənəvi dəyərlərinə, mədəniyyətinə hörmət hissi, tolerantlıq formalaşdırır. Xarici ölkələrin müxtəlif sahələrdə qazandıqları təcrübəni birbaşa öyrənməyə imkan verir. Xarici dilə yiyələnmək şagirdlərdə humanitar təhsil səviyyəsini yüksəldir. Xarici dil şagirdlərin linqvist biliklərini genişləndirir, ünsiyyət mədəniyyətinin formalaşmasında mühüm rol oynayır və nitqin inkişafına müsbət təsir göstərir. Xarici dil daşıyıcıları başqa ölkələrdə vətənimiz Azərbaycanı təqdim etmək imkanı əldə edirlər. Bütün bunlar təhsil sisteminin üsül və metodlarının da dəyişməsinə təsir göstərir. Məhz bunun nəticəsidir ki, orta məktəblərimizdə Kurikulum-fəal-interaktiv təlim metodu öz yerini tutmuşdur.

«Kurikulum» (curriculum) latın sözü olub, «yol», «kurs», «elm», «qaçış» mənalarını verir. İngiliscə-rusca lüğətlərdə «proqram», «tədris planı», «təlim kursu» kimi izah olunur. İlk dəfə Leyden və Qlazqo şəhər universitetlərinin sənədlərində bu sözə rast gəlinib. Alimlərin bir çoxunun qeyd etdiklərinə görə bu sözdən bir termin kimi 1976-cı ildən istifadə olunmağa başlanılıb. Ötən əsrin 70-ci illərindən sonnra kurikulum nəzəriyyəsi formalaşsa da, ilk fənn kurikulumları 1918-ci ildə ABŞ-da meydana gəlmişdir. İlk dəfə «The Oxford Dictionary»da (Oksfort ingilis dili lüğətində) bu söz leksikoqrafik termin kimi işlədilib. Mənası « icbari tədris kursu » deməkdir. Ölkəmizdə isə bu söz ilk dəfə keçən əsrin 90-cı illərinin sonlarından etibarən istifadə olunmağa başlandı.

Hazırda kurikulum dünyanın mütərəqqi təhsil modeli kimi geniş istifadə olunur. Avropa ölkələrində bu modelə təhsilin əsas tərkib hissəsi kimi yanaşılır. Çünki, bu konseptual sənəd kimi standartları, təhsil alanların hazırlığına qoyulan tələbləri, texnologiya və qiymətləndirmə məsələlərini özündə ehtiva edir.

Kurikulum birdən-birə təhsil modeli kimi ortaya çıxmadı. Planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid, cəmiyyətdə yeni ictimai-münasibətlərin yaranması, dünya təhsil sisteminə inteqrasiya, mövcud təhsil proqramlarının müasir tələblərə cavab verməməsi təhsil sistemində yeni baxış və yanaşmaların formalaşması, informasiya əsrinin tələbləri, hətta yaşayış və ünsiyyət tərzinin dəyişməsi təhsil islahatı olan kurikulumu zəruri etdi. Bu gün orta məktəblərimizdə Milli Kurikulum tədris olunan fənlər

arasında özünəməxsus yer tutur. Dərsin daha uğurlu alınması üçün hər bir

"Mənə de- mən yaddan çıxarım

Mənə göstər-mən yadda saxlayım

Məni cəlb et-mən öyrənim" prinsipini yadda saxlamalıyıq.

Uzun müddət təlimdə mövzuların tədrisində ənənəvi təlim metodundan istifadə olunub. Bu barədə məlumat üçün qeyd edək ki, ənənəvi pedoqoji prosesi təsvir edəndə biz ilk növbədə lövhənin qarşısında duran müəllimi və onu sakitcə dinləyən şagirdləri görürük. Bu zaman müəllim çalışır ki, bilikləri çatdırsın, şərh etsin və misallar gətirsin. Şagirdlər isə bu məlumatları passiv şəkildə qavrayır, sonra bilikləri möhkəmləndirmək üçün bunları təkrarlayır və ya məsələlərin həlli prosesində tətbiq edirlər. Yəni, ənənəvi dərsdə şagirdlər məlumatları yadda saxlamağa çalışırlar, müəllim isə nəticəni özü çıxararaq bilikləri hazır şəkildə şagirdlərə verir. Öyrədici fəaliyyət ilk növbədə müəllimin fəallığı əsasında həyata keçirilir. Ənənəvi təlimin bu xüsusiyyətinə görə onu izahedici–illustirativ və ya reproduktiv (təkraredici) təlim adlandırırlar. Bunu belə də demək olar:

Müəllim - informasiyanı ötürən

Şagird - informasiyanı qəbul edən

Məlum olduğu kimi, hər hansı bir məlumat real həyatda tətbiq edilən zaman biliyə çevrilir. Şagirdin cavabına qoyulan tələblərin əsasını əslində biliklərin mənimsənilməsinin yoxlanılması yox, verilən məlumatların yadda saxlanılması təşkil edir. Bu gün məktəbdə təlim alan şagirdlər gələcəkdə cəmiyyətimizin tam hüquqlu üzvləri olacaqlar. Yəqin elə bir adam tapılmaz ki, özünə belə bir sual verməsin: "Bizi XXI əsrdə nələr gözləyir? XXI əsrin xüsusiyyətlərini nəzərə almaqla gələcəyin təlimi necə olmalıdır? Bu suallara cavab vermək üçün müasir təlimin ən zəruri xüsusiyyətlərini aydın təsəvvür etmək lazımdır:

1) Biz sürətlə dəyişən dünyada yaşayırıq. Elmin, texnika və texnologiyanın, xüsusən də kompüter texnologiyasının sıçrayışlı inkişafının şahidləriyik. Daim dəyişən həyat şəraitinə uyğunlaşmaq üçün çevik olmaq, yeni şəraitə adaptasiya olmaq, öz qabiliyyətlərini gerçəkləşdirməyi bacarmaq, özünü inkişafa və özünütəkmilləşdirməyə hazır olmaq zəruridir;

2) Daim artan informasiya axını müasir insanın üzərinə sel kimi axır. İnsan həyatı boyu bilikləri müstəqil əldə etməyə çalışır və buna can atır. Bu zaman başlıca köməkçi kimi dərketmə fəallığı və hər şeyi öyrənmək həvəsi, həmçinin, şəxsiyyətin əməksevərliyi böyük rol oynayır. İnsan zəruri informasiyanı müstəqil qazanmalı, düzgün istifadə və tətbiq etməyi bacarmalıdır;

3) Vaxt məhdudiyyətinə görə fəal və yaradıcı olmaq və şəraitdən tez baş çıxarmağa təşəbbüs göstərmək, müstəqil olaraq yeni məsələlər qarşıya qoymaq və qərar qəbul etməyi bacarmaq zərurətini yaradır. Təşkilatçılıq, öz fəaliyyətini planlaşdırma vərdişləri və vaxt məhdudiyyəti problemini həll etməkdə kömək edə bilər.

4) Cəmiyyətdə baş verən sosial proseslər də şəxsiyyətin inkişafına dair xüsusi tələblər irəli sürür. Biz şəxsiyyət azadlığı dəyərinin artımını cəmiyyətin demokratik prinsipləri dəstəkləməsində və eyni zamanda, insan hüquqlarının pozulmasını sosial ziddiyyətlərdə müşahidə edirik. Bütün bunlar şəxsiyyətdən müstəqil mühakimələri və əmelləri, azad olmağı, düşünməyi tələb edir;

5) Cəmiyyətin təbəqələşmə tendensiyası insanlar arasında olan fərqlərin dərinləşməsi, virtual (xəyalı) tipli ünsiyyətin yayılması digər insanlarla harmonik qarşılıqlı

fəaliyyətdə və ünsiyyətdə (qarşılıqlı hörmət, etibar, dostluq, əməkdaşlıq, tolerantlıq) olmağı tələb edir;

6) Ekoloji fəlakətlərin, terrorizmin, mədəniyyət vandalizminin artımı təbiət və mədəniyyətə qayğılı münasibətin aşılanmasının, öz xalqının mənəvi dəyərlərinə, mədəniyyətinə və ənənələrinə yiyələnməyin və dünya sivilizasiyasının dəyərləri ilə tanış olmağın zəruriliyinə gətirib çıxarır.

Dünya təcrübəsindən məlum olduğu kimi, XXI əsrdə cəmiyyətin, həm də onun hər bir üzvünün yaşaması və inkişafında başlıca dəyər yaradıcılıqda özünü inkişaf etdirən şəxsiyyətdir. Məhz bütün vəziyyətlər təlimdə yeni metoddan istifadə etməyi zəruri etmişdir. Nəticədə, yeni - fəal/interaktiv təlim metodu yaranmışdır.İlk öncə şagirdlərə bu anlayışı izah etmək, daha sonra isə ətraflı məlumat vermək lazımdır ki, şagirdlər bu metodla dərs keçərkən hər şey onlara aydın olsun. Fəal/interaktiv təlim şagirdlərin fəal idrak fəaliyyətinə əsaslanan və təhsil prosesinin digər iştirakçıları ilə əməkdaşlıq şəraitində həyata keçirilən təlimi nəzərdə tutur. Çox vaxt bu anlayışın sinonimi kimi "interaktiv təlim metodları" anlayışından istifadə olunur. Belə ki, "interaktivlik" termini "dialoqu, qarşılıqlı təsiri" bildirir. Bu təlim metodunu ifadə etmək üçün həmçinin "problem-dioloji", "problemli", "evristik-təlim" anlayışlarından da istifadə olunur.

Fəal-interaktiv təlim-tədris idrak fəaliyyətinin təşkili və idarə olunması metodlarının məcmusudur. Bu təlim üçün aşağıdakı cəhətlər səciyyəvidir:

- müəllim tərəfindən şüurlu surətdə (iradi olaraq) idraki problem situasiyasının yaradılması;
- problemin həlli prosesində şagirdlərin fəal tədqiqatçı mövqeyinin stimullaşdırılması;
- şagirdlər üçün yeni və zəruri olan biliklərin müstəqil kəşfi, əldə edilməsi və mənimsənilməsi üçün şəraitin yaradılması.

Yeni yanaşmanın mahiyyəti ondadır ki, təlim şagirdlərin yaddaşının təkcə yeni elmi biliklərlə (informasiya) zənginləşdirilməsinə deyil, həm də təfəkkürün müntəzəm inkişaf etdirilməsi əsasında daha çox biliklərin müstəqil əldə edilməsi və mənimsənilməsi, ən mühüm bacarıq və vərdişlərinin, şəxsi keyfiyyət və qabiliyyətlərin qazanılmasına yönəlir .

Fəal/interaktiv təlimini ənənəvi təlimdən daha səmərəli edən psixoloji mexanizmlər vardır ki, bunlar da problemli vəziyyətin yaradılması, dioloqun və əməkdaşlığın zəruriliyi, şagird-tədqiqatçı, müəllim-fasilitator (yəni müəllim biliklərin qazanılması yolunda bələdçi, şagird tədqiqatçı, bilikləri kəşf edəndir), psixoloji dəstək, hörmət və etibardır. Nəticədə hər iki təlim metodunun fərqli cəhətləri ortaya çıxır:

- fəal dərsin quruluşu tədqiqat prosesinin mərhələlərini xatırladır (mərkəzi təlim prosesi – tədqiqatdır), ənənəvi dərs illüstrativ – izahedici xarakter daşıyır (mərkəzi təlim prosesi-mühazirədir);
- əgər ənənəvi dərsdə yeni məlumatlar dərsin əvvəlində müəllim tərəfindən şagirdə çatdırılırsa, fəal dərsdə bu məlumatlar dərsin axırında şagirdin öz vəsaiti ilə (tədqiqat nəticəsində) əldə edilir;
- hər iki dərsdə tətbiq etmə mərhələsi axırda olur, lakin fəal dərsdə bu mərhələ daha yaradıcı xarakter daşıyır;
- fəal dərsin fərqli mərhələlərindən biri refleksiya mərhələsidir. Refleksiyanın nəticəsində şagird öz tədqiqat fəaliyyətinin əsas mərhələlərini dərk etmiş olur;

Dünya təcrübəsi göstərir ki, fəal/interaktiv təlim metodu dərsin keyfiyyətini artırmaq məqsədi ilə güclü vasitə ola bilər. Bu metod dərsi şagirdlər üçün çox maraqlı və cəlbedici edir. Fəal-interaktiv təlim həm məzmunun öyrənilməsini, həm də tətbiqinin səmərəliliyini artırır və şagirdlərin dərketmə fəaliyyətini daha da fəallaşdırır. Azərbaycan Respublikasının ümumtəhsil məktəblərində bu metodun tətbiq edilməsi təhsil islahatının əsas məqsədlərindən biridir. Bu metodun tədris prosesinə daxil edilməsi şagirdlərin passivliyinin aradan qaldırılmasına, lazım olan təfəkkür xüsusiyyətlərinin , yaradıcılıq xüsusiyyətlərinin formalaşdırılması və təlim keyfiyyətinin yüksəldilməsinə şərait yaradaraq Azərbaycan Respublikasının "Təhsil İslahatı Proqramı"nda göstərilən demokratikləşmə, hümanistləşdirmə, diferensiallaşdırma, fərdiləşdirmə, inteqrasiya və humanitarlaşdırma prinsiplərini həyata keçirməyə imkan verir. Beləliklə, şagirdlərin özünə inamı artır, şəxsiyyətlərarası münasibətlər yaxşılaşır, məktəbə və oxumağa rəğbət çoxalır. Şəxsiyyətdə daim dəyişən şəraitə uyğunlaşma və onun həyata səmərəli keçməsinə imkan yaradan bu qabiliyyətlərin formalaşdırılması fəal-interaktiv təlimi zəruri etmişdir. Təlimin keyfiyyətinin yüksəldilməsinə şərait yaradan fəal-interaktiv təlim metodu həm müəllimlər, həm də məktəb rəhbərləri tərəfindən dərindən dərk edilməlidir. Buna görə də, onlar üçün müntəzəm xüsusi treninqlər keçirməli və fəal – interaktiv təlimin tətbiqi üçün vacib olan bilik və bacarıqlar formalaşdırılmalıdır. Bu sahədə fəaliyyət göstərən bir neçə beynəlxalq təşkilatın layihələri (UNİCEF, Açıq Cəmiyyət İnstitutu, Dünya Bankı, Norveç Qaçqınlar Şurası, Britaniya Şurası və s.) vasitəsilə respublikada fəal-interaktiv təlimin tətbiqi üzrə işlər görülüb. Lakin bu gün fəal-interaktiv texnologiyalar ilə tanışlıq imkanları çox məhduddur. Fəal-interaktiv texnologiyalardan daha səmərəli istifadə etmək üçün müəllimlərin bu sahədə bilik və bacarıqları rol oynamalıdır. Müəllim fəal dərsin nə zaman, hansı məqsədlərə görə istifadəsini, necə qurulmasını, şagirdlərin səviyyəsinə uyğunlaşdırılmasını, ayrı-ayrı metod və texnikaların seçilməsi prinsiplərini və fəal dərsin nəticələrinin necə qiymətləndirilməsini bilməlidir. Dərsi fəal-interaktiv dərs tipində qurmaq daha yaxşı nəticə verər. Fəal-interaktiv təlim texnologiyası tədris materiallarının elə öyrədilməsi sistemidir ki, bu zaman şagirdlərin qarşısına problem qoyulur, onlarda həmin problemi həll etmək tələbatı yaradılır, onlar birgə fəaliyyət, axtarış həyata keçirib bilikləri müstəqil şəkildə əldə edirlər. Bu zaman əsas yük şagirdlərin tədqiqat işlərinin tədqiqinə, alınan biliklərin yaradıcı tətbiqinə, şagirdlərin məntiqi tənqidi və yaradıcı təfəkkürünün inkişafına yönəldilir. Deyilənlər onu göstərir ki, fəal-interaktiv dərs mükəmməl mexanizmə (1. Problemli şəraitin yaradılması, 2. Şagirdin tədqiqatçı, müəllimin bələdçi olması, 3.Dialoq və əməkdaşlığın zəruriliyi, 4.Psixoloji dəstək: hörmət və etibar) malikdir ki, bu mexanizmlərdən biri yoxdursa, onda fəal-interaktiv təlim də yoxdur.

Müasir təhsildə xarici dilin öyrənilməsi qarşımıza bir çox tələblər qoyur. Fəal təlimin əsas üstünlüyü ondadır ki, şagirdi daimi dəyişən şəraitə uyğunlaşmağa və böyüklər dünyasına sərbəst, rahat daxil olmağa imkan yaradır. Təlim şagirdə güclü informasiya axınından lazım olanı seçmək, qarşılaşacaqları problemləri həll etmək bacarığı aşılayır. Artıq təlim mexaniki yaddaşa deyil, təfəkkürün inkişafına, fəal dərketmə mövqeyinə, biliklərin müstəqil əldə edilməsinə, yaradıcı tətbiqə əsaslanır. Fəal təlimin daha da yaddaqalan edilməsində İKT-nin rolu böyükdür. İKT fəal təlimə yenilik qatır, canlanmasına əyanilik gətirir. Bu günün təlimi şagirdi tədqiqatçı, müəllimi yaradıcı olmağa sövq edir. Müəllim dərsinin daha da maraqlı və səmərəli qurulması

üçün İKT-nin imkanlarından istifadə etməlidir. Heydər Əliyev XX əsri Azərbaycan dilinin inkişafında məhsuldar bir dövr kimi səciyyələndirirdi: "Bu dövr bizim üçün, ədəbiyyatımız, tariximiz üçün böyük bəhrəli, məhsuldar bir dövrdür və bu dövrdə dilimiz inkişaf edibdir...Tarixi köklərimizə, tarixi keçmişimizə böyük hörmət və ehtiramımızı bildirərək, eyni zamanda bu gün deməliyik və mənəvi haqqımız var deyək ki, XX əsrdə bizim dilimiz öz inkişaf dövrünü keçib, formalaşıb, özünəməxsus adını götürüb və gəlib dövlət dili səviyyəsinə çatıb. İndi bunun adını dəyişdirib başqa ad qoymaq heç bir nöqteyi - nəzərdən düzgün deyil - həm tarixi nöqteyi - nəzərdən, həm fəlsəfi nöqteyi-nəzərdən, həm Azərbaycan dövlətçiliyi nöqteyi-nəzərindən, ölkəmizin bu günü və gələcəyi nöqteyi-nəzərindən düzgün deyil". Müdrik şəxsiyyət H.Əliyev tarixi keçmişimizin dərslərini yada salır, unutmamağı, ibrət almağı tövsiyə edirdi. Onun müəllifi olduğu azərbaycançılıq fəlsəfəsi bu gün bütün dünyaya səpələnmiş həmvətənlərimizi birləşdirən milli ideologiyadır. O, keçmişimizi, soy-kökümüzün ünvanını da doğru-düzgün göstərərək deyirdi: "Bizim keçmişimiz məlumdur, biz onu inkar etmirik. Yenə də deyirəm, biz türk mənşəli bir xalqıq. Bizim dilimiz türk dilləri qrupuna məxsus dildir. Ancaq o 23 dil kimi, bizim də öz dilimiz var".

Biz gənc alim və tədqiqatçılar da nəsillərin bizə qoyub getdiyi elm, təhsil varidatını qorumalı və qloballaşan təhsil sistemi ilə ayaqlaşmağa çalışmalıyıq.

Məmmədova S.R.,
baş müəllim
Sumqayıt Dövlət Universiteti

İNNOVASİYA PROSESİNİN İQTİSADİ VƏ SOSİAL SƏMƏRƏLİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİNİN METODOLOJİ ASPEKTLƏRİ

Bazar münasibətlərinin geniş vüsət aldığı şəraitdə innovasiya prosesinin iqtisadi-sosial səmərəliliyinin qiymətləndirilməsi mürəkkəbləşib çoxmərhələli xarakter almışdır. Innovasiya prosesinin çoxsaylı mərhələləri (elementləri) içərisində innovasiyanın iqtisadi-sosial səmərəliliyinin qiymətləndirilməsi mühüm yer tutur. Bu zaman beynəlxalq təcrübədə geniş istifadə edilən metodlardan, metodikalardan, təlimatlardan istifadə edilir və müvafiq indikatorlar hesablanaraq müqayisə edilirlər.

İnnovasiya prosesinin (sisteminin) iqtisadi-sosial səmərəliliyinə bir çox amillər təsir göstərir. Onların içərisində mükəmməl qanunvericilik bazası, fərdləri və müəssisələri öyrənməyə stimullaşdıran şərtlər, maliyyə sisteminin etibarlılığı, bu sahədə dövlət tənzimləmələrinin səmərəliliyi və s. mühüm rol oynayır.

Müəssisələrində innovasiya prosesinin iqtisadi-sosial səmərəliliyini qiymətləndirmək üçün yeni texnika və texnologiyaların, yeni məhsulun, yeni idarəetmə metodunun, məqsədli layihənin tətbiqinin nəticələrini səmərəlilik göstəricilərinin köməyi ilə hesablamaq mümkündür. Bu məqsədlə təcrübədə elmi-texniki tərəqqi üzrə tədbirlərin iqtisadi səmərəliliyinin qiymətləndirilməsi metodikasından geniş istifadə edilir. Mövcud iqtisadi ədəbiyyatlarda (dərsliklərdə) iqrtisadi səmərəliliyin aşağıdakı növlərini fərqləndirirlər:

İqtisadi səmərə - tədbirlər planını işləyib hazırladıqda təyin edilir və ona görə də

bu cür iqtisadi səmərə ehtimal xarakteri daşıyır;

Gözlənilən iqtisadi səmərə - bu və ya digər tədbirin həyata keçirilməsi haqqında qərar qəbul edildikdən sonra hesablanır və bu onların nəticələrinin istehsala tətbiq edilməsində əsas təşkil edir;

Faktiki iqtisadi səmərə - tədbirin istehsala tətbiqindən sonra müəyyənləşdirilir və o konkret tədbirin qiymətləndirilməsində əsas götürülür.

İnnovasiya prosesinin iqtisadi-sosial səmərəliliyi müəyyən edilmiş dövrdə həyata keçirilən kompleks əməliyyatların məcmusu kimi bir sıra qarşılıqlı əlaqədə olan amillərdən asılıdır:

- müəssisənin innovasiya potensialı;
- innovasiya fəaliyyətinin istiqamətləri;
- innovasiya ideyalarının həyata keçirilməsinin sürəti;
- marketinq strategiyasının icrası.

Ümumiyyətlə, iqtisadi-sosial səmərənin hesablanması zamanı tədqiqatçılar və alimlər bəzən bir -birinə oxşar, bir–birini tamamlayan yanaşmalardan, başqa bir halda isə-baza metodologiyadan bəhrənələrək hesablanmış göstəricilər sistemindən istifadə edirlər. Bir çox hallarda iqtisadi səmərə və iqtisadi səmərəlilik anlayışları eyniləşdirilir. İnnovasiya prosesinin nəticələrinin sosial səmərəliliyinin heasblanması üzrə bu vaxtadək yekdil metodiki yanaşmaya rast gəlmək çətindir. Onun qiymətləndirilməsində də hesablanma göstəricilərindən və ekspert yanaşmalarından istifadə edilir.

Məsələn, Rusiyadan olan tədqiqatçı N.V.Çaykovskaya iqtisadi səmərəni beş yerə bölərək, onları birbaşa səmərə, texniki səmərə, sosial səmərə, xarici səmərə və sistemli səmərə adlandırılmışdır.

Həmin ölkədən olan İ.Kokurin bazar iqtisadiyyatı şəraitində iqtisadi səmərəni innovasiya fəaliyyətindən əldə olunmuş əsas iqtisadi nəticə kimi qiymətləndirir. O, göstərir ki, iqtisadi səmərə innovasiyadan istifadədən gələn potensial mənfəətdən çıxılan xərci özündə əks etdirir.

İnnovasiya prosesinin qiymətləndirilməsində aşağıdakı istiqamətləri nəzərə almaq vacibdir: **Əvvəla,** innovasiya bölməsi idarə edən sistemin tam hüquqlu iştirakçısı kimi, müəyyən struktura malik subyekt kimi çıxış edir, **ikincisi,** innovasiya strukturu ilə elm, təhsil müəssisələri və layihə rəhbərlərinin qarşılıqlı əlaqəsi təmin edilir, **üçüncüsü**, innovasiya strukturunun digər innovasiya müəssisələrinin fəaliyyətinə təsiri: texnologiyaların ötürülməsi, bazar mühitinin dəyişikliklərinə daha çevik reaksiya verən cavab verən müəssisədə onun tətbiqi, layihənin səmərəliliyinin yoxlanılması, texnologiyaların gələcək transferi həyata keçirilir və **dördüncüsü,** innovasiya strukturunun sosial-iqtisadi və siyasi səmərəsi –dövlətin birbaşa və dolayı xərclərinin (vergi və gömrük güzəştləri, aşağı icarə haqqı və sairə) idarə edilməsi, ölkənin beynəlxalq miqyasda mövqeyinin möhkəmləndirilməsi hesabına təmin edilir.

İnnovasiya prosesinin kompleks qiymətləndirilməsi aşağıdakı göstəricilərin hesablanmasına əsaslanır: 1) fəaliyyətin təşkilati göstəriciləri, 2) elmi-texniki göstəricilər, 3)strukturun fəaliyyətinin ümumi göstəriciləri. Qiymətləndirilmə strukturun

profilindən, müəssisənin fəaliyyət sferasından və qiymətləndirənin məqsədindən asılı olan müvafiq prosedur üzrə aparılır.

Məlumdur ki, elmi nailiyyət və ya texnika və texnologiyanın yaradılması nəticəsində elmi məhsulun səmərəsi artır. Bu yalnız o zaman elmi səmərə sayılır ki, artım elmi informasiyanın artması hesabına baş versin və yaxud texnika və texnologiyanın yeni modelinin yaradılması prosesinin nəticəsi olsun və elmi-texniki informasiyanın artımında əks olunmuş olunsun.

İnnovasiya prosesinin səmərəliliyini qiymətləndirərkən sosial səmərəni də nəzərə almaq lazımdır. Buraya həyat səviyyəsinin və əmək şəraitinin yaxşılaşdırılmasına, dəyişdirilməsinə yönələn müəyyən müsbət meyllər aid ola bilər.

Sosial səmərənin qiymətləndirilməsi ekspert metodunun köməyi ilə aparılır. Elmi–texniki innovasiyaların gözlənilən sosial nəticələrinin ekspertizası müxtəlif fəaliyyət sferalarında ixtisaslı mütəxəssislərin cəlb edilməsilə olan fərdi və kollektiv ekspertiza formaları,regionun müxtəlif ictimai təbəqələrinə aid olan fərdi və kollektiv ekspertiza formaları, regionun müxtəlif ictimai təbəqələrinə aid olan layihələr üzrə aparılan sosioloji sorğulardır.

İnnovasiya layihələrinin tətbiqi həmçinin yeni iş yerlərinin yaradılması, işçilərin əməyinin motivləşdirilməsi, yüksək ödənişli iş yerlərinin təşkili, işçilərin qidalandırılması, ixtisaslarının artırılması, yeni peşəyə (ixtisasa) yiyələnməsi, yaradıcılıq təşəbbüsünün dəstəklənməsi, işçi axıcılığının azaldılması, işçilərin bütünlükdə həyat səviyyəsinin və tərzinin dəyişdirilməsi kimi sosial əhəmiyyətli məsələlərin həllinə imkan yarada bilər. Həmin tədbirlərin həyata keçirilməsinin məntiqi nəticəsi bütünlükdə iş vaxtı itkilərinin azaldılmasına, istehsal güclərindən səmərəli istifadə olunmasına buraxılan məhsulun keyfiyyətinin yüksəldilməsinə, material və enerji daşıyıcılarına qənaət olunmasına, tullantısız istehsalın təşkilinə, tullantıların biotexnoloji tsikl üzrə vaxtında emalına, su hövzələrinə axıdılan zərərli maddələrin azaldılmasına təminat yaratmış olacaqdır.

Абдуллаева Н.В., диссертант
Азербайджанский Государственный Экономический Университет

НАПРАВЛЕНИЯ РАЗВИТИЯ ЧЕЛОВЕЧЕСКОГО КАПИТАЛА В СФЕРЕ ТУРИЗМА

В век глобализации и инноваций человеческий капитал является конкурентным преимуществом экономики, так как человеческий капитал позволяет достигать сложных, амбициозных целей, действуя нестандартно и используя современные формы мобильности.

Согласно Организации экономического сотрудничества и развития (ОЭСР), человеческий капитал определяется как: “знания, навыки, компетенции и другие признаки, воплощенные в отдельных лицах или группах лиц, приобретенных в течение их жизни и используемых для производства товаров, услуг или идей в

рыночных условиях”.

Туризм как отрасль первичных услуг, способствует развитию личности, ее творческих возможностей и в целом человеческого потенциала. Туризм создает занятость и экономическое развитие. Согласно Всемирной туристской организации, “туризм вносит 5% мирового ВВП. На его долю приходится 6% мирового экспорта услуг, являясь четвертым по величине экспортом сектора после топлива, химических веществ и автомобильной продукции. На туризм приходится 235 миллионов рабочих мест или по одному на каждые 12 рабочих мест по всему миру”. Недавнее глобальное повышение конкурентоспособности привело к внедрению инноваций как дифференцирующий элемент между направлениями, как в предприятиях так же и в различных отраслях, с качеством управление и вкладом в устойчивое развитие.

Основываясь на Генеральное соглашение по торговле услугами (ГАТС), в туристской сфере инновационная деятельность развивается по трем направлениям:

1. Внедрение нововведений (организационные инновации), связанных с развитием предприятия и туристского бизнеса в системе и структуре управления, включая реорганизацию, поглощение конкурирующих субъектов на основе новейшей техники и передовых технологий; кадровой политики (обновление и замена кадрового состава, система повышения квалификации, переподготовка и стимулирование работников); рациональной экономической и финансовой деятельности (внедрение современных форм учета и отчетности, обеспечивающих устойчивость положения и развития предприятия).

2. Маркетинговые инновации, позволяющие охватывать потребности целевых потребителей или привлекать не охваченных на данный период времени клиентов.

3. Периодические нововведения (продуктовые инновации), направленные на изменение потребительских свойств туристского продукта, его позиционирование и обеспечивающие конкурентные преимущества.

Таким образом, инновационная деятельность в сфере туризма направлена на создание нового или изменение существующего продукта, на усовершенствование транспортных, гостиничных и других услуг, освоение новых рынков, внедрение передовых информационных и телекоммуникационных технологий и современных форм организационно-управленческой деятельности.

Инвестиции в развитие человеческого капитала необходимы, особенно в сфере туризма и гостеприимства, где сотрудники являются непосредственно главными участниками процесса в связи со спецификой предоставляемых услуг. Существуют различные классификации туризма. Они различаются по определению, принципами построения, задачами классификации и пр.

В таблице ниже показана основная классификация туризма по Зорину И.В. и Квартальнову В.А. (2003):

Таблица 1.

Классификация туризма по Зорину И. В. и Квартальнову В. А.

Основные классификации		Категории туризма					
I	Субъект деятельности	Индивидуальный	Групповой	Семейный			
II	Регион отдыха	Национальный	Международный				
III	Рынок	Внутренний	Иностранный				
IV	Способ организации	Самодеятельный	Организованный				
V	Цель	Релаксационный (отдых)	Реабилитационный (санаторий)	Рекреационный			
VI	Возраст	Детский	Молодежный	Средний	Третий		
VII	Транспорт	Автомобильный	Автобусный	Водный	Пешеходный	Железнодорожный	Верховой
VIII	Основная деятельность	Конгрессный	Деловой	Познавательный	Спортивный	Экологический	
IX	Основные ресурсы	Горный	Морской	Речной	Лесной		

Более подробная классификация основных проблем устойчивого развития туризма отражена на рисунке 1. (Боголюбова С.А., 2010)

Рисунок 1. Систематизация проблем устойчивого развития туризма

Знания и возможности людей являются определяющими факторами роста экономики страны и уровня жизни; результаты образовательного процесса материализуются, в товарах и услугах, в увеличении институциональных возможностей, более эффективном государственномуправлении, и в улучшении условий для инвестиций (Купер, 2005). По существу, можно сказать, что на мировом уровне, государства конкурируют по образованию и науке; в особенности по науке так как она стимулирует экономический рост и рещение сложных вопросов экономики страны. В случае США - оценки показывают, что наука представляла половину американского экономического роста в последние пять десятилетий (Тоффлер,1996).

Глобализация способствует росту мобильности человека, доступа к знаниям за пределами национальных границ, к росту спроса на образование, включая электронное обучение, на рост потребностей взрослых для продолжения их образование, увеличение инвестиций (Друкер, 2004). В результате возможности для увеличение и диверсификация высшего образования растут.

Информационные технологии и коммуникации быстро расширяются во всем мире, сопутствующем с их возможностями применения в образования. Во многих частях мира информационные технологии могут обеспечить доступ к образования для лиц, которые по разным причинам не могут позволить посещение вузов и других образовательных учреждений.

Образование или обучение необходимо для:

- улучшение знаний о конкурентоспособности, инновациях и процессы предпринимательства в природе основанные на туризме услуги;
- обзора практических примеров инноваций и предпринимательство в природоохранном туризме;
- создания практических инструментов для инноваций;
- развитие компетенции учащихся для решения инноваций и предпринимательства в рабочей обстановке;
- укрепление взаимодействие между партнерами;
- развитие способности студентов мыслить и работать в международном уровне.

Педагогический подход Минтзберга (2002) о том, что обучение по управлению обязательное и необходимо для развития в той или иной сфере подразделяется на три части:

- преподавание теоретических и аналитических концепций полезно для приближения к инновационной проблеме;
- усиление выражения личного восприятие проблемы;
- изучение и анализ проблемы в свете теоретических концепций переанализировать проблему в свете теоретических концепция изучена.

Основанное на проблемах обучение, подход фокусируется на опыт инноваций и предпринимательства, а также собственные исследования обучающихся.

Во время обучения человек будет применять в практике теоретические, концептуальные и методические аспекты, которые он изучил ранее. Это обес-

печит лучшую связь и повысит осведомленность о необходимости увязки абстрактного обучения с конкретными ситуациями, а также для передачи теории в применимые подходы к практике.

Среди ранних определений термина “развитие людских ресурсов” (РЛР) целостную концептуализацию развития людских ресурсов является “увеличения знаний, навыков и способностей всех людей в обществе “(Харбисон и Майерс 1964).

Согласно Харбисону и Майерсу, цели современных обществ ... являются политическими, культурными, и социальным, а также экономическим. Развитие людских ресурсов является необходимым условием для достижения всех выше перечисленных. Харбисон и Майерс далее заявили, что “если страна не в состоянии сделать что либо для развития своих человеческих ресурсов, она не может развиваться гораздо больше, будь то современная политическая и социальная структура, с чувством национального единства или более высоким стандартами материала благосостояния”.

Последнее время роль развития и растущее значение людских ресурсов (РЛР) расширяется, как силы движущей стратегии национального развития (МакЛин, 2004).

Furthermore, there are financial specialists connecting the worldwide economic crisis to the way that the disagreements between proprietors and chiefs of joint-stock companies have not been settled, subsequently of which banks distributed loans to anyone; with the shifting of fictitious capital and the quick development of speculative operations outside the exchange market. As indicated by specialists, "financial transactions identified with material generation represent just 2-3%, that is, 97% of liquidity serves the financial area, transforming it into a "thing-in-itself". Inconsistencies aggregated, and at some point or another they needed to "explode", which now happened.

In January 2016, the Central Bank revoked four licenses of Gandja Bank, Bank of Azerbaijan, United Credit Bank and NBC Bank. In July 2016 licenses of Dekabank, Kredobank, Parabank and Zaminbank were revoked. As of January 2017 depositors of 10 banks were compensated for 722 million 131 thousand AZN, and the amount of compensation paid for a number of banks already reaches 100%. The decision to revoke the licenses was made because these banks failed to create adequate reserves for potential losses, and also because these institutions could no longer carry out their activities in a prudential manner. The central bank eliminates banks that can damage the banking system, which cannot fulfill obligations to creditors, as well as those with too high risks. The banking system of the country does not fulfill its main function - lending, the credit policy of banks today is practically reduced to nothing, banks do not have money. The remaining relatively large banks should unite. The goal first of all is that the market still has a limited number of healthy and competitive participants.

The outgoing 2016 for the Azerbaijani economy turned out to be the most problematic year in the last 15 years. For the first time, all signs of stagflation appeared: a noticeable decline in the economy (-3.9% over 11 months) was accompanied by growing inflation (12.1%). To a large extent, this was the result of a very passive economic policy in 2015, when the government even after the double devaluation of the national currency - AZN - still counted on the growth of world oil prices. In 2016 many indicators of the country's economy deteriorated. Positive shifts did not occur, because the macroeconomic environment remained very unstable. AZN continued to become cheaper, inflation could not be brought down, crediting froze. In the economy, investment opportunities have sharply narrowed (the investment decline for the 11 months was 28%). From the beginning of 2016 the floating rate of AZN was declared. In the past year, all street currency exchange offices were closed, restrictions

were imposed on banks selling foreign currency. The dollar rate, which on January 5 was 1.5610 AZN, as of December 23, jumped to 1.7622 AZN. By March, the Central Bank of the country spent 990 million AZN on stabilizing the exchange rate, and then refused large-scale intervention. The main reasons for the dollar's deficit in the market remained the same - the outflow of capital from the country, the cost of imports, the growing external debts of the state. All this took place against the backdrop of a growing deficit in the country's balance of payments, above all, in terms of capital account. The state budget revenues decreased by 867 million AZN (-5,2%) compared to 2016, expenditures - by 1 billion 895 million AZN (-10.2%). Budgets of development remain in the past. In 2015-2017, budget expenditures began to decline annually.

Under the effect of the worldwide economic crisis, numerous nations were confronted with a sharp decrease in the exchange rate of national currencies,

a degradation in the payment and foreign trade balance, a considerable outflow of capital, and additionally with other negative variables. Situation with our national currency in respect to the leading world currencies was not always stable. Similar to different nations of the region, Azerbaijan collided with a large-scale outflow of capital, the exchange rate of the national currency – AZN did not stay stable in respect to the main world currencies, it weakened against the dollar by 1,913 times.

It was in balance until the year 2015. When the prices of oil sharply decreased, and the wave of new crisis has reached Azerbaijan, our national currency became very weak to dollar.

Investment of the Azerbaijani economy, which, despite the current situation, in particular, the reduction of oil revenues, amounted to $ 11.7 billion in 2016. Out of this amount, $ 8 billion was for foreign, $ 3.7 billion - domestic investment. In absolute terms, this indicator is also very high.

In 2016, the country faced such an important task as preserving strategic foreign exchange reserves, in particular, the State Oil Fund of Azerbaijan (SOFAZ). SOFAZ's revenues, thanks to timely steps taken to diversify the country's foreign exchange reserves, declined by only 4% in dollar terms. Today, the State Oil Fund of Azerbaijan is worth $ 33 billion.

In 2016 the average annual inflation in Azerbaijan was 12.4% against 4% in 2015. Then inflation for the first time reached double digits in more than 15 years. In Azerbaijan, prices for consumer goods and tariffs for services in March 2017 increased by 1.6% compared to February, and in January-March - by 13.2% compared to the corresponding indicator of the previous year. In Azerbaijan for 2016 it became known that essential goods (first of all, food) of purely Azerbaijani production grew by 47.5%. Goods of import origin, in which there is at least a minimum Azerbaijani contribution, went up by 52.3%.

Increase in GDP starts to diminish in the year 2012, and after that its pointers fluctuate until 2014. In the year 2015 increment in GDP is equivalent to 1.1 percent that implies GDP`s increase is little when we contrast with earlier years. As we see, circumstance does not contrast drastically among different CIS nations. In the year 2015 Armenia, Kazakhstan, Kyrgyzstan, Tajikistan, Turkmenistan Uzbekistan still

experience humble increment in GDP, though Belarus, Moldova, Russia and Ukraine have diminish in GDP.

In accordance with international structures, the worldwide financial crisis has moved to a more extensive economic one and won't skip any nation in the world. Crises put on the point of bankruptcy not only banks and enterprises, but also various states. The chronology of its evolution demonstrates that the crisis has already moved from the financial segment of the economy to real and social, joined by a decrease in production, a crisis of consumer trust, job cuts, and a decrease in individuals' standard of living. The geography of social disasters is extending. In the post-Soviet nations, Russia and Ukraine, Kazakhstan, then - Latvia, Lithuania, Estonia, Georgia, Armenia and Tajikistan - endured most.

Tağıyeva G.A., assistent
Azərbaycan Dövlət Aqrar Universiteti

İNNOVASIYALARIN MALİYYƏLƏŞDİRİLMƏSİ MEXANİZMLƏRİ

İnnovasiya prosesinin ilkin mərhələsi kimi, elmi ideya da kommersiya mənşəyinə malikdir. Çünki, o yalnız alimin sərbəst olaraq elmi yaradıcılıq prosesi deyil, həm də uyğun laboratoriayaların avadanlığına qoyulan maliyyə resurslarının effekti hesab edilir. İnnovativ ideyaların real istehsal effektləri istehsal şirkətlərini təcrübə nümunəsinə və praktiki nəticəyə çatdırmağa qədər maliyyələşdirməyə sövq edir. Sənayecə inkişaf etmiş ölkələrdə innovasiya fəaliyyətinin maliyyə infrastrukturu, sahibkarlıq sektorunu maliyyə resursları ilə təmin edən müasir fond və pul bazarlarının yüksək inkişaf etmiş maliyyə-kredit mexanizmləri bazasında formalaşmışdır.

Müasir innovasiya proseslərinin konsepsiyası onun iştirakçılarının əhatə dairəsini xeyli dərəcədə genişləndirmişdir. Eləcə də innovativ fikirlərin axtarışından tutmuş innovasiya layihələrinin reallaşdırılmasınadək bütün mərhələlərdə bu sahədə yetişmiş menecerlərin rolu artmışdır. İnnovasiya iştirakçılarının marağı, onların qarşısında duran vəzifələrin miqyası genişlənmişdir; investisiya qoyulan obyektin seçilməsi, sərbəst vəsaitlətin axtarışı, optimal investisiya əməkdaşlığı formasının seçilməsi, investisiyaların tətbiqində tərəfmüqabilinin seçilməsi, innovasiya layihələrinin rentabeliyinin artırılması yollarının müəyyən edilməsi, daha rəqabətqabiliyyətli layihələrin həyata keçirilməsi proseslərinin idarə edilməsi olduqca vacibdir.

Müasir bazar iqtisadiyyatında, investisiya-innovasiya layihələrinin hazırlanmasında biznes-planın əhəmiyyəti olduqca mühümdür. Bəzən biznes planları hazırlayarkən təcrübəli mütəxəssislərdən, o cümlədən xarici konsaltinq firmalarından, onların təcrübəsindən də geniş istifadə edirlər. Lakin bu firmalar investisiya vəsaitinin tapılmasında, layihədə nəzərdə tutulan məhsulların dünya bazarına çıxarılmasında, investisiya layihələrinin rəqabətqabiliyyətliliyinin qiymətləndirilməsində cavabdehlik daşımırlar. Qeyd etmək lazımdır ki, ölkənin investisiya-innovasiya potensialının artırılmasında bank sisteminin rolunun artırılması olduqca vacibdir. Bu sahədə bank sisteminin

fəallığının təmin olunması ilə bağlı imkanların aşkara çıxarılması, ölkədə əlverişli siyasi və iqtisadi şəraitin yaradılması mühüm rol oynayır. Eləcə də bankların özlərinin də xüsusiyyətləri az əhəmiyyət kəsb etmir. Bu mənada aşağıdakı cəhətlərə diqqəti yönəltmək məqsədəuyğun olardı.

- bankın şəxsi kapitalının nisbətən məhdud həcmdə olması;
- aktivlərdəki şəxsi kapitalın xüsusi çəkisinin az olması;
- uzunmüddətli kapital qoyuluşları imkanlarını məhdudlaşdıran qısamüddətli passivlərin üstünlük təşkil etməsi;
- passivlərdən depozitlərin payının müəyyən qədər aşağı olması;
- müəssisə və təşkilatların passivlərindəki qalığın payının hesablar üzrə yüksək olması;
- aktivlərin və passivlərin strukturunun üst-üstə düşməməsi və ya uyğunsuzluğu;
- bank aktivlərinin likvidliyi probleminin olması, kəskinləşməsi və s.

Deməli, aydın olur ki, innovasiya-investisiya layihələrində yaxından iştirak edən bankların kapital bazası beynəlxalq, dünya standartlarına cavab verməlidir. Çünki, yalnız iri banklar istehsala investisiya yatırılması istiqamətində vəsaitlərinin əksər hissəsini onların təsərrüfat dövriyyəsindən çıxarılmasına tab gətirə bilər.

Uzunmüddətli kreditlərin artmasına passivlərin struktur xüsusiyyətləri müəyyən dərəcədə mane ola bilir, banklarda şəxsi vəsaitlər nisbətən azlıq təşkil edir, cəlb olunan vəsaitlərsə qısamüddətlidir. Faiz dərəcələri ilə verilən borcların riski arasında ziddiyyətlər vəziyyəti bir qədər də mürəkkəbləşdirə bilər. Dünya təcrübəsindən məlumdur ki, uzunmüddətli kreditlər daha etibarlıdır və onlara görə faiz dərəcələri aşağıdır. Lakin bu gün respublikamızda uzunmüddətli kreditləri daha riskli hesab etmək olar və onlara görə verilən faiz dərəcələri müəssisələrin maliyyə imkanlarının məhdudluğu baxımından çox aşağıdır.

Innovasiya şirkətləri ilə birgə iş aparan qeyri-dövlət maliyyə institutlarının strukturunu aşağıdakı kimi ifadə etmək olar.

1. Banklar. Onlar vəsaitləri qaytarmağa zəmanət verməklə müəyyən faizlərlə kredit verirlər. Daha aşağı riskli kreditləşməyə görə banklar innovasiya şirkətləri ilə onların qurulduğu ilkin mərhələlərdə demək olar ki, işləmir, lakin daha yüksək risklər fazasını keçdikdən sonra onlarla işləməyə başlayır.

2. İnvestisiya institutları (pensiya fondları, sığorta şirkətləri, şirkət, universitet fondları, dövlət investisiya fondları) bir qayda olaraq, daha etibarlı işgüzar nüfuza malik partnyorlara üstünlük verməklə yüksək olmayan maliyyə riskləri sahəsində işləyirlər.

3. İnvestisiya fondları bir qayda olaraq müəyyən biznes növlərində təmərküzləşdirilir. İnvestisiya fondlarında investisiyalaşma haqqında qərar qəbul etmək proseduru kifayət qədər mürəkkəb və uzundur. Bu fondlara müraciət üçün çoxsaylı məhdudiyyətlər və şərtlər vardır.

4. Səhmdar kapital IPO bazarına çıxış vasitəsilə, xüsusil kapitalı cəlb etmək yolu ilə yaradılır. Daha doğrusu, burada fond bazarında səhmlərin buraxılışı, satışı və növbəti kotirovkasını özündə birləşdirən səhmdar kapitaldan söhbət gedir. Bu, müasir

dövr üçün iqtisadiyyatda daha geniş yayılmış effektiv investisiyalaşma mexanizmi olsa da, kifayət qədər yüksək ilkin xərclər və layihənin peşəkarlarla reallaşdırılması tələb olunur və bir qayda olaraq, uğurlu biznes aparan şirkətlər tərəfindən istifadə edilir.

5. Fərdi investorlar innovasiya şirkətləri üçün vəsaitlərin ən sadə və daha əlverişli cəlb edilməsi üsullarından ibarətdir. Lakin maliyyələşdirmə mənbəyinin həcminə görə daha az əhəmiyyətli sayılır.

6. Vençur fondları, daha çox riskli zonada iş üçün yaradılmış ixtisaslaşdırılmış maliyyə institutlarıdır. Onların investisiyaları ən bahalıdır, ərizələrə baxılma və qərar qəbul etmə proseduru isə sadə və operativdir. Vençur fondları innovasiya layihələrinin əsas investorları hesab olunurlar. Innovasiya prosesinin maliyyələşdirilməsinin əsas təşkili prinsipləri kimi aşağıdakılar çıxış edir: innovasiya tətbiqi müddətlərini minimumlaşdırma və bundan alınan effekti maksimumlaşdırmağa istiqamət götürmək, innovasiya prosesinin bütün mexanizm və mərhələlərini mövcud institusional-hüquqi normalara uyğunlaşdırmaq, innovasiyanın maliyyələşdirilməsi mənbələrinin maksimal geniş spektri və onların optimal əlaqələndirilməsi, innovasiyanın işlənib hazırlanması və praktiki olaraq reallaşdırılması prosesinin kompleksliliyi, bütün innovasiya prosesinin yüksək çevikliyi və dinamikliyi.

Innovasiya prosesinə kapital qoyuluşundan daxil olan gəlir, prinsip etibarilə, bankda kapitalda ssuda faizi üzrə zəmanətli ödənişlərdən müəyyən dərəcədə fərqlənir. Çünki innovasiya prosesinin mənfəətliliyi və deməli, kapital qoyuluşundan gəlir, yalnız innovasiya prosesinin uğurla reallaşdırılması zamanı mümkündür. Ona görə də bu cür gəlir ya kifayət qədər yüksək ola bilər və yaxud da heç olmaya bilər. Azərbaycanda innovasiya sahəsində maliyyə infrastrukturunun yaradılmasının əsas vəzifələri aşağıdakılar sayılır:

- innovasiya prosesinin sürətləndirilməsi üzrə institusional-maliyyə şəraitinin formalaşması, elmi-texniki potensialın, elmi-texniki tədqiqatın prioritet istiqamətləri üzrə potensialın bərpa edilməsi, xaricdən Azərbaycan alimlərinin geri qayıtmasının stimullaşdırılması.

Qeyd etdiyimiz kimi, hətta transformasiyadan modernləşdirməyə keçid mərhələsində innovasiya fəaliyyətinin əsas maliyyələşdirmə mənbəyi korporasiyanın xüsusi maliyyə resursları hesab edilir. Lakin dünya neft bazarının yüksək nəticəsi kimi dövlət tərəfindən iri miqyaslı artıq gəlirlərin toplanması innovasiya müəssisələrinə kömək göstərmək üçün büdcədənkənar fondlar(investisiya, vençur) sistemini formalaşdırmağa və eləcə də dövlət korporasiyaları yaratmağa imkan vermişdir. Innovasiyanın istehsalı, maliyyələşdirilməsi və reallaşdırılması üzrə innovasiya prosesinin bütün tsiklini həyata keçirən inteqrasiya birliklərinin iştirakçıları da reallaşdırılan məhsulun maya dəyərindən 1,5%-ə qədər könüllü ayırmalar hesabına büdcədənkənar fondları formalaşdırmaq qabiliyyətinə malikdirlər. Hazırda dövlətin innovasiya-investisiya fondları mikrosəviyyədə innovasiya prosesinin hissə-hissə maliyyləşdirilməsini həyata keçirən əsas institutlar kimi çıxış edirlər. Bu vəsaitlər məqsədyönlülüyə yalnız, innovasiya məhsullarının və yeni texnologiyaların tətbiqi üzrə tədqiqat və işləmələrin maliyyələşdirilməsi məqsədinə malikdir. Bundan başqa, böyük miqyaslı elmi-tədqiqat proq-

ramları, resursların birləşdirilməsi üzrə müqavilələr əsasında həyata keçirilir. Son vaxtlarda büdcə, xarici qrantlar və s. kimi müxtəlif mənbələrdən maliyyə resurslarını cəlb etmək hesabına qarışıq vençur fondlarının formalaşdırılması meyli testləşdirilir. Bu cür fondlar isə həm xüsusi kapital, həm də dövlət tərəfindən yaradılır. Vençur investisiyalaşması özündə elmi-tədqiqatların tətbiqi, işləmələrin və bütövlükdə innovasiya fəaliyyətinin büdcədənkənar maliyyələşdirilməsinin ən mühüm mənbəyini göstərir.

İstehsalın investisiyalaşdırılmasına maliyyə vəsaitlərinin cəlb olunması perspektivləri maliyyə-sənaye qruplarının yaradılması, həm makroiqtisadi sabitləşmə prosesinə və iqtisadi artım üçün potensialın formalaşmasına, həm də bank sisteminin özünün dayanıqlığının yüksəldilməsinə müsbət təsir göstərir.

Ölkəmizdə texnoloji innovasiyalara ayrılan xərclərin böyük bir hissəsi kapital qoyuluşlarının həcmi ilə müəyyən edilir. Bu məsələlərə fəaliyyətdə olan, mövcud müəssisələrin yenidən qurulmasına kapital qoyuluşları, elmi-texniki tərəqqinin nailiyyətlərinə əsaslanaraq istehsalın təkmilləşdirilməsi və onun texniki-iqtisadi səviyyəsinin yüksəldilməsi ilə əlaqədar yeni obyektlərin, sexlərin, həmçinin müəssisələrin yaradılmasına kapital qoyuluşları aid edilir. İstehsal təyinatlı kapital qoyuluşlarının, təxminən yarısı mövcud müəssisələrin yenidən qurulması və texniki silahlanması məqsədlərinə yönəldilir. Lakin burada investisiyaların həcminin azalması nəzərə alınarsa, istehsalın kütləvi şəkildə yenidən silahlanması üçün kifayət deyildir. Qeyd etdiyimiz istiqamətdə innovasiya məqsədli kapital qoyuluşlarından istifadə edən sənaye nəhənglərinə əlvan və qara metallurgiya sahələri aid edilir.

İnnovasiyalar təsərrüfat subyektlərində istehsal və kommersiya məsələlərinin həlli vasitəsi kimi çıxış edirlər. Müəssisənin bu növ fəaliyyətinin həyata keçirilməsində maraqlı yeniliklərin reallaşdırılması prosesində alınan gələcək mənfəətin ölçüsü müəyyən edilir. Innovasiyalar bir qayda olaraq, onların başa çatdırılması üzrə daha gec aşkara çıxarılan müddətli effekt gətirirlər. Odur ki, onların effektivliyinin xərclərin aşağı salınması əsasında müəyyən edilməsi üsulu heç də həmişə məqbul hesab edilmir. Mülkiyyət formaları üzrə innovasiya bazarının strukturu müxtəlif təşkilati-hüquqi formaya malik subyektlər arasında yeniliklərin mübadiləsini təcəssüm etdirir. Bu isə innovasiya fəaliyyətinin stimullaşdırılması üzrə dövlət siyasətinin aşağıdakı əsas istiqamətlərini qabaqcadan müəyyən etməyə imkan verir:

- kiçik innovasiyalı müəssisə və təşkilatlara dövlət köməyinə dair tədbirlər, dövlət sektorundan özəl sektora texnoloji transfer şərtləri, innovasiya fəaliyyətinin normativ hüquqi tənzimlənməsi.

- Innovasiya fəaliyyətinin məqsədi, həyata keçirilməsi üsulları, forması və müddətləri hər şeydən əvvəl ayrı-ayrı təsərrüfat subyektlərinin və bütövlükdə cəmiyyətin resurs imkanları ilə müəyyən olunmalıdır. Innovasiya prosesində təsərrüfat subyektləri tərəfindən seçilən məqsədlərin məcmusu və onların həyata keçirilməsi, 000 fərz edilən üsullar, yeniliklərin reallaşdırılması üzrə onların innovasiya siyasətini müəyyən edir.

Шипулина Г.И., профессор
Бакинский Славянский Университет

ПОНЯТИЕ ПАРАДИГМЫ В СОВРЕМЕННОЙ ЛИНГВИСТИКЕ

Парадигма – это концепт, который сравнительно недавно начал использоваться в лингвистике в значении модели постановки проблем и комплекса приемов их решения. Употребление термина связано с книгой американского ученого Томаса Сэмюэля Куна «Структура научных революций» (1962 г., рус. пер. 1977).

Paradeigma – лат. заимствование из греч., распространенное в специальном значении в научных текстах по теологии и риторике и почти не встречавшееся в художественных произведениях на латинском языке.

С конца XIX – нач. XX вв. слово **парадигма** все чаще встречается в художественной литературе на немецком языке, придавая ей «дух научности». Возродивший термин Людвиг Витгенштейн активно употреблял его в своих кембриджских лекциях 1938-47 гг. (на английском языке, но под влиянием немецкого словоупотребления) не только в философии науки, но и в более общем плане – как ключ к пониманию того, каким образом философские модели (стереотипы) действуют в качестве шаблонов, формулируют и направляют мышление человека в различных направлениях.

В энциклопедиях словарях русского языка **парадигма** фиксируется с конца XIX в.: «Парадигма (греч. paradeigma – пример) – в грамматике слово, служащее образцом склонения или спряжения; в риторике – пример, взятый из истории и приведенный с целью сравнения».

В современных толковых словарях **парадигма** дается как синоним слов *образец, модель* и как грамматический термин: «Парадигма, -ы, ж. 1. Образец, тип, модель (книжн.). П. общественных отношений. 2. В грамматике: система форм изменяющегося слова, конструкции (спец.). П. имени, глагола. II прил. парадигматический, -ая, -ое». Оба толкования зафиксированы и в «Большом энциклопедическом словаре» 1998 г.: «1. Парадигма (от греч. paradeigma – пример – образец), в философии, социологии – исходная концептуальная схема, модель постановки проблем и их решения, методов исследования, господствующих в течение определенного исторического периода в научном сообществе. Смена парадигм представляет собой научную революцию. 2.Парадигма в языкознании – система форм одного слова, отражающая видоизменения слова по присущим ему грамматическим категориям; образец типа склонения или спряжения. Понятие «парадигма» употребляется также в словообразовании, лексикологии и синтаксисе».

Однако в художественной литературе вплоть до конца XX в. этого слова практически нет, и только на рубеже XX-XXI вв. оно встречается уже и в художественных произведениях, часто в пародийном контексте: *Чтобы докопаться до сути проблемы, я должен вскрыть корневую систему вашего патогенного бессознательного, выявить парадигму невротической симптоматики* (Борис Акунин. Сказки для Идиотов). В стихотворном рассказе Андрея Анпи-

лова «Концепт» слово употребляется дважды: *Вероятно – помыслил – центон и концепт, Коих был визави мой старинный адепт, И вменили о вечном не печься, <…>И, сложив половинки, я понял концепт — Что случилось тогда разговора в конце, Что М.А. от меня отвернуло* (Новый мир, 2014, № 9). Достаточно часто слово **парадигма** встречается в произведениях Виктора Пелевина: *Вы как раз принадлежите к тому поколению, которое было запрограммировано на жизнь в одной социально-культурной парадигме, а оказалось в совершенно другой <…> У нас был разговор о христианской парадигме, и поэтому мы говорили в ее терминах* (Чапаев и пустота); *Маленький транспарантик с кривой надписью: «Парадигма перестройки безальтернативна*!» (Девятый сон Веры Павловны).

С начала 70-х гг. структуралистская методика исследования начинает вытесняться антропоцентричностью, одним из первых проявлений чего стало использование термина **научная парадигма**, получившего новое «куновское» значение, не совпадающее ни с этимологическим, ни со значениями, зарегистрированными в русском и западноевропейских языках на протяжении многих веков: по Куну, научная парадигма – это «признанные всеми научные достижения, которые в течение определенного времени дают научному сообществу модель постановки проблем и их решений». В текстах Куна эта парадигма иногда «очеловечивается»: парадигмы могут «мирно сосуществовать» между собой, подобно людям.

Заслугой Томаса Куна является акцент, сделанный на «межчеловеческом» измерении естественных наук, которые стремятся к «объективности», исключая личностный фактор: парадигмы в них устанавливают связи между различными предметами, сходства и различия между ними – это позволяет рассматривать «сходные» предметы сходным образом. Гуманитарные науки у американского ученого не вошли в группу естественных дисциплин: естественно, что для языкознания, как одной из наук о человеке, отвлечение от человеческого фактора невозможно. Чтобы придать теории языка статус парадигмы, ее очеловечивают, приписывая воинственность и мстительность, хотя сама теория (мыс-ленная конструкция) не бывает ни наступающей (революционной), ни вялой; нахрапистыми или деликатными бывают теоретики, «выдвигающие» и «продвигающие» эту теорию. Орудием («оружием») завоевания новых вершин являются не только новые методики наблюдения и обработки материала, но и интеллектуальный инструментарий – ключевые понятия.

Парадигма, по Т.Куну, определяется следующими чертами:

а) система взглядов должна быть привлекательной, широко признанной большим количеством сторонников, но, в то же время, нетривиальной – у нее не может быть только одного представителя, сторонников должно быть «достаточно много» (парадигма в «куновском» смысле, представленная одним, пусть даже и великим мыслителем, – такой же нонсенс, как словосочетание **многочисленная просьба* /правда, следует отметить, что в исходном словоупотреблении у слова **парадигма** не было такого ограничения/).

Томас Кун считал, что какая-то теория и даже целая дисциплина может стать **парадигмой** в силу своей привлекательности в данную эпоху (привлекательность идей определяется их продуктивностью; так, применительно к язы-

кознанию, человеческий фактор в языке привлекательнее его формального описания); «Смена парадигм», или научный прогресс, – это не только возникновение новых идей, но и завоевание доверия к этим идеям со стороны все новых сторонников. При возникновении парадигмы популяризация новых идей, тексты новаторов должны строиться так, чтобы постоянно была видна их новизна (как необходимость «завоевать» сторонников, привлечь их яркими объяснениями и фактами; после завоевания популярности, в период «нормальной науки» (термин Т.Куна) основные понятия, вводимые парадигмой, осознаются как достояние всей науки в целом, а не как отдельная теория; они описываются в учебниках, составители которых стремятся эти завоевания «легализовать» и освоить. В языкознании такие идеи связаны с основными представлениями о том, что же такое язык, как добываются, хранятся и используются языковые знания;

б) представители одной парадигмы должны опираться на одни и те же «правила и стандарты научной практики», что создает предпосылки для «нормальной науки», отличительные черты которой – поступательное развитие («генезис») и преемственность в традиции конкретного направления исследования. Приближение лингвистики к состоянию «нормальной науки» связывают с периодом становления генеративной методики в 1950-70-е гг.: исходя из предположения об универсальности общей грамматической схемы описания языков, исследуя общую структуру порождающей грамматики (принципы упорядочения правил, принципиальную схему грамматических модулей и т.п.), генеративисты опирались на результаты друг друга, даже пользуясь материалом разных языков. В результате для отказа от какой-либо гипотезы о структуре грамматики английского языка достаточно было найти контр-примеры из какого-нибудь экзотического языка. Кроме того, для эмпирических наук характерна непредопределенность: до проведения наблюдений нельзя предсказать, каким должно быть искомое решение. В отличие от других эмпирических дисциплин, эксперимент в языкознании очень специфичен, о чем писал еще полвека назад Л.В.Щерба: установление того, правильно ли данное выражение на данном языке, – это, по существу, опрос интерпретатора, часто самого себя, т.е. фазы получения данных и их интерпретации совпадают. Статистическая обработка текстов, словарей и т.п. – это разновидность процедур обработки данных, а не эксперимент в собственном смысле; часто результаты такой обработки оказываются неожиданными даже для самого лингвиста;

в) в рамках «нормальной науки» результаты, полученные одним предст-авителем данной парадигмы, квалифицируются как повторяющие, обобщающие, конкретизирующие или опровергающие выводы предшественников; задачи решаются доказательным путем, с опорой на достижения предшественников. Достижения соратников по парадигме существенны для науки лишь в той мере, в какой на них можно опереться в дальнейших исследованиях основного предмета – необходимо постоянное общение коллег, работающих в одной парадигме (ученые, работающие вне парадигм, по мнению Куна, подобны ракам-отшельникам). Общение ученых, работающих в рамках одной парадигмы, приводит к статусным отношениям, иерархии ролевых связей между людьми, априори

нацеленными на оптимизацию и ускорение научного прогресса. Интересно, что приветствуется положение, когда один и тот же ученый принадлежит сразу к нескольким разным парадигмам.

История теорий языка свидетельствует, что в лингвистике появление новой теории, новых идей не вызывает крушения и радикального пересмотра старых данных, поэтому история теоретического языкознания рассматривается как развитие парадигм, а не просто «идей и методов». Именно поэтому в русскоязычной литературе до сих пор говорят об «истории лингвистических учений», а не об «истории лингвистических теорий». Таким образом, российская лингвистика близка к куновской **парадигме.**

При переходе из одной парадигмы в другую одни и те же факты объясняются заново.

Позитивное или нейтральное употребление термина **парадигма** подразумевает господство некоторой идеи, преобладание некоторого («парадигмального») взгляда на вещи – именно так определяет парадигму («философию языка») Ю.С.Степанов: «господствующий в какую-либо данную эпоху взгляд на язык, связанный с определенным философским течением и определенным направлением в искусстве, притом таким именно образом, что философские положения используются для объяснения наиболее общих законов языка, а данные языка в свою очередь – для решения некоторых (обычно лишь некоторых) философских проблем». И далее: «”Парадигма” связана с определенным стилем мышления в науке и стилем в искусстве. Понятая таким образом “парадигма” – явление историческое».

Большой вклад в исследование парадигмы внес Л.Витгенштейн, вошедший в историю как автор нескольких парадигмообразующих идей: а) как популяризатор использования (в качестве инструмента для обнаружения новых истин) понятия «семейного сходства», позволившего открыть парадигму теории прототипов в психологии и теории языка; б) его метафора «язык – это игра со своими правилами игрового поведения» заложена в поздних исследованиях Г.Фреге и была модифицирована Дж.Остином в «парадигму» теории речевых актов, основная идея которой – «Высказывание – не объект, а действие».

В теории научных парадигм различают: а) парадигмы в широком смысле – набор взглядов, ценностей и техник, используемых приверженцами некоторой парадигмы, б) парадигмы в узком смысле - образцы решения конкретных задач, служащие в дальнейшем образцами для трактовки других проблем той же научной дисциплины, входя в состав или иллюстрируя «парадигму» в широком смысле слова.

Лингвистика конца XX – нач. XXI вв., исследуя историческую; психологическую; системно-структурную; (коммуникативную) парадигмы, отличается полипарадигмальностью. Причем коммуникативная (социальная) парадигма включает в себя когнитивное; антропоцентрическое; лингвокультурологическое;-социолингвистическое; психолингвистическое направления исследования.

Научная парадигма современного языкознания фигурирует и под множеством других названий: антропологическая (Е.А.Попова), постгенеративная (Е.С.Кубрякова), когнитивная (Ю.С.Степанов, В.Н.Телия, Р.М.Фрумкина и др.), трансцен-

дентальная (В.И.Постовалова), интерпретирующая (В.З.Демьянков) и др. В защиту каждого названия можно найти много аргументов, однако состояние науки последнего полувека не укладывается в рамки ни одной из перечисленных частных парадигм.

Современный этап развития мирового языкознания пока должным образом не описан: радикальные перемены, произошедшие в лингвистике, не получили своего единого объяснения. Активные поиски сводятся к описанию достижений различных лингвистических школ или анализу вклада в мировую науку о языке отдельных выдающихся ученых.

Əliyeva G.İ., müəllim
Azərbaycan Dövlət Pedaqoji Universiteti

ANTROPONİMLƏR BƏDİİ İFADƏ VASİTƏSİ KİMİ

Xüsusi adlar nəzəriyyəsinin mərkəzi problemi onun məna özünəməxsusluğu ilə bağlıdır. Xüsusi adların leksik mənasının izahındakı müxtəliflik belə adların özü qədər çoxdur. Bu barədə fikirləri üç əsas qrupa ayırmaq mümkündür: 1) xüsusi adlarda mənanın olmasının, demək olar ki, tam inkar edilməsi; 2) xüsusi adın yalnız nitqdə (mətndə, kontekstdə, diskursda, sosiumda, sosiolektdə) mənası vardır; 3) xüsusi adın spesifik səciyyəli leksik mənası vardır və bu məna dilin başqa leksik laylarındakı sözlərin mənası ilə qarşılaşdırılandır.

Birinci nöqteyi-nəzər ingilis filosofu və tənqidçi C.S.Millə aiddir. Onun fikrinə görə, xüsusi adların heç bir mənası yoxdur, onlar siqnifikatorlarla bağlı deyildir. C.Milldən sonra V.Brendol, A.Qardiner, L.Stebbinq, B.Rassel və başqaları xüsusi adları "baş", "asemantik", "göstərici//qeydedici və ya nişanlayıcı işarə", "etiket-sözlər" və s. adlandırmışlar.

Qeyd etmək lazımdır ki, O.S.Axmanova, A.A.Reformatski, A.A.Ufimsev, K.D.Lev-kovskaya, N.İ.Tolstoy, V.M.Mokienko və bir sıra başqa mütəxəssislər də birinci nəzəriyyəni bu və ya digər dərəcədə qəbul etmişlər. Sovet tədqiqatçılarının xüsusi adların mənasına münasibəti K.Marksın adların təbiəti haqqında fikrindən qaynaq-lanmışdır. K.Marksa görə, "hər hansı əşyanın təbibəti ilə mahiyyəti arasında heç bir ümumilik yoxdur. Əgər mən bir adamın yalnız adının Yakov olduğunu bilirəmsə, mən bu adamın haqqında qətiyyən heç bir şey bilmirəm (Marks).

Ad informasiya daşıyıcısıdır. Kontekstdən kənarda da ad əsasında fərdin cinsi, milliyyəti, dini mənsubluğu haqqında müəyyən fikir söyləmək mümkündür. Bəzən bu müddəaya da etiraz edilir. Əvvəla, bir çox dillərdə həm qadın, həm də kişi adının eyni bir adla ifadə olunur. İkincisi, addan qeyri-standart şəkildə istifadə edilməsi mümkündür. Üçüncüsü, bəzi xüsusi adlar müəyyən mədəni konnotata malikdir. Xüsusi adın antropoloji semantikası onun leksik semantikası ilə birbaşa bağlılığa malik deyildir.

İkinci konsepsiyaya görə xüsusi ad, yalnız nitqdə tam mənaya malikdir. Nitqdə ad müəyyən referentə aid olur. Bəzən ad referentsiz də istifadə edilir. O.Yesperson "Qrammatikanın fəlsəfəsi" əsərində bu məsələni şərh etmişdir.

M.E.Rut belə hesab edir ki, antroponim ikitərəflidir. O həm şəxsin adıdır və şəxs adı kimi də mövcuddur. Şəxs adı sosiolektdə yaşayır. Sosiolekt nə qədər mövcuddursa, adın funksionallaşma xüsusiyyətləri özünü bir o qədər parlaq şəkildə göstərir. Şəxs adının semantikası onun konkret adamın adı olması fövqündə açılır.

Sosiumun darlığı və genişliyi adın xüsusiyyətlərinə əsaslı şəkildə təsir göstərir.

Üçüncü konsepsiyaya görə, xüsusi ad həm nitqdə, həm də dildə mənaya malikdir. Lakin bu məna ümumi sözlərin mənasından fərqlidir.

L.V.Şerba leksikoqrafiya nəzəriyyəsi problemlərini şərh edərkən yazmışdır: "Bütün məsələ xüsusi adın mənasını aydınlaşdırmaqdan ibarətdir. Çünki, lüğətdə ümumi vacib minimumu təyin etmək lazım gəlir. Mənə elə gəlir ki, bu minimum anlayışdır". Xüsusi ad ikidilli və ya tərcümə lüğətində mənaca deyil, denotatı adlandırma vahidi kimi verilir. Ona görə transliterasiya edilir. Bədii ədəbiyyatda əlavə semantika qazanmış antroponim isə yalnız transliterasiya ilə əlavə mənanı ifadə edə bilmir.

V.A.Nikonov xüsusi adın üç planını ayırmağı təklif edir: 1) etimoloji; 2) onomastik; 3) otonomastik. Bədii əsərin qavranmasında hər üç plan oxucunun ön biliklərindən asılı olur.

L.M.Şetinin vahid nominativ məna və ümumi mənanı fərqləndirir. Vahid nominativ mənalar şəxs haqqındakı konkret təsəvvürlərin ümumiləşdirilməsi nəticəsində əmələ gəlir. Hər bir antroponimin ümumi mənası "insan" anlayışının "kişi" və "qadın"+"milli mənsubluq" şəklində dəqiqləşdirilməsi prosesinin nəticəsidir. L.M.Şetinin də vahid nominativ mənanın anlaşılmasında oxucu-adresat amilini nəzərə alır.

İ.A.Vorobyevanın konsepsiyasında şəxs adı məna strukturuna malikdir və mənanın üç komponentindən ibarətdir. Bu cəhət şəxs adını ümumi isimlərlə yaxınlaşdırır. Şəxs adının siqnifikativ mənası bizim predmetin mövcudluğu və onun başqa predmetlərdən fərqi haqqında biliklərimizin inikasıdır.

Y.V.Danilinaya görə, şəxs adlarının xüsusiyyəti onları dil (ümumi) və nitq (xüsusi) mənaların dialektikasını daha yüksək səviyyədə göstərməsindədir. Dildə ad ümumi anlayışı, nitqdə isə konkret olanı ifadə edir. Şəxs adının bir obyektə bağlanması onun başlıca fərqləndirici xüsusiyyətidir və paralel olaraq üç vacib funksiyanı-nominativ, eyniləşdirmə və differensiallaşdırma funksiyalarını reallaşdırır.

Bəzi tədqiqatçılar şəxs adından əldə edilən bütün informasiya onun mənası hesab edirlər. Məsələn, bu fikrə gəlmiş M.V.Qolomidova belə adların süni nominasiya nəticəsində yarandığını söyləmişdir. Onu da qeyd etmək lazımdır ki, şəxs adlarının süni nominasiyası tamamilə fərqli məsələdir.

Ümumi və xüsusi adlar, hər şeydən əvvəl, dildə və nitqdəki funksiyalarına görə fərqlənir. Şəxs adlarında akkumilyativ (ensiklopedik) funksiya aparıcıdır. Bununla yanaşı, antroponimlər üslubi, emosional-qiymətləndirmə, sosial-qiymətləndirmə, regional və mədəni-tarixi funksiyaları da yerinə yetirir, mətndə mətinyaratma və estetik funksiyalar da gerçəkləşir.

Antroponimlərin mənaya görə komponent təhlili onun tərkibində aşağıdakı komponentləri ayırmağa əsas verir: 1) qrammatik mənanı ifadə edən kateqorial semlər; 2) leksik sahələrə (insan, heyvan və s.) aidliyi göstərən kateqorial-leksik semlər; 3) differensial semlər (məsələn, qadın, kişi); 4) konnotativ semlər (üslubi, emosional, ekspressiv, sosial çalar); 5) assosiativ semlər (fakultativ və şəxsi mənalar); 6) seman-

tikanı müvafiq diskursla bağlayan mədəni-tarixi semlər.

Şəxs adının dil mənasının varlığı məsələsini aydınlaşdırarkən antroponimin milli adlar arsenalının bir hissəsi olmasını (konkret referentlə bağlı olmayan) və konreferentlə bağlılığı nəzərə alınmalıdır. Başqa sözlə desək, Yelezavita fərd adı ilə kraliçanın adı fərqləndirilməlidir. Birinci halda adın komponentlərinə qadın adı, etimoloji komponent (adın mənşəyi və mənşəyinə görə mənası), ingilis antroponim sistemində işləkliyi, xristian mədəniyyəti ilə bağlılığı aiddir.

Həsənova C.F., müəllim
Azərbaycan Dövlət Pedaqoji Universiteti

İNGİLİS DİLİNDƏ ANTROPONİMLƏRİN İFADƏ PLANINA GÖRƏ MÜXTƏLİFLİYİ

Şəxs adları funksional dil işarəsi olub məzmun planına (adlandırılan) və ifadə planına (adlandıran) malikdir. "İfadə planı adlandırılanın morfonoloji və morfosintaktik ifadəsidir. Bu dil işarəsinin xarici tərəfi olub səs və səsbirləşmələrindən təşkil olunur". Şəxs adlarının ifadə planı hipokorostik və demunitiv formalarda daha dəqiq ifadəsini tapır. Belə adlarda müəyyən forma və səs cildinin köməyi ilə adın məzmununun bir hissəsi gerçəkləşir və adın daşıyıcısına münasibəti bildirir. Familyarlıq (qeyri-rəsmilik), zarafat, dostluq, əzizləmə, kiçiltmə kimi mənalar dil vasitələrinin köməyi ilə şəxs adına artırılır. Hipokoristik və demunitiv adlar ingilis dilində daha çox orta əsərlərdə qeyri-rəsmi şəraitdə uşaqlara, yaxın tanışlara, qohumlara, dostlara və s. müraciət zamanı işlədilmişdir. Belə ad formaları müraciət edəndən və ya onu yaradandan asılı olduğundan geniş derivatlar çoxluğuna malikdir.

Qısaldılmış adlardan hələ VIII əsrdə anqlosakslarda istifadə edilmişdir. Məsələn, *Eda-Edwine, Siega-Sigewrith* və s. Normandların təsiri ilə ingilis dilinə demunitiv şəkilçilər – *-el, -et, -in, -on, -ot, -et* daxil edilmişdir. Eyni zamanda, ingilis *-cock, -kin,* şəkilçiləri də işlədilmişdir. XV əsrdən başlayaraq eyni mənada *-ie* və *-y* şəkilçiləri istifadə edilmişdir. Məsələn, *William, (William –Will – Wilkin – Wilkie – Wilcock – Wilmot – Willet).* Müasir ingilis dilində şəxs adlarının derivatları morfoloji üsulla (qısaltma və şəkilçi artırılması) yaranır. Qısaltma yolu ilə bütöv adlardan hipokoristik adlar düzəldilir: *Matt-Matthew*. Hipokoristik formalardan şəkilçi artırılması ilə demunitiv adlar düzəldilir. *Matty/Mattie-Matt,* bəzən tam formadan da istifadə olunur (*Annie-Ann(e), Evie-Eve* və s.). Derivasiya prosesini belə göstərmək olar: *Matthew – Matt – Matty/Mattie*.

İngilis dilində ilkin şəxs adlarının ixtisarının əsas növləri aşağıdakılardır:

1) aferezis (adın əvvəlinin düşməsi): *Vella-Arabella, Bert-Albert* və s.

2) sinkopa (adın orta hissəsinin düşməsi): *Dothy-Dorothy, Aline-Adeline* və s.

3) ankopa (adın sonluğunun düşməsi): *Bea-Beatrice, Chris-Christopher* və s.

Tam şəxs adına *-ie/-y* formantlarının artırılması ilə demunitiv formalar yaranır:

1) ad qısa, birhecalı olduqda: *Jack-Jackie/Jacky* və s.

2) tam adın hecalarından birinə şəkilçinin artırılması

a) vurğulu hecaya: *Agatha-Aggie, Barbara-Barbie, Roland-Roly, Nicholas-Nicky* və s.

b) vurğusuz hecaya: *Albert-Bertie, Lorraine-Laurie, Victoria-Vicky* və s.

c) həm vurğulu, həm də vurğusuz hecaya: *Elizabeth-Elsie/Betty, Bessy, Bessie* və s.

Yuxarıdakı şəkilçinin orfoqrafik variantı olan *-ey* də demunitiv formanın düzəldilməsində istifadə edilir: *Anastacia -Stasy, Stacie, Stacey* və s.

Şəxs adlarının cinsə görə fərqini araşdırdıqda onların demunitiv formaları maraq doğurur. Tələffüzə görə, bu formalarda fərq yoxdur. Ona görə nitqdə demunitivin cinsini təyin etmək olmur. Yazıda ya "-ie", ya da "-y" variantından istifadə olunur.

Kişi və qadın demunitiv adlarının müqayisəsi göstərir ki, qadın adlarında göstərici "-ie", kişi adlarında isə "-y" formantıdır. Məsələn:

Sandy (kişi, qad.)/*Sandie* (qad.) – *Alexandr* (kişi)/*Alexandra* (qad.)

Christy (kişi, qad.)/*Christie* (qad.) – *Christopher* (kişi)/*Christine* (qad.)

Nicky (kişi)/*Nickie, Nicky* (qad.) – *Nikolas* (kişi)/*Nicola* (qad.)

"Demunitiv -ie/-y şəkilçilərindən yeni orfoqrafik "-i" formantı əmələ gəlmişdir. Müasir ingilis dilində bu format daha işləkdir. *-ie* və *-y* şəkilçilərini "-i" formantı əvəz etdikdə adın daşıyıcısı qadın olur. Beləliklə "-i" qadın şəxs adlarının göstəricisi kimi çıxış edir.

Marti (qad.) – *Martie, Marty* (qad)/*Marty* (kişi) – *Martin* (kişi)/*Martina* (qad.)

Lorri/Lori (qad.) – *Laurie* (qad.) – *Lorraine* (qad.);

Stevi (qad.)– *Stevie* (qad., kişi) – *Stephan* (kişi) – *Stephanie* (qad.).

Beləliklə, təhlil göstərir ki, ingilis dilində qadın və kişi adlarının dəqiq cins göstəricisi *-ie/y* formantı yoxdur. Lakin müasir ingilis dilində "-ie" formantının qadın adı yaratması meyli hiss olunur. XX əsrin son onilliyində "-i" formantının yalnız qadın adı düzəltməsi aşkar görünür.

İngilis dilində tam şəxs adlarının hipokoristik və demunitiv formalarının onların cinsə görə neytrallığı baxımından təhlili də maraq doğurur.

1. Tam kişi və qadın adlarından düzələn derivatlar. Bu halda tam kişi adı ilə cins formantı qəbul etmiş qadın adı qarşılaşdırılır.

a) hipokoristik formalar:

Alex (kişi, qad.) – (kişi) *Alexander*/ (qad), *Alexandra*; *Clem* (kişi, qad.) – (kişi) *Clement*/ (qad.) – *Clementına, Clemency*.

b) demunitiv formalar:

Freddie (kişi, qad.) – (kişi) *Frederick, Frederic*/ (qad.), *Frederica, Billie* (kişi, qad.) – (kişi) *Willia* (qad.), *Willa, Wilma, Wilhelmina* və s.

2. Familiyadan yaranmış tam adların derivatları:

Les (kişi, qad.) – *Leslie* (kişi, qad.); *Kim* (kişi, qad.) – *Kimberley* (kişi, qad.);

3. Müxtəlif kişi və qadın adlarından düzəlmiş derivatlar:

a) hipokoristik formalar:

Mel (kişi, qad.) – (kişi)*Melvin*/(qad.) *Melville*;

b) Demunitiv formalar:

Mandy (kişi, qad.) – (kişi) *Mandel* / (qad.) *Amanda*;

4. Y-, K-, D- hərfləri ilə başlayan tam adların derivatları.

Yay (kişi, qad.); *Kay* (kişi, qad.); *Dee* (kişi, qad.)

Aydın olur ki, tam adların derivatlarında cins fərqlərinin pozulması, əsasən, o halda baş verir ki, hipokoristik və demunitiv formalar əmələ gələn tam adların strukturunda oxşar hissələr olsun. Cins fərqlərinin neytrallaşması tam adın morfoloji

strukturundan birbaşa asılı olur.

Cins fərqləri olmayan derivatların prototip təhlili də maraq doğurur. Prototip yanaşma koqnitiv dilçilik anlayışıdır. Prototip üsulu kateqoriyalaşdırma hadisəsinə yeni yanaşma üsuludur. Bu halda strukturda anlayışın hansı elementlərinin prototip olmasının göstəricisi olur. İngilis adlarının bu cür təhlili üçün əsas prototiplər cins, yaş fərqliliyinə söykənir. Kateqoriyalaşdırma balaca oğlan, balaca qız uşaqları, kişilər, qadınlar, uşaqlar, qocalar və s. üzrə aparılır.

Sırf kişi adlarının ixtisarı (*Malcolm – Mal, Winfreds – Win*) adlarda kişi xarakterini gücləndirir, sırf qadın adlarının ixtisarı isə (*Linda – Lin, Katherine – Kit*) qadın mənasını zəiflədir. Deməli, kişi və qadın adlarının ixtisar formaları onların cinsi fərqi göstərmə imkanlarını zəiflədir.

Bu fikri nümunələr əsasında nəzərdən keçirmək mümkündür:

1) *Clement* (kişi) – *Clem* (adın kişi səciyyəsi özünü göstərir; prototip: kişi və ya oğlan).

Clementina /Clemency (qadın adı) – *Clem* (adın qadın səciyyəsi qeyd olunmur; prototip: insan).

2) *Terence* (kişi) – *Terry* (adın kişi səciyyəsi qabarıq deyil; prototip: insan).

Theresa (qad.) – *Terry* (adın qadın səciyyəsi qabarıqdır; prototip: qadın və ya qız).

Tədqiqat göstərir ki, müasir ingilis dilində cins fərqlərinin şəxs adlarında neytrallaşması kifayət qədər geniş yayılmışdır və bu, məsələnin antroponimik materialın dil və mədəniyyət kontekstində tədqiqinin əhəmiyyətini təsdiq edir.

XVIII əsrdə hipokoristik və demunitiv formalar yeni status alır. Onlar müstəqil adlar kimi rəsmi şəraitdə, həm də ailədə istifadə edilir. Natamam formaların, ilk növbədə, uşaq adları kimi işlənməsi daha əlverişli idi. Məsələn, *Bartholomow – Bart – Wilhelmina/Wilma* və s. Adın bu şəkildə işlənməsi həm də əzizləmə mənası, xoş münasibət ifadə etmişdir. Təbii ki, belə keçid birbaşa olmamışdır. Kilsə bu məsələdə konservativ mövqe tutmuşdur. Vəziyyət tədricən dəyişmişdir. Doğum kitablarında hipokoristik və demunitiv adlar tədricən artmışdır. 1700-cü ildə 200 doğum kitabında 440 qız Elizabeth, üç qız Betty, 341 halda qıza Ann, bir halda Nancy, 114 dəfə Margaret adı verilmişdir. Margaret adından törəmə olan Peggy adı ümumiyyətlə qeydə alınmamışdır. 100 il sonra 1800-cü ildə mənzərə dəyişmişdir: Elizabeth 335, Betty 82, Ann 360, Nancy 47, Margaret 90, Peggy 18, Sarah 224, Sally 11. Bu dövrdə bir sıra başqa hipokoristik və demunitiv adlar də müstəqil ad sayılmışdır. Məsələn, Bella-İsabella, Eliza-Elizabeth, Biddy-Bridget, Elsie-Elizabeth, Molly-Mary.

Müasir dövrdə bu meyl davam etdirilir. Ənənə daha çox ABŞ-da hiss olunur. ABŞ-ın 39-cu prezidentinin adı James Earl Carter, 42-ci prezidentinin adı William Jefferson Clinton olmuşdur. Lakin onlar rəsmi olaraq Jimmy Carter və Bill Clinton kimi tanınırlar. Məlumdur ki, Jimmy "James" adının demunitiv, Bill isə William adının hipokoristik formasıdır.

Eyni bir adın çoxsaylı variantlılığının səbəbi tarixlə də bağlı ola bilər. Adlar əsrlər boyu işlədilir. Onların orfoqrafik normaları müvafiq dövrün yazı qaydaları ilə təyin olunur. Alınma adların orfoqrafiyasında isə həm mənbə, həm də obyekt dilin yazı prinsipləri mühafizə olunur.

İngilis dilində adların yaradılmasında aşağıdakı sözdüzəltmə formantları iştirak

edir:

1. Formant *-ie/-y*. Bu formantlardan derivatların əmələ gəlməsində istifadə olunur. Məsələn, *Billy* və *Billie*; *Vicky* və *Vickie*; *Bobby* və *Bobbie* və s. Formantlardan tam adların variantlarının düzəlməsində də istifadə edilir. Məsələn, *Emilie – Emily, Melodie – Melody, Hilarie – Hilary*.

2. Formant *-ey/-y (Tracy-Tracey, Beverly-Beverley, Llesley-Leslie*).

3. Formant *-ey, -ie, -y/-e, -ee, -eigh* (*Sidney-Sidne, Bobbie/Bobby-Bobbe*).

4. Formant *-i*. Bu halda *-ie, -y, -ey, -ee* formantlarının *-i* ilə əvəzlənməsi baş verir. Məsələn, *Nicki, Patti, Hanci, Candi* və s. Belə orfoqrafik variantların yaranmasına Avropada istifadə olunan adlar da təsir göstərmişdir.

5. Adda *-i* formantının *-y* ilə və əksinə əvəzlənməsi (*Alvin-Alvyn, Phillip-Phillyp, Marcia-Marcya, Clyde-Clide* və s.).

6. Adın bəzi ünsürlərin artırılması hesabına uzadılması: a) *-y-* formantının əlavə edilməsi (*Bale-Gayle, Dale-Dayle*); b) tələffüz edilməyən *-e* formantının artırılması (*Alan-Alane, Robby-Robbye*); c) samitlərin qoşalaşması, geminasiya (*Glen-Glenn, Lyn-Lynn*); d)qoşa samitdən birinin düşməsi (*Jerry-Jery, Casandra-Casandra*).

7. *c/k/s* əvəzlənməsi: a) *c-k* (*Card-Karol, Mark-Marc*); b) *ck-c/k* (*Frederick-Frederic/Frederik*); c)*ch-c/sh* (*Christopher-Cristopher*).

8. *g-j* keçidi (*Gerald-Jerald, Gerry-Jerry, Geoffrey-Jeffrey*).

9. Tələffüz olunmayan "h"-in buraxılması (*Deborah-Debora, Sarah-Sara* və s.)

10. Standart adların variativliyi (*Deberah, Valorie, Mathue, Urvin* və s.)

Beləliklə, ifadə planına görə şəxs adlarının variativliyi göstəriciləri hipokoristik və demunitiv formalar hesabına formalaşmışdır. Bu formalar ixtisar və şəkilçilərin artırılması yolu ilə düzəlir. Eyni zamanda, belə formaların müstəqil adlar kimi çıxış etməsi, cins fərqlərinin neytrallaşması, həmçinin orfoqrafik variantlılıq da qeydə alınır.

Həsənova Ş.N., müəllim
Azərbaycan Dövlət Pedaqoji Universiteti

TƏRZİN ZAMANLA ƏLAQƏSİ

Tərz mənaları adətən zaman mənaları ilə sıx birləşmiş olur. Bir çox dillərdə tərz kateqoriyasının tərkibi, onun zaman kateqoriyası ilə nisbəti və hətta onun mövcudluğu belə mübahisəlidir.

A.V.Bondarko hesab edir ki, qrammatik kateqoriyaların struktur təşkilində ən əhəmiyyətlisi həmin kateqoriyanı əmələ gətirən qrammatik siniflərin və vahidlərin birləşmə prinsipidir. Qrammatik kateqoriyanın struktur elementi istənilən fərq deyil, yalnız müəyyən semantik vəhdət çərçivəsindəki fərqlərdir. Belə vəhdət qismində elə soy əlamətləri çıxış edir ki, ona nisbətdə kateqoriya strukturlarının fərqlənən mənaları növ anlayışı olsun.

A.V.Bondarkoya görə, qrammatik kateqoriya ona nisbətdə kateqoriyanın ayrı-ayrı üzvlərinin mənalarının növ olduğu həmin soy ümumiliyi zəminində

birləşən qrammatik formalar sistemidir, bu mənalar həm oppozisiya, həm də fərqlilik münasibətlərində ola bilirlər, qrammatik kateqoriyaların strukturu dilin quruluşundan asılı olaraq dəyişə bilir.

Zaman anlayışı müxtəlif mədəniyyətlərdə müxtəlif əhəmiyyətə malikdir. Orta Şərq ölkələrində uzun müddət əvvəlcədən görüş təyin etmək əhəmiyyətsiz hesab olunur, lakin əvvəlcədən planlarını qurmaq, görüşləri uzun müddət əvvəlcədən təyin etmək amerikalılar üçün çox vacibdir. Çünki, onlar vaxtın dəqiqliyinə, zaman itkisinin olmamasına qarşı çox həssasdırlar. Diplomatik və ya iş görüşmələri zamanı yaponlarla amerikalıların bir-birindən narazı qaldıqlarını, ortaq bir rəyə gələ bilmədiklərini və ortaq işlərinin alınmadığı kimi misallar çoxluq təşkil edir. Bu onların mədəniyyətlərindəki fərqlərlə bağlıdır. Məsələn, iş sövdələşməsi zamanı amerikalılar görüş başlayan andan birbaşa mətləbə keçərək işlərindən danışmağa başlayırlar. Belə davranış yaponlara görə nəzakətsizlikdir. Yaponlar danışıqlar zamanı əsas məsələyə keçməzdən əvvəl "havadan-sudan", ümumi vəziyyətdən danışmağı üstün tuturlar. Onlara görə birbaşa mətləbə keçmək mədəniyyətsizlikdir. Amerikalılar üçün isə yaponların nəzakət hesab etdiyi mədəniyyətləri sadəcə boş-boşuna zaman itkisidir.

Amerikalılar bazarda qiyməti aşağı salmağa çalışan insanlara yuxarıdan aşağı baxırlar. Ərəb ölkələrində isə bazarda alıcı ilə satıcı arasında qiymət sövdələşməsi aparmaq ən normal haldır və sövdələşmə etməyən insana hətta öz mallarını satmaq da istəməzlər. Ərəblər üçün sövdələşmək həm vaxt keçirmək, həm də insanlarla ünsiyyət qurmaq anlamına gəlir.

İnsanlıq tarixində başqa bir mədəniyyətə qarşı qərəzli münasibət hər zaman olub. Eyni zamanda digər mədəniyyətləri başa düşmək arzusu onları nəzərə almamaq və ya onları layiqli hesab etmək arzusunu həmişə üstələyib. Mədəniyyətlərarası ünsiyyət anlayışı hələ də millətlərarası ünsiyyət və mədəniyyətlər arası qarşılıqlı anlayışla bir çox mübahisələrə və müzakirələrə səbəb olur. İlk dəfə "mədəniyyətlərarası ünsiyyət" anlayışı 1954-cü ildə H. Treyger və E. Hallun "Mədəniyyət və Əlaqə" əsərlərində işlənmişdir. Bu konsepsiya, insanın ətrafdakı dünyaya ən münasib və mümkün qədər səmərəli şəkildə uyğunlaşma arzusunda olması üçün ideal bir məqsəd kimi başa düşülmüşdür. Nəticədə, bir çox tədqiqatlarda müxtəlif mədəniyyətlərə məxsus fərdlər

və qruplar arasında əlaqələrin və rabitənin müxtəlif formaları əsas götürüldü və bunun əsasında mədəniyyətlərarası ünsiyyətin ən xarakterik xüsusiyyətləri müəyyən edildi.

Fərqli mədəniyyətlərdən olan insanlarla müvəffəqiyyətli ünsiyyət qurmaq üçün təkcə onların dillərini öyrənmək kifayət etmir. Mədəniyyətlərarası ünsiyyət zamanı bir-birlərinin dillərini başa düşmələrinə baxmayaraq, onlar bir-birinin davranışlarını başa düşmür və günahlandırmağa başlayırlar. Hər hansı sözü və ya ifadəni işlətmək utanc gətirə bilər, ünsiyyətdə olduğunuz insanın yazılmamış mədəniyyət qaydalarını pozar, bu da xoşagəlməz hallarla nəticələnə bilər. Fərqli mədəniyyətlərdən olan insanların bizim davranışlarımızı necə başa düşdüyünü bilmək çox vacibdir. Bir ölkənin dilini, tarixini, adət-ənənələrini öyrənmək sadəcə ilk addımdır. Bunlarla bərabər, ölkənin qeyri-verbal dilini də öyrənmək olduqca əhəmiyyətlidir.

Dil insanın intellektual və kommunikativ bacarıqlarından biri olaraq mədəni həyat üçün təməl zərurəti olan nəzəri fəaliyyət və sosiallaşmanın əsas şərti, dayağı və vasitəsidir. Dil hər bir mədəniyyətin prioritet cəhətlərini əks etdirir. Əslində dil mədəniyyətin əsasını təşkil edir. Mədəniyyətin ötürülməsi, qorunması və qavranılması məhz dilin sayəsində mümkün olur. Dil reallığın sadəcə təsvirini yaratmır, o həm də reallığın özünü formalaşdırır. Dil düşünmək və insanın ətrafda olanları dərk etməsi üçün əsas vasitədir.

Deməli, dil və mədəniyyət mövzusu həm də düşüncə tarixi ilə sıx əlaqədardır. Alman filosofu Wilhelm Von Humbolt (1767-1835) XIX əsrin əvvəllərində belə bir tezisi müdafiə edirdi ki, "bir birliyin dili ilə o birlikdə yaşayan fərd(lər)in zehni yönümləri arasında o dərəcədə yaxın bağlar var ki, bunlardan birinə dair məlumat əldə etsəniz, o biri ilə bağlı məlumatları da tamamilə əldə etmiş olacaqsınız. Çünki, dil və zehni fəaliyyət birlikdə meydana gəlir və formalaşır. Cəmiyyəti dilində görər, dilində anlarıq. Bir cəmiyyətin dili o cəmiyyətin ruhu, ruhu isə dilidir. Bu dərəcədə eyni olan başqa bir şeyi düşünmək həqiqətən çətindir. Humbolt dil və mədəniyyəti sadəcə qarşılıqlı əlaqə və təsirdə olan iki fenomen kimi deyil, onları köklü bir eyniliyə malik olan iki sosial fenomen kimi təhlil edir. Əslində dil və mədəniyyət arasındakı əlaqəni və təsiri kimsə inkar etmir. Lakin bu əlaqə müdafiə olunmaqla yanaşı, eyni zamanda, mədəniyyətlərin dillər tərəfindən şərtlənib idarə olunduğu tezisi və təsirlənmənin tək istiqamətli olduğu iddiası mübahisələrə gətirib çıxarır. Edvard Sepir (1884-1939) dil, mədəniyyət və ictimai gerçəklik arasındakı əlaqənin mövcud olduğunu təkid edir. Onun fikrincə dil ictimai gerçəkliyi öyrənməkdə müraciət edəcəyimiz rəhbərdir. Çünki, insanlar tam obyektiv bir dünyada yaşamırlar. İnsanlar üzv olduqları cəmiyyətin ünsiyyət mühitini meydana gətirən müəyyən bir dilin təsiri və nəzarəti altında həyatlarını davam etdirir və öz dünyalarını yaradırlar.

Mədəniyyətlərarası əlaqə və mədəni zəmində baş verən inkişaf (maddi-texniki və mənəvi sahədə) və mədəni mübadilə də dilin inkişafına, onun lüğət bazasının zənginləşməsinə və fəaliyyət səviyyəsindəki müxtəlif dəyişikliklərə səbəb olur. Məsələn, mədəniyyətlərarası əlaqə və mübadilə nəticəsində dillərin lüğət tərkibi dəyişir. Dilin insan təfəkkürünə, onun gerçək dünyasının formalaşmasına, mədəniyyətə təsiri və həmçinin mədəniyyətin, insan fəaliyyətinin və mədəni münasibətlərin dilə təsiri təkzibolunmazdır.

Bu sahədə müxtəlif fikirlər söylənilmişdir və alimlər müxtəlif rakurslardan bu problemə yanaşmışdır. Məsələn, Gustav Le Bon sivilizasiyanın (mədəniyyətin) inkişaf

formalarından bəhs edərək onun mədəni zəmində və dil sahəsində könüllü və məcburi mübadilələrin, təsirə məruz qalan tərəfin üzərində effektini izah edərkən yuxarıda qeyd edilən sualları da qismən cavablandırmışdır. Onun fikrincə, tarixən müxtəlif xalqların ən yüksək inkişaf etdikləri sahələri təhlil etdikdə görürük ki, sivilizasiyanın müxtəlif elementlərinin inkişafında paralellizm əsas şərt deyil və bəzən heç yoxdur (məsələn, yunanlarda ədəbiyyat, romalılarda hərbi quruluş və hüquq, finikiyalılarda ticarət digər elementlərə nisbətən daha çox inkişaf etmişdir).

Dil insanların bir-birləri ilə münasibət qurmaq və fikir mübadiləsi aparmaq üçün istifadə etdiyi əsas vasitədir. Buna görə, uğurla ünsiyyət qurmaq üçün dilin istifadə olunduğu mədəni konteksti anlamaq lazımdır. Nəticədə bizim həmsöhbətlərimizlə eyni dili istifadə etməyi öyrənməyimiz bizə nəinki ən sadə səviyyədə qarşılıqlı əlaqəni asanlaşdırmaq üçün bir vasitədir, həm də qarşılıqlı anlayışı asanlaşdırmaqla digərinin mədəniyyətini dərk etməyi təmin edir. Samovar və Porterin sözlərinə görə, "Dil insanlara öz mədəni sferalarının digər üzvləri ilə ünsiyyət qurmaq üçün və düşüncələrini ifadə etmək üçün bir vasitədir. Beləliklə, dil ünsiyyət üçün bir mexanizm və ictimai reallıq üçün bir bələdçi kimi xidmət edir".

Mədəniyyətlərarası ünsiyyət üçün əsas olsa da, dildə səriştəliliyin inkişafı və yüksək səviyyəyə çatması kifayət sayılmaya bilər. Əslində, dil öyrənənlərin öyrənmiş olduqları dildə mükəmməlliyə yaxın yetkinlik səviyyəsi nümayiş etdirə bildikləri zaman, onların dil daşıyıcılar kimi davranacaqlarına dair bir gözləntilər meydana çıxır. Bu olmazsa, dil daşıyıcıları ünsiyyətdə yaranan çatışmazlıqları qarşı tərəfin məqsədli həyata keçirdiyi bir hərəkət hesab edə bilərlər.

Xarici dilin öyrədilməsinin araşdırılmasında xüsusi diqqət "mədəni ünsiyyət qurucularının arasındakı boşluğu aradan qaldırmaq məqsədi ilə yaratdıqları qarşılıqlı əlaqənin" yayıldığı rahat, dinamik və qeyri-məhdud bir sahənin araşdırılmasına da yönəldilməlidir. Bu "mədəniyyətlərarası məkan", onun yaradılması şərtləri və onun komponentlərinin meydana gəlməsi mədəniyyətlərarası ünsiyyətin tədqiqində əsas prioritet olmalıdır.

İndiki zamanda, ingilis dili Orta əsrlərdə Latın dilinin oynadığı rolu yerinə yetirir - bu bir dünya dilidir və bununla da mədəniyyətlərarası ünsiyyətdə əsas vasitədir. Müxtəlif səbəblərdən ötən günümüzdə daha da vacibləşən ispan, çin və ya ərəb kimi dünyanın digər böyük dillərinin növbəti 40-50 il ərzində bu mövqeyə təhlükə yaradacağı ehtimalı yoxdur. Ancaq dünya dəyişdikcə və ətrafımızda çox mədəniyyətli cəmiyyət yarandıqca İngilis dilinin statusu dəyişir.

Ənənəvi yanaşmada ingilis dilinin ümumdünya ünsiyyət dili kimi rolu üç konsentrik dairə ilə təsvir edilmişdir; burada mərkəzi dairəni ingilis dilini ana dilləri kimi danışanlar, məsələn, Böyük Britaniya, ABŞ, Avstraliya və s. vətəndaşları, orta dairədə, bu dili ikinci dil olaraq (məs.: İngilislərin köhnə müstəmləkə ərazilərinin sakinləri) danışanlar təşkil edirdi. Sonunca dairə xarici dil olaraq ingilis dilində danışanlardan (məsələn, Çin, Rusiya, Türkiyə, Azərbaycan və s. sakinləri) ibarətdir. Lakin indiki qloballaşan dünyada bu üç ənənəvi kateqoriya arasındakı sərhədlər getdikcə ortadan qalxır: zaman keçdikcə doğulduğu yerdən və milliyyətindən asılı olmayaraq, 500 milyona yaxın insan ingilis dilini ana dili kimi mükəmməlliklə danışan ən kiçik dairəyə aiddir. İki fərqli kənar dairəyə aid olmaq əvəzinə dilin digər daşıyıcıları öz dil bacarıqlarına uyğun səviyyədə yerləşdirilirlər.

Yuxarıda da qeyd etdiyimiz kimi, dilin tədrisinə başqa bir dəyişiklik ondan ibarətdir ki, bir müəllim üçün onun xarici dil daşıyıcısı olması artıq bir üstünlük sayılmır. Bəzi hallarda dil daşıyıcısı olmayan müəllim iş tapmaq üçün daha şanslı görünə bilər. Məsələn, ana dili və İngilis dilinin qovuşduğu nöqtədə yaranan hər hansısa bir problem müəllimə özünün şagird olduğu dövrdən tanışdırsa, o, bu məsələni daha asan üsullarla tələbələrə çatdıra bilər. İngilis dilinin beynəlxalq səviyyədə dil kimi oynadığı rolu nəzərə alaraq, fərqli ölkələrin təhsil sistemində getdikcə daha da kiçik yaşdan bu dili öyrətməyə başlayırlar.

Mədəniyyətlərin və xalqların qarşılıqlı əlaqələrinin genişləndirilməsi xüsusilə mədəni fərdiliklər və mədəni fərqliliklər məsələsini gündəmə gətirir. Müasir bəşəriyyətin mədəni müxtəlifliyi artmaqdadır və mövcud xalqlar öz bütövlüyünü və mədəni görünüşünü qoruyub saxlamaq və inkişaf etdirmək üçün daha çox vasitə axtarıb tapırlar. Sosial inkişafın bu tendensiyaları kontekstində bir-birlərini başa düşmək və qarşılıqlı tanınmağa nail olmaq üçün xalqların mədəni xüsusiyyətlərini müəyyən etmək çox vacibdir.

Mədəniyyətlər arasında baş verən qarşılıqlı qaynaşma prosesinin onların birləşməsinə doğru apardığı hallarda, bəzi xalqların həm özünün mədəni aspektdən təsdiqini reallaşdırmaq, həm də öz mədəni dəyərlərini qorumaq arzusu getdikcə artır. Bir sıra dövlətlər və mədəniyyətlər davam etməkdə olan mədəni dəyişiklikləri özünəməxsus tərzdə nümayiş etdirirlər. Onlar mədəni sərhədlərin açılması prosesinə özlərinin qəbul etmədikləri öz mədəni sərhədlərini qorumaqla açıq-aydın qarşı çıxırlar.

Mədəniyyətlərarası ünsiyyət qrup səviyyəsində və ya fərdi səviyyədə həyata keçirilə bilər. Ancaq hər iki səviyyədə də mədəniyyətlərarası ünsiyyətin əsas özülü bir insandır. Bu halda, hər bir şəxsin davranışı onun malik olduğu mədəni dəyərlər və normalar ilə müəyyən edilir. Bu baxımdan, mədəniyyətlərarası ünsiyyətdə iştirak edən hər bir iştirakçı özünəməxsus sosioloji mənsubiyyəti ilə şərtlənən qaydalar sisteminə malikdir. Buna görə, birbaşa ünsiyyət zamanı müxtəlif mədəniyyətlərin nümayəndələri yalnız dildə olan fərqləri deyil, həm də sosioloji və etnik xarakterli fərqləri də aradan qaldırmağa ehtiyac duyur. Hazırda mədəniyyətlərarası ünsiyyətin öyrənilməsində bir qrup humanitar fənlər iştirak edir: kulturologiya, mədəniyyət sosiologiyası, mədəniyyət dilçiliyi, etnopsixologiya, linqvokulturologiya və s.

Mədəniyyətlərarası ünsiyyətin formaları. Mədəniyyətlərarası ünsiyyət prosesində hər bir insan eyni zamanda iki əsas problemi həll edir: mədəni fərdiyyətini qorumağa və başqa bir mədəniyyətə daxil olmağa çalışır. Bu problemlərin mümkün həlli variantları mədəniyyətlərarası ünsiyyətin 4 əsas formasını müəyyən edir: birbaşa, dolayı, vasitəsiz və vasitəli. Birbaşa ünsiyyət zamanı məlumat göndəricidən alıcıya heç bir vasitə olmadan çatdırılır. Bu ünsiyyət həm yazılı, həm də şifahi formada həyata keçirilə bilər. Birbaşa ünsiyyətdə verbal və qeyri-verbal yollarla həyata keçirilən əlaqədə daha böyük təsir əldə edilə bilər. Dolayı ünsiyyət zamanı əlaqə birtərəfli reallaşdığı üçün məlumat mənbələri ədəbiyyat və incəsənət nümunələri, radio və televiziya verilişləri, qəzet və jurnallarda gedən nəşrlər və s. hesab olunur.

Vasitəsiz və vasitəli ünsiyyət formaları tərəfdaşlar arasında vasitəçi kimi çıxış edən ara keçidin olması və ya olmaması ilə fərqlənir. Vasitəçi olaraq insan və ya texniki vasitə çıxış edə bilər. Texniki vasitələrlə əlaqələndirilən ünsiyyət birbaşa

olaraq qalır (məs: telefon danışığı). Eyni zamanda, bu halda qeyri-verbal vasitələrdən istifadə imkanları azalır.

Mədəniyyətlərarası ünsiyyət növləri. Ünsiyyətin növü və üslubundan asılı olaraq mədəniyyətlərarası ünsiyyətin üç əsas növü qeyd olunur: verbal, qeyri-verbal və paraverbal.

Verbal ünsiyyət şəxslərin düşüncələri, malik olduqları məlumat və informasiyaların mübadiləsi ilə ifadə olunan dil kommunikasiyası deməkdir. Mütəxəssislərin fikrincə, verbal ünsiyyət əsasən dialoq və monoloq şəklində baş verə bilər.

Qeyri-verbal ünsiyyət prosesində informasiya və mesajları ötürmək üçün qeyri-linqvistik alətlər, rəmzlər və nişanlar məcmusundan istifadə olunur. Bu prosesin özülünü iki fərqli mənbə təşkil edir: anadangəlmə və yaxud insanın sosial təcrübə nəticəsində əldə etdiyi bioloji və sosial ünsiyyət.

Nitqə əlavə ahəng gətirmək üçün şifahi nitqi müşayət edən səs siqnalları toplusu paraverbal ünsiyyəti yaratmış olur. Mənanı ötürmək üçün istifadə olunan intonasiya, temp, ritm, tembr, məntiqi vurğu və s. çatdırılması nəzərdə tutulan məlumatın məğzini dəyişə bilər. Məlumatın ötürülməsinə xidmət edən bütün bu üsullar paralinqvistik vasitələr adı altında cəmlənə bilər. Tədqiqatçılar şifahi nitqin tamamlayıcı elementləri kimi aşağıdakı vasitələri xüsusi olaraq qeyd edirlər: temp, tezlik, ritm, diapazon, pauza, intonasiya, nəfəsalma və nəfəsvermə və başqaları.

Bir qayda olaraq məlumatları bir dildən digərinə tərcümə edərkən çox sayda problemlər yaranır. Belə bir dil uyğunsuzluğunun səbəbi müəyyən bir konsepsiyanın ifadəsi üçün tərcümə edilən dildə dəqiq bir ekvivalentin olmaması, hətta konsepsiyanın özünün olmamasıdır. Müəyyən bir sözlə ifadə olunan konsepsiyaların və ya obyektlərin hər hansısa bir mədəniyyət üçün unikal olmasını və digər mədəniyyətlərdə mövcud olmadığını nəzərə alaraq onları ifadə etmək üçün müvafiq sözlərin olmaması qəbul olunan haldır.

Buna görə də, "qələbə" yalnız "qazanılır", "rol" - "oynanılır", "məna" - "var" ola bilər. Azərbaycan dilində "tünd çay" ingilis dilində "güclü çay" (strong tea) və ya bizim dildə "güclü yağış"ın ingilis dilində ekvivalenti "ağır yağış" (heavy rain) - olacaq. Bunlar doğma dildə təbii və tanış sözlər olduğu üçün anlaşılandır, lakin sözbəsöz tərcümə olunarsa, əcnəbi üçün tamamilə anlaşılmaz ola bilər. Başqa bir nümunə, bizim dildə "yaşıl gözlər" kifayət qədər bədii və poetik tərzdə bənzətmə kimi işlənsə də, ingilis dilində eyni söz birləşməsi (green eyes) Şekspirin “Otello”faciəsində olduğu kimi paxıllıq, həsəd və qısqanclıq əlamətidir.

Xarici dili öyrənərkən, bu dilin sözlərinin yaratdığı dünyadakı yeni bir şəkil parçasıyla tanış oluruq və onu ana dili vasitəsilə müəyyən olunmuş öz dünyamızdakı şəklimizlə birləşdirməyə çalışırıq. Lakin bu bir çox hallarda mümkün olmur. Xarici bir dil öyrənildikdən sonra, bir insan eyni zamanda yeni birinin dünyasını və mədəniyyətini assimilyasiya edir və bu bir növ şəxsiyyətin ikiləşməsinə gətirib çıxarır. Bu xarici dilin öyrənilməsində əsas çətinliklərdən biridir. Bir qayda olaraq məlumatları bir dildən digərinə tərcümə edərkən çox sayda problemlər yaranır. Aydındır ki, fərqli dillərdə mövcud olan müxtəlif anlayışların olması səbəbindən tamamilə dəqiq tərcümə mümkün deyildir. Bu müəyyən bir konsepsiyanın ifadə edilməsi üçün digər dildə ekvivalentin olmadığını və hətta bu konsepsiyanın özünün olmadığını göstərir, çünki, hər hansısa bir söz müəyyən xalq üçün unikaldır və digər mədəniyyətlərdə bəlkə də

mövcud deyil. Digər bir problem ondan ibarətdir ki, sözün mənası yalnız bir leksik anlayışla məhdudlaşmır, onun leksik və frazeoloji uyğunluğu ilə müxtəlif xalqların reallığını əks etdirən anlayışların cəmləndiyi mədəni dünya arasında uyğunsuzluqlar mövcuddur. Bu da öz növbəsində fərqli dillərdəki yeni, müxtəlif üslubi konnotativ mənaların formalaşdırılmasına zəmin yaradır. Bununla da, ünsiyyət məqsədi ilə dil seçimi edərkən bu dildəki sözlərin leksik-frazeoloji mənaları ilə yanaşı onların müxtəlif konnotativ mənalarının da olmasını nəzərə almaq lazımdır. Deməli, müxtəlif xalqların və mədəniyyətlərin ünsiyyətini həyata keçirmək üçün xarici dilin öyrənilməsinin əsas aktual problemlərindən birinin həllində dilin bu dildə danışan xalqların mədəni dünyası ilə vəhdətdə öyrədilməsi məsələsi durur.

Son olaraq belə bir nəticəyə gəlmək mümkündür ki, xarici dilin tədrisi problemlərini yeni baxış bucağından izlədikdə həmin dildə ünsiyyətin artımını təmin etmək yalnız həmin dildə danışan xalqlara real sosial-mədəni amillərin təsirini nəzərə almaqla mümkün ola bilər. Bu halda əsas məsələ konkret dili deyil, həmin dil daşıyıcılarının mədəniyyətini, etnoqrafik dünyasını, həyat tərzini, milli ruhunu, mentalitetini və s. öyrənməkdən ibarətdir. Çünki nitqdə sözlərin real işlənmə üsulları məhz həmin dildə danışan insanların sosial-mədəni həyatı ilə sıx bağlıdır. "Dil mədəniyyətdən kənarda mövcud deyil, başqa sözlə desək, həyat tərzini ifadə edən sosial və praktiki bilik və bacarıqlardan ayrı formalaşa bilməz." (E. Sepir.) Dil daşıyıcılarını əhatə edən dünyanın təsviri nəinki dildə birbaşa əks olunur, eyni zamanda dilin nitqdə əks olunması xüsusiyyətlərini təyin edir. Məhz buna görə də, hər hansısa bir dilin öyrənilməsində o dili əhatə edən dünyanı bilməyimiz uğur əldə etməyimizə zəmin yaradır.

Dillər arasında hədd və sərhədlər çox açıq-aşkar izləndiyi halda mədəni sərhədlər yalnız doğma dillə öyrənilən dilin daşıyıcılarının mədəni "toqquşması" nəticəsində üzə çıxır. Bu "toqquşmalar" bəzən qəribə və təəccübdoğurucu, bəzən isə, qəbuledilməz və hətta şokedici ola bilər. Mədəniyyətlərarası fərqlərin yaratdığı anlaşılmazlıqlar dilin nitqdə yaratdığı səhvlərdən daha kobud olsa da, daha çox qəbulolunandır. Məhz buna görə də, xarici dillərin tədrisində dil və mədəniyyətin vəhdət halında öyrədilməsi ilə daha çox uğur əldə etmək mümkündür. Bu hər hansısa bir dilin, eləcə də, ana dilinin xarici dil kimi öyrədilməsinin optimallaşdırılması və inkişafını şərtləndirən əsas faktorlardandır.

Səfərova M.Q., müəllim
Elm və Təhsil Mərkəzi "Təfəkkür" Universiteti

XARİCİ DİLDƏ REDUPLİKASİYANIN TƏDRİSİNİN METODİKİ ƏSASLARI

Xarici dilin öyrədilməsi şagird və tələbələrdə məlumat qəbul etmək və ötürmək üçün qazanılan bacarıqlarla nəticələnməlidir. Bu dil ana dili məqsədlərini daşımalıdır. Bu xarici dilin tədrisinin praktik məqsədidir. Xarici dil öyrənənlər bu dili yalnız məqsədyönlü fəaliyyətlər çərçivəsində mənimsəyirlərsə, nailiyyət əldə edərlər. Dil öyrənmə birbaşa düşünmə ilə əlaqəli olduğundan, ilk növbədə, tələbələrin ixtiyarı və qeyri-ixtiyari yaddaşları, onların təsəvvür qabiliyyətləri inkişaf etdirilməlidir. Dili öyrənmək mənanı öyrənməkdir. Dili öyrənmək onun strukturuna və sözlərinə yiyələn-

mək deməkdir. Bəzi müəlliflər, o cümlədən Leuis iddia edir ki, leksika dil öyrənilməsinin özülüdür. Qrammatika isə səmərəli ünsiyyət üçün tələb deyildir.

Son dövrlərdə bəzi dilçilər ingilis dilində həqiqi ünsiyyət üçün qabiliyyət və bacarıqların inkişafını artırmaq üçün qrammatikanın deyil, məhz leksikanın mərkəzə daşınmasını təklif etmişlər. Leuis fikirlərinin davamında əlavə edir ki, dil qrammatikləşmiş leksikadan ibarətdir, leksikləşmiş qrammatikadan yox.

Söz yaradıcılığının, söz ehtiyyatının seçilməsinin elmi prinsipləri aşağıdakılardır:

1) Dildə ən çox işlənən sözlər;

2) Asanlıqla birləşən sözlər;

3) Söz düzəltmə baxımından dəyərli olan sözlər.

Dilin lüğət tərkibi bəzən qrammatik anlayışları da ehtiva edir. Lakin bu anlayışlar leksik anlayışlarla təzadlıq təşkil edir. Çünki, qrammatik anlayışların hamısı məna ehtiva etmir, yalnız mənalı ifadələrdə digər sözlərlə əlaqə yaradır. Qrammatik anlayışlar leksik anlayışlarla müqayisədə bir qədər qapalıdır. Leksika dilin ən çox dəyişməyə meylli olan hissəsidir. Dilin lüğət tərkibini təşkil edən sözlər davamlı olaraq işlədilir, dəyişilir, köhnəlir və yeniləri alınır.

Leksik anlayışları öyrənərkən diqqət etməli olduğumuz məsələlər onun yazılı və şifahi formaları, işlənmə uyğunluğu, digər sözlərlə əlaqəsi və s-dir.

İngilis dilində sözlərin bir biri ilə xüsusi işlənmə forması vardır. Məs: “etmək” feli “to do” və “to make” şəklində işlənir. Amma “səhv etmək” ifadəsi “to make a mistake” kimi işlədilir. Bu cür ifadələrdə bu və ya digər sözün yerinə işlənən söz qrammatik cəhətdən düzgün ola bilər, amma birləşmə uyğun olmayacaqdır.

Dilin lüğət tərkibini öyrədərkən leksikanın bəzi aspektlərini nəzərə almaq lazımdır. Bunlardan biri də lüğət tərkibinin qrammatikasıdır ki, bu da Qerns və Redmanın işlərinə əsaslanır. Bu dil öyrənənin sözün müxtəlif formalarının və ya bu sözdən müxtəlif sözlərin düzəltməsini əhatə edir.

Dilin lüğət tərkibi tam mənimsənilməsi mümkün olan sahə deyil, zamanla o, genişlənir və dərinləşir. Lakin ünsiyyətdə iştirak etmək üçün dil öyrənən qrammatikanı da mükəmməl mənimsəməlidir. Bunlardan heç biri digərinin yerində işlənə bilməz.

Söz yaradıcılığında sözlərin bölündüyü kök və şəkilçilərin bir-birinin ardınca işlənməsi isə bir qədər yol qət etmiş tələbələr üçün lazımlı məlumatdır. Əgər xarici dil öyrənən sufiks və ya prefikslərin mənasını bilirsə o, bunların birləşdiyi sözlərin də mənasını təxmin edə bilər. Uilkinsin də bildirdiyi kimi “Qrammatikasız çox az da olsa informasiya ötürülə bilər. Lüğət tərkibi olmadan heç nə ötürülə bilməz (Uilkins, 1972)”.

Leksikanın öyrənilmə prosesində öncəlik təşkil etməsinin bir sıra üstünlükləri vardır. İlk növbədə, ümumişlək sözlərin öyrənilməsi onların tələbələr tərəfindən bilik səviyyəsindən asılı olmayaraq müxtəlif kontekstlər çərçivəsində işlənilməsinə zəmin yaradır. Beləliklə də, “Dilin kəşfi” mücərrəd olan qrammatikadan deyil, konkret leksikadan başlayır.

Lüğət tərkibindəki sözyaratma üsullarından biri də reduplikasiyadır. Bu üsul dilçilikdə ən az işlənən üsullardan biridir və bir qədər diqqətdən kənar qalmışdır. Reduplikasiya elə bir morfoloji prosesdir ki, sözün kökü və ya bütöv söz dəqiqliklə və ya cüzi dəyişikliklə təkrarlanır. Bu cür sözyaratma elə bir prosesdir ki, mövcud olan sözlərin əsasında formalaşdığından öyrənmə prosesi o qədər də zaman almır.

Reduplikasiya olunmuş söz izah edilərkən aşağıdakı məsələlərə diqqət yönəldilməlidir:

- reduplikasiyanın növü;
- sözlərin hansı prinsip əsasında təkrarlanması;
- reduplikasiyanın funksiyaları.

Reduplikasiyanın elementləri tərkib hissələrinə ayrılırlar. Bəzən reduplikasiyanın növlərindən asılı olaraq bu hissələrin hər ikisi bəzən isə biri mənalı olur. Ayrılıqda işlənən sözlərin mənalarını bilən tələbəyə reduplikasiya olunmuş söz yad gəlmir. Növlərinə görə reduplikasiya tam və natamam olmaqla iki yerə bölünür.

- tam reduplikasiyalar bütöv sözün və ya kökün təkrarıdır. Məs. ingilis dilində goody-goody "riyakar, ikiüzlü";
- natamam reduplikasiyalar emfatik reduplikasiyalar da adlanır və qrammatik mənaların ifadəsi üçün nəzərdə tutulur. Məs; ind. tangga – "pilləkən", tetangga – "qonşu".

Reduplikasiyanın öyrədilməsində digər bir məsələ onun hansı funksiyada işlədilməsidir. Reduplikasiya bəzi dillərdə ədəbi dilə tam daxil edilməmiş, sərhədləri yalnız danışıq dili ilə məhdudlaşmışdır. Söz yaratmaq sırf leksika ilə bağlı olduğuna baxmayaraq, onun funksiyaları qrammatikaya sirayət edir. Məs. a) isimlərin cəm kateqoriyasını bildirənlər: türk , sepet-sepet elma; b) hərəkətin təkrarını bildirənlər: fars, bezoen-bezoen – dəfələrlə vurmaq; c) sözlərin bir sinifdən digər sinfə keçirilməsi: ind. Men+ tari – rəqs, menari-nari – rəqs etmək; d) emfatiklik bildirənlər: rus. Jeltıy- jeltıy – sapsarı.

Lakin bütün bunların fonunda unutmaq olmaz ki, tələbələrə bunları öyrədərkən bildirmək lazımdır ki, bunlar sadəcə nümunələrdir, qaydalar deyil və bu nümunələrdə istisnalar vardır.

Bütün göstərilənləri yekunlaşdıraraq belə qənaətə gəlmək olar ki, reduplikasiyalar universal hadisə olduğundan onu tələbələrə ana dili ilə müqayisəli şəkildə öyrətmək mümkündür. Burada bir məqamı vurğulamaq lazımdır ki, bütün dillərə xas olan tam təkrarlar tələbələr tərəfindən daha səmərəli mənimsəniləcəkdir. Ayrı-ayrı dillərə aid olan növlər isə dillərin leksik və qrammatik xüsusiyyətləri nəzərə alınaraq öyrədiləcəkdir.

Həmidova T. Ə., müəllim
Azərbaycan Dövlət Pedaqoji Universiteti

DİLÇİLİKDƏ SƏRBƏST VƏ SABİT SÖZ BİRLƏŞMƏLƏRİ

Dilçilikdə, xüsusən də rus dilçiliyində söz birləşmələrinin tarixi xülasəsi məsələsi M.V. Lomonosovdan sonra V. P. Suxotin və Q.A.Zolotovaya məxsusdur. Söz birləşmələrinin rus və xarici dilçilikdə elmi inqilabi tədqiqatı N.N. Prokopoviçin yeni işi olan söz birləşmələri sahəsilə bağlı monoqrafiya səbəb oldu. Dilçilər kritik nəzərlərini söz birləşmələri barədə ifadə edərkən, N.N. Prokopoviç xirda detalınacan belə koordinal söz birləşmələri nəzəriyyəsi, sözlərin və söz birləşmələrinin qarşılıqlı əlaqəsi, söz birləşmələri və cümlələr, söz birləşmələrinin quruluşu, mürəkkəb söz birləşmələri məsələləri üzərində durur.

Görkəmli rus dilçisi olan, bu sahədə əvəzolunmaz əməyi olan V.V. Vinoqradov tərəfindən irəli sürülən söz birləşmələrinin məlum olan konsepsiyasına əsasən N.N. Prokoviç ən xirda detalınacan araşdırır və müasir dildə söz birləşmələri adektivliyi materialı əsasında nəzəri ümumiləşdirmə və nəticə sırasını əmələ gətirir.

Yalnız cümlə tərkibi vasitəsilə azı iki bütöv mənalı sözlərdən ibarət olub və dilin kommunikativ sistemi tərkibinə daxil olan söz birləşmələri özündə qrammatik vahid kimi çıxış edir. Söz birləşmələri verilən dilin qanunlarına əsasən təşkil olunan bütöv mənanı ifadə edir.

V.V.Vinoqradov yazır ki, söz birləşmələri adətən sözlər arasında yaranan, eyni və ya başqa nitq hissələri ilə uyğunlaşma qaydalarına əsasən sözlərin digər sözlərlə uyğunlaşmasıdır. Buradan belə nəticə çıxarılır ki, əsas söz istənilən bütöv mənalı nitq hissəsi – feil, isim və s. ola bilər. Sözlərin uyğunlaşması söz birləşmələri yaranmasının potensialıdır, müəyyən leksik məna sözlərin mövcudluğu ilə sıx əlaqədardır. Söz birləşmələrini öyrənərkən o faktlar nəzərə çarpır ki, sözlərin digər sözlərlə uyğunlaşması bacarığı təkcə bu formanın əmələ gəlməsi, nitq hissəsinin eyni və ya digərinə aidliyi deyil, hətta leksik mənadan da asılıdır.

V.V.Vinoqradov hesab edirdi ki, söz birləşmələri cümlə üçün quruluş materialıdır və onun xaricində tədqiq edilə bilər, oxşar sözlər olaraq dilin nominativ vasitəsi, əşyanın adını bildirən vasitə, əmələgəlmə prosesi və s. kimi ola bilər. Ancaq sözlər və söz birləşmələri arasında mövcud olan konstruktiv fərqlilik bütöv və müxtəlif formalı söz birləşmələri komponentidir.

Hazırki məsələ digər tədqiqatçılar tərəfindən tamamilə başqa bir şəkildə araşdırılır. Belə ki, V.P. Suxotin yaranmış qaydalara görə belə hesab edirdi ki, söz birləşmələri sintaktik vahid kimi çıxış edir, cümlədə parçalanır. V.P. Suxotinə görə bütün söz birləşmələri müstəqil söz kimi cümlənin məzmununda bitmiş fikri yaradır. Lakin B.A. İliş söz birləşmələrini sözönülərlə birləşən və ya birləşməyən iki və daha artıq bütöv mənadan ibarət olduğunu vurğulayırdı. Onun fikrincə ***in the street*** və s.ən azı iki komponent olduğuna görə söz birləşməsidir. B.A. İliş tərəfindən irəli sürülən bu fakt söz birləşmələrinə geniş şəkildə əsaslandırılması kifayət qədər inandırıcı deyil. Çətin ki, bu tip birləşmələr – ***at home, in the garden*** və s.qrammatik nəzəriyyə tərəfindən diqqəti cəlb etsin, çünki onları söz birləşmələri kimi qəbul etmək olmaz. Bu quruluşun tədqiqatı bütöv mənada söz birləşmələri tərəfindən aparılmalıdır.

A.A.Şaxmatov göstərirdi ki, söz birləşmələri qrammatik birliyə malikdir. Yəni bu birləşmənin əsasını onu təşkil edən sözlərin bir – birilə daxili asılılığı təşkil edir. Söz birləşməsinin komponentlərinin qarşılıqlı münasibəti məsələsini müəllif söz birləşməsi sintaksisinin başlıca vəzifələrindən biri saymışdır. O, söz birləşmələrinin daxili asılılığının üç növünü göstərmişdir. 1) İkitərəfli qarşılıqlı asılılıq. Bu zaman hər iki üzv bir–birindən asılı olur. Tabe edən və asılı üzvlərin olmadığı birləşmələri A.A. Şaxmatov qrammatik və mənaca bölünməz konstruksiyalar adlandırmışdır; 2) Bir tərəfi asılılıq, bu zaman bir üzv asılı, o biri üzv isə tabe edən komponentdir, lakin bir tərəfi asılılıq külli miqdarda tabeedici söz birləşmələrinə əsaslanır; 3) Heç bir üzvü bir – birindən asılı olmayan birləşmələri populyativ birləşmələr adlandırmışdır.

Belə nəticəyə gəlmək olar ki, Rusiya dilçiləri söz birləşmələrini qrammatik vahid təşkil edən ən azı iki əsas nitq hissəsindən ibarət olduğunu hesab edirlər.

Qərb alimləri rus alimlərinin nəzəriyyələrini tam qəbul etməsələr də, inkar da etmirlər. Onlar Rusiya qrammatikasının sintaksisindən danışarkən söz birləşmələrini bildirmək üçün "***phrase"***(söz birləşməsi) termini əvəzinə ***"word combinations"*** işlədirlər. Bunlar arasında fərq qrammatik vahidi təşkil edən hissəciklərdir.

Digər mübahisəli məsələlərindən biri də sözlərin predikativ birləşməsinin söz birləşməsi olub olmamasıdır. V.V. Vinoqradov konsepsiyası uyğunluğuna əsasən söz birləşmələri cümləyə konstruktiv element kimi daxil olur, " predikativ söz birləşmələri" mövcud deyildir. Rus dilçilərindən fərqli olaraq Qərb dilçiləri bu tip birləşmələri də söz birləşməsi sırasına daxil edirlər.

Əvvəllər söz birləşməsini bu terminlərlə də adlandırırdılar: "***phrase", "cluster of words", combinations of words", "word group"*** və s. Söz birləşməsinin tədqiqatı ilk dəfə olaraq ingilis alimi Ben Conson məşğul olmuşdur. Bir çox tənqidlərlə rastlaşmağına baxmayaraq, özündən əvvəl yaşamış alimlərdən fərqli olaraq söz birləşmələrini xırdalıqlarına qədər təhlil etmişdir. Erkən qrammatiklər sintaksis bölməsindən bəhs edərkən söz birləşməsinin strukturunu əmələ gətirən iki əlaqə növünə - uzlaşma və idarəyə daha çox diqqət yetirmişlər. Lakin, yalniz Ben Conson qrammatik birləşmələri əmələ gətirən söz qruplarına xüsusi yer vermişdir. XVIII əsrin ingilis qrammatikasında yeni dilçilərdən olan Con Braytlend də söz birləşməsini yaradan ilk əlaqəni – uzlaşma və idarəyə daha çox yer ayırır.

Digər bir dilçi Doktor Los ingilis qrammatikasına ilk dəfə olaraq ***"phrase"*** termini söz birləşməsini bildirmək üçün işlətmiş, iki və daha artıq sözün birləşməsindən əmələ gəldiyini və bəzən ya cümlənin bir hissəsini, ya da bütöv cümləni əhatə edə bildiyini bildirmişdir. Hal-hazırda, Qərbi Avropa və Amerika dilçiləri cümlə və söz birləşmələri arasında fərq görmürlər. Doktor Los söz birləşmələrinin on iki növünü göstərmişdir.

1842-ci ildə çap olunan "ingilis dilinin qrammatikası"nda Villiam Lenni söz birləşməsinə başqa tərif verir: söz birləşməsi fikirləri bir – birinə bağlayan əlaqələri ifadə edən iki və ya daha artıq sözlərdən ibarət olur. Məsələn, ***in truth, to be plain with you.*** Lenninin söz birləşməsi konsepsiyası, Losun konsepsiyasından fərqlidir. Lenni də Sovet dilçiləri kimi, söz birləşməsi və cümlə arasında fərq qoyur.

Lennidən fərqli olaraq digər bir dilçi Riter Bulionzun dediyinə görə, söz birləşməsi qayda ilə düzülmüş iki və daha artıq sözün birləşməsindən ibarətdir və bitmiş bir fikri ifadə etmir. Məsələn, ***in truth, in a word, tosay least.***

Digər bir alim Morel asılı sözü fel olan sözlərin birləşməsini araşdırır. Bu feli birləşmələr: fel – məsdər; isim+məsdər və yaxud sifət+məsdərdən ibarət olur. Məsələn, ***I wish to go, He is worth to be elected, His capacity to think is amazing.***

XIX əsrin 50-ci illərində alim Henri Svit tərəfindən çap olunan " Məntiqi və tarixi ingilis dilinin yeni qrammatikası" əsərində ingilis dilinin qrammatikası incəliklərinə qədər təhlil olunmuş, qrammatikada olan bütün nöqsanlar aradan qaldırılmışdır. O, sintaksis bölməsində söz birləşmələrində söz sırası, onun strukturunu yaradan elementlərə əsas yer ayırmışdır. O, isimdən əvvəl və sonra gələn sifətlərdən ibarət ismi və feli birləşmələrin yeni bölgüsünü vermişdir. Onun dediyinə görə sifətlər həmişə əsas sözlərdən (isimlərdən) əvvəl, miqdar sayı kimi işlənən sıra sayları isə əsas sözdən sonra gəlir: ***chapter ten.*** Sifətlərin isimdən sonra gəlməsini o, latın və fransız dillərinin təsirinin nəticəsində olmasını qeyd edir. Məsələn: ***names well known in the the***

literature.

Svit – ***son-in – low, mother-in-low, bread and butter*** tipli söz qruplarını təhlil edərkən onları mürəkkəb söz qrupları adlandırıb.

Söz birləşməsini öyrənən dilçilərdən digəri isə Harold Vaytholdur. O, söz birləşmələrini vəzifə və strukturlarına görə iki qrupa bölür: əsas elementi olan endosentrik birləşmələr, əsas elementi olmayan eqzosentrik birləşmələr. Onun bu bölgüsü Blumfildin bölgüsünə əsaslanır. O, qeyd edir ki, eyni qrammatik çərçivə daxilində əsas elementi söz birləşmələri ilə, söz birləşmələrini isə elementlə əvəz etmək olar. Məsələn, ***Fresh fruit is good*** və yaxud ***I like fresh fruit.*** Hər iki halda qrammatik çərçivə pozulmur. V.V.Burlakova qrammatik cəhətdən təşkil olunmuş, bir elementi başqa elementlərdən üstün olan söz birləşmələrini nüvəli birləşmələr adlandırır. Təqdim olunan qrupun daxilində bu element heç bir başqa elementdən asılı olmur və buna görə həmin söz birləşmənin nüvəsi olur. Məsələn, ***red roses, to smile faintly, to say nothing, entirely real, extremely quickly, a book of poems.*** Nüvəli birləşmələr qrupu daxilində tabelilik münasibətlərini nəzərdə tuturlar və bu səbəbdən onlar müxtəlif tabeli münasibətlərin – atributiv , obyektiv və adveribal əlaqələr əsasında qurulur.

Söz birləşməsi – sintaktik əlaqələr əsasında müstəqil mənaya malik olan sözlərin birləşməsi nəticəsində yaranan nitq vahididir. Söz birləşməsi – sözlərin məna və forma baxımından bağlılığını nəzərdə tutur və əşyaların hadisə, proses, keyfiyyət və xüsusiyyətləri əsasında meydana çıxan əlaqələri ifadə edir. Sərbəst və qeyri – predikativ xarakter daşıyan söz birləşməsi quruluşca sadə və mürəkkəb olur. Söz birləşməsinin Azərbaycan dilində ismi, feili, zərf birləşmələri kimi növləri vardır.

Beləliklə, alimlər arasında söz birləşmələrinə müxtəlif cür təriflər verilmiş və müxtəlif cür qruplaşdırılmışdır. Bizim tərəfimizdən qəbul olunan söz birləşməsi Rusiya və Azərbaycan dilçilərinin fikirləri ilə daha çox üst – üstə düşür. Yəni iki və daha artıq əsas nitq hissələri qrupuna daxil olan sözlərin birləşməsi **"söz birləşməsi"** adlanir.

Söz birləşmələri öz spesifik xüsusiyyətlərinə, komponentlərinin leksik – semantik əlaqəsi, bu əlaqənin xüsusiyyət və xarakterinə gorə iki cür olur: onların bir qrupu yaranan kimi öz tərkib hissələrinə ayrılır və asanlıqla başqa sözlərlə kombinasiyalar quraraq yeni söz birləşmələri yaradırlar. Bu cür söz birləşmələri nitq prosesində yaranır və sərbəst söz birləşmələri olaraq nitq vahidləridir. Başqa bir qrup ifadələri təşkil edən komponentlər öz müstəqilliyini itirir, bölünməz bir vahid kimi çıxış edir. Bü cür ifadələri təşkil edən komponentlər müəyyən mənada öz nominativ mənalarını itirir və tam vahid kimi çıxış edərək dil vahidlərini təşkil edir. Onlar hər dəfə nitq prosesində yaranmır, struktur – semantik cəhətdən sabit söz birləşmələri olub dildə hazır vahidlər kimi istifadə olunur. Bu birləşmələri əmələ gətirən sözlər öz əsl mənalarından uzaqlaşmır və bu cəhətdən leksik müstəqilliyini saxlayırlar, onlar birləşmənin leksik semantik deyil, leksik-qrammatik ünsürləri olurlar.

Müasir dillərdə sərbəst və sabit birləşmələri müqayisəli şəkildə nəzərdən keçirdikdə bu inkişaf mərhələlərini aydın görmək olur. Bu cəhətdən sabit birləşmələrin özləri də bir-birindən fərqlənir. Məsələn, sabit birləşmələrin başqa növlərinə nisbətən idiomatik ifadələr daha çox sabitliyə malikdir. Deməli sabit birləşmələr sərbəst birləşmələrdən yaransa da, onların sabitlik dərəcəsi müxtəlif olur, idiomları sabit birləşmələrdə son inkişaf pilləsi hesab etmək olar.

Ələsgərov V.Y., müəllim
Azərbaycan Dillər Universiteti

TƏRCÜMƏÇİNİN "YALANÇI DOSTLARI" VƏ ONLARIN YARATDIĞI ÇƏTİNLİKLƏR

Dil xalqlar və mədəniyyətlərarası ünsiyyətin qurulmasında ən vacib amillərdəndir. BMT-nin rəsmi dillərindən olan fransız dilini öyrənmək azı 300 milyon insanla rahat ünsiyyət qura bilmək anlamına gəlir. Lakin ilk baxışdan asan görünsə də, dil öyrənməyin özünəxas çətinlikləri vardır. Bu çətinliklər hər bir xalqa, dilə və dil öyrənənə görə dəyişir. Öyrənilən dil ana dilindən fərqli dil ailəsinə məxsus olduqda isə çətinliklər daha da artır. Lakin çətinliklərin olması hər hansı dilin öyərnilməsinin və ya bu dilə tərcümənin qeyri-mümkünlüyü anlamına gəlmir. Düzgün metod seçildiyi təqdirdə dilin öyrənilməsi asanlaşır, səhvlər aradan qalxır.

Azərbaycanın Fransa ilə tarixi əlaqələri təxminən 600 il əvvələ gedib çıxsa da, vətənimizdə fransız dilinin kütləvi şəkildə öyrənilməsi ötən əsrin 50-ci illərindən sonraya təsadüf edir. Bu kütləviləşmənin səbəbi Azərbaycan Dillər Universitetinin yaranması sayəsində fransız dili müəllimlərinin planlı şəkildə hazırlanması idi.

Lakin sovet dövründə başlıca məqsəd pedaqoji kadr hazırlığı olduğu üçün tədris prosesində tərcümə məsələsi diqqətdən kənarda qalıb. Müstəqillik dövründə isə məsələyə yanaşma dəyişib və xarici dilin tədrisinə olan tələb və yanaşmalar dövrə uyğunlaşdırılır.

Qloballaşma şəraitində mədəniyyətlərarası əlaqələr genişləndikcə dil tədrisi və tərcüməyə qoyulan tələblər də çoxalır və ağırlaşır. Tərcümə prosesinə qoyulan başlıca tələb dəqiqlik, orijinala maksimum yaxın olmaqdır. Bu tələb tərcümənin istənilən forması üçün keçərlidir və zamana görə dəyişmir. Bəs reallıqda necə, tərcüməçilər bu tələbə tam əməl edə bilirlərmi? Və yaxud, tərcümənin yanlış olmasına gətirib çıxaran amillər hansılardır?

Peşəkar tərcüməçi kadrların hazırlanması tədris prosesində bəzən çox da əhəmiyyət verilməyən, ciddi qəbul edilməyən məsələlər sonradan tərcümə fəaliyyətində böyük çətinliklər yarada bilər. Bu məsələlərdən biri də "tərcüməçinin yalançı dostları"dır. Bir haşiyə çıxaraq qeyd edək ki, tərcümənin tədrisi ilə dil tədrisi ayrı-ayrı məsələlərdir və bu başqa bir tədqiqatın mövzusudur. Bununla belə, hər iki məsələ arasında oxşarlıqlar da yox deyildir.

Bəs "tərcüməçinin yalançı dostları" fenomeninin ortaya çıxmasının səbəbi nədir?

Dil daim inkişaf edərək yenilənir. Dilin hansı səviyyələrdə işlənməsi, işləndiyi ölkənin elmi-texniki və iqtisadi vəziyyəti dilin inkişafına öz təsirini göstərir. İnkişaf etmiş ölkələrin dillərindən başqa dillərə daha çox söz keçir. Fransız dili də bu məsələdə istisna deyil. 1789-cu il inqilabından sonra Fransanın Avropa miqyasında nüfuzu artmağa başladı. Fransız maarifçilərinin əsərləri başqa ölkələrdə, o cümlədən Azərbaycanın da tərkib hissəsi olduğu Rusiya İmperiyasında güclü nüfuz qazandı. Fransız dili 19-cu əsrdən diplomatiyanın əsas elementinə çevrildi. Bu dövrdən etibarən fransız sözləri dünyanın əksər dillərinə ayaq açdı. Azərbaycan dili də bu xüsusda istisna təşkil etmirdi. Lakin bizim fransız dilindən söz almağımızın bir vacib xüsusiy-

yəti də var. Belə ki, müstəqillik əldə edilənə qədər Azərbaycan dilinə bütün fransız sözləri rus dili vasitəsi ilə, həm də rus dili qanunlarına uyğun dəyişilərək gəlib. Azərbaycan dilinə gəldikdən sonra bu sözlərin mənasında ciddi dəyişiklik baş verməyib. Bunun əksinə, mənbə dildə sözlər inkişaf edib, ciddi məna transformasiyalarına məruz qalıb, bəziləri isə arxaikləşərək leksikondan çıxıb.

Təəssüf ki, bu vəziyyət bəzən dil tədrisi və tərcümə prosesində nəzərə alınmır. Nəticəə, tərcüməçi (həmçinin dili tədris edən və öyrənənlər) arzuolunmaz vəziyyətlə qarşılaşa bilir. Tədris prosesində diqqətdən kənarda qalan hallardan biri də "tərcüməçinin yalançı dostları" fenomenidir. Azərbaycan auditoriyasında tədrislə məşğul olanlar belə faktlarla tez-tez rastlaşırlar. Bu halın yaranmasının bir sıra əsaslı səbəbləri var.

Əvvəla, "tərcüməçinin yalançı dostları" problemi Azərbaycan dilçiliyində hərtərəfli araşdırılmayıb. Digər tərəfdən, ana dilin təsiri nəticəsində insanlar formaca oxşar olan sözlərin mənalarının da eyni olduğunu ehtimal edirlər. Bu yanlışlıq isə çox vaxt fərqinə varılmadan müəllimdən tələbələrə (şagirdlərə) ötürülür və səhvlərin yayılma arealı böyüyür. Nəticədə tələbələrin söz ehtiyatı yanlış ekvivalentlərlə "zənginləşir".

"Tərcüməçinin yalançı dostları" fenomeninin yaranmasında başlıca səbəblərdən biri kimi mədəniyyətlərarası ünsiyyət də ciddi nəzərdən keçirilməlidir. Mədəniyyətlərin və xalqların qarşıllıqlı əlaqələri nəticəsində bir dildən digərinə söz axını baş verir. Lakin alınma söz gəldiyi dilin fonetik və leksik xüsusiyyətlərinə adaptasiya olaraq orijinaldan qismən fərqlənir. Bununla belə, alınma sözün ifadə etdiyi məna məxəz dildə dəyişikliyə uğradığı halda, gəldiyi dildə əsasən sabit qalır. Görkəmli fransız dilçilərdən Jan-Pol Vine və Jan Darbelne "yalançı dostlar" probleminin ortaya çıxmasında mədəni amili çox dəqiq təsvir etmişdilər:

Ce sont "Mots qui, d'une langue à l'autre, semblent avoir le même sens parce qu'ils sont de même origine, mais qui ont en fait des sens différents par suite d'une évolution séparée " .

Bunlar "o sözlərdir ki, eyni mənşədən olduqlarına görə guya hər iki dildə eyni mənaya malikdir, lakin əslində isə ayrılıqda inkişaf etdiklərinə görə fərqli mənaları var"

Kitabın digər fəslində müəlliflər göstərirlər ki, "Sont des faux amis du traducteur ces mots qui se correspondent d'une langue à l'autre par l'étymologie et par la forme, mais qui ayant évolué au sein de deux langues et, partant, de deux civilisations différentes, ont pris des sens différents " .

"Tərcüməçinin yalançı dostları" dedikdə hər iki dildə forma və etimologiyasına görə bir-birinə uyğun gələn, lakin hər iki dilin daxilində müstəqil inkişaf etdiyinə görə və fərqli mədəniyyətlərin təsiri nəticəsində fərqli mənalar kəsb etmiş sözlər nəzərdə tutulur."

Bu sitatlardan göründüyü kimi "yalançı dostlar" fenomeni mədəniyyətlərə və dilə görə dəyişir ki, bu da təsadüfi hesab edilməməlidir. Mədəniyyət fərqi həm də özünü "yalançı dostlar"ın forma və strukturunda da göstərir. Məsələni son 200 ildə yaxın təmasda olduğumuz rus dili müqayisəsuində aparsaq fikrimizi daha dəqiq çatdıra bilərik. Məlumdur ki, Rusiya tarix boyu türk xalqları ilə sıx əlaqədə olmuş və türk dil-

lərindən çox sayda söz əxz etmişdir. Türk mənşəli (o cümlədən türk dilləri vasitəsilə keçən ərəb və fars sözləri) sözlər rus dilində kifayət qədər ciddi dəyişikliyə məruz qaldığı üçün Azərbaycan dilinə tərcümə zamanı yanlış analogiyalar vaxtaşırı qarşıya çıxır. Bu dildən tərcümə zamanı bəzən hansısa söz bütün hallarda yalançı dost kimi çıxış edir. Lakin elə sözlər də var ki, onların dilimizdəki formal ekvivalentləri də bəzi hallarda doğru alınır. Məsələn, *saray* sözü bütün hallarda yalançı dost hesab edilməlidir. Çünki, Azərbaycan dilində *saray* dedikdə əzəmətli bina, iqamətgah nəzərdə tutulduğu halda, rus dilində *сарай* odun damı, talvar mənasını verir. Yaxud, *ишак* sözünün Azərbaycan dilində eyni məna verən qarşılığı varsa da bu sözlər hər 2 dildə istifadə baxımından çox vaxt üst-üstə düşmür. Azərbaycan dilinin zoologiya terminologiyasında uzunqulaq və ya ulaq deyil, məhz *eşşək* işləndiyi halda, rus dilinin terminologiyasında *осёл* işlənir. *Ишак* sözü orta əsrlərdə türk dillərindən alındığı halda, *осёл* sözünün kökü klassik latın dilinə (asinus) gedib çıxır.

Belə bir sual da ortaya çıxır: Azərbaycan və fransız dillərində "yalançı dost" təşkil edən sözlər nə qədərdir? Bu barədə konkret rəqəm vermək mümkün olmasa da, tədqiqatlarımız nəticəsində deyə bilərik ki, bütün tiplərdən olan yalançı dostları toplasaq çox böyük həcmli lüğət alınar. Fransız dilində təkcə *-logie* suffiksi ilə bitən 700-dən çox söz var ki, bunlardan da mütləq əksəriyyəti tərcüməçini və ya dil öyrənəni çətin vəziyyətə sala bilər. Bu sözlərdən qarşımıza ən çox çıxanlara diqqət edək:

Avropa mənşəli Azərbaycan sözü	**Yanlış ekvivalent və mənası**	**Doğru variant**
Arxeoloji (sif.)	Archéologie - arxeologiya	Archéologique (*adj*.)
Histoloji (sif.)	Hystologie – histologiya (hüceyrələri öyrənən elm)	Hystologique (*adj*.)
Bioloji (sif.)	Biologie – biologiya	Biologique (*adj*.)
Onkoloji(sif.)	Oncologie – onkologiya (şişləri öyrənən elm)	Oncologique (*adj*.)

Göründüyü kimi bu sözlər konkret elm sahələrinə aid olsa da, onlar gündəlik danışıqda da kifayət qədər çox işlənir. Yəni, bu tip çətinliklə fransız turisləri müşayiət edən bələdçidən tutmuş beynəlxalq konfrans tərcüməçisinədək hər kəs rastlaşa bilər.

Qrammatik ommonimlərlə bağlı məsələ daha mürəkkəbdir. Bu tip ommonimlərin lüğətdə hərtərəfli əks olunması həcm, struktur və tərcümə baxımından mümkün deyil. Buna görə də sözügedən mövzuya qrammatika dərslərində daha çox yer ayrılmalıdır.

Fransız dilində isə zahiri baxımdan oxşar sözlərlə yanaşı omofonlar, omoqraflar, kabus sözlər və ikicinsli isimlər də "yalançı dost" siyahısını "zənginləşdirir" və leksikoqraflar bunu nəzərə almalıdırlar.

Fransız və Azərbaycan dillərinin müqayisəsində tələbələrin və tərcüməçilərin "yalançı dostlar" məsələsində başlıca çətinlikləri ilk növbədə omofonlar və omoqraflarla bağlıdır. Hər 2 məsələnin ətraflı izahı fonetika və qrammatika müəllimlərinin üzərinə düşür. Misallara diqqət edək:

Söz	Qrammatik Kateqoriya	Tərcümə
Au		Birləşmiş artikl a+le
Aulx	*n.m., pl*	Sarımsaq sözunun cəmi (arxaizm)
Eau	*n.f.*	Su
Haut	*adj.*	Yüksək, uca
Ô	*interj.*	O! (nida)
Os	*n.m., pl*	Sümük (N'avoir que la peau sur les os)
Boulaie	*n.f.*	Tozağacı meşəsi
Boulé	*n.m.*	Meyvə şirəsinin köpüyü
Boulê	*n.m.*	Qədim Yunanıstanda şəhərin ali şurası
Bouler	*v.*	Diyirlənmək
Boulet	*n.m.*	Top gülləsi (arx.), oval formalı kömür
Cène	*n.f.*	Sonuncu şam yeməyi (İsa Məsihin çarmıxa çəkilməzdən əvvəl son dəfə həvariləri ilə birgə yeməyi)
Saine	*adj.*	Müqəddəs (q.c)
Scène	*n.f.*	Səhnə
(la) Seine	*n.f.*	Sena çayı
Seine – senne	*n.f.*	Balıqçı toru
Sen	*n.m.*	Sen (Yaponiya, Kamboca, Malaziya və İndoneziyada əsas pulun yüzdə biri)

Hər bir qrafada yer alan sözlər eyni formada tələffüz edilsə də, orfoqrafiya tamamilə fərqlidir. Bu fərq omofonun qrammatik kateqoriyasından və mənşəyindən (daha doğrusu hansı mədəniyyətə aid olmasından) irəli gəlir.

Omoqraflarla bağlı məsələ də kifayət qədər ciddidir və fransız dili bu tip söz və ifadələrlə zəngindir. Yazılışca eyni, tələffüzcə fərqli olan sözləri fransız dilçiləri "heterofon omoqraf" (homographe hétérophone) adlandırırlar. Bu omoqraflar özünü əsasən felin müxtəlif formalarında göstərir:

un affluent [aflyã] *çayın qolu*

(ils) affluent [afly]. Affluer [aflye] *axmaq, tökülmək* felinin xəbər şəklinin indiki zamanında, 3-cü şəxsin cəmi

boxer (v.) [bokse] *boks etmək, bokslaşmaq, yumruqlaşmaq, vurmaq, döymək*

un boxer (*n.m.***) [boksœr]** *boksyor (it cinsi)*

les fils (*n.m.*) [fil] *sap, lif* **(< le fil,** sap, lif**)**

le(s) fils (*n.m.*) [fis] *oğul, lar* **.**

Les bâtiments publics **ferment** avant 18 heures - Pour obtenir des yaourts on utilise un **ferment** lactique.

Digər çətinlik birdən çox yazılış qaydası olan sözlərlə bağlıdır. Fransız dilində 2 və daha çox formada yazılan sözlər kifayət qədər çoxdur. Bu məsələ bəzən tərcüməçi və redaktorlar arasında mübahisələrin yaranmasına səbəb olur.

Cari (cary, carry, curry) - hind sousu

Yaourt (yogourt, yoghourt) – qatıq. Bu ismin yazılışı fransız dilli ölkələrə görə dəyişsə də hər 3 variant bütün fransız dilli ölkələrdə qəbul edilir.

Clef (clé) – açar. Hər 2 variant doğru olsa da, informatika sahəsində yalnız ikinci işlənir (clé USB).

Başqa bir çətinlik isə ikicinsli isimlərlə bağlıdır. Fransız dilində bu qəbildən olan təqribən 300 isim var ki, bəzən dil daşıyıcıları özləri bunları ayırd etməkdə çətinlik

çəkirlər. Bu tip isimlərdə cinsə görə məna fərqi kifayət qədər böyükdür. Bu fərqlər terminoloji lüğətlərin tərtibində ciddi nəzərə alınmalıdır.

Kişi cinsində mənası	Söz	Qadın cinsində mənası
Brayl əlifbası, Brayl şrifti (korlar üçün)	Braille	Duz əzmək üçün taxta həvəng
Disk, lent, sürgüqolu boynu (texnika)	Flasque	Mehtərə (əsgər su qabı) ; civə qabı, barıt qabı (arxaik)
Qotika, qotik üslub, qot dili	Gothique	Qotik şrift
Oxatan bürcü; Qədim Roma ordusunda nizəçi	Sagittaire (sagette)	Bataqlıq süsəni (Baqəvərkimilər (lat. Alismataceae) fəsiləsinə aid bitki)

Sovet dövründən fərqli olaraq indi pedaqoji fakültələrin məzunları vaxtaşırı tərcümə prosesində iştirak edir, bəzən də bütünlükdə karyeralarını tərcümə işi üzərində qururlar. Buna görə də sözügedən məsələnin təkcə tərcümə deyil, bütün dil fakültələrində tədrisi tövsiyyə olunur.

Problemin dərs proqramlarında və dərsliklərdə əksini tapması da işin vacib tərəflərindəndir. Yuxarıda qeyd etdiyimiz məsələlərin izah edilməsi üçün fonetika, qrammatika və praktik tərcüməni tədris edən müəllimlərin fəaliyyəti bir-biri ilə uzlaşdırılmalıdır. Bu da yalnız müasir tələblərə, dilin indiki inkişaf səviyyəsinə cavab verən dərsliklərin tərtib edilməsi ilə mümkündür. Son illərdə ölkəmizin ali məktəblərində Fransada nəşr edilmiş orijinal dərsliklərdən istifadə edilir ki, bu da çox təqdirəlayiq haldır. Bununla belə, fransız dərslikləri (leksika, qrammatika, fonetika) ümumi, beynəlxalq səciyyə daşıdığı üçün onlardan istifadə zamanı müqayisə imkanları məhdudlaşır. Bu da sırf Azərbaycan auditoriyası, azərbaycanlı tələbələrin maraq, dünyagörüşü, bilik səviyyəsi və dərs saatlarının miqdarı nəzərə alınmaqla müasir norma və tələblərə cavab verən dərsliklərin yaradılmasını zəruri edir. Fransız dilində orijinal dərsliklərin olması yerli dərs vəsaitlərinin tərtib olunmasını istisna etmir. Bu tip dərsliklərin ərsəyə gəlməsi həm tələbələrin dil öyrənmək imkanlarını genişləndirər, həm də mədəniyyətlərarası əlaqələrin dərinləşməsinə töhfə verər. Bu da Azərbaycan dövlətinin mədəniyyətlərarası dialoq siyasətinə tam uyğundur.

Qasımova Y.İ., müəllim
ATU

QLOBALLAŞMA VƏ DİL

1) Qloballaşma həyatın ən mühüm sahələrini əhatə edir. O elə bir universal prosesdir ki, uzun illər boyu bu və ya digər dərəcədə bir-birindən təcrid olunmuş hadisələri müasir texnologiyanın tələblərinə uyğun olaraq birləşdirir və onları bir bütöv kimi nəzərdən keçirir. Bu proses dillərin və mədəniyyətlərin qarşılıqlı təsirində özünü göstərir.

2) Məlumdur ki, dünya dilləri qloballaşma şəraitində ciddi şəkildə dəyişikliyə uğrayır, hətta qlobal dil olan ingilis dilinin təsirinə məruz qalaraq sadələşir və hətta

aradan çıxmaq təhlükəsi ilə üz-üzə qalır. Bu təsiri biz dilin işlənməsində, onun lüğət tərkibinin zəifləməsində, qrammatik strukturun getdikcə eyni model üzrə formalaşmasında özünü göstərir. Bu gün dünyada elə bir dil yoxdur ki, onda yuxarıda göstərilən xüsusiyyətlər özünü büruzə verməsin. Dünya dillərində ingilis dilindən alınmalar baş alıb gedir. Bu bir tərəfdən elmi-texniki inkişafa bağlıdırsa, digər tərəfdən mədəniyyətlərin davranış qaydalarının və digər elementlərin həyatımıza daxil olması ilə şərtlənir. Həyatın ayrı-ayrı sahələrini nəzərdən keçirsək onlarda nəinki yeni sözlər, hətta tərzləri də özünü büruzə verir.

3. Qlobalaşma şəraitdə ingilis dilinin Azərbaycan dilinə təsirini aşağıdakı kimi ümumiləşdirmək olar.

a) Cümlələrin və ifadələrin getdikcə sadələşməsi. Buna misal olaraq klassik yazıçılarımızın əsərləri ilə bugünkic gəncliyimizin dil fərqlərini göstərə bilərik. Əgər XX əsrin ortalarında və sonlarında yazıçılarımızın cümlələrində 20, 30 və daha artıq sözə rast gəlirdiksə hazırda cümlənin orta hesabla söz tərkibi 10-dan artıq deyildir.

b) internet və mediada qısa cümlələrə meyl güclüdür. Bu da vaxtın çatışmamazlığı, maliyyə problemləri və enerjiyə qənaətlə izah oluna bilər. Inernetdə yazışmalar zamanı biz maximum qısa cümlələrdən istifadə edirik. Həmin şeyi biz telefonla danışıqda da müşahidə edirik.

c) Bu gün məişətimizdə işlənən avadanlıqların, cihazların və digər məhsulların istifadə qaydaları ingilis dilində verilir və hər dilin daşıyıcısı istər-istəməz bu dillə üz-üzə gəlir və onu öyrənməli olur, əks təqdirdə həmin üz qabıq yazılarını tərcümə elətdirmək məcburiyyəti qarşısında qalır. Qlobal ingilis dilinin həyatımıza müdaxiləsini daha bir sahədə şahidi oluruq. Bu da radio, televiziya və küçə reklamlarında özünü aydın göstərir. Hər hansı bir yenilik radio, televiziyada nümayiş etdirilində onun təsviri və istifadə qaydaları həmin məhsulların ilkin olaraq istehsal olunduğu ölkənin, daha çox ingilis dilində təqdim olunur.

4. Milli dillər müqavimət gücünü artırmalı və hər bir halda öz sözlərini və öz deyim tərzlərini tətbiq etməlidirlər. Müşahidələrimizə görə deyə bilərik ki, bu gün Azərbaycan dilində yaranan informasiyaların əksəriyyətində ilkin forma kimi ingilis və rus dillərinin sxemləri konstruksiyaları durur. Ona görə də biz çalışmalıyıq ki, informasiyanın yaranmasında, ötürülməsində və qəbulunda bizim dilimiz öz orijinallığını qoruyub saxlasın, bununla da ana dilinin müqavimət gücünü təmin edə bilərik. Böyük alman mütəfəkkiri İ.V. Götenin bununla bağlı bir kəlamı yada düşür. O, deyirdi ki, dilin əzəməti və böyüklüyü onda deyil ki, o gələn hər bir sözü vurub qaytarır, dilin əzəməti və böyüklüyü ondadır ki, dil yeni gələn sözləri və ifadələri özününküləşdirir, mənimsəyir və istifadə üçün yararlı hala salır.

Rəhmanov S.B., dissertant
Azərbaycan Dövlət İqtisad Universiteti

İDARƏETMƏ SİSTEMİNDƏ İNZİBATİ DƏYİŞİKLİKLƏRİN APARILMASL XÜSUSİYYƏTLƏRİ

Təşkilatdaxili dəyişikliklər zamanı bölmələrin və işçilərin fəaliyyətini koordinasiya etmək və nəzarətdə saxlamaq məqsədilə təşkilatlar müvafiq strukturlar yaradırlar. Təşkilatın strukturları biri digərindən mürəkkəbliyinə, formalaşma xüsusiyyətlərinə, mərkəzləşdirmə və qeyri-mərkəzləşdirmə səviyyələrinə görə fərqləndirirlər. Mürəkkəblik dedikdə fəaliyyətlərin müxtəlif funksiyalara ayrılması səviyyəsi, formalaşma xüsusiyyəti dedikdə qabaqcadan müəyyən edilmiş qayda və prosedurlardan istifadə səviyyəsi, mərkəzləşdirmə və qeyri-mərkəzləşdirmə dedikdə isə idarəetmə qərarlarının qəbul edilməsi səviyyələri başa düşülür.

Dəyişikliklər reallaşdırılarkən strukturların qarşılıqlı əlaqələri daim tədqiqatçıların və rəhbərlərin diqqət mərkəzində olmuşdur. Qarşıya qoyulan məqsədə çatmaq üçün strukturların, bölmə və funksional vahidlərin vəzifələrini dəqiq bilmək lazımdır. Təşkilatdaxili dəyişikliklər zamanı işlərin və insanların təşkili işçilərin davranışına əhəmiyyətli təsir göstərir, struktur yanaşması dəyişikliklər aparılan təşkilatın əsas fəaliyyət elementləri arasındakı qarşılıqlı əlaqələrin yaranmasına və möhkəmlənməsinə xidmət edir. Təşkilatın strukturu isə onun bölmələri və işçiləri arasındakı mövcud olan qeydə alınmış qarşılıqlı əlaqələrdir. Başqa sözlə onu texnoloji və insan amilinin qarşılıqlı əlaqə və koordinasiyasının müəyyən edilmiş sxemi də adlandıra bilərik. İstənilən təşkilatın sxemi şöbələrin, sektorların, digər xətti və funksional vahidlərin tərkib hissələrini özündə əks etdirir. Lakin qarşılıqlı əlaqələrin və koordinasiyanın qanunauyğunluqlarını canlandıran əsas amili - insanın davranışını özündə ehtiva edə bilmir. Bu səbəbdən də məhz işçi heyətin davranışı dəyişikliklər zamanı təşkilatın struktur quruluşunun fəaliyyətinin bölmələrarası funksiyaların formal bölgüsünə nisbətən daha səmərəli nəticələrini təmin edir. İstənilən ticari firmanın, bankın, sənaye şirkətinin, kənd təsərrüfatının müxtəlif sahələri ilə məşğul olan iri fermer təsərrüfatlarının təşkilati quruluşuna müxtəlif meyarlardan nəzər salmaq olar. Zənnimizcə, dəyişikliklər zamanı təşkilatların fəaliyyətlərinin səmərəliliyinə aşağıdakı amillər təsir edir:

1. Təşkilatın struktur sxemlərində və vəzifə təlimatlarında əks olunan insanlar və işlər arasındakı real qarşılıqlı əlaqələr;
2. Rəhbərlik siyasəti və işçi heyətin davranışına təsir edən metodlar;
3. Müxtəlif səviyyələrdə (aşağı, orta və yüksək) – təşkilatın işçilərinin səlahiyyət və funksiyaları.

Kollegial orqanların funksiyaları təşkilatın dəyişikliklər zamanı müxtəlif fəaliyyət sahələrini əhatə edir:

1) ümumi inkişaf və dəyişikliklər üzrə strategiya və siyasətə aid qərarların qəbulu;
2) idarəetmə və inzibatçılıq fəaliyyəti üzrə aktlar;
3) qəbul olunmuş qərarların yerinə yetirilməsi üzrə bilavasitə icra fəaliyyəti.

Kollegial orqanların üstün cəhəti ondan ibarətdir ki, burada müxtəlif xarakterli ixtisas qrupları birgə fəaliyyət göstərirlər, dəyişikliklər prosesinin, müxtəlif xidmət sahələrinin, idarəetmə aparatında çalışan müxtəlif insanların əməklərinin koordinasiyasına təminat yaranır, fərqli fikirlərin ziddiyyətlərindən isə yeni inkişaf ideyaları meydana çıxır.

Гаджинский С.А., магистрант
Бакинский университет Бизнеса

САМЫЕ ИНТЕРЕСНЫЕ ИННОВАЦИИ ЗА ПОСЛЕДНИЕ ДВА СТОЛЕТИЯ

Инновация……. Что же означает это интересное, но, на первый взгляд, замысловатое словечко ?

Если сказать своими словами, то инновация – это что-то новое, или обновленное старое. Под понятием «что-то» можно отнести продукт, услугу, процесс, проект и т.д. Данный термин с латинского означает «в направлении изменений». Инновации внесли в нашу жизнь очень много изменений. Для каждого времени были. есть и будут свои инновации. То, что в прошлом являлось инновацией, сейчас является обычным делом. Хоть термин «инновация» образовался в XIX веке, его суть действовала с древних времен. Возьмем, к примеру, колесо. В настоящее время понятие «колесо» не является инновацией, но 55 веков назад это считалось инновацией. Хотя если в наше время изобретут колесо с искусственным интеллектом, это будет являться инновацией. Отсюда и суть термина – что-то новое или обновленное старое.

За весь период жизни человечества на этой маленькой, но прекрасной планете было изобретено и обновлено слишком много чего. Но не все они полезны для человека. У каждой инновации, каждого изобретения есть свои плюсы и минусы. Возьмем к примеру самые глобальные инновации: компьютер и смартфон.

Первый в мире компьютер был изобретен Чарльзом Бэббиджем, однако разработал и построил в 1941 году его гарвардский математик Говард Эйксон при сотрудничестве четырех инженеров компании IBM, по заказу которой компьютер и разрабатывался. Современный компьютер Celebris XL был выпущен в 1995 году фирмой DEC. В тот же год была выпущена операционная система Windows 95. Сегодня практически во всех квартирах есть мощные (ну или соответствующие нынешнему времени мощности) компьютеры. Главным плюсом компьютера является его вычислительная мощь. Кроме этого, получение новых сведений, возможность общаться и передавать важную информацию не смотря на расстояния, также являются плюсами. Однако новое поколение использует данное устройство не совсем по назначению и в чрезмерном количестве времени. Отсюда – нынешнее поколение не умеет общаться в реальности, в основном в печатном виде – (замкнутость); сокращает и меняет слова типа «пжалста - пожалуйста, дороу – привет» - (безграмотность); играют в игры с рейтингом R «Рейтинг R может быть назначен из-за частого употребления

непристойной лексики, продолжительных сцен насилия, секса или употребления наркотиков.» - (убийцы, насильники, бездушные люди)» и т.д.

Смартфон-это то же что и компьютер, но менее мощный и портативный. Первый смартфон был изобретен в 1993 году. Главная функция всех смартфонов и телефонов – это быть на связи. Однако и он стал дьявольской игрушкой для населения. Главным недостатком является излучение. Ну и конечно все, выше перечисленные недостатки, относящиеся к персональному компьютеру.

Безусловно, эти инновации являются самыми глобальными и самыми интересными, но и без минусов не обойтись.

Мехралиева А., магистрант
Азербайджанский Государственный
Экономический Университет (UNEC)

ЧЕЛОВЕЧЕСКИЙ КАПИТАЛ В МОДЕЛИ ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ АЗЕРБАЙДЖАНА

Сегодня в развитых и развивающихся странах большие надежды связываются с переходом на инновационный путь развития экономики. Тем самым, предполагается, что значительному улучшению социально-экономических условий будет способствовать инновационная модель развития национального хозяйства. Будут дополнительные возможности для удовлетворения потребностей индивидов, что даст новый толчок развитию национальной экономической системы и ее человеческого капитала. Ссылаясь на то, что основная доля стоимости продукта инновационной экономики приходится не на производство (затраты на материальные и трудовые ресурсы), а на знания (расходы на покупку патентов, лицензий, «ноу-хау», оплату труда творческих сотрудников), принято её называть экономикой знаний.

Движимая инновациями экономика служит основным направлением мирового развития. За последние десятилетия развитые страны начали создание «экономики, основанной на знаниях». Экономика знаний – это экономика, основанная на производстве, циркуляции, обновлении, распределении и применении знаний.

По результатам расчётов, в производство знаний в Азербайджане вкладывают около 1,0 % ВВП, а в странах Организации экономического сотрудничества и развития – около 5 %. На сегодняшний день, основным источником роста экономики в развитых странах является именно производство знаний.

Внедрение в производстве инновационных технологий создаёт необходимые условия для повышения производительности труда. В свою очередь, растущая производительность стимулирует приток инвестиций в капитал. Объём производства возрастает по обеим причинам. Следовательно, в основе современного роста совокупной факторной производительности лежат НИОКР, которые оказывают прямое и косвенное воздействие на конечный выпуск. На данный период, уже свыше 90% прироста производства приходится на долю НИОКР.

В связи с этим, инновационный тип развития национальной экономики связывается с возрастанием роли человеческого капитала как основного фактора экономического развития. Качество профессиональных кадров, уровень их социализации в значительной степени определяет уровень конкурентоспособности современной инновационной экономики. Поэтому в тесной взаимосвязи с вложениями в человеческий капитал следует рассматривать инвестиции в национальную экономику, а при анализе вопросов расширенного воспроизводства реального капитала страны, выраженного в форме физического и человеческого капиталов, необходимо акцентировать внимание на положении человека, уровне его свободы и благосостояния, состоянии социального самочувствия и собственной безопасности.

Перед Азербайджаном стоит задача построения новой модели роста, в полной мере учитывающей уроки кризиса и новые внутренние и внешние условия, в которых будет развиваться экономика. Новая экономическая стратегия должна выдвигать в качестве приоритетов устранение макроэкономических рисков, модернизацию государства, укрепление рыночных механизмов, формирование нового качества и уровня человеческого капитала.

Уже в ближайшем будущем Азербайджан усложнятся условия для поддержания конкурентных позиций в мировой экономике за счет сырья и дешевизны рабочей силы. Ответом на этот вызов служит ускорение положительных тенденций в развитии человеческого потенциала, повышение качества и уровня доступности социальных услуг в сфере образования, здравоохранения, культуры.

В «Стратегической дорожной карте по развитию национальной экономики и ее основных секторов» и других программных документах по развитию Азербайджана отмечается ключевая роль для республики секторов, связанных с развитием человеческого капитала и ресурсов знания. Прежде всего, речь идет о таких сферах как образование, здравоохранение, культура и ЖКХ. Сегодня государственные программы – это часть экономической политики по росту «человеческого капитала» в Азербайджанской Республике, а человеческий капитал рассматривается как основной фактор экономического развития страны.

Əlizadə N. A., magistrant
Azərbaycan Dövlət İqtisad Universiteti

MALİYYƏ BÖHRANLARI, ONLARIN YARANMA SƏBƏBLƏRİ VƏ ARADAN QALDIRILMASI YOLLARI

Maliyyə böhranları yeni fenomen hesab olunmurlar. Onlar tarixən pulun və maliyyə bazarlarının inkişaf etməsi ilə əlaqədar olaraq mövcud olublar. Maliyyə böhranı maliyyə institutlarının və ya bəzi maliyyə aktivlərinin (nağd pullar, qiymətli kağızlar) dəyərlərinin birdən-birə itirildiyi haldır. O çox vaxt fond birjalarında baş verən problemlər, bank panikaları, investorların öz vəsaitlərini geri götürmələri ilə üst-üstə düşür. Bir çox hallarda maliyyə böhranı başladıqdan dərhal sonra maliyyə sistemində tənəzzül baş verir. Bu tənəzzülün əsas səbəbi kimi aktivlərin dəyərinin

kəskin şəkildə aşağı düşməsi çıxış edir. Başqa sözlə desək, əgər banklar və ya investisiyalar tez bir zamanda, yəni bir neçə gün və ya həftə ərzində dəyərini itirirsə, bu maliyyə böhranının başlanğıcı deməkdir.

Bir çox amillər maliyyə böhranının baş verməsinə səbəb ola bilər. Maliyyə bazarında baş verən uğursuzluqlar, düzgün aparılmayan maliyyə siyasəti, risklərin düzgün təhlil olunmaması, iqtisadiyyatda baş verən struktur dəyişiklikləri bura aid etmək olar. İnvestorların irrasional davranışı, banklardan birdən-birə geri çəkilmə, möhtəkirlik əməliyyatları nəticəsində müəyyən aktivlərin qiymətlərinin həddindən artıq şişirdilməsi, bankların öz borc öhdəliklərini vaxtı-vaxtında yerinə yetirə bilməməsi ən geniş yayılmış səbəblər sırasındadır.

İnvestorların irrasional davranışı dedikdə, o nəzərdə tutulur ki, onlar ya az əhəmiyyəti olan investisiyalara həddindən artıq çox diqqət göstərirlər, ya da əksinə, əhəmiyyətli investisiyaları ümumiyyətlə nəzərə almırlar. Hər iki amil tənəzzülə səbəb olur. Bu "irrasional davranış" öz növbəsində maliyyə bazarında domino effektinə, yəni, investorların böyük bir qisminin eyni şəkildə hərəkət etməsinə səbəb olur.

Banklardan birdən-birə geri çəkilmə amili keçmişdə daha çox məşhur idi. 1929-cu ildə Amerika Birləşmiş Ştatları tarixində ən dağıdıcı fond bazarı böhranı sayılan Wall Street böhranından sonra maliyyə bazarında geniş yayılmış panika mövcud idi. İnsanlar böhran zamanı investisiyaları iflasa uğradığından daha dayanıqlı valyuta tələb edirdilər. Sonradan onlar banklardan bütün aktivlərini geri götürməyə başladılar. Həddindən artıq çox insanın eyni zamanda bütün vəsaitlərini geri götürməyə çalışması nəticəsində bankların bütün nağd pul vəsaitləri qurtardı.

Möhtəkirlik əməliyyatları nəticəsində müəyyən aktivlərin qiymətlərinin həddindən artıq şişirdilməsinə nümunə kimi 2007-2008-ci illərin Maliyyə Böhranının başlanmasının əsas səbəbi olan Amerika Birləşmiş Ştatlarının İpoteka Böhranını (2007) göstərmək olar. Böhrandan əvvəlki illərdə investorlar elə hesab edirdilər ki, daşınmaz əmlak qazanc əldə etmək üçün yaxşı sahədir. İpoteka kreditləşməsi üçün qoyulan tələblər aşağı olduğundan bəri investorların əksəriyyəti gələcəkdə daha baha satıb gəlir əldə etmək ümidi ilə daşınmaz əmlakları satın alırdılar. Lakin onların əsas səhvi o idi ki, onlar həmin əmlakın gələcəkdə dəyərdən düşməsi ehtimalını nəzərə almamışdılar. Bu halda inandırıcı faktiki sübutlar olmadan gələcəkdə qazanc götürməyə ümidin olması möhtəkirlik əməliyyatı hesab olunur.

Borc öhdəliklərinin vaxtı-vaxtında yerinə yetirilə bilməməsi fiziki şəxslər və ya müəssisələr hüquqi cəhətdən öz öhdəliklərini həyata keçirə və ya kreditin şərtlərinə əməl edə bilmədiyi zaman meydana çıxır. Özünə mənzil almaq istəyən bir şəxsin ipoteka kreditini ödəyə bilməməsi və ya hər hansısa bir şirkətin vaxtı çatmış öhdəliklərini yerinə yetirə bilməməsini buna misal göstərmək olar. 2007-2008-ci illərin Maliyyə Böhranı zamanı Amerikanın ən məşhur investisiya banklarından biri olan Lehman Brothers məhz borc öhdəlikləri aktivlərini üstələdiyinə görə müflis olunduğunu elan etdi.

Maliyyə böhranlarının baş verəcəyini əvvəlcədən bilmək, bununla bağlı xəbərdarlıqlar etmək demək olar ki, mümkün deyil. Amma, gələcəkdə baş verəcək böhranların zərərli təsirlərinin nisbətən az olmasından ötrü müəyyən işləri əvvəlcədən yerinə yetirmək mümkündür. Bu işlər 2 qrupa ayrılır: təhlükəsizlik tədbirləri (safeguards) və fövqəladə tədbirlər (emergency authorities).

Təhlükəsizlik tədbirləri və ya qoruyucu tədbirlər daha çox böhranların baş verməsi ehtimalının və sərtlik dərəcəsinin aşağı düşməsinə kömək edir. Ən mühüm təhlükəsizlik tədbirləri riskə getmə zamanı mövcud olan məhdudiyyətlərdir. Bu məhdudiyyətlərə çox vaxt amortizatorlar (shock absorbers) deyilir. Bu amortizatorlar kapitala qoyulan ciddi tələblərlə başlayır. Həmin tələblər müəssisələrin borc vəsaitlərindən istifadəsini məhdudlaşdırır və maliyyə böhranı zamanı öz itkilərini ödəyə bilməsini təmin edir. Digər amortizatorlara likvidlik tələbləri aid edilir. Likvidlik tələbləri maliyyə institutlarının cari qısamüddətli maliyyələşmədən asılılığını azaldır. Bunlardan başqa ehtiyat tələbləri, ipoteka üçün ilkin ödəniş tələbləri də mövcuddur. Ehtiyat tələbləri əsasən qiymətli kağızlar və digər maliyyə alətlərindən istifadə zamanı qoyulur. İpoteka üçün ilkin ödəniş tələbləri isə borc alanlar üçün levereci məhdudlaşdırır.

Fövqəladə tədbirlər isə böhran baş verən zaman zərəri məhdudlaşdırmaq üçün siyasətçilərə yardımçı olur. Bu zaman qarşıya qoyulan əsas məqsəd öz üzərilərinə böyük miqyaslı risklər götürən şirkətlərin uğursuzluğunun qarşısını almaq olmamalıdır, əksinə, maliyyə sisteminin baş verə biləcək uğursuzluqlar zamanı dözümlü və təhlükəsiz olmasını təmin etmək olmalıdır.

Акпербекова С.Р., магистрант
Азербайджанский Государственный
Экономический Университет

ЧЕЛОВЕЧЕСКИЙ КАПИТАЛ И ПУТИ ЕГО РАЗВИТИЯ

На сегодняшний день во всем мире для дальнейшего развития государств уделяется большое время повышению качества его человеческого капитала. Также как и во всем мире, в Азербайджане человеческий капитал превращается в реальную движущую силу развития всей экономики. Постоянные реформы в системе образования, здравоохранения и социальной жизни людей поддерживают актуальность этой темы.

При условиях глобализации в мировой экономике главным ресурсом для повышения качества жизни населения, по мнениям ученых является человеческий капитал. Понятие взаимосвязи между уровнем человеческого капитала и уровнем эффективности предприятий, привело ученых ведущих стран (японских, европейских, американских) к замене концепции трудового фактора на понятие человеческого капитала.

Концепция человеческого капитала получила всеобщее признание в 20-ом веке, благодаря двум выдающимся ученым, получившим Нобелевскую премию по экономике за оценку значимости индивида как двигателя экономического роста, Т.Шульцу и Г.Беккеру. Т.Шульц в своих трудах отмечал, что эффективность инвестиций вложенных в образование, здравоохранение, науку является выше, чем вложения в производство и строительство заводов и фабрик.

Также большой популярностью пользуются труды таких ученых как У.Боуэна, М.Фридмена, Л.Хансена, Б.Чизвика и т.д. Существует множество различных трактовок понятия человеческого капитала данных разными учеными.

Чаще всего, под человеческим капиталом понимаются врожденные способности индивида, уровень образования, профессиональный опыт, физические и психологическое здоровье, которые повышаются посредством инвестирования в него.

Итак, человеческий капитал имеет сложную структуру, который включает следующие активы: уровень образования, состояние здоровья, уровень производственной квалификации, способность к инновационной деятельности, социально-психологические и моральные качества.

Как было уже упомянуто выше, развитие экономики и качества жизни в Азербайджане связано с повышением качества человеческого капитала. Понятие качественного человеческого капитала является способностью работника вести более квалифицированную трудовую деятельность и повышать эффективность труда. Выдающиеся экономисты своего времени Т.Шульц, Г.Беккер, С.Фишер связывали рост человеческого капитала с увеличением объема инвестиций в систему образования. Их высказывания являются актуальными постоянно. Ведь именно образование, начиная с самого детства, является ведущим локомотивом человеческой жизни. Необходимы реформы образования, начиная с яслей, т.к. при правильном подходе маленькому человеку можно объяснить самое важное – что есть хорошо и плохо, а также привить интерес к учебе. В более осознанном возрасте необходимо учить детей истории, не прививая ненависть к врагу, грамотно, а не используя высказывания типа «Они убивали и жестоко пытали наших детей, поэтому они наши враги», дабы не испортить моральную психику еще не сформировавшейся личности. Особое внимание и инновации необходимы в период общего образования. Интерактивные уроки, рассмотрение кейсов, и т.д., чтение и изучение на уроках литературы не только классики, а также современных и интересных произведений и стихотворений зарубежных, и в особенности местных авторов. Пересмотр обязательных профилирующих предметов таким образом, чтобы не только поступить в университет, ради диплома, а иметь профессию в будущем. Повышение качества человеческого капитала требует постоянные инвестиции и вложения со стороны государства. Для качественного развития уровня жизни общества, необходим соответствующий уровень сферы услуг, который требует создания специализированных учебных учреждений, отвечающий всем требованиям современного общества, не только в городе, но и в регионах. Также необходимы постоянные инновации в университетах, побуждающие студентов большей отдаче и совершенствования. Обеспечение учащихся, частыми практическими занятиями на предприятиях, и определение их в интересные им курсы повышения квалификации, а также обучения за границей за счет государства. При этом важно обратить внимание на госу-дарственное обеспечение не только студентов отличников, но и не уступающим им в результатах, хорошистам. И определение молодежи на места работы, упразднив многие сложности, и тем самым снижая уровень безработицы в стране.

По данным Государственного Комитета Статистики число учащихся за 2017 год в профессиональных школах(55516 тыс. ч.), университетах(163779 тыс. ч) в общей сложности составило 239295 тыс. ч. В соотношении с общим количеством населения, а именно молодежи в возрасте от 15-19 лет этот показатель является низким. Но факт того, что этот показатель значительно возрас-

тает по равнению с 1991-ым годом, говорит о возможных дальнейших перспективах. Более образованные индивиды, в основном быстрее осваивают новые продукты и технологии, и учатся использовать их как в повседневной, так и в производственной практике. В итоге в выигрыше остаются и они сами и все общество в целом.

Таким образом, рост инвестиций для повышения качества человеческого капитала и эффективности их использования совместно с возрастанием уровня объемов производства дадут мощный импульс в экономическом развитии нашей страны.

Abbasbəyli F.T., magistrant
Bakı Biznes Universiteti

MÜƏSSİSƏDƏ İQTİSADİ SƏMƏRƏLİLİYİN ARTIRILMASININ ELMİ-METODOLOJİ ƏSASLARI

Firmanın iqtisadi səmərəliliyinin artırılması strategiyası onun əsas məqsədlərinin məcmusunu və bu məqsədlərə nail olmaq üçün tədbirlərin əsaslandırılmasını əks etdirir. Firmanın fəaliyyətinin əsas istiqamətlərinə: bazarda stabil mövqeyin saxlanması; bazar payının artırılması; mənfəətin maksimumlaşdırılmasını, rentabelliyin yüksəldilməsi, likvidliyin (müəssisənin ödəniş qabiliyyətinin) saxlanması və artırılması; bazarda liderliyin ələ keçirilməsi; ixrac imkanlarının artırılması və s. aid ola bilər. Firmada ilk növbədə, onun inkişafının əsas istiqaməti, bu istiqamət üzrə qarşıya qoyulmuş məqsədlərə nail olma vaxtı, bunun üçün həyata keçirilməli tədbirlər və bu işlərə məsul şəxslər müəyyən edilir. Firmanın strateji məqsədlərinin reallaşdırılması planlar sistemi ilə nəzərdə tutulur. Müəyyən olunmuş strategiya planların bütün növlərini əlaqələndirir və onlar qarşıya qoyulmuş məqsədləri reallaşdırmaq istiqamətində tərtib edilir. Planlaşdırma idarəetmənin funksiyası olmaqla yanaşı, həm də təsərrüfata rəhbərliyin mahiyyət tərkibində ən önəmli, ən məsuliyyətli həlqələrdən biridir. Elə buna görədir ki, iri firmaların çoxsaylı sex, şöbə, laboratoriyaları plan dövründə görəcəkləri işləri müəyyən etməklə, öz fəaliyyətlərini müəssisənin ümumi fəaliyyət planı ilə uzlaşdırmalı olurlar. Sexlər, şöbələr və laboratoriyalar arasında həm şaquli və həm də firmanın struktur ierarxiyası üzrə üfiqi əlaqələrin yaradılması müəssisənin ümumi planının tərtibi üçün müstəsna rol oynayır. Lakin bunu şərtləndirən cəhətlər odur ki, hər bir bölmə planın özlərinə aid hissəsini dəqiq əsaslandırmalı və yerinə yetirməli, planın yerinə yetirilməsinə ciddi və fasiləsiz nəzarət etməlidirlər. Ayrı-ayrı sex və ya şöbənin, habelə bütünlükdə firmanın inkişaf planının tərtibi üçün norma və normativlərdən əlavə, çox böyük əhəmiyyət kəsb edən şərtlərdən biri də onun resursları haqqında mötəbər məlumatların olmasıdır. Buraya, hər şeydən əvvəl, firmavə ya müəssisənin istehsal gücü haqqındakı məlumatı aid etmək lazımdır. Bundan əlavə, planın müvəffəqiyyətlə tərtibi üçün firmanın (müəssisənin) kadrları (onların sayı, peşə-ixtisas tərkibi və s.), dövriyyə fondlarının mövcud olan və plan ili üçün tələb edilən həcmi, yeni elmi-texniki işləmələrin aparılma imkanı və habelə, maliyyə imkanları haqqında məlumatların da olması vacib şərtlərdəndir. Qeyd edilən məlumatların top-

lanmasından sonra istehsal firmasının inkişaf planının, onun müxtəlif bölmələri üzrə tərtibinə başlanılır. Firmanın inkişaf planının bölmələri arasında məhsulun istehsalı və realizasiyası (istehsal proqramı) bölməsinin özünəməxsus yeri və əhəmiyyəti vardır. Bu onunla izah edilir ki, yalnız bu bölmə müəssisənin plan dövründəki fəaliyyətinin məqsədini özündə təsbit edir. Planın qalan bölmələrinə gəlincə, əslində onlar məqsədə çatma vasitələridir, onlar istehsal proqramına istinad edilərək, uzlaşdırılaraq tərtib olunurlar.

Babayev H.K., magistrant
Bakı Biznes Universiteti

MÜƏSSİSƏ VƏ TƏŞKİLATLARDA KORPORATİV İDARƏETMƏNİN MÖVCUD VƏZİYYƏTİ

Korporativ idarəetmə - şirkətin fəaliyyətinin yüksəldilməsini, təşkilatı strukturların optimallaşdırılmasını və firmanın xarici əlaqələrinin gücləndirilməsini və həyata keçirilməsini təşkil edən idarəetmə sistemidir. Yüksək səviyyədə təşkil edilmiş korporativ idarəetmə şirkətlərin fəaliyyətini genişləndirir, gələcək fəaliyyətinin yüksək dərəcədə olmasını təmin edir və onların xarici kapitala çıxışını artırmaqla iqtisadiyyatlarının yüksək və davamlı inkişafına kömək edir.

Korporativ idarəetmə sadəcə qayda və prosedurlardan ibarət deyildir. Bu idarəetməyə fərqli bir baxışdır: "öz maraqlarını başqalarının maraqlarında görmək bacarığıdır".

Son zamanlar dünya iqtisadiyyatında korporativ idarəetmənin əhəmiyyəti davamlı olaraq yüksəlir. Xüsusən, inkişaf etmiş Qərb ölkələrində baş vermiş genişmiqyaslı böhran müəssisələri bu sektora diqqət yönəltməyə sövq etmişdir.

Əvvəllər investorlar müəssisələrin rəqabətqabiliyyətliyini, maliyyə vəziyyətini daha çox diqqət mərkəzində tuturdularsa, hal-hazırda korporativ idarəetmə indeksi daha vacib məsələyə çevrilmişdir və buna görə də investisiya cəlb etməyə çalışan müəssisələr ilk əvvəl korporativ idarəetmə sistemlərini təkmilləşdirməyə çalışmalıdırlar.

Korporativ idarəetmə strateji xarakter daşıyır və xarici sferada şirkətin müvəffəqiyyətli fəaliyyətinə yönəldilmişdir. Korporasiyanın səhmdarları və onun menecerləri korporativ münasibətlərin mühüm iştirakçıları hesab edilir.

Korporativ firmaların müasir təşkilati iki tendensiyasının təsiri altında formalaşır:

- ilk olaraq inteqrasiya prosesləri ilə əlaqəliliyi - təşkilatların və təşkilati gücünün yüksəlməsi və onların idarəetmə təməlinin müxtəlif xüsusiləşdirilmiş sektorlar hesabına böyüdülməsi;

- sonra isə, parçalanma prosesləri ilə əlaqəliliyi – təşkilatların strukturundan müəyyən təşkilati blokların bölünməsi və onların təməlində ana şirkətin əmlakından icarə şərtləri ilə istifadə olunan müstəqil kommersiya şirkətlərinin yaranması. Bəzən belə şirkətlər müstəqil əsaslarda yaranır, ana şirkət ilə heç bir münasibət olmadan, yalnız onun avadanlıq və iş sferalarını icarəyə götürürlər. Müqavilə sistemi üsulu ilə

yeni yaranan şirkətlərin fəaliyyətinin koordinasiyası təmin edilir və onlar ana şirkətin ehtiyaclarının ödənilməsinə işləyirlər.

Ana şirkət tərəfindən öz təməlində mülkiyyət hüququnun saxlanılması, vahid korporativ istehsal sisteminin yaradılmasına və inkişaf etməsinə böyük imkanlar yaradır.

Korporativ idarəetmənin daxili təşkilat resurslarının effektivliyinin artması aşağıdakı göstərilənlərlə bağlıdır:

- müstəqil ekspertiza üsullarının aktiv istifadəsi;
- ümumkorporativ idarəetmə funksiyasının istehsalat və tənzimləyən funksiyalardan bölünməsi;
- daxili planlaşdırma və nəzarətdə xüsusi funksional xidmətlərin ixtisaslaşdırılması;
- korporasiyanın təşkilati inkişafına istiqamətlənmiş şöbələrin yaradılması;
- korporasiyaların idarəetmə təməlində xüsusi qərargah formalı qurumların yaradılması, onların yeni texniki ideyalara, strateji qərarlara və onların reallaşdırılmasına istiqamətlənməsi.

Səhmdarlar tərəfindən menecerlərə səlahiyyətlərin verilməsi və etimadın göstərilməsi son dərəcə vacibdir. Əks halda menecerlər şuranın qəbul etdiyi ümumi strategiyaya cavab verən qərarları operativ qəbul edə bilməzlər. Son nəticədə hər bir strategiya yalnız hesabatlara və məsuliyyətə əsaslandıqda işləyir. Öz səhmdarlarının ümidlərinə uyğun olaraq müəssisələrinin inkişafını təmin etməyə qabil olmayan menecerlər səhmdarlarda və Direktorlar Şurasında narazılıq doğurur. Korporasiyanın idarəedilməsindən narazı olan səhmdarlar isə öz səhmlərini bazarda sata bilər, şirkətin kapitalının artmaması və hətta azalması barədəki şübhələrini bu tərzdə aydın göstərmiş olar . Səhmdar cəmiyyətin hər bir iştirakçısının maraqları digər iştirakçıların maraqları ilə üst-üstə düşməyə bilər, lakin müəyyən maraqlar var ki, bunlar bütöv bir sistem yaradır:

Səhmdarlar və səhmdar cəmiyyətinin idarəetmə orqanları (direktorlar şurası, idarə heyəti, direktoru) arasında;

Səhmdar cəmiyyəti və qiymətli kağızlar emitent və investorlar arasında;

Səhmdar cəmiyyəti və dövlət orqanları arasında;

Bazar əlaqələrinə keçdikcə, maliyyə və məhsul bazarları formalaşdıqca və həm də rəqabət yeni şərt tələbatların yaranmasına gətirib çıxarır. İdarəetmə sisteminin effektivliyi, optimallığı, təşkilat strukturunun yumşaqlığı, strateji hədəflərə uyğunluq, təşkilatın ümumi vəziyyəti, təşkilatın inkişaf mərhələsi və s. kimi sahələrə tələblər artır.

İdarəetmənin yenilənməsi, təkmilləşdirilməsi və müasir şərtlərə uyğunlaşdırılmasının əsasında kütləvi şəkildə müasir kompüter və telekommunikasiya texnikasından istifadə, yüksək effektivli informasiya-idarəetmə sistemlərinin formallaşdırılması dayanır. Belə üsul və metodlardan əsasən marketinq və menecmentdə istifadə olunur. Əsasını kompüter texnikasının təşkil etdiyi müasir texnologiya menecmentin təşkilati strukturunda - onun kadr potensialında, sənədləşmə sistemində, informasiyanın saxlanma və ötürülməsində kökündə dəyişiklik tələb edir. İdarəetmədə informasiya sistem-

lərindən istifadənin əsas əhəmiyyəti müəssisənin informasiya resurslarından istifadəsinin xeyli genişləndirilməsidir.

İnformasiya-maddi varlığın, enerjinin və informasiyanın özünün çevrilməsi ilə əlaqədar olan vəziyyətin və proseslərin yaxşılaşdırılmasına imkan verən yeni məlumatlardır.

İnformasiya texnologiyası isə dedikdə informasiyanın yığılması, qeyd edilməsi, verilməsi, toplanması və işlənməsi əməliyyatlarının proqram –aparat təminatı bazasında iqtisadi obyektin idarə edilməsi məsələlərinin həllinin reallaşdırılması məqsədilə istifadə edilən üsul və vasitələrin məcmusundan ibarət olan bir proses başa düşülür.

Bədəlova L.S., magistrant
Bakı Biznes Universiteti

MÜƏSSİSƏLƏRDƏ KARYERANİN İDARƏ EDİLMƏSİ ÜSULLARININ TƏKMILLƏŞDIRILMƏSI

Karyera işçinin əməyinin gələcəyi haqqında subyektiv düşünülmüş şəxsi mülahizələrdir, əməklə özünü ifadəetmə və qaneolmanın gözlənilən yollarıdır. Bu xidmət nərdivan üzrə irəliləyən hərəkətdir, işçinin fəaliyyəti ilə bağlı olan vərdişlərin, bacarıqların, ixtisas imkanlarının və mükafatlandırma ölçülərinin dəyişdirilməsidir. Bu bir gün seçilmiş fəaliyyət yolu üzrə irəli hərəkətdir, məsələn, böyük səlahiyyətlərin, daha yüksək statusun, nüfuzun, maddi varlığın alınmasıdır. Karyera - yalnız xidmət üzrə irəliləyiş deyildir. İşdən kənar həyat da karyeranın tərkib hissəsi olmaqla, işçinin karyerasına əhəmiyyətli təsir göstərir.

Lakin karyera heç də təşkilatın iyerarxiyası çərçivəsində hökmən və müntəzəm olaraq irəli hərəkət deyildir. Başqa sözlə desək, karyera - insanın həyatı boyunca işgüzar təcrübə və fəaliyyətlə bağlı fərdi düşünülmüş mövqe və davranışıdır. İki növ karyeranı fərqləndirirlər: peşəkar və təşkilatdaxili.

Peşəkar karyera onunla xarakterizə olunur ki, konkret işçi öz peşəkar fəaliyyəti prosesində müxtəlif inkişaf mərhələlərindən keçir: təhsil, işə girmə, peşəkarlığın yüksəlməsi, fərdi peşəkarlıq qabiliyyətinin saxlanılması, nəhayət, pensiyaya getmək. Hər bir işçi müxtəlif təşkilatlarda bu mərhələləri müntəzəm keçə bilər. Peşəkar karyera ilə yanaşı təşkilatdaxili karyeranı da ayırmaq olar. Bu bir təşkilat daxilində işçinin inkişaf mərhələlərinin davamlı əvəz edilməsini əhatə edir.

Təşkilatdaxili karyera üç istiqamətə reallaşdırılır:

- şaquli - karyera anlayışını məhz bu istiqamətlə başlayırlar, belə ki, karyera ilə irəliləmə məhz bu istiqamətdə özünü daha aydın göstərir. Karyeranın şaquli istiqaməti altında hərfi olaraq struktur karyerasının ən yüksək mərhələsinə yüksəlmək başa düşülür;
- üfüqi - ya fəaliyyətini başqa funksional sahəsinə yerdəyişmə, ya da təşkilati struktura sərt formal təhkim olunmamış mərhələdə müəyyən xidməti rolun yerinə yetirilməsi nəzərdə tutulur. Üfüqi karyeraya, həmçinin tutulmuş mərhələlər çərçivə-

sində tapşırıqların genişləndirilməsini və ya mürəkkəbləşdirilməsini aid etmək olar (adətən mükafatlandırmanın adekvat dəyişdirilməsi ilə);

- mərkəzə sövq edən - bu istiqamət adından məlumdur, lakin çox hallarda işçilər üçün xoşagəlimli olur. Mərkəzə sövq edən karyera dedikdə nüvəyə, təşkilatın rəhbərliyinə tərəf hərəkət başa düşülür. Məsələn, işçinin həm formal, həm də qeyri-formal xarakterli görüşlərə, müşavirələrə dəvət edilməsi, qeyri-formal informasiya mənbələrinə yol açılması, inamlı ünsiyyət, rəhbərliyin ayrılıqda mühüm təklifləri.

Karyeranın planlaşdırılmasının və reallaşdırılmasının başlıca vəzifəsi peşəkar və təşkilatdaxili karyeraların qarşılıqlı təsirinin təmin edilməsidir. Bu qarşılıqlı təsir bir sıra məsələlərin həllini tələb edir:

- təşkilatın və ayrı-ayrı işçilərin məqsədlərinin qarşılıqlı əlaqəsinin əldə edilməsi;
- işçinin spesifik tələblərini və vəziyyəti nəzərə alınmaqla, həmin işçi üçün karyeranın planlaşdırılmasının istiqamətliliyinin təmin edilməsi;
- karyeranın idarə edilməsi prosesinin amalının təmini;
- işçinin inkişafı üçün praktiki əngəllər törədən «karyeranı dananları» aradan qaldırmaq;
- karyeranın planlaşdırılmasının keyfiyyətinin yüksəldilməsi;
- işçilərin karyera potensialının öyrənilməsi və s.

İşgüzar karyeranın planlaşdırılması və nəzarəti işə qəbul olunma anından işdən çıxana qədər işçinin vəzifə sistemi və ya iş yeri üzrə şaquli və üfüqi irəliləməsinin planlaşdırılmasını nəzərdə tutur. İşçi yalnız qısamüddətli və uzunmüddətli dövr üçün öz perspektivlərini bilməlidir, hətta işdə irəliləmək üçün hansı göstəriciləri əldə etmək lazım olduğunu bilməlidir. Karyeranın müxtəlif mərhələlərində insan müəyyən tələbləri ödəyir. İlkin mərhələ məktəbdə oxumaq, orta və ali təhsilə aiddir və 25 yaşadək sürür. Bu müddət ərzində insan onun tələblərini ödəyən və imkanlarına cavab verən fəaliyyət növünün seçilməsində bir neçə müxtəlif işlər dəyişdirə bilər. Əgər o, tezliklə bu növ fəaliyyət tapırsa, bir şəxsiyyət kimi özünü təsdiq prosesi başlayır, o, varlığının təhlükəsizliyi barədə düşünür. Sonra təşəkkül mərhələsi gəlir, təxminən 25 - 30 yaşlar arasını əhatə edir. Bu müddətdə işçi seçilmiş peşəni mənimsəyir, zəruri vərdişlər qazanır, onun peşəkarlığı formalaşır, özünütəsdiq baş verir və müstəqilliyə tələbat baş qaldırır.

İrəliləyiş mərhələsi 30 - 45 yaşlar arasını əhatə edir. Bu mərhələ zamanı ixtisasın yüksəlişi baş verir, işçi xidmət nərdivanı ilə yüksəlir.

Əlizadə H.P., magistrant
Bakı Biznes Universiteti

MALİYYƏ RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ VƏ ONUN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

Risklərin idarə edilməsi bankın biznes fəaliyyətinin ayrılmaz hissəsidir. Bankın ümumi strategiyası risklərin idarə edilməsi strategiyası bankın kreditləşmə fəaliyyətinin inkişafına nail olmaq və eyni zamanda risklərin idarə edilməsi baxımından həyata keçirilən tədbirlərin gücləndirilməsi istiqamətində aparılır. Strateji nöqtei nəzərdən risklərin idarə edilməsi üçün risklərin həcmi müəyyən edilir, risklərə nəzarət olunma qaydaları formalaşdırılır və səciyyəvi olaraq bankın hər bir şöbəsinin üzləşdiyi

müəyyən risklər(kredit riski, bazar riski, əməliyyat riski, likvidlik riski, xüsusi risklər) haqqında ətraflı məlumatlar təsvir edilir. Risklərin idarə edilməsi prosesi bankın fəaliyyətinə xas olan risklərin müəyyən edilməsi, qiymətləndirilməsi, onlar barədə hesabatların hazırlanması, məqbul risk limitlərinin müəyyən edilməsi vasitəsi ilə onlara nəzarət edilməsi və risklərin azaldılması üzrə aparılır. Risklərin qiymətləndirilməsi prosesi bankın tərtib etdiyi risk xəritəsində əhatəli şəkildə öz əksini tapmışdır. Bankda biznes kreditləri üzrə borcalanın qiymətləndirilməsi zamanı borcalanların maliyyə göstəriciləri, kredit tarixi, girov təminatı, kreditin təyinatı, borcalanın biznes fəaliyyətində təcrübəsi, borcalana təsir edən bazar amilləri və xarici amillər nəzərə alınır. Borcalnların istehlak kreditləri üzrə qiymətləndirilməsi bankdaxili qaydalar və skorinq sistemi üzrə həyata keçirilir.

Faiz dərəcəsi riski-aktiv və passivlərdə faiz dərəcəsinin dəyişilməsi nəticəsində yaranan riskdir. Bankın həayata keçirdiyi faiz dərəcəsi siyasəti bankın aktiv və öhdəliklərinin faiz riskinə həssaslığının nəzərə alınması ilə mütəmadi olaraq aktiv və passivlərin qiymətləndiriiməsi yolu ilə aparılır. Faiz dərəcələrindəki dəyişikliklərin bankın maliyyə göstəricilərinə və ümumi kapitalına təsirini minimallaşdırmaq üçün daim nəzarətdə saxlanılır. Sabit və dəyişkən faizi olan aktiv və passivlərin optimal tarazlığının təmin olunması istiqamətində faiz dərəcələri proqnozlaşdırılır və limitlər müəyyən edilir.

Bankda risklərin azaldılması üzrə prioritet istiqamətlər və aparılan nəzarət tədbirləri aşağıdakı kimidir:

1) Bankda risklərin azaldılması siyasətinə uyğun olaraq risklərin dərəcəsi müəyyən edilir;

2) Risklərin azaldılması istiqamətində müəyyən limitlər təyin olunur və əsasən kredit, likvidlik, bazar riskləri üzrə həyata keçirilir. Limitlərin məqsədi risklərin qabaqcadan qarşısının alınması və bank işinin effektivliyinin təmin edilməsidir. Risklərə nəzarət bankın Müşahidə Şurası tərəfindən təsdiqlənən risk limitləri çərçivəsində həyata keçirilir.

3) Bankda risklərin idarəediiməsinə nəzarət hər bir şöbənin daxili qaydalarına və Riskləri İdarəetmə Komitəsinin təlimatlarına uyğun aparılır. Risklərə öhdəlik nəzarət bankın daxili şöbələri tərəfindən həyata keçirilir. Daxili şöbələrə əməliyyat dəstəyi bankda mövcud olan Risklərin İdarəedilməsi departamenti tərəfindən həyata keçirilir.

4) Bununla yanaşı Daxili Audit departamenti tərəfindən il ərzində bu istiqamətdə yoxlamalar aparılır;

5) Risklərin İdarəedilməsi departamenti tərəfindən Baş Ofisə filiallardan daxil olan kredit təkliflərinə baxılır və onlara nəzarət baxışları keçirilir; mütəmadi olaraq filiallar tərəfindən verilən kreditlərin monitorinqi keçirilir və zəruri olduqda filiallarda gecikmələr üzrə kredit komitələri keçirilir və işin yekunlarına dair hesabat hazırlanır;

6) Erkən xəbərdarlıq sisteminin vasitəsilə bank fəaliyyətində istifadə olunan müxtəlif əmsalların müəyyən edilmiş limitlərə yaxınlaşması nəticəsində yarana biləcək risklər barədə rəhbərliyə məlumatlar verilir və risklərə nəzarət edilir.

7) Aparılan monitorinqlər zamanı müəyyən oıunmuş limit səviyyələrinin pozulması aşkarlanarsa bank tərəfindən zəruri tədbirlər həyata keçirlir və bu sahədəki risklər nəzarətdə saxlanılılır.

8) Hər bir risk üzrə təhlillər aparılır və nəticələri barədə bankın İdarə Heyəti və Müşahidə Şurasına təqdim olunur.

9) Mərkəzi Bankın müəyyən etdiyi qaydalara uyğun olaraq aktivlər və öhdəliklər üzrə ehtiyatlar yaradılır.

Suleymanov E.İ., master
Baku Business University

DIRECTIONS OF IMPROVEMENT OF PROJECT PREPARATION AND IMPLEMENTATION, IN THE ENTERPRISES AND ORGANIZATIONS

About the methodology of "Project Management" in the business world, began to speak not so long ago, but already today the project approach can rightly be called the sphere of professional activity. Achieving the goals set with maximally efficient use of resources, increasing motivation and competence of personnel, increasing transparency and business dynamics is not a complete list of the advantages of project management. The project management system is a set of organizational and technological methods and tools that support project management in the organization and help to increase the effectiveness of their implementation. The term project management system is often interpreted more narrowly as an automated or information management system for projects, i.e. program. Organizational and methodological components at the same time invested in the term corporate project management system.The objectives of the project management system are: increase the efficiency of company employees during work on the projects, improving the quality of the project management by the project managers, increasing the efficiency of managing the entire portfolio of company projects - more projects on time and within budget with less cost. To achieve these goals, appropriate tools are needed. If you do not describe in detail all the functionality, the project management systems are designed to solve the following tasks:

1. Provide project manager with project planning and monitoring tools
2. Provide the project participant with a clear tool for performing project tasks and access to all the information necessary for their implementation
3. Head of the unit to give a tool to control the load of employees for design and non-target tasks, provide information for deciding on the appointment of employees for new projects, the redistribution of the load between them
4. The director of the project office will provide a convenient tool that will automate routine operations and establish full transparent control over the status of the entire portfolio of projects and the quality of work of specific project managers
5. The head of the company to provide a single dashboard for monitoring all company projects with the ability to quickly analyze deviations and make management decisions
6. It is important for the company's shareholders to see the compliance of the portfolio of executed projects with the strategic goals of the company

Most often, managers are interested in such issues as: What is the corporate methodology of project management? Who and how should develop this methodology in the company? What documents should be prepared, and what should they include? The standards for project management, developed by the most famous professional associations - PMI and IPMA, do not contain direct answers to these questions. The corporate methodology of project management is a set of procedures and defining internal regulatory documents, as well as a set of tools and methods for project

management that ensure the implementation of all projects of the company under uniform rules and standards. The corporate methodology defines both the management procedures (decision-making on projects) at different phases of the life cycle, and the requirements for projects in different functional areas: finance, personnel, terms, resources, risks, quality, contracts and deliveries. Corporate methodology of project management is a set of normative and methodological documents, templates of working documents that are part of the Corporate Standard of a company managing projects or providing its application.

Hüseynova A.B., magistrant
Bakı Biznes Universiteti

BİZNESDƏ İNTEQRASİYA MEYLLƏRİ VƏ UZUNMÜDDƏTLİ MARKETİNQ KOMMUNIKASİYA MÜNASİBƏTLƏRİNİN QURULMASI

Müasir dövrdə bütün dünyada dövlətlər iqtisadi əlaqələrin genişlənməsi, dünya bazar subyektləri arasında informasiya mübadiləsinin sürətləndiyi və bu prosesin kifayət qədər asanlaşdığı bir şəraitdə hansısa bir ölkənin iqtisadiyyatında baş verən dəyişikliklər qısa bir zamanda digər ölkələrin iqtisadiyyatında da öz əksini tapmasını müşahidə etmək olar.

Bu danılmazdır ki, insan cəmiyyətinin keçmiş və müasir tarixi bizneslə əlaqədardır.

Развитие ведущих стран мира привело к формированию новой экономики - экономики знаний, инноваций, глобальных информационных систем, новейших технологий и венчурного бизнеса. Основу новой экономики составляет человеческий капитал, являющийся главной движущей силой социально-экономического развития современного общества.

Изменение роли человеческого капитала, превращение его из затратного фактора в основной производительный и социальный фактор развития, привело к необходимости формирования новой парадигмы развития. В рамках новой парадигмы развития стран и мирового сообщества человеческий капитал занял ведущее место в национальном богатстве (до 80% у развитых стран).

Человеческий капитал - совокупность знаний, умений, навыков, использующихся для удовлетворения многообразных потребностей человека и общества в целом. Впервые термин использовал Теодор Шульц, а его последователь - Гэри Беккер развил эту идею, обосновав эффективность вложений в человеческий капитал и сформулировав экономический подход к человеческому поведению.

На сегодняшний день в условиях глобализации мировой экономики, постоянного роста международной торговли, развития международных отношений, ужесточения конкуренции на внутреннем рынке, обострения террористических угроз и вооруженных действий вопрос развития человеческого потенциала приобретает все большее значение. Развитие человеческого капитала – это, прежде всего, соответствие качественных характеристик рабочей силы характеру современной экономики.

Содержание человеческого капитала можно охарактеризовать через индекс человеческого развития. Первое применение данный показатель получил в 1990-х годах, когда эксперты Программы развития Организации Объединённых Наций (ПРООН) впервые опубликовали доклад с оценкой экономического и социального прогресса стран мира, где было дано определение понятия «человеческое развитие».

Индекс человеческого развития является совокупным показателем, включающим в себя три основные компоненты и рассчитывающимся как их среднеарифметическая величина следующих составляющих:

- здоровье граждан, то есть ожидаемая продолжительность жизни населения;
- уровень образования, то есть уровень грамотности взрослого населения;
- уровень жизни населения, то есть валовый внутренний продукт на душу (ВВП) населения.

Учитывая все три составляющие, индекс человеческого развития измеряет достижения страны с точки зрения состояния здоровья, получения образования и фактического дохода её граждан и имеет определенные пороговые значения.

Так, для регионов с низким уровнем развития человеческого потенциала данный показатель будет составлять менее 0,5, для регионов со средним уровне развития

– от 0,5 до 0,8, и, наконец, для регионов с высоким уровнем человеческого развития – от 0,8 и выше. Рассмотрим вклад каждой из компонент.

Прежде всего, говоря о человеческом капитале, необходимо отметить, что трудовой потенциал каждого человека характеризуется его состоянием здоровья и его физическими способностями. В современном мире на здоровье оказывают влияние различные факторы, некоторые из которых практически невозможно контролировать. К примеру, воздействие различных магнитных или ультрафиолетовых излучений, которые негативно сказываются на здоровье человека и в последствии ослабляют его потенциал. Усугубляет ситуацию и тот факт, что, как показывает практика, борьба с данными явлениями зачастую осуществляется за счет личных средств населения, чего вовсе недостаточно. Все это, в конечном итоге, замедляет темпы развития человеческого потенциала, а, следовательно, и темпы развития экономики. В связи с чем государство заинтересовано в улучшении качества жизни населения, его здоровья и благосостояния и проводит активную политику в данном направлении.

Важную роль играет в развитии человеческого потенциала и современная система образования. Ведь состояние образования населения определяет направление развития страны, темпы роста экономики в долгосрочной перспективе. Можно обозначить следующие основные проблемы современной системы образования:

1. Несоответствие квалификации выпускников современным требованиям, в т.ч. рынка труда, которые предъявляет к ним их будущая профессия;
2. Большие объемы информации и ее противоречивость;
3. Быстрые темпы развития НТП;
4. Физические и умственные перегрузки, ведущие к ухудшению восприятия информации.

Для решения указанные проблем необходимо осуществлять регулярный мониторинг рынка труда, спроса на конкретные специальности, направления подготовки, анализ их востребованности, а также основных тенденций развития науки и технологий в стране и мире. Совершенствовать техники овладения материалом и актуализировать ведение практических занятий, начиная с первых курсов обучения, налаживать тесные связи высших учебных заведений с действующими на рынке организациями и мотивировать педагогический персонал к повышению качества образования.

В рамках изучения вопроса о развитии человеческого капитала необходимо упомянуть и о третьей составляющей индекса развития человеческого каптала – уровне жизни населения. Данная компонента наиболее полно выражается через ВВП по паритету покупательной способности (ППС).

В современных условиях, характеризующихся повышенным уровнем интенсивности производства, наблюдается увеличение как физической, так и интеллектуальной нагрузки на рабочую силу. Что, в свою очередь, стимулирует государство на создание комфортных и соответствующих данной нагрузке условий, необходимых для ее воспроизводства, ведь при отсутствии адекватных

условий труда производительность человеческого капитала будет постепенно сокращаться.

В данном направлении на сегодняшний день в целом наблюдается благоприятная тенденция: мероприятия, проводимые государством, привели к положительной динамике социально-экономического развития страны в целом и улучшили качество жизни населения, его благосостояние и здоровье. Подтверждением этому являются результаты и динамика основных показателей, то есть рост численности населения, увеличение ожидаемой продолжительности жизни, снижение уровня смертности и рост уровня рождаемости, естественный прирост населения и другие.

Таким образом, человеческий потенциал страны является одной из наиболее важных характеристик развития экономики. Это своего рода фундамент построения современной экономики, который должен первоначально закладываться государством. Ведь если мероприятия по повышению качества образования, уровня жизни населения, качества оказания медицинской помощи и другие не будут реализовываться государственной властью, то невозможным станет и расширение производства, переход к инновационной экономике в новых условиях.

Qasımov K.K., magistrant
Bakı Biznes Universiteti

EMAL MÜƏSSİSƏSİNDƏ İDARƏETMƏNİN VƏ HƏVƏSLƏNDİRMƏNİN FORMALAŞMASI XÜSUSİYYƏTLƏRİ

Emal müəssisələrinin və yaxud da digər müəssisə və təşkilatların öndə gedən xüsusiyyətlərindən biri onun idarəetmə quruluşudur. Hər bir müəssisə elə bir idarəetmə və həvəsləndirmə mexanizmi seçməlidir ki, qarşıya qoyduğu plan və tapşırıqları, yeni texnika və texnologiyani, əmək məhsuldarlığının yüksəldilməsinin, yeni istehsal rentabilliyinin və s. həyata keçirilməsi üçün səmərəli olsun. Bütün bu sadalanan amillərin əsasını idarə etmə quruluşu təşkil edir. Adətən müəssisələrdə iki növ idarəetmə quruluşu mövcud olur:

- Ümumi quruluş;
- İstehsal quruluşu.

Ümumi quruluş dedikdə müəssisənin istehsal və qeyri-istesal bölmələrinin sayı, orada çalışan işçilərin sayı, müəssisiənin yerləşdiyi ərazı nəzərdə tutulur.

İstehsal quruluşu dedikdə isə, istehsala aid olan istehsal bölmələrinin sayı, tərkibi və yerləşdiyi ərazidə məhsul buraxma qabiliyyəti və orda işləyən işçilərin sayı nəzərədə tutulur. Hər bir idarəetmənin mərkəzində rəhbər aparıcı rola sahib olur. Rəhbər öz sahəsi daxilinə idarəetmə qərarlarını, qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün hakimiyyət verilmiş məhsul şəxs və ya idarəedicidir. Rəhbərdən sonra müəssisənin idarəedici əsas şəxsi menecerlər sayılır. Menecerlər idarə etmə sahəsində əsas hüqüqi və digər məsələlərin həllində səbirli və təmkinli davranan və digər əməkdaşlarından keyfiyyət xüsusiyyətlərinə görə fərqlənən şəxs və ya şəxslərdir. Menecerlər

hansı sahadə bilik bacarıqlarının olmasından asılı olmayaraq əsas beş xüsüsiyyəti özündə birləşdirir:

− Məqsədi müəyyənləşdirmək: Hər bir qarşıya qoyulmuş konkret məqsəd və ya məqsədlər və bu məqsədlərin həyata keçirilməsi üçün yollar tapmalı, qərarlar qəbul etməli, qərarlara görə məsuliyyət daşımalı, icrasını qismən və bilavasitə həyata keçirməlidir;

− Təşkilatçılıq: Qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün lazımı qərarlar verməli, təhlil etməli icrası üçün müvafiq bölgülər aparmalıdır;

− Həvəsləndirmə(motivasiya) və kommunikasıyanı təmin etməlidir: Müxtəlif təyinatlı işlərin icarsı üçün komandalar yaratmalı onlara komanda rəhbəri təyin etməli, həvəsləndirmə tədəbirləri həyata keçirməli, vəzifə və əmək bölgüsünü həyata keçirməlidir;

− Menecerlər özləri ilə birgə işçilərində inkşafını təmin etməlidir: Görüləcək işləri bilavasitə işçilər arasında fərdi və ya komanda şəklində bölməlidir.

İstənilən müəssisə və təşkilatın əmək prosesinin tətbiqində hər şeydən əvvəl insan fəaliyyətinin həvəsləndirilməsi öndə gedən məsələlərdən biridir. Hər bir insan əməyinin nəticəsində göstərdiyi fəaliyyətin daha səmərəli şəkildə və məhsuldarlığın qabarıq təzahür olunması üçün həvəsləndirmə əsas şərtdir.

Həvəsləndirmə: Özünü və başqalarının şəxsi keyfiyyətlərini onun əmək potensiyalına, ictimai məqsədlərinə nail olmaq üçün təşkil olunmuş fəaliyyət növüdür.

Beləliklə, sadalanan amillərdən nəticə olaraq demək olarki, əməyin həvəsləndirilməsi bir sıra faktorlardan və təsirlərdən asılıdır ki, bu da öz növbəsində rəhbər və menecerin vəzifələrinin nə vaxt və hansı vəziyyətdə tətbiq olunmasını qaçılmaz edir.

Rəhimov A.A., magistrant
Azərbaycan Dövlət İqtisad Universiteti

AZƏRBAYCANDA QEYRİ-NEFT SƏNAYESİNİN İNKİŞAFININ İNSTİTUSİONAL ASPEKTLƏRİ

Cəmiyyətin sosial-iqtisadi həyatında institutların rolu və əhəmiyyəti iqtisad elmində artıq hamılıqla qəbul edilmişdir. İnstitusional iqtisadi nəzəriyyə və yaxud neoinstitusionalizm müasir dövrdə iqtisadi fikrin ən dinamik inkişaf edən və iqtisadi inkişafı təmin edəcək mexanizmlərin işlənib hazırlanmasında istinad edilən istiqamətlərindən biridir.

İqtisadi fikir tarixinə nəzər saldıqda XX əsrin 60-70-ci illərindən başlayaraq həm Duqlas S. Nortun, həm də Rodrikin iqtisadi araşdırmalarında institutlara insanların davranış qaydaları məcmusu kimi həmçinin insanların öz aralarındakı qarşılıqlı fəaliyyətləri üçün müəyyən etdikləri məhdudiyyətlər, davranışları uzlaşdıran münasibətlər sistemi kimi yanaşılır. Bazar iqtisadiyyatı şəraitində də institutlar restrospektiv mahiyyətini saxlamaqdadır. Lakin institutlar artıq təkcə insan münasibətlərinin tənzimləmə vasitəsi deyil, həm də iqtisadi inkişafı təmin edəcək struktur kimi də fəaliyyət göstərir.

İqtisadi nəzəriyyədə iqtisadi proseslərə təsiri baxımından institutlar dörd qrupa bölünür:

Bazarların formalaşmasını və sağlam fəaliyyətini təmin edən institutlar: buraya daxildir ASAN xidmət struktutları, korrupsiyaya qarşı mübarizə orqanları, parlament, ədalətli məhkəmə sistemi və s.

Bazarın "uğursuzluqları"nı tənzimləyən institutlar; antiinhisar tənzimləmələri, ətraf mühitin mühafizəsi və s institutlar.

Makroiqtisadi sabitliyi təmin edən institutlar; Mərkəzi Bankın monetar siyasəti və bazarın fiskal tənzimlənməsi institutları.

Bazarı legitimləşdirən institutlar; pensiya sistemləri, işsizlikdən müdafiə və digər sosial xarakterli fondlar, bazarı neqativ şoklardan, mənfi effektlərdən qoruyan institutlar.

Hazırda Azərbaycan Respublikası iqtisadi inkişafını sənayenin xüsusilə onun qeyri-neft bölməsinin üzərində qurmaqdadır. Ölkəmizdə qeyri-neft sənayesi, onun ixrac potensialının artıtılması və rəqabətqabiliyyətli məhsul istehsalı üçün qısa və uzunmüddətli proqramlar, strateji yol xəritələri, inkişaf mexanizmləri işlənib hazırlanıb və həyata keçirilməkdədir. Bu mexanizmlər ölkədə fəaliyyət göstərən müxtəlif institutlar tərəfindən həyata keçirilir.

Azərbaycanda və digər resurs ixraclı ölkələrdə iqtisadiyyatın qeyri-resurs sahələrinin inkişafı, rəqabət qabiliyyətliliyinin yüksəldliməsi, onların innovasiya potensialının gücləndirilməsi məqsədilə ixtisaslaşmış strukturlar formalaşdırılır. Bu qəblidən olan qurumlara bəzən «diversifikasiya instiutları» da deyilir. Həmin institutlar bəzi hallarda ixrac bazarlarının tapılması və ixracın birbaşa dəstəklənməsi, müəyyən ölkələrin təcrübəsində isə özəl sektorun yüksək texnologiyaların tətbiqinə əsaslanan layihələrinin birbaşa maliyyələşdirilməsi ilə məşğul olur.

Hazırda ayrı-ayrı ölkələrdə o cümlədən respublikada mövcud olan tipik iqtisadi instiutların nümunələri kimi İnvestisiya fondlarını, Tətbiqi innovasiyaların dəstəklənməsi Fondlarını, İnfrastrukturun inkişafı ilə bağlı Fondları, Sahibkarlığın inkişafını dəstəkləyən maliyyə institutlarını, Qeyri-neft məhsullarının ixracının təşviqi, kreditləşdirilməsi və sığortalanması fondlarını, Qeyri-resurs sənayesinin və aqrar sektorun dəstəklənməsi fondlarını, Texnoparklar, biznes-inkubatorlar, sənaye parkları, aqro- parkları göstərmək olar.

Dünya təcrübəsinin öyrənilməsi göstərir ki, iqtisadi diversifikasiya strategiyaları heç də həmişə uğurla nəticələnmir və bunun üçün həlledici faktorlardan biri inkişaf institutlarının təkmil olmasıdır. Azərbaycanda iqtisadi diversifikasiyaya xidmət edən əsas insitutlara Sahibkarlığa Kömək Milli Fondu (SKMF), Azərbaycan İnvestisiya Şirkəti (AİŞ), Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO), Kənd Təsərrüfatının Kreditləşdirilməsi üzrə Dövlət Agentliyi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Sənaye-texnologiya parkları, sənaye məhəllələri və aqroparklar.

Azərbaycanda institusional mühit və onun problemləri barədə məlumatlar əsasən xüsusi indekslər hazırlayan qurumların tədqiqatlarında öz əksini tapır. Belə qiymətləndirmələrdən biri Transparency İnternational təşkilatının hazırladığı Korrupsiya Qavrama İndeksidir (KQİ). İndeks 100 bal (çox yaxşı) - 0 bal (çox korrupsiyalaşmış)

nisbətində müəyyən edilir. 2017-ci ildə bu indeksdə Azərbaycan 31 balla 180 ölkə arasında 122-ci sırada yer almışdır. 2014-cü ildə Azərbaycan 29 balla 175 ölkə arasında 126-cı sırada göstərilmişdi. Son illərdə ölkənin reytinqindəki cüzi irəliləyiş bir pəncərə sistemi əsasında səmərəli dövlət xidmətləri göstərən ASAN Xidmət mərkəzlərinin uğurlu idarəçiliyi və məmur-vətəndaş arasında birbaşa ünsiyyəti azaldan elektron hökumətin təkmilləşdirilməsi, qeyri-neft sənayesində biznes mühitin şəffaflaşdırılması nəticəsində əldə edilmişdir.

Dünya ölkələrində biznes mühitinin qiymətləndirilməsi üzrə maraqlı araşdırmalardan birini də Dünya Bankı İnstitutu və Beynəlxalq Maliyyə Korporasiyası aparır və araşdırmanın nəticəsi olaraq Doing Business (Biznesə başlama) İndeksini hazırlayır. "Doing Business 2017: hamı üçün bərabər imkanlar" hesabatında Azərbaycan 190 ölkə arasında 65-ci pillədə qərarlaşıb. Hesabata əsasən, Azərbaycan dünyada 3 və daha çox islahat aparan 29 ölkədən biridir.

Son illər Azərbaycanda biznes və investisiya mühitinin yaxşılaşdırılması istiqamətində xüsusilə sahibkarlıq fəaliyyətinin lisenziyalaşdırılması sahəsində, sahibkarlıq fəaliyyətinin təşkilinin asanlaşdırılması sahəsində, qeyri-neft ixracının və investisiya fəaliyyətinin stimullaşdırılması sahəsində, idxalın əvəzlənməsi üzrə tədbirlərdə, gömrük prosedurlarının sadələşdirilməsi sahəsində bir sıra addımlar atılmışdır.

Beləliklə, belə bir nəticəyə gələ bilərik ki, iqtisadi inkişafın fundamental amillərindən olan institutlar dövlət, bazar və cəmiyyət münasibətlərində formal və qeyri-formal davranış qaydalarını ifadə edir. İnstitutlar stimullar sistemini yaradır ki, həmin stimullar da cəmiyyətin bu və ya başqa istiqamətdə inkişafının bünövrəsini təşkil edir. Ölkənin malik olduğu iqtisadi potensialdan necə istifadə olunması mövcud institusional sistemin xarakterindən asılıdır. İqtisadi artımın tənzimlənməsində dövlətin istifadə etdiyi tədbirlər məhz bazar stimullarının hərəkətə gəlməsini təmin etməlidir.

Şirin A N., magistrant
Azərbaycan Dövlət İqtisad Universiteti
Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi

İNSAN KAPITALI

İnsanın cəmiyyətdə özünü tam dərk etməsi, peşəkarlığını,bilik və bacarığını tam istifadə etməsi üçün cəmiyyətin imkanlarından istifadə etməsi mütləqdir.İlk dəfə insan kapitalı termini Teodor Şuls tərəfindən işlədilib və sonradan davamçısı Heri Bekker tərəfindən inkişaf etdirilib. İsbat edilib ki, insan fəaliyyətinə effektli iqtisadi baxış çox vacibdir.Ümumiyyətlə hər zaman bütün dövrlərdə iqtisadiyyatın ən dəyərli resursu biz insanlar olmuşuq. Hər bir ölkənin sabahı öz əhalisinin sağlam, təhsilli, bacarıqlı olması və iş səriştəsinin olmasından asılıdır. İnsan kapitalına investisiya etmək çox vacibdir, burada investisiya edən tərəf dövlət, sahibkar, biznesmen, təşkilatlar, şirkətlər

ola bilər. Ümumilikdə dünya iqtisadiyyatının artımı 16%-i fiziki kapital, 20%-i təbii ehtiyyatlar, 64%-i isə insan kapitalından əldə olunur.

İnsan kapitalı nəzəriyyəsinə müxtəlif tənqidlər gəlməkdədir.İnsan kapitalı keçmiş dövrlərdən etibarən hər zaman araşdırılmışdır və fərqli şəkildə təhlil olunmuşdur. Bir neçə yazarın fikrincə, insan kapitalı bir şəxsin iqtisadi fəaliyyətinə aid təcrübə və biliklərdən ibarətdir.İnsan kapitalı fərdi işçi məhsuldarlığını artırmaq üçün hər hansı bir fəaliyyətdən yaranır. İşçilər üçün sərmayə anlayışı - öncədən xərc investisiya qərarlarını qəbul edən işçilər, alternativ gələcək gəlir və istehlak axınlarının cazibədarlığını müqayisə edir, bəziləri gələcək gəlirləri daha da artırır və bu daha yüksək hazırkı təlim xərcləri,təxirə salınmış istehlak deməkdir. Həmçinin insan kapitalına olan ictimai investisiyaların qaynaqları prinsipcə oxşar şəkildə hesablana bilər.

Qloballasma prosesində insan amili önəmli rol oynayır. İnsan həm şəxsi mənada, həm ailə, həm cəmiyyət, həm dövlət, həm də dünya miqyasında düzgün idarə olunarsa və istiqamətlənərsə bu zaman qloballaşmadan təkcə iri dovlət və iri şirkətlər deyil, həm də digər orta və geri qalmış dövlətlərdə faydalana bilərlər.

Ən böyük problemlərdən biri də insan resurslarının fiziki və əqli cəhətdən deyil, sırf psixoloji cəhətdən zəif olmalarıdır. Burada əsas məqsəd mədəni dəyərlərimiz əsasında insan resurslarımıza dəyər qatmaq, onları qiymətləndirməkdədir. Günün reallıqlarını nəzərə alaraq hərəkətə kecmək lazımdır. Ötən əsrdə "udmaq-uduzmaq" fəlsəfəsi hökm sürürdü. Yəni birinin qalib gəlməsi üçün digəri mütləq məğlub olmalı idi. İndi isə "ancaq udmaq" yüz illiyidir. Bu əsrdə eyni oyunda hamı qalib gələ bilər. Hər iki tərəfin də qazanması ucun Mövlananın "fərqləri yox, oxşarlıqları tapın" sözü global insanın şuarı ola bilər.

Əmək iqtisadiyyatı sahəsində ən vacib fikirlərdən biri müxtəlif investisiyaların aparıldığı bir kapital forması kimi işçilərin əmək qabiliyyətinin müəyyənləşdirilməsidir. Bu perspektiv həm investisiya təşviqlərini, həm də əməkhaqqı və mənfəətin strukturunu başa düşmək üçün vacibdir. İnsan kapitalı anlayışı 4 hissədən: təhsil, sağlamlıq, iş qüvvəsi və məşğulluq,əlverişli mühitdən ibarətdir. Təbii ki, müəssisə və təşkilatlarda insan amilinə müxtəlif aspektlərdən yanaşaraq ona kapital qoymaqla işçinin motivasiyasına da müsbət yöndə təsir göstərmiş olarlar. İşci motivasiyası yüksək iş mühiti üçün səmərəlilik göstərməyə qadirdir.

Hal-hazırda Azərbaycanda bəzi iş yerlərində işçilərə yanaşma sadəcə işinin müqabilində maaş almaq xarakteri daşıyır, işçiyə əlavə olaraq iş motivasiyasını artıracaq tədbirlər həyata keçirilmir. Bu sahədə təbii ki, iş yerlərinə ixtisaslı, beynəlxalq təcrübədən istifadə edən insan resursları sahəsində mütəxəssislər lazımdır. Ümid edirik ki, keçiriləcək olan islahatlar sayəsində artıq bu kimi problemlərə daha ciddi yanaşılacaqdır.

Azərbaycanda ulu öndər Heydər Əliyevin təhsil sahəsində islahatları nəticəsində yüzlərlə tələbələr xaricdə təhsil almış,mütəxəssislər yetişmişdir. Məhz bu uğurlu siyasətlə müxtəlif sahələrdə beynəlxalq təcrübələrin insan kapitalı vasitəsilə Azərbaycana gətirilməsi və tətbiq olunması ilə nəticələnmişdir.

Həsənov N., magistrant
Bakı Biznes Universiteti

İNSAN RESURSLARININ İDARƏ EDİLMƏSİNDƏ NAMİZƏDLƏRİN SEÇİLMƏSİ XÜSUSİYYƏTLƏRİ

Bildiyimiz kimi XXI əsr texniki tərəqqinin inkişaf əsri olaraq qiymətləndirilir. Bu inkişafa uyğunlaşmaq və digər müəssisələrlə rəqabətetmə gücünə malik olmaq üçün müəssisə təhsilli, qabiliyyətli və bacarıqlı işçilərə ehtiyac duyur. Buna görə də insan resurslarının ən vacib mərhələlərindən biri seçmə mərhələsidir. Fərdlərin arasından işə ən uyğun olanları seçmək çox asan bir fəaliyyət deyil. Seçilən işçilər müəssisənin məqsədinə çata bilməsi üçün ona kömək olan və dəstək verən əsas qüvvələrdir. Buna gərə də inkişaf etmiş müəssisələr texniki tərəqqinin, texnologiyanın və qlobal rəqabətin sürətlə inkişaf etdiyi dövrlərdə insan resursları sistemini quraraq, işçi qüvvələrinin neçə və hansı mənbələrdən təmin ediləcəyinə, yeni kadrların seçilməsində hansı vasitələrdən istifadə olunacağına və nələrə diqqət ediləcəyinə və s. kimi suallara cavab vermək üçün yüksək səviyyədə araşdırmalar həyata keçirirlər.

Diplomlu mütəxəssislərə tələbat müəyyənləşərkən, onun proqnozları verilərkən aşağıdakı əsas metodikalar nəzərə alınır:

- Ştat: nomenklatura metodu: vəzifə normativləri, ştat cədvəlləri, vəzifələr üzrə ixtisas-sorğu kitabları; vəzifələrin sayının artması və azalması amilləri;
- normativ metod: işin, istehsalın həcmi, mütəxəssislərin müvafiq əmək normativləri;
- təmin olunma normativi: diplomlu mütəxəssislərin ümumi işçilərə görə xüsusi çəkisi

Bu xüsusi çəkinin, məhsulun, işin mürəkkəbliyindən, elmi- tədqiqat, konstrukisya işlərinin həcmindən, ETT- dən idarəetmənin təşkilatı strukturundan və s. asılı olmasıdır. Perspektiv dövr üçün normativ kəmiyyət proqnozlaşdırarkən faktiki ilkin məlumatlar əsas götürülməklə gələcəkdəki amillər, baş verəcək ha-disələr, proseslər korrelyasiya – reqressiv təhlil əsasında nəzərə alınmalıdır. Bu xüsusi olaraq mütəxəssislərə olan əlavə tələbatın müəyyən olunması üçün lazımdır

Kadrların seçilməsi prosesində aşağıdakılar nəzərə alınmalıdır:

- işçinin müvafiq vəzifəni icra etməsi üçün yararlı olmasını müəyyənləşdirmək;
- mümkün olan namizədlər haqqında məlumatlar toplamaq;
- namizədin şəxsi keyfiyyətini, keyfiyyət amillərini qiymətləndirmək;
- məcmu keyfiyyətlə namizədin yerinə yətiriləcək vəzifə funk-siyalarının müqasiyəsi;
- müxtəlif namizədlərin məlumatlarının müqayisəsi və nəzərdə tutulan vəzifə üçün ən layiqlisinin seçilməsi;
- namizədin vəzifəyə təyin edilməsi.

Yuxarıda göstərilən psixo-fizioloji tələblər müəyyən peşələrin iş fəaliyyətinə uyğun olaraq seçilməsi və onun əsasında peşəqrammanın tərtib edilməsi üçün əsasdır. Bu, nəticə etibarilə namizədlərin iş qabiliyyətinin müəyyən edilməsi, əməyin səmərəliliyinin artırılması, kadrların təlim sisteminin təkmilləşdirilməsi üçün də vacibdir.

Məmmədova A.İ., magistrant
Bakı Biznes Universiteti

LAYİHƏLƏRİN İDARƏ EDİLMƏSİ VƏ ONUN İQTİSADİ İNKİŞAFDA ROLU

Cəmiyyətin inkişafının bütün mərhələlərində elmi- texniki nailiyyətlər cəmiyyətin bütün sahələrinə:istehsala, xidmətə, təhsilə, məişətə, mal və xidmətlərin həmçinin keyfiyyətinin yük-səldilməsinə,əməyin səmərəliliyi və təhlükəsizliyinin artırılmasına tətbiq edilmişdir.

Məlumdurki, iqtisadiyyatda istehsalın əsasını müəssisələr təşkil edir.Bu baxımdan müəssisələrin uzunmüddətli inkişafına dair, istehsal və layihələrin hazırlanması zərurəti yaranır. Çünki layihələr-ölkənin iqtisadi inkişafında mühüm rol oynayır hər bir ölkə öz məhdud və qeyri məhdud resurslarından səmərəli şəkildə istifadə etməlidir.

Günümüzdə layihələrin, əsasən də mürəkkəb və böyük layihələrin həyata keçirilməsində təşkilatlar: layihə, axtarış, tikinti, xammal- materialların təchizatçıları və s. iştirak edir.Təbii ki, belə müəssisələrdə layihələri idarə etmək asan məsələ deyil, o insanlardan bacarıq və qabiliyyət tələb edir.Layihələr planlaşdırılmış şəkildə idarə edilməlidir. Başlanğıc və son fəaliyyət müddəti olan layihələr uğurlu layihələr adlandırıla bilər.

Layihə fikri meydana gəldikdən sonra bir sıra məsələlər haqqında düşünülməlidirki, bu məsələlər də mövcud maddi və qeyri maddi resurslardan istifadə,layihə büdcəsinin mövcudluğu,layihə çərçivəsində işləyəcək olan kadrlar,bazarda layihəyə rəqib ola biləcək digər layihələri araşdırıb təhlil etmək və sonda düzgün nəticə əldə etməkdən ibarətdir.Bu məsələlərə aydınlıq gətirdikdən sonra layihə kollektivə təqdim olunmali və mümkün vəziyyətlər təhlil olunmalıdır.Təhlil aparan zaman mövcud vəziyyət, ehtiyaclar,ola biləcək problemlər və yarana bilən risklər nəzərə alınmalıdır.Layihənin həyata keçirilməsi ilə bağlı qərar qəbul edildikdən sonra texniki vəziyyət arzuolunan şəkildə olmalı,kadr və peşə hazırlığı həyata keçirilməli,elmi texniki tərəqqinin nailiyyətləri istehsala tətbiq edilməlidir.

Layihələrin idarə edilməsi zamanı aşağıda göstərilən məsələlər öz əksini tapmalıdır:

- layihələrin analizi və ümumi texniki dəyərləndirilməsi;
- layihənin yerinə yetirilmə metodologiyasının hazırlanması;
- layihənin iyerarxik strukturunun hazırlanması;
- idarəetmə planının hazırlanması;
- ana iş qrafikinin hazırlanması;
- layihənin yerinə yetirilməsinə nəzarət xidmətləri.

Layihələrin uğurla başa çatması və yerinə yetirilməsi onun rəhbərinin və menecerinin peşəkar və səlahiyyətli olmasından çox asılıdır. Layihələrin idarə edilməsi sahəsində peşəkar olmaq üçün bu sahədə müəyyən peşəkar biliklərə, bacarığa, təcrübəyə və vərdişlərə malik olmaq lazımdır. Bu səbəbdən Layihələrin İdarə Edilməsi Beynəlxalq Assosiasiyası (IPMA) və ona daxil olan milli assosiasiyalar bu sahədə kadr-

ların hazırlanması və sertifikatlaşdırılması məsələsinə çox ciddi yanaşaraq bunları daima nəzarətdə saxlayırlar.

Azərbaycan Respublikasında layihə rəhbərləri və menecerlərinin sertifikatlaşdırılmasının əsasını təşkil edən milli standartlar NCB(az) Layihələrin İdarə Edilməsi Beynəlxalq Assosiasiyanın sertifikatlaşdırma sistemi ICB (IPMA Competence Baseline) əsasında qurulmuşdur. Milli səlahiyyətlərin əsasları ICB-də təsdiq olmuş və göstərilmiş transfer texnologiyası sxemi əsasında yaradılmışdır. Bu standartlar toplusu IPMA-da akkreditasiya olunmuş və layihələrin idarə edilməsi üzrə peşəkar Azərbaycan mütəxəssislərinin sertifikatlaşdırma sisteminin təşkili və keçirilməsi üçün nəzərdə tutulub. Standartlar toplusunun əsas məqsədi layihələrin idarə edilməsi üzrə peşəkar Azərbaycan mütəxəssislərinin sertifikatlaşdırması sisteminin formalaşdırılmasıdır. Milli sertifikatlaşdırma sistemi ümumi sertifikatlaşdırma sisteminin tərkib hissəsidir və inkişaf etdirilir.

AzPMA sertifikatlaşdırma proqramını davam etdirir. Hal hazırda respublikamızda assosiasiya tərəfindən iki asessor, 23-«D» səviyyəli, 4-«C» səviyyəli layihə meneceri hazır- lanmış və onlar beynəlxalq sertifikata layiq görülmüşlər.

AzPMA –nın əsas məqsədi layihələrin idarə edilməsi sahəsində peşəkarlığı inkişaf etdirmək, peşəkar layihə rəhbərlərinin təcrübələrini Azərbaycan Respublikasında yaymaq, layihələrin idarə edilməsi sahəsində modul-kurslar, treninqlər və sertifikatlaşdırma proqramlarını həyata keçirməkdir.

İqtisadiyyat sahəsində baş verən dəyişikliklər hər şeydən əvvəl bazarın yaradılması və bazar münasibətlərinə keçidlə bağlıdır. Əhəmiyyətli dəyişikliklərə aşağıdakıları misal göstərmək olar: özəlləşdirmənin həyata keçirilməsi, yerli idarəetmə sisteminin tətbiqi, müxtəlif mülkiyyət formalarının tətbiqi və ölkənin iqtisadiyyatına yeni müstəqil təşkilatların, şirkət və firmaların təsirinin artması.

Hal-hazırda Azərbaycanda layihələrin idarə edilməsi yeni mərhələyə keçmişdir. Layihələrin idarə edilməsi üzrə inkişaf Qərbin əldə etdiyi təcrübədən istifadə etmək imkanı yaratmışdır. Eyni zamanda respublikamızda əldə olunan uğurlar nəticəsində dünyada qazanılan təcrübənin artmasına imkan yaradır və ölkəmizin real şəraitinə uyğun olan layihələrin idarə edilməsinin metod və üsullarını inkişaf etdirir. Beləliklə, layihələrin idarə edilməsi iqtisadi inkişafda əsas məsələlərdən biri olmalıdır.

Məmmədbəyli E. İ., magistrant
Bakı Biznes Universiteti

MÜƏSSİSƏLƏRDƏ İDARƏETMƏ UÇOTUNUN TƏŞKİLİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

İdarəetmə uçot sisteminin effektivliyini qiymətləndirmənin təkmilləşdirilməsi idarəetmə uçot sisteminin fəaliyyətində problemləri həll etməyə kömək etməlidir, bu da müəssisənin səmərəliliyinin artmasına mane olur Ona görə də idarəetmə uçot sisteminin effektivliyini qiymətləndirmək və inkişaf etdirmək üçün proqramda həll edilməli olan əsas problemli məsələləri sıralamaq vacibdir ki, bu da müəssisədə idarəetmə uçot sisteminin daxili auditinə tabedir.

İdarəetmə uçot sistemlərinin diaqnostikası və müəssisənin hesabatlarının nəticələrinə əsasən mövcud idarəetmə uçot sistemlərinin ən tipik çatışmazlıqları fərqli səviyyəli menecerlər tərəfindən balanslaşdırılmış idarəetmə qərarlarının qəbul edilməsi imkanını məhdudlaşdırdı.Aşağıda, idarəetmə hesabat sisteminin təkmilləşdirilməsi və onun təmin edilməsi üçün məlumat bazasını optimallaşdırmaq üçün tövsiyələr də verilmişdir.

Əsas prioritetlər olaraq idarəetmə uçotu və hesabat sisteminin təkmilləşdirilməsi istiqamətində aşağıdakı istiqamətlər seçilmişdir:

1. İdarəetmə hesabatlarının strukturunu, iyerarxiyasını, məzmununu və təqdimatını təkmilləşdirmək;
2. Maliyyə planlaşdırma və büdcə sisteminin inkişafı;
3. Qısa, orta və uzunmüddətli planlaşdırma üfüqlərini birləşdirən müəssisə üçün inkişaf strategiyasının hazırlanması;
4. Mühasibat uçotu sisteminin təkmilləşdirilməsi.

İdarəetmə uçotu sistemi müəssisədə formalaşmış təşkilati strukturda üst-üstə düşür. Buna görə də, bu sistemin səmərəliliyi əsasən müəssisənin təşkili effektivliyindən asılıdır. Çox vaxt tez-tez idarəetmə uçotu sisteminin təkmilləşdirilməsi müşayiət olunmalıdır və müəssisənin təşkilati strukturunda dəyişikliklərə riayət etməlidir, çünki müasir idarəetmə uçotu metodlarını tətbiq etmək düzgün deyil və səmərəsizdir və müəssisənin səmərəsiz təşkilati strukturu şəraitində onları kompüterləşdirmək mümkündür.

İdarəetmə uçotu sisteminin inkişafı, təşkilati strukturun təkmilləşdirilməsi ilə müşayiət olunan, aşağı səviyyəli idarəetmə səviyyəsində məsuliyyətli idarəetmə qərarlarının qəbul edilməsi üçün zəruri informasiya dəstəyi təmin edə və müvafiq məsuliyyət səviyyəsindən ən yüksək səviyyədə rəhbərlik və idarəetmə səviyyəsinə qədər asanlaşdırıla bilər.

Son illərdə idarəetmə uçotunun nəzəri əsaslarını əsasən xarici ölkələrin nümunələrində izah etmək üçün cəhdlər edilmişdir, lakin ölkədə bu cür mühasibat uçotunun spesifik funksiyalarının aydın təsviri hələ hazırlanmamışdır. Bu vəziyyətdə bazar münasibətlərinə keçid, mühasibat uçotunun təşkilində dəyişikliklər acil olaraq bu problemin həllinə, daha çox ölkədə və məhsulların (işlərin, xidmətlərin) qiymətinə daxil olan xərclərin kompensasiyası və zəruri amortizasiya dərəcələrini tələb edir, vergi sistemi tez-tez dəyişikliklərə məruz qalır.

Qurbanlı E.İ., magistrant
Bakı Biznes Universiteti

MÜASİR DÖVRDƏ KƏND TƏSƏRRÜFATI MÜƏSSİSƏLƏRİNDƏ MALİYYƏ NƏTİCƏLƏRİNİN AUDİTİNİN MÖVCUD PRAKTİKASI

Sərbəst bazar iqtisadiyyatı şəraitində respublikamızda və dünyada iqtisadiyyatın yüksək templə inkişafı mühasibat uçotunun da təkmilləşməsinə və inkişaf etdirilməsinə təsir göstərmişdir. Uzun illər boyu respublikamızda kənd təsərrüfatı müəssisələri inzibati amirlik sistemində olmuşdur ki,bu da müəssisələrin yalnız verilən plan tapşırıqları yerinə yetirmələri ilə nəticələnmişdir. Belə ki,inzibati amirlik sisteminə uyğun ola-

raq kənd təsərrüfatı müəssisələrində mühasibat uçotu və audit yoxlaması planlı iqtisadiyyat sisteminin tələblərinə uyğun təşkil edilmişdir.

Yuxarıda qeyd etdiklərimizlə bağlı olaraq,kənd təsərrüfatı müəssisəsində audit yoxlaması zamanı auditor aşağıda göstərilənlərə dqqət yetirməlidir:

- Müəssisənin uçot siyasətində satışdan yaranan pul vəsaitlərinin müəyyən edilməsi forması haqqında əmrin (sərəncamın) olmasına;
- Müəssisənin satışdan əldə etdiyi pul vəsaitlərinin uçotda düzgün göstərilməsinə;
- Ümüdsüz debitor borclarının düzgünlüyünə və dəqiq olmasına nəzarət etmək. Bu borclara müəyyən edilmiş dövr ərzində ödənilməmiş və ya ödənilməsi ümüdsüz olan debitor borcları aid edilir. Bu borclar hesabat ilinin yekununda aparılmış inventarlaşma nəticəsində müəyyən edilir.

Mənfəətin təyinata uyğun olaraq istiqamətləndirilməsini auditor Vergi Məcəlləsi, Azərbaycan Respublikası Maliyyə Nazirliyi,Azərbaycan Respublikası Konstitusiyası, respublikanın digər normativ-hüquqi sənədləri və yoxlama aparılan müəssisənin sənədlərinə uyğun şəkildə həyata keçirir. Kənd təsərrüfatı müəssisələrində balans mənfəəti (zərəri) və onun təyinatı ayrılıqda balansda öz əksini tapır. Balansın sağ tərəfində yəni, passivində mənfəət və onun avans kimi istifadəsi, eyni zamanda bölüşdürülməmiş mənfəət, balansın sol tərəfində yəni, aktivində isə zərər qeyd olunur. Hesabat ilinin və əvvəlki illərin ödənilməmiş zərərləri,eyni zamanda bölüşdürülməmiş mənfəət balans yekununda göstərilir. Göstərilən bütün uçot qaydaları Azərbaycan Respublikası Maliyyə Nazirliyi Kolleqiyasının 30.01.2017 tarixli Q-01 nömrəli qərarı ilə təsdiq edilmiş "Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına və Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına əsasən mühasibat uçotunun aparılması Qaydalarına" uyğun olaraq uçota alınır.Maliyyə nəticələri milli hesablar planına uyğun olaraq,maliyyə hesabatının VIII bölməsində qeyd olunur.Hesablar planının həmin bölməsi aşağıdakı cədvəldəki kimidir:

Cədvəl 1.

Maliyyə hesabatının bölməsi	**Maliyyə hesabatının maddəsi**	**Hesabın nömrəsi**	**Subhesablar**	**Digər subhesablar**	**Hesabın adı**
8	**MƏNFƏƏTLƏR (ZƏRƏRLƏR)**				
	80				Ümumi mənfəət (zərər)
		801			Ümumi mənfəət (zərər)
	81				Asılı və birgə müəssisələrin mənfəətlərində (zərərlərində) pay
		811			Asılı və birgə müəssəsilərin mənfəətlərində (zərərlərində) pay

Nəzərli C.Ə., magistrant
Bakı Biznes Universiteti

NEFTMAŞINQAYIRMA MÜƏSSİSƏLƏRDƏ İSTEHSAL MƏSRƏFLƏRİ UÇOTUNUN MÜASİR VƏZİYYƏTİ VƏ ONLARIN MALİYYƏ NƏTİCƏLƏRİNİN TƏHLİLİ

İqtisadiyyatda istehsal sferasında fəaliyyət göstərən hər bir müəssisədə olduğu kimi, neftmaşınqayırma müəssisələrində də istehsal məsrəflərinin uçotunun aparılması muhasibat uçotunun əsas vəzifələrindən biridir. Aydındır ki, müəssisələrin fəaliyyətinin əsas elementi mənfəətin yüksək olmasıdır. Mənfəətə təsir göstərən ən əsas amillərdən biri isə istehsal olunmuş məhsullara çəkilən məsrəflərdir. İstehsal məsrəflərinin formasiyası və dinamikası hazır məhsulların, həyata keçirilmiş işlərin və xidmətlərin maya dəyərini formalaşdırır. Maya dəyəri isə öz növbəsində mənfəətin formalaşmasına birbaşa təsir göstərir. Neftmaşınqayırma müəssisələrində isə mənfəət maliyyə vəziyyətini səciyyələndirən əsas göstərici kimi qəbul edilir. Neftmaşınqayırma müəssisələrinin fəaliyyətinin başlıca istiqaməti istehsal prosesi olduğuna görə həmin müəssisələrdə istehsal məsrfələrinin uçotunun düzgün aparılması və qiymətləndirilməsi, həmçinin məhsulun maya dəyərinin kalkulyasiyasının düzgün aparılması vacib şərtlərdən biridir.

Neftmaşınqayırma müəssisələrində istehsal məsrəflərinin uçotu Milli Muhasibat uçotu standartlarına əsasən aparılır. Məsrəflər gələcək iqtisadi səmərənin əmələ gəlməsinə səbəb olmadıqda, habelə onlara aid edilən gələcək iqtisadi səmərələr Mühasibat balansında aktivin tanınma meyarlarına uyğun gəlmədikdə və ya bu meyarlara artıq cavab vermədikdə, bu məsrəflər mənfəət və zərər haqqında hesabatda xərc kimi dərhal tanınır. Xərclərin tanınması maddəsinə əsasən "xərclər təsərrüfat əməliyyatlarının yerinə yetirilməsi ilə bağlı pul vəsaitlərinin və onların ekvivalentlərinin daxil olması və ya xaric olması zamanı deyil, bu əməliyyatların baş verdiyi anda tanınmalıdır". Neftmaşınqayırma müəssisələrində istehsala məsrəflərin analitik uçotu ayrı-ayrı məhsul növləri üzrə aparılır. Ümumilikdə götürüldükə müasir vəziyyətdə istehsal məsrəflərinin uçotu sənaye müəssisələrində məsrəf maddələri ilə, yəni: xammal və materiallar, əməkhaqqı, sosial sığortaya ayırmalar, köməkçi istehsalatın xidməti, yanacaq, amortizasiyası, ümumtəsərrüfat və ümumistehsalat xərcləri üzrə aparılır.

Müasir uçot mexanizminin beynəlxalq standartlara müvafiq olaraq keçirildiyi mövcud vəziyyətdə neftmaşınqayırma müəssisələrində istehsal məsrəflərinin uçotu və məhsulun (iş və ya xidmətin) maya dəyərinin kalkuliyasiyasının təkmilləşdirilməsi ən mühüm məsələlərdən biridir. Bütün bunları nəzərə alaraq respublikamızda xarici ölkələrin uçot təcrübəsindən istifadə olunması və mövcud uçot sisteminin təkmilləşdirilməsi sahəsində tədbirlər sistemi işlənib hazırlanmalıdır. Hal-hazırda bu sahədə xarici ölkələrin təcrübələrinin və beynəlxalq standartlara cavab verən bəzi uçot sistemlərinin müasir modeli hazırlanmaqdadır. Bu isə bir daha göstərir ki, istehsal məsrəfləri uçotu və məhsulun maya dəyərinin kalkuliyasiyası mühasibat uçotu sistemində çox mühüm rola malikdir. Beləliklə, hazırda istehsal məsrəfləri uçotu üçün daha optimal variantın seçilməsi, məhsulun maya dəyərinin daha real müəyyən edilməsi və qiymət-

ləndirilməsi üçün görülmüş və görüləcək işlər mühasibat uçotu sistemində bu sahəyə verilən mühüm yeri ifadə edir.

Ölkə iqtisadiyyatı və iqtisadiyyatın başlıca sahələrinin inkişaf etməsində emal sənayesi müəssisələri olduqca mühüm bir rola malikdir. Ancaq aparılan təhlillərdən görmək olar ki, 2016-cı ildə respublikamızda emal sənayesində fəaliyyət göstərən müəssisələrdə istehsal olunan məhsulların payı ölkənin sənaye sahələri üzrə istehsal olunan məhsulların tərkibində 22,9 % təşkil edə bilib. Neft məhsullarının istehsalının ümumi həcmi isə 8,1% olaraq qeydə alınmışdır. Bu göstəricilər isə əvvəlki illərə nisbətən eniş yaşamışdır. Emal sənayesinə daxil olan, hal-hazırda bu sahədə ən yüksək xüsusi çəkiyə malik olan, neftçıxarma və digər məqsədlər üçün maşın və avadanlıqların istehsalı ilə məşğul olan neftmaşınqayırma müəssisələrində istehsal potensialı üzrə təhlil apardıqda, mövcud sahədə yaranmış problemləri daha aydın şəkildə görmək mümkündür. Beləliklə, keçmiş SSRİ dövrünə nəzər yetirsək görərik ki, neftmaşınqayırma müəssisələrində istehsal olunan məhsullar ümumi daxili məhsulun 15-21%-ni təşkil edirdisə müasir şəraitdə neftmaşınqayırma müəssisələrinin istehsal potensialının ÜDM-da xüsusi çəkisi 0,5 – 3 %-ə qədər düşmüşdür. Mülkiyyət növlərinə görə neft məhsulları istehsal edən müəssisələrin 2011-ci ildə sayı 8 idisə 2016-cı ildə bu müəssisələrin sayı 3 olmuşdur.

Əliyev R.S., magistrant
Bakı Biznes Universiteti

İNFLYASİYA ŞƏRAİTİNDƏ MATERİAL EHTİYYATLARININ MAYA DƏYƏRİNİN ÖLÇÜLMƏSİ (LİFO VƏ FİFO METODLARI ÜZRƏ ANALİZ)

Materiallar hal-hazırda satın alınmanın həqiqi maya dəyəri, satınalma qiymətləri ilə qiymətləndirilir. Materialların satın alınmasının həqiqi maya dəyəri ilə qiymətləndirilməsi onların əldə olunmasına çəkdiyi bütün xərcləri özündə əks etdirdiyindən ölkəmizin mühasibat uçotu sistemində daha geniş yayılmışdır. Mühasibat uçotunun qüvvədə olan hesablar planındakı bəzi hesablar vasitəsilə materialları müxtəlif üsullarla qiymətləndirmək mümkündür. Bu üsullar, mövcud olan materialların bazar qiymətlərinin dəyişilməsi ilə əlaqədar əmələ gələn fərqləri həm uçotda və həm də hesabtda qeydə almağa imkan yaradır.

Mühasibat uçotunun beynəlxalq təcrübəsində material sərfinin FİFO, LİFO və Orta maya dəyəri metodları ilə qiymətləndirilməsindən istifadə olunur. FİFO metodu zamanı istehsalat ehtiyaclarına materiallar birinci partiyanın və ardıcıl olaraq sonrakı partiyaların qiymətləri ilə buraxılır. Başqa sözlə, partiyalar üzrə tədarük olunmuş materiallar ayrı-ayrılıqda satınalma qiyməti ilə qiymətləndirilir və həmin qiymətlərlə də ardıcıl surətdə istehsalat ehtiyyatlarına silinir. Qiymətləndirmə qaydası daxil olan material partiyalarının sərf olunmasının həqiqi ardıcıllığından asılı deyildir.

LİFO metodu zamanı «materialların sonuncu partiyası mədaxil olunur, birinci partiyası isə məxaric olunur» - prinsipindən istifadə olunur. Başqa sözlə, anbardan buraxılan materiallar sonuncu satınalma qiyməti ilə, daha sonra sonuncudan əvvəlki qiymətlərlə və i.a. qiymətləndirilir. Belə hallarda materialların həqiqi və sərf olunma dəyərləri bir-birindən fərqlənə bilər.

FİFO metodundan istifadə olunması material ehtiyyatlarının dəyər axınını onların fiziki axınına maksimum yaxınlaşdırır. Bu metodun tədbiqi nəticəsində material ehtiyyatlarının son qalığının məbləği onların cari bazar qiymətlərinə yaxınlaşır, satılan malın maya dəyəri isə aşağı düşür, bu da öz növbəsində, xalis mənfəətin məbləğini artırır.Təcrübədə, bu metoddan istifadə materialların qiymətində dəyişmə az olan, istehsal vaxtı çox da böyük olmayan, eləcə də materialların alınması və əldə edilməsi, həmçinin onların istehsalata buraxılışı prosesi təkrar edilməyən hallarda məqsədəuyğun sayılır. Bu metodun nöqsan cəhəti həddindən artıq əməktutumlu olması və buraxılan məhsulun maya dəyərində ayrı-ayrı tarixlərdə istehsalata buraxılan bir partiyadan olan materialların qiymətinin fərqlənməsi səbəbindən kənərlaşmaların səviyyəsinin dəyişməsi hesab edilir.

LİFO metodu qiymətlərin yüksəlməsi şəraitində müvəffəqiyyətlə tədbiq edilir. Bu zaman istehsalata buraxılan xammal və materiallar cari bazar qiymətləri ilə qiymətləndirilir və son nəticədə satılan məhsulun maya dəyəri daha real müəyyən olunur, alınan xalis mənfəətin həcmi azalır. Adətən qiymətlərin qalxdığı dövrdə dəyər artıqlığından müəssisə LİFO metodundan birmənalı istifadə etməyə meylli olur və buna görə də, anbarda olan material ehtiyyatlarının dəyəri və fəaliyyətin son nəticəsi azalır. Qiymətlər aşağı düşdükdə vəziyyət əksinə olur. Yəni, LİFO metoduna nisbətən FİFO metodunu tədbiq etdikdə müəssisə daha cox gəlir əldə edir.

Misal 1:

“ABC” zavodu 2010—cu ilin iyul ayında qiymətlərin artdığı şəraitdə müxtəlif qiymətlərlə 5000 kq olmaqla şaftalı almış və avqust ayının əvvəlinə 4000 kiloqramını istehsalata buraxmışdır.

Materialın adı	**Alınma tarixi**	**Ölçü vahidi**	**Miqdar**	**Qiyməti (manatla)**	**Məbləği (manatla)**
Şaftalı	05.07.2010	kq	500	2.5	1250.00
Şaftalı	10.07.2010	kq	1000	2.7	2700.00
Şaftalı	15.07.2010	kq	2000	3.0	6000.00
Şaftalı	25.07.2010	kq	1500	3.1	4650.00
31.07.2010 tarixinə qalıq			5000		14 600.00
İstehsalata buraxılıb		kq	4000		

İstehsalata buraxılan şaftalının maya dəyərini həm LİFO, həmdə FİFO metodu ilə hesablasaq;

1) FİFO üsulu ilə hesablayaq;

500*2.5 + 1000 * 2.7 + 2000* 3.0 + 500 * 3.1 = 11 500 manat

Ayın sonunda material qalıq məbləği = 14600.0 – 11500.0 = 3100.0 manat

2) LİFO üsulu ilə hesablayaq;

1500.0*3.1 + 2000*3.0 + 500*2.7 = 12 000.0 manat

Ayın sonunda material qalıq məbləği = 14600.0 –1200.0 = 2600 manat

Misal 2:

"ABC" zavodu 2010—cu ilin iyul ayında qiymətlərin azaldığı şəraitdə müxtəlif qiymətlərlə 5000 kq olmaqla şaftalı almış və avqust ayının əvvəlinə 4000 kiloqramını istehsalata buraxmışdır.

Materialın adı	**Alınma tarixi**	**Ölçü vahidi**	**Miqdar**	**Qiyməti (manatla)**	**Məbləği (manatla)**
Şaftalı	05.07.2010	kq	500	3.1	1550.00
Şaftalı	10.07.2010	kq	1000	3.0	3000.00
Şaftalı	15.07.2010	kq	2000	2.7	5400.00
Şaftalı	25.07.2010	kq	1500	2.5	3750.00
31.07.2010 tarixinə qalıq			5000		13 700.00
İstehsalata buraxılıb		kq	4000		

1) FİFO üsulu ilə hesablayaq;

500*3.1 + 1000 * 3.0 + 2000* 2.7 + 500 * 2.5 = 11 200 manat

Ayın sonunda material qalıq məbləği = 13 700.0 – 11200.0 = 2 500.0 manat

2) LİFO üsulu ilə hesablayaq;

1500.0*2.5 + 2000*2.7 + 500*3.0 = 10 650.0 manat

Ayın sonunda material qalıq məbləği = 13 700.0 –10 650.0 = 3 050.0 manat

Hər iki variantın təhlili nəticəsində yuxarıda qeyd etdiyimiz nəticəyə varmaq olar. Belə ki, qiymətlərin artması şəraitində FİFO metodundan istifadə müəssisənin gəlirlərini artıra bilər, qiymətlərin azaldığı şəraitdə isə LİFO metodu müəssisəyə daha çox gəlir gətirir.

Göründüyü kimi, FİFO və LİFO metodlarının müsbət və mənfi cəhətləri vardır. Sözsüz ki, bu metodlardan birinin tədbiqi müəssisənin maliyyə nəticələrinə, müəssisənin balans və "mənfəət və zərərlər" haqqında hesabatının tərtibinə əsaslı surətdə təsir göstərəcək. Məhz bu baxımdan, müəssisələr material resuslarının qiymətləndirilməsində həm cəmiyyət, həm də müəssisə üçün daha səmərəli olan metodu seçməlidirlər.

Emçiyev A.H., magistrant
Bakı Biznes Universiteti

KOMMERSİYA BANKLARINDA DAXİLİ AUDİT FƏALİYYƏTİNİN TƏNZİMLƏNMƏSİ VƏ NORMATİV HÜQUQİ BAZASI

XXI əsrdə bank bazarı infrastrukturunda ən vacib və zəruri elementlərdən biri də bank auditini həyata keçirən subyektlərdir. Bank sisteminin adudit prosesi ilə məşğul olan auditor firmaları ölkədə bank sisteminin normal fəaliyyət göstərməsi, bu sistemin maliyyə cəhətdən gücləndirilməsi, dayanıqlığının möhkəmləndirilməsi, fəaliyyətinin təkmilləşdirilməsi və dünya bank sisteminə uyğunlaşmasını təmin edir.

Bank sistemi digər sistemlərdən özünəməxsus xüsusiyyətlərinə görə fərqlənir. Bu baxımdan, bank auditi də özünəməxsus xüsusiyyətlərə malikdir. O aid olduğu sistemin, bütövlükdə onun strukturlarının xüsusiyyətlərini özündə əks etdirir.

Hər bir ölkədə kommersiya banklarının auditinin özünəməxsus xüsusiyyətləri vardır. Bu hər şeydən əvvəl kommersiya banklarının auditi sistemi onun yaranma tarixi, kökləri, şəraiti, qanunvericilik bazası, tətbiq mexanizmi, fəaliyyət qaydaları və başqa amillərdən asılıdır.

Qeyd edildiyi kimi auditin mühüm əhəmiyyət kəsb edən, özünəməxsus xüsusiyyətlərə malik növlərindən biri bank auditidir. Kommersiya banklarında auditin məqsədi kommersiya bankının mühasibat (maliyyə) hesabatının düzgünlüyünün yoxlanılması, kommersiya bankları tərəfindən aparılan əməliyyatların ölkədə qüvvədə olan qanunvericiliyin tələblərinə uyğunlaşdırılmasının təmin olunmasıdır.

Kommersiya banklarının fəaliyyətinə nəzarət zərurəti bank sisteminin bazar iqtisadiyyatı şəraitindəki fəaliyyət xüsusiyyətlərindən yaranır. Banklar hüquqi və fiziki şəxslərin sərbəst pul vəsaitlərini cəlb edərək, onları daha səmərəli, məqsədyönlü və məhsuldar istifadə üçün digər fiziki və hüquqi şəxslərə müəyyən şərtlərlə verir. Banklar müasir ictimai həyatın infrastrukturunun mühüm elementlərindən biri olduğuna və iqtisadiyyatda çox mühüm funksiyaları yerinə yetirdiyinə, həmçinin iqtisadiyyatın sabit inkişafının daha çox bu sistemdən asılı olduğuna görə onun fəaliyyəti üzərində daimi nəzarət olmalıdır.

Kommersiya banklarında daxili audit prosesini özünəməxsus əlamətlərinə görə aşağıdakı kimi təsnifləşdirmək olar:

- Auditin aparılması üsuluna görə:

a) məcburi audit; b) könüllü audit.

Məcburi audit respublikamızda nəzərdə tutulan hallarda həyata keçirilir. Azərbaycan Respublikasının Mərkəzi Bankının yoxlanması "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında Azərbaycan Respublikasının qanunu"nun 42-ci maddəsinə əsasən aparılır.

Azərbaycanda kommersiya banklarının auditi "Azərbaycan Respublikasında banklar və bank fəaliyyəti haqqında Azərbaycan Respublikasının qanunu"nun 50-ci maddəsinə əsasən həyata keçirilir. Bu maddədə göstərilir ki, kommersiya bankının illik maliyyə – təsərrüfat fəaliyyəti ancaq onun seçdiyi, yaxud lazımi hallarda Mərkəzi Bankın təyin etdiyi auditor tərəfindən yoxlanmalı və yoxlamanın nəticələri Mərkəzi Banka bildirilməklə, Milli Bankın müəyyənləşdirdiyi forma və müddətlərdə illik balans, mənfəət və zərər barədə hesabat mətbuatda dərc etdirilməlidir.

Аббасова Г.Б., магистрант
Бакинский Университет Бизнеса

ПРОБЛЕМЫ ПОВЫШЕНИЯ ЭФФЕКТИВНОСТИ ВНУТРЕННЕГО АУДИТА

Müstəqil, demokratik, unitar dövlət çərçivəsində daim inkişafda olan Azərbaycanda yerli (bələdiyyə) büdcələrinin yaradılması, təşəkkül tapması obyektiv zərurətdir. Yerli büdcənin mahiyyətini anlamaq üçün ilk növbədə bələdiyyələrin yaranmasının səbəblərini araşdırmaq lazımdır. İstər sosial, istərsə də iqtisadi problemlərin böyük bir qismi hökumət səviyyəsində onun əsas maliyyə fondları hesab edilən dövlət, büdcədən kənar fondların büdcəsi vasitəsi ilə maliyyələşdirilir. Lakin, təcrübə göstərir ki, heç də bütün problemlər hökumək səviy-yəsində həll edilə bilmir və həll edilməsi qeyrimümkündür. Bunun əsaslı səbəbləri vardır. Misal üçün, fərz edək ki, kiçik bir qəsəbədə 1000 nəfər əhali yaşayır. Bu insanların gündəlik istifadə etdikləri iki yol vardır və bu yolların ümümi uzunluğu təxminən iki kilometrdir. Lakin, bu yolun təmirə ehtiyacı var. Bu halda həmin yolun təmiri ilə bağlı yüksək instansiyalara müraciət edilməsi zərurəti yaranır. Lakin, daha yüksəkdə olan şəxslərin daha effektiv hesab edilən iki yox min kilometr uzunluğu olan və yüz minlərlə insana xidmət edəcək yolun təmirində maraqlı olmasıdır. Göstərilən misaldan aydın olduğu kimi hökumət cəmiyyət üçün daha artıq effekt və marjinal fayda verə biləcək tədbirlərin maliyyələşdirilməsində daha maraqlıdır. Kiçik bir qəsəbənin problemlərinin həlli üçün həmin ərazidə fəaliyyət göstərə biləcək yerli instuta ehtiyac var. Deməli bir müddətdən sonra idarəetmə funksiyalarının bir qismi mərkəzi hökumətdən alınaraq yeni, cəmiyyətə daha yaxın olan və lokal səviyyədə problemlərin həllinə məsul ola biləcək yerli özünuidarəetmə orqanlarına verilməlidir. Bu proses desentralizasiya adlanır.

Azərbaycanda həyata keçirilən əsas demokratik islahatların həlqələrindən biri də bələdiyyə-lərin formalaşmasıdır. Həmçinin bələdiyyələrin formalaşması ilə bərabər "Bələdiyyələrin maliyyəsi haqqında" və digər qanunlar, eləcədə, hüquqi sənədlərin qəbul edilməsi bələdiyyələrin müstəqil özünüidarəetmə qurumu kimi fəaliyyət göstərməsi, həmçinin yerli əhəmiyyətli məsələləri həll etmək iqtidarında olması üçün mühüm əhəmiyyət kəsb edir. Bələdiyyələrin fəaliyyətinin həyata keçirilməsində onların maliyyə mənbələrinin müəyyən edilməsi çox mühüm əhəmiyyətə malikdir. Bu səbəbdən 1999-cu ildə "Bələdiyyələrin maliyyəsi haqqında" Azərbaycan Respublikasının qanunu qəbul olunmuşdur.

Qeyd etdiyimiz kimi, bələdiyyələrin fəaliyyəti, mövcud problemləri və həmçinin qoyulmuş vəzifə, tapşırıqların həyata keçirilməsi üçün maliyyə resurlarına ehtiyacı vardır. Bələdiyyə büdcəsi gəlirlərdən və xərclərdən ibarətdir. Bələdiyyə büdcələri xüsusi və tənzimləyici gəlirlər hesabına formalaşır. Bunu aşağıdakı sxemdə daha aydın görə bilərik.

Yerli büdcələrin xüsüsi və tənzimləyici gəlirlərinin umui sxemi



Bələdiyyələrin maliyyə əsasları haqqında" Azərbaycan Respublikasının qanunun 7-ci maddəsinə əsasən ümumilikdə yerli büdcənin gəlirləri vergili və qeyri-vergili gəlirlərdən formalaşır. Yerli vergilərdən başqa qanunvericiliyə uyğun olaraq bələdiyyə büdcələrinin gəlirlərinə bəzi yerli ödənişlər də əlavə edilmişdir. Bu ödənişləri yerli vergilərdən fərqləndirən cəhət onların əvəzsiz olmasıdır.

Azərbaycan Respublikasında yerli vergilərə Vergi Məcəlləsinin və "Yerli vergilər və ödənişlər haqqında" qanunun 8-ci maddələrinə müvafiq olaraq aşağıdakı vergi növləri aid edilmişdir:

- fiziki şəxslərdən torpaq;
- fiziki şəxslərdən əmlak;
- yerli əhəmiyyətli tikinti materiallan (kərpic-kirəmit gilləri, tikinti qumları, yüksək möhkəmliyə malik olan çınqıl xammalı) üzrə mədən;
- bələdiyyə mülkiyyətində olan şəxslərin əmlak vergisi.

Torpaq vergisi torpaq mülkiyyətçisi, həmçinin istifadəçilərin təsərrüfat fəaliyyətinin nəticəsindən asılı olmayaraq torpaq sahəsinə görə hər il sabit tədiyyə şəklində hesablanılır. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş, istifadə xüsusiyyətlərinə görə bələdiyyə torpaqları hüquqi və fiziki şəxslərin qanuni istifadəsində, eləcədə icarəsində olan torpaqlara, habelə ehtiyat fondu torpaqlarına bölünür. Azərbaycan Respublikasında torpaqdan istifadəyə görə fiziki şəxslər torpaq vergisini bələdiyyə büdcəsinə ödəyirlər. Bələdiyyə mül-kiyyətində olan müəssisə və təşkilatların mənfəət vergisinin yerli büdcəyə alınması Vergi Məcəl-ləsinin "hüquqi şəxslərin mənfəət vergisi" fəslinə uyğun həyata keçirilir. Belə ki, burada vergi obyekti bələdiyyə

mülkiyyətində olan hüquqi şəxslərin gəliri ilə, gəlirdən çıxan xərc arsındaki fərq olan mənfəətdir.

Respublikamızın ərazisində xüsusi mülkiyyətində tikili və hava, su nəqliyyatı olan, həmçinin harada yerləşməsindən, istfadə olunub-olunmamasından asılı olmayaraq fiziki şəxslər yerli büdcələrə (bələdiyyələrə) əmlak vergisi ödəyirlər.

Bir başqa bələdiyyə vergisi mədən vergisidir ki, bu vergi ödəyiciləri bələdiyyə ərazisində, eləcədə mülkiyyətində olan torpaq sahələrində yerin təkindən tikinti materialları çıxaran fiziki şəxs və müəssisələrdir.

2016-cı il üzrə vergi və ödənişlərdən bələdiyyə büdcələrinə daxilolmaları aşağıdakı cədvəl-dən görmək mümkündür.

Yerli vergilər və ödənişlərin yığılmasına, yerli büdcələrə köçürülməsinə bələdiyyələrin müvafiq komissiyaları tərəfindən, həmçinin yerli vətəndaşların yığıncaqlarda təklif olunan və bələ-diyyə iclasında təsdiq olunan komissiyaları tərəfindən həyata keçirilir.

Əsas vəzifə və funksiyası yerli əhaliyə xidmət göstərmək olan bələdiyyələrin öz vəzifələrini yerinə yetirməsi onun maliyyə vəziyyəti ilə birbaşa əlaqədardır. Bələdiyyələrin gəlir mənbəyi əsas hərəkətverici qüvvədir və bu mənbənin olmaması və ya zəyif olması bələdiyyələrin fəaliyyətinə ən ciddi təsir göstərən amillərdəndir.

Məlumdur ki, yerliözünüidarəetmələrin büdcə sisteminin vəziyyəti bir sıra mənfi xüsusiyyətlərlə xarakterizə olunur. Bu hər şeydən əvvəl, vergi sayının nisbətən çox olmasına baxmayaraq, çətin yığılan və büdcəyə olduqca az gəlir gətirən, eyni zamanda hesablanması və toplanması üçün əhəmiyyətli təşkilati-hüquqi səylərin göstərilməsini tələb edən vergilərdir. Hal-hazırda bələdiyyələ-rə verilmiş vergi növləri bələdiyyə büdcələrinin müstəqilliyi üçün normal gəlir bazası formalaşdıra bilmir. Yerli vergilərin bələdiyyə büdcələrinin əsas gəlir mənbəyi olması və yalnız gəlir bazasının formalaşdırılmasının yardımçı mənbəyi kimi qəbul olunması isə heç vaxt yerli özünüidarəetmələrin həqiqi müstəqilliyinə gətirib çıxara bilməz.

Yerli büdcələrin öz gəlirlərindən danışdıqda, ilk növbədə, yerli vergilər nəzərdə tutulur. Bu baxımdan yerli büdcələr üçün torpaq vergisi xüsusi əhəmiyyət kəsb edir. Lakin yalnız fiziki şəxslərdən deyil, həm də bələdiyyə ərazisində yerləşən hüquqi şəxslərdən də torpaq vergisinin bələ-diyyələrə verilməsi yerli büdcələrin gəlir bazasını xeyli yaxşılaşdırardı.

Dünya praktikasında yerli vergilər arasında əmlak vergisinin çox böyük əhəmiyyəti vardır. Bu səbəbdən əmlak vergisinin (fiziki və hüquqi şəxslərdən) bələdiyyərə verilməsi, bələdiyyələrin gəlir mənbələrinin təkmilləşdirilməsinə gətirib çıxaracaqdır, bu mənada məsələyə yenidən baxılma-lıdır. Həmçinin fiziki şəxslərin gəlir vergisinin bütövlükdə bələdiyyələrə verilməsi, daha məqsədəuyğundur.

Sadalananlarla yanaşı, bələdiyyə ərazisində yerləşən müəssisələrin mənfəət vergisindən müəyyən ayırmalar da bələdiyyə büdcələrinə verilə bilər. Ümumilikdə isə müəyyən qanun çərçivəsində yerli özünüidarəetmələrə yerli vergilərin dərəcələrini müstəqil müəyyənetmə hüququ verilə bilər.

Алекберов С.Р., магистрант
Бакинский Университет Бизнеса

ПУТИ АКТИВИЗАЦИИ БАНКОВСКОГО ИНВЕСТИЦИОННОГО КРЕДИТОВАНИЯ РЕАЛЬНОГО СЕКТОРА ЭКОНОМИКИ

В соответствии с объектом вложения средств можно выделить вложения в реальные экономические активы (реальные инвестиции) и вложения в финансовые активы (финансовые инвестиции). Банковские инвестиции могут быть также дифференцированы и по более частным объектам инвестирования: вложения в инвестиционные кредиты, срочные депозиты, паи и долевые участия, в ценные бумаги, недвижимость, драгоценные металлы и камни, предметы коллекционирования, имущественные и интеллектуальные права и др.

В зависимости от цели вложений банковские инвестиции могут быть прямыми, направленными на обеспечение непосредственного управления объектом инвестирования, и портфельные, не преследующие цели прямого управления инвестиционным объектом, а осуществляемые в расчете на получение дохода в виде потока процентов и дивидендов или вследствие возрастания рыночной стоимости активов.

По назначению вложений можно выделить инвестиции в создание и развитие предприятий и организаций и инвестиции, не связанные с участием банков в хозяйственной деятельности. По источникам средств для инвестирования различают собственные инвестиции банка, совершаемые за его собственный счет, и клиентские, осуществляемые банком за счет и по поручению своих клиентов. По срокам вложений инвестиции могут быть краткосрочными (до одного года), среднесрочными (до трех лет) и долгосрочными (свыше трех лет). Инвестиции коммерческих банков классифицируют также по видам рисков, регионам, отраслям и другим признакам. Инвестиционный кредит выступает как форма предоставления долгосрочной ссуды на условиях платности, срочности и возвратности, при которой банк имеет право на возврат основной суммы долга и процентных платежей, но не приобретает права по совместной хозяйственной деятельности.

Вместе с тем этот вид кредитования имеет определенные отличия от других кредитных сделок, в числе которых специфика целевого назначения кредита, более длительный срок предоставления и высокая степень риска. Для уменьшения инвестиционных рисков коммерческие банки, осуществляющие инвестиционное кредитование, предъявляют заемщикам ряд дополнительных условий. Наиболее распространенными условиями являются следующие:

- приобретение контрольного пакета акций предприятия;
- обеспечение финансовыми гарантиями правительства, надежных банков;
- обеспечение высоколиквидным залогом;
- долевое участие.

Поскольку инвестиционный кредит выдается на длительные сроки, при оценке инвестиционных рисков в ходе рассмотрения кредитной заявки или

инвестиционного проекта важное значение имеет не только анализ текущей кредитоспособности заемщика и его кредитная история, но и учет динамики финансового состояния предприятия.

Вложения в доли, паи и акции в отличие от инвестиционного кредитования представляют собой такую форму участия банков в хозяйственной деятельности, при которой банки выступают как совладельцы уставного капитала предприятий и организаций и учредители (соучредители) компаний финансового и нефинансового характера.

В основе проектного кредитования заложена идея финансирования инвестиционных проектов за счет доходов, которые принесет создаваемое или реконструируемое предприятие в будущем. С помощью этих доходов обеспечивается организуемое банками финансирование и возвратность инвестиций. Данное направление банковской деятельности считается в мировой практике особенно актуальным для тех стран и регионов, которые нуждаются в расширении и модернизации производственных мощностей капиталоемких отраслей промышленности, таких как топливно-энергетический комплекс отрасли добывающей и перерабатывающей промышленности.

При проектном финансировании основным обеспечением предоставляемых банками кредитов является инвестиционный проект, т.е. те доходы, которые получит создаваемое или реконструируемое предприятие в будущем.

В реальной практике решение об использовании механизма проектного финансирования и участии в нем принимается кредиторами исходя из технической и экономической жизнеспособности предложенного проекта.

Pənahova N.N., magistrant
Bakı Biznes Universiteti

AZƏRBAYCANDA İPOTEKA SİSTEMİNİN REAL VƏZİYYƏTİNİN TƏHLİLİ VƏ TƏKMİLLƏŞDİRİLMƏSİ

Dəyişən dünyada sosial dövlət modeli XXI əsrdə bəşəriyyətin əsas inkişaf istiqamətlərindən biridir. Bu əsrdə dövlətlərin həyata keçirdiyi sosial-iqtisadi siyasətdə prioritet, vətəndaşlara yüksək həyat standartlarına uyğun yaşamaq şəraitinin təmin edilməsidir. Xüsusi qeyd etmək lazımdır ki, insanların yaşayış sahəsinə olan ehtiyacı kimi təməl haqqlarının müdafiəsi hökumət qarşısında dayanan əsas vəzifədir.

Beynəlxalq təcrübə onu göstərir ki, insanların mənzil şəraitinin yaxşılaşdırılması siyasətinin əsas iqtisadi aləti ipoteka kreditləri hesab edilir. Təsadüfi deyil ki, bəzi hallarda həyata keçirilən ipoteka siyasəti dövlətlərin sosiallıq səviyyəsinin qiymətləndirilməsində mühüm meyar hesab edilir. İpoteka kreditləşməsinin səviyyəsinin müəyyənləşdirilməsində istifadə edilən metodlardan biri olaraq kreditin bu növünün ümumi daxili məhsulda xüsusi çəkisinin ayrı-ayrı ölkələr üzrə göstəricilərinə diqqət etməklə Azərbaycanda olan real vəziyyəti qavramaq mümkündür. İpoteka kreditlərinin ÜDM-də xüsusi çəkisi Danimarkada 87.9%, Yeni Zelandiyada 78.2%, Avstraliyada 71%, keçmiş müttəfiqlərdən Litvada 14% olduğu halda Azərbaycanda bu göstərici

0.45%-dir. Təkcə bu fakt kifayət edir ki, hökumət ipoteka istiqamətində həyata keçirdiyi strategiyaya yenidən baxsın.

Nəzərə alsaq ki, Azərbaycanda maliyyə-bank bazarı, o cümlədən, ipoteka sistemi yenicə təşəkkül tapıb və bu sahədə kifayət qədər problemlər və nöqsanlar var, hökumətin ipoteka siyasətində ciddi dəyişiklər etməsi qaçılmazdır. Məhz bu səbəbdən Azərbaycanda ipoteka kreditləri, mahiyyəti və məqsədəuyğunluğu mövzusunda tədqiqatın aparılmasını əhəmiyyətli hesab etdik. Tədqiqatın məqsədi ipoteka kreditləşməsindəki nöqsanları və yaxud da ölkənin sosial-iqtisadi göstəricilərinə zidd məqamları ortaya çıxarmaq, beynəlxalq təcrübəyə əsaslanaraq daha münasib və ölkə reallığına uyğun sistemin formalaşdırılması üçün təkliflər irəli sürməkdir.

Mövzunun aktuallığını artıran digər səbəb əhalinin ipoteka kreditlərinə tələbatının yüksək səviyyədə olmasıdır. Çünki, ölkədə son 10 ildə daşınmaz əmlak bazarında qiymətlərin bir neçə dəfə artması və hazırkı mənzil qiymətlərinin real kommersiya maraqlarını əks etdirməməsi əhalinin mənzil probleminin daha da qabarmasına səbəb olub. Beləliklə, ölkədə ipoteka kreditləşməsində yeni və əhalinin sosial vəziyyətini ehtiva edən şərtlərin tətbiqi ictimai tələbə çevrilib. Tədqiqat zamanı

oxucuları maraqlandıran ipoteka şərtləri, onu əldə etməyin yolları, hüquqi prosedura qaydaları kimi informasiya xarakterli materiallar təqdim edilir. Bu vasitə ilə vətəndaşların daha geniş və səlis bilgilərlə maarifləndirilməsinə çalışılıb.

Səfərli H.Q., magistrant
Azərbaycan Dövlət İqtisad Universiteti

MALİYYƏ NƏZARƏTİNİN PREDMETİ VƏ OBYEKTİ

Maliyyə nəzarəti dövlətin maliyyə-iqtisadi siyasətinin həyata keçirilməsinə, maliyyə sabitliyi üçün şəraitin yaradılmasına, mövcud qanunvericiliyə əməl edilməsinə təminatın yaradılmasına, dövlət maliyyəsinin təyinatı üzrə və qənaətlə istifadə olunmasına, dövlət əmlakının qorunub saxlanmasına, büdcə və maliyyə intizamının pozulması hallarının aşkar olunmasına, dövlət vəsaitinin qanunsuz xərclənməsinin, habelə dövlət əmlakının mənimsənilməsi hallarının aşkar edilərək bərpa edilməsinə xidməti həyata keçirir.

1. Dövlət maliyyə vəsaitlərinin təyinatı üzrə səmərəli xərclənməsi, dövlət vəsaitinin formalaşmasında və xərclənməsində ehtiyyatların müəyyən edilməsi, dövlət büdcəsinə, büdcədənkənar dövlət fondlarına hesablanmış borcların vaxtında və tam ödənilməsi, habelə dövlət büdcəsinin gəlirlərinin artırılması üzrə ehtiyyatların aşkar edilməsi və bu işlərin xüsusi dövlət orqanları tərəfindən həyata keçirilməsi dövlət nəzarəti vasitəsilə təmin edilir.

Dövlət maliyyəsinin və onun əsas tərkib hissəsi olan dövlət büdcəsinin icrasına nəzarət, dövlətin təkcə mərkəzləşdirilmiş pul gəlirləri və xərclərinin uçotu, hesabatı deyil, dövlətin iqtisadi siyasətini reallaşdırmaq vasitələrindən biridir. Ölkədə aparılan iqtisadi islahatların strateji əsası büdcə gəlirləri və xərclərinin daha səmərəli idarə olunmasını mümkün edən dövlət maliyyə nəzarət sisteminin yaradılmasından, dövlət xərclərinin mövcud qanunvericiliyə uyğun olaraq maliyyə

nəzarəti vasitəsilə yoxlanılmasından, iqtisadiyyatın inkişafının mümkün yollarının araşdırılmasından və bu sahədə daim mütərəqqi təkliflərin hazırlanmasından ibarət olmalıdır.

Müasir şəraitdə dünya iqtisadiyyatı ildən-ilə öz fəaliyyətini yeniləşdirir və bütün bu inkişaf bazar münasibətlərinin mövcudluğu ilə şərtlənir. Ona görə də dünyanın qeyri-bazar inkişaf yolunu tutmuş ölkələr indi öz iqtisadi sistemlərini dəyişərək bazar iqtisadiyyatına keçirlər. Bazar iqtisadiyyatı sistemində isə maliyyə nəzarəti çox mühüm yer tutur. Dövlət maliyyə nəzarətinin təkmilləşdirilməsi ilk növbədə, bu nəzarətin ən müasir formasının təşkili və fəaliyyətinin təmin edilməsi, nəzarət sisteminin əlaqələndirilməsi, onun təsirinin və səmərəliliyinin artırılması nəzərdə tutulur.

İnkişaf etməkdə olan respublikamız dünya təsərrüfatında iqtisadi əlaqələrin dərinləşdirilməsi, beynəlxalq iqtisadi inteqrasiyanın sürətləndirilməsi və genişləndirilməsi, ölkədə sahibkarlığın inkişafı məqsədilə beynəlxalq hesablaşma formalarını, eləcə də maliyyə-kredit münasibətlərini daha da təkmilləşdirir və inkişaf etdirir. İqtisadiyyatın bütün sahələrində olduğu kimi, dövlət maliyyəsi sferasında da iri miqyaslı islahatlar öz müsbət nəticələrini verməkdədir.

2.Maliyyə nəzarətinin predmeti sözün geniş mənasında, həm təkrar istehsalın bütün mərhələlərini və idarəetmənin səviyyələrini və həm də sözün qısa mənasında, yəni dövlət büdcəsini əks etdirir.

- Birinci halda, maliyyə nəzarətinin predmeti cəmiyyətdə istehsal münasibətlərini əks etdirən iqtisadi subyektlərin istehsal, bölgü və məhsul mübadiləsi prosesində əmələ gələn maliyyəsidir.

- İkinci halda maliyyə nəzarətinin predmeti dövlət büdcəsinin həm onun formalaşması mərhələsində, həm də onun bölüşdürülməsi və istifadəsi mərhələlərində konsalidasiya olunmuş vəsaitləridir.

Maliyyə nəzarəti obyektinin müəyyən edilməsi mübahisəli məsələlərdən biridir.

S.P.Opyonişev və V.A.Jukov qeyd edirlər ki, dövlət maliyyə nəzarətinin mahiyyəti və yeri haqqında danışarkən onun həyata keçirilməsində müəssisə, təşkilat, bank, səhmdar cəmiyyətləri və s. yəni sahibkarlıq edən subyektlərin rolunun araşdırılmasına ehtiyac duyulur.

Və bu səviyyədə dövlət maliyyə nəzarəti maliyyə-təsərrüfat nəzarəti əlamətləri əks etdirir, yəni o təkcə sırf maliyyə deyil, hətta bəzi hallarda vergi hesablanmasının düzgünlüyünü, istehsalatın səmərəliliyini və büdcə vəsaitlərinin istifadə səmərəliliyini müəyyən etmək üçün təsərrüfat fəaliyyətini də əhatə edir.

Bununla bağlı ***maliyyə nəzarətinin obyekti -təsərrüfat prosesləri kompleksi, maddi istehsal və qeyri - istehsal sahələrinin pul münasibətləri*** olur. Maliyyə nəzarətində, onun belə anlamında həyata keçirilməsinin iki aspekti ön plana çəkilir:

- birincisi, pul vəsaitlərinin və maddi dəyərlərin qorunmasının, qeydiyyat və hesabat məlumatlarının etibarlılığının təmin olunması, dövlət maliyyə intizamına riayət edilməsi.

- ikincisi, müəssisələrin fəaliyyətinin düzgün qiymətləndirilməsi, istehsalatın intensivləşmə və təsərrüfatçılığın effektliyinin yüksəldilməsi ehtiyyatlarının aşkar edilməsi.

Başqa sözlə desək, maliyyə nəzarətinin obyekti büdcə vəsaitlərinin tam səfərbər edilməsi ilə əlaqədar ərazi, sosial və sahə baxımından, milli gəlirin bir hissəsinin yenidən paylaşdırılması və dövlətin öz funksiyasını yerinə yetirməsi məqsədi ilə onun səmərəli istifadə olunması üçün, hüquqi və fiziki şəxslər arasında yaranan pul münasibətləridir.

S.V.Stepaşin "Dövlət maliyyə nəzarəti" əsərində maliyyə nəzarətinin obyekti kimi milli gəlirin istehsalı, bölüşdürülməsi və onun səmərəli istifadəsinə dair, bir tərəfdən dövlət, digər tərəfdən hüquqi və fiziki şəxslər arasında yaranan münasibətlər kimi müəyyən edir.

A.V.Nesterovun fikrincə yoxlama obyektinə aşağıdakılar aid ola bilər:

- əraziyə və otaqlara baxış keçirilməsi məhsulun qeydiyyata alınması, qeydiyyata alma və hesabat sisteminin yoxlanılması, maliyyə-təsərrüfat fəaliyyətinin təftiş olunmasının müəyyən edilməsi və ya keçirilməsi yolu ilə öyrənilə bilən hüquqi şəxslərin və ya fərdi sahibkarların təsərrüfat və ya digər fəaliyyəti;
- istehsal, istismar, saxlanma, daşınma, realizə edilmə və köhnəlmə prosesləri;
- yoxlanılmasına və tədqiqinə məruz qala bilən əşyalar, məsələn, məhsul, tullantılar, ətraf mühitin təbii nümunələri;
- şəxsi yoxlamaya və yaxud fərdi yoxlamaya məruz qala bilən subyektlər, məsələn, fiziki və yaxud vəzifəli şəxs.

Avşar R., magistrant
ATMU

TURİZM BAZARININ İNKİŞAFININ MÜASİR VƏZİYYƏTİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

Turizm sferasında bazar münasibətlərinin inkişafı Azərbaycanda bir-biri ilə rəqabət aparmaqla turizm bazarını tədricən doldurmuş, çoxlu sayda turizm firmalarının yaranmasına gətirib çıxarmışdır. Məhz bu səbəbdən yalnız bazarın özü qədər dinamik surətdə dəyişmək iqtidarında olan firma müvəffəqiyyət qazana bilər. Söhbət yaradılan məhsul yaxud xidmətlər bazarının yaxşı tanış olan formalaşma prosesindən bir o qədər də getmir, yəni məsələnin mahiyyəti təkcə fəal marketinqdə deyil, daha çox firmanın inkişafının marketinq fəlsəfəsinə söykənən idarə edilməsində və özünü inkişaf etdirməyə imkan verən mexanizmlərin əmələ gəlməsindədir.

Turizm bazarı turizm məhsulunun istehsalçıları və istehlakçıları arasında iqtisadi münasibətlərin təzahür sferası qismində çıxış edir. Turizm məhsulunun hər bir istehsalçısı və istehlakçısı öz iqtisadi maraqlarına malikdir və həmin maraqlar üst-üstə düşməyə bilər, lakin hətta onların üst-üstə düşməsini müşahidə etmək mümkündürsə, bu turizm məhsulunun alqı-satqı aktının baş tutması ilə müşayiət olunur.Odur ki, bazar

– istehsalın və istehlakın təqib etdikləri maraqların uyğunlaşdırılmasında xüsusiyyət təşkil edən bir alətidir və bu alət müəyyən bir turizm təsərrüfat subyekti (turoperatoru, turagenti) üçün istehlakçılar məcmusundan ibarətdir ki, onlar həmin turizm təsərrüfat subyektinin təklif etdiyi turizm məhsulunda maraqlıdır və onun bu gün, yaxud sabah əldə edilməsi üçün kifayət edə biləcək məbləğdə pul vəsaitlərinə malikdir.

Turizm sənayesinə daxil olmayan, lakin turizm bazarının vəziyyətinə əhəmiyyətli dərəcədə təsir göstərən subyektlərin birləşdiyi dördüncü qrupunu da qeyd edə bilərik.İlk növbədə bunlar turizm sənayesinin inkişafının normativ-hüquqi və iqtisadi şəraitini yaradan dövlət orqanlarıdır (nazirliklər, komitələr, departamentlər, viza rejimini və turistlərin giriş və çıxışının digər şərtlərini tənzimləyən diplomatik nümayəndəliklər), ictimai təşkilatlar (ittifaqlar və assosiasiyalar), turizm sferası üçün kadrların hazırlığı ilə məşğul olan tədris müəssisələri və bu kimi digər qurum və təşkilatlardır.

Beləliklə, etiraf etmək lazımdır ki,hazırki dövrdə giriş turizminin əsasını biznes-turizm təşkil edir, yəni bu gün xarici vətəndaşlar diqqətəlayiq yerlərlə tanış olmaq, yaxud sağlamlıqlarını bərpa etmək məqsədilə deyil, daha çox işgüzar və biznes məqsədlərilə bizim ölkəyə təşrif buyururlar. Azərbaycana şəxsi məqsədlərlə yollanan vətəndaşlara gəldikdə isə, respublikamıza daxil olan insanların ümumi miqdarında onların xüsusi çəkisi 2012-ci ildə 10,9%, 2016-ci ildə isə 11,3% təşkil etmişdir.

Azərbaycana 2016-ci ildə daxil olmuş turistlərin böyük əksəriyyəti hava nəqliyyatı vasitəsilə ölkəmizə gəlmişlər və bu nəqliyyat növünün ümumilikdə bütün nəqliyyət növləri arasında xüsusi çəkisi 51,8 faizə bərabər olmuşdur, ancaq onu da qeyd etmək yerinə düşərdi ki, 2012-ci ildə də hava nəqliyyatının xüsusi çəkisi cəmi 38,1% təşkil etmişdir.Bununla yanaşı, avtomobil nəqliyyatından istifadə etməklə Azərbaycana daxil olmuş turistlərin xüsusi çəkisi 2012-ci ildə qeydə alınmış 35,9% göstəricidən əhəmiyyətli dərəcədə aşağı düşərək 2016-ci ildə 31,2-ə bərabər olmuşdur. Bu onunla əlaqədardır ki, qeyd etdiyimiz dövr ərzində sərnişin aviadaşımalarında biletlərin qiymətlərində kəskin ucuzlaşma qeydə alınmışdır.Əgər 2012-ci ildə Moskva-Bakı aviareysi ilə uçan təyyarəyə bilətlərin qiyməti 120-180 manat civarında dəyişirdisə, artıq 2016-cı ildə qiymət 180-200 dollar təşkil etmişdir ki, bu da 2 dəfə qiymət artımı deməkdir.Məhz bu səbəbdəndir ki, MDB ölkələrindən, İrandan, Türkiyədən və digər yaxın ölkələrdən 2016-ci ildə Azərbaycana gəlmiş turistlər avtomobil nəqliyyatından istifadə etsələr də hava nəqliyyatına daha çox üstünlük verirlər.Bundan əlavə, dəmir yolu nəqliyyatı vasitəsilə respublikamıza gəlmiş turist-lərin sayında da müəyyən qədər dəyişikliklər müşahidə olunmuşdur. Belə ki, 2012-ci ildə bu göstərici 16,3 faiz təşkil edirdisə, 2016-cı ildə azalaraq 11,4 faizə çatmışdır.Bu da həmçinin hava nəqliyyatına olan qiymətlərdəki dəyişiklik ilə bilavaitə bağlıdır.Su nəqliyyatı ilə Azərbaycana gəlmiş turistlərin sayında azalmalar qeydə alınmışdır - əgər 2012-ci ildə bu nəqliyyat növündən istifadə edərək ölkəmizə daxil olmuş turistlərin miqdarı 0,8 faizə bərabər olmuşdursa, 2016-cı ildə bu göstərici 0,7 faizə qədər düşmüşdür. Qeyd etdiyimiz bütün bu məlumatlar Cədvəl 1-də yer alıb.

Cədvəl 1.

Ölkəyə gələn və gedən vətəndaşların nəqliyyat növlərindən istifadə üzrə sayı min nəfər

	2012	2013	2014	2015	2016
Azərbaycana gələn xarici ölkə vətəndaşlarının sayı-cəmi və faizlə	2484.1	2508.9	2297.8	2006.2	2 248,8
O cümlədən nəqliyyat növləri üzrə:					
Avtomobil	891.7	928.2	748.9	660.0	701.2
	35.9	37.0	32.6	32.9	31.2
dəmiryolu	404.4	378.8	293.4	230.7	256.8
	16.3	15.1	12.8	11.5	11.4
Hava nəqliyyatı	946.4	993.5	1089.2	968.9	1 164,9
	38.1	39.6	47.4	48.3	51.8
Su nəqliyyatı	21.2	26.6	16.1	32.1	16.8
	0.8	1.1	0.7	1.6	0.7

Mənbə: DSK-nin məlumatlarına əsasən, səh.316, 2017

Azərbaycan vətəndaşları üçün böyük əhəmiyyətə malik olan çıxış turizmini, yəni peşəkar maraqların genişlədirilməsi (işgüzar turizm), istirahət, müalicə və bu kimi digər məqsədlərlə həyata keçirilən xarici səfərləri də qeyd etmək yerinə düşərdi. Hal-hazırda Azərbaycanın çıxış turizmi bazarında mövcud olan vəziyyət bir sıra amillərlə müəyyən edilir:

− turistin maliyyə imkanlarından və onun xarici pasporta sahib olmasından asılı olan turizm səfərlərinə böyük tələblə;

− xarici səfərlərə yollanmaq üçün kifayət qədər ödəmə qabiliyyətinə malik əhali təbəqəsinin tədricən genişlənməsi ilə;

− əmtəə və xidmətlərin qeyri-istehsal sferasının lehinə əhalinin istehslak struk-turun dəyişməsi ilə;

− insanlarda təbii təşəbbüs kimi dəyərləndirilən fərqli mədəniyyətləri öyrənmək istəyindən irəli gələn azərbaycanlıların daxili turizm bazarından xarici turizm bazarına istiqamətlərinin dəyişdirilməsi ilə.

− Qeyd edildiyi kimi, turizm firmalarının sayı ildən-ilə artır, ancaq bu, bizim ölkəyə daxil olan turist axınına kifayət edə biləcək qədər təsir göstərmir. Belə ki, 2012-ci ildə Azərbaycana daxil olmuş 23440 nəfərdən yalnız 5367 nəfəri turizm firmaları vasitəsilə respublikamıza gəlmişlər.Qalan 18073 nəfəri, turizm firmalarının xidmətlərindən istifadə etmədən ölkəmizə daxil olublar. Bundan əlavə, 2012-ci ildə bəzi firmalar turistlərin cəlb edilməsi prosesində ümumiyyətlə iştirak etməmişdilər. Həmin firmalara Bakı şəhərinin Sabunçu, Binəqədi, Əzizbəyov və Xətai rayonunda yerləşən, habelə respublikamızın Naxçıvan, Mingəçevir və Şəki şəhərlərində fəaliyyət göstərən firmalar aiddir. Azərbaycanın 9 iqtisadi rayonunda isə ümumiyyətlə heç bir turizm firması fəaliyyət göstərmir.

2012-ci ildə Azərbaycanın hüdudlarından kənara yollanmış vətəndaşlara gəldikdə isə, onların ümumi sayından, yəni 77991 nəfərdən 52378 nəfəri turizm firmaları

vasitəsilə ölkədən getmişlər. Qalan 25613 nəfər isə turizm firmalarının xidmətlərindən istifadə etmədən səfərə yollanmışdır. Bu məlumatlar Cədvəl 2-də öz əksini tapmışdır.

Cədvəl 2

Mülkiyyət növləri üzrə səyahət agentlikləri və turoperatorlar tərəfindən qrup və fərdi halda əhaliyə satılmış turizm yollayışı blanklarının sayı və dəyəri

	2012	2013	2014	2015	2016
Cəmi					
Əhaliyə satılmış turizm yollayışı blanklarının sayı, ədəd	62866	65448	66233	44615	36978
o cümlədən:					
ölkədən kənar da səyahət etmək üçün Azərbaycan vətəndaşlarına, ədəd	52378	53771	54900	38002	24368
Azərbaycan ərazisində səyahət etmək üçün xarici ölkə vətəndaşlarına, ədəd	5367	4599	4,343	1,918	6,768
Qrup halında	7134	5980	3066	3739	4935
ölkədən kənara səyahət etmək üçün Azərbaycan vətəndaşlarına, ədəd	1642	2955	1968	1738	2043
Azərbaycan ərazisində səyahət etmək üçün xarici ölkə vətəndaşlarına, ədəd	3306	1956	204	154	699
fərdi halda	55732	59468	63,167	40,876	32,043
ölkədən kənarda səyahət etmək üçün Azərbaycan vətəndaşlarına, ədəd	50736	50816	52,932	36,264	22,325
Azərbaycan ərazisində səyahət etmək üçün xarici ölkə vətəndaşlarına, ədəd	2061	2643	4,139	1,764	6,069

Mənbə: Cədvəl, Stat.gov.az əsasında yazar tərəfindən tərtib edilmişdir. Azərbaycanda Turizm İnkişafı, 2017

2012-2016-cı illər ərzində avtomobil nəqliyyatı ilə daşınan turistlərin sayı da nisbətən artmışdır, belə ki, bu artım 1295,8 nəfərdən 1331,7 nəfərə qədər, yəni 1,02 dəfə olmuşdur, ümumi nəqliyyat xidmətlərində avtomobil nəqliyyatının xüsusi çəkisi isə 2016-ci ildə 31,1 % təşkil etmişdir.Dəmir yolu nəqliyyatı ilə göstərilmiş xidmətlərə gəlincə isə, ümumi nəqliyyat xidmətləri içərisində bu növün xüsusi çəkisi son illərdə aşağı düşür və 2016-cı ildə 9,3% olmuşdur.Su nəqliyyatı isə 2016-ci ildə turistlər ümumiyyətlə istifadə etməmişdilər.Lakin fərdi minik avtomobillərdə turizm səyahətlərində artımlar baş vermişdir, bu nəqliyyat növünün xüsusi çəkisi 2015-ci ildə qeydə alınmış 1,3%-dən 2016-ci ildəki 0,7%-ə qədər azalmışdır.

Göründüyü kimi, ölkəmizə daxil olmuş və buradan səfərlərə yollanmış turistlərin böyük əksəriyyəti turizm firmalarının xidmətlərindən yararlanmır, bunun əsas səbəbi ondan ibarətdir ki, Azərbaycanda fəaliyyət göstərən turizm firmalarının böyük əksəriyyəti bəzi hallarda öz xərclərinə əsaslandırılmamış məsrəflər daxil edirlər və bunun nəticəsində turistlərin bilavasitə istirahət etdikləri yerlərdə ödənilən məbləğlə müqayisədə turizm firmalarının təklif etdikləri qiymətlərdə əhəmiyyətli fərqlər müşahidə olunur.

Bağırov Q.M., magistrant
Bakı Biznes Universiteti

AZƏRBAYCAN RESPUBLİKASINDA REGİONAL İQTİSADİ İNKİŞAFIN ƏSAS İSTİQAMƏTLƏRİ

Bazar iqtisadiyyatına keçid dövrünü yaşamış ölkələrə, eləcədə Azərbaycana baxdığımız zaman təcrübədə görmək olur ki, keçid dövrünün davamlı iqtisadiyyatını təmin etmək üçün təkcə səhmləşdirmək və özəlləşdirmək kifayət etmir. Dövlətin çoxsaylı funksiyalarından bizə maraqlı olan regional siyasətidir. Ölkəmizdə azad bazar münasibətlərinə keçid istiqamətində həyata keçirilən mühüm islahatların ləng getməsi, ərazilərin nəzərə alınmaması, regionların iqtisadi xüsusiyyətlərinin diqqətə alınmaması, bütün qanunların, sərəncam və fərmanların ümumilikdə respublika səviyyəsində qəbul edilməsi ilə bağlı idi.

SSRİ-nin tərkibində olduğu zaman regional siyasət mərkəzin xeyirlərinə xidmət edirdi. Regional siyasət, bir mərkəzdən idarə olunaraq inzibati-amirlik formasında həyata keçirilirdi. Regional siyasəti həyata keçirilən zaman cəmiyyətin sosial fəaliyyətini, ekoloji, coğrafi movqeyini, iqtisadi potensialını, cəmiyyətin maraqlarını, iqtisadi-statistik və demoqrafik və başqa göstəriciləri nəzərə almaq və planlaşdırmaq lazımdır. Adətən belə tədbirlər iqtisadi mexanizim yolu ilə reallaşdırılır. Regional inkişaf çoxölçülü və çoxbaxışlı prosesdir. Bütün bu proseslərə sosial-iqtisadi məqəsədlərin məcmusu nöqteyi-nəzərdən baxılır. Nəzərdə tutulan sosial-iqtisadi inkişafın təmin edilməsi:

– iqtisadi potensialın artırılması;
– istehsalın həcminin və gəlirlərin artırılması;
– cəmiyyətin institusional, sosial və inzibati strukturlarında inkişafını həyata keçirmək;
– ictimai şüurda dəyişiklikləri əks etdirir.

Regional iqtisadi inkişafın nəzərdə tutulan əsas məqsədi əhalinin həyat keyfiyyətlərini, sosial göstəricilərinin yaxşılaşdırılmasıdır. Bu səbəbdən sosial-iqtisadi inkişaf:

– əhalinin gəlirlərini artırmaq, sosial səviyyəsini yüksəltmək;
– insanların şəxsi keyfiyyətlərinə yönəlmiş sosial, iqtisadi, siyasi və institusional sisteminin formalaşması nəticəsində özünəhörmətin artımına imkan verən cəmiyyətin formalaşması və inkişafını təmin edən şəraiti yaratmaq;
– insanların azadlıq, eləcədə iqtisadi azadlıq dərəcəsini yüksəltmək proseslərini əhatə edir.

Hər bir regionun inkişafı çoxməqsədli və çoxmeyyarlı proses olub, mürəkkəb mərhələləri özündə əks etdirir. Regional inkişafın məzmunu fərqli ola bilər. Ciddi mənada regionların inkişafı öz xüsusiyyətləri ilə biri digərindən kəskin fərqlənir və bu fərqlər həm də hər bir regionun xüsusiyyətləri, onun istehsal strukturu, coğrafi vəziyyəti və istehsal ixtisaslaşması ilə şərtlənir.

Regionların inkişafı məqsədlərinə muvafiq olaraq müəyyən meyarlar nəzərdə tutulmuşdur və bu meyarları ölçən göstərcilər müəyyən edilir. Hər ölkənin özünə məxsus keyfiyyətləri, göstəriciləri, standartları, coğrafi yerləşməsinə və müxtəlifliyinə

baxmayaraq beynəlxalq təşkilatlar tərəfindən hazırlanan standartlarda vardır. Belə təşkilatlar regionlar arası fərqlərin olmasına baxmayaraq hər bir ölkənin iqtisadi, siyasi göstəricilərini universal göstəricilərlə qiymətləndirirlər. Bu göstəricilərdən biri də BMT-nin İnkişaf Proqramı çərçivəsində işlənib hazırlanan insan inkişafı indeksidir. Bu göstəricilər 00-dan 1-ə qədər vacibliyinə görə sıralanır. Burada iqtisadi inkişafın aşağıdakı göstəricilər nəzərə alınır:

– gözlənilən ömür müddəti;
– zehni potensial, vətəndaşın təhsil səviyyəsi ilə yanaşı ortalama olaraq verilən təhsilin müddəti;
– valyutanın alıcılıq qabiliyyəti və gəlirin faydalılığının son həddinin azalmasını nəzərə almaqla adambaşına düşən gəlirin miqdarı.

Beynəlxalq təhlillərdə nəzərə alınan bu göstəriciləri regionlararası müqayisədə də belə göstəricilərdən istifadə etmək olar. İnteqral göstəricilərlə yanaşı regionun inkişafının müxtəlif xüsusi göstəricilərində nəzərə almaq olar. Bunlara aşağıda qeyd olunanlar daxildir:

– hər nəfərə düşən milli gəlir;
– maddi nemətlərin istehlak səviyyəsi;
– gəlirlərin diferensiallaşması dərəcəsi;
– yaşam müddəti;
– əhalinin sağlamlıq səviyyəsi;
– əhalinin xoşbəxtlik dərəcəsi.

Məqsədlər dedikdə müddətinə görə uzunmüddətli və qısamüddətli olaraq ayırmaq məqsədəuyğundur. Uzunmüddətli məqsədlər arasında sənayeləşmiş cəmiyyətin yaranması və inkişafı, yüksək ixtisaslı yeni iş yerlərinin yaradılması, səhiyyənin, təhsilin və mədəniyyətin səviyyəsidə daxil olmaqla ümumilikdə ölkənin bütün vətəndaşlarının həyat səviyyəsinin yüksəldilməsi nəzərdə tutulur.

Qısamüddətli məqsədlərə isə yaranmış böhranın aradan qaldırılması və nəzərdə tutulmuş müəyyən göstəricilərin ay, kvartal, il meyyar götürülərək artımına nail olmaq və belə dövrü məqsədləri misal gösdərmək olar. Müddətinə görə müxtəlif olan məqsədlər mahiyyətinə görə bir-birindən fərqlənir və onlara nail olmaq üçündə görülən tədbirlər planıda eyni deyildir.

Azərbaycan Republikasının müstəqilliyimizi qazandığımız ilk illər iqtisadi baxımdan tənəzzül dövrü kimi yadda qalıb və buda keçid dövrünü əhatə edərək, azad bazar iqtisadiyyatının ilkin təməlinin atılması üçün görülən işlərin iqtisadiyyatın inkişafına, bununla yanaşı təkcə iqtisadi yox digər sahələrin inkişafına yönəlmiş tədbirlər planı olub. Azərbaycanın iqtisadi tarixində ilk dirçəliş 1994-ci il 20 sentyabrda imzalanmış "Əsrin müqaviləsi" ilə başlamışdır. Ölkəmiz üçün uğurlu gələcəyin əsasını qoyan bu addım xarici investorların və investisiyaların ölkəmizə cəlb edilməsində mühüm addım idi. Uğurlu neft strategiyası dövlət büdcəsi aspektindən, iqtisadi sabitlik baxımından önəmli addım idi. Lakin, regional baxımdan yaranmış disproporsiyaların, eləcədə digər sektorların zəifləməsi ardıncada yarana biləcək xoş olmayan nəticələr gözlənilirdi. 2004-cü ilə qədər müxtəlif proqramların köməkliyi ilə bütün sahələr inkişaf etdirilmiş, sahibkarlıq mühitinin formalaşdırılması təmin edilmiş, bazar mühiti formalaşdırılmışdır.

Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin 11 fevral 2004-cü il fərmanı ilə təsdiqlənmiş 2004-2008-ci illəri özündə əks etdirən Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı regionların inkişafına yönəlmişdir. Proqramda yaradılmış iqtisadi sabitlik, əldə edilmiş uğurlar qiymətləndirilir, nəzərdən keçirilir və belə qənaət ortaya çıxır ki, iqtisadiyyatımız yüksələn istiqamətdə inkişaf edir, maliyyə mənbələri genişləndirilmişdir. Bundan irəli gəlinərək qaşıya strateji baxımdan tutarlı hədəflər, məqsədlər qoymaq, yaranmış iqtisadi-sosial problemləri daha əlverişli formada aradan qaldırmaq lazımdır. Eləcədə ölkədə hələdə diqqət yetirilməmiş məsələlər mövcuddur ki, bunlarıda regional səviyyədə əsas diqqəti belə məsələlərin istiqamətində yönəltmək vacibdir. Belə məsələlərdən ən baçlıcası sənaye potensialının, bununla yanaşı əsasən infarstrukturun Bakıda yerləşməsi, paytaxtdan kənar region və ərazilərin sosial-iqtisadi və digər problemlərin gözardı edilməsinə gətirib çıxarır, bu regionlarda sosial, iqtisadi obyektlərin olmaması, regionlara lazımi qayğının göstərilməməsidir. Qeyd etdiyimiz problemlərin davamı olaraq, urbanizasiya prosesinin, əhalinin sosial vəziyyəti, iş məqsədilə bölgələrdən Bakıya axını sürətləndirilmiş, regionlar zəif inkişaf etmiş, ölkə olaraq sosial-iqtisadi inkişaf və məhsul ixracı imkanları məhdudlaşmış, əhalinin ərzaqla və xidmət sahələri ilə təminatında çətinliklər yaranmış, paytaxtın ekoloji vəziyyəti ağırlaşmışdır.

"2004-2008-ci illəri əhatə edən Azərbaycan Republikası regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı" bölgələrimizin, paytaxtdan kənar olan ərazilərin inkişafını nəzərdə tutan, bununla yanaşı regional idarəetmədə keyfiyyət baxımından yeni dövrün başlanğıcı deməkdir.

Bunun davamı olaraq regionların davamlı inkişafının təminatı üçün qeyd olunan birinci Dövlət proqramının reallaşdırılmasından sonra uğurla həyata keçirilən planlaşdırmanın davamı olaraq 2009-2013-cü illəri əhatə edən "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı" 14 aprel 2009-cu il də, təsdiqlənərək bundan öncəki kimi uğurla ikinci regional dövlət proqramı da yerinə yetirildi.

Reallaşdırılmış dövlət proqramlarının nəticəsi olaraq regionlarda məşğulluq problemi həll edilmiş nəzərdə tutulan məqsədlər uğurla əldə edilmişdir. Qeyd etdiyimiz son 10 il üzrə işsizliyin qarşısını almaq üçün yeni yaradılmış 1 milyon 100 mindən artıq iş yerlərinin harasa 750 mindən artığı regionların payına düşür ki, bununla da əmək bazarında yaranmış qeyri-proporsional vəziyyətin böyük fərqlə dəyişikliklərin əldə olunmasına gətirib çıxarmışdır.

Prezident İlham Əliyev 5 fevral 2014-cü ildə Azərbaycan Respublikası regionlarının sosial-iqtdisadi inkişafı üzrə Dövlət proqramlarının icrasına həsr olunmuş konfransda növbəti dövlət proqramının hazırlandığını qeyd etmişdir. Elə həmin il fevralın 27-də "Azərbaycan Regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlər Proqramı"nın təsdiqi üçün fərman imzalamışdır. Bu prqram çərçivəsində qeyri-neft sektoruna investisiya qoyuluşlarının artırılmasına, sənaye parklarına yerli və xarici investisiyaların cəlb edilməsinə, regionlara investisiya qoyuluşlarına yol açması məqsədi ilə stimullaşdırıcı tədbirlərin sürətləndirilməsi nəzərdə tutulmuşdur.

Regionların iqtisadi inkişafının təmin edilməsindən irəli gələrək, respublika əhəmiyyətli məsələlərin, problemlərin həll edilməsinə yol açır. Təmin edilən inkişaf

həm ölkənin nüfuzunun artmasını, həm beynəlxalq təşkilatlar tərəfindən təsdiq edilmiş müəyyən göstəricilərə görə qiymətləndirilmə zamani müsbət hal alması eləcə də ayrı-ayrılıqda sosial, mədəni sahələrin inkişafına yol açır. Əhalinin həyat səviyyəsinin yüksəldilməsi, onların xoşbəxtlik dərəcəsi yüksəldilir.

İqtisadi inkişafın nəticəsində yaradılmış infrastrruktur, həyata keçirilən tədbirlər planı, regionlararası fərqlərin azaldıması, regionların xüsusiyyətlərinə görə qiymətləndirilməsi, ənənəvi təsərrüfat sahələrinin bərpası milli iqtisadiyyatın inkişafını təmin edir.

Regionların inkişaf etdirilməsi, dövlətin həyata keçirdiyi regionların problemlərinin həllinə yonəlmiş regional inkişaf proqramları, artan iqtisadi göstəricilər, milli iqtisadiyyatın yüksəldilməsi, ÜDM-nin artımı, regionlara görə məhsul istehsalında inkişafı təmin edilmişdir. Həyata keçirilən dovlət proqramlarının nəticələrini statistik göstrəricilərə baxdığımız zaman daha aydın görə bilirik.

Mahmudova H.F., magistrant
Bakı Biznes Universiteti

BİZ QARA QIZILI İNSAN KAPİTALINA ÇEVİRƏ BİLDİK

Bütün cəmiyyətlərin inkişafında insan kapitalı aparıcı qüvvə olmuşdur. Ona görə də keçən əsrin oratalrından başlayaraq insan kapitalının inkişafı və bu sahədə olan problemlər daha qabarıq şəkildə öyrənilməyə başlanılmışdır. Artıq reallıqdır ki, dünya ölkələri insan sərvətinin önəmini öyrənməyə başlamışlar. Müasir şəraitdə maddi sərvətlərin məhdudluğu və qıtlığının mövcudluğunu nəzərə alsaq, bu problem iqtisad elminin qarşısına daha böyük öhdəliklər qoyur. Bu öhdəliklər iqtisadçıların daha optimal yollarla iqtisadi fəaliyyətin təmin olunması yollarının tapılmasına, reallaşdırılan fəaliyyətdə yeni idarəetmə metodlarının tətbiqinə stimul yaratdı. Bu situasiya insan kapitalının dünya səviyyəsində inkişafının önəmini artırdı. Dünya dövlətləri BMT-nin "Minilliyin İnkişaf Konsepsiyası"na dair hazırlanan sənədin icrası ilə bağlı bir cox öhdəlikləri öz üzərlərinə götürmüşlər. Minilliyin Bəyannaməsində formalaşdırılan və yoxsulluğun azaldılması, HİV/QİÇS-in yayılmasının qarşısının alınması, ümumi ibtidai təhsilin təqdim edilməsi (bütün bunlar 2015-ci ilə nəzərdə tutulub) kimi inkişaf sahəsində 8 hədəf bütün ölkələrin və dünyada inkişaf üzrə qabaqcıl təşkilatların qəbul etdiyi proqramdır. Bu hədəflər dünyada əhalinin yoxsul təbəqələrinin ehtiyaclarını təmin etmək üzrə misilsiz səyləri səfərbər etməyə imkan verib.

Qloballaşan dünyada təsadüfi deyil ki, bu problem Azərbaycanda da müstəqillik qazanıldıqdan sonra ön plana çəkilmişdir. Müstəqilliyin ilk dövrləri bildiyimiz kimi Azərbaycan üçün olduqca ağır olmuşdur. Ədalətsiz müharibə nəticəsində xeyli sayda vətəndaşımız acı müharibənin qurbanı olmuş, bir milyondan çox soydaşımız öz yurd-yuvalarından didərgin düşmüşdülər. Bütün bu maneələrə və çətinliklərə baxmayaraq düzgün, məqsədyönlü, uzaqgörən və kompleks siyasi-iqtisadi tədbirlər nəticəsində ölkəmiz öz inkişaf yolunu müəyyənləşdirməyi bacardı. Azərbaycan BMT-nin üzv ölkələrinin və dünyada inkişaf üzrə bütün qabaqcıl təşkilatların qəbul etdiyi Minilliyin İnkişaf Hədəflərinə nail olunmasında ciddi tərəqqi əldə edib. Azərbaycan artıq

Minilliyin Hədəflərindən çoxuna nail olub, onlar arasında sosial xidmətlərin təkmilləşdirilməsi və yoxsulluğun azaldılması var: "Son illər Azərbaycan iqtisadiyyatı yüksək inkişaf templəri nümayiş etdirir. Burada neft-qaz sənayesi və onun gəlirlərinin səmərəli istifadəsi böyük rol oynayıb. Lakin ölkədə yoxsulluğun azaldılması, iqtisadiyyatın şaxələndirilməsi və s. proseslərin davam etdirilməsi üçün böyük işlər yerinə yetirmək lazımdır. Bu məqsədlə Azərbaycanda "Azərbaycan-2020: gələcəyə baxış" uzunmüddətli inkişaf konsepsiyası hazırlanıb. Konsepsiya qeyri-neft sektorunda ixracatın artırılmasına, yoxsulluğun azaldılmasına və digər məqsədlərə istiqamətlənib. Əgər bu məqsədlərə nail olunsa, Azərbaycan yüksək orta gəlirli ölkələr siyahısına daxil olacaq, perspektivdə isə yüksək gəlirli ölkələr qrupunda yer alacaq. Bundan başqa, Azərbaycan insan kapitalının inkişafı üzrə yüksək göstəriciləri olan ölkələr qrupuna daxil olmaq yolunda uğurla irəliləyir və bunu BMT-nin hesabatları əks etdirir. Say göstəriciləri vacibdir, lakin keyfiyyət dəyişiklikləri lazımdır, xüsusilə bu təhsil, səhiyyə, sosial xidmətlər sahəsində olmalıdır.

Problemin öyrənilmə vəziyyəti. İnsan kapitalı XX əsrin ortasından başlayaraq müxtəlif alimlərin və önəmli dünya təşkilatlarının diqqət mərkəzində olmuşdur. İnsan kapitalı (İK) anlayışı Rusiya ədəbiyyatında müsbət iqtisadi kateqoriya və bazar iqtisadiyyatına keçirdilən intensiv inkişaf amili kimi yaranmışdır. Bundan əvvəl genetika və az miqdarda informatikada olduğu kimi, insan kapitalı nəzəriyyəsini zərərli burjua nəzəriyyə kimi qələmə verən kritik məqalə və monoqrafiyalar dərc olunurdu. Uzun illər SSRİ-nin tərkibində olan Azərbaycanda, ali məktəblərin və institutların iqtisadiyyat kafedralarına humanitar elmlər və iqtisadiyyat sahəsində sovet mentalitetinə və təhsilinə malik olan professorların rəhbərlik etməsi nəticəsində İK nəzəriyyəsinin dünya təcrübəsindən yararlanaraq tətbiqi və qəbul edilməsi uzun müddət gecikmişdir. İnkişaf etmiş ölkələrdə İK nəzəriyyəsi ölkə və regional, həmçinin təşkilat səviyyəsində inkişaf konsepsiyaların, strategiyaların və proqramların işlənib hazırlanması üçün əsasdır.

Müharibənin ağır nəticələri ilə qarşılaşmış Azərbaycanda insan kapitalının inkişafında problemlərin olması təbii haldır. 1993-cü ildə ulu öndər Heydər Əliyevin hakimiyyyətə gəlməsindən sonra Azərbaycanın neft stategiyası hazırlandı. Siyasi-iqtisadi sabitlik əldə edildikdən sonra neft kapitalının insan kapitalına çevrilməsi prosesi gücləndi. Müstəqilliyimizin ikinci on illiyində iqtisadi inkişaf göstəricilərimizin artması ilə ölkə əhalisinin gəlirləri artmağa başlamış, yeni iş yerləri açılmış, yoxsulluğun səviyyəsi minimuma endirilmişdir. İnsan kapitalının inkişafı və onun iqtisadiyyatda rolunun artırılması dövlətin daim diqqət mərkəzindədir. Bunun əyani nəticəsi olaraq, Azərbaycanın büdcəsinin sosial yönümlü büdcə olmasını göstərmək olar. Gələcəyin inkişaf etmiş Aərbaycanını qrmaq üçün hal-hazırda respublikamızda prezident İlham Əliyevin təşəbbüsü ilə insan kapitalının inkişafı və onun iqtisadi inkişafda rolunun artırılması üçün kompleks tədbirlər planı hazırlanmışdır. Buraya 2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı, “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nı, “Azərbaycan Respublikasının 2014-2017-ci illər iqtisadi və sosial inkişaf konsepsiyası”nı, “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasını göstərmək olar.

Məmmədov A.Ə., magistrant
Bakı Biznes Universiteti

ƏMƏK BAZARI VƏ MƏŞĞULLUĞA NƏZƏRİ YANAŞMALAR

